

Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2008

I hissə

Bakı
2009

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M. Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:

XİN-in idarə rəisi Bayram K. Həsənov

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2008. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2009-cu il. - 656 səh.



ISBN 978-9952-8129-1-6

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin üçüncü buraxılışı 2008-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Məcmuənin birinci hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin üçüncü buraxılışı 2008-ci ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir. Sənədlər məcmuəsi iki hissədən ibarətdir. Məcmuənin **birinci hissəsi** xarici siyasət və beynəlxalq münasibətlərə dair Azərbaycan Respublikasının rəsmi məlumatlarını özündə əks etdirir. Buraya Azərbaycan Respublikası Prezidentinin və həmçinin ali dövlət hakimiyyət və idarəetmə orqanları rəhbərlərinin xarici dövlətlərə səfərləri, görüş və qəbulları, nitq, çıxış və müraciətləri, bəyanatları, mətbuat konfransları, müsahibələri, xarici ölkə yaxud beynəlxalq təşkilatların nümayəndə heyətlərinin ölkəmizə səfərləri barədə məlumatlar, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ilə bağlı məlumatlar, XİN-lər arasında keçirilən məsləhətləşmələr barədə məlumatlar, Xarici İşlər Nazirliyinin bəyanatları və sair sənədlər daxildir.

Azərbaycanın sabit inkişafı və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş xarici siyasət xətti 2008-ci ildə də davam etdirilmişdir. İqtisadi potensialın artımı və sosial-siyasi sabitlik ölkənin dünyada və regionda mövqelərinin möhkəmlənməsinə, ikitərəfli və çoxtərəfli münasibətlərinin daha da inkişafına müsbət təsir göstərmişdir.

2008-ci il iyulun 7-də Azərbaycan Respublikasının xaricdəki diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsindəki çıxışında Prezident İlham Əliyev diplomatik xidmət sahəsində aparılan işlərə qiymət vermiş, xarici siyasət idarəsinin ölkənin gələcək inkişafı üçün münbit xarici siyasət mühitinin formalaşdırılması maraqlarından irəli gələn məqsəd və vəzifələrini müəyyən etmişdir.

2008-ci ildə Azərbaycan diplomatiyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi istiqamətində ardıcıl fəaliyyətini davam etdirmişdir. Martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycanın işğal altında qalan torpaqlarında vəziyyətlə bağlı çox önəmli qətnamə qəbul edilmişdir. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü - Minsk qrupunun həmsədrləri bu qətnamənin əleyhinə çıxmışdır, qətnamə böyük səs çoxluğu ilə qəbul edildi. Bu isə Azərbaycanın gücünün və artan nüfuzunun göstəricisidir. NATO-nun aprelda Buxarest Zirvə toplantısı və Şimali Atlantika Şurası xarici işlər nazirlərinin dekabrda Brüssel toplantısı da açıq olaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə etmiş, münaqişənin sözügedən prinsiplər əsasında həllinin zəruriliyini qeyd etmişdir.

Rusiya Federasiyasının təşəbbüsü ilə 2008-ci il noyabr ayının 2-də Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının üçtərəfli görüşündə prezidentlər tərəfindən imzalanmış "Moskva Bəyannaməsi"ndə Cənubi Qafqazda vəziyyətin sağlamlaşdırılması, regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin bu çərçivədə qəbul edilmiş qərar və sənədlər əsasında siyasi yolla həllinə şərait yaratmaq səyləri öz əksini tapmışdır. Dekabrın 4-5-də isə Helsinkidə ATƏT-in üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclası çərçivəsində bu görüşün konstruktiv nəticələrini qeyd edən və bəyannamənin şərtlərinə uyğun olaraq, münaqişə tərəflərini danışıqları intensivləşdirməyə çağıran daha bir bəyannamə qəbul edilmişdir.

Azərbaycan 2008-ci ildə öz enerji siyasətini uğurla davam etdirmiş, öz enerji təhlükəsizliyi məsələlərinə nail olmuş və bu gün başqa ölkələrin enerji təhlükəsizliyi üçün fəaliyyət göstərir. Bu isə ölkəmizə həm siyasi, həm iqtisadi dividendlər gətirir, yeni imkanlar açır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir. Azərbaycan qarşıda duran neft-qaz məsələlərini uğurla həll etmiş, ixracın şaxələndirilməsinə nail olmuşdur. Bu gün Azərbaycan nefti və qazı ölkəmiz üçün iqtisadi imkanlar yaradır, siyasi imkanlarımızı genişləndirir. Sentyabrın 8-9-da Bakıda təşkil olunmuş "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: enerji, iqtisadi və ekoloji əməkdaşlıq strategiyası" mövzusunda konfransda və noyabrın 29-da Türkmənistanda Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin üçtərəfli görüşündə enerji sahəsində əməkdaşlığın inkişafı məsələləri müzakirə edilmişdir. Noyabrın 14-də Bakıda keçirilən Enerji sammitində qəbul edilmiş qərarlar nəinki Azərbaycanın gələcək enerji siyasətini möhkəmləndirir, eyni zamanda bölgədə, Avropada, geniş mənada dünyada yeni vəziyyətə gətirib çıxarılmasına xidmət göstərəcəkdir. Gürcüstan və Türkiyədə enerji sahəsinə sərmayə layihələri, xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən mayın 16-da Gürcüstanın Kulevi yaşayış məntəqəsində Qara dəniz neft terminalının açılışı və Ceyhanda neft emalı zavodunun tikintisi layihəsinin dərindən işlənilməsi regional enerji bazarında Azərbaycanın mövqeyini möhkəmləndirdi.

2008-ci ildə böyük tarixi əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlanılmışdır. İyulun 24-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi layihəsinin həyata keçirilməsi çərçivəsində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə dəmir yolu xəttinin Türkiyə hissəsinin təməlqoyma mərasimi keçirilmişdir. Uzun illərdən, uzun müzakirələrdən sonra ölkəmiz bu dəmir yolunun tikintisinə nail oldu və bu gün Azərbaycan şirkətləri bu işlərdə fəal iştirak edirlər. Dəmir yolunun tikintisi və Avropa ilə Asiyanın birləşməsi nəticəsində Azərbaycanın həm iqtisadi, həm də geosiyasi mövqeləri daha da möhkəmlənəcəkdir.

İl ərzində Avropa və Avratlantik strukturlara inteqrasiya yolu ilə gedərək, Azərbaycan Avropa İttifaqı və Şimali Atlantika Alyansı ilə əməkdaşlığı inkişaf və davam etdirmişdir.

Azərbaycan İslam aləminin tərkib hissəsi olaraq, İslam Konfransı Təşkilatı (İKT) ilə sıx əməkdaşlığı inkişaf etdirməkdə davam etmiş, bu təşkilatın regional və qlobal məsələlərin həllində siyasi çəkisinin və nüfuzunun artırılmasına yardım etmişdir. Müxtəlif mədəniyyət və sivilizasiyaların qovşağında nadir coğrafi mövqeyi, dözümlülük və icmalararası sülh ənənələri, mədəni və etnik rəngarənglik Azərbaycanın sivilizasiyalar arasında körpü rolu oynamasının etiraf edilməsinə imkan yaratmışdır. İKT-yə üzv dövlətlərin Mədəniyyət nazirlərinin Tripolidə keçirilmiş beşinci konfransının nəticələrinə görə, Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

Keçən il sivilizasiyalararası dialoq sahəsində Azərbaycanın müəllifi olduğu təşəbbüslər sırasında iyunun 10-11-də Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilmiş forumu qeyd etmək lazımdır. Bu sahədə digər mühüm tədbir Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin dekabrın 2-3-də "Mədəniyyətlərarası dialoq Avropa və ona qonşu regionlarda sabit inkişaf və sülhün əsasıdır" mövzusunda Bakıda keçirilmiş konfrans olmuşdur. Konfransın gedi-

şində Bakı Bəyannaməsi qəbul edilmiş, iştirakçı dövlətlər, eləcə də tərəfdaş dövlətlərin mədəniyyətlərarası dialoq sahəsində mədəni əməkdaşlığını və fəaliyyətlərinin əlaqələndirilməsinin inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuşdur.

2008-ci il ərzində ölkədə demokratikləşmə prosesləri, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, dövlət idarəçiliyi sahəsində səmərəliliyin artırılması və digər məsələlər Azərbaycanın Avropa Şurası, onun Parlament Assambleyası, ATƏT/DTİHB, eləcə də aparıcı qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı da diqqət mərkəzində olmuşdur. Oktyabrın 15-də keçirilmiş prezident seçkiləri bir çox yerli və beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və hökumətin demokratiya, qanunun aliliyi və insan hüquqlarına hörmət, hüquqi demokratik dövlətin əsaslarının möhkəmləndirilməsi kursunun dəyişməzliyinə sədaqətini əyani şəkildə nümayiş etdirmişdir.

2008-ci ildə ikitərəfli diplomatiyanın inkişaf etdirilməsi davam etmişdir. Prezident İlham Əliyevin Finlandiya, Rusiya, Macarıstan, Polşa, İtaliya, İsveçrə, Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna və Türkmənistana səfərləri Azərbaycanın ikitərəfli tərəfdaşlıq əlaqələrinin genişlənməsinə və beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə imkan yaratmışdır.

İl ərzində Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliyi genişlənmiş, Suriyada səfirlik, eləcə də Əfqanıstanda ofis açılmışdır. Həmçinin ötən il Tacikistan, Türkmənistan, Macarıstan və Avropa Komissiyası Azərbaycanda öz nümayəndəliklərini təsis etmişlər.

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. 2007-ci il tarixdə qalır. Bu il Azərbaycanın hərtərəfli inkişafı üçün çox uğurlu il olmuşdur. 2007-ci ildə Azərbaycan öz beynəlxalq mövqelərini möhkəmləndirmiş, böyük iqtisadi inkişafa nail ola bilmişdir. Bizim ölkəmiz çox sürətlə inkişaf edir. Ölkəmizin bütün sahələri çox uğurla və sürətlə inkişaf edir. İqtisadi inkişafda Azərbaycan üçüncü ildir ki, dünyada öz mövqelərini, liderlik mövqelərini saxlaya bilmişdir.

Bildiyiniz kimi, 2005-ci ildə Azərbaycan iqtisadiyyatı 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Bu yüksək dinamika 2007-ci ildə də saxlanılmışdır. Bu il Azərbaycan iqtisadiyyatı 25 faiz artmışdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir və şübhəsiz ki, Azərbaycanın bütün inkişafına çox böyük dərəcədə müsbət təsir göstərən amildir. Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə bütün sahələrdə irəliləyiş, canlanma müşahidə olunur. Bizim büdcə xərclərimiz artır. 2003-cü illə müqayisədə büdcə xərclərimiz 10 dəfə artmışdır. Azərbaycanın icmal büdcəsi gələn il 12 milyard dollar təşkil edəcəkdir. Bu, çox böyük rəqəmdir və bizə imkan verəcək ki, ölkənin qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirə bilək.

Bildiyiniz kimi, Azərbaycanda dörd ilə yaxındır regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı icra olunur. Bu proqramın Azərbaycanın bölgələrinin inkişafının təmin edilməsi üçün çox böyük rolu olmuşdur. Böyük qürur hissi ilə deyə bilərəm ki, bu dörd il ərzində Azərbaycanda 600 mindən çox yeni iş yeri açılmışdır ki, onların da 460 mini daimi iş yeridir. Beləliklə, 2003-cü ildə verilən vədlər nəinki 2008-ci ilin sonunda, 2008-ci ilin əvvəlində yerinə yetirilmişdir. Yeni iş yerlərinin açılması həm məşğulluq deməkdir, həm də yeni müəssisələr, fabriklər deməkdir.

Biz Azərbaycan iqtisadiyyatını şaxələndiririk. Biz neft-qaz amilindən asılılığımızı azaldırıq, ölkə iqtisadiyyatı çoxşaxəli olmalıdır və biz buna nail olacağıq. Bütün nailiyyətlərlə yanaşı, eyni zamanda, sosial məsələlər də daim diqqət mərkəzində olmuşdur. Bu sahəyə böyük investisiyalar qoyulur və bizim büdcəmizin sosial yönümlülüyü qorunub saxlanılır. İnvestisiyalarla bərabər, sosial məsələlərə də böyük diqqət göstərilməlidir. Çünki biz xalq üçün çalışırıq, xalq üçün yaşayırıq və işləyirik. Bizim başlıca amalımız Azərbaycan xalqının firavan yaşamasıdır.

2007-ci ildə minimum əmək haqqı və pensiyalar artırılmışdır. Büdcədən maliyyələşən təşkilatlarda işləyənlərin əmək haqları artırılmışdır. Bildiyiniz kimi, 2008-ci il yanvarın 1-dən minimum əmək haqqı və minimum pensiya 20 faiz artacaq və 60 manata çatacaqdır. Bu, böyük irəliləyişdir. Ancaq, əlbəttə, bu rəqəm hələ ki, bizi tam şəkildə qane edə bilməz. Biz istəyirik ki, Azərbaycan vətəndaşları - istər dövlət təşkilatlarında işləyənlər, istərsə də pensiyaçılar normal əmək haqları və pensiyalar alsınlar. Bu əmək haqları və pensiyalar onların bütün tələbatlarını ödəyə bilsin. Biz buna gedirik və o gün uzaqda deyildir. Hələ ki, minimum əmək haqqının və pensiyanın artım dinamikası çox ümidve-

ricidir və bizə imkan verəcək ki, Azərbaycan vətəndaşlarının bütün tələbatlarını lazımi səviyyədə ödəyək.

Sosial məsələlərə gəldikdə, bunlar sadəcə, əmək haqları və pensiyaların verilməsi ilə məhdudlaşmır. Eyni zamanda, sosial infrastruktura qoyulan investisiyalar da bu məsələlərin həllinə böyük kömək göstərir. Sizə deyə bilərəm ki, son dörd il ərzində Azərbaycanda 1200-dən çox yeni məktəb tikilibdir, yüzlərlə məktəb təmir olunubdur və bu proses 2008-ci ildə davam etdiriləcəkdir. Onlarca yeni xəstəxana, poliklinika tikilməsi, ən ucqar yerlərdə yüksək səviyyəli tibbi xidmətin təmin edilməsi nəzərdə tutulur. Bütün bunlar Azərbaycanda sosial sahənin inkişafı üçün çox vacib olan amillərdir və şübhəsiz ki, 2008-ci ildə bu sahəyə daha da böyük diqqət göstəriləcəkdir. Bizim iqtisadi imkanlarımız, iqtisadi qüdrətimiz artır. Azərbaycanın bölgədəki mövqeləri möhkəmlənir və əlbəttə, növbəti illərdə sosial məsələlərin həllinə daha da böyük səylər göstərəcəyik.

2007-ci ildə Azərbaycanın gələcək inkişafı üçün çox böyük və tarixi hadisələr baş vermişdir. Daha doğrusu, bu hadisələri biz yaradırıq. Öz siyasətimizlə, öz iradəmizlə Azərbaycan üçün, xalqımız üçün lazım olan bütün şəraiti yaradırıq. 2007-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri, demək olar ki, tam gücü ilə işləməyə başlamışdır. Vaxtilə bu layihəyə şübhə ilə yanaşan, yaxud da ona əngəllər törətmək istəyənlər artıq görürlər ki, buna nail ola bilmədilər. Biz qarşıda duran bütün vəzifələri uğurla icra etmişik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi və uğurla fəaliyyət göstərməsi, əlbəttə ki, Azərbaycanın iqtisadi potensialını artırır.

Bu il biz Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarına nail olmuşuq. Bu gün Azərbaycan qazı həm ölkə əhalisinin tələbatını ödəyir, - gələcək illərdə daha da böyük həcmdə ödəyəcəkdir, - həm də qonşu ölkələrə ixrac edilir. Bu gün biz öz qaz imkanlarımızdan istifadə edib bölgədə siyasi və iqtisadi gücümüzü möhkəmləndiririk. Artıq üç ölkəyə Azərbaycan qazı ixrac edilir və gələcəkdə bu ölkələrin coğrafiyası genişlənəcəkdir. Bu, bizə həm iqtisadi dividendlər gətirəcək, həm də siyasi mövqelərimizi əhəmiyyətli dərəcədə möhkəmləndirəcəkdir. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyi üçün çox önəmli ölkəyə çevrilir və biz bundan olduqca məmnunuq. Əlbəttə ki, Azərbaycan xalqının milli maraqlarının qorunması üçün bu amildən uğurla istifadə edəcəyik.

2007-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun təməli qoyulmuşdur. Bu layihə uzun illər idi ki, müzakirə mövzusu idi. Ancaq biz bunu həyata keçirdik, biz bunu reallığa çevirdik. Baxmayaraq ki, bu layihəyə beynəlxalq maliyyə qurumları tərəfindən o qədər də böyük dəstək yox idi, əksinə, bəzi xarici qüvvələr bu layihəni əngəlləmək üçün böyük səylər göstərmişlər. Amma bizim iradəmiz, qonşu, dost ölkələrin birgə fəaliyyəti imkan verdi ki, biz buna da nail olduq. Bunun Azərbaycan üçün və xalqımız üçün çox böyük tarixi əhəmiyyəti olacaqdır. Biz bu dəmir yolunun tikintisi ilə özümüzü Türkiyə ilə birləşdiririk, Avropanı Asiya ilə birləşdiririk və beləliklə, Azərbaycan tranzit ölkə kimi nəinki enerji, eyni zamanda, nəqliyyat baxımından əvəzolunmaz ölkəyə çevrilir. Bunun nə demək olduğunu izah etməyə ehtiyac yoxdur. Bu, o deməkdir ki, Azərbaycan daha da güclü mövqelərə malik olacaq, Azərbaycanın maraqları daha da böyük dərəcədə qorunacaq, Azərbaycanla daha da çox hesablaşacaqlar və bizim sözümüz daha çox əhəmiyyət kəsb edəcəkdir.

Energetika sahəsində bu illərdə daha da böyük işlər görülür. Yeni elektrik stansiyaları tikilir, elektrik xətləri çəkilir. Son iki il ərzində 450 meqavat gücündə elektrik stansiyaları tikilmişdir və 2008-ci ildə 800 meqavat gücündə elektrik stansiyalarının işə düşməsi nəzərdə tutulur. Bu, ölkənin elektrik enerjisinə olan tələbatını tam şəkildə ödəyəcək və Azərbaycanın gələcək iqtisadi inkişafı üçün də çox güclü şərait yaradacaqdır.

Bildiyiniz kimi, nəqliyyat sektoruna çox böyük investisiyalar qoyulur. Həm Bakıda, həm də Azərbaycanın bölgələrində bu sahəyə çox böyük diqqət var. Bakının nəqliyyat problemlərinin aradan qaldırılması üçün qısa müddət ərzində və çox böyük keyfiyyətlə nə qədər böyük işlər görülübdür. Bakını müasir şəhərə çevirmək üçün təkcə tarixi binaların təmiri yetərli deyil, eyni zamanda, müasir infrastruktur yaradılmalıdır. İnsanların rahatlığı üçün nəqliyyatın hərəkəti tənzimlənməlidir və bildiyiniz kimi, bu sahəyə böyük investisiya qoyulur və qoyulacaqdır.

Əziz dostlar, bir sözlə, 2007-ci ildə görülən bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Sadəcə olaraq, mən əsas məqamları sizin diqqətinizə çatdırmaq istəyirəm. Çünki ölkə daxilində proseslər çox uğurla gedir, ölkədə ictimai-siyasi sabitlik tam bərqərar olunmuşdur. Xalqla iqtidar arasında birlik tam şəkildə təmin olunmuşdur və bizim bütün işlərimizin məqsədi, bütün amalımız xalqa xidmət etməkdir. Mən bu vəzifəni icra edirəm və bundan sonra da öz səylərimi əsirgəməyəcəyəm.

Azərbaycanın beynəlxalq, xarici müstəvidə olan mövqeləri də möhkəmlənmişdir. 2007-ci ildə xarici ölkələrin dövlət və hökumət başçılarının Azərbaycana səfərləri və mənim xarici ölkələrə səfərlərim, eyni zamanda, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığımız Azərbaycanın inkişafı üçün çox gözəl şərait yaratmışdır. Biz daha da çox müttəfiqlər qazandıq, daha da çox dost ölkələr qazandıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ictimaiyyəti tərəfindən dəstəklənir və ikitərəfli müstəvidə keçirdiyim bütün görüşlərdə və imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyü prinsipi öz əksini tapmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, 2007-ci ildə öz həllini tapmadı. Amma günah bizdə deyil, günah Ermənistanın qeyri-konstruktiv mövqeyindədir. Biz danışıqlara hazırıq və bu danışıqları aparırıq. Baxmayaraq ki, danışıqların hələ heç bir nəticəsi yoxdur. Sadəcə olaraq, biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək, beynəlxalq hüquq əsasında həll edək. Əfsuslar olsun, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi, işğalçı siyasəti imkan vermədi ki, biz 2007-ci ildə bu məsələni həll edək.

Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır. Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm ki, danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları - məcburi köçkünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da kənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpağında ikinci erməni

dövləti yaradılsın. Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını həll etmək istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün ikinci dövlət yaratsınlar. Hər halda, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılması qeyri-mümkündür. Bizim prinsipial mövqeyimiz günü-gündən daha da çox beynəlxalq dəstək qazanır. Eyni zamanda, bir daha demək istəyirəm ki, biz danışıqlar prosesini bu istiqamətdə davam etdirəcəyik.

Bununla yanaşı, ordu potensialımızı da gücləndiririk. Biz danışıqlara sadiqik, danışıqlar prosesi gedir və hələ bir müddət gedəcəkdir. Hələ ki, bizim ümidlərimiz tam tükənməyibdir. Ancaq biz hər şeyə hazır olmalıyıq. Siz mənim bu barədəki mövqeyimi yaxşı bilirsiniz. Mən hər şeyi xalqa olduğu kimi deyirəm.

Artıq bir neçə ildir ki, Azərbaycanın ordu potensialı böyük dərəcədə artırılır. Artıq bir neçə ildir ki, hərbi xərclərə yüz milyonlarla dollar yönəldilir. Bu il bizim hərbi xərclərimiz təxminən bir milyard dollar səviyyəsində idi. Gələn il bu, ən azı, 1 milyard 200 milyon dollar səviyyəsində olacaqdır. Hər halda, Azərbaycanın dövlət büdcəsində bu məbləğ nəzərdə tutulmuşdur. Biz yeni silahlar alırıq, yeni avadanlıq alırıq, ordumuzun peşəkarlığını yüksəldirik. Müdafiə sənayesi yaratmışıq və artıq müdafiə sənayesi ordumuz üçün lazım olan silah-sursatı istehsal edir. Deyə bilərəm ki, bu sənaye məxfi xarakter daşıyır, ona görə ictimaiyyət bu barədə böyük bilgilərə malik deyildir. Ancaq bilin ki, bu sahədə lazımi səviyyədə işlər görülür və Azərbaycanın ordu potensialı möhkəmləndirilir. Biz ordumuzu ona görə gücləndiririk ki, öz doğma torpaqlarımızı işğalçılardan istənilən yolla azad etməyə hər an hazır olmalıyıq.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bildiyiniz kimi, bu gün Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Bu bayram bizim üçün çox əzizdir. Mən əminəm ki, dünyada yaşayan bütün azərbaycanlılar 2008-ci ildə daha da sıx birləşəcəklər. Azərbaycan dövləti buna nail olmaq üçün əlindən gələni edir. Azərbaycanda keçirilən dünya azərbaycanlılarının qurultayları, müxtəlif tədbirlər azərbaycanlıların birləşməsinə xidmət göstərir. Azərbaycanlılar müxtəlif ölkələrdə yaşayırlar, ancaq bizim hamımızın, bütün azərbaycanlıların bir dövləti var - müstəqil Azərbaycan Respublikası. Bir vətəni var - Azərbaycan. Biz öz doğma xalqımıza daha da böyük xidmət göstərməliyik, öz doğma dövlətimizi gücləndirməliyik. Mən əminəm ki, 2008-ci ildə bu istiqamətdə işlər uğurla gedəcəkdir və biz güclü Azərbaycan dövlətini yaradacağıq.

Əziz dostlar!

Əziz həmvətənlər, bacılar və qardaşlar!

Sizi qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

XİN DİPLOMATİK AKADEMİYASININ FƏALİYYƏTİ 2007-Cİ İLDƏ UĞURLU OLMUŞDUR

Azərbaycan Diplomatik Akademiyasının (ADA) ilk sistemli təlim kursları 2007-ci ilin əvvəlindən həyata keçirilməyə başlamışdır.

ADA yola saldığımız ildə XİN- nin 24 yeni əməkdaşı üçün 5 aylıq təlim kurslarını təşkil etmişdir. Kursa 2 aylıq intensiv ingilis dili dərsləri, Azərbaycanın regionlarına (qaçqın düşərgələri, hərbi hissələr, mədəni və tarixi əhəmiyyətli yerlər, Səngəçal terminalı) və müxtəlif dövlət qurumlarına səfərlər, müasir beynəlxalq münasibətlər, beynəlxalq ticarət və neft iqtisadiyyatı, nitq və hesabatların yazılması, dövlət protokolu, konsulluq məsələləri və diplomatik yazışma, beynəlxalq hüquq və beynəlxalq təşkilatlar, Şimal-Şərqi Asiya regionu (Koreya, Çin və Yaponiya) mövzularında mühazirə, təqdimat və müzakirələr, o cümlədən Azərbaycanın xaricdə səfirliklərində 5 həftəlik təcrübə proqramı daxil idi. Proqram Türkiyə, Norveç Xarici İşlər nazirlikləri, Fletçer Diplomatiya və Hüquq məktəbi (ABŞ), Vyana Diplomatik Akademiyası, Təhlükəsizlik və Beynəlxalq Münasibətlər üzrə Koreya İnstitutu, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ), Avropa Kolleci (Belçika) ilə birgə reallaşdırılmışdır.

XİN-in yeni əməkdaşları üçün bu təlim proqramından əlavə, ADA nazirliyin orta səviyyəli diplomatları üçün Xarici Xidmət Təlim Proqramını başlamışdır. Corctaun Universiteti, Fletçer Hüquq və Diplomatiya məktəbi, Beynəlxalq Araşdırmalar üzrə Cenevrə İnstitutu, Təhlükəsizlik Araşdırmaları üzrə Marşal Mərkəzi və Norveç Xarici İşlər Nazirliyi ilə birgə hər ay keçirilən təlim kursları müxtəlif mövzuları və Nazirliyin gündəlik fəaliyyətini əhatə etmişdir. Liderliyin inkişafı bu təlimlərdə xüsusilə diqqət mərkəzində olmuşdur. Digər dövlət qurumlarının nümayəndələri də bu təlimlərdə iştirak etmişlər.

İyul ayında Avropa Universiteti (İtaliya) ilə birgə Avropa İttifaqının hüquq və siyasəti mövzusunda diplomatlar və geniş ictimaiyyət üçün Yay Məktəbi keçirilmişdir. Məktəbdə 40 nəfər, o cümlədən Gürcüstandan 5 nəfər, müxtəlif Avropa ölkələrindən 10 nəfər və Türkiyədən 5 nəfər iştirak etmişdir.

İl boyu ADA dünyanın müxtəlif universitetləri, müvafiq mərkəzləri və diplomatik akademiyaları ilə möhkəm tərəfdaşlıq münasibətləri qurmuşdur. Xorvatiya Diplomatik Akademiyası, MDBMİ , Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin diplomatik akademiyaları və Norveç Diplomatik İnstitutu ilə əməkdaşlıq sazişləri imzalanmışdır. ADA nümayəndələri diplomatik akademiyaların Mozambikdə keçirilən illik Forumunda iştirak etmişlər. 20-dən artıq görkəmli xarici və yerli siyasətçi, ictimai və elm xadimləri Azərbaycan Diplomatik Akademiyasında qonaq qismində çıxış etmişlər.

Təhsil ocağı ABŞ, Avropa, Asiya və Yaxın Şərqin görkəmli alimlərindən ibarət beynəlxalq Məsləhətçi Şuraya malik Tədqiqat Mərkəzi qurmuşdur. Bu Tədqiqat Mərkəzi regionla bağlı çap materiallarının hazırlanması və tədqiqatların aparılmasını həyata keçirəcəkdir.

Bütün bunlardan əlavə, ADA dünya standartalarına uyğun və qlobal rəqabətə davamlı beynəlxalq münasibətlər üzrə magistr dərəcəsini təsis etmək üçün səy göstərmişdir. İkiillik magistr proqramının 2009-cu ildə başlanması gözlənilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ ROBERT VEKSLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr komitəsinin Avropa məsələləri üzrə alt komitəsinin sədri Robert Vekslerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın yaxın strateji tərəfdaş olduğunu qeyd edən Robert Veksler ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik surətdə inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq əmin olduğunu bildirdi ki, qonağın ölkəmizə bu səfəri Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaq və əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TELİASONERA" ŞİRKƏTİNİN PREZİDENTİ LARS NİBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Prezident sarayında "TeliaSonera" şirkətinin prezidenti Lars Niberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizn başçısı "TeliaSonera" şirkəti ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda telekommunikasiya sahəsində qazanılan uğurları ölkənin iqtisadi inkişafının yaxşı göstəricilərindən biri kimi dəyərləndirdi.

Lars Niberq Azərbaycanda fəaliyyət göstərdikləri 10 ildən artıq müddətdə qarşılıqlı əməkdaşlıq nəticəsində rabitə və telekommunikasiya sahəsində ölkəmizdə müasir infrastrukturun yaradılması baxımından böyük nailiyyətlərin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASINDAKI AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr Palatasındakı Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə fəal və uğurlu inkişaf mərhələsində olduğunu bildirdi. Prezident İlham Əliyev ikitərəfli əlaqələrin və müxtəlif səviyyələrdə qarşılıqlı fəaliyyətin Azərbaycanla ABŞ arasında güclü tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsinə kömək etdiyini vurğuladı. O, bir çox sahələrdə ölkələrimizin müttəfiq və tərəfdaş olduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizdə geniş inkişaf proseslərinin getdiyini vurğulayaraq, Azərbaycanın regionda mövqelərinin daha da möhkəmləndiyini dedi. Prezident İlham Əliyev ABŞ nümayəndə heyətinin bu səfərinin tərəfdaşlıq əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Ölkəmizə səfərinin böyük əhəmiyyət kəsb etdiyini bildirən Bill Şuster Azərbaycanın ABŞ-la bir sıra sahələrdəki tərəfdaşlığını, o cümlədən ölkəmizin antiterror koalisiyasında fəal iştirakını, Azərbaycan hərbçilərinin İraq və Əfqanıstanda həyata keçirdikləri sülhməramlı missiyasını yüksək dəyərləndirdi. O, Azərbaycanın enerji sahəsində gördüyü işlərin də böyük əhəmiyyətə malik olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Metyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyətinə dair məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATORU RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Prezident sarayında ABŞ senatoru Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ABŞ-la Azərbaycan arasında ikitərəfli əməkdaşlığın bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, ABŞ senatorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana bu səfəri ikitərəfli əlaqələrə və regional inkişafa dair bir çox məsələlərin müzakirə olunmasına, ölkələrimizin mühüm strateji sahələrdə daha da möhkəm tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə kömək edəcəkdir. Senator Riçard Luqarın Azərbaycana göstərdiyi diqqət və dəstəyi yüksək dəyərləndirən Prezident İlham Əliyev Azərbaycan-ABŞ əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə və bunun regionun təhlükəsizliyinə töhfə verəcəyinə əminliyini söylədi.

Senator Riçard Luqar Azərbaycanla ABŞ arasında güclü tərəfdaşlıq əlaqələrinin olduğunu bildirdi, Azərbaycanın antiterror koalisiyasındakı fəal iştirakını yüksək qiymətləndirdi. Senator dedi ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən inkişaf prosesləri böyük əhəmiyyət daşıyır. O, bu münasibətlə dövlət başçısını təbrik etdi, indiki səfərinin Azərbaycandakı inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağını vurğuladı.

TÜRKMƏNİSTAN PREZİDENTİ AZƏRBAYCAN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Yanvarın 17-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Baş nazirinin birinci müavini, Azərbaycan-Türkmənistan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Yaqub Eyyubov ilə görüşmüşdür. Görüşdə Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov iştirak etmişdir.

Yaqub Eyyubov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Türkmənistan Prezidentinə və türkmən xalqına çatdırmışdır.

Görüşdə Azərbaycan-Türkmənistan əməkdaşlığının inkişafının bütün sahələrdə yeni mərhələyə qədəm qoyduğu diqqətə çatdırılmışdır.

Dövlətlərimiz arasında münasibətlərin inkişafından razılıqlarını bildirən Qurbanqulu Berdiməhəmmədov və Yaqub Eyyubov mehriban qonşuluq və faydalı əməkdaşlığa əsaslanan əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini bildirmişlər.

Tərəflər əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu qeyd etmiş, bu işdə hökumətlərarası komissiyanın xüsusi rol oynayacağına əminlik ifadə etmişlər.

Qurbanqulu Berdiməhəmmədov və Yaqub Eyyubov Azərbaycan-Türkmənistan hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının yanvarın 17-də Aşqabadda öz işinə başlayan iclasının gündəliyinə çıxarılan yanacaq-energetika, ticarət-iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etmişlər.

Tərəflər əmin olduqlarını bildirmişlər ki, komissiyanın məqsədyönlü işi əməkdaşlığın sürətlə dərinləşdirilməsinə şərait yaradacaq ki, bu da xalqımızın maraqlarına uyğundur.

Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarını və xoş arzularını çatdırmağı xahiş edən Qurbanqulu Berdiməhəmmədov bildirmişdir ki, Türkmənistan konstruktiv dialoqa həmişə hazırdır və Azərbaycan ilə münasibətlərini dostluq və qardaşlıq ənənələri əsasında qurur.

Azərbaycanın Türkmənistandakı səfiri Elxan Hüseynov görüşdə iştirak etmişdir.

AŞQABADDA AZƏRBAYCAN-TÜRKMƏNİSTAN HÖKUMƏTLƏRARASI İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ İCLASI KEÇİRİLMİŞDİR

Yanvarın 17-də Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubovun başçılığı ilə geniş tərkibdə nümayəndə heyəti Azərbaycan-Türkmənistan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının birinci iclasında iştirak etmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, səfər zamanı nümayəndə heyətinin başçısı Türkmənistan Prezidenti tərəfindən qəbul edilmiş, təkbətək və geniş tərkibdə görüş keçirilmişdir.

Görüşdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin vacibliyi qeyd edilmiş, dövlət başçıları səviyyəsində aparılan dialoqun ikitərəfli münasibətlərin inkişafında mühüm rolu yüksək qiymətləndirilmişdir. Azərbaycan və Türkmənistan arasında ticarət dövriyyəsi-

nin mövcud səviyyəsinin ölkələrimizin potensialına uyğun olmadığı vurğulanmış, bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyi yekdilliklə qeyd edilmişdir.

Xarici işlər nazirinin müavini Xələf Xələfov və Azərbaycanın Türkmənistandakı səfiri Elxan Hüseynovun iştirak etdikləri görüşdə iqtisadi və ticarət əlaqələrinin sabit və uzunmüddətli inkişafının təmin edilməsində Hökumətlərarası Komissiyanın rolu qeyd edilmiş və əməkdaşlığın inkişafında heç bir məhdudiyyətlərin olmadığı bildirilmişdir. Dövlətlərimiz arasında münasibətlərin dostluq və qardaşlıq ənənələrinə əsaslandığı vurğulanmış, bu münasibətlərin inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu təsdiq edilmişdir.

Azərbaycan-Türkmənistan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının birinci iclasının nəticəsi olaraq ölkələrimiz arasında borc məsələsi öz həllini tapmış və bu məsələnin tənzimləməsi üzrə razılıq əldə edilmişdir.

Komissiyanın iclasında, eyni zamanda, ölkələrimiz arasında qarşılıqlı faydalı iqtisadi-ticarət əməkdaşlığının dərinləşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi müzakirə edilmiş, tərəflərin geniş potensialından istifadə edərək, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın möhkəmləndirilməsinin, həmçinin nəqliyyat, rabitə, mədəniyyət, elm, təhsil, səhiyyə, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. Bu məqsədlə müqavilə-hüquq bazasının genişləndirilməsi ilə bağlı işlərin davam etdirilməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Müzakirələr zamanı ölkələrimiz arasında sərmayələrin qarşılıqlı qorunması və təşviqi, habelə Bakı və Türkmənbaşı limanları arasında birbaşa beynəlxalq dəmiryolu-bərə əlaqəsinin qurulması haqqında hökumətlərarası sazişlərin hazırlanmasına dair razılıq əldə edilmişdir.

Görüşdə, həmçinin Azərbaycan ilə Türkmənistan arasında sərnişin və yük daşımaları sahəsində əlaqələrin genişləndirilməsi, hər iki ölkənin işgüzar dairələrinin əlaqələrinin möhkəmləndirilməsinin vacibliyi qeyd olunmuşdur.

İclasda Türkmənistan nümayəndə heyətinə komissiyanın Türkmənistan tərəfindən həmsədri, Baş nazirin müavini X.Saparlıyev rəhbərlik etmişdir. Komissiyanın iclası Protokol imzalanması ilə başa çatmışdır.

Səfər çərçivəsində xarici işlər nazirinin müavini Xələf Xələfov Türkmənistan Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilmiş, Hökumətlərarası Komissiyanın qəbul etdiyi qərarların ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində yaxşı əsas yaratdığı bildirilmişdir.

Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində delimitasiya üzrə müzakirələrin davam etdirilməsinin vacibliyi qeyd olunmuş və işçi qrupunun növbəti görüşünün fevralın birinci yarısında Bakıda keçirilməsi razılaşdırılmışdır.

Görüşdə, həmçinin Türkmənistanın Azərbaycandakı səfirliyinin fəaliyyətinin bərpası məsələsinə toxunulmuş, yaxın zamanlarda səfirliyin fəaliyyətə başlamasının Türkmə-

nistan tərəfindən bildirilməsi məmnunluqla qəbul edilmişdir.

Tərəflər Azərbaycan ilə Türkmənistan arasında bütün sahələr üzrə, o cümlədən Xəzər bölgəsində böyük potensialın mövcud olduğu və bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinin və iqtisadi layihələrin həyata keçirilməsinin vacibliyi qeyd edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏHREYN BEYNƏLXALQ İNVESTİSİYA BANKININ VƏ AL FAHİM QRUPUNUN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Prezident sarayında Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və Al Fahim Qrupunun sədri Səid Abdul Cəlil Məhəmməd Al Fahimi qəbul etmişdir.

Görüşdə Bəhreyn bankının Azərbaycan bankları ilə əməkdaşlığı, Bəhreyn Beynəlxalq İnvestisiya Bankının ölkəmizdə həyata keçirilən və perspektivdə nəzərdə tutulan investisiya layihələrində iştirakı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

DİPLOMATİK AKADEMİYA XARİCİ DİLLƏRDƏ DİPLOMATİYAYA AİD NƏŞRLƏRİ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ EDƏCƏKDİR

Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası xarici dillərdə diplomatiyaya aid nəşrləri Azərbaycan dilinə tərcümə edəcəkdir.

Bu barədə yanvarın 21-də həftəlik mətbuat konfransında məlumat verən Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahim demişdir ki, məqsəd diplomatiya ilə məşğul olanlara yardım etməkdir. Azərbaycan dilində çap olunacaq nəşrlərin tədqimatı keçiriləcəkdir.

5439

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ TBİLİSİDƏ GÜRCÜSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Yanvarın 20-də Gürcüstanın yeni seçilmiş Prezidenti Mixail Saakaşvilinin andiçmə mərasimi olmuşdur.

Mərasimdə Azərbaycanı Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Baş nazir Artur Rasizadəni və nümayəndə heyətinin üzvlərini Tbilisi beynəlxalq aeroportunda Gürcüstanın Baş naziri Vladimir Qurgenidze qarşılamışdır.

Prezident Mixail Saakaşvilinin andiçmə mərasimindən sonra Azərbaycanın Baş naziri Artur Rasizadə ilə gürcüstanlı həmkarı Vladimir Qurgenidzenin görüşü olmuşdur. Görüşdə hökumət başçıları Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin fəal inkişaf etməkdə olduğunu bildirmiş, vurğulamışlar ki, ölkələrimizin iqtisadi münasibətləri sürətlə genişlənir, əmtəə dövriyyəsi artır, bir sıra irimiqyaslı layihələr uğurla həyata keçirilir. Görüşdə Azərbaycan qazının Gürcüstana satılması məsələsi də müzakirə olunmuşdur.

Həmin gün Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycanın Baş naziri Artur Rasizadəni qəbul etmişdir. Baş nazir Artur Rasizadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Mixail Saakaşviliyə çatdırmışdır.

Görüşdə yekdilliklə vurğulanmışdır ki, dost və qonşu ölkələr olan Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı fəaliyyət, onun əlaqələndirilməsi təkcə ticarət-iqtisadi sahədə deyil, münasibətlərin bütün spektrində də getdikcə daha böyük əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında əlaqələrin inkişafında dövlətlərimizin başçıları İlham Əliyevin və Mixail Saakaşvilinin şəxsi dostluq münasibətləri də mühüm rol oynayır.

Bir çox məsələlərdə, o cümlədən region üçün böyük əhəmiyyət daşıyan layihələrin həyata keçirilməsində Gürcüstana göstərdiyi köməyə görə minnətdarlığını bildirən M.Saakaşvili, səmimi salamlarını və xoş arzularını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı Baş nazir Artur Rasizadədən xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "PANORAMA REPORTS" AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Prezident sarayında Yaponiyanın "Panorama Reports" agentliyinin layihə direktoru xanım Sepide Razmkhaha və müxbiri Andreas Samuelssona müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan-Yaponiya münasibətləri, ölkələrimiz arasında qeyri-neft sektorunda əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 23-də İsveçrəyə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda onun üçün ayrılmış iqamətgahda "Turmotel Viktoriya" mehmanxanasında Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harris ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları (ABŞ) arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. ABŞ-Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi və möhkəmləndirilməsində ABŞ-da yaşayan yəhudi icmasının önəmli rol oynadığı qeyd olundu.

Görüşdə həmçinin ölkəmizdə yaşayan yəhudi icmasının Azərbaycanda azad fəaliyyət göstərməsi üçün hər cür şəraitin yaradıldığı xüsusi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda onun üçün ayrılmış iqamətgahda, "Turmotel Viktoriya" mehmanxanasında Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür.

Macarıstanın Baş naziri Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini və ölkəmizin son illər ərzində əldə etdiyi nailiyyətlərə heyranlığını söylədi. O, Macarıstanın inkişaf edən Azərbaycanla əməkdaşlığı bütün sahələrdə genişləndirməyə və dərinləşdirməyə böyük maraq göstərdiyini bildirdi.

Görüşdə energetika sahəsində əməkdaşlıq məsələlərinə böyük diqqət yetirildi və enerji layihələri, konkret olaraq Nabukko layihəsi ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə əməkdaşlıqla əlaqədar müəyyən məsələlərdə bu təşkilatın üzvü kimi Macarıstanın dəstəyinə Azərbaycanın ehtiyacı olduğunu vurğuladı. Ferents Dyurçan həm Avropa İttifaqı ilə əməkdaşlıq, həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələlərində Macarıstanın ölkəmizi dəstəklədiyini bildirdi.

DAVOS İQTİSADİ FORUMU DAVAM EDİR

Yanvarın 23-də İsveçrənin Davos şəhərində açılmış ənənəvi, 38-ci illik Dünya İqtisadi Forumu davam edir. Yanvarın 28-də başa çatacaq forumda müasir dövrün siyasi və iqtisadi problemləri diqqət mərkəzindədir.

Yanvarın 24-də "Morasani Şveizerhov" mehmanxanasında Davos forumunun "Energetika sənayesində günəş enerjisinin rolu" mövzusunda əsas iclası keçirilmişdir. Bu, bir növ enerji sammiti də adlanır.

Prezident İlham Əliyev iclasda iştirak etmişdir.

Builki forumda 88 ölkədən 2500 nəfər, o cümlədən 27 dövlət və hökumət başçısı, 113 nazir, ən tanınmış 1000 şirkətin nümayəndələri iştirak edir. Forum iştirakçılarının 60 faizi biznes təmsilçiləridir. "Əməkdaşlıq yeniliklərinin gücü" devizi adı altında keçirilən indiki forumda əsas diqqət iqtisadi qeyri-sabitlik, iqlim dəyişikliyi və dünyada bərabər davamlı iqtisadi artımın təmin edilməsi məsələlərinə yönəlmişdir. Beş gün ərzində 240 iclasın keçirilməsi nəzərdə tutulmuşdur. İclaslar əsasən "Biznes - əməkdaşlıq və rəqabət", "İqtisadiyyat və maliyyə - iqtisadi təhlükəsizlik məsələlərinin həlli", "Coğrafi vəziyyət - müxtəlif maraqlar əsasında alyanslar", "Elm və texnologiya - yeni innovasiyalar", "Dəyərlər və cəmiyyət - gələcək dəyişikliklərin başa düşülməsi" bölmələri üzrə təşkil olunur.

Enerji sammiti forumun mahiyyətini təşkil edir. Forumun əsas iclasını Dünya İqtisadi Forumunun nümayəndəsi açaraq, Prezident İlham Əliyevə, digər dövlət və hökumət başçılarına, bütün qonaqlara tədbirdə iştirak etdiklərinə görə minnətdarlıq etdi. O, bu mötəbər tədbirdə dünya əhəmiyyətli məsələlərin səmərəli əməkdaşlıq ruhunda müzakirə olunacağını bildirdi. İclasda çıxış edən ABŞ, Rusiya, Litva, Böyük Britaniya, Fransa, Yaponiya, İsveçrə, Qətər, Türkiyə, Belçika, Səudiyyə Ərəbistanı, İraq, Norveç, Çin, Küveyt və Nigeriya nümayəndə heyətlərinin rəhbərləri əsasən neft-qaz ölkəsi kimi tanınan ölkələrdə iqtisadi inkişafdan söhbət açdılar. Çıxışlarda bəzi qlobal problemlər önə çəkildi, enerji sahəsində əməkdaşlığın çoxtərəfli perspektivləri, iqlim dəyişikliyi, enerji təhlükəsizliyi və enerji daşıyıcılarının qiymətləri barədə danışıldı. Enerji təhlükəsizliyinin təmin olunmasında karbohidrogen ehtiyatları ilə zəngin ölkələrin, o cümlədən Azərbaycanın rolu vurğulandı. Hazırda neft-qaz ixracatçısına çevrilən Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sahəsində gördüyü işlər yüksək qiymətləndirildi, bunların uğurlu və uzaqgörən olduğu xüsusi vurğulandı.

***

İclasda iqlim dəyişikliyinə təsir göstərən amillərin aradan qaldırılmasının, atmosferə buraxılan karbon qazının azaldılmasının, gələcəkdə enerji sahəsində səmərəli əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyev diskussiya xarakterli çıxışında ölkəmizdə gedən iqtisadi inkişafdan, aparılan islahatlardan, enerji layihələri və energetika sahəsində görülən işlərdən danışdı. Dövlətimizin başçısı forum iştirakçılarının ölkəmizin enerji potensialı, Avropanın enerji təhlükəsizliyindəki rolu və digər mühüm məsələlərlə bağlı suallarına ətraflı cavab verdi.

İclas çərçivəsində Dünya İqtisadi Forumu ekspertlərinin hazırladıqları "2008-ci ilin qlobal riskləri" adlı hesabatla bağlı dinləmələr də keçirildi. Belə bir əsas fikir səsləndi ki, ekspertlər Asiyanın inkişaf etməkdə olan ölkələrinin dünya iqtisadi inkişafının lokomotivi olacağını istisna etmirlər. Eyni zamanda, hesabatda ixracdan asılı olan ölkələrin qlobal problemlə üzləşəcəyi barədə xəbərdarlıq edilir. Hesabatda yaxın 10 ildə neftə tələ-

batın 40 faizədək artacağı bildirilir, buna görə də enerji daşıyıcılarının tədarükünün bir neçə il əvvəlcədən görülməsi tövsiyə olunur.

İclasda iştirak edən dövlət başçıları, dünyanın aparıcı şirkətlərinin rəhbərləri və digər rəsmi şəxslər Prezident İlham Əliyevlə görüşərək, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə maraqlandılar və gələcək perspektivlər barədə qısa fikir mübadiləsi etdilər.

Əsas iclas başa çatdıqdan sonra "Enerji təhlükəsizliyi - sabah 350 ABŞ dolları olacaqmı?" mövzusunda qapalı sessiya keçirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPEN İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ilə görüşmüşdür.

Görüşdə ikitərəfli əlaqələrin və əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında müxtəlif səviyyəli təmasların genişlənməsindən məmnunluq ifadə edildi. İsveçrə Prezidenti Azərbaycanın sürətli iqtisadi inkişafı barədə ölkəsində geniş məlumatın olduğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən, neft və qaz sektorunda əldə olunan uğurlardan danışdı.

Paskal Kuşpen İsveçrə şirkətlərinin Azərbaycanın energetika sektorunda geniş iştirak etməkdə maraqlı olduqlarını söylədi.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyi məsələsində rolunun daha da artdığını bildirən Prezident İlham Əliyev iki ölkə arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.

Görüşdə regional məsələlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, "Turmotel Viktoriya" mehmanxanasında Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür.

Görüş zamanı ikitərəfli münasibətlərin vəziyyəti və gələcək perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Prezident Viktor Yuşşenko son vaxtlar Ukraynada gedən proseslərdən də bəhs etdi.

Sonra iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı səmərəli söhbət aparıldı. Müəyyən layihələr, enerji sahəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində oldu. Prezidentlər müxtəlif layihələrin həyata keçirilməsində iki ölkənin birgə fəaliyyətinin vacibliyini vurğuladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİSKO" ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU CON ÇAMBERSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, "Turmotel Viktoriya" mehmanxanasında "Sisko" şirkətinin sədri və baş icraçı direktoru Con Çambersi qəbul etmişdir.

Görüşdə son zamanlar dünyada informasiya texnologiyalarının geniş tətbiq olunması, Azərbaycanda bu sahənin inkişafına böyük diqqət yetirilməsi vurğulandı.

Con Çambers Azərbaycanda Prezident İlham Əliyevin iqtisadiyyatın çoxşaxəliliyi və qeyri-neft sektorunun inkişafı istiqamətində apardığı siyasəti yüksək dəyərləndirdi, bu yolda informasiya texnologiyasının əsas rol oynadığını bildirdi.

Söhbət zamanı Azərbaycanda informasiya texnologiyalarının digər sahələrə olan təsiri, son zamanlar ölkəmizin təhsil sistemində yüksək texnologiyaların tətbiqinə böyük üstünlük verildiyi xatırladıldı. Azərbaycan hökuməti ilə "Sisko" şirkəti arasında müqavilənin bağlanması məsələsi də müzakirə olundu, bir neçə yeni texnologiyanın Azərbaycanda tətbiqi, ölkəmizdə telekommunikasiya şəbəkəsinin modernləşdirilməsi ilə bağlı "Sisko" şirkətinin təklifləri nəzərdən keçirildi.

Prezident İlham Əliyev bu şirkətin Azərbaycanda fəaliyyətini yüksək dəyərləndirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycan iqtisadiyyatının transformasiyası və dayanıqlı iqtisadiyyatın qurulması üçün informasiya texnologiyalarının roluna böyük əhəmiyyət verir və bu, iqtisadi siyasətimizin prioritet istiqamətidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ SİPİ LİVNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda, "Turmotel Viktoriya" mehmanxanasında İsrailin xarici işlər naziri xanım Sipi Livnini qəbul etmişdir.

Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin inkişafı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP GROUP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ENTONİ HEYVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda onun üçün ayrılmış iqamətgahda "bp Group" şirkətinin baş icraçı direktoru Entoni Heyvordu qəbul etmişdir.

Görüşdə uzun illərdir Azərbaycanla bp şirkəti arasında uğurlu əməkdaşlığın olduğu bildirildi, onun perspektivləri müzakirə edildi və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Azərbaycanda həyata keçirilən enerji layihələri barədə söhbət gedən görüşdə bp-nin rəhbəri ölkəmizin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdi, respublikamızın iqtisadiyyatında çox böyük irəliləyişin baş verdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda, onun üçün ayrılmış iqamətgahda Albaniya Nazirlər Şurasının sədri Sali Berişa ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə söhbət getdi, qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyi vurğulandı. İslam Konfransı Təşkilatı (İKT) çərçivəsində əməkdaşlığın daha da sıxlaşdırılmasına böyük ehtiyac duyulduğu və bu məsələyə diqqət yetirilməsinin vacibliyi bildirildi. Görüşdə enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda, onun üçün ayrılmış iqamətgahda İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.

Mənuçehr Mottəki öz ölkəsinin Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Prezident İlham Əliyev İran Prezidentinin salamına görə təşəkkür etdi və özünün də salamlarını ona çatdırmağı nazirdən xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN "EUROMONEY İNSTİTUTİONAL İNVESTOR PLC" ŞİRKƏTİNİN SƏDRİ PADRAİK FALLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda, onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın "Euromoney İnstitutional İnvestor plc" şirkətinin sədri Padraik Fallonu qəbul etmişdir.

Şirkətin sədri Azərbaycandakı sərmayə mühiti, ölkəmizin iqtisadi inkişafı, neft və qeyri-neft sektorlarında gedən proseslərlə maraqlandı. Prezident İlham Əliyev bu məsələlər barədə ətraflı söhbət açdı. Padraik Fallon şirkətin gələcəkdə Azərbaycana xarici sərmayənin cəlb olunmasına öz töhfəsini verməkdən məmnun olacağını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ AFRİKA MİLLİ KONQRESİNİN SƏDRİ CAKOB ZUMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Davosda, onun üçün ayrılmış iqamətgahda Cənubi Afrika Milli Konqresinin sədri Cakob Zuma ilə görüşmüşdür.

Hər iki ölkənin bir-birinə maraq göstərdiyinin vurğulandığı görüşdə Cakob Zuma Azərbaycanın indiki vəziyyəti, ölkəmizdə gedən proseslər barədə məlumat almaq arzusunda olduğunu bildirdi. Prezident İlham Əliyev ölkəmizin bütün sahələrdə inkişafı, aparılan iqtisadi islahatlar, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın rolu barədə söhbət açdı.

Görüşdə xüsusi vurğulandı ki, hər iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün ümumi maraqlar və imkanlar var və bu sahədə səmərəli iş görmək lazımdır.

Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİCROSOFT" KORPORASİYASININ TƏDQİQAT VƏ STRATEGİYA ÜZRƏ DİREKTORU KREYQ MANDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda "Microsoft" korporasiyasının tədqiqat və strategiya üzrə direktoru Kreyq Mandini qəbul etmişdir.

Görüşdə bildirildi ki, bu ilin yazında Azərbaycan hökuməti ilə "Microsoft" korporasiyası arasında strateji tərəfdaşlıq müqaviləsinin imzalanması nəzərdə tutulmuşdur. Müqavilədə Azərbaycanda intellektual mülkiyyətin qorunması, proqram təminatının leqallaşdırılması və "Microsoft"un Azərbaycanda sərmayə layihələrini həyata keçirməsi əksini tapacaqdır.

Kreyq Mandi bildirdi ki, "Microsoft" Azərbaycanda elektron informasiya mərkəzi yaratmağı planlaşdırır.

Görüşdə Azərbaycanın regionda tranzit informasiya mərkəzinə çevrilməsi üçün "Microsoft"un həyata keçirəcəyi bir sıra layihələr müzakirə edildi, həmçinin Azərbaycanda yüksək səviyyəli mühəndislərin hazırlanması istiqamətində "Microsoft"un reallaşdıracağı layihələr barədə də fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev ölkəmizdə iqtisadiyyatda, o cümlədən energetika sahəsində böyük inkişafın əldə olunduğunu bildirdi. Dövlətimizin başçısı qeyri-neft sektoruna böyük diqqət yetirildiyini, bu baxımdan informasiya texnologiyalarının inkişafının prioritet istiqamət kimi seçildiyini söylədi. Prezident İlham Əliyev informasiya texnologiyaları sahəsində "Microsoft" korporasiyası ilə gələcəkdə yaxından əməkdaşlıq ediləcəyinə əmin olduğunu bildirdi və artıq Azərbaycanda bu sahədə konkret işlərin həyata keçirildiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİTİ GROUP"UN SƏDRİ UİN BİŞOFFU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda "Citi Group"un sədri Uin Bişoffu qəbul etmişdir.

Görüşdə "Citi Group"un Azərbaycanın maliyyə qurumları ilə əməkdaşlığı, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, regional iqtisadi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın York Hersoqu Şahzadə Endryu ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, energetika sektorunda uzun illər faydalı, uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.

Azərbaycan ilə Böyük Britaniya arasında digər sahələrdə də əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu və bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "GLOBAL HYATT" ŞİRKƏTİNİN SƏDRİ VƏ SAHİBİ TOMAS PRİTZKERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın "Global Hyatt" şirkətinin sədri və sahibi Tomas Pritzkeri qəbul etmişdir.

Görüşdə Azərbaycanda iqtisadi sahədə gedən proseslərdən, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən xidmət sektorunda əldə edilmiş uğurlardan söhbət getdi, indiki və gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN BİZNES, MÜƏSSİSƏLƏRİN İNKİŞAFI, TƏNZİMLƏNMƏ İSLAHATLARI ÜZRƏ DÖVLƏT KATİBİ CON HATTONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda Böyük Britaniyanın biznes, müəssisələrin inkişafı, tənzimlənmə islahatları üzrə dövlət katibi Con Hattonu qəbul etmişdir.

Con Hatton Azərbaycanda gedən prosesləri, ölkəmizin son illərdəki iqtisadi inkişafını diqqətlə izlədiyini bildirərək dedi ki, bu uğurlar bizi olduqca məmnun edir. O, iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruri olduğunu söylədi.

Görüşdə neft-qaz, enerji sahəsində yeni imkanların əldə edilməsi, qeyri-neft sektorunda əməkdaşlıq imkanları və sərmayə qoyuluşu üçün Azərbaycanda çox gözəl perspektivlərin mövcudluğu vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ DEPARTAMENTİNİN RƏHBƏRİ MORİTS LOYENBERGERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda İsveçrə Konfederasiyasının Ətraf Mühitin Mühafizəsi, Nəqliyyat, Energetika və Rabitə Departamentinin rəhbəri Morits Loyenbergeri qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin inkişafı, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin rolu müzakirə edildi. İsveçrə tərəfi Azərbaycanın bu sahədəki rolunu, ölkəmizdə nəqliyyat, rabitə, ətraf mühit və energetika sahəsində qazanılmış nailiyyətləri yüksək qiymətləndirdi, bu yöndə layihələrin Avropanın gələcəyi üçün vacib olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda, onun üçün ayrılmış iqamətgahda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyeri qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə AYİB arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Prezident İlham Əliyev Azərbaycanda iqtisadi inkişaf proseslərindən danışdı, ölkəmizin dünya iqtisadiyyatına sürətlə inteqrasiya etdiyini bildirdi.

Jan Lemyer AYİB-in Azərbaycanla əməkdaşlığının gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu söylədi.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Yanvarın 25-də Davosda "Fluela" mehmanxanasında "Abn Amro" Maliyyə Korporasiyası sədrinin müavini Mark Holtsmanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə lanç verilmişdir.

AZƏRBAYCAN-KOREYA MÜNASİBƏTLƏRİ İNKİŞAF EDİR

Yyanvarın 25-də Azərbaycanın Baş naziri Artur Rasizadə Koreya Respublikası Baş nazirinin müavini, təhsil və insan ehtiyatlarının inkişafı naziri Kim Şin-ilin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir A.Rasizadə Azərbaycan-Koreya iqtisadi əməkdaşlığının son vaxtlar genişləndiyindən danışaraq, bu prosesdə iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin böyük rol oynadığını vurğulamışdır. Humanitar sahədə ikitərəfli əlaqələrin genişləndirilməsinin də zəruri olduğunu diqqətə çatdıran A.Rasizadə ümidvar olduğunu bildirmişdir ki, Koreya nümayəndə heyətinin indiki səfəri, Azərbaycanın Təhsil Nazirliyi ilə əmək-

daşlıq haqqında memorandumun imzalanması bu əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Bakıda keçirdiyi danışıqların səviyyəsindən razı qaldığını bildirən Koreya naziri Kim Şin-il qeyd etmişdir ki, onun ölkəsi təhsil, o cümlədən peşə təhsili sahəsində layihələrin həyata keçirilməsində maraqlıdır.

FİNLANDİYA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Yanvarın 25-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Finlandiya parlamenti xarici əlaqələr komitəsinin sədri Pertti Salolainenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

P.Salolainen demişdir ki, səfərdən məqsəd Azərbaycan ilə daha yaxından tanış olmaq, bu ölkə barədə dolğun məlumat toplamaq və əməkdaşlıq perspektivlərini araşdırmaqdır. Qonaq bunu Finlandiyanın ATƏT-in fəaliyyətdə olan sədri kimi regiona marağı və gözlənilən qarşılıqlı ikitərəfli səfərlərlə əlaqələndirmişdir.

Nümayəndə heyətinin rəhbəri bu ilin fevralında Finlandiya xarici işlər nazirinin Azərbaycana, may ayında isə Azərbaycan Prezidentinin Finlandiyaya səfərinin nəzərdə tutulduğunu bildirmiş və bu səfərlərin ikitərəfli əlaqələrin və əməkdaşlığın genişlənməsində mühüm rol oynayacağını vurğulamışdır.

Nazir E.Məmmədyarov Azərbaycan ilə Finlandiya arasında əlaqələrin yüksək səviyyədə olmasının daha sıx əməkdaşlıq üçün əhəmiyyətini vurğulamış, qonaqlara ölkəmizdə iqtisadi inkişafın hazırkı səviyyəsi və həyata keçirilən regional layihələr barədə ətraflı məlumat vermişdir. Nazir əldə edilən gəlirlərin insan kapitalının inkişafına, regionlarda əhalinin rifahının yaxşılaşdırılmasına, qeyri-neft sektorunun təşviqinə yönəldildiyini qeyd etmişdir.

Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasət barədə məlumat verən nazir E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması regionda sabitlik və inkişaf üçün ciddi əngəl olduğunu söyləmişdir.

MOSKVADA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLİR

Moskvada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədlərinin delimitasiyası məsələsinə dair xarici işlər nazirlikləri səviyyəsində məsləhətləşmələr başlanır. Xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti artıq Moskvaya gəlmişdir. Mötəbər nümayəndə heyətinə Azərbaycan Sərhəd Xidmətinin başçısı Elçin Quliyev, daxili işlər nazirinin müavini Oruc Zalov, Xəritəçəkmə İnstitutunun və digər əlaqədar təşkilatların nümayəndələri daxildir.

Diplomatik mənbələrdən məlum olmuşdur ki, yanvarın 28-də Xələf Xələfov stats-katib-RF xarici işlər nazirinin müavini Qriqori Karasin ilə görüşmüşdür.

Yanvarın 29-da Moskvada sərhədlərin delimitasiyası üzrə Azərbaycan-Rusiya hökumətlərarası komissiyası işçi qrupunun iclası keçiriləcəkdir. Hazırda Azərbaycan və Rusiya iki ölkə arasında razılaşdırılmalı olan sərhəd xəttinin 90 faizinə dair razılıq əldə etmişlər.

Danışıqların əvvəlki mərhələsi 2007-ci ilin dekabrında Bakıda keçirilmişdir.

MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYA VƏ DEMARKASİYA MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Yanvarın 29-da Moskvada Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət komissiyalarının növbəti 15-ci iclası keçirilmişdir.

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun və Rusiya Federasiyası XİN-in xüsusi tapşırıqlar üzrə səfiri A.Yakovenkonun rəhbərlik etdikləri Dövlət komissiyalarının birgə iclasının işində komissiyaların üzvləri, həmçinin müvafiq sərhəd rayonlarının (Qusar, Xaçmaz və Balakən) rəhbərləri və ekspertlər iştirak etmişlər.

İclasda razılaşdırılmamış sahələrdə dövlət sərhəd xəttinin keçməsi məsələlərinin müzakirəsi davam etdirilmiş, normativ-hüquqi sənədlər və kartoqrafik materiallar qiymətləndirilmişdir.

Tərəflərin mövqelərinin yaxınlaşması nəticəsində delimitasiya prosesinin başa çatdırılması üçün müvafiq imkanlara baxılmış, işlərin davam etdirilməsi qərara alınmışdır.

"Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" Müqavilə layihəsi üzrə fikir mübadiləsi aparılmış və sənəd əsas kimi qəbul edilmişdir.

İclasın yekunlarına dair müvafiq protokol imzalanmışdır.

Komissiyanın növbəti iclasının Azərbaycanda keçirilməsi barədə razılıq əldə edilmişdir.

XƏLƏF XƏLƏFOV: SƏRHƏDLƏRİN RAZILAŞDIRILMAMIŞ SAHƏLƏRİ ÜZRƏ AZƏRBAYCAN VƏ RUSİYANIN MÖVQELƏRİ YAXINLAŞMIŞDIR

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov AzərTAc-ın müxbirinə məxsusi müsahibəsində bildirmişdir ki, Azərbaycan tərəfi sərhədlərin delimitasiyasına dair Moskvada keçirilən danışıqların yekunlarından razıdır.

Xələf Xələfov demişdir ki, yanvarın 29-da Moskvada Rusiya ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyasına dair hökumətlərarası komissiyanın 15-ci iclası başa çatmışdır. İclasda razılaşdırılmamış sahələrlə bağlı müzakirələr davam etdirilmiş, bütün məsələlər ətraflı müzakirə edilmiş, ümumi razılığa nail olunması yolları, mövcud imkanlar nəzərdən keçirilmişdir. Xarici işlər nazirinin müavini demişdir: "Sərhədin hər üç razılaşdırılmamış sahəsi ilə bağlı mövqelərin yaxınlaşdığını demək olar. Bu sahələrdən biri komissiyanın Bakıda keçirilmiş iclasında qismən razılaşdırılmışdı, qalan iki sahə ilə bağlı isə müzakirələri davam etdirmək, onların delimitasiyası prosesini başa çatdırmaq üçün müvafiq koordinatları və təsvirləri dəqiqləşdirmək lazımdır. Bunu ümumi razılaş-

dırılmış sənəd kimi rəsmiləşdirmək üçün əldə olunan bütün materialları bir daha gözdən keçirmək lazımdır. Ümidvarıq ki, növbəti görüş zamanı əhəmiyyətli dərəcədə yaxınlaşdırmağa və dəqiqləşdirməyə müyəssər olduğumuz mövqelərimiz əsasında hər üç sahə ilə bağlı ümumi razılığa gələcəyik".

X.Xələfov vurğulamışdır ki, görüş zamanı "Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında sərhəd haqqında müqavilə" layihəsi də nəzərdən keçirilmişdir. O demişdir: "Hər iki tərəfin əsas kimi qəbul etdiyi bu layihə ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Təbii ki, sənəd üzərində iş dövlətdaxili prosedurlara uyğun olaraq davam etdiriləcəkdir".

Stats-katib - Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin ilə görüşün yekunlarını və müzakirə olunan məsələləri şərh edən Xələf Xələfov bildirmişdir ki, Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinə dair bir sıra məsələlər müzakirə olunmuşdur. O demişdir: "Biz sərhədlərin delimitasiya prosesinin başa çatdırılması, daha doğrusu, razılaşdırılmamış sahələrlə bağlı fikir mübadiləsi apardıq. Söhbət zamanı iki ölkənin ərazilərində teleradio proqramlarının qarşılıqlı yayımlanması ilə əlaqədar məsələlər müzakirə olunmuş və bu işin davam etdirilməsi barədə razılıq əldə edilmişdir. Hazırda bu sahədə əməkdaşlığın formaları nəzərdən keçirilir və müvafiq qurumlar arasında iş davam etdiriləcəkdir".

Sonda X.Xələfov növbəti görüşün Bakıda keçiriləcəyini demişdir.

AZƏRBAYCAN İKT VƏ BÜTÖVLÜKDƏ MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRƏ XÜSUSİ ƏHƏMİYYƏT VERİR

Yanvarın 30-da nazir Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Seneqalın İslam Konfransı Təşkilatı üzrə Milli Agentliyinin prezidenti Kərim Vadın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Kərim Vad demişdir ki, səfərdən məqsəd cari ilin martında Seneqalın paytaxtı Dakar şəhərində keçiriləcək İslam Konfransı Təşkilatının (İKT) zirvə toplantısı ilə bağlı ölkəsinin başçısının dəvət məktubunu Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etməkdir. O, zirvə toplantısına hazırlıq işləri haqqında ətraflı məlumat vermiş, konfransda təşkilatın yeni Nizamnaməsinin qəbul olunacağını bildirmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın İKT və bütövlükdə müsəlman ölkələri ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini bildirmiş, rəsmi Bakının ötən il İKT Xarici İşlər Nazirləri Şurasına sədrlik etdiyini və bu fəaliyyətin təşkilat tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırmışdır. Seneqalda keçiriləcək zirvə toplantısının ən yüksək səviyyədə təşkil olunacağına, təşkilatın dəyişən beynəlxalq şəraitə uyğun fəaliyyət göstərməsi üçün qəbul ediləcək yeni Nizamnamənin bu istiqamətdə geniş imkanlar açacağına ümid etdiyini bildirmişdir.

E.Məmmədyarov Azərbaycanın Seneqal ilə ikitərəfli münasibətlərin inkişafında, siyasi və iqtisadi sahədə əlaqələrin dərinləşməsində maraqlı olduğunu vurğulamış, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlığın mövcudluğunu qeyd etmişdir.

Görüşdə daha sonra tərəfləri maraqlandıran müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru Marqaret Çanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Marqaret Çan Azərbaycana yenidən səfər etməsindən qürur duyduğunu vurğulayaraq dedi ki, bu, DST-nin baş direktoru kimi onun ölkəmizə ilk səfəridir.

Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə seçilməsi münasibətilə Marqaret Çanı təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın DST ilə əməkdaşlığı bundan sonra da uğurla davam etdiriləcəkdir. Prezident İlham Əliyev daha sonra dedi: "Azərbaycana artıq başladığınız bir neçə günlük səfərinizdən yəqin bilirsiniz ki, səhiyyə sistemimizin bütövlükdə inkişaf etdirilməsi, müasirləşdirilməsi və ən müasir avadanlıqlarla təmin olunması, eləcə də yeni xəstəxanaların tikintisi ilə bağlı geniş planlarımız var. Artıq bu istiqamətdə xeyli nailiyyətlər əldə olunub, lakin qarşıda daha böyük planlarımız var".

Marqaret Çan dedi: "Cənab Prezident əvvəlcə, icazə verin, Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə seçkilər zamanı namizədliyimin dəstəklənməsinə görə Azərbaycan hökumətinə, şəxsən Sizə minnətdarlığımı bildirim. Azərbaycana səfərimdən olduqca məmnunam. Mənim burada kütləvi informasiya vasitələrinin nümayəndələri və müxtəlif insanlarla söhbətlərimə əsaslanaraq demək istəyirəm ki, Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun sağlamlığına bu cür böyük önəm verən Prezidenti var. Səhiyyə sistemində başladığınız islahatlar, bu sahədə irəli sürdüyünüz mühüm təşəbbüslər, Neft Fondunun vəsaitlərindən səhiyyənin məqsədləri üçün istifadə olunması, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı planlarınız təqdirəlayiqdir. Sizin Azərbaycan xalqının rifahına yönəlmiş xidmətləriniz, habelə xanım Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti onu deməyə əsas verir ki, Azərbaycan xalqının gələcəyi etibarlı əllərdədir. Yeri gəlmişkən, ötən il Cenevrədə Mehriban xanımla görüşmək şərəfinə nail olduğumu məmnunluqla qeyd etmək istəyirəm".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI "ÜÇLÜYÜ"NÜN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Prezident sarayında hazırda Avropa İttifaqında sədrlik edən Sloveniya Respublikasının xarici işlər naziri Dmitri Rupelin başçılıq etdiyi və Avropa Qonşuluq Siyasəti və xarici əlaqələr üzrə Avropa komissarı xanım Benita Ferrero-Valdnerin daxil olduğu Avropa İttifaqı "üçlüyü"nün nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı əmin olduğunu vurğuladı ki, Avropa İttifaqı "üçlüyü"nün regiona bu səfəri əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaradacaqdır. Avropa İttifaqı ilə əla-

qələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bundan əvvəlki görüşlər zamanı da qarşılıqlı faydalı fikir mübadiləsi aparıldığını xatırlatdı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin bu səfəri də əldə edilmiş nailiyyətlərin möhkəmləndirilməsinə və əməkdaşlığın gələcək perspektivlərinin müzakirə olunmasına xidmət edəcəkdir.

Sloveniyanın xarici işlər naziri Dmitri Rupel Bakıya səfər zamanı nümayəndə heyətinin azərbaycanlı dostları və həmkarları ilə səmərəli görüşlər keçirmək niyyətində olduğunu söylədi. O, nümayəndə heyətinə Avropa Qonşuluq Siyasəti və xarici əlaqələr üzrə Avropa komissarı xanım Benita Ferrero-Valdnerin, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin və digər məsul şəxslərin daxil olduğunu bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AKADEMİK PROQRAMLAR ÜZRƏ MÜŞAVİRİ TOMAS FARRELLİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında ABŞ Dövlət katibinin akademik proqramlar üzrə müşaviri Tomas Farrelli qəbul etmişdir.

Tomas Farrell ölkəmizə əvvəlki səfərlərindən ötən dövr ərzində Azərbaycanda böyük inkişafın və irəliləyişlərin şahidi olduğunu vurğuladı. O, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə müasir cəmiyyət quruculuğu istiqamətində atılan addımlardan yaxşı xəbərdar olduğunu söylədi.

Dövlətimizin başçısı ölkəmizdə bütün sahələrdə son illər böyük uğurlar qazanıldığını vurğulayaraq Azərbaycanın gələcək inkişafı üçün qarşıda mühüm vəzifələrin dayandığını bildirdi.

Görüşdə Azərbaycan ilə ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİ VƏ YEVGENİYA JİVKOVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında AŞPA-nın Monitorinq Komitəsinin həmmərüzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir.

Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlığa və həmmərüzəçilərin ölkəmizə səfəri ilə bağlı müxtəlif məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ JAK ROQQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Jak Roqqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı cənab Jak Roqqun BOK-un prezidenti kimi Azərbaycana ilk dəfə səfər etdiyini bildirdi və onunla əvvəllər keçirdiyi görüşləri məmnunluqla xatırladı. Ölkəmizdə bir sıra beynəlxalq idman tədbirlərinin, o cümlədən Afina Olimpiya oyunlarına lisenziya verən boks, voleybol və taekvondo üzrə nüfuzlu idman yarışlarının yüksək səviyyədə təşkil edildiyini bildirən dövlətimizin başçısı Azərbaycanda ənənəvi olmayan idman növlərinin inkişafına da diqqət yetirildiyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə geniş idman infrastrukturunun yaradılması ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərə toxunaraq qeyd etdi ki, Azərbaycanda beynəlxalq standartlara tam cavab verən 13 regional idman kompleksi istifadəyə verilmiş, 23 idman mərkəzi isə tikilməkdədir.

Prezident İlham Əliyev idmançıların sosial şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqət yetirildiyini vurğuladı. "İdman təkcə uğurlar və nailiyyətlərdən ibarət deyil, həm də millətin gələcəyidir" deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan idmanın inkişafı ilə bağlı öz siyasətini bundan sonra da davam etdirəcəkdir.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Jak Roqq Azərbaycanda bütün sahələrdə dinamik inkişafın şahidi olduğunu məmnunluqla ifadə etdi. Azərbaycanda idman sahəsində görülən işləri, olimpiya hərəkatının geniş vüsət aldığını xüsusi vurğulayan Jak Roqq Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin Beynəlxalq Olimpiya Komitəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "COMMERZBANK"ININ SƏDR VƏZİFƏSİNİ İCRA EDƏN MARTİN BLESSİNQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında Almaniyanın "Commerzbank"ının sədr vəzifəsini icra edən Martin Blessinqi qəbul etmişdir.

Azərbaycana ilk dəfə gəldiyini deyən qonaq bildirdi ki, ölkəmizə səfərinin məqsədi "Commerzbank"ın Bakı ofisinin rəsmi açılış mərasimində iştirak etməkdir. İki ölkə arasında iqtisadi sahədə əlaqələrin genişləndiyini məmnunluqla vurğulayan Martin Blessinq rəhbərlik etdiyi bankın Bakı ofisinin açılmasına dəstəyinə görə ölkə rəhbərliyinə təşəkkür etdi və ofisin fəaliyyətinin gələcəkdə iqtisadi əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəyini bildirdi.

Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu baxımdan Bakıda

Almaniya bankının ofisinin açılmasını əməkdaşlığın mühüm göstəricisi kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MÜHARİBƏ VETERANLARININ İCTİMAİ KOMİTƏSİ" BEYNƏLXALQ İCTİMAİ BİRLİKLƏR İTTİFAQININ III QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Prezident sarayında "Müharibə Veteranlarının İctimai Komitəsi" Beynəlxalq İctimai Birliklər İttifaqının Bakıda keçirilən III qurultayının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Mən sizin hamınızı ürəkdən salamlayıram. Bütün dostlarımızı yenidən görməyimə şadam. Mən çox şadam ki, sizin qurultayınız məhz Bakıda keçirilir. Hesab edirəm ki, qurultayın keçirilmə yeri kimi bizim şəhərin seçilməsi çox düzgün qərardır. Əminəm ki, qurultayda qəbul ediləcək qərarlar və aparılan müzakirələr veteranlar arasında, ölkələrimizin nümayəndələri arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Biz Azərbaycanda bütün müharibələrin veteranlarının, öz vətənini müdafiə etmiş, bu yolda əzab-əziyyət çəkmiş, sağlamlığını itirmiş, yaralanmış, qəhrəmanlıq göstərmiş insanların dəstəklənməsinə çox böyük diqqət yetiririk. Sizin nümunəniz böyüməkdə olan nəsil üçün, onun da sizin kimi vətənpərvərlik ruhunda böyüməsi və öz Vətənini, öz xalqını müdafiə etməyə həmişə hazır olması üçün çox vacibdir.

Mən çox şadam ki, bütün müharibələrin veteranları bir-birini dəstəkləyir, görüşür, ünsiyyət saxlayırlar. İndi, bizim müxtəlif dövlətlərdə yaşadığımız bir vaxtda əvvəllər xalqlarımız arasında mövcud olmuş əlaqələrin qorunub saxlanması və möhkəmlənməsi çox lazımdır. Ona görə də bu baxımdan mən sizin fəaliyyətinizi vaxtilə Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələr arasında münasibətlərin davam etdirilməsinin vacib elementi hesab edirəm.

İndi yeni nəsil yetişir. Biz artıq 16 ildir ki, öz müstəqilliyimizi qeyd edirik və təbii ki, bu gün 20 yaşı, hətta 25 yaşı olan gənclərin bizim nəslin malik olduğu ünsiyyət imkanları olmamışdır. Ona görə də illər keçdikcə bu əlaqələr gərək itirilməsin. Bu baxımdan sizin nümunəniz, sizin təşəbbüsünüz və sizin yaratdığınız təşkilat çox böyük əhəmiyyət kəsb edir. O cümlədən əməkdaşlıq, qarşılıqlı dəstək, veteranlar təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi üzrə əməli iş baxımından, eləcə də vaxtilə bizi bir-birimizə bağlayan bütün yaxşı cəhətlərin qorunub saxlanması və davam etdirilməsi baxımından çox vacibdir.

Bakı həmişə beynəlmiləl şəhər olmuşdur, burada müxtəlif xalqların nümayəndələri yaşamışdır və indi də yaşayır. Onlar bir ailə kimi, dostluq və qardaşlıq şəraitində yaşayırlar. Sovet İttifaqı dövründə bizim şəhər həmişə bu xüsusiyyəti ilə fərqlənmişdir. Çox mühümdür ki, müstəqillik qazanıldıqdan sonra da bu ənənələr itirilməmiş, davam edir. Ona görə də bir daha demək istəyirəm ki, qurultayınızın keçirilməsi üçün bizim şəhəri

seçməyinizi mən çox düzgün hesab edirəm. Əminəm ki, sizin qəbul edəcəyiniz qərarlar xeyirxahlığa, xalqlarımız arasında qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Həmçinin ümid edirəm ki, Bakıda qaldığınız müddətdə sizin bu şəhərlə tanış olmaq, köhnə dostlarınızla görüşmək imkanınız olacaqdır. Yəqin ki, çoxunuz əvvəllər burada olmusunuz və şəhərin necə inkişaf etməsini görmək maraqlı olacaqdır.

İndi biz şəhər təsərrüfatının beynəlxalq standartlara müvafiq olması, müasir infrastruktur yaratmaq üçün çox səy göstəririk. Şəhərin tarixi simasının qorunub saxlanmasına - binaların bərpa edilməsi işlərinə və mədəniyyət abidələrinin mühafizəsi ilə əlaqədar tədbirlərə də böyük məbləğdə sərmayə qoyulur. Bunlar bizim diqqət mərkəzimizdədir. Başqa sözlə desək, mədəni proqram üçün imkan tapmağınızı məsləhət görərdim. Yəqin ki, Bakı sizin xatirinizdə qalsın deyə, belə bir proqram nəzərdə tutulmuşdur.

Sizi bir daha ürəkdən salamlayıram, hamınıza öz ehtiramımı bildirirəm. Siz hamınız ləyaqətli insanlarsınız, öz ölkənizi qoruyarkən igidlik, qəhrəmanlıq göstərmiş adamlarsınız. Hamınıza səadət və uğurlar arzulayıram.

"Müharibə Veteranlarının İctimai Komitəsi" Beynəlxalq İctimai Birliklər İttifaqının sədri RUSLAN AUŞEV Prezident İlham Əliyevə təşəkkürünü bildirərək dedi:

- Möhtərəm İlham Heydəroğlu, mən dünən sədr seçilmişəm və demək istərdim ki, bizim Beynəlxalq İttifaq yeni formalı beynəlxalq birlikdir. Yəni buraya daxil olan təkcə MDB ölkələri deyildir. Bu Beynəlxalq İttifaq daha geniş formata malikdir, çünki 2005-ci ildən etibarən biz Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının məşvərətçi üzvləriyik. Demək istəyirəm ki, bu, böyük bir qeyri-hökumət təşkilatıdır və biz veteranlar dəstəsi kimi orada belə statusa malikik. Ona görə də biz bu gün səylərimizi artırırıq. Biz təkcə müharibə veteranlarının, onların ailə üzvlərinin problemləri ilə deyil, həm də qaçqınların məsələləri, vərəmə, narkomaniyaya qarşı mübarizə problemləri ilə də məşğul oluruq. Hər halda, bu problemlərin həllinə kömək edirik.

Bizim qurultayın işi üçün bu cür şərait yaratdığına görə Sizə bir daha "çox sağ olun" demək istəyirəm. Bir daha Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Biz bütün mövcud proqramlara qoşulmağa hazırıq. Əlbəttə, ilk növbədə, Azərbaycanda olan problemləri başa düşürük. Hələ Sovet İttifaqı dövründə yaranmış sülh problemi, qaçqınlarla bağlı problemlər, qarşılıqlı münasibətlər problemi həll edilməlidir. Buyurun, bizim təcrübəmizdən istifadə edin. Biz əlaqələndirici körpülər yarada, insanlarla danışa, müxtəlif formalar tətbiq edə bilərik. Biz çox sevinirik ki, - mən MDB məmurlarından biri kimi bunu bilirəm, - hazırda azərbaycanlı qardaşlarımız, Azərbaycan ÜDM-in artımı göstəricilərinə görə MDB-də birinci yerdədir. Bu, çox yaxşı dinamikadır və bunu yalnız artırmağınız lazımdır. Buna görə də mən bir daha Sizə təşəkkür etmək istərdim. Demək istəyirəm ki, bizim burada olduğumuz müddətdə hətta, günəşin üzünü bir dəfə də olsun buludlar örtməmişdir. Buna görə Sizə minnətdarıq.

İLHAM ƏLİYEV: Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sağ olun. Doğrudan da bizdə dinamika müsbətdir, dalbadal üçüncü ildir ki, iqtisadi artım göstəricisinə görə biz dünyada birinci yeri tuturuq. Son üç ildə iqtisadiyyatımız 86 faiz artmışdır. Təbii ki, bütün bunlar insanların həyat səviyyəsinə də, yoxsulluğun 50 faizdən 16 faizə düşməsinə də təsir göstərmişdir. Siz çox mühüm bir məsələyə - qaçqınlar məsələsinə toxundunuz.

Əlbəttə, bu, çox böyük sosial, iqtisadi və siyasi problemdir. Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində 1 milyon azərbaycanlı qaçqına və ölkə daxilində məcburi köçkünə çevrilmişdir. 250 min adam Ermənistandan, daha 700 min nəfər Azərbaycanın işğal olunmuş ərazilərindən qovulmuşdur. Bundan əlavə, Azərbaycanın hüdudlarından kənarda, yəni başqa respublikalarda baş vermiş münaqişələr zamanı zərər çəkmiş, milliyyətcə azərbaycanlı olmayan insanlar da indi bizim ölkədə yaşayırlar. Sığınacaq üçün bizə müraciət edənlərin hamısını qəbul etmişik.

Biz çadırlarda, çox ağır, yararsız şəraitdə yaşayan qaçqınların köçürülməsi üzrə çox geniş proqram həyata keçiririk, bizdə 10-dan artıq çadır düşərgəsi vardı, onların hamısını ləğv etmişik və 100 minə yaxın insanı evlərə köçürmüşük. Müharibə nəticəsində işğaldan azad etdiyimiz ərazilərdə qəsəbələr, məktəblər, xəstəxanalar tikmiş, infrastruktur obyektləri yaratmışıq. İndi yeni proqram həyata keçiririk. Bu iki proqram dövlətə 1 milyard dollara başa gələcəkdir. Lakin insanların vəziyyətini yaxşılaşdırmaq üçün bunu etməyə borcluyuq.

Ancaq bunlar problemin həlli demək deyildir. Problemin həlli ondan ibarətdir ki, bizim torpaqlar azad edilməlidir. Biz buna sülh yolu ilə nail olmağa çalışır və səylərimizi göstəririk. Lakin əlbəttə, paralel olaraq öz Silahlı Qüvvələrimizin qüdrətini artırırıq. İndi müdafiə xərcləri büdcə xərclərində birinci yeri tutur. Buraya hərbi qulluqçuların maddi rifahının - onların əmək haqqının, pensiyalarının artırılması, eləcə də tikinti, infrastruktur, texnika alınması ilə bağlı xərclər daxildir.

Artıq keçən ildən biz hərbi məhsul istehsalına başlamışıq, Müdafiə Sənayesi Nazirliyi yaratmışıq, bir il müddətində bir neçə zavod işə salınmışdır. Bu il Azərbaycanda müdafiə xərcləri 1 milyard 300 milyon dollara bərabər olacaqdır. Əlbəttə, bu məbləğin bir hissəsi hərbi qulluqçuların maddi rifahının yaxşılaşdırılmasına, bir hissəsi isə, əlbəttə ki, müdafiə potensialının möhkəmləndirilməsinə sərf ediləcəkdir. Lakin təbii ki, bu məsələdə biz sizin dəstəyinizə və qarşı tərəfin məsələyə bu cür yanaşmasının perspektivsiz olmasını imkan daxilində onlara başa salacağınıza ümid edirik. XXI əsrdə beynəlxalq normaların bu cür kobud şəkildə pozulması, beynəlxalq ictimai rəyə məhəl qoyulmaması mümkün deyildir. Ümumiyyətlə, işğal faktının özü yolverilməzdir. Lakin təəssüf ki, danışıqlar prosesində müəyyən irəliləyiş olsa da, hələlik bir nəticə verməmişdir. Amma mən şübhə etmirəm ki, biz bu məsələni həll edəcəyik, çünki ədalət də, beynəlxalq hüquq da bunu tələb edir. Əlbəttə, bizi dəstəklədiyinizə görə sizə təşəkkür edirəm. Biz çalışacağıq ki, inkişaf sürətini azaltmayaq. Gələcək üçün yaxşı perspektivlərimiz var. Ölkənin maliyyə vəziyyəti yaxşılaşır və təbii ki, biz veteranların, hərbi qulluqçuların sosial məsələlərini daha ciddi şəkildə həll edəcəyik.

Sonra Qazaxıstan Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin müdiri SERİK MUKANOV Azərbaycan dövlətinin başçısına suvenirlər təqdim etdi. O dedi:

- Mənə Qazaxıstan Prezidentinin tapşırığı ilə Sizə kiçik bir hədiyyə - Astana haqqında kitab, onun mənzərələrindən ibarət fotoalbom və Qazaxıstanın rəmzi sayılan Baytcrek abidəsinin maketini təqdim etmək kimi böyük şərəf nəsib olmuşdur. İcazə verin, Heydər Əliyevin xatirəsinə çox böyuk ehtiram bəslədiyimizi bildirim. Mənə onunla görüşmək səadəti nəsib olmuşdur. Bu insan müdriklik və məntiqlik, xeyirxahlıq, ədalət və zəka təcəssümü idi. O, bütün məsələlərin həllinə o qədər dərindən yanaşır, bunu insan-

lar üçün o qədər anlaşıqlı şəkildə edirdi ki, təkcə bizim xalqların xatirəsində deyil, bir sıra ölkələrin xalqlarının xatirəsində çox dərin iz qoymuşdur.

İLHAM ƏLİYEV: Çox sağ olun. Nursultan Abişeviçə mənim təşəkkürümü və ən xoş arzularımı çatdırın.

Hərbi əsirlərin və itkin düşənlərin işləri üzrə Rusiya-Amerika birgə komissiyasının ABŞ tərəfdən icraçı katibi NORMAN KAS dedi:

- Burada iştirak etməyimə şadam. Məni dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Biz bu nəcib işdə təxminən 16 il bundan əvvəl yaradılmış birgə komissiyanın fəaliyyəti ilə əlaqədar iştirak edirik. Komissiya bizim hərbi əsirlərin və itkin düşənlərin taleyini aydınlaşdırmaq üçün bütün səyləri göstərir. Amerika tərəfi üçün bu məsələ İkinci Dünya müharibəsindən başlamış "soyuq müharibə" qurtarana qədər olan dövrü əhatə edir. Bizim rusiyalı həmkarlarımız üçün isə bu dövr Koreya müharibəsi və Yaxın Şərq hadisələri də daxil olmaqla yerli, lokal münaqişələri əhatə edir. Bu sahədə aparılan işlər genişlənir, lakin bizim fikrimizcə burada nə isə çatışmır. Yəqin ki, bu, veteran qruplarının fəal iştirakının olmamasıdır. Biz öz işimizə düzəliş etməyə çalışırıq ki, veteran qrupları bu problemin həllində daha fəal iştirak etsinlər. Məhz bu qlobal tədbir çərçivəsində biz Komitənin üçüncü qurultayında iştirak etməyə dəvət olunmuşuq. İşimizin gedişində şəxsən Sizin və hökumətinizin bizə göstərə biləcəyi hər hansı köməyə, dəstəyə görə əvvəlcədən təşəkkürümüzü bildiririk. Sağ olun.

İLHAM ƏLİYEV: Ümumiyyətlə, çox yaxşı haldır ki, siz bütün müharibələrin veteranlarını birləşdirirsiniz. Bu, çox müdrik qərardır. Siz müxtəlif proqramlar həyata keçirirsiniz. Bu, çox düzgündür. Əgər biz də bu işdə hər hansı şəkildə iştirak edə biləriksə, həm dövlət xətti ilə, həm də ictimai təşkilatlar xətti ilə məmnuniyyətlə qoşularıq.

Sonra Rusiya veteranlarının "Döyüş qardaşlığı" ictimai birliyinin sədri GENNADİ ŞOROXOV çıxış etdi:

- Hörmətli cənab Prezident, Boris Vsevolodoviç Qromovun Sizin atanıza, Azərbaycan xalqının ulu öndərinə necə münasibət bəslədiyini bilirsiniz. O deyirdi ki, Heydər Əliyev çox gözəl insan idi. Mən yəqin ki, burada iştirak edənlərin hamısının fikrini ifadə edərək demək istəyirəm ki, hazırda veteranlar üçün gördüyünüz işlərə görə, bu cür səmimi qəbula görə Sizə çox minnətdarıq. Mən Boris Vsevolodoviçin Sizə, Azərbaycan xalqına ən xoş arzularını çatdırmaq istəyirəm. Mən artıq bir neçə dəfə burada olmuşam və güman edirəm ki, görüşlərimiz davam edəcəkdir.

İLHAM ƏLİYEV: Sağ olun. Boris Vsevolodoviçə mənim səmimi salamlarımı çatdırın. Rusiyanın müxtəlif vilayətləri ilə bizim əlaqələrimiz çox yaxşıdır və qubernatorlar tez-tez buraya gəlirlər. Bu da çox vacibdir. Əməli məsələlər həll olunur, ikitərəfli əlaqələr, iqtisadi təmaslar inkişaf edir. İndi Rusiyada artıq kifayət qədər təşkilatlanmış Azərbaycan icması, Rusiyanın bütün regionlarını əhatə edən Ümumrusiya Azərbaycan Konqresi mövcuddur. Sizin hamınıza uğurlar arzulayıram. Sizi görməyimə çox şadam. Güman edirəm ki, yaxın gələcəkdə siz yenidən Azərbaycana gəlmək üçün fürsət tapacaqsınız, qurultay olmasa da, başqa tədbirlərə gələrsiniz. Siz həmişə bizə ümid ola bilərsiniz və Bakını beynəlxalq görüşlər, seminarlar, konfranslar keçirilən yerlərdən birinə çevirə bilərsiniz. Bu tədbirləri müxtəlif şəkildə adlandırmaq olar. Amma əsas məsələ budur ki, həmin proses getsin, aramızda ünsiyyət, əlaqələr olsun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DAĞLIQ QARABAĞ ÜZRƏ ALTKOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə altkomitəsinin sədri lord Rassel Constonu qəbul etmişdir.

Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BAKIDA XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU VƏ DƏNİZ DİBİNİN BÖLÜNMƏSİ ÜZRƏ EKSPERT QRUPLARININ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Ffevralın 6-dan 8-dək Bakıda Azərbaycanın və Türkmənistanın xarici işlər nazirlərinin müavinləri Xələf Xələfov və Xoşgəldi Babayevin rəhbərliyi ilə Xəzər dənizinin orta xətt koordinatlarının müəyyən edilməsi üzrə ekspert qruplarının görüşü keçirilmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, dostluq və qarşılıqlı anlaşma şəraitində keçən danışıqlarda Xəzər dənizinin hüquqi statusuna dair fikir mübadiləsi aparılmış, Azərbaycan Respublikası ilə Türkmənistan arasında Xəzər dənizinin dibinin bölünməsi, orta xətt koordinatlarının müəyyən edilməsi üzrə məsələlər geniş müzakirə edilmişdir. Orta xətt koordinatlarının baza elementləri, xəritələr, kartoqrafiya və proqram təminatı materialları araşdırılmış, bu istiqamətdə danışıqlar prosesində irəliləyişlərin ümumi razılığın əldə olunmasına xidmət edəcəyi vurğulanmışdır.

Tərəflər müzakirələrin nəticələrini müsbət qiymətləndirmiş və növbəti görüşün Aşqabadda keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN VƏ QƏTƏR DİPLOMATİK KADRLARIN HAZIRLANMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR

Xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayevin başçılıq etdiyi nümayəndə heyəti fevralın 9-dan 11-dək Qətərdə rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində Hafiz Paşayev Qətərin Baş naziri, xarici işlər naziri Şeyx Həməd bin Casim bin Cəbr Əl Təni, Əmir Divanının rəhbəri Şeyx Abdul Rəhman bin Əl Səud Əl Təni, Elm, Tərbiyə və İctimai İnkişaf Fondunun vitse-prezidenti Abdulla Ben Ali Əl Təni, Xarici İşlər Nazirliyinin İnsan Resurslarının İnkişafı və Təlimi İdarəsinin rəisi Hamad Əl Atiyyə, Dohadakı Corctaun Universitetinin Beynəlxalq və Regional Araşdırmalar Mərkəzinin direktoru professor Mehran Kəmrava ilə görüşlər keçirmişdir.

Qətərin Baş naziri ilə görüşdə ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmış, tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olunmuşdur. Dövlətlərimizin başçılarının ölkələrimiz arasında mövcud əlaqələrin inkişafına xüsusi önəm verdikləri, münasibətlərin daha da dərinləşdirilməsi əzmində olduqları vurğulanmışdır.

Görüşlərdə Azərbaycanda Diplomatik Akademiyanın yaradılması barədə ətraflı məlumat verən H.Paşayev, diplomatik kadrların hazırlanması sahəsində əməkdaşlığın zəruriliyini diqqətə çatdırmışdır. Xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Qətərin gənc diplomatlarının Azərbaycanda təhsil almaları təklifini irəli sürmüşdür. Qətər tərəfi bu təklifi maraqla qarşılamışdır.

Azərbaycan nümayəndə heyətinin səfəri yerli mətbuatda geniş işıqlandırılmışdır.

Xarici işlər nazirinin müavini Hafiz Paşayev Qətərdə ingilis dilində nəşr olunan nüfuzlu "Qatar Tribune" qəzetinə müsahibə vermişdir.

"Azərbaycan Qətərə tələbə mübadiləsi proqramı təklif edib" sərlövhəli müsahibədə bildirilir ki, bu proqram çərçivəsində qətərli tələbələr Bakıda yeni fəaliyyətə başlamış Diplomatik Akademiyada, azərbaycanlı tələbələr isə Dohadakı Corctaun Universitetinin Beynəlxalq Siyasət İnstitutunda təhsil alacaqlar.

Azərbaycanın xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev deyib: "Qətər təhsilin inkişafına böyük diqqət göstərir. Mən buraya diplomatik təhsil sahəsində ikitərəfli əlaqələrimizi inkişaf etdirmək təklifi ilə gəlmişəm. Qətərli tələbələri tədris sistemi ingilis dilində olan Azərbaycan Diplomatik Akademiyasında görmək istərdim. Bizim akademiyanın tələbəsi olmaq onlar üçün maraqlı olacaqdır. Onlar Bakıda keçmiş sovet respublikaları ilə bağlı çox şey öyrənəcəklər. Bizim akademiyada peşəkar diplomatlar hazırlanır. Bunun qarşılığında, azərbaycanlı tələbələr burada kurslarda iştirak edə, ərəb dünyası haqqında təsəvvürlərini genişləndirə bilərlər. Deməliyəm ki, Qətər ərəb dünyasına ən yaxşı qapıdır. Hesab edirəm ki, bu, ölkələrimiz üçün faydalı olacaqdır."

KİYEVDƏ GUAM-IN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏRİNİN 9-CU İCLASI KEÇİRİLİR

Fevralın 12-də Kiyevdə Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat - GUAM-ın milli əlaqələndiricilərinin 9-cu iclası işə başlamışdır.

Azərbaycan Xarici İşlər Nazirliyinin idarə rəisi Tofiq Musayevin də iştirak etdiyi toplantıda təşkilata üzv ölkələrdə mövcud münaqişələrin BMT çərçivəsində nizamlanması istiqamətində siyasi əməkdaşlıq, GUAM-ın ABŞ, Yaponiya və Polşa ilə münasibətlərinin inkişafı, qurumun katibliyinin fəaliyyəti və digər məsələlər müzakirə olunur.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ 44-CÜ TƏHLÜKƏSİZLİK KONFRANSINDA AVROPA TARİXİ İLƏ BAĞLI ŞƏRHLƏ ÇIXIŞ ETMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Almaniyanın Münxen şəhərində keçirilən 44-cü Təhlükəsizlik Konfransında Avropa tarixi ilə bağlı şərhlə çıxış etmişdir.

Bu barədə fevralın 12-də keçirdiyi mətbuat konfransında nazirliyin mətbuat xidmətinin rəhbəri Xəzər İbrahim məlumat vermişdir. X.İbrahim demişdir ki, Elmar Məmmədyarov Avropa məkanında sabitlik və təhlükəsizliyin bərqərar edilməsi üçün sərt addımların atılmalı olduğunu diqqətə çatdırmış, separatizmə son qoyulmasının və mövcud münaqişələrin həllinin vacibliyini vurğulamışdır.

Elmar Məmmədyarov konfrans çərçivəsində Litvanın, Almaniyanın və Serbiyanın xarici işlər nazirləri, habelə ABŞ nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür.

Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ BOBOZODA QULOMCONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Prezident sarayında Tacikistanın iqtisadi inkişaf və ticarət naziri, Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın həmsədri Bobozoda Qulomconun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bobozoda Qulomcon bildirdi ki, Azərbaycan və Tacikistan Prezidentlərinin görüşlərindən irəli gələn vəzifələrə uyğun olaraq Tacikistanla Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası komissiyanın işçi qrupu artıq öz işinə başlayıb və Bakıda bir sıra məhsuldar görüşlər keçirib. Qonaq növbəti iclasın bu il Düşənbə şəhərində keçiriləcəyi barədə də Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı Tacikistan Prezidenti ilə görüşlərini məmnunluqla xatırlayaraq həmin görüşlərdə ikitərəfli ticarət dövriyyəsinin səviyyəsinin artırılması və uzunmüddətli iqtisadi əlaqələrin qurulması kimi mühüm məsələləri müzakirə etdiklərini vurğuladı. Prezident İlham Əliyev Bakıda keçirilən birgə Hökumətlərarası komissiyanın işçi qrupunun iclasının işə başlamasının iqtisadi əməkdaşlığımızın genişləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

KİYEVDƏ Aİ VƏ QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ DAVAM EDİR

Fevralın 14-də Kiyevin "Premyer palas" hotelində Avropa İttifaqı və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

Forumda Aİ və QİƏT-in 12 ölkəsinin xarici işlər nazirləri, 18 xarici işlər nazirinin müavini, 20-dən çox beynəlxalq təşkilatın rəhbərləri iştirak edir.

Ölkəmizi Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil edir.

Görüşün rəsmi açılışında çıxış edən Ukrayna Prezidenti Viktor Yuşşenko bildirmişdir ki, onun ölkəsi Qara dəniz regionunda Azad ticarət zonasının yaradılmasına tərəfdardır.

O vurğulamışdır ki, Qara dəniz regionu vahid Avropanın ayrılmaz hissəsidir və bu regionda əməkdaşlıq Avropa inteqrasiyasının ümumi məntiqinə uyğun olmalıdır. V.Yuşşenko regionun misilsiz tranzit potensialından istifadə olunmasını Avropa İttifaqının Qara dəniz regionu ölkələri ilə əməkdaşlığının daha bir prioriteti adlandırmışdır. Prezident Ukrayna tərəfinin regionda qarşılıqlı fəaliyyətin öncül istiqamətləri ilə bağlı fikirlərini

də diqqətə çatdırmışdır. Onların arasında "dondurulmuş" münaqişələrin dinc yolla həlli və onların mənfi nəticələrinin aradan qaldırılması məsələləri də vardır. Ukrayna Prezidenti demişdir: "Biz gələcəkdə də səylərimizi terrorizmin qarşısının alınması, qeyri-leqal miqrasiya, insan alveri, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üçün regional və beynəlxalq qarşılıqlı fəaliyyətin daim yüksək səviyyədə saxlanılmasına yönəldəcəyik".

Aİ-nin xarici əlaqələr və Avropa qonşuluq siyasəti məsələləri üzrə komissarı Benita Ferrero-Valdner mətbuat konfransında "dondurulmuş" münaqişələrin həllinə ümumi səylərlə kömək etmək istəyini ifadə etmişdir.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLL OLUNMAMASI REGİONAL SABİTLİYƏ VƏ TƏHLÜKƏSİZLİYƏ ƏN BÖYÜK TƏHDİDDİR

Fransa xarici işlər naziri Bernar Kuşnerin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarov fevralın 14-də fransalı həmkarı ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahimin verdiyi məlumata görə, bir saat davam etmiş görüş çox səmimi şəraitdə keçmişdir.

Görüşdə enerji məsələləri və enerji təhlükəsizliyi, regional məsələlər, o cümlədən bölgədə sabitlik və təhlükəsizlik problemləri müzakirə olunmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müzakirəsi zamanı nazir Elmar Məmmədyarov demişdir ki, problemin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. O, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasını regional sabitliyə və təhlükəsizliyə ən böyük təhdid olduğunu vurğulamış və demişdir ki, münaqişənin həlli regionda sülh və sabitliyə yol açacaqdır. Münaqişənin nizama salınmasına vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın fəallığını qeyd edən E.Məmmədyarov, problemin qısa zamanda həlli üçün Fransanın daha da fəal olmasını arzulamışdır.

Avropa Qonşuluq Siyasəti, habelə Azərbaycan ilə Fransa arasında ikitərəfli əlaqələr, demokratiya məsələləri nazirlərin görüşündə müzakirə mövzusu olmuşdur.

ABŞ AZƏRBAYCANIN TERRORA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA VERDİYİ TÖHFƏNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, fevralın 14-də nazir müavini Araz Əzimov ABŞ dövlət katibinin terrorizm məsələləri üzrə köməkçisinin müavini Frenk Urbançik ilə görüşmüşdür.

Azərbaycanın terrora qarşı mübarizədə beynəlxalq əməkdaşlığa verdiyi töhfəni və xüsusilə ABŞ-ın apardığı antiterror əməliyyatlarında iştirakını yüksək qiymətləndirən qonaq, bu əməkdaşlığı davam etdirməyin zəruriliyini vurğulamışdır.

Araz Əzimov terrorizmlə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinin vacibliyini qeyd edərək, terror qruplarının bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərdiyini bil-

dirmişdir. Nazir müavini bu baxımdan hər bir terror qrupunun bütövlükdə beynəlxalq aləm üçün təhdid yaratdığını qeyd etmiş, terrorçuluğa qarşı birgə mübarizənin vacib olduğunu vurğulamışdır. O, erməni terroruna məruz qalan Azərbaycan üçün bu əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını bildirmişdir.

A.Əzimov terrorun separatizm və ekstremizmlə əlaqəli olduğunu, habelə mütəşəkkil cinayətkarlığın, həmçinin narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah və insan alveri, çirkli pulların yuyulması cinayətlərinin artmasına səbəb olduğunu vurğulamışdır.

Nazir müavini bütün bu halların birgə əməkdaşlığı zəruri etdiyini diqqətə çatdırmış, Azərbaycanın beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, NATO tədbirləri çərçivəsində də bütün səylərini bu mübarizəyə yönəltdiyini demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Macarıstan Respublikasına dövlət səfərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Fevralın 18-də Budapeştdə, Şandor sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Prezidenti Laslo Şoyomun geniş tərkibdə görüşü olmuşdur.

Macarıstan Prezidenti Laslo Şoyom görüşü açaraq dedi ki, biz Qafqazda Azərbaycana strateji tərəfdaş kimi baxırıq, ölkələrimiz arasındakı əlaqələr dinamik şəkildə inkişaf edir. İkitərəfli münasibətlərimiz Avropa Birliyi çərçivəsində də əməkdaşlığımızın genişlənməsinə xidmət edir. Macarıstan Prezidenti vurğuladı ki, iqtisadi əlaqələrin inkişafı üçün yaxşı imkanlar var, biz xüsusilə energetika sahəsində Azərbaycanla əməkdaşlığa böyük diqqət yetiririk. Eyni zamanda, təhsil və elm sahəsində də əlaqələrin inkişaf etdirilməsində maraqlıyıq.

Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin müxtəlif sahələr üzrə genişləndiyini bildirərək dedi ki, biz indi yeni səviyyəyə qədəm qoyuruq. Bu gün imzalanacaq sənədlər bu əlaqələrin hüquqi bazasını yaradacaqdır. Avratlantik strukturlara inteqrasiya istiqamətində Macarıstanla əməkdaşlığımız, eyni zamanda, Azərbaycanın Avropaya inteqrasiyasının daha da genişlənməsinə xidmət edəcəkdir. İqtisadi əlaqələrin yaxşı perspektivlərinin olduğunu deyən Prezident İlham Əliyev fevralın 19-da keçiriləcək Azərbaycan-Macarıstan biznes forumunun əhəmiyyətli olacağını vurğuladı, energetika sahəsində müzakirələrin yaxşı getdiyini söylədi.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxundu, torpaqlarımızın 20 faizinin işğal edildiyini, ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkünün olduğunu xatırlatdı.

Macarıstan Prezidenti ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin məhz bu çərçivədə sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi.

Sonra sənədlərin imzalanma mərasimi oldu.

SƏNƏDLƏRİN İMZALANMASI

Fevralın 18-də Macarıstan Prezidentinin iqamətgahında, Şandor sarayında ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur..

Azərbaycan Prezidenti İlham Əliyevin və Macarıstan Prezidenti Laslo Şoyomun Birgə bəyanatı qəbul olundu.

Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Heydər Babayev, Macarıstan tərəfdən iqtisadiyyat və nəqliyyat naziri Cabo Kakoşi, Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında sazişi Azərbaycan tərəfdən vergilər naziri Fazil Məmmədov, Macarıstan tərəfdən maliyyə naziri Yanoş Vereş imzaladılar.

Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Macarıstanın iqtisadiyyat və nəqliyyat naziri Cabo Kakoşi Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlığa dair sazişi imzaladılar.

Azərbaycan Respublikasının və Macarıstan Respublikasının xarici işlər nazirlərinin Birgə bəyannaməsi də qəbul olundu.

Sənədlərin imzalanmasından sonra prezidentlər birgə mətbuat konfransı keçirdilər.

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI

Fevralın 18-də Macarıstan Prezidentinin sarayında ölkələrimiz arasında ikitərəfli münasibətlərə dair sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra prezidentlərin birgə mətbuat konfransı keçirilmişdir. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN BƏYANATI

- Xanımlar və cənablar,

Biz sizi mətbuat konfransında salamlayırıq. Mən bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə "Xoş gəlmisiniz!" deyirəm.

Cənab Prezidentin ölkəmizə dövlət səfəri başlayıbdır. Bu gün bizim danışıqlarımız oldu. Sabah da danışıqlarımızı davam etdirəcəyik. Biz hesab edirik ki, iki ölkə arasında olan münasibətlər çox yüksək səviyyədədir və bugünkü münasibətlərin gələcək inkişafının çox yaxşı perspektivləri var. Xüsusən də, sənədlərin imzalanması ilə bu perspektivlər üçün möhkəm hüquqi əsaslar yaradılmışdır.

Azərbaycan Cənubi Qafqaz regionunda bizim strateji tərəfdaşımızdır. Biz Azərbaycanı belə qəbul etmişik. Münasibətlərimizdə heç bir siyasi problemin olmamasından son dərəcə məmnunuq. İkinci Dünya müharibəsi zamanı Azərbaycanda həlak olmuş macar əsgərlərinin xatirəsini yad etmək məqsədi ilə Azərbaycanda xatirə lövhəsinin qoyulmasına görə mən cənab Prezidentə öz minnətdarlığımı bildirdim.

Biz cənab Prezidentlə yekdil bir fikrə gəldik ki, iki ölkə arasında olan iqtisadi münasibətlərin çox yaxşı perspektivləri var. Xüsusən də, macar şirkətləri gələcəkdə Azərbaycanın kənd təsərrüfatı sektoruna sərmayə qoymaqda maraqlıdır. Biz bunu da etiraf edirik ki, hər iki ölkə neft və qaz təchizatı sahəsində daşınma yollarının müxtəlifləşdirilməsinə böyük maraq göstərir. Bunu Avropaya, xüsusən də Macarıstan ərazisindən keçməklə çatdırılmasında maraqlıdırlar. Bu baxımdan Macarıstan Nabukko layihəsinin həyata keçirilməsini dəstəkləyir.

Macarıstan Avropa Birliyinini Yeni qonşuluq siyasəti çərçivəsində inteqrasiya sahəsində Azərbaycanla öz təcrübəsini bölüşmək istəyir. Biz Azərbaycanda qanunun aliliyini və demokratiyanın tam bərqərar olunması sahəsində aparılan islahatları dəstəkləyirik. Eyni zamanda, Avropa Birliyinin standartlarının, xüsusən də, insan hüquqları və mətbuat azadlığı sahəsində standartların Azərbaycanda tam bərqərar olunmasını dəstəkləyəcəyik. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident,

Hörmətli xanımlar və cənablar,

İlk növbədə, cənab Prezident, məni ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, bizim münasibətlərimiz strateji xarakter daşıyır və şübhə etmirəm ki, bu səfərdən sonra bu münasibətlər bütün istiqamətlərdə daha da möhkəmlənəcəkdir. Siyasi əlaqələr inkişaf etdikcə, əlbəttə ki, iqtisadi sahədə də əməkdaşlıq daha da yüksək pilləyə qalxacaqdır. Beləliklə, ikitərəfli münasibətlər hərtərəfli şəkildə inkişaf edəcəkdir.

2006-cı ildə Azərbaycan Avropa Birliyi ilə Yeni qonşuluq proqramının icrasına başlayanda bizim məqsədimiz 5 il ərzində Azərbaycanda mövcud olan meyarları Avropa Birliyinin meyarlarına yaxınlaşdırmaq olmuşdur və bu istiqamətdə biz çox sürətlə irəliyə gedirik. Macarıstanın qonşuluq proqramı çərçivəsində bizə verdiyi dəstəyə görə mən Sizə öz təşəkkürümü bildirirəm.

Bu gün ikitərəfli münasibətlərin, demək olar ki, bütün aspektləri müzakirə olundu və vahid bir qərara, fikrə gəldik ki, biz münasibətlərimizi bundan sonra da sürətlə inkişaf etdirməliyik, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmalıyıq. İndiki zamanda dünya və Avropa üçün xüsusi əhəmiyyət daşıyan enerji təhlükəsizliyi məsələləri də bu gün müzakirə olunmuşdur. Əminəm ki, ikitərəfli münasibətlərin inkişafında bu amil də öz rolunu oynayacaqdır.

Azərbaycan çox zəngin neft və qaz yataqlarına malikdir. Azərbaycanda çıxarılan neft və

qaz dörd istiqamətdə, dörd boru kəməri vasitəsilə Avropa və dünya bazarlarına nəql edilir. Keçən ilin sonunda tarixdə ilk dəfə olaraq, Azərbaycan qazı Avropa Birliyi məkanına göndərilmişdir. Avropa Birliyi ilə və Macarıstanla bu sahədəki əməkdaşlığımız davam etdiriləcəkdir. Biz yeni layihələrin üzərində işləyirik və bu layihələr həyata keçdikcə, Avropanın enerji təhlükəsizliyi daha da böyük dərəcədə təmin olunacaqdır. Azərbaycanın isə ixrac imkanları daha dolğun şəkildə icra ediləcəkdir.

Bir sözlə, mən aparılan danışıqların məzmunundan çox razıyam. Onu da qeyd etmək istəyirəm ki, mən cənab Prezidenti Azərbaycana dövlət səfərinə dəvət etdim və münasib bildiyi vaxtda biz onu Azərbaycanda qarşılamağa hazırıq. Əminəm ki, bu səfər də şübhəsiz, uğurlu olacaq və ikitərəfli münasibətlərin inkişafında çox ciddi rol oynayacaqdır. Təşəkkür edirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ LASLO ŞOYOMUN BİRGƏ BƏYANATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Respublikasının Prezidenti Laslo Şoyomun dəvəti ilə 2008-ci il fevralın 18-19-da Macarıstan Respublikasına dövlət səfəri etdi.

İki Prezident (bundan sonra: Tərəflər) Azərbaycan və Macarıstanın siyasi, sosial və iqtisadi inkişafı, habelə regional və çoxtərəfli əməkdaşlıqla əlaqədar məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Onlar Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında əlaqələrin inkişafı, əməkdaşlığın müasir formalarının araşdırılmasının qarşılıqlı maraq kəsb etməsi fikri ilə çıxış etdilər. Onlar beynəlxalq birliyin hazırkı dövrün təhdid və çağırışları ilə uyğun və səmərəli mübarizəsinin təmin edilməsi məqsədi ilə, BMT-nin islahatlarına xüsusi diqqət yetirməklə BMT, ATƏT və digər beynəlxalq təşkilatların dəstəklənməsi və möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirmək barədə razılığa gəldilər.

Tərəflər Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, eləcə də ATƏT-in Lissabon sammitində qəbul edilmiş 3 prinsip əsasında həllinin vacibliyini vurğuladılar. Tərəflər münaqişənin sülh yolu ilə həlli istiqamətində ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərini dəstəklədiklərini ifadə etdilər.

Hər iki tərəf yekdilliklə beynəlxalq terrorizmi pislədi, sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində qlobal səylərə dəstəklərini davam etdirəcəklərini təsdiqlədi. Bununla əlaqədar prezidentlər bütün qanunsuz fəaliyyətlərə qarşı mübarizədə BMT, eləcə də Avratlantik qurumları çərçivəsində əməkdaşlığın zəruriliyini qeyd etdilər. Onlar həmçinin Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində sıx əməkdaşlığın həyata keçirilməsinin məqsədəuyğunluğunu qeyd etdilər.

Hər iki Prezident demokratik standartlar, insan hüquqları, plüralizm, qanunun aliliyi və səmərəli idarəçiliyin təşviqi məqsədi ilə Avropa Şurası və ATƏT çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı dəstəkləmək barədə razılığa gəldi.

Tərəflər Avropa qonşuluq siyasəti və Avropa İttifaqı-Azərbaycan fəaliyyət planının səmərəli icrasının əhəmiyyətini vurğuladılar. Bu kontekstdə onlar Azərbaycanın Avropa təsisatlarına inteqrasiyası məqsədi ilə ümumi maraq kəsb edən bütün sahələrdə, xüsusilə aşağıdakı sahələrdə əməkdaşlığı təşviq etmək barədə razılığa gəldilər:

1. Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasəti ruhunda ümumi maraq kəsb edən genişmiqyaslı xarici siyasət məsələlərində dialoqu intensivləşdirmək;
2. Avropa İttifaqı və Azərbaycan Respublikası arasında təhsil, mədəniyyət, təlim və gənclər siyasəti sahələrində əməkdaşlığa, o cümlədən mədəniyyətlərarası dialoqun təşviqinə yardım;
3. Kənd təsərrüfatı və aqrar sənaye, əczaçılıq, neft kimyası sənayesi, infrastrukturun inkişafı (nəqliyyat, suların təmizlənməsi və suya qənaət sistemləri), planlaşdırma, layihələrin idarə edilməsi, inşaat və regional inkişaf siyasəti daxil olmaqla, enerji və qeyri-enerji sahələrində qabaqcıl təcrübə mübadiləsi;
4. Avropaya inteqrasiya üzrə informasiya və kommunikasiya strategiyasının həyata keçirilməsi sahəsində təcrübə mübadiləsi;
5. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qeyri-hökumət təşkilatları, dövlət və özəl sektor arasında mütəmadi əlaqələrə yardım göstərmək.

Tərəflər Avropanın enerji təhlükəsizliyinin əhəmiyyətini vurğuladılar və bununla əlaqədar Avropanın enerji tələbatının təmin edilməsində Xəzər dənizi regionu enerji ehtiyatlarının artan rolunu xüsusilə qeyd etdilər. Bu kontekstdə Tərəflər Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin, eləcə də NABUKKO qaz kəməri layihəsinin həyata keçirilməsinin strateji əhəmiyyətini qeyd edərək, qlobal enerji təhlükəsizliyinə töhfə verməyə hazır olduqlarını ifadə etdilər.

Tərəflər Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizini inkişaf etdirmək üçün nəqliyyat və yüklərin daşınması sahəsində ikitərəfli və regional əməkdaşlığın gücləndirilməsini zəruri hesab edirlər. Onlar qeyd etdilər ki, Şərq-Qərb dəhlizinin bir hissəsi kimi, regionun dəmir yolu sisteminin inkişafı qlobal iqtisadi inkişafa, o cümlədən regionda təhlükəsizliyə və sabitliyə əhəmiyyətli dərəcədə yardım edəcəkdir.

Tərəflər hər iki dövlət arasında ticarətin həcmini, iqtisadi və elmi əməkdaşlığın səviyyəsini onların iqtisadiyyatlarının imkanlarına və potensialına cavab verəcək səviyyəyə qaldırmaq, habelə investisiyaların təşviqi də daxil olmaqla, biznes fəaliyyəti üçün əlverişli hüquqi, institusional və digər şəraitin yaradılması üçün əlavə tədbirlər görəcəklər. Bu kontekstdə Tərəflər bu dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Macarıstan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş"in, "Azərbaycan Respublikasının xarici işlər naziri və Macarıstan Respublikasının xarici işlər naziri arasında birgə bəyannamə"nin və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Macarıstan Respublikasının İqtisadiyyat və Nəqliyyat Nazirliyi arasında əməkdaşlıq haqqında saziş"in imzalanmasını alqışlayırlar.

Tərəflər mədəniyyət, elm, təhsil və tibb, o cümlədən macar və Azərbaycan dillərinin öyrənilməsi və dövlətlərin mədəniyyətlərinin qarşılıqlı şəkildə yayılması sahəsində əməkdaşlığın inkişafının təşviqi zərurəti barədə razılığa gəlirlər. Hər iki ölkə arasında elm, mədəniyyət və kütləvi informasiya vasitələri sahələrində əlaqələr yaradılmalı və inkişaf etdirilməlidir.

Tərəflər enerji təhlükəsizliyinin təmin edilməsinin təxirəsalınmaz zərurətini təsdiq edirlər. Onlar, eyni zamanda, ətraf mühitin mühafizəsi və iqtisadiyyatın davamlı inkişafını xüsusilə əhəmiyyətli hesab edirlər. Bununla bağlı onlar BMT-nin bütün üzv dövlətlərini qlobal istiləşməni və onun zərərli fəsadlarını azaltmaq məqsədi ilə birgə səy göstərməyə çağırırlar. Bununla əlaqədar Tərəflər bütün dövlətlərin azad bazar şərtləri əsasında enerji ehtiyatlarına sərbəst çıxışının təmin olunması zərurətini təsdiq edirlər.

Budapeşt, 18 fevral 2008-ci il.

PREZİDENT İLHAM ƏLİYEVƏ MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Fevralın 18-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Macarıstanın nüfuzlu dövlət ali məktəblərindən biri olan Korvinus Universitetinin fəxri doktoru adı verilmişdir.

Ali təhsil ocağına gələn Azərbaycan Prezidenti İlham Əliyevi universitetin rektoru Tamaş Mesaroş binanın önündə hörmətlə qarşıladı.

Əvvəlcə Elmi Şura üzvlərinin iştirakı ilə görüş keçirildi. Tamaş Mesaroş dövlətimizin başçısına təhsil ocağı barədə məlumat verərək bildirdi ki, Mərkəzi Avropada ən böyük ali məktəblərdən sayılan bu universitetin 7 fakültəsində 17 mindən artıq tələbə təhsil alır, 620 nəfərdən çox professor-müəllim heyəti çalışır. Son 5 ildə universitet fəxri doktor adını yalnız Azərbaycan Prezidenti İlham Əliyevə vermişdir. 1919-cu ildə yaradılmış universitet İkinci Dünya müharibəsi zamanı bağlansa da, sonradan öz fəaliyyətini bərpa etmişdir.

Prezident İlham Əliyev fəxri doktor mantiyasını geyindi.

Sonra konfrans salonunda mərasim keçirildi. Salona toplaşanlar dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru NORBERT KİŞ dövlətimizin başçısını və xanımını, eləcə də Azərbaycan nümayəndə heyətini salamladı, universitetin rəhbərliyini və Elmi Şuranın üzvlərini təqdim etdi.

İctimai elmlər fakültəsinin dekanı, professor JOLT ROSTOVANİ Prezident İlham Əliyevin tərcümeyi-halını oxuyaraq dedi:

- Xanımlar və cənablar, bu təqdimat qəbul edilmiş qərarın aid olduğu şəxsiyyətə, Azərbaycanın Avropaya inteqrasiyası yolunda atılmış birinci addımların müəllifinə həsr olunur. O, elə bir şəxsiyyətdir ki, Xavyer Solana onu Avropa İttifaqının böyük dostu adlandırmışdır. Çünki o, ölkəsində siyasi və demokratik islahatların həyata keçirilməsi üçün müvafiq əsasları və Avropanın şərq qapısında yerləşən məkanda müasirləşmə və iqtisadi inkişafa şərait yaratmışdır.

Prezident İlham Əliyev ölkədaxili və beynəlxalq məsələlərin həllinə praqmatik yanaşmadan istifadə edir. O, müasir dünyanı çox yaxşı tanıyır və təşəbbüskardır. Cənab Əliyev Qonşuluq siyasəti çərçivəsində tədbirlər planının tərtib olunmasına fəal şəkildə töhfə vermişdir. Çünki bilir ki, Avropa İttifaqının Qonşuluq siyasəti Azərbaycanın siyasi və iqtisadi meyarlarını Avropa standartlarına uyğunlaşdırmaq imkanı yaradacaqdır.

1990-cı illərin əvvəllərində böyük dəyişikliklərlə üzləşmiş Cənubi Qafqaz ölkələrinə gəldikdə, Prezident İlham Əliyev qətiyyətlə inanır ki, islahatlar prosesi davam etməlidir. Hazırda Azərbaycanın həyata keçirdiyi siyasət ölkənin dəyərlərini Avropa dəyərlərinə daha da yaxınlaşdırır. Prezident aydın şəkildə bəyan etmişdir ki, Azərbaycan Avropa İttifaqına olduqca sadiq qalan maraqlı tərəfdaşdır. O bildirir ki, ölkəsi Avropa İttifaqı ilə münasibətlərinə böyük önəm verir.

Prezident Əliyev 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Bundan sonra, o, həmin institutda aspiranturaya qəbul olunmuş və tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1985-1990-cı illərdə cənab İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mühazirələr oxumuşdur.

Cənab Əliyev siyasi elmlər üzrə ekspertdir. O, beynəlxalq münasibətlər və suveren Azərbaycanın neft strategiyasının geosiyasi aspektləri sahəsində bir çox tədqiqat işlərinin müəllifidir. Onun yazdığı əsas kitablardan ikisi "Azərbaycan nefti dünya siyasətində" və "Azərbaycanın Xəzər nefti" adlanır. 1991-1994-cü illərdə o, özəl sənaye-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

1994-2003-cü illərdə cənab İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. O, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Prezident Əliyev Avropada, o cümlədən Macarıstanda enerji təchizatı mənbələrinin şaxələndirilməsini dəstəkləyir. Onun prezidentliyi dövründə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Həmin addımlar Azərbaycanı Avropa ailəsinə inteqrasiya etməkdə yardımçı olmuşdur.

1995-2000-ci illərdə, o, iki dəfə Azərbaycan Respublikasının Milli Məclisinə - parlamentə seçilmişdir.

2001-2003-cü illərdə o, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycanın parlament nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və AŞPA-nın büro üzvü seçilmişdir. 2004-cü ilin aprel ayında cənab Əliyev AŞPA-nın tədbirlərində fəal iştirakına və Avropa dəyərlərinə sadiqliyinə görə AŞPA-nın medalı və fəxri üzvü diplomu ilə təltif olunmuşdur. 1997-ci ildən etibarən cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilmişdir. İdman və Olimpiya hərəkatının inkişafında göstərdiyi xidmətlərinə görə cənab Əliyev Beynəlxalq Olimpiya Komitəsinin ən yüksək ordeni - Beynəlxalq Hərbi İdman Şurasının "Böyük Şöhrət zolağı" ilə təltif olunmuşdur.

2003-cü ilin oktyabrın 15-də, o, Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident Əliyev Macarıstanla əlaqələri olduqca mühüm sayır. Azərbaycan Prezidenti seçildikdən bir neçə ay sonra məhz cənab Əliyev Macarıstanda səfirlik açmaq barədə

qərar qəbul etmişdir. Həmin vaxtdan etibarən o, müxtəlif sahələrdə çalışan bir çox macar nümayəndələrini Azərbaycanda qəbul etmişdir.

Prezident Əliyevin ölkələrimiz arasında elmi əlaqələrə dəstəyi sayəsində son iki il ərzində Budapeştdə iki dəfə Azərbaycan-Macarıstan elmi konfransları təşkil olunmuşdur.

Biz həmçinin qeyd etmək istəyirik ki, açıq qapılar siyasətini və yaxşı idarəçiliyi uğurla həyata keçirdiyini nəzərə alaraq, cənab Əliyev ölkəsində dünyada ən yüksək iqtisadi artım sürətinə nail olmuş və beləliklə, Azərbaycanı regionun aparıcı dövlətinə çevirmişdir.

Prezident Əliyev Budapeştin Korvinus Universiteti ilə Azərbaycan universitetləri arasında əməkdaşlığın möhkəmləndirilməsini arzulayır. Təhsil sahəsində əməkdaşlıq sazişi rektor Mesaroş və Bakı Dövlət Universitetinin, Bakı Ali Diplomatiya Kollecinin rektorları tərəfindən artıq imzalanmışdır.

NORBERT KİŞ: Cənab professor, çıxışınıza görə Sizə minnətdaram.

İndi isə, mən Budapeştin Korvinus Universitetinin rektoru, professor Mesaroşdan fəxri doktor adını namizədə verməsini xahiş edirəm.

TAMAŞ MESAROŞ: Biz - Budaspeştin Korvinus Universitetinin rektoru və Elmi Şurası Sizə, professor İlham Heydər oğlu Əliyevə universitetimizin fəxri doktoru adını veririk. Mənə düşən bu imkandan istifadə edərək, Sizin elmi və peşə işlərinizi yüksək dəyərləndirərək, Mən Sizi fəxri doktor adına layiq görürəm, qanunla və ənənələrlə fəxri doktorlara düşən bütün hüquq və imtiyazları Sizin üzərinizə qoyuram. İndi isə mən ictimai elmlər üzrə fəxri doktor diplomunu Sizə verirəm.

Rektor fəxri doktor diplomunu dövlətimizin başçısına təqdim etdi.

NORBERT KİŞ: İndi isə, mən çıxış etmək üçün yenicə fəxri doktor adını almış İlham Əliyevə söz verirəm. Buyurun, cənab Prezident, söz Sizindir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli universitet Elmi Şurasının üzvləri!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, Korvinus Universitetinin bu cür yüksək dərəcəsini, fəxri doktor adını mənə verdiyinə görə, universitetin Elmi Şurasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən Macarıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi üçün öz işimi ən yüksək səviyyədə davam etdirəcəyəm. Əminəm ki, gələn illər ərzində həmin münasibətlər strateji tərəfdaşlığın yeni mərhələsinə qədəm qoyacaqdır. Bu gün Macarıstan Prezidenti tərəfindən və şəxsən mənim tərəfimdən bəyan edilmişdir ki, əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə qaldırılıbdır. İnanıram ki, bu gün mənə göstərilmiş dost münasibəti və hörmət bu siyasətin davam etdirilməsinə təkan verəcəkdir.

Bu gün mən gözəl ölkənizə dövlət səfəri edirəm. Bu, tarixi bir hadisədir, çünki Azərbaycan Respublikasının Prezidenti Macarıstana ilk dövlət səfərini edir. Qeyd olunduğu kimi, mən Prezident seçildikdən dərhal sonra münasibətlərimizi möhkəmləndirmək

məqsədi ilə Budapeşt şəhərində səfirliyin açılması barədə qərar qəbul etdim. Bu, ikitərəfli münasibətlərimizə verdiyimiz əhəmiyyəti göstərirdi. Mən çox şadam, ötən müddət ərzində ölkələrimiz arasında əlaqələr gücləndi. Bu gün isə, olduqca mühüm ikitərəfli sənədlərin imzalanmasından sonra, həmin əlaqələr tərəfdaşlığımızın yeni sahələrini də əhatə edəcəkdir.

Biz Azərbaycanda gənclərin təhsilinə çox böyük diqqət veririk. Bizim yaxşı iqtisadi göstəricilərimiz və olduqca sürətli iqtisadi inkişafımız var və nailiyyətlərimizi insan kapitalına çevirməyə çalışırıq. Biz xüsusi təhsil proqramlarını həyata keçiririk. Hökumətin təhsilə ayırdığı xərclər dövlət büdcəsində ən böyük yer tutur. Təkcə son üç-dörd il ərzində Azərbaycanda 1200 məktəb tikilmişdir. Təhsil siyasəti tədricən daha da güclənir. Biz bütün məktəblərin kompyuterləşdirilməsi və internetə qoşulması proqramını yekunlaşdırırıq. Bir neçə il bundan əvvəl belə imkanlar yox idi. Əminəm ki, ölkələrimiz arasında əməkdaşlığı daha da möhkəmləndirmək üçün biz təhsil sahəsində işbirliyimizi genişləndirməliyik. Gələcək təhsildədir. Təhsil bilik, texnologiyalar deməkdir. Hər bir ölkənin gələcək uğurları məhz onun insanlarının biliyindən, bacarığından və peşəkarlığından asılı olacaqdır.

Azərbaycan zəngin enerji ehtiyatlarına malikdir. Lakin əminəm ki, gələcəyimiz insanlarımızın peşəkarlıq və bilik səviyyəsindən asılı olacaqdır. Ölkəmiz müstəqilliyin ilk illərində ortaya çıxan əsas problemləri aradan qaldırmağa nail oldu. Sosialist sistemindən bazar iqtisadiyyatı sisteminə keçid asan olmamışdır, lakin uğurla getmişdir. 1991-ci ildə müstəqilliyini qazanmış Azərbaycanda bazar iqtisadiyyatını əks etdirən heç bir element və ya meyar yox idi. Bu gün isə iqtisadiyyatımızın 80 faizdən çoxu bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Ötən illər böyük keçid dövrü kimi yadda qaldı. Mühüm iqtisadi və siyasi islahatlar bizə əsas çətinlikləri aradan qaldırmağa imkan verdi. Hazırda Azərbaycan sürətlə inkişaf edən ölkədir. Biz siyasi və iqtisadi islahatları, Avropa strukturlarına inteqrasiyanı davam etdiririk.

Artıq qeyd edildiyi kimi, bu gün Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya siyasəti olduqca aydındır və ardıcıl şəkildə həyata keçirilir. Uzun illər ərzində biz həmin siyasəti aparmışıq. Avropa Şurasına üzvlük, Yeni qonşuluq siyasəti çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlıq, enerji ilə bağlı məsələlər müəyyən vaxt keçdikdən sonra Azərbaycanın hansı nəticələri əldə edəcəyindən xəbər verir. Biz düzgün yoldayıq, yaxşı sürətlə irəliləyirik. Sizə deyə bilərəm ki, siyasi və iqtisadi islahatlar, liberallaşma, ölkədə gedən demokratik proseslər, Avropa İttifaqı ilə və regiondakı müttəfiq ölkələrlə güclü tərəfdaşlıq iqtisadi vəziyyəti gözəçarpan dərəcədə yaxşılaşdırmaq imkanını açdı.

Son dörd il ərzində iqtisadi artım sürətinə görə biz dünyada birinci yer tutmuşuq. Son dörd ildə, iqtisadiyyatımız 96 faiz artmışdır. Biz, demək olar ki, iqtisadiyyatı iki dəfə artırmışıq. Sənaye istehsalı da təqribən eyni sürətlə artmışdır. Yoxsulluq şəraitində yaşayan insanların sayını nəzərəçarpan dərəcədə azalda bildik. Son dörd il ərzində bu göstərici 49 faizdən 16 faizə düşmüşdür. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə yoxsulluq tam aradan qaldırılacaqdır.

Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır. Onlar bir-birini tamamlayır. Əminəm ki, bu, düzgün siyasətdir. Demokratik inkişaf, siyasi islahatlar, siyasi sistemin təkmilləşməsi, qanunun aliliyinin təmin edilməsi və eyni zamanda, iqtisadiyyatın liberallaşdırılması, özəl sektorun dəstəklənməsi, açıq iqtisadiyyat, xarici sərmayələrin cəlb edilməsi kimi bu və ya digər amillər özümüzə əminliyə və müstəqil olmağa, xalqımızın milli maraqlarına əsaslanan müstəqil siyasət yürütməyə imkan yaradır.

Ölkəmizin və xalqımızın qədim tarixi var. Lakin əsrlər boyu, bizim dövlətçiliyimiz olmayıb, digər ölkələrin tərkibində yaşamışıq. Yalnız Sovet İttifaqının süqutundan sonra biz müstəqil ölkəyə çevrildik. Lakin bu, kifayət deyildi. Biz əsl müstəqil siyasəti, öz milli maraqlarımıza əsaslanan siyasəti, Azərbaycan xalqına sülh və əmin-amanlıq şəraitində yaşamağa imkan verəcək siyasəti həyata keçirməyə qadir olmalı idik. Sizə deyə bilərəm ki, müstəqilliyimizdən artıq 16 il keçdikdən sonra əsas strateji məqsədlərə nail olmuşuq. Azərbaycan regionda öz mövqeyini qətiyyətlə tutur. Biz tam şəkildə öz tələbatlarını ödəyən ölkəyik. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Dünyanın əsas şirkətlərini tərəfdaş və sərmayədar kimi cəlb etmək məqsədi ilə ölkəmizdə olduqca cəlbedici sərmayə mühitini yarada bilmişik.

Biz Azərbaycanın nəhəng neft və qaz yataqlarında işlənilmə işlərinə başladıq və bəziləri üçün xülya kimi görünən boru kəmərlərini çəkməyə qadir olduq, bunu reallığa çevirdik. Biz boru kəmərlərimiz vasitəsilə Xəzər dənizini Qara dənizlə, eləcə də Aralıq dənizi ilə birləşdirə bildik. Azərbaycanın böyük həcmdə nefti və qazının Avropa bazarına və beynəlxalq bazarlara çıxarılmasını təmin edən infrastruktur yaratmışıq. Bu, yalnız müstəqil siyasət aparmaq qabiliyyətimiz sayəsində mümkün olmuşdur. Bunsuz həmin layihələrin heç biri reallığa çevrilə bilməzdi. Bunlar olmasaydı, biz indi özümüzə arxayın ola bilməzdik. Regionumuzda Azərbaycan əsas regional layihələrdə iştirak edir və bir çox hallarda, onların təşəbbüskarıdır. Regional miqyaslı layihələr Mərkəzi Asiya, Xəzər dənizi, Qafqaz, Qara dəniz və Baltik dənizi regionları arasında daha fəal əməkdaşlıq etməyə imkan yaradacaqdır.

Əlbəttə ki, enerji amili olduqca mühüm rol oynayır. Hazırda, Azərbaycan gündə 1 milyon barrel nefti hasil edən ölkədir. Ölkəmiz bir əsrdən də çox müddət ərzində özümüzün və dostlarımızın tələbatlarını ödəyəcək böyük qaz yataqlarına malikdir. Biz neft və qazı nəinki hasil etməyə, onu nəql etməyə də qadir olduq.

Macarıstanla ikitərəfli məsələlər gündəliyində duran digər bir sahə enerji sahəsindəki əməkdaşlığa aiddir.

Eyni zamanda, Avropa İttifaqı və Azərbaycan strateji enerji tərəfdaşlığı çərçivəsi yaradıblar. Memorandum ilyarım bundan əvvəl imzalanmışdır. Bu, zənnimcə, mühüm praktik nəticələrini verən strateji siyasətimizin aydın göstəricisidir. Azərbaycan neft və qaz sahəsində böyük potensiala, nəqletmə marşrutlarına malik olan və Xəzərdə hasil edilən qazı artıq Avropa bazarına çatdırmış ölkədir. Bu, bir neçə ay bundan əvvəl baş vermiş tarixi hadisə oldu.

Hazırkı mərhələdə biz Avropa İttifaqı və üzv ölkələrlə, eləcə də sizin regionun ölkələri, xüsusən də Macarıstanla əməkdaşlığımızı davam etdirməliyik. Bu, tərəfdaşlığımızın möhkəmləndirilməsinə xidmət edəcəkdir. Enerji ehtiyatlarımız Azərbaycan xalqının rifahına xidmət edir və regionumuzda sülhə, əməkdaşlığa, istehsalçı ilə istehlakçı arasında maraqların tarazlığına töhfə verir. Bu tarazlıq tapılmalıdır, ona görə də biz işimizi davam etdiririk və fikrimcə, artıq yaxşı nailiyyətlər əldə etmişik. Belə olan halda, enerji bazarı və enerji məsələləri bugünkü qədər vacib olmayacaqdır.

Əgər yadınızdadırsa, üç-dörd il bundan əvvəl, enerji təhlükəsizliyi məsələsi gündəlikdə yox idi. Bu mövzu müzakirə obyekti deyildi və narahatlıq doğurmurdu. Lakin bu gün bunlar baş verir. Niyə? Çünki məhdud ehtiyatlar, bazara məhdud çıxış və bəzi hallarda potensial bazarların qeyri-ədalətli bölüşdürülməsi gərginlik yaradır. Lakin əgər enerji siyasəti, enerji amili istehlakçılarla istehsalçıların maraqlarının tarazlığına, azad bazar iqtisadiyyatına, infrastruktura azad çıxışa, əməkdaşlıq və dostluğa, eləcə də qarşılıqlı dəstəyə əsaslanırsa, onda, əminəm ki, enerji təhlükəsizliyi ilə bağlı gərginlik və bu məsələlərin müzakirəsinin təcili olması azalacaqdır. Əminəm ki, gördüyümüz işlər bu sahədə potensial gərginliyin azalmasına yönəlibdir.

Bir daha bəyan etmək istəyirəm, bizim enerji ehtiyatlarımız sülhə, əməkdaşlığa və tərəfdaşlığa xidmət edir. Bu siyasət davam edəcəkdir. Bu baxımdan, Azərbaycan özünün mühüm rolunu davam etdirəcəkdir. Əminəm ki, bu amil bizə Avropa İttifaqı ilə daha geniş münasibətlər qurmağa imkan yaradacaqdır. Azərbaycanın qoşulduğu Avropa İttifaqının Yeni qonşuluq siyasətinin həyata keçirilməsi nəticəsində biz həyatımızın meyarlarını Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Bunlar bizim planlaşdırdığımız işlərdir.

Yaxşı coğrafi mövqeyimiz var. Şərq ilə Qərbin kəsişdiyi məkanda yerləşirik. Hazırda Asiya ilə Avropa arasında Azərbaycan vasitəsilə müasir nəqliyyat infrastrukturunun yaradılmasına töhfə veririk və mühüm rol oynayırıq. Çünki coğrafi baxımdan bunu Azərbaycanın iştirakı olmadan etmək mümkün deyildir. Biz nəqliyyat sahəsində olduqca ciddi infrastruktur yaradırıq. Zəngin təbii sərvətlərimiz, güclü siyasi iradəmiz və Azərbaycan xalqının apardığımız siyasətə tam dəstəyi var. Xarici siyasətə və enerji siyasətinə, eləcə də yerli proqramlara, yoxsulluğun və işsizliyin azaldılmasına dair atdığımız addımlar Azərbaycan xalqı tərəfindən dəstəklənir. Ölkəmizdə çox sabit və proqnozlaşdırılan vəziyyət mövcuddur.

Artıq qeyd etdiyim kimi, biz əlçatmaz səviyyəyə nail ola bildik. Dörd ildə ümumi daxili məhsulun 96 faiz artımı ciddi nailiyyətdir. Hazırkı mərhələdə biz siyasətimizi davam etdirməyi, qonşuluqda və Avropa İttifaqında olan dostlarımızla yeni razılaşmalar əldə etməyi və tərəfdaşlıq təşəbbüslərinə qoşulmağı planlaşdırırıq. Bu halda biz yenə də Macarıstanın dəstəyinə arxalanırıq. Biz həmin dəstəyi hər zaman, xüsusən də Avropa İttifaqının Yeni qonşuluq siyasəti ilə bağlı hiss etmişik. Əminəm ki, gələcəkdə təşəbbüslərimiz və birgə fəaliyyətimiz davam edəcəkdir.

Bütün bunlar Azərbaycanın mühüm rol oynadığı regiondakı müsbət inkişaf prosesləridir. Lakin eyni zamanda, regionda narahatlıq doğuran məsələlər də var. Yəni nail olmağa və yerinə yetirməyə planlaşdırdığımız işlər Azərbaycanın və keçmiş SSRİ-nin bəzi digər ölkələrinin uzun illər üzləşdiyi təhlükəli meyillər nəticəsində şübhə altına düşə bilər. Bu, separatizm siyasəti, ölkəmizə qarşı Ermənistanın təcavüzü, torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalıdır. Azərbaycana qarşı təcavüz hətta müstəqillikdən öncə, Sovet İttifaqı vaxtlarında başlamışdır. Həmin dövrdə, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin Dağlıq Qarabağdakı separatçılara birtərəfli dəstəyi nəticəsində, ərazilərimiz Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldı. Torpaqlarımızın işğalı etnik təmizləmə ilə nəticələndi. Bir milyon azərbaycanlı doğma yurdundan qovulmuşdur. Hazırda, həmin insanlar çətin şəraitdə yaşayırlar. Biz onlara

yardım etməyə, həyat şəraitini yaxşılaşdırmağa çalışırıq. Lakin ən vacibi ondan ibarətdir ki, onlar öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdırlar.

Bu gün Dağlıq Qarabağ tanınmamış, qeyri-qanuni qurumdur, orada heç bir beynəlxalq nəzarət və ya monitorinq yoxdur. Siz burada, Avropada beynəlxalq nəzarətdən kənar olan heç bir belə məkan tapa bilməzsiniz. Təhlükə məhz bundadır. Bu, bütün regiona təhlükədir. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, Avropa Şurası Parlament Assambleyasının və ATƏT-in oxşar qətnaməsinə baxmayaraq, münaqişə hələ də həll olunmayıbdır. Sülh danışıqlarına sadiq qalmaq məqsədi ilə biz maksimum şəkildə konstruktiv yanaşmanı nümayiş etdiririk. Lakin hamı başa düşməlidir ki, bu, daim davam edə bilməz. Atəşkəs rejimi yarandıqdan sonra, artıq 14 ildir ki, biz danışıqlar prosesindəyik. Lakin praktik nəticələr yoxdur. Bu, elə bir məsələdir ki, beynəlxalq ictimaiyyət, xüsusən də Avropa strukturları ona daha fəal mövqedən yanaşmalıdırlar.

ATƏT nizamlama mandatına malikdir, lakin bu o demək deyil ki, Avropanın qalan hissəsi buna laqeyd baxmalıdır. Bu, təhlükədir və bizə qarşı ədalətsizlikdir, öz torpaqlarına qayıda bilməyən 1 milyon vətəndaşın insan hüquqlarının pozulmasıdır. Nəinki Dağlıq Qarabağın özü, həm də onun hüdudlarından kənarda yerləşən və ermənilərin heç vaxt yaşamadığı yeddi rayon da işğal altındadır. Bu, təhlükədir. Biz məsələnin həllinə çox çalışırıq. Lakin həll variantı kiminsə arzularına deyil, beynəlxalq hüquq normalarına, ədalətə və dünyada mövcud olan çərçivəyə əsaslanmalıdır. Belə olmasa, dünyanın quruluşu bundan əziyyət çəkəcəkdir. Belə olmasa, bu ədalətsizlik digər yerlərdə də ədalətsizliyə zəmin yaradacaqdır. Bilirik ki, dünyada və Avropada separatizm təhlükəsi olan bir çox yerlər var. Əgər bu başlasa, onun sonu olmayacaq və bizi uçuruma, düşmənçiliyə və gözlənilməyən nəticələrə aparacaqdır.

Bir sözlə, bu, bütün planlarımıza və layihələrimizə olan yeganə təhlükədir. Mən bir daha demək istəyirəm ki, biz həll yolunu tapmaq məqsədi ilə əlimizdən gələni edəcəyik. Lakin eyni zamanda anlayırıq ki, beynəlxalq hüquq normalarına əsaslanan ədalətli həll yolu üçün özümüz güclü olmalıyıq. Ona görə biz siyasi və iqtisadi islahatların aparılması, ölkənin müasirləşdirilməsi, ölkədəki meyarların beynəlxalq meyarlara yaxınlaşdırılması baxımından çox çalışırıq.

Biz təhsil, informasiya texnologiyaları, yeni texnologiyalar sahəsinə, iqtisadiyyatın enerji ilə bağlı olmayan sektorlarının inkişafına böyük sərmayələr yatırırıq ki, Azərbaycanın iqtisadiyyatını daha da şaxələndirək. Bu sahədə macar dostlarımızla əməkdaşlıq üçün bir çox imkanlar var. Enerji sahəsində tərəfdaşlıq uğurla gedir. Enerji şirkətlərimiz qarşılıqlı maraq doğuran məsələlər üzrə çox fəal ünsiyyət saxlayırlar. Biz bu tərəfdaşlığı neftlə bağlı olmayan sahələrə qədər genişləndirmək arzusundayıq. Bundan əlavə, humanitar aspekt var. Təhsil sahəsində əməkdaşlıq, tələbə-müəllim mübadiləsi, mədəni əlaqələr vacibdir. Biz bir-birimizi daha yaxşı tanımalıyıq, təmaslarımızı səfərdən-səfərə yox, dövri olaraq qurmalıyıq.

Bu səfərim son 16 il ərzində Azərbaycanın dövlət başçısının Macarıstana ilk dövlət səfəridir. Mən Macarıstan Prezidentini ölkəmizə səfərə dəvət etdim və ümidvaram ki, o, dəvətimi qəbul edib Azərbaycana gələcəkdir.

Mən Universitetin Elmi Şurasının üzvlərini, həmkarlarımı da Azərbaycana səfərə dəvət

edirəm. Beləliklə, siz azərbaycanlı həmkarlarınız və tələbələrlə təmaslar qura bilərsiniz. Bu yaxınlarda biz gənc tələbələrin xaricdə, dünyanın aparıcı universitetlərində təhsil alması ilə bağlı prezident proqramını qəbul etmişik. Ötən il mən xüsusi fərman imzalamışam və bu ildən etibarən, biz ilk 60 tələbəni dünyanın aparıcı universitetlərinə göndərəcəyik. İlbəil həmin tələbələrin sayını artıracaq və onların sayını 100-ə çatdıracağıq. Tələbələr digər ölkələrdə həm də dostluq münasibətləri yaradacaqlar. Hesab edirəm ki, tələbələrimizin yollanacağı ünvanlardan biri də Macarıstan və sizin universitetiniz ola bilər. Nəzərə alsaq ki, mənim artıq bu universitetlə əlaqəm yaranıb, mən tələbələri sizin təhsil ocağınızda oxumaq üçün bu imkandan istifadə etməyə dəvət edəcəyəm.

Hörmətli dostlar, vaxtınızı çox almaq istəmirəm. Sıralarınıza qoşulmaq şərəfinə görə sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Siz mənə yüksək fəxri doktor adını verdiniz. Bir daha bildirmək istəyirəm, gələcək fəaliyyətim zamanı ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdırmaq və Macarıstan ilə Azərbaycan xalqlarının maraqlarına xidmət edəcək strateji tərəfdaşlıq qurmaq üçün əlimdən gələni edəcəyəm.

Sizə bir daha çox minnətdaram.

NORBERT KİŞ: Professor İlham Əliyev, sağ olun.

Xanımlar və cənablar, mən bütün iştirakçıları bir daha salamlayır, bugünkü mərasimi bağlı elan edirəm.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Fevralın 18-də Budapeştdə, Milli Muzeyin Qala salonunda Macarıstan Respublikasının Prezidenti Laslo Şoyomun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN NİTQİ

- Cənab Prezident!

Hörmətli azərbaycanlı qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi və onun nümayəndə heyətinin hörmətli üzvlərini Macarıstanda səmimiyyətlə salamlayım.

Münasibətlərimizin kökləri tarixdən gəlir: ölkələrimizdə türkdilli mədəni və dilçilik əlaqələrini yaxşı xatırlayırlar. Azərbaycan diyarını ziyarət etmiş macar səyahətçiləri və alimləri tərəfindən ümumi irsimizin ən vacib elementlərinin formalaşdırılmasından fərəhlənirik. Onların səyahət hekayətləri və gündəliklərində azərbaycanlı ev sahiblərinin qonaqpərvərliyi, məğrurluğu və cəsarəti hər zaman təsvir olunurdu. Xalqlarımızın arasında mövcud olan qarşılıqlı rəğbət həyatımızın bütün sahələrində əməkdaşlığımızı daha da asanlaşdırır. Biz bir-birimizin adət-ənənələrini anlayırıq və dəyərlərimizi qiymətləndiririk.

Mən həyatlarını müharibə əsirləri kimi itirmiş macarları yad edən, Qırıqlı kəndində qoyulmuş xatirə lövhəsinə görə Azərbaycan hökumətinə öz minnətdarlığımı bildirmək istəyirəm. Taleyin hökmü ilə bir daha öz ailələrinə heç vaxt qayıtmamış vətəndaşlarımızın xatirəsinin Azərbaycan xalqının qəlbində səmimiyyətlə yaşadığını bilmək mənə çox böyük təəssürat bağışladı.

Biz Azərbaycanı Qafqaz regionunun ən sürətlə inkişaf edən ölkəsi kimi görürük. Əhəmiyyəti ildən-ilə artan amil ondan ibarətdir ki, ölkəniz nəinki bizim üçün, həm də bütün Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır.

Əminəm ki, təhsil və elm əməkdaşlığımızın aparıcı sahələri ola bilər. Universitet tələbələrinin mübadiləsi, birgə tədqiqat proqramları və birgə arxeoloji qazıntıların aparılması yaxşı nümunə ola bilər. Macarıstan tərəfi olaraq biz, təhsil və mədəniyyət sahəsində potensial əlaqələrimizin genişləndirilməsinə və onların qarşılıqlı razılaşmalar səviyyəsinə qaldırılmasına hazır olduğumuzu məmnunluqla bir daha bəyan edirik.

Dövlətlərimiz arasında iqtisadi tərəfdaşlığın çərçivəsini formalaşdıran ən mühüm sazişlər ötən il ərzində işlənilmiş və onların əksər hissəsi bu səfər zamanı imzalanmışdır. Biz ticarət dövriyyəsinin həcmini artırmaq, qarşılıqlı sərmayələri və iqtisadi əməkdaşlığın hazırkı formalarını intensivləşdirmək arzusundayıq. Macarıstan ilə Azərbaycanın işgüzar dairələri arasında sıx və davamlı təmaslar böyük əhəmiyyət kəsb edir. Azərbaycanın sürətlə artan bazarı və ölkənizdə tələbatın dinamik artımı macar şirkətləri üçün əlavə imkanlar açır.

Enerji təhlükəsizliyinin daha da gücləndirilməsinə gəldikdə, Macarıstan Xəzər regionundan nəql edilən yanacaqlara arxalanır. Biz enerji məsələsini tərəfdaşlığımızın prioritet sahəsi kimi dəyərləndiririk. Bu sahə nəinki Macarıstan ilə Azərbaycan, o cümlədən bütövlükdə Avropa İttifaqı üçün mühüm nəticələr verə bilər.

Macarıstan son zamanlar Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin intensivləşməsini alqışlayır. Macarıstan öz təcrübəsi ilə bu prosesə töhfə verməyə hazırdır. Biz həmçinin Avropa İttifaqı ilə Sizin mühüm ölkəniz arasında əməkdaşlıq layihələrində iştirak etməyə hazırıq.

Bu gün cənab Prezident ilə bizim uğurlu danışıqlarımız oldu. Bu səfər zamanı nəinki iqtisadi sazişlər, o cümlədən bir sıra digər razılaşmalar imzalandı. Bu o deməkdir ki, biz bünövrəni uğurla qoya bilərik və hazırda onun üzərində quruculuq işlərini aparmalıyıq. Belə olan halda, azərbaycanlı dostlarımız Macarıstan tərəfinin xoş niyyətlərinə, səmimiyyətinə və dostluqla seçilən sadiqliyinə arxalana bilərlər.

Bu sözlərlə mən badəmi Prezident Əliyevin və qonaqlarımızın sağlığına, Azərbaycanın daim artan uğurlarının, onun xalqının xoşbəxtliyi və Azərbaycan ilə Macarıstan arasında uzunmüddətli tərəfdaşlığın şərəfinə qaldırmaq istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, səfər zamanı Macarıstan torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. İnanıram ki, mənim səfərim ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və imzaladığımız sənədlər qarşılıqlı fəaliyyətimiz üçün yeni istiqamətlər müəyyən edəcək, əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Macar və Azərbaycan xalqları arasındakı münasibətlərin qədim tarixi vardır. XV-XVII əsrlərdə Azərbaycanın Ağqoyunlu və Səfəvi dövlətləri ilə Macar krallıqları arasında diplomatik əlaqələr və ticarət münasibətləri mövcud olmuşdur. Müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərləri macar dilinə, macar ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Macar bəstəkarlarının əsərləri Azərbaycan teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan musiqisi, o cümlədən dünyada məşhur olan muğam və Azərbaycan simfonik musiqisi Macarıstanda maraqla dinlənilir.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra bu, Azərbaycan Prezidentinin Macarıstana ilk dövlət səfəridir. Mən Macarıstan ilə Azərbaycan arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirəm. Macarıstan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Elə bu vaxtdan ölkələrimiz arasında münasibətlər qarşılıqlı anlaşma, dostluq prinsipləri əsasında inkişaf etməyə başlamışdır.

Ölkələrimiz arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, beynəlxalq terrorçuluğa qarşı mübarizədə birgə fəaliyyətimiz böyük məmnunluq doğurur. Lakin iqtisadi əlaqələrimiz hələlik arzuolunan səviyyədə deyildir.

Son illərdə irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, xüsusən Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz dövlətlərimizi və xalqlarımızı bir-birinə yaxınlaşdırır.

Bu baxımdan, Avropa İttifaqının Yeni qonşuluq siyasəti proqramı və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında imzalanmış Anlaşma memorandumu daha geniş əməkdaşlığımız üçün xüsusi əhəmiyyət daşıyır. Energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın yaxşı perspektivləri vardır. Əminəm ki, bu gün ikitərəfli sənədlərin imzalanması, habelə cənab Prezident, Sizinlə apardığımız danışıqlar ölkələrimiz arasında mal dövriyyəsinin həcminin artmasına, ticarət sahəsində imkanlarımızın reallaşmasına və qarşılıqlı investisiya qoymaq işinə təkan verəcəkdir.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və burada etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmiş, Dağlıq Qarabağın və işğal altındakı digər rayonların ermənilər tərəfindən kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması haqqında hesabat hazırlamışdır. Eyni zamanda, həmin ərazilərdə Azərbaycanın qədim mədəniyyət abidələri məhv edilmiş, məktəblər, muzeylər, məscidlər dağıdılmışdır.

Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını dəstəkləyir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatların qərar və qətnamələri var. Bu münaqişə ancaq beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, icazə verin, Avropanın ən gözəl şəhərlərindən biri olan Budapeştdə olduğumuz ilk dəqiqələrdən mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə təşəkkür edim və bu badəni Sizin şərəfinizə, dost macar xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırım.

Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ

Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Parlamentinə gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Macarıstanın Baş naziri Ferents Dyurçan və xanımı Klara Dobrev binanın önündə böyük hörmət və ehtiramla qarşıladılar.

Parlamentin binasında Prezident İlham Əliyev ilə Baş nazir Ferents Dyurçan arasında görüş oldu.

Baş nazir iqtisadi əlaqələrin müxtəlif sahələrinin müəyyənləşdirilməsi və inkişafı baxımından görüşün əhəmiyyətini vurğuladı. O, Prezident İlham Əliyev ilə ötən ay Davosda Dünya İqtisadi Forumu çərçivəsində görüşünü xatırlatdı və dedi ki, biz energetika, qeyri-neft sektoru və humanitar, yəni elm, təhsil, mədəniyyət sahələrində Azərbaycanla əməkdaşlığa maraqlıyıq. Macarıstan Azərbaycana regionda etibarlı tərəfdaş kimi baxır.

Görüşdə həm ikitərəfli baxımdan, həm də Avropa strukturları çərçivəsində elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın vacibliyi vurğulandı və gələcəkdə əlaqələrin daha da genişləndiriləcəyi bildirildi.

Prezident İlham Əliyev Macarıstanla iqtisadi əlaqələrin yaxşı perspektivləri olduğunu vurğuladı, Azərbaycan-Macarıstan biznes forumunun əhəmiyyətindən danışdı. Qarşılıqlı investisiya qoyuluşu imkanlarına toxunan dövlətimizin başçısı Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən bəhs etdi, ölkəmizin Asiya ilə Avropa arasında körpü rolunu oynadığını, bunun həm də regional baxımdan çox əhəmiyyətli olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Fevralın 19-da Budapeştdə, Parlament binasında Macarıstan Respublikasının Baş naziri Ferents Dyurçanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə lanç verilmişdir.

Lançdan sonra Prezident İlham Əliyev Macarıstan parlamentinin binası ilə tanış oldu.

Dunay çayının sahilində yerləşən və gözəl memarlığı ilə seçilən bina XIX əsrin sonlarında şəxsi saray kimi tikilmişdir.

Dövlətimizin başçısı parlamentin konfrans salonlarına baxdı. Macarıstan parlamentində 386 deputat var və seçkilər dörd ildən bir keçirilir.

Sonra Prezident İlham Əliyev X əsrin sonu - XI əsrin əvvəllərində macar dövlətinin yaranmasında böyük rol oynamış və müqəddəs sayılan I İştvanın binanın birinci mərtəbəsində nümayiş etdirilən tacına baxdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTAN PARLAMENTİNİN SƏDRİ XANIM KATALİN SİLİ İLƏ GÖRÜŞÜ

Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Respublikası Parlamentinin - Milli Assambleyanın sədri xanım Katalin Sili ilə görüşmüşdür.

Görüşdə parlamentlərarası əlaqələrdən danışan xanım Katalin Sili dedi ki, biz Azərbaycanı strateji tərəfdaş hesab edir, müxtəlif sahələrdə və beynəlxalq təşkilatlarda əməkdaşlığa böyük əhəmiyyət veririk. O, Avropanın enerji təhlükəsizliyi məsələsində Azərbaycanın önəminin çox böyük olduğunu vurğuladı və humanitar sahədə əməkdaşlığın faydasından da danışdı.

Prezident İlham Əliyev qarşılıqlı əlaqələrin uğurla inkişaf etdiyini, ikitərəfli münasibətlərdə parlamentlərarası əməkdaşlığın rolunu xüsusi vurğuladı. Azərbaycanın Avratlantik strukturlara inteqrasiya etdiyini bildirən dövlətimizin başçısı dedi ki, bu işdə iki ölkənin parlamentləri arasında əməkdaşlıq əhəmiyyətlidir. Prezident İlham Əliyev beynəlxalq təşkilatlarda parlamentarilərin uğurlu əməkdaşlığını xatırlatdı və bunun daha da genişlənəcəyinə əminliyini bildirdi.

Görüş başa çatdıqdan sonra dövlətimizin başçısı parlamentin fəxri qonaqlar kitabını imzaladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZİN BUDAPEŞTDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da, Macarıstana dövlət səfərinin ikinci gününün sonunda ölkəmizin Budapeştdəki səfirliyinin yeni binası ilə tanış olmuşdur.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı binanın önündə ölkəmizin Macarıstandakı səfiri Həsən Həsənov və səfirliyin əməkdaşları böyük ehtiramla, gül-çiçəklə qarşıladılar.

Prezident İlham Əliyev səfirliyin binasının xarici görünüşünü seyr etdi. Məlumat verildi ki, yeni bina Budapeştin mərkəzi və ən gözəl məhəllələrindən birində - Ötvöş küçəsində yerləşir. Bu küçə YUNESKO-nun mədəni irs siyahısına daxil edilmişdir. İspaniya, Türkiyə, Avstriya, Çexiya və Rusiya səfirlikləri də bu küçədə yerləşir. XIX əsrin sonu-XX əsrin əvvəllərində tikilmiş bina üç korpusdan ibarətdir və memarlıq abidəsi sayılır. Bina Azərbaycan səfirliyinin mülkiyyətinə keçdikdən sonra tamamilə yenidən təmir olunmuşdur.

Ümumi sahəsi 1000 kvadratmetrdən çoxdur. Burada danışıqlar və konfrans salonları, diplomatlar üçün hər cür şəraiti olan iş otaqları var. Konsulluq da bu binada yerləşəcəkdir.

Prezident İlham Əliyev səfirliyin sərgi salonuna baxdı, ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdi.

Səfirliyin binası ilə yaxından tanış olan dövlətimizin başçısı diplomatları təbrik etdi, onlara uğurlar arzuladı, tövsiyə və tapşırıqlarını verdi.

AZƏRBAYCAN-MACARISTAN BİZNES FORUMU

Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana dövlət səfəri çərçivəsində, fevralın 19-da Budapeştdə "Gresham Palace Four Seasons" mehmanxanasında Azərbaycan-Macarıstan biznes forumu keçirilmişdir. Hər iki ölkənin dövlət başçılarının iştirak etdiyi forum Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və Azərbaycanda İxracın və İqtisadiyyatın Təşviqi Fondu (AZPROMO) tərəfindən təşkil olunmuşdu. Forumda ölkəmizi dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, bank, maliyyə, sənaye və digər sahələrdə fəaliyyət göstərən 30 şirkətin nümayəndələri, Macarıstanı isə 70-dək iş adamı təmsil edirdi.

Forumu Macarıstanın Ticarətin İnkişafı Agentliyinin direktoru SÜLT TİBOR açaraq dedi:

- Hörmətli xanımlar və cənablar, sabahınız xeyir olsun.

Mən böyük şərəf hissi ilə sizi Azərbaycan-Macarıstan biznes forumunda ürəkdən salamlayıram. İlk növbədə, böyük səmimiyyətlə cənab İlham Əliyevi salamlamaq istəyirəm. Azərbaycan Respublikasının Prezidentinə "Xoş gəlmisiniz!" deyirəm.

Eyni zamanda, Macarıstan Respublikasının Prezidentini salamlayıram və sözü ona verirəm.

MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən böyük şərəf hissi ilə sizin hamınızı Azərbaycan-Macarıstan biznes forumunda salamlamaq istəyirəm. Bu biznes forumu cənab Əliyevin Macarıstana dövlət səfəri çərçivəsində təşkil olunmuşdur. Azərbaycan İpək yolunun əsas bir hissəsində yerləşir və vaxtilə Asiyanı, Çini Avropa ilə birləşdirirdi. Hazırda İpək yolu bərpa olunmaqdadır. Bu regionda zəngin qaz və neft yataqları vardır. Eyni zamanda, iki ölkə - Azərbaycan və Qazaxıstan enerji tərəfdaşlığına dair saziş imzalamışdır. Bu sahədə Macarıstan da ma-

raqlıdır və biz alternativ nəqletmə yollarının olmasında və xüsusən də, Nabukko layihəsinin həyata keçirilməsində çox maraqlıyıq.

Hazırda Azərbaycan böyük sürətlə inkişaf etməkdə olan ölkədir. Əlavə imkanlar artdıqca, Azərbaycan öz gələcəyini fikirləşir və bu gələcəyini nəinki karbohidrogen yataqları ilə, həm də iqtisadiyyatın digər sahələrinin inkişafı ilə bağlayır. Təbii ki, gərək macar şirkətləri də bu əməkdaşlığa qoşulsun.

Macar firmalarının infrastrukturun inkişafında və digər layihələrdə iştirak etmək imkanları var. İri macar firmaları ilə yanaşı, Azərbaycanla işbirliyi qurmaqda maraqlı olan kiçik müəssisələr də var və buna imkanlar yaradılmışdır. Biz dünən iki mühüm sənəd - iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası saziş, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında saziş imzaladıq. Sərmayələrin qorunması ilə bağlı saziş isə artıq qüvvəyə minmişdir.

Eyni zamanda, iqtisadi əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın yaradılması məsələsi qarşımızda duran mühüm vəzifədir. İki ölkə arasında ticarət dövriyyəsi artıq inkişaf etməkdədir. Lakin arzuedilən səviyyəyə çatmayıbdır. Ölkələr arasında təmaslar olmalıdır, ticarət palataları əlaqələr yaratmalıdır və sərmayə sahəsində əməkdaşlığa cavabdeh olan qurumlar bu işə daha fəal qoşulmalıdır. Mən bu sahədə sizə böyük uğurlar arzulayıram.

Diqqətinizə görə çox sağ olun.

***

SÜLT TİBOR: İndi isə mən sözü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

- Hörmətli xanımlar və cənablar!

Bu gün mənim Macarıstana dövlət səfərimin ikinci günüdür və biz onu biznes forumunun açılması ilə başlayırıq. Bu, çox əlamətdar bir hadisədir. Bu onu göstərir ki, bizim əməkdaşlığımızın gözəl perspektivləri var.

Dünən keçirilən danışıqlarda və imzalanmış sənədlərdə əməkdaşlığımızın əsas istiqamətləri müəyyən edilmiş və bir daha iki ölkənin siyasi baxımdan yaxın olmasını əks etdirən qərarlar qəbul edilmişdir. Birgə bəyannamədə bizim ikitərəfli münasibətlərimizin əsas parametrləri öz əksini tapmışdır. İndi isə biz elə etməliyik ki, imzalanmış sənədləri həyata keçirək və əldə edilmiş razılaşmaları o cümlədən iqtisadi inkişafa yönəldək. Bunun üçün çox gözəl imkanlar var. Macarıstanla Azərbaycan arasında siyasi əlaqələr çox yüksək səviyyədədir. Mənim Macarıstana dövlət səfərimin əsas nəticələri bundan ibarətdir ki, bu siyasi əlaqələr daha da güclənəcək və yeni müstəviyə çıxacaqdır.

Bizim aramızda energetika sahəsində başlanan əməkdaşlıq çox ümidvericidir. Əminəm ki, biz buna nail olacağıq və müzakirə edilən bütün məsələlərdə bizim aramızda fikir ay-

rılığı yoxdur. Azərbaycan neft-qaz ölkəsidir və artıq dünya bazarlarına və o cümlədən Avropa bazarlarına böyük həcmdə neft və qaz çıxarır. Gələcəkdə hasilatımız daha da artacaq və bizə imkan verəcək ki, həm öz milli maraqlarımızı maksimum dərəcədə həll edək, eyni zamanda, dostlarımız, tərəfdaşlarımız üçün etibarlı tərəfdaşa çevrilək. Bizim apardığımız siyasət çox aydındır, açıqdır və bu siyasət əməkdaşlığa yönəldilibdir. Biz çalışırıq və bundan sonra çalışacağıq ki, Azərbaycanın neft-qaz ehtiyatları bu günə qədər olduğu kimi, gələcəkdə də bölgədə sülhün möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət etsin.

Macarıstanla energetika sahəsində əməkdaşlıq çox uğurludur. Əminəm ki, yaxın zamanlarda bu əməkdaşlığın yeni, çox mühüm əlamətləri üzə çıxacaqdır. Beləliklə, əməkdaşlığımız həm bizim bölgə üçün, həm də Avropa İttifaqı üçün çox əhəmiyyətli olacaqdır. Eyni zamanda, biz qeyri-neft sektorunun inkişafına da çox böyük önəm veririk və çalışırıq ki, Azərbaycan iqtisadiyyatını çoxşaxəli formada inkişaf etdirək. Bunu etmək üçün bizim öz imkanlarımız da var. İldən-ilə artan maliyyə ehtiyatlarımız imkan verir ki, Azərbaycanda genişmiqyaslı dövlət investisiya layihələrini həyata keçirək.

Biz növbəti illərdə yüz milyardlarla dollar həcmində gəlir əldə edəcəyik. Dünya Bankının hesablamalarına görə, növbəti 15 il ərzində bu məbləğ 200 milyard dollar olacaqdır, bəlkə də ondan da çox. Əlbəttə ki, bizim maliyyə çətinliklərimiz yoxdur. Amma bununla bərabər, biz istəyirik ki, ölkəmizin inkişafı üçün lazım olan iqtisadiyyat və infrastruktur layihələrinə xarici tərəfdaşlarımızı da cəlb edək. Biz Macarıstanı özümüz üçün çox yaxın dost, tərəfdaş bir ölkə kimi tanıyırıq. Macarıstan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir və o vaxtdan bu günə qədər bütün sahələrdə əməkdaşlıq çox uğurlu olmuşdur.

Biz bütün imkanlarımızı sizin üçün təqdim edirik. Hesab edirəm ki, bugünkü biznes forumunun əsas məqsədi iş adamları arasında əməkdaşlığı dərinləşdirmək, qarşılıqlı imkanları ortaya qoymaq, təqdimat keçirmək və göstərməkdir ki, hansı sahədə hansı imkanlar var, hansı ölkə və onun şirkətləri hansı sahədə iştirak edə bilər. Biz investisiyalar üçün, o cümlədən xarici investisiyalar üçün çox cəlbedici ölkəyik. Bu günə qədər ölkəmizə on milyardlarla dollar həcmində investisiyalar qoyulub və adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci sıralardadır.

Azərbaycanda bütün investisiyalar, o cümlədən xarici investisiyalar çox etibarlı şəkildə qorunur. Bizim üçün strateji olan layihələr, hətta qanun kimi qəbul edilir və beləliklə, həm investorlarda, həm də yerli qurumlarda tam əminlik var ki, bu sazişlərə, layihələrə, razılaşmalara heç kim müdaxilə etməyəcəkdir. Biz xarici investisiyaları maksimum dərəcədə qorumaq üçün əlimizdən gələni edirik və bu günə qədər bu sahədə heç bir narazılıq, yaxud da mübahisəli məqam olmamışdır. Biz bu etibarı qazanmışıq və onu çox yüksək qiymətləndiririk. Əminəm ki, Macarıstan şirkətləri üçün Azərbaycanda iş görmək çox yaxşı nəticə verə bilər.

Azərbaycan bu yaxınlarda Dövlət İnvestisiya Şirkətini yaratmışdır və əminəm ki, o şirkətin imkanları barəsində bu gün burada danışılacaqdır. Şirkətin əsas məqsədi ondan ibarətdir ki, dövlət xarici investisiyaları cəlb etmək üçün özü müəyyən layihələrdə səhmdar kimi iştirak edə bilər, edir və edəcəkdir. Beləliklə, xarici investorlarda daha da böyük inam yaranır. Əminəm ki, Azərbaycan Dövlət İnvestisiya Şirkətinin çox gözəl və

uğurlu gələcəyi olacaqdır. Ümid edirəm ki, Macarıstan şirkətləri də Dövlət İnvestisiya Şirkəti ilə bərabər Azərbaycanda müxtəlif layihələri icra edəcəkdir.

Eyni zamanda, dövlət xətti ilə investisiyaların həcmi ildən-ilə artır. Bu il 3,5 milyard dollar həcmində təkcə dövlət xətti ilə və ilk növbədə, infrastruktur layihələrinə və ölkənin inkişafı üçün zəruri olan bütün istiqamətlərə investisiyalar qoyulacaqdır. Mən fürsətdən istifadə edərək, Macarıstan şirkətlərini Azərbaycanda dövlət xətti ilə həyata keçiriləcək investisiya layihələrində iştirak etməyə dəvət edirəm.

Onu da demək istəyirəm ki, artıq Azərbaycan şirkətləri də xaricə investisiyalar qoyur. Bu investisiyalar artıq milyard dollarla ölçülür. Əlbəttə ki, bizim üçün maraq doğuran sahələr müxtəlifdir. İlk növbədə, bizə dost, yaxın olan ölkələrə sərmayə qoymağı nəzərdə tutmuşuq və öz şirkətlərimizi bu istiqamətə yönəldirik. Əminəm ki, biznes forumu qarşılıqlı investisiyaların qoyuluşu işinə güclü təkan verəcəkdir.

Bu fürsətdən istifadə edib, mənə və nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə cənab Prezidentə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfər və onun nəticələri iki ölkə arasında olan dostluq əlaqələrini əhəmiyyətli dərəcədə möhkəmləndirəcəkdir.

Təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ - SƏRHƏD XİDMƏTİNİN RƏİSİ, GENERAL VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini - sərhəd xidmətinin rəisi, general Vladimir Proniçevi qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya əlaqələrinin bütün sahələrdə, o cümlədən sərhəd xidməti sahəsində də uğurla inkişaf etdiyini vurğuladı. Ölkələrimizin ayrı-ayrı strukturları arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev qonağın bu səfərinin sərhəd xidməti sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini söylədi.

General Vladimir Proniçev Azərbaycana növbəti dəfə səfərindən məmnun olduğunu bildirdi. O, iki ölkənin müvafiq strukturları arasında əməkdaşlığın sıx olduğunu və bu səfərin əlaqələrin daha da genişləndirilməsinə xidmət edəcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATORU SEM BRAUNBƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında ABŞ senatoru Sem Braunbəkin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında münasibətlərin bütün sahələrdə

uğurla inkişaf etdiyini bildirdi. İki ölkə arasında energetika sahəsində 1990-cı illərin ortalarından başlanmış səmərəli əməkdaşlığın hazırda da müvəffəqiyyətlə davam etdirildiyini xatırladan Prezident İlham Əliyev bunun ikitərəfli əlaqələrin mühüm elementi olduğunu vurğuladı.

Ölkəmizdə gedən inkişaf proseslərindən məmnunluqla söhbət açan senator Sem Braunbək Azərbaycanda son illər böyük nailiyyətlər əldə edildiyini bildirdi.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji sektorunda münasibətlərin gələcək inkişafı məsələləri müzakirə olundu.

SENATOR SEM BRAUNBEK İPƏK YOLU BOYUNCA ƏMƏKDAŞLIQ BARƏDƏ MÜHAZİRƏ İLƏ ÇIXIŞ ETMİŞDİR

Senator Sem Braunbek fevralın 20-də Azərbaycan Diplomatiya Akademiyasında "Qədim İpək yolu regionuna yeni baxış" mövzusunda mühazirə ilə çıxış etmişdir.

O demişdir: "1999-cu ildə İpək yolu barədə strateji akt təklif etməklə, mən Mərkəzi Asiyanı Cənubi Qafqazla birləşdirmək niyyətində idim. Mənim məqsədim - qədim İpək yolu ilə təkcə enerji ehtiyatlarının deyil, həm də əmtəə və xidmətlərin daşınmasını təmin etmək idi".

Senatorun sözlərinə görə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi və Qərb istiqamətində qazın nəql edilməsi 907-ci düzəlişin müvəqqəti də olsa, dayandırılması barədə qərarın düzgünlüyünə dəlalət edir. Sem Braunbek qeyd etmişdir ki, ABŞ və Azərbaycan 907-ci düzəlişi tamamilə ləğv etmək üçün ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində irəliləməlidirlər.

Senatorun fikrincə, Azərbaycan terrorizmə qarşı mübarizədə ABŞ-ın etibarlı tərəfdaşıdır və bu gün əsas vəzifə terrorçuların maliyyələşdirilməsi kanallarını bağlamaqdan ibarətdir.

Senator Braunbek ABŞ-da qarşıdan gələn prezident seçkiləri və bu seçkilərin Azərbaycana təsiri, PKK-ya qarşı mübarizə, İraqda vəziyyət və başqa məsələlərə də toxunmuşdur.

AZƏRBAYCAN VƏ LİVİYA QARŞILIQLI SƏRMAYƏ QOYULUŞU İMKANLARINI ARAŞDIRACAQLAR

Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarov 20-21 fevral tarixlərində Liviya Xalq Cəmahiriyyəsində iki günlük rəsmi səfərdə olmuşdur.

Səfər zamanı Nazir Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsinin katibi, Xarici İşlər Naziri Əbdülrəhman Şelqem ilə görüşmüş və görüşdə iki dövlət arasında mövcud münasibətlər, regional və beynəlxalq əhəmiyyətli məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarov Liviyanın BMT Təhlükəsizlik Şurasının üzvü kimi rolunu yüksək qiymətləndirmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini alqışlamışdır.Həmçinin neft istehsalı, təhsil, turizm və hərbi sahədə ikitərəfli münasibətlərin genişləndirilməsinin zəruriliyi qeyd olunmuşdur.

Elmar Məmmədyarov fevralın 21-də Liviya Ali Xalq Komitəsinin katibi (Baş nazir) əl-Bağdadi Əli əl-Mahmudi ilə görüşmüşdür.

Hökumət başçısı Liviya lideri Müəmmər Qəzzafinin Azərbaycan Prezidenti İlham Əliyevə, nazir Elmar Məmmədyarov isə Azərbaycan Prezidenti İlham Əliyevin Liviya rəhbərinə salamlarını çatdırmışlar.

Görüşdə təhsil, səhiyyə, turizm sahələrində əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səfərlərin vacibliyi vurğulanmışdır.

Qarşılıqlı sərmayə qoyuluşu üçün imkanların araşdırılması haqqında razılığın əldə edildiyi görüşdə ikiqat vergitutmanın aradan qaldırılması və sərmayələrin təşviqi barədə sazişlərin imzalanmasının tezləşdirilməsinin zəruriliyi bildirilmişdir.

Görüşdə ikitərəfli hökumətlərarası komissiyanın tezliklə işə başlaması haqqında da razılıq əldə edilmişdir.

Azərbaycan nümayəndə heyəti Liviya Milli Neft Şirkəti Xalq Komitəsinin sədri Şükri Məhəmməd Qanım ilə də görüşmüşdür. Nazir Elmar Məmmədyarov Azərbaycanın enerji potensialından, mövcud layihələrdən bəhs etmişdir.

Görüşdə iştirak edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev ölkəmizdə neft-qaz sektorunda həyata keçirilən layihələr, neft-qaz sənayesi haqqında məlumat vermişdir. O bildirmişdir ki, Azərbaycan mütəxəssisləri bir sıra ölkələrin neft sənayesinə töhfələrini verir və SSRİ dövründə Liviyada da çalışmışlar.

R.Abdullayev ARDNŞ-in Liviyanın enerji sektorunda iştirak etməyə maraq göstərdiyini də vurğulamışdır.

Şükri Məhəmməd Qanım enerji sahəsində Azərbaycanın imkanlarını yüksək qiymətləndirdiklərini bildirmiş, əməkdaşlıq imkanlarının dəqiqləşdirilməsi üçün qarşılıqlı səfərlərin təşkilini təklif etmişdir.

Azərbaycan nümayəndə heyətinin Liviyaya səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün fevralın 20-də Rusiya Federasiyasının paytaxtı Moskvaya yola gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

Fevralın 21-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Prezident VLADİMİR PUTİN dövlətimizin başçısını salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu, ilk növbədə, zirvə görüşündə iştirak etmək üçün Moskvaya gəlməyə imkan tapdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. İqtisadi əməkdaşlıq sahəsində xeyli irəliləyiş var. Keçən il əmtəə dövriyyəsinin artımı əvvəlki

ildəki kimi nəzərəçarpan olmasa da, hər halda, dinamika çox yaxşıdır.

Biz Rusiya sərmayədarlarının Azərbaycan iqtisadiyyatına getdikcə daha çox vəsait qoymasını məmnunluqla vurğulayırıq. Rusiya şirkətlərinin işləməsi üçün ölkənizin hökumətinin yaratdığı şəraitə görə Sizə təşəkkür edirik. Mən bu şirkətlərin adlarını sadalamayacağam, onlar yaxşı məlumdur. Bütövlükdə, qarşılıqlı əlaqələr inkişaf edir, əməkdaşlıq möhkəmlənir, o cümlədən də energetika sahəsində. Bəzi məsələlər var və mən onları Sizinlə müzakirə etmək istərdim. Sizi Moskvada görməyimdən çox şadam, xoş gəlmisiniz.

Prezident İLHAM ƏLİYEV Rusiya dövlətinin başçısına təşəkkür edərək dedi:

- Vladimir Vladimiroviç, ilk növbədə, Moskvaya gəlmək barədə dəvətinizə və Sizinlə görüşmək, ikitərəfli əlaqələrimizi müzakirə etmək imkanına görə sağ olun. Mən Sizinlə tamamilə razıyam, bizim münasibətlərimizdə heç bir problem yoxdur. Biz bütün istiqamətlərdə - istər siyasi, istərsə də iqtisadi baxımdan, humanitar əməkdaşlıq məsələlərində inamla irəliləyirik. Ölkələrimiz çox səmərəli əməkdaşlıq edir və bizim dostluq, mehriban qonşuluq münasibətləri kimi səciyyələndirdiyimiz münasibətlər ümumən möhkəmlənir.

Siz Azərbaycanda yaxşı investisiya mühitinin olmasını vurğuladınız. Rusiya şirkətləri ölkəmizdə özlərini rahat hiss edir, yerli şirkətlər kimi, onlar da eynilə bütün hüquqlardan istifadə edirlər. Biz Rusiya şirkətlərinin Azərbaycanda sərmayələrinin artmasını alqışlayırıq. Onu da deməliyəm ki, hazırda bir çox şirkətlər tikinti, infrastruktur obyektləri ilə bağlı müxtəlif layihələrdə podratçı kimi iştirak edirlər.

Biz biznes strukturları arasında münasibətlərin səviyyəsindən də çox razıyıq. Biznes strukturları da öz işlərində rəhbərliyə istiqamətlənir və düzgün də edirlər. Buna görə də onlar ölkələrimiz arasında belə fəal siyasi qarşılıqlı əlaqələri gördükdə, özlərini daha inamlı və rahat hiss edirlər. Azərbaycan şirkətləri də Rusiya bazarında işləyir və onlar da bütün hüquqlardan istifadə edirlər. Bir sözlə, mən münasibətlərimizin bu şəkildə inkişaf etməsindən məmnunluğumu bildirmək istərdim. Bugünkü görüşümüzdə, əlbəttə ki, həm ikitərəfli məsələləri, həm də regional əməkdaşlıq məsələlərini, habelə dünyada baş verən və müzakirəsinə ehtiyac duyulan prosesləri müzakirə etmək istərdim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR

Fevralın 21-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetində Azərbaycan Prezidenti İlham Əliyevə dünya şöhrətli bu tədris müəssisəsinin fəxri professoru adı verilməsi münasibətilə universitetin Elmi Şurasının təntənəli iclası olmuşdur.

MDU-nun rektoru akademik Viktor Sadovniçi Azərbaycan dövlətinin başçısını, onun xanımı Mehriban Əliyevanı və qızını - Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanı universitetin əsas giriş qapısının yanında səmimiyyətlə qarşıladı.

Elmi Şuranın iclasının iştirakçıları salona daxil olan Azərbaycan Prezidentini hərarətlə qarşıladılar.

Viktor Sadovniçi təbrik sözü söylədi.

MDU-NUN REKTORU AKADEMİK VİKTOR SADOVNİÇİNİN ÇIXIŞI

- Hörmətli həmkarlar!

İcazə verin, Elmi Şuranın Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə Moskva Dövlət Universitetinin fəxri professoru adı verilməsinə həsr edilmiş təntənəli iclasını açıq elan edim.

Hörmətli İlham Heydər oğlu!

Hörmətli qonaqlar, əziz həmkarlar!

Bu gün biz Azərbaycan Respublikasının Prezidenti, tanınmış siyasi xadim, görkəmli insan, siyasi elmlər doktoru və MDU-nun böyük dostu İlham Heydər oğlu Əliyevi Moskva Dövlət Universitetinin Elmi Şurasının iclas salonunda salamlayırıq.

İlham Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə o, Bakı şəhərində orta məktəbdə oxumuşdur. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) daxil olmuş, 1982-ci ildə oranı bitirərək, elə həmin ali məktəbin aspiranturasında təhsilini davam etdirmişdir. 1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1985-1990-cı illərdə İlham Əliyev MDBMİ-nin Avropa və Amerika ölkələrinin tarixi və siyasəti kafedrasının müəllimi işləmişdir.

1994-cü ildən 2003-cü ilin avqust ayına qədər İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, daha sonra birinci vitse-prezidenti olmuşdur. O, Heydər Əliyevin irəli sürdüyü, respublika iqtisadiyyatını möhkəmlətmək və ölkəni dünyada layiqli səviyyəyə çatdırmaq məqsədi daşıyan neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Bu vəzifədə işlədiyi dövrdə o, suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işləri dərc etdirmiş və siyasət elmləri sahəsində doktorluq dissertasiyası müdafiə etmişdir. İlham Əliyev iki dəfə - 1995-ci və 2000-ci ildə Azərbaycan Respublikasının parlamentinin - Milli Məclisin deputatı seçilmişdir. 1999-cu ildə o, respublikanın iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə bu partiyanın sədri seçilmişdir.

2001-2003-cü illərdə İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası parlamentinin nümayəndə heyətinin rəhbəri olmuşdur. İlham Əliyev 2003-cü il avqustun 4-də, parlament tərəfindən təsdiqləndikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir. 2003-cü il oktyabrın 15-də İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmiş və oktyabrın 31-də bu vəzifədə işə başlamışdır. Prezident seçkilərində seçicilərin 76 faizdən çoxu ona səs vermişdir.

Bu gözəl insanın maraq dairəsi heyrətamiz dərəcədə çoxcəhətli və geniş, onun hərtərəfli istedadının tətbiq sahələri müxtəlifdir. İlham Əliyev 1997-ci ildən indiyə qədər Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və olimpiya hərəkatının inkişafına böyük töhfələrinə görə o, Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif olunmuşdur.

2003-cü ilin yanvar ayında İlham Heydər oğlu Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilmişdir. Assambleyanın işində fəal iştirakına, Avropa ideallarına sadiqliyinə görə 2004-cü ilin aprel ayında o, Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomu və medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Prezidenti rus, ingilis, fransız və türk dillərini də mükəmməl bilir. İlham Heydər oğlu çoxsaylı xarici mükafatlarla təltif olunmuşdur. O, bir sıra ölkələrdə müxtəlif universitetlərin fəxri titullarına layiq görülmüşdür.

Moskva Dövlət Universiteti Azərbaycanın ali məktəbləri ilə fəal əməkdaşlıq edir. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və başqaları ali məktəblərarası əməkdaşlıqda bizim aparıcı tərəfdaşlarımızdır.

Ölkələrimizin universitetlərinin müxtəlif fakültələri çoxtərəfli və səmərəli əməkdaşlıq edir. Hazırda MDU-nun 18 fakültəsində Azərbaycandan olan 70-ə yaxın tələbə müqavilə əsasında təhsil alır, ümumiyyətlə isə bizdə 200-dən çox Azərbaycan vətəndaşı oxuyur. Qeyd etmək istərdim ki, onların bir qismi Azərbaycan Prezidenti tərəfindən təsdiq edilmiş 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması üzrə Dövlət proqramı sayəsində biliklərə yiyələnir. Ötən ilin oktyabr ayında bizim tələbələr Bakı ilə telekörpü yaratmış, bu telekörpüdə İlham Heydər oğlu Əliyev də iştirak etmişdi.

Hörmətli İlham Heydər oğlu, bu gün Moskva Universiteti ilə Azərbaycan Respublikasının qarşılıqlı münasibətlərindən söhbət açanda mən Sizin atanız Heydər Əlirza oğlu Əliyevlə dostluğumun tarixini xatırlamaq istərdim. Bizim ilk görüşümüz 80-ci illərin axırlarında olmuşdu. O, Moskva Universitetinə gələndə mən hələ MDU-nun birinci prorektoru idim. SSRİ-nin birinci rəhbərlərindən olan Heydər Əlirza oğlu o vaxt Nazirlər Sovetinin sosial məsələlər üzrə Bürosuna rəhbərlik edirdi və MDU-nun əmək kollektivi ilə görüşlər keçirmək və ünsiyyətdə olmaq üçün buraya gəlirdi. O vaxt Heydər Əliyevlə həmin görüşdə qəbul edilmiş Moskva Universitetinin inkişafı proqramının həyata keçirilməsi mənə tapşırılmışdı. Sonralar biz Moskvada və Azərbaycanda keçirilən müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşdük. 2000-ci ildə Bakıda, Bakı Universitetinin 80 illiyi bayram edilərkən bizim görüşümüzdən aldığım dərin təəssürat hələ də yadımdadır. Əvvəlcə qısa söhbət şəklində planlaşdırılan bu görüş iki saatdan çox davam edən dostcasına söhbətə çevrildi. Yadımdadır, Heydər Əliyev bütün adamları, onlarla nə vaxt görüşdüyünü yada salır, onların indi harada işlədikləri, nə ilə məşğul olduqları ilə maraqlanır, Moskva Universitetinin taleyi barədə suallar verirdi.

Bir məqamı da xatırlatmaq mənə çox xoşdur ki, 2002-ci ildə Heydər Əlirza oğlu Əliyev artıq Prezident kimi Moskva Universitetinə gəlmiş və bizim universitetdə bayram kimi qeyd edilən Tatyana gününə həsr olunmuş təntənəli iclasda iştirak etmişdi. Həmin gün ona MDU-nun fəxri professoru adı verilmişdi.

Heydər Əliyev görkəmli insan idi, onun məhsuldar həyatı həm SSRİ-nin, həm də yeni Rusiyanın və yeni Azərbaycanın tarixi ilə sıx bağlı idi. O, Moskva Universitetinə dəfələrlə ən müxtəlif sahələrdə kömək və dəstək göstərmişdi.

Bu günün hadisələrinə qayıdaraq, Azərbaycana son səfərim barədə söhbət açmaq istərdim. Keçən il may ayında biz Bakı Dövlət Universitetində olduq, rektor Məhərrəmovla Azərbaycanda MDU-nun filialının yaradılması məsələsini müzakirə etdik. Bu səfərin gedişində biz İlham Heydər oğlu ilə görüşmək şərəfinə də nail olduq. Həmin görüşdə

MDU-nun filialının yaradılması ideyası səsləndi və qəbul edildi. Biz bu niyyətin həyata keçirilməsi perspektivlərini və planlarını müzakirə etdik.

Qeyd etmək istəyirəm ki, Prezident bu ideyanı dərhal hərtərəfli dəstəklədi və mən burada iştirak edənlərin hamısına bunu bildirməyi özümə şərəf sayıram ki, 2008-ci il yanvarın 15-də Azərbaycan Prezidenti Bakı şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə Sərəncam imzalamışdır. Hörmətli İlham Heydər oğlu, mən bu hadisələr arasında müəyyən paralel aparmaqla demək istəyirəm ki, Siz atanızın işini davam etdirərək, uzaqgörən və müdrik siyasət yeridir, ölkənizdə və onun hüdudlarından kənarda təhsilin və elmin inkişafı naminə universitetlərin fəaliyyətinə böyük dəstək verirsiniz. Siz yüksək hazırlıqlı mütəxəssislərin hər bir dövlətin inkişafında və tərəqqisində böyük rol oynadığını bilir, ölkənin böyük gələcəyinin təşəkkülünə öz töhfələrini verməyə çalışan gəncləri fəal dəstəkləyirsiniz.

Əlbəttə, mən bizim planlarımız haqqında, birgə işimizin səmərəli olması barədə hələ çox danışmaq istərdim, lakin təəssüf ki, bu mərasimin vaxtı məhduddur. Ona görə də icazə verin, buraya toplaşanların qarşısında Moskva Universitetinin Elmi Şurası tərəfindən qəbul olunmuş qərarı elan edim.

Möhtərəm İlham Heydər oğlu, mən böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, Rusiya ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə elmin və təhsilin inkişafına görkəmli töhfənizi nəzərə alaraq və Moskva ilə səmərəli əməkdaşlığınıza görə MDU-nun Elmi Şurası Sizə Moskva Universitetinin fəxri professoru adı verilməsi barədə qərar qəbul etmişdir.

İcazə verin, MDU-nun fəxri professoru diplomunu Sizə təqdim edim.

***

Viktor Sadovniçi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurasının qərarını oxudu:

"Rusiya ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə elmin və təhsilin inkişafına görkəmli töhfələrinə və Moskva Universiteti ilə səmərəli əməkdaşlığına görə İlham Heydər oğlu Əliyevə Moskva Universitetinin fəxri professoru adı verilsin. Bu ad ona qanunla və adətlərlə müəyyən olunmuş bütün şərəf və imtiyazlar hüququnu təmin edəcəkdir".

Rektor Azərbaycan Prezidenti İlham Əliyevə MDU-nun fəxri professoru diplomunu və medalını təqdim etdi.

***

Sonra söz Rusiya Elmlər Akademiyasının akademiki, MDU-nun kimya fakültəsinin dekanı Valeri Luninə verildi.

MDU-NUN KİMYA FAKÜLTƏSİNİN DEKANI, AKADEMİK VALERİ LUNİNİN ÇIXIŞI

- Çox hörmətli İlham Heydər oğlu!

Əziz qonaqlar, əziz həmkarlar!

Bu gün Moskva Universitetində çox parlaq və təmtəraqlı bir hadisə baş verir - görkəmli dövlət xadimi, bizim böyük dostumuz İlham Heydər oğlu Əliyevə MDU-nun fəxri professoru diplomu və medalının təqdim olunması mərasimi keçirilir.

Moskva Universitetini Azərbaycan elmi və təhsili ilə çox sıx tellər bağlayır. Lap bu yaxınlarda, iki il əvvəl biz Azərbaycanda kimya elmi və təhsilinin banilərindən biri Yusif Heydər oğlu Məmmədəliyevin 100 illik yubileyinə həsr olunmuş birgə konfrans keçirdik. O, Moskva Universitetinin kimya fakültəsinin ilk azərbaycanlı məzunu, böyük müəllimi Nikolay Dmitriyeviç Zelinskinin sevimli şagirdi idi. Bütün sarsıntılara baxmayaraq, o vaxtdan əlaqələrimiz kəsilməmişdir. Mən Bakıda çox olmuşam, bu şəhəri çox sevirəm. Biz Bakıda Mendeleyev adına beynəlxalq olimpiada təşkil etmişdik, orada 16 dövlətin nümayəndələri iştirak edirdi və azərbaycanlı uşaqlar çox yaxşı çıxış etmişdilər. İndi bizim universitetdə Azərbaycandan gələn uşaqlar təhsil alır, onlar Mendeleyev adına beynəlxalq olimpiadanın qalibləri və mükafatçılarıdır. Mən deməliyəm ki, onların böyük əksəriyyəti diplom almaqla təhsilini başa vurmur. Adətən, onlar təhsillərini aspiranturada davam etdirir və uğurla dissertasiya müdafiə edirlər. Bu mərhələdə də Sizin köməyiniz çox əhəmiyyətlidir. Onlar Azərbaycan Prezidentinin təqaüdünü alır və təhsillərinin bu çox mühüm hissəsini davam etdirə bilirlər. Düşünürəm ki, bunu layiqincə qiymətləndirmək çətindir.

Son illər bir neçə kimya elmləri doktoru MDU-da dissertasiya müdafiə etmişdir, başqa sözlə, bizim fəaliyyətimiz, bizim qəlbimiz və ürəyimiz Azərbaycan Respublikası ilə bağlıdır. Özü də kimya Azərbaycan cəmiyyətində həm biliyin, həm də fəaliyyətin əsas sahəsidir. Ona görə də bu gün bu yüksək adın verilməsi münasibətilə Sizi təbrik etməkdən şərəf duyuram və mənim üçün çox xoşdur. Siz bu ada tamamilə layiqsiniz, hamımıza xoşdur ki, Siz kollektivin, buraya toplaşanların münasibətini hiss edirsiniz. Düşünürəm ki, yaradılan filial gələcəkdə konkret məzmunla dolğunlaşacaqdır. O, Sizin fəal dəstəyiniz və iştirakınızla yaradılmışdır, bizim alimlər və müəllimlər isə əllərindən gələni edəcəklər ki, o, Moskva Universitetinin Azərbaycan Respublikasında layiqli nümayəndəsi olsun. Bakı Universitetinin rektoru isə kimya fakültəsinin yetirməsi, bizim böyük dostumuz Abel Məhərrəmovdur.

Çox sağ olun.

V.SADOVNİÇİ: İlham Heydər oğlu, mən artıq qeyri-rəsmi olaraq demək istəyirəm ki, Şuranın iclasının gedişindən görünəcək ki, Moskva Universitetində bütün əsas vəzifələri ya azərbaycanlılar, ya da Azərbaycandan olanlar tuturlar. Ona görə də bundan sonra çıxış edənlərin hamısının Sizin ölkənizlə əlaqəsi var.

Mən çıxış etmək üçün sözü Moskva Universiteti birləşmiş həmkarlar ittifaqı komitəsinin sədri, professor, MDU-nun kafedra müdiri İqor Borisoviç Kotlobovskiyə vermək istərdim.

MDU BİRLƏŞMİŞ HƏMKARLAR İTTİFAQI KOMİTƏSİNİN SƏDRİ, PROFESSOR İQOR KOTLOBOVSKİNİN ÇIXIŞI

- Çox hörmətli İlham Heydər oğlu!

Çox hörmətli Viktor Antonoviç!

Bu gün əlamətdar hadisə münasibətilə buraya toplaşmışıq. Bu, mənim üçün ikiqat əlamətdardır, çünki mənim məktəb illərim Bakıda keçmişdir. Mən orada 153 nömrəli orta məktəbi bitirmiş və Moskva Universitetinə daxil olmuşam. İndiyədək bu gözəl şəhəri, onun insanlarını böyük səmimiyyətlə xatırlayıram. Mən müəllimlərimi minnətdarlıq hissi ilə xatırlayır, Azərbaycanda və Bakıda baş verən hadisələri izləməyə çalışıram. Düşünürəm ki, Azərbaycan çox şeylə fəxr edə bilər. Hazırda o, ən dinamik inkişaf edən ölkədir. Siz MDB ölkələri arasında ən sürətli inkişaf nümayiş etdirirsiniz. Özü də beynəlxalq təşkilatlar gələcəkdə bu meylin təkcə dünyada neftin və qazın qiymətlərinin artması hesabına deyil, həm də sənaye, xidmət sahələri hesabına saxlanacağını proqnozlaşdırır. Əlbəttə, bu, ölkədə bir çox irimiqyaslı məsələləri həll etməyə, o cümlədən təhsili, səhiyyəni, mənzil tikintisini inkişaf etdirməyə imkan verir.

Mənə elə gəlir ki, son illər Bakı dünyanın idman mərkəzinə çevrilir. Çox böyük beynəlxalq yarışlar, dünya birinciliklərı, dünya kuboku yarışları keçirilir. Bu, Azərbaycanın artan nüfuzundan xəbər verir və ölkədə siyasi sabitliyin olduğunu göstərir. Başqa sözlə, idman vasitəsilə beynəlxalq aləmə çox böyük çıxışa nail olunur. Əlbəttə, bu, Milli Olimpiya Komitəsinin prezidenti kimi Sizin xidmətinizdir və artıq deyildiyi kimi, Olimpiya hərəkatına töhfəniz yüksək qiymətləndirilir. Bu töhfəniz 2016-cı ilin Olimpiya oyunlarının keçirilməsi ilə bağlı Bakının namizədliyinin irəli sürülməsi kimi cəsarətli təklifinizdən sonra xüsusilə yüksək qiymətləndirilir. Bu, çox iddialı təklifdir, çünki dünyada belə genişmiqyaslı beynəlxalq tədbirləri keçirmək məsuliyyətini üzərinə götürə bilən çox az ölkə var. Siz bu cəsarətli addımı atdınız. Əlbəttə, Bakının rəqibləri güclüdür, ancaq biz inanırıq ki, Odlar yurdu adlandırılan Azərbaycanda Olimpiya məşəli də alovlanacaqdır.

Mənə Moskva Universitetinin nümayəndə heyətinin tərkibində Bakı Universitetinin yubileyi ilə bağlı təntənələrdə iştirak etmək xoşbəxtliyi nəsib olmuşdur. Biz şəhərin necə gözəlləşdiyini, şəhər infrastrukturunun necə inkişaf etdiyini, necə gözəl binaların tikildiyini öz gözlərimizlə gördük. Biz təhsilin inkişafına ən yüksək dövlət səviyyəsində necə böyük diqqət yetirildiyini gördük. Heydər Əlirza oğlu özü Bakı Universitetinin, Rusiya və Azərbaycan universitetləri arasında əməkdaşlığın necə inkişaf etdiyini diqqətlə izləyirdi. Bu yolun davamçısı kimi, Siz MDU-nun filialının yaradılmasının təşəbbüskarı oldunuz. Şübhəsiz ki, bu, əməli nəticə verəcək, çünki Rusiya Federasiyası ilə Azərbaycan arasında dərin iqtisadi, mədəni əlaqələr var və bu əlaqələri yeni səviyyəyə qaldıracaq mütəxəssislər lazımdır. Digər tərəfdən, əlbəttə, bu, siyasi səviyyədə dostluğun təzahürüdür.

Biz Bakı Universitetindən olan həmkarlarımızla şəxsi ünsiyyətdə, ictimai təşkilatlarımız səviyyəsində bu dostluq hisslərinin şahidi oluruq. Bakı Universitetinin həmkarlar ittifaqı təşkilatı Universitetlərin Həmkarlar İttifaqları Təşkilatlarının Avrasiya Assosiasiyasının fəaliyyətinə çox böyük töhfə verir. Bu assosiasiyaya MDB-nin, demək olar,

bütün klassik universitetləri daxildir. Biz qurultaylardan birinin Bakıda, Bakı Universitetində keçirmək barədə qeyri-rəsmi təklif almışıq və bu təklifi minnətdarlıqla qəbul etmişik. Mənə elə gəlir ki, bu dostluq və sədaqət hissi Azərbaycan xalqının qanındadır. Təsadüfi deyil ki, hələ XII əsrdə dahi Azərbaycan şairi Nizami Gəncəvi də bu barədə yazmışdır.

Əminəm ki, Moskva Universiteti, onun filialının fəaliyyətində iştirak edəcək professor-müəllim heyəti Nizaminin nəsihətlərinə əməl edərək, öz işinə çox məsuliyyətlə yanaşacaqdır. Sonda Sizi Moskva Universitetinin bu ən yüksək mükafatını almağınız münasibətilə təbrik etmək, Sizə, ailənizə xoşbəxtlik, cansağlığı və Azərbaycanın rifahı naminə fəaliyyətinizdə uğurlar arzulamaq istərdim.

Çox sağ olun.

* * *

Sonra söz MDU-nun hesablama riyaziyyatı və kibernetika fakültəsinin üçüncü kurs tələbəsi Ülfət Əliyevə verildi.

MDU-NUN HESABLAMA RİYAZİYYATI VƏ KİBERNETİKA FAKÜLTƏSİNİN III KURS TƏLƏBƏSİ ÜLFƏT ƏLİYEVİN ÇIXIŞI

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli Viktor Antonoviç!

Əziz dostlar!

Hesablama riyaziyyatı və kibernetika fakültəsinin III kurs tələbəsi, MDU-nun Azərbaycan klubunun sədri kimi bu gün mənə dünyanın ən nüfuzlu ali məktəblərindən biri olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetində təhsil alan 200-ə yaxın azərbaycanlı tələbə adından Sizi salamlamaq şərəfi nəsib olmuşdur. MDU-nun tələbəsi olmaq çox böyük şərəf və məsuliyyətdir və biz təhsil ocağımızda bunu hiss edirik.

Cənab Prezident, Azərbaycanda keyfiyyətli təhsilə, o cümlədən xaricdə təhsil almağa çox böyük əhəmiyyət verilir. Bildiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyev bu proqramla şəxsən məşğul olurdu, hər il azərbaycanlı gəncləri təhsil almaq üçün Rusiyaya göndərirdi. Bu gün biz Sizin proqramınızın, azərbaycanlı gənclərin xaricdə təhsil almasına dair 2007-2015-ci illər üçün nəzərdə tutulmuş proqramın şahidiyik. Artıq 2007-ci ildə universitetimizə dövlət xətti ilə Azərbaycan gəncləri daxil olmuşlar.

MDU-da hər bir azərbaycanlı özünü təkcə tələbə deyil, həm də öz ölkəsinin nümayəndəsi hesab edir. Hər birimiz əcnəbi qonaqları, dostlarımızı Azərbaycanın mədəniyyəti, tarixi, adət və ənənələri ilə tanış etməyə çalışırıq. Buna görə də MDBMİ tələbələrinin Azərbaycan klubu yaratmaq təşəbbüsünü dəstəkləyərək, biz MDU-da da belə bir klub yaratmaq qərarına gəldik. Klub fəal inkişaf edir, burada keçirilən intellektual şənbələrdə arzu edən hər kəs Azərbaycan haqqında məruzə edə bilər. Öz internet saytımız var. Moskva Dövlət Universiteti rəhbərliyinin və şəxsən Viktor Antoniviçin, Azərbaycan Respublikasının səfirliyinin, cənab Polad Bülbüloğlunun və Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin sayəsində biz Azərbaycan Mədəniyyəti Mərkəzi layihəsi üzərində fəal işləyirik. Burada hər bir tələbə və sadəcə, arzu edən hər

kəs milli tariximiz, mədəniyyətimiz, coğrafiyamız, gələcəkdə isə rəqslərimiz və musiqimizlə tanış ola bilər.

Çox hörmətli cənab Prezident!

Bu gün Sizin həyatınızda çox əlamətdar hadisədir. Bizim üçün, MDU-nun tələbələri üçün bu gün ikiqat əlamətdardır, çünki bu gündən biz Sizi, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi də MDU-nun fəxri professoru kimi öz müəllimimiz hesab edə bilərik.

İcazə verin, MDU-nun Azərbaycan klubu adından Sizə xoşbəxtlik, cansağlığı və Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin inkişafı və möhkəmlənməsi, əlbəttə, Vətənimiz Azərbaycanın rifahı naminə fəaliyyətinizdə tükənməz qüvvə arzulayım. Cənab Prezident, Sizi təbrik edirəm.

VİKTOR SADOVNİÇİ: İcazənizlə, Moskva Unversitetinin fəxri professoru, Azərbaycan Prezidenti İlham Əliyevdən çıxış etməsini xahiş edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Viktor Antonoviç!

Hörmətli Elmi Şura üzvləri!

Əziz dostlar!

Əvvələn, Viktor Antonoviç, sizə və mənə MDU-nun - dünya şöhrətli, mövcud olduğu bütün illər ərzində təhsilin yüksək markasını qoruyub saxlamış ali məktəbin fəxri professoru kimi yüksək ad verilməsi barədə qərar qəbul etmiş Elmi Şuranın üzvlərinə ürəkdən təşəkkür etmək istərdim.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən humanitar sahədə münasibətlərin inkişafına verdiyim töhfəyə görə bu adı almağım mənə ikiqat xoşdur. Hazırda bizim münasibətlərimiz, həqiqətən, çox dinamik və səmərəli inkişaf edir. Bu münasibətlər mehriban qonşuluq, qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır. Əgər bu münasibətlərin tarixinə nəzər salsaq görərik ki, 2000-ci illərdən başlayaraq, yeni mərhələyə qədəm qoymuşdur.

Bu mərhələni həm Rusiya Prezidenti, həm də mən strateji tərəfdaşlıq mərhələsi kimi səciyyələndiririk. Bu isə mahiyyət etibarilə həm ölkələrimiz arasında münasibətlərin ruhunu və xarakterini, həm də həmin münasibətlərin gələcək inkişafını necə təsəvvür etdiyimizi əks etdirir. Bizim münasibətlərimiz çoxtərəfli, çoxcəhətlidir. Onlar ölkələrimizdə siyasi və iqtisadi islahatları fəal surətdə həyata keçirməyimizə imkan verir. Artıq indi bir çox cəhətdən Qafqaz və Xəzər regionunda vəziyyətə təsir edir. Bu münasibətlər gələcəkdə nə qədər möhkəm olsa, bizim regionda təhlükəsizlik tədbirləri sistemi də bir o qədər möhkəm olacaqdır.

Biz mürəkkəb bir dövrdə və təhdidlərin, risklərin mövcud olduğu mürəkkəb bir regionda yaşayırıq. Ona görə də ölkələrimizi bir-birinə bağlayan məsələlərin bütün spektri üzrə Rusiya ilə Azərbaycanın fəal əməkdaşlığı sülhün, təhlükəsizliyin və sabit inkişafın təminatıdır. Ölkələrimiz çox dinamik inkişaf edir. İqtisadi artım sürətinə görə yaxşı göstəricilərimiz var. Beləliklə, mən şübhə etmirəm ki, həm ölkələrimizin daha da artan nüfuzu, həm müstəqil siyasət yeritmək imkanı, həm də iqtisadi azadlıq təbii ki, gələcəkdə regionda hadisələrin inkişafını əvvəlcədən müəyyənləşdirəcək və artıq dediyim kimi, yalnız müsbət mənada kömək edəcəkdir.

Fəxri professor diplomunda qeyd edilmiş humanitar sahədə əməkdaşlıq da çox vacibdir. Azərbaycanda biz hələ bir ölkədə yaşadığımız dövrdə mövcud olmuş bütün mehriban münasibətləri, əlaqələri, ünsiyyətləri qoruyub saxlamışıq. Hazırda Rusiya ilə Azərbaycan arasında humanitar əməkdaşlıq müxtəlif parametrlərlə və müxtəlif formalarla müəyyən edilir. Təkcə bunu demək kifayətdir ki, Azərbaycanda rus dilində təhsil verən 350-dən artıq məktəb vardır. Azərbaycanın dövlət universitetlərinin üçündə rus dili və ədəbiyyatı fakültələri vardır. Rus dili və ədəbiyyatı məsələləri ilə, həmçinin bütün slavyan ölkələrinin mədəniyyətinin öyrənilməsi ilə məşğul olan Bakı Slavyan Universiteti fəaliyyət göstərir. Azərbaycanın məktəblərində yüz mindən çox insan rus dilində təhsil alır. Milliyyətindən asılı olmayaraq, bizim ölkədə bütün insanların, bütün vətəndaşların dövlət dilində danışması, yüksək keyfiyyətli təhsil alması üçün də hər cür imkan mövcuddur.

Biz bunu çox yüksək qiymətləndiririk. Hesab edirik ki, bu, bizim uğurlu inkişafımızın ən mühüm elementlərindən biridir. Ölkənin inkişaf səviyyəsini təkcə iqtisadi göstəricilərlə və ya təbii ehtiyatların olması ilə ölçmək mümkün deyildir.

Ölkənin inkişafı həm intellektual potensial, həm tolerantlığın səviyyəsi, həm də ölkədə millətlərarası, dinlərarası həmrəyliyin səviyyəsi deməkdir. Bu, ölkənin əsas millətinə mənsub olmayan insanların özlərini nə dərəcədə rahat hiss etməsi deməkdir. İctimai-siyasi formasiyadan asılı olmayaraq, Azərbaycan üçün həmişə səciyyəvi olmuş, hamıya məlum olan müsbət beynəlmiləlçilik ənənələri bütün bu istiqamətlərdə, indi də qorunub saxlanmışdır və daha da artırılır. Beləliklə, bu, Azərbaycanın bütün vətəndaşlarına bizim ölkədə özlərini öz evində olduğu kimi, bir ailə kimi hiss etməyə imkan verir və bu da Rusiya ilə bizim ikitərəfli əməkdaşlığımızın mühüm elementidir.

Bəlkə də kiməsə qəribə görünəcək, amma hazırda Azərbaycanda rus dilində nəşr edilən qəzetlərin sayı sovet dövründə olduğundan bir neçə dəfə çoxdur. Bu onu göstərir ki, həmin qəzetlərə tələbat var, Azərbaycanda rus dili yaşayır və yaşayacaqdır. Heç şübhəsiz, Azərbaycanda MDU-nun filialının açılması, burada tamamilə haqlı olaraq deyildiyi kimi, həm siyasi xarakterli addımdır, həm də ikitərəfli münasibətlərin möhkəmlənməsinə yönəlmiş addımdır. Bu, həm də bizim nəzərdə tutduğumuz bütün işlər üçün lazımi kadrları daha fəal surətdə və səmərəli şəkildə hazırlaya bilməyimiz üçün ölkəmizdə dünyanın aparıcı ali məktəblərindən birinin filialının yaradılmasına yönəlmiş addımdır.

Burada həm mənim haqqımda, həm də ölkəmiz haqqında çoxlu xoş sözlər deyildi, buna görə mən çox minnətdaram. Bu gün Viktor Antonoviç Heydər Əlirza oğlu Əliyevlə görüşlərini də xatırladı. Burada deyildi ki, onun təşəbbüsü ilə Azərbaycandan hər il minlərlə gənc müsabiqədənkənar şərtlərlə, - yəni onlar qəbul imtahanlarını Bakıda verirdilər, - SSRİ-nin, o cümlədən Moskvanın aparıcı ali məktəblərinə göndərilirdi. İndi biz müstəqil dövlət olaraq, həmin qərarın nə qədər müdrik olmasını və bizim potensialımızı nə qədər zənginləşdirdiyini hər gün görürük. Moskva ali məktəblərinin məzunları indi Azərbaycanda həm biznesdə, həm dövlət strukturlarında, həm də idarəetmə orqanların-

da kifayət qədər möhkəm mövqe tuturlar. Təvazökarlıqdan bir qədər uzaq səslənsə də, deməliyəm ki, ən ali dövlət vəzifəsində də Moskva ali məktəbinin məzunu işləyir.

İndi biz bütün bunları artıq yeni şərait nəzərə alınmaqla bərpa etmək istəyirik və bərpa edirik. Prezidentin təsdiq etdiyi proqram bizim tələbələrin dünyanın aparıcı ölkələrində təhsil almasına yönəlmişdir və ilk növbədə, həm də Rusiyanın aparıcı ali məktəblərini əhatə edir. Biz gələcəkdə səmərəli əməkdaşlığa ümid edirik. Ümid edirik ki, gənclərimiz bundan sonra da MDU-ya daxil olacaq, burada oxuyacaq və ən yaxın vaxtlarda birlikdə istifadəyə verməyi planlaşdırdığımız filial da ölkəmizdə güclü intellektual baza olacaqdır.

Hər bir ölkənin, hər bir millətin gələcəyini iqtisadiyyat deyil, təbii ehtiyatlar və hər hansı başqa sahələr deyil, təhsil müəyyən edir. Müxtəlif dövrlərdə dövlətlərin inkişafına nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarını müəyyən edən təhsil, bilik, intellekt olmuşdur. Bu gün Rusiyada təhsilə yetirilən diqqət də sizin ölkənizin bir neçə onillikdən sonrakı uğurlarının rəhnidir. Bəli, hamının çətinlikləri olmuşdur, SSRİ dağılandan sonra biz hamımız mürəkkəb dövr yaşamışıq. İqtisadi kollaps, xüsusilə Azərbaycanda, kifayət qədər ağır və ağrılı hiss olunmuşdur. Lakin indi, əsas iqtisadi və sosial çətinliklərin artıq geridə qaldığı və maliyyə imkanları yarandığı bir şəraitdə biz Azərbaycanda məhz təhsilə çox böyük sərmayələr qoyuruq.

Deməliyəm ki, son 3-4 ildə Azərbaycanda 1200 ümumtəhsil məktəbi tikilmişdir. Yəqin ki, Rusiya miqyasında bu, böyük göstərici deyil, lakin bizdə cəmi dörd min beş yüz məktəb olduğunu nəzərə alsaq, bu, ümumiyyətlə, mühüm göstəricidir. Özü də onların hamısı kompyuterləşdirilmişdir, indi hamısı internetə birləşdirilir və şagirdlər lap uşaqlıq dövründən gələcəyə yönəldilir.

Bizim büdcədə təhsil xərcləri ikinci yeri tutur. Ona görə ikinci yeri tutur ki, təəssüflər olsun, biz hələ də müharibə vəziyyətindəyik və müdafiə xərcləri üstünlük təşkil edir. Lakin dövlət büdcəsinin 12 milyard dollara bərabər olan xərclərinin 1 milyard dolları təhsilə sərf edilir. Biz gələcəkdə də bu həcmi artıracağıq, çünki bu, gələcəyə qoyulan sərmayədir, xalqımızın uzunmüddətli gələcəyinə sərmayədir.

Rusiya və Azərbaycan enerji ehtiyatları ilə zəngin ölkələrdir və əlbəttə, əhalinin maddi rifahına, iqtisadiyyatın tərəqqisinə və ölkələrimizin siyasi imkanlarına təsir müəyyən dərəcədə bu amillə şərtlənmişdir. Lakin bütün bunlar müvəqqətidir. Təbii ehtiyatlar gec-tez tükənəcək və biz hətta yüz ildən sonra da olsa, bunun baş verəcəyi vaxta hazır olmalıyıq. Biz gələcəyə baxmalıyıq, ölkəmizin 20-30 ildən sonra, 50 ildən sonra necə olacağı barədə indidən düşünməliyik. Bundan ötrü ən başlıcası, intellektual səviyyə və təhsilin səviyyəsidir. İnanın, indi mən bu sözləri bu cür yüksək mükafat aldığıma görə və MDU-nun tribunasından çıxış etdiyimə görə demirəm. Mən bunu həmişə deyirəm. Bunu Bakıda da deyirəm, ölkəmizin kəndlərində və qəsəbələrində də, Nazirlər Kabinetinin iclaslarında da deyirəm. Çünki əminəm ki, bu, ölkəmizin inkişafının əsasıdır.

Bu gün bu mükafatı almaq mənə çox xoşdur. Mən 15 il Moskvada olmuşam, ailəmlə birlikdə, ondan əvvəl isə tələbə ikən burada yaşamışam. O dövr yaxşı illər idi, gənclik illəri idi. Mənim burada dostlarım çoxdur, sevdiyim və hörmət etdiyim insanlar çoxdur və hər dəfə Moskvada olmaq məndən ötrü xüsusi bir hadisədir. Azərbaycanın Prezidenti kimi mən ildə bir neçə dəfə Rusiyada, Moskvada oluram və bu səfərlər, görüşlər, əlaqə-

lər sayəsində bizim münasibətlərimiz daha da möhkəmlənir.

Bu gün, ölkələrimiz iqtisadi asılılıq və siyasi asılılıq dövrünü müəyyən dərəcədə aradan qaldırdıqdan sonra, biz, necə deyərlər, ayağa qalxandan sonra gələcəyə daha böyük nikbinliklə baxırıq. Burada bizim həmyerlimiz, bakılı öz çıxışında Azərbaycanın iqtisadi sahədə qazandığı uğurlardan da danışdı. Bu, doğrudan da belədir. Son üç ildə biz iqtisadiyyatın inkişaf sürətinə görə dünyada birinci yeri tuturuq, bu göstərici ildə 20-30 faiz təşkil edir. Dörd ildə - 2004-2007-ci illərdə Azərbaycanda ümumi daxili məhsulun həcmi 96 faiz, demək olar, iki dəfə artmışdır. Çox güman ki, bu il də artım göstəricisi təxminən eyni səviyyədə olacaqdır. Sənaye istehsalının həcmi də iki dəfəyə qədər artmışdır. Azərbaycanda 650 min iş yeri yaradılmışdır. Əhalisinin sayı səkkiz milyon yarım olan ölkə üçün bu, mühüm göstəricidir.

Dörd ildə biz yoxsulluğa qarşı mübarizə proqramını uğurla həyata keçiririk. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2008-ci ilin əvvəlində 16 faizə düşmüşdür. Əminəm ki, lap yaxın illərdə biz bu biabırçı vəziyyətə, bütün iqtisadiyyatın kollaps vəziyyətində, ölkənin hərtərəfli - həm siyasi, həm iqtisadi, həm də sosial böhran içində olduğu, istehsalın tənəzzül etdiyi və açığını deyək ki, bütövlükdə ölkəmizin müstəqil dövlət kimi gələcəyi sual altında olduğu 90-cı illərin bu ağır mirasına son qoyacağıq.

1990-cı illərin əvvəli və müstəqillik əldə edildiyi vaxt Azərbaycan üçün son dərəcə ağrılı dövr idi. Biz 1991-ci ildə müstəqillik əldə etdik və 1993-cü ildə onu az qala itirəcəkdik. Ölkədə vətəndaş müharibəsi və Ermənistan tərəfindən təcavüz başlanmışdı və bütün bu amillər, əslində, Azərbaycanın müstəqil dövlət kimi inkişaf edib-etməyəcəyi məsələsini sual altında qoymuşdu.

Ulu öndərimiz Heydər Əliyevin böyüklüyü məhz ondadır ki, 1993-cü ildə hakimiyyətə gəlməklə o, ölkəni bu bəladan xilas etdi, onu inkişaf və sabitlik yoluna çıxardı. Artıq qeyd etdiyim kimi, indi Azərbaycan iqtisadi artım sürətinə görə dünyada liderdir.

Əlbəttə, hələ problemlər çoxdur, insanların həyatını yaxşılaşdırmaq üçün hələ çox iş görmək lazımdır. İndiyə qədər əldə etdiyimiz nailiyyətlər bizi qane edə bilməz. Hətta iqtisadiyyatın sürətlə inkişaf etməsinə və insanların maddi rifahının yaxşılaşmasına baxmayaraq, sosial problemlər kifayət qədər çoxdur. Keçmiş SSRİ-nin bütün başqa ölkələrində olduğu kimi. Lakin əsas odur ki, həmin məsələlərin həll edilməsi siyasəti var, hansı istiqamətdə hərəkət etdiyimizi və necə inkişaf etməli olduğumuzu nəinki qarşıdakı bir il üçün, hətta onilliklər üçün də əvvəlcədən təsəvvür edirik. Güclü intellektual potensial yaradılır. İndi burada oxuyan gənclər isə, hətta qalıb Moskvada işləsələr belə, yenə də bizim elçilərimiz olacaqlar.

Mən prezident proqramımı həyata keçirməyə başlayanda, - deyəsən, bu o qədər də düzgün olmadı, daha doğrusu, Heydər Əliyevin 70-ci illərdə həyata keçirdiyi proqramı indi, yeni şəraitdə bərpa edərək, gəncləri xaricdə təhsil almağa göndərəndə müxtəlif təkliflər daxil olmağa başladı: dövlət onlar üçün pul ödəyəcək, onlar isə Avropaya, Rusiyaya gedəcək və sonra qayıtmayacaqlar, buna görə də gəlin onlardan nəinki iltizam, lap girov alaq. Qoy onlar sonradan qayıtmaq üçün nəyisə girov qoysunlar. Amma, açığını deyim ki, məsələyə bu cür yanaşma məni şoka saldı. Biz gənclərə şərait yaratmaq istəyirik ki, onlar yaxşı təhsil alsınlar. Əgər bugünkü gənc təhsil alandan sonra hesab edərsə ki, təhsil aldığı yerdə qalıb yaşaması və işləməsi daha yaxşı olar, deməli belə də olmalıdır, onu

zorla geriyə çəkmək, onun həyatını qırmaq və planlarını pozmaq yalnız mənfi nəticələrə gətirib çıxarar.

Biz Azərbaycanda elə şərait yaratmalıyıq ki, gənc özü Vətəninə qayıtmaq istəsin. Vətəndə həyat şəraiti, əmək haqqı, xidmətlərin, infrastrukturun, rahatlığın səviyyəsi xaricdəki kimi olsa, əlbəttə qayıdacaqlar, çünki bizim gənclərin hamısı kifayət qədər vətənpərvərdir. Ona görə də hətta kimsə dərhal qayıtmasa belə, hər halda, nə vaxtsa qayıdacaq, harada yaşamasından asılı olmayaraq, hər halda, öz xalqına, öz ölkəsinə xidmət edəcəkdir. Ola bilsin ki, bu, Azərbaycanı məhz başqa ölkələrdə, o cümlədən Rusiyada yaşayan nümayəndələrimiz hesabına heç də az möhkəmlətməyəcəkdir. Bu, Azərbaycanı möhkəmlədəcək və ona kömək edəcəkdir. Biz xaricdə yaşayan azərbaycanlılara necə kömək ediriksə, onlar da öz fəaliyyətləri ilə bizə o cür kömək edəcəklər. Rusiyada da artıq bir neçə ildir ki, Ümumrusiya Azərbaycan Konqresi mövcuddur, tələbə klubları var və yəqin ki, gələcəkdə Ümumrusiya Azərbaycan Konqresinin gənclik təşkilatları da inkişaf edəcəkdir.

Beləliklə, bütün bunlar yalnız müsbət işlərə, yalnız xeyirxahlığa xidmət edəcəkdir. Bu, praktiki təhsil sahəsində də belədir, əlaqələr baxımından da. Xalqlarımız arasında əlaqələr qorunub saxlanacaqdır. Axı, sirr deyil ki, 16 il ərzində çox şeyi qoruyub saxlaya bilsək də, bəzi şeyləri itirmişik. Yeni nəsil, indi 15-20 yaşı olan gənclər bir ölkədə yaşamayıblar. Deməli, onların MDB-nin başqa ölkələrindəki yaşıdları ilə qarşılıqlı münasibətlərinin səviyyəsi, istər-istəməz, bizim dövrdəki kimi ola bilməz. Bundan ötrü məhz əlaqələr, birgə təhsil, birgə layihələr, konfranslar, seminarlar olmalıdır. Mən fürsətdən istifadə edib dostlarımızı - həmyerlilərimizi də, başqalarını da Bakıya tez-tez gəlməyə dəvət etmək istəyirəm. Mən bu gün Viktor Antonoviçi də dəvət etmişəm və bu dəvətimi bir daha təsdiqləyirəm. Bu cür əlaqələr nə qədər tez-tez olsa, biz nə qədər çox görüşsək, işlərimiz bir o qədər yaxşı gedəcək, münasibətlərimiz bir o qədər möhkəmlənəcək və hər şey qat-qat səmərəli olacaqdır. Ona görə ki, ölkələr arasında münasibətləri formalaşdıran təkcə prezidentlər deyil, hərçənd, ən böyük məsuliyyət onların üzərinə düşür. Bu münasibətlər həm də vətəndaş cəmiyyəti tərəfindən, professorlar, ziyalılar, cəmiyyətin elitası tərəfindən formalaşır.

Professorlar, müəllimlər hər bir cəmiyyətin elitasıdır, bu insanlar ölkənin inkişafını, onun gələcəyini müəyyən edirlər.

Ona görə də bir daha demək istəyirəm, bu gün burada olmaq mənə çox xoşdur, bu fəxri diplomu almaq çox böyük şərəfdir. Sizi əmin etmək istəyirəm ki, bu şərəfə layiq görülməyimə əsas verən amillər mənim fəaliyyətimdə həmişə olacaqdır və mən Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsi üçün, ölkələrimiz arasında humanitar əməkdaşlığın davam etməsi üçün bundan sonra da səy göstərəcəyəm.

Mənə ünvanlanmış xoş sözlərinizə görə sizə bir daha təşəkkür edirəm və sizin hamınıza ən xoş arzularımı bildirir, firavanlıq və səadət diləyirəm.

* * *

VİKTOR SADOVNİÇİ: Hörmətli İlham Heydər oğlu, Sizə artıq hörmətli professor deyə müraciət etmək olar, Sizin çıxışınızı, əlbəttə, hamı maraqla dinlədi. Moskva Universitetində bu parlaq, ibrətamiz çıxışınıza görə sağ olun. Mən bilirəm ki, gənclər Sizə su-

allar vermək istəyirlər, bu, belə də olmalıdır, lakin bizdə protokol qaydası var. Hörmətli İlham Heydər oğlu, əgər etiraz etməsəniz, Sizə bir neçə sual verərdilər.

İLHAM ƏLİYEV: Xeyr, xeyr, buyursunlar.

SUAL: Hörmətli İlham Heydər oğlu. Sizin fikrinizcə, qloballaşma prosesi və ona xas olan təhdidlər dünyada sabitlik və təhlükəsizlik üçün qorxuludurmu? Azərbaycan bu təhdidlərin aradan qaldırılmasında və həllində hansı strategiyanı əsas götürür?

İLHAM ƏLİYEV: Son vaxtlar bu barədə çox danışılır və mühakimələr çox ziddiyyətlidir. Hər şey bizim qloballaşma anlayışına verdiyimiz mənadan asılıdır. Əgər biz qloballaşma dedikdə daha səmərəli əməkdaşlığı, qarşılıqlı fəaliyyəti, əlaqələri, mədəniyyətlərin bir-birinə təsirini, elm, təhsil, mədəniyyət vasitəsilə qarşılıqlı zənginləşməni nəzərdə tuturuqsa, bütün bunlar müsbət nəticələrə gətirib çıxaracaqdır.

Lakin əgər, bəzən olduğu kimi, qloballaşma dedikdə hansısa müdaxilə, təzyiq, o qədər də məqbul olmayan dəyərlərin və məhdudiyyətlərin zorla qəbul etdirilməsi nəzərdə tutulursa, onda, əlbəttə, bunun heç bir yaxşı nəticəsi olmayacaqdır. Biz də bu problemə belə yanaşırıq. Əməkdaşlığa, mehriban qonşuluğa, kooperasiyaya və risklərin minimuma endirilməsinə kömək edən hər şeyi biz dəstəkləyirik və üstəlik, çox vaxt iri regional layihələrin təşəbbüsçüsü kimi çıxış edirik.

Lakin biz hiss etməyə başlayanda ki, qloballaşma adı ilə müəyyən ənənələrə, həyat tərzinə və dövlətinizin siyasi xəttinə görə Azərbaycan cəmiyyətinin qəbul edə bilməyəcəyi nəyisə bizə zorla qəbul etdirməyə çalışırlar, onda, əlbəttə, biz bunu qəbul edə bilmərik. Onu da deməliyəm ki, Azərbaycan öz ərazisinə və əhalisinə görə böyük ölkələr sırasına aid olmasa da biz xalqımızın mənafelərinə, tərəfdaşlarımız və qonşularımızla əməkdaşlığa əsaslanan müstəqil xarici siyasət xəttini təmin edə bilmişik.

SUAL: Cənab Prezident, MDU-nun Tələbələr İttifaqının həm Moskvadakı, həm də Azərbaycan Respublikasının özündəki azərbaycanlı tələbələrlə yaxşı dostluq münasibətləri yaranmışdır. Biz çox ümid edirik ki, MDU-nun Bakıdakı filialının tələbələri də bizim təşkilata qoşulacaqlar. Biz buna çox şad olarıq. Hazırda biz bütün MDB məkanı üçün çoxlu tədbirlər, məsələn, Lomonosov forumu, eləcə də müxtəlif yaradıcılıq festivalları keçiririk. Siz gənclərin bu cür beynəlxalq tədbirlərinin keçirilməsinə necə yanaşırsınız?

İLHAM ƏLİYEV: Mənim bu gün bu barədə danışdıqlarıma əsasən, siz özünüz bu suala mənim əvəzimdən cavab verə bilərsiniz. Mən buna müsbət yanaşıram və hesab edirəm ki, bu, əməkdaşlığın çox səmərəli formasıdır. MDU-nun Bakı filialında oxuyacaq tələbələrə gəldikdə isə mən bu diplomu almadan da onlara kömək edirdim, lakin indi onlar sizin həmkarınız kimi, professor kimi mənə tamamilə bel bağlaya bilərlər.

SUAL: Salam, hörmətli İlham Heydər oğlu, oktyabr ayında keçirilmiş telekörpü zamanı demişdiniz və bu gün də təkrar etdiniz ki, bütün azərbaycanlı tələbələr haçansa Vətənə qayıdacaqlar. Biz azərbaycanlı tələbələrin iddialı layihələri var. Məsələn, "Formula-1" avtoyürüş trassası tikintisi layihəsi. Siz belə bir layihənin həyata keçirilməsinə və Azərbaycanın onu reallaşdırmaq imkanlarına necə baxırsınız?

İLHAM ƏLİYEV: Mən bunu dəstəkləyirəm. Bu gün burada deyildi ki, biz idman məsələlərinə böyük əhəmiyyət veririk. Əlbəttə, hər şey bizim iradəmizdən asılı deyil, bu qə-

bildən olan yürüşlərin təşkil edilməsi üçün yəqin ki, müəyyən meyarlar və müəyyən normativlər var. Lakin mən düşünürəm ki, əgər təşkilatçılar tərəfindən belə bir arzu olarsa, biz dünya səviyyəsinə uyğun olan bir yenilik yaratmağa həmişə çalışacağıq. Burada düzgün olaraq qeyd edildiyi kimi, Azərbaycanda Olimpiya oyunları keçirmək arzumuz dövlətimizin bərqərar olmasının göstəricisidir. Azərbaycan dövləti təkcə bərqərar olmamışdır, o, dünya səviyyəli oyunlar keçirilməsini özünə rəva görmək iqtidarındadır. Axı bu, həm təşkilati, həm də maliyyə baxımından böyük məsuliyyət deməkdir və bu gün biz buna hazırıq.

Son dövrdə Azərbaycanda 13 müasir olimpiya kompleksi tikilmişdir və demək olar ki, hamısı da regionlardadır. Hazırda Azərbaycanın bütün regionlarında mehmanxanaları, üzgüçülük hovuzları olacaq, yəni istənilən beynəlxalq yarışların keçirilməsi üçün daha 23 müasir idman-olimpiya kompleksi tikiləkdədir. Bakıda bu səviyyəli tədbirlər nə qədər çox keçirilsə, bizim vətəndaşlar üçün də yaxşı olacaq, bu yolla Azərbaycan daha çox təbliğ ediləcəkdir. Biz müasir dövlət qururuq. Mədəniyyətimizə, ənənələrimizə, həyat tərzimizə əsaslanaraq, ölkəni modernləşdirməyə çalışırıq və bu istiqamətdə müəyyən təşəbbüsləri həyata keçiririk.

Azərbaycanın maliyyə imkanlarına gəldikdə isə, deyə bilərəm ki, Dünya Bankının proqnozlarına görə, neftin bir barrelinin qiyməti 50 dollar olarsa, 2020-ci ilə qədər enerji layihələrinin həyata keçirilməsindən Azərbaycana 200 milyard dollar vəsait daxil olacağı gözlənilir. Bu gün neftin bir barrelinin qiyməti 100 dollara yaxındır, ona görə də bu məbləği cəsarətlə ikiyə vurmaq olar. İstər bu gün, istərsə də gələcəkdə ölkəmizin qarşısında maliyyə problemləri olmayacaqdır. Bizə müasir texnologiyalar lazımdır, müasir infrastruktur lazımdır, insanların gündəlik həyatı ilə əlaqədar olan təhsil, tibb, infrastruktur, nəqliyyat, yollar, ekologiya, içməli su və başqa şeylər lazımdır ki, Azərbaycanda insanlar, həqiqətən, getdikcə daha yaxşı yaşasınlar.

SUAL: Hörmətli cənab Prezident, Azərbaycan 2016-cı ilin yay Olimpiya Oyunlarının Bakıda keçirilməsi üçün rəsmi müraciət etmişdir. Biz Moskvada yaşasaq da, Bakının qalib gəlməsini istəyirik. Siz Milli Olimpiya Komitəsinin rəhbərisiniz, Sizcə, Bakının qalib gəlmək şansı necədir və Sizin müraciətinizdə tələbələrin rolu nədən ibarətdir?

İLHAM ƏLİYEV: Tələbələrin və ümumiyyətlə, vətəndaşların rolu, əlbəttə, çox əhəmiyyətli olacaqdır, çünki Beynəlxalq Olimpiya Komitəsi hansı şəhərin seçilməsi barədə qərar qəbul edərkən bu və ya digər şəhərdə yaşayan insanların məsələyə necə münasibət bəsləməsini hökmən nəzərə alır. Deməliyəm ki, bütün başqa namizədlər arasında Azərbaycanı fərqləndirən cəhət ictimai dəstəyin ən yüksək səviyyədə olmasıdır. Əlbəttə, cəmiyyətin əsas fəal hissəsi kimi tələbələr bu məsələdə çox böyük rol oynayırlar və ümid edirik ki, onlar bundan sonra da bizim təşəbbüslərimizi fəal surətdə dəstəkləyəcəklər.

Şans məsələsinə gəldikdə isə, bu barədə danışmaq çətindir. Hərçənd, Olimpiya oyunlarının keçirilməsi tarixindən bilirik ki, ölkə heç vaxt birinci dəfədən belə hüquq qazanmamışdır. Azərbaycan belə müraciəti ilk dəfə etmişdir. Bizim rəqiblərimiz kifayət qədər ciddidir. Söhbət dünyada məşhur olan altı şəhərdən gedir və əlbəttə, rəqabət asan olmayacaqdır. Yəni belə deyək, güclü rəqabət və ilk dəfə müraciət etməyimiz bizim xeyrimizə olmayan amillərdir. Lakin bizim xeyrimizə olan amillər də var. Buraya ilk

növbədə çox əlverişli coğrafi mövqe, ölkənin sahəsinin kiçik olması, artıq bu gün mövcud olan və nəinki bir, hətta bir neçə ən iri dünya birinciliyi keçirməyə imkan verən infrastrukturun olması, dünya çempionatları keçirilməsi sahəsində təcrübəyə malik olmağımız, Olimpiada keçirilməsi ilə bağlı olmadan olimpiya obyektlərinin tikilməsi faktları aiddir. Soçi ilə bağlı da belə olmuşdu. Axı, hər halda, orada da olimpiya obyektləri tikilmişdi.

Qitələrin növbələşdirilməsi qaydası da namizədin seçilməsinə müəyyən dərəcədə təsir göstərir. İndiki halda Azərbaycanın üstünlüyü bu məsələyə hansı tərəfdən baxmaqdan asılıdır: əgər Şərqdən baxsaq, biz Avropayıq, əgər Qərbdən baxsaq, biz Asiyayıq. Yəni burada Olimpiya oyunlarının keçirilməsi üçün amillər çoxdur: gözəl iqlim şəraiti, ilıq dəniz, təhlükəsizlik. Bakı dünyanın ən təhlükəsiz şəhərlərindən biridir və orada olanlar bilir ki, gündüz də, gecə də rahat gəzmək olar və bizim adamlar elə belə də edirlər.

Beləliklə, müsbət amillər də var, mənfi amillər də, lakin son qərarı, əlbəttə, Beynəlxalq Olimpiya Komitəsinin üzvləri qəbul edəcəklər. Bu ilin ortalarında ilkin qərar qəbul ediləcək, bir neçə şəhər ələnəcəkdir. Biz ümid edirik və çalışırıq ki, Bakı həmin şəhərlərin sırasına düşməsin. Bundan sonrasi isə, əlbəttə, bizim hazırlığımızdan və başqa amillərdən asılı olacaqdır.

Lakin sizin sualınıza qayıdaraq, bir daha demək istəyirəm ki, biz öz vətəndaşlarımızın və ilk növbədə ən fəal tələbələrin, o cümlədən Moskvada yaşayan sizin kimi tələbələrin güclü ictimai dəstəyinə ümid edirik.

SUAL: Hörmətli İlham Heydər oğlu, Siz Moskvada, MDBMİ-də oxumusunuz. İndi Sizin qızınız, Leyla xanım da MDBMİ-də oxuyur. Sizin fikrinizcə, bu nəsillər, Sizin nəsil və bizim nəsil bir-birindən nə ilə fərqlənir? Bir faktı Siz artıq dediniz: biz eyni ölkədə doğulmamışıq. Şəxsi xarakterli daha bir sualım var. Təsəvvür edək ki, zaman maşını var və Siz öz gəncliyinizə, lakin indiki tarixi şəraitdə qayıtmısınız. Siz MDU-nun hansı fakültəsini seçərdiniz?

İLHAM ƏLİYEV: Mən elə bir mühüm fərq görmürəm. Siz Leylanın adını çəkdiniz, o, artıq böyük qızdır, burada oxuyur. Biz öz aramızda nəsillərin hər hansı fərqini hiss etmirik. Mən ona baxanda özümün tələbəlik illərini xatırlayıram və bütün bunlar mənə çox tanışdır, tələbəliyin ruhunu heç nə ilə müqayisə eləmək olmaz. Bu, yəqin ki, yaxşı illərdir, insanların həyatında ən yaxşı illərdəndir. Sadəcə olaraq, sən gənc və tələbə olanda bəzi şeyləri başa düşmürsən, sənə elə gəlir ki, bu həmişə belə olacaq. Tələbəlik ruhu, dostluq, təhsil, dünyanın aparıcı ali məktəblərində oxumaq, görkəmli professorların mühazirələrini dinləmək imkanı böyük səadətdir. Tələbəlik illərində bundan yaxşı heç nə ola bilməz. Ona görə də mən elə hesab etmirəm ki, indiki nəsil bizim nəsildən necəsə fərqlənir, hərçənd belə düşünənlər var. Lakin bu fikirlər ənənəvidir - yaşlı nəsil həmişə deyir ki, bəs bizim vaxtımızda belə idi, biz daha yaxşı yaşayırdıq, onlar isə belə deyillər. Biz tələbə olanda da eyni vəziyyət idi. İndi də belədir. Lakin mənim nəzərimcə, burada prinsipial fərq yoxdur. Əgər mən MDU-da oxumalı olsaydım, yəqin ki, birinci dəfə olduğu kimi bir humanitar sahəni seçərdim, bu, mənə daha yaxındır və daha böyük maraq doğurur.

VİKTOR SADOVNİÇİ: Hörmətli İlham Heydər oğlu, bununla mərasimi tamamlamaq olardı, amma biz Sizə bir musiqi hədiyyəsi hazırlamışıq. Lakin onu elan etməzdən əvvəl

mən bir ideyaya qayıtmalıyam ki, MDU-da bütün rəhbər vəzifələri Azərbaycandan olan adamlar tuturlar. Bizim akademik xor məşhur kollektivdir. Bu kollektivin rəhbəri ölkəmizdəki bütün mükafatları almış Mirzə Əsgərovdur, Sizin həmyerliniz. İlham Heydər oğlu, lakin məsələ bununla da bitmir. İndicə deyəcəyim xəbər yəqin ki, Sizi heyrətləndirəcəkdir. Bizim öz milis bölməmiz var, yəni bizi öz milisimiz qoruyur, tələbələrin rahatlığının, təhlükəsizliyinin keşiyini çəkir. Bu bölmədə 100-dən çox adam var. Lap bu yaxınlarda bizə bir polkovnik təyin ediblər. O da Sizin adamdır. Mənə belə gəlir ki, bu, uzaqgörənliklə edilib. Edita Stanislavovna Maqdiç, milis polkovniki. Qalır bircə rektor.

MİRZƏ ƏSGƏROV: Möhtərəm İlham Heydər oğlu, möhtərəm Viktor Antonoviç. Bu gün Sizi MDU-da salamlamaq Moskva Universitetinin qocaman həvəskar kollektivi - akademik xoru üçün böyük şərəfdir. İcazə verin, Sizə MDU-nun fəxri professoru kimi yüksək ad verilməsi münasibətilə xor adından Sizi təbrik edim, cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayım. Biz Sizdən və burada iştirak edənlərdən ötrü məxsusi olaraq bu görüş üçün hazırladığımız Azərbaycan dilində bir mahnı ifa etmək istərdik.

***

Mirzə Əsgərovun rəhbərlik etdiyi akademik tələbə xorunun ifasında "Almanı atdım xarala" Azərbaycan xalq mahnısı və "Uzun illər" adlı ənənəvi təbrik mahnısı səsləndi.

VİKTOR SADOVNİÇİ: Hörmətli həmkarlar, bununla da Elmi Şuranın təntənəli iclası bağlı elan edilir. Mən təklif edirəm, korporasiyamızın yeni üzvünü, fəxri professor, Azərbaycan Respublikasının Prezidentini bir daha təbrik edək.

***

Prezident İlham Əliyev MDU-nun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı, xatirə şəkli çəkdirdi.

MOSKVADA MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR

Fevralın 22-də Moskvada, Rusiya hökumətinin Qəbullar evində MDB üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısının işində iştirak etmişdir.

Zirvə toplantısı başlanmazdan əvvəl Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Prezident İlham Əliyevi və digər MDB ölkələrinin dövlət başçılarını səmimiyyətlə qarşıladı. Zirvə toplantısının iştirakçıları xatirə şəkli çəkdirdilər.

Yüksək səviyyəli görüşü Rusiya Prezidenti Vladimir Putin açdı, bu sammitin işində iştirak etdiklərinə görə Birlik dövlətlərinin başçılarına təşəkkürünü bildirdi.

Sonra Birliyin sədri, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev çıxış edərək, MDB ölkələrinin hamısı üçün maraq doğuran məsələlərin müzakirə olunmasını təklif etdi.

Rusiya Prezidenti Vladimir Putin MDB-nin inkişafının vəziyyətinə həsr olunmuş məruzə ilə çıxış etdi. O bildirdi ki, Birlik ölkələri ilə əməkdaşlıq Rusiyanın xarici siyasətinin prioritet istiqamətidir. RF Prezidenti vurğuladı ki, MDB-nin gələcək inkişafı konsepsiyasının qəbul edilməsi, iqtisadi və humanitar sahələrdə müştərək layihələrin həyata ke-

çirilməsi Birliyin möhkəmlənməsinə yönəlmiş zəruri amildir.

MDB Ölkələri Miqrasiya orqanlarının rəhbərləri Şurasının işinin fəallaşdırılması məsələsinə toxunan Prezident Putin Birlik ölkələrindən gələn miqrantlara münasibətdə mövcud olan ksenofobiya və millətçilik faktlarından təəssüfləndiyini bildirdi.

Rusiya dövlətinin başçısı humanitar əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayaraq, təhsil sahəsində layihələrə daha çox diqqət yetirməyin zəruri olduğunu söylədi. O, Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə qərarını yüksək qiymətləndirdi. Rusiya Prezidenti Vladimir Putin dedi: "Dünən həmkarımız, dostum Azərbaycan Prezidentindən Bakıda Moskva Dövlət Universitetinin filialının açılması barədə razılıq əldə edilməsini eşitmək mənim üçün çox xoş oldu".

Rusiya 2008-ci ili Ədəbiyyat və mütaliə ili elan etmək təşəbbüsü ilə çıxış etdi. İl çərçivəsində milli ədəbiyyatların klassiklərinin, o cümlədən Azərbaycan şairi Mikayıl Müşfiqin yubileyinin keçirilməsi planlaşdırılır.

Rusiya dövlətinin başçısı Birlik ölkələri xalqlarının bədii ədəbiyyat əsərlərinin rus dilinə tərcüməsi prosesini fəallaşdırmağı da təklif etdi. Prezident Vladimir Putin MDB-də sədarət təsisatının konsepsiyasının qəbul edilməsinə tərəfdar olduğunu bildirdi. Onun fikrincə, bu sənəd Birlik strukturlarının işini fəallaşdırmağa imkan verəcəkdir.

Rusiya Prezidenti MDB çərçivəsində əməkdaşlığa, bu işə müsbət yanaşdıqlarına görə öz həmkarlarına təşəkkür etdi.

Rusiya Prezidenti vəzifəsində sonuncu zirvə toplantısında iştirak edən Vladimir Putin özünün siyasi varisini MDB ölkələrinin dövlət başçılarına təqdim etdi. O xüsusi vurğuladı ki, "hökumət sədrinin birinci müavini Dmitri Medvedev prezident seçkilərində qalib gələcəyi təqdirdə Rusiyanın MDB-yə münasibətdə xarici siyasəti dəyişməyəcəkdir".

RF hökuməti sədrinin birinci müavini Dmitri Medvedev Birliyin inkişaf perspektivləri barədə məruzə ilə çıxış etdi.

Sonra müzakirələr başlandı. Zirvə toplantısının iştirakçıları MDB-nin üzvü olan dövlətlərin iqtisadi və siyasi əməkdaşlığının aktual məsələlərini, sosial və humanitar sahələrdə müştərək layihələrin həyata keçirilməsində onların qarşılıqlı əlaqələrini, MDB-nin gələcək inkişaf konsepsiyasının həyata keçirilməsinə dair tədbirləri, eləcə də Birliyin fəaliyyətinin səmərəsini artırmağın və onun strukturlarının işini optimallaşdırmağın konkret yollarını nəzərdən keçirdilər. Birlik məkanında miqrasiya siyasəti, üzv dövlətlərin nəqliyyat sahəsində qarşılıqlı fəaliyyəti, o cümlədən nəqliyyat infrastrukturunun hərtərəfli inkişafı və modernləşdirilməsi məsələləri də müzakirə edildi. Sonuncu mövzunun aktuallığı ondan irəli gəlir ki, Qazaxıstanın təşəbbüsü ilə 2008-ci il MDB-də Nəqliyyat ili elan edilmişdir. Müzakirə olunan digər mühüm mövzular arasında Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünün bayram edilməsinə hazırlıqla əlaqədar əsas tədbirlər planının layihəsinin işlənib hazırlanması, eləcə də MDB-nin ümumi informasiya məkanının yaradılması üçün "Mir" dövlətlərarası teleradio şirkətinin imkanlarından fəal istifadə edilməsi məsələləri də vardı.

* * *

Zirvə toplantısı başa çatandan sonra Rusiya Prezidenti adından MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə ziyafət verildi.

Elə həmin gün axşam zirvə toplantısının iştirakçıları Dövlət Kreml sarayında Vətənin müdafiəçiləri günü şərəfinə konsertdə olmuşlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Prezident sarayında məşhur yazıçı Çingiz Aytmatovu qəbul etmişdir.

Dövlətimizin başçısı hörmətli qonağı salamlayaraq, onu yenidən Bakıda görməyindən şad olduğunu bildirdi.

ÇİNGİZ AYTMATOV: Mən isə Sizə öz ehtiramımı bir daha bildirmək üçün yenidən burada olmağıma şadam. Mən Sizin atanızı yaxşı tanıyırdım, onunla Moskvada söhbətlərimiz olubdur.

İLHAM ƏLİYEV: Hörmətli Çingiz Torekuloviç, mən Sizi Azərbaycanın yüksək ordeni ilə təltif etmək istərdim. Bu orden "Dostluq" adlanır. Siz həmişə, bütün dövrlərdə Azərbaycanın böyük dostu olmusunuz. Bu, sovet dövründə də belə olub, - mən bunu atamın söhbətlərindən də bilirəm, Sizin onunla münasibətləriniz mənə məlumdur, - müstəqillik dövründə də. Siz həmişə bizi dəstəkləmisiniz. Çətin anlarda Siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demisiniz. İcazə verin, bu mükafatı Sizə təqdim edim. Təbrik edirəm.

Burada bir xüsusi məqam var. Bu ordenin qeydiyyat nömrəsi 1-dir. "Dostluq" ordeni yeni ordendir, dövlət təltifidir. Siz bu ordenin təqdim edildiyi birinci şəxssiniz. Bu, çox mühümdür, bu - tarixdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Prezident sarayında ABŞ Dövlət Departamentinin Avrasiya Enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivlərinə, enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Polşa Respublikasına rəsmi səfərə yola gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Fevralın 26-da Polşa Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi, Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin əhəmiyyəti xüsusi vurğulandı, əməkdaşlığın perspektivləri, ikitərəfli münasibətlər və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski Birgə bəyannamə imzaladılar.

BİRGƏ BƏYANNAMƏ

Azərbaycan Respublikası Prezidenti və Polşa Respublikası Prezidenti

Beynəlxalq məsələlərdə əməkdaşlıq da daxil olmaqla, Azərbaycan və Polşa arasında ümumi maraq kəsb edən sahələrdə ikitərəfli əlaqələr və əməkdaşlığın vəziyyəti və inkişaf istiqamətləri barədə faydalı fikir mübadiləsinə istinad edərək,

İki ölkə arasında dostluq əlaqələrinin və əməkdaşlığın daha da inkişafı və genişləndirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin hazırkı səfərinin vacibliyini, o cümlədən iki dövlətin rəsmiləri arasında gələcək yüksək səviyyəli görüşlərin əhəmiyyətini vurğulayaraq,

Hər iki ölkə beynəlxalq aləmdəki mühüm məsələlərlə bağlı oxşar və ya çox yaxın mövqelərinin olması faktı və strateji tərəfdaşlıq və hərtərəfli əməkdaşlıq üçün aralarındakı ikitərəfli əlaqələri bərabərlik, qarşılıqlı etimad və anlaşma əsasında inkişaf etdirmək zərurəti mövqeyindən çıxış etdiklərini vurğulayaraq,

Beynəlxalq hüququn ümumtanınmış normalarına, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində əks olunmuş məqsəd və prinsiplərə sadiqliklərini təsdiq edərək,

Münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət və riayət əsasında, BMT Nizamnaməsinə uyğun olaraq, sülh yolu ilə həllini dəstəklədiklərini qeyd edərək,

Hər iki Tərəfin siyasi, iqtisadi, mədəni, elmi və humanitar əməkdaşlıq, o cümlədən qarşılıqlı səmərə verə biləcək digər sahələrdə faydalı əlaqələri inkişaf etdirməyə mövcud potensial və hazırlıqlarını məmnuniyyətlə qeyd edərək,

Ümumi iqtisadi əməkdaşlığı dərinləşdirmək və genişləndirməyin ən mühüm komponenti kimi Azərbaycan-Polşa ticarət mübadiləsinin genişləndirilməsi və diversifikasiya edilməsinin əhəmiyyətini xüsusilə vurğulayaraq,

Enerji resurslarının beynəlxalq bazarlara etibarlı çıxışını təmin etmək və enerji əməkdaşlığını təşviq etməkdə güclü, qarşılıqlı maraqlara malik olaraq,

aşağıdakıları bəyan edirlər:

1. Tərəflər strateji tərəfdaşlığı möhkəmləndirmək məqsədilə qarşılıqlı maraq doğuran siyasi və iqtisadi məsələlər üzrə məsləhətləşmələrin həyata keçirilməsi, regional və qlobal təhlükəsizliyin gücləndirilməsi üzrə dialoq və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparmaq barədə hazırlıqlarını təsdiqlədilər. Tərəflər əlaqələrini qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlər əsasında inkişaf etdirmək öhdəliklərini qeyd edirlər.
2. Tərəflər BMT, ATƏT, GUAM və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqlarının səmərəliliyini artırmaq istiqamətində səylərini davam etdirəcəklər.
3. Avropada təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini vurğulayaraq və beynəlxalq səviyyədə tanınmış sərhədlərin güc yolu ilə dəyişdirilməsinin qəbul edilməzliyinə dair mövqelərini təsdiq edərək, Tərəflər qeyd etdilər ki, beynəlxalq birliyin, o cümlədən Avropa dövlətlərinin beynəlxalq sülh və təhlükəsizliyə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə təhlükə törədən təcavüz aktlarına qarşı səylərinin birləşdirilməsi qlobal təhlükəsizliyin təmin edilməsinin mühüm amilidir.
4. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət əsasında sülh yolu ilə həllinin əhəmiyyətini vurğuladılar.
5. Tərəflər sülh əməliyyatları, silahlı qüvvələrə demokratik nəzarət, müdafiə və təhlükəsizlik sektorunda islahatlar sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə, Avratlantika Tərəfdaşlıq Şurası və NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində sıx əməkdaşlığı dəstəklədiklərini ifadə etdilər.
6. Tərəflər Azərbaycanın Avropa təsisatlarına inteqrasiyasının inkişafı baxımından Avropa Qonşuluq Siyasətinin həyata keçirilməsinin, Avropa İttifaqı və Azərbaycan arasında Fəaliyyət Planının qəbul edilməsinin əhəmiyyətini qeyd etdilər və iki dövlət arasında bu sahədə fəal əməkdaşlığı dəstəklədilər. Bu kontekstdə, Tərəflər 2007-ci il 1 mart tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Polşa Respublikası Xarici İşlər Nazirliyi arasında Avropaya inteqrasiya üçün 2007-2008-ci illərdə əməkdaşlıq haqqında Memorandumu"n əhəmiyyətini vurğuladılar və bu sənədin həyata keçirilməsi istiqamətində növbəti addımların atılması niyyətlərini ifadə etdilər.
7. Tərəflər ikitərəfli əlaqələrin və regional sabitliyin genişləndirilməsi üçün regional əməkdaşlığın əhəmiyyətini vurğuladılar. Bu kontekstdə, onlar Polşa-GUAM tərəfdaşlığını alqışladılar və "V4+" mexanizmləri vasitəsilə Azərbaycan və Vişeqrad qrupu arasında sıx əməkdaşlığın əhəmiyyətini vurğuladılar.
8. Polşa tərəfi Azərbaycan Respublikası tərəfindən həyata keçirilən iqtisadi islahatların əhəmiyyətini vurğulayaraq, onun DTT-yə üzv olmaq niyyətini dəstəkləyir və Azərbaycanın DTT ilə danışıqlar prosesində texniki yardım göstərməyə hazır olduğunu ifadə etdi.
9. Tərəflər Avropa enerji təhlükəsizliyinin əhəmiyyətini vurğuladılar və bununla əlaqədar, Avropanın enerji tələbatının təmin edilməsində Xəzər dənizi regionunun enerji ehtiyatlarının artan rolunu xüsusilə qeyd etdilər. Bu kontekstdə, Tərəflər Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin həyata keçirilməsinin strateji əhəmiyyətini qeyd edərək, Xəzər neftinin Avropa və dünya bazarlarına tranziti üçün dəhliz layihəsinə öz (Odessa-Brodı-Plotsk-Qdansk) dəstəklərini ifadə etdilər. Tərəflər yeni enerji layihələrini həyata keçirəcəklərini, xüsusilə Xəzər dənizindən Azərbaycan Respublikası, Gürcüstan, Ukrayna və Polşa Respublikası vasitəsilə Avropa və beynəlxalq bazarlara nəqliyyat sistemi imkanlarını araşdıraraq yeni Sarmatia konsorsiumunun yaradılmasını məmnuniyyətlə qeyd edirlər. Bu baxımdan Tərəflər cari ilin may ayında Kiyev şəhərində keçiriləcək növbəti Enerji Sammitinin əhəmiyyətini vurğuladılar.
10. Tərəflər tranzit azadlığı və qeyri-ayrıseçkilik prinsipləri əsasında Azərbaycan Respublikasında və Xəzər dənizi regionunda hasil olunan təbii qazın müvafiq ölkələr vasitəsilə Avropa istehlakçılarına məhdudlaşdırılmayan və iqtisadi cəhətdən cəlbedici tranzitinin təmin edilməsi üzrə əməkdaşlıq edəcəklər.
11. Tərəflər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini inkişaf etdirmək üçün bütün nəqliyyat vasitələri sahəsində ikitərəfli və regional səviyyədə əməkdaşlığın gücləndirilməsi zərurətini dəstəkləyirlər. Tərəflər Cənubi Qafqazı Mərkəzi və Şərqi Avropa regionları ilə birləşdirən Şərq-Qərb dəhlizinin elementini təşkil edən infrastruktur layihələrinin inkişafının əhəmiyyətini qeyd etdilər.
12. Tərəflər enerji təhlükəsizliyinin təmin edilməsinin təxirəsalınmaz zərurətini etiraf edərək və ətraf mühitin mühafizəsini ən vacib tapşırıq kimi nəzərdən keçirərək, BMT-nin bütün üzv dövlətlərini qlobal istiləşmənin və onun bəşəriyyətə vura biləcəyi zərərli fəsadların azaldılması istiqamətində birgə səy göstərməyə çağırırlar. Bununla əlaqədar, Tərəflər bütün dövlətlərin, azad bazar şərtləri əsasında, enerji resurslarına sərbəst çıxışının zəruriliyini bir daha təsdiq etdilər.
13. Tərəflər hərbi və hərbi-texnoloji sahələrdə əməkdaşlıq edəcək və hər iki dövlətin müvafiq qurumları arasında əlaqələrin inkişaf etdirilməsinə yardım edəcəklər.
14. Tərəflər hər iki dövlət arasında ticarətin həcmi və iqtisadi əməkdaşlığın səviyyəsinin iqtisadiyyatlarının imkanlarına və potensialına uyğun şəkildə artırılması və sərmayələrin təşviqi də daxil olmaqla, hər növ biznes fəaliyyəti üçün əlverişli hüquqi, institusional və digər şəraitin təmin edilməsi barədə əlavə tədbirlər görəcəklər.
15. Tərəflər təhsil, mədəni, texnoloji və elmi sahələrdə əlaqələrin inkişafını müvafiq qurumlar arasında birbaşa əməkdaşlığı, böyük universitet əməkdaşlığını, daha çox tələbə və məktəbli mübadiləsi proqramlarını və bu sahələrdə digər birgə layihələri həyata keçirməklə həvəsləndirəcəklər.

Varşava, 26 fevral 2008-ci il

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Fevralın 26-da Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi və enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu bildirildi.

Dövlətimizin başçısının indiki rəsmi səfərinin əhəmiyyətinin qeyd olunduğu görüşdə bildirildi ki, bu səfər əlaqələrimizin daha da genişlənməsinə və möhkəmlənməsinə təkan verəcəkdir.

Görüşdə ölkələrimiz arasında imzalanan sənədlərin həyata keçirilməsinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyi vurğulandı.

Həmçinin görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu və Polşa Prezidenti Lex Kaçinski bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında həllinə tərəfdar olduğunu bildirdi.

Prezident İlham Əliyev Polşanın ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirdi.

AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI

Fevralın 26-da geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYANATI

- Hörmətli Prezident Əliyev,

Hörmətli Azərbaycan nümayəndə heyəti,

Hörmətli xanımlar və cənablar!

Mən əvvəlcə sizi salamlayıram. Mən böyük məmnunluqla bildirmək istəyirəm ki, cənab İlham Əliyev mənim dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəlmişdir. Artıq iki ildən çoxdur ki, biz əməkdaşlıq edirik. Lakin bu səfər ölkələrimiz üçün xüsusi əhəmiyyət daşıyır. Çünki bu səfər elə bir vaxta təsadüf edir ki, ölkələrimiz arasında münasibətlər olduqca sıx, strateji xarakter daşıyır. Azərbaycan Polşanın strateji müttəfiqidir. Polşa öz xarici siyasətində Azərbaycanın Avratlantik strukturlara inteqrasiya olunmasına yardım göstərməyi vacib hesab edir.

Eyni zamanda onu da qeyd etməliyəm ki, cənab Prezidentin bu rəsmi səfərini biz səbirsizliklə gözləyirdik. Cənab Prezidentlə apardığımız bugünkü danışıqlarımız zamanı cənab İlham Əliyev bildirmişdir ki, Dağlıq Qarabağ problemi dinc yolla həll olunmalıdır. Lakin bu həll yolu xüsusi olaraq, beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüquqa əsasən, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir və biz bu mövqeyi

dəstəkləyirik. Baxmayaraq ki, bizim Ermənistanla da münasibətlərimiz var. Bu, birinci məsələ.

İkinci məsələ ondan ibarətdir ki, bizim çox maraqlı müzakirələrimiz oldu və həmin müzakirələr zamanı müxtəlif mövzulara toxunduq. Eyni zamanda enerji siyasətini nəzərdən keçirdik və Prezident bildirdi ki, bir il bundan əvvəlki vəziyyətdən fərqli olaraq, bizim regionda hazırda enerji məsələsinə siyasətdən ayrı baxıla bilməz. Biz eyni zamanda dost ölkələrdə olan vəziyyəti də müzakirə etdik. Hansı ki, o ölkələr Polşa üçün təbii maraq doğurur və Polşa üçün dost ölkədir.

Biz risklər və imkanları da müzakirə etdik və problemləri nəzərdən keçirdik. Enerji əməkdaşlığı sahəsində, xüsusən də Krakovdakı konfransdan başlayaraq, indiyədək əldə olunmuş irəliləyişi nəzərdən keçirdik. Biz bilirik ki, Azərbaycanın nəinki xam neft, o cümlədən çox böyük təbii qaz yataqlarında çox böyük potensialı var və bu, mövcuddur. Bu, Polşa üçün olduqca vacibdir və bu sahədə mövzunu cənab Prezidentlə daha sonra inkişaf etdirəcəyik. Biz bundan başqa qarşılıqlı maraq doğuran digər sahələrdə olan əməkdaşlığımızı da müzakirə etdik.

Mən böyük məmnuniyyət hissi ilə cənab Prezidentə Polşa Respublikasının ən ali ordenini - "Xidmətlərə görə" Böyük Xaç ordenini təqdim etdim. Cənab Əliyev ölkələrimiz arasında münasibətlərin inkişaf etməsinə göstərdiyi xidmətlərinə görə bu ordenlə təltif olunmuşdur. Biz bilirik ki, XX əsrin əvvəlində siz azadlığınıza nail olmusunuz. Azərbaycan xalqı tarixən öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmışdır.

Cənab Prezident, çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin təşəkkürümü bildirmək istəyirəm.

Mən bu gün çox məmnunam ki, biz Sizinlə çox səmərəli danışıqlar apardıq, geniş fikir mübadiləsi etdik. Mən böyük məmnuniyyətlə Polşaya yenidən səfər edirəm və Polşa dövlətinin ali ordenini mənə təqdim etdiyinizə görə, məni bu ordenlə təltif etdiyinizə görə Sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə Polşa-Azərbaycan münasibətlərinin inkişafında fəal rol oynayacağam. Çalışacağam ki, bu münasibətlər daha da möhkəmlənsin, dərinləşsin və xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

Biz haqlı olaraq bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi qiymətləndiririk. Bizim aramızda çox güclü siyasi dialoq aparılır. Cənab Prezident, bizim Sizinlə görüşlərimiz mütəmadi xarakter daşıyır. Bakıda, Varşavada, digər şəhərlərdə biz mütəmadi qaydada görüşürük, ikitərəfli və regional məsələləri müzakirə edirik. Müzakirə olunan məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Bizim iqtisadi əlaqələrimizin inkişafı üçün də çox gözəl perspektivlər var. Mən əminəm

ki, bu səfər və səfərin nəticələri bu sahədə də əməkdaşlığın dərinləşməsinə gətirib çıxaracaqdır.

Hörmətli cənab Prezident, bu gün biz sizinlə iki ölkə arasında siyasi Bəyannaməni imzaladıq. Bu Bəyannamədə ikitərəfli münasibətlərin bütün aspektləri öz əksini tapıbdır. Bəyannamə gələcək əməkdaşlıq üçün çox gözəl sənəddir. Xüsusilə Bəyannamədə və Sizin bugünkü çıxışlarınızda səslənən və Azərbaycanın ərazi bütövlüyünə aid olan məsələlər bizdə xüsusi məmnunluq hissi oyadır.

Polşa bütün dövrlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun şəkildə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarı olmuşdur. Siz bu mövqeyi bu gün də təkrarladınız. Bu, münaqişənin həlli üçün çox əhəmiyyətlidir. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, danışıqlar predmeti olmayıb və olmayacaqdır. Məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır və beynəlxalq dəstək, dünyanın aparıcı ölkələrinin bu barədəki mövqeləri, əlbəttə, məsələnin həlli üçün gözəl şərait yaradır.

Azərbaycanlılar münaqişə zamanı etnik təmizləmə siyasətinə məruz qalmışdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından zorla çıxarılmışdır. Onu da deyə bilərəm ki, düz 16 il bundan əvvəl - 1992-ci il fevralın 26-da Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparması qeydə alınmışdır. Məhz o gün Azərbaycan şəhəri Xocalı Ermənistanın təcavüzünə məruz qalmışdır və azərbaycanlılara qarşı soyqırımı törədilmişdir. O gecə 600-dən çox dinc insan qətlə yetirilmişdir. Onlardan 63-ü uşaq, 106-sı isə qadın olmuşdur. Bu, çox böyük cinayətdir. Biz, əlbəttə, danışıqlar zamanı öz prinsipial mövqeyimizdən dönməyəcəyik və çalışacağıq ki, məsələ öz həllini tapsın. Bayaq qeyd etdiyim kimi, ölkələrin ərazi bütövlüyü çərçivəsində.

Hazırda bizim aramızda çox geniş enerji dialoqu aparılır. Sizin təşəbbüsünüzlə keçən ilin may ayında Krakovda keçirilən birinci enerji sammitinin nəticələri çox ümidverici olmuşdur. Ondan sonra biz Litvada görüşdük. Bu il yenə də görüşəcəyik və enerji sahəsində əməkdaşlıq, əlbəttə, həm iki ölkə arasında münasibətlərə çox gözəl təsir göstərir, həm də regional əməkdaşlıq məsələlərində öz müsbət rolunu oynayır.

Biz indi Xəzər dənizi-Qara dəniz-Baltik dənizi əməkdaşlıq çərçivələrini müəyyən edirik və bu istiqamətdə enerji amili, əlbəttə, mühüm rol oynayır. Azərbaycan həm neft, həm də qaz hasil və ixrac edən ölkəyə çevrilmişdir. Bizim zəngin yataqlarımızdakı neft-qaz artıq dünya bazarlarına, o cümlədən Avropa İttifaqı bazarına çatdırılmışdır. Gələcəkdə biz öz hasilatımızı daha da artıracağıq. Bu il Azərbaycanda neftin hasilatı 53 milyon ton olacaqdır. Qazın təhvil verilməsi təxminən 18 milyard kubmetr olacaqdır. Amma, əlbəttə, potensial daha da böyükdür və bu sahədə, xüsusilə qaz sahəsində əməkdaşlıqda həm istehsalçılar, həm də istehlakçılar fəal iştirak etməlidir və iki tərəfin maraqları maksimum dərəcədə müəyyən olunmalıdır. Bu sahədə çox güclü koordinasiya işləri aparılmalıdır. Deyə bilərəm ki, cənab Prezident, sizin təşəbbüsünüzlə Krakov sammitinin əsas mahiyyəti, əsas müsbət cəhətləri məhz onda idi ki, biz, bir neçə ölkənin prezidentləri bir araya gəldik və beləliklə, gələcək inkişaf parametrlərini müəyyən etdik. Növbəti mərhələdə biz artıq praktiki işlərə keçməliyik və mən şübhə etmirəm ki, bu sahədə də əldə ediləcək uğurlar müsbət olacaq və regional əməkdaşlığa çox gözəl təkan verəcəkdir.

Bizim aramızda olan münasibətlər çoxşaxəlidir. Həm iqtisadi, həm energetika, həm siyasi, həm də humanitar sahədə çox gözəl perspektivlərimiz var. Biz dost ölkələrik, strateji tərəfdaşlıq çərçivəsində öz münasibətlərimizi qururuq və bundan sonra da çalışacağıq ki, bu münasibətləri yüksək səviyyədə saxlayaq.

Mən aparılan danışıqlardan çox razıyam. Onlar çox uğurlu olmuşdur. Əminəm ki, bu danışıqlar və gələcək görüşlərimiz ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm vasitə olacaq və Polşa-Azərbaycan dostluğu davam edəcəkdir.

Cənab Prezident, bizə göstərdiyiniz bu qonaqpərvərliyə görə, məni Polşanın yüksək dövlət mükafatı ilə təltif etdiyinizə görə sizə bir daha minnətdaram.

AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARI ARASINDA SƏNƏDLƏR İMZALANMIŞDIR

Fevralın 26-da Varşavada Azərbaycan və Polşa respublikaları arasında əməkdaşlığa dair iki sənəd imzalanmışdır.

"1997-ci il 26 avqust tarixində Varşava şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında Mülki hava daşımaları haqqında Sazişə düzəlişlər edilməsi haqqında Protokol"u Azərbaycan Respublikası tərəfdən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin (AZAL) baş direktoru Cahangir Əsgərov, Polşa Respublikası tərəfdən Polşanın Mülki Aviasiya Ofisinin prezidenti Qjeqoj Kruşinski imzalamışlar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Polşa Televiziyası arasında əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikası tərəfdən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanov, Polşa Respublikası tərəfdən Polşa Televiziyasının direktoru Andjei Urbanski imzalamışlar.

DÖVLƏTİMİZİN BAŞÇISINA "XİDMƏTLƏRƏ GÖRƏ" BÖYÜK XAÇ ORDENİ TƏQDİM OLUNMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasının ali mükafatı - "Xidmətlərə görə" Böyük Xaç ordeni ilə təltif olunmuşdur. Bu münasibətlə fevralın 26-da Varşavada, Prezident sarayında ordenin təqdimetmə mərasimi keçirilmişdir.

Mərasimin aparıcısı dedi:

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Polşa Respublikasının Prezidenti zati-aliləri cənab Lex Kaçinski!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, sizi səmimiyyətlə salamlayım.

Böyük məmnuniyyət hissi ilə Sizə məlumat vermək istəyirəm ki, Polşa Respublikası Konstitusiyasının 138-ci maddəsini rəhbər tutaraq, ali medallarla təltif olunma haqqında Polşa Respublikasının Qanununa və Polşa Respublikasının Prezidenti cənab Lex Kaçinskinin imzaladığı Sərəncama uyğun olaraq, Azərbaycan Respublikası ilə Polşa Res-

publikası arasında əməkdaşlığın inkişafı və daha da genişləndirilməsi sahəsində misilsiz xidmətlərinə görə Polşa Respublikasının ali mükafatı - "Xidmətlərə görə" Böyük Xaç ordeni Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə təqdim olunur.

Polşa Prezidenti LEX KAÇİNSKİ ordeni dövlətimizin başçısına təqdim etdi və Prezident İlham Əliyevi təbrik edərək dedi ki, cənab Prezident, icazə verin, mən ürək sözlərimi ifadə edim:

- Mənim hörmətli həmkarım!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri!

Hörmətli xanımlar və cənablar!

Mən Polşa Respublikasının ali ordenini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməkdən böyük şərəf hissi duyuram. Təbii ki, ordenin təqdim olunmasının rəsmi hissəsi artıq başa çatmışdır. Bu ali orden məhz Sizin iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsində göstərdiyiniz səylərə görə verilir. Lakin şəxsən mənim fikrimcə, Sizin bu cür ali mükafatla təltif olunmağınız mənə dost olan ölkənin rəhbərinə, dövlət başçısına göstərdiyim rəğbət və hörmətin əlamətidir.

Siz ölkənizin əbədi və dönməz suverenliyi və müstəqilliyi yolunda xidmətlər göstərmisiniz. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafındakı xidmətlərə görə bu ali ordenlə təltif olunmusunuz.

Cənab Prezident, xahiş edirəm, bu ordeni məhz belə bir ruhda qəbul edəsiniz. Bu, eyni zamanda, o ölkəyə, o millətə verilən ali bir ordendir ki, onilliklər, əsrlər boyu öz müstəqilliyi uğrunda mübarizə aparmışdır. Sizi bir daha təbrik edirəm.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident, məni Polşa dövlətinin yüksək ordeni ilə təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu, mənim üçün çox böyük şərəfdir. Mən Sizi əmin etmək istəyirəm ki, fəaliyyətimdə bundan sonra da Polşa-Azərbaycan münasibətlərinin inkişafında çox fəal rol oynayacağam. Eyni zamanda, mən bu ordeni Sizin Azərbaycan xalqına və suveren Azərbaycan dövlətinə olan hörmətinizin əlaməti kimi qəbul edirəm.

Siz çox düzgün qeyd etdiniz ki, əsrlər boyu Azərbaycan xalqı müstəqillik arzusu ilə yaşamışdır və nəhayət, bu arzuya çatmışdır. Bizim üçün müstəqillik, suverenlik ən böyük nemətdir.

Müstəqil ölkə kimi bizim üçün Polşa ilə münasibətlərimiz xüsusi əhəmiyyət kəsb edir. Bizim aramızda münasibətlərin hərtərəfli inkişafı milli maraqlarımıza cavab verir və mən əminəm ki, əlaqələrimiz bundan sonra da uğurla davam edəcəkdir.

Hörmətli cənab Prezident, bu yüksək mükafata görə Sizə öz adımdan və bütün Azərbaycan xalqı adından bir daha minnətdarlığımı bildirmək istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA SENATININ MARŞALI BOQDAN BORUSEVİÇ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Varşavada Polşa Senatının binasına gəldi. Burada Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Senatının marşalı Boqdan Boruseviç ilə görüşü oldu.

Görüşdə Azərbaycanın və Polşanın parlamentləri arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq məsələlərdə mövqelərimizin yaxın olduğu bildirildi. Parlamentlərarası əlaqələrin ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi qeyd olundu.

Əlaqələrin inkişafında dövlət başçıları səviyyəsində bu cür səfərlərin əhəmiyyəti vurğulandı, iqtisadi və enerji sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Parlament səviyyəsində əməkdaşlığın Avropanın parlament strukturları, eləcə də Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlarla əlaqələrin genişlənməsi işinə xidmət etdiyi bildirildi.

Görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Azərbaycan Prezidenti İlham Əliyev Polşa Senatının xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da Varşavada Polşanın Baş naziri Donald Tusk ilə görüşmüşdür.

Azərbaycan ilə Polşa arasında iqtisadi, enerji sahələrində və digər sahələrdə əlaqələrin inkişafının xüsusi vurğulandığı görüşdə qeyri-enerji sektorunda da əməkdaşlıq üçün geniş imkanların olduğu bildirildi, perspektivdə bu imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən danışdı.

İki ölkənin qarşılıqlı iqtisadi maraqlarının olduğu bildirildi, investisiyaların cəlb edilməsi məsələsi barədə müzakirə aparıldı. Söylənildi ki, bu, perspektivdə qarşıda duran əsas məsələlərdən biridir.

Görüşdə humanitar sahədə də geniş bazanın, Azərbaycan və Polşa xalqları arasında tarixən sıx əlaqələrin mövcudluğu, dövlətimizin başçısının bu rəsmi səfərinin əhəmiyyəti vurğulandı. Qeyd olundu ki, bu səfər xüsusilə iqtisadi əlaqələrimizin inkişafı və konkret layihələrin həyata keçirilməsi baxımından çox faydalıdır.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Fevralın 26-da Varşavada Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN NİTQİ

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli xanım Əliyeva!

Mən ilk öncə, böyük məmnunluq hissi ilə bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi prezidentlik səlahiyyətinə başlayandan sonra rəsmi qonağım kimi burada qəbul etdiyimi bildirmək istəyirəm.

Düzdür, mən prezidentliyim dövründə Sizi ilk dəfədir ki, ali qonaq kimi qəbul edirəm. Lakin iftixar hissi ilə onu da qeyd etmək istəyirəm ki, son iki il ərzində biz bir-birimizlə demək olar, yeddi-səkkiz dəfə görüşmüşük. Bu, bizim münasibətlərimizin miqyasını nümayiş etdirir. Bu, eyni zamanda, ölkələrimiz arasında daha böyük yaxınlığı əks etdirir. Biz Azərbaycanı özümüzə strateji tərəfdaş kimi qəbul edirik. Biz Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşırıq və ərazi bütövlüyünü dəstəkləyirik. İndi isə ikitərəfli münasibətlərimizin daha da sıxlaşdırılması üçün əlimizdən gələni edirik.

Məncə, heç kim deyə bilməz ki, son iki il ərzində bizim başladığımız hər hansı bir iş uğursuz olub. İlk öncə, bizim Bakıda ikitərəfli, daha sonra isə GUAM ilə Polşa arasında görüşlərimiz olub. Bildiyimiz kimi, Azərbaycan GUAM təşkilatında çox önəmli rol oynayır. Eyni zamanda, mənim Krakovda və Vilnüsdə GUAM təşkilatının iclaslarında çıxışlarım və görüşlərim olmuşdur. Bütün bunlar ikitərəfli münasibətlərin ümumi vəziyyətinə əlavə təkan verir. Eyni zamanda, çoxtərəfli münasibətləri də inkişaf etdirir.

Mən bunu bir daha aydın şəkildə bəyan etmək istəyirəm ki, bu gün Polşa Azərbaycanla ikitərəfli münasibətlərin inkişafı sahəsində daha fəal olmaq istəyir və həmçinin Azərbaycanla dostluq əlaqələrini inkişaf etdirən ölkələrlə də öz əlaqələrini genişləndirmək fikrindədir. Təbii ki, burada Gürcüstan və Ukraynanın əsas rolları nəzərdə tutulur.

Biz enerji sahəsində ümumi işlərin, ümumiyyətlə, işbirliyinin qurulmasını arzulayırıq. Eyni zamanda, öz siyasi münasibətlərimizi də möhkəmləndirmək fikrindəyik. Bu, Azərbaycanın Avratlantik məkana inteqrasiya olunmaq arzusu baxımından çox vacibdir. Bu münasibətlər və maraq sırf enerji məsələsi ilə bağlı deyil. Bu, eyni zamanda, uzun əsrlər boyu bizim ölkələrimizi və xalqlarımızı bir-birinə bağlayan zəngin adət-ənənələrdən irəli gəlir.

Cənab Prezident, əminəm ki, Sizin və birinci xanımın Polşa Respublikasına rəsmi səfəri həmin əlaqələrin daha da dərinləşməsinə təkan verəcəkdir. Biz bütün maneələri aradan qaldırmaqda kifayət dərəcədə güclü olmalıyıq. Bu elə maneələrdir ki, biz onların hamısından yaxşı xəbərdarıq. Bunlar bizim qarşımızda böyük mancə kimi dura bilməz, regionumuzun təhlükəsizliyi və sabitliyi yolunda bizə mancə ola bilməz. Bu, elə bir region olmalıdır ki, burada dövlətlərin sabitliyi təmin edilsin.

Nitqimi yekunlaşdıraraq onu xatırlatmaq istəyirəm ki, iki dövlət arasında olan münasibətlər sırf siyasətçilər tərəfindən inkişaf etdirilmir. Cənab Prezident, bilmirəm, Siz mənim fikrimlə razılaşarsınız ya yox, lakin bu baxımdan son vaxtlar mənim adi insanlarla keçirdiyim görüşlər ona dəlalət edir ki, bu münasibətlər xalqlar, adi insanlar səviyyəsində də genişlənir.

Mən məhz bu sözlərlə öz badəmi, cənab Prezident, Sizin, birinci xanımın və Azərbaycan xalqının şərəfinə qaldırmaq istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox hörmətli cənab Prezident!

Çox hörmətli xanım Kaçinski!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün bizim aramızda müzakirə olunan məsələlər bir daha onu göstərdi ki, bir çox ikitərəfli və regional məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür. Bu da təbiidir, çünki bizim ölkələr və xalqlar bir-birinə çox yaxındır və son illər ərzində çox uğurlu əməkdaşlıq edirlər.

Xalqlarımız arasında əməkdaşlığın çox böyük tarixi vardır. Polşa nümayəndələri müxtəlif dövrlərdə Azərbaycanda çalışmış, yaratmış, Azərbaycanın inkişafına böyük töhfələr vermişlər. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda Azərbaycan Milli Ordusunun qərargah rəisi polyak idi. Polyak neft mühəndisləri, memarlar Azərbaycanın inkişafına çox dəyərli töhfələr vermişlər. Eyni zamanda, Azərbaycan nümayəndələri də Polşanın inkişafında öz əməyini göstərmişlər.

Üç il bundan əvvəl biz Sizinlə bərabər, - Siz o vaxt Varşava şəhərinin meri idiniz, - Varşava üsyanı muzeyinin həyətində azərbaycanlı zabitlərin şərəfinə ucaldılmış memorial abidənin açılışında iştirak etmişdik. Sizin qeyd etdiyiniz kimi, bu gün bizim münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır. Bu ifadə bütün sahələri əhatə edir, siyasi dialoq çox yüksək səviyyədədir. Biz qısa müddət ərzində Sizinlə dəfələrlə görüşmüşük. İqtisadi əlaqələr genişlənir və humanitar sahədə də əməkdaşlıq çox ümidvericidir.

Cənab Prezident, Sizin təşəbbüsünüzlə keçən ilin may ayında Krakovda enerji zirvə görüşü keçirilmişdir ki, bu da ikitərəfli və çoxtərəfli münasibətlərdə mühüm bir hadisə idi. Sizin Krakov təşəbbüsünüz artıq bu gün yeni razılaşmaların əldə edilməsinə imkan verir və gələcəkdə energetika sahəsində əməkdaşlığın çox güclü bir dayaq nöqtəsidir. Polşa enerji sahəsində bizim üçün çox dəyərli və vacib tərəfdaşdır. Mən əminəm ki, nəzərdə tutulmuş bütün planlar həyatda öz əksini tapacaqdır.

Azərbaycanın Avratlantik strukturlara inteqrasiya siyasəti də Polşa rəhbərliyi tərəfindən həmişə dəstəklənmişdir. Azərbaycan hazırda NATO ilə fərdi əməkdaşlıq proqramının icrası ilə məşğuldur, eyni zamanda, Avropa Birliyinin yeni qonşuluq siyasətinə daxil edilmişdir və bu iki istiqamətdə biz Polşanın dəstəyini daim hiss edirik. Polşa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində görür və bu mövqe Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir.

Bizim strateji tərəfdaşlıq münasibətlərimizin bütün əlamətləri bu gün Sizinlə imzaladı-

ğımız siyasi Bəyannamədə öz əksini tapmışdır. Əminəm ki, mənim səfərimdən sonra bizim münasibətlərimiz yeni yüksək pilləyə qalxacaqdır və Polşa ilə Azərbaycanın dostluq münasibətləri davam etdiriləcək və bölgədə öz müsbət təsirini göstərməyə davam edəcəkdir.

Mən onu da qeyd etmək istəyirəm və əminəm ki, cənab Prezident, mənimlə razılaşarsınız, bizim aramızda şəxsi münasibətlər də çox yüksək səviyyədədir. Deyə bilərəm ki, bizi dostluq əlaqələri bağlayır və bu da iki ölkə arasında gələcək əməkdaşlıq üçün çox vacib olan bir məsələdir.

Mənim üçün böyük şərəfdir ki, Siz bu gün məni Polşa-Azərbaycan münasibətlərinin inkişafında gördüyüm işlərə görə Polşa dövlətinin yüksək ordeni ilə təltif etmisiniz. Mən buna görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

Cənab Prezident, mən bu badələri Sizin şərəfinizə, xanım Kaçinskinin şərəfinə, polyak xalqının xoşbəxtliyi və rifahı şərəfinə qaldırıram.

Dövlət başçılarının nitqləri diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

QDANSK NEFT LİMANI İLƏ TANIŞLIQ

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinski Qdansk neft limanına gəldilər.

Dövlət başçıları Azərbaycanın və Polşanın dövlət bayraqları asılmış limanın inzibati binasının yuxarı mərtəbəsindən ümumi mənzərəni seyr etdilər.

Sonra Prezidentlərin görüşü oldu.

Dövlətimizin başçısı İlham Əliyevə məlumat verildi ki, Baltik dənizi sahilində yerləşən və Avropanın ən böyük limanlarından olan bu infrastrukturdan dünyanın bir sıra ölkələrinə neft və neft məhsulları, daş kömür, kimya sənayesi məhsulları və digər yüklər daşınır. 1975-ci ildə tikilən və 50 milyon ton yük qəbul etmək gücünə malik olan limanda neft terminalı da fəaliyyət göstərir. Bu terminal "Sarmatiya" konsorsiumunun həyata keçirəcəyi Odessa-Brodı-Qdansk neft kəməri layihəsinin son məntəqəsidir.

Bildirildi ki, Odessa-Brodı-Qdansk kəməri ilə neft bu terminala gələcək və buradan Avropanın digər ölkələrinə daşınacaqdır. Kəmərin buraxılış gücü ildə 9 milyon tondur. Konsorsiumun hazırladığı layihəyə görə, kəmər işlək vəziyyətə gətiriləcək və Brodıdan Qdanska qədər yeni xətt çəkiləcəkdir. Beləliklə, kəmərin nəqletmə gücü 14 milyon tona çatdırılacaqdır.

Konsorsiumun əsas planına görə bu kəmər böyük həcmdə Azərbaycan nefti ilə doldurulacaqdır. Gələcəkdə Qazaxıstan neftinin də bu kəmərlə daşınması nəzərdə tutulur. Rəsmi Astana ötən ilin noyabrında Litvada keçirilən Enerji Sammitində bəyan etmişdir ki, onlar öz neftlərinin müxtəlif marşrutlarla daşınmasına tərəfdardırlar. Odessa-Brodı-Qdansk layihəsi də Qazaxıstanın maraq dairəsindədir.

Azərbaycan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərini gündə bir milyon barrel neftlə təmin etdikdən sonra, Odessa-Brodı-Qdansk kəmərinin də doldurulmasına çalışacaqdır.

"Sarmatiya" konsorsiumunun əsas təşəbbüskarları Ukrayna və Polşadır. Həmin ölkələr layihənin reallaşmasında, ümumiyyətlə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycana ümid bəsləyirlər və ölkəmizin bu məsələdə rolunu yüksək qiymətləndirirlər.

Prezident İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski binanın qarşısında qoyulan rəmzi abidə daşının üzərindəki xatirə lövhəsinə baxdılar. Lövhənin üzərinə "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xəzər dənizinin enerji daşıyıcılarının Baltik dənizi regionuna çatdırılması təşəbbüsünə hörmət əlaməti olaraq qoyulmuşdur" sözləri yazılmışdır.

Polşa Prezidenti Lex Kaçinski böyük dövlət adamı Heydər Əliyevin fəaliyyətini xatırladaraq, görülən bütün işlərin, həyata keçirilən nəhəng layihələrin məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olduğunu bildirdi və bu lövhənin onun şərəfinə qoyulduğunu dedi.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xatirəsinin Azərbaycanın strateji tərəfdaşı olan Polşada əziz tutulduğuna, xidmətlərinin yüksək qiymətləndirildiyinə və Qdansk limanındakı bu lövhəyə görə təşəkkürünü bildirdi.

"AZADLIQ YOLU" MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Prezidenti Lex Kaçinski fevralın 27-də Qdansk şəhərindəki "Azadlıq yolu" muzeyi ilə tanış olmuşlar.

Məlumat verildi ki, İkinci Dünya müharibəsi zamanı bu yeraltı bina insanların gizlənməsi məqsədi ilə tikilmişdir. Ötən əsrin 80-ci illərində gizli fəaliyyət göstərən "Həmrəylik" adlı müstəqil həmkarlar təşkilatının mənzil-qərargahı burada yerləşmişdir.

Prezidentlər muzeydə 1944-cü ildən 1989-cu ilədək olan dövrə aid eksponatlara baxdılar.

Sonra prezidentlər Polşanın azadlıq uğrunda mübarizə yolunu əks etdirən filmə tamaşa etdilər. Filmdə Sovet İttifaqının dağılmasına təkan verən və Avropanın keçmiş sosialist respublikalarında, eləcə də Müstəqil Dövlətlər Birliyi ölkələrində kommunist rejiminə qarşı keçirilmiş etiraz aksiyaları və kütləvi nümayişlərdən bəhs olunur.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənni qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinə, iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOZE LELLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında NATO Parlament Assambleyasının sədri Joze Lellonu qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla NATO Parlament Assambleyası arasında əlaqələrin uğurla inkişaf etdiyini, əməkdaşlığımızın daha da genişləndirilməsi baxımından keçirilən müzakirələrin və görüşlərin qarşılıqlı surətdə faydalı olduğunu vurğuladı.

Joze Lello NATO Parlament Assambleyası ilə ölkəmizin fəal əməkdaşlıq etdiyini, əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində Azərbaycan nümayəndə heyətinin NATO Parlament Assambleyasındakı səmərəli fəaliyyətini qeyd etdi.

Görüşdə Azərbaycanla NATO Parlament Assambleyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTAN NAZİRLƏR KABİNETİNİN SƏDRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Prezident sarayında Türkmənistan Nazirlər Kabinetinin sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Rəşid Meredov Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını və dərin ehtiramını Prezident İlham Əliyevə çatdıraraq dedi: "Türkmənistan Prezidenti iki ölkə başçısı arasında qurulan əlaqələri yüksək dəyərləndirir və bu əlaqələri əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafı üçün yaxşı əsas hesab edir". Rəşid Meredov vurğuladı ki, hər iki Prezidentin Sankt-Peterburq şəhərində keçirdiyi görüş ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına güclü təkan verir.

Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimiz arasında müxtəlif səviyyələrdə keçirilən görüşlər, Türkmənistan-Azərbaycan hökumətlərarası

iqtisadi əməkdaşlıq komissiyasının fəaliyyəti ikitərəfli əlaqələrimizin daha da inkişaf etməsi işinə xidmət edir.

Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "İNTERNATİONAL CRİSİS GROUP"UN DİREKTOR MÜAVİNİ NİKOLAS QRONONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Prezident sarayında "International Crisis Group"un direktor müavini Nikolas Qrononu qəbul etmişdir.

Görüşdə regionda gedən proseslər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PYER MORELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında Avropa İttifaqının Orta Asiya üzrə xüsusi nümayəndəsi Pyer Morelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Avropa İttifaqı, Azərbaycan və Orta Asiya arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Robert Simmons NATO-nun baş katibi Yaap de Hoop Sxefferin salamlarını Prezident İlham Əliyevə çatdırdı, NATO ilə Azərbaycan arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Robert Simmons NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Buxarestdə keçiriləcək sammitində baş katib Sxefferin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü səbirsizliklə gözlədiyini bildirdi.

Dövlətimizin başçısı NATO-nun baş katibi Yaap de Hoop Sxefferin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO baş katibinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev NATO ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla davam etdiyini bildirdi, Buxarestdə keçiriləcək sammitin Azərbaycan-NATO əməkdaşlığının gələcəkdə də inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ, KARDİNAL TARÇİZİO BERTONENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Prezident sarayında Müqəddəs Taxt-Tacın dövlət katibi, kardinal Tarçizio Bertoneni qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV hörmətli qonağa müraciətlə dedi: Mən çox şadam ki, siz Azərbaycana səfər edirsiniz və bilirəm ki, çox böyük və maraqlı proqramınız var. Yəqin ki, proqramın əsas hissəsi bu günə düşür. Biz birlikdə Roma katolik kilsəsinin açılışında iştirak edəcəyik. Bu, çox mühüm və önəmli hadisədir və mən əminəm ki, Azərbaycanda yaşayan bütün katoliklər bu gün sevinc içindədirlər. Eyni zamanda, sizin səfəriniz imkan verir ki, münasibətlərimizi bir də nəzərdən keçirək və gələcək fəaliyyət haqqında danışaq. Bir daha sizi salamlayıram.

Kardinal TARÇİZİO BERTONE qəbula görə dövlətimizin başçısına təşəkkür edərək dedi: Mən Azərbaycana səfərimi xüsusilə çox vacib hesab edirəm. Çünki bildiyiniz kimi, bu səfərlə bağlı qərarımızı çoxdan qəbul etmişdik. İndi isə onun baş tutmasından çox razıyıq. Eyni zamanda, səfərin önəmliliyi, vacibliyi ilə yanaşı, xüsusilə Azərbaycanda müxtəlif dinlər və müxtəlif icmaların çox gözəl sülh şəraitində, tolerantlıq və dözümlülük şəraitində birgə yaşamasını olduqca yüksək qiymətləndiririk. Azərbaycanın bu adət-ənənəsini nümunəvi hesab edirik. Eyni zamanda, cənab Prezident, Roma Papası XVI Benediktin ən xoş arzularını və ən səmimi salamlarını Sizə çatdırırıq.

Dövlətimizin başçısı Roma Papası XVI Benediktin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını və ehtiramını ona çatdırmağı xahiş etdi.

BAKIDA MÜQƏDDƏS MƏRYƏM ANA KİLSƏSİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Martın 7-də Bakıda Müqəddəs Məryəm Ana katolik kilsəsinin rəsmi açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Kilsə Neapol Memarlıq Universitetinin professoru Pado Ruccyro və Bakı şəhərinin baş memarı Akif Abdullayevin layihəsi əsasında Azərbaycanın "A+A" şirkətlər qrupu tərəfindəın inşa olunmuşdur. Müasir üslubda tikilən və 1256 kvadratmetr sahəsi olan binada istilik, havalandırma, yanğınsöndürmə sistemləri quraşdırılmışdır. Tikintini Vatikan Dövləti maliyyələşdirmişdir. Binanın girişində kilsənin təməlinin qoyulduğu tarix, memarların və inşaatçı şirkətin adları yazılmış lövhə vurulmuşdur.

Kilsənin eyni vaxtda 250-300 nəfərin ibadət edə biləcəyi salonu var.

"Azərbaycan və Vatikan əlaqələri", "Roma Papası II İoann Pavelin Azərbaycana səfəri" guşələrində ulu öndər Heydər Əliyevin 1997-ci ildə Vatikana, 2002-ci ildə Roma Papasının ölkəmizə və 2005-ci ildə Prezident İlham Əliyevin Vatikana səfərlərini, keçirilən görüşləri əks etdirən fotoşəkillər toplanmışdır. 2007-ci ilin aprelində Polşa Prezi-

denti Lex Kaçinski Azərbaycana səfəri zamanı kilsədə olmuş və buraya üç ədəd zəng bağışlamışdır. Zənglər həftədə və bayram günlərində duadan öncə bir dəfə çalınır. Polşanın Bakıdakı səfirliyinin hədiyyə etdiyi II İoann Pavelin portreti, Azərbaycan Dövlət Gömrük Komitəsinin Roma Katolik Kilsəsinin ölkəmizdəki nümayəndəliyinə hədiyyəsi olan "İsa Məsih.XIX" heykəli kilsənin görkəmli yerlərinə qoyulmuşdur.

Hazırda Azərbaycanda 600-dək katolik var ki, onların da 300 nəfəri respublikamızın müxtəlif yerlərində daimi yaşayırlar. Bakıda 1912-ci ildə neft maqnatları - Rılskilər ailəsi tərəfindən Müqəddəs Məryəm katolik kilsəsi (memarı İ.K.Ploşko) inşa edilmişdi. Sovet dövründə 1934-cü ildə kilsə dağıdılmış və onun yerində Dzerjinski adına klub - indiki Şəhriyar adına Mədəniyyət Evi tikilmişdir.

Prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və ölkəmizdə səfərdə olan Vatikanın dövlət katibi kardinal Tarçizio Bertoneni binanın önündə kilsənin baş keşişi Yan Çapla böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Dövlət Xor Kapellasının ifasında mahnı səsləndikdən sonra YAN ÇAPLA mərasimi Azərbaycan dilində açaraq dedi:

- Azərbaycanda bu gün katolik cəmiyyətinin həyat rəmzi olan kilsənin açılması dünya Katolik kilsəsi üçün yaddaqalan bir gündür. Bu gün Azərbaycanın xristian katolikləri ona görə minnətdardırlar ki, Allahı tərifləmək və mənəvi dəyərləri zənginləşdirməyimiz üçün bizim yerimiz var. Qoy bu gün bu ölkədə hamının dinc, yanaşı yaşaması və həmrəyliyinin xoş ənənəsi olsun.

İndi isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən nitq söyləməsini xahiş edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab kardinal Bertone!

Hörmətli xanımlar və cənablar!

Hörmətli din xadimləri!

Mən sizin hamınızı ürəkdən salamlayıram, bütün qonaqlara Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm.

Bu gün bizim həyatımızda çox əlamətdar və unudulmaz bir gündür. Azərbaycanda katolik kilsəsi açılır və mən bu münasibətlə Azərbaycanda yaşayan bütün katolikləri ürəkdən təbrik edirəm. Bu hadisə onu göstərir ki, Azərbaycanda dinlərarası münasibətlər çox yüksək səviyyədədir. Bu sahədə görülən işlər, tədbirlər Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərir. Çünki hər bir ölkənin normal, uğurlu inkişafı üçün iqtisadi və siyasi uğurlarla bərabər, sülh olmalıdır, əmin-amanlıq, sabitlik olmalıdır, millətlərarası və dinlərarası münasibətlər yaxşı səviyyədə olmalıdır. Biz bütün bunları Azərbaycanda görürük. Azərbaycan xalqı əsrlər boyu bütün başqa xalqlarla mehribanlıq şəraitində yaşamışdır, Azərbaycanda, Azərbaycanın tarixində heç vaxt milli, yaxud da dini zəmində nəinki münaqişə, hətta narazılıq da olmamışdır. Azərbaycanda yaşayan insanlar bütün bunları çox yaxşı bilirlər. Əlbəttə, burada dövlət siyasətinin çox önəmli rolu vardır. Eyni

zamanda, Azərbaycanda yaşayan insanların qəlbində olan qardaşlıq, mehribanlıq duyğuları çox mühüm rol oynayır.

Biz bu gün hörmətli dövlət katibi ilə Vatikan-Azərbaycan münasibətlərinin müxtəlif sahələrini müzakirə etdik. Biz ümumiyyətlə, bu səfərə çox böyük diqqət göstəririk və qiymət veririk. Çünki bu onu göstərir ki, Vatikanla Azərbaycan arasında mövcud olan möhkəm əlaqələr daha da möhkəmlənir. Bu əlaqələrin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Vatikana 1997-ci ildə etdiyi səfəri xüsusilə qeyd etmək istəyirəm. O səfərdən sonra münasibətlər, demək olar ki, yeni pilləyə qalxmışdır. Şübhəsiz ki, 2002-ci ildə Roma Papası II İoann Pavelin Azərbaycana tarixi səfəri də bu münasibətlərin inkişafında çox böyük rol oynamışdır. Biz hamımız həmin səfəri yaxşı xatırlayırıq. O, doğrudan da tarixi bir səfər idi və bir daha göstərdi ki, Azərbaycan, müstəqil ölkəmiz bütün istiqamətlərdə böyük uğurlara nail olubdur. Eyni zamanda və ilk növbədə, millətindən, dinindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün insanlar eyni hüquqlara malikdirlər, bərabərdirlər və bu, ölkəmizin gələcəyi üçün çox vacib amildir.

Mən Vatikana öz səfərimi də xatırlayıram. 2005-ci ildə Vatikanda olarkən orada keçirilən danışıqlar, müzakirələr bir daha imkan verdi ki, ikitərəfli münasibətlərimizi təhlil edək. Bugünkü tədbirin baş verməsi üçün o vaxt lazımi tədbirlər görülmüşdü. Bakıda kilsənin tikintisi üçün çox gözəl yer ayrılmışdır və qısa müddət ərzində gözəl kilsə tikilmişdir. Mən bu hadisəyə müxtəlif aspektlərdən yanaşıram. İlk növbədə, bu gün Azərbaycanda yaşayan katoliklərin bayramıdır. Katolik kilsəsinin fəaliyyətə başlaması onların böyük bayramıdır. Digər tərəfdən, bu, tarixi həqiqətin bərpasıdır. Çünki biz bilirik ki, XX əsrin əvvəllərində Azərbaycanda katolik kilsəsi tikilmişdir, lakin bolşevik inqilabından sonra o, dağıdılmışdır. Bu gün kilsənin tikilib istifadəyə verilməsi o tarixi həqiqətin bərpası deməkdir. Digər tərəfdən, əminəm, dünyada yaşayan bütün katoliklər üçün çox vacib və əlamətdar hadisədir ki, Azərbaycanda bu kilsə tikilibdir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini dözümlülük, dini tolerantlıq çox yüksək səviyyədədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi, qardaşlıq, mehribanlıq şəraitində yaşaması bizim ölkəmizi gücləndirir. Ölkəni gücləndirən müxtəlif amillər var. Həm siyasi nüfuz, həm iqtisadi potensial, həm sosial məsələlərin həlli və həm də digər məsələlər. Ancaq millətlərarası münasibətlər, xüsusilə çoxmillətli ölkələrdə çox böyük əhəmiyyət kəsb edən məsələdir.

Azərbaycan çoxmillətli ölkədir. Biz bununla fəxr edirik və Azərbaycanda yaşayan bütün milli azlıqlara öz qayğımızı göstəririk və bundan sonra da göstərəcəyik. Azərbaycan o ölkədir ki, burada bütün dinlər sərbəst fəaliyyət göstərir. Eyni zamanda, din dövlətdən ayrıdır, Azərbaycan dünyəvi dövlətdir və bu da bizim üçün çox vacib olan məsələdir. Biz bütün dinlərə böyük hörmətlə yanaşırıq və Azərbaycanda bütün dinlərin fəaliyyəti üçün şərait var.

Bir daha demək istəyirəm ki, hesab edirəm, bugünkü hadisə gələcək üçün də çox mühüm rol oynayacaqdır. Azərbaycanın gələcək inkişafı, dünya birliyinə inteqrasiyası, Avropa ilə olan gözəl münasibətlərinin davam etdirilməsi, Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində uğurlu fəaliyyətin davam etdirilməsi üçün bu hadisə çox vacib rol oynayır. Əlbəttə, yenə deyirəm, ilk növbədə, Azərbaycanda yaşayan katoliklər üçün bu

gün böyük bayramdır. Mən bu bayram münasibətilə bütün katolikləri təbrik etmək istəyirəm.

Bir daha qeyd etmək istəyirəm ki, biz kilsənin tikilməsinə çox böyük diqqət göstərmişik - həm yerin seçilməsində, həm də lazımi sənədlərin hazırlanmasında. Mən çox şadam ki, bu gün biz hörmətli kardinal Bertone həzrətləri ilə bərabər bu kilsənin açılışında iştirak edirik. Bir daha demək istəyirəm ki, bundan sonra da Azərbaycanda bütün millətlər dövlət tərəfindən qayğı ilə əhatə olunacaqlar. Azərbaycanda bundan sonra da heç vaxt nə milli, nə də dini zəmində heç bir problem olmayacaqdır. Bütün milli azlıqlar bizim qardaşlarımızdır. Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri bizim qardaşlarımızdır və bu qardaşlıq davam etdiriləcəkdir. Azərbaycan dostluq ölkəsidir, qardaşlıq ölkəsidir. Azərbaycan o ölkədir ki, uğurla inkişaf edir, irəliyə baxır və tərəqqi yolunu seçibdir.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

Vatikanın dövlət katibi kardinal TARÇİZİO BERTONE Bakıda katolik kilsəsinin açılışını bəşər tarixi salnaməsinə düşən əlamətdar hadisə kimi dəyərləndirdi. Kilsənin tikilməsi barədə qərar qəbul etmiş ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini Vatikan Dövlətinin yüksək qiymətləndirdiyini xüsusi vurğuladı. O dedi:

- Cənab Prezident, Sizin şəxsiyyətinizə olan hörmətimiz yalnız Sizin yüksək səlahiyyətli vəzifəniz və Sizin ölkə ilə Vatikan arasında yüksək səviyyəli əlaqələrin olması ilə məhdudlaşmır. Bu hörmət həmçinin Azərbaycanda, bu torpaqda və əsasən, Bakı kimi şəhərdə dini tolerantlığın hökm sürməsi üçün görülmüş işlərlə bağlıdır.

Cənab Prezident, sizin iştirakınız mənə fürsət verir ki, atanız, unudulmaz Prezident Heydər Əliyevin bu çox dəyərli əməlinə görə Sizə Katolik kilsəsinin dərin minnətdarlığını çatdırım. O, bu kilsənin tikintisi üçün şəhərin mərkəzində torpaq ayrılmasına razılığını, istəyini bildirmişdir. Onun bu istəyi yaddaşlardan silinməyən Roma Papası II İoann Pavelin Azərbaycana səfərindən bir gün əvvəl həyata keçirilmişdi. Bu, onun tərəfindən ən böyük və ən gözəl "Xoş gəldiniz!" addımı oldu. Onun istəyi nəticəsində, dini tolerantlığın Azərbaycan həyatının gündəliyində bir sütuna dönməsi mümkün oldu. O, bu mövzuya aid olan unudulmaz bir çıxışında bu dəyərlərin zəngin mədəniyyətə malik olan Azərbaycanın hər zaman xüsusiyyəti olduğunu bildirmişdi.

Cənab Prezident, istərdim Sizə Roma Papası XVI Benediktin və bütün Katolik kilsəsinin adından ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə böyük hörmət bəslədiyimizi bildirim. O, qarşısına qoyduğu məqsədin öhdəsindən cəsarətlə və qətiyyətlə gəlirdi.

Kardinal Tarçizio Bertone kilsənin tikintisinə hərtərəfli dəstəyinə, Azərbaycan-Vatikan əlaqələrinin inkişafında xidmətlərinə görə Prezident İlham Əliyevə Vatikan Dövlətinin və şəxsən Papa XVI Benediktin xüsusi minnətdarlığını çatdırdı: XVI Benedikt bilir ki, bu gün bu kilsənin açılışı Sizin böyük rolunuz, dəstəyiniz və dövlət işindəki adamlar ilə birgə zəhmətiniz nəticəsində reallaşdı.

Kardinal Azərbaycanda milli, dini tolerantlığın daha da möhkəmləndirilməsi üçün ulu öndər Heydər Əliyevin siyasətinin davam etdirildiyini və beynəlxalq birliyin bunu yüksək qiymətləndirdiyini bildirdi.

Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı ALLAHŞÜKÜR PAŞAZADƏ dedi:

- Vaxtilə Roma Papası II İoann Pavel Azərbaycanda olarkən mərhum Heydər Əliyevlə görüşündə, daha sonra isə Azərbaycanda yaşayan müxtəlif dini konfessiyaların nümayəndələrini Vatikanda qəbul edərkən Azərbaycandakı mövcud tolerantlıqla fəxarət duymağa tam mənəvi haqqımızın olduğunu xüsusi vurğulamışdı. Azərbaycanın tolerantlıq sahəsində örnək rolunu Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi həzrətləri və bir çox başqa tanınmış şəxslər olduqca yüksək dəyərləndirmişlər.

Bugünkü uğurlarımız da məhz yüksək ənənələri davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev həzrətlərinin dini-mənəvi dəyərlərə verdiyi önəm, göstərdiyi böyük qayğıdan qaynaqlanır. Biz, dindarlar dövlət rəhbərinin müqəddəs dəyərlərə ehtiramlı münasibətini dərin minnətdarlıqla qarşılayır, olduqca yüksək qiymətləndiririk.

Hər kəs özünə arzuladığını başqalarına da arzulamalıdır. Bugünədək təcavüz və terrorizmin acı nəticələrini üzərində hiss etməkdə olan Azərbaycan xalqı bütün dünya xalqlarına əmin-amanlıq, rifah, səadət diləyir və bunu həm sözdə, həm də əməldə nümayiş etdirir. Bu gün iştirakçısı olduğumuz mərasim buna bariz nümunədir.

Bizim ən ümdə məqsədimiz ərazi bütövlüyümüzün bərpası, doğma Qarabağın təcavüzkarlardan azad olunması, vətəndaşlarımızın öz torpaqlarına qayıtmasıdır. Biz, inşallah, Qarabağa qayıdaraq, erməni vandalları tərəfindən dağıdılmış müqəddəs ibadətgahlarımızın yenidən həyata qaytarılacağı günü səbirsizliklə gözləyirik. Biz, bəşəriyyət adına ləkə olan Xocalı faciəsinin harayını bütün dünyanın eşitməsini, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımının lənətlənməsini, haqq səsimizə səs verilməsini istəyirik. Bu işdə biz sizdən də dəstək umuruq.

Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı yeparxiyasının başçısı ALEKSANDR ATA Azərbaycanın bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı:

- Azərbaycan XXI əsrə cəsarətlə qədəm qoymuşdur. Bu əsrin ötən illərində baş vermiş dəyişikliklər hətta bütövlükdə iyirminci əsrdəki dəyişikliklərlə müqayisəyəgəlməzdir. Bu illər ərzində baş vermiş hadisələrdən xüsusilə ikisi Azərbaycanın gələcəyə necə can atmasını göstərir. Bunlardan biri gənclərə münasibətdir: biz gənclərimizin necə oxuduğunun, onların fiziki cəhətdən necə möhkəmləndiyinin, gənclərin həqiqətən Azərbaycanın dayağına və gələcəyinə çevrilməsi üçün çox işlər görülməsinin şahidiyik.

Şəxsən məndən ötrü ikinci əlamətdar hadisə dini icmaların həyatının dirçəlməsidir. Biz ibadətxanaların abadlaşdırılmasını, Azərbaycanın memarlıq və mədəniyyət irsi olan gözəl məscidlərin bərpa olunmasını müşahidə edirik. Bu yaxınlarda biz pravoslav kafedral kilsəsinin və sinaqoqun yeni gözəl binasının bərpa edilməsinin şahidi olduq. Ən başlıcası isə, biz hamımız həmin hadisələrin iştirakçıları olduq. Biz bu binaların layihələrini də birlikdə işləyib hazırlamışıq, bütün bu işlərin həyata keçirilməsi üçün maliyyə vəsaitlərini də birlikdə tapmışıq.

Bu gün isə biz sizinlə birlikdə şəhərimizdə yeni kilsə binasının açılışında iştirak edirik. Bu onu göstərir ki, Azərbaycan gələcəyini qurur, ölkəmizə gələn, burada çalışmaq istəyən, bu ölkə barədə fikir söyləyəcək hər kəsin Azərbaycanda sabitliyin olduğunu, bura-

da sadəcə dini dözümlülük mənasında tolerantlığın deyil, müxtəlif dinlərə, müxtəlif millətlərə və müxtəlif mədəniyyətlərə mənsub insanlar arasında qarşılıqlı hörmət hisslərinin olduğunu, onların ölkəmizin xoşbəxt gələcəyini qurmağa çalışdığını təsdiqləmələri üçün lazım olan hər şeyi edir.

Dağ yəhudiləri dini icmasının sədri SEMYON İXİİLOV da ölkəmizdə millətlərarası və dinlərarası münasibətlərin ən yüksək səviyyədə olduğunu bildirərək dedi:

- İcazə verin, bütün yəhudilər adından, Azərbaycanda yaşadıqları bütün müddətdə antisemitizm kimi dəhşətli, biabırçı hadisənin nə demək olduğunu bilməyən bütün yəhudi dini icmaları adından katolikləri bu Allah evinin açılışı münasibətilə təbrik edim.

Bu məbəd Roma Papası II İoann Pavelin 2002-ci ildə Bakıya səfəri zamanı onun xahişi ilə Azərbaycan Prezidenti Heydər Əlirza oğlu Əliyev tərəfindən ayrılmış torpaq sahəsində tikilmişdir. Çox təəssüf ki, bu böyük insanlar bu gün bizim aramızda yoxdur. Hesab edirəm ki, onların xatirəsini bir dəqiqəlik sükutla yad etmək yerinə düşərdi. Allah onlara rəhmət eləsin.

Semyon İxiilov katolikləri təbrik etdi, onları Azərbaycanın ən ümdə arzularının reallaşması üçün dualar etməyə çağırdı.

Vatikan Dövlətinin Azərbaycandakı apostol nunsisi KLAUDİO QUCEROTTİ Bakıda katolik kilsəsinin açılışı münasibətilə sevinci məhz ulu öndər Heydər Əliyevin bəxş etdiyini vurğuladı, tolerantlığa töhfələrinə görə Vatikan Dövlətinin Prezident İlham Əliyevin də xidmətlərini yüksək qiymətləndirdiyini bildirdi:

- Bu dəvəti və burada iştirakımızı və bütün diqqəti yüksək dəyərləndirirəm. Bu, Azərbaycanın çox dəyərli mənəvi varlığıdır. Qardaşlar, bacılar və qonaqlar kimi öz üzərimizdə hiss etdik ki, biz heç vaxt düşmən ola bilmərik. Əksinə, biz sevgi dolu bir ailənin üzvləri ola bilərik.

Klaudio Quccrotti Azərbaycandakı katolik icmasına Papa XVI Benediktin təbriklərini yetirdi, ən xoş arzularını bildirdi.

DAKARDA İKT-NİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLİR

Martın 10-da Dakarda İslam Konfransı Təşkilatına (İKT) üzv ölkələrin xarici işlər nazirlərinin 11-ci sessiyası işə başlamışdır.

Azərbaycanın xarici işlər nazirinin müavini Vaqif Sadıqovun da iştirak etdiyi iclasda İKT-nin 10 illik Fəaliyyət Proqramının reallaşdırılması və təşkilatın Nizamnaməsinin yeniləşmiş variantının qəbul edilməsi məsələləri müzakirə olunur.

Gündəliyə Fələstin, Livan, İraq və Somali, o cümlədən Darfur münaqişəsi ilə bağlı məsələlər də daxil edilmişdir. Bundan əlavə, iclasın gündəliyinə islamafobiya problemi, İKT-yə üzv ölkələr, xüsusilə də Afrika dövlətləri arasında iqtisadi əməkdaşlığın inkişafı məsələləri daxildir.

Nazirlər səviyyəsində hazırlanan sənədlər İKT-nin martın 13-14-də Dakarda keçirilməsi nəzərdə tutulan iclasında təqdim olunacaqlar.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Martın 10-da Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov Azərbaycan Respublikasına üçgünlük işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 10-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun təkbətək görüşü olmuşdur.

Dövlətimizin başçısı Bolqarıstan rəhbərini Prezident sarayının həyətində səmimiyyətlə qarşıladı.

Sonra keçirilən təkbətək görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə - siyasi, iqtisadi, mədəni və digər sahələrdə uğurla inkişaf etdiyi və qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi.

Dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinin vurğulandığı görüşdə ikitərəfli əməkdaşlıqla, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Martın 10-da Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, "Xoş gəlmisiniz!".

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər çox uğurlu olacaq və iki ölkə arasında dostluq münasibətləri uğurla davam edəcəkdir.

Biz bu gün Sizinlə təkbətək görüşümüzdə ikitərəfli münasibətlərin bütün aspektlərini müzakirə etdik, eyni zamanda, regional məsələlərə toxunduq və bu məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür.

Münasibətlərimizin inkişafı üçün də gözəl şərait var. Çox güclü siyasi əlaqələr, yaranan və möhkəmlənən iqtisadi potensial, humanitar sahədə əməkdaşlığın inkişafı - bütün bu məsələlər çox vacibdir. Şübhə etmirəm ki, səfərinizin nəticəsi olaraq, bu münasibətlər daha da sürətlə inkişaf edəcəkdir.

Bolqarıstan Prezidenti GEORGİ PIRVANOV təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident,

Hörmətli nümayəndə heyətinin üzvləri!

İlk növbədə, məni ölkənizə dəvət etdiyinizə görə və Sizinlə məsələləri müzakirə etmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirirəm. Demək olar ki, aramızda aparılan dolğun dialoq bu gün ən yüksək səviyyədədir. Əlbəttə ki, bu dialoq nəinki ikitərəfli maraqlara xidmət edir, eyni zamanda, bir-biri ilə qonşuluqda olan regionlarda yerləşən iki tərəfin dialoqu deməkdir.

Bolqarıstan Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığı çox müsbət dəyərləndirir və Azərbaycanı Aİ üçün obyektiv olaraq yaxın tərəfdaş sayır.

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI

Martın 10-da, geniş tərkibdə görüşdən sonra Prezident sarayında Azərbaycan və Bolqarıstan prezidentlərinin birgə mətbuat konfransı keçirilmişdir. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mən Sizi və nümayəndə heyətini Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Bizim aramızda başlanan və uğurla davam etdirilən siyasi dialoq iki ölkə arasında münasibətlərin inkişafına çox güclü təkan vermişdir. Biz bir müddət bundan əvvəl qarşılıqlı rəsmi səfərlər etmişdik və o səfərlər çərçivəsində ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən çoxsaylı sənədlər imzalanmışdır.

Bu gün Siz Azərbaycanda işgüzar səfərdəsiniz. Bu da çox gözəl əlamətdir və onu göstərir ki, bizim aramızda olan əlaqələr çox möhkəm xarakter daşıyır. Bugünkü görüşdə müzakirə olunan məsələlər bir daha onu göstərir ki, Bolqarıstan-Azərbaycan münasibətləri çox yüksək səviyyədədir. Biz ikitərəfli formatda çox geniş müzakirələr aparmışıq. Həm siyasi, həm iqtisadi əlaqələrin inkişafı üçün lazımi tədbirlərin görülməsi barədə müvafiq göstərişlər vermişik. Siyasi sahədə münasibətlər həm ikitərəfli formatda çox yüksək səviyyədədir, həm də Avropa İttifaqının üzvü kimi Bolqarıstan Azərbaycanın Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulması ilə əlaqədar bizə öz dəstəyini göstərir. Eyni zamanda, iqtisadi münasibətlərin inkişafı üçün gözəl potensial mövcuddur. Həm Bolqarıstan, həm də Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edən ölkələrdir. Əlbəttə ki, artan iqtisadi imkanlarımız qarşılıqlı ticarətin, qarşılıqlı investisiyaların davam etdirilməsinə kömək göstərəcəkdir.

Biz bu gün humanitar sahədə münasibətlərin təhlilini aparmışıq və bu sahədə də münasibətlərin hərtərəfli inkişafı üçün çox gözəl imkanlar var.

Bu gün, eyni zamanda, bizi narahat edən məsələlər də müzakirə edildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə olundu və Azər-

baycan bir daha öz mövqeyini bəyan etdi ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalı və etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız qeyd-şərtsiz öz doğma torpaqlarına qayıtmalıdırlar. Hesab edirik ki, bizimlə əməkdaşlıq edən ölkələr, xüsusilə Avropa İttifaqı bu məsələnin həlli üçün öz səylərini davam etdirməlidir. İşğalçı dövlətə çox açıq və aydın bir mesaj göndərilməlidir ki, Dağlıq Qarabağ heç vaxt müstəqil olmayacaq, heç vaxt heç bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır. Belə olan halda ümid edirəm ki, danışıqlar prosesi daha da sürətlə gedəcək, Ermənistanda və separatist qurumda yaşanan bəzi ümidlər artıq sona çatacaqdır.

Bu gün biz energetika sahəsində əməkdaşlığın müxtəlif aspektlərini müzakirə etdik. Bu sahədə də gözəl imkanlar var. Həm Azərbaycan, həm də Bolqarıstan Avropanın enerji təhlükəsizliyi üçün əvəzolunmaz ölkələrdir. Bizim əməkdaşlığımız, eyni zamanda, Xəzər dənizi-Qara dəniz əməkdaşlığı çərçivəsində çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan çox böyük neft-qaz ehtiyatlarına malikdir. Biz artıq neft-qaz ixrac edən ölkəyə çevrilmişik. Bu il Azərbaycanda 50 milyon tondan çox neft hasil ediləcəkdir. Ən minimum hesablamalara görə, Azərbaycanda qaz ehtiyatları 2 trilyon kubmetr həcmindədir ki, bu da bundan sonra uzun illər, onilliklər ərzində həm ölkəmizi, həm qonşu ölkələri və həm də Avropanı qazla təmin etmək üçün bizə gözəl imkanlar yaradır.

Bizim çoxşaxəli nəqliyyat infrastrukturumuz var. Azərbaycanın enerji resurslarını dünyaya dörd neft-qaz kəməri çıxarır. Gələcəkdə nəzərdə tutulan bütün proqramlar icra olunduğu təqdirdə Azərbaycan Avropa bazarına neft-qaz ixrac edən çox etibarlı bir ölkəyə çevriləcəkdir.

Eyni zamanda, mən cənab Prezidenti məlumatlandırdım ki, bu yaxınlarda biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlayacağıq. Bütün üçtərəfli razılaşmalar artıq həll olunub və bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcək və beləliklə həm iqtisadi, həm siyasi əməkdaşlığın inkişafına kömək edəcəkdir.

Bir sözlə, demək istəyirəm ki, Bolqarıstan Prezidentinin Azərbaycana səfərini mən çox yüksək qiymətləndirirəm. Bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri çox müsbət, çox uğurlu olacaqdır və bizim ikitərəfli münasibətlərimizin inkişafı üçün çox gözəl və yeni imkanlar yaranır. Eyni zamanda, bir daha demək istəyirəm ki, bizim münasibətlərimiz ikitərəfli formatdan çıxır, regional formata daxil olur və bu formatda Xəzər dənizi-Qara dəniz əməkdaşlığının perspektivləri çox ümidverici və gözəldir.

Mən Bolqarıstan Prezidentini bir daha Azərbaycanda ürəkdən salamlayıram və bütün qonaqlara bir daha "Xoş gəlmisiniz!" deyirəm.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI

- Cənab Prezident!

Mən Sizə öz minnətdarlığımı bildirirəm. Sizin verdiyiniz yüksək qiymətlə şərikəm, çünki bizim hazırkı səfərimiz siyasi dialoqun bir hissəsidir. Xüsusən də, son 3-4 il ərzində apardığımız dialoqun vacib bir elementidir. Bu dialoq açıqdır və onun yaxşı nəticələri var. Təbii ki, hazırda qarşılıqlı münasibətlərimiz yeni bir formada inkişaf edə bilər. Çün-

ki birincisi, Bolqarıstan indi Avropa İttifaqının üzvüdür və artıq fərdi qaydada məsuliyyət daşıyır. Bu məsuliyyət məhz fəal siyasətin həyata keçirilməsinə aiddir. Yəni Avropa İttifaqının yeni qonşuluq siyasətində ölkəmiz öz səylərini göstərməkdədir. O ki, qaldı Azərbaycan Respublikasına, burada əməkdaşlığımızın, qarşılıqlı əlaqələrimizin bütün istiqamətlərindən söhbət gedir. İlk növbədə də enerji sektoru xüsusi olaraq nəzərdə tutulur ki, Siz bunu burada öz bəyanatınızda qeyd etdiniz.

Avropanın enerji təhlükəsizliyinə gəldikdə, Bolqarıstan öz məsuliyyətini dərk edərək, bu sahədə, xüsusən də Avropanın Nabukko layihəsi sahəsində səylərini fəallaşdırmaq istəyir. Biz də bu layihənin bir hissəsiyik. Mən bu iştirakımızı yüksək dəyərləndirir və vacib hesab edirəm. Azərbaycan bu işdə resursları ixrac edən çox etibarlı bir ölkədir.

Eyni zamanda, Prezident Əliyevə öz təşəkkürümü bildirirəm ki, regionlararası konfransın keçirilməsi barədə mənim ideyamı dəstəkləmişdir. Xəzər dənizi və Qara dəniz ölkələrinin konfransının keçirilməsi nəzərdə tutulur. Konfransın əsas mövzusu enerji təchizatı mənbələrinin şaxələndirilməsinə, bu sahədə işlərin daha da gücləndirilməsinə aid olacaqdır. Bu kontekstdə bizim birgə səylər sayəsindəki əldə etdiyimiz nailiyyətlər xüsusi əhəmiyyət daşıyır və bu nailiyyətlər həm Bolqarıstana, həm də Azərbaycana Avropanın enerji təhlükəsizliyinə töhfə vermək imkanı yaradır. Mən bu təklifi irəli sürdüm və nazirliklərimizin, ekspertlərin köməyi ilə və enerji şirkətlərimiz vasitəsilə mövcud olan imkanların müzakirəsi və Azərbaycanın bir sıra Avropa enerji layihələrinə, xüsusilə bu yaxınlarda irəli sürülmüş Burqas-Aleksandropolus layihəsinə qoşulması vacibdir. Müzakirələrimiz zamanı mən bu ideyanı təklif etdim və bildirdim ki, Bolqarıstan təbii qazın hasilatı və ixracında iştirak etməyə hazırdır. Yəni bu o deməkdir ki, məsələn, biz Bolqarıstanın kvotası çərçivəsində 1 milyard kubmetr qaz almağa qadirik və o, artıq Türkiyə və Yunanıstandan keçən boru kəmərindən istifadə edərək, daha sonra isə mövcud olan digər boru kəmərləri ilə nəql edilə bilər. Bu da ki, Azərbaycana uzun müddət ərzində öz işini planlaşdırmaq imkanı yaradacaqdır.

Biz olduqca konkret məsələləri müzakirə etdik və müvafiq nazirliklərdə böyük işlərin görülməsinin zəruriliyini bildirdik. Çox vacibdir ki, daha geniş fəal iqtisadi əməkdaşlığı həyata keçirmək üçün yaxın günlərdə biz əlavə, lakin çox lazımlı imkanlar yaradaq. Xüsusən də nəqliyyat sahəsində. Burada dəmir yolu xətti layihəsi qeyd olundu və hesab edirəm ki, bu, Balkan ölkələrinin vətəndaşları üçün də vacib olardı. Biz eyni zamanda qeyd etdik ki, aviareyslərin açılmasının yubanmasını istəməzdik. Ancaq bu, ilin sonuna qədər digər Balkan dövlətinin paytaxtı ilə sizin ölkəniz arasında aviauçuşların həyata keçirilməsi ilə kompensasiya olunacaqdır. Burada iki region arasındakı əməkdaşlıq xüsusi qeyd edildi.

Dağlıq Qarabağ məsələsinə gəldikdə, mən bir daha bəyan etdim ki, Bolqarıstan bu gün fəal mövqedədir və hətta bunu ATƏT-də sədrliyi zaman da ifadə etmişdir. Yəqin yaxşı xatirinizdədir ki, Azərbaycan bu mövqedən xəbərdardır. Bu mövqedən həmçinin Minsk qrupu da xəbərdardır.

Avropa İttifaqının bir üzvü kimi biz bu mövqeni Avropa İttifaqında da qoruyub saxlayırıq. Kosovo məsələsinə gəldikdə, Bolqarıstan hələ ki, Kosovonun müstəqilliyini tanımayıb, biz öz yekun mövqeyimizi hadisələrin orada necə cərəyan edəcəyindən asılı olaraq ifadə edəcəyik. Lakin mən əminliklə bildirmək istəyirəm ki, Avropa İttifaqının bə-

yan etdiyi mövqe xüsusi bir haldır və digər münaqişələr üçün presedent ola bilməz. Avropanın istənilən digər bir yerində və yaxud dünyanın digər guşələrində, ya da bizim regiona yaxın olan yerlərdə bu, presedent ola bilməz. Xüsusən də bizim üçün Kosovo problemi nəinki öz müqəddəratını təyin etmək baxımından, o cümlədən regionun təhlükəsizliyi baxımından vacibdir. Bu, daha müdrik, tarazlı mövqeyimizi əsaslandırır.

Biz görüşlərimiz zamanı digər olduqca böyük, əhatəli məsələləri, o cümlədən, mədəniyyət sahəsində müqavilələrimizin artırılması və bu sahədə xalqlar arasında əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etdik. Mən Prezident Əliyevi ölkəmizə dəvət etdim. Əminəm ki, gələn aylar ərzində Prezident Əliyevin Bolqarıstana səfərindən sonra mədəniyyət sahəsində müqavilələrimizi də artıracağıq və bu da xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq və daha da yaxşı tanıdacaqdır. Sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Martın 10-da "Yaxt klub"da Azərbaycan Prezidenti İlham Əliyevin adından Bolqarıstan Prezidenti Georgi Pırvanovun şərəfinə ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən bir daha salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

Cənab Prezident, bu, Sizin Azərbaycana ikinci səfərinizdir. Birinci səfəriniz kimi, bu səfər də çox uğurlu oldu. Biz bu gün bir daha gördük ki, Bolqarıstan-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir, bütün sahələri əhatə edir və bu əlaqələrin çox gözəl gələcəyi var. Əlbəttə ki, bizim aramızda yaranmış bu səmimi dostluq münasibətləri də ikitərəfli əlaqələrin inkişafında böyük rol oynayır. Bizim xalqlarımız tarixdə həmişə əməkdaşlıq etmişlər, bir-birinə dostluq münasibətləri bəsləmişlər. Əlbəttə, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər keyfiyyətcə yeni mərhələyə qalxmışdır və indiki şəraitdə həm bizim ölkələrimiz üçün, həm də region üçün çox böyük əhəmiyyət kəsb edir. Bu gün müzakirə edilən məsələlər bunu bir daha göstərir.

Energetika, nəqliyyat məsələləri, iqtisadi əməkdaşlıq, humanitar sahədə əməkdaşlıq - bütün bu məsələlər həm bizim üçün, həm də region üçün çox vacibdir. Bu gün qeyd olunduğu kimi, Xəzər dənizi-Qara dəniz regional əməkdaşlığının inkişafı üçün bizim münasibətlərimiz çox vacib rol oynayır.

Azərbaycan Avropa İttifaqı və NATO ilə sıx əməkdaşlıq edir. Hər ikisi ilə əməkdaşlıqda xüsusi proqramlar icra olunur və Bolqarıstan bizim bu istiqamətdə səylərimizi həmişə dəstəkləmişdir. Bu, bir daha onu göstərir ki, bizim əlaqələrimiz çoxşaxəlidir. Həm ikitərəfli məsələləri əhatə edir və həm də beynəlxalq təşkilatlarda əlaqələrimiz çox

uğurludur. Mən şübhə etmirəm ki, bu səfər də əlaqələrimizin inkişafında mühüm rol oynayacaq və Bolqarıstan-Azərbaycan dostluq münasibətləri uğurla davam etdiriləcəkdir.

Cənab Prezident, mən bu badəni Sizin şərəfinizə, dost Bolqarıstan xalqının şərəfinə qaldırıram.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Məni ölkənizə dəvət etdiyinizə və ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək imkanına görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Bizim xalqlarımız arasında həmişə etimad olub və bu etimad ikitərəfli münasibətlərin inkişafının əsas şərtidir. Mən cənab Prezidentlə tamamilə razıyam ki, bu gün bizim qarşılıqlı münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə qalxıb. Bu münasibətlər bizim Avropa İttifaqının üzvü olmağımız və sizin Avropa İttifaqı ilə tərəfdaşlığınız kontekstində inkişaf edir. Bu münasibətlər o faktlara əsaslanır ki, həm Bolqarıstan, həm də Azərbaycan yerləşdikləri regionlarda siyasətin formalaşmasında fəal rol oynayırlar. Biz ölkələrimiz arasında qarşılıqlı münasibətlər barədə danışanda təkcə əvvəlki əlaqələrdən bəhs etməklə kifayətlənə bilmərik. Bizim qarşılıqlı münasibətlərin gələcək perspektivləri var. Mən əminəm ki, nəqliyyat infrastrukturu ilə bağlı layihələrimiz olacaq, bu layihələr ölkələrimiz arasındakı məsafəni sözün həqiqi mənasında qısaldacaqdır.

Mən əminəm ki, biz müştərək enerji layihələri həyata keçirməyə nail olacaq, onların sayəsində Avropa İttifaqının enerji təhlükəsizliyinə öz töhfəmizi verəcəyik. İnanıram ki, mənim bu səfərimdən sonra şirkətlərimiz sərmayə qoymaq və öz aralarında qarşılıqlı münasibətləri yaxşılaşdırmaq üçün yeni imkan əldə edəcəklər. Qarşıda görülməli işlər çox olacaq, lakin mən əminəm ki, gələn il, bəlkə də elə bu mövsümdə Siz Bolqarıstanda səfərdə olarkən qarşılıqlı münasibətlərimizlə bağlı bir çox yeni məsələləri müzakirə edəcəyik.

Mən bolqar və Azərbaycan xalqlarının firavanlığı şərəfinə, qarşılıqlı münasibətlərimizin daha yaxşı gələcəyi şərəfinə, burada iştirak edənlərin hamısının şərəfinə badə qaldırmaq istərdim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİR" TELEVİZİYA KANALININ RƏHBƏRİ RADİK BATIRŞİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında "Mir" televiziya kanalının rəhbəri Radik Batırşini qəbul etmişdir.

Görüşdə Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin humanitar sahədə əməkdaşlığının, o cümlədən bu ölkələr arasında informasiya mübadiləsinin əhəmiyyəti vurğulandı və "Mir" televiziya kanalının bu istiqamətdə fəaliyyətinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TENNİS FEDERASİYASININ PREZİDENTİ FRANÇESKO RİÇİ BİTTİNİ VƏ RUSİYA TENNİS FEDERASİYASININ PREZİDENTİ ŞAMİL TARPİŞEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında Beynəlxalq Tennis Federasiyasının prezidenti Françesko Riçi Bittini və Rusiya Tennis Federasiyasının prezidenti Şamil Tarpişevi qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini, son illər bu sahəyə dövlət tərəfindən böyük diqqət göstərildiyini, ayrı-ayrı regionlarda dünya standartlarına uyğun müasir idman infrastrukturunun yaradıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda tennisin inkişafı üçün də müasir infrastrukturun yaradılacağına əminliyini söylədi.

Ölkəmizdə tennisin böyük ənənəyə malik olduğunu vurğulayan Beynəlxalq Tennis Federasiyasının Prezidenti Françesko Riçi Bitti Azərbaycan tennis məktəbinin Əhmərov, Lixaçov, Biryukova kimi yetirmələri olduğunu xatırlatdı. O, bu sahənin inkişaf etdirilməsi üçün ölkəmizdə əsaslı bazanın olduğunu vurğuladı. Françesko Riçi Bitti əmin olduğunu bildirdi ki, Azərbaycanda idmana göstərilən böyük diqqət tennisin inkişafında da mühüm rol oynayacaqdır

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ABN AMRO"NUN VİTSE-PREZİDENTİ MARK HOLTZMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Prezident sarayında "ABN Amro"nun vitse-prezidenti Mark Holtzmanı qəbul etmişdir.

Mark Holtzman Prezident İlham Əliyevlə Davosda keçirilən görüşdə iştirakını məmnuniyyətlə xatırladaraq, orada dövlətimizin başçısının Azərbaycanın iqtisadi imkanları və əldə etdiyi nailiyyətləri barədə çıxışının Forum iştirakçılarında dərin təəssürat yaratdığını və ölkəmizdə gedən inkişaf proseslərinə böyük maraq doğurduğunu bildirdi.

Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən görüşlərin əhəmiyyətindən danışan Prezident İlham Əliyev tədbir zamanı aparılan müzakirələrin qarşılıqlı surətdə faydalı olduğunu, əməkdaşlıq üçün geniş imkanlar açdığını vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Prezident sarayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, ölkələrimizin müxtəlif qurumları arasında sıx əlaqələrin bu münasibətlərin daha da genişlənməsinə xidmət etdiyi bildirilmiş, Azərbaycanla

Mərmərə Qrupu arasında əməkdaşlığın gələcəkdə də müvəffəqiyyətlə davam etdiriləcəyinə dair əminlik ifadə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ VLADİMİR QURGENİDZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında Gürcüstanın Baş naziri Vladimir Qurgenidzeni qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi, yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət göstərdiyi vurğulanmış, ikitərəfli münasibətlərin, iqtisadi sahədə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

DAKARDA İSLAM KONFRANSI TƏŞKİLATININ 11-Cİ ZİRVƏ GÖRÜŞÜ İŞƏ BAŞLAMIŞDIR

Seneqalın paytaxtı Dakarda İslam Konfransı Təşkilatının (İKT) "İslam dünyası XXI əsrdə" devizi altında 11-ci zirvə görüşü başlanmışdır.

Azərbaycan İslam ölkələrindəki mövcud münaqişələrin beynəlxalq hüquq normaları əsasında həllinə tərəfdardır. Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov martın 14-də Seneqalın paytaxtı Dakarda İslam Konfransı Təşkilatının (İKT) "İslam dünyası XXI əsrdə" devizi altında keçirilən 11-ci zirvə görüşündəki çıxışında demişdir.

Təşkilatın təhdidlərlə qarşılaşan bir neçə üzv ölkəsində mövcud vəziyyətin böyük narahatlıq doğurduğunu qeyd edən nazir E.Məmmədyarov bildirmişdir ki, üzv dövlətlər qurumun 10 illik fəaliyyət proqramına əsasən İslam həmrəyliyinə öz sədaqətlərini bir daha nümayiş etdirməli və problemi olan ölkələrə dəstəklərini artırmalıdırlar.

Fələstindəki vəziyyətlə bağlı narahatlığını bildirən nazir, Azərbaycanın Fələstin xalqının sülh və sabitlik səylərini dəstəklədiyini bildirmiş, Kəşmir probleminin həlli istiqamətində Pakistan Prezidentinin Hindistan tərəfi ilə danışıqlara dair son təşəbbüsünü alqışlamışdır. O, Kipr türklərinin davam edən ədalətsiz təcridi ilə bağlı narahatlığını ifadə etmişdir.

Elmar Məmmədyarov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyini dəstəklədiklərinə görə müsəlman dövlətlərinə və İKT-nin baş katibinə bir daha minnətdarlıq etmişdir. Biz beynəlxalq ictimaiyyəti Ermənistanın təcavüzünü pisləməyə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi daxil olmaqla işğal altındakı əraziləri üzərində suverenliyini bərpa etmək istiqamətindəki səylərini dəstəkləməyə çağırırıq.

BMT Baş Məclisində "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnamə layihəsinin səsə qoyulacağını bildirən nazir, İKT-yə üzv ölkələri bu sənədin lehinə səs verməyə çağırmışdır.

11-ci zirvə görüşünün İKT-nin gələcək inkişafı üçün tarixi hadisə olacağına inamını ifadə edən Azərbaycan XİN-in rəhbəri demişdir ki, ötən zirvə görüşündən sonra Azərbaycan qardaş İslam ölkələri ilə əməkdaşlığını genişləndirmişdir.

E.Məmmədyarov Azərbaycanın İKT Xarici İşlər Nazirləri Şurasına sədrliyi dövründə görülmüş işlərdən danışmış, ölkəmizin hazırda təşkilatın Turizm Nazirləri Şurasına rəhbərlik etdiyini diqqətə çatdırmışdır. Nazir məlumat vermişdir ki, Azərbaycan sədrlik dövründə bir neçə beynəlxalq tədbir, o cümlədən Şəkidə Beynəlxalq İpək Yolu Səyahət Operatorları Forumu, Naxçıvanda dini və səhiyyə turizmi mövzusunda konfrans, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sivilizasiyalararası dialoqda qadınların rolunun genişləndirilməsinə dair beynəlxalq konfrans keçirməyi planlaşdırır. Həmçinin sentyabrda İKT-yə üzv ölkələrin elm və təhsil nazirlərinin konfransı da keçiriləcəkdir.

Elmar Məmmədyarov İslam dünyasını narahat edən problemlərdən söz açmış, islamafobiyaya qarşı birgə mübarizənin zəruri olduğunu demişdir. Təşkilatın yeni Nizamnaməsinin İKT-nin gələcək inkişafı üçün möhkəm əsas yaradacağını qeyd edən Azərbaycan XİN-in rəhbəri, üzv ölkələrin iqtisadi, humanitar və mədəni sahələrdə əməkdaşlığının genişləndirilməsinin vacibliyini vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

Görüşdə MDB çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Yunanıstanın inkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanla Yunanıstan arasında ikitərəfli münasibətlərin yeni mərhələdə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ötən il Türkiyə-Yunanıstan qaz kəmərinin açılışı zamanı keçirilən görüşləri xatırladı, həmin tədbirin qarşılıqlı əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu bildirdi. Prezident İlham Əliyev Yunanıstan nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə yeni imkanlar açacağına əminliyini söylədi.

Xristos Folias Yunanıstanın Baş naziri Kostas Karamanlisin salamlarını və ehtiramını Prezident İlham Əliyevə çatdırdı. Böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etdiyini deyən Xristos Folias qarşılıqlı əlaqələrin hər iki ölkə üçün faydalı olduğunu bildirdi. O, əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün kifayət qədər imkanların mövcud olduğunu vurğuladı.

Prezident İlham Əliyev Yunanıstanın Baş naziri Kostas Karamanlisin salamlarına görə təşəkkür etdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ UNİVERSAL DÖYÜŞ FEDERASİYASININ PREZİDENTİ SERGEY NOVİKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti Sergey Novikovu qəbul etmişdir.

Görüşdə Azərbaycanda idmana göstərilən yüksək dövlət qayğısından danışılmış, ölkəmizin ayrı-ayrı regionlarında dünya standartlarına uyğun müasir idman infrastrukturunun yaradıldığı bildirilmişdir. Eyni zamanda, Azərbaycanın nümayəndəsi Natiq Əliyevin Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilməsi ölkəmizin beynəlxalq idman aləmində fəal iştirakının göstəricisi kimi vurğulanmışdır. Azərbaycanda digər idman növləri kimi, universal döyüş növünün də inkişaf etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ SƏFƏRİ

Martın 17-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfəri başlanmışdır.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, səfərin ilk günü E.Məmmədyarov BƏƏ-nin Abu-Dabi əmirliyinin vəliəhdi, Silahlı Qüvvələrin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid Al Nəhyan ilə görüşmüşdür.

Görüşdə xarici işlər naziri E.Məmmədyarov Azərbaycan Respublikasının Baş naziri A.Rasizadənin dəvət məktubunu təqdim edərək, Şeyx Məhəmmədi tezliklə Azərbaycanda görməyə ümidvar olduğunu bildirmişdir.

Şeyx Məhəmməd bin Zaid Al Nəhyan dəvətə görə minnətdarlığını bildirərək, yaxın zamanlarda Azərbaycana mütləq səfər edəcəyini və səfərdən əvvəl Bakıya müxtəlif nazirliklərin nümayəndələrindən ibarət heyətin cəm olunacağını diqqətə çatdırmışdır.

Nazir E.Məmmədyarov səfirliklərin qarşılıqlı əsasda fəaliyyət göstərməsinin əlaqələrin inkişafı baxımından müstəsna əhəmiyyət kəsb etdiyini bildirərək, Bakıda BƏƏ səfirliyinin açılması məsələsinə toxunmuşdur.

Şeyx Məhəmməd ölkəsinin Azərbaycanla bütün sahələrdə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğulayaraq, tezliklə Bakıda BƏƏ-nin səfirliyinin açılacağını bildirmişdir. Görüşdə ölkələrimiz arasında energetika, turizm, iqtisadiyyat, ticarət, özəl sektor sahələrində əlaqələrin inkişaf perspektivləri, habelə dövlətlərimizin birgə regional layihələr çərçivəsində əməkdaşlıq imkanları barədə müzakirələr aparılmışdır. Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı baxımından Bakı ilə Abu-Dabi arasında birbaşa hava xəttinin açılması məsələsi gündəmə gətirilmiş və bu istiqamətdə "Etihad" hava yollarına məsələyə baxılması üçün göstəriş veriləcəyi bildirilmişdir.

Beynəlxalq və regional miqyasda baş verən proseslər ətrafında geniş fikir mübadiləsinin aparıldığı görüşdə, ölkələrimizin bir sıra beynəlxalq problemlərə dair mövqelərinin və baxışlarının üst-üstə düşdüyü bildirilmişdir.

Görüşdə BƏƏ-nin xarici işlər naziri Şeyx Abdulla bin Zaid Al Nəhyan və prezident işləri üzrə nazir Şeyx Mansur bin Zaid Al Nəhyan iştirak etmişlər.

Həmin gün E.Məmmədyarov BƏƏ-nin xarici işlər naziri Şeyx Abdulla bin Zaid Al Nəhyanla görüşmüşdür.

Ölkələrimiz arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyinin diqqətə çatdırıldığı görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ilin noyabrında BƏƏ-yə rəsmi səfərinin müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafına böyük təkan verdiyi vurğulanmışdır. Xarici işlər naziri E.Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin BƏƏ Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyana dəvət məktubunu həmkarına təqdim etmişdir. Dəvətə görə minnətdarlıq ifadə edən Şeyx Adbulla, BƏƏ Prezidentinin bu dəvətdən məmnun qalacağını və Azərbaycana səfər edəcəyinə əminliyini ifadə etmişdir.

Ölkələrimiz arasında beynəlxalq təşkilatlar, xüsusən da BMT və İKT çərçivəsində səmərəli əməkdaşlıqdan razılığını bildirən Azərbaycanın xarici işlər naziri BMT-nin Baş Məclisində "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməyə səsvermə zamanı ölkəmizin mövqeyini birmənalı şəkildə dəstəklədiyinə görə BƏƏ Hökumətinə Azərbaycan Hökuməti adından dərin minnətdarlığını bildirmişdir.

Görüşdə beynəlxalq və regional aləmdə baş verən siyasi proseslər ətrafında geniş fikir mübadiləsi aparılmış və bir çox problemlərə dair ölkələrimizin mövqelərinin tamamilə üst-üstə düşdüyü qeyd olunmuşdur.

BƏƏ-nin Azərbaycanın mövqeyini daim dəstəkləyəcəyini vurğulayan Şeyx Abdulla, tezliklə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunacağına əminliyini bildirmişdir.

Görüşün sonunda "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və BƏƏ-nin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Anlaşma Memorandumu", habelə vaxtilə Azərbaycan ilə BƏƏ arasında imzalanmış cinayət işləri üzrə hüquqi yardım haqqında, ekstradisiya haqqında, mülki və ticarət işləri üzrə hüquqi və məhkəmə yardımı haqqında üç müqavilə üzrə ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokollar imzalanmışdır.

Həmin gün nazir E.Məmmədyarov BƏƏ-nin iqtisadiyyat və planlaşdırma naziri xanım şeyxa Lubna Al-Qasimi ilə görüşmüşdür.

Görüşdə ikitərəfli iqtisadi və ticarət əlaqələrinin inkişaf perspektivləri, hökumətlərarası iqtisadi komissiyanın fəaliyyəti, ölkələrimizin regional layihələrdə əməkdaşlıq imkanları barədə geniş müzakirələr aparılmışdır.

Nazir E.Məmmədyarov həmsöhbətini Azərbaycana dəvət etmiş və xanım şeyxa Lubna dəvəti məmnunluqla qəbul edərək, tezliklə Azərbaycana səfər edəcəyini bildirmişdir.

Elmar Məmmədyarov martın 19-da bu ölkənin iqtisadiyyat naziri Sultan Səid Al Mansurla görüşmüşdür.

Görüşdə ikitərəfli siyasi əlaqələrin yüksək səviyyədə olduğu və iqtisadi münasibətlərin genişləndirilməsinin vacibliyi vurğulanmışdır. Azərbaycanın xarici işlər naziri səfər çərçivəsində keçirdiyi görüşlər haqqında ətraflı məlumat vermiş və ölkələrimiz arasında əməkdaşlığın geniş perspektivləri olduğunu qeyd etmişdir. Nazir ölkələrimiz arasında regional layihələr çərçivəsində əməkdaşlığın mümkünlüyünü, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin yaxın zamanda Körfəz regionunda inşa olunacaq birgə dəmir yolu xəttinə birləşdirilməsinin mümkün olduğunu qeyd etmişdir.

BƏƏ-nin iqtisadiyyat naziri ölkələrimiz arasında iqtisadi əlaqələrin xüsusilə inkişaf etdiyini və ticarət dövriyyəsinin həcminin artırılmasının vacibliyini diqqətə çatdırmışdır. O, eyni zamanda ölkələrimiz arasında hava xəttinin mövcud olmasını məmnuniyyətlə qeyd edərək, bu ölkənin hava nəqliyyatı şirkətlərinin, o cümlədən "Emirates" şirkətinin Azərbaycana reyslərinin bərpası məsələsinə toxunmuşdur. Eyni zamanda Əbu Dabi əmirliyinin "İttihad" hava nəqliyyatı şirkətinin də Bakı və Əbu Dabi arasında hava reyslərinin yaradılmasının mümkünlüyü vurğulanmışdır. Nazir E.Məmmədyarov Azərbaycan Prezidentinin 2006-cı ilin noyabr ayında BƏƏ-yə rəsmi səfərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına yeni imkanlar açdığını bildirmiş və Azərbaycanda neft sektoru, turizm və qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsində görülən işlərə dair məlumat vermişdir.

BƏƏ-nin iqtisadiyyat naziri dövlətlərimizin üçüncü ölkələrdə müştərək müəssisələrin yaradılması imkanlarının olduğunu və bu məsələnin Hökumətlərarası İqtisadi Komissiyanın gələcək iclasının gündəliyinə salınmasını təklif etmişdir. Azərbaycanın xarici işlər naziri BƏƏ tərəfindən Hökumətlərarası İqtisadi Komissiyanın üzvlərinin müəyyən edilməsini və bu haqda Azərbaycan tərəfinə məlumat verilməsini xahiş etmiş və bütün bu məsələlərin Əbu Dabi əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zaid Al Nəhyanın Azərbaycana səfəri zamanı bir daha müzakirə ediləcəyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ƏL-VALİD BİN TƏLAL BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Prezident sarayında Səudiyyə Ərəbistanının Şahzadəsi əl-Valid bin Tələl bin Əbdüləziz Al Səudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana səfərindən məmnun olduğunu deyən Şahzadə Azərbaycanda gedən iqtisadi inkişafın böyük təəssürat yaratdığını, ölkəmizin gələcəkdə daha böyük nailiyyətlər əldə edəcəyinə əminliyini bildirdi. Azərbaycanda reallaşdırılan müxtəlif biznes layihələrinin onlarda maraq doğurduğunu bildirən qonaq Bakıda keçirdiyi səmərəli görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.

Dövlətimizin başçısı son illər ölkəmizdə əldə edilən yüksək iqtisadi inkişafın bütün istiqamətlərdə uğurlu nəticələr verdiyini, sosial sahənin getdikcə daha da yaxşılaşdığını, ümumdaxili məhsulun dinamik surətdə artdığını bildirdi. Ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini, o cümlədən iqtisadi əməkdaşlığın genişləndiyini vurğulayan Prezident İlham Əliyev ilk dəfə Azərbaycana gələn Şahzadə əl-Valid bin Tələl bin Əbdüləziz Al Səudun səfərinin səmərəli olacağına və əlaqələrimizin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTERFAKS BEYNƏLXALQ İNFORMASİYA QRUPUNUN DİREKTORLAR ŞURASININ SƏDRİ MİXAİL KOMİSSARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Prezident sarayında İnterfaks Beynəlxalq İnformasiya Qrupunun direktorlar şurasının sədri Mixail Komissarı qəbul etmişdir.

Prezident İlham Əliyevə və Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbriklərini çatdıran Mixail Komissar Azərbaycanın sürətlə inkişaf etdiyini, ölkəmizin regionda aparıcı dövlətlərdən biri olduğunu məmnunluqla qeyd etdi. Ölkəmizdə gedən inkişaf proseslərinin dünya mətbuatı tərəfindən böyük maraqla izlənildiyini bildirən qonaq rəhbərlik etdiyi agentlik üçün də Azərbaycanda əldə olunan nailiyyətlərin mühüm informasiya mənbəyi olduğunu dedi.

İnterfaks informasiya agentliyinin Azərbaycandakı uzunmüddətli fəaliyyətinə toxunan dövlətimizin başçısı ölkəmizlə bağlı məlumatların dünya ictimaiyyətinə operativ şəkildə çatdırılmasında agentliyin səmərəli fəaliyyət göstərdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "İNTERFAKS" AGENTLİYİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibə vermişdir.

- Möhtərəm İlham Heydər oğlu, oktyabr ayında Azərbaycanda prezident seçkiləri keçiriləcək. Siz bu gün ölkədəki vəziyyəti necə qiymətləndirərdiniz? Azərbaycanı nə gözləyir, bu barədə Sizin planlarınız necədir?

- Əvvələn, ölkənin inkişafının gələcəyini planlaşdırmaq üçün biz 2003-cü ildən bəri hesabat dövründə görülmüş işləri əsas götürməliyik. Dörd ildən bir qədər artıq müddətdə ölkədə sürətli iqtisadi yüksəliş müşahidə olunur. Son bir neçə ildə ÜDM-in artım sürətinə görə Azərbaycan dünyada liderdir, dörd ildə ÜDM 96 faiz artmışdır. Bu, bizə kifayət qədər maliyyə ehtiyatları toplamağa və fəal sosial siyasət yeritməyə imkan vermişdir. Bu sanballı rəqəmlərlə yanaşı, mənim üçün bəlkə də ən əhəmiyyətlisi odur ki, ötən dörd ildə ölkədə yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə düşmüşdür. Bu, ilk növbədə, onu göstərir ki, bizim apardığımız bütün islahatlar ən əvvəl vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir. Digər tərəfdən, Azərbaycanın neft və qaz hasil edən ölkə olduğunu nəzərə alsaq, bu fakt onu göstərir ki, neft satışından əldə edilən gəlirlər bərabər şəkildə bölüşdürülür. Əks halda, yoxsulluğun səviyyəsi nəinki azalmaz, hətta artardı. Biz praktik olaraq, işsizliyin aradan qaldırılması istiqamətində böyük uğurlar qazanmışıq. Son dörd ildə 650 mindən çox iş yeri yaradılmışdır ki, bunların da 450 mindən çoxu daimi iş yerləridir. 8,5 milyon əhalisi olan ölkə üçün bu, kifayət qədər yüksək göstəricidir. İri infrastruktur layihələri reallaşdırılır, bu gün neft strategiyasını uğurla həyata keçirən Azərbaycan öz neftini üç ölkənin - Rusiya, Gürcüstan və Türkiyə ərazisindən keçən üç boru kəməri vasitəsilə ixrac etmək imkanına malikdir. Bundan əlavə, Azərbaycan qazını tarixdə ilk dəfə dünya bazarına çıxaran kəmər inşa edilmişdir.

Sosial sahədə çox şeydən, investisiyalar, səhiyyə, təhsil barədə danışmaq olar. Son 4 ildə 1200 məktəb tikilmiş, onların hamısı kompyuterləşdirilmişdir. Səhiyyəyə, insanları narahat edən digər məsələlərə - infrastruktura, elektrik stansiyalarına, su, qaz kəmərlərinə, ekoloji proqramlara böyük vəsait qoyuruq. Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, onunla bağlı proqram olmasın.

Biz seçkilərə bu nəticələrlə gedirik. Mənim Prezident kimi deməyə, hesabat verməyə sözüm var. Mən verdiyim vədlərin hamısını yerinə yetirmişəm. Onu da deyim ki, bəzi vədlərim kimlərəsə real görünmürdü. Məsələn, 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən deyirdim ki, ölkədə 600 min iş yeri yaradılacaq. Çoxları təəccübləndirdi ki, beş il ərzində bunu etmək necə mümkün olacaq. Biz isə buna nail olduq. Mən demişdim ki, beş ildən sonra ölkəmizdə bir dənə də çadır düşərgəsi qalmayacaqdır. Həmin düşərgələrdə isə on minlərlə insan yaşayırdı. On iki çadır düşərgəsindən axırıncısı bu il ləğv edilmişdir, bütün qaçqın və məcburi köçkünlər yeni evlərə köçürülmüşlər.

Lakin bütün bunlar ötən müddətdə görülmüş işlərdir, bu gün isə biz artıq gələcək haqqında, ölkəmizin beş il sonra necə olacağı barədə fikirləşirik. Biz sadəcə, əhalinin maddi rifahının artırılması vəzifəsini qarşıya qoymuruq, inkişaf etmiş ölkəyə çevrilmək vəzifəsini qarşıya qoyuruq və buna nail olmaqdan ötrü potensial var. Əvvələn, intellektual potensial, ikincisi, iqtisadi potensial. Biz ölkəmizin enerji təhlükəsizliyi məsələsini tam həll etmişik və artıq başqa ölkələrin enerji təhlükəsizliyini də təmin edirik. Ən yaxın illərdə, - əvvəllər bu müddətin 20 il olacağını deyirdik, indi isə 10 il deyə bilərik, - enerji layihələrinin həyata keçirilməsindən yüz milyardlarla dollar gəlir gözləyirik. Bütün bunlar həm iqtisadi, həm də siyasi islahatları həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqelərini möhkəmlətməyə və gələcəyə inamla baxmağa imkan verir. Gələcəkdə biz Azərbaycanı inkişaf etmiş, demokratik dövlət kimi, insanların sülh, qarşılıqlı anlaşma və sosial ədalət şəraitində yaşadığı müasir dövlət kimi görürük. Mən Azərbaycanı belə bir ölkə kimi görmək istəyirəm və buna nail olmaq üçün bizim hər cür imkanımız var. Xalqın iradəsi var, sabitlik var, cəmiyyət və iqtidar arasında birlik var. Əhalinin dəstəyi olmasaydı, bizim proqramların heç biri həyata keçirilə bilməzdi. Ölkəmizdə maliyyə ehtiyatları var, sabitlik var, qonşularımızla yaxşı münasibətlər yaratmışıq, bu da hər bir ölkə üçün vacibdir. Buna görə də mən Azərbaycanın gələcəyinə nikbinliklə baxıram və Azərbaycanın çox parlaq gələcəyinə əminəm.

- Çox maraqlı sual Azərbaycanın NATO-ya inteqrasiyasının mümkünlüyü ilə bağlıdır. Məlumat var ki, Siz Buxarestə, NATO-nun aprel sammitinə gedə bilərsiniz. Ümumiyyətlə, NATO-ya inteqrasiyanın mümkünlüyü mövzusu mövcuddur. Sizin buna münasibətinizi bilmək istərdik.

- Keçmiş SSRİ məkanındakı dövlətlərin bir çoxunun başçıları kimi, mən də NATO-nun Buxarestdə keçiriləcək sammitinə dəvət edilmişəm və orada iştirak etməyə hazırlaşıram. Bildiyimə görə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətlərin başçıları da həmin zirvə toplantısında iştirak etməyi planlaşdırırlar. NATO-nun zirvə toplantısında əvvəllər də iştirak etmişəm və ümumiyyətlə, bu iştirak hansısa ölkənin həmin təşkilatın üzvü olmağa çalışmasının göstəricisi deyildir. Biz NATO ilə kifayət qədər çoxdan əməkdaşlıq edirik. Əvvəllər "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edirdik, indi isə fərdi tərəfdaşlıq planı mərhələsinə keçmişik. Biz Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edirik. Yaxın vaxtlara qədər bizim

sülhməramlı kontingentimiz Kosovoda da iştirak edirdi, lakin həmin regionda siyasi vəziyyət dəyişəndən sonra parlament mənim təqdimatım əsasında sülhməramlı qüvvələrimizin Kosovodan geri çağırılması haqqında qərar qəbul etmişdir. NATO ilə əməkdaşlığımız kifayət qədər müsbət xarakter daşıyır. Bu əməkdaşlıq bizə bu sahədə islahatlar aparmağa imkan verir və əməkdaşlığın bugünkü səviyyəsi bizi qane edir.

Azərbaycan bunu əsas götürür ki, hər hansı təşkilatda üzvlük qarşılıqlı razılıq əsasında həyata keçirilməlidir, biz özümüzü kiməsə zorla qəbul etdirmək fikrində deyilik. Bizim Avropa İttifaqı ilə də əməkdaşlığımız səmərəlidir. Cənubi Qafqazın başqa ölkələri kimi, Azərbaycan da Avropa İttifaqının Yeni qonşuluq siyasəti proqramı çərçivəsində əməkdaşlıq edir. Avropaya inteqrasiya planı baxımından da, əgər bu təşəbbüs Avropa İttifaqı tərəfindən irəli sürülmüş olsa, əlbəttə, biz onu nəzərdən keçirəcəyik. Əks halda, özümüzü zorla qəbul etdirmək fikrində deyilik. Biz öz təhlükəsizliyimizi özümüz təmin edirik, biz həm iqtisadi, həm siyasi və həm də enerji baxımından özümüzü tam təmin edə bilən ölkəyik. Ona görə də biz bunu əsas götürürük ki, münasibətlər bərabərhüquqlu olmalıdır, qarşılıqlı hörmət və qarşılıqlı mənafelər əsasında qurulmalıdır. NATO ilə əməkdaşlığın səviyyəsi hazırda bizi qane edir. Sonra nə olacağını, dünyada hadisələrin necə inkişaf edəcəyini, bizim regionda hansı proseslər gedəcəyini qabaqcadan söyləmək çətindir. Buna görə də bugünkü vəziyyəti əsas götürsək, Azərbaycanın NATO-ya üzvlük məsələsi gündəlikdə deyildir.

- Siz hərbi məsələyə toxundunuz. Azərbaycan Silahlı Qüvvələrinin vəziyyətini necə qiymətləndirirsiniz? Mümkünsə, silah alınması barədə bir qədər məlumat almaq istərdik. Kifayət qədər böyük rəqəm səslənir, hərbi büdcə bir milyard dollara bərabərdir. Mən belə başa düşürəm ki, silah almaq planları elə bir mövzudur ki, o, bütün dünyada diqqəti cəlb edir.

- Bəzən bizim hərbi xərclər Azərbaycan büdcəsinin ümumi xərcləri kontekstindən çıxarılır ki, bu da o qədər də ədalətli yanaşma deyildir. Biz həmişə obyektivliyin tərəfdarıyıq. Deməliyəm ki, son dörd ildə Azərbaycan büdcəsinin xərcləri 10 dəfə artmışdır və bunun özü də nadir göstəricidir. Büdcəmiz 2003-cü ildəki 1 milyard 300 milyon dollardan artaraq, 2008-ci ildə icmal büdcə 12 milyard dollara çatmışdır. Bu ilin yazında biz büdcənin artırılması məsələsinə yenidən baxılması ilə bağlı parlamentə müraciət etməyi planlaşdırırıq. Buna görə də təəccüblü deyil ki, son dörd ildə Azərbaycanın hərbi xərcləri də əhəmiyyətli dərəcədə artmışdır. Sizin dediyiniz 1 milyard dollar 2007-ci ilə aiddir, 2008-ci ildə hərbi xərclər hələlik 1 milyard 300 milyon dollardır, lakin onu artırmağı planlaşdırırıq.

Beləliklə bu, obyektiv prosesdir. Təhsil sahəsində də eyni vəziyyəti müşahidə edirik, təhsilə bir milyard dollar sərf olunur, halbuki dörd il bundan əvvəl bu rəqəm xeyli az idi. Yəni bütün bunlar, təbii ki, ölkənin iqtisadi imkanlarının artması hesabına baş verir. Üstəlik, onu da nəzərə almalıyıq ki, biz Ermənistanla müharibə vəziyyətində yik, torpaqlarımız işğal edilmişdir. On ildən artıq müddətdə apardığımız danışıqlar heç bir nəticə verməmişdir. Əlbəttə, mövqelərin hansısa şəkildə yaxınlaşması baxımından irəliləyiş olmasını söyləyə bilərik, mən heç də demirəm ki, danışıqlar prosesinin imkanları tamamilə tükənmişdir. Müəyyən müsbət məqamlar vardır, bəzi bəndlər üzrə biz irəliləyişə nail olmuşuq. İlk növbədə, Ermənistan başa düşmüşdür ki, Azərbaycanın işğal olunmuş bütün əraziləri azad edilməlidir və bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Düzdür, bəzi erməni siyasətçiləri danışıqlar prosesinin və münaqişənin tam həlli maketinin mahiyyətini təhrif etməyə çalışırlar, lakin bu maket belə olmalıdır: Azərbaycanın işğal edilmiş yeddi rayonu azad olunmalı, bütün qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtmalı və gələcəkdə Dağlıq Qarabağın statusu məsələsi həll edilməlidir. Bu statusun nədən ibarət olacağını isə gələcək göstərəcəkdir. Lakin biz Azərbaycanın ərazi bütövlüyü çərçivəsindən kənarda heç bir statusu qəbul etməyəcəyik. Düşdüyümüz vəziyyət, torpaqlarımızın işğal altında olması, əlbəttə ki, bizi hərbi xərcləri artırmağa məcbur edir və həmin xərcləri artırırıq. Bizim silah aldığımız ölkələr arasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan ölkələr də var. Təbii ki, biz başqa ölkələrdən də texnika və silahlar alırıq. Bu yaxınlarda biz Müdafiə Sənayesi Nazirliyi yaratmışıq və hərbi təyinatlı məhsullar istehsal etməyə başlamışıq və bunu genişləndirəcəyik. Hazırda böyük maliyyə resurslarımızın olması, təbii ki, bizə yeni sahələr yaratmağa imkan verir. Biz metallurgiyada, alüminium sənayesində yeni sahə yaradırıq. Bu məqsədlərə bir neçə milyard dollar sərf ediləcəkdir. Başqa sahələrdə də bu proses başlanmışdır. Biz təhlükəsizliyimizi təmin edəcək güclü hərbi-sənaye kompleksi yaradırıq və yaradacağıq.

- İlham Heydər oğlu, çox sağ olun. Sonuncu sual. Hər halda, mümkünsə, BMT-nin qətnaməsini şərh edərdiniz.

- Biz bu qətnaməni Azərbaycanın növbəti diplomatik və siyasi uğuru hesab edirik. Ən böyük və önəmli beynəlxalq təşkilat olan BMT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməli olduğu prinsipləri bir daha təsdiq etmişdir: ərazi bütövlüyü, Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində doğma yurdlarından qovulmuş bütün qaçqınların və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli. Yəni qətnamə beynəlxalq hüququn bütün norma və prinsiplərinə tamamilə uyğundur və mənim fikrimcə, danışıqlar prosesinin ruhunu, mahiyyətini tam əks etdirir. Biz qətnamənin qəbul olunacağına şübhə etmirdik və çox şadıq ki, o, qəbul edilmişdir. Əlbəttə ki, bizi dəstəkləmiş ölkələrin hamısına minnətdarlığımızı bildiririk. Avropa İttifaqına gəldikdə isə, bizə məlum olduğu kimi, Avropa İttifaqının üzvü olan ölkələr səsvermədə bitərəf qalmaq barədə razılaşdırılmış qərar qəbul etmişdilər. Bu ona görə baş vermişdir ki, Avropa İttifaqı digər məsələlər kimi, xarici siyasətlə bağlı məsələlərdə də yüksək intizama malikdir.

Lakin bizim əleyhimizə səs vermiş ölkələrin mövqeyi təəccüb doğurur. Xüsusən ona görə ki, bu ölkələr arasında Minsk qrupunun həmsədrləri, münaqişənin tənzimlənməsində vasitəçilik edən Fransa, Rusiya və ABŞ da var. Səsvermədən sonra bu ölkələrin rəsmi nümayəndələrinin verdikləri izahatlar müsbət xarakter daşıyır. Həmsədr ölkələr Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləmiş, onlar bir daha bəyan etmişlər ki, Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımırlar. Ümumiyyətlə, bu mövqe, əvvəldən də məlum idi. Lakin biz bu izahatları səsvermədə anlaşılmaz və mənim fikrimcə, düşünülməmiş addım nəticəsində Azərbaycan xalqının qəlbində qalmış xoşagəlməz hissləri bir qədər yumşaltmaq cəhdi hesab edirik. Mən belə hesab edirəm ki, həmin ölkələr vasitəçilər kimi bitərəf mövqe tutmalı idilər. Biz onların qətnamənin lehinə səs verəcəyini gözləmirdik və düşünürdük ki, onlar bitərəf qalacaqlar. Ona görə də indiki vəziyyətdə

danışıqlar prosesinin gələcəyi həm də danışıqlar prosesinə cəlb edilmiş ölkələrlə vasitəçilər arasında etimadın səviyyəsindən asılı olacaqdır. Deməliyəm ki, qətnamənin əleyhinə səs verilməsi etimadı nəinki artırmamış, əksinə, ona ciddi xələl gətirmişdir. Qətnamə layihəsində danışıqlar prosesinin bütün bəndlərinin əks olunmaması kimi izahatlar isə tamamilə əsassızdır, belə ki, BMT-yə təklif olunmuş qətnamədə belə bir bənd var idi ki, biz Minsk qrupunun səylərini, tənzimləmə prinsiplərinə sadiqliyi dəstəkləyirik. Ona görə də bu cür dəlillər əsassızdır, onlar məsələdən xəbərdar olmayan adamlar üçün nəzərdə tutulmuşdur.

Lakin Minsk qrupu danışıqlar prosesinin ruhuna və müzakirə mövzusuna, daha dəqiq desək, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların öz yurdlarına qaytarılması, eləcə də münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələsinə heç vaxt etiraz etməmişdir. Əgər onlar danışıqlar prosesinin detallarını açıqlamaq istəyirlərsə, qoy bunu axıra qədər açıqlasınlar. Dağlıq Qarabağın Azərbaycandan nə vaxtsa, 5 ildən, 10 ildən, 100 ildən sonra, hansısa plebisit yolu ilə və ya hər hansı başqa şəkildə ayrılması məsələsi heç vaxt danışıqların mövzusu olmamışdır və olmayacaqdır.

Səsvermə onu da göstərdi ki, həmsədr ölkələrdən bəziləri BMT-nin üzvləri arasında fəal lobbiçilik edərək və təbliğat apararaq, həmin ölkələri öz tərəflərinə cəlb etməyə çalışsalar da, bu cəhd baş tutmamışdır. Həmsədr ölkələr - dünyanın aparıcı ölkələridir, nüvə dövlətləri, BMT Təhlükəsizlik Şurasının üzvləridir. Kim onların mövqeyini dəstəklədi? Vanuatu? Yaxud Anqola? Bu, dünya ictimaiyyətinin əhval-ruhiyyəsinin göstəricisi, hər halda, dünyada haqq-ədalətin olmasının göstəricisi idi. Buna görə də mən bir daha demək istəyirəm ki, səsvermənin yekunları bizi qane edir. Biz bu mövqedən bircə addım da geri çəkilməyəcək və çalışacağıq ki, danışıqlar prosesi gələcəkdə müsbət məcrada getsin. Lakin əlbəttə, Ermənistanın mövqeyi, Ermənistan rəhbərliyinin sülh prosesinə nə dərəcədə sadiq olacağı məsələsində hələlik bizdə aydınlıq yoxdur. Ermənistan tərəfi qoşunların təmas xəttində vəziyyəti kəskinləşdirməklə dünya ictimaiyyətinin diqqətini bu ölkədə gedən daxili siyasi proseslərdən yayındırmağa cəhd göstərdi, lakin buna nail ola bilmədi. Ona görə də indi biz danışıqlar prosesi barədə müəyyən fikir deyə bilmərik. Çünki biz bilirik ki, indi Ermənistan cəmiyyətində parçalanma baş vermişdir, orada birlik, o cümlədən münaqişənin tənzimlənməsi məsələsi barədə fikir birliyi yoxdur. Belə şəraitdə biz, sadəcə olaraq, orada hadisələrin necə inkişaf edəcəyini və Ermənistanın rəhbərliyinin məsul qərarlar qəbul etməyə nə dərəcədə qadir olacağını müşahidə etməliyik. Lakin mən hesab edirəm ki, bu cür qərarlar qəbul etməyin vaxtıdır. Qarşıdurmanın nəticələrini və hər iki ölkənin inkişaf səviyyəsini nəzərə alsaq, bu qarşıdurmada kimin qalib gəldiyini söyləmək mübahisəli məsələdir.

Müharibə hələ qurtarmayıb, onun birinci mərhələsi başa çatıbdır. Lakin 1994-cü ildən bəri davam edən atəşkəs kimin real müstəqilliyi qoruyub saxlamağa, tərəqqi və inkişaf yoluna qədəm qoymağa nail olduğunu və kimin ölkəni xaosa, vətəndaş müharibəsinə sürüklədiyini, kimin öz xalqının qanını axıtdığını göstərdi. Qan üstündə hakimiyyətə gələnlər, bir qayda olaraq, elə qan tökməklə də hakimiyyətdən gedirlər. Ermənistanda istər seçkilər zamanı, istərsə də seçkilərdən sonra baş verən hadisələr həm də Ermənistanın Azərbaycana münasibətdə təcavüzkar işğalçılıq siyasətinin nəticəsidir. Əgər Qafqazda sülh olsaydı, əgər Ermənistan və Azərbaycan arasında müharibə vəziyyəti olmasaydı, yəqin ki, oradakı hadisələr başqa ssenaridə gedərdi. Hazırda iki ölkə arasındakı fərq bizim xeyrimizə artır. Ermənistanın və Azərbaycanın iqtisadi potensiallarını müqayisə etmək mümkün deyildir. Bu gün bizim iqtisadiyyatımızın həcmi Ermənistan iqtisadiyyatından, ən azı, dörd-beş dəfə böyükdür. Bu gün bizim valyuta ehtiyatlarımız təqribən 8 milyard dollardır və bu il ərzində minimum iki dəfə artacaqdır. Bizim inkişaf perspektivlərimiz var, müvafiq proqramlarımız var, dünya bazarlarına çıxışımız var və özü-özünü təcrid edən ölkə deyilik. Əlbəttə, hər bir ölkə öz yolunu özü seçir. Biz demokratiya yolunu, sosial ədalət, regionda inteqrasiya proseslərinin inkişafı yolunu seçmişik və bu yolla uğurla irəliləyirik. Ermənistan isə təcridçilik, təcavüz, başqasının ərazilərini işğal etmək, beynəlxalq hüququn prinsiplərini pozmaq yolunu, etnik təmizləmə siyasətini seçmişdir. Bunun nəticəsinin nə olduğunu özünüz görürsünüz. Əgər onlar Xocalıda Azərbaycan xalqına qarşı soyqırımı törətmişdilərsə, Yerevanda seçkilərdən sonra erməni xalqının özünə qarşı cinayət törətdilər.

- Müsahibəyə görə çox sağ olun.

- Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA KARATE FEDERASİYASININ PREZİDENTİ ANTONİO ESPİNOSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 20-də Prezident sarayında Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul etmişdir.

Antonio Espinos dövlətimizin başçısı ilə Milli Olimpiya Komitəsinin prezidenti kimi görüşünü məmnunluqla xatırladı. O, ilk dəfə 2003-cü ildə ölkəmizə səfər etdiyini və ötən dövr ərzində bütün sahələrdə, o cümlədən idman sahəsində də böyük nailiyyətlər əldə edildiyini vurğuladı.

Dövlətimizin başçısı ölkəmizdə idmanın sürətlə inkişaf etdiyini, digər idman sahələrinə olduğu kimi, gənc nəslin karateyə də çox böyük maraq göstərdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan idmanının beynəlxalq aləmdə layiqincə təmsil olunduğunu və idmançılarımızın böyük uğurlar qazandığını söylədi. Dövlətimizin başçısı Ümumdünya Karate Federasiyası ilə ölkəmizin müvafiq idman strukturu arasında əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Sonra Antonio Espinos ölkəmizdə idmanın inkişafındakı yüksək xidmətlərinə görə Ümumdünya Karate Federasiyasının fəxri 9-cu Dan dərəcəli diplomunu Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN İLƏ MEKSİKA ARASINDA İKİ MÜHÜM SƏNƏD İMZALANMIŞDIR

Martın 28-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Meksikanın xarici işlər nazirinin müavini xanım Luardes Aranda Beazuri ilə görüşmüşdür.

E.Məmmədyarov Azərbaycanın Latın Amerikası ölkələri ilə əlaqələri inkişaf etdirmək əzmində olduğunu, ölkəmizin Amerika Dövlətləri Təşkilatında müşahidəçi qismində

iştirak etdiyini, Meksika və Kubada diplomatik nümayəndəliklərlə təmsil olunduğunu vurğulamışdır.

Azərbaycanın xarici işlər naziri ölkəmizin Meksika ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu və dövlətlərimiz arasında siyasi məsləhətləşmələrin aparılmasının vacibliyini bildirmişdir.

E.Məmmədyarov qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verərək, bu yaxınlarda BMT Baş Məclisində Dağlıq Qarabağla bağlı qəbul olunmuş qətnaməyə toxunmuşdur. Nazir demişdir ki, bu qətnamə Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq etməklə yanaşı, beynəlxalq ictimaiyyətin diqqətini işğal olunmuş ərazilərdə mövcud vəziyyətə yönəltmiş, işğalın hələ də davam etdiyini təsdiqləmişdir.

Xanım Luardes Aranda Beazuri Meksikanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayaraq, dünya ictimaiyyətinin regiondakı vəziyyət barədə daim məlumatlandırılmasını, beynəlxalq təşkilatlar daxilində birgə əlaqələndirmə işinin zəruriliyini söyləmişdir.

İkitərəfli münasibətlərə toxunan qonaq, Meksikanın fəal xarici siyasət yürütmək məqsədi ilə diplomatik nümayəndəliklərini açacağı prioritet ölkələr sırasında Azərbaycanın da olduğunu bildirmişdir.

O, ölkəsinin yaxın gələcək üçün Azərbaycanda fəxri konsulluq açmaq niyyətində olduğunu, iqtisadi, enerji, kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün geniş imkanlardan istifadə etməyin, bu məqsədlə iş adamlarının görüşlərinin təşkilinin müsbət addım olacağını vurğulamışdır.

Görüşdə Azərbaycan Respublikası və Meksika Birləşmiş Ştatları Xarici İşlər Nazirlikləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu və ölkələrimizin Diplomatik akademiyaları arasında əməkdaşlıq barədə saziş imzalanmışdır.

AZƏRBAYCAN İLƏ MEKSİKA ARASINDA ƏMƏKDAŞLIĞIN BÖYÜK POTENSİALI VARDIR

Martın 28-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov ölkəmizdə səfərdə olan Meksikanın xarici işlər nazirinin müavini xanım Luardes Aranda Beazuri ilə birlikdə brifinq keçirmişdir.

XİN müavinləri səviyyəsində siyasi məsləhətləşmələr aparıldığını deyən Azərbaycan rəsmisi, danışıqlarda enerji, kənd təsərrüfatı, səhiyyə, mədəniyyət və aqrobiznes sahələrində qarşılıqlı əməkdaşlıqla bağlı müzakirələr keçirdiklərini vurğulamışdır.

Nazir müavinlərinin qənaətinə görə, Azərbaycan ilə Meksika arasında əməkdaşlığın böyük potensialı vardır.

X.Xələfov bildirmişdir ki, Meksika rəsmisinin səfəri çərçivəsində iki ölkənin Xarici İşlər nazirlikləri və Diplomatik Akademiyaları arasında əməkdaşlıq barədə müvafiq olaraq memorandum və saziş imzalanmışdır.

Meksikanın xarici işlər nazirinin müavini vurğulamışdır ki, bundan sonra Azərbaycan

ilə Meksika arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin sayı artacaqdır.

Xanım Luardes Aranda Beazuri ölkəsinin Azərbaycan ilə bir çox sahələrdə, xüsusən enerji sahəsində əməkdaşlıq etməkdə maraqlı olduğunu, bu məqsədlə sazişlərin imzalanmasının mümkünlüyünü diqqətə çatdırmışdır.

Meksikalı diplomat ölkəsinin 2009-cu ilin sonunda Azərbaycanda diplomatik nümayəndəlik açmaq istədiyini də demişdir.

Bu səfər çərçivəsində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat aldığını deyən qonaq, Meksikanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulamışdır.

Xanım Luardes Aranda Beazuri ölkəsinin xarici işlər nazirinin azərbaycanlı həmkarını Meksikaya dəvət etməsi barədə məktubunu nazir E.Məmmədyarova çatdırdığını söyləmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ ULRİX FELDHOFU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Prezident sarayında Beynəlxalq Kanoe Federasiyasının prezidenti Ulrix Feldhofu qəbul etmişdir.

Görüşdə Azərbaycanda idmana göstərilən yüksək dövlət qayğısından danışılmış, ölkəmizdə idmanın bütün sahələrinin, o cümlədən kanoe idman növünün də inkişaf etdirildiyi qeyd olunmuşdur. Mingəçevirdəki avarçəkmə təlim-məşq bazasının dünya standartlarına uyğun şəkildə yenidən qurulmasının əhəmiyyəti vurğulanmış, orada bir sıra beynəlxalq yarışların və təlim-məşq toplanışlarının keçirilməsi üçün yaxşı imkanların yaradılacağına əminlik ifadə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ANTİKORRUPSİYA ORQANLARI ASSOSİASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev martın 31-də Prezident sarayında Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə "Xoş gəlmisiniz!".

Mən çox şadam ki, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin iclası Bakıda keçirilir və əminəm ki, iclas çox uğurlu olacaqdır. Sizin təşkilatımız gəncdir. Ancaq qısa müddət ərzində dünyada çox böyük nüfuza malik olan təşkilata çevrilibdir. Mənə verilən məlumata görə, təşkilat 137 ölkəni birləşdirir və dünya miqyasında çox böyük beynəlxalq qurumdur.

Bizim üçün çox sevindirici haldır ki, Azərbaycan nümayəndəsi İcraiyyə Komitəsinin

üzvü və təşkilatın vitse-prezidentidir. Bu, bir tərəfdən, Azərbaycana olan hörmətin əlamətidir, digər tərəfdən, onu göstərir ki, Azərbaycan antikorrupsiya proqramlarının icrası işində çox böyük uğurlara nail olubdur. Bu istiqamətdə ölkəmizdə son illər ərzində çox böyük işlər görülübdür. 2004-cü ildə korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul olunmuş və Dövlət proqramı təsdiq edilmişdir. Azərbaycanda korrupsiyaya qarşı mübarizə üzrə komissiya yaradılmışdır. Komissiya bütün işləri istiqamətləndirir, təhlil edir və bu sahədə daha böyük nailiyyətlərin əldə olunması üçün əməli tədbirlər görür.

Bu sahədə bizim beynəlxalq əməkdaşlığımız da çox uğurla davam edir. Azərbaycan bu istiqamətdə aidiyyəti beynəlxalq təşkilatlarla birgə fəaliyyət göstərir. Bu fəaliyyət və habelə, ilk növbədə, Azərbaycanda bu sahədə görülən işlər nəticəsində son illər ərzində ölkəmizdə korrupsiyanın səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünə ilk qoşulan ölkələrdən biriyik və bu sahədə çox böyük uğurlar əldə etmişik.

Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatının aparıcı seqmenti neft-qaz sahəsidir. Azərbaycan bu sahədə şəffaflığın təmin olunması üçün çox böyük və əhəmiyyətli addımlar atmışdır. Azərbaycanda fəaliyyət göstərən Dövlət Neft Fondu neft satışından əldə olunan bütün gəlirləri cəmləşdirir, onları şəffaf şəkildə saxlayır, vaxtaşırı beynəlxalq audit keçirilir. Neft Fondunun gəlirləri yalnız və yalnız parlamentin qərarı ilə xərclənir.

Azərbaycanın dövlət büdcəsi təsdiq ediləndə, eyni zamanda, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər müəyyən olunur və beləliklə, bütün əhali, bütün Azərbaycan xalqı parlamentdə öz nümayəndələri vasitəsilə bu vəsaitin xərclənməsində iştirak edir. Bu reallıq təkcə bizim sözlərdə, bəyanatlarda deyil, eyni zamanda, beynəlxalq təşkilatların Azərbaycana münasibətində də öz əksini tapır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu şəffaflığın təmin olunmasına görə yüksək mükafatla təltif edibdir. Bu, dediyim sözlərin çox gözəl göstəricisidir. Bununla bərabər, biz onu da etiraf etməliyik və edirik ki, korrupsiyaya qarşı mübarizədə hələ tam şəkildə qələbə çalmamışıq. Ancaq görülən tədbirlər, işlər nəticəsində artıq real, müsbətə doğru dəyişikliklər var və gələcək illərdə biz bu nailiyyətləri daha da möhkəmləndirəcəyik.

Bu sahədə çalışan insanlar kimi, sizə yaxşı məlumdur ki, korrupsiya yaradan müxtəlif amillər var. Əfsuslar olsun ki, bütün postsovet məkanında bu amillər kifayət qədər çox idi. İlk növbədə, bütün postsovet məkanında ölkələr müstəqillik əldə edəndə özəl sektor mövcud deyildi. Beləliklə, korrupsiyanı şərtləndirən planlı dövlət sisteminin gücü tam şəkildə bərqərar olmuşdu. Digər tərəfdən, bütün postsovet ölkələrində yoxsulluq çox böyük səviyyədə idi və bu da öz növbəsində korrupsiyanı şərtləndirən amillərdən biridir. İqtisadiyyata dövlət müdaxiləsi, demək olar ki, yüz faiz təşkil edirdi. Başqa amillər də vardı. Əlbəttə, biz indi görürük ki, coğrafi vəziyyətindən, yaxud da etnik mənsubiyyətindən asılı olmayaraq, bütün postsovet ölkələrində bu problem çox ciddi olmuşdur.

Biz korrupsiyaya qarşı mübarizədə müxtəlif amillərdən istifadə edirik. İlk növbədə, dediyim kimi, bunun üçün güclü qanunvericilik bazası yaradılmışdır, Dövlət proqramı icra olunur, komissiya fəaliyyət göstərir və dövlət tərəfindən korrupsiyaya qarşı mübarizəyə çox böyük diqqət və dəstək var. Digər tərəfdən, inzibati tədbirlər görülür və vəzifədən asılı olmayaraq, korrupsiyaya qurşanmış dövlət məmurları cinayət məsuliyyətinə

cəlb edilirlər. Onların arasında yüksək vəzifəli dövlət məmurları, nazirlər də vardır ki, bu da göstərir ki, bu mübarizədə heç bir ayrı-seçkiliyə yol verilmir. Kim korrupsiya ilə məşğuldursa, vəzifədən asılı olmayaraq, o, cəzalandırılacaq və beləliklə, ədalət zəfər çalacaqdır.

Digər tərəfdən, özəl sektorun inkişafı özlüyündə korrupsiyanın səviyyəsini aşağı endirir. Hazırda Azərbaycan iqtisadiyyatının 80 faizindən çox hissəsi özəl sektorda formalaşır. Dövlət qurumlarının özəl sektora müdaxilə etməməsinə, demək olar ki, ciddi şəkildə nəzarət olunur və bu iş tənzimlənir. Yoxsulluğun azaldılması korrupsiyaya qarşı mübarizəyə çox böyük dəstəkdir və Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur. Son dörd il ərzində Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı 49 faizdən 16 faizə düşübdür. Cəmiyyətdə ictimai nəzarət daha da güclü olmalıdır.

Azərbaycanda bu istiqamətdə böyük işlər görülür, demokratikləşmə prosesi uğurla gedir. Azərbaycanda açıq cəmiyyət formalaşır, iqtisadi və siyasi islahatların icrası nəticəsində biz, eyni zamanda, korrupsiyaya qarşı mübarizədə daha da fəal addımlar atmış oluruq. Beləliklə, demokratiya, liberal iqtisadi islahatlar, güclü ictimai nəzarət, dövlət proqramları, güclü qanunvericilik bazası və cəmiyyətdə korrupsiyaya qarşı mübarizənin fəallaşması - mən əminəm ki, bu amillər gələcək illərdə də Azərbaycanda korrupsiyanın səviyyəsini böyük dərəcədə aşağı salacaq və ölkəmiz daha da uğurla inkişaf edəcəkdir.

Əziz dostlar, bir sözlə, mən bir daha sizi Bakıda ürəkdən salamlayıram. Bir daha demək istəyirəm, çox şadam ki, İcraiyyə Komitəsinin toplantısı məhz Bakıda keçirilir. Mən əminəm ki, iclas çox uğurlu, işgüzar şəraitdə keçəcəkdir. Eyni zamanda, bilirəm ki, bəzilərimiz ilk dəfədir Azərbaycandasınız. Bu, gözəl fürsətdir ki, Bakı ilə, Azərbaycan ilə tanış olasınız və sizin aranızda əməkdaşlıq daha da güclənəcəkdir. Sizi bir daha salamlayıram və sizə xoş arzularımı bildirmək istəyirəm.

Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının prezidenti, Çinin keçmiş Baş prokuroru SZYA ÇUNVAN çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, bizi səmimiyyətlə qəbul etdiyinizə və söylədiyiniz gözəl nitqə görə Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının İcraiyyə Komitəsi adından Sizə minnətdarlığımı bildirirəm. Siz korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycanın son illər ərzində əldə etdiyi nailiyyətlər haqqında geniş məlumat verdiniz. Bu gün səhər nümayəndə heyətimiz ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdi, Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin tarixi haqqında məlumatlandırıldı.

Mən hələ 2003-cü ildə Azərbaycana səfər etmişdim. Bu, mənim Azərbaycana ikinci səfərimdir. Son beş ildə Sizin rəhbərliyiniz altında Azərbaycanın əldə etdiyi böyük nailiyyətləri görməkdən çox şad oldum. 2006-cı ildə yaratdığımız təşkilatın əsas məqsədi BMT-nin korrupsiyaya qarşı Konvensiyasının həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir. Hazırda təşkilatın 130-dan çox üzvü var və onun qərargahı Pekində yerləşir. Çin ilə Azərbaycan arasında dostluq əlaqələri hələ qədim əsrlərdə, Böyük İpək yolu vaxtlarında mövcud idi. Biz arzu edirik ki, iki ölkənin başçılarının rəhbərliyi altında bu münasibətlər gələcəkdə daha da inkişaf etsin.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də NATO-nun sammitində iştirak etmək üçün Rumıniyanın paytaxtı Buxarestə səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də onun üçün ayrılmış iqamətgahda - "Hilton" hotelində ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də onun üçün ayrılmış iqamətgahda - "Hilton" hotelində Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan ilə Gürcüstanın regional əməkdaşlıq çərçivəsində əlaqələrinin genişlənməsindən məmnunluq ifadə olundu.

Dövlət başçıları qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini vurğuladılar.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

Aprelin 2-də Buxarestdə, Viktoriya sarayında Rumıniyanın Baş naziri Kelin Popesku-Teriçanunun adından NATO sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etmişlər.

AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASI DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ NATO BAŞ KATİBİNİN RƏHBƏRLİYİ İLƏ İŞÇİ NAHARI OLMUŞDUR

Aprelin 3-də Buxarestin Parlament binasında NATO-nun sammiti çərçivəsində Avratlantik Tərəfdaşlıq Şurası dövlət və hökumət başçılarının NATO-nun baş katibi Yaap de Hoop Sxefferin rəhbərliyi ilə işçi naharı olmuşdur.

Tədbiri NATO-nun baş katibi Yaap de Hoop Sxeffer açdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafını, ölkəmizin regionda artan rolunu, Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya sahəsində əməkdaşlığının genişlənməsini vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev xatırlatdı ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox soydaşımız öz doğma yurdlarından didərgin düşmüşdür.

Prezident İlham Əliyev bu münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinin mümkünlüyünü vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində, Qara dəniz və Xəzər dənizi hövzələrində əməkdaşlıqda fəal iştirak etdiyini də bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ

Aprelin 3-də Buxarestdə, Parlament binasında Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin görüşü olmuşdur.

Görüşdə iki ölkənin siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin inkişafı vurğulandı. Bildirildi ki, Azərbaycan ilə Latviya Avratlantik strukturlarına inteqrasiya istiqamətində və beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir.

Dövlət başçıları Azərbaycan və Latviyanın Avropanın enerji təhlükəsizliyi sahəsində əməkdaşlığını xüsusi vurğuladılar.

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ (ISAF) TÖHFƏ VERƏN QEYRİ-NATO ÖLKƏLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ƏFQANISTANA DAİR BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 3-də Buxarestdə Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (ISAF) töhfə verən qeyri-NATO ölkələrinin dövlət və hökumət başçılarının Əfqanıstana dair birgə iclası keçirilmişdir.

NATO ölkələrinin dövlət və hökumət başçılarının, habelə Əfqanıstan Prezidenti Həmid Kərzainin, BMT-nin baş katibi Pan Gi Munun, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun, Dünya Bankının və Yaponiya hökuməti nümayəndələrinin də iştirak etdikləri iclası NATO-nun baş katibi Yaap de Hoop Sxeffer açmışdır. O demişdir ki, ötən 7 ildə Əfqanıstan böyük inkişaf yolu keçmiş, ölkədə böyük bərpa və quruculuq işləri aparılmış, təhlükəsizlik gücləndirilmiş, idarəçilik təsisatları möhkəmləndirilmişdir. Əfqanıstanın bu inkişafında indiki iclasda iştirak edən tərəflərin hər birinin payı vardır.

Baş katib vurğulamışdır ki, Əfqanıstanın bu inkişafı ağrısız ötüşməmiş, əfqan xalqı qurbanlar, o cümlədən insan tələfatı vermişdir. Lakin beynəlxalq ictimaiyyət Əfqanıstanın parlaq gələcəyi üçün səylərini davam etdirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etmişdir. Dövlətimizin başçısı ölkəmizin sülhməramlılarının beynəlxalq antiterror əməliyyatlarında fəal iştirakından danışmış, Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasına Azərbaycanın töhfəsini xüsusi vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NATO-NUN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI İLƏ GÖRÜŞLƏRİ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Buxarestdə, NATO-nun sammiti çərçivəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, habelə NATO-nun baş katibi Yaap de Hoop Sxeffer ilə görüşləri olmuşdur.

Görüşlərdə ikitərəfli əlaqələrə və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

Aprelin 3-də Buxarestin "Hilton" mehmanxanasında Rumıniya Prezidenti Trayan Beseskunun adından NATO-nun sammitində iştirak edən dövlət və hökumət başçılarının və onların xanımlarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qəbulda iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 4-də Rumıniya paytaxtında ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmişlər.

Burada dövlətimizin başçısını və xanımını yerli hakimiyyət orqanının rəhbəri qarşıladı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin parkdakı abidəsi önünə gül dəstələri qoydular.

AZƏRBAYCAN VƏ ESTONİYA QARŞILIQLI ƏMƏKDAŞLIĞIN DAHA DA GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR

Azərbaycanda səfərdə olan Estoniya parlamenti sədrinin müavini Kristina Oyuland aprelin 3-də xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevlə görüşmüşdür.

XİN-in mətbuat xidmətindən bildirmişlər ki, görüşdə son illər ərzində Azərbaycan ilə Estoniya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişaf etdiyi, iqtisadi sahədə əməkdaşlığın genişləndiyi və qarşılıqlı səfərlərin artdığı xüsusi qeyd olunmuşdur.

M.Məmmədquliyev Estoniyanın əldə etdiyi uğurları, iqtisadi və demokratiya sahəsin-

dəki islahatları yüksək qiymətləndirmiş, Azərbaycanın Avropa İttifaqına inteqrasiya məsələlərində, xüsusilə qanunvericiliyin uyğunlaşdırılmasında Estoniyanın təcrübəsini öyrənməkdə maraqlı olduğunu bildirmişdir.

Nazir müavini Azərbaycanın Avropa İttifaqı ilə Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığı barədə məlumat vermiş, bu istiqamətdə Estoniya ilə əməkdaşlığın vacibliyini vurğulamışdır.

Xanım K.Oyuland Estoniyanın Avropa İttifaqına inteqrasiya sahəsində təcrübəsini paylaşmağa, nazirliklərarası məsləhətləşmələr aparmağa hazır olduğunu bildirmişdir. O, ikitərəfli əlaqələrin, müqavilə-hüquq bazasının genişləndirilməsi, sərmayə qoyuluşuna dair sazişin imzalanmasının vacibliyini söyləmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların hazırkı vəziyyəti, enerji təhlükəsizliyi, insan hüquqları, demokratiya quruculuğu və qarşılıqlı maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ LİTVA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA XARİCİ SİYASƏTİN PLANLAŞDIRILMASI ÜZRƏ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Aprelin 3-də Bakıda Azərbaycan və Litva Xarici işlər nazirlikləri arasında xarici siyasətin planlaşdırılması üzrə məsləhətləşmələr keçirilmişdir.

Nazirlikdən verilən məlumata görə, tərəflər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin rəisi Tofiq Musayev və Litva XİN-in siyasətin planlaşdırılması idarəsinin rəisi Mindaugas Butkus ilə təmsil olunmuşlar.

Görüşdə qarşılıqlı maraq doğuran beynəlxalq əhəmiyyətli məsələlər müzakirə edilmiş, regional və qlobal xarakterli mövzular barəsində fikir mübadiləsi aparılmış, ölkələrimizin Xarici işlər nazirliklərinin planlaşdırma idarələri arasında dialoqun davam etdirilməsinin zəruriliyi qeyd olunmuşdur.

Həmin gün xarici işlər nazirinin müavini Araz Əzimov litvalı diplomatlar ilə görüşmüşdür.

AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏRDƏ ƏLAMƏTDAR MƏRHƏLƏ

Azərbaycanla Rusiya arasında diplomatik münasibətlər yaradılmasının 16-cı ildönümü münasibətilə aprelin 4-də Rusiyanın İTAR-TASS informasiya agentliyində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovun, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlunun və Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Qriqori Karasin aprelin 4-ü gününü Rusiya-Azərbaycan münasibətləri üçün, həqiqətən, əlamətdar tarix adlandıraraq demişdir: "16 il bundan əvvəl suveren Azərbaycan və su-

veren Rusiya dövlətləri arasında tammiqyaslı diplomatik münasibətlər qurulmuşdur. O vaxtdan bəri çox hadisələr baş vermiş, çox şeyə münasibət dəyişmişdir. Həm Rusiya, həm də Azərbaycan tərəfdaşlıq rejimində, bir-biri ilə məsləhətləşərək ətraf dünya ilə özlərinin qarşılıqlı münasibətlərini necə qurmaq lazım olduğunu müyyənləşdirmişlər". Onun sözlərinə görə, bu iki ölkə sadəcə qonşu deyil, çox böyük ümumi tarixə malik olan qohum dövlətlərdir. Bu tarix Azərbaycan və Rusiya xalqlarının, həqiqətən, qardaş və tərəfdaş olduğunu təsdiq edir.

Diplomatın fikrincə, RF XİN rəhbərinin müavininin fikrincə, qarşılıqlı iqtisadi və mədəni əlaqələr istiqamətində də çox işlər görülmüşdür. Bütün bu işlərin ümumi axarını müəyyən edən isə iki ölkənin liderləri - prezident Vladimir Rutin və son dövrlərdə Prezident İlham Əliyev, ondan əvvəl isə Prezident Heydər Əliyev olmuşdur. Qriqori Karasin demişdir: "Gələcəyə yaxşı ovqatla və nikbin baxmaq üçün hər cür əsasımız var. Əlbəttə, bəzən həyat bizim qarşımızda çətin məsələlər qoyur. Onlar həm geosiyasi problemlərlə, həm də Cənubi Qafqaz regionunun çoxdan həllini gözləyən problemləri ilə bağlıdır. Lakin bu məsələlərin həlli həmişə qarşılıqlı hörmət və qarşılıqlı anlaşma şəraitində baş verir və mən əminəm ki, gələcəkdə də Rusiya-Azərbaycan əlaqələri üçün məhz bu atmosfer səciyyəvi olacaqdır".

Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlər yaradılmasının 16-cı ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirmişdir ki, Azərbaycan Rusiyanı özünün əsas strateji tərəfdaşı, ümumi maraqları dostluq və əməkdaşlıqdan ibarət olan strateji qonşusu hesab edir.

O demişdir: "Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri kimi mən çox şadam ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər günbəgün, ilbəil dərinləşir və möhkəmlənir. Ölkələrimiz həm iqtisadi, həm də sosial baxımdan dinamik inkişaf edir. Mən komissiyanın həmsədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və sərəncamlarını həyata keçirirəm və ikitərəfli münasibətlərimizin daha da inkiaf etməsi və dərinləşməsi üçün lazım olan hər şeyi edəcəyəm".

Səfir Polad Bülbüloğlu iki ölkə arasında əlaqələrin tarixinə qısa nəzər salaraq demişdir ki, xalqlarımız iki yüz ildən artıq bir müddətdə mehriban qonşuluq şəraitində yaşayır və indi bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. O, humanitar əməkdaşlıq sahəsində qarşılıqlı əlaqələrin yüksək səviyyədə olmasını da xüsusi vurğulayaraq xatırlatmışdır ki, Azərbaycan Rusiyanın mühüm rol oynadığı MDB-nin humanitar proqramına qoşulmuşdur.

Polad Bülbüloğlu ikitərəfli və beynəlxalq xarakterli məsələlərdən danışaraq demişdir ki, Azərbaycan bu yaxınlarda BMT Baş Məclisində məlum qətnamənin qəbul edilməsini şəksiz diplomatik qələbə kimi qiymətləndirir. Onun sözlərinə görə, Azərbaycan ATƏT-in Minsk qrupu həmsədrlərinin həmin qətnamənin əleyhinə səs vermələrini düzgün olmayan addım hesab edir, çünki həmsədrlər bu məsələdə bitərəf qalmalı və mövcud reallıqları öz dövlətlərinin başçılarına daha dəqiq çatdırmalı idilər. Nəticədə həmsədrlər öz işlərini mürəkkəbləşdirmişdir və indi Azərbaycan ATƏT-in Minsk qrupunun formatının müxtəlif variantlarını nəzərdən keçirir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN MÜDAFİƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Türkmənistanın müdafiə naziri Ağagəldi Mamedgəldiyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq üçün çox yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla görüşlərini xatırladı, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından bu görüşlərin əhəmiyyətini vurğuladı. O, xalqlarımızın daim dostluq və əməkdaşlıq şəraitində yaşadıqlarını, müstəqilliyimizin hazırkı inkişaf mərhələsində ənənəvi qardaşlıq münasibətlərinin daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Dövlətimizin başçısı ölkələrimizin müdafiə nazirlikləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə xidmət etdiyini vurğuladı.

Türkmənistanın müdafiə naziri Ağagəldi Mamedgəldiyev Prezident Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycanda keçirdikləri görüşləri barədə Prezident İlham Əliyevə məlumat verdi. Qonaq Türkmənistan və Azərbaycanın müdafiə nazirlikləri arasında əməkdaşlığın əlaqələrimizin daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından faydalı olduğunu bildirdi.

Prezident İlham Əliyev Türkmənistan Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında bp şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.

Endryu İnqlis Azərbaycanda əməliyyat işlərinin uğurla həyata keçirildiyini, xüsusilə də ötən qışın sərt keçməsinə baxmayaraq, "Şahdəniz" yatağında hasilatın fasiləsiz davam etdirildiyini və bununla da Azərbaycan əhalisinin qaza olan tələbatının tam şəkildə ödənildiyini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev qışda Azərbaycanda qeyri-adi hava şəraiti olmasına baxmayaraq, "Şahdəniz" yatağında heç bir problemin yaranmadığını, əksinə, işin öhdəsindən uğurla gəlindiyini və əhalinin mavi yanacaqla təmin edildiyini vurğuladı.

Görüşdə bp ilə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, görülən və perspektivdə nəzərdə tutulan işlərlə bağlı fikir mübadiləsi aparıldı, işbirliyinin bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ CƏMİL ÇİÇƏYİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Türkiyə Baş nazirinin müavini, dövlət naziri Cəmil Çiçəyi qəbul etmişdir.

Cəmil Çiçək Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. İkitərəfli münasibətlərin daha da genişlənməsində qarşılıqlı səfərlərin mühüm əhəmiyyət daşıdığı bildirildi və indiki səfərin də əlaqələrin inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Prezident İlham Əliyev Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZADLIQ RADİOSUNUN PREZİDENTİ CEFRİ GEDMİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Prezident sarayında Azadlıq radiosunun prezidenti Cefri Gedmini qəbul etmişdir.

Cefri Gedmin bildirdi ki, Azərbaycana səfərinin əsas məqsədi ölkəmizdə gedən proseslərlə yaxından tanış olmaqdan ibarətdir. Qonaq Azərbaycana səfərinin ilk saatlarından ölkəmizdə dinamizmin və inkişafın şahidi olduğunu vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmizdə bütün sahələrdə çox sürətli inkişaf var və bu iqtisadi inkişaf prosesləri Azərbaycanın bütün bölgələrini əhatə edir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Cefri Gedminin Azərbaycana səfəri ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ DANİEL FEYTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Prezident sarayında ABŞ müdafiə nazirinin Avropa və NATO siyasəti üzrə müşaviri Daniel Feytanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də uğurla inkişaf etdiyini vurğuladı və əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini bildirdi.

Azərbaycana ikinci dəfə səfər etdiyini bildirən Daniel Feyta ötən illər ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu dedi. O, Bakıda keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verərək əmin olduğunu bildirdi ki, ABŞ-la Azərbaycan arasında müdafiə sahəsindəki əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ İLƏ BAĞLI POLŞANIN TUTDUĞU MÖVQE YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR

Aprelin 16-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Polşanın xarici işlər nazirinin müavini Andrey Kremer ilə görüşmüşdür.

Azərbaycan ilə Polşa arasında tarixi əlaqələri xatırladan E.Məmmədyarov siyasi sahədə qarşılıqlı anlaşmanın yüksək səviyyəsindən məmnunluğunu bildirmiş, iqtisadi potensialın genişləndirilməsinin zəruriliyini vurğulamışdır. Nazir Polşanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə prinsipial mövqe nümayiş etdirərək, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirmişdir.

A.Kremer Azərbaycanın regionda Polşanın strateji tərəfdaşı olduğunu diqqətə çatdırmış, bütün istiqamətlərdə təmasların genişləndirilməsinin, nazirliklər arasında əməkdaşlıq haqda memorandum əsasən məsləhətləşmələrin davam etdirilməsinin, digər qurumlar arasında da mübadilələrin aparılmasının vacibliyini vurğulamışdır. O, E.Məmmədyarovu Varşavaya rəsmi səfərə dəvət etmişdir.

Görüşdə Avropaya inteqrasiya sahəsində Polşanın təcrübəsindən yararlanmaq məqsədi ilə birgə müzakirələrin keçirilməsi, "GUAM-ın dostları" qrupunun genişləndirilməsi, təhlükəsizlik sahəsində dialoqun qurulması, qarşılıqlı şəkildə sərmayə qoyuluşu, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

BAKIDA "GUAM DÖVLƏTLƏRİ ƏRAZİSİNDƏ MÜNAQİŞƏLƏRİN HƏLLİNİN PRİNSİPIAL ƏSASLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİİŞDİR

15-16 aprel 2008-ci ildə, Bakıda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən ölkəmizin "Demokratiya və iqtisadi inkişaf naminə-GUAM" təşkilatına sədrliyi çərçivəsində "GUAM dövlətləri ərazisində münaqişələrin həllinin prinsipial əsasları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransın işində GUAM dövlətlərinin, tərəfdaş ölkələrin və digər maraqlı dövlətlərin yüksək nümayəndə və ekspertləri, beynəlxalq hüquq və beynəlxalq münasibətlər sahəsində nüfuzlu xarici mütəxəssislər iştirak etmişlər.

Giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov konfrans iştirakçılarının diqqətini belə bir məqama yönəltmişdir ki, GUAM dövlətlərinin inkişaf və inteqrasiya prosesi ərazilərindəki həll olunmamış münaqişələrə görə mürəkkəbləşmişdir. Azərbaycan XİN-in rəhbəri qeyd etmişdir ki, bu münaqişələr oxşar ssenari üzrə inkişaf etmiş, ilk başlanğıcdan ərazilərin zorla zəbt olunmasına və demoqrafik tərkibin dəyişdirilməsinə yönəlmiş, həmçinin hərbi cinayətlər, bəşəriyyət əleyhinə cinayətlər və soyqırımı kimi çox ciddi beynəlxalq cinayətlərlə müşayiət olunmuşdur.

Azərbaycanın Xarici İşlər Naziri xatırlatmışdır ki, GUAM dövlətləri münaqişələrin nizamlanması üzrə onların ərazi bütövlüyünə, məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qayıtmasına, münaqişələrin əhatə etdiyi ərazilərdə bütün icmalar üçün normal,

təhlükəsiz və bərabər həyat şərtlərinin təminatına və GUAM dövlətlərinin beynəlxalq tanınmış sərhədləri çərçivəsində həmin ərazilərdə effektiv demokratik özünüidarəçilik sisteminin yaradılmasına əsaslanan vahid mövqe formalaşdırmışlar.

Konfransda müzakirələr zamanı Gürcüstan, Moldova, Ukrayna, Polşa, Latviya, Litva, İsveçrə, Sloveniya, Rumıniyanın rəsmi nümayəndələri, GUAM baş katibi Valeri Çeçelaşvili, Avropa Şurasının Parlament Assambleyasının fəxri sədri Piter Şider, BMT-nin Beynəlxalq Hüquq Komissiyasının sədri İen Brounli, GUAM ölkələrinin elmi dairələrinin, o cümlədən Avstriya, Böyük Britaniya, Almaniya, İsrail, Rusiya, ABŞ və Türkiyənin qabaqcıl elmi institutlarının nümayəndələri çıxış etmişlər.

Əsas diqqət beynəlxalq-hüquqi xarakterli bir sıra məsələlərin, o cümlədən dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipləri arasında əlaqə, qeyri-qanuni güc tətbiqi və ərazi mənimsənilməsinin nəticələri, həmçinin beynəlxalq hüquqa zidd hərəkətlərə görə məsuliyyət və beynəlxalq məhkəmə institutlarının imkanlarından yararlanmaq perspektivlərinə ayrılmışdı.

Konfrans iştirakçıları qəti əminliklə bildirmişlər ki, SSRİ dağıldıqdan sonra müvafiq beynəlxalq-hüquqi doktrinal norma (uti possidetis juris) GUAM dövlətlərinin sərhədlərinin beynəlxalq, regional və milli qanuniləşdirilməsinin əsasını qoymuşdur. Bu zaman, Sovet İttifaqının beynəlxalq hüququn subyekti kimi mövcudluğunun xitamı nəticəsində suverenliyin dəyişməsi və GUAM dövlətlərinin elan etdiyi hüquqi varislik, onların müstəqillik əldə edən an mövcud olan və daimi xarakter daşıyan sərhədlərini sarsıda bilməzdi. Birmənalı şəkildə bəyan edildi ki, GUAM dövlətlərinin müstəqillik əldə edilən zaman sonradan separatizm yolunu tutmuş muxtar qurumların da əhatə olunduğu ittifaqdaxili inzibati sərhədləri beynəlxalq sərhədlər hesab olunmağa və beynəlxalq hüquqla, xüsusilə də ərazi bütövlüyü prinsipi ilə qorunmağa başlanmışdır.

Bu şərait nəzərə alınaraq, qeyd olundu ki, həm SSRİ-nin süqutu ərəfəsində, həm də ondan sonrakı dövrdə birtərəfli qaydada ayrılmanı qanuniləşdirmə cəhdləri, o cümlədən öz müstəqilliyini elan etmiş qondarma qurumlarda keçirilmiş "referendum"lar hüquqi qüvvəyə malik deyil və müvafiq olaraq da heç bir hüquqi nəticə doğurmur.

Konfransın işində iştirak edən nüfuzlu ekspertlər ümumi bir fikrə gəlmişlər ki, suveren dövlətin ərazisinin bir hissəsinin birtərəfli qaydada ayrılması beynəlxalq hüquqla yolverilməzdir və tətbiqi sferası və hüdudları dəqiq müəyyənləşmiş beynəlxalq hüququn xalqların öz müqəddəratını təyinetmə prinsipi ilə əlaqələndirilə bilməz.

Konfrans iştirakçıları xüsusilə qeyd etmişlər ki, işğal və separatizm GUAM dövlətləri xalqlarının beynəlxalq tanınmış sərhədlər çərçivəsində öz müqəddəratını təyinetmə hüququnu pozur.

Ekspertlərin qiymətləndirmələrinə əsasən, beynəlxalq hüquq birtərəfli qaydada ayrılmağa cəhd zamanı, onun imperativ normalarının pozulmasına bitərəf qalmayacaqdır. Belə ki, ərazi mənimsənilməsi üçün güc tətbiq edildiyi və ağır beynəlxalq cinayətlərin törədildiyi təqdirdə, beynəlxalq ictimaiyyət bu yolla müstəqilliyini elan etmiş qondarma qurumları tanımamağa borcludur.

Digər tərəfdən, birtərəfli qaydada ayrılmağa cəhd zamanı əsas insan hüquqları və azadlıqlarının kobud şəkildə pozulması, müharibə cinayətlərinin, bəşəriyyət əleyhinə cina-

yətlər və soyqırımının törədilməsi hallarının müvafiq beynəlxalq-hüquqi məsuliyyət doğurması fikri tam dəstək qazanmışdır.

Ermənistan və Azərbaycan arasında münaqişəyə istinadən, konfrans iştirakçılarının diqqətinə Ermənistan tərəfindən Azərbaycanın ərazi toxunulmazlığına qarşı, təcavüz cinayəti kimi qiymətləndirilən güc tətbiqini və Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri üzərində ümumi effektiv hərbi və siyasi nəzarətin həyata keçirildiyini təsdiq edən inandırıcı dəlillər bazasının olduğu çatdırılmışdır.

Təsdiq olunmuşdur ki, bu nəzarət həm Ermənistanın silahlı qüvvələri, həm də onun tərəfindən işğal olunmuş torpaqlarda yaradılmış və yerli idarəçilik funksiyasını yerinə yetirən və işğalçı dövlətin hərbi və digər dəstəyi hesabına fəaliyyət göstərən əlaltı rejim vasitəsilə həyata keçirilir. Bu mövzu üzrə çıxış edən beynəlxalq ekspertlər Ermənistanın işğal olunmuş torpaqlarda öz orqanlarının, səlahiyyətli şəxslərinin və qurumlarının, eləcə də ona tabe olan yerli administrasiyanın beynəlxalq hüquqa zidd hərəkətlərinə görə məsuliyyət daşıdığına aydınlıq gətirmişlər.

GUAM dövlətləri ərazilərində münaqişələr zamanı törədilmiş daha ağır beynəlxalq cinayətlərlə əlaqədar, konfrans iştirakçıları təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün ölçülərin götürülməsinin zəruriliyi haqda fikir bildirmişlər. Bununla bağlı, ad hoc beynəlxalq tribunallarının və ya beynəlxalq iştirakın təmin edildiyi xüsusi milli məhkəmə orqanlarının yaradılması imkanlarının öyrənilməsi tövsiyə edilmişdir.

Konfrans iştirakçıları GUAM dövlətlərinin münaqişələrin nizamlanması və onların nəticələrinin aradan qaldırılması səyləri ilə həmrəy olduqlarını bildirmiş, həmçinin bununla əlaqədar, davamlı sülhün, təhlükəsizliyin, qanunun aliliyinin və davamlı inkişafın əldə olunmasına yönəlmiş hərtərəfli və əsaslı strategiyanın işlənib hazırlanmasının zəruriliyini vurğulamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "SABANÇI HOLDİNQ" ŞİRKƏTİNİN RƏHBƏRLƏRİNDƏN BİRİ VƏ MÜŞAHİDƏ ŞURASININ ÜZVÜ ÖMƏR SABANÇINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Prezident sarayında Türkiyənin "Sabançı Holdinq" şirkətinin rəhbərlərindən biri və Müşahidə Şurasının üzvü Ömər Sabançını qəbul etmişdir.

Azərbaycana ilk dəfə səfərə gəldiyini deyən Ömər Sabançı vurğuladı ki, Prezident İlham Əliyev tərəfindən qəbul olunması dövlət başçısının iş adamlarına və özəl sektora göstərdiyi böyük diqqətin təzahürüdür. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf proseslərini Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyini vurğulayan qonaq bildirdi ki, Türkiyənin iş adamları Azərbaycan Prezidentinin bu sahədə uğurlu fəaliyyətini diqqətlə izləyirlər.

Prezident İlham Əliyev dünyanın aparıcı enerji şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətini vurğuladı və dövlətimizin qeyri-neft sektoruna da böyük əhəmiyyət verdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin iş adamlarının səmərəli əməkdaşlığının bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini söylədi.

KİYEVDƏ QİƏT ÜZVÜ OLAN ÖLKƏLƏRİN XİN BAŞÇILARININ İCLASI BAŞA ÇATMIŞDIR

Aprelin 17-də Kiyevdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 18-ci iclası olmuşdur. İclasda ölkəmizi Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil etmişdir.

İclasın sonunda keçirilmiş mətbuat konfransında təşkilatın baş katibi Leonidas Xrizantopulos bildirmişdir ki, Ukrayna QİƏT-də uğurla sədrlik etmişdir. Onun fikrincə, Ukraynanın əsas uğurlarından biri QİƏT-in Avropa İttifaqına yaxınlaşmasıdır. Bu gün Ukraynа sədrlik estafetini Albaniyaya vermişdir.

Baş katib daha sonra bildirmişdir ki, təşkilatın bu gün qəbul edilmiş büdcəsi 2009-cu il yanvarın 1-dən etibarən qüvvəyə minəcəkdir. Bu büdcədə hesablaşma valyutası avro olacaqdır.

Ukraynanın xarici işlər naziri Vladimir Oqrızko qeyd etmişdir ki, Ukrayna QİƏT-də sədrlik etdiyi 6 ay müddətində nəzərdə tutulan planları reallaşdırmağa nail olmuşdur. O xatırlatmışdır ki, bu müddətdə nəqliyyat, energetika sahələrində, gömrük idarələri arasında, təhsil, texnologiyalar, kiçik və orta biznes sahəsində əməkdaşlıq fəallaşmışdır. Avropa İttifaqı ilə əməkdaşlığa xüsusi əhəmiyyət verilmişdir.

Başqa ölkələr də əməkdaşlığın müxtəlif sahələrində təşkilata qoşulmaq arzusunda olduqlarını bildirmişlər. Bu gün Böyük Britaniya QİƏT-in tərəfdaşı statusu almışdır.

QİƏT-in baş katibi Leonidas Xrizantopulos qeyd etmişdir ki, indi Böyük Britaniya müxtəlif sahələrin inkişafına həsr edilmiş görüşlərdə iştirak edə biləcəkdir. Baş katib Yaponiyaya müşahidəçi statusu verilməsi barədə sualın cavabında bildirmişdir ki, bu məsələ ən yaxın vaxtlarda həll ediləcəkdir.

TEHRANDA XƏZƏRİN HÜQUQİ STATUSUNA DAİR NÖVBƏTİ MÜZAKİRƏLƏR BAŞA ÇATMIŞDIR

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi haqqında konvensiya layihəsi mətninin tərtib olunması üzrə İşçi Qrupun Tehranda keçirilən 22-ci iclası başa çatmışdır.

İki gün davam edən iclasda Azərbaycanı xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti təmsil etmişdir.

İclasın yekun sənədində deyilir ki, iclasda layihə ilə bağlı bir sıra razılaşmalar əldə edilmişdir. Eyni zamanda, İşçi Qrupun 23-cü iclasının Bakıda keçirilməsi nəzərdə tutulmuşdur. İclasın vaxtının müəyyən edilməsi Xəzəryanı ölkələrin diplomatik nümayəndəliklərinə həvalə edilmişdir.

X.Xələfov səfər çərçivəsində İranın yol və daşınmalar naziri Boxarayi və xarici işlər nazirinin birinci müavini Şeyx Əttar ilə görüşmüşdür. Görüşlərdə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinə, TRASEKA proqramına və Azərbaycan-İran münasibətlərinə dair məsələlər müzakirə olunmuşdur.

Qərara alınmışdır ki, Azərbaycan-İran sərhədində Astara çayı üstündə avtomobil və dəmir yolu körpülərinin tikintisinin layihələşdirilməsi üçün yaxın vaxtlarda hər iki ölkənin ekspertlərinin görüşü təşkil edilsin.

Azərbaycanın İrandakı səfiri Abbasəli Həsənov iclasda və görüşlərdə iştirak etmişdir.

AZƏRBAYCAN XİN-İN BAŞÇISI SOFİYADA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ ETMİŞDİR

Bolqarıstanda ikigünlük rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bu ölkənin rəhbərliyi ilə görüşlərində ikitərəfli əməkdaşlıq məsələlərinin geniş spektrini müzakirə etmişdir. Danışıqların əsas mövzusu enerji sahəsində, o cümlədən Xəzər regionundan Avropaya qaz nəqlini nəzərdə tutan Nabukko layihəsində iki ölkənin qarşılıqlı fəaliyyəti məsələləri olmuşdur.

Elmar Məmmədyarov aprelin 18-də bu ölkənin parlamentinin sədri Georgi Pirinski ilə görüşmüşdür.

G.Pirinski Bolqarıstanın və Azərbaycanın parlamentləri arasında sıx əlaqələrin olduğunu bildirmiş, dostluq qruplarının fəaliyyətinin artırılmasının vacibliyini vurğulamışdır.

E.Məmmədyarov Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın problemin həlli ilə bağlı ədalətli mövqeyi, Azərbaycanın Avropaya inteqrasiya siyasəti haqqında ətraflı məlumat vermişdir.

Görüşdə yüksək səviyyəli dövlət və hökumət rəsmilərinin qarşılıqlı səfərləri məsələsi də müzakirə edilmişdir.

E.Məmmədyarov Bolqarıstan Baş nazirinin müavini, xarici işlər naziri İvaylo Kalfin ilə də görüşmüşdür.

Bolqarıstanın xarici işlər naziri ölkələrimiz arasında siyasi əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirmiş, enerji və nəqliyyat sahələrinin prioritet təşkil etdiyini vurğulamışdır.

E.Məmmədyarov həmkarını Azərbaycana dəvət etmiş, qeyri-neft sektorunda, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın vacibliyini qeyd etmişdir.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan E.Məmmədyarov, münaqişənin regional təhlükəsizlik üçün ən böyük təhlükə olduğunu söyləmş, problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması ilə bağlı Bolqarıstanın mövqeyinə görə təşəkkürünü bildirmişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Bolqarıstanın GUAM-ın Avropa İttifaqında dostları təşəbbüsünə qoşulmasını təklif etmişdir.

İ.Kalfin Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlıq üçün imkanların olduğunu bildirmiş və konkret layihələrin müzakirə olunmasını təklif etmişdir. Tərəflər, həmçinin NATO ilə əməkdaşlıq, regional sabitlik, beynəlxalq təhlükəsizlik, humanitar, iqtisadi və digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Sonda Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələrə dair memorandum imzalanmış, birgə mətbuat konfransı keçirilmişdir.

Nazir E.Məmmədyarovun Prezident Georgi Pırvanovla görüşündə vurğulanmışdır ki, Bolqarıstan ilə Azərbaycanın əməkdaşlığı strateji xarakter daşıyır və bu əməkdaşlıq təkcə energetika sahəsində deyil, digər sahələrdə də genişləndirilməlidir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN BAŞ NAZİRİ GEDİMİNAS KİRKİLASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Litva Respublikasının Baş naziri Gediminas Kirkilasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Litva arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi. Qarşılıqlı dövlət səfərlərinin əhəmiyyətindən danışan Prezident İlham Əliyev münasibətlərin daha da genişləndirilməsində bunların rolunu xüsusi vurğuladı. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı iqtisadi münasibətləri inkişaf etdirmək, qarşılıqlı ticarət dövriyyəsini artırmaq üçün də yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Litva Baş nazirinin ölkəmizə bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Baş nazir Gediminas Kirkilas Litva ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. O, Vilnüsdə keçirilən enerji sammitində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışının ən parlaq və yaddaqalan olduğunu xatırlatdı. Ölkəmizin iqtisadi inkişafının qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi üçün yeni imkanlar yaratdığını deyən qonaq Azərbaycanın inkişaf strategiyasında ümummilli lider Heydər Əliyevin xüsusi rolunu vurğuladı. Baş nazir ikitərəfli əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-NİN PREZİDENTİ KİRSAN İLYUMJİNOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Rusiya Federasiyasının Kalmıkiya Respublikasının Prezidenti, FİDE-nin prezidenti Kirsan İlyumjinovu qəbul etmişdir.

Dövlətimizin başçısı şahmat üzrə mötəbər turnirin Azərbaycanda ilk dəfə keçirilməsindən və tanınmış şahmatçıların bu turnirdə iştirakından məmnunluğunu ifadə etdi. Ölkəmizdə şahmatın inkişafından danışan Prezident İlham Əliyev şahmatçılarımızın, xüsusilə uşaq və gənclərin bu sahədə yaxşı nəticələr əldə etdiklərini dedi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş FİDE-nin Qran-pri turnirinin ölkəmizdə keçirilməsi Azərbaycanda şahmatın daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəkdir.

Kirsan İlyumjinov Qran-pri turnirinin əhəmiyyətini qeyd etdi, tədbirin yüksək səviyyə-

də təşkil olunduğunu bildirdi. Qonaq Azərbaycanda idmanın bütün sahələrinin, o cümlədən şahmatın inkişafına yüksək dövlət qayğısının göstərildiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QUGENHAYM FONDUNUN DİREKTORU TOMAS KRENSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Prezident sarayında muzey işinin təşkilində zəngin dünya təcrübəsi olan tanınmış Qugenhaym Fondunun direktoru Tomas Krensi qəbul etmişdir.

Görüşdə sürətli iqtisadi inkişaf dövrünü yaşayan Azərbaycanda milli mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində böyük işlərin görüldüyü vurğulandı. Söhbət zamanı Bakıda Müasir İncəsənət Muzeyinin yaradılması ilə bağlı da fikir mübadiləsi aparıldı, Qugenhaym Fondu ilə əməkdaşlığın Azərbaycanda muzey işinin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ RUBEN CEFRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Prezident sarayında ABŞ dövlət katibinin iqtisadiyyat, energetika və kənd təsərrüfatı məsələləri üzrə müavini Ruben Cefrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, ABŞ dövlət katibi müavininin səfəri Azərbaycan-ABŞ ikitərəfli münasibətlərini, o cümlədən iqtisadi sahədə əməkdaşlığın hazırki vəziyyətini və perspektivlərini, regional məsələləri müzakirə etmək üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini söylədi.

Ruben Cefri Azərbaycana səfərinin məqsədinin iqtisadiyyatın müxtəlif sahələrini və strukturlarını təmsil edən nümayəndələrlə görüşlər və müzakirələr aparmaqdan ibarət olduğunu vurğuladı. Azərbaycana səfərinin əhəmiyyətindən danışan qonaq ölkələrimizin iqtisadi əməkdaşlığının daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi.

Görüşdə Azərbaycanla ABŞ arasında iqtisadiyyat, energetika və kənd təsərrüfatı sahələrində ikitərəfli əməkdaşlığın inkişafı ilə bağlı, habelə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Aprelin 23-də Moldova Respublikasının Prezidenti Vladimir Voronin Azərbaycana rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 23-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin təkbətək görüşü olmuşdur.

Görüşdə iki dövlət arasında siyasi, iqtisadi və humanitar sahələrdə fəal inkişaf etməkdə olan əlaqələrin yüksək səviyyəsi vurğulandı, tərəflər əməkdaşlığın daha da genişlənəcəyinə ümidvar olduqlarını bildirdilər.

Dövlət başçıları ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini vurğuladılar, regional əməkdaşlığın perspektivlərini və qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə etdilər.

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Aprelin 23-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Hörmətli Vladimir Nikolayeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamağa ürəkdən şadam. Xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və ümid edirik ki, bu səfərin nəticələri dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Ölkələrimiz arasında tərəfdaşlıq münasibətləri yaranmışdır. Biz müxtəlif sahələrdə fəal əməkdaşlıq edirik və fəal siyasi dialoqu iqtisadi sahədə ciddi irəliləyişlərlə dolğunlaşdırmaq istəyirik. Bu gün biz Sizinlə qarşılıqlı əlaqələrimizin perspektivlərini necə təsəvvür etməyimizin ümumi konturlarını müzakirə etdik. Fikrimcə, müvafiq nazirliklərin rəhbərləri bu məqamları indiki səfər çərçivəsində konkretləşdirəcəklər və biz artıq fəal qarşılıqlı iqtisadi əlaqələrin ciddi perspektivlərini müəyyən edəcəyik.

Mən Sizin ilk səfərinizi xatırlayıram. O səfər çox uğurlu oldu və əslində ölkələrimiz arasında yeni münasibətlərin əsasını qoydu. Həmin səfərdən çox vaxt keçmişdir. Mən Sizin ölkənizdə olmuşam, artıq səfirliklər açılmışdır və yetərli, - o cümlədən beynəlxalq qurumlarda, - qarşılıqlı əlaqələr və fəal əməkdaşlıq mövcuddur.

Biz dostumuz kimi Sizə çox hörmət bəsləyirik, Sizi görməyimizə çox şadıq. İnanıram ki, səfər həm faydalı, həm də xoşagələn olacaq, münasibətlərimizin daha da inkişaf etməsinə güclü təkan verəcəkdir.

Bir daha xoş gəlmisiniz.

Moldova Prezidenti VLADİMİR VORONİN təşəkkür edərək dedi:

- İlham Heydər oğlu, bizi yenidən ölkənizə gəlməyə dəvət etdiyiniz üçün sağ olun, bəri başdan özümün və hökumətdən olan səfər yoldaşlarımın təəssüratlarını bildirmək istəyirəm. Biz sanki başqa bir Bakı şəhərinə gəlmişik. Hava limanında "Bakı" adını görməsəydim, inanmazdım ki, mənim 2004-cü ildə olduğum Bakı şəhərinə gəlib çıxmışıq. Bu, tamamilə yeni şəhərdir. Buraya, iqamətgaha gələnə qədər bir küçəni gördüyümüzə baxmayaraq, dövlətinizin paytaxtının necə inkişaf etməsi, yenidən qurulması, modernləşməsi mənə çox güclü təsir bağışlamışdır. Mən sadəcə olaraq, Sizin uğurlarınıza görə sevinirəm və bu nəticəyə görə, Bakıda aparılan bu işlərə görə Sizi təbrik edirəm.

MDB-nin axırıncı sammitində söhbətlərimiz mənim yadımdadır, bu səfərimin həyata keçirilməsi barədə o vaxt razılığa gəldik. Bizim ölkələr arasında yaranmış münasibətlər onları konkret məzmunla - iqtisadi, sosial və başqa sahələrdə layihələrin həyata keçirilməsi ilə dolğunlaşdırmağa imkan verir. Bizim fəaliyyətimiz 50-dən çox ikitərəfli saziş əsasında formalaşır və təşkil olunur. İndi bu sazişlərin bəhrəsini görmək qalır. Düşünürəm ki, bu səfərə mənimlə gəlmiş heyət bu nəticələrə nail olmaq, ticarət-iqtisadi əməkdaşlığın yaxşılaşdırılması, investisiya layihələrinin həyata keçirilməsi yollarını axtarıb tapmaq əzmindədir.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Aprelin 23-də Azərbaycan Prezidenti İlham Əliyevin və Moldova Prezidenti Vladimir Voroninin geniş tərkibdə görüşü başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Vladimir Nikolayeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən Moldova Prezidentini bir daha Azərbaycanda salamlamaq və bu gün aparılmış danışıqlardan dərin məmnunluğumu bildirmək istərdim.

Ölkələrimiz arasında dialoq çox uğurla davam edir, getdikcə yeni sahələri əhatə edir. Bizim ölkələr dost ölkələrdir, tərəfdaş ölkələrdir və biz geniş əhatəli məsələlər üzrə fəal qarşılıqlı əlaqə saxlayırıq. Siyasi dialoq çox fəaldır. Bu gün biz ikitərəfli münasibətlərə aid məsələləri, regional məsələləri müzakirə etdik. İqtisadi əlaqələrin intensivləşdirilməsinin zəruri olması xüsusi vurğulandı. Bu istiqamətdə böyük potensial imkanlar var. Biz energetika sahəsində əməkdaşlıq məsələlərini və investisiya layihələrinin mümkünlüyünü müzakirə etdik.

Humanitar sahədə əməkdaşlığa böyük diqqət yetirildi. Bildiyiniz kimi, bu gün Azərbaycanda Moldova mədəniyyəti günləri açılır. Əminəm ki, bu günlər ərzində ölkəmizin vətəndaşları Moldovanın bənzərsiz mədəniyyəti və incəsənəti ilə yaxından tanış ola biləcəklər.

Bütövlükdə bizim münasibətlərimizi tərəfdaşlıq münasibətləri, çox yaxın münasibətlər

kimi səciyyələndirmək olar və bu, bizi çox sevindirir. Moldova Prezidentinin Azərbaycana səfəri əlaqələrimizin inkişafına yeni impuls, yeni təkan verir. Bizim çox güclü müqavilə - hüquqi bazamız var, qarşılıqlı iqtisadi əlaqələri fəallaşdırmaq, əmtəə dövriyyəsini artırmaq və birlikdə həyata keçirə biləcəyimiz konkret layihələri çox ətraflı şəkildə nəzərdən keçirmək arzumuz var.

Biz ölkələrimizdə mövcud olan münaqişələrin tənzimlənməsi məsələlərini də müzakirə etdik və əlbəttə, hər iki tərəf eyni fikirdədir ki, bu münaqişələr ölkələrimizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Biz çox şadıq ki, dünya birliyi bizim mövqelərimizi dəstəkləyir. Münaqişələrin həlli regional əməkdaşlığa daha böyük təkan verəcək, potensial separatizm təhlükəsi mənbələrini aradan qaldırmağa və regionda qarşılıqlı əlaqələri daha geniş əsasda sahmana salmağa imkan verəcəkdir.

Bir çox məsələlərdə bizim mövqelərimiz üst-üstə düşür. Bu gün mən işğal edilmiş ərazilərdə vəziyyət barədə məsələ ilə əlaqədar BMT-nin Baş Məclisində Moldova Azərbaycanın mövqeyini dəstəklədiyinə görə Vladimir Nikolayeviçə xüsusi minnətdarlığımı bildirdim. Bildiyiniz kimi, Baş Məclis Azərbaycanı dəstəkləmiş və bizim təklif etdiyimiz qətnaməni qəbul etmişdir. Bizi fəal surətdə dəstəkləyən və öz prinsipial mövqeyini ifadə edən ölkələr arasında dost Moldova da var idi. Biz bunu çox yüksək qiymətləndirir və prinsipial mövqeyin, prinsipial xarici siyasət xəttinin təzahürü, eləcə də bizi birləşdirən yaxın dostluq əlaqələrinin ifadəsi hesab edirik.

Mən əminəm ki, uğurla başlanmış bu səfər uğurla da davam edəcək və münasibətlərimizin gələcək inkişafına güclü təkan verəcəkdir.

Diqqətinizə görə sağ olun.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Biz bu səfər barədə dəvəti məmnunluq və razılıqla qəbul etdik. Mən Prezident olduğum müddətdə artıq ikinci dəfədir ki, sizin ölkəyə rəsmi səfər edirəm. Bəri başdan demək istəyirəm ki, sizin paytaxtınızda - Bakı şəhərində gedən yenidənqurma və tikinti işlərinin vüsəti məni sadəcə olaraq heyran etmişdir. Hətta əvvəlcə fikirləşdim ki, deyəsən, başqa şəhərə gəlmişəm. Bu uğurlar məni çox sevindirir. Azərbaycan Prezidenti ilə söhbət zamanı, onunla fikir mübadiləsi edərkən başa düşdüm ki, indi bu cür yenidənqurma, modernləşmə prosesi bütün ölkədə gedir. Bu məni daha çox sevindirdi.

Bizim ortaq tariximiz, bir ölkədə yaşadığımız vaxtlar olmuşdur, biz Sovet İttifaqı xalqlarının qardaşlıq ailəsində birgə inkişaf etmişik, müstəqil, suveren dövlətlər kimi inkişafın yeni mərhələsinin başlanğıcı da bizim üçün ümumi tarixdir. Bu mərhələdə biz çox şeyləri yenidən dərk etməliyik, görülməli işlər olduqca çoxdur. Lakin son bir neçə ildə Azərbaycanın necə sürətlə inkişaf etməsini, Prezident İlham Əliyevin problemlərə münasibətini, onun xalqın həyat səviyyəsini yaxşılaşdırmaq üçün qarşıya qoyduğu məqsədləri nəzərə alaraq düşünürəm ki, siz lap yaxın vaxtlarda dünyanın ən inkişaf etmiş dövlətləri səviyyəsinə çatacaqsınız. İlham Heydər oğlu, mən buna ürəkdən sevinirəm

və bu məqsədlərin, bu vəzifələrin həyata keçirilməsində Sizə uğurlar arzulayıram.

Azərbaycan Prezidentinin dediyi kimi, ölkələrimiz arasında münasibətlər həqiqətən dinamik şəkildə, yüksələn xətt üzrə inkişaf edir. Bizim ticarət-iqtisadi sahədə, investisiya siyasətində, ölkələrimizin mövcud resurslarının birgə mənimsənilməsində qarşılıqlı əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə çatdırmağa imkan verən çox sanballı ikitərəfli müqavilələr və sazişlər paketimiz var. Bu gün Azərbaycan Prezidenti ilə bu barədə danışmışıq. Fikrimcə, bu layihələrin həyata keçirilməsi ölkələrimizin bir-birinə daha çox yaxınlaşmasına, dostluq tellərini, qərarlaşmış tarixi münasibətlərimizi daha da möhkəmləndirməyə imkan verəcəkdir.

Sizin artıq qeyd etdiyiniz kimi, biz sizinlə Avropanın müxtəlif qurumları çərçivəsində, Birləşmiş Millətlər Təşkilatında qarşılıqlı əlaqədə fəaliyyət göstəririk. Biz MDB çərçivəsində fəaliyyətə böyük töhfə veririk və burada hər dəfə Azərbaycanın güclü səsini eşidirik. Biz bir sıra məsələləri bir-birimizlə razılaşdırırıq, birgə inkişaf məsələlərində MDB üzrə o biri həmkarlarımızın dəstəyini hiss edirik.

İkitərəfli münasibətlər məsələsinə qayıdaraq demək istəyirəm ki, biz, əlbəttə, sizin ölkənizə daha çox yaxınlaşmaq, bir çox perspektivli layihələrdə iştirak etmək istəyirik. Bu gün biz məsafələrin qət edilməsinin ən sürətli üsulu olan aviasiya məsələsini də müzakirə etmişik. Zənnimcə, Kişinyov ilə Bakı arasında hava xətti açsaq, bu, düzgün addım olar. Bir çox başqa məsələləri, o cümlədən nümayəndə heyətlərimizin üzvləri, bizim nazirlər tərəfindən imzalanacaq sazişləri də müzakirə etmişik. Onlar ən geci bir aydan - ay yarımdan sonra bizim iqtisadiyyatların gələcək inteqrasiyası ilə bağlı məsələlərin reallaşdırılması üzrə hökumətlərarası komissiyanın tamformatlı iclasının hazırlanması və keçirilməsi üçün öz aralarında razılığa gələcək və müvafiq məsələləri ikitərəfli səviyyədə həll edəcəklər.

Sizdə sosial proqramların həyata keçirilməsi, məktəblərin inkişafı barədə eşitdiklərimiz də bizə güclü təsir bağışladı. Özü də təkcə onların inkişafından deyil, internetin və digər qabaqcıl texnologiyaların köməyi ilə ən müasir tədris proseslərinə inteqrasiyadan söhbət gedir. Sizin infrastruktur təminatı məsələlərini çox ciddi həll etməyiniz bizə güclü təsir bağışladı. Ölkəniz başdan-başa qazlaşdırılmışdır, su təchizatı məsələləri ciddi surətdə həll edilir. Mən bunları ona görə təkrar edirəm ki, bizim də bu sahədə çətinliklərimiz var və onları aradan qaldırmaq istəyirik.

Əlbəttə, ola bilər ki, həmin çətinlikləri aradan qaldırmağa imkanımız yoxdur, lakin biz bunda çox israrlıyıq. Buna görə də ümid edirik ki, fikir mübadiləsi nəticəsində, qarşılıqlı surətdə razılaşdırılmış müəyyən investisiya proqramlarının həyata keçirilməsi nəticəsində biz sizin köməyinizlə bu çətinlikləri daha tez aradan qaldıra, bu məsələləri həll edə bilərik.

İlham Heydər oğlu, mən söhbətlərimizdən razıyam və istərdim ki, işinizin çoxluğuna, Azərbaycanın Prezidenti kimi qarşınızda duran problemlərin çox olmasına baxmayaraq, Siz imkan tapıb Moldovaya səfər edəsiniz. Orada da müəyyən dəyişikliklər baş vermisdir, ola bilsin ki, sizdəki qədər əsaslı olmasa da, bəzi şeylər dəyişir, özü də yaxşılığa doğru dəyişir. Biz bütün bunları Sizə göstərmək imkanından şad olardıq.

AZƏRBAYCANDA MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI

Aprelin 23-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Moldova mədəniyyəti günlərinin təntənəli açılış mərasimi olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi, onun xanımı Mehriban Əliyevanı və Moldova Prezidenti Vladimir Voronini gurultulu alqışlarla qarşıladılar.

Moldovanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Aparıcılar dövlət başçılarını və mərasim iştirakçılarını salamlayaraq vurğuladılar ki. Moldova və Azərbaycan xalqları arasında əlaqələrin çoxəsrlik tarixi var. Bu əlaqələr heç vaxt qırılmamış, iki ölkə xalqlarının mədəniyyətləri daim təmasda olmuş, bir-birinə qarşılıqlı təsir göstərmiş və qarşılıqlı surətdə zənginləşmişdir. Moldova incəsənət ustalarının bir çoxunun yaradıcılığı azərbaycanlılara yaxşı tanışdır. Eyni zamanda, Azərbaycanın bir çox musiqiçi, yazıçı və şairlərinin yaradıcılığı moldovalılar üçün əziz, onlara yaxındır.

Sonra Moldova incəsənət ustalarının qala-konserti oldu. Tamaşaçılar SSRİ və Moldova Respublikasının xalq artisti Vladimir Kurbetin rəhbərliyi ilə "Jok" Dövlət milli akademik xalq rəqs ansamblının, "Catharsis" duetinin, "Concertino" akkordeonçular ansamblının, Advaxov qardaşlarının rəhbərlik etdiyi orkestrin, Moldovanın tanınmış musiqiçi və müğənnilərindən Viktoriya Lunqu, Konstantin Moskoviç, Natalya Qordiyenko, Mixail Muntyanu və Marin Gerasın çıxışlarını böyük maraqla qarşıladılar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 23-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Moldova Respublikasının Prezidenti Vladimir Voroninin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Vladimir Nikolayeviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

İndi biz Moldova incəsənət ustalarının konsertindən aldığımız dərin təəssürat içindəyik. Onlar Azərbaycanda Moldova mədəniyyəti günlərinin açılışında yüksək ustalıq nümayiş etdirdilər. Sizin ölkənin, Sizin xalqın qədim mədəniyyəti ilə ünsiyyətdə olmaq bizə böyük zövq verdi.

Bu gün, Azərbaycana rəsmi səfərinizin ilk günündə mən Sizi bir daha salamlamaq, başlanmış səfərin nəticələrindən dərin məmnunluq duyduğumu bildirmək istəyirəm. Ümidvaram ki, sabahkı gün də bugünkü kimi uğurlu olacaqdır.

Bu gün biz qarşılıqlı maraq doğuran regional məsələləri, iqtisadi əməkdaşlıq, siyasi qarşılıqlı əlaqələr məsələlərini çox geniş müzakirə etdik. Bütün məsələlər barədə bizdə tam anlaşma var ki, qarşılıqlı əlaqələrin və tərəfdaşlığın möhkəmlənməsi üçün səylərimizi artırmaqda davam etməliyik. Ölkələrimiz arasında siyasi dialoq, tərəfdaşlıq münasibətləri çox yüksək səviyyədədir. Bu gün ikitərəfli əlaqələrin inkişaf perspektivlərini müzakirə edərkən biz iqtisadi məsələlərə diqqəti daha çox cəmləşdirdik, Moldova və Azərbaycan xalqlarının tarixi əlaqələrinə, qarşılıqlı siyasi münasibətlərimizə, hesab edirəm, biz ən yüksək nöqtəyə, ən yüksək səviyyəyə çatmışıq.

İqtisadi planda isə biz hələ çox iş görməliyik. Bundan ötrü potensial imkanlar da var, istək də. Bu gün müvafiq strukturlara tapşırıqlar verilmişdir ki, onlar bu işi intensivləşdirsinlər və əmtəə dövriyyəsinin, qarşılıqlı investisiyaların artırılmasına dair konkret layihələri, ölkələrimizdə həyata keçirilən layihələrdə bizim şirkətlərin iştirakı və ümumiyyətlə, iqtisadi potensialımızdan tam istifadə olunmasına kömək edə biləcək bütün məsələlər barədə təklifləri təsdiqlənmək üçün ən yaxın vaxtda bizə təqdim etsinlər.

Ölkələrimiz dinamik inkişaf edir, biz müstəqillik əldə etdiyimiz vaxtda yaranmış iqtisadi böhranları geridə qoymuşuq, bu gün Moldovanın və Azərbaycanın uğurlu, dinamik inkişafı ölkələrimizin yerləşdiyi regionda sabitliyin mühüm amilidir.

Müstəqilliyin möhkəmləndirilməsi sahəsində qazandığımız uğurlar və nailiyyətlərlə yanaşı, təəssüf ki, bizi birləşdirən ortaq problemlərimiz də var. Bunlar separatizm, ərazilərin işğal edilməsi, etnik təmizləmə siyasəti və bizim ölkələrdə mövcud münaqişələrin həll olunmaması problemləridir. Münaqişələrin həlli məsələsində bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Moldova Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi kimi, biz də Moldovanın ərazi bütövlüyünü dəstəkləyir və belə hesab edirik ki, tənzimləmənin yeganə məqbul yolu məhz ölkələrimizin ərazi bütövlüyü çərçivəsində tənzimləmədir. Bu, beynəlxalq hüququn əsas prinsipidir. Millətlərin öz müqəddəratını təyin etməsi hüququna gəldikdə isə, separatçı regionlarda yaşayan xalqların nümayəndələri başqa dövlətlər çərçivəsində öz müqəddəratlarını artıq təyin etmişlər. Millətin öz müqəddəratını təyin etməsi hüququ heç bir halda ərazilərin bir hissəsinin ayrılmasını və de-fakto separatçı rejimlərin qanuniləşdirilməsini nəzərdə tutmur. Mən əminəm ki, bizim beynəlxalq mövqeyimizin daha da fəallaşdırılması, potensial imkanlarımızın, eləcə də ikitərəfli formatda əlaqələrimizin möhkəmlənməsi bu məsələlərin də müsbət həllinə kömək edəcəkdir.

Mən bu barədə öz fikrimi bu gün artıq demişəm, lakin rəsmi qəbul zamanı Moldova Prezidentinə və Moldova dövlətinə bir daha təşəkkürümü bildirmək istəyirəm ki, onlar ölkəmizdə münaqişənin həllinə dair BMT Baş Məclisinin iclasında Azərbaycanın təklif etdiyi qətnaməni dəstəkləmişlər. Biz bunu çox yüksək qiymətləndirir, dostluq və tərəfdaşlıq münasibətlərinin, eləcə də beynəlxalq hüquq normalarına əsaslanan prinsipial, möhkəm mövqeyin təzahürü hesab edirik.

Mən şübhə etmirəm ki, Vladimir Nikolayeviçin ölkəmizə səfəri, 2004-cü ildə Sizin birinci səfərinizdən və onun ardınca mənim Moldovaya səfərimdən sonra olduğu kimi - münasibətlərimizin daha da inkişaf etməsinə güclü təkan verəcəkdir. İkitərəfli əlaqələr baxımından biz xeyli irəliləmişik və ümid edirəm ki, bundan sonra da eyni sürətlə irəliləyəcəyik.

Mən bu badəni Moldovanın Prezidenti, mənim dostum Vladimir Nikolayeviç Voroninin şərəfinə, dost Moldova xalqının tərəqqisi şərəfinə, Moldova ilə Azərbaycan arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli xanım Əliyeva!

Hörmətli dostlar!

Prezidentlərə verilmiş səlahiyyətlərə görə biz - rəsmi, işgüzar səfərlər, dövlət səfərləri edirik. Bu səfərlərin hamısının öz trafaretləri, təşkili və keçirilməsinin sxemləri var. İlk baxışda hər şey məlumdur, aydındır və artıq mənimsənilmişdir. Lakin elə ölkələr, elə xalqlar var ki, onların yanına xüsusi ovqatla getmək, onları görmək, onlarla ünsiyyətdə olmaq istəyirsən. Azərbaycan ilə Moldova arasında tarixən çox gözəl münasibətlər yaranmışdır. Tarixə nəzər salsaq, biz istər sovet hakimiyyətindən əvvəl, istərsə də sovet dövründə çox sahələr üzrə əməkdaşlıq edir, çox məsələləri həll edirdik. İndi, bizim müstəqil suveren dövlətlər qurmaq kimi tarixi şansımız olduğu bir vaxtda bu əlaqələr xüsusilə güclənmişdir.

Mənə Heydər Əlirza oğlunu 1974-cü ildən tanımaq səadəti nəsib olmuşdur. Onunla ilk dəfə 1974-cü ildə görüşmüşəm, sonra isə müxtəlif mərhələlərdə onun çıxışlarını dinləmişəm. Mən İctimai Elmlər Akademiyasında oxuyanda, o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxt onun mühazirələrini dinləmişəm. Heydər Əliyev bu vəzifəyə təyin ediləndən cəmi ay yarım sonra bizə Sovet İttifaqında nəqliyyatın vəziyyəti barədə mühazirələr oxuyurdu. Onun erudisiyası, bu ay yarım müddətində məsələni nəinki bu qədər dərindən öyrənməsi, həm də Sovet İttifaqında nəqliyyat sahəsində vəziyyətin mahiyyətini və onun gərgin olmasını bu qədər dərindən başa düşməsi məni valeh etmişdi. İndi də mən Azərbaycan Prezidenti İlham Əliyevlə aramızda yaranan münasibətlərdən, ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafından çox razıyam.

Bu gün ikitərəfli sənədlər paketi genişlənmişdir, ikitərəfli münasibətlərimiz üçün çox yaxşı normativ baza var. Ən başlıcası isə, şəxsiyyətlərarası səviyyədə, təkcə biz prezidentlər arasında deyil, həm də hökumətlər arasında, iqtisadi strukturlar, Moldovanın vətəndaşları ilə ölkəmizdə Azərbaycan diasporunu təşkil edən Azərbaycan vətəndaşları arasında qarşılıqlı anlaşma var. Biz bu münasibətlər əsasında inkişaf edə, irəliləyə bilərik və bunu etməliyik.

Bu gün mən sizin ölkənizdə, sözün hərfi mənasında, cəmi bir neçə ildə, 2004-cü ildən bəri baş vermiş dəyişikliklərə ürəkdən heyran olduğumu bildirmişəm. Bəlkə də, mən hər şeyi görməmişəm. Əlbəttə, hər şeyi görmək mümkün deyil, xüsusən də avtomobilin pəncərəsindən. Lakin gördüklərim məni, sadəcə, valeh etmişdir. Sizə deyirəm: Bakıda gördüyünüz işlər və İlham Heydər oğlundan eşitdiklərim ağlasığmazdır. Sizə, sadəcə, afərin deyirəm ki, bu cür işlər bütün ölkədə görülür. Mən hətta zarafatyana soruşdum: "İlham Heydər oğlunun mənə danışdığı bütün işləri bir neçə ildə görəndən, bütün problemləri həll edəndən, bütün planları həyata keçirəndən sonra nə edəcəksiniz?". Zənnimcə, Azərbaycanın çox yaxşı perspektivləri var. Azərbaycanın dünya birliyində

perspektivləri çox maraqlı və əhəmiyyətli olacaqdır. Mən istəyirəm ki, separatizmə tezliklə son qoyulsun. Bizim dostluğumuz kiminsə əleyhinə yönəlməyibdir. Bizim tarixi əlaqələrimiz qədimdir - bu əlaqələr sovet illərində, Heydər Əliyeviçin rəhbərlik etdiyi dövrdə, hələ heç kəsin heç bir separatçı niyyətə düşmədiyi vaxtlarda da mövcud olmuşdur. Ona görə də biz istəyirik ki, bu separatçılıq dövrü başa çatsın, axı biz də separatizmdən əziyyət çəkirik. Biz sizin ağrılarınızı hiss edirik, çünki bu, həm də bizim ağrımızdır. Səhər yuxudan oyanandan ta gecə yatana qədər bu ağrı bizimlədir, keçib getmir. Çünki biz problemi həll etməyincə, ona çarə qılmayınca, ölkəmizin bütövlüyünü bərpa etməyincə bu ağrı keçib gedə bilməz. Mən Sizə də bunları arzulayıram.

Kosovo sxeminə oxşar müxtəlif variantlar heç vaxt heç kimə yaramaz. Dövlət quruculuğu məsələlərini bu cür prinsiplər üzrə həll etmək olmaz. İlham Heydər oğlu, biz sizin səmimi dostlarınızıq. Biz sizin hamınıza səmimi qəlbdən uğurlar, yeni, müasir Azərbaycanın qurulmasında səmərəli nəticələr arzulayırıq.

Mən Sizin sağlığınıza, Sizin xanımınızın sağlığına, Sizin bütün yoldaşlarınızın sağlığına, bütün Azərbaycan xalqının sağlığına badə qaldırıram.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Moldova Prezidenti Vladimir Voronin aprelin 24-də Fəxri xiyabana gəlmişdir.

Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

Moldova dövlətinin başçısı ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi, onun məzarı önünə əklil qoydu.

Prezident Vladimir Voronin görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzdü.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Moldova Prezidenti Vladimir Voronin aprelin 24-də Milli Məclisə gəlmişdir. Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov, sədrin birinci müavini Ziyafət Əsgərov, müavinlər Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər qarşıladılar.

Moldova Prezidenti əvvəlcə Milli Məclisin iclas salonu, parlamentdəki Heydər Əliyev xatirə salonu ilə tanış oldu. Ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, qiymətli sənədlər ali qonaqda və nümayəndə heyətinin üzvlərində maraq doğurdu. Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkələrin parlamentləri ilə əlaqələrinin qurulmasında ulu öndərin müstəsna xidmətləri, eləcə də Milli Məclisin qəbul etdiyi mühüm qərarlar, hüquqi sənədlər barədə Moldova rəhbərinə məlumat verildi. Ali qonaq xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Prezident Vladimir Voronin və Milli Məclisin sədri Oqtay Əsədovun görüşü oldu.

O.Əsədov vurğuladı ki, Azərbaycanla Moldova arasındakı qədim tarixi olan dostluq əla-

qələri müstəqilliyimizin bərpasından sonra yüksələn xətlə inkişaf edir. Ölkələrimiz arasındakı mövcud münasibətləri müsbət dəyərləndirən parlamentin sədri dedi ki, dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər ikitərəfli əməkdaşlığın daha da genişlənməsi üçün möhkəm hüquqi baza yaratmışdır.

Parlamentlərarası əlaqələrdən danışan Oqtay Əsədov Moldova-Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyətini, deputatların beynəlxalq tədbirlərdə keçirdikləri görüşləri və bir sıra məsələlərdə eyni mövqedən çıxış etmələrini müsbət qiymətləndirdi. Milli Məclisin sədri Azərbaycan parlamentinin 90 illiyi ilə bağlı yubiley tədbirlərində moldovalı həmkarlarının da iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.

Daha sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Oqtay Əsədov hər iki ölkənin separatizmdən əziyyət çəkdiyini söylədi, BMT Baş Məclisində Azərbaycanın irəli sürdüyü qətnamə layihəsini Moldovanın dəstəkləməsinə görə təşəkkür etdi.

Prezident Vladimir Voronin dedi ki, demokratiya yolu ilə irəliləyən Moldova ilə Azərbaycan arasında siyasi əlaqələrin sürətli inkişafı iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın genişlənməsinə və daha da dərinləşməsinə təkan verir. Dost ölkəyə səfər etdiyini vurğulayan ali qonaq parlamentlərin, qəbul edilən hüquqi sənədlərin cəmiyyətdə, ictimai-siyasi proseslərdə böyük rol oynadığını bildirdi, iki ölkənin deputatlarının beynəlxalq qurumlardakı birgə fəaliyyətinin xüsusi əhəmiyyətindən danışdı. Moldova rəhbəri bildirdi ki, onun ölkəsi beynəlxalq tədbirlərdə Azərbaycanın haqlı mövqeyini bundan sonra da dəstəkləyəcəkdir. Prezident Vladimir Voronin Moldovadakı Azərbaycan diasporunun fəaliyyətini də yüksək qiymətləndirdi.

Dnestryanı bölgə ilə bağlı problemin dinc vasitələrlə həllinə çalışdıqlarını vurğulayan ali qonaq Azərbaycanın da Dağlıq Qarabağ problemini tezliklə həll etməsini arzuladıqlarını bildirdi.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN ARDNŞ-İN PREZİDENTİ RÖVNƏQ ABDULLAYEVİ QƏBUL ETMİŞDİR

Moldova Prezidenti Vladimir Voronin aprelin 24-də, Azərbaycana rəsmi səfərinin ikinci günü onun üçün ayrılmış iqamətgahda - "Ulduz" sarayında Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevi qəbul etmişdir.

ARDNŞ-in başçısı Moldova Prezidentinə Azərbaycanın neft strategiyası haqqında məlumat verdi.

Söhbət zamanı yanacaq-energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi məsələlərinə dair fikir mübadiləsi oldu.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ İŞÇİ LANÇI

Aprelin 24-də "Ulduz" sarayı dövlət iqamətgahında Bakıda rəsmi səfərdə olan Moldova Respublikasının Prezidenti Vladimir Voroninin Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ilə işçi lançı olmuşdur.

AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA SAZİŞLƏRİN HAZIRLANMASINA DAİR RAZILIĞA GƏLİNMİŞDİR

Latviyada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Mammadyarov aprelin 24-də həmkarı Maris Riekstinış ilə görüşmüşdür.

Nazirliyin mətbuat katibi Xəzər İbrahimin verdiyi məlumata görə, tərəflər ölkələr arasında konstruktiv tərəfdaşlığı vurğulamış, bu ilin yayında keçiriləcək hökumətlərarası komissiyanın iclasına və Latviya müdafiə nazirinin Azərbaycana planlaşdırılan səfərinə dair məsələləri müzakirə etmişlər.

Elmar Məmmədyarov komissiyanın iclasında iş adamlarının iştirakının vacibliyini vurğulamış, yüksək səviyyəli siyasi əlaqələrin iqtisadi inkişafla dəstəklənməsinin vacibliyini söyləmişdir.

Maris Riekstinış ölkəsinin Azərbaycanla əməkdaşlıqda çox maraqlı olduğunu, enerji və Avratlantika məsələləri daxil olmaqla müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsini arzulamışdır.

E.Məmmədyarov Prezident İlham Əliyevin Latviya Prezidentinə ünvanlanmiş dəvət məktubunu qarşı tərəfə təqdim etmiş, həmçinin latviyalı həmkarını ölkəmizə səfərə dəvət etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında danışan E.Məmmədyarov Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə Latviya tərəfinə təşəkkürünü bildirmiş və vurğulamışdır ki, Cənubi Qafqazda 4-cü dövlətə yer yoxdur. Ermənistanın yeni hökuməti bunu nəzərə almalı, danışıqlarda konstruktiv mövqe tutmalıdır. Münaqişənin həlli üçün başqa yol yoxdur.

Görüşdə müxtəlif sahələrdə, o cümlədən huquqi, viza və maliyyə sahələri üzrə 12 sazişin ekspertlər tərəfindən hazırlanmasına dair razılığa gəlinmişdir.

Görüşdən sonra nazirlər birgə mətbuat konfransı keçirmişlər. Latviya nümayəndələri aprelin 29-30-da Bakıda keçiriləcək "GUAM-Tranzit" konransına dəvət olunmuşdur.

Riqada "Azadlıq" abidəsi önünə əklil qoyan xarici işlər naziri Elmar Məmmədyarov həmin gün Estoniya paytaxtına yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ ALİM, AKADEMİK ROALD SAQDEYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında görkəmli alim, akademik Roald Saqdeyevi qəbul etmişdir.

Bir il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan Roald Saqdeyev ötən dövr ərzində ölkəmizdə baş verən çox böyük inkişafın şahidi olduğunu bildirdi. Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən məmnunluq hissi keçirdiyini deyən qonaq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində, Aviasiya Akademiyasında və eləcə də Kibernetika İnstitutunda keçirdiyi görüşlər barədə məlumat verdi.

Dövlətimizin başçısı bildirdi ki, bu səfər qonağa Azərbaycanda elmin inkişafı və yeni

texnologiyanın tətbiqi ilə yaxından tanış olmaq imkanı yaradacaqdır. Prezident İlham Əliyev görkəmli alimin Azərbaycana səfərinin alimlər arasında təcrübə mübadiləsinin aparılması işinə də töhfə verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL XEYRİYYƏ FONDUNUN PREZİDENTİ MAYKL NOBELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında Nobel Xeyriyyə Fondunun prezidenti Maykl Nobelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bildirdi ki, Maykl Nobelin böyük nümayəndə heyəti ilə ölkəmizə səfəri Azərbaycanla Nobel Xeyriyyə Fondu arasında dostluq əlaqələrinin yaxşı göstəricisidir. Maykl Nobellə ilk görüşünü xatırlayan Prezident İlham Əliyev qeyd etdi ki, həmin görüşdə tarixi keçmişimiz, hazırkı və gələcək əməkdaşlığımız müzakirə edilmişdir. Dövlətimizin başçısı Nobel ailəsinin xatirəsinin ölkəmizdə bu gün də qorunub saxlandığını vurğuladı və əmin olduğunu bildirdi ki, Nobel Xeyriyyə Fondunun nümayəndə heyətinin səfəri uğurlu olacaq və əməkdaşlığımızın daha da genişlənməsinə xidmət edəcəkdir.

Prezident İlham Əliyevlə əvvəlki görüşlərini məmnunluqla xatırlayan Maykl Nobel indikinin sayca dördüncü olduğunu dedi. Bakıda Nobel qardaşlarının yaşayıb yaratdıqları binanın - Villa Petroleanın yenidənqurulmasında göstərdiyi dəstəyə görə bütün Nobel ailəsi adından Prezident İlham Əliyevə təşəkkür edən qonaq əmin olduğunu bildirdi ki, Villa Petroleanın açılışı İsveçlə Azərbaycan arasında mövcud olan müsbət münasibətləri daha da möhkəmləndirəcəkdir.

NORVEÇ HÖKUMƏTİ AZƏRBAYCAN DİPLOMATLARI ÜÇÜN TƏLİM TƏŞKİL EDİR

Azərbaycan Diplomatik Akademiyasının Norveç Xarici İşlər Nazirliyi ilə birgə yüksək rütbəli dövlət məmurları üçün "Liderlik qabiliyyətinin artırılması" mövzusunda keçirilən təlimin 3-cü hissəsi aprelin 26-da "Crescent Beach" mehmanxanasında başa çatmışdır.

Təlimlər zamanı azərbaycanlı gənc diplomatlar norveçli həmkarları ilə əlaqələr qurur və bunula, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığa zəmin yaranır.

Norveçin Azərbaycandakı səfiri Yon Ramberq bildirmişdir ki, təlim ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasını göstərir. Azərbaycan gəncləri böyük potensiala malikdirlər. Bu tədbir Azərbaycan və Norveç diplomatları arasında daha yaxın ünsiyyət yaradır. Norveç Azərbaycanla olan münasibələtlərə daha perspektivli baxır və iki ölkə arasında oxşarlıqlar çoxdur.

Xarici işlər nazirinin müavini Araz Əzimov demişdir ki, Norveçin xarici siyasətin menecment sistemi səmərəlidir. Bu baxımdan Norveç təcrübəsinin öyrənilməsi Azərbaycan üçün faydalı ola bilər. O bildirmişdir ki, kurslarda iştirak Xarici İşlər Nazirliyinin

gənc əməkdaşlarına peşəkarlıq səviyyəsinin artırılmasında yardım edəcəkdir.

Xatırladaq ki, təlimin 4-cü hissəsi Norveçdə keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Prezident sarayında Slovakiyanın xarici işlər naziri, Avropa Şurası Nazirlər Komitəsinin sədri Yan Kubişın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Slovakiya arasında siyasi və iqtisadi sahələrdə fəal əməkdaşlıq üçün yeni imkanların olduğunu deyən Prezident İlham Əliyev Yan Kubişın ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafı, Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı və Avropa strukturlarına inteqrasiyası kimi məsələlər ətrafında fikir mübadiləsi aparılması baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Slovakiya xarici işlər nazirinin ölkəmizə səfərinin ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi işində mühüm addım olacağını bildirdi.

Prezident İlham Əliyevlə əvvəlki görüşlərini xatırlayan qonaq Azərbaycana Slovakiyanın xarici işlər naziri kimi səfərə gəlməsindən məmnunluğunu söylədi. Yan Kubiş əmin olduğunu bildirdi ki, iki ölkə arasında münasibətlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YONAS QAR STÖRENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Prezident sarayında Norveçin xarici işlər naziri Yonas Qar Störenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Norveçin xarici işlər nazirinin ölkəmizə səfəri zamanı səmərəli görüşlər keçirdiyinə əmin olduğunu bildirdi. Dövlətimizin başçısı bu səfərin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından əhəmiyyətli olacağına əminliyini söylədi.

Yonas Qar Störe Norveç Kralı V Haraldın və Baş nazir Yens Stoltenberqin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə keçirdiyi görüşün çox səmərəli olduğunu, ikitərəfli əlaqələrin bir çox sahələrinin müzakirə edildiyini bildirdi.

Prezident İlham Əliyev Norveç Kralı V Harald və Baş nazir Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.

AVROPA İTTİFAQI YENİ QONŞULUQ SİYASƏTİNDƏ AZƏRBAYCANA XÜSUSİ YER AYIRMALIDIR

Aprelin 30-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Parlamentinin rumıniyalı üzvü Adrian Severinlə görüşmüşdür.

XİN-in mətbuat xidmətindən bildirmişlər ki, Adrian Severin Avropa İttifaqının Yeni Qonşuluq Siyasətində Azərbaycana xüsusi yer ayırmasının, təşkilat ilə ölkəmiz arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının zəruriliyini vurğulamışdır. Qonaq bunun üçün lazımi potensialın olduğunu, Azərbaycanın yalnız neft-qaz istehsalçısı kimi deyil, geosiyasi mövqeyi, dinamik iqtisadi inkişafı, Avropa İttifaqı-Orta Asiya əməkdaşlığına verə biləcəyi töhfəyə görə Aİ üçün əhəmiyyətinin, Avropa Parlamentində Azərbaycanın bu rolunun, ölkədə baş verən müsbət dəyişikliklərin xüsusi vurğulanmasının mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Nazir E.Məmmədyarov bu fikirlə razılaşaraq, Azərbaycanın Aİ-nin Yeni Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planının yerinə yetirilməsinə dair artıq ilk hesabatının hazırlandığını, Avropaya inteqrasiya prosesinin ölkədə bir sıra sahələrdə müsbət irəliləyişlərə səbəb olduğunu diqqətə çatdırmış, Avropa Parlamentində GUAM dostluq qrupunun yaradılması imkanlarının araşdırılmasını da zəruri saymışdır.

Daha sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fikir mübadiləsi aparan tərəflər, Azərbaycan torpaqlarının işğalını pisləmiş, Ermənistanın apardığı etnik təmizləmə siyasətinin öz müqəddəratını təyinetmə prinsipi ilə pərdələnməsinin yolverilməz olduğunu qeyd etmişlər. Rumıniyalı nümayəndə həmçinin öz müqəddəratını təyinetmənin milli azlıqlara deyil, xalqlara aid olduğunu və ermənilərin artıq Ermənistanın tərkibində özünü təyin etdiklərini vurğulamışdır.

Görüşdə Avropa Parlamenti üzvlərinin Azərbaycan barədə məlumatlılığının artırılması, parlamentarilərin ölkəmizə səfərlərinin təşkilinin, lobbiçilik fəaliyyətinin zəruriliyi də qeyd olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI AYDOĞAN BABAOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Prezident sarayında Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı Aydoğan Babaoğlunu qəbul etmişdir.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, Türkiyə Hərbi Hava Qüvvələri komandanının bu səfərinin ölkələrimizin hərbi sahədə əməkdaşlığına töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ JAN-POL KOSTANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Avropa İnsan Hüquqları Məhkəməsinin sədri Jan-Pol Kostanı qəbul etmişdir.

Görüşdə Azərbaycanla Avropa İnsan Hüquqları Məhkəməsi arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ NİZAM-İNTİZAM QÜVVƏLƏRİ SƏRHƏD POLİSİNİN RƏİSİ GENERAL-MAYOR QASIM REZAYİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında İran İslam Respublikasının Nizam-İntizam Qüvvələri Sərhəd Polisinin rəisi general-mayor Qasım Rezayini qəbul etmişdir.

Görüşdə ölkələrimizin müxtəlif qurumları, o cümlədən sərhəd xidmətləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafına xidmət etdiyi vurğulandı.

İORDANİYANIN KRALI II ABDULLAHIN AZƏRBAYCANA SƏFƏRİ

Mayın 5-də İordaniyanın Kralı əlahəzrət II Abdullah Azərbaycana səfərə gəlmişdir.

Həmin gün dövlət iqamətgahında İordaniyanın Kralı əlahəzrət II Abdullahın qarşılanma mərasimi olmuşdur.

İqamətgahın həyətində - hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İordaniyanın Kralı II Abdullahı və xanımı Raniyanı səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İordaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Kral II Abdullah fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İordaniya Kralı Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səslərı altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLAHIN GÖRÜŞÜ

Mayın 5-də, rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniyanın Kralı II Abdullahın görüşü olmuşdur. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və İordaniyanın birinci xanımı Raniya görüşdə iştirak edirdilər.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, əlaqələrin daha da genişlənməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Dövlət başçıları yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdilər və indiki səfərin də ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə xidmət etdiyini bildirdilər.

Söhbət zamanı ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 5-də Azərbaycan və İordaniyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.

Prezident İLHAM ƏLİYEV Kral II Abdullahı salamlayaraq dedi:

- Əlahəzrət,

Hörmətli dostlar!

Sizi bir daha görməyimə çox şadam və Sizə "Xoş gəlmisiniz" deyirəm.

Bizim Bakıda, Əmmanda bir çox görüşlərimiz olub və regional məsələlərə, beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparmışıq. Bir çox məsələlərdə mövqelərimiz üst-üstə düşür. Bizim aramızda dostluq və tərəfdaşlıq var. Şəxsi münasibətlərimiz də ölkələrimiz arasındakı münasibətlərin inkişafında böyük rol oynayır. Bu sahələrdə böyük tərəqqiyə nail olmuşuq. Bizim çox güclü münasibətlərimiz var. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik.

Mən bu fürsətdən istifadə edərək, BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə əlaqədar qətnamədə bizi dəstəklədiyinizə görə minnətdarlığımı bildirirəm. Biz, eyni zamanda, ikitərəfli maraq doğuran məsələlərdə bir-birimizi dəstəkləyirik. İqtisadi münasibətlərimiz, əməkdaşlığımız genişlənir. Sabah bu məsələləri daha ətraflı şəkildə müzakirə edəcəyik. Hər bir sahədə bizim olduqca yüksək səviyyədə təşəkkül tapmış münasibətlərimiz var. Biz dostuq və tərəfdaşıq.

Mən Sizi Azərbaycanda qəbul etməyimdən çox məmnunam və əminəm ki, bu səfər gələcək əməkdaşlığımızda vacib rol oynayacaqdır.

İordaniya Kralı II ABDULLAH təşəkkür edərək dedi:

- Zati-aliləri, çox sağ olun. Ölkənizə yenidən səfər etmək məndən və nümayəndə heyətindən ötrü böyük şərəfdir.

Qeyd etdiyiniz kimi, biz, sözün əsl mənasında, son illər ərzində bir çox mühüm qərarlar qəbul etmişik və əlaqələrimizi strateji səviyyəyə qaldırmışıq. Biz dünyanın bu regi-

onunda bir çox ölkələrlə, xüsusən də Sizin ölkənizlə strateji əlaqələrin qurulmasını vacib hesab edirik.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Mayın 5-də Zuğulba dövlət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-İordaniya sənədlərinin imzalanma mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya"nı, "Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, İordaniyanın ticarət və sənaye naziri Əmir Hadidi imzaladılar.

BAKIDA 2-Cİ İORDANİYA SƏRGİSİNİN AÇILIŞI

Mayın 6-da Bakıda 2-ci İordaniya sərgisinin açılışı olmuşdur.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, İordaniya Kralı II Abdullahı və xanımı Raniyanı hərarətlə qarşıladılar.

İordaniya Krallığının hərbi orkestrinin ifasında marş səsləndi.

Prezident İlham Əliyev və Kral II Abdullah sərginin rəmzi açılışını bildirən qırmızı lenti kəsdilər.

İqtisadi tərəqqiyə nail olmaq üçün dünya iqtisadiyyatına inteqrasiya yolu tutan İordaniya açıq qapı siyasətinə üstünlük verir, ixracın həcmini artırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirir. Ərəb ölkələri, ən inkişaf etmiş dövlətlərlə iqtisadi əlaqələrin möhkəmlənməsinə xüsusi diqqət yetirilir. 2007-ci ildə ümumi daxili məhsul istehsalının həcmi 5,8 faiz artmış, ölkənin valyuta ehtiyatı 7 milyard dollara çatmışdır.

İordaniyanın Sənaye və Ticarət Nazirliyi, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyinin təşkil etdikləri və mayın 8-dək davam edəcək sərgidə iki ölkənin sahibkarları ikitərəfli görüşlər keçirəcək, əməkdaşlıq imkanlarını araşdıracaqlar.

Azərbaycan Prezidentinə məlumat verildi ki, son illərdə dünya iqtisadiyyatında böyük imicə malik 100-dək şirkətlə sıx əməkdaşlıq quran İordaniyanın müvafiq iqtisadi qurumları xeyli irəliləyişə nail olmuş, məhsul ixracı əsaslı şəkildə artmışdır. Kimya, əczaçılıq sənayesi, tibb avadanlığı, kosmetika, ərzaq məhsulları istehsalı genişlənməkdədir. Məhsulların çeşidi və keyfiyyətinin artırılmasına xüsusi fikir verilir. İordaniyada Ölü dənizin təbii imkanlarından da bacarıqla istifadə edilir. Bu yolla istehsal edilən və tərkibində kimyəvi maddələrin olmadığı kosmetika məhsulları ixracda əhəmiyyətli yer tutur.

İordaniyada maşınqayırmanın inkişafına da böyük diqqət yetirilir, müxtəlif sənaye zonaları yaradılır, bu sahəyə dövlət yardımı artırılır.

İordaniyanın ixracında dəri məmulatı və yüngül sənaye məhsulları 35 faizə qədərdir və bu sahələr məşğulluğun təmin olunmasında mühüm yer tutur.

Azərbaycan ilə İordaniya arasında ticarət dövriyyəsinin həcmi hələlik azdır. Respublikamızdan əsasən tütün, həmin ölkədən isə kimya və əczaçılıq məhsulları ixrac edilir. İordaniya Kralı II Abdullahın Azərbaycana səfəri çərçivəsində təşkil edilən sərginin başlıca məqsədlərindən biri də məhz ölkələrimiz arasında iqtisadi əlaqələri gücləndirmək və genişləndirməkdir.

Dövlət başçıları sərgidə nümayiş etdirilən müxtəlif təyinatlı və çeşidli məhsullarla tanış oldular, hər iki ölkənin iş adamlarına uğurlar arzuladılar.

Prezident İlham Əliyevə İordaniyanın qədim şəhərlərindən olan və dünyanın turizm mərkəzlərindən hesab edilən Petra şəhərinin təsviri olan lövhə və milli döymə naxışlarla bəzədilmiz sac, Mehriban xanıma ətriyyat səbəti və ərəb örpəyi hədiyyə olundu.

KRAL II ABDULLAH XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNDƏ OLMUŞDUR

İordaniyanın Kralı II Abdullah mayın 6-da Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) təlim-tədris mərkəzində olmuşdur.

Qonağı burada XDMX-nin rəisi, general-polkovnik Vaqif Axundov səmimiyyətlə qarşıladı.

Kral II Abdullaha məlumat verildi ki, Prezident İlham Əliyevin göstərişi ilə müasir standartlara uyğun tikilən bu hərbi şəhərciyin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah, tədris binası, əsgər və zabit yataqxanaları, interaktiv tir, yeməkxana, müxtəlif ölçülü atıcılıq tirləri var. Burada regionda iri layihələrin, strateji obyektlərin, xüsusi dövlət idarələrinin mühafizəsi ilə bağlı ixtisaslaşdırılmış bölmələr üzrə kadrların peşəkarlığı artırılır, müasir texnologiyalar vasitəsilə təlimatlar verilir.

Kral II Abdullah xüsusi təyinatlı dəstələrin nümunəvi çıxışlarına baxdı, müxtəlif təmrinləri izlədi.

Xüsusi təyinatlıların rəmzi olaraq rəsmi qonağa qarşı terror aktının qarşısını alması və minanı zərərsizləşdirməsi əməliyyatı böyük maraqla qarşılandı.

Daha sonra ali qonaq interaktiv atıcılıq tirinin komanda-idarəetmə məntəqəsinə gəldi. Əlahəzrət Krala məlumat verildi ki, burada hədəflər elektron formada olduğu üçün əlavə əməliyyatlara ehtiyac qalmır, təhlükəsizlik qaydalarına tam əməl edilir. Xüsusi kamera və kompyuterlərdə ayrı-ayrı terror, təxribat aktlarına və digər hallara dair videosüjetlər hazırlanır, hədəflər süni şəkildə canlandırılır və atıcı onları nişan alır. Bu sistem ən son hazırlıq üsuludur. Kral II Abdullah hədəfə atəş açdı.

İordaniya Kralı təlim-tədris mərkəzinin hərbi rabitə və ağır texnikası ilə də tanış oldu, atıcılıq tirlərində məşqləri izlədi.

Kral II Abdullah mərkəzin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı. Ali qonağa xatirə hədiyyəsi təqdim edildi.

İORDANİYA KRALİÇASI RANİYA HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

İordaniya Kralı əlahəzrət II Abdullahın xanımı Raniya mayın 6-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva hörmətli qonağı səmimiyyətlə qarşıladı.

Mehriban Əliyeva kraliçaya Azərbaycan xalqının ümummilli liderinin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Kraliça Raniya fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Qonaq Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Mehriban xanım və kraliça Raniya Heydər Əliyev Fondunun fəaliyyətindən bəhs edən filmə baxdılar.

AZƏRBAYCANIN VƏ İORDANİYANIN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ

Fondla tanışlıqdan sonra Azərbaycanın və İordaniyanın birinci xanımlarının görüşü oldu. Mehriban xanım kraliça Raniyanı Bakıda görməkdən məmnunluğunu bildirdi.

Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri ulu öndərin zəngin irsini öyrənmək və təbliğ etmək, onun Azərbaycanın tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsilləri məlumatlandırmaq, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdir. Bununla yanaşı, Fond təhsil, səhiyyə, mədəniyyət və digər sahələrlə bağlı genişmiqyaslı layihələr hazırlayıb həyata keçirir. Uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşdırılması, valideyn himayəsindən məhrum olan uşaqlara hərtərəfli qayğı göstərilməsi, diabet və talassemiyadan əziyyət çəkən insanlara kömək, yeni məktəblərin tikintisi, əlil uşaqlara informasiya texnologiyaları ilə işləmək vərdişlərinin aşılanması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği sahəsində görülmüş işlərdən danışan Mehriban xanım hazırda Talassemiya mərkəzinin tikildiyini də bildirdi.

Səmimi görüşə və ətraflı məlumata görə təşəkkür edən kraliça Raniya Heydər Əliyev Fondunun və onun prezidentinin xeyirxah işlərini yüksək qiymətləndirdi.

Hörmətli qonağa Heydər Əliyev Fondu haqqında kitab hədiyyə edildi.

Kraliça Raniya Fondla tanışlıqdan xoş və zəngin təəssürat aldığını bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Mayın 6-da İordaniyanın Kralı II Abdullah Azərbaycana səfərini başa vuraraq vətəninə qayıtmışdır.

XİN-İN DİPLOMATİK AKADEMİYASI NÖVBƏTİ TƏLİM KURSUNA BAŞLAMIŞDIR

Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası "Terrorizm: hədələr və cavablar. Silahlara nəzarət və silahların yayılmasının qarşısının alınması" mövzusunda təlim kursuna başlamışdır.

Məqsəd beynəlxalq terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizədə NATO-nun rolu, habelə Azərbaycanın milli təhlükəsizlik konsepsiyası və digər məsələlər barədə məlumat verməkdir.

Almaniyanın Corc Marşal Mərkəzinin və ABŞ-ın Monterey İnstitutunun mütəxəssislərinin apardığı təlimdə Xarici İşlər, Müdafiə, Milli Təhlükəsizlik, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin əməkdaşları iştirak edirlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏKDAŞLIĞIN YENİ İMKANLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Prezident sarayında "Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqlara müraciətlə dedi:

- Hörmətli qonaqlar!

- Əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz!

Mən çox şadam ki, Bakıda "Demokratiya və sabitlik naminə" mövzusunda böyük beynəlxalq konfrans keçirilir. Bu konfrans Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü ərəfəsində keçirilir və bu da rəmzi xarakter daşıyır. Məhz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan 1993-cü ildən başlayaraq, həm demokratik inkişaf baxımından, həm də sabitliyin möhkəmlənməsi, tam şəkildə bərqərar olması baxımından çox böyük uğurlar əldə etmişdir. Azərbaycanda bütün demokratik təsisatlar yaradılmışdır. Azərbaycanda hüquqi dövlət quruculuğu çox uğurla gedir, vətəndaş cəmiyyəti formalaşır. Bütün bu uğurlar möhkəm iqtisadi zəmin əsasında qazanılır. Sabitlik olmayan yerdə demokratik inkişafdan söhbət gedə bilməz və əksinə, qeyri-demokratik cəmiyyətlərdə sabitliyin ömrü uzun olmur. Bəzi hallarda bu iki anlayış qarşı-qarşıya qoyulur, ancaq biz Azərbaycanın timsalında görürük ki, bütün uğurlarımız - demokratiyanın inkişafı, ölkəmizin hərtərəfli inkişafı və möhkəmlənməsi, məhz sabitliyin əsasında mümkün olmuşdur.

Biz Azərbaycanda siyasi və iqtisadi islahatları paralel şəkildə həyata keçiririk və hər iki istiqamətdə böyük nailiyyətlər əldə etmişik. Azərbaycan üçüncü ildir ki, iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Son dörd il ərzində bizim iqtisadiyyatımız 96 faiz artmışdır. Azərbaycanda bütün sahələr inkişafdadır və ölkəmiz gələcəyə çox böyük nikbinliklə baxır. Ölkəmiz yeniləşir, müasirləşir və irəliyə gedir. Ona görə "Demokratiya və sabitlik naminə" mövzusunda konfransın çox böyük əhəmiyyəti var. Əminəm ki, sizin müzakirələriniz əməli-praktik nəticələrlə sonuclanacaqdır.

Hamımız yaxşı bilirik ki, son illər ərzində bəzi hallarda demokratiya mövzusu süni şəkildə ortalığa atılır və bəzi ölkələrin dairələrinin maraqlarının təmin olunması üçün bu və ya digər ölkə ya demokratik, ya da qeyri-demokratik ölkə kimi qələmə verilir. Biz bəzi hallarda ikili standartlar elementləri ilə də qarşılaşırıq.

Cənubi Qafqazda yerləşən üç ölkədə gedən siyasi proseslər bəzi hallarda qeyri-obyektiv şəkildə təhlil olunur. Bəzi hallarda biz görürük ki, Azərbaycanda gedən quruculuq işlərinə müasir yanaşma elementlərinin inkişafına qısqanclıqla yanaşılır. Bəzi hallarda üç Cənubi Qafqaz ölkəsini müqayisə etmək üçün yanlış meyarlar seçilir. Biz özümüzü heç vaxt heç kimlə müqayisə etməmişik və belə fikrimiz yoxdur. Biz Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çalışırıq, Azərbaycanın möhkəmlənməsinə çalışırıq. Amma müqayisəyə gəldikdə, onu da deyə bilərik ki, qonşularımızdan fərqli olaraq, Azərbaycanda nə fövqəladə vəziyyət elan olunur, nə siyasi opponentlər həbs edilir, nə senzura tətbiq olunur, nə də ki, bütün mətbuat, müstəqil mətbuat orqanları bağlanır və Ermənistandan fərqli olaraq, Azərbaycanda dinc əhaliyə qarşı zor tətbiq olunmur və onlarca günahsız insan qətlə yetirilmir.

Mən nə üçün bunu xüsusilə qeyd edirəm, çünki, əfsuslar olsun ki, bəzi siyasətçilər üç ölkədə gedən prosesləri müqayisə edərkən subyektivliyə üstünlük verirlər və başqa ölkədə dəhşətli hadisələrə göz yumub, Azərbaycanda xırda məsələləri böyük bir hadisəyə çevirməyə çalışırlar.

Bir sözlə, mən sizin konfransınıza çox böyük əhəmiyyət verirəm və dünyada ikili standartların mövcudluğu və əfsuslar olsun ki, möhkəmləndiyi indiki zamanda belə açıq müzakirələrin aparılması çox vacibdir. Azərbaycan müxtəlif beynəlxalq təşkilatların üzvüdür və onlarda fəal iştirak edir. Bəzi təşkilatlara üzv olduqda, üzərimizə öhdəliklər götürmüşük və çalışırıq ki, bu öhdəlikləri vaxtlı-vaxtında və tam şəkildə yerinə yetirək. Beynəlxalq təşkilatlar çərçivəsində bu fəaliyyəti gələcəkdə də davam etdirəcəyik. Azərbaycanda bütün sahələr, o cümlədən insan hüquqları sahəsi, demokratikləşmə proseslərinin güclənməsi meyilləri daha da geniş vüsət alacaqdır. O ki qaldı başqa ölkələrlə ikitərəfli münasibətlərimizə, bu münasibətlər bərabərhüquqlu xarakter daşımalıdır və daşıyır. Bu münasibətlərdə yalnız ikitərəfli məsələlər müzakirə mövzusu ola bilər. Biz daxili işlərə hər hansı bir yersiz müdaxiləni heç vaxt qəbul etməmişik və etməyəcəyik. Mən əminəm ki, sizin diskussiyalarınız çox maraqlı keçmişdir. Həm yeni yanaşmanın aşkara çıxarılması baxımından önəmli olmuşdur, həm də ki, sizin aranızda yaranan əlaqələr, təmaslar bizim xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir. Əminəm ki, siz də bu konfransın gedişatından və ümumiyyətlə, Azərbaycanda gördüklərinizdən məmnun olacaqsınız.

Dağıstan hökumətinin sədri, "Yedinaya Rossiya" Partiyası Ali Şurasının üzvü ŞAMİL ZEYNALOV dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Hörmətli cənab Azərbaycan Respublikasının Prezidenti, mən və həmkarım, Dövlət Dumasının deputatı Hacıbəy Kərimoviç Səfərəliyev "Yedinaya Rossiya" Partiyasını təmsil edirik. Biz Rusiya Federasiyası Dövlət Duması deputatlarının, "Yedinaya Rossiya" partiyası Ali Şurasının sədri Boris Vyaçeslavoviç Qrızlovun tapşırığı ilə bugünkü, Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr edilmiş beynəlxalq forumda iştirak edirik. Boris Vyaçeslavoviç konfransa təbrik göndərmişdir, mən bu gün beynəlxalq forumun iştirakçılarını həmin təbriklə tanış etmişəm. O, təbrikində Sizin başçılıq etdiyiniz Yeni Azərbaycan Partiyasının çox böyük əhəmiyyətini və cəmiyyətin sabitləşməsində, demokratiyanın inkişafında rolunu vurğulamış və əmin etmişdir ki, "Yedinaya Rossiya" Partiyası Sizin partiya ilə həmişə yaxşı münasibətlər saxlayacaqdır. Boris Qrızlov həmçinin xatırlatmışdır ki, burada, Bakıda səfərdə olarkən "Yedinaya Rossiya" Partiyası Yeni Azərbaycan Partiyası ilə saziş imzalamışdır.

Biz bu konfransda fəal iştirak etmişik və bugünkü konfransın bu dərəcədə yüksək səviyyədə keçirilməsinin bütün təşkilatçılarına və iştirakçılarına partiyamızın adından təşəkkürümüzü bildirmək istəyirik. Güman edirəm ki, bu konfrans təkcə Azərbaycanda deyil, konfransda təmsil olunmuş bütün regionlarda demokratiyanın və sabitliyin inkişafına kömək edəcəkdir.

Siz də bilirsiniz ki, Rusiya Dövlət Dumasına axırıncı seçkilərdə "Yedinaya Rossiya" Partiyası inamlı qələbə qazanmışdır. İndi biz Dövlət Dumasında mütləq çoxluğa malikik. Lap bu gündən etibarən bizim partiyanın lideri Vladimir Vladimiroviç Putin olmuşdur və bununla da partiyanın nüfuzu daha da artacaqdır. Buna görə də mən Yeni Azərbaycan Partiyasının rəhbəri olan Sizi bir daha əmin etmək istəyirəm ki, biz Sizin partiya ilə çox fəal əməkdaşlıq edəcəyik.

Fürsətdən istifadə edib, Sizə bizim Prezident Muxu Əliyevin səmimi salamını çatdırmaq istəyirəm. O da bugünkü konfransa təbrik göndərmiş, bildirmişdir ki, bu konfransın Rusiyada, xüsusən Dağıstanda hamının çox yaxşı tanıdığı Heydər Əliyevin 85 illiyinə həsr edilməsi onun əhəmiyyətini daha da artırır. Biz onun nəhəng fəaliyyətinə çox gözəl bələdik. O, həqiqətən Azərbaycan xalqının lideridir. Əgər Azərbaycanın çətin illərində Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, kim bilir axırı nə ilə nəticələnərdi. Biz hamımız Sizin babanızı yaxşı tanıyırıq, Dağıstan üçün ən çətin illərdə o, bizim vilayət partiya komitəsinin birinci katibi vəzifəsində işləmişdir. Bu yaxınlarda biz Azərbaycan xalqının nümayəndələri ilə birlikdə onun yubileyinə həsr edilmiş tədbir keçirdik. Muxu Gimbatoviç bir daha əmin etdi ki, xalqlarımız arasında dostluq davamlı və möhkəm olacaqdır. Ümumiyyətlə, biz əslində bir xalqıq.

İLHAM ƏLİYEV: Çox sağ olun. Babam Əziz Əliyevin xatirəsinə göstərilən ehtirama görə mən sizə və qardaş Dağıstan xalqına təşəkkür etmək istərdim. O, Dağıstanın inkişafı üçün çox işlər görmüş və çətin illərdə dağıstanlılarla bir yerdə olmuş, talleyin sərt sınaqlarına onlarla birlikdə sinə gərmişdir. Dağıstanda onun xatirəsinə bəslənən münasibəti biz hamımız - Azərbaycan vətəndaşları da, xüsusən onun nəvəsi kimi mən də yüksək qiymətləndiririk. Muxu Gimbatoviçə də ən xoş arzularımı bildirmək istəyirəm. Bir müddət əvvəl o, Azərbaycana gəlmişdi. Biz çox yaxşı görüşlər keçirdik, bir sıra məsələləri müzakirə etdik, gələcək qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik.

Sizi "Yedinaya Rossiya" Partiyasının nümayəndəsi kimi görməyimə çox şadam. Bu

partiya ilə mənim başçılıq etdiyim Yeni Azərbaycan Partiyası arasında ənənəvi əməkdaşlıq və tərəfdaşlıq münasibətləri var. Biz çox şadıq ki, partiyalarımız arasında bu cür münasibətlər yaranır. Bu partiyalar həm Rusiyada, həm də Azərbaycanda alternativi olmayan aparıcı siyasi qüvvədir, onlar ölkələrimizin xalqlarının böyük əksəriyyətinin iradəsini ifadə edirlər. Mən sizi həm də qardaş Dağıstanın nümayəndəsi kimi görməyimə şadam. Dağıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, əmin-amanlıq, sülh və dostluq şəraitində yaşamışlar və indi də bu münasibətlər davam edir. Bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin gələcək inkişafı üçün də çox vacibdir. Xalqlarımızın bu cür fəal əməkdaşlığının, qardaşlığının Qafqazda - Cənubi Qafqazda və Şimali Qafqazda vəziyyət üçün də xüsusi dəyəri və əhəmiyyəti vardır. Qafqaz vahid bir orqanizmdir və burada hər şey qarşılıqlı surətdə bağlıdır. Buna görə də Qafqaz regionunun hər hansı hissəsində baş verən proseslər bizim hamımız üçün çox əhəmiyyətlidir. Biz birlikdə çalışırıq ki, Qafqaz sülh, təhlükəsizlik və sabitlik zonasına çevrilsin və əminəm ki, buna nail olacağıq. Bir daha bütün Dağıstan xalqına və bizim dostlarımıza, "Yedinaya Rossiya" Partiyasının üzvlərinə ən xoş arzularımı bildirmək istəyirəm. Sağ olun.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü HALUK İPƏK Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Əvvəlcə, ev sahibliyinə görə çox-çox təşəkkür edirəm. Bakıda bir çox ölkənin təmsilçiləri bir araya gəldilər və bu gün tarixə demokratiya baxımından çox önəmli notlar düşdü. Yaşadığımız indiki zamanda bu konfransın mövzusunun nə qədər əhəmiyyət daşımasını nəzərə alsaq, bu, hamı üçün önəmli oldu və biz də Türkiyəni təmsil edərək, fikirlərimizi söylədik. Mən buna görə bir daha təşəkkür edirəm.

Həm Azərbaycan, həm də Türkiyə, əslində, tarixi inkişaf və mədəniyyətlərin sivilizasiyalararası dialoqu baxımından Qərb və Şərq arasında çox önəmli bir körpü olmuşdur. Bu tarixi həqiqəti, mədəniyyəti bu cür konfrans vasitəsilə Bakıda paylaşmaq bu toplantıya həm də xüsusi bir çalar vermişdir. Biz - bütün dünyada insanlar, əslində, bütün dövlətlər öz içimizdə, təkbaşına yaşamırıq. Artıq dünya o qədər genişdir ki, bir ölkədə olan hər hansı hadisə digər ölkədə sadəcə siyasətlə məşğul olanları deyil, o ölkədə yaşayan hər bir iş adamını, hər bir insanı maraqlandırır. Xüsusilə "Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları" mövzusundakı konfrans tarixi baxımdan da çox əhəmiyyətlidir.

Mən bu günü neçə illər - 15-17 il əvvəldən görüb layihələr hazırlayan və onlara uyğun işlər görən rəhmətlik Heydər Əliyevin böyüklüyünü Bakıda keçirilən bu konfrans zamanı daha yaxşı anladım və bütün Azərbaycan xalqının da çox yaxşı anladığının şahidi oldum. Çünki Azərbaycanın sürətli inkişafı onun adı ilə bağlıdır və onun nə qədər haqlı olduğu ortaya çıxdı. Mən onu rəhmətlə anır, ev sahibliyinizə görə Sizə bir daha təşəkkür edirəm.

İLHAM ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Bilirsiniz ki, 1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevi yenidən siyasi hakimiyyətə dəvət edəndə burada vəziyyət çox ağır idi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Heydər Əliyevin siyasi təcrübəsi, onun biliyi, cəsarəti ölkəni o ağır vəziyyətdən xilas etdi və başlıca istiqamət demokratiya və inkişaf şüarları əsasında götürülmüşdür. İnkişaf, əslində, sabitlik deməkdir. İndi 1993-cü ildən on beş il keçir və biz bu gün Azərbaycanda həm demokratiyanı görürük, sabitliyi, inkişafı görürük və həm də gələcəyə böyük nikbinliklə baxırıq. Biz qarşıda du-

ran bütün vəzifələrin yerinə yetirilməsinə nail olmuşuq və bundan sonra ancaq və ancaq inkişaf yolu ilə gedəcəyik.

O ki qaldı bizim ikitərəfli münasibətlərimizə, mən çox şadam ki, iki qardaş ölkə, qardaş xalq arasında münasibətlər ən yüksək zirvədədir. Bu, bizim gücümüzdür. Birliyimiz bizim gücümüzdür. Biz beynəlxalq müstəvidə kifayət qədər böyük mövqelərə malik olan ölkələrik. Bu regionda bizim iştirakımız olmadan heç bir ciddi layihə icra oluna bilməz. Beynəlxalq münasibətləri təhlil edərkən görürük ki, biz daha da sıx birləşməliyik. Bizim maraqlarımız da üst-üstə düşür, məqsədlərimiz də, tariximiz də eynidir və çox şadam ki, Türkiyə-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir.

Fransa Milli Assamblyeasının üzvü TERRİ MARİANİ dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Hörmətli cənab Prezident, mən Fransa Milli Assambleyasını təmsil edirəm. Prezident Nikola Sarkozinin "Prezident Çoxluğunun İttifaqı" Partiyasının xarici əlaqələr komissiyasının üzvüyəm. Mən Yeni Azərbaycan Partiyası tərəfindən təşkil edilmiş artıq ikinci tədbirə dəvət olunuram. Zənnimcə, ikinci dəfə ölkəyə səfər etmək bu ölkə haqqında ciddi fikirlər söyləmək üçün kifayətdir. Ölkəniz müstəqilliyin ilk vaxtlarında üzləşdiyi çətinlikləri aradan qaldıra bilmişdir. 1993-cü ildən etibarən sabitlik bərqərar olunmağa başladı. Ölkənizin rifahı hər gün artır.

Mən bu konfransı təşkil edənlərə dəvətə və müzakirələr imkanına görə minnətdarlığımı bildirmək istəyirəm. Açıq müzakirələr Avropada xalqlar arasında anlaşmaya xidmət edir. Hesab edirəm ki, bu beynəlxalq konfrans regiondakı sülhə töhfə verəcəkdir.

İLHAM ƏLİYEV: Çox sağ olun. Sizi görməyimə çox şadam. Əminəm ki, konfransın çox mühüm praktik nəticələri olacaqdır, çünki burada müzakirə olunan məsələlər bütün region üçün əhəmiyyətlidir. Postsovet məkanında yerləşən bu region bir sistemdən digər sistemə keçid dövrünü yaşayır. 1991-ci ildə müstəqilliyimizi qazandığımız zaman siyasi inkişaf sahəsində böyük təcrübəmiz yox idi. Heç vaxt tariximizdə müstəqil siyasi sistem olmamışdı. Beləliklə, biz dəyişikliklər etməli idik. Bazar iqtisadiyyatı mövcud deyildi, ölkədə planlı dövlət iqtisadiyyatı hökm sürürdü.

1991-ci ildən bəri biz bir çox islahatları həyata keçirə bildik. İndi iqtisadiyyatımızın 80 faizi özəl sektorun payına düşür. Demokratik inkişaf gedir. Hazırda biz çoxpartiyalı siyasi sistemə, plüralizmə, azad mətbuata malikik. Bütün siyasi qüvvələrə öz fikirlərini və ideyalarını ifadə etmək və inkişaf etdirmək üçün hər cür imkan yaratmışıq. Açıq və müasir cəmiyyət qurmaqdayıq. Yaxşı iqtisadi potensialımız, təbii sərvətlərimiz var. Bütün bunlar çətinlikləri aradan qaldırmaqda, bəzi ağrılı iqtisadi islahatları aparmaqda bizə yardımçı oldu. Keçid dövrünü yaşayan ölkələr üçün dəyişikliklər etmək, xüsusən də iqtisadi islahatları aparmaq bəzən asan olmur. Hazırda çox güclü sosial siyasət həyata keçiririk ki, yoxsul təbəqələr əziyyət çəkməsin. Biz müasir bazar iqtisadiyyatı prinsiplərinə sadiqik.

Giriş nitqimdə qeyd etdiyim kimi, ölkədə siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Əminəm, bu, yeganə münasib yoldur. Tarixdə müşahidə edilib ki, siyasi inkişafı iqtisadi inkişafdan xeyli irəliyə getmiş ölkələr uğursuzluğa uğramışdır. Eyni zamanda, lazımi ictimai nəzarət və güclü demokratik təsisatlar olmadan iqtisadiyyat hərtərəfli inki-

şaf etmir və ömrü uzun olmur. İnkişaf etmiş ölkələrin təcrübəsini öyrənərək görürük ki, demokratiya qurmuş ölkələrdə bütün sahələrdə, o cümlədən iqtisadi baxımdan sabitlik mövcuddur. Demokratik ölkələr arasında yoxsul, zəngin olmayan ölkə tapmaq çətindir. Ona görə də rifah, iqtisadi potensial, sosial müdafiə sahələrində aparılan işlər, eləcə də dövlətin siyasəti demokratik standartların səviyyəsini artırır.

Biz bir neçə beynəlxalq proqrama daxil edilmişik. Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulmuşuq. Bu, bizim seçimimiz idi. Üzərimizə müəyyən öhdəliklər götürmüşük. Artıq bir ildən çoxdur ki, həmin proqramları uğurla həyata keçiririk. Ölkəmizi Avropa İttifaqının demokratik standartlarına daha da uyğunlaşdırmaq məqsədi ilə yeddi il öncə Avropa Şurasına daxil olmuşuq. Fikrimcə, biz demokratik inkişaf istiqamətində bu günə qədər həyata keçirdiyimiz islahatlarla maksimum səviyyəni təmin etmişik. Lakin əvvəldə qeyd etdiyim kimi, bəzi hallarda regionumuzdakı müxtəlif ölkələrə verilən qiymətlər və bildirilən fikirlər fərqlidir. Bu, başqa söhbətin mövzusudur. Mən bunun nəyə görə baş verməsi ilə bağlı təfərrüatları burada söyləməyəcəyəm. Bunların baş verməsinin bir çox səbəblərini bilirəm. Bu, başqa məsələdir. Biz nə istəyirik? Biz istəyirik ki, dünya Azərbaycanı olduğu kimi tanısın. Vacib məsələlərin müzakirəsindən başqa, bu cür konfranslar ölkəni görmək, xüsusən də, ölkəyə birinci dəfə səfər edənlərə onu tanımaq, necə inkişaf etdiyini müşahidə etmək üçün fürsətdir.

Biz sizin hamınızı burada görməkdən məmnunuq. Mən partiyamızın dəvətini qəbul edib, Bakıya gəldiyinizə görə sizə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, səfərinizdən razı qalacaqsınız. Sizə ən böyük uğurlar arzulayıram.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ DÖVLƏT MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRLİYİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ CİM MÖRFİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Prezident sarayında Böyük Britaniyanın Xarici və Dövlət Məsələləri üzrə Nazirliyinin Avropa məsələləri üzrə dövlət naziri Cim Mörfini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərimizin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

Mayın 7-də Avropa Şurası Nazirlər Komitəsinin 118-ci sessiyası keçirilmişdir.

Sessiyada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çıxış etmişdir.

XİN-in mətbuat xidmətindən bildirmişlər ki, nazir E.Məmmədyarov müasir dünyada mədəniyyətlərarası və dinlərarası dialoqun beynəlxalq ictimaiyyətin maraq dairəsini kəsb edən ən vacib məsələlərdən birinə çevrildiyini vurğulamışdır.

Eyni zamanda, Azərbaycanın üzvü olduğu İslam Konfransı Təşkilatı da daxil olmaqla, Avropa Şurasının əməkdaşlıqda maraqlı olan digər beynəlxalq qurumlarla əlaqələrinin genişləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

E.Məmmədyarov çıxışında, həmçinin cari ilin dekabrında Bakıda sivilizasiyaların mədəniyyətlərarası dialoquna həsr ediləcək Avropa Mədəniyyət Nazirlərinin qeyri-rəsmi konfransının keçiriləcəyini, bu tədbirdə Avropa Şurasının, İSESKO-nun, ALECSO-nun nümayəndələrinin iştirak edəcəklərini nəzərə çatdırmışdır.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Avropa Şurasının Dövlət və Hökumət Başçılarının Varşava sammitində qeyd edildiyi kimi, Avropanın bəzi regionlarında bu günədək həll edilməmiş münaqişələrin mövcudluğunu vurğulayaraq, bunun narahatedici amil olduğunu demişdir. Bu problemlərin tezliklə həllinin vacibliyini vurğulayan nazir, münaqişələrin insanların təhlükəsizliyinə, davamlı inkişafa və tərəflər arasında normal əlaqələrə xələl gətirdiyini bildirmişdir.

Azərbaycanın Dağlıq Qarabağ regionunda mövcud münaqişə ilə bağlı ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar rəhbər tutularaq, ölkəmizin beynəlxalq hüququn bütün norma və prinsiplərinə sadiq qaldığı bir daha vurğulanmışdır.

Ermənistan ilə mövcud münaqişənin həllinə dair Azərbaycan Respublikasının mövqeyinin əsasən Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan Silahlı Qüvvələrinin çıxarılması, Dağlıq Qarabağın ölkəmizin siyasi, iqtisadi, hüquqi və sosial sistemlərinə reinteqrasiyası, münaqişədən zərər çəkmiş ərazilərin reabilitasiyası, məcburi köçkünlərin öz yurdlarına qayıtması, Azərbaycanın Dağlıq Qarabağ regionunda həm erməni, həm də Azərbaycan icmalarının sülh və uyğunluq şəraitində birgə yaşamaları üçün əlverişli mühitin yenidən yaradılmasından ibarət olduğu nəzərə çatdırılmışdır. Bütün bunların Dağlıq Qarabağın Azərbaycanın çərçivəsində statusunun müəyyən olunmasına lazımi şərait yaradacağı bildirilmişdir.

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİ STRASBURQDA GÖRÜŞMÜŞLƏR

Mayın 6-da Strasburqda Fransanın Avropa Şurasındakı daimi nümayəndəliyində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ermənistanlı həmkarı Edvard Nalbandyanla ilk görüşü olmuşdur.

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrləri Bernar Fasye (Fransa), Mətyu Brayzə (ABŞ) və Yuri Merzlyakov (Rusiya), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik iştirak etmişlər.

Əsasən tanışlıq xarakteri daşıyan görüşdə nazirlər ölkələrinin mövqeyini nümayiş etdirmişlər. Azərbaycanın xarici siyasət idarəsinin başçısı vurğulamışdır ki, məsələnin həlli və problemdən çıxış yolunun tapılması üçün imkanlar vardır.

Görüşdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü ilə bağlı müzakirələr aparılmışdır. Nazir E.Məmmədyarov bildirmişdir ki, bu görüşün təşkili ilə bağlı bir neçə variant vardır. Bu barədə prezidentlərə hesabat veriləcək və onlar görüş barədə qərar qəbul edəcəklər.

Elmar Məmmədyarov demişdir ki, prezidentlərin qərarı əsasında nazirlər növbəti dəfə də görüşə bilərlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ HƏSƏN VİRAYUDANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Prezident sarayında İndoneziyanın xarici işlər naziri Həsən Virayudanı qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev İndoneziyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, nazirin ölkəmizə səfəri qarşılıqlı əlaqələrin daha da inkişafına töhfə verəcəkdir.

Həsən Virayuda İndoneziya Prezidenti Susilo Bambanq Yudhoyononun salamlarını və ölkəsinə dəvətini dövlətimizin başçısına çatdırdı. İndoneziya naziri ölkələrimiz arasında siyasi əlaqələrin daim genişləndiyini, ikitərəfli münasibətlərin digər sahələrdə, o cümlədən iqtisadi sahədə də daha da möhkəmlənməsi üçün yaxşı perspektivlərin olduğunu bildirdi.

Dövlətimizin başçısı İndoneziya Prezidenti Susilo Bambanq Yudhoyononun salamlarına və dəvətinə görə minnətdarlığını bildirdi, özünün də salamlarını İndoneziyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 11-də İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen Azərbaycana rəsmi səfərə gəlmişdir.

Mayın 12-də İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə rapport verdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsveçrə Prezidenti Paskal Kuşpeni və xanımı Brigit Kuşpeni səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi İsveçrə Prezidentinə raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər İlham Əliyev və Paskal Kuşpen fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İsveçrə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Paskal Kuşpenə, İsveçrə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə edildi və əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.

Azərbaycanla İsveçrə Konfederasiyası arasında yüksək səviyyəli görüşlərin əhəmiyyətinə toxunuldu və Prezident Paskal Kuşpenin ölkəmizə səfərinin qarşılıqlı əlaqələrin daha da genişlənməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.

Dövlət başçıları ikitərəfli münasibətlərə, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 12-də Azərbaycan və İsveçrənin dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Bu, bizim münasibətlərimiz tarixində İsveçrə Konfederasiyası Prezidentinin Azərbaycana ilk səfəridir. Mən bilirəm ki, Siz Azərbaycanda müəyyən yerlərə səfər etmisiniz və insanlarla görüşmüsünüz. Bizim bugünkü danışıqlarımız dostluq və konstruktiv şəraitdə keçibdir. Əminəm ki, Sizin Azərbaycana səfəriniz və onun nəticələri uğurlu olacaqdır. Bu, bizim əlaqələrimizin yeni səhifəsidir. Biz tərəfdaşlığımızın bütün istiqamətlərində inkişafa böyük nikbinliklə baxırıq. Hazırda hər iki ölkədə səfirliklər var, ikitərəfli layihələr və inkişaf üçün geniş imkanlar mövcuddur. Ümid edirəm ki, səfəriniz başlandığı kimi, uğurla da davam edəcəkdir. Sizə xoş arzularımı yetirirəm.

Sonra çıxış edən İsveçrə Konfederasiyasının Prezidenti PASKAL KUŞPEN dedi:

- Cənab Prezident, bu gözəl sözlərə və səmimi qəbula görə təşəkkür edirəm. Bu səmimi münasibəti biz ölkəyə gəldiyimiz andan hiss edirik. Doğrudur, artıq bizim aramızda yaxşı münasibətlər yaranmışdır, lakin bunun daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. Qeyd etmək istərdim ki, səfirlərimiz də iqtisadi münasibətlərimizin daha da genişlənməsinə öz töhfələrini verə bilərlər. Təbii ki, bu münasibətlər gələcəkdə daha da genişlənəcəkdir. Eyni zamanda, mədəni əlaqələrimizi də inkişaf etdirməliyik ki, bir-birimizi daha yaxından tanıyaq. Bu, çox vacibdir. Çünki indiki əlaqələrimizin səviyyəsi bizi o qədər də qane edə bilməz. Lakin biz mövcud əlaqələrdən də başlaya bilərik, onlar yaxşı səviyyədədir. Onu da deyim ki, iki ölkə arasında ticarət dövriyyəsi də get-gedə artır və əminəm ki, bundan sonra da artacaqdır.

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 12-də Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Prezidenti Paskal Kuşpenin geniş tərkibdə görüşü başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Cənab, Prezident,

hörmətli qonaqlar,

xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, Sizi Azərbaycanda bir daha salamlamaq istərdim. Sizi və nümayəndə heyətinizi burada qəbul etməkdən çox məmnunam. Biz bu gün qarşılıqlı maraq doğuran bir çox məsələləri geniş müzakirə etdik. İkitərəfli məsələləri müzakirə etdik, ölkələrimiz arasında siyasi müstəvidə əlaqələrimizin səviyyəsindən razılıq ifadə olundu. Bu, iki ölkə arasındakı ikitərəfli əlaqələrin tarixində İsveçrə Prezidentinin Azərbaycana ilk səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı əlaqələrin inkişafında yeni mərhələ açacaqdır. Biz əməkdaşlığımızın daha da gücləndirilməsinə, qarşılıqlı layihələrə, o cümlədən sərmayə imkanlarına dair məsələləri, beynəlxalq məsələləri, regional inkişafı və şübhəsiz ki, gələcək perspektivləri müzakirə etdik. Biz şadıq ki, İsveçrənin aparıcı şirkətləri artıq bir neçə ildir, ölkəmizdə fəaliyyət göstərir və buradakı işlərini genişləndirmək məqsədi ilə yeni layihələr və yatırımlar baxımından bəzi fikirləri də var. Biz İsveçrənin şirkətlərini dövlət büdcəsindən maliyyələşən yeni layihələrdə sərmayədar və ya müqaviləçi qismində iştirak etməyə dəvət edirik.

Eyni zamanda, biz enerji sektorunda əməkdaşlıq imkanlarını da müzakirə etdik və hazırda əlaqələrin dərinləşdirilməsi üçün yeni imkanların olduğunu görürük. Azərbaycan böyük neft və qaz ehtiyatlarına malik olan ölkədir. Hasilat ilbəil artır, bizim müasir və çox səmərəli nəqliyyat infrastrukturumuz mövcuddur, o cümlədən, beynəlxalq və Avropa bazarlarını bizə açan neft və qaz kəmərlərimiz var. Biz İsveçrəni bu işlərdə ölkəmiz üçün potensial tərəfdaş hesab edirik. Biz şadıq ki, şirkətlər səviyyəsində ciddi danışıqlar aparılır və ümid edirik, yaxın gələcəkdə bu danışıqların əyani nəticəsinin şahidi olacağıq.

Prezidentin xarici ölkəyə səfəri əlaqələr baxımından həmişə ən mühüm ictimai hadisədir. Hesab edirəm ki, bu, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafına böyük təkan verəcəkdir. Biz təkcə siyasi və iqtisadi əlaqələrlə kifayətlənməməliyik. Hesab edirəm ki, humanitar sahədə də mühüm işlər görülə bilər və insanların bir-biri ilə ünsiyyəti çox vacibdir. Mən çox şadam ki, İsveçrə Prezidenti Azərbaycanın müxtəlif yerlərinə səfər etmək, mühüm infrastruktur obyektləri ilə yaxından tanış olmaq imkanı əldə etdi. Artıq indi onun Azərbaycan haqqında daha ətraflı məlumatı var. Düşünürəm ki, səfərin özü və onun nəticələri ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə gətirib çıxaracaqdır. Biz bunu görməkdə maraqlıyıq. Biz İsveçrəni ölkəmiz üçün əhəmiyyətli dost və tərəfdaş hesab edirik və ikitərəfli əlaqələrin inkişafı qarşılıqlı maraqlara xidmət edəcəkdir. Təşəkkür edirəm.

İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPENİN BƏYANATI

Azərbaycana səfər etməkdən və Prezident İlham Əliyevlə görüşməkdən məmnunam. Biz onunla bu ilin əvvəlində Davosda görüşmüşük. Orada görüşümüz qısa oldu. İki ay bundan əvvəl isə NATO-nun Buxarest sammitində görüşmüşük. İsveçrə Prezidenti üçün bu səfər ölkənizdə baş verənlərin şəxsən şahidi olmaq baxımından yaxşı imkandır. Deyim ki, ölkənizin inkişafından çox təəssüratlandım. Bu inkişafda əsas tərəflərin və xüsusilə də dövlət başçısının, siyasi rəhbərliyin açıqlığını qeyd etməliyəm. Səhərki danışıqlarımız çox konstruktiv şəkildə keçdi. Biz iqtisadi əməkdaşlığı daha da genişləndirmək fikrini bölüşdük. İsveçrə şirkətlərinin nümayəndələri tikinti və energetika sektorunda fəaliyyət göstərmək üçün bizə müraciət ediblər və cənab Prezidentin dediyi kimi, böyük layihələr həyata keçirilir. Xəyallarda yox, reallıqda. İsveçrə şirkətləri Azərbaycana sərmayə qoymağa hazırdır. Çünki onlar Azərbaycanın və regionun gələcəyinə inanır. Azərbaycan dünyanın bu regionunun inkişafına müsbət təsir göstərir.

Eyni zamanda, mədəni sahədə əlaqələrimizin genişləndirilməsini müzakirə etdik. Bu mənada artıq son illərdə həm İsveçrədə, həm də Azərbaycanda bir neçə mədəni tədbirlər keçirilmişdir. Burada mən beynəlxalq caz festivalını qeyd etmək istərdim. Mədəniyyət və turizm nazirinizin sözlərinə görə, o, İsveçrədə keçirilən caz festivalında iştirak etmişdir.

Biz regionda siyasi vəziyyəti, gələcəyi və qonşularından biri tərəfindən münaqişəyə məruz qalan Azərbaycanın mövqeyini də müzakirə etdik. Eyni zamanda, Minsk qrupunun fəaliyyəti və nəticələrin ləng olması ilə bağlı fikir mübadiləsi apardıq. Ümid edirik ki, münaqişə yaxın gələcəkdə öz həllini tapacaq, çünki, bu, regionun inkişafı üçün çox vacibdir. Biz Azərbaycanda keçiriləcək seçkilər barədə də danışdıq. Bundan əlavə, görüşlərimizin və əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladıq. Lakin biz bu istiqamətdə konkret addımlar atmaq istəyirik ki, ticari-iqtisadi, siyasi və mədəni əlaqələrimizi daha da inkişaf etdirək. Sizin qonaqpərvərliyinizə görə dərin təşəkkürümü bildirirəm və Sizi İsveçrədə görməkdən məmnun olaram.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen mayın 12-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva İsveçrənin dövlət başçısını və onun xanımı Brigit Kuşpeni səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.

İsveçrə Konfederasiyasının Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və

incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Paskal Kuşpen Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

İsveçrənin dövlət başçısına Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu. Qonaqlar Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

AZƏRBAYCANIN VƏ İSVEÇRƏNİN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ

Mayın 12-də Azərbaycan Respublikası Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın və İsveçrə Konfederasiyası Prezidentinin xanımı Brigit Kuşpenin görüşü olmuşdur.

BAKIDA İSVEÇRƏ SƏFİRLİYİ BİNASININ AÇILIŞI OLMUŞDUR

Mayın 12-də Bakıda, İçərişəhərdə İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin iştirakı ilə bu ölkənin Azərbaycandakı səfirliyinin binasının açılış mərasimi olmuşdur.

Azərbaycan hökumətinin üzvlərinin, Milli Məclisin deputatlarının iştirak etdikləri mərasimdən əvvəl İsveçrə Prezidenti səfirliyin binası ilə tanış oldu.

İsveçrə dövlətinin başçısı mərasim iştirakçılarını salamlayaraq vurğuladı ki, dünyada neft sənayesinin inkişafında mühüm rol oynamış, bu sahədə tarixi ənənələrə malik olan Bakı şəhərində İsveçrə səfirliyinin açılması onun çoxdankı arzusu idi və bu gün o, öz arzusuna çatmışdır. Prezident Paskal Kuşpen dedi: "Mən bu səfərim zamanı Azərbaycanın necə inkişaf etdiyini öz gözlərimlə gördüm. Ölkələrimiz arasında bütün sahələrdə münasibətlər uğurla inkişaf edir. Son illərdə Azərbaycan İsveçrədə keçirilən humanitar xarakterli müxtəlif tədbirlərdə fəal iştirak etmişdir". O, ümid etdiyini bildirdi ki, iki ölkənin xalqları arasında dostluq körpüləri salınmasına şərait yaradan mədəni əməkdaşlıq gələcəkdə də genişlənəcəkdir.

İsveçrə Konfederasiyasının rəhbəri iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın perspektivlərinə toxunaraq bildirdi ki, onun ölkəsinin işgüzar dairələrinin nümayəndələri inşaat materialları istehsalı, energetika, əczaçılıq və kimya sənayesi sahələrində Azərbaycanda həyata keçirilən investisiya layihələrində iştirak etmək istərdi.

Prezident Paskal Kuşpen regionun problemlərinə də toxunaraq bildirdi ki, İsveçrə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edilməklə dinc yolla həllinə tərəfdardır.

Milli Məclisin sədri Oqtay Əsədov Bakıda İsveçrə səfirliyinin açılması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin təbrikini çatdırdı. O dedi ki, indiki mərasimdə İsveçrə Prezidentinin iştirak etməsi bu ölkənin Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini göstərir.

Oqtay Əsədov bildirdi ki, hazırda respublikamızda İsveçrənin 20-dək şirkəti təmsil

olunmuşdur və Prezident Paskal Kuşpenin Bakıya səfəri bu ölkənin işgüzar dairələrinin Azərbaycan iqtisadiyyatında iştirakının fəallaşmasına kömək edəcəkdir. İki ölkə arasında dinamik inkişaf edən münasibətlər parlamentlərarası əməkdaşlığın genişlənməsinə də müsbət təsir göstərir. Milli Məclisdə Azərbaycan-İsveçrə dostluq qrupu fəaliyyət göstərir, yaxın vaxtlarda İsveçrə parlamentində də belə qrup yaradılacaqdır.

Milli Məclisin sədri iki ölkə arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi naminə fəaliyyətində səfirliyin əməkdaşlarına uğurlar arzuladı.

İsveçrə Prezidenti səfirliyin binasına vurulmuş lövhənin üstündən örtüyü götürdü.

İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 12-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları əvvəlcə sarayın eyvanından Bakının axşam mənzərəsini seyr etdilər.

Prezidentlər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli xanım Kuşpen!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, mən ilk növbədə, Sizi və nümayəndə heyətinizi bir daha burada salamlamaq istəyirəm və səfərin nəticələrindən məmnun olduğumu bildirirəm. Bu gün bizim təkbətək söhbətimiz və nümayəndə heyətlərinin geniş tərkibli görüşü zamanı çox səmərəli və konstruktiv danışıqlarımız oldu. Təmaslar zamanı münasibətlərimizi daha da genişləndirmək kimi ümumi arzumuzu ifadə etdik.

Sizin səfəriniz tarixidir, çünki bu, İsveçrə Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Biz Sizin bu gəlişinizə böyük əhəmiyyət veririk. Çox şadam ki, səfərin nəticələri olduqca müsbətdir.

Onu da qeyd etmək istəyirəm ki, İsveçrə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Ölkəmiz uzun əsrlərdən, illərdən sonra öz müstəqilliyini bərpa etmişdir. Bu vaxt çərçivəsində münasibətlərimiz uğurla inkişaf etmiş, yaxşı təmaslarımız olub. Amma səmimi desək, həmin münasibətlər yalnız bu yaxınlarda daha sürətlə inkişaf etməyə başlamışdır. Ölkəmizə səfəriniz əlaqələrin sonrakı inkişafına əlavə təkan verəcəkdir. Əla siyasi münasibətlər olduğu halda, əlbəttə ki, biz ticari əlaqələrimizin genişləndirilməsinə daha böyük diqqət ayıracağıq. Artıq ölkəmizdə bir neçə tanınmış İsveçrə şirkəti sərmayədar və ya podratçı qismində fəaliyyət göstərir. Biz digər şirkətlərin də buraya gəlməsini alqışlayardıq.

Hazırda regionun əhəmiyyəti artmaqdadır. Biz yüksək peşəkarlıq tələb edən böyük layihələr həyata keçiririk. İsveçrə şirkətlərinin təcrübəsi, iş göstəriciləri və keyfiyyəti bütün dünyada tanınır. Gələcək əməkdaşlıq üçün sahələr çox geniş ola bilər. Bu gün biz artıq həmin güclü münasibətlərin inkişafı ilə məşğuluq. Ticari əlaqələr, energetika sahəsində əməkdaşlıq, sərmayələrin qoyulması, tikinti işləri sahəsində, habelə humanitar sahədə işləməliyik. Humanitar sahə haqqında xüsusi düşünməliyik ki, insanlar bir-biri ilə təmasda olsunlar. Mədəniyyət sahəsində mübadilələr olmalıdır.

Azərbaycanı tanıtmaq üçün bir çox işləri görməliyik. Beləliklə, reallıq və ölkəmizdə baş verən hadisələr haqqında beynəlxalq ictimaiyyətdə məlumat olmalıdır. Biz müstəqillik baxımından gənc ölkəyik, lakin tariximiz və mədəniyyətimiz çox zəngindir. Əlbəttə ki, ölkəmizin bugünkü sürətli inkişafı, siyasi islahatlar, beynəlxalq birliyə inteqrasiya vacibdir. Keçid dövrünün çətinliklərini aradan qaldırmaq və çoxşaxəli inkişaf etmək üçün bütün səylərimizi göstəririk. Hazırda iqtisadi göstəricilərimiz çox ümidvericidir. İqtisadi artım ən yüksək səviyyədədir.

Lakin bu regionda problemlər və narahatlıq doğuran məsələlər də var. Əsas məsələ isə, Ermənistan ilə Azərbaycan arasında həll olunmamış münaqişədir. Uzun illərdir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmamış qalır. Torpaqlarımızın işğal altında qalması qəbuledilməzdir. Biz bu münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq, lakin məsələ yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Azərbaycanın bütün əraziləri, o cümlədən Dağlıq Qarabağ erməni işğalçı qüvvələrindən azad edilməlidir. Qaçqın və məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmaq hüququna malik olmalıdırlar. Belə olarsa, regionda sülh bərqərar olacaqdır. Bu halda, hamı bundan yararlanar. Biz problemin həlli ilə bağlı səylərimizi davam etdirəcəyik, lakin, eyni zamanda, başa düşürük ki, bunu həll etmək üçün imkanlarımız daha da gücləndirməlidir. Ona görə də biz siyasi, iqtisadi və hərbi islahatlara xüsusi diqqət yetiririk. Bütün bunlar istənilən ölkəni gücləndirir. Bunu etmək üçün potensialımız var.

Xarici siyasət təşəbbüslərinə gəldikdə, bütün bunlar tərəfdaşlıq və dostluğun möhkəmləndirilməsinə yönəlibdir. Biz İsveçrəni özümüzə dost ölkə hesab edirik. Bu ölkə öz tarixində böyük nailiyyətlər əldə etmişdir və indi hər bir sahədə dünyanın ən inkişaf etmiş ölkələrindən biridir. Əlbəttə ki, Sizin ölkənizlə münasibətlər bizim üçün çox əhəmiyyətlidir və səfərinizi ikitərəfli münasibətlərimizdə mühüm bir hadisə hesab edirik.

Cənab Prezident, mən bu badəni Sizin, xanım Kuşpenin və İsveçrə xalqının sağlığına, İsveçrə ilə Azərbaycan arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN NİTQİ

- Hörmətli cənab Prezident,

Xanımlar və cənablar!

İndi, bu gün axşam İsveçrə Konfederasiyasının Prezidenti kimi ilk rəsmi səfərimlə bağlı təəssüratları bölüşmək növbəsi mənimdir. Sizin burada söylədiyiniz fikirlərə mən tam şərik çıxıram. Əminəm ki, çox mehriban münasibətlərə əsaslanaraq, ölkələrimiz gələcəyə doğru birgə addımlar ata və mədəni, iqtisadi və siyasi inkişaf sahəsində nəticələr

əldə etmək üçün bir-birinə kömək edə bilər.

Mən ölkəniz haqqında çox eşitmişdim. Cənab Prezident, mən Sizinlə bu il iki dəfə İsveçrədə görüşmüşəm. Lakin onu deyə bilərəm ki, yarım saat vaxt ərzində Azərbaycanın bütün gözəlliyini təsvir etmək mümkün deyildir. Mən müasir dünyaya açıq olan, inkişaf edən cəmiyyəti ilə seçilən, yaxşı təhsil almış gənclərə malik və nəhayət, tutduğu yolla qətiyyətli və vətənpərvərlik hissləri ilə addımlayan, vətəndaşlarının həyatını yaxşılaşdırmağa çalışan siyasi rəhbərliyi olan ölkəni özüm üçün kəşf etdim.

Siz atanızın əsas tutduğu eyni fəlsəfəni davam etdirirsiniz. Elə indicə, biz Heydər Əliyev Fondunu ziyarət edərək, atanızın, demək olar, həyatı ilə addım-addım tanış olduq. İnanıram ki, o, Sizi və hökumətinizin üzvlərini öz işlərinizdə şövqləndirən şəxsiyyətdir.

İsveçrənin də kəşməkəşli tarixi olubdur. Biz Avropanın mərkəzində yerləşirik və əvvəllər böyük dövlətlərdən asılı idik. Lakin biz uğurlar əldə etdik, baxmayaraq ki, onlar da asan olmamışdır. Bəzi hallarda güzəştlərə gedirdik və həll yollarını araşdırırdıq. Bir çox söhbətlər və mübahisələr olurdu. Lakin ölkəmizin azadlığını qoruyub saxlaya bildik. Bu gün isə biz bütün Avropa ölkələrinin tərəfdar çıxdığı dəyərləri təşviq edirik.

Azərbaycan Avropa məkanına aiddir. Ölkəniz ümumi dəyərləri bölüşmək istəyir və bunu edir. Bu amil, hətta iqtisadi münasibətlərdən daha çox bizi bir-birimizə bağlayır. Bilirik ki, həmin dəyərləri ümumi şəkildə bölüşmək ölkələr üçün vacibdir. Sizin rəhbərliyiniz altında ölkənizin iqtisadi inkişaf sürəti mənə böyük təəssürat bağışladı. Hesab edirəm ki, sizin kimi rəhbərin olması və neft amili istənilən hər bir ölkə üçün ideal variantdır.

Mən öz badəmi şəxsən Sizin, birinci xanımın, Heydər Əliyev Fondunun prezidenti xanım Əliyevanın sağlığına və ölkənizin hakimiyyət orqanlarının, cənab spikerin, burada əyləşən nazirlərin, dostlarımızın sağlığına və ölkənizin şərəfinə qaldırmaq istəyirəm.

SƏFƏR BAŞA ÇATDI

Mayın 13-də İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Prezident sarayında Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlovu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, parlamentlərarası əlaqələrin genişlənməsinin ikitərəfli münasibətlərin daha da dərinləşməsinə xidmət etdiyi bildirildi.

Söhbət zamanı ali qanunverici orqanlar arasında əməkdaşlığın perspektivləri, eləcə də ikitərəfli əlaqələrin müxtəlif sahələrinə dair fikir mübadiləsi də aparıldı, əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

GUAM ÖLKƏLƏRİ KİŞİNYOVDA ABŞ VƏ AVROPA İTTİFAQI İLƏ TƏRƏFDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİRLƏR

GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) ölkələri Kişinyovda ABŞ, Avropa İttifaqı və beynəlxalq təşkilatlarla tərəfdaşlıq məsələlərini müzakirə edirlər. İclasda ölkəmizi Xarici İşlər Nazirliyi xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin rəisi Tofiq Musayev təmsil edir.

Tədbir iştirakçıları tərəfdaşlığın genişləndirilməsi məsələləri ilə yanaşı, GUAM-ın terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi və cinayətkarlığın digər növləri ilə mübarizə üzrə virtual mərkəzinin yaradılması layihəsi, habelə intellektual mülkiyyətin mühafizəsinə dair saziş layihəsi üzərində işləyəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN STATS-KATİBİ, NAZİR MÜAVİNİ QRİQORİ KARASİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Prezident sarayında Rusiya Federasiyasının xarici işlər nazirliyinin stats-katibi, nazir müavini Qriqori Karasini qəbul etmişdir.

Qriqori Karasin ölkələrimiz arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğuladı. Qonaq bildirdi ki, Rusiya rəhbərliyi ikitərəfli münasibətlərin daha da genişlənməsinə böyük önəm verir.

Prezident İlham Əliyev Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirdi və ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdiriləcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Prezident sarayında YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir.

Görüşdə Azərbaycanla YUNESKO arasında əlaqələrin yüksək səviyyədə olduğu, ölkəmizdə bu təşkilatın xətti ilə keçirilən uğurlu tədbirlərin əməkdaşlığın daha da genişlənməsinə töhfə verdiyi bildirildi. Cənab Koişiro Matsuura ilə Azərbaycan Prezidenti arasında keçirilən səmərəli görüşlərin əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı və əməkdaşlığın bundan sonra da dərinləşəcəyinə əminlik ifadə olundu.

BAKIDA "AVROPADA SUBREGİONAL ÇƏRÇİVƏDƏ SAVADLILIQ PROBLEMLƏRİNƏ BAXIŞ: TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNNOVATİV YANAŞMALARIN TƏTBİQİNƏ DƏSTƏK" MÖVZUSUNDA YUNESKO-NUN REGİONAL KONFRANSI BAŞLANMIŞDIR

Mayın 14-də Bakının "Gülüstan" sarayında Dünyada Savadlılığın Dəstəklənməsi üzrə YUNESKO-nun Regional Konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda konfransı başlanmışdır.

YUNESKO-nun, Heydər Əliyev Fondunun və respublika Təhsil Nazirliyinin təşkilatçıları olduğu konfrans Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda keçirilir. Konfransda YUNESKO-nun baş direktoru Koişiro Matsuura, Hollandiya şahzadəsi xanım Laurentien, YUNESKO-nun xoşməramlı səfirləri - İordaniya şahzadəsi xanım Ferial və İslandiyanın sabiq prezidenti xanım Viqdos Finboqadottir, habelə bir sıra ölkələrin təhsil nazirləri və çoxsaylı mütəxəssisləri, Azərbaycan hökumətinin nümayəndələri, xarici ölkələrin Bakıdakı səfirləri iştirak edirlər.

"Gülüstan" sarayında mövzu ilə bağlı "BMT-nin Savad Onilliyi" mövzusunda sərgi də təşkil olunmuşdur. Sərgidə VIII əsrdən XX əsrin əvvəllərinə qədər məktəb və mədrəsələrdə dərs vəsaiti kimi istifadə edilən müqəddəs "Qurani-Kərim"in müxtəlif dövrlərə aid nüsxələri, habelə Azərbaycanda mövcud qədim kitablar və yeni dərs vəsaitləri, müxtəlif illərə aid ensiklopediyalar, əlifba kitabları və lügətlər, ümumilikdə 18 adda qədim kitab və 183 dərs vəsaiti nümayiş etdirilir.

Avropanın 31 ölkəsini əhatə edən konfransı Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının sədri, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov açaraq, qonaqları salamladı.

Prezidentin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına təbrikini oxudu. (Təbrikin mətni qəzetin bügünkü nömrəsində dərc olunur).

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva açılış mərasimində çıxış etdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Cənab YUNESKO-nun baş direktoru!

Əlahəzrətlər!

Zati-aliləri!

Xanımlar və cənablar!

Mən Avropada savadlılığın dəstəklənməsi mövzusunda YUNESKO-nun regional konfransının bütün iştirakçılarını və qonaqlarını səmimiyyətlə salamlayıram. Hamıya

"Azərbaycana xoş gəlmisiniz deyirəm!"

YUNESKO-nun təhsilin inkişafı sahəsindəki fəaliyyəti bütün dünyada yüksək dəyərləndirilir. Mən bu fürsətdən istifadə edərək, YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuraya elm, təhsil və mədəniyyətə dəstək sahəsində yorulmaz və hərtərəfli fəaliyyətinə və ölkələr arasında əməkdaşlığın qurulmasında göstərdiyi xidmətlərə görə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, mən məmnunluqla burada xüsusi qonaqlarımızı - Əlahəzrət Hollandiya şahzadəsi xanım Laurentieni, Əlahəzrət şahzadə Ferialı və YUNESKO-nun xoşməramlı səfiri, Zati-aliləri xanım Viqdos Finnboqadottiri salamlayıram. Bu konfransı fəal şəkildə dəstəklədiklərinə və bu gün bizimlə olduqlarına görə onlara xüsusi təşəkkürümü bildirirəm.

Bu gün biz 30-dan artıq Avropa ölkəsindən gəlmiş milli təhsil sistemlərinin rəhbərləri və rəsmiləri, eləcə də tanınmış ekspertlər və bir çox nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə görüşməkdən məmnunuq.

Bakı konfransı qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş regional və subregional YUNESKO konfranslarının davamıdır. Bu, milli, regional və beynəlxalq səviyyələrdə savadlılığın təşviq edilməsinə yönəlmiş birgə səylərin bir hissəsidir.

Hazırda YUNESKO hər bir ölkənin xalqı üçün təhsilə açıq və bərabər çıxışın təmin edilməsindən ötrü resursları səfərbər edir. Yüksək keyfiyyətli təhsilə çıxışın təmin edilməsi və savadsızlığın aradan qaldırılması məsələlərinə xüsusi diqqət yetirilir.

Avropa ölkələrində təhsilin sonrakı inkişafı üçün hazırkı forumun əhəmiyyətini qeyd etməmək mümkün deyildir. Bu tədbir qitəmizdə savadsızlığa aid problemlərin səmərəli həllinə yardım edəcəkdir.

Avropa ölkələri milli siyasəti vasitəsilə savadlılığı uğurla təşviq etmişlər. Bununla belə, ümumi savadlılığın ənənəvi yüksək səviyyədə qalmasına baxmayaraq, bu sahədə hələ də xüsusi problemlər və çağırışlar mövcuddur.

Konfransımız geniş Avropa ictimaiyyətinin savadlılıq və böyüklərin təhsili sahəsində ən aktual məsələlərin həllinə diqqətini cəlb etmək məqsədini daşıyır. Bu, cari təhsil problemlərini müzakirə etmək üçün xüsusi bir fürsətdir. Tədbir yeni ideyalar, təcrübə və ən münasib iş barədə fikir mübadiləsinə imkan verəcəkdir.

Konfrans ümumi yanaşmaları, habelə savadlılıq və böyüklərin təhsilini təşviq etmək məqsədi ilə istifadə olunan səmərəli üsulları və vasitələri müəyyən edəcəkdir. Biz konfransın yekun sənədlərində və tövsiyələrində Avropada təhsilin keyfiyyətinin artırılmasına yönəlmiş yeni razılaşdırılmış ideya və tədbirlərin öz əksini tapacağını gözləyirik.

Bu forum müxtəlif milli hökumətlərin və beynəlxalq təşkilatların gördüyü tədbirlər haqqında məlumat verəcək və dialoqu gücləndirəcəkdir. O, Avropa qitəsində savadlılığın yüksək standartını təmin edəcəkdir.

Ümidvaram ki, konfrans savadlılıq və təhsil sahəsindəki problemlərin həlli üçün milli strategiyaların formalaşdırılmasına mühüm töhfə verəcəkdir. Bu tədbir hamı üçün təhsil proqramının uğurla həyata keçirilməsinə xidmət edəcəkdir.

Mən bu cür mühüm konfransın Bakıda keçirilməsini təhsil sahəsində öz siyasətinin təşviq olunmasında Azərbaycanın əldə etdiyi nailiyyətlərin bəyənilməsi kimi qiymətləndirirəm. Şadam ki, YUNESKO və Azərbaycan bir çox sahələrdə uğurla çalışır və hazırda sıx dəstəkləyici tərəfdaşlıq qurublar.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Müasirləşmə siyasəti həyatın bütün sahələrində müşahidə edilir: iqtisadi, siyasi və mədəni sahələrdə. Sabit siyasi vəziyyət və artan iqtisadi inkişaf təhsil sahəsində problemlərin uğurla həlli üçün zəmin yaradır. Bu, yeni texnologiyaların tətbiqinə, istifadəsinə və inkişaf etdirilməsinə xidmət edir. Son dörd il ərzində ölkədə altı yüz mindən çox iş yeri yaradılmışdır. Əlbəttə, iqtisadiyyatın bir çox sahələrində, idarəçilik, bank işi və digər sektorlarda mütəxəssislərin formalaşmasına ciddi ehtiyac duyulur. Bu sahədə "Böyüklər üçün təhsil" həyata keçirilən ən uğurlu layihələrdəndir.

Hökumət ən müasir tələblərə cavab verən milli təhsil sisteminin yaradılmasına xüsusi əhəmiyyət verir. Təhsil infrastrukturunun inkişafına və müasir qurğuların tikilməsinə sərmayə qoyur. Təhsilin inkişaf etdirilməsi və onun Avropa standartlarına çatdırılması üçün genişmiqyaslı proqramlar həyata keçirilir.

Ölkəmizdə xüsusi dövlət proqramı aşağıdakı mövcud problemlərin həllinə yönəlib: müasir tədris üsullarının zəif şəkildə tətbiqi, mütəxəssislərin formalaşmasında olan çatışmazlıqlar və tədris zamanı müasir informasiya texnologiyalarının aşağı səviyyədə istifadəsi. Bu məsələlərlə biz bir çox digər postsovet ölkələrində üzləşirik.

Hesab edirəm ki, Azərbaycan yaxşı tərəqqiyə nail olub və düzgün istiqamətdə gedir. Bizim ən böyük problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyon qaçqın və məcburi köçkün yaranmışdır. Son 20 il ərzində belə vəziyyətdə yaşayan yeni nəsil formalaşıbdır. Qaçqın-köçkün uşaqları münaqişənin nəticələrindən əziyyət çəkirlər.

Buna baxmayaraq, mürəkkəb vəziyyət olsa da, hökumətimiz həmin uşaqlar üçün təhsilin müvafiq səviyyəsini təmin edə bilmişdir. Biz onların təhsil problemlərini həll etmək məqsədi ilə regionlardakı infrastrukturu dəstəkləyən təhsil modelini yaratmışıq. Hazırda bütün uşaqlar öz müəllimləri tərəfindən verilən təhsili alır, işğal olunmuş rayonların məktəbləri digər orta məktəblər kimi eyni səviyyədə fəaliyyət göstərir. Son on il ərzində bu, bizim ən mühüm nailiyyətlərimizdən biridir.

Təhsilin inkişafına hərtərəfli dəstək Heydər Əliyev Fondunun fəaliyyətinin prioritetlərindən biridir. Yaradıldığı gündən etibarən Fond ölkədə təhsilin inkişafına böyük töhfə vermişdir. Misal üçün, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində Fond tərəfindən ölkənin müxtəlif bölgələrində 200-dən artıq məktəb inşa edilmiş və müasir avadanlıqla təchiz olunmuşdur. İnternat məktəblərində uşaqlar üçün təhsil bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondu YUNESKO ilə əlaqələrini genişləndirməkdə davam edir və bu təşkilata dəstək verir. Fond bir sıra birgə layihələr və proqramlar həyata keçirir. 2007-ci ildə ölkəmizdə peşə təhsilinin inkişafı ilə bağlı layihənin həyata keçirilməsi haqqında YUNESKO, Azərbaycan hökuməti və Heydər Əliyev Fondu arasında saziş imzalanmışdır.

Bugünkü konfrans əməkdaşlığımızın yeni bir nümunəsidir. Birgə əməkdaşlığımız vasitəsilə biz hamının konkret şəkildə yararlanacağı daha möhkəm və uzunmüddətli münasibətlər quracağıq.

Sonda mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu konfrans ölkələrimiz arasında daha sıx və geniş əlaqələrin qurulmasına yeni təkan verəcəkdir. Tədbir bütün Avropa ölkələrinin milli təhsil sistemlərinin nümayəndələri arasında əməkdaşlığın möhkəmləndirilməsinə yardım edəcək və tərəfdaşlığımızı yeni səviyyəyə qaldıracaqdır.

Mən bu tədbirin təşəbbüskarlarına, təşkilatçılarına və iştirakçılarına, habelə hazırkı konfransın hazırlanmasında fəal çalışmış bütün şəxslərə bir daha səmimi minnətdarlığımı bildirirəm.

Ümidvaram ki, Azərbaycana səfərinizdən məmnun qalacaqsınız. Mən sizin hamınıza böyük uğurlar arzulayıram. Sağ olun.

YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI

- Hörmətli Azərbaycanın birinci xanımı,

hörmətli Niderland və İordaniya şahzadələri, İslandiyanın sabiq prezidenti,

hörmətli nazirlər, səfirlər,

xanımlar və cənablar!

YUNESKO-nun savadlılıq, xeyirxahlıq və təhsillə bağlı regional konfransına xoş gəlmisiniz. İcazə verin, Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya bu konfransa himayəçilik etdiyinə görə öz təşəkkürümü bildirim. Mehriban xanımın təhsilin, mədəniyyətin, sülhün və dialoqun inkişafında əlahiddə rolu var.

İcazə verin, bu tədbirin keçirilməsində göstərdiyi dəstəyə və YUNESKO-ya dərin sədaqətinə görə Mehriban xanıma bir daha səmimi təşəkkürümü ifadə edim.

Mən həmçinin bu tədbirin baş tutmasında göstərdiyi köməyə görə Azərbaycanın Baş nazirinin müavininə, digər nazirlərə təşəkkür edirəm.

Biz bu konfransda Niderland şahzadəsi Laurentienin məruzəsini dinləyəcəyik. Şahzadə Laurentien Niderland Krallığının Yazı və Oxu Fondunun sədridir. Onun savadlılığın sadiq tərəfdarı olması özünün müəllimlik təcrübəsinə əsaslanır.

Biz həmçinin ABŞ-ın birinci xanımı, BMT-nin Savadlılıq Onilliyinin fəxri səfiri Lora Buşun videomüraciətini də dinləyəcəyik. Bu görüş xanım Buşun təşəbbüsü ilə 2006-cı ilin sentyabrında Nyu-Yorkda keçirilən qlobal savadlılıq konfransının davamıdır.

İcazə verin, BMT-nin xoşməramlı səfirlərini, siyasətçiləri, universitetlərin, fondların, qeyri-hökumət təşkilatlarının nümayəndələrini, təhsil üzrə ekspertləri bir daha salamlayım.

Xanımlar və cənablar,

Biz bilirik və inanırıq ki, savadlılıq biliyin təməli və əsas inkişaf vasitəsidir. Təhsildə irəliləyiş olmadan, hətta yoxsulluğun azaldılmasına da nail olmaq mümkün deyildir. Qa-

dınlar arasında savadlılığın artırılması müasir dövrün qarşısında duran ən vacib məqsədlərdən biridir.

Biz bilirik ki, savadlılıq azadlıq, demokratiya, eləcə də fərdi gəlir, işlə təmin olunma, iqtisadi rifah üçün həlledici amildir. Əgər oxumaq və yazmağı bacarmasaydıq, bizim heç birimiz burada olmazdıq.

Ancaq milyonlarla insan hələ də savadlılığın üstünlüklərindən faydalana bilmir. Biz statistik məlumatları çox təkrarlamışıq, lakin icazə verin, yenə də təkrarlayım. Dünyada 774 milyon yaşlı insan var. Onların beşdə bir hissəsi yazmağı və oxumağı bacarmır. Bunların da üçdə iki hissəsini qadınlar təşkil edir. Bundan başqa, 72 milyon uşaq ibtidai təhsil almır və onların savad alması üçün çox az imkanları var. İnanıram ki, bu vəziyyətin qəbuledilməz olması barədə siz mənimlə razılaşarsınız.

Beş il əvvəl ABŞ-da bu qlobal ədalətsizliyin aradan qaldırılmasına istiqamətlənən bütün dövlətlərin toplantısı keçirilmişdir. Bu toplantıda 2003-2012-ci illər üçün savadlılıq onilliyi elan edildi. Məqsəd dünya ictimaiyyətini qlobal savadsızlıq problemi ilə bağlı məlumatlandırmaq və bu problemin aradan qardırılması istiqamətində fəaliyyəti daha da canlandırmaq idi. YUNESKO beynəlxalq ictimaiyyəti bu beynəlxalq kampaniyanı əlaqələndirməyə dəvət etdi.

Mən 2003-cü ilin fevralında Nyu-Yorkda xanım Lora Buşla onillik proqramı başlamaq şərəfinə nail olmuşam. Bu onilliyin dəstəklənməsi istiqamətində YUNESKO-nun fəaliyyəti böyükdür.

2005-ci ildə biz yaşlılar arasında 2015-ci ilə qədər savadlılığın 50 faizə qədər artırılması məqsədi ilə savadlılıq təşəbbüsünə ("Həyat" proqramı) başladıq. Bu proqram savadlılıq səviyyəsinin 50 faizdən aşağı, yaxud oxumağı və yazmağı bacarmayan 10 milyondan artıq insanın olduğu 35 inkişaf edən ölkə üçün nəzərdə tutulmuşdu. Beynəlxalq səviyyədə savadlılığa dəstəyin artırılması üçün YUNESKO öz səyini daha da artırır. Bu məqsədlə monitorinqlər təşkil edir, təcrübə mübadilələri aparır, zəruri resursları səfərbər edir. Biz bütün təşkilatları savadlılığa daha böyük üstünlük verməyə çağırırıq.

Hazırda "Hamı üçün təhsil" devizini tam reallaşdırmaq üçün tələb olunan əsas təhsilin səviyyəsində çatışmazlıq mövcuddur. Təəssüf ki, yaşlılar arasında savadlılıq proqramlarının maliyyə səviyyəsi çox aşağıdır. Buna görə də yaşlıların savadsızlıq problemini həll etmək üçün, ümumiyyətlə əsas təhsil üçün daha çox maliyyə vəsaiti sərf olunmalıdır.

Mən 35 ölkədə "Həyat" proqramının dəstəklənməsi üçün ianəçiləri daha çox vəsait sərf etməyə çağırıram. Bu ölkələrdə əldə ediləcək irəliləyiş qlobal savadsızlığın aradan qaldırılması istiqamətində olduqca vacibdir.

YUNESKO-nun qlobal savadlılığa dəstək üçün 6 regional və subregional konfrans təşkil etməsi olduqca fərəhləndirici haldır. Avropa üçün nəzərdə tutulmuş bugünkü konfrans ərəb ölkələri, Afrika, Asiya və Sakit Okean ölkələri üçün keçirilmiş konfranslardan sonra sayca beşinci konfransdır. Sentyabr ayında Meksikada Latın Amerikası və Karib hövzəsi ölkələri üçün daha bir konfransın keçirilməsi nəzərdə tutulur.

Hörmətli xanımlar və cənablar,

Bu konfransda təmsil olunan ölkələrdə savadlılığın səviyyəsi yüksək - 95 faizdən artıq-

dır. Lakin Avropada 15 milyon yaşlı hələ də oxumağı və yazmağı bacarmır. Əsas problem rəqəmlərdə deyil. Avropada savadsız yaşlıların sayı dünya üzrə 2 faiz təşkil edir. Avropa üçün əsas problem savad qabiliyyəti olmayan əhalinin çox olmasıdır. 2005-ci ildə aparılmış araşdırmalara əsasən, yaşlıların təxminən üçdə bir hissəsi gündəlik həyat və iş üçün tələb olunan savadlılıq səviyyəsinə çata bilməyibdir. Məsələn, belə bir faktı nəzərinizə çatdırmaq istərdim ki, Böyük Britaniyada on valideyndən biri uşaqlarına oxuduğu nağılları özü də başa düşə bilmir.

Əhalinin bəzi qrupları daha az savadlıdır. Buraya, əsasən, milli azlıqlar və immiqrantlar, fiziki cəhətdən qüsurlu olan insanlar, işsizlər, məhbuslar və ucqar ərazilərdə yaşayanlar daxildir.

Savadlılığın aşağı səviyyədə olması sosial və iqtisadi təcrid vəziyyətinə gətirib çıxarır. Avropa Komissiyasının gəldiyi qənaətə görə, Avropada 72 milyon aşağı qabiliyyətli işçilər vardır ki, bu da ümumi işçi qüvvəsinin üçdə birinə bərabərdir. Halbuki, 2010-cu ilə qədər yeni yaradılacaq iş yerlərinin 15 faizi həmin adamlar üçün nəzərdə tutulur, 50 faizi isə yüksək ixtisas tələb edəcəkdir. Belə olanda Avropa ölkələri həmin tələblərə necə cavab verəcəkdir? Bizim bu konfransda həll etmək istədiyimiz əsas məsələ də məhz budur.

İcazə verin, bəzi vacib məsələləri nəzərinizə çatdırım. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatına görə, bu təşkilata üzv ölkələrdə hər 15 yaşınadək uşaqdan 6 nəfəri qısa mətnlərin mənasını başa düşməkdə çətinliklərlə üzləşir. Bəzi ölkələrdə isə bu göstərici daha yuxarıdır. Avropada ibtidai və orta təhsilin aşağı səviyyəsi ciddi narahatlıq doğurur. Bu məsələ ilk növbədə öz həllini tapmalıdır.

İkinci məsələ isə davamlı təhsildir. Savadlı cəmiyyət təkcə yüksək savad dərəcəsi olan cəmiyyət demək deyildir. Bu elə bir cəmiyyətdir ki, orada savad qabiliyyəti inkişaf edir və istifadə olunur. Hazırda savadlılığın faydası dəyişməkdədir. Təkcə yazıb-oxumağı bacarmaq hələ kifayət deyil. İnformasiya texnologiyaları tələbələrin yiyələnməli olduğu yeni telefon və kommunikasiya vasitələri yaratmışdır. Bundan başqa, sürətli texnoloji dəyişikliklər və qloballaşma hər bir fərddən idraki və təcrübi qabiliyyətlər tələb edir.

Bu gün qabiliyyəti istiqamətləndirmək, biliyi idarə və inteqrasiya etmək əsas şərtdir. Savadlılığın müəyyən edilməsi o qədər də sadə deyildir. Əvəzində, biz hər yerdə insanları qabiliyyətlərinə görə istiqamətləndirməliyik.

Avropada müşahidə olunan qeyri-bərabər savadlılıq səviyyəsini müəyyənləşdirərkən biz bəzi məqsədləri qarşıya qoymalıyıq. Bu, təhsil alanların müxtəlif ehtiyaclarının və onların qarşılaşdıqları çətinliklərin düzgün başa düşülməsini də tələb edir. Bu baxımdan savadlılıq dərəcəsini müəyyənləşdirmək üçün milli və beynəlxalq vasitələrin olması çox vacibdir. Bu, yaxşı uyğunlaşdırılmış savadlılıq strategiyası tələb edir. Təhsil alanların artan ehtiyaclarını ödəmək üçün müxtəlif vasitə və mexanizmlər lazımdır. Bunlardan səmərəli istifadə olunmalı və müvafiq proqramlar uyğunlaşdırılmalı, nəzarət altında saxlanmalıdır. Əhalinin təcrid olunmuş qruplarının bilik imkanlarını artırmaq üçün bəzi üsul və vasitələr xüsusilə vacibdir.

Ümid edirəm ki, vacib məsələləri müzakirə edərkən siz bu və ya digər səbəbdən təhsildən təcrid olunmuş insanlara savad və sürətli inkişaf vasitəsilə yeni imkanlar bəxş edə-

cəksiniz. Buna görə də özümü xüsusilə xoşbəxt sayıram və ümid edirəm ki, sizin buradakı müzakirələriniz bütün Avropa və Şimali Amerikada diqqəti cəlb edəcəkdir.

YUNESKO-nun missiyası olan bu cür mübadilə həm yeni təmayülləri stimullaşdırır, həm də gələcəyə istiqamətlənmiş yeni şəbəkələr yaratmağa rəvac verir.

Hörmətli xanımlar və cənablar,

Ümid edirəm ki, bu konfransımız Avropada savadlılıq sahəsində yeni dünyagörüşünə təkan verəcəkdir. 2000-ci ildə qəbul edilmiş Lissabon strategiyasının məqsədi 2010-cu ilə qədər Avropanı dünyada biliyə əsaslanan iqtisadiyyata görə daha rəqabətli və dinamik regiona çevirməkdir.

Bu, həmçinin yoxsulluğa qarşı mübarizəyə və böyük sosial birliyə gətirəcəkdir. Bu konfrans davamlı inkişaf və yüksək həyat səviyyəsi üçün göstərilən qlobal səylərin reallaşdırılması baxımından Avropa ölkələrinə yeni imkanlar verir. Biz səmərəli fəaliyyət planları irəli sürməklə savadlı cəmiyyətlərə nail olmaq yolunda ardıcıl səylər göstərməliyik. Vaxt gedir. Bu, beynəlxalq ictimaiyyət üçün taleyüklü bir mərhələdir. 2015-ci ilə qədər "Hər kəs üçün təhsil" və Minilliyin İnkişaf Məqsədlərinə çatmaq üçün müəyyən edilmiş hədəflərdir. Verilmiş vədlərin yerinə yetirilməsi zamanıdır.

Sağ olun.

***

Sonra Amerika Birləşmiş Ştatları Prezidentinin xanımı, BMT-nin Savadlılıq Onilliyinin fəxri səfiri Lora Buşun tədbir iştirakçılarına videomüraciəti nümayiş etdirildi.

Lora Buş Bakı konfransının əhəmiyyətini vurğulayaraq bildirdi ki, dünyada savadsızlıq probleminin aradan qaldırılmasında hər bir ölkənin öhdəlik götürməsi vacibdir.

Ötən konfranslarda müzakirə olunmuş məsələlərə və qəbul edilmiş qərarlara toxunan ABŞ-ın birinci xanımı savadsızlığın təhlükəli mühit olduğunu vurğuladı.

Xanım Lora Buş savadsızlıq probleminin həllinin dünyada təbliği və dəstəklənməsi istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsinin zəruriliyini bildirdi, konfrans iştirakçılarına uğurlar arzuladı.

Konfransda çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru HAFİZ PAŞAYEV dedi ki, əsas məqsəd Avropada və dünyanın digər hissələrində savadsızlıq problemlərini müzakirə etmək və onların yeni həllərini tapmaqdır. O, savadlılığa həsr olunmuş konfransların keçirilməsinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya və indiki tədbirin Bakıda təşkilinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya təşəkkür etdi.

Azərbaycanda təhsilin inkişafı proseslərindən danışan Hafiz Paşayev vurğuladı ki, Azərbaycan cəmi bir əsr ərzində savad, təhsil və elm sahəsində mühüm dəyişikliklərin baş verdiyi nadir ölkələrdən biridir. Cəmi 100 il əvvəl Azərbaycan əhalisinin çox hissəsi savadsız idi. Lakin hətta bu mühitdə də Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyov kimi görkəmli şəxsiyyətlər yetişmiş və xalqımızın zəngin mədəni irsini daha da zənginləşdirmişlər. Zey-

nalabdin Tağıyev kimi uzaqgörən azərbaycanlı xeyriyyəçilərin sayəsində qızlar gimnaziyası da daxil olmaqla, bir sıra dünyəvi məktəblər açılsa da, ümumi kütlə savadsızlıq qaranlığında qalmaqda idi.

Hafiz Paşayev sovet dövründə təhsilin inkişaf sahəsində görülmüş işləri vurğulayaraq bildirdi ki, Sovet İttifaqı əhalinin savad göstəricisinə görə dünyada ən yüksək yer tutan ölkələrdən biri idi. Həmin dövrdə böyük bir ziyalı nəsli formalaşmışdı. Həmin nəslin bir neçə nümayəndəsinin 100 illik yubileyləri YUNESKO səviyyəsində qeyd edilir. Bununla yanaşı, Hafiz Paşayev sovet təhsil sisteminin nöqsanlarından da danışdı, bunların ilk növbədə təhsilin strukturu, metodologiyası və real dünyadan uzaq olması ilə bağlı olduğunu dedi.

Müstəqillik illərində Azərbaycanın təhsil sisteminin yeni bir mərhələyə daxil olduğunu bildirən xarici işlər nazirinin müavini dedi ki, hazırda Azərbaycan hökuməti keçmişdən gələcəyə doğru sürətli dəyişiklik üçün əlindən gələni etməkdədir. Prezident İlham Əliyev Azərbaycanı müasir və yüksək səviyyədə təhsil almış kadrlarla təmin etməkdən ötrü gənclərin xaricdə oxumaları üçün xüsusi Dövlət proqramı imzalamışdır.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın təhsil sahəsinin inkişafında xidmətlərini qeyd edən Diplomatik Akademiyanın rektoru xatırlatdı ki, son illərdə Fondun təşəbbüsü ilə 200-dən çox yeni məktəb binası tikilmiş, yüzlərlə bina təmir olunmuşdur. Mehriban xanımın "qayğısız bir uşaq qalmasın" şüarının məqsədi kasıb və imkansız ailələrin, eyni zamanda, milli azlıqların və qaçqın-köçkünlərin uşaqlarına qayğı göstərməkdir.

Akademiyanın rektoru dedi ki, yeni məktəb və universitetlər özlüyündə məqsəd deyil, "yeni vətəndaş" yetişdirmək üçün vasitədir. Bu məqsədlə Azərbaycan hökuməti təhsil sahəsində islahatları davam etdirir. Təhsil sistemi yeni texnologiyalardan istifadə etməyi, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşmağı bacarmalı, real dünyanın meyillərini başa düşməlidir. Yalnız belə təhsil savadsızlıq problemini geniş mənada həll edə bilər.

Hafiz Paşayev rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verərək bildirdi ki, Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılmış Diplomatik Akademiya peşəkar diplomatlar və digər mütəxəssislər hazırlamaq üçündür. Azərbaycan həm Şərq, həm də Qərblə münasibətlərini genişləndirir və inkişaf etdirir. İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin sayı 26-dan 56-ya çatmışdır. Növbəti iki ildə daha 20 ölkədə səfirlik açılacaqdır.

Rektor akademiyanın planları haqqında ətraflı məlumat verərək dedi ki, Diplomatik Akademiya ABŞ-ın Corctaun Universiteti, Fletçer Hüquq və Diplomatiya Məktəbi, Con Hopkins Universiteti kimi nüfuzlu təhsil ocaqları və Avropa Kolleci, ENA, Kembric Universiteti, MDBMİ, Trento Universiteti kimi Avropanın nüfuzlu təhsil ocaqları ilə münasibətlər qurmuş, əməkdaşlığa dair sazişlər imzalamışdır.

Hafiz Paşayev təhsil konsepsiyasının həyata keçirilməsinə töhfəsi və dəstəyinə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya bir daha təşəkkürünü bildirdi.

Hollandiya şahzadəsi xanım LAURENTİEN çıxışında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı sə-

firi Mehriban Əliyevanın təhsilin inkişafına göstərdiyi qayğını yüksək qiymətləndirdi.

O dedi ki, dünyada milyonlarla yaşlı insan yazıb oxuya bilmir, xeyli uşaq isə məktəbə getmir. Avropada əhalinin 20-25 faizi savadsızdır. Bu vəziyyətin qəbuledilməzliyini söyləyən şahzadə savadlılığın insan inkişafına aparan yol olduğunu vurğuladı.

O, Avropada bu sahədə həllini gözləyən problemlərin olduğunu qeyd edərək, onların həlli ilə bağlı ölkəsində mühüm işlərin görüldüyünü söylədi. Bildirdi ki, insanın təhsilli olması gələcəyə ümidini artırır və onun cəmiyyətə daha tez adaptasiya olunmasına imkan verir. Savadlılıq cəmiyyətin gündəliyində olmalıdır.

Şahzadə Laurentien savadsızlıq problemlərinin həllində yüksək texnologiyaların tətbiqinin vacibliyini xüsusi vurğuladı. O dedi ki, bu sahəyə investisiyaların qoyulması çox əhəmiyyətlidir. Savadsızlıq probleminin həllinə cəmiyyətin diqqətini artırmaq üçün mətbuatın rolundan da istifadə edilməlidir.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA HOLLANDİYA ŞAHZADƏSİ LAURENTİEN İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 14-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Gülüstan" sarayında YUNESKO-nun himayəsi ilə təhsil problemlərinə dair keçirilən konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Hollandiya şahzadəsi xanım Laurentien ilə görüşmüşdür.

Qonağı Bakıda görməyindən şad olduğunu bildirən Mehriban xanım Əliyeva dəvəti qəbul edib Bakıya gəldiyi üçün şahzadəyə təşəkkür etdi, konfransın uğurlu keçəcəyinə əminliyini söylədi.

Mehriban xanım rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr barədə qonağa məlumat verdi.

Hollandiya şahzadəsi dəvətə görə təşəkkür edərək, Bakıya səfərindən məmnunluğunu bildirdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA İSLANDİYANIN SABİQ PREZİDENTİ VİQDOS FİNNBOQADOTTİR İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 14-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Gülüstan" sarayında YUNESKO-nun himayəsi ilə təhsil problemlərinə dair konfransda iştirak etmək üçün ölkəmizdə səfərdə olan İslandiyanın sabiq prezidenti, YUNESKO-nun xoşməramlı səfiri xanım Viqdos Finnboqadottir ilə görüşmüşdür.

Mehriban xanım Əliyeva Azərbaycana səfərə gəldiyinə və konfransda iştirakına görə qonağa təşəkkürünü bildirdi.

Xoş münasibətə və qonaqpərvərliyə görə minnətdarlıq edən xanım Viqdos Finnboqadottir Bakıda keçirilən konfransın əhəmiyyətini vurğuladı.

Mehriban xanım Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında qonağa ətraflı məlumat verdi.

YUNESKO-NUN DÜNYADA SAVADLILIĞIN DƏSTƏKLƏNMƏSİNƏ DAİR BAKIDA KEÇİRİLƏN 5-Cİ REGİONAL KONFRANSI İŞİNİ DAVAM ETDİRMİŞDİR

YUNESKO-nun, Heydər Əliyev Fondunun və respublika Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakıda keçirilən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda 5-ci regional konfrans mayın 15-də işini davam etdirmişdir.

İlk olaraq "Müasir dünyada savad konsepsiyası, onun inkişafı və yaşlıların təlimi" mövzusunda "dəyirmi masa" keçirilmişdir. YUNESKO-nun Ömürboyu Təhsil İnstitutunun direktoru Adama Ouen müzakirələri açaraq demişdir ki, əsas diqqət Avropada savad anlayışı, onun inkişafı, ömürboyu öyrənmə perspektivində böyüklərin təhsili kimi məsələlərə yönəldiləcək, səslənən fikirlərdən siyasət və strategiyaların işlənib hazırlanması zamanı istifadə olunacaqdır. Bu, cəmiyyətin bütün üzvlərinə əsas bacarıqların əldə edilməsində kömək göstərəcək və inkişafa təkan verəcəkdir. Hazırda Avropa ölkələrində savadla bağlı vəziyyəti nəzərə alaraq, böyüklər üçün savad proqramlarına diqqət artırılır. Uğurlu və məsuliyyətli bir həyat sürmək, cəmiyyətin həyatında səmərəli iştirak etmək, müasir dövrün və gələcəyin tələblərinə cavab vermək üçün əlavə bacarıqların lazım olduğunu vurğulayan A.Ouen demişdir ki, bu baxımdan savad və böyüklərin öyrədilməsinin əsas məqsədi fərdlərdə dəyərləndirmə, idarəetmə, inteqrasiyaolunma və qarşılıqlı təsir üçün başlıca bacarıqların inkişaf etdirilməsidir. Əlbəttə ki, bu bacarıqlara oxu, yazı, elmi savad, riyazi bilik, dil bilmək kimi koqnitiv komponentlər daxil deyildir. Bununla belə, sürətli sosial və texnoloji dəyişikliklərin tələbi, iqtisadiyyat və mədəniyyətin qloballaşması, müxtəlifliyin artması, rəqabət və liberallaşma, sosial bərabərsizlik, münaqişələr və yoxsulluğun bütün formaları insanlardan elə bacarıqlar tələb edir ki, bunlar texniki ünsiyyət bacarıqları çərçivəsindən kənara çıxır. Bacarıqların potensial bəhrələri insanlara əmək bazarında, siyasi proseslərdə və sosial şəbəkələrdə uğurla iştirak etməyə imkan verir. Vurğulanmışdır ki, fundamental insan hüququ kimi savad özlüyündə məqsəd deyil, fərdi və ictimai həyatda fəal iştirak, sosial həyata müdaxilə, iqtisadi və humanitar inkişaf üçün, o cümlədən özünəinam və qərarlar qəbulu üçün bir vasitədir.

YUNESKO-nun eksperti Aaron Benavot, Niderlandın Yazı və Oxu Fondunun direktoru Marqaret de Vrays, Böyüklərin Təhsili üzrə Avropa Assosiasiyasının prezidenti Yanoş Yigeti Tot, Avropa Komissiyasının Təhsil və mədəniyyət departamentinin nümayəndəsi Marta Ferreyra "dəyirmi masa"da çıxış edərək, təmsil etdikləri qurumlar tərəfindən aparılmış tədqiqat işləri və bunların nəticələri barədə məlumat vermişlər. Qeyd olunmuşdur ki, ümumiyyətlə, Avropa İttifaqı ölkələrində savadlılıq anlayışının tərifi fərqlidir. Lakin şəxsi, ictimai və iqtisadi həyat problemlərinin öhdəsindən gəlmək üçün lazımi adekvat savada verilən tələblər eynidir.

Bildirilmişdir ki, Avropada 80 milyon aşağı təhsilli fəhlə var və onların ümumi işçi qüvvəsinin üçdə birini təşkil edir. Hesablamalar göstərir ki, 2010-cu ilədək ibtidai təhsili

olanlar yeni yaradılacaq iş yerlərinin yalnız 15 faizində çalışa biləcəklər. İş yerlərinin 50 faizi isə yüksək ixtisaslı işçilər tələb edəcəkdir. Bu vəziyyət Aİ ölkələrində insanların xeyli hissəsinin hüquqlarının pozulmasına yol açır. Müasir əmək bazarı savadlılığı aşağı olan insanlara çox məhdud miqdarda iş yeri təklif edir. Hər bir kəsin baza vərdişlərinə yiyələnməsinin həqiqətən mümkünlüyünü təmin etmək Təhsil Şurasının 2010-cu iləDək Təhsil və təlim iş proqramının ən əsas məsələlərindəndir. Avropada böyüklərə baza vərdişlərini yüksəltmək və təsdiqləmək imkanını təmin etmək məsələsi də Avropa Komissiyasının böyüklərin təhsili üzrə Fəaliyyət planının mövzularından biridir.

"Dəyirmi masa"da iştirakçıları maraqlandıran suallara ətraflı cavab verilmiş, mövzu ətrafında fikir mübadiləsi aparılmışdır.

Fasilədən sonra konfrans öz işini YUNESKO-nun xoşməramlı səfiri, İordaniya şahzadəsi Fərialın sədrliyi ilə "Ailədə savad və nəsillərarasıöyrənmə" və YUNESKO-nun xoşməramlı səfiri xanım Viqdos Finnboqadottirin sədrliyi ilə "Davamlı inkişaf naminə savad və təhsil" və "Rotary İnternational" təşkilatının nümayəndəsi Örsçelik Balkanın sədrliyi ilə "Səhiyyə sahəsində savadlılıq" mövzuları üzrə işçi qruplarında müzakirələrlə davam etdirmişdir.

Həmin gün YUNESKO-nun baş direktorunun müavini Nikolas Börnetin sədrliyi ilə "Savad səviyyələrinin və təməl bacarıqların müəyyən edilməsi və dəyərləndirilməsi" mövzusunda ikinci "dəyirmi masa" keçirilmişdir.

N.Börnet vurğulamışdır ki, savadın qiymətləndirilməsi üzrə müasir meyarlar diqqəti yalnız məktəb və savad proqramlarında iştirak edənlərin qeydiyyatını aparmağa deyil, vərdişlərin müxtəlif səviyyə və növlərinin, bacarıqların gündəlik həyatda tətbiqinin qiymətləndirilməsinə yönəldir. Bu cür vərdiş insanın sadəcə oxuyub-yazmaq üçün zəruri bacarıq və vərdişlərə malik olub-olmamasını müəyyənləşdirməkdən müasir elmi cəmiyyətlərdə düzgün istiqamətlənmək bacarığının öyrənilməsinə doğru yönəlir. Deməli, savadın qiymətləndirilməsində yalnız savadlı-savadsız mövqeyindən çıxış etmək kifayət etmir, digər məqamlar da nəzərə alınmalıdır. Savad səviyyəsinin qiymətləndirilməsi həm də müxtəlif əhali qruplarının təhsilə ehtiyacları barədə informasiyanın əldə olunmasını təmin etməlidir.

"Dəyirmi masa"da Kanada Statistika İdarəsinin təmsilçisi İvan Klermont, Latviyadan Andres Kanqro, Fransadan Jan Pyer Janto, Rusiyadan Marina Kuznetsova, Polşadan İreneuş Bialetski mövzu ilə bağlı təqdimatlarla çıxış etmiş, savadın ölçülməsi məsələsinin işlənib hazırlanması və istifadəsi haqqında təcrübələrdən danışmışlar. Subregionlarda həyata keçirilmiş qiymətləndirmənin nəticələrindən nümunələr gətirilmiş, siyasətin və fəaliyyətin çərçivəsinin müəyyənləşdirilməsində savad proqramlarından necə istifadə edilməsi, hansı əlavə məlumatların tələb olunması məsələlərinə toxunulmuşdur. Avropa regionunda savadın qiymətləndirilməsi üzrə məlumatların yaradılması və istifadəsi üzrə gələcək beynəlxalq və yerli planlar da müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND RAYONLARININ İNKİŞAFI NAZİRİ ŞALOM SİMHONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də İsrailin kənd təsərrüfatı və kənd rayonlarının inkişafı naziri Şalom Simhonu qəbul etmişdir.

Görüşdə Azərbaycanla İsrail arasında iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığın mümkün perspektivləri barədə fikir mübadiləsi aparıldı, İsrail nazirinin səfərinin azərbaycanlı həmkarları ilə bu sahədə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığı vurğulandı.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI 2009-CU İLİN SONUNADƏK BİRİLLİK MAGİSTR PROQRAMI YARADACAQDIR

Bu barədə mayın 15-də xarici işlər nazirinin müavini, XİN-in Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev rəhbərlik etdiyi təhsil ocağının fəaliyyətinə dair keçirdiyi mətbuat konfransında məlumat vermişdir.

H.Paşayev bildirmişdir ki, Azərbaycan Diplomatik Akademiyasında cari ilin yanvarında yaradılan Tədqiqat Mərkəzinin məqsədi dövlət siyasətinin formalaşmasına yardım göstərmək, dövləti yüksək səviyyəli tədqiqat materialları ilə təmin etməkdir.

Rektor vurğulamışdır ki, hazırda akademiyanın qarşısında iki məqsəd qoyulmuşdur. Birincisi, mövcud diplomatlara xarici siyasət barədə təlim-təhsil işlərini öyrətmək üçün proqramın hazırlanmasıdır. Proqram çərçivəsində yeni diplomatlar üçün 2007-ci ilin iyun-dekabr ayları ərzində altı aylıq kurs keçirilmiş və 24 əməkdaş hazırlanmışdır. Digər məqsəd - birillik magistr proqramı yaratmaqdır ki, bu proqram da 2009-cu ilin sonunadək hazırlanacaqdır. Proqramın ilk olaraq 25-50 tələbə ilə başlanması planlaşdırılır. Sonradan isə tələbələrin sayı 250-yə çatdırılacaqdır.

H.Paşayev demişdir ki, akademiya müəllimlərin hazırlanması üçün də işlər görmək niyyətindədir. Bu proqramı həyata keçirmək üçün xarici ölkələrdən professor və müəllimlər dəvət etməyə ehtiyac olacaqdır.

Bildirilmişdir ki, Tədqiqat Mərkəzinin Məsləhət Şurası da yaradılmışdır. Şuranın tərkibinə nüfuzlu təhsil ocaqlarının professorları, alimləri daxildir.

Məsləhət Şurasının tərkibinə nüfuzlu Amerika və Avropa mütəxəssislərinin daxil olmasını yüksək qiymətləndirən H.Paşayev təlim proqramlarına diplomatlarla yanaşı, digər qurumların nümayəndələrinin də cəlb edildiklərini demişdir.

Akademiyanın Tədqiqat Mərkəzinin rəhbəri, tanınmış ABŞ politoloqu Pol Qobl isə demişdir ki, işlədiyi müddətdə gənc diplomatlara analitik işi düzgün aparmağı və yazmağı öyrədəcəkdir. Xüsusi vurğulanmışdır ki, Diplomatik Akademiya Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyətini gücləndirəcəkdir.

Akademiyanın Tədqiqat Mərkəzi ayda iki dəfə Azərbaycan və regiona dair məqalələrdən ibarət olan "Azərbaycan dünyada" adlı elektron jurnal hazırlayır. Jurnal regionda marağı olan 5000-dən çox beynəlxalq tədqiqat institutlarına göndərilir. Mərkəz həmçinin "Müasir diplomatiya və konsulluq hüququ" kitabını da nəşr etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN "KOLON" ŞİRKƏTİNİN SƏDRİ VUNQ YUL LİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında Cənubi Koreyanın "Kolon" şirkətinin sədri Vunq Yul Lini qəbul etmişdir.

Görüşdə Cənubi Koreya şirkətlərinin uzun illər Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi və bunun ölkələrimiz arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi vurğulandı və "Kolon" şirkətinin də Azərbaycanda uğurlu iş quracağına əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN HARVARD UNİVERSİTETİNİN PROFESSORU COZEF NAYI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da ABŞ-ın Harvard Universitetinin professoru Cozef Nayı qəbul etmişdir.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən professor Cozef Nay bildirdi ki, səfərinin əsas məqsədi Azərbaycandakı proseslərlə yaxından tanış olmaq və ölkəmizlə bağlı daha geniş informasiya əldə etməkdir. O, Azərbaycanın ABŞ üçün əhəmiyyətli ölkə olduğunu, əlaqələrin daha da möhkəmləndirilməsinin zəruriliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu dedi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Cozef Nayın ölkəmizə səfəri onun Azərbaycanla yaxından tanış olması üçün yaxşı imkan yaradacaqdır.

YUNESKO-NUN 5-Cİ REGİONAL KONFRANSI BAŞA ÇATMIŞDIR

YUNESKO-nun, Heydər Əliyev Fondunun və Azərbaycan Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakıda keçirilən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda 5-ci regional konfrans mayın 16-da başa çatmışdır.

Günün birinci yarısında konfrans "Pedaqoji yanaşmalar: keyfiyyətli təməl təliminin inkişaf etdirilməsi" mövzusunda "dəyirmi masa" ilə davam etmişdir.

Müzakirələri açan YUNESKO-nun Moskva ofisinin direktoru Mark Riçmond demişdir ki, keyfiyyətli ibtidai təhsili təmin etmək üçün ilkin şərt savad, böyüklərin ibtidai təhsili və peşəkar təlim proqramları vasitəsilə yaxşı hazırlıq keçmiş mütəxəssislərdir. Lakin bir çox hallarda təlim qısa və səthi aparılır. Digər vacib məsələ dərs proqramıdır. Keyfiyyətli dərs proqramlarının tərtibi üçün, ilk növbədə, öyrəncilərin tələblərini təhlil etmək lazımdır.

İngiltərədən Con Vorhauz "Böyüklərin savad pedaqogikasına dair tədqiqat: böyüklərin yazma, oxuma və hesab öyrənməsi üçün milli tədqiqat və hazırlıq mərkəzi" mövzusunda çıxışında demişdir ki, tədrisin keyfiyyəti və pedaqoji təcrübədən səmərəli istifadə savadsızlığın aradan qaldırılmasında əsas amillər kimi nəzərə alınmalıdır. O bildirmişdir

ki, 2001-ci ildə ingilis dilini ikinci dil kimi öyrənənlər arasında aparılan araşdırmalar göstərmişdir ki, bu sahədə qısa vaxt ərzində nailiyyət qazanılması üçün tədrisin metodikasında müasir elementlər öz əksini tapmalıdır.

Hamburqdakı (Almaniya) Böyüklərin Təhsili İnstitutunun direktoru Nüsl fon Ekkexard, Polşadan Eva Prjibilska çıxışlarında savadsızlığın aradan qaldırılması, insanların, o cümlədən miqrantların cəmiyyətə daha sürətlə inteqrasiya olunması üçün müxtəlif layihələr həyat keçirilməsinin əhəmiyyətindən danışmışlar.

Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsinin dekanı Əfqan Abdullayevin keyfiyyətli tədrisə nail olmaq üçün istifadə edilən metodlara dair çıxışı da maraqla qarşılanmışdır. O, həmçinin bildirmişdir ki, 15 yaşdan yuxarı insanların savadlılıq dərəcəsinə görə Azərbaycan 177 ölkə arasında 15-ci yeri tutur.

İkinci "dəyirmi masa" "Yeni tələblərə cavab və inteqrasiya olunmuş təlim imkanları sistemlərinin yaradılması" mövzusuna həsr olunmuşdu. Avropa Şurasının nümayəndəsi Sezar Birzenin apardığı "dəyirmi masa"da Serbiya Böyüklərin Təhsili Cəmiyyəti Federasiyasının prezidenti Katarina Popoviç, Avstriyadan olan Lorens Lassniq, İsveçrə Böyüklərin Təhsili Federasiyasının direktor müavini Rut Jermann, Rusiyadan Viktor Bolotov çıxış etmişlər.

Azərbaycan MEA-nın akademiki Urxan Ələkbərov "Qaçqınlar və məcburi köçkünlər üçün sabit nəticələrə yönümlü təhsil imkanları: Hökumət, qeyri-hökumət təşkilatları və özəl sektorların əməkdaşlığı" mövzusunda təqdimatında ölkəmizdə savadsızlıqla mübarizədə Heydər Əliyev Fondunun xidmətlərini də vurğulamışdır. O bildirmişdir ki, demokratiyanın təşviqi üçün savadlılığın çox böyük əhəmiyyəti vardır.

Müzakirələrdə savadsızlıq probleminə daha geniş yanaşmağın vacibliyi vurğulanmış, bildirilmişdir ki, savadlanmanın həyata keçirilməsində əsas təminatçılar dövlət və QHT-lər olmalıdır. Avropa ölkələrində əsas problem təhsil imkanları üçün əlaqələndirilmiş sistemin olmamasıdır. Savadsızlıq probleminin həlli Avropa ölkələrinin sıx əməkdaşlığına təkan verəcəkdir.

YUNESKO-nun baş direktorunun təhsil üzrə müavini Nikolas Börnet konfransı keçirməkdə dəstəyinə görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmişdir.

Konfransın yekun tövsiyələri qəbul olunmuş, bunların bütün dünyada təbliğ edilməsi zəruri sayılmışdır.

Konfransın bağlanış mərasimində çıxış edən təhsil naziri Misir Mərdanov YUNESKO-ya və Heydər Əliyev Fonduna minnətdarlığını bildirmişdir. Konfransın Azərbaycan üçün böyük əhəmiyyəti olduğunu vurğulayan nazir demişdir ki, bu tədbir ölkəmizdə təhsildə aparılan islahatların daha da təkmilləşdirilməsinə təkan verəcəkdir.

İSLAM KONFRANSI TƏŞKİLATI EKSPERTLƏRİNİN İCLASININ YEKUN SƏNƏDİNDƏ LEYLA ƏLİYEVANIN TƏŞƏBBÜSÜ DƏSTƏKLƏNMİŞDİR

Mayın 17-də İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında yekun sənəd qəbul olunmuşdur.

Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə birinci Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəklənmiş və 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olunmuşdur.

Bundan əlavə, Xocalı qətliamının İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklif də İKT nazirlərinin toplantısına təqdim ediləcəkdir. Qəbul olunmuş sənəddə Xocalı soyqırımının Avropa, Asiya və Afrika ölkələri regional parlamentlərarası assambleyalarının dialoqu zamanı bəşəriyyətə qarşı kütləvi qətliam kimi tanınması barədə məsələ də qaldırılacaqdır.

Toplantı iştirakçıları Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmış və Xocalı soyqırımından bəhs edən sərgi ilə, habelə Bosniya və Herseqovinada, Fələstində törədilmiş qətliamlardan bəhs edən fotoşəkillərlə də tanış olmuşlar.

Müzakirələrin yekununa dair qəbul olunmuş sənəd İKT Mədəniyyət Nazirləri Şurasına təqdim olunacaqdır.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ AVSTRİYADA BİR SIRA SƏMƏRƏLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev BMT Sənaye İnkişafı Təşkilatı (UNİDO), ATƏT və Avstriyanın rəsmi qurumları ilə görüşlər keçirmək məqsədilə mayın 15-16-da Vyanada işçi səfərdə olmuşdur.

BMT Sənaye İnkişafı Təşkilatının (UNİDO) baş direktoru Kandeh K. Yumkella ilə keçirilən görüşdə təşkilatın Azərbaycanda qeyri-neft sektorunda həyata keçirdiyi layihələrin mövcud durumu, onların sürətləndirilməsi və yüksək səviyyədə tamamlanması barədə fikir mübadiləsi aparılmış, bu layihələrin qeyri-neft sektorunun inkişafına təkan verəcəyi vurğulanmışdır. Həmçinin BMT Sənaye İnkişafı Təşkilatının dünyanın əksər neft-qaz istehsal edən ölkələrində iqtisadiyyatın diversifikasiyası məqsədilə müxtəlif birgə proqramlar həyata keçirməsini nəzərə alaraq, gələcəkdə Azərbaycanla da bu istiqamətdə əməkdaşlıq imkanlarına toxunulmuşdur.

ATƏT-in Vyanada yerləşən katibliyində təşkilatın iqtisadiyyat və ekologiya məsələləri üzrə əlaqələndiricisi Bernard Snoa ilə keçirilən görüşdə iqtisadiyyat və ekologiya sahələrində Azərbaycanda həyata keçirilən layihələr və gələcək fəaliyyət barədə söhbət aparılmışdır. ATƏT-in mətbuat azadlığı üzrə nümayəndəsi Mikloş Haraşti ilə görüşdə gələcək əməkdaşlıq məsələləri və fəaliyyət imkanları müzakirə edilmişdir.

Azərbaycan-Avstriya Qarışıq Komissiyasının Avstriya tərəfindən həmsədri, federal iqtisadiyyat və əmək nazirliyinin xarici iqtisadiyyat əlaqələri üzrə baş direktoru Yohann Zaxs ilə görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin ilbəil artması müsbət hal kimi qiymətləndirilmiş, may ayında Qarışıq Komissiyanın Vyanada keçirilmiş beşinci iclasına toxunulmuş, komissiyanın fəaliyyətinin daha da səmərəli təşkil olunması və qəbul etdiyi qərarların həyata keçirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

Avstriya Sənayeçilər Federasiyası və Avstriya İqtisadiyyat Palatasının nümayəndələri ilə keçirilmiş görüşlərdə Avstriya tərəfdən Azərbaycana avstriyalı iş adamlarından ibarət ticarət missiyasının səfərinin təşkil edilməsi və azərbaycanlı tərəfdaşları ilə əlaqə yaradılması niyyəti ifadə olunmuşdur. Qeyd edilmişdir ki, son illərdə Azərbaycanın iqtisadi gücünün artması, Avropanın enerji mənbələrinin diversifikasiyasında Azərbaycanın əhəmiyyətli rolu, Azərbaycanın müxtəlif rəsmi qurum və Avstriyadakı diplomatik missiyasının səmərəli fəaliyyəti son illərdə Avstriya iş adamlarının Azərbaycana marağını xeyli artırmış və indiyədək bir neçə iqtisadi missiya ölkəmizdə səfərdə olmuşdur.

KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SIN SUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 18-də Koreya Respublikasının Baş naziri Han Sın Su Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev adına beynəlxalq hava limanında hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qonağı Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Koreyanın Baş nazirinə və xanımına gül dəstələri təqdim etdilər.

Hər iki ölkənin dövlət himnləri səsləndi.

Qarşılanma mərasimindən sonra hava limanının ali qonaqlar üçün salonunda Han Sın Su və Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SIN SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Koreya Respublikasının Baş naziri Han Sın Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla və sürətlə inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev son illər Azərbaycanla Cənubi Koreya arasında səmərəli əməkdaşlığa nail olunduğunu qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Koreya Respublikası Baş nazirinin ölkəmizə səfəri və imzalanan mühüm sənədlər əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəkdir.

Baş nazir Han Sın Su Koreya Respublikasının Prezidenti Li Men Bakın ən xoş arzularını və səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sürətli iqtisadi inkişafın getdiyinin şahidi olduqlarını vurğuladı. Qarşılıqlı əməkdaşlığımızın uğurla inkişaf etdiyini deyən Han Sın Su bildirdi ki, imzalanmış sənədlər Azərbaycan-Cənubi Koreya münasibətlərinin yaxşı göstəricisidir. O, ticarət sahəsində əlaqələrin son bir neçə ildə sürətlə genişləndiyini və bunun gələcəkdə də davam etdiriləcəyinə əminliyini vurğuladı.

Dövlətimizin başçısı Koreya Respublikasının Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

KOREYA RESPUBLİKASI BAŞ NAZİRİNİN AZƏRBAYCANA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ SƏNƏDLƏR İMZALANMIŞDIR

Mayın 19-da Azərbaycanın Baş naziri Artur Rasizadə Koreya Respublikasının Baş naziri Han Sın Sunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Hökumət başçılarının təkbətək görüşündən sonra geniş tərkibdə Azərbaycan-Koreya danışıqları keçirilmişdir.

Azərbaycanın Baş naziri son vaxtlar sürətlə inkişaf edən Azərbaycan-Koreya əlaqələrini yüksək qiymətləndirmiş və demişdir ki, münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının mühüm rolu olmuşdur. Məhz Azərbaycan və Koreya prezidentlərinin qarşılıqlı səfərləri zamanı imzalanmış sənədlər əməkdaşlığımızın daha da genişlənməsi üçün möhkəm hüquqi baza yaratmışdır.

A.Rasizadə ümidvar olduğunu bildirmişdir ki, Koreya Respublikası hökuməti nümayəndə heyətinin, habelə iş adamlarından ibarət böyük bir qrupun səfəri qarşılıqlı surətdə faydalı əməkdaşlığa və əmtəə dövriyyəsinin artmasına təkan verəcəkdir. Azərbaycan iqtisadiyyatının uğurlarından, Azərbaycanın təşəbbüsü ilə regionda həyata keçirilən qlobal nəqliyyat və enerji layihələrindən danışan A.Rasizadə vurğulamışdır ki, ölkənin başlıca problemi həll olunmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. O, ölkə rəhbərliyinin münaqişənin nizama salınmasına dair göstərdiyi səylərdən, bir sıra ölkələrin bu məsələdə nümayiş etdirdikləri ikili standartlardan danışmışdır.

Koreya Respublikasının Baş naziri Han Sın Su Azərbaycana səfərə dəvət etdiyinə, eləcə də nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Artur Rasizadəyə minnətdarlığını bildirmişdir. O, Azərbaycanın neft yataqlarının işlənməsi sahəsində həyata keçirilən uzaqgörən siyasəti, ölkəni qısa müddətdə regionun lider dövlətinə çevirən milli neft strategiyasını yüksək qiymətləndirmişdir. Bildirmişdir ki, Azərbaycanın dinamik inkişafı onun etibarlı tərəfdaş kimi mövqelərini daha da möhkəmləndirir.

Koreya Respublikası hökumətinin başçısı demişdir ki, onun dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəkləyir.

Danışıqlar zamanı qida sənayesi, kənd təsərrüfatı, elektronika, gəmiqayırma, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri geniş müzakirə olunmuşdur.

Hökumət başçılarının görüşünün sonunda Azərbaycan və Koreya respublikaları arasında iqtisadiyyat, sənaye və energetika, ekologiya, reyestr və torpaq qeydiyyatı, ətraf mühitin mühafizəsi, yol tikintisi sahələrində əməkdaşlığa, eləcə də diplomatik və xidməti rəsmi pasportlara malik şəxslərin qarşılıqlı viza tələblərindən azad olunmasına dair saziş və memorandumlar imzalanmışdır.

Sonda mətbuat konfransı keçirilmiş, jurnalistləri maraqlandıran suallar cavablandırılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir.

Görüşdə Azərbaycanla AŞPA arasında əməkdaşlığa və həmməruzəçilərin ölkəmizə səfəri ilə bağlı müxtəlif məsələlərə dair fikir mübadiləsi aparıldı.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 19-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidentini Azərbaycanın Baş naziri Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar ali qonağa gül dəstələri təqdim etdilər.

Qarşılanma mərasimindən sonra hava limanının ali qonaqlar üçün salonunda Prezident Qurbanqulu Berdiməhəmmədov və Baş nazir Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 19-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə rapport verdi.

Prezident İlham Əliyev Prezident Qurbanqulu Berdiməhəmmədovu səmimiyyətlə qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan Prezidentinə raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkmənistanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkmənistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Qurbanqulu Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan-Türkmənistan münasibətlərinin inkişaf perspektivləri və bu prosesin fəallaşmasında dövlət başçılarının görüşlərinin rolu vurğulandı. Türkmənistanın dövlət başçısının Azərbaycana bu rəsmi səfərinin ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik bildirildi.

Prezidentlər beynəlxalq həyat və regional əməkdaşlıqla bağlı məsələləri də müzakirə etdilər.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 19-da Azərbaycanın və Türkmənistanın dövlət başçıları arasında hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olmuşdur.

Prezident İLHAM ƏLİYEV Prezident Qurbanqulu Berdiməhəmmədovu salamlayaraq dedi:

- Hörmətli Qurbanqulu Malikquliyeviç!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycan torpağında salamlayıram. Ölkəmizə səfər etdiyinizə görə Sizə təşəkkür edirik və əminik ki, bu səfər ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsində mühüm mərhələ olacaq, ölkələrimizin potensialını və əməkdaşlıq perspektivlərini daha tam reallaşdırmağa imkan verəcəkdir. Mən çox şadam ki, Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Nümayəndə heyətinin üzvləri müxtəlif sahələri təmsil edirlər və bu fakt bizim çoxşaxəli, hərtərəfli əməkdaşlığı, iqtisadi və humanitar əlaqələri inkişaf etdirmək arzumuzun ortaq olmasını vurğulayır.

Bizim ölkələrimiz arasında ümumi cəhətlər çoxdur, keçmişdə həmişə sülh və dostluq şəraitində yaşamışıq. Bu gün də müstəqil Türkmənistan və müstəqil Azərbaycan fəal inkişaf etməkdə olan dövlətlərdir. Əminəm ki, bu gün bizim ikitərəfli əməkdaşlığın perspektivlərini müzakirə etməyimiz bu əməkdaşlığın geniş proqramını müəyyən etməyə imkan verəcəkdir.

Bu gün biz ikitərəfli münasibətlərin çox mühüm məsələlərini müzakirə etdik. İndi müzakirələrimizi geniş tərkibdə davam etdirəcəyik.

Bu gün bizim qonağımız olduğunuza görə Sizə təşəkkür etmək, Sizə və qardaş türkmən xalqına firavanlıq və səadət diləmək istəyirəm.

Prezident QURBANQULU BERDİMƏHƏMMƏDOV çıxışında dedi:

- Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Hörmətli İlham Heydər oğlu, mən, ilk növbədə, bu cür səmimi qəbul üçün, qardaş Azərbaycan torpağında bizə göstərdiyiniz qonaqpərvərlik üçün Sizə səmimi təşəkkürümü bildirmək, Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzu etmək istərdim.

Bizim bu səfərimiz ikitərəfli dialoqun fəallaşması şəraitində keçir və münasibətlərimizin bütün spektrinin keyfiyyətcə yeni səviyyəsi ilə xarakterizə olunur. Onu da qeyd etmək istərdim ki, biz Azərbaycan Prezidenti ilə müntəzəm əlaqə saxlayırıq və beynəlxalq forumlarda bizim görüşlərimiz buna sübutdur. İndicə Sizinlə çox əhatəli fikir mübadiləsi apardıq, iki dövlət arasında qarşılıqlı münasibətlərin vəziyyətini və perspektivlərini, qarşılıqlı maraq doğuran bir sıra beynəlxalq məsələləri müzakirə etdik.

Onu da vurğulamaq istəyirəm ki, bizim xalqlarımızın rifahına yönəlmiş əməkdaşlığımızın böyük gələcəyi var. Bununla əlaqədar hökumətlərarası səviyyədə, ilk növbədə, Türkmənistanın və Azərbaycanın dövlət orqanları arasında getdikcə genişlənməkdə olan əlaqələr böyük əhəmiyyət kəsb edir.

Keçən il yaradılmış və ikitərəfli əməkdaşlığın dərinləşməsi baxımından mühüm mexanizm kimi fəaliyyət göstərən Türkmənsitan-Azərbaycan hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının işi hərtərəfli dəstəklənməyə layiqdir.

Ölkələrimiz beynəlxalq aləmdə, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır. Bu baxımdan, biz regional və qlobal səviyyələrdə sülh, təhlükəsizlik və inkişafın mühüm problemlərinə dair fikir mübadiləsi aparırıq.

Biz belə hesab edirik, Birləşmiş Millətlər Təşkilatı planetdə sülh, təhlükəsizlik və davamlı inkişaf məsələlərini həll etməli olan universal beynəlxalq hüquqi mexanizmdir.

Müasir dövrün qarşılıqlı maraq doğuran aktual problemləri barədə məsləhətləşmələrimizin davam etdirilməsinin məqsədəuyğun olmasını da qeyd etmək lazımdır. Fürsətdən istifadə edərək, azərbaycanlı dostlarımıza, ilk növbədə, hörmətli Prezident İlham Əliyevə Aşqabadda BMT-nin Preventiv Diplomatiya üzrə Regional Mərkəzinin yaradılması barədə Türkmənistanın təşəbbüsünü dəstəklədiyinə görə təşəkkür etmək istərdim.

Sonra Azərbaycan-Türkmənistan münasibətləri barədə fikir mübadiləsi davam etdirildi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Mayın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun geniş tərkibdə görüşündən sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası və Türkmənistanın Ticarət və Sənaye Palatası arasında əməkdaşlıq haqqında sazişi Azərbaycan Ticarət və Sənaye Palatasının sədri Süleyman Tatlıyev və Türkmənistan Ticarət və Sənaye Palatasının prezidenti Palvan Taqanov imzaladılar.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Türkmənistanın İqtisadiyyat və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında sazişi Azərbaycanın maliyyə naziri Samir

Şərifov və Türkmənistan Baş nazirinin müavini Xocamurad Geldimuradov imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquluyev imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Dəryaqulu Məhəmmmədquluyev imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında standartlaşdırma, metrologiya və akkreditasiya sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Baş nazirinin müavini Xocamurad Geldimuradov imzaladılar.

Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Baş nazirinin müavini Xıdır Saparlıyev imzaladılar.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Türkmənistanın Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokolu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkmənistan Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov imzaladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Mayın 19-da Azərbaycan-Türkmənistan sənədlərinin imzalanma mərasimi başa çatandan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Qurbanqulu Malikquliyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Prezident başda olmaqla, qardaş Türkmənistanın nümayəndə heyətini Azərbaycan torpağında bir daha salamlamaq istəyirəm. Bu gün qarşılıqlı maraq doğuran məsələlər barədə çox geniş fikir mübadiləsi oldu. Biz ikitərəfli əməkdaşlığı, onun inkişaf perspektivlərini, regional məsələləri, regionumuzda təhlükəsizlik sisteminin möhkəmləndirilməsi məsələlərini müzakirə etdik. Müzakirə edilən bütün məsələlər barədə bizim mövqelərimiz tamamilə üst-üstə düşür.

Biz Türkmənistan Prezidentinin Azərbaycana səfərinə çox böyük əhəmiyyət veririk. Mən bu səfəri ikitərəfli münasibətlərimizin inkişafında keyfiyyətcə yeni mərhələ açan tarixi səfər hesab edirəm. Son vaxtlar biz ikitərəfli münasibətlərimizin coşğun inkişafının şahidləriyik. İqtisadi əlaqələrimiz möhkəmlənir, siyasi təmaslarımız daimi xarakter

daşıyır, həyatımızın bir sıra istiqamətləri üzrə çox sıx qarşılıqlı əlaqə mövcuddur. Bütün bunlar, əlbəttə ki, bizi çox sevindirir.

Türkmənistan və Azərbaycan çox dinamik inkişaf edən müstəqil dövlətlərdir. Onlar özlərini təmin etmək iqtidarında olan, zəngin təbii ehtiyatlara, coşğun inkişaf imkanlarına malik və iqtisadi inkişaf sürətinə görə regionumuzda ən yüksək nəticələr nümayiş etdirən dövlətlərdir.

Biz bu əməkdaşlığın inkişaf etdirilməsində çox maraqlıyıq. Bu gün biz nəqliyyat problemləri ilə əlaqədar məsələləri və bunların həllinin konkret yollarını müzakirə etdik. Bu məsələlərin həlli ölkələrimizi daha da yaxınlaşdıracaq, habelə regionda güclü nəqliyyat infrastrukturu yaradılmasına kömək edəcəkdir. Biz ölkələrimizin çox yüksək göstəriciləri nümayiş etdirdiyi energetika sahəsində əməkdaşlıq məsələlərini də müzakirə etdik. Azərbaycan və Türkmənistan başqa ölkələrin enerji təhlükəsizliyində iştirak edir.

Bu gün müzakirə etdiyimiz mövzulardan biri də Xəzər problemi idi. Biz Xəzəryanı ölkələrin dövlət başçılarının Tehran sammitinin yekunlarını, eləcə də Xəzərdə əməkdaşlığın inkişaf etdirilməsinin gələcək yollarını razılıq hissi ilə qeyd etdik. Əminik ki, Türkmənistanın və Azərbaycanın bu istiqamətdə səmərəli qarşılıqlı fəaliyyəti həmin məsələnin hərtərəfli tənzimlənməsinə kömək edəcəkdir.

Başqa sözlə desək, müzakirə edilən bütün məsələlər və mövzular barədə qarşılıqlı anlaşma çox yüksək səviyyədədir, mövqelərimiz üst-üstə düşür. Əminəm ki, bu səfər və onun nəticələri ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına xidmət edəcəkdir.

İndicə çox mühüm ikitərəfli sazişlər imzalandı. Həmin sazişlər əməkdaşlığın bu istiqamətdə formatını müəyyən edir. Lakin biz əməkdaşlığımızı təkcə imzalanmış sənədlərlə məhdudlaşdırmırıq. Biz inanırıq ki, əməkdaşlığımız həyatımızın bütün sahələrini əhatə edəcək, qardaş Türkmənistan və Azərbaycan xalqları bundan sonra da sülh şəraitində yaşayacaq, əməkdaşlıq edəcək, ölkələrimizin və xalqlarımızın inkişafına şərait yaradacaqlar. Biz buna çox böyük əhəmiyyət veririk. Türkmənistan Prezidenti hörmətli Qurbanqulu Malikquliyeviç mənim təklifimi qəbul edərək bugünkü səfərə gəldiyinə görə ona təşəkkür etmək istərdim. Əminəm ki, çox uğurla başlamış səfər uğurla da başa çatacaqdır.

Diqqətinizə görə sağ olun.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI

- Möhtərəm İlham Heydər oğlu!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən qonaqpərvər Azərbaycan torpağında olmağımdan çox şadam. Burada bizim bütün nümayəndə heyəti azərbaycanlı dostlarımızın səmimiyyəti və mehribanlığını hiss etdi. Bu səfər və yüksək səviyyədə baş tutmuş danışıqlar bir daha sübut etdi ki, həm Türkmənistan, həm də Azərbaycan iki qonşu, qardaş ölkə arasında ən sıx əməkdaşlıq yaradılmasına çox böyük əhəmiyyət verir. Məmnuniyyətlə demək istəyirəm ki, son vaxtlar

dövlətlərimiz arasında siyasi dialoq xeyli fəallaşmış, yeni məzmun kəsb etmişdir. Əslində, bu əməkdaşlığın dinamikasını son səkkiz ayda istər hökumət nümayəndə heyətləri səviyyəsində, istərsə də mütəxəssislər səviyyəsində Türkmənistanla Azərbaycan arasında səfərlər mübadiləsinin xronikasına əsasən asanlıqla izləmək olar.

Türkmənistan-Azərbaycan hökumətlərarası komissiyasının yaradılması da ölkələrimizin ənənəvi əməkdaşlığa daha məhsuldar və konstruktiv xarakter vermək istəyini göstərir. Yəqin bilirsiniz, bu komissiyanın nisbətən yaxın vaxtlarda yaradılmasına baxmayaraq, tərəflər qarşılıqlı maraqlarımızın reallaşdırılması üçün təsirli və səmərəli mexanizm yaratmağa müvəffəq olmuşlar.

Məsələn, komissiyanın birinci iclası çərçivəsində əvvəllər bizim tərəfdaşlıq münasibətlərimizin inkişafını ləngidən maliyyə məsələləri və digər mühüm məsələlər tənzimlənmişdir.

İki ölkə arasında əmtəə dövriyyəsi durmadan artır. Son vaxtlar bu göstərici, demək olar, üç dəfə artmışdır. Lakin hətta bu rəqəm də həm Türkmənistan, həm də Azərbaycan xalqlarının mənafeyi naminə reallaşdırmağa çalışdığımız əməkdaşlıq potensialını tam əks etdirmir. İlk növbədə, bütün dünyada enerji dövlətləri statusuna malik olan hər iki ölkənin iqtisadiyyatı üçün baza əhəmiyyəti kəsb edən yanacaq-energetika sektorunda tərəfdaşlıqdan söhbət gedir. Möhtərəm İlham Heydər oğlu ilə bugünkü danışıqların gedişində biz bu mövzuya xüsusi diqqət yetirdik. Bizim ümumi fikrimiz belədir ki, məhz bu sahə gələcək dövlətlərarası tərəfdaşlığın strateji istiqamətinə çevriləcəkdir. Əməkdaşlıq imkanlarını hərtərəfli öyrənmək və bu imkanları dünyaya təqdim etmək üçün biz bu il sentyabr ayında Bakıda "Türkmənistan və Azərbaycan neft və qazı" mövzusunda konfrans keçirmək barədə razılığa gəldik.

Ümumi fikrə görə, ikitərəfli qarşılıqlı əlaqələrin ən mühüm sahələrindən biri də nəqliyyatdır. Asiya ilə Avropanın qovuşduğu məkanda yerləşən Türkmənistanın və Azərbaycanın əlverişli geosiyasi mövqeyi qonşu ölkələrimizin bu üstünlüklərindən həm öz mənafelərimiz üçün, həm də Qərbdə və Şərqdə yerləşən başqa dövlətlərin mənafeyi üçün istifadə etməyə imkan verir.

Hesab edirəm ki, bu cür imkanların olması bütün coğrafi-iqtisadi xəritənin dəyişməsi üçün yaxşı üfüqlər açır. Bununla əlaqədar qeyd etmək istərdim ki, hazırda Türkmənistan öz nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi üçün mühüm addımlar atır. Biz Qazaxıstandan və İrandan olan tərəfdaşlarımızla birlikdə Şimal-Cənub transmilli nəqliyyat dəhlizi yaradılmasına dair layihələri həyata keçirməyə başlamışıq və mən bilirəm ki, Azərbaycanda da buna oxşar tikinti işləri aparılır. Buna görə də biz rəqabət haqqında deyil, qüvvələrimizi birləşdirmək barədə danışırıq. Bu, regionun bütün ölkələri üçün real iqtisadi səmərə vəd edir və əlbəttə, yük və sərnişin daşımalarının artmasına şərait yaradacaqdır.

Ticarət-iqtisadi əlaqələrin inkişafı məsələsinə gəldikdə, burada da, bizim bir-birimizə təkliflərimiz var. Çox böyük iqtisadi resurs potensialına malik olan bu iki ölkənin coğrafi yaxınlığını nəzərə alsaq, ticarətin inkişafı üçün çox gözəl perspektiv imkanlar var. Məsələn, Türkmənistan hazırda ən müasir avadanlıqla təchiz olunmuş müəssisələrdə istehsal edilən və dünya bazarında yüksək qiymətləndirilən toxuculuq, kimya sənayesi və digər məhsullarını Azərbaycana satmağa hazırdır.

Əlbəttə, görüşlərin gedişində biz Xəzər mövzusuna xüsusi diqqət yetirdik, Xəzər dənizinin hüquqi statusu barədə beş sahilyanı dövlətin hamısının mövqelərini razılaşdırmağa dair konstruktiv danışıqları davam etdirməyin vacibliyi barədə vahid fikrə gəldik. Bu məsələnin həlli Xəzər dənizini sülh, mehriban qonşuluq, sabitlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq zonasına çevirməyin zəruri olmasının dərk edilməsinə əsaslanır. Bununla əlaqədar qeyd etmək istərdim ki, Xəzərin hüquqi statusu haqqında Konvensiyanın hazırlanması və imzalanması Xəzəryanı dövlətlərin hamısının birinci dərəcəli və təxirəsalınmaz vəzifəsidir. Bu məsələdə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupun fəaliyyəti çox əhəmiyyətlidir. Biz belə hesab edirik ki, Xəzər dənizinin statusunun tezliklə müəyyən edilməsi onun karbohidrogen və bioloji resurslarının effektiv və səmərəli mənimsənilməsi, Xəzər hövzəsinin nadir ekoloji sisteminin qorunub saxlanması, eləcə də Xəzərdə fəal beynəlxalq əməkdaşlıq üçün əlverişli şərait yaratmağa imkan verəcəkdir.

Bu gün imzalanmış ikitərəfli sənədlər paketi də bir-birimizin mənafelərinə hörmət etməklə, əməkdaşlıq üşün çox böyük imkanlar olmasını nəzərə almaqla düzgün yolla getdiyimizi göstərir. Əlbəttə, bunu qeyd etmək mənə xoşdur ki, sülh və dostluq dənizi ilə birləşən xalqlarımızı bir-birinə bağlayan tarixi və mədəni tellər humanitar əməkdaşlığın daha da inkişaf etməsi üçün etibarlı platforma yaradır. Başlanğıcı əsrlərin və minilliklərin dərinliklərindən gələn bu ənənəvi əlaqələrimizi möhkəmlətmək zərurəti fikri bu gün yeni qüvvə ilə səsləndi. Başlıcası odur ki, xoş niyyətlə birləşən xalqlarımız bu dialoqu genişləndirməyə və möhkəmlətməyə çalışır.

Böyük türkmən alimlərinin, keçmiş mütəffəkirlərin və tarixi şəxsiyyətlərin həyat və yaradıcılığına həsr edilmiş mötəbər beynəlxalq konfranslarda və forumlarda Azərbaycanın elm və mədəniyyət xadimlərinin fəal iştirak etməsi buna sübutdur. Biz yaxşı başa düşürük ki, qabaqcıl elmi təfəkkürün nailiyyətlərinin və yüksək texnologiyaların tətbiqi cəmiyyətin sosial-iqtisadi inkişafının baza prinsipidir. Bununla əlaqədar, biz bu gün daha çox tələbat olan elmi əlaqələrin bərpasını alqışlayırıq. Biz mövcud potensialları birləşdirə bilərik və buna hazırıq. Ona görə də humanitar sahədə əməkdaşlıq haqqında ikitərəfli sazişin hazırlanmasını və gələcəkdə imzalanmasını məqsədəuyğun sayırıq.

Beləliklə, gördüyünüz kimi, danışıqların gündəliyi kifayət qədər geniş olmuşdur və əminəm ki, əldə etdiyimiz razılaşmalar dövlətlərarası dialoqu yeni səviyyəyə çatdıracaq, ona yeni dinamika və yeni keyfiyyət bəxş edəcəkdir. Biz Türkmənistan-Azərbaycan qarşılıqlı əlaqələrinin ən mühüm və aktual məsələlərini müzakirə etdik, onların strateji istiqamətlərini müəyyənləşdirdik və əminəm ki, gələcəkdə sıx ünsiyyətdə işləyəcək, çoxəsrlik dostluq və qardaşlıq tellərini daha da möhkəmlədəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 19-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Möhtərəm Qurbanqulu Malikquliyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Türkmənistan Prezidentini Azərbaycan torpağında bir daha salamlamaq, bütün qonaqlara "Xoş gəlmisiniz!" demək istərdim.

Bizim xalqlarımızı çoxəsrlik dostluq və əməkdaşlıq telləri bağlayır. Onlar əsrlər boyu fəal əlaqələr saxlamış, dostluq etmiş, birgə çalışmışlar. Bu gün də bizim müstəqil dövlətlərimiz arasında münasibətlər bu möhkəm tarixi zəmin üzərində qurulur. Hazırda Türkmənistanın və Azərbaycanın dinamik inkişafı regional əməkdaşlığın çox mühüm amilidir. Ölkələrimiz müstəqillik əldə edəndən sonrakı dövrdə böyük irəliləyiş yolu keçmiş, böyük uğurlar qazanmış, öz müstəqilliklərini möhkəmləndirmişlər və bu indi onlar nəinki regionda, hətta dünya miqyasında ən dinamik inkişaf edən ölkələrdəndir. Biz keçid dövrünün problemləri ilə əlaqədar qarşımızda duran vəzifələri uğurla yerinə yetirmişik və bu gün gələcəyə inamla baxırıq.

Bu gün Türkmənistan Prezidenti ilə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edərkən bir daha yəqin etdim ki, ölkələrimizin ikitərəfli münasibətlər, regional əməkdaşlıq, regional təhlükəsizlik problemlərinə yanaşmalarında ortaq cəhətlər çoxdur. Bizim ölkələr müstəqillik əldə edəndən sonra öz potensialını tam həcmdə reallaşdırmaq imkanı qazanmışlar və indi müstəqil siyasət, milli maraqlarımıza əsaslanan siyasət yeridirlər. Çox sevindirici haldır ki, bu gün biz Türkmənistanın ali nümayəndə heyətini qəbul edərkən öz keçmişimizi bir daha təhlil etmək və irəliyə doğru hərəkət yollarını müəyyənləşdirmək imkanına malikik.

Bu gün imzalanmış sənədlər ölkələrimizin qarşıdakı illər üçün səmərəli əməkdaşlığını irəlicədən müəyyənləşdirəcəkdir. Son dövrdəki fəal siyasi dialoq sayəsində biz müəyyən müddət həll olunmamış qalan bir sıra problemləri həll etməyə, gələcək əməkdaşlığımızın perspektivlərini planlaşdırmağa və bununla da bizim gələcək münasibətlərimizin inkişafının möhkəm təməlini yaratmağa nail olmuşuq.

Mən belə hesab edirəm ki, Türkmənistan Prezidentinin Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəsinin başlanğıcı olacaqdır. Biz iqtisadi əməkdaşlıq, qarşılıqlı siyasi əlaqələr məsələlərini, energetika kompleksi, nəqliyyat kompleksi ilə bağlı məsələləri müzakirə etdik. Qarşılıqlı surətdə faydalı planlarımız, ideyalarımız, layihələr çoxdur, artıq indi onların həyata keçirilməsi üçün çox möhkəm potensial vardır, infrastruktur yaradılmışdır və ən başlıcası, hər iki tərəfin bir-birinə daha çox yaxınlaşmaq, əməkdaşlıq etmək, qarşılıqlı ticarətin həcmini artırmaq, humanitar sahədə əməkdaşlığı inkişaf etdirmək arzusu böyükdür.

Bu gün mənə çox xoşdur ki, Türkmənistan Prezidenti, mənim hörmətli dostum böyük nümayəndə heyətinin müşayiəti ilə Azərbaycana gəlmişdir. Bu nümayəndə heyətində energetika, yanacaq, nəqliyyat sektorlarının və başqa sektorların nümayəndələri ilə yanaşı, incəsənət xadimləri, humanitar sektorun nümayəndələri də var. Bu, bizim möhkəm tarixi təməli olan münasibətlərimizin çox mühüm seqmentidir. Əminəm ki, bizim

nümayəndə heyətlərinin üzvləri arasında keçirilmiş bugünkü görüşlər ən yaxın vaxtda əməli nəticələrə gətirib çıxaracaqdır. Bu gün bizim bu barədə danışmaq və ölkələrimizin nümayəndələri arasında alimlər, tədqiqatçılar, mədəniyyət xadimləri səviyyəsində fəal humanitar əməkdaşlığın konkret yollarını nəzərdə tutmaq imkanımız oldu. İkitərəfli münasibətlərimizin bu seqmenti hər hansı iqtisadi layihələrdən heç də az əhəmiyyət daşımır.

Demək istəyirəm ki, Türkmənistan Prezidentinin Azərbaycana səfəri mahiyyət etibarilə münasibətlərimizin tamamilə yeni mərhələsidir. Artıq dediyim kimi, qısa müddətdə biz elə məsələləri həll etməyə nail olmuşuq ki, onların həlli bəzən çox çətin görünürdü. Lakin prezidentlərin iradəsi sayəsində, ölkələrimiz arasında inteqrasiya prosesinin bütün iştirakçıları sayəsində bu, mümkün oldu.

Biz gələcəyə inamla baxırıq, bizim dövlətlər özlərini təmin edən, çox böyük intellektual potensialı, zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi olan dövlətlərdir. Bütün bunlar bizim əməkdaşlığımızı şərtləndirir.

Bu gün Türkmənistan Prezidentinin səfərinin birinci gününün sonunda artıq əminliklə deyə bilərik ki, səfərin ilk günü uğurlu olmuşdur və mən inanıram ki, yaxın vaxtlarda biz bu səfərin nəticələrini görəcəyik.

Fürsətdən istifadə edib, bir daha qardaş Türkmənistan xalqına dərin hörmət və məhəbbət hisslərimi bildirmək, qardaş ölkəyə yeni uğurlar, nailiyyətlər, yeni zəfərlər arzulamaq istəyirəm. Qonşularınız kimi, dostlarınız kimi, qardaşlarınız kimi biz sizin uğurlarınıza həmişə sevinirik.

Mən bu badəni Türkmənistan Prezidentinin sağlığına, qardaş Türkmənistan xalqının şərəfinə, Türkmənistanla Azərbaycan arasında münasibətlərin inkişafı şərəfinə qaldırmaq istəyirəm.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Xanımlar və cənablar!

İlk növbədə, Türkmənistan xalqına ünvanlanmış xoş sözlərə və Türkmənistanla Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi arzularına görə hörmətli İlham Heydər oğluna təşəkkürümü bildirmək istəyirəm.

İcazə verin, Azərbaycan torpağında Türkmənistan nümayəndə heyətinə göstərilmiş qonaqpərvərliyə və səmimi qəbula görə də minnətdarlığımızı bildirim. Biz burada yüksək dostluq ab-havası hiss edirik və bu mühit iki dövlət və onların xalqları arasında qarşılıqlı anlaşmanın və etimadın möhkəmlənməsinə kömək edir.

Hörmətli İlham Heydər oğlu!

Bizi Azərbaycana rəsmi səfərə dəvətinizi mehriban qonşuluq münasibətlərimizin daha da genişləndirilməsini ürəkdən istəyən xeyirxah dost tərəfindən olan bir müraciət kimi qəbul etdik.

Bu gün keçirilmiş görüşlərin və danışıqların yekunları inandırıcı şəkildə göstərir ki, ölkələrimiz ikitərəfli əməkdaşlığın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyurlar. Hörmətli Azərbaycan Prezidenti ilə biz əmin olduğumuzu bildirdik ki, tərəfdaşlığımızın möhkəm təməli var və bu əməkdaşlıq yaxşı perspektivləri olan böyük gələcəyə istiqamətlənmişdir. Bu fikrin təsdiqi və inkişafı kimi bu gün biz ölkələrimiz arasında mövcud normativ hüquqi bazanı daha da gücləndirən ikitərəfli sənədlər imzaladıq. Müasir reallıqlar nəzərə alınmaqla, bu gün əldə edilmiş razılaşmalar əvvəllər imzalanmış ikitərəfli sənədlərlə birlikdə gələcək birgə fəaliyyət üçün ciddi stimuldur.

Əziz dostlar!

Hazırda iqtisadi yüksəliş yolu ilə, xalqın maddi rifahının daha da yüksəldilməsi, ictimai sabitliyin möhkəmlənməsi, beynəlxalq aləmdə ölkənin nüfuzunun artırılması yolu ilə irəliləyən Azərbaycanda görülən işlərə biz Türkmənistanda böyük hörmətlə yanaşırıq. Biz xalqlarımızı birləşdirən, onları çoxəsrlik dostluq telləri ilə bağlayan hər şeyi qayğı ilə qoruyuruq. Xalqımız Türkmənistanla Azərbaycan arasında indiki və gələcək nəsillərin qarşılıqlı surətdə zənginləşməsinin əsasını təşkil edən dil, mədəniyyət və mənəviyyat ümumiliyini yüksək qiymətləndirir və onlara hörmət bəsləyir. Bu məqamda mən bizim xalq arasında da tamamilə eyni məna daşıyan gözəl Azərbaycan məsəllərini xatırlamaq istərdim: "Sədaqətli dost - əbədi dostdur", yaxud "Dostumun evinə öz evim kimi gedirəm" və ya "Dost gəlişi bayram olar".

Əziz dostlar, biz burada olduğumuz müddətdə nümayəndə heyətimizin necə səmimi qəbul edilməsinə əsasən xalq məsəllərinin düzgünlüyünü əyani şəkildə yəqin etdik. Bu gün biz gördük ki, Azərbaycan sürətlə inkişaf edir və ən başlıcası, bu ölkənin xalqı öz Vətəninin rifahı naminə, onun firavanlığı və sülh naminə yaşayır və işləyir.

Xüsusi vurğulamaq istərdim ki, həm türkmənlər, həm də azərbaycanlılar bugünkü həyatımızı qurarkən həmişə yaşlı nəsillərin təcrübəsinə əsaslanırlar, onların sayəsində biz sabaha inamla baxırıq. Bu barədə danışarkən belə bir məqamı da xatırlatmaq və vurğulamaq istəyirəm ki, bizim aramızda yaşca böyüklər də var. Onlara türkmənlər də "yaşlı" deyirlər, sizdə də belə deyirlər. Bu sözü ehtiramla işlədirlər. Mən Azərbaycan xalqının böyük oğlu, 85 illik yubileyini Azərbaycan xalqının bu yaxınlarda qeyd etdiyi Heydər Əlirza oğlu Əliyevin xatirəsini xoş sözlərlə yad etmək istərdim.

Azərbaycanın ötən əsrdəki tarixinin, demək olar ki, yarısı bu dünya miqyaslı görkəmli dövlət xadiminin adı ilə bağlıdır. Türkmənistanda həmin dövr bizim ilk Prezidentimiz Saparmurad Niyazovun adı ilə bağlı olduğu kimi. Heç şübhəsiz, Heydər Əliyev yeni Azərbaycanın memarı və qurucusu, xalqın və ölkənin sıx birliyinin rəmzidir.

Buna görə biz də Sizinlə bərabər öz ölkələrimizin naminə, gələcək nəsillərin naminə çox iş görməliyik.

Qardaş Azərbaycana ən xoş arzularımı bildirmək, öz inkişafında yeni zirvələr fəth etməsi yolunda ona uğurlar arzulamaq məni məmnun edir. Bundan ötrü hər cür şərait və ilk növbədə, Türkmənistanın, onun xalqının timsalında mehriban qonşularınız vardır.

Əziz dostlar, mən bu badəni hörmətli dostum, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin sağlığına və onun uğurları şərəfinə qaldırmaq istərdim.

Ölkənizin rəhbərliyinə və bütün Azərbaycan xalqına sülh, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Qoy Türkmənistan və Azərbaycan arasında dostluq və qardaşlıq möhkəmlənsin!

TÜRKMƏNİSTAN PREZİDENTİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mayın 20-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev burada Türkmənistan Prezidentini səmimiyyətlə qarşıladı.

Ali qonağı Fonddakı eksponatlarla tanış edən Azərbaycanın dövlət başçısı ulu öndər Heydər Əliyevin fəaliyyəti haqqında məlumat verdi.

Türkmənistan Prezidenti ümummilli liderin şəxsi arxivindən götürülmüş və fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlara, fotoşəkillərə, fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən sənədlərə maraqla baxdı.

Ali qonağa ulu öndər Heydər Əliyevin ölkə iqtisadiyyatının sürətli inkişafını və dünyaya inteqrasiyasını təmin etmək üçün gördüyü irimiqyaslı işlərlə bağlı müxtəlif məqamları əks etdirən eksponatlar barədə də ətraflı məlumat verildi.

Türkmənistan Prezidenti Heydər Əliyev Fondunun xatirə kitabına ürək sözlərini yazdı.

Ali qonağa ümummilli liderin əksi təsvir olunmuş xatirə hədiyyələri təqdim olundu.

Türkmənistan Prezidenti Heydər Əliyev Fonduna əllə toxunmuş xalça hədiyyə etdi.

Sonra ali qonaq çay süfrəsinə dəvət olundu.

Prezident Qurbanqulu Berdiməhəmmədova Azərbaycana rəsmi səfərini əks etdirən şəkillərdən ibarət albom da təqdim edildi.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVA BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Mayın 20-də Bakı Dövlət Universitetində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova BDU-nun fəxri doktoru adı verilməsi münasibətilə mərasim keçirilmişdir.

Universitetdə Türkmənistan Prezidentini səmimi qarşıladılar, tələbələr ali qonağa gül dəstəsi təqdim etdilər.

Türkmənistan dövlətinin başçısı əvvəlcə universitetdəki Heydər Əliyev Muzeyi ilə tanış oldu.

BDU-nun rektoru, AMEA-nın akademiki, Milli Məclisin deputatı Abel Məhərrəmov mərasimi açaraq, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun həyat və fəaliyyətinin əsas məqamlarından danışdı.

Ali qonağa müsəlman Şərqində ilk dünyəvi ali məktəbin - Bakı Dövlət Universitetinin yaranma tarixi barədə məlumat verildi. Bildirildi ki, hazırda universitetin 16 fakültəsində 18 mindən çox tələbə təhsil alır. Onların 1300 nəfəri 20 xarici ölkənin nümayəndəsidir. Unversitetdə işləyən 1300-dən çox müəllimin 300 nəfəri elmlər doktoru, professor, 14 nəfəri Milli Məclisin deputatıdır.

Sonra Abel Məhərrəmov dünyada sabitliyin qorunub saxlanmasında səylərinə, Azərbaycan ilə Türkmənistan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində böyük roluna, elmi və tərəqqini dəstəklədiyinə görə Türkmənistan Prezidentinə BDU-nun fəxri doktoru adı verilməsi barədə Böyük Elmi Şuranın 2008-ci il 19 may tarixli qərarını oxudu.

Prezident Qurbanqulu Berdiməhəmmədova BDU-nun fəxri doktoru mantiyası, diplomu və hədiyyə təqdim olundu.

Mərasimdə nitq söyləyən Türkmənistan Prezidenti layiq görüldüyü şərəfə görə Azərbaycanın qədim ali məktəbinin Elmi Şurasının üzvlərinə təşəkkürünü bildirdi.

Türkmənistan dövlətinin başçısı vurğuladı ki, onun ölkəsində genişmiqyaslı və tarixi dəyişikliklər və islahatlar gedir. O, Türkmənistanın sosial-iqtisadi inkişafının sürətləndirilməsini və son nəticədə onun inkişaf etmiş dövlətə çevrilməsini ölkənin daxili siyasi xəttinin öncül istiqaməti kimi səciyyələndirdi. Qurbanqulu Berdiməhəmmədov dedi: "Türkmənistanda başa düşürlər ki, bu məqsədə intellektual potensialı artırmaqla, biliklərə və insan təfəkküründən ən yaxşı nailiyyətlərinə və tərəqqiyə arxalanmaqla nail olmaq mümkündür". O bildirdi ki, bu məqsədlə təhsil və elm sahəsində köklü islahatlar həyata keçirilir, orta təhsil, ali məktəblərdə kadr hazırlığı sistemi təkmilləşdirilir, fundamental elmlər inkişaf etdirilir. Türkmənistan bu yolda müəyyən nailiyyətlər əldə etmişdir. Ölkədə ən müasir multimedia avadanlığı ilə təchiz olunmuş məktəbəqədər uşaq müəssisələri, məktəblər və ali təhsil ocaqları tikilir və bu proses davam etdirilir.

Azərbaycan-Türkmənistan münasibətlərindən danışan Prezident Qurbanqulu Berdiməhəmmədov vurğuladı ki, Bakıda aparılan danışıqlar və Prezident İlham Əliyev ilə əldə olunan razılaşmalar geniş dövlətlərarası dialoq, o cümlədən etimadın, dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə digər sahələrdən daha çox kömək edən humanitar sahədə dialoq üçün yeni imkanlar açır.

Mərasimin sonunda ali qonaq BDU-nun rektoruna hədiyyə təqdim etdi.

Sonra Türkmənistan Prezidenti BDU-nun fəxri doktorları qalereyası üçün şəkil çəkdirdi.

SƏFƏR BAŞA ÇATDI

Mayın 20-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK YIĞINCAĞINDA İŞTİRAK ETMİŞDİR

Mayın 20-də Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik yığıncağı keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak etmişdir.

Mehriban Əliyevanı YUNESKO-nun mənzil-qərargahında təşkilatın yüksək vəzifəli şəxsləri səmimiyyətlə qarşıladılar.

Yığıncaqdan öncə xoşməramlı səfirlər dünyada savadlılığın dəstəklənməsi üzrə YUNESKO-nun regional konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda Bakıda keçirilmiş 5-ci regional konfransın yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkür etdilər. Bildirildi ki, həmin konfrans mühüm hadisədir və regionda savadsızlığın aradan qaldırılmasında əhəmiyyətli rolu olacaqdır.

YUNESKO-nun xoşməramlı səfirlərinin illik hesabat yığıncağını təşkilatın baş direktoru Koişiro Matsuura açdı. Xoşməramlı səfirləri salamlayan baş direktor yığıncağın uğurla keçəcəyinə əmin olduğunu bildirdi.

Yığıncaq iştirakçıları məşhur musiqiçi, həmyerlimiz Mstislav Rostropoviçin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Baş direktor çıxışında əsas diqqəti təhsil, xüsusilə də dünyada savadsızlığın aradan qaldırılması probleminə cəlb etdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Sağ olun, əlahəzrət şahzadə, çox xoş qəbulunuza görə sizə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab baş direktor,

əlahəzrətlər,

zati-aliləri,

xanımlar və cənablar!

Mən bütün hörmətli həmkarlarımı, YUNESKO-nun xoşməramlı səfirlərini görməkdən şadam. Biz burada dostlarımız arasında, YUNESKO-da olmaqdan hər zaman çox şadıq. Mən bu görüşü təşkil etdiyinə görə YUNESKO-nun baş direktoru zati-aliləri cənab Koişiro Matsuuraya xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Matsuuranın bildirdiyi kimi, əfsuslar olsun ki, bizim bu görüşümüz birinci dəfədir dostumuz və həmkarımız Mstislav Rostropoviçsiz baş tutur. Gözəl musiqiçinin vəfatından sonra bu görüş birinci dəfədir ki, keçirilir. O, bütün dünya mədəniyyətinə böyük töhfə vermişdir. Onun vəfatı bütün beynəlxalq ictimaiyyət üçün əvəzsiz itki olmuşdur. Lakin bu, eyni zamanda, bizim həmvətənlərimiz üçün də böyük itkidir. Bu böyük musi-

qiçinin əbədi xatirəsinə ehtiram əlaməti olaraq, biz ötən ilin dekabrında Bakıda beynəlxalq musiqi festivalını təşkil etmişdik.

2007-ci il Heydər Əliyev Fondu üçün çox məhsuldar bir il olmuşdur. Biz təhsil, elm və mədəniyyət sahələrində bir neçə layihələri və təşəbbüsləri uğurla həyata keçirmişik. Bir neçə gün bundan öncə Bakıda Heydər Əliyev Fondunun təşkilati dəstəyi ilə YUNESKO-nun Avropada savadlılıq problemlərinə həsr olunmuş konfransı keçirilmişdir. Konfransda milli təhsil sistemlərinin rəhbərləri, habelə Avropanın 30-dan çox ölkəsindən gəlmiş ekspertlər və bir çox nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak edirdilər. Bakıda keçirilmiş konfransda savadlılıq və böyüklər üçün təhsillə bağlı mühüm məsələlər müzakirə olunmuşdur. Bir çox vacib ideyalar səsləmiş və təcrübə mübadiləsi edilmişdir. Heydər Əliyev Fondu olaraq, biz hamı üçün təhsil proqramının uğurla həyata keçirilməsinə töhfə vermişik.

Biz eyni zamanda, böyük məmnuniyyətlə YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranın, İordaniyanın əlahəzrət şahzadəsi Ferialın, Hollandiyanın əlahəzrət şahzadəsi Laurentienin və xanım Finnboqadottirin Azərbaycanda konfransda iştirakını alqışladıq. Onlaq öz iştirakı ilə bu konfransa xüsusi bir dəyər vermişlər.

YUNESKO-nun ideallarını rəhbər tutaraq, biz hesab edirik ki, çətin vəziyyətlərdə olan ölkələrə yardım göstərməliyik. Mən məmnunluq hissi ilə bildirmək istəyirəm ki, bu ilin fevral ayında Heydər Əliyev Fondu xaricdə özünün ilk layihəsini həyata keçirmişdir. Pakistanın Müzəffərabad şəhərində dəhşətli zəlzələdən sonra biz yerlə-yeksan olmuş qızlar məktəbini yenidən tikmişik. Bu məktəbdə 500-dən çox şagird təhsil ala bilər, onun ümumi sahəsi 2000 kvadratmetrdir. Sinif otaqları, laboratoriyaları, kitabxanası, informasiya texnologiyası otaqları və idman meydançaları ən yüksək müasir tələblərə cavab verir. Pakistandakı məktəb Heydər Əliyev Fondunun xaricdə tikdiyi ilk təhsil ocağı olmuşdur.

Eyni zamanda, Fondumuz Azərbaycanda mədəniyyətin inkişafına xüsusi diqqət yetirir. Bununla bağlı biz bənzərsiz musiqi irsimiz olan muğamın və xalq musiqisinin digər nümunələrinin qorunmasına xüsusi səy göstəririk.

YUNESKO-nun baş direktoru cənab Matsuuranın bu yaxınlarda Azərbaycana səfəri zamanı biz Beynəlxalq Muğam Mərkəzinin tikintisi ilə tanış olduq və eyni zamanda yeni xalça muzeyinin təməlqoyma mərasimində iştirak etdik. Beləliklə, biz Azərbaycanın hər bir vətəndaşı üçün çox vacib olan mədəniyyətimizi təşviq etməyə nail olduq. Mən çox şadam ki, Beynəlxalq Muğam Mərkəzi və yeni xalça muzeyi - hər ikisi Xəzərin sahilində, gözəl bulvarda yerləşir və yaxın dövrdə tikinti işləri başa çatdırılacaqdır.

2007-ci ildə, eyni zamanda, "Muğam" jurnalı da ilk dəfə olaraq çap edildi. Biz eyni zamanda, "Muğam ensiklopediyası"nı həm çap, həm də elektron variantlarda hazırlamışıq. Biz dövri olaraq gənc muğam ifaçıları arasında müsabiqələr də təşkil edirik. Ötən il uğurla təşkil edilmiş müsabiqəyə, demək olar ki, bütün regionlardan 160-a yaxın gənc ifaçını cəlb etdik və yekun mərhələyə 20-yə yaxın ifaçı çıxdı. Onlardan altısına fəxri adlar və mükafatlar verildi.

Hörmətli həmkarlar, YUNESKO-nun xoşməramlı səfirlərinin illik iclası yeni ideyalarımızı və planlarımızı bölüşmək, görülmüş işlər haqqında söhbət üçün yaxşı fürsətdir.

Mən nailiyyətlərinizlə bağlı bir daha sizi təbrik etmək istəyirəm və sizə gələcəkdə işlərinizdə uğurlar arzulayıram.

Yekun olaraq, mən bu fürsətdən istifadə edərək, sizin hamınızı Azərbaycan gecəsinə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ PARİSDƏ, YUNESKO-NUN QƏRARGAHINDA "AZƏRBAYCANIN XOŞMƏRAMLI MƏLƏKLƏRİ" KONSERT PROQRAMI TƏQDİM OLUNMUŞDUR

Mayın 20-də Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdə, YUNESKO-nun qərargahında xoşməramlı səfirlərin illik yığıncağı çərçivəsində ölkəmizin gənc istedadlarının "Azərbaycanın xoşməramlı mələkləri" adlı konsert proqramı təqdim edilmişdir.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura və qurumun xoşməramlı səfiri Mehriban xanım Əliyeva konsertdə olmuşlar.

Konsert proqramından əvvəl YUNESKO-nun mənzil-qərargahında azərbaycanlı uşaqların rəsmlərindən ibarət sərgi açıldı. Sərgidə 5-15 yaşlı uşaqların müxtəlif mövzularda rəsmləri nümayiş etdirilirdi. Simurq quşu rəsmi daha çox maraq doğurdu və məhz həmin rəsm tədbirin bir növ rəmzi seçilmişdi.

Sərgi ilə yanaşı, Azərbaycan mətbəxi də nümayiş etdirildi. Qonaqlar Azərbaycan mətbəxinin dünyanın ən qədim, ən zəngin və dadlı mətbəxlərindən biri olduğunu əyani şəkildə gördülər. Bir daha sübut olundu ki, 2 minədək yemək növünü əhatə edən Azərbaycan mətbəxi, təkcə xörəklər, onların hazırlanma texnologiyasından ibarət deyil, həm də maddi mədəniyyətin mühüm hissəsidir.

"Azərbaycanın xoşməramlı mələkləri" konsert proqramından əvvəl YUNESKO-nun baş direktoru çıxış etdi.

YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI

- Azərbaycan Respublikasının birinci xanımı hörmətli Mehriban Əliyeva!

Hörmətli xoşməramlı səfirlər!

Zati-alilər!

Xanımlar və cənablar!

Mən sizin hamınızı YUNESKO-da salamlamaq istəyirəm. Burada Azərbaycanın gənc musiqi istedadlarının konserti təşkil edilir. Bu konsert xoşməramlı səfirlərin illik konfransı münasibətilə Mehriban xanım tərəfindən təşkil olunmuşdur.

Biz bilirik ki, burada 30-a yaxın xoşməramlı səfirimiz var və onların hamısı YUNESKO-nun fəaliyyətinin bir çox sahələrində fəal çalışırlar. Onlar YUNESKO-nun bir çox iclaslarında iştirak edirlər və eyni zamanda, müxtəlif vacib sahələrdə YUNESKO-nun təşəbbüslərinə mühüm töhfələr verirlər.

Bu gün bizim xoşməramlı səfirlərin illik konfransı keçirildi. Konfrans çərçivəsində ideyalar və fikirlər səsləndi, xoşməramlı səfirlər öz fəaliyyətləri haqqında hesabat verdi-

lər. Çox şadam ki, olduqca canlı müzakirələr aparıldı və belə görüşlərin böyük əhəmiyyəti var.

Mən çox şadam ki, Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətini burada təşviq edən, nümayiş etdirən bir tədbir təşkil etmişdir. Bu yaxınlarda mən böyük məmnuniyyətlə Azərbaycana səfər etmişdim. Ötən həftə ərzində Bakıda YUNESKO-nun savadlılıq mövzusunda regional konfransı keçirildi. Bu konfrans savadlılığın təşviqi baxımından mühüm bir tədbir oldu və öz töhfəsini verdi. Biz hamımız Mehriban xanım Əliyevanın qonaqpərvərliyindən məmnun qaldıq və mən fürsətdən istifadə edərək, buna görə xanım Əliyevaya minnətdarlığımı bildirirəm.

Eyni zamanda, mən təşkilatımızla münasibətlərin inkişaf etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürümü bildirirəm. Mən Azərbaycanın öz zəngin mədəniyyətini, adət-ənənələrini yüksək dəyərləndirdiyini bir daha bəyan edirəm. Biz bilirik ki, Azərbaycan muğamı qeyri-maddi mədəni irs siyahısına, Bakının tarixi hissəsi olan İçərişəhər isə YUNESKO-nun Dünya Mədəni İrsi siyahısına daxil olunmuşdur. Biz bilirik ki, Qobustanın namizədliyi də gündəlikdə durur. Hesab edirik ki, bu işlər vacibdir. Biz yeni tikilən Beynəlxalq Muğam Mərkəzində olduq və demək olar ki, onun tikintisi başa çatmaq üzrədir. Çox gözəl üslubda tikilən Muğam Mərkəzinin binası Azərbaycan musiqi alətinin formasını xatırladır. Bu, muğamın, mühüm mədəni irsin qorunması işinə verilən böyük töhfədir. Biz Azərbaycanın adət-ənənələrinin bu səviyyədə təşviq olunması və qorunmasından çox məmnunuq. Bütün bu işlərə, təşəbbüslərə görə mən birinci xanım Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli baş direktor!

Əlahəzrətlər!

Zati-aliləri!

Xanımlar və cənablar!

Mən bu Azərbaycan gecəsinə gəlmiş bütün qonaqları salamlamaq istəyirəm. Burada Azərbaycanın mədəniyyəti nümayiş etdiriləcəkdir. Mən bu fürsəti yaratdığına görə YUNESKO-ya xüsusi minnətdarlığımı bildirirəm. Zati-aliləri cənab Koişiro Matsuuraya təşəkkürümü bildirirəm ki, bu tədbirin keçirilməsi mümkün olmuşdur və bütün hazırlıq işləri görülmüşdür.

Cənab Matsuuranın ölkəmizə səfəri hamımızın yadındadır. O, yeni xalça muzeyinin təməlqoyma mərasimində iştirak etmiş, eyni zamanda, tikintisi gedən Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşdur. Cənab Matsuura, bütün təşəbbüslərimizə verdiyiniz dəstəyə görə biz Sizə minnətdarıq.

Hörmətli dostlar, mən Azərbaycanı YUNESKO-da yenidən təqdim etməyimə çox şadam. İki il öncə burada Azərbaycan gününün keçirilməsindən sonra ölkəmizdə bir çox dəyişikliklər baş vermişdir. Son illər ərzində Azərbaycanın iqtisadi artımı dünyada ən

yüksək səviyyədədir. Dörd ildə ümumi daxili məhsulun artımı 96 faiz olmuşdur. Bizim dövlət büdcəmiz təqribən 10 dəfə artmışdır. Bu müddət ərzində ölkə daxilində 600 mindən çox iş yeri açılmışdır və biz çox şadıq ki, işsizlik azalmışdır, yoxsulluğun səviyyəsi 49 faizdən 2008-ci ildə 16 faizə düşmüşdür. Bütün bunlar ölkəmizdə iqtisadi və sosial islahatların həyata keçirilməsinin nəticəsidir. Bu uğurlar sosial həyatımızla bağlı müxtəlif proqramların həyata keçirilməsinə imkan yaratmışdır. Yeni yollar çəkilir, tikinti işləri aparılır, ölkəmizdə bir çox sosial infrastruktur yaradılır. 1300 yeni məktəb tikilmiş, bundan əlavə kitabxanalar, yeni tibb ocaqları, xəstəxanalar açılmışdır.

Biz gənclərin məsələlərinə də xüsusi diqqət yetiririk. Milli təhsil sistemimizi inkişaf etdiririk ki, Azərbaycanda ən müasir standartlar tətbiq olunsun. Hər il biz gənclərimizin dünyanın nüfuzlu təhsil ocaqlarında təhsil almaları üçün təqaüdlər proqramını həyata keçiririk. Eyni zamanda, inanırıq ki, informasiya texnologiyalarına çıxışın təmin edilməsi vacibdir. Ona görə də bizim məqsədimiz hər bir məktəbdə uşaqlarımız üçün kompyuterlərdən istifadəni və internetə çıxışı təmin etməkdir. Hesab edirəm ki, ən yaxşı sərmayə gələcək nəsillərimizin təhsilinə yönəldilən sərmayədir.

Bu gün Azərbaycanda elm sahəsində də islahatlar aparılır və çalışırıq ki, bizim elmi ictimaiyyətimiz bütün beynəlxalq elmi ictimaiyyətə inteqrasiya etsin. Bununla bağlı aprel ayında xüsusi dövlət komissiyası yaradılmışdır. Son illər ərzində biz öz mədəni və tarixi irsimizin qorunması üçün bir çox işlər görmüşük. Azərbaycan qədim ölkədir, onun zəngin mədəni irsi var. Əsrlər boyu ölkəmiz Şərqlə Qərb arasında körpü rolunu oynamışdır. Hazırda tarixi abidələr, bütün teatrlar və muzeylər bərpa olunur və digər işlərin də həyata keçirilməsi nəzərdə tutulur. Biz tarixi abidələrimizin qorunmasına diqqət yetiririk. Azərbaycan çoxmillətli ölkədir və burada bir çox millətlərə və dinlərə mənsub olan insanlar yaxşı, dinc şəraitdə yaşayırlar. Biz dini dözümlülüyü və digər mədəniyyətlərə dözümlü yanaşmanı təmin edirik. Bir çox sahələrdə biz tərəqqiyə nail olmuşuq və əminəm ki, Azərbaycan düzgün yoldadır.

Buna baxmayaraq, biz bəzi çətinliklərlə də üzləşirik. Mən beynəlxalq ictimaiyyətin diqqətini bir daha ən böyük problemimizə cəlb etmək istəyirəm. Bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Ərazimizin Ermənistan tərəfindən işğal edilməsinin bizim təhsilimiz, mədəniyyətimiz üçün çox ağrılı nəticələri olmuşdur. İşğal olunmuş ərazilərdə məktəblər, tarixi abidələr, muzeylər yerlə-yeksan edilmişdir. Etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Hökumətimiz həmin qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmağa çalışır. Planlarımız ondan ibarətdir ki, onların həyat şəraitini daha da yaxşılaşdıraq və indiyədək müvəqqəti məskunlaşdıqları yerlərin tam ləğvinə nail olaq və bunu edirik. Biz bu münaqişənin beynəlxalq hüquq əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllinə ümid edirik və qaçqınlar və məcburi köçkünlər öz yurd-yuvalarına qayıtmalıdırlar.

YUNESKO ilə Azərbaycan arasındakı münasibətlər bizim müstəqilliyimizin bərpa edilməsindən sonra başlanmışdır. Həmin əlaqələr inkişaf etmiş və bunlara əsaslanaraq bir çox layihələr həyata keçirilmişdir. YUNESKO ölkəmizdə görülən işlərə dəstək verir, bir sıra qeyri-maddi və maddi mədəni irs nümunələrimiz YUNESKO-nun siyahılarına daxil edilmişdir. Hazırda biz YUNESKO ilə birgə mühüm təhsil proqramlarını hə-

yata keçiririk. Bu münasibətlərin daha da inkişafını təmin etmək üçün gələcəkdə də əlimizdən gələni edəcəyik.

Yekun olaraq, hörmətli dostlar, mən sizin hamınızı bu gənc ifaçıların, Azərbaycan musiqiçilərinin konsertini dinləməyə dəvət edirəm. Onlar bizim gələcəyimizdir. Hesab edirəm ki, onlar özlüyündə ən gözəl xoşməramlı səfirlərdir və bu gün bizim ənənəvi musiqimizi, tanınmış musiqi əsərlərini ifa edəcəklər.

Çox sağ olun, mən təşkilatçılara bir daha təşəkkür edirəm və sizin ailənizə, özünüzə xoşbəxtlik arzulayıram. Sağ olun.

***

Konsertdə Azərbaycanın uşaq simfonik orkestrinin və uşaq xorunun ifasında Azərbaycan musiqisi və dünya bəstəkarlarının əsərləri səsləndi. Balaca istedadların çıxışları sürəkli alqışlarla qarşılandı.

Konsert Azərbaycanın təbiət mənzərələrini, turizm guşələrini, qədim xalq sənətlərini, əfsanəvi Neft daşlarını, gündən-günə gözəlləşən Bakının görməli yerlərini əks etdirən filmlə müşayiət olunurdu.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura, Mehriban xanım Əliyeva, İordaniya şahzadəsi xanım Ferial konsertdən sonra səhnəyə çıxaraq, uşaqları gözəl ifalarına görə təbrik etdilər və onlarla xatirə şəkli çəkdirdilər.

Konsertdən sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adından təşkilatın baş direktoru Koişiro Matsuuranun və xoşməramlı səfirlərin şərəfinə ziyafət verildi.

Ziyafət zamanı xoşməramlı səfirlər Mehriban Əliyevaya yaxınlaşaraq, "Azərbaycanın xoşməramlı mələkləri" konsert proqramının təşkilinə, Azərbaycan mədəniyyəti və mətbəxi ilə tanış olmaq imkanı yaratdığına görə təşəkkür etdilər.

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ BOLQARISTANA RƏSMİ SƏFƏRİ

Mayın 20-də Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Bolqarıstan Prezidenti Georgi Pırvanovla görüşmüşdür.

Parlament nümayəndə heyətini səmimi salamlayan Bolqarıstan Prezidenti Azərbaycana səfərini xatırlatmış və ölkəsinə xoş təəssüratlarla qayıtdığını bildirmişdir. Georgi Pırvanov Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşü xoş təəssüratlarla yada salaraq aparılan danışıqların ölkələrimiz üçün son dərəcə əhəmiyyətli olduğunu qeyd etmişdir. Sonra Bolqarıstan Prezidenti Azərbaycanın dövlət başçısına səmimi salamlarını çatdırmağı xahiş etmişdir.

Georgi Pırvanov demişdir ki, onun ölkəsi Azərbaycan ilə enerji sahəsində əməkdaşlığa böyük maraq göstərir. Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişaf perspektivlərinə böyük ümidlər bəsləyən G.Pırvanov ölkəsinin Avropa İttifaqının üzvü kimi Azərbaycana bu quruma inteqrasiyaya kömək etməyə hazır olduğunu vurğulamışdır. Bolqarıstan dövlətinin başçısı bildirmişdir ki, Avropa İttifaqı ölkələrinin başçıları ilə görüşlərdə Azərbaycandakı sürətli inkişaf barədə məlumat verilir.

"Avropa İttifaqında nümayəndəmiz var və Azərbaycanı maraqlandıran bütün məsələləri qurumda qaldırmağa və həll etməyə hazırıq". Görüşdə bu fikri də Bolqarıstan Prezidenti demişdir. O qeyd etmişdir ki, Bolqarıstanda Azərbaycan mədəniyyətinə maraq yüksəkdir və əmindir ki, Azərbaycanda da bolqar mədəniyyətinə maraq böyükdür.

Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Bolqarıstan Prezidentinə çatdırmışdır. Parlamentin sədri qeyd etmişdir ki, Azərbaycan Avropada enerji istehsalı üzrə aparıcı yerdədir. Bundan əlavə, Xəzər qaz kəməri gündəmdədir, inanırıq ki, bu layihə yaxın zamanlarda reallaşacaqdır.

Azərbaycan parlamentinin sədri bildirmişdir ki, Bolqarıstanın "GUAM-ın dostluq qrupu"na üzv olması təqdirəlayiqdir. Bundan əlavə, Xəzəryanı dövlətlərin Parlament Assambleyasının yaradılması məsələsi də aktualdır. Azərbaycanın Avropaya inteqrasiya siyasəti yeritdiyini vurğulayan Milli Məclisin sədri bildirmişdir ki, bu məqsədlə ölkə qanunlarının Avropa qanunvericiliyinə uyğunlaşdırılması vacibdir. Bu baxımdan Azərbaycanın Avropa İttifaqına inteqrasiyasında Bolqarıstanın təcrübəsi bizim üçün çox önəmlidir.

Görüşün sonunda Oqtay Əsədov hər iki ölkənin qarşılıqlı maraqlarını nəzərə alaraq Azərbaycanda Bolqarıstan günlərinin keçirilməsini təklif etmişdir.

Milli Məclis sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti həmin gün Bolqarıstan parlamentində olmuşdur. Nümayəndə heyətini Bolqarıstan Milli Yığıncağının sədri Georgi Pirinski qarşılamışdır. Görüşdə G.Pirinski Azərbaycana səfərini xatırlatmış və Milli Məclis sədrini ölkəsində salamlamaqdan məmnun olduğunu vurğulamışdır. O, Avropa İttifaqına daxil olan ölkə kimi Bolqarıstanın öz təcrübəsini Azərbaycanla bölüşməyə hazır olduğunu bildirmişdir.

Azərbaycan parlamentinin sədri Oqtay Əsədov ölkəmizdə həyata keçirilən enerji layihələrindən söz açmışdır. Azərbaycan-Bolqarıstan münasibətlərinin inkişafından danışan spiker Sofiya şəhərində "Bakı" adını daşıyan küçənin olmasını yüksək qiymətləndirmişdir. O.Əsədov bolqarıstanlı həmkarını Azərbaycan parlamentinin 90 illiyinə həsr olunan tədbirlərə dəvət etmişdir.

Görüşün sonunda parlament sədrləri birgə mətbuat konfransı keçirmiş və jurnalistlərin suallarını cavablandırmışlar.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ ANKARADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Mayın 21-də Azərbaycanın Baş naziri Artur Rasizadə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlmişdir.

Ankaranın Esenboğa hava limanında Azərbaycanın Baş naziri Artur Rasizadəni, onu müşayiət edən Baş nazirin müavini Abid Şərifovu, ARDNŞ-in prezidenti Rövnəq Abdullayevi, xarici işlər nazirinin müavini Xələf Xələfovu Türkiyənin dövlət naziri Said

Yazıçıoğlu, Azərbaycanın Türkiyədəki səfiri Zakir Həşimov, Türkiyənin ölkəmizdəki səfiri Hulusi Kılıç, digər rəsmi şəxslər qarşılamışlar.

Artur Rasizadə hava limanından Anıtqəbirə gəlmiş, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoymuş, Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Azərbaycanın Baş nazirinin ilk görüşü türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla olmuşdur. Artur Rasizadə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını Türkiyə hökumətinin başçısına çatdırmışdır. Rəcəb Tayyib Ərdoğan da onun səmimi salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş etmişdir.

Görüşdə tərəflər qardaş ölkələrimiz arasında əlaqələrin türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun şəkildə inkişaf etməsindən məmnunluqlarını ifadə etmişlər. Vurğulanmışdır ki, bu gün Azərbaycan-Türkiyə münasibətlərində heç bir problem yoxdur. İstər siyasi-iqtisadi, istərsə də elmi-mədəni sahələrdə əməkdaşlıq durmadan inkişaf edir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi qardaş xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir.

Görüşdən sonra Türkiyənin Baş nazirinin adından Azərbaycan hökuməti başçısının şərəfinə ziyafət verilmişdir.

Azərbaycanın Baş naziri Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan ilə də görüşmüşdür.

Köksal Toptan bidirmişdir ki, yüksələn xəttlə inkişaf edən Azərbaycan-Türkiyə əlaqələri digər ölkələr üçün örnək sayılmalıdır. Türkiyə parlamenti bu əlaqələrin möhkəmlənməsini daim diqqət mərkəzində saxlayır. Qardaş ölkələrimizin qanunverici orqanlarının əməkdaşlığı da yüksək səviyyədədir. Köksal Toptan iyunun 17-də Azərbaycan parlamentinin 90 illik yubileyi ilə bağlı tədbirlərdə iştirak etmək üçün Bakıya səfər edəcəyini söyləmişdir. Əlavə etmişdir ki, Azərbaycanın Baş nazirinin Ankaraya səfəri hökumətlərarası əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Parlamentdəki görüşdən sonra Azərbaycanın Baş naziri və onu müşayiət edən şəxslər Ankaradakı Heydər Əliyev Parkını ziyarət etmişlər. Onlar ulu öndərin əzəmətli abidəsinin önünə gül qoymuş, parkın ərazisi ilə tanış olmuşlar.

Səfərin sonunda Artur Rasizadəni və nümayəndə heyətinin üzvlərini Türkiyənin Prezidenti Abdullah Gül qəbul etmişdir.

Artur Rasizadə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Türkiyənin dövlət başçısına çatdırmışdır. Abdullah Gül də onun səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırmağı xahiş etmişdir.

Abdullah Gül qardaş Azərbaycana dövlət səfərini və Prezident İlham Əliyev ilə məhsuldar görüşlərini məmnunluqla xatırlayaraq demişdir ki, bu gün iki ölkənin rəhbərləri arasında olan qardaşlıq münasibətləri və xalqlarımızın dostluğu ikitərəfli əməkdaşlığı daha yüksək səviyyələrə qaldırmağa imkan verir.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Həmin gün Azərbaycanın Baş naziri Artur Rasizadənin Ankaraya işgüzar səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Ukraynaya rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Borispol hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli geyimli qızlar Azərbaycan Prezidentinə duz-çörək təqdim etdilər.

Dövlətimizin başçısını Ukraynanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

V.A.YUŞŞENKONUN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Ukrayna ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsindəki xüsusi xidmətlərinə görə Ukrayna Prezidenti Viktor Andreyeviç Yuşşenko "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 may 2008-ci il

KİYEVDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 22-də Kiyevdə, Ukrayna Prezidenti Katibliyinin binası qarşısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycan Prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna əsgərlərini salamladı.

Ukraynanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Prezident Viktor Yuşşenkoya təqdim olundu.

Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 22-də Kiyevdə, "Qorodetski Evi"ndə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın və ikitərəfli münasibətlərin uğurla inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı və Azərbaycan Prezidentinin Kiyevə hazırkı səfərinin də əlaqələrin daha da genişlənməsinə xidmət edəcəyi bildirildi.

Dövlət başçıları ikitərəfli, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardılar.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 22-də Kiyevdə "Qorodetski Evi"ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələri inkişaf etdirmək üçün yaxşı potensialın olduğu və bu sahələrdə layihələrin həyata keçirilməsinin zəruriliyi bildirildi.

İkitərəfli münasibətlərin hazırkı səviyyəsindən, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də fəal əməkdaşlıq etdiyi vurğulandı.

Azərbaycan-Ukrayna əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Mayın 22-də Qorodetski Evində geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan və Ukrayna arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının Nizamnaməsini və "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə"ni imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Ukraynanın nəqliyyat və rabitə naziri İosif Vinski imzaladılar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Ukraynanın Ailə, Gənclər və İdman Məsələləri Nazirliyi arasında gənclər siyasəti və idman sahəsində 2008-2009-cu illər üçün əməkdaşlıq proqramı"nı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ukraynanın ailə, gənclər və idman məsələləri naziri Yuri Pavlenko imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Ukraynanın Mədəniyyət və Turizm Nazirliyi arasında 2008-2012-ci illər üzrə əməkdaşlıq haqqında protokol"u Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Ukraynanın mədəniyyət və turizm naziri Vasili Vovkun imzaladılar.

"Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Ukraynanın Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyası arasında qarşılıqlı anlaşma memorandumu"nu Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Gündüz Məmmədov və Qiymətli Kağızlar və Fond Bazarı üzrə Dövlət Komissiyasının sədri Anatoli Balyuk imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Ukrayna Hökuməti arasında dövlət qulluğunun inkişafı sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilov və Ukrayna Dövlət Qulluğu İdarəsinin rəisi Timofey Motrenko imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN MƏTBUAT KONFRANSI

Mayın 22-də Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlarımız!

Ukrayna nümayəndə heyəti adından sizin hamınızı Ukrayna torpağında salamlamaq istəyirik.

Biz geniş tərkibdə danışıqlar apardıq, ikitərəfli münasibətlərlə bağlı məsələləri müzakirə etdik. Bəri başdan demək istərdim ki, bizim münasibətlərimiz üçün çox yaxşı dinamika səciyyəvidir. Biz həm siyasi, diplomatik, həm də ticarət, iqtisadi məsələləri nəzərdə tuturuq. Münasibətlərimizin həm insani səviyyədə, həm də dövlət səviyyəsində yaxşı dinamikaya malik olması üçün son illərdə həqiqətən çox iş görmüşük. Bu gün deyə bilərik ki, belə dinamikaya nail olmuşuq. Mən çıxışımda bu barədə bir neçə kəlmə və statistik rəqəm deyəcəyəm.

İkincisi, bu münasibətlərin statusunu inkişaf etdirmək çox vacibdir. Bu gün imzaladığımız iki mühüm sənəd bu münasibətlərin statusunu artırır. İndən belə bizim münasibət-

lərimiz strateji xarakter daşıyır, bu gün imzaladığımız Bəyannamə də buna sübutdur. Bu gün biz Prezidentlər Şurasının Nizamnaməsini imzaladıq. Beləliklə, münasibətlərimizi əlaqələndirən və onların inkişafını ən yüksək səviyyədə təmin edən yeni təsisat fəaliyyətə başlamışdır.

İqtisadi əlaqələrimizin inkişafı bizi qane edir. Bununla əlaqədar iki rəqəm göstərmək istəyirəm. Keçən il qarşılıqlı ticarətimizin həcmi 43 faiz artmışdır. Bu, çox yaxşı dinamikadır. Ticarət dövriyyəsinin Ukraynaya aid hissəsinə gəldikdə, ixrac 50 faiz artmışdır. Bu da çox vacibdir ki, ixracın 24 faizi maşınqayırmanın payına düşür. Milli iqtisadiyyatın əsas sektorları olan kənd təsərrüfatı, metallurgiya, kimya sahələri ticarət dövriyyəsində çox ciddi, dinamik şəkildə təmsil olunmuşdur. Biz bu gün nəqliyyat, rabitə və kosmos sahəsində əməkdaşlığın inkişaf etdirilməsi barədə də danışdıq.

Bununla əlaqədar bir məqamı qeyd etmək xüsusən vacibdir ki, gələcəkdə - Azərbaycanın peykinin buraxılması məsələsi gündəliyə gələndə Ukrayna raketlərindən istifadə edilməsi nəzərdən keçirilir. Bu layihə 2010-cu il üçün planlaşdırılır və belə bir qərara gəlməyimiz bizim üçün çox mühümdür. Biz energetikanın inkişaf perspektivləri barədə danışdıq. Bu, danışıqlar prosesinin ayrıca mövzusudur.

Biz onu əsas götürürük ki, sabah Ukraynada işə başlayacaq enerji sammiti energetika sahəsində münasibətlər siyasətinin optimallaşdırılmasına imkan verən bir tədbir olacaqdır. İkitərəfli münasibətlərə gəldikdə, Xəzərdən çıxarılan Azərbaycan neftinin Avropa İttifaqı ölkələrinə çatdırılması layihəsinin həyata keçirilməsi bizim üçün çox vacibdir. Buna görə də biz bu gün Odessa-Brodı-Avropa İttifaqı marşrutu barədə, boru kəmərinin neftlə doldurulması texnologiyasından tutmuş, onun istismarının başlanmasına qədər bütün məsələlər barədə ətraflı söhbət etdik. Birgə işçi qrup artıq fəaliyyətdədir, iyulun 1-də bu qrupun ilk hesabatı alınacaq və elə həmin gün biz cənab Prezidentlə görüşərək, bu istiqamətdə layihələrin inkişafını qiymətləndirəcəyik.

Biz ikitərəfli münasibətlərdə nəqliyyat və rabitə sahəsində əməkdaşlığın inkişafına böyük əhəmiyyət veririk. Bu gün biz həmin məsələ ilə bağlı bəzi layihələri müzakirə etdik.

Humanitar sahə. Azərbaycan Respublikasında Ukrayna səfirliyi binasının tikilməsi üçün ərazi ayrılmasına görə biz cənab Prezidentə və Azərbaycan hökumətinə minnətdarıq. Yaxın vaxtlarda Ukrayna adından Bakıda Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılması imkanına görə təşəkkür edirik. Bu gün biz sentyabr və ya oktyabr aylarında Azərbaycanda Ukrayna mədəniyyəti günləri keçirilməsi barədə də söhbət etdik. Onu da deyim ki, bu tədbirlər qarşılıqlı əsasda keçiriləcəkdir.

Biz ikitərəfli münasibətlərimizlə bağlı bir çox başqa sahələrə - təhsil, mədəniyyət, hərbi-texniki əməkdaşlıq sahələrinə dair layihələr barədə danışdıq.

Son olaraq demək istərdim ki, dövlətlərimiz, hökumətlərimiz, ictimai təşkilatlar, biznes strukturları səviyyəsində münasibətləri çox yüksək qiymətləndiririk və bu münasibətlərdə müşahidə olunan dinamika, yuxarıda qeyd etdiyim status bir faktı nümayiş etdirir - hazırda Ukrayna ilə Azərbaycan arasında münasibətlər həqiqətən dostluq münasibətləri və strateji dövlətlərarası münasibətlərdir. Bu, bizim böyük uğurumuzdur. Mən bu münasibətlərin şəxsən təşkilinə, öz hökuməti ilə birlikdə bu münasibətlərin inkişafına verdiyi töhfəyə görə İlham Heydər oğluna təşəkkür etmək istərdim. Biz əminik ki, bu uğurların qazanılmasında həm dövlətlərarası, həm də şəxsi münasibətlərin rolu böyükdür. Demək istəyirəm ki, biz bunu çox yüksək qiymətləndirir və onun qədrini bilirik.

Sağ olun. Ukraynaya xoş gəlmisiniz.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Sağ olun, hörmətli Viktor Andreyeviç!

Hörmətli xanımlar və cənablar!

Əvvələn, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinə görə, ölkənizdə olduğumuz ilk gündən mənə və bizim nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Ukrayna Prezidentinə təşəkkür etmək istərdim.

Viktor Andreyeviçin qeyd etdiyi kimi, bu gün biz ikitərəfli münasibətlərin xarakterini və gələcəyini müəyyən edən məsələlərin çox geniş spektrini müzakirə etdik. Bu məsələlər çoxşaxəlidir, onlar həm iqtisadi və siyasi, həm də humanitar seqmentləri əhatə edir. Bütün bu istiqamətlərdə biz hər iki ölkənin bir-birinə yaxınlaşmaq, birgə layihələr həyata keçirmək, artıq imzalanmış müqavilələr çərçivəsində konstruktiv iş aparmaq və bununla da Ukrayna və Azərbaycanın əməkdaşlığının daha yüksək səviyyəyə çatmasına şərait yaratmaq istəyini görürük.

Ölkələrimiz müstəqillik əldə etdiyi ilk vaxtdan onların arasında çox sıx və dostluq münasibətləri yaranmışdır. Deyə bilərəm ki, hazırda bu münasibətlər keyfiyyətcə yeni mərhələyə çatmışdır. Bu gün imzalanmış sənədlər, ilk növbədə siyasi xarakterli sənədlər buna sübutdur. Bu gün Dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanmışdır. Bu sənədin elə adı bizim münasibətlərin xarakterini və ruhunu əks etdirir. Prezidentlər Şurasının yaradılması haqqında qərar qəbul olunmuşdur. Ümid edirəm ki, bu format əməkdaşlığımızın prioritetlərinin müəyyən olunması baxımından, eləcə də qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət mənasında çox səmərəli olacaqdır ki, bu da çox vacibdir.

Viktor Andreyeviçin dediyi kimi, bu gün biz hər iki ölkədə davamlı iqtisadi artım və əmtəə dövriyyəsinin artımını müşahidə edirik. Bu da həm ölkələrimizin artan potensialının, həm də Ukrayna ilə Azərbaycan arasında səmimi siyasi qarşılıqlı əlaqələrin olmasının göstəricisidir. Siyasi baxımdan ölkələrimiz müttəfiqdir, beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir. Bu barədə mən bu gün Viktor Andreyeviçlə danışmışam, indi bir də demək istəyirəm. Mən Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət haqqında Azərbaycanın BMT-nin Baş Məclisində təklif etdiyi qətnaməni dəstəklədiyinə görə Ukrayna rəhbərliyinə və şəxsən Prezidentə təşəkkürümü bildirirəm. Bu, Ukrayna rəhbərliyinin prinsipiallığının daha bir təzahürü, Azərbaycana münasibətdə dostluğun daha bir təzahürü, münaqişələrin həllinə ədalətli münasibətin daha bir təzahürüdür.

Beləliklə, siyasi münasibətlər, prezidentlər arasında şəxsi münasibətlər başqa sahələrdə münasibətlərin istiqamətlərinin inkişafını da çox cəhətdən müəyyən edir. Bu gün biz növbəti energetika sammiti keçirilməsi ərəfəsindəyik. Əlbəttə, bütün başqa məsələlərlə yanaşı, energetika problemləri də bu gün fəal müzakirə olundu və əməkdaşlığı inkişaf etdirmək üçün bizim çox yaxşı perspektivlərimiz var.

Krakovda keçirilmiş birinci sammitdən sonrakı bir il ərzində görülən işlər onu göstərir ki, bu prosesin bütün iştirakçıları əməkdaşlığın möhkəmlənməsinə sadiqdirlər. Təbii ki, Ukraynanın və Azərbaycanın bu prosesdə fəal iştirakı bizim ciddi nəticələr əldə etməyimizə şərait yaradır.

Bunun üçün imkanlar var. Azərbaycan artıq dünya bazarlarına böyük həcmdə enerji daşıyıcıları göndərən ölkəyə çevrilmişdir. Bu, neftə və qaza, onların ixracının artırılması perspektivinə aiddir. Təbii ki, marşrutların şaxələndirilməsi bizim üçün vacib məqamdır və buna xeyli dərəcədə nail olmuşuq. Lakin indi biz öz enerji potensialımızı daha tam reallaşdırmağa imkan verə biləcək yeni layihələr üzərində işləyirik.

Bu gün biz humanitar əməkdaşlıq məsələsinə böyük diqqət yetirdik və bu sahədə münasibətlərin yüksək səviyyədə olmasını böyük məmnuniyyətlə vurğuladıq. Yaxın gələcəkdə Bakıda Ukraynanın böyük oğlu Taras Şevçenkonun abidəsinin açılışı gözlənilir. Bu, Azərbaycanda Ukraynaya, Ukrayna xalqına, Ukrayna mədəniyyətinə nə qədər böyük hörmət və məhəbbət bəslənməsinin yalnız bir təzahürüdür.

Bu gün biz bu sahədə fəal əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəldik ki, qarşılıqlı siyasi əlaqələrin yüksək səviyyəsi, müxtəlif dövlət qurumları, özəl qurumlar, nazirliklər arasında əməkdaşlıq həm də sırf insani ünsiyyətlə tamamlansın. Bunun üçün möhkəm tarixi baza var. İctimai-siyasi formasiyalardan asılı olmayaraq, ölkələrimiz və xalqlarımız arasında münasibətlər həmişə çox müsbət olmuşdur.

Mən danışıqların yekunlarından, bizim görüşümüzün nəticələrindən çox razıyam və əminəm ki, gələcəkdə qarşılıqlı əməkdaşlığın potensialını fəal surətdə artıracağıq.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: ("Space" teleşirkəti, Azərbaycan): Mənim sualım hər iki prezidentədir. Siz qeyd etdiniz ki, son illərdə ölkələrimiz arasında iqtisadi münasibətlər dinamik inkişaf edir, ticarət dövriyyəsi genişlənir. Bu baxımdan bilmək maraqlı olardı, sizin fikrinizcə, qarşılıqlı investisiya qoyuluşunun konkret perspektivləri necədir?

VİKTOR YUŞŞENKO: Biz bunu əsas tuturuq ki, hazırda həm iqtisadi, həm də ticarət münasibətlərində mövcud olan dinamika sizin sualınıza müsbət cavab vermək üçün yaxşı zəmindir. Bizim Azərbaycanla müzakirə etdiyimiz məsələlər portfelində Azərbaycan tərəfinə təkliflərimiz, ilk növbədə, neftin Ukrayna ərazisində emal edilməsinə dair layihədir. Bu layihə barədə bizim işçi qrup çərçivəsində artıq ikinci dəfə söhbət getmişdir. Bildiyiniz kimi, energetika, neft və qaz nazirliklərinin mütəxəssislərindən təşkil edilmiş işçi qrup fəaliyyətdədir. Biz buna əsaslanırıq ki, iyulun 1-də bu qrupun işi barədə ilk hesabat alacağıq və bu cür investisiyaların mümkün olub-olmaması sualına ilk cavab o vaxt məlum olacaqdır. Bu investisiyalar bizim üçün çox vacibdir, özü də biz bu layihənin həyata keçirilməsinə kompleks yanaşmadan danışırıq. Onu nəzərdə tuturuq ki, yeni müəssisədə neftin dərin emalı ilə məşğul olmaq üçün gələn investor Ukrayna ərazisində özünün yanacaqdoldurma stansiyaları şəbəkəsini yaratmaq layihəsi ilə gəlir və ən başlıcası,

müvafiq neft məhsullarının Avropa İttifaqı ölkələrinin ərazilərinə ixrac edilməsi üçün onun çox böyük potensialı vardır.

Bu gün biz aviasiya ilə bağlı çoxsaylı layihələr haqqında danışdıq. Bizim təkliflərimiz arasında elə layihələr var ki, bəlkə də, onlar hələlik qapalı variantda mövcuddur. Biz hərbi-texniki sahədə əməkdaşlıq barədə, bu və ya digər məhsulların istehsalı üçün səylərimizi birləşdirmək imkanları barədə danışdıq. Nəqliyyat və rabitə sahəsində yaxşı perspektivlər var. Kosmosun öyrənilməsi sahəsində yaxşı perspektivlər var. Bunlar bizim üçün milli sənayenin ənənəvi ixtisaslaşmasıdır və cənab Prezidentlə təkbətək danışıqlarda biz, mənim fikrimcə, Azərbaycan tərəfini maraqlandıra biləcək bir sıra layihələr haqqında söhbət etdik. Ümid edirəm ki, bu məsələlər öyrəniləcək və yaxın bir ay-ayyarım ərzində biz bu təşəbbüslərə ikinci dəfə qayıdacağıq.

Bundan əlavə, sabah başlanan zirvə toplantısında biz Xəzər neftinin nəql edilməsi üçün bütün marşrutun işə salınması məsələsinə dair təkliflər verəcəyik və bu layihə ilə əlaqədar bütün infrastruktur Azərbaycan tərəfi üçün açıqdır. Mən dostuma dəfələrlə demişəm və bu gün də səmimi vurğulamaq istəyirəm ki, biz Azərbaycan və Ukrayna biznesləri arasında inteqrasiyanın olduqca dərinləşməsində son dərəcə maraqlıyıq. Biz ürəkdən istəyirik ki, Azərbaycanın ölkə kimi və yaxud Azərbaycan biznesinin Ukraynada sanballı infrastrukturu olsun. Biz əminik ki, Ukraynanın geosiyasi imkanları, coğrafi şəraiti və nadir istehlak bazarı bu layihələri cazibədar edir. Mən ümid edirəm ki, biz bu təşəbbüslərin müsbət həllini tapacağıq. Sağ olun.

İLHAM ƏLİYEV: Mən əlavə etmək istəyirəm ki, biz ölkələrimizin qarşılıqlı investisiyalarını hərtərəfli alqışlayırıq və hesab edirəm ki, investisiyalara daha çox ehtiyac olan sahələrə sərmayə qoyulması üçün yaxşı imkanlar var. Hazırda Ukrayna və Azərbaycan öz iqtisadi potensialına görə ölkələrimizin hüdudlarından kənarda külli məbləğdə sərmayə qoymaq imkanına malikdir. Yəqin ki, cəmi 5-7 il bundan əvvəl belə imkanlar yox idi. İndi isə belə imkanlar, o cümlədən maliyyə imkanları var. Üstəlik, siyasi münasibətlər yüksək səviyyədə olanda, ölkələrimizin iqtisadiyyatına investisiyalar daha cəlbedici olur. Çünki istər şəxsi biznesin, istərsə də dövlət müəssisələrinin vəsaitləri olsun, bunlar adətən, o ölkələrə daha rahatlıqla yönəldilir ki, həmin ölkələrlə çox yaxşı siyasi münasibətlər olsun, bu isə bizim ölkələr üçün səciyyəvi haldır.

Son dövrlərdə Azərbaycan qonşu dövlətlərdə bir sıra iri investisiya layihəsi həyata keçirmişdir. Bu yaxınlarda tikilmiş neft və qaz kəmərlərinə qoyduğumuz investisiyaları nəzərə almasaq, həmin layihələrin ümumi həcmi 2,5 milyard dollardan çoxdur. Biz gələcəkdə bu istiqamətdə fəaliyyətimizi genişləndirməyi planlaşdırırıq. Ukraynanın energetika sektoru bizim üçün böyük maraq doğurur və Viktor Andreyeviçin dediyi kimi, bu gün həmin mövzu işçi qruplar səviyyəsində müzakirə edilmişdir. Energetikaya investisiya qoyulması ilə əlaqədar bütün məsələlər praktik olaraq müzakirə edilir və işçi qrupun fəaliyyətinin nəticəsi müsbət olacağı təqdirdə, - mən isə buna əminəm, - bu proses dərhal başlanacaqdır. Biz Azərbaycan iqtisadiyyatına, onun müxtəlif sektorlarına Ukrayna şirkətlərinin sərmayə qoymasında da maraqlıyıq. Hazırda biz iqtisadiyyatı şaxələndirmə siyasəti yeridirik. Biz əsas diqqəti qeyri-neft sektoruna yönəldirik, çünki neft-qaz sektorunda bizim qarşımızda duran bütün vəzifələr artıq həyata keçirilmişdir. Biz neft və qaz amilindən asılı olmayan iqtisadiyyat yaratmalıyıq. Ona görə də biz ukraynalı tərəfdaşlarımızın bu baxımdan bütün təşəbbüslərini və təkliflərini alqışlayırıq.

İqtisadiyyatın inkişafı və ölkələrimiz arasında əmtəə dövriyyəsinin artması qarşılıqlı investisiyaların həcminin artırılmasını nəzərdə tutur. İnanıram ki, bu, ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına kömək edəcəkdir.

SUAL (Birinci milli kanal, Ukrayna): Mənim birinci sualım Ukrayna Prezidentinədir. Viktor Andreyeviç, Sizin fikrinizcə, Odessa-Brodı marşrutu təxminən nə vaxt birbaşa rejimdə işə düşə bilər? Bu sualım isə Azərbaycan Prezidentinədir. Azərbaycan Odessa-Brodı kəməri üçün hansı həcmdə neft göndərməyə hazırdır və Sizin fikrinizcə, ilk müqavilələr nə vaxt bağlana bilər?

VİKTOR YUŞŞENKO: Bugünkü danışıqlar və işçi qrupunun təmasları çərçivəsində Odessa-Brodı neft kəmərinə, daha sonra Ukraynanın və başqa ölkələrin neft emalı müəssisələrinə Xəzər neftinin göndərilməsi məsələsinə texniki səviyyədə baxılmışdır. İndi kəmərin Bakı nefti ilə doldurulması barədə hesablamalarla bağlı işçi müzakirələr gedir, buna görə də mən deyərdim ki, məsələ texniki səviyyədədir.

İLHAM ƏLİYEV: Bildiyiniz kimi, bu məsələ çoxdan müzakirə edilir. İndi isə müzakirələr daha konkret xarakter daşıyır. Sabah energetika sammitində müzakirə ediləcək mövzulardan biri də bu layihə ilə bağlıdır. Azərbaycan həmişə ixracın şaxələndirilməsi siyasətinə tərəfdar olmuşdur. Mahiyyət etibarilə biz buna nail olmuşuq. Hazırda Azərbaycandan üç istiqamətdə neft nəql edilir və ya nəql edilə bilər. Boru kəmərlərindən ikisi Qara dəniz bazarına, biri isə Aralıq dənizi bazarına istiqamətlənmişdir. Lap bu yaxınlarda, cəmi bir neçə gün əvvəl Gürcüstanın Qara dəniz sahilindəki Kulevi şəhərində Azərbaycanın neft şirkəti tərəfindən tikilmiş yeni terminal açılmışdır. Bu, həm Gürcüstan iqtisadiyyatına Azərbaycanın birbaşa sərmayə qoyması, həm də Qara dənizdə güclü infrastruktur yaradılması deməkdir. Başqa sözlə, bu terminal müəyyən dərəcədə Odessa-Brodı-Plotsk-Qdansk layihəsinin cəlb olunmasını nəzərdə tutur və ümumiyyətlə, enerji dəhlizinin ayrılmaz tərkib hissəsidir.

Ümumiyyətlə, biz regional xarakterli enerji və nəqliyyat layihələri üzərində çox fəal işləyirik və bu istiqamətdə çox iş görülmüşdür. Odessa-Brodı layihəsi çərçivəsində əməliyyatların həyata keçirilməyə başlanmasının konkret müddətlərinə gəldikdə isə, mən əminəm ki, işçi qrup iyulun əvvəlinə həm iqtisadi, həm də texniki xarakterli konkret təkliflərini təqdim edəcəkdir. Sizə məlumdur ki, hazırda layihənin texniki-iqtisadi əsaslandırılması prosesi gedir. Bu gün biz həmin marşrutun təkcə nəzəri baxımdan deyil, həm də praktik cəhətdən testləşdirilməsi üçün müəyyən pilot layihələrinin imkanlarını müzakirə etdik. Ona görə ki, iqtisadi göstəricilər nəzəriyyədə bir, praktikada isə başqa ola bilər.

Təbii ki, biz həmişə bunu nəzərdə tutmuşuq və bu gün də Azərbaycanın həmin layihədə daha geniş kontekstdə iştirakını müzakirə etdik. Ona görə ki, Azərbaycan nefti Qara dəniz hövzəsinə sərbəst nəql edilir və Odessa-Brodı boru kəmərinin doldurulması üçün ondan istifadə edilə bilər. Lakin əməkdaşlığın daha geniş formatından - neftin emalı, distribyusiyası, neft məhsullarının Ukrayna bazarlarına və ola bilsin ki, qonşu dövlətlərin bazarlarına da çıxarılması üçün birgə tədbirlər görülməsindən söhbət gedir. Yəni biz bu məsələyə geniş formatda yanaşırıq. Bilirəm ki, Ukraynanın da mövqeyi belədir və bu layihə təkcə Ukrayna ilə Azərbaycan arasında deyil, həm də ona qoşulan başqa ölkələr arasında da əməkdaşlığın çox genişlənməsinə səbəb olmalıdır.

Bu gün biz Xəzər dənizi ilə Baltik dənizini birləşdirən və ya birləşdirə biləcək enerji dəhlizinin yaradılmasından danışırıq. Bu, Xəzər regionu-Qara dəniz-Baltik dənizi hövzələrinin regional əməkdaşlığının yeni elementidir. Yəni layihənin formatı çox böyük olacaqdır. Bu layihəyə qoşulmuş bütün ölkələrin siyasi dəstəyi vardır. İndi yalnız iqtisadi və texniki detalları razılaşdırmalıyıq, bir də, artıq qeyd etdiyim kimi, praktikada testləşdirib nəticələri təhlil etməliyik.

UKRAYNANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də, onun üçün ayrılmış iqamətgahda Ukraynanın Baş naziri xanım Yuliya Timoşenko ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsi, ticarət dövriyyəsinin həcminin artması razılıqla vurğulandı.

Bildirildi ki, müxtəlif sahələrdə, o cümlədən maşınqayırma, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensial vardır.

Birgə iqtisadi komissiyanın işinin fəallaşdırılmasının vacibliyi vurğulanan görüşdə iqtisadi əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

ALİ RADADA GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Ukrayna Ali Radasının sədri Arseni Yatsenyuk ilə görüşmüşdür.

Ali Radanın sədri vurğuladı ki, Azərbaycan Prezidentinin Ukrayna parlamentinə gəlməsi çox böyük qürur hissi ilə qarşılanır. Ölkələrimizin siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin, o cümlədən parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Arseni Yatsenyuk dedi ki, Azərbaycan və Ukrayna beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir.

Azərbaycan iqtisadiyyatının sürətlə inkişafının Ukraynada da maraqla izlənildiyini bildirən Ali Radanın sədri ölkələrimiz arasında münasibətlərin, o cümlədən parlamenlərarası əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.

İkitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev parlamentlərin əlaqələrini, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Azərbaycan-Ukrayna əlaqələrinin daha da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TARAS ŞEVÇENKO ADINA KİYEV MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR

Mayın 22-də Taras Şevçenko adına Kiyev Milli Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bu təhsil ocağının fəxri doktoru adı verilməsi münasibətilə mərasim keçirilmişdir.

Mərasimə toplaşanlar Azərbaycan dövlətinin başçısını səmimiyyətlə qarşıladılar.

Universitetin rektor əvəzi akademik Leonid Quberski mərasimi açaraq, Azəraycan Prezidenti İlham Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verdi. O, Azərbaycan Prezidentinin müasir dünyamızın qətiyyətli dövlət başçılarından biri olduğunu bildirdi.

Akademik Leonid Quberski dedi ki, Taras Şevçenko adına Kiyev Milli Universitetinin Elmi Şurası Azərbaycan Prezidenti İlham Əliyevə universitetin fəxri doktoru adının verilməsi haqqında qərar qəbul etmişdir. O, fəxri doktor diplomunu və mantiyanı Azərbaycan Prezidentinə təqdim etdi.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Hörmətli rektor, mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə sağ olun. Dünyanın aparıcı ali məktəblərindən birinin - Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adına layiq görülmək mənim üçün böyük şərəfdir.

Mən bu adı ölkələrimiz arasında çox dinamik, səmərəli şəkildə inkişaf edən, yeni formalar kəsb edən, son nəticədə təkcə ikitərəfli münasibətlərin möhkəmlənməsinə deyil, həm də iri regional layihələrin həyata keçirilməsinə gətirib çıxaracaq dostluq, qardaşlıq münasibətlərinin inkişafı və möhkəmlənməsi işində fəaliyyətimin qiymətləndirilməsi hesab edirəm.

Mən bilirəm ki, bu gün Ukraynanın tarixində xüsusi bir gündür. Mənə dedilər ki, bu gün Taras Şevçenkonun nəşinin yenidən dəfn edildiyi gündür. Ukrayna xalqının bu görkəmli oğlunun xatirəsinə Azərbaycanda da böyük hörmətlə yanaşırlar. Fürsətdən istifadə edib sizə bildirmək istəyirəm ki, lap yaxın vaxtlarda Bakıda, şəhərimizin mərkəzi rayonlarının birində Taras Şevçenkonun abidəsinin açılışı olacaqdır. Bu da dövlətlərimiz arasında olan dostluq və qardaşlıq münasibətlərinin nümunəsidir.

Artıq qeyd etdiyim kimi, bu münasibətlər çox səmərəli və dinamik şəkildə inkişaf edir və bu gün biz həmin münasibətlərin keyfiyyətcə tamamilə yeni səviyyəsinin şahidiyik. Bu gün mən Ukraynada rəsmi səfərdəyəm. Bu, son dörd ildə sizin ölkənizə mənim dördüncü səfərimdir və bunun özü ölkələrimiz arasında sıx əlaqələrin göstəricisidir.

Bugünkü səfər bizim münasibətlərimizin inkişafında yeni mərhələdir. Ölkələrimiz arasında münasibətlərin gələcək inkişafını müəyyənləşdirəcək çox mühüm sənədlər imzalanmışdır. Bu sənədlər bizim həyatımızın bir çox sahələrini əhatə edir, lakin ölkələrimiz arasında Dostluq və strateji tərəfdaşlıq haqqında bəyannaməni xüsusi vurğulamaq istərdim. Bu sənədin elə adı bizim münasibətlərimizin xarakterini və ruhunu, yəni dostluq və strateji tərəfdaşlığı əks etdirir. Əminəm ki, gələcəkdə bizim münasibətlərimiz daha səmərəli inkişaf edəcək, həyatımızın yeni sahələrini, iqtisadiyyatın, humanitar sahənin yeni sektorlarını əhatə edəcəkdir. İki qardaş dövlət kimi həm Ukrayna, həm də Azərbaycan islahatları uğurla həyata keçirəcək, ölkələrimizi demokratiya və tərəqqi yolu ilə irəli aparacaqlar.

Bu gün dünyanın aparıcı ali məktəblərindən birinin belə yüksək fəxri adını almaq mənə çox xoşdur. Vaxtilə mənim də müəllimlik fəaliyyətim olub və həyatımın bu dövrü mənə çox əzizdir. Bu gün də Azərbaycanın Prezidenti kimi təhsil sisteminin inkişafına böyük diqqət yetirməyə çalışıram. Hər bir ölkənin, hər bir xalqın gələcəyi təhsillə bağlıdır.

Əlbəttə ki, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan iqtisadi islahatları səmərəli şəkildə həyata keçirir. Lakin mən tam əminəm ki, yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsələr həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyildir. Buna görə də təhsil bizim üçün prioritet sahədir. Son vaxtlarda Azərbaycanda bu istiqamətdə çox iş görülmüşdür. Bu sahəyə xərclər ilbəil artır. Deməliyəm ki, Azərbaycan büdcəsinin maddələri arasında təhsil sahəsi ikinci yer tutur. Son 3-4 ildə Azərbaycanda 1300-dən çox məktəb tikilmiş, onlar hamısı internet şəbəkəsinə qoşulmuş kompyuterlərlə təchiz olunmuşdur.

Biz gənclərimizin dünyanın aparıcı ali məktəblərində təhsil alması üzrə proqramı həyata keçirməyə başlayırıq. Mənə çox xoşdur ki, bizim gənclər sizin universitetdə təhsil alırlar. Rektorun artıq qeyd etdiyi kimi, bu sahədə yaxşı ənənə də mövcuddur. Kiyev Milli Universitetinin məzunlarının çoxu bu gün hakimiyyət strukturunda mühüm mövqelər tutur və ictimai həyatda əhəmiyyətli rol oynayırlar.

Bütövlükdə, Azərbaycanın bugünkü inkişafını səciyyələndirərək deməliyəm ki, ölkəmiz siyasi və iqtisadi islahatlar yolu ilə inamla irəliləyir. İslahatlar paralel şəkildə həyata keçirilir, hüquqi dövlət qurulması, cəmiyyətin demokratikləşməsi məsələlərinə çox böyük əhəmiyyət verilir. Güclü siyasi sistem yaradılması bizim bütün gələcək uğurlarımızın rəhnidir, çünki möhkəm demokratik təsisatları olmayan heç bir cəmiyyət inkişaf edə bilməz.

Bu istiqamətdə çox böyük iş görülmüşdür, hələ çox işlər də görülməlidir. Bununla paralel olaraq, çox ciddi və əsaslı iqtisadi islahatlar həyata keçirilir. Bütün bunlar əhalinin maddi rifahının yüksəlməsinə, habelə iqtisadi potensialımızın möhkəmlənməsinə, bütövlükdə beynəlxalq aləmdə ölkəmizin mövqelərinin möhkəmlənməsinə öz təsirini göstərir.

İqtisadi və siyasi islahatlar nəticəsində son dörd ildə Azərbaycanda iqtisadi artım 96 faiz olmuşdur. Son üç ildə biz ÜDM-in artım sürətinə görə dünyada ən yüksək nəticələr əldə etmişik, artım hər il 20-30 faiz olur. Sənaye istehsalının artımı da təxminən iqtisadi artım səviyyəsindədir. Biz irimiqyaslı sosial islahatlar həyata keçiririk, bunun nəticəsində yoxsulluğun səviyyəsi bir neçə dəfə azalmışdır və bu gün həmin göstəriciyə görə Azərbaycan dünya miqyasında layiqli yerdədir. Bizim vəzifəmiz sosial hadisə kimi yoxsulluğun kökünü tamamilə kəsməkdir və mən əminəm ki, yaxın vaxtlarda biz buna nail olacağıq.

Biz Azərbaycanın regionlarının inkişafına çox böyük diqqət yetiririk, çünki regional inkişaf ölkəmizin hərtərəfli inkişaf yoludur. Bu, yeni iş yerləri, müasir infrastruktur, o cümlədən təhsil və səhiyyə infrastrukturu yaradılması deməkdir. Ölkəmizdə bütün bunların həyata keçirilməsi mümkündür və bizim reallaşdırdığımız proqramlar, əslində, həyatımızın bütün sahələrini əhatə edir.

Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkədir. Əlbəttə, burada əsas rolu təbiət oynamışdır. Lakin biri var həmin təbii ehtiyatlar suyun dərin qatları altında qalsın, biri də var ki, onlar hasil edilsin, boru kəmərləri tikilsin və həmin resurslar dünya bazarlarına çatdırılsın. Biz 1990-cı illərin ortalarından başlayaraq, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə enerji sektorunda irimiqyaslı əsaslı islahatlar həyata keçirməyə nail olmuşuq. 1990-cı illərin ortalarında qarşıya qoyulmuş bütün vəzifələr hazırda uğurla yerinə yetirilmişdir.

Azərbaycan enerji ehtiyatlarının iri hasilatçısına və onları Avropa və dünya bazarlarına çatdıran dövlətə çevrilmişdir. Azərbaycan qədim ölkədir. Dünyada ilk dəfə sənaye üsulu ilə neft 1847-ci ildə Azərbaycanda çıxarılmışdır. Lakin o vaxt Azərbaycan xalqı öz sərvətlərinin sahibi deyildi. O dövrdə və sonrakı illərdə Azərbaycan müstəqil dövlət deyildi. Yalnız müstəqillik əldə edəndən sonra Azərbaycan xalqı özünün təbii sərvətlərindən birbaşa istifadə etmək imkanı qazanmışdır və indi bizim təbii sərvətlərimiz ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Biz öz təbii resurslarımızdan dövlətimizin rifahı naminə istifadə edirik və bunun da nəticəsində enerji resurslarının satışından əldə edilən gəlir müntəzəm və ədalətli qaydada bölünür. Biz hasilat sahəsində şəffaflığın maksimum səviyyəsinə nail olmuşuq və bu göstərici üzrə dünya miqyasında liderik. Bunu aparıcı beynəlxalq təşkilatlar da etiraf etmişdir. Keçən il Birləşmiş Millətlər Təşkilatı neft gəlirlərinin və xərclənməsində şəffaflığın yüksək səviyyəsinə görə Azərbaycanı mükafatlandırmışdır.

Biz boru kəməri siyasətini və Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının şaxələndirilməsini uğurla həyata keçirmişik. Hazırda nefti üç istiqamətdə nəql edirik, bunlardan ikisi Qara dəniz hövzəsi, biri Aralıq dənizi hövzəsidir. Biz yeni enerji dəhlizlərinin yaradılması məsələsində öz tərəfdaşlarımızla, o cümlədən Ukrayna ilə fəal əməkdaşlıq edirik. Sizə məlum olduğu kimi, sabah Kiyevdə energetika məsələlərinə həsr edilmiş sammit açılacaqdır. Həmin sammitdə müzakirə ediləcək məsələlərdən biri Odessa-Brodı-Plotsk-Qdansk boru kəməri layihəsinin həyata keçirilməsi məsələsi olacaqdır. Azərbaycan lap əvvəldən bu layihəni siyasi cəhətdən dəstəklədiyini bildirmişdir və indi də bu fikirdədir. Bizim neft şirkətimiz həmin layihəni həyata keçirən "Sarmatiya" şirkətinin səhmdarlarından biridir və ümid edirik ki, enerji sammitinin nəticələri həm bu layihənin həyata keçirilməsi yolunda, həm də bütövlükdə, Xəzər dənizini Qara dəniz və Baltik dənizi ilə birləşdirən etibarlı enerji dəhlizi yaradılmasında irəliyə doğru daha bir addım olacaqdır.

Biz Xəzər hövzəsində yataqlarımızın işlənilməsinə xarici şirkətləri dəvət etmiş ilk ölkə olmuşuq. Bu gün Azərbaycan nefti dünyanın bütün guşələrinə, bütün qitələrə nəql edilir. Biz qarşımızda duran əsas strateji məsələləri uğurla həll etmişik və indi gələcəyə baxırıq. Enerji resurslarımızla regional əməkdaşlıq, regionumuzda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi işinə daha çox töhfə vermək üçün nə edə biləcəyimiz barədə fikirləşirik. Biz gələcəkdə də bu istiqamətdə səylərimizi artırmaq və qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirməyə çalışmaq əzmindəyik.

Bu yaxınlarda Azərbaycan qaz hasil edən və dünya bazarına qaz göndərən ölkəyə çevrilmişdir. Əvvəllər bu, belə deyildi. Lakin qazla bağlı ən mühüm layihələri uğurla həyata keçirən Azərbaycan artıq indi Avropa İttifaqı bazarlarına qaz nəql edir. Gələcəkdə

isə, bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri beynəlxalq münasibətlərin gündəliyində üstünlük təşkil edəcəkdir. Artıq bu gün enerji təhlükəsizliyi məsələlərinə ölkənin milli təhlükəsizliyi kontekstində yanaşırlar. İndiki halda Xəzərin və ilk növbədə Azərbaycanın enerji resursları bu məsələdə artıq müsbət rol oynayır. Biz öz enerji ehtiyatlarımızdan regionda etimadın möhkəmlənməsi, regional əməkdaşlığın möhkəmlənməsi üçün istifadə edirik. Enerji ehtiyatlarından bizim dostlarımız və tərəfdaşlarımız arasında, strateji münasibətlərə malik olduğumuz ölkələr arasında dostluğu möhkəmlətmək üçün istifadə edirik.

Beləliklə, dünya enerji bazarı üçün, qlobal təhlükəsizlik məsələləri üçün Azərbaycanın dünya siyasətində rolu və yeri möhkəmlənir. Bu, əlbəttə, bizə yeni imkanlar verir, lakin həm də bizim üzərimizə əlavə məsuliyyət qoyur. Hazırda dünyada hər şey - istehlakçıların enerji təhlükəsizliyi məsələləri də, resursların satışından alınan səmərənin hasilatçılar üçün faydası məsələləri də bir-biri ilə qarşılıqlı surətlə bağlıdır. Bunlar vəhdət halında maraqların tarazlığını formalaşdırmalıdır. Biz belə tarazlığın tərəfdarıyıq və bu proseslərin müsbət məcrada getməsi üçün, enerji resurslarının mübahisə və münaqişə predmetinə çevrilməməsi üçün öz tərəfimizdən nə lazımdırsa edəcəyik. Bu gün bu məqsədə nail olmuşuq, belə ki, həmişə etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət etmişik.

Ölkəmizdə müxtəlif sahələrdə görülən işlər barədə çox danışa bilərəm. Artıq qeyd etdiyim kimi, bütün sahələr üzrə konkret proqramlar həyata keçirilir. Bizim xeyli maliyyə ehtiyatlarımız yaranmışdır və çoxsaylı sosial proqramlar həyata keçiririk. Sadəcə olaraq, vaxtın məhdudluğu üzündən yalnız bizi narahat edən əsas məqamlar üzərində dayanmalı olacağam.

Bizim uğurlarımızla, gələcəyə böyük nikbinliklə baxmağımızla yanaşı, regionda sabitliyin pozulması, qarşıdurma təhlükələri də mövcuddur. Əslində, onlar həmişə olmuşdur və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi kontekstində görürük ki, bu proses dondurulmuş hesab edilə bilməz. Məsələ həll edilməmiş qaldıqda, münaqişənin daim yenidən alovlanması qorxusu var. Azərbaycanın bu məsələyə münasibətdə mövqeyi birmənalıdır və bu mövqe beynəlxalq hüququn prinsip və normalarına əsaslanır, yəni Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə siyasətindən zərər çəkmiş bir milyon azərbaycanlı özlərinin daimi yaşayış yerlərinə qayıtmalıdır, Azərbaycanın ərazilərinin işğalına son qoyulmalıdır və yalnız o vaxt regionda sülh bərpa olunacaqdır. Bizim mövqeyimiz istər tarixi baxımdan, istərsə də hüquqi, siyasi, iqtisadi baxımdan, qüvvələr balansı, - o cümlədən hərbi sahədə, - baxımından möhkəmdir.

Dağlıq Qarabağın ərazisində tarixən həmişə Azərbaycan xalqının nümayəndələri yaşamışdır. 1828-ci ildə həmin əraziyə erməni xalqının nümayəndələri köçürülmüş, sonradan onlar orada çoxluq təşkil etmiş və bu, separatçılıq təzahürlərinin başlanmasına təkan vermişdir.

Bu gün Dağlıq Qarabağ rejimi heç kim tərəfindən tanınmamışdır. O, əslində, kriminal rejimin idarə etdiyi qanunsuz, qeyri-leqal qurumdur. Orada heç bir qanun işləmir, orada beynəlxalq monitorinq keçirilmir, orada kriminallaşma, narkotrafik, terrorizm kimi çox təhlükəli proseslər baş verir və bunların hamısı bütün qitə üçün təhlükədir. Ona görə ki,

indi dünyada, xüsusən Avropada nəzarətsiz zonaların sayı o qədər də çox deyildir. Bu, bütün regionda sabitliyin pozulmasına gətirib çıxara biləcək böyük təhlükədir.

Beynəlxalq hüquq normaları baxımından BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin bizim ərazidən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin onlara əməl olunmur. Bu yaxınlarda BMT-nin Baş Məclisi işğalçı qüvvələrin ərazimizdən çıxarılmasını tələb edən yeni qətnamə qəbul etmişdir. Biz Ukraynaya çox minnətdarıq ki, o, BMT-də səsvermə zamanı Azərbaycanı dəstəklədi, əslində, ədaləti dəstəklədi və beynəlxalq hüquq normalarının bərqərar olmasına tərəfdar çıxdı.

Mən bu məsələnin siyasi tərəfi barədə danışanda qeyd etməliyəm ki, bu gün, heç şübhəsiz, regional əməkdaşlıq, qlobal enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın əhəmiyyəti və rolu artır. Azərbaycanın iqtisadi potensialı çox sürətlə artır və indi bizim iqtisadiyyatımız hələ də beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək istəməyən həmin ölkənin iqtisadiyyatından, demək olar ki, 7 dəfə artıqdır. Münaqişənin həlli bizim üçün bir nömrəli problem və ölkəmizin qarşısında duran ən ciddi problemdir. Bu, bizim yeganə problemimizdir, çünki iqtisadi islahatlar, siyasi islahatlar, sosial proqramlar - bütün bunlar ona doğru aparır ki, biz Azərbaycanın sözün tam mənasında inkişaf etmiş dövlətə çevrilməsinə nail olacağıq.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi bütün regionun təhlükəsizliyi üçün təhdiddir. Bir daha demək istəyirəm ki, bizi dəstəklədiyinə görə qardaş Ukraynaya minnətdarıq və gələcəkdə də diplomatik və siyasi səylərimizi artırmağa çalışacağıq və əlbəttə, müdafiə qabiliyyətinin artırılmasını da unutmayacağıq. Son vaxtlar bu istiqamətdə az iş görülməmişdir. Qısaca onu deyə bilərəm ki, hazırda Azərbaycanın müdafiə xərcləri təxminən iki milyard dollara bərabərdir, bu isə Ermənistanın illik büdcəsi ilə müqayisə edilə bilər.

Vaxtın məhdud olması ilə əlaqədar mən öz çıxışımı tamamlamağa məcburam. Bir daha demək istəyirəm ki, bu gündən etibarən Kiyev Milli Universitetinin fəxri doktoru adını daşımaq mənim üçün böyük şərəfdir. Mən gələcək fəaliyyətimdə çalışacağam ki, Ukrayna ilə Azərbaycan arasında münasibətlər daim inkişaf etsin, yeni formalarla, yeni layihələrlə zənginləşsin. Bizim ölkələrimizin xalqları arasında tarixən yaxınlıq vardır. Bu gün bir-birimizə strateji tərəfdaşlar kimi baxdıqda, təbii ki, ölkələrimiz arasında münasibətlərin keyfiyyəti tamam başqadır. Əminəm ki, gələcəkdə biz bütün sahələri - təkcə energetikanı deyil, iqtisadiyyat, nəqliyyat sahələrini, humanitar əməkdaşlığı və sairi də əhatə edən bütün planları və layihələri reallaşdıracağıq. Onda, təbii ki, ölkələrimizin potensialı xeyli artacaqdır. Biz artıq indi görürük ki, möhkəm siyasi əlaqələr keçən il əmtəə dövriyyəsinin 40 faizdən çox artmasına gətirib çıxarmışdır. Bu, yalnız başlanğıcdır. Biz öz ölkələrimizin - müstəqil Ukraynanın və müstəqil Azərbaycanın, müstəqil siyasət yeridən ölkələrin inkişafının keyfiyyətcə yeni mərhələsindəyik. Xalqlarımız əsrlər boyu öz taleyimizi özümüzün müəyyənləşdirəcəyi günün həsrətini çəkmişdir. Bizim nəslin xoşbəxtliyi ondadır ki, həmin günü gördük və ən başlıcası, bu müstəqilliyi möhkəmlətmək və gələcək nəsillərimiz üçün qoruyub saxlamaq imkanımız vardır.

Universitetin Elmi Şurasına, mənə bu fəxri adın verilməsi barədə qərar qəbul edənlərin hamısına təşəkkür etmək, qardaş Ukrayna xalqına öz dərin hörmət və məhəbbətimi ifadə etmək, sizin bütün planlarınızın həyata keçməsini və gələcəkdə Ukraynaya bütün iş-

lərində böyük uğurlar diləmək istəyirəm.

Sağ olun.

* * *

Universitetin rektoru vəzifəsini icra edən akademik Leonid Quberski Azərbaycan dövlətinin başçısını Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru adına layiq görülməsi münasibətilə bir daha səmimi təbrik etdi, ona cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, xoşbəxtlik və tərəqqi arzuladı.

* * *

Mərasimdən sonra Prezident İLHAM ƏLİYEV universitetdə təhsil alan azərbaycanlı tələbələrlə söhbət etdi:

- Mən sizin hamınızı salamlayıram. Şadam ki, Azərbaycanın gəncləri burada oxuyurlar. Bu universitetin dünyanın aparıcı ali məktəblərindən biri olduğunu qeyd etdim, çox şadam ki, Azərbaycanın Ukraynada oxuyan tələbələrinin sayı artır. Siz gərək təhsili bitirəndən sonra Vətənə qayıdasınız. Xüsusilə indi Azərbaycanda işlər çoxdur. Sizin kimi gənc mütəxəssislər istənilən sahədə çox lazımdır. Azərbaycan inkişaf edir. Bilirsiniz ki, xaricdə tələbələrin təhsil alması ilə bağlı proqram da hazırlanıbdır. Amma mən artıq bu gün təsəvvür edirəm ki, təhsil yaxşı olacaq və siz yaxşı biliklərlə Vətənə qayıdacaqsınız. Ukrayna dilini də bilirsiniz?

TƏLƏBƏ: Bəli, cənab Prezident, Ukrayna dilində təhsil alırıq!

İLHAM ƏLİYEV: Ukrayna dilində oxuyursunuz? Ukrayna bizim üçün dost ölkədir. Mən bu gün də dedim, bu dostluğu möhkəmləndirmək üçün bütün imkanlardan istifadə edəcəyəm. Siz isə necə deyərlər, təbii olaraq, Ukraynada Azərbaycanın səfirləriniz. Siz gələcəkdə də, yəqin ki, öz işinizdə Ukrayna ilə bağlı olacaqsınız. Bir halda ki, Ukrayna dilini bilirsiniz, bu, bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Mən qeyd etdim, bu universiteti bitirmiş insanlar Azərbaycanda müxtəlif sahələrdə və məsul vəzifələrdə çalışırlar. Sizə də uğurlar arzulayıram. Yaxşı bilik sahibi olmalısınız ki, Azərbaycanda yaxşı yer tuta biləsiniz. Bu gün doğrudan da, ölkəmizə istənilən sahədə yaxşı mütəxəssislər lazımdır. Sizə uğurlar arzulayıram.

* * *

Tələbələr gənclər üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına təşəkkür etdilər, Azərbaycanı başqa ölkələrdə həmişə ləyaqətlə təmsil etməyə çalışacaqlarını vurğuladılar.

Prezident İlham Əliyev tələbələrlə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 23-də Kiyevdə, "Qorodetski Evi"ndə ABŞ Dövlət Departamentinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qreyi və ABŞ Dövlət katibinin müşaviri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərə, o cümlədən enerji sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

KİYEVDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ SAMMİT KEÇİRİLMİŞDİR

Mayın 23-də Kiyevdə enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuş sammit keçirilmişdir.

Sammitin ümumi iclasında Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna Prezidenti Viktor Yuşşenko, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Latviya Prezidenti Valdis Zatlers, Litva Prezidenti Valdas Adamkus, Polşa Prezidenti Lex Kaçinski, Estoniya Prezidenti Toomas Hendrik İlves, Avropa Komissiyasının energetika məsələləri üzrə komissarı Andris Pibalqs, ABŞ Dövlət Departamentinin enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qrey, ümumilikdə 30-dan çox ölkənin yüksək vəzifəli nümayəndələri və diplomatlar iştirak edirdilər.

Sammitdə, əsasən, Avrasiya neft nəqli dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırılması, Baltik-Qara dəniz-Xəzər dənizi enerji tranziti birliyinin yaradılması konsepsiyası və sair məsələlər müzakirə olundu.

Ukrayna Prezidenti Viktor Yuşşenko ümumi iclası açaraq, iştirakçıları təqdim etdi. Sammitin Kiyevdə keçirilməsinin ölkəsi üçün əhəmiyyətini vurğulayan Viktor Yuşşenko dedi ki, Krakov və Vilnüs görüşlərindən sonra bu estafeti Ukrayna paytaxtı qəbul etmişdir. Çox sevindirici haldır ki, bizim ümumi təşəbbüsümüzə qoşulanların sayı daim artır. Enerji məsələlərinin hazırda dünyanın aktual problemlərindən biri olduğunu vurğulayan Viktor Yuşşenko ölkəsinin Avropanın enerji təhlükəsizliyində fəal rol oynamaq istədiyini bildirdi.

Ukrayna Prezidenti imzalanmaq üçün təqdim olunan sənədlər barədə də məlumat verdi.

Sonra Azərbaycan Prezidenti çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Cənab Prezident!

Belə bir əhəmiyyətli tədbirin Ukraynada təşkil olunmasına və qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm.

Mən artıq dünəndən buradayam, Ukraynaya rəsmi səfərim uğurla keçir və müzakirə olunan məsələlər arasında enerji təhlükəsizliyinə mühüm yer ayrılmışdır. Hesab edirəm ki, bir il bundan öncə, yəni başladığımız dövrə nəzər salsaq, qısa müddət ərzində bir çox

nailiyyətlərin əldə olunduğunu deyə bilərik. Krakovda keçirilən ilk sammitdən sonra biz tərəfdaşlığımızı, regional əməkdaşlığı gücləndirmək məqsədi ilə əməli işlər görürük və bu gün, həmin vaxtdan bir il keçdikdən sonra artıq biz Xəzər dənizi, Qara dəniz və Baltik dənizi enerji dəhlizi haqqında danışırıq. Bu, təkcə bizim nailiyyətimiz deyil. Artıq bu istiqamətdə əməli addımlar atılıb, sənədlər imzalanıbdır. Bu gün imzalanacaq və qəbul olunacaq sənədlər bu layihələrimizin həyata keçirilməsi üçün güclü bünövrə olacaqdır.

Azərbaycan əvvəldən enerji təchizatının şaxələndirilməsi siyasətinin tərəfdarı olubdur. Neft və qaz hasil edən bir ölkə kimi biz çoxşaxəli boru kəmərləri infrastrukturunun olmasında maraqlıyıq, həmçinin tranzit ölkələrin və istehlakçıların ehtiyaclarına və tələbatlarına diqqətlə yanaşırıq. Çünki yalnız bütün bu üç tərəfin tarazlaşdırılmış maraqları məqsədlərimizə nail olmaq üçün maksimum səmərəliliyi təmin edə bilər. Bu gün burada hasilatçılar, tranzit ölkələr və istehlakçılar iştirak edir və hesab edirəm ki, aramızdakı tərəfdaşlıq ruhu enerji təhlükəsizliyi məsələlərinin necə həll olunmasının yaxşı nümunəsidir.

Azərbaycan böyük neft və qaz ehtiyatlarına malikdir. Beynəlxalq hesablamalara görə, bu ehtiyatlar bizə ən azı 100 il üçün yetərlidir. Hazırda Azərbaycanda neft hasilatı artmaqdadır və onu daha da yüksəltmək üçün bu sahəyə böyük həcmdə sərmayələr qoyuruq. Bu il neft hasilatı 50 milyon ton, gələn il isə 60 milyon tondan artıq olacaqdır. Ümumiyyətlə, biz artıq kəşfiyyat, hasilat və nəql ilə bağlı bütün əsas layihələrimizi həyata keçirmişik. Müasir və səmərəli infrastruktur yaratmışıq. Artıq bu gün Azərbaycan nefti dünya bazarlarına üç istiqamətdə nəql olunur. Kəmərlərdən ikisi Qara dənizə, biri isə Aralıq dənizinə gedir.

Bu yaxınlarda Azərbaycan Dövlət Neft Şirkəti gürcüstanlı tərəfdaşları ilə birgə Qara dəniz sahilində böyük neft terminalının açılışını edibdir. Azərbaycan Dövlət Neft Şirkəti bu layihəyə təqribən 400 milyon dollar həcmində sərmayə qoyubdur. Bu, haqqında danışdığımız infrastruktur layihələrinin mühüm hissəsidir və şübhəsiz ki, enerji sahəsində regional əməkdaşlıq işinə xidmət edəcəkdir.

Artıq neçə ildir ki, biz Odessa-Brodı-Plotsk-Qdansk layihəsini dəstəkləyirik və bildiyiniz kimi, bu məsələ, bəlkə də, on il olar ki, müzakirə prosesində olubdur. Müzakirələr bəzən daha fəal aparılıb, lakin indiyədək bu istiqamətdə heç bir əməli addım atılmayıbdır. Qrupumuzun bütün iştirakçılarının səylərini, xüsusilə də Polşa Prezidenti, dostum cənab Kaçinskinin Krakov sammitinin keçirilməsi üçün təşəbbüsünü qeyd etmək istərdim. O zaman ola bilsin ki, qısa bir vaxt ərzində planlarımızın həyata keçirilməsi haqqında müzakirələr aparacağımızı qabaqcadan görə bilməzdik.

Mən bütün iştirakçılar arasında olan dostluq və tərəfdaşlıq ruhunu yüksək qiymətləndirirəm. Biz dost ölkələrik. Azərbaycan daim özünün böyük enerji ehtiyatlarından güclü tərəfdaşlıq qurmaq üçün istifadə edibdir. Biz heç vaxt bundan kiməsə qarşı istifadə etməmişik. Yalnız qarşılıqlı əməkdaşlıq naminə istifadə etmişik. Belə demək mümkündürsə, qrupumuzun nümunəsi bütün beynəlxalq ictimaiyyət üçün yaxşı bir nəsajdır ki, enerji təhlükəsizliyi məsələlərinə necə yanaşılmalıdır. Bu istiqamətdə biz səylərimizi davam etdirəcəyik.

Ötən gün mən dostum, Ukrayna Prezidenti Yuşşenko ilə Odessa-Brodı kəmərindən sı-

naq nəqlinin başlanılması ilə bağlı müzakirələr apardıq. Biz bu müzakirələri davam etdirəcəyik və ümidvarıq ki, bu yayın ortalarına kimi müəyyən təşəbbüslər olacaqdır.

Azərbaycan, eyni zamanda, mühüm qaz ixracatçısına çevrilibdir. Biz böyük qaz yataqları kəşf etmişik və hesablamalara görə, ehtiyatlar minimum 2 trilyon kubmetrdir. Qazın nəql olunması üçün bizim infrastrukturumuz artıq mövcuddur. Biz Türkiyəyə və Gürcüstana qaz nəql edirik. Hələ ötən il Azərbaycan qazı, ilk dəfə olaraq, Avropa İttifaqı bazarına - Yunanıstana daxil olubdur. Biz istehlakçılarımızın coğrafi ərazisinin genişlənməsinə ümid edirik. Avropa İttifaqı ilə sıx əməkdaşlıq edirik və mən burada dostumuz Pibalqsı görməkdən məmnunluğumu bildirirəm. İki il öncə Azərbaycan və Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanıb və bu, əlaqələrimizin inkişafı üçün güclü zəmindir.

Biz artıq neft və qazın nəqlinin şaxələndirilməsinə nail olmuşuq. Azərbaycan neftini beynəlxalq bazarlara nəql edə biləcək üç, qazı nəql edə biləcək isə dörd kəmərimiz var. Lakin biz əlavə imkanları da axtarırıq. Biz geniş enerji tərəfdaşlığına töhfə vermək üçün ciddi çalışırıq, çünki indi enerji təhlükəsizliyi ölkənin milli təhlükəsizliyi deməkdir.

Xarici siyasətimizdə enerji amili əhəmiyyətli yer tutur və bir daha demək istərdim ki, biz resurslarımızdan güclü tərəfdaşlığın qurulması və eyni zamanda, ölkəmizin inkişaf etdirilməsi üçün istifadə edirik. Biz təbii ehtiyatları insan kapitalına çeviririk. Son illər ərzində Azərbaycanın əsas sərmayələr yatırdığı sahələr insan kapitalı - təhsil, səhiyyə, infrastruktur, regional layihələrdir. Ümumi daxili məhsulumuzda çox böyük artım var. Son 4 il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı 96 faiz təşkil edibdir. Neftin qiymətlərinin artması ilə bizim əlavə maliyyə imkanlarımız yaranmışdır. Bütün bunlar müsbət elementlərdir. Biz bu sahədə maksimum şəffaflığa nail olmuşuq. Ötən il BMT Azərbaycan Dövlət Neft Fondunu şəffaflığa görə yüksək mükafata layiq görübdür. Azərbaycan Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir və bu proqramı fəal şəkildə icra edirik. Bu gün Azərbaycanın enerji inkişafına istənilən nöqteyi-nəzərdən yanaşsaq, görərik ki, neft və qaz ölkə əhalisinin rifahına xidmət edir. Neft və qaz gəlirləri ölkəmizdə ədalətli şəkildə bölünür və bu, gələcək nailiyyətlərimizin əsas səbəbidir.

Bir daha vurğulamaq istərdim ki, biz tərəfdaşlığın bu çərçivəsinə sadiqik, bu formatda artıq üçüncü dəfədir görüşürük. Mən çox şadam ki, qrupumuz getdikcə genişlənir. Əminəm ki, bu meyil davam edəcək, başladığımız proses uğurla davam etdiriləcək və planlaşdırdığımız işlərin həyata keçirilməsi ilə nəticələnəcəkdir.

Bir daha təşəkkür edirəm və sammitin işinə uğurlar arzulayıram.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Mayın 23-də Kiyevdə, sammitin sənədlərinin imzalanma mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.

Mətbuat konfransını açan Ukrayna Prezidenti Viktor Yuşşenko əvvəlcə mayın 23-də Donetsk vilayətindəki kömür şaxtasında baş vermiş qəzada həlak olanların ailələrinə başsağlığı verdi.

Sammitdə açıq və şəffaf müzakirələrin aparıldığını bildirən Viktor Yuşşenko dedi ki, qaldırılan məsələlər bütün iştirakçı dövlətlər üçün aktual xarakter daşıyırdı. Biz Avropanın enerji təhlükəsizliyini yaxşılaşdırmaq məsələlərinə toxunduq. Kiyev sammitinin tarixə düşəcəyinə əminliyini söyləyən Ukrayna Prezidenti vurğuladı ki, biz təhlükəsiz enerji tranziti məkanına dair dialoqu başlamışıq, bununla bağlı birgə bəyannamə də qəbul olunmuşdur. Sammit iştirakçıları qərara gəlmişlər ki, Baltik-Qara dəniz-Xəzər enerji tranziti məkanının formalaşdırılması istiqamətində işçi qrupu yaradılsın. İşçi qrupu ilk hesabatını noyabrda, növbəti enerji sammitində təqdim edəcəkdir.

Sammitdə təhlükəsiz enerji tranziti məkanına dair geniş müzakirələrin aparıldığını vurğulayan Viktor Yuşşenko dedi ki, Xəzər hövzəsində çıxarılan enerji daşıyıcılarının Avropaya nəqli ilə bağlı Avrasiya enerji tranziti dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırılması hazırdır. Ukrayna Prezidenti Azərbaycanla əməkdaşlığa toxunaraq bildirdi ki, Azərbaycanın Ukraynada neft emalı zavodu inşa etməsi ilə bağlı danışıqlar aparılır. Enerji sahəsində əməkdaşlıq ölkələrimizin Avropaya inteqrasiyasına kömək edəcəkdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli prezidentlər,

Xanımlar və cənablar!

Mən bir daha dostum, Prezident Yuşşenkoya belə bir mötəbər beynəlxalq tədbirin keçirilməsinə görə təşəkkür edirəm. Sammitin nəticələri çox ümidvericidir. Son il ərzində biz qarşımıza qoyduğumuz mühüm məqsədlərə nail olmuşuq.

Bu gün imzalanan sənədlər bizim əvvəlki fəaliyyətimizi və gələcək üçün olan niyyət və planlarımızı əks etdirir. Qısa zaman ərzində əldə olunan uğurlar səylərimizin birləşdiyini göstərir. Biz birlikdə çalışırıq ki, bütün enerji təhlükəsizliyi məsələləri həll oluna bilsin. Bu gün biz sammit iştirakçıları arasında enerji resurslarının hasilatçılarını, tranzit ölkələri və istehlakçıları görürük. Bu, enerji siyasətinin hər üç komponentinin necə bir araya gəlməsinin, dostluq şəraitində və əməkdaşlıq ruhunda müzakirələr aparmasının və nailiyyətlər əldə edilməsinin gözəl nümunəsidir.

Bu gün biz enerji təhlükəsizliyi və şaxələndirmə baxımından böyük əhəmiyyət kəsb edəcək Xəzər-Qara dəniz-Baltik enerji dəhlizinin yaranmasının şahidi oluruq. Əminəm ki, regionlarımızı birləşdirən enerji dəhlizi əməkdaşlığımızın daha da inkişaf etməsinə gətirib çıxaracaqdır.

Nəqliyyat dəhlizi, humanitar dəhliz - bütün bunlar ölkələrimiz arasında daha yaxşı anlaşmaya doğru aparacaq və qarşılıqlı maraqlarımıza xidmət edəcəkdir. Neft və qaz ixrac edən ölkə kimi Azərbaycan qarşısında duran əsas enerji məsələlərinin həllinə artıq nail olubdur. Biz artıq neft və qazın nəqlinin şaxələndirilməsinə nail olmuşuq. İndi neft və qaz Azərbaycandan müxtəlif istiqamətlərə nəql olunur və oluna bilər.

Dostlarımızı və tərəfdaşlarımızı dəstəkləmək üçün çox sıx çalışırıq ki, nəinki hasilatçılar, hətta istehlakçılar da rəqabətli əsaslarla seçim edə bilsin. Şaxələndirmə istehlakçılar, hasilatçılar və tranzit ölkələrin birgə nailiyyəti üçün əsas şərtdir.

Mən hesab edirəm ki, sammitin nəticələri çox müsbətdir. Əminəm ki, növbəti sammitə qədər biz sizə daha çox məlumat verə biləcəyik. Bir daha hesab edirəm ki, bugünkü müzakirənin ən mühüm nəticələri sammit iştirakçılarının səylərinin birləşdirilməsi və əməkdaşlığa, dostluğa, tərəfdaşlığa olan sadiqlikdir ki, qarşımızda duran bütün məsələləri həll edə bilək.

Təşəkkür edirəm.

* * *

Mətbuat konfransında Gürcüstan, Estoniya, Latviya, Litva, Polşa prezidentləri, Avropa İttifaqının, Çexiyanın, Qazaxıstanın, Rumıniyanın və ABŞ-ın nümayəndələri də çıxış etdilər.

Sonra sammit iştirakçıları jurnalistlərin suallarına cavab verdilər, rəsmi foto çəkdirdilər.

KİYEVDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

Mayın 23-də Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kiyevin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.

Dövlət başçısı burada Ukraynadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdü. Bu ölkənin müxtəlif vilayətlərində yaşayan həmyerlilərimiz ukraynalıların Azərbaycan Prezidentinə xüsusi rəğbət bəslədiyini və bunun nəticəsi olaraq azərbaycanlıların Ukraynanın ictimai-siyasi həyatında və biznes dairələrində nüfuzlarının getdikcə artdığını söylədilər.

Prezident İlham Əliyev soydaşlarımıza doğma Azərbaycana daha möhkəm bağlanmaqla diasporun güclənməsinə və Ukrayna-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə yeni-yeni töhfələr verməyi tövsiyə etdi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Prezidenti İlham Əliyevin mayın 23-də Ukraynaya rəsmi səfəri başa çatmışdır.

BELARUS PAYTAXTINDA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI BAŞA ÇATMIŞDIR

Mayın 23-də Belarusun paytaxtında MDB hökumət başçıları Şurasının iclası keçirilmişdir.

Azərbaycanın Baş naziri Artur Rasizadə, RF hökumətinin başçısı Vladimir Putin, Qazaxıstan Baş nazirinin müavini Umirzak Şukeyev, Gürcüstanın Baş naziri Vladimir Qurgenidze, Qırğızıstanın Baş naziri İqor Çudinov, Tacikistanın Baş naziri Akil Akilov, Özbəkistan Baş nazirinin müavini Rüstəm Qasımov, Moldovanın Baş naziri Zinaida Qreçanaya, Ukraynanın Baş naziri Yuliya Timoşenko, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Rəşid Meredov, Ermənistanın Baş naziri Tiqran Sarkisyan forumda iştirak etmişlər. BMT Baş katibinin müavini Marek Belka Belarus tərəfinin dəvəti ilə iclasda fəxri qonaq kimi iştirak etmişdir.

Forumdan əvvəl hökumət başçılarını Belarus Prezidenti Aleksandr Lukaşenko qəbul etmişdir.

MDB hökumət başçıları Şurasının iclasına Yuliya Timoşenko sədrlik etmişdir.

Müzakirə olunan əsas məsələlərdən biri MDB Dövlət Başçıları Şurasının 5 oktyabr 2007-ci il və MDB hökumət başçıları Şurasının 20 noyabr 2007-ci il tarixli Birliyin iqtisadi inkişaf strategiyası layihəsinin işlənib hazırlanmasına dair tapşırıqlarının, razılaşdırılmış nəqliyyat siyasəti və MDB ölkələrinin ərzaq təhlükəsizliyinin artırılmasına dair birgə tədbirlər kompleksinin hazırlanması sahəsində təkliflərin yerinə yetirilməsinin gedişi olmuşdur. Görüşün gündəliyinin əsas bəndi Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümünün qeyd olunmasına hazırlıq məsələləri olmuşdur. MDB ölkələri bu əlamətdar tarixi birgə bayram etmək niyyətindədirlər. Hökumət başçıları "Mir" dövlətlərarası teleşirkətin fəaliyyətini də müzakirə etmişlər. Bu teleşirkət vahid informasiya məkanı mərkəzinə çevrilməli və gələcəkdə Birliyin bütün ərazisini əhatə etməlidir.

Hökumət başçıları maliyyə məsələlərini və digər məsələləri də nəzərdən keçirmişlər.

Səfər çərçivəsində Minskə gəlmiş Azərbaycanın Baş naziri Artur Rasizadə Belarus hökumətinin başçısı Sergey Sidorski ilə görüşmüşdür. Görüşdə Belarus-Azərbaycan ticarət-iqtisadi əməkdaşlığının müxtəlif istiqamətləri, habelə MDB-nin inkişafı ilə bağlı məsələlər müzakirə edilmişdir.

Sergey Sidorski bildirmişdir ki, MDB-nin inkişaf strategiyasının formalaşdırılmasını 2008-2009-cu illər ərzində başa çatdırmaq lazımdır. O, həm MDB formatında, həm də ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair birgə fəaliyyətə hazır olduğu üçün Azərbaycanın Baş nazirinə təşəkkürünü bildirmişdir.

Artur Rasizadə vurğulamışdır ki, Azərbaycan Belarus ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir. O əmin olduğunu bildirmişdir ki, bu əlaqələr bundan sonra da genişlənəcəkdir və ötən görüşlərdən sonra müəyyən irəliləyiş əldə olunmuşdur.

Görüşdə vurğulanmışdır ki, bu ilin yanvar-mart aylarında Belarus ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 25,4 milyon dollara çatmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə artmışdır. İki ölkə arasında ixrac 24,5 milyon dollar (artım 1,9 dəfə), idxal 939 min dollar (artım 1,5 dəfə) olmuşdur. Ötən ilin yekunlarına görə, Azərbaycan Belarusun MDB ölkələri ilə xarici ticarətinin həcmində yeddinci yeri tutur.

Belarusun Azərbaycana ixracının əsasını maşınqayırma, ağac emalı, sənaye-istehlak malları, ərzaq məhsulları, bu ölkədən əmtəə idxalında isə kənd təsərrüfatı məhsulları və xammal üstünlük təşkil edir. O cümlədən meyvə və tərəvəz şirələri, tomatlar, asiklik spirtlər, sintetik parçalar, gil idxal olunur.

Belarus ilə Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlığa istehsal kooperasiyası da daxildir. Məsələn, Azərbaycanda traktorların və yük avtomobillərinin yığılması üzrə müəssisələr yaradılmış, optik-mexaniki zavod Belarus texnologiyası əsasında bərpa edilmişdir. Azərbaycanda MTTZ-nin şassisində mobil qazma qurğularının istehsalı üzrə kooperasiya həyata keçirilir, liftlərin yığılması üzrə istehsalın yaradılması üçün iş aparılır.

Azərbaycanın Baş naziri Artur Rasizadə Minskə səfəri çərçivəsində Ukrayna hökumətinin başçısı Yuliya Timoşenko ilə də görüşmüşdür. Tərəflər Azərbaycan ilə Ukrayna

arasında ikitərəfli münasibətlərin perspektivlərini müzakirə etmiş və ölkələrimiz arasında iqtisadi əməkdaşlığın müsbət dinamikasını diqqətə çatdırmışlar.

Həmin gün MDB hökumət başçıları Şurasının iclası başa çatmışdır.

MDB hökumət başçıları Şurasında sədrlik rotasiya qaydasında Belarusa keçmişdir. Belarus Prezidenti Aleksandr Lukaşenko forumda iştirak edən nümayəndə heyətlərinin rəhbərlərinə müraciətlə demişdir ki, onlar zirvə toplantısının fəaliyyəti çərçivəsində Belarus rəhbərliyi qarşısında istənilən vəzifəni qoya bilərlər və Belarus tərəfi onların hər birini həll etməyə hazırdır.

Forum iştirakçıları gündəliyin 20 məsələsinin hər biri üzrə qərar qəbul etmişlər. Bunu MDB icraiyyə komitəsinin sədri, birliyin icraçı katibi Sergey Lebedev iclasın yekunlarına dair mətbuat konfransında bildirmişdir. Onun sözlərinə görə, bunlar, əsasən, iqtisadi əməkdaşlıq məsələləridir. Bundan əlavə, bir sıra təşkilati-protokol məsələlərinə də baxılmışdır. Şurada Belarusun sədrliyi məsələsinə toxunan Sergey Lebedev demişdir: "Əminəm ki, Belarus növbəti ildə Birliyin güclü təkanverici qüvvəsinə çevriləcəkdir. MDB İcraiyyə Komitəsi öz növbəsində Belarusun bütün qurumları ilə sıx qarşılıqlı fəaliyyət göstərməyə hazırdır".

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avropa Şurasına üzv ölkələrin parlament başçılarının ikigünlük yığıncağında iştirak etmək üçün Strasburqa gəlmiş Milli Məclisin sədri Oqtay Əsədov mayın 22-də Avropa Şurası Parlament Assambleyasının sədri Luis Maria de Puçla görüşmüşdür.

Görüşdə Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndiyi və inkişaf etdiyi razılıq hissi ilə qeyd edilmiş, ölkəmizdə AŞPA-nın əsas dəyərlərindən biri olan demokratiyanın inkişafı üçün hər cür şəraitin yaradıldığı, AŞ ilə Azərbaycan arasında hər cür anlaşmanın mövcud olduğu diqqətə çatdırılmış, Milli Məclislə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Görüşdə son illər Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, ölkəmizin təkcə Cənubi Qafqaz bölgəsində deyil, habelə MDB məkanında lider olduğu xüsusi vurğulanmışdır.

Milli Məclisin sədri Oqtay Əsədov Şərq aləmində ilk demokratik dövlət qurmuş Azərbaycan Demokratik Cümhuriyyətinin 90 illiyi münasibətilə keçiriləcək bayram tədbirinə Luis Maria de Puçu dəvət etmişdir. AŞPA sədri dəvətə görə təşəkkürünü bildirmiş, imkanı olduğu təqdirdə əlamətdar hadisə ilə bağlı tədbirdə iştirak edəcəyini söyləmişdir.

MİLLİ MƏCLİSİN SƏDRİ PARLAMENT RƏHBƏRLƏRİNİN AVROPA KONFRANSINDA ÇIXIŞ ETMİŞDİR

Mayın 23-də Avropa Şurasının üzvü olan ölkələrin parlament rəhbərlərinin Avropa konfransının ikinci iş günündə Milli Məclisin sədri Oqtay Əsədov çıxış etmişdir. Parlamentin sədri yaxın vaxtlarda Milli Məclisin 90 yaşını qeyd edəcəyini, 1918-ci ilin may ayında müsəlman Şərqində ilk demokratik və dünyəvi dövlət olan Azərbaycan Xalq

Cümhuriyyətinin yaradıldığını, onun banilərinin və parlament üzvlərinin böyük bir hissəsinin Avropada təhsil aldıqlarını xatırlatmışdır.

Oqtay Əsədov 70 ildən sonra müstəqilliyini bərpa etmiş Azərbaycanın yenidən Avropaya üz tutmasının heç də təsadüfi olmadığını, totalitar rejimin məngənəsindən çıxmış ölkəmizin demokratik dəyərlərə yiyələnməsində Avropa Şurasının ona kömək etdiyini, Azərbaycanın demokratik prinsiplərin keşiyində dayanan bu nüfuzlu quruma üzv olmasının dövlətimizin uğurlarından biri olduğunu bildirmişdir. O demişdir ki, Avropa Şurasına qəbul olunmaq Azərbaycanın nəinki demokratik dövlət kimi tanınması deməkdi, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi dövlətimizin inkişafında yeni mərhələnin başlanğıcı idi.

Milli Məclisin sədri Azərbaycanda demokratik təsisatların inkişaf etdirilməsində, demokratik proseslərin və siyasi azadlıqların genişləndirilməsində, insan hüquqlarının müdafiəsinin beynəlxalq standartlara yaxınlaşdırılmasında Avropa Şurasının köməyini xüsusi vurğulamışdır. Avropa Şurasının rolunu təkcə qanunvericiliyin yeniləşdirilməsi və institusional islahatların aparılması ilə məhdudlaşmadığını deyən sədr, qurumun bunlardan daha vacib olan başqa bir rolunun insanların şüurunda və düşüncə tərzində baş verən köklü transformasiyadan ibarət olduğunu bildirmişdir.

Oqtay Əsədov çıxışında demişdir ki, demokratiya yalnız demokratik təsisatların qurulmasından, yaxşı qanunların qəbul edilməsindən ibarət deyil, eyni zamanda, demokratiya ilk növbədə və əsas etibarilə həyat və düşüncə tərzidir. Avropa Şurasının təsir dairəsi təkcə 47 üzv dövlətlə bitmir. Demokratiya, insan hüquqları və qanunun aliliyi sahəsində standartlar müəyyən etməklə Avropa Şurası dünyanın qalan hissəsində də siyasətə, qanunvericiliyə və praktikaya əhəmiyyətli təsir göstərir.

Avropanın bəzi ərazilərində Avropa Şurasının demokratik dəyərlərin keşikçi funksiyalarını yerinə yetirə bilmədiyini xatırladan O.Əsədov, bunu deyərkən davakar etnik separatizm nəticəsində dövlətlərin yuridiksiyasından özbaşına çıxmış qanunsuz əraziləri nəzərdə tutduğunu bildirmişdir. Milli Məclisin sədri demişdir ki, Avropanın bir hissəsində demokratiyanın, insan hüquqlarının və qanunun aliliyinin qorunması və inkişaf etdirilməsi üçün ölkələr həm fərdi, həm də Avropa Şurası tərkibində kollektiv məsuliyyət daşıyır. Ona görə də qurumun, eləcə də onun ayrı-ayrı mexanizmlərinin nüfuzunu və səmərəliyini qoruyub saxlamaq üçün ciddi düşünmək lazımdır. Bu məsələdə təsisatların üzərinə xüsusi məsuliyyət düşdüyünü vurğulayan O.Əsədov bildirmişdir ki, demokratiyanı, insan hüquqlarını və qanunun aliliyini parlamentsiz düşünmək qeyri-mümkündür. Parlament milli qanunvericiliyi Avropa hüquq normalarına və standartlarına uyğunlaşdırmaq, siyasi partiyaları və qeyri-hökumət təşkilatlarını öz fəaliyyətinə geniş cəlb etmək, icra strukturları üzərində təsirli nəzarət həyata keçirmək, problemlərin açıq müzakirəsini aparmaq yolu ilə demokratik təsisatları möhkəmləndirir, söz, mətbuat, vicdan, birləşmək, sərbəst toplaşmaq və digər siyasi azadlıqların reallaşmasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaradır.

Avropa Şurasına üzv olan ölkələrin hər birinin özünəməxsus milli xüsusiyyətləri və bənzərsizliyi olduğunu xatırladan Milli Məclisin sədri AŞ-ın nüfuzu və gücünün də məhz bu müxtəlifliklərin ahəngdarlığı və vəhdətində olduğunu bildirmişdir.

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AQO QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avropa Şurası ölkələrinin parlament sədrlərinin Avropa konfransı çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov mayın 23-də Nazirlər Komitəsi AQO qrupunun hazırkı sədri, Rumıniyanın qurum yanındakı daimi nümayəndəsi Steyan Stoyanla görüşmüşdür.

Söhbət zamanı ölkəmizdə qarşıdakı prezident seçkiləri barədə fikir mübadiləsi aparılmış, bu mühüm hadisə ilə əlaqədar qrupla Azərbaycan arasında əməkdaşlıq müzakirə edilmişdir.

Oqtay Əsədov seçki ilə bağlı Azərbaycanda həyata keçirilən islahatlar və mövcud qanunvericilik aktları barədə geniş məlumat vermiş, seçkilərin Avropa Şurasının standartlarına tam cavab verəcəyini, Azərbaycanın ən demokratik, ən şəffaf seçkilər keçirilməsində israrlı olduğunu bildirmişdir.

Görüşdə Nazirlər Komitəsi sədrinin Azərbaycana səfərinin nəticələri yüksək qiymətləndirilmiş, AQO qrupunun səfərinin komitədə geniş müzakirə edildiyi bildirilmiş, ölkəmizdə seçkiqabağı vəziyyət müsbət dəyərləndirilmişdir. Etnik qruplar, alternativ xidmətlə bağlı müəyyən qanunların qəbul edilməsi məsələsinə toxunulmuşdur. Milli Məclisin sədri bu halların təkcə Azərbaycanda deyil, Avropa Şurasının üzvü olan digər ölkələrdə də mövcud olduğunu vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN İNFORMASİYA İDARƏSİNİN TƏŞKİLATI DƏSTƏYİ İLƏ MÜHAZİRƏ-EKSKURSİYASI TƏŞKİL OLUNMUŞDUR

2008-ci il may ayının 23-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İnformasiya idarəsinin təşkilatı dəstəyi ilə ölkəmizdə akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulluqların rəhbərlərinin Azərbaycan Tarix Muzeyinə, Azərbaycan dövlətçilik tarixinə həsr edilmiş mühazirə-ekskursiyası təşkil olunmuşdur. 10 səfirin iştirak etdiyi 24 diplomatik nümayəndəlikdən olan tədbir iştirakçıları Azərbaycanın tarixi və milli-mədəni irsi ilə yaxından tanış olmuşlar.

Mühazirə - ekskursiyanın onlarda böyük maraq doğurduğunu ifadə edən qonaqlar, ölkəmizdə tarixi abidələrin və muzeylərin bərpası istiqamətində böyük işlərin görüldüyünü diqqətə çatdırmış, böyük tarixə və mədəniyyətə malik olan Azərbaycanın dünya tarixində özünəməxsus yer tutduğunu bildirmişlər.

Ekskursiya zamanı bu qəbildən olan tədbirlərin mütəmadi şəkildə təşkil ediləcəyi qonaqların diqqətinə çatdırılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də ABŞ Konqresinin üzvləri Adam Şif, Elison Şvarts və Ueyn Gilkrestdən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini vurğulayaraq

əmin olduğunu bildirdi ki, ABŞ nümayəndə heyətinin səfəri qonaqlara bu proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaqdır.

Qonaqlar ölkəmizə səfərindən və Prezident İlham Əliyevlə görüşlərindən məmnun olduqlarını söylədilər. Bildirdilər ki, səfərin əsas məqsədi Azərbaycanda və regionda gedən proseslərlə yaxından tanış olmaqdan ibarətdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ TİCARƏT NAZİRİ XANIM ŞEYXA LÜBNƏ BİNT XALİD ƏL-QASİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Birləşmiş Ərəb Əmirliklərinin xarici ticarət naziri xanım şeyxa Lübnə bint Xalid Əl-Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da genişlənməsi üçün böyük imkanların olduğu bildirildi. Dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinə uğurlu səfərinin bu əlaqələrin möhkəmlənməsində mühüm rol oynadığı vurğulandı. Birləşmiş Ərəb Əmirlikləri nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN VƏ ÇEXİYA XİN-LƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR

Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov Praqada çexiyalı həmkarı ilə siyasi məsələlərə dair məsləhətləşmələr aparmışdır.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Xəzər İbrahim bildirmişdir ki, məsləhətləşmələr zamanı ikitərəfli əlaqələrə, habelə Azərbaycanın Avropa Qonşuluq Siyasətində iştirakına, Azərbaycan-NATO münasibətlərinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və GUAM-ın fəaliyyətinə dair müzakirələr aparılmışdır.

Araz Əzimov səfər çərçivəsində Çexiya parlamentinin xarici əlaqələr komitəsinin sədri və Vışeqrad qrupunun səfirləri ilə də görüşmüşdür.

Görüşlərdə Çexiya-Azərbaycan, Çexiya-GUAM, habelə Vışeqrad qrupu-Azərbaycan, Vışeqrad qrupu-GUAM əməkdaşlığına dair məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Finlandiyaya rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş Helsinkinin Vantaa beynəlxalq hava limanında Azərbaycan Prezidentini və xanımını Finlandiyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.

Mayın 29-da Finlandiya Prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və Finlandiyanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Finlandiya Prezidenti xanım Tarya Halonen və həyat yoldaşı Pentti Arayarvi Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar. Cənab Pentti Arayarvi Mehriban xanıma gül dəstəsi təqdim etdi.

Azərbaycanın və Finlandiyanın dövlət himnləri səsləndi.

Finlandiyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Finlandiya əsgərlərini salamladı.

Azərbaycan nümayəndə heyəti Finlandiya Prezidenti Tarya Halonenə təqdim edildi.

Azərbaycan Prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabını imzaladı.

Ölkəmizin birinci xanımı Mehriban Əliyeva da Fəxri qonaqlar kitabını imzaladı.

Prezidentlər qarşılıqlı hədiyyələr təqdim etdilər, rəsmi foto çəkdirdilər.

Dövlət başçıları Prezident sarayından Helsinkinin mənzərəsini seyr etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 29-da Helsinkidə, Finlandiya Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. O cümlədən Prezident Tarya Halonenin Azərbaycana və Prezident İlham Əliyevin Finlandiyaya rəsmi səfərlərinin ikitərəfli əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirildi.

Tərəflər iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün böyük potensialın olduğunu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla həyata keçirildiyini vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 29-da Helsinkidə, Finlandiya Prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Finlandiya Respublikasının Prezidenti xanım Tarya

Halonenin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan və Finlandiya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu.

Prezident İlham Əliyev Azərbaycanda gedən inkişaf proseslərindən danışdı. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verdi və bildirdi ki, Ermənistanın bu işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Finlandiya Prezidenti xanım Tarya Halonen ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu söylədi, Azərbaycana rəsmi səfərini xatırladaraq, onun uğurla keçdiyini bildirdi. O, Prezident İlham Əliyevin Finlandiyaya indiki rəsmi səfərinin də uğurla keçəcəyinə əminliyini vurğulayaraq dedi ki, bu səfər əlaqələrimizin genişlənməsinə xidmət edəcəkdir.

Tərəflər qarşılıqlı investisiya imkanlarının geniş olduğunu, sənaye, ekologiya, ətraf mühitin qorunması və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün potensialın mövcudluğunu vurğuladılar.

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI

Mayın 29-da Helsinkidə Prezident sarayında Azərbaycan və Finlandiya dövlət başçılarının hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşündən sonra prezidentlər birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Düşünürəm ki, həmkarım Azərbaycan Prezidentinin, onun xanımının və nümayəndə heyətinin ölkəmizə səfəri uğurludur. Ölkələrimiz arasında çox yaxşı münasibətlər var. Lakin apardığımız danışıqlarda biz bu əlaqələrimizin müxtəlif sahələrdə daha da genişlənməsini və dərinləşməsini istədiyimizi vurğuladıq. Mən həmkarımın bu səfərini çox əhəmiyyətli hesab edirəm və artıq yeni səfərlərə, əlaqələrə və praktik əməkdaşlığa ümidlə baxıram.

Hazırda ölkələrimiz arasında iqtisadi əlaqələr o qədər geniş olmasa da, artıq Finlandiya şirkətləri Bakıda və ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərir. Ümid edirəm ki, biz birgə səylərlə əməkdaşlığın genişləndirilməsi üçün imkanları araşdıracağıq. Eyni zamanda, biz Azərbaycanın iş adamlarını Finlandiyada fəaliyyət göstərməyə dəvət edirik.

Biz Azərbaycanda, regionda və ümumiyyətlə, Avropadakı siyasi vəziyyəti ətraflı şəkildə müzakirə etdik. Dənizlərdəki vəziyyəti və eyni zamanda, ətraf mühitin qorunması barədə, ekoloji məsələləri də müzakirə etdik. Belə ki, bunlar daim gündəlikdə olan məsələlərdir. Hesab edirəm ki, bu sahədə və başqa sahələrdə bir-birimizlə təcrübəmizi bölüşə bilərik.

Finlandiya hazırda ATƏT-ə sədrlik edən ölkədir və biz çalışacağıq ki, Cənubi Qafqazdakı məsələlərin həllinə əlimizdən gələn köməyi edək. Lakin hələlik bu istiqamətdə nailiyyətlərimiz o qədər də böyük deyildir. Amma region ölkələrinin və beynəlxalq təşkilatların dəstəyinə bizim ehtiyacımız var. Mən bir daha əmin oldum ki, biz bu istiqamətdə müəyyən işlər aparırıq. Biz finlandiyalılar bu məsələlərə ciddi yanaşırıq və problemlərin həlli yollarının tapılmasında köməyimizi əsirgəmirik.

Xanımlar və cənablar, bununla da sözü həmkarıma verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Xanım Prezident, təşəkkür edirəm!

Hörmətli xanımlar və cənablar!

Mən Finlandiyada rəsmi səfərdə olmağımdan çox məmnunam. Bu mənim sizin ölkənizə ilk rəsmi səfərimdir. Bu dəvətə, eləcə də mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə xanım Prezidentə öz təşəkkürümü bildirirəm. Ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir, ikitərəfli əlaqələrimiz güclüdür və mən əminəm ki, bu səfərdən sonra daha da güclənəcəkdir. Biz fəal siyasi dialoqumuzu da davam etdirəcəyik. Eyni zamanda, ölkələrimizin iqtisadi potensialını nəzərə alaraq, iqtisadi əməkdaşlığımızı genişləndirmək məqsədi ilə imkanlar da axtaracağıq. Çünki indiki vəziyyət o qədər də qənaətbəxş deyildir. Lakin bu gün müzakirələr zamanı biz ortaq bir fikir söylədik ki, işgüzar dairələrimiz arasında daha sıx əlaqələrə və məlumatlılığa ehtiyacımız var. Əməkdaşlığı, iqtisadi inteqrasiyanı daha da genişləndirmək üçün daha nə edə biləcəyimizi müəyyən etdik.

İndi Azərbaycanda böyük imkanlar var, ölkə inkişaf edir, iqtisadiyyatın yeni sektorları daha da güclənir. Bizim böyük sərmayə planlarımız var və mən bu gün Finlandiya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət etdim. Güclü siyasi münasibətlər, şübhəsiz ki, güclü iqtisadi əməkdaşlığı müəyyən edəcəkdir.

Xanım Prezidentin qeyd etdiyi kimi, biz bu gün iqtisadi, ticari və enerji tərəfdaşlığını və ətraf mühitin qorunması məsələlərini müzakirə etdik. Müzakirələr geniş sahələri əhatə etdi. Eyni zamanda, Cənubi Qafqazdakı vəziyyət, həll edilməmiş münaqişələr və xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun həlli - bütün bunlar bu gün apardığımız danışıqların mövzusu olubdur. Mən bir daha Azərbaycanın mövqeyini bəyan edərək bildirmək istəyirəm ki, Cənubi Qafqazda və digər ərazilərdəki münaqişələr yalnız beynəlxalq hüquq normaları və ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, səfərimin başlamasından çox razıyam. Biz müxtəlif məsələlərlə bağlı açıq və çox səmimi danışıqlar apardıq. Mən xanım Prezidentin üç il bundan öncə Azərbaycana etdiyi səfərini xatırlayıram. Məhz o vaxt bizim tərəfdaşlığımız başladı və mən çox şadam ki, bütün məsələləri müzakirə etməyimizə imkan verən açıq, dostcasına və səmimi münasibətlərimiz var. Bu gün bu dialoqu davam etdirmək üçün gözəl bir imkandır və mən əminəm ki, səfərin nəticələri çox uğurlu olacaqdır.

Təşəkkür edirəm.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

- Hazırda Finlandiya ATƏT-də sədrlik edir. Bu müddətdə Finlandiya Qarabağ münaqişəsinin həllinə hansı töhfələri verə bilər?

TARYA HALONEN: Şübhəsiz ki, bu, məhz tərəflərin özünün, Azərbaycanın və Ermənistanın məqsədidir. Aldığım məlumata görə, bu yaxınlarda Azərbaycan və Ermənistan prezidentləri görüşəcəklər. Ümid edirəm ki, onlar yeni dövr üçün əlverişli şəraitin yaranmasına çalışacaqlar. Təbiidir, biz deyə bilmərik ki, bütün məsələlər tez bir zamanda öz həllini tapacaqdır. Lakin ümid edirik ki, prezidentlərin görüşü yeni ab-hava yaradacaq və danışıqlar səmimi olacaqdır.

Finlandiyanın ATƏT-də sədrliyinə gəlincə, onu deyə bilərəm ki, belə məsələlərin həllində bizim böyük təcrübəmiz var. Şübhəsiz ki, biz həm ATƏT-in, həm də həmsədrlər qrupunun bu sahədəki fəaliyyətini dəstəkləyirik. Beləliklə, deyə bilərik ki, biz bu prosesləri və addımları dəstəkləyirik və ümid edirik, qrupun bu istiqamətdəki fəaliyyətinə hörmətlə yanaşılacaq və əməkdaşlığa nail olunacaqdır. Burada iki məsələ var. Ümid edirik ki, hər iki ölkə - Azərbaycan və Ermənistan danışıqlar zamanı yaxşı yeni başlanğıc əldə edəcək və ATƏT-in bu məsələdə yardımçı səylərinə ədalətli şəkildə dəstək verəcəklər.

- Cənab Prezident, bu yaxınlarda münaqişə zonasında bəzi toqquşmalar baş vermişdir. Nə üçün oradakı vəziyyət bu qədər gərgindir, Azərbaycan və Ermənistan arasında açıq hərbi əməliyyatların başlanması ehtimalı varmı?

İLHAM ƏLİYEV: Bu münaqişə artıq iyirmi ilə yaxındır davam edir. 1994-cü ildən bəri biz atəşkəs rejimindəyik, lakin hələ ki, sülhə nail olunmayıbdır. Bəzi ərazilərdə təmas xətti çox yaxındır və şübhəsiz ki, baş verən bu toqquşmalar narahatlıq doğurur. Lakin bəzən bu toqquşmaların qarşısını almaq çox çətindir, çünki münaqişə hələ də həll olunmamış qalır. Təbii ki, biz bu toqquşmaların baş verməsindən təəssüf edirik. Bunlar insan itkisinə və tələfatlara səbəb olur. Bununla belə, bu, reallıqdır. Reallıq budur ki, münaqişə hələ də həll edilməyibdir. Bəziləri güman edə bilər ki, münaqişə dondurulub, lakin bu, belə deyildir. Bu münaqişə özündə təhlükə daşıyır və regionda potensial qeyri-sabitliyinin əsas amilidir. Təbii ki, əgər münaqişənin sülh yolu ilə həlli tapılarsa, Azərbaycanın bütün əraziləri azad edilərsə və qaçqın-köçkünlərin öz doğma torpaqlarına qayıtmaq imkanı olarsa, onda regionda sülh bərqərar olar. Bu mərhələdə hər iki tərəf vəziyyəti nəzarətdə saxlamalıdır ki, toqquşmalar genişmiqyaslı hərbi əməliyyatlara çevrilməsin. Lakin regionda vəziyyətin təhlükəli inkişafı istisna olunmur. Çünki danışıqlar heç bir nəticə vermədən 14 il davam edirsə, əgər Ermənistan tərəfi konstruktiv mövqe nümayiş etdirmirsə, BMT Təhlükəsizlik Şurasının və Baş Məclisinin qətnamələrinə uyğun davranmırsa, Azərbaycan torpaqlarını qanunsuz olaraq işğal altında saxlamağa davam edirsə, istənilən hal baş verə bilər. Bununla belə, Azərbaycan sülh prosesinə sadiqdir. Bizim uzun illər danışıqlar prosesində iştirakımız bu münaqişənin yeganə həlli yolunun sülh danışıqları olduğunu hesab etdiyimizə dəlalət edən bir işarədir.

- Sualım hər iki Prezidentədir. İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi perspektivləri və qarşılıqlı sərmayələrin qoyulması baxımından ölkələrimiz hansı sahələrdə əməkdaşlıq edə bilər?

TARYA HALONEN: Cavab çox nikbin olacaqdır. Çünki hesab edirəm, Finlandiyada buna bənzər təcrübəmiz var və Azərbaycan üçün çox faydalı ola bilər. Azərbaycanın enerji daşıyıcılarının hasilatı və nəqli üçün böyük ehtiyatları var. Bizim isə enerji ehtiyatlarımız olmasa da, bu sahədə böyük iş təcrübəmiz var. Düşünürəm ki, artıq energetika sektorunda bizim ilk belə əyani təcrübəmiz var və biz bu sahədə çox irəliləmişik, müasir texnologiyalara sahibik və bu istiqamətdə var gücümüzlə çalışırıq. Ümid edirəm ki, enerji sektoru gələcəkdə daha geniş əhatə olunacaqdır.

Burada bir sıra digər məsələlər də vardır. Məsələn, biz bilirik ki, enerji sektoru ilə bağlı əsas məsələlərdən biri də ekologiyadır. Biz bu sahədə təcrübəmizi və məlumatları bölüşməyə hazırıq. Mən, eyni zamanda, Baltik dənizi əməkdaşlığı haqqında məlumat vermişəm. Hesab edirəm ki, ekologiya sahəsində fəaliyyət göstərən bəzi şirkətlərimiz ölkənizin bu sahəyə cavabdeh olan qurumları ilə əməkdaşlıq edə bilər. Bizim bəzi sazişlərimiz mövcuddur, lakin bir sıra digər ikitərəfli müqavilələrə ehtiyacımız var. Biz bu sazişlərə müsbət yanaşırıq və bu istiqamətdə işlərimizi davam etdiririk. Düşünürəm ki, bizim xarici ticarət və inkişaf naziri cənab Vyayryunen Azərbaycana səfər etməyə ciddi hazırlaşır və ümid edirəm ki, biz dövlət səviyyəsində də tezliklə irəliyə doğru müəyyən addımlar atacağıq. Bazar iqtisadiyyatı bazar iqtisadiyyatıdır və biz həmçinin hər iki tərəfin geniş əməkdaşlığa can atan şirkətlərinin maraqlarına da güvənirik.

İLHAM ƏLİYEV: Biz bu məsələni geniş müzakirə etdik və qarşılıqlı sərmayə qoyuluşlarını təqdir etdiyimizə dair ortaq fikir irəli sürdük. Azərbaycanın indiki inkişaf mərhələsində biz öz maliyyə imkanlarımızla artıq qonşu ölkələrdə müxtəlif infrastruktur layihələrində iştirak edirik. Son ilyarım ərzində Azərbaycanın ölkədən kənarda qoyduğu sərmayələrin ümumi məbləği, ən azı, 2,5 milyard dollar olubdur. Beləliklə, biz müxtəlif yerlərdə sərmayə qoyuluşu imkanlarını ciddi şəkildə araşdırırıq. Eyni zamanda, Azərbaycanda da sərmayə qoyuluşu üçün yaxşı mühit var. Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin həcmi baxımından regionda lider ölkədir. Bütün sərmayələr müvafiq qaydada qanunla qorunur. İndiyədək Azərbaycanda hökumət və iri sərmayədarlar arasında heç bir mübahisə baş verməmişdir.

Eyni zamanda, mən xanım Prezidenti ölkəmizdə bu il 6 milyard dollardan artıq olacaq dövlət sərmayə proqramı haqqında məlumatlandırdım. Bu layihələr həyatımızın bütün sahələrini əhatə edəcək və mən Finlandiya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət etdim. Ona görə ki, Finlandiya şirkətlərinin böyük nüfuzu, peşəkar səviyyələri və fəaliyyəti var. Artıq bizim Finlandiya şirkətləri ilə yaxşı iş təcrübəmiz var, xüsusilə də ölkəmizdə elektrik stansiyalarının tikintisində. Şübhəsiz ki, iqtisadi əməkdaşlıq daha da geniş ola bilər və bu gün nümayəndə heyətlərimizin üzvləri nəyin edilə biləcəyi haqqında fikir mübadiləsi aparmaq imkanı əldə etdilər.

Hesab edirəm ki, bu sıx təmasları biz gələcəkdə də davam etdirməliyik. Bizim aramızdakı təmaslar və danışıqlar, sadəcə, prezidentlər və xarici işlər nazirləri arasındakı görüşlərlə məhdudlaşmamalıdır. Bu, daha geniş bir əməkdaşlıq olmalıdır və ola bilsin ki, biz tərəfdaşlığın praktik sahələrini müzakirə etmək üçün nazirlərin qarşılıqlı səfərlərinin təşkil edilməsi haqqında düşünək. Əminəm ki, biz bu istiqamətdə ciddi irəliləyişə nail ola bilərik.

- Cənab Prezident, ölkənizdə oktyabr ayında prezident seçkiləri keçiriləcəkdir. Ötən illərdə seçkilərin ədalətli keçirilmədiyi haqda bəzi ittihamlar səslənibdir. Qarşıdakı seçkilərdə bu məsələlər öz həllini necə tapacaqdır?

İLHAM ƏLİYEV: Bizim bölgə barədə belə ittihamlar vaxtaşırı səslənir. Lakin Azərbaycanda keçirilən son seçkilərin nəticələri xalqın iradəsini və real vəziyyəti yüz faiz özündə əks etdiribdir. Bu, həm 2003-cü ildəki prezident seçkilərində, həm də 2005-ci ildə parlament seçkilərində belə olubdur. Əgər xatırlayırsınızsa, 2005-ci ildə bizim bölgədəki parlament seçkilərinə maraq çox böyük idi, xüsusilə də qonşu ölkələrdə inqilabi ssenarilərin həyata keçirilməsindən sonra. Bəziləri elə düşünürdü ki, bu inqilabi ssenarilər hər yerdə baş tutacaqdır. Lakin, bu Azərbaycanda baş vermədi. Əsasən də ona görə ki, istər daxili, istərsə də xarici olmasından asılı olmayaraq, xalq həmin qüvvələri dəstəkləmədi. 2005-ci ildə beynəlxalq təşkilatlar tərəfindən keçirilən exit-poll aydın şəkildə göstərdi ki, açıqlanan rəsmi nəticələr exit-pollun nəticələri ilə, demək olar, tam üst-üstə düşdü və bu da seçkilərin tamamilə azad və ədalətli keçirilməsinin ən yaxşı sübutudur. Pozuntu hallarının baş verdiyi seçki dairələrində səsvermənin nəticələri ləğv edildi. Orada seçkilər yenidən təşkil edildi və bu da normal hal kimi qəbul olunubdur.

Beləliklə, biz qarşıdan gələn prezident seçkilərində heç bir problem və ya heç bir çətinliklər görmürük. Seçkilər azad və ədalətli keçiriləcəkdir. Biz beynəlxalq təşkilatları müşahidəçi qismində ölkəmizə dəvət edəcəyik. Əvvəlki təcrübəmizi nəzərə alaraq, gələcək müşahidəçilərdən yeganə xahişimiz odur ki, yalnız gördüklərini əks etdirsinlər. Ədalətli və qərəzsiz olsunlar və Cənubi Qafqazdakı müstəqil ölkələrə eyni bucaqdan yanaşmağa çalışsınlar. Çünki bəzən belə olmur. Xüsusilə yaxın keçmişdə Ermənistanda kütləvi saxtakarlıq, ordunun müdaxiləsi və 28 nəfərin qətlə yetirilməsi ilə müşayiət olunmuş, qeyri-azad və ədalətsiz keçirildiyi hesab edilən seçkilərə Qərbdə nə üçün göz yumulduğunun səbəbini biz bilmirik. Buna səbəb Ermənistanı bütün tənqidlərdən qoruyan güclü erməni diasporu ola bilər. Digər səbəblər də ola bilər. Lakin biz Cənubi Qafqazda, qonşu ölkələrdə nə baş verdiyini bilirik. Azərbaycana qarşı, xüsusilə də demokratikləşmə prosesləri ilə bağlı, digər ölkələrlə müqayisədə fərqli münasibət görürüksə, şübhəsiz, bu, çox təəssüfedici haldır. Bir daha əminəm ki, seçkilər yaxşı keçəcək, biz müşahidəçiləri dəvət edəcəyik. Lakin müşahidələr və bu müşahidələrə dair hesabatlar qabaqcadan formalaşmış seçki fikirləri ilə yox, ədalətli və qərəzsiz olmalıdır. Amma təəssüf ki, biz ötən zamanlarda bunun şahidi olmuşuq.

TARYA HALONEN: Həmkarımın fikirlərinə onu əlavə etmək istərdim ki, qarşıda gələn prezident seçkiləri bizim danışıqlarımızın mövzusu olubdur. Dəvətlərin gələcəyini eşitməkdən çox məmnun oldum və ümid edirəm ki, bunlar erkən dəvətlər olacaqdır.

FİNLANDİYA PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiya parlamentində olmuşdur.

Dövlətimizin başçısını binanın önündə parlamentin - Eduskuntanın sədri Sauli Niinistö, baş katib Seppo Tiitinen, xarici əlaqələr departamentinin rəisi xanım Katriina Kuusinen böyük ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev parlamentin üzvləri ilə görüşdü və Fəxri qonaqlar kitabını imzaladı.

Parlamentin sədri SAULİ NİİNİSTÖ dövlətimizin başçısını salamlayaraq dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Hörmətli xanımlar və cənablar!

Finlandiyanın parlamentində - Eduskuntada sizi salamlamaqdan çox məmnunam. İki il bundan əvvəl biz burada parlamentin 100 illik yubileyini qeyd etmişik. Yüz il əvvəl Finlandiyanın bütün vətəndaşlarına seçkilərdə iştirak etmək və namizədliyini irəli sürmək üçün tam hüquqlar verilmişdir. Bu tarix 1906-cı ilə təsadüf edir. O vaxt Finlandiyanın demokratiyası üçün güclü zəmin yaradıldı və bu, bizim firavan ölkənin bünövrəsi idi.

Bilirəm ki, ötən gün Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90-cı ildönümü qeyd olunubdur. İcazə verin, bir gün gec də olsa, bu münasibətlə Sizi təbrik edim. Eyni zamanda, mən bir müddət sonra Azərbaycan parlamentinin yaranmasının 90-cı ildönümü ilə əlaqədar öz təbriklərimi çatdıracağam.

Ötən aylar ərzində əlaqələrimiz daha da intensivləşibdir. Belə ki, Finlandiyanın bir çox siyasətçisi Azərbaycana səfər etmək imkanı əldə etdi. Hələ yanvar ayında bizim parlamentin xarici əlaqələr komitəsinin nümayəndə heyəti Sizin parlamentlə tanış olub, fevral ayında isə bizim xarici işlər nazirimiz, ATƏT-də sədrlik edən şəxs kimi Azərbaycana səfər etmişdir. Bu gün isə cənab Prezident, Sizi burada, Finlandiya demokratiyasının əsası sayılan parlamentdə qonaq qismində qəbul etməkdən çox məmnunuq.

Ölkələrimiz arasındakı münasibətləri əla kimi xarakterizə edirik və aramızda heç bir problem yoxdur. Bunu mən səmimiyyətlə təsdiq edə bilərəm. Bundan başqa, razılıqla deməliyəm ki, dünyada sülh və tərəqqinin genişləndirilməsi naminə beynəlxalq əməkdaşlıqda biz qüvvələrimizi birləşdirmişik. Son on ildə Azərbaycanda neft və qaz sənayesi inkişaf etməkdədir və xarici sərmayədarlar ölkənizin iqtisadiyyatına etibar edir. Həqiqətən də, bu inkişaf çox sabit görünür. Biz Sizin Avropa enerji bazarına gələcəkdə qaz təminatçısı kimi verəcəyiniz güclü töhfəni görməkdən çox məmnun olacağıq.

Cənab Prezident, Sizi bizim parlamentdə ali qonaq qismində bir daha salamlamaq istəyirəm və əminəm ki, Sizin Finlandiyaya səfəriniz xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaqdır. Bir daha Sizi salamlayıram, Xoş gəlmisiniz!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Cənab sədr, çox sağ olun!

Xanımlar və cənablar!

Parlamentdə belə bir səmimi qəbula görə sizə təşəkkür edirəm. Burada olmağımdan çox şadam. Bu gün Azərbaycan Respublikası Prezidentinin Finlandiyaya ilk rəsmi səfəri həyata keçir və bu, ölkələrimiz arasındakı əlaqələrin tarixində mühüm hadisədir.

Biz öz müstəqilliyimizi 1991-ci ildə bərpa etdik və o zamandan bəri bu, Finlandiyaya ilk rəsmi səfərdir. Çox uğurlu səfərdir, bu gün səhər biz xanım Prezidentlə ətraflı danışıqlar apardıq. Biz ikitərəfli əlaqələri, regional məsələləri, enerji siyasətini, siyasi və iqtisadi islahatlar siyasətini müzakirə etdik. Bizim baxışlarımız və yanaşmalarımız üst-üstə düşür.

Bizim demokratik respublikanın ildönümü ilə bağlı təbriklərinizə görə Sizə təşəkkür edirəm. Bu, bizim yaşadığımız bölgə üçün tarixi hadisə olub və ümumiyyətlə, müsəlman dünyasında yaranan ilk demokratik respublika idi. Lakin sonradan uzun illər ölkəmiz müstəqillikdən məhrum olmuşdur. Çünki demokratik respublika cəmi iki il yaşadı. Sonra biz yenidən digər ölkənin bir hissəsinə çevrildik. Biz indiki müstəqilliyimizi çox əziz tuturuq və onun daha da möhkəmləndirilməsi üçün əlimizdən gələni edirik.

Biz Avropaya inteqrasiya edirik. Avropa İttifaqı ilə Azərbaycanın tərəfdaşlığı genişlənməkdədir. Biz Avropa İttifaqının Yeni qonşuluq siyasətinin iştirakçısıyıq. Tərəfdaşlığı və əməkdaşlığı gücləndirmək məqsədi ilə biz Avropa İttifaqı və üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsaslarla əməkdaşlıq edirik. Bu gün bunları inkişaf etdirmək üçün böyük imkanların olduğunu görürük. Siyasi əlaqələrimiz çox yaxşı səviyyədədir və iqtisadi sahədə yeni imkanlar mövcuddur. Siz bizim iqtisadi inkişafımızı qeyd etdiniz. Bu, bizim üçün böyük nailiyyətdir. Son üç il ərzində ölkəmiz ÜDM-in artımına görə dünyada liderlik edir və ötən 4 il ərzində bizim iqtisadiyyatımız ikiqat artıbdır. Şübhəsiz ki, bu, böyük bir uğurdur. İndi ölkəni müasirləşdirmək üçün böyük imkanlarımız var və eyni zamanda, üzərimizə böyük məsuliyyət düşür. Buna görə də Azərbaycanda siyasi, iqtisadi islahatlar, demokratik proseslər və sosial proqramlar paralel şəkildə aparılır. Vətəndaşlarının istedadı və müasir islahatlar sayəsində böyük nailiyyətlər əldə edən bir ölkə nümunəsi olmaq bizim üçün çox əhəmiyyətlidir.

Bu gün biz xanım Prezidentlə Finlandiyanın heç bir enerji resursları olmadan inkişaf etməsi və həyat səviyyəsi, azadlıq və sosial rifah baxımından dünyanın ən aparıcı ölkələrindən birinə çevrildiyi haqda müzakirələr apardıq. Bizə əlavə dəstək verən enerji resurslarımızın olduğunu nəzərə alsaq, güclü ictimai nəzarətin və hər bir vətəndaşın bərabər imkanlarının mövcud olduğu demokratik və müasir ölkəyə çevrilmək üçün bütün imkanlarımız var və biz bu istiqamətdə fəaliyyət göstəririk.

Bizim Finlandiya ilə ikitərəfli münasibətlərimiz iqtisadi maraqlar və birgə layihələrlə məhdudlaşmır. Biz, əslində, daha geniş mənada, Xəzər və Baltik regionları arasında əməkdaşlığa cəlb olunmaq istəyirik. Artıq indi bu istiqamətdə ilk addımlar atılmaqdadır. Azərbaycan etibarlı tərəfdaş və dost ölkə kimi regionlarımız arasında tərəfdaşlığa töhfə vermək üçün əlindən gələni edəcəkdir.

Bu gün Şəhər Şurasında olarkən mən qeyd etdim ki, Helsinki və Bakı gözəl dəniz sahilində yerləşən paytaxt şəhərlərdir və bu da şəhərlərimiz arasında olan oxşarlıqdır. Bir çox digər oxşarlıqlar da var və biz bu oxşarlıqların davam etməsini istəyirik. Azərbaycan demokratik və sosial tərəqqi baxımından gələcəkdə inkişaf etmiş ölkələrin səviyyəsinə çatacaqdır. Biz özümüzü gələcəkdə inkişaf etmiş bir ölkə kimi görürük və bu səbəbdən sizin təcrübənizi və nailiyyətlərinizi öyrənmək və ölkəmizdə daha nə edə biləcəyimizi görmək bizim üçün çox maraqlıdır.

Parlamentdə olmaq imkanına görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizə uğurlar arzulayıram və əminəm ki, bu səfərdən sonra əlaqələrimiz uğurla və sürətlə inkişaf edəcəkdir.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAASKİVİ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Helsinkidə Paaskivi Cəmiyyətinin üzvləri ilə görüşü olmuşdur.

Cəmiyyətin sədri professor MİKKO VİİTASALO dövlətimizin başçısını salamlayaraq dedi:

- Zati-aliləri cənab Prezident!

Hörmətli nazirlər!

Hörmətli qonaqlar və Paaskivi cəmiyyətinin üzvləri!

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Prezidenti cənab İlham Əliyevi və nümayəndə heyətini burada Paaskivi cəmiyyətində səmimiyyətlə salamlamaqdan böyük şərəf hissi duyuram. Bir cəmiyyət kimi biz çıxışınız üçün məhz buranı seçdiyinizə görə Sizə minnətdarıq və bundan məmnunuq. Cəmiyyəti birləşdirən əsas məqsəd bizim hamımızın beynəlxalq məsələlərə olan marağıdır. Bu səbəbdən çıxışınızı böyük maraqla gözləyirik. Biz Qafqazdakı siyasi vəziyyəti davamlı şəkildə izləmişik. Ötən il Gürcüstan Prezidenti cənab Mixail Saakaşvili cəmiyyətimizdə çıxış edərək, ölkəsində olan vəziyyəti, digər qonşu ölkələrlə olan münasibətləri təsvir etdi. İnanırıq ki, Sizin çıxışınız nəinki ölkənizdə, o cümlədən bütün Qafqazda siyasi vəziyyətlə daha yaxşı tanış olmaq üçün bizə bir çox məlumatlar verəcəkdir. Statistik göstəricilərə görə, ölkənizin iqtisadiyyatı olduqca sürətlə inkişaf edir. Xəzərin neft ehtiyatları və uğurlu boru kəmərləri layihələri nəticəsində ÜDM sabit şəkildə artmaqdadır. Bu, yaxşı məlumatdır, çünki güclü iqtisadiyyat sülhün əsasıdır, böyük maliyyə vəsaitləri isə, cəmiyyətin bütün sahələrini inkişaf etdirmək imkanını yaradır. Biz, Paaskivi Cəmiyyətində, əminik ki, Sizin rəhbərliyiniz altında ölkənizin xoşbəxt gələcəyi var.

Cənab Prezident, çıxışımın sonunda mən Sizə, ailənizə, ölkənizə və bütün xalqınıza gələn illər ərzində ən böyük uğurlar arzulayıram və sözü Sizə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar,

İlk növbədə, bu gün Sizin qonağınız olmaq məqsədi ilə məni Paaskivi Cəmiyyətinizə dəvət etdiyinizə və Azərbaycan, onun yerləşdiyi regionda olan proseslər haqqında danışmaq, eləcə də gələcək inkişafla bağlı bəzi fikir və düşüncələrimi bölüşmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirmək istəyirəm.

Mən onunla başlamaq istəyirəm ki, bu, Finlandiya ilə Azərbaycan arasında olan münasibətlər tarixində Azərbaycan Prezidentinin ölkənizə etdiyi ilk səfərdir. Biz bu səfərə böyük əhəmiyyət veririk, çünki əminəm ki, o, ölkələrimiz arasında münasibətlərin yeni səhifəsini açacaq. Münasibətlərimiz uğurla inkişaf edir, siyasi əlaqələrimiz çox yaxşıdır.

Prezident Halonenin 2005-ci ildə Azərbaycana səfəri xatirimdədir. Həmin səfər də uğurlu olmuşdur. Bu gün keçirdiyimiz müzakirələr bu prosesin davamıdır. Gələcəkdə biz qarşılıqlı imkanlarımızın araşdırılması üçün daha böyük işləri yerinə yetirəcəyik. Daha uğurla əməkdaşlıq edəcəyimiz sahələri müəyyən edəcəyik və həmin sahələrdə güclü tərəfdaşlıq qurmaq imkanını öyrənəcəyik. Bu gün keçirdiyim müzakirələr çox həvəsləndiricidir. Biz ikitərəfli münasibətləri, iqtisadi əməkdaşlığı, gələcəkdə tərəfdaşlığın potensial sahələrini müzakirə etdik. Yanaşmamız və məqsədlərimiz bir çox hallarda üst-üstə düşür. Biz Finlandiya ilə Azərbaycan arasında qarşılıqlı maraq, hörmət və gözlənilən nəticələr əsasında möhkəm münasibətlər qurmaq arzusundayıq. Əlbəttə ki, bu gün müzakirə etdiyimiz məsələlərdən biri iqtisadi əməkdaşlıq və tərəfdaşlığın genişləndirilməsi imkanları olmuşdur. Azərbaycanın burada qeyd olunan iqtisadi artım sürəti qarşımızda yeni imkanlar açır.

Dünən Azərbaycan tarixdə malik olduğu ilk demokratik respublikasının 90-cı ildönümünü qeyd edirdi. 1918-ci ildə, böyük siyasi proseslər nəticəsində Azərbaycan xalqı öz müstəqil dövlətini qurmaq üçün xüsusi imkana malik oldu. Bu, azərbaycanlıların həyatında və ümumiyyətlə, tarixi hadisə idi. İlk dəfə idi ki, müsəlman ölkədə demokratik respublika quruldu. Əfsuslar olsun ki, sonra baş vermiş hadisələr müstəqilliyimizə son qoydu. Müstəqillik yalnız iki il çəkdi, 1920-ci ildə Azərbaycan öz müstəqilliyini itirdi və yenidən, digər ölkənin bir hissəsinə çevrildi. Bu dövr isə 70 ildən artıq çəkdi. Yalnız Sovet İttifaqının süqutundan sonra xalqımız yenidən müstəqil olmaq imkanı qazandı. Lakin bu dəfə müstəqilliyi qazanmaq asan idi, çünki həmin hadisə məhz Sovet İttifaqının dağılmasından irəli gəlirdi. Müstəqilliyi qoruyub saxlamaq çətin idi. Dəyişiklikləri etmək və böyük potensialı, sabit vəziyyəti olan ölkəyə çevrilmək mürəkkəb idi. Azərbaycan indi buna nail olmuşdur. Lakin, yenə də deyirəm, bu, çətin olmuşdur. Müstəqillikdən dərhal sonra biz həddindən artıq böyük çətinliklərlə üzləşdik. Siyasi hərc-mərclik, iqtisadi və hərbi böhran, vətəndaş müharibəsi, iqtisadi tənəzzül və sənayenin uçurumda olması - 17 il öncə Azərbaycan bu vəziyyəti yaşamışdır. Lakin ciddi siyasi və iqtisadi islahatlar siyasəti nəticəsində, 1993-cü ildən etibarən ölkə çətinlikləri aradan qaldırmağa başladı. Biz sabitlik və asayişi bərqərar edə bildik. Azərbaycan müxtəliflik əsasında inkişafa qədəm qoydu. İqtisadi dəyişikliklər kimi, siyasi dəyişikliklər də eyni dərəcədə vacib idi. Azərbaycan müstəqilliyini qazandığı zaman bazar iqtisadiyyatının payı sıfır həddində idi. Bu gün isə iqtisadiyyatımızın 80 faizindən çoxu özəl sektorun payına düşür. Azərbaycan öz tarixində siyasi sistemə yalnız həmin iki illik dövrdə, 1918-ci ildən 1920-ci ilə qədər malik olmuşdur. O vaxtın özü də böhranlı olmuşdur. Biz postkommunist totalitar ölkədən demokratik ölkəyə çevrilməli idik və bu illərdə əldə edilmiş uğurlar olduqca gözəçarpandır.

Azərbaycan siyasi islahatları həyata keçirən, demokratik təsisatlara malik, dünyaya açıqlığı ilə seçilən, dünyanın siyasi və iqtisadi işlərində yeri olan və sürətlə inkişaf edən ölkədir. Buna nail olmaq asan deyildi. Əminəm ki, müstəqilliyin 17 ili ərzində nail olduğumuz nəticələr əldə oluna biləcək səviyyənin maksimum dərəcəsini təşkil edir. Biz bütün əsas problemləri aradan qaldırmağa nail olduq və son dörd il ərzində, iqtisadiyyatımız, demək olar ki, iki dəfə artmışdır. Son üç il ərzində biz ÜDM-in artım sürətinə görə dünyada birinci yeri tuturuq. Bu artım 25 faizdən 35 faizə qədər olmuşdur. Biz əsas beynəlxalq şirkətləri neft və qaz sektoruna sərmayə qoymaq məqsədi ilə dəvət etməyə nail olduq. Bu, indi sürətlə inkişaf edən ölkə kimi əldə etdiyimiz nailiyyətlər üçün çox

əhəmiyyətli idi. Bu sərmayələr digər sahələrə kapital qoyuluşu üçün imkanlar açdı. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan indi regionumuzda və dünyada birinci yer tutur. Bütün bunlar Azərbaycanın müstəqilliyi, həyata keçirdiyimiz iqtisadi, siyasi və sosial islahatlar sayəsində mümkün olmuşdur.

Biz keçmişdən miras qalmış sosial problemlərin həllinə xüsusi əhəmiyyət veririk. Sosial məsələlər iqtisadi islahatlar qədər vacibdir. Vəsaitlərin düzgün bölüşdürülməsi nəticəsində biz çox qısa müddət ərzində ölkədə yoxsulluğun səviyyəsini 49 faizdən 16 faizə qədər azalda bildik. Məqsədimiz Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasından ibarətdir. Bunun üçün bütün imkanlarımız var. Yoxsullara sosial dəstəyin verilməsi üzrə böyük proqramlarımız var. Bizim regional inkişaf proqramlarımız mövcuddur. Bunun nəticəsində son illər ərzində ölkədə yüz minlərlə iş yerləri yaradılmışdır.

Beynəlxalq münasibətlər baxımından danışsaq, Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv oldu və bu, bizim strateji seçimimiz idi. Biz Avratlantik tərəfdaşlığı siyasətinə sadiqik. Avropa Şurası kimi təşkilatda olmaq bizim üçün çox əhəmiyyətli idi. Biz demokratik inkişaf sahəsində bir çox nailiyyətlər əldə edə bildik və yeni qanunlar qəbul etdik. Azərbaycan insan hüquqlarını, demokratiya, ədalət və qanunun aliliyini əhatə edən bir çox beynəlxalq və Avropa konvensiyalarına qoşulmuşdur. Bu, islahatlarımızın vacib hissəsidir, çünki biz neft və qazla zəngin olan bir çox ölkələrin tarixini bilirik. Həmin ölkələrin heç də hamısında zəngin təbii sərvətlər sosial rifahla və vəsaitlərin düzgün şəkildə bölüşdürülməsi ilə nəticələnməmişdir. Ona görə biz güclü ictimai nəzarətə və möhkəm siyasi təsisatlara malik olmalıyıq ki, inkişaf etmiş ölkəyə çevrilək. Şəffaflıq qarşımıya qoyduğumuz məqsədlərdən biridir. Hasilat sənayesində maksimum şəffaflığa nail olmuşuq. Ötən il BMT Azərbaycanın Dövlət Neft Fondunu yüksək şəffaflığa görə mükafatla təltif etmişdir. Ölkəmizdə neft gəlirlərinin şəffaf şəkildə toplanılması və xərclənməsi sistemi mövcuddur. Bu məsələdə vətəndaşlarımız parlamentdəki nümayəndələri vasitəsilə qərarların qəbul olunmasında iştirak edirlər.

Əsas sərmayələr infrastruktur layihələrinə və sosial sahəyə yatırılır. Vəsaitlər, əsasən, 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində ölkədə yaranmış yüz minlərlə qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə yönəldilir. Biz gələcəyə nikbinliklə baxırıq. Həyatın bütün sahələrini əhatə edən proqramlarımız var. Enerji sektoru, təbii ki, iqtisadiyyatımızın əsas sahəsidir. İqtisadiyyatımızı şaxələndirməyə və əsasən, qeyri-neft sektoruna sərmayələrin qoyulmasına ürəkdən çalışdığımıza baxmayaraq, enerji sektoru bir neçə il bundan sonra da iqtisadiyyatımızda əsas yeri tutacaqdır. Neft hasilatını artırırıq, qaz hasil və ixrac edən ölkəyə çevrilirik. Enerji resurslarının hazırkı qiymətlərini nəzərə alsaq, bu amil iqtisadi sistemimizdə uzun illər ərzində əsas yeri tutacaqdır.

Şaxələndirmə, insan kapitalına - təhsilə, səhiyyəyə və informasiya texnologiyaları sahəsinə sərmayələrin qoyuluşu Azərbaycan üçün əsas prioritetləri təşkil edir. Biz çox fərəhlənirik ki, son üç il ərzində ölkədə 1300 məktəb tikmişik və onların hamısı kompyuterləşib və internetə qoşulub. Kompyuterləşmə və internetə çıxış bütün məktəblərdə bizim üçün prioritetlərdən biridir. Bizə hazırda və gələcəkdə təhsilli və bacarıqlı gənc nəsil lazım olacaqdır. Bu insanlar ölkəmizin maraqlarına yüksək peşəkarlıqla xidmət edə-

cəklər. Təbii sərvətlər bizim üçün məqsəd deyildir. Bu, sadəcə, üstünlükdür. Biz bilməliyik ki, gec-tez neft və qaz tükənəcəkdir. Bəs sonra neçə olacaq? Biz əlli il və hətta ondan da sonranı düşünməliyik. Bu gün biz ölkəmizin gələcəkdə davamlı inkişafının əsaslarını formalaşdırmalıyıq.

Əsrlər boyu azərbaycanlılar digər ölkələrin və imperiyaların tərkibində yaşamışlar. Əsrlər boyu biz müstəqilliyimizdən məhrum olmuşuq. İndi isə biz müstəqil ölkəyik. Müstəqil siyasət həyata keçiririk. Müstəqilliyi gücləndirmək üçün əlimizdən gələni etməliyik. Biz bütün gücümüzlə çalışmalıyıq ki, Azərbaycan müasir, iqtisadi baxımdan güclü ölkə kimi öz uğurlu inkişafını davam etdirsin. Bir daha qeyd etmək istəyirəm, buna nail olmaq üçün bütün imkanlara malikik. Biz buna öz səylərimiz sayəsində nail olmuşuq. Müstəqilliyin başlanğıcında Azərbaycanın düşdüyü vəziyyət digər sovet respublikaları ilə müqayisədə, bəlkə də, ən ağır idi. Onlardan fərqli olaraq, ölkəmizdə vətəndaş müharibəsi, sosial böhran və torpaqlarımızın işğalı mövcud idi. Bu, ən ağır başlanğıc şərait idi.

Lakin biz son üç il ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata çevrilə bildik. Enerji layihələrimizi həyata keçirə bildik və indi biz Avropanın enerji təhlükəsizliyi üçün mühüm ölkəyik. Enerji resurslarımız əməkdaşlıq, dostluq və tərəfdaşlığa xidmət edir. Biz enerji resurslarımızı heç vaxt kiməsə qarşı və yaxud hansısa məqsədlərə nail olmaq üçün istifadə etməmişik və etməyəcəyik. Keçmişimiz, atdığımız addımlar onu göstərir ki, biz bu resursları tərəfdaşlıq üçün istifadə edirik. Lazım olanda, biz öz qonşularımıza və dostlarımıza dəstək veririk. Bu resurslardan möhkəm tərəfdaşlığı qurmaq məqsədi ilə istifadə edirik və gələcəkdə də edəcəyik. İndi heç bir regional layihə Azərbaycanın iştirakı olmadan mümkün deyildir. Biz Bakıdan Aralıq dənizinə gedən transmilli neft boru kəmərinin, eləcə də Azərbaycandan Avropaya çəkilmiş qaz boru kəmərinin təşəbbüskarıyıq.

Artıq ötən il, tarixdə ilk dəfə olaraq, Avropa Azərbaycan qazını almağa başladı. Bu, real şaxələndirmə deməkdir. Bizim üçün şaxələndirmə bir istehlakçıdan, Avropa üçün isə, bir təchizatçıdan asılı olmamaq vasitəsidir. Biz istehlakçıların narahatlığını başa düşürük. Əlbəttə ki, bizi narahat edən məsələlər də anlanılmalıdır. Bir sözlə, biz şaxələndirməyə artıq nail olmuşuq. Üç boru kəməri üç müxtəlif istiqamətdə neftimizi nəql edir. Dörd qaz boru kəməri dörd müxtəlif istiqamətdə qazımızın çatdırılmasını təmin edir. Əlbəttə ki, gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq davam edəcəkdir. Biz Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulmuşuq.

2006-cı ildə Avropa İttifaqı və Azərbaycan Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzaladı. Bütün bunlar apardığımız əməkdaşlığın mühüm çərçivəsidir. Hazırda biz regional əməkdaşlığın genişləndirilməsi üzərində çalışırıq. Bu gün biz nəinki Xəzər-Qafqaz-Qara dəniz əməkdaşlığı, həm də Xəzər-Qara dəniz-Baltik dənizi regionları arasında işbirliyi haqqında danışırıq. Biz bu regionları daha da yaxınlaşdırmaq imkanlarını araşdırırıq. Əlbəttə, enerji və daşınma mühüm rol oynayacaqdır. Hər iki sahədə biz avropalı tərəfdaşlarımızla sıx işləyirik. Coğrafi mövqeyimiz də çox əlverişlidir. Biz malların Asiyadan Avropaya və geriyə daşınması sahəsində vacib tranzit ölkəyə çevrilməyi planlaşdırırıq.

Mən Azərbaycanda görülmüş işlər və planlaşdırılan addımlar haqqında çox danışa bilə-

rəm. Lakin məhdud vaxtı nəzərə alaraq, əldə etdiyimiz nailiyyətlərə və gələcək planlarımıza təhlükə olan məsələ haqqında danışmaq istərdim. Bu, Qafqazdakı vəziyyət və oradakı separatçı rejimlər, eləcə də, əfsuslar olsun ki, keçmiş Sovet İttifaqının ərazisində mövcud olan tanınmamış qeyri-qanuni qurumlar - yəni, Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgələrdəki qurumlardır. Həmin yerlərdə eyni vəziyyət yaranmışdır. Eyni separatçı hərəkətlər, oxşar etnik təmizləmə siyasəti, həmin hərəkətlərin bir-birinə oxşar nəticələri, həmin ərazilərin ölkələrdən de-fakto ayrılması və Azərbaycan, Gürcüstan ilə Moldovanın ərazi bütövlüyünün pozulması müşahidə olunur.

Biz bu məsələlərə sırf hüquqi nöqteyi-nəzərdən baxırıq. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış hissəsidir. Hazırda bu, tanınmamış qurumdur. Onun başında de-fakto cinayətkar rejim dayanır. Həll yolu yalnız beynəlxalq hüquq, münaqişənin əvvəlində BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə və bu ilin mart ayında Baş Məclisin qəbul etdiyi qətnamə əsasında olmalıdır. Qətnamələrdə erməni qüvvələrinin torpaqlarımızdan dərhal çıxarılması tələb olunur. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini aparıb və bunun nəticəsində təqribən 1 milyon həmvətənimiz qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu, humanitar fəlakətdir, ən böyük ədalətsizlik və beynəlxalq hüququn pozulmasıdır. Lakin beynəlxalq ictimaiyyətin, ATƏT-in məsələ ilə məşğul olmasına baxmayaraq, nəticə baxımından heç bir irəliləyiş yoxdur. Danışıqlar prosesində bəzi irəliləyişə nail olmuşuq. Amma bu, kifayət deyildir.

Qafqazdakı reallıqlar onu göstərir ki, hazırda Azərbaycanla rəqabət aparmaq çox çətindir. İstər iqtisadi inkişaf və ya hərbi potensial baxımından, istərsə də siyasi çəki və yaxud regional layihələrdə və təşəbbüslərdə iştirak baxımından. Ona görə Ermənistanda nə qədər tez başa düşsələr ki, onların apardığı siyasətin sonu yoxdur, bu, hər kəs üçün yaxşı olar. Belə olan halda, Qafqazda sülh bərqərar olacaq, regional inkişaf daha sürətlə gedəcək və Qafqazda yaşayan bütün millətlər bundan yararlanacaqlar. Mən Sizin diqqətinizi bu məsələyə cəlb etmək istəyirəm, çünki bu, bizi ən narahat edən amildir. Bu, nəinki bizim üçün, həm də bütün region üçün əsas təhlükədir. Düşmənçilik və hərbi əməliyyatlar olarsa, regiondakı bütün sabitlik sual altına düşər və gözlənilməz nəticələr yarana bilər.

Hörmətli dostlar, mən vaxtınızı çox almaq istəmirəm, qarşınızda çıxış etmək, Azərbaycan reallıqlarını çatdırmaq imkanına görə sizə bir daha minnətdaram. Əminəm ki, bu səfərin gələcəkdə ölkələrimiz, habelə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər üçün çox yaxşı nəticələri olacaqdır.

Çox sağ olun.

***

MİKKO VİİTASALO: Cənab Prezident, çox maraqlı çıxışınıza görə təşəkkür edirəm.

Xanımlar və cənablar, indi isə suallar üçün müəyyən vaxtımız qalır. Əgər sualınız varsa, buyurun.

SUAL: Cənab Prezident, mən Finlandiyanın keçmiş səfiriyəm. Çox yaxşı çıxışınıza görə minnətdaram. Mən dost paytaxt şəhərinizə səfər etmişəm. Ləziz yeməkləriniz hələ də yadımdadır.

Sualım belədir: ötən vaxtlarda mən Çeçenistanda işləmişəm. Bu, Şimali Qafqazdadır. Daha sonra, Dağıstan var. Sizinlə sərhəddə yerləşir. Hətta xatirimdədir ki, Azərbaycanda kiçik çeçen diasporu yaşayırdı, çünki onların vətənində müharibə gedirdi. Bu gün Dağıstan və Çeçenistana gəldikdə, praktik əməkdaşlıq nə yerdədir?

İLHAM ƏLİYEV: Tarixi nöqteyi-nəzərdən Dağıstan ilə Azərbaycan bir zona kimi hesab edilirdi. Dağıstan və Azərbaycan xalqları arasındakı münasibətlər səmimidir. Əsrlər boyu biz bir yerdə yaşamışıq. Bir çox azərbaycanlılar Dağıstanda öz torpaqlarında yaşayır. Həmçinin bizim ölkədə müxtəlif bölgələrdə Dağıstan xalqlarından olan azlıqlar, qardaşlarımız yaşayırlar. Bu baxımdan Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsi Qafqazda uzunmüddətli sülhün bərqərar olunmasında vacib amildir. Qafqaz bütöv orqanizmdir. Cənubi Qafqaz ölkələri müstəqildir. Şimali Qafqaz Rusiya Federasiyasının hissəsidir. Lakin bu, bir orqanizmdir. Qafqazın istər şimalında, istərsə də cənubunda baş verən hadisələr ölkələrimizdə olan vəziyyətə təsir göstərə bilər.

Əlbəttə, bunu nəzərə alaraq, biz regional əməkdaşlıq və təhlükəsizlik məsələləri üzərində daha sıx işləməliyik. Qafqazda təhlükələr var. Biz gərgin qonşuluq şəraitində yaşayırıq. Beləliklə, biz çağırışlara hazır olmalıyıq. Terrorçuluq, ekstremizm hamımız üçün təhlükəli amillərdir. Biz çox istəyirik ki, Qafqazın həm şimalı, həm cənub bölgələri inkişaf etsin. Bunun üçün bütün imkanlar var. Gözəçarpan maliyyə resurslarına malik olan Azərbaycan regiona rifah gətirəcək müxtəlif layihələrə dəstək vermək üçün daha çox işlər görməyə hazırdır. Təhlükəli məsələlərdən irəli gələn ən böyük problemlərdən biri işsizlik, yoxsulluq və sərmayələrin çatışmamasıdır. Azərbaycan resurslara malik olan ölkə kimi bu məsələlərin həllinə töhfə verə bilər.

SUAL: Cənab Prezident, hazırda neftin qiymətləri həddindən artıq yüksəkdir. Fikrinizcə, neft hasil edən ölkələr elə bir sistem yarada bilərmi ki, yoxsul ölkələr enerji daşıyıcılarını aşağı qiymətlə alsın? Məsələn, Banqladeş və ya Afrikadakı kimi zəif inkişaf etmiş ölkələr. Lakin bu o demək deyil ki, onlar ucuz qiymətlə istədikləri həcmdə ala bilər. Belədə onlar, sadəcə, ucuz alıb, üçüncü ölkələrə baha satar və beləliklə, pul qazanarlar. Sağ olun.

İLHAM ƏLİYEV: Bu, ciddi sualdır və bazar iqtisadiyyatı prinsipləri ilə sosial ədaləti özündə əks etdirir. Bəzi hallarda bu iki mühüm prinsip bir-biri ilə ziddiyyət təşkil edir. Misal üçün, biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinə tam sadiqik. Bu, bizim uğurlu inkişafımız üçün əsas şərt olmuşdur. Lakin, eyni zamanda, əgər bizdə təbii qazın və elektrik enerjisinin, eləcə də yanacaqdoldurma stansiyalarında benzinin qiymətlərinə nəzər yetirsəniz görərsiniz ki, onlar dünya qiymətlərindən aşağıdır. Biz buna imkan verə bilərik. Xalqımıza və istehsalçılarımıza dəstək verə bilərik. Fermer üçün güzəştli şərtlər tətbiq olunur. Onlar enerji daşıyıcılarını yarı qiymətə alırlar. Amma, əlbəttə ki, digər ölkələrə gəldikdə, ola bilsin, qərar hər bir ölkənin özündən asılı olur. Mən hesab etmirəm ki, bir gün vaxt gələcək və yoxsul ölkələr üçün hər hansı birtərəfli endirim sistemi yaradılacaqdır. Çünki hər bir ölkə qərarı özü qəbul edir. İndi neft bazarı təkformalı deyildir. Azərbaycan bu yaxınlarda mühüm hasilatçı və ixraçatçıya çevrilibdir. Amma, əlbəttə ki, ixracatçı ölkə kimi uzun tarixə malik olanlar da var. Lakin bu istiqamətdə əgər hər hansı addım atılarsa, bu, hasilatçı kimi uzun tarixi olan ölkələr tərəfindən edilməlidir. Biz gözləyəcəyik ki, nəticə hansı olacaqdır.

SUAL: Cənab Prezident, bir neçə həftə öncə İsveçrə Prezidentinin ölkənizə uğurlu səfəri olubdur. Siz Transavropa boru kəməri vasitəsilə çatdırılacaq qazla bağlı çox uğurlu razılaşmaya nail oldunuz. Beləliklə, İtaliyaya qaz çatdırıla bilər. Bilirəm ki, Beynəlxalq Valyuta Fondunda Siz İsveçrənin səs verdiyi qrupun üzvüsünüz. Birinci sual ondan ibarətdir ki, bu məqsədlə Siz Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının xidmətlərindən istifadə edə bilərsinizmi? Siz bu qurumların üzvüsünüz.

İkinci sualım Qafqaz ölkələrinin inteqrasiyası ilə bağlıdır. Siz Rusiyanın da daxil olduğu, 12 ölkədən ibarət Müstəqil Dövlətlər Birliyinin üzvüsünüz. Bu sahədə inkişafı necə görürsünüz və bunun daha sıx inteqrasiyaya xidmət etdiyinə əminsinizmi? Məsələ ilə bağlı Sizin şərhlərinizi eşitmək maraqlı olardı.

İLHAM ƏLİYEV: İlk novbədə, onu demək istəyirəm, İsveçrə Prezidentinin Azərbaycana olduqca uğurlu səfəri zamanı biz qaz təchizatı ilə bağlı hansısa saziş imzalamamışıq, çünki İsveçrə potensial qaz boru kəmərinin sonuncu nöqtəsində yerləşir. Bu, potensial təchizat marşrutlarından biridir.

Onu demək istəyirəm ki, biz qaz yataqlarını işlətməyə, hasilata başlayanda ölkəmiz Avropa İttifaqı tərəfindən təchizatçı hesab edilmirdi. Nabukko və digər layihələr üçün qaz mənbəyi kimi Azərbaycan nəzərdə tutulmurdu. Lakin digər səbəblərə görə, Azərbaycan qazına olan maraq artır. Biz isə hasilatı artırmaq üçün əlimizdən gələni edirik. Qaz hasilatını artırmaq üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır, çünki qaz neft deyil. Siz onu beynəlxalq bazarda yox, yalnız istehlakçıya sata bilərsiniz. Ona görə hasilatçı, tranzit və istehlakçı ölkələr arasında razılaşmalar bir paket formasında olmalıdır. Bu günə qədər belə razılaşmalar yoxdur. Bu vaxta qədər Avropa ölkələrinin bizdən qaz almaq üçün, əsasən, istəkləri olubdur. Biz bunu etməyə hazırıq. Azərbaycan qazının Avropa bazarı üçün yeganə yeni mənbə olduğunu nəzərə alaraq, əlbəttə ki, bizə və potensialımıza olan diqqət artır. Biz hazırıq. Azərbaycanda aşkar edilmiş qaz ehtiyatlarının sübuta yetirilmiş minimum həcmi 2 trilyon kubmetrdir. Bizim üçün bu həcm 200 ilə kifayətdir. Əgər biz istədiyimiz qədər ixrac etsək, bu rəqəm 100 ilə bəs edəcəkdir. Bundan əlavə, həmin həcm sübuta yetirilmiş minimum ehtiyatlardır. Adətən, nə qədər çox hasil etdikcə, bir o qədər yeni ehtiyatlar aşkar edilir. Azərbaycan, ən azı bir əsr ərzində qaz ixrac edən ölkə olacaqdır.

İnteqrasiyaya gəldikdə, zənnimcə, siz Müstəqil Dövlətlər Birliyini nəzərdə tuturdunuz. Bu təşkilat Sovet İttifaqının dağılmasından sonra yaradılmışdır. Ona daxil olan ölkələr SSRİ-nin süqutundan sonra müstəqillik qazanmış respublikalardır. Bu, həmin təşkilatı yaratmaqda ilkin səbəb idi. Azərbaycan bu təşkilatda öz rolunu oynayır, lakin əməkdaşlığımız, əsasən, ikitərəfli əlaqələrə söykənir. Biz MDB üzvləri ilə çox da təşkilat çərçivəsində yox, ikitərəfli əsaslarla işləyirik. Bu təşkilatın gələcəyi qarşılıqlı etimad, əməkdaşlıq səviyyəsindən və üzv dövlətlərin siyasi marağından asılı olacaqdır. Sizə deyə bilərəm, Ermənistan ilə Azərbaycan MDB-nin üzvləridir. Bizim Ermənistanla heç bir əlaqəmiz yoxdur, lakin hər iki ölkə təşkilatdadır. Həmin təşkilatda digər ölkələr var ki, onların arasındakı münasibətlər yaxşı deyildir. Bir sözlə, bu, asan deyildir. Lakin Azərbaycan regional əməkdaşlıq sahəsində səylərini davam etdirməyə hazırdır. Bu, bizim üçün vacibdir və iqtisadi, siyasi maraqlarımızı nəzərə alaraq, biz orada üzvlüyümüzü davam etdirəcəyik.

SUAL: Cənab Prezident, əla təqdimatınıza görə olduqca minnətdaram. Sizin bu gün İranla münasibətləriniz necədir?

İLHAM ƏLİYEV: Bizim İranla münasibətlərimiz yaxşıdır, normaldır. Enerji, ticarət sahəsində birgə həyata keçirdiyimiz müxtəlif layihələrimiz var. Əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Biz bütün qonşu ölkələrlə - İran, Rusiya, Gürcüstan və Türkiyə ilə normal münasibətlərin olmasına çalışırıq. Bu qonşularla heç bir problemimiz yoxdur. Bu, regional sabitliyin vacib elementidir və ölkəmiz üçün mühüm olan regional əməkdaşlıq layihələrində iştirak etmək imkanını yaradır. Regional əməkdaşlıq qarşılıqlı işbirliyinə aparır. Çünki bu gün regional formatda iştirak edən ölkələr layihələr irəli sürür. Həmin layihələr qarşılıqlı şəkildə faydalıdır. Sonra isə, layihələrin əhəmiyyəti artır. Mən bu münasibətləri regional sabitlik üçün çox vacib hesab edirəm və əminəm ki, bunu uğurla davam etdirəcəyik.

SUAL: Cənab Prezident, Rusiya ilə münasibətləriniz və bu ölkənin Qafqazdakı təsiri barədə nə deyə bilərsiniz? Seçkilərdən sonra, Prezident Medvedev və hökumətin sədri Putinlə bağlı hər hansı yenilik gözlənilirmi?

İLHAM ƏLİYEV: Mən yalnız Azərbaycan-Rusiya münasibətlərinə aid şərh verə bilərəm. Xarici siyasətə aidiyyəti olan bütün şəxslərə Prezident kimi mənim verdiyim təlimatlarda hər hansı digər daxili işlərə müdaxilə etməmək nəzərdə tutulur. Bizim Azərbaycanda görəcəyimiz işlər çoxdur. Diqqətimizi öz işlərimizə yönəltməliyik. Əlbəttə ki, qonşularla və digər ölkələrlə münasibətlər qarşılıqlı maraqlara əsaslanır. Bizim marağımız yaxşı münasibətlərin formalaşdırılmasına arxalanır. Təsirə gəldikdə, biz Azərbaycanda hər hansı təsirə məruz qalmırıq. Biz bunu hiss etmirik. Bunu zənn etməyə də əsas yoxdur. Azərbaycan özünü təmin edən ölkədir. Bizim vacib üstünlüyümüz var. Bu, enerji resurslarıdır. İqtisadi inkişaf və enerji təhlükəsizliyi baxımından biz özünü təmin edən ölkəyik. Əksinə, biz regionumuzda digər ölkələrin enerji təhlükəsizliyində iştirak edirik. Ona görə təsir göstərmək üçün əsas yoxdur. Düzünü desəm, biz heç vaxt hiss etməmişik ki, kimsə Azərbaycana təsir göstərməyə çalışır. Biz öz suverenliyimizin sahibləriyik. Artıq çıxışımda qeyd etdiyim kimi, biz müstəqilliyi əsrlər boyu gözləmişik və yenidən yarımmüstəqil ölkə olmaq fikrində deyilik. Bizim üçün müstəqil olmaq, müstəqil siyasət yürütmək deməkdir. Biz buna nail olmuşuq. Hesab edirəm ki, bu, Azərbaycanın son 17 ildə əldə etdiyi ən böyük nailiyyətdir. Bir sözlə, Rusiya ilə münasibətlər yaxşı qonşuluğa və qarşılıqlı iqtisadi marağa əsaslanır. Enerji məsələlərində, görünə bilər ki, maraqlarımız başqa sahələrdədir. Lakin eyni zamanda, biz rəqabət aparmırıq. Rusiyanın özünün böyük enerji bazarı var, bizim öz enerji bazarımız var. Bu, təbiidir. Hamı öz milli maraqlarını qorumaq istəyir. Əminəm ki, Rusiyanın yeni Prezidenti ilə bizim münasibətlərimiz uğurla davam edəcəkdir. Hazırda bizim çox yaxşı əlaqələrimiz var və deyərdim ki, bu əlaqələr digər böyük ölkə ilə kiçik ölkə, əvvəlcə bir ölkədə yaşamış ölkələr arasında olan münasibətlərə nümunə ola bilər. Münasibətlərimiz çox güclüdür, gözləniləndir və qarşılıqlı hörmət kimi vacib amilə əsaslanır. Ümid edirəm ki, bu siyasət davam edəcəkdir.

MİKKO VİİTASALO: Digər suallarımız varmı?!

Görürəm, artıq vaxt yetişibdir. Cənab Prezident, Sizə minnətdarıq, çıxışınıza görə çox sağ olun. Çox müdrik cavablarınıza görə təşəkkür edirik. Görüşü başa çatdırmazdan ön-

cə mən xatirə hədiyyəsi olaraq, Prezident Halonenin imzaladığı medalı Sizə təqdim etmək istəyirəm.

***

Azərbaycan Prezidenti İlham Əliyevə Paaskivi Cəmiyyətinin fəxri qonaqlar üçün nəzərdə tutulan xüsusi medalı təqdim olundu.

HELSİNKİ ŞƏHƏR ŞURASINDA LANÇ

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiyaya rəsmi səfəri çərçivəsində Helsinki Şəhər Şurasının binasına gəlmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı binanın önündə Şəhər Şurasının sədri xanım Rakel Hiltunen və şəhərin meri Yussi Payunen böyük hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev şəhərin "Qızıl kitab"ına ürək sözlərini yazdı.

Sonra Şəhər Şurasının sədri xanım Rakel Hiltunenin adından Azərbaycan Prezidentinin və xanımının şərəfinə lanç verildi.

Finlandiya Prezidenti xanım Tarya Halonen və həyat yoldaşı Pentti Arayarvi lançda iştirak edirdilər.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA HELSİNKİDƏ İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Mayın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Finlandiyaya rəsmi səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Finlandiya Prezidentinin həyat yoldaşı Pentti Arayarvinin müşayiəti ilə Helsinkidəki incəsənət muzeyində olmuşdur.

Muzeylə tanışlıq zamanı Mehriban xanıma məlumat verildi ki, ekspozisiya çox zəngindir. Burada müxtəlif dövrlərdə Finlandiyada yaşayıb-yaradan fırça ustalarının ayrı-ayrı cərəyanları əks etdirən rəsm əsərləri nümayiş etdirilir. Ekspozisiyada Finlandiyanın füsunkar təbiətinin təsvir olunduğu əsərlər daha çoxdur.

Mehriban xanım Əliyevaya muzeydə saxlanılan əsərlər barədə xatirə albomu təqdim olundu.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN FİNLANDİYA PREZİDENTİNİN HƏYAT YOLDAŞI PENTTİ ARAYARVİ İLƏ GÖRÜŞÜ

Mayın 29-da Helsinkidə, Finlandiya Prezidentinin sarayında Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və Finlandiya dövləti başçısının həyat yoldaşı Pentti Arayarvinin görüşü olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Mayın 29-da Helsinkidə, Prezident sarayında Finlandiya Respublikasının Prezidenti xanımı Tarya Halonenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN NİTQİ

- Cənab Prezident, həyat yoldaşım və mən Sizi və xanım Əliyevanı Finlandiyada bir daha salamlamaqdan böyük məmnunluq duyuruq. Bu, Azərbaycan Prezidentinin Finlandiyaya ilk rəsmi səfəridir və ölkələrimiz arasında gözəl münasibətlərin olmasını nümayiş etdirir. 2005-ci ildə, Azərbaycanın gözəl paytaxtı Bakı şəhərində Sizin qonaqpərvərliyinizi duymaq imkanına nail olduq.

Hər iki ölkənin paytaxt şəhərləri dəniz sahilindədir. Xəzər dənizi dünyanın quru ərazilərlə əhatə olunmuş ən böyük su hövzəsidir. Bizim Baltik dənizi də qapalı dəniz sayılır və Qara dənizdən sonra dünyada ikinci ən böyük duzlu su ehtiyatı buradadır. Hər ikimiz bilirik ki, dənizlər xalqları ayırmır, onları birləşdirir. Onlar müsbət iqtisadi, mədəni və ətraf mühit qüvvəsinə çevrilə biləcək təbii əlaqəni təşkil edir. Finlandiyada biz istəyirik ki, Baltik dənizi regionunda ölkələr arasında daha sıx əməkdaşlıq inkişaf etsin və arzu edirik ki, regional əməkdaşlıqda müxtəlif formada iştirak edən ölkələrlə təcrübəmizi bölüşək.

Mən Minsk prosesi ilə bağlı ölkənizə Finlandiyanın xarici işlər naziri kimi səfərim zamanı 1996-cı ildən etibarən Azərbaycanın inkişafını daha yaxından izləmək imkanını əldə etdim. Son illər ərzində ölkəniz vətəndaşlarının rifahına və davamlı inkişafa yönəlmiş təbii sərvətlərdən irəli gələn imkanlarını istifadə edərək, sürətli iqtisadi inkişafa nail olmuşdur.

2005-ci ildə mən Azərbaycanda rəsmi səfərdə olarkən, bir neçə həftə sonra ölkənizdə parlament seçkiləri keçirilməli idi. Sizin Finlandiyaya səfəriniz də ölkənizdə seçki ilinə düşür. Biz, finlandiyalılar, demokratik islahatlar sahəsində Sizin göstərdiyiniz səyləri dəyərləndiririk. İnanıram ki, müsbət meyil qarşıdan gələn prezident seçkilərində davam edəcək və beynəlxalq müşahidəçilər ölkənizə məmnunluqla səfər edəcəklər.

Finlandiya bu il Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında - ATƏT-də sədrlik edir. Bu baxımdan, Siz bu yaxınlarda bizim xarici işlər nazirini qəbul etmisiniz. ATƏT prosesi 33 il əvvəl burada, Helsinkidə başladı. Hazırda dünya 1975-ci ildə olduğundan xeyli fərqlənir. Bununla belə, təşkilatın fundamental prinsipləri eyni olaraq qalır: demokratiyaya riayət və onun bərqərar olunması, qanunun aliliyi, insan hüquqları və söz azadlığı siyasi sabitliyin, təhlükəsizliyin, iqtisadi artımın və vətəndaşların rifahının təmin edilməsində əsas vasitələrdir. Avropa Şurasının üzvləri kimi, biz həmin fundamental dəyərlərə sadiqik.

ATƏT-də sədrlik edən ölkə kimi Finlandiya Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım göstərmək məqsədi ilə əlindən gələn səyləri göstərir. Hesab edirəm ki, bu münaqişənin həlli bütün Cənubi Qafqazda və qonşu yerlərdə yeni böyük inkişaf potensialını tə-

min edəcəkdir. Müsbət nəticə regionun iqtisadi və siyasi əhəmiyyətini artırardı. Ümid-varam ki, tərəflər Minsk prosesindən istifadə edərək, nizamlanmaya nail olmaq üçün cəsarət və siyasi iradə nümayiş etdirəcəklər.

Bu gün qloballaşan dünyada ölkələr tədricən bir-birindən asılı vəziyyətə düşür. Biz həmin qarşılıqlı asılılığı müsbət amilə çevirməliyik və qloballaşmadan ekoloji baxımdan davamlı inkişaf və sosial ədalətin təşviqi üçün resurs kimi istifadə etməliyik. Birləşmiş Millətlər Təşkilatı həmin səylərin göstərilməsi məqsədi ilə əsas çoxtərəfli əməkdaşlıq forumu ola bilər.

Düşünürəm ki, çiçəklənən dövlət nümunəsi və təhsilə, uzunmüddətli tədrisə sərmayələrin qoyulması, eləcə də yeniliklər Finlandiyanın uğurlarını şərtləndirən amillərdir. Bir sıra beynəlxalq araşdırmalar nəticəsində Finlandiya dünyada ən rəqabətədavamlı ölkələr sırasına daxil edilmişdir və bizim rəhbərliyimiz şəffaf və yaxşı işlədiyinə görə tez-tez tərifə layiq görülür.

Avropa İttifaqının Yeni qonşuluq siyasəti qonşu ölkələrdə sabitliyin, rifahın və tərəqqinin təşviqinə, həmin ölkələr ilə Aİ arasında daha sıx əməkdaşlıq etməyə, eləcə də qonşuların özlərinin arasında işbirliyinin qurulmasına yönəlibdir. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsində olan məqsədimiz Azərbaycan üzrə Tədbirlər planının qəbul edilməsi ilə yanaşı, Finlandiyanın Avropa İttifaqında sədrliyi ərzində tərəqqinin əldə olunmasından ibarətdir.

Finlandiya və Azərbaycan vaxtilə eyni imperiyanın bir hissəsi idi. Bu gün isə müstəqil ölkələr kimi biz bir çox eyni beynəlxalq təşkilatların üzvləriyik. Əlbəttə ki, çoxtərəfli münasibətlər vacibdir. Eyni zamanda, biz ikitərəfli əlaqələrimizin də təşviq və inkişaf etdirilməsində maraqlıyıq. Ümid edirəm ki, səfəriniz ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və ticarətin inkişafına töhfə verəcəkdir.

Biz həmçinin mədəni əməkdaşlıq sahəsində daha çox işlər görə bilərik. Hər iki ölkənin mədəniyyətinə Şərq və Qərb təsir etmişdir və hər iki tərəfin zəngin poeziya, rəqs və musiqi ənənələri var. Misal üçün, Finlandiyada Azərbaycan filmləri və musiqi festivalları keçirilmişdir.

Cənab Prezident, mədəni mübadilələr sahəsində bizim zəngin təcrübəmiz var və bizim cəmiyyətlərimizin gördüyü işlərə əsaslanaraq, bu təcrübəni bölüşə bilərik.

Cənab Prezident, mən bu badəni Sizin və xanımınız Mehriban Əliyevanın sağlığına, Azərbaycan xalqının xoşbəxtliyi və tərəqqisi, eləcə də ölkələrimiz arasında dərin əməkdaşlığın şərəfinə qaldırmaq istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident!

Hörmətli cənab Pentti Arayarvi!

Hörmətli xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə, məni Finlandiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Finlandiya torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz

qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Bu, Azərbaycan Prezidentinin Finlandiyaya ilk rəsmi səfəridir. İnanıram ki, bu səfər ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Finlandiya ilə Azərbaycan arasında keçmişdə də yaxşı əlaqələr olmuşdur. Keçən əsrin əvvəllərində Bakıda yaşayan finlandiyalılar Azərbaycanın neft sənayesinin inkişafında fəal rol oynamışlar. Finlandiyanın keçmiş rəhbərləri Urho Kekkonen və Mauno Koyvisto müxtəlif vaxtlarda Azərbaycana səfər etmişlər.

Ötən əsrdə xalqlarımız arasında ədəbiyyat, incəsənət və musiqi sahələrində zəngin mədəni mübadilələr olmuşdur. Finlandiyada "Azərbaycan-Finlandiya Mədəniyyət Körpüsü" Cəmiyyəti Azərbaycan mədəniyyətinin təbliği, Azərbaycan haqqında məlumatların Finlandiya ictimaiyyətinə çatdırılmasında səmərəli fəaliyyət göstərir.

Xanım Prezident, 2005-ci ilin sentyabrında Sizin Azərbaycana səfəriniz əlaqələrimizin inkişafında yeni səhifə açmışdır. Bu gün Finlandiya şirkətləri, finlandiyalı iş adamları ölkəmizdə elektrik stansiyalarının və buxar-qaz qurğularının tikintisini həyata keçirirlər. Mən beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının Yeni qonşuluq siyasəti proqramı çərçivəsində əlaqələrimizə xüsusi önəm verirəm.

Son illərdə irimiqyaslı beynəlxalq layihələrin, xüsusən Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində əməkdaşlığımız böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq Baltik dənizi, Qara dəniz və Xəzər dənizi regionları ölkələrinin inteqrasiyasına, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa öz töhfəsini verir.

Azərbaycan Avropa İttifaqı ilə Enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalayaraq, neft və qaz layihələrini həyata keçirərək və Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və digər boru kəmərləri vasitəsilə Avropa və beynəlxalq bazarlara öz enerji məhsullarını çatdırmaqla enerji təhlükəsizliyinə mühüm töhfə verir.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmiş və iqtisadi baxımdan regionun lider dövlətinə çevrilmişdir. Keçən il Azərbaycanda ÜDM-in artımı 25 faiz olmuşdur. Son 4 il ərzində ölkə iqtisadiyyatı təxminən 2 dəfə artmışdır. Ölkədə, əsasən regionlarda 660 mindən çox yeni iş yerləri açılmışdır ki, biz şaxələndirilmiş iqtisadiyyat haqqında danışaq. Bizim məqsədimiz güclü qeyri-neft iqtisadiyyatı yaratmaqdan ibarətdir ki, gələcək nəsillər neft və neft qiymətlərindən asılı olmasınlar.

Ölkəmizdə xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır. Biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda lider ölkəyik. Son illər ərzində ölkə iqtisadiyyatına 40 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin artıq 20 ilə yaxındır ki, Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş və burada etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Beynəlxalq ictimaiyyət və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun olaraq ədalətli şəkildə həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri var.

Bu yaxınlarda BMT-nin Baş Məclisi Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq edən və erməni qüvvələrinin bütün işğal olunmuş ərazilərdən tam şəkildə dərhal çıxarılmasını tələb edən qətnaməni qəbul etmişdir. Bu münaqişə yalnız beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Biz bu məsələdə hazırda ATƏT-də sədrlik edən Finlandiyanın da dəstəyinə ümid bəsləyirik.

Hörmətli xanım Prezident, Siz bu gün Şəhər Şurasında ziyafət zamanı qeyd etdiniz ki, Helsinki və Bakı şəhəri bir-biri ilə oxşardır. Mən onu da qeyd etmək istəyirəm ki, Sizin işlədiyiniz iqamətgahdan açılan görünüş, demək olar ki, mənim Bakıdakı iqamətgahımdan görünən panorama bənzəyir. Bizim paytaxt şəhərlərimizin dəniz sahilində yerləşməsi böyük üstünlükdür.

Həmçinin bu gün müzakirə etdiyimiz beynəlxalq məsələlərdə yanaşmamız oxşardır. Finlandiya və Azərbaycan, hər ikisi Rusiya imperiyasının dağılması nəticəsində müstəqil oldular. Lakin siz müstəqilliyinizi qoruyub saxlaya və dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilə bildiniz. Əfsuslar olsun ki, bizim müstəqilliyimiz iki il çəkdi. Biz müstəqilliyimizi onilliklər ərzində, yəni 70 il ərzində itirdik. İndi isə müstəqilliyimiz bərpa olunub və biz dünyada gedən proseslərə çatmalıyıq. Ona görə biz insan kapitalına, təhsilə, informasiya texnologiyalarına və müasir texnologiyalara sərmayə qoyuruq. Bütün bunlar müstəqillik dövründə əldə edilmişdir.

Siz təbii sərvətlər olmadan bütün sosial problemləri maksimum səviyyədə həll etmiş, inkişaf etmiş müasir ölkəyə çevrilmək üçün çox yaxşı nümunəsiniz. Bütün beynəlxalq təşkilatların nüfuz cədvəllərində Sizin ölkəniz ilk onluqda gedir. Siz dəyişməyi planlaşdırmaq üçün ölkələrə yaxşı nümunəsiniz. Bizim planlarımız qanunun aliliyi ilə seçilən, çoxlu sosial proqramları olan müasir, demokratik ölkəyə çevrilməkdir və bunun üçün yaxşı imkanlarımız vardır. Bu baxımdan sizin təcrübəniz bizim üçün çox vacibdir. Mənim ölkənizə bu səfərim həm münasibətlərin inkişafı, həm də təcrübə mübadiləsi baxımından əhəmiyyətlidir.

Xanım Prezident, mən bu badəni Sizin, cənab Pentti Arayarvinin sağlığına, Finlandiya xalqının şərəfinə və xalqlarımız arasındakı dostluğun şərəfinə qaldırmaq istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ FİNLANDİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Helsinkidə Finlandiya Respublikasının Baş naziri Matti Vanhanen ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr, əməkdaşlığın indiki vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Söhbət zamanı bir sıra sahələrdə

bu əməkdaşlığın yaxşı perspektivləri olduğu bildirildi. Eyni zamanda, təhsil, sərmayə qoyuluşu, informasiya texnologiyaları sahələrində müəyyən işlərin görülməsinin, vəziyyətin öyrənilməsinin zəruriliyi vurğulandı.

SƏFƏR BAŞA ÇATDI

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Finlandiyaya rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ESTONİYA MÜDAFİƏ QÜVVƏLƏRİ KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 29-da Azərbaycanın Baş naziri Artur Rasizadə Estoniya Müdafiə Qüvvələri komandanı Ants Laaneots başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan-Estoniya əməkdaşlığı barədə söhbət açan Baş nazir ölkələrimizin dövlət strukturları arasında əlaqələrin genişləndirilməsinin zəruri olduğunu qeyd etmişdir. Azərbaycan hökumətinin başçısı vurğulamışdır ki, Avropa strukturlarına inteqrasiya sahəsində Estoniyanın təcrübəsi Azərbaycan üçün faydalı olardı.

Artur Rasizadə Estoniya nümayəndə heyətinin üzvlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, problemin həlli məsələsində Ermənistanın qeyri-konstruktiv mövqe tutmasını qeyd etmişdir. Baş nazir bildirmişdir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan çox insan doğma yurdlarından qovulmuş, tarixi abidələr dağıdılmışdır.

Estoniya Müdafiə Qüvvələri komandanı Ants Laaneots Bakıda azərbaycanlı həmkarı ilə aparılmış danışıqları yüksək qiymətləndirərək Azərbaycanın iqtisadi inkişaf sürətinə, paytaxtda tikinti işlərinin geniş vüsət almasına heyran olduğunu bildirmişdir.

ABŞ SƏFİRİ AZƏRBAYCAN DİPLOMATINA ONUN ŞƏRƏFİNƏ TƏSİS OLUNMUŞ MÜKAFATI TƏQDİM ETMİŞDİR

Mayın 29-da Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri xanım Ann Ders Azərbaycan xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayevin şərəfinə təşkil edilmiş qəbulda ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında Azərbaycan diplomatının əvəzsiz xidmətlərinin və töhfəsinin təsdiqi əlaməti olaraq bu yaxınlarda təsis edilmiş "Hafiz Paşayev adına mükafat"ı ona təqdim etmişdir.

Səfir demişdir: "Bu ildən etibarən ABŞ səfirliyi Azərbaycanın Hafiz Paşayev kimi vətəndaşlarının Amerika-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə verdikləri töhfəyə görə bu mükafatı onlara təqdim edəcəkdir".

Xanım Ann Ders qeyd etmişdir ki, Hafiz Paşayev Azərbaycanın ABŞ-dakı ilk səfiri kimi 16 illik fəaliyyəti dövründə Amerika-Azərbaycan münasibətlərinin yaranmasında və inkişafında mühüm rol oynamışdır. ABŞ səfirinin sözlərinə görə, Hafiz Paşayev Qərbin

gənc respublikanı dəstəkləməsini təmin etmiş və amerikalı siyasətçilərin, diplomatların və biznesmenlərin Azərbaycan haqqında daha çox məlumat əldə edə bilmələri üçün mümkün olan hər şeyi etmişdir.

Səfir qeyd etmişdir ki, Azərbaycanın ABŞ-dakı keçmiş səfiri Hafiz Paşayev Azərbaycanda təhsilin yeni modelini yaratmaq üçün Amerikanın aparıcı universitetlərinin qabaqcıl təcrübəsini tətbiq etmişdir.

Hafiz Paşayev Ann Dersə qəbul üçün təşəkkürünü bildirmişdir. O, təhsil sahəsində iki ölkə arasında münasibətlərin səviyyəsindən razı qaldığını bildirmişdir. H.Paşayev vurğulamışdır ki, Diplomatik Akademiya ABŞ universitetləri ilə sıx əlaqələr yaratmışdır.

Azərbaycanlı diplomat demişdir: "Bizim çox ciddi planlarımız vardır və Azərbaycan Prezidenti İlham Əliyev həmin planları yüksək qiymətləndirir. Ümidvaram ki, mənə həvalə edilmiş vəzifələrin öhdəsindən gələ biləcəyəm".

Azərbaycanlı diplomat ABŞ səfirini əmin etmişdir ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsi üçün bundan sonra da maksimum səy göstərəcəkdir. Nazir müavini demişdir ki, uzun illər boyu öz ölkəsini ABŞ-da təmsil etmək onun üçün böyük şərəf idi.

AZƏRBAYCAN İŞĞAL ALTINDA OLAN ƏRAZİLƏRİNDƏ TÖRƏDİLƏN YANĞINLARLA BAĞLI TƏDBİRLƏR GÖRƏCƏKDİR

Azərbaycanın işğal altında olan ərazilərində vəziyyətin bütün aspektləri, o cümlədən ekoloji vəziyyət nəzərdən keçirilir. Bu vəziyyətin müxtəlif tərkib hissələri təhlil edildikdən sonra tədbirlər görüləcəkdir.

Bunu Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov mayın 29-da jurnalistlərə müsahibəsində bildirmişdir.

Nazir müavivni vurğulamışdır ki, Azərbaycanın işğal olunan ərazilərində vəziyyət gərgin olaraq qalır. Bu ərazilərə ermənilərin qanunsuz yerləşdirilməsi davam etdirilir. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərində artıq bir neçə ildir ki, yanğınlar törədirlər. Bu məsələyə BMT Baş Məclisi tərəfindən qəbul olunmuş "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət"ə dair qətnamə çərçivəsində nəzarət olunacaqdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, işğal olunan ərazilərdə baş verən yanğınlar nəticəsində 2006-cı ildə Azərbaycana 159 milyon manat, 2007-ci ildə isə 15 milyon manat dəyərində ziyan dəymişdir.

Araz Əzimov GUAM ərazilərində dondurulmuş münaqişələrə dair BMT Baş Məclisinə təqdim olunan sənəd üzərində işin vəziyyətinə, Azərbaycan və Ermənistan prezidentlərinin iyunda Sankt-Peterburqda keçiriləcək görüşünə də toxunmuşdur. Azərbaycan xarici işlər nazirinin müavini bildirmişdir ki, bu görüş Ermənistanın yeni rəhbərliyinin mövqeyini aydınlaşdırmaq məqsədi daşıyır. Münaqişənin həlli istiqamətində növbəti addımlar da tərəflərin prinsipial mövqeyindən asılıdır.

Nazir müavini bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bu, dövlətimizin prinsipial mövqeyidir. Ermənistanın mövqeyi isə beynəlxalq hüquq normalarına görə, ümumiyyətlə qəbuledilməzdir. Dün-

yada heç bir ölkə Ermənistanın mövqeyini dəstəkləmir. Ermənistanın mövqeyinin heç bir perspektivi yoxdur. Bunu Yerevanın da anlaması böyük əhəmiyyətə malikdir.

BAKIDA "GUAM-IN İNKİŞAF STRATEGİYASI" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR

Mayın 29-da Bakıda "GUAM-ın inkişaf strategiyası" mövzusunda konfrans işə başlamışdır.

İki gün davam edəcək konfransda "GUAM-ın gələcəyi", "Qloballaşma və GUAM-ın inkişafı", "GUAM çərçivəsində əməkdaşlığın maliyyə aspektləri və təşkilatın əməkdaşlıq prioritetləri" mövzularında müzakirələr aparılacaqdır.

Beynəlxalq konfransın ilk günündə təşkilatın üzvü olan ölkələrdə bazar rəqabətinin gücləndirilməsi və azad iqtisadi ticarətin inkişafı məsələləri müzakirə olunmuşdur.

Konfransı GUAM-ın baş katibi Valeri Çeçelaşvili açaraq vurğulamışdır ki, təşkilat Avropaya inteqrasiya istiqamətində vacib addımlar atır. Bizim məqsədimiz qurumun fəaliyyətində yenilik və dəyişiklik etməkdir. GUAM ölkələrinin buna kifayət qədər iradəsi vardır. Biz əməkdaşlığın çox vacib mərhələsindəyik.

Baş katib qeyd etmişdir ki, son vaxtlar təşkilatın üzvü olan ölkələr arasında əmtəə dövriyyəsi iki dəfə - 1,5 milyard dollardan 3 milyard dollaradək artmış, cari ildə isə bu rəqəm 4 milyard dollara çatacaqdır.

GUAM üzrə tərəfdaşlarla ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsinin çox mühüm amil olduğunu vurğulayan V.Çeçelaşvili demişdir ki, Gürcüstanın xarici ticarət dövriyyəsində Azərbaycan ikinci, Ukrayna isə üçüncü yeri tuturlar.

Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov bildirmişdir ki, hazırda təşkilatın başlıca vəzifəsi üzv ölkələr arasında azad ticarət zonasının, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə mərkəzinin yaradılmasıdır. Bundan əlavə, GUAM-ın tranzit imkanlarına xidmət edəcək Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması məsələsi də diqqət mərkəzindədir. Bu layihələr üzv dövlətlər arasında ticarət dövriyyəsinin artmasına imkan verəcəkdir.

Gürcüstan Xarici İşlər Nazirliyi siyasət departamentinin rəhbəri David Dondua diqqətə çatdırmışdır ki, GUAM ölkələrinin xarici siyasət və Avratlantik məkana inteqrasiyaya dair prioritetləri eynidir. Təşkilatın əsas hədəfləri Xəzər və Qara dəniz regionlarında sabitləşmə və reinteqrasiya məqsədi ilə iştirakçı dövlətlərinin potensialını birləşdirməkdir.

D.Dondua bildirmişdir ki, cari ilin iyulunda GUAM-a sədrlik Gürcüstana keçəcəkdir. Gürcüstan Azərbaycan tərəfindən başlanan bir sıra mühüm işləri davam etdirmək niyyətindədir. Bundan sonra da yeni iqtisadi layihələr tərtib ediləcəkdir. Həmçinin regionda münaqişələrin həlli istiqamətində təhlükəsizlik məsələləri dəstəklənəcəkdir.

Ukraynanın ölkəmizdəki səfiri Boris Klimçuk Azərbaycanın GUAM-a sədrliyi dövründə təşkilatın fəaliyyətinin yüksəldiyini vurğulamışdır.

Moldovanın Azərbaycandakı səfiri İon Robu GUAM ölkələri arasında mədəni tədbirlərin keçirilməsini təklif etmişdir. Səfir bildirmişdir ki, üzv ölkələr arasında iqtisadi

əməkdaşlıq məsələləri iyunun 17-də Kişinyovda keçiriləcək beynəlxalq konfransda bir daha müzakirə olunacaqdır.

ABŞ-ın Azərbaycandakı səfiri Ann Ders çıxış edərək bildirmişdir ki, Birləşmiş Ştatlar GUAM-ın struktur inkişafı üçün 700 min dollar ayıracaqdır. Səfir vurğulamışdır ki, ABŞ uzun müddətdir GUAM-la əməkdaşlıq edir və təşkilat yaxşı perspektivlərə malikdir.

Mayın 30-da "Hyatt Regency-Naxçıvan" mehmanxanasında "GUAM-ın inkişaf strategiyası" mövzusunda ikigünlük konfrans işini davam etdirmişdir.

Tədbirdə üzv ölkələrin investisiya imkanlarına, istehsalatda elmi-texniki tərəqqinin roluna dair fikir mübadiləsi aparılmış, GUAM ölkələrində enerji təhlükəsizliyinin təmin olunması, iqtisadi təhlükə və risklərə qarşı birgə mübarizə məsələlərinə toxunulmuşdur.

Bundan əlavə, konfrans çərçivəsində GUAM ölkələrində maliyyə sektorunun inkişafının dünya iqtisadiyyatında rolu ilə bağlı işçi qrupunun üçüncü iclası keçirilmişdir.

Tədbirdə GUAM ölkələrinin Banklar Assosiasiyasının Əlaqələndirmə Şurasının yaradılmasına dair layihə sənədi imzalanmışdır.

Tədbirin yekunları ilə bağlı keçirilən mətbuat konfransında GUAM-ın baş katibi Valeri Çeçelaşvili bildirmişdir ki, konfransda maraqlı müzakirələr aparılmış, konkret təkliflər səslənmişdir. Bu təkliflərin çoxu GUAM-ın iyulda Tbilisidə keçiriləcək növbəti sammitinin sənədlərində əks olunacaqdır.

GUAM ölkələrinin Banklar Assosiasiyasının yaradılmasının önəmli hadisə olduğunu qeyd edən V.Çeçelaşvili demişdir ki, GUAM-ın əsas prioritetlərindən biri üzv dövlətlər arasında müxtəlif istiqamətlərdə əməkdaşlığı dərinləşdirməkdir. Əməkdaşlıq və inteqrasiya məsələləri GUAM-ın bundan sonrakı tədbirlərində də əsas mövzulardan biri olacaqdır.

Baş katib GUAM ölkələri ərazisindəki münaqişələrlə bağlı qətnamə layihəsinin BMT Baş Məclisində qəbulu ilə bağlı məsələyə də toxunmuşdur. O demişdir ki, bu yaxınlarda Baş Məclisdə Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət və Abxaziyadan olan köçkünlərin və qaçqınların statusu haqqında qəbul edilmiş qətnamələr onu deməyə əsas verir ki, ölkələrimizin beynəlxalq aləmdə mövqeləri möhkəmlənmişdir. İnanıram ki, biz GUAM ölkələri ərazisindəki münaqişələrlə bağlı qətnamə layihəsinin qəbulu məsələsində kifayət qədər dəstək ala biləcəyik.

Konfransda səslənmiş əsas fikir və tövsiyələrdən ibarət hesabat hazırlanacaqdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV ÇEXİYADA SƏFƏRDƏ OLMUŞDUR

Xarici İşlər nazirinin müavini Araz Əzimov Azərbaycan-Çexiya ikitərəfli məsləhətləşmələrində iştirak etmək məqsədilə Praqada səfərdə olmuşdur.

Məsləhətləşmələrin birinci hissəsində A.Əzimov xarici işlər nazirinin birinci müavini Tomas Pojarın rəhbərlik etdiyi Çexiya Xarici İşlər Nazirliyinin nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə, həmçinin nazirliyin siyasi direktoru Martin Povejsil, Avropa öl-

kələri şöbəsinin baş direktoru Petr Buriancek, Şimal və Şərqi Avropa ölkələri şöbəsinin müdiri Daniel Kostovan, Şimal və Şərqi Avropa ölkələri idarəsinin rəis müavini Martina Tauberova, Şimal və Şərqi Avropa ölkələri şöbəsinin nümayəndəsi Radek Matula da iştirak etmişlər.

Danışıqlar zamanı Azərbaycan və Çexiya arasında ikitərəfli əlaqələrə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, yüksək vəzifəli rəsmilərin qarşılıqlı görüşlərinə, Çexiyanın xarici işlər nazirinin Azərbaycana səfərinə, Azərbaycanın Avropa İttifaqı, həmçinin NATO ilə əməkdaşlığına, iki ölkənin enerji sahəsində əməkdaşlığına, Qafqazdakı vəziyyətə, GUAM-Vışeqrad qrupu və Azərbaycan-Vışeqrad qrupu formatları çərçivəsində müvafiq sahələrdə əməkdaşlıq məsələlərinə toxunulmuşdur.

Növbəti iclas Vışeqrad qrupunun çex əlaqələndiricisi və Vışeqrad qrupuna üzv dövlətlərin Praqadakı səfirliklərinin nümayəndələri ilə olmuşdur.

Tərəflər GUAM və Vışeqrad qrupu, həmçinin ayrıca olaraq Azərbaycan və Vışeqrad qrupu arasında mümkün ola biləcək əməkdaşlıq imkanlarını müzakirə etmiş və bununla bağlı konkret təkliflər vermişlər. Eyni zamanda, tərəflər GUAM-ın keçirdiyi tədbirlərdən birində Vışeqrad qrupu haqqında təqdimat keçirmək barədə razılığa gəlmişlər.

A.Əzimovun sonuncu görüşü Çexiya parlamentinin xarici əlaqələr komitəsinin sədri Yan Hamaçek ilə olmuşdur. Tərəflər yuxarıda qeyd olunan məsələlərlə yanaşı, həmçinin hər iki ölkənin parlamentlərarası əlaqələri və ABŞ-ın Çexiyada RLS bazası qurması məsələlərini də müzakirə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ RİÇARD BAUÇERİ VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə müavini Riçard Bauçeri və dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Devid Merkeli qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığın gələcək perspektivləri barədə fikir mübadiləsi aparıldı və ikitərəfli əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MÜDAFİƏ NAZİRİ YURİ YEXANUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Ukraynanın müdafiə naziri Yuri Yexanurovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Ukrayna arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Kiyevə bu yaxınlardakı səfərini məmnunluqla xatırlayaraq, Ukrayna Prezidenti ilə keçirdiyi səmərəli görüşlərin əmək-

daşlığımızın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qonağın səfəri ölkələrimizin müdafiə nazirlikləri arasında da əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəkdir.

Nazir Yuri Yexanurov Ukrayna Prezidenti Viktor Yuşşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Prezidentinin Ukraynaya səfərinin uğurla keçdiyini vurğuladı. Qonaq Azərbaycanın və Ukraynanın müdafiə nazirlikləri arasında əlaqələrin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev Ukrayna Prezidenti Viktor Yuşşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BİNYAMİN BEN-ELİEZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də İsrailin milli infrastruktur naziri Binyamin Ben-Eliezerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Binyamin Ben-Eliezer İsrail Prezidenti Şimon Peresin və Baş nazir Ehud Olmertin salamlarını dövlətimizin başçısına çatdırdı. O bildirdi ki, nümayəndə heyətinin ölkəmizə səfərinin əsas məqsədi Azərbaycanda gedən inkişaf prosesləri ilə, xüsusilə infrastruktur sahəsində görülən işlərlə yaxından tanış olmaqdır.

Dövlətimizin başçısı Azərbaycanda infrastruktur sahəsində həyata keçirilən genişmiqyaslı layihələrdən danışdı və bu işlərin ardıcıl olaraq davam etdiriləcəyini vurğuladı. Prezident İlham Əliyev Prezident Şimon Peresin və Baş nazir Ehud Olmertin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını İsrailin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM LİV MONİKA STABHOLDTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Norveçin dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini xanım Liv Monika Stabholdtun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

15-ci Beynəlxalq Xəzər neft və qaz sərgisində iştirak etmək üçün Bakıya səfər etdiyini bildirən Liv Monika Stabholdt Azərbaycanın istər regional baxımdan, istərsə də iqtisadi potensialına görə çox önəmli bir ölkə olduğunu vurğuladı. Qonaq Beynəlxalq Xəzər neft və qaz sərgisinin qlobal neft sənayesində kifayət qədər əhəmiyyətli bir hadisəyə çevrildiyini, müxtəlif sahələrin nümayəndələrinin bir araya gəlməsi üçün bu tədbirin yaxşı imkanlar yaratdığını dedi.

Dövlətimizin başçısı beynəlxalq konfransların keçirilməsində ölkəmizin artıq zəngin təcrübəyə malik olduğunu, Xəzər neft və qaz sərgisinin də gözəl bir ənənəyə çevrildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, Beynəlxalq Xəzər neft və qaz sərgisinə dünyada çox böyük maraq vardır.

Görüşdə Azərbaycanla Norveç arasında energetika sahəsində uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişafından məmnunluq ifadə olundu. Həmçinin ölkəmizdə keçiriləcək 15-ci Beynəlxalq Xəzər neft və qaz sərgisinin əhəmiyyətindən danışıldı və bu ənənəvi tədbirə dünyada marağın daha da artdığı vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QAZPROM" ASC-NİN İDARƏ HEYƏTİNİN SƏDRİ ALEKSEY MİLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Rusiyanın "Qazprom" ASC idarə heyətinin sədri, Direktorlar şurasının sədr müavini Aleksey Millerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Aleksey Miller Azərbaycana səfərinin ilk anlarından ölkədə böyük inkişafın şahidi olduğunu dedi. O, Azərbaycanda yanacaq-energetika kompleksinin getdikcə daha da inkişaf etdiyini vurğuladı, ölkəmizin beynəlxalq aləmdə neft və qaz sahəsi ilə bağlı mühüm addımlar atdığını söylədi.

Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı regional neft-qaz layihələrinin uğurla icra olunduğunu, yanacaq-energetika kompleksinin daha da inkişaf etdirilməsi istiqamətində işlərin sürətlə aparıldığını bildirdi.

BAKIDA XV BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

İyunun 3-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində XV Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Yubiley sərgi və konfransını açan İTE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud Prezident İlham Əliyevi, sərgi və konfransın iştirakçılarını salamladı. Azərbaycanda sabitlik və inkişafın hökm sürdüyünü vurğulayan Endryu Vud bildirdi ki, bütün bunların təməlində ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Həmin siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra çıxış edən Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti Süleyman Tatlıyev dedi ki, XV Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsinin bariz təcəssümüdür. İlk vaxtdan Xəzər regionunun ən vacib hadisəsi kimi qəbul edilən sərgi və konfrans regionun ən aktual mövzularını əhatə edən beynəlxalq foruma çevrilmişdir.

Prezident İlham Əliyev açılış mərasimində nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar,

Hörmətli qonaqlar,

Bu gün Azərbaycanın həyatında çox əlamətdar bir gündür. On beşinci dəfədir ki, Bakıda Xəzər neft-qaz sərgi-konfransı keçirilir. Sərgi və konfransın bütün iştirakçılarını səmimi qəlbdən salamlayıram.

1994-cü ildə ilk sərginin keçirilməsi, demək olar ki, dünya neft-qaz aləminin diqqətinin Azərbaycana cəlb edilməsi demək idi. O vaxt Azərbaycan öz müstəqilliyini yenicə bərpa etmişdi. Bildiyiniz kimi, müstəqilliyin ilk illəri çox ağır keçirdi. Ölkədə yaşanan böhran faktik olaraq müstəqil gələcəyimizi şübhə altına alırdı. 1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi, Azərbaycanda sabitlik təmin olundu və ölkə sürətlə inkişaf etməyə başladı.

Hər bir gənc müstəqil ölkə üçün onun gələcəyi, gələcək inkişafı müəyyən amillərdən asılıdır. Bildiyiniz kimi, Azərbaycanın tarixində neft-qaz sənayesi həmişə xüsusi yer tutubdur. Azərbaycan qədim neft ölkəsidir. Dünyada sənaye üsulu ilə neft ilk dəfə məhz Azərbaycanda hasil edilmişdir. Dünyada dəniz yataqlarından da neft ilk dəfə Azəbaycanda çıxarılmışdır. Lakin müstəqillik əldə olunandan bir qədər sonra ölkədə yaşanan böhran nəticəsində neft sənayesi, demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Təbii ki, Azərbaycanın iqtisadi inkişafı üçün neft amilindən istifadə olunmalıydı. Məhz o illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yeni neft strategiyası elan olunmuşdu. Birinci konfransın keçirilməsi məhz o illərə təsadüf edir. 1994-cü ildə ilk sərgi keçirildi. Ondan sonra Azərbaycanı daha da yaxşı tanımağa başladılar. Deyə bilərəm ki, sərginin

Azərbaycanın neft-qaz sektorunun inkişafında və genişmiqyaslı investisiyaların cəlb edilməsində çox mühüm rolu olmuşdur. Təsadüfi deyil ki, ilk sərgidən sonra "Əsrin müqaviləsi" imzalanmışdır və o, bu gün Azərbaycanın uzunmüddətli inkişaf imkanlarını böyük dərəcədə müəyyən edir. "Əsrin müqaviləsi"nin imzalanması çox tarixi bir hadisə idi. İlk dəfə Xəzər dənizi xarici investorlar üçün açılırdı, ilk dəfə olaraq genişmiqyaslı investisiyalar qoyulurdu, ilk dəfə olaraq Azərbaycan beynəlxalq, dünya miqyaslı şirkətlərlə əməkdaşlığa başlayırdı. Həmin müqavilənin nəticəsində bu gün biz Azərbaycanda neft-qaz sektorunun sürətli inkişafını görürük. Ancaq müqavilənin və ondan sonrakı addımların əhəmiyyəti, sadəcə, iqtisadi göstəricilərlə məhdudlaşmır. Bu, bizə imkan verdi ki, Azərbaycan və ölkəmizin şirkətləri dünya səviyyəsində, dünya miqyasında ən yüksək nüfuza malik olan şirkətlərlə bərabərhüquqlu münasibətlər yaratsın. Bu, bizə imkan verdi ki, beynəlxalq maliyyə qurumları ilə biz çox səmərəli işləyək və Azərbaycanın kredit reytinqi yüksəldi. Məhz o illərdə uğurlu neft strategiyasının icrası nəticəsində indi Azərbaycanın qarşısında heç bir maliyyə çətinliyi yoxdur. Həm öz imkanlarımız kifayət qədərdir, həm də istənilən layihəyə xaricdən, xarici maliyyə bazarlarından investisiyaların cəlb edilməsi bizim üçün mümkündür.

Azərbaycan bu illər ərzində sübut etdi ki, biz etibarlı tərəfdaşıq. Biz xarici şirkətlərlə qarşılıqlı maraqlar əsasında işləyirik və 14 il ərzində, 1994-cü ildən bu günə qədər Azərbaycanda işləyən şirkətlərlə Dövlət Neft Şirkəti, yaxud da hökumət qurumları arasında heç bir ciddi mübahisə, heç bir ciddi münaqişə olmamışdır. Biz bu gözəl əməkdaşlıq mühitindən səmərəli istifadə edirik. Mən bunu ona görə deyirəm ki, bəzi hallarda müəyyən maraqlar toqquşanda mübahisələr də başlayır, münaqişələr də yaşanır. Ancaq Azərbaycanda neft-qaz resursları ölkəmizin inkişafına və bölgədə təhlükəsizliyin möhkəmlənməsinə, regional əməkdaşlığın dərinləşməsinə yönəldilibdir. Bu, bizim böyük uğurumuzdur. Bu, sübut edir ki, neft-qaz resursları həm ölkənin inkişafı üçün, həm sosial məsələlərin həlli üçün və həm də beynəlxalq münasibətlərin yüksək səviyyədə qurulması üçün mühüm rol oynaya bilər. Biz bunu Azərbaycanın timsalında görürük.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə, demək olar ki, bizim neft-qaz hasilatımız kəskin şəkildə aşağı düşmüşdü. Baxmayaraq ki, keçən əsrin 40-50-ci illərində Sovet İttifaqında neftin 70 faizi məhz Azərbaycanda hasil edilirdi. 1990-cı illər ərəfəsində isə Azərbaycanda neft hasilatı ildə 8-9 milyon tona düşmüşdü. Qaz hasilatı kəskin şəkildə aşağı düşmüşdü, baxmayaraq ki, 1970-ci illərdə Azərbaycanda qaz hasilatı çox yüksək səviyyədə idi və qonşu respublikalara Azərbaycandan qaz göndərilirdi. Yəni bütün bu böyük sənayeni bərpa etmək, yenidən qurmaq, canlandırmaq böyük siyasi iradə, peşəkarlıq tələb edirdi, cəmiyyətin birləşməsini, səfərbər olmasını tələb edirdi, Azərbaycanda ictimai-siyasi sabitliyin yaranmasını tələb edirdi. Biz bütün bunlara nail ola bilmişik. Bu gün Azərbaycan dünyada iqtisadi artım baxımından ən sürətlə inkişaf edən ölkədir. Biz bu liderliyi ardıcıl üç ildir ki, saxlayırıq.

Azərbaycanda neft hasilatı bu il 50 milyon tondan çox olacaqdır. Gələn il 60 milyondan çox olacaqdır. Biz neft yataqları ilə bağlı olan bütün məsələləri uğurla həll etmişik. Böyük həcmdə investisiyalar cəlb etmişik. Bildiyiniz kimi, bizim ölkəmizin dünya bazarlarına birbaşa çıxışı yox idi. Neft kəmərləri tikilməli idi və onlar da tikildi. Lakin bu da asan məsələ deyildi. Xüsusilə nəzərə alsaq ki, kəmərlər tikildiyi zaman bölgədə vəziyyət bir az başqa idi.

Bizim neft-qaz kəmərlərimiz enerji resurslarımızı müxtəlif istiqamətlərə daşıyır. Azərbaycanda aşkar edilmiş neft-qaz yataqları bundan sonra da uzun illər, ən azı, 100 il ölkəmizi təmin edəcək, bizim ixrac imkanlarımızı təmin edəcək, etibarlı tərəfdaş kimi Azərbaycan gələcəkdə də öz müsbət rolunu oynayacaqdır.

Azərbaycanda qaz hasilatı bütün dövrlərdə olmuşdur. Ancaq nəhəng "Şahdəniz" yatağının kəşfindən, işlənilməsindən sonra Azərbaycan böyük həcmdə qaz ixrac edən ölkəyə çevrilir. Bu da böyük üstünlükdür. Çünki dünyada böyük həcmdə həm neft, həm də qaz ixrac edən ölkələrin sayı o qədər də çox deyildir. Biz yenə də Heydər Əliyevin uzaqgörənliyi nəticəsində 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənilməsi üzrə beynəlxalq konsorsiumla müqavilə imzalamışıq. İndi Azərbaycan həm özünü qazla təmin edir, həm də onu qonşu ölkələrə və başqa ölkələrə ixrac edir. Bu ixracın coğrafiyası getdikcə genişlənəcəkdir.

Biz hesab edirik ki, növbəti illərdə, əlbəttə, bazarda olan tələbatdan asılı olaraq, qaz hasilatımızı böyük dərəcədə artıracağıq. Bu gün müzakirə predmeti olan müxtəlif qaz layihələrində Azərbaycan məqbul olan şərtlərlə iştirak etməyə hazırdır. Eyni zamanda, Azərbaycan hər bir neft-qaz ölkəsi qarşısında duran əsas vəzifəni də uğurla icra edir. Biz ixracın şaxələndirilməsini təmin etmişik. İndi Azərbaycanın qarşısında belə problem yoxdur. Çünki yolların şaxələndirilməsi həm istehsalçısı, həm də istehlakçı üçün lazımdır. Biz istehsalçı kimi çalışmışıq və nail olmuşuq ki, bütün istiqamətlərə çıxışlarımız var. Üç neft kəmərimiz var, ikisi Qara dənizə, biri Aralıq dənizinə çıxır. Dörd qaz kəmərimiz var. Onlardan biri Bakı-Tbilisi-Ərzurumdur, digərləri Azərbaycanı qonşu ölkələrlə birləşdirir. Deyə bilərəm ki, bütün bu kəmərlər işlək vəziyyətdədir. İstənilən istiqamətdə Azərbaycan öz neftini və qazını ixrac etmək iqtidarındadır.

Beləliklə, qısa müddət ərzində Azərbaycanın uğurlu neft strategiyasının icrası nəticəsində bizim 7 neft-qaz kəmərimiz var. Əlbəttə, bu, bizim həm iqtisadi maraqlarımızı təmin edir, həm tranzit ölkələrlə danışıqlarda mövqeyimizi möhkəmləndirir, həm də sirr deyil, beynəlxalq mövqelərimizi möhkəmləndirir. Çünki bu gün enerji təhlükəsizliyi bütövlükdə milli təhlükəsizlik məsələləri kimi tanınır. Həm bizim bölgədə, həm də Avropada və bütün ölkələrdə. Gələcəkdə bu sahənin dünya siyasətindəki çəkisi artacaqdır. Çünki hər bir ölkənin inkişafı üçün əsas şərt enerji resurslarıdır. İndi dünyada gedən iqtisadi inkişaf, əhalinin çoxalması və artan tələbat, bütövlükdə inkişaf daha da çox enerji resursları tələb edir. Onlar isə məhduddur. Mövcud olan əsas ixrac mənbələri də bəllidir. O mənbələrin hesabına müəyyən dərəcədə artımı təmin etmək olar. Ancaq yeni hövzə olduğuna görə və zəngin təbii ehtiyatlarına görə Xəzər hövzəsi dünya enerji bazarı üçün və dünya siyasəti üçün əvəzolunmaz bölgəyə çevrilibdir. Bu bölgədə Azərbaycan birinci ölkədir ki, 1994-cü ildə neft-qaz yataqlarına investisiya cəlb etmişdir, onları işlətməyə başlamışdır. Biz qarşıda duran bütün vəzifələri icra etmişik. Demək olar ki, ulu öndər Heydər Əliyevin başladığı və bu gün uğurla davam etdirilən Azərbaycanın yeni neft strategiyası tam öz məqsədinə çatmışdır.

İndi isə biz yeni mərhələ ərəfəsindəyik. Biz artıq iqtisadi cəhətdən və maliyyə resursları baxımından özümüzü təmin etmişik. İndi valyuta ehtiyatlarımız 10 milyard dollardan çoxdur. Növbəti illərdə, xüsusilə dünyada neftin qiymətinin kəskin şəkildə artması nəticəsində bizə böyük gəlirlər gələcəkdir. Qarşımızda artıq maliyyə çətinlikləri olmaya-

caqdır, biz o dövrü keçmişik. İndi bizim məqsədimiz inkişaf etmiş ölkəyə çevrilməkdir. Ancaq bu, o demək deyil ki, biz gərək arxayınlaşaq və əldə edilmiş uğurlarla kifayətlənək. Yox. Həyat yerində durmur. Xüsusilə bizim bölgədə enerji siyasəti ilə bağlı, enerji təhlükəsizliyi ilə bağlı yeni məsələlər ortaya çıxır. Əlbəttə ki, bu məsələlər müzakirə olunanda Azərbaycan, demək olar ki, onun əsas iştirakçılarından biridir.

Bizim coğrafi vəziyyətimiz, Avropa ilə Asiya arasında yerləşməyimiz, artıq güclü enerji və nəqliyyat infrastrukturuna malik olmağımız Azərbaycanı bu məsələlərlə bağlı əvəzolunmaz ölkəyə çevirir. Biz bundan istifadə edirik və edəcəyik. Yenə də demək istəyirəm ki, biz öz neft-qaz resurslarımızı regionda və dünyada təhlükəsizliyin, əməkdaşlığın və dostluğun inkişafına yönəldirik.

Bir daha qeyd etmək istəyirəm ki, enerji təhlükəsizliyi məsələləri yəqin ki, bundan sonrakı illərdə də dünyanın gündəliyində öz mühüm yerini tutacaqdır. Bizim bu sahədə uğurlarımız var, gələcək planlarımız da var. Biz artıq başqa ölkələrin, bölgələrin enerji təhlükəsizliyi ilə bağlı narahatlığını duyuruq, hiss edirik. Öz tərəfimizdən məqbul olan şərtlərlə bölgənin enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi davam etməyə hazırıq. Bildiyiniz kimi, təxminən iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bu, əməkdaşlığın demək olar ki, ümumi çərçivələrini müəyyən edir. Digər ölkələrlə, o cümlədən Avropa İttifaqının üzvü olan ölkələrlə, qonşu ölkələrlə bu sahədə danışıqlarımız gedir. Hazırda Azərbaycan qazı iki ölkəyə ixrac edilirsə, gələcəkdə bu ölkələrin sayı daha da çox olacaqdır. Siz indi qazın nəqli ilə bağlı müzakirə predmeti olan bütün layihələrin adlarını bilirsiniz. Yəni gələcəkdə Azərbaycanın bu bölgədə rolu və iştirakı artacaqdır. Bu da öz növbəsində bizim ölkəmizi daha da gücləndirəcəkdir. Bizim beynəlxalq mövqelərimizi möhkəmləndirəcək, iqtisadi imkanları genişləndirəcək və əlbəttə ki, bölgədə bizim rolumuz kəskin şəkildə artacaqdır. Bu gün biz, eyni zamanda, şəffaflığı da təmin etmişik. Azərbaycan hasilat sahələrində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biridir. Bizim çox şəffaf və bütün beynəlxalq normalara uyğun olan Neft Fondumuz uzun illərdir ki, fəaliyyət göstərir. Dünya birliyi tərəfindən onun fəaliyyəti rəğbətlə qarşılanır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu xüsusilə şəffaflıqda əldə edilən uğurlarla bağlı yüksək mükafata layiq görmüşdür. Yəni bu da neft-qaz sənayesinin əsas hissələrindən biridir. Azərbaycan cəmiyyətində neftdən əldə olunan gəlirlərin bölünməsi ilə bağlı heç bir narahatlıq yoxdur. Çünki bütün məlumatlar açıqdır, vaxtaşırı dərc olunur. Həm vəsaitin yığılması, həm də onun sərf olunması - bütün bunlar ciddi ictimai nəzarət şəraitində keçirilir. Eyni zamanda, parlament dövlət büdcəsini qəbul edərkən, hər bir Azərbaycan vətəndaşı parlamentdəki öz nümayəndəsi vasitəsilə vəsaitin bölünməsində iştirak edir. Bu, çox vacib amildir. Həm bizim imkanlarımızı, həm də ki, niyyətimizi göstərir. Biz gələcəkdə dünyada mövcud olan bütün müsbət meyarları Azərbaycanda tətbiq etmək istəyirik. Onların bir neçəsi artıq tətbiq olunubdur. Bütövlükdə, bizim məqsədimiz neftdən əldə olunan gəlirləri insan kapitalına yönəltmək, Azərbaycanda güclü qeyri-neft sənayesini yaratmaq, sosial məsələlərin həllinə nail olmaq və beləliklə, Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrinin sırasına daxil etməkdir. Budur bizim məqsədimiz və biz ona doğru irəliləyirik.

İndi biz sosial məsələlərin həllinə - təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları məsələlərinə çox böyük diqqət göstəririk. Sirr deyil ki, bizim iqtisadi inkişafı-

mızın böyük hissəsi neft-qaz sektoru ilə bağlıdır. Bu sektorda yaranan əlverişli vəziyyət iqtisadiyyatın bütün başqa sahələrinə öz müsbət təsirini göstərir. Biz qısa müddət ərzində regionların sosial-iqtisadi inkişafının təmin edilməsinə nail olmuşuq. Son beş ilə yaxın müddətdə 650 mindən çox iş yeri açılmışdır. İşsizlik, demək olar ki, aradan qaldırılıb, yoxsulluğun səviyyəsi aşağı düşüb, iqtisadi inkişaf göz qabağındadır. Biz dörd ildə iqtisadiyyatımızı iki dəfə artıra bilmişik.

Bir daha demək istəyirəm ki, bütün bunların təməlində məhz 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, ulu öndər tərəfindən atılmış müdrik, düşünülmüş və cəsarətli addım dayanır.

Bir daha qayıdıram bugünkü sərgiyə. Bu sərginin o zaman təşkil olunması Azərbaycana diqqəti cəlb etdi. Bəlkə bu sərgi keçirilməsəydi, xarici neft şirkətləri bir il də tərəddüd edəcəkdilər, çünki o vaxt xarici neft şirkətlərini Azərbaycana gətirmək çox çətin məsələ idi. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı. Biz isə buna nail olmuşuq və indi müsbət nəticələrini görürük. Mən əminəm ki, böyüklüyündən asılı olmayaraq, Azərbaycanda işləyən bütün şirkətlər - istər xarici, istər yerli şirkətlər, bundan sonra da özlərini rahat hiss edəcəkdir. Azərbaycanda investisiya şəraiti daha da yaxşılaşacaq və iş görmək üçün ölkədə daha da böyük imkanlar yaranacaqdır.

Əziz dostlar, mən sizi bu gözəl, əlamətdar gündə bir daha salamlayıram. Bu sərgi 15-ci dəfədir keçirilir. Bu, bir növ yubiley hesab oluna bilər. Sərgi və konfransa, onlarda iştirak edən bütün insanlara uğurlar, cansağlığı arzulayram. Sağ olun.

***

Mərasimdə çıxış edən ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Boyden Qrey dedi ki, iki ölkə arasında enerji sahəsində tərəfdaşlıq yeni Şərq-Qərb enerji dəhlizinin yaranması - Bakı- Tbilisi-Ceyhan neft kəməri və Cənubi Qafqaz qaz kəməri vasitəsilə həyata vəsiqə almışdır. Xəzər enerji daşıyıcılarını dünya bazarına çıxaran bu iki kəmərin işə düşməsi müstəqil Azərbaycanın enerji sahəsindəki uğurlu inkişafının bariz nümunəsidir. Hazırda Azərbaycanın Orta Asiya ölkələri ilə birlikdə Avropanın mühüm qaz təchizatçısına çevrilməsi üçün böyük potensialı var.

Boyden Qrey sərginin açılışı münasibətilə ABŞ Prezidenti Corc Buşun Azərbaycan Prezidenti İlham Əliyevə təbrikini oxudu.

Azərbaycanın regionda lider dövlətə çevrildiyini vurğulayan Böyük Britaniyanın ticarət və investisiyalar naziri lord Cons Diqbi bildirdi ki, onun ölkəsi Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlıdır. Lord Cons Böyük Britaniyanın Baş naziri Qordon Braunun təbrik məktubunu oxudu.

Azərbaycanın neft sektorunun uğurla inkişaf etdiyini deyən İsrailin milli infrastruktur naziri Binyamin Ben-Eliezer Azərbaycanın həm regionda, həm də dünya miqyasında enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrildiyini vurğuladı. Azərbaycanın öz enerji ehtiyatlarının dünya bazarına çıxarılmasındakı uğurlarını və iqtisadi inkişafını yüksək qiymətləndirən İsrail naziri dedi ki, hər il Bakıda keçirilən beynəlxalq Xəzər neft, qaz, sərgi və konfransın hasilatçı və istehlakçı ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsində xüsusi əhəmiyyəti vardır.

Gürcüstanın energetika naziri Aleksandr Xetaquri çıxışında dedi ki, Azərbaycan, Gürcüstan və Türkiyə Avropa ilə Asiya arasında enerji körpüsü rolunu oynamaq və Avropanın sabit enerji təminatına öz töhfəsini vermək imkanına malikdirlər. Artıq real faktdır ki, Azərbaycan nefti və qazı Gürcüstan və Türkiyə ərazisindən keçərək, Avropa ölkələrinə nəql olunur. Bu layihələrin reallaşması Avropa üşün enerji təchizatının alternativ mənbəyi olmaqla yanaşı, regionun təhlükəsizliyinin də təminatıdır.

"On beş ildir Azərbaycan çox mühüm bir tədbir keçirir. Bununla Azərbaycan neft və qazın hasilatı, onların müasir texnologiyalar vasitəsilə dərindən emal edilməsi sahəsində mövcud olan böyük imkanlarını nümayiş etdirir"- deyən Bolqarıstanın iqtisadiyyat və energetika naziri Petr Dimitrov vurğuladı ki, bu sərgi və konfrans yeni əlaqələrin qurulması və əməkdaşlığın inkişafı üçün əlavə imkanlar yaradır.

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Yusif Yazar Bakıda on beşinci dəfə keçirilən beynəlxalq neft, qaz, sərgi və konfransını Xəzər hövzəsində bu sahədə təşkil edilən ən böyük tədbir kimi qiymətləndirdi. O dedi ki, 1994-cü ildən bəri 30 milyard dollardan artıq xarici investisiyanın cəlb olunduğu Azərbaycanın regiondakı rolu Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin işə düşməsi ilə daha da möhkəmləndi və Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələsində əvəzedilməz bir yerə sahib oldu.

İranın neft və enerji nazirinin müavini İlqar Şirazi sərgi və konfransın əhəmiyyətini vurğuladı. Müstəqil Azərbaycanın enerji sahəsindəki inkişafından danışan qonaq dedi ki, bu uğurlar sübut edir ki, Xəzər neft və qaz sərgisi hələ uzun illər iştirak edəcəyimiz bir tədbir olacaqdır.

Norveçin dövlət katibi, neft sənayesi və energetika nazirinin müavini xanım Liv Monika Stabholdt Azərbaycanın istər regional baxımdan, istərsə də iqtisadi potensialına görə çox önəmli bir ölkə olduğunu vurğuladı. Beynəlxalq Xəzər neft və qaz sərgisinin qlobal neft sənayesində kifayət qədər əhəmiyyətli bir hadisəyə çevrildiyini deyən qonaq müxtəlif sahələrin nümayəndələrinin bir araya gəlməsi üçün bu tədbirin yaxşı imkanlar yaratdığını bildirdi.

Açılış mərasimindən sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu. Təməli "Əsrin müqaviləsi" ilə eyni vaxtda - 1994-cü ildə qoyulan sərgidə 15 il ərzində dünyanın 70-dən artıq ölkəsindən 5000-dən çox şirkət iştirak etmişdir. Yubiley Xəzər neft və qaz sərgisində isə dünyanın 30-dan çox ölkəsindən təxminən 400 şirkət təmsil olunmuşdur. Onların 30 faizi yerli şirkətlərdir. Bu il ekspozisiya sahəsi ötən ildəkindən 12 faiz çoxdur. Sərgidə kommersiya şirkətləri ilə yanaşı, Böyük Britaniya, Almaniya, Çin və Rusiyanın milli pavilyonları, Yaponiyanın Neft, Qaz və Metal Korporasiyasının, Gürcüstanın Neft-Qaz Korporasiyasının və Azərbaycanın müxtəlif dövlət strukturlarının ayrıca stendləri də vardır.

Sərgidə Qərbi Azəri platforması ilə birbaşa videoəlaqə yaradıldı.

Videoəlaqə zamanı Qərbi Azəri platformasının meneceri Prezident İlham Əliyevə orada işlərin gedişi barədə məlumat verdi.

Prezident İLHAM ƏLİYEV dəniz neftçilərinə müraciətlə dedi: "Sağ olun, mən sizi salamlayıram. Mən çox şadam ki, bu işlərdə Azərbaycan mütəxəssisləri fəal iştirak edir-

lər. Çox sevindiricidir ki, ən böyük səriştə, peşəkarlıq tələb edən işlərdə Azərbaycan mütəxəssisləri çalışırlar. Bu, bizim səviyyəmizi göstərir, peşəkarlıq səviyyəsini göstərir və gələcəkdə, əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafında sizin kimi mütəxəssislər çox işlər görəcəklər. Mən sizə uğurlar arzulayıram. Ölkə üçün çox vacib işlər görürsünüz və sizin fəaliyyətiniz, eyni zamanda, bp ilə Azərbaycan arasında olan münasibətlərin nümunəsidir. Tərəfdaşlıq çox dəyərlidir, onun gözəl tarixi var və əminəm ki, gözəl də gələcəyi olacaqdır. Sizə uğurlar arzulayıram".

Azərbaycan hazırda dünyada enerjidaşıyıcılarının hasilatı və nəqlinin tanınmış mərkəzlərindən biridir. Ölkə öz tələbatlarını tam həcmdə ödəməklə yanaşı, Avropanın enerji təhlükəsizliyində də mühüm rol oynayır. Şərqlə Qərbi birləşdirən enerji və nəqliyyat dəhlizində müstəsna rol oynayan Azərbaycan strateji tərəfdaşlığın, beynəlxalq inteqrasiyanın və enerji təhlükəsizliyinin həqiqi təminatçısıdır. Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən çıxış edərək, bir çox dövlətlər, dünyanın mühüm iqtisadi və maliyyə strukturları və şirkətləri ilə çox geniş istiqamətlərdə əməkdaşlıq edir. Hazırda Azərbaycanın geostrateji əhəmiyyəti təkcə zəngin neft-qaz hasilatçısı olmaqla bitmir. Azərbaycan həm də Mərkəzi Asiya regionunda hasil edilən enerji daşıyıcılarının dünya bazarlarına sabit nəqlini həyata keçirə bilən ən etibarlı tranzit ölkə sayılır. Ulu öndər Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət dünya dövlətlərinin Azərbaycana marağını daha da artırmışdır. 15-ci ildir uğurla keçirilən beynəlxalq Xəzər neft-qaz sərgi və konfransı bunun daha bir nümunəsidir.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabını imzaladı, dövlət başçısı sərgi-konfransın işinə uğurlar arzuladı.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVAN MR-DƏKİ İDARƏSİNİN YENİ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR

İyunun 3-də Prezident İlham Əliyev Naxçıvan şəhərinin mərkəzində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etmişdir.

Dövlətimizin başçısına məlumat verildi ki, yeni binanın inşasına ötən ilin mayında başlanmışdı. Konsulluq şöbəsində Sədərək, Culfa, Şahtaxtı sərhəd-keçid məntəqələri və Naxçıvan beynəlxalq hava limanı üzrə viza və pasport məsələləri ilə də məşğul olacaqlar. Binadakı kompyuterlərin hamısı avtomatlaşdırılmış mərkəz axtarışı və mərkəzi pasport sisteminə qoşulmuşdur.

Burada protokol şöbəsi, katiblik, server otaqları və digər bölmələr üçün də rahat şərait vardır.

Müxtəlif ədəbiyyatla təchiz olunan kitabxanada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin xarici siyasəti ilə bağlı keçirdiyi tədbirlərə dair kitablar da toplanmışdır.

Arxiv, konfrans salonu, müxtəlif xidmət otaqları da müasir tələblərə cavab verir.

Binanın ətrafı abadlaşdırılmış, ağac və gül kolları əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Baş nazir Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı səmimiyyətlə qarşıladılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva xanım Əminə Ərdoğana gül dəstəsi təqdim etdi.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi. Ölkələrimizin qlobal layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqda fəal iştirakı bildirildi. Baş nazir Rəcəb Tayyib Ərdoğanın Naxçıvana hazırkı səfərinin əhəmiyyəti vurğulandı və bunun ölkələrimiz arasındakı əlaqələrin genişlənməsinə xidmət edəcəyi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında, habelə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV Baş nazir Rəcəb Tayyib Ərdoğana müraciətlə dedi:

- Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar,

Mən Sizi Azərbaycanın qədim torpağı olan Naxçıvanda səmimiyyətlə salamlayıram bir daha "Xoş gəlmisiniz!" deyirəm. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır və əminəm ki, onun nəticələri də çox uğurlu olacaqdır. Biz xüsusilə bütün ikitərəfli, çoxtərəfli, regional məsələləri geniş müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərdə bizim fikirlərimiz üst-üstə düşür və əlbəttə, gələcək illərdə çalışacağıq ki, bütün sahələrdə işbirliyi, qardaşlıq münasibətləri daha da inkişaf etsin. Bizim qarşımızda çoxlu layihələr var. Biz birlikdə bölgədə ən önəmli layihələri uğurla gerçəkləşdiririk. Bizim birgə fəaliyyətimizdən həm ikitərəfli münasibətlər, həm də bölgədə gedən proseslər xeyli dərəcədə asılıdır. Mən Sizinlə birlikdə Naxçıvana gəlmiş bütün dostlarımızı, qardaşlarımızı salamlayıram. Bəzilərini tanıyıram, bəzilərini ilk dəfə görürəm. Bu da çox əlamətdar hadisədir. Çünki Siz böyük bir heyətlə Naxçıvana gəlmisiniz. Bir daha demək istəyirəm ki, Naxçıvan qədim Azərbaycan torpağıdır və Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd yeri buradır və o sərhəddə vaxtilə tikilən körpü yeganə keçid yeri olubdur. Ona "Ümid körpüsü" adı verilmişdir. Körpü tikiləndə, əslində, o, həyat körpüsü idi. Çünki Naxçıvanı mühasirədən çıxaran yeganə bir yol idi. İndi isə Naxçıvan da sürətlə inkişaf edir və Siz bu gün bunu görəcəksiniz. Əziz qardaşım, bir daha Sizi ürəkdən salamlayıram, xoş gəlmisiniz.

Sonra Baş nazir RƏCƏB TAYYİB ƏRDOĞAN çıxış edərək dedi:

- Əvvəlcə, çox təşəkkür edirəm. Gəldiyimiz andan etibarən istər mənə, istərsə də nümayəndə heyətimə göstərilən hörmətə görə xüsusi minnətdarlığımı bildirirəm. Bir müddət əvvəl Sizin nümayəndə heyəti Türkiyədə idi. Bizi orada məmnun etdilər. Təbii ki, Türkiyə və Azərbaycan qardaşdır və aramızdakı əlaqələr bütün sahələrdə - istər siyasi, istər hərbi, istər iqtisadi, istər ticari, istərsə də mədəni sahədə günbəgün inkişaf edir.

Biz buraya bir çox nazir dostlarımızla bərabər gəlmişik. Sərhəd şəhəri Naxçıvanda keçirəcəyimiz görüşlərin çox böyük mənası olacaqdır. Bu baxımdan biz buna çox böyük əhəmiyyət veririk. Mən xüsusilə Naxçıvanı görməyi çox arzulayırdım. Ötən səfərim zamanı bu istəyimi Sizə də söyləmişdim. Bugünkü görüşlərimizdən sonra edəcəyimiz ziyarətlər inanıram ki, bu səfərimizi daha da mənalı edəcəkdir.

Xüsusilə Sizin rəhbərliyinizlə Azərbaycan son dövrlərdə çox ciddi sıçrayış əldə etmişdir. Mərhum Heydər Əliyev tərəfindən başlanan inkişaf hazırda sürətlənərək davam edir. Təbii ki, bu inkişaf prosesi bölgədə Azərbaycanın əhəmiyyətini artırır. İnanıram ki, bundan sonrakı illərdə elm sahəsində görüləcək işlər gələcəkdə Azərbaycan gəncliyinin gücünü daha artıracaqdır.

Enerji məsələsində Azərbaycanın önəmi sayəsində Türkiyə bir tranzit rolunu oynayır. Bu sahədəki həmrəyliyimiz çox böyük önəm kəsb etməyə başlamışdır. Təbii ki, Bakı-Tbilisi-Ceyhan bunun ən böyük örnəyini təşkil etdi və Bakı-Tbilisi-Ərzurum isə ikinci bir nümunəsi oldu. Bütün bunlar həmrəyliyimizin ən gözəl nümunələridir. Allaha şükürlər olsun ki, Bakı-Tbilisi-Qars dəmir yolu yüksək bir nöqtəyə gəldi və qarşıdan gələn ayda layihənin Türkiyə hissəsinin təməli atılacaqdır.

BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransı keçirmişlər.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan əvvəlcə jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Türkiyə Cümhuriyyətinin Baş naziri, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Mən bir daha Türkiyənin Baş nazirini və onunla bərabər Naxçıvana gəlmiş nümayəndə heyətinin bütün üzvlərini Naxçıvanda, Azərbaycanın qədim torpağında salamlayıram, sizə "Xoş gəlmisiniz!" deyirəm.

Biz hörmətli Baş nazirlə mütəmadi qaydada həm Bakıda, həm də Ankarada, İstanbulda, başqa şəhərlərdə görüşürük. Ancaq ilk dəfədir ki, bizim görüşümüz Naxçıvanda baş verir. Mən çox minnətdaram ki, hörmətli Baş nazir vaxt tapıb Naxçıvana gəlibdir. Bunun çox böyük siyasi mənası var. Naxçıvan o yerdir, o şəhərdir, o respublikadır ki, Türkiyə ilə Azərbaycan arasında yeganə sərhəd buradadır. Naxçıvanın inkişafında, xüsusilə onun 1990-cı illərin əvvəllərində yaşanan böhranlı vəziyyətdən çıxmasında Türkiyə ilə olan əlaqələr, körpünün tikilməsi və bütövlükdə Türkiyədən alınan dəstək çox mühüm rol oynamışdır. Bu gün isə bizim ölkələr arasında münasibətlər bütün sahələrdə sürətlə inkişaf edir. Biz bu gün bütün ikitərəfli məsələlərin istiqamətlərini müzakirə etdik. Bütün müzakirə olunan məsələlərdə mövqeyimiz birdir, üst-üstə düşür. Siyasi əlaqələr sürətlə inkişaf edir, bizim iqtisadi imkanlarımız artır, biz birlikdə dünya üçün çox əhəmiyyətli olan və ölkələrimizi böyük dərəcədə gücləndirən enerji layihələrini həyata keçiririk.

Biz bu gün, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində aparılan işlər və gələcək planlar haqqında danışdıq, fikir mübadiləsi apardıq. Türkiyənin bu məsələdə mövqeyi və dəstəyi bizim üçün çox önəmlidir. Xüsusilə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində keçirilən son səsvermə zamanı işğal olunmuş ərazilərdə yaranan vəziyyətlə bağlı qətnamənin qəbul edilməsində Türkiyənin dəstəyi və mövqeyi çox mühüm olmuşdur.

Eyni zamanda, biz gələcək fəaliyyət, birgə layihələr haqqında geniş müzakirə apardıq. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr bizi daha da sıx birləşdirir. Bu layihələr, eyni zamanda, bütün türk dünyası üçün çox böyük əhəmiyyət kəsb edir. Çünki digər türkdilli dövlətlər bu layihələrdən səmərəli şəkildə istifadə edə bilərlər və bunun üçün artıq ilkin razılaşmalar vardır. Həm enerji, həm də ki, nəqliyyat layihələrində biz geniş əməkdaşlığa açığıq. Bizim münasibətlərimiz, eyni zamanda, regional işbirliyinə böyük töhfədir və Türkiyə və Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə, heç bir təşəbbüs reallaşa bilməz.

aramızda heç bir fikir ayrılığı yoxdur. O da bununla bağlı vacib olan təlimatı verdi. Bilirsiniz ki, azərbaycanlı qardaşlarımızdan heç bir viza tələb etmirik və bir ay müddətinə gedib-gələ bilirlər. İnşallah, bu təlimat üzrə vaxt məsələsi uzadıla bilər. Bunu da müzakirə etdik. Hörmətli Prezidentin təlimatının yerinə yetirilməsi nəticəsində qarşılıqlı surətdə viza hansı müddətdə keçici olacaq - bunların hamısı dəyərləndiriləcək və inşallah, addımlarımızı bu şəkildə atacağıq.

Digər sualınıza gəlincə, təbii ki, Dağlıq Qarabağ məsələsində sülhə nail olmaq lazımdır. Çünki orada işğalın olduğu məlumdur və bu, həqiqətdir. Əslində, bunu Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası da təsdiq etmişdir. Amma buna riayət olunmur. Qətnamələrin yerinə yetirilməsi vacibdir. Biz bu məsələ üzrə yaradılmış ATƏT-in Minsk qrupunun tezliklə ədalətli qərar çıxarmasını istəyirik. Çünki bu, bölgədə sülh üçün vacibdir, yəni lazım olan bir addımdır. Biz buna inanırıq və həllin tezləşdirilməsini dəstəklədiyimizi xüsusilə ifadə etmək istəyirəm.

- Mənim sualım həm Azərbaycan Prezidentinə, həm də Türkiyənin Baş nazirinədir. Siz həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşdünüz, fikir mübadiləsi apardınız. Bilmək istərdik, aparılan danışıqlarda Azərbaycanın Naxçıvan bölgəsi ilə Türkiyənin yaxınlıqda yerləşən bölgələri arasında iqtisadi əlaqələrin güclənməsinə bu səfər nə kimi təkan verəcəkdir?

İLHAM ƏLİYEV: Bu səfərin çox böyük mənası var və hörmətli Baş nazirin dediyi kimi, səfərin nəticələri də gözəl olacaqdır. Bu, doğrudan da tarixi səfərdir. İlk dəfə olaraq Türkiyənin Baş naziri və Azərbaycanın Prezidenti Naxçıvanda görüşürlər.

O ki qaldı Naxçıvanla sərhədin o tərəfində yerləşən vilayətlər arasındakı işbirliyinə, bu da sürətlə gedir. Qeyd olundu ki, artıq qarşılıqlı ticarətin həcmi getdikcə artır. Əlbəttə, bu gün Naxçıvanın enerji təhlükəsizliyi məsələsi müzakirə olundu. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işə düşməsindən və Azərbaycan qazının Türkiyə bazarlarına daxil olmasından sonra, xüsusilə gələcəkdə bu qazın həcminin artımından sonra Türkiyənin Naxçıvanla həmsərhəd olan bölgələrinə də təbii qazın verilməsi nəzərdə tutulur. Əlbəttə ki, bu layihənin təbii davamı olaraq, Naxçıvanın bu xəttə birləşməsi də mümkündür. Bu məsələ müzakirə olundu və müvafiq tapşırıqlar verilmişdir.

Eyni zamanda, Naxçıvanı nəqliyyat mühasirəsindən çıxarmaq üçün Naxçıvanın Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşməsi məsələsi də müzakirə olundu. Bu, çox böyük bir layihədir, çox böyük texniki və maliyyə resursları tələb edən layihədir. Ancaq qarşılıqlı iradə olduğu halda, - bu iradə də var, - bizim qarşımızda elə məsələ yoxdur ki, onu həll edə bilməyək. Müvafiq göstərişlər verildi. Yəqin ki, texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır və ondan sonra bu layihənin həyata keçirilməsi haqqında qərarlar qəbul ediləcəkdir.

Bütövlükdə, Naxçıvanın iqtisadi inkişafını və imkanlarını nəzərə alaraq, əlbəttə, qardaş Türkiyənin müvafiq vilayətləri ilə əlaqələrin daha da möhkəmlənməsi zəruridir. Bu əlaqələr möhkəmlənir. Naxçıvanda böyük quruculuq, tikinti işləri gedir və bildiyiniz kimi, bu işlərdə türk firmaları çox fəal iştirak edirlər. Naxçıvanda ən çox iş görən Türkiyə şirkətləridir. Əminəm ki, burada iqtisadi inkişaf artdıqca, Naxçıvanın iqtisadi potensialı da möhkəmlənəcək, yeni-yeni layihələr həyata keçiriləcəkdir və qardaş ölkədən olan şirkətlər həmişə Naxçıvana gəlməyə meyillidirlər. Biz də bunu alqışlayırıq.

- Sualım hörmətli Baş nazirədir. Enerji sahəsində işbirliyinin indiki vəziyyəti barədə məlumat verərsinizmi, bu məsələləri müzakirə etdinizmi? Xüsusilə hörmətli Prezidentin söylədiyi məsələ - Türkiyənin güneyinə qaz verilməsi ilə bağlı Siz nə deyə bilərsiniz?

RƏCƏB TAYYİB ƏRDOĞAN: Bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan kəməri ilə əlaqədar biz tranzit ölkə rolunu oynayırıq və Ceyhandan bütün dünyaya neftin göndərilməsi davam edir. Bakı-Tbilisi-Ərzurum təbii qaz xəttinə gəldikdə, bizim də ehtiyacımız olan təbii qaz məsələsində, - hörmətli Prezident sağ olsun,- lazım olan köməyi bizə göstərəcəklər. Yəni ehtiyacımızın müəyyən bir qismini, inşallah, o xətdən götürə bilmək imkanımız vardır. Bunun üçün enerji nazirlərimizə təlimat verdik, onlar aralarında görüşərək, bu miqdarı müəyyənləşdirəcəklər. Bununla bağlı heç bir problem yoxdur.

Biz Nabukko layihəsini də müzakirə etdik. Bu məsələ ilə əlaqədar olaraq, yenə də mövcud imkana görə, buradan Nabukkoya müəyyən miqdarda təbii qaz vermək mümkün olacaqdır.

- Mənim sualım hər iki tərəfədir. Azərbaycan və Türkiyə beynəlxalq təşkilatlar çərçivəsində uzun illərdir uğurlu və səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlığın gələcək inkişaf perspektivlərini necə görürsünüz?

İLHAM ƏLİYEV: Bu, həqiqətdir. Bütün beynəlxalq təşkilatlarda bizim ölkələrimiz vahid mövqedən çıxış edir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra həmişə bütün beynəlxalq təşkilatlarda Türkiyədən dəstək görübdür. Bu dəstək qarşılıqlıdır. Biz Birləşmiş Millətlər Təşkilatında uğurlu əməkdaşlıq edirik. Bayaq qeyd etdiyim qətnamənin qəbul olunmasında Türkiyənin çox böyük və müsbət rolu olmuşdur. Eyni zamanda, Türkiyə və Azərbaycan İslam Konfransı Təşkilatında fəal iştirak edirlər. Bu gün biz hörmətli Baş nazirlə bu məsələləri müzakirə etdik. İslam dünyasının birləşməsi və islam ölkələri arasında qarşılıqlı ticarətin inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur və bizim mövqeyimiz birdir.

Eyni zamanda, biz türkdilli dövlətlərin əməkdaşlığı ilə bağlı fikir mübadiləsi apardıq. Türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə görüşü Azərbaycanda, Bakıda nəzərdə tutulur. İndi o görüşün vaxtı dəqiqləşdirilir. Deyə bilərəm ki, bu formatda Türkiyə və Azərbaycanın rolu artmaqdadır. Biz bəzi hallarda çox lazımlı təşəbbüslərin iştirakçılarıyıq.

Eyni zamanda, başqa beynəlxalq təşkilatlarda, Avropa Şurasında bizim nümayəndə heyətlərimiz daim bir-birinin mövqeyini müdafiə edir, dəstəkləyirlər. Bəzi hallarda ədalətsizliklə üzləşəndə, bundan birlikdə məyus oluruq. Ancaq, eyni zamanda, biz bütün bu təşkilatlarda öz siyasətimizi, öz maraqlarımızı təmin və müdafiə edirik.

Bununla bərabər, əlavə etmək istəyirəm ki, Türkiyə və Azərbaycan dövlətləri xaricdə yaşayan soydaşlarımızın təşkilatlanma prosesində fəal iştirak edirlər. Biz Türkiyə və Azərbaycan diaspor təşkilatlarının qurultayını bərabər keçirdik. O da çox önəmli hadisə idi və onun çox gözəl nəticələri olmuşdur. İndi dünyada yaşayan soydaşlarımız birləşir, Türkiyənin və Azərbaycanın diaspor təşkilatları öz səylərini birləşdirirlər. Çünki bizim maraqlarımız da birdir, düşmənlərimiz də birdir. Bütün beynəlxalq təşkilatlarda sıx əməkdaşlığımız həm mövqelərimizi möhkəmləndirir, həm də regional məsələlərin həllində öz müsbət rolunu oynayır.

Mən giriş çıxışımda qeyd etdim ki, bu bölgədə Türkiyə və Azərbaycanın iştirakı olmadan heç bir layihə reallaşa bilməz. Türkiyənin və Azərbaycanın iştirak etdiyi layihələrin hamısı uğurla nəticələnmişdir - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum. Əminəm ki, bu yaxınlarda başladığımız Bakı-Tbilisi-Qars layihəsi də uğurla nəticələnəcəkdir. Beləliklə, bölgədə yerləşən ölkələr üçün gözəl imkanlar yaranır. Bizim təşəbbüslərimiz geniş formatda regional və qitə miqyasında işbirliyinin möhkəmlənməsinə yönəldilibdir. Mən əminəm ki, gələcəkdə də bütün beynəlxalq təşkilatlarda, beynəlxalq forumlarda, konfranslarda, tədbirlərdə biz vahid mövqedən çıxış edəcəyik və bu, bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

RƏCƏB TAYYİB ƏRDOĞAN: Mən hörmətli Prezidentin dediklərinə heç bir əlavə etmək istəmirəm. Sadəcə, demək istəyirəm ki, məsələn, 2009-2010-cu illər üçün Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına Türkiyənin üzvlüyünü Azərbaycanın dəstəkləməsi, eyni şəkildə bizim də 2011-2012-ci illər üçün Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına Azərbaycanın üzvlüyünü dəstəkləmək barədə razılığımız var.

Eyni zamanda, İslam Konfransı Təşkilatında, Avropa Parlamentində daim bir-birimizlə həmrəy olmuşuq. Türk dünyasındakı, xüsusilə Türkiyə ilə Azərbaycan arasındakı həmrəylik bir örnəkdir. Verdiyimiz qərarlar heç bir şübhə doğurmur. Gərəkli olan hər bir iş görülmüşdür və bundan sonra da görüləcəkdir. Onsuz da, həmrəyliyimiz olmasa, "bir millət, iki dövlət" anlayışı yerinə düşə bilməz. Biz hər zaman bunu yerinə yetirməliyik.

Çox sağ olun, təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğan iyunun 4-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın müşayiəti ilə Naxçıvan Dövlət Universitetində olmuşdur.

Universitetin müəllim və tələbələri hörmətli qonaqları səmimiyyətlə qarşıladılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Türkiyənin Baş nazirinin xanımı Əminə Ərdoğan universitetin Konservatoriyasına gəldilər. Konservatoriya ilə tanışlıq zamanı bildirildi ki, 350-dək müəllimin çalışdığı universitetdə 4 min tələbə təhsil alır. 10 fakültənin hər birində auditoriyalar kompyuter avadanlığı ilə təchiz olunub və internetə qoşulubdur.

Mehriban xanım Əliyeva və Əminə xanım Ərdoğan konservatoriyanın fortepiano, vokal, dirijorluq, bəstəkarlıq sinifləri, musiqi alətləri, musiqişünaslıq, metodika kafedraları, auditoriyaları ilə tanış oldular, xor kapellasının ifasında Azərbaycan və türk mahnılarını dinlədilər.

Xanım Əminə Ərdoğan Konservatoriyaya xatirə hədiyyəsi təqdim etdi.

Türkiyəli qonağa universitetin beynəlxalq əlaqələri barədə də məlumat verildi, Türkiyənin ali məktəbləri ilə sıx əməkdaşlıq edildiyi vurğulandı.

Sonra Naxçıvan Dövlət Universitetində təhsil alan türkiyəli tələbələrlə görüşən xanım Əminə Ərdoğan onların təhsili ilə maraqlandı. Tələbələr burada yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan tələbələrlə xatirə şəkli çəkdirdilər.

TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ

İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə rəsmi nahar verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

İyunun 4-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYALAR NAZİRİ DİQBİ CONSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Böyük Britaniyanın ticarət və investisiyalar naziri Diqbi Consu qəbul etmişdir.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, Britaniya şirkətlərinin uzun illərdir Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində səmərəli fəaliyyət göstərdiyi vurğulandı. Söhbət zamanı Bakıda keçirilən XV Beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətinə toxunuldu və bildirildi ki, bu tədbir regional və beynəlxalq əməkdaşlıq baxımından xüsusi əhəmiyyətə malikdir.

YENİ AZƏRBAYCAN PARTİYASINDA ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

İyunun 4-də Yeni Azərbaycan Partiyası sədrinin müavini, icra katibi Əli Əhmədov Çin Xalq Respublikasının Avropa və Asiya Əlaqələri İnkişafı İnstitutunun rəhbəri Li Fanlinin başçılıq etdiyi nümayəndə heyəti ilə partiyanın mərkəzi qərargahında görüşmüşdür.

Görüşdə Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin daha da genişləndirilməsinin vacibliyi barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Tanışlıq xarakteri daşıyan görüşdə qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəsadları, münaqişənin sülh yolu ilə həlli istiqamətində rəsmi Bakının səyləri, Azərbaycan iqtisadiyyatının sürətli inkişafını təmin edən islahatlar, o cümlədən Yeni Azərbaycan Partiyasının fəaliyyəti, məqsədi və məramı barədə geniş məlumat verilmişdir.

Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Çjan Xayçjou, YAP icra katibinin müavinləri Siyavuş Novruzov və Mübariz Qurbanlı görüşdə iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ƏLİRZA ŞEYX ƏTTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də İran İslam Respublikası xarici işlər nazirinin müavini Əlirza Şeyx Əttarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla İran arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STATOİL HYDRO ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Norveçin Statoil Hydro şirkətinin baş icraçı direktoru Helge Linqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Norveçin Statoil şirkəti arasında uzun illər davam edən səmərəli əməkdaşlıqdan danışıldı. Bakıda keçirilən 15-ci neft-qaz sərgisinin əhəmiyyəti, onun enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsinə xidmət etdiyi vurğulandı. Söhbət zamanı Statoil şirkəti ilə əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTEL ŞİRKƏTİNİN PREZİDENTİ KREYQ BARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Prezident sarayında İntel şirkətinin prezidenti Kreyq Baretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Kreyq Baret rəhbərlik etdiyi şirkətlə Azərbaycanın müvafiq qurumları arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu söylədi. Qonaq səfərinin Azərbaycanda informasiya texnologiyaları inkişafı istiqamətində görülən işlərlə və bu sahənin perspektivləri ilə yaxından tanış olmaq üçün yaxşı imkanlar yaratdığını bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə informasiya texnologiyaları sahəsinin inkişaf etdirilməsinin Azərbaycanın ümumi iqtisadi inkişafının prioritet sahələrindən biri olduğunu vurğuladı. Bu baxımdan Azərbaycanın İntel şirkəti ilə əməkdaşlığının gələcək perspektivlərinin müzakirə olunmasının əhəmiyyətli olduğu bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını və onun xanımını hava limanında Sankt-Peterburqun vitse-qubernatoru Aleksandr Vaxmistrov və digər rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyev hava limanından Konstantinov sarayı kompleksində onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

İyunun 6-da Sankt-Peterburqdakı Konstantinov sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur.

Rusiya dövlətinin başçısı DMİTRİ MEDVEDEV Azərbaycan Prezidentini salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu, Peterburqda yenidən görüşməyimizə şadam. Bizim görüşlərimiz üçün kifayət qədər əsas, çoxlu maraqlı layihələr var, hətta əmtəə dövriyyəsinin strukturunda da bir sıra göstəricilər yaxşılaşır. Bunlar, bəlkə də, formal şeylərdir, lakin Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər baxımından onlar da vacibdir. İndi Sizinlə görüşümüz qısa olacaq, lakin ümid edirəm ki, tezliklə biz görüşəcəyik. İyulun əvvəllərində mən Sizin ölkəyə, Bakıya qonaq gələ bilərəm və orada biz öz əlaqələrimizlə bağlı bütün məsələlər barədə ətraflı söhbət edəcəyik.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV rusiyalı həmkarına təşəkkür edərək dedi:

- Hörmətli Dmitri Anatolyeviç, görüşümüzə çox şadam. Sizin prezidentliyinizin ilk ilində Azərbaycana rəsmi səfərə gəlmək barədə bizim dəvətimizi qəbul etdiyinizə görə də şadam. Bu, bizim ikitərəfli münasibətlərimizin çox mühüm göstəricisidir. Ümid edirəm ki, münasibətlərimiz əvvəllərdə olduğu kimi, bundan sonra da səmərəli olacaqdır. Biz bu istiqamətdə fəal işləyəcəyik. Ölkələrimiz arasında münasibətlər tərəfdaşlıq münasibətləri kimi səciyyələnir, dinamik və müsbət şəkildə inkişaf edir. Bizim əlaqələrimizin formatı çox geniş, gündəlikdəki məsələlər əhatəlidir. Çox şadam ki, biz yüksək sürətlə irəliyə doğru gedirik, regionda fəal qarşılıqlı əlaqə saxlayırıq, ikitərəfli münasibətlərimizdə böyük tərəqqi müşahidə olunur. Bu, bizi çox sevindirir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

İyunun 6-da Sankt-Peterburqda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Görüşdə ATƏT-in Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupunun həmsədrləri də iştirak etmişlər.

Görüşün yekunlarına əsasən iki ölkənin xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbandyan mətbuat konfransı keçirmişlər. Xarici işlər nazirləri Azərbaycan və Ermənistan prezidentlərinin ilk görüşünü müsbət və konstruktiv hadisə kimi qiymətləndirdilər.

Bildirildi ki ki, prezidentlər tərəflərin mövqeləri ilə tanış olmuş, xarici işlər nazirlərinə danışıqlar prosesinin davam etdirilməsi üçün Minsk qrupu ilə əməkdaşlıq etmək barədə təlimat vermişlər.

Elmar Məmmədyarov onu da vurğulamışdır ki, Minsk qrupunun vasitəçilik fəaliyyətinin davam etdirilməsi arzusu ifadə olunmuşdur. O bildirmişdir ki, hazırda prezidentlərin və xarici işlər nazirlərinin iş cədvəli nəzərə alınmaqla, həmsədrlərin regiona növbəti səfərinin vaxtı razılaşdırılır. Gözlənildiyinə görə, bu səfər iyunun axırlarında baş tuta bilər.

Elmar Məmmədyarov sonda demişdir: "Biz qarşılıqlı yanaşmalarla tanış olandan sonra tərəflərin mövqelərinin yaxınlaşdırılması üzrə işi davam etdirməliyik".

Amerikalı həmsədr Mətyu Brayzə də Azərbaycan və Ermənistan prezidentlərinin görüşünü uğurlu görüş adlandırmışdır. O demişdir ki, hər iki tərəfin arzuları nəzərə alınmaqla, vasitəçilərin təkliflərini yaxşılaşdırmaq lazımdır.

Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov konkret nəticələr əldə etmək üçün əməkdaşlığı davam etdirməyə hazır olduqlarını bildirmişdir.

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ

İyunun 6-da Sankt-Peterburq yaxınlığında - Strelnadakı Konstantinov sarayında XII Peterburq beynəlxalq iqtisadi forumu çərçivəsində MDB ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.

Dövlət başçılarının qeyri-rəsmi görüşlərinin keçirilməsi Birliyin təcrübəsində bir ənənəyə çevrilmişdir. İlk belə görüş 2000-ci il avqustun 18-də Yaltada olmuşdu. O vaxtdan bəri 9 qeyri-rəsmi görüş keçirilmişdir. Belə görüşlərin formal gündəliyi olmur və onlarda hər hansı məsələlərə dair qərarlar qəbul edilməsi nəzərdə tutulmur. Yalnız təxirə salınması mümkün olmayan məsələlər istisna təşkil edir.

Budəfəki qeyri-rəsmi görüş 2008-ci ildə sayca ikincidir. Fevralın 22-də Moskvada keçirilmiş görüşdə olduğu kimi, indiki görüşdə də MDB-nin üzvü olan bütün ölkələrin prezidentləri iştirak etmişlər.

Sankt-Peterburq görüşünün təşəbbüsçüsü Rusiya Federasiyasıdır.

Görüş başlanmazdan əvvəl dövlət başçıları xatirə şəkli çəkdirmişlər.

Açılışda çıxış edən Birliyin sədri, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev Rusiya və Ermənistanın dövlət başçılarını prezident vəzifəsinə seçilmələri münasibətilə təbrik etmişdir.

Rusiya dövlətinin başçısı Dmitri Medvedev görüşdə çıxış edərək, MDB çərçivəsində təhlükəsizliyin təmin edilməsi, humanitar sahədə əməkdaşlığı yüksək qiymətləndirmiş və

iqtisadi əlaqələrin genişləndirilməsinin perspektivləri barədə fikirlərini bölüşmüşdür.

MDB İcraiyyə Komitəsinin sədri, Birliyin icraçı katibi Sergey Lebedev sammitdə Birliyin iqtisadi inkişaf strategiyasının formalaşdırılması, nəqliyyat sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə iş haqqında məruzə ilə çıxış etmişdir.

Görüşdə iqtisadi və humanitar sahələrdə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

SƏFƏR BAŞA ÇATDI

MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sankt-Peterburqa səfəri iyunun 7-də başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ, FÖVQƏLADƏ HALLAR VƏ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI ÜZRƏ NAZİRİ SERGEY ŞOYQUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Rusiya Federasiyasının Mülki müdafiə, fövqəladə hallar və fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri Sergey Şoyqunu qəbul etmişdir.

Sergey Şoyqu Azərbaycan Prezidenti ilə ötən görüşündən keçən dövr ərzində Rusiya ilə Azərbaycanın Fövqəladə Hallar Nazirlikləri arasında əməkdaşlığa dair konkret layihələrin həyata keçirildiyini qeyd etdi və bu istiqamətdə aparılan işlərin əməkdaşlığımızın daha da genişlənəcəyinə xidmət etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan və Rusiya Fövqəladə Hallar Nazirliklərinin əməkdaşlığının genişlənməsindən məmnunluğunu vurğuladı, nazirliklər arasında müxtəlif istiqamətlərdə işlərin həyata keçirilməsinin, təcrübə mübadiləsinin aparılmasının qarşılıqlı surətdə faydalı olduğunu bildirdi və bu səfərin də bu sahədə əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

BAKIDA "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ FORUM İŞƏ BAŞLAMIŞDIR

İyunun 10-da Bakıdakı "Gülüstan" sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda ikigünlük beynəlxalq forum işə başlamışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə keçirilən forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESKO-nun baş direktoru, YUNESKO-nun xoşməramlı səfirləri iştirak edirlər.

Beynəlxalq forumun iştirakçısı olan yüksək səviyyəli qonaqlar "Gülüstan" sarayına gəldilər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycrini, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanı, Polşanın birinci xanımı Mariya Kaçinskini, Cənubi Afrika Respublikasının birinci xanımı Zancle Mbekini, Anqolanın birinci xanımı Ana Paula duş Santuşu, Latviya Respublikasının birinci xanımı Lilita Zatleri, ABŞ-ın Texas ştatının birinci xanımı Anita Perrini, Rusiya Federasiyası Şurası sədrinin müavini Svetlana Orlovanı, Argentinanın vitse-prezidentinin xanımı Marta Kristina Çeruti Dekobosu, Bəhreyn xarici işlər nazirinin xanımı şeyxa Veysəli səmimiyyətlə qarşıladı.

Azərbaycanın birinci xanımı qonaqların hər biri ilə xatirə şəkli çəkdirdi.

Sonra forumun rəsmi açılış mərasimi oldu.

Qonaqları Bakıda salamlamaqdan məmnunluğunu bildirən Mehriban xanım Əliyeva dedi ki, bu forum Heydər Əliyev Fondunun, YUNESKO-nun və İSESKO-nun birgə səyləri ilə həyata keçirilir. Mən həmin təşkilatlara və onların rəhbərliyinə - YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuraya və İSESKO-nun baş direktoru cənab Əbdüləziz bin Osman Əl-Tüveycriyə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Forumda iştirak etmək üçün Bakıya gələn yüksək səviyyəli qonaqları təqdim edən Mehriban xanım Əliyeva bildirdi ki, son 15 ildə alimlər və yazıçılar, din xadimləri və siyasətçilər çox sadə səslənən bir suala cavab axtarırlar: Dialoq, yoxsa qarşıdurma? Bu problem bir çox beynəlxalq forumların və konfransların əsas mövzusu olubdur. Zənnimcə, hər bir belə toplantı özlüyündə dialoq olaraq müxtəlif ölkələrin və mədəniyyətlərin təmsilçilərini bir araya gətirməklə böyük əhəmiyyət kəsb edir. Belə görüşlər ən azı insanların bir-birini daha dərindən tanımasına, fikir və təcrübə mübadiləsinin aparılmasına xidmət edir.

Bu gün biz mədəniyyətlər və sivilizasiyalararası dialoq probleminə qadınların gözü ilə baxmalıyıq, qadın mövqeyini qabartmalıyıq. Qadın olan yerdə həmişə səmimiyyət var, sevgi var, məhəbbət var. Qadın olan yerdə düşmənçiliyə, qarşıdurmaya, nifrətə yer yoxdur. Zənnimcə, qadınlar əzəldən bəri dialoq tərəfdarıdırlar. Məhz ona görə, qadın potensialı dialoqun möhkəmlənməsində böyük rol oynaya bilər. Mən ümidvaram ki, konfransımız səmərəli keçəcək, iki gün ərzində müxtəlif fikir və təkliflər səslənəcək və konfransımızın nəticələri mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə layiqli töhfəsini verəcəkdir.

Forumu açıq elan edən Mehriban xanım Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubu göndərdiyini bildirdi.

Sonra Prezidentin İcra Aparatının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə dövlətimizin başçısının forum iştirakçılarına təbrikini oxudu.

Sonra İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri çıxış edərək Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı, forumun iştirakçılarını salamladı və mədəniyyətlərarası dialoqa dair tədbirlərin keçirilməsinə göstərdiyi yüksək dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi.

BMT Baş Məclisinin qərarı ilə 2001-ci ilin sivilizasiyaların dialoqu ili elan olunması ilə mədəniyyətlərarası dialoq ideyasının yeni mərhələyə qədəm qoyduğunu xatırladan

İSESKO-nun baş direktoru dedi ki, bugünkü görüşümüz ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa yeni töhfələr verəcəkdir.

Qadınlar mədəniyyətlərin dialoqunun inkişaf etdirilməsində çox mühüm rol oynayırlar. Onlar gənc nəslin tərbiyəçisidirlər. Onlar cəmiyyəti quran ailənin özəyidirlər. Onlar gənc nəslə ideal dəyərlər və ali prinsiplər aşılayırlar.

Mədəniyyətlər və sivilizasiyalararası dialoqun hamının işi olduğunu bildirən Əbdüləziz bin Osman Əl-Tüveycri diqqətə çatdırdı ki, bu sahədə qadınların rolu danılmazdır. Bunun üçün qadınlar ilk növbədə savadlı olmalı, mükəmməl təhsil almalıdır. Lakin bu o demək deyildir ki, qadınların fəaliyyəti ev işləri və ya təhsillə məhdudlaşır. Əlbəttə, qadınlar fəaliyyət üçün daha çox imkana malikdirlər. Təhsil dedikdə, biz mədəniyyətlərin dialoqundakı dəyərlərə əsaslanan təhsili nəzərdə tuturuq.

Qadınların cəmiyyətdə rolunu yüksəldən əsas amil onların mədəniyyətlərarası dialoqda fəal iştirakıdır. Onlar bu yolla dünyada sülhə və qarşılıqlı anlaşmaya nail ola bilərlər. Bu gün qadınları sivilizasiyaların dialoqunda və ümumi məqsədlərə nail olmaq istiqamətində beynəlxalq hərəkatlara fəal cəlb etməyə ciddi ehtiyac vardır.

Bu forumda yaradılan imkandan istifadə edərək hamını mədəniyyətlərin dialoqunda və millətlər arasında anlaşmanın inkişaf etdirilməsi istiqamətində birlikdə çalışmağa, bununla da sülhün və insanların dinc yanaşı yaşamasının düşmənlərinin irqi, dini və mədəni ayrı-seçkiliyə çağırışlarının qarşısını birlikdə almağa çağırıram.

Forumda YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın videomüraciəti nümayiş olundu. Koişiro Matsuura əvvəlcə forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə, xüsusilə də Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlığını bildirdi. Dedi ki, bu cür yüksək səviyyədə tədbirin keçirilməsi Mehriban xanım Əliyevanın qadınlara göstərdiyi yüksək diqqətin təzahürüdür.

K.Matsuura qeyd etdi ki, bu forumun keçirilməsi gender bərabərliyinin inkişafına təkan verəcəkdir. Tarixən müxtəlif danışıqlar, dialoqlar mövcud olmuşdur, amma bu cür dialoqun aparılması qloballaşan dünyada qadınların rolunu yüksəldəcəkdir. Qadınlar müasirliyin və təfəkkürün formalaşmasında mühüm rol oynayırlar.

Gender bərabərliyi YUNESKO-nun 2008-2010-cu illər üçün qlobal prioritetidir. Ümid edirəm ki, bizim təşkilatımız gələcəkdə bu istiqamətdə yeni mexanizmin yaradılmasında mühüm rol oynayacaqdır.

YUNESKO-nun baş direktoru əmin olduğunu bildirmişdir ki, bu forum qadınların rolunu artırmaqla yanaşı, dünya ictimaiyyətinin məsələyə diqqətini yüksəldəcəkdir. Forumda aparılacaq müzakirələr dünyada qadınların qarşılaşdıqları problemlərin həllində mühüm rol oynayacaqdır.

Mədəniyyətlərarası dialoqun çox vacib məsələ olduğunu qeyd edən Polşanın birinci xanımı Mariya Kaçinski öz ölkəsində tarixən mövcud olan tolerantlıq adət-ənənələrinin davam etdirildiyini bildirdi.

Sözsüz ki, qadınlar gənc nəslin tolerantlıq ruhunda yetişməsində mühüm rol oynayırlar. Ona görə də qadınların potensialından siyasətdə, iqtisadiyyatda, mətbuatda, ümumiyyətlə müxtəlif sahələrdə geniş istifadə olunmalıdır.

M.Kaçinski dedi ki, bəzi ölkələrdə qadınların bir çox hüquqlardan məhrumluğu davam edir. Bu gün qloballaşan dünyada müxtəlif nüfuzlu beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə qadınların hüquqlarının qorunması məsələsi xüsusi yer tutur. Mən hesab edirəm ki, mədəniyyətlərarası dialoqlar bu sahədə problemlərin həllinə təkan verəcəkdir.

Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan çıxışında bu cür mötəbər tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, YUNESKO-ya və İSESKO-ya, Azərbaycan dövlətinə xüsusi minnətdarlığını bildirdi. Ölkəmizdə olmasından böyük şərəf duyduğunu deyən qonaq, forumun mədəni dəyərlərin qorunmasına layiqli töhfələr verəcəyinə əminliyini vurğuladı. Ə.Ərdoğan bildirdi ki, hazırda dünyada baş verən proseslərdə qadınların rolu artır. Cəmiyyətin təkanverici qüvvəsi olan qadınların rolunun daha da artması üçün səyləri birləşdirməliyik. Bu cür forumların mədəniyyətlərarası dialoqun inkişafına təsirini nəzərə alaraq Ə.Ərdoğan belə bir tədbirin gələn il Türkiyədə keçirilməsi haqqında qərara gəlindiyini söylədi. Qadınların cəmiyyətin inkişafında əvəzsiz xidmətlərini vurğulayan natiq, bu sahədə inkişaf etməkdə olan ölkələrə kömək göstərməyin vacibliyini vurğuladı.

Anqolanın birinci xanımı Ana Paula duş Santuş Azərbaycanda olmağından və qadın problemlərinə həsr olunmuş belə əhəmiyyətli forumda iştirakdan məmnun qaldığını söylədi. Bildirdi ki, tarixən Azərbaycan Asiya ilə Avropanı birləşdirən mədəni yollar üzərində yerləşən ölkədir. Xanım duş Santuş Azərbaycanın dünya mədəniyyətinə verdiyi töhfələri xüsusi vurğuladı, Azərbaycanın mədəni irsinin zənginliyinin digər xalqlar üçün nümunə olduğunu söylədi.

Anqola Prezidentinin vaxtilə Azərbaycanda təhsil aldığını qeyd edən natiq ölkəmizdə təhsilin yüksək səviyyədə olduğunu diqqətə çatdırdı. Xanım Ana Paula duş Santuş Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən beynəlxalq forumun ölkəmizin demokratik dəyərlərə, qadın hüquqlarının qorunmasına və mövcud problemlərin həllinə göstərdiyi diqqətin parlaq təzahürü olduğunu xüsusi qeyd etdi. Natiq qadınların cəmiyyətə inteqrasiyasının həmin cəmiyyətin inkişafına səbəb olacağını, qadın xoşbəxtliyinin həmin cəmiyyətin inkişafının təməlini təşkil etdiyini, eləcə də Bakı forumunun mədəniyyətlərarası dialoqun inkişafına təkan verəcəyinə əminliyini bildirdi.

Latviyanın birinci xanımı Lilita Zatler mədəniyyətlərarası dialoqda qadınların rolu mövzusunun məhz Bakıda müzakirə edilməsinin onu həddindən artıq sevindirdiyini bildirdi. Məşhur yazıçı Kiplinqin Şərqlə Qərbin heç zaman birləşə bilməyəcəyi barədə fikri ilə razılaşmadığını qeyd edən xanım Zatler, bugünkü tədbirin onun qənaətinə bariz nümunə olduğunu dedi, qadınların sivilizasiyanın mühüm tərkib hissəsi olduğunu, kişilərlə bərabər cəmiyyətin idarə edilməsində onların rolunun artırılmasının vacibliyini vurğuladı.

Latviyanın birinci xanımı qeyd etdi ki, cəmiyyətdə bilikləri və mədəniyyəti məhz qadınlar yayırlar. Müxtəlif dinlərə məxsus insanların, xüsusən də qadınların xoş münasibətinin vacibliyini qeyd edən natiq, tolerantlığın qadınların mahiyyətində olduğunu diqqətə çatdırdı, fikrini ölkəsinin nümunəsində izah etdi.

Bildirdi ki, son 20 ildə Latviyada inkişaf üçün əlverişli şərait vardır və qadınlar cəmiy-

yətdə balansın yaradılmasında mühüm rol oynayırlar.

Cənubi Afrika Respublikasının birinci xanımı Zanele Mbeke Azərbaycan Prezidenti İlham Əliyevə foruma göndərdiyi təbrikə və xoş arzulara görə minnətdarlığını bildirdi.

Azərbaycan paytaxtını sivilizasiyalar arasında körpü, qonaqpərvərlik rəmzi adlandıran xanım Z.Mbeke, artıq tarixi İpək yolunun üzərində yerləşən Bakının zəngin ənənələrə malik olduğunu qeyd etdi, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü çatdırdı.

O, Qərb ilə Afrika arasında fərqlərin yaranmasının səbəblərinin bu qitənin zorla mənimsənilməsindən meydana gəldiyini, lakin cəmiyyətin müsbətə doğru inkişafını nəzərə alaraq zaman keçdikcə bu fərqlərin də aradan qaldırılacağına əminliyini bildirdi. Çünki hazırda sülhün, dialoqun, humanizmin inkişaf etdirilməsi istiqamətində daha real addımlar atılmağa başlanılmışdır.

Xanım Z.Mbeke forum iştirakçılarını daxili zənginliyin artırılmasına, xoş rəftarın və uğurlu işlərin davam etdirilməsinə çağırdı.

Rusiya Federasiyası Federasiya Şurasının sədrinin müavini Svetlana Orlova Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş forumun işinə uğurlar arzuladı, iştirakçıları Federasiya Şurasının sədri Mironovun təbrik məktubunun mətni ilə tanış etdi.

Xanım S.Orlova forumun mövzusunun aktuallığını xüsusi qeyd edərək bunun cəmiyyətdə qadınların rolunu dəyərləndirməyənlərə tutarlı cavab olduğunu vurğuladı. Qadınları ailə ocağının hamisi adlandıran rusiyalı qonaq qeyd etdi ki, qadınların beynəlxalq əlaqələrinin artması öz növbəsində dövlətlərarası və xalqlararası əlaqələrə də mühüm təsir göstərir.

Azərbaycanın, xüsusən onun paytaxtı Bakının son illər sürətlə inkişaf etdiyini, böyük uğurlara imza atdığını xüsusi vurğulayan S.Orlova, dünyaya hər şeydən çox harmoniyanın lazım olduğunu söylədi, bu işdə qadınların üzərinə böyük vəzifələr düşdüyünü, bunun üçün yaxşı anaların sayının artırılmasının vacibliyini bildirdi.

ABŞ-ın Texas ştatının birinci xanımı Anita Perri beynəlxalq Bakı forumunun təhlükəsizliyin artırılması, qadınlara qarşı diskriminasiya ənənələrinə son qoyulması istiqamətində mühüm addım olduğunu söylədi.

A.Perri ABŞ kimi demokratik dəyərlərin inkişaf etdiyi ölkələrdə də qadınların bir sıra problemlərlə üzləşdiyini vurğuladı, insan zorakılığına, ədalətsizliyə qarşı mübarizədə mövcud imkanların birgə təhlilini aparmağın vacibliyini qeyd etdi.

Argentina vitse-prezidentinin xanımı Marta Kristina Çerutti de Kobos qızlara və qadınlara qarşı diskriminasiya hallarının qarşısının alınması məqsədi ilə təhsil sahəsində mövcud imkanları daha da genişləndirməyin zəruri olduğunu söylədi.

Qonaq dedi ki, qadınların cəmiyyətdə, xüsusən təhsil sistemində rolu böyükdür. İntellektual səviyyədə qadınların cəmiyyətdə rolu əvəzedilməzdir. Ən vacib məsələlərdən biri qızların pulsuz təhsillə təmin olunmasıdır.

Forumda çıxış edən ABŞ-ın Con Hopkins Universitetinin professoru Frensis Fukuyama ilk dəfə Bakıda 20 il öncə olduğunu söylədi, budəfəki gəlişində böyük dəyişikliklərin şahidi olduğunu qeyd etdi.

Qlobal tendensiyaların inkişaf etdiyi cəmiyyətdə qadınların rolunun artdığını vurğulayan professor, müxtəlif ölkələrdə qadınlara yanaşmada fərqlərin mövcudluğunu diqqətə çatdırdı.

Bildirdi ki, müasirləşən dünyada artan iqtisadi inkişaf nəticəsində qadınların statusu da dəyişir və bu fərqlər aradan qalxır.

Tarixə ekskurs edən professor Şərqdə qadınların statusunun kişilərin statusundan asılı olduğunu, kişilərin cəmiyyətdəki mövqeyi dəyişdikcə, qadının da mövqeyində fərqlər baş verdiyini söylədi, xüsusən oğul doğan qadınların Şərqdə statusunun yüksək olduğunu, Qərbdə isə qadınların statusunda dəyişikliyin katolik kilsəsinin onlara mülkiyyət hüququ verdikdən sonra meydana gəldiyini bildirdi.

Müasir cəmiyyətdə iqtisadi və texnoloji inkişafın qadınlara da böyük təsir göstərdiyini, ağıl gücünün fiziki gücü getdikcə üstələdiyini qeyd edən natiq, ABŞ-da işçi qüvvəsinin 60 faizinin qadınlardan ibarət olduğunu vurğuladı, bütün dünya üzrə isə bu rəqəmin artıq 50 faizə çatdığını qeyd etdi. Professor vurğuladı ki, cəmiyyətin həyatında qadınların rolunu artırmaq üçün mədəni amillərin inkişafına xüsusi önəm verilməlidir.

Forumun açılış sessiyası başa çatdıqdan sonra tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

***

Fasilədən sonra beynəlxalq forum işini sessiyalarda davam etdirdi.

"İnsan sivilizasiyasının münaqişəsi, yoxsa birliyi?" mövzusundakı sessiyaya Avropa Şurasının sabiq baş katibi, "Sivilizasiyaların Dialoqu" Dünya İctimai Forumunun beynəlxalq əlaqələndirmə komitəsinin sədri Valter Şvimmer sədrlik etmişdir.

Bakı forumunun keçirilməsini yüksək qiymətləndirən V.Şvimmer dedi ki, Azərbaycanın bu foruma ev sahibliyi etməsi onun insan hüquq və azadlıqlarının, eləcə də qadın hüquqlarının qorunmasına verdiyi önəmin xüsusi göstəricisidir. Xanım Mehriban Əliyeva giriş nitqində həlli vacib məsələlərə toxundu. Bu məsələlər əslində təkcə sizi deyil, bütövlükdə Avropanı və dünyanı düşündürən və narahat edən məsələlərdir. Biz çalışacağıq ki, gələcək fəaliyyətimizdə buna xüsusi diqqət yetirək və qaldırılan məsələlərin həllinə nail olaq.

Sonra Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış etdi.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

İcazə verin, bir daha hörmətli qonaqlarımızı salamlayım. Sivilizasiyaların və mədəniyyətlərin dialoqu kimi çox aktual bir problemi qadınların gözü ilə nəzərdən keçirmək və müzakirə etmək üçün dəvətimizi qəbul etmiş hər kəsi burada görməyə çox şadıq.

Heydər Əliyev Fondu ilk dəfə deyil ki, bu mövzuya müraciət edir. Lakin ilk dəfədir ki, demək olar, bütün qitələrin nümayəndələri belə nüfuzlu, yüksək səviyyəli forumda iştirak etmək üçün Bakıya toplaşıblar. Bizimlə burada olduğunuza görə bir daha sizə minnətdarlığımı bildirirəm.

Bu gün bəşəriyyət planetar miqyaslı təhlükələrlə üz-üzə dayanmışdır. Ekoloji fəlakətlər, qlobal iqlim dəyişikliyi, təbii sərvətlərin, həmçinin enerji ehtiyatlarının tükənməsi, qloballaşma problemi, əhalinin sağlamlığı, qidalanması və rifahı məsələləri bizi düşünməyə vadar edir. Müasir inkişafın reallığından kənar sivilizasiyalararası dialoqdan danışmaq, təbii ki, mümkün deyil. Dialoq haqqında danışarkən biz istər-istəməz inkişaf və gerilik, məşğulluq və işsizlik, təhsil və savadsızlıq problemlərinə də toxunuruq.

Düşünürəm ki, müasir dünyanın çağırışları millətlərin qarşılıqlı anlaşmasına həm kömək edir, həm də çətinlik yaradır. Bu gün qarşılaşdığımız qlobal problemlərin mənbəyinin və səbəblərinin təhlili hazırda dünyanın elmi, siyasi və ictimai fikrinin diqqət mərkəzindədir. Şübhə yoxdur ki, alimlərin və ictimai xadimlərin hələ bir neçə nəsli bu problemlərlə məşğul olacaq və bu suallara cavab axtaracaqdır.

Bir şey tamamilə aydındır: bu gün biz keçən əsrin bir çox illüziyalarından uzaqlaşmışıq. Tarix özü və hadisələrin gedişi doqmatik teoriyaları kökündən silkələmişdir. Belə ki, güclü texniki və texnoloji inkişaf tərəqqiyə və kamilliyə xidmət etməklə yanaşı, bəşəriyyətə indiyədək məlum olmayan, tamamilə yeni çağırış və təhlükələr yaratmışdır. Bu, ekoloji və texnogen faciələr, qlobal istiləşmə problemi, enerji təhlükəsizliyi və sairədir.

Gəlin, detallarına, incəliklərinə varmadan yaşadığımız bugünkü dünyaya, reallığa nəzər salaq. Görəsən, sivilizasiyalara, xalqlara və ayrı-ayrı insanlara bir-birini eşitməyə, anlamağa nə mane olur və nə kömək ola bilər? Bu baxımdan, ilk öncə, sizin diqqətinizi belə bir məqama yönəltmək istərdim: biz mədəniyyətlərin və sivilizasiyaların dialoqu haqqında ayrı-ayrı dillərdə danışırıq. Burada "ayrı-ayrı dillər" dedikdə, müxtəlif xarici dilləri nəzərdə tutmuram. Dialoqdan həm alimlər, həm siyasətçilər, həm də ictimai və mədəniyyət xadimləri söz açırlar. Biz sivilizasiyaların dialoqu və ya qarşıdurması ilə bağlı müxtəlif siyasi və elmi doktrinaları müzakirə edirik. Lakin siyasətdən uzaq, adi insanlar bir yana, çox vaxt peşəkarlar belə məsələdə bir-birini anlamaqda, müəyyən konsensusa gəlməkdə çətinlik çəkirlər.

Danılmaz faktdır ki, bu gün dini mənsubiyyətindən və milliyyətindən, siyasi fəallığından və savadlılığından, mədəni inkişafından və rifah səviyyəsindən asılı olmayaraq, hər bir insan bu və ya digər dərəcədə bu məsələ ilə maraqlanır. Hər bir insan istər-istəməz özünə sadə bir sual verir: "Biz hara gedirik? Bizi nə gözləyir?"

Bizim forum bu problemə xüsusi bir prizmadan baxmaq məqsədini güdür. Bu, problemə qadın yanaşması və qadın baxışıdır. Belə hesab edirəm ki, həmin yanaşmanın ən üstün cəhəti ondan ibarətdir ki, o, hamını birləşdirə bilər və hər kəs üçün aydın ola bilər. Səbəbi isə çox sadədir. Axı bu mövqe qadının varlığının mahiyyətini təşkil edən məhəbbətə əsaslanır. Bu, öz övladına, öz yaxınlarına, yer üzündə hər bir varlığa və Tanrıya olan sevgidir. Qadın həyatını ümumən məhəbbətsiz təsəvvür etmək mümkün deyil. Qatı nifrətin, ksenofobiyanın, irqi və dini dözümsüzlüyün qarşısını məhz belə bir sevgi ala bilər.

Mən sizin diqqətinizə bir neçə statistik məlumatı çatdırmaq istərdim. Yalnız keçən il ərzində İraqda gedən hərbi əməliyyatlar nəticəsində 25 min dinc əhali həlak olmuşdur.

Fələstin-İsrail qarşıdurması neçə-neçə qadın və uşağın həyatına son qoyur. Ölkəmizdə baş vermiş Xocalı faciəsi zamanı bir gecə ərzində qadın, uşaq və qocalar daxil olmaqla 600-dən çox mülki şəxs qətlə yetirilmiş, 1200 nəfərdən artıq insan isə yaralanmışdır. Ekspertlərin rəyinə görə, zəruri tədbirlər görülməsə, XXI əsrdə müxtəlif konfliktlər nəticəsində 150 milyondan artıq qadın və uşağın həlak olacağı gözlənilir. Bu, quru statistik rəqəmlərdir və zənnimcə, ən dəhşətlisi odur ki, biz artıq bu faktları dinləməyə, eşitməyə, görməyə alışmışıq. Biz bunları haradasa, kiminsə başına gələn hadisə kimi qəbul edirik. İndi isə konkret bir misal çəkmək istərdim.

Təsəvvür edin ki, hansısa bir qadın öz uşağını qucaqlayıb öpərək onu dostları ilə oynamaq üçün həyətə yola salır. Beş dəqiqə sonra onun mina ilə parçalanmış cansız bədəni üzərində göz yaşlarını axıdır. İnanmıram ki, yer üzündə bu faciəyə laqeyd qalan bir insan tapılar.

Sivilizasiyaların dialoqu problemini hansısa abstrakt bir problem kimi müzakirə etməyin vaxtı artıq çoxdan keçibdir. Aydın təsəvvür etmək lazımdır ki, bu problemin arxasında minlərlə insanın taleyi və həyatı dayanır. Sözsüz ki, ilk növbədə, burada ikili standartlar və yanlış stereotiplər siyasətindən uzaqlaşmaq lazımdır. Eyni zamanda, ümumbəşər sivilizasiyasından danışarkən onun yalnız seçilmiş xalqlar tərəfindən yaradıldığı haqqında düşüncələrə də yol vermək olmaz.

Cəmiyyətdə iqtisadi dəyərlərə meyli gücləndirən və altruizmi zəiflədən qüvvələr hər zaman mövcud olmuşdur. Bugünkü inkişaf mərhələsində bəşəriyyət daha çox mənəvi dirçəlişə təkan verən yeni ideyalara ehtiyac duyur.

Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühitini yaşatmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir. Bu, təkcə tarixin ayrı-ayrı məqamları deyil. Bu il biz yeni katolik məbədi açmışıq. Tarixi əhəmiyyət daşıyan məscid və kilsələrin bərpası ilə yanaşı, yenilərini də tikirik.

Kiçik bir faktı sizin diqqətinizə yetirmək istərdim. Bakıda məşhur pravoslav kafedral kilsəsi bir zamanlar Azərbaycanın neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin ianələri hesabına inşa edilmişdi. Bir neçə il bundan öncə isə həmin kilsə başqa bir azərbaycanlı iş adamının vəsaiti hesabına bərpa olunmuşdur. Bakını Roma Papası II İoann Pavel, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi də ziyarət ediblər. Burada İslam Konfransı Təşkilatına üzv olan ölkələrin bir çox müxtəlif tədbirləri keçirilir. Bu, bir daha sadə bir həqiqəti təsdiq edir.

Bütün dünya dinlərinin bir məqsədi, bir məramı var. Biz Tanrıya müxtəlif cür müraciət edə bilərik, ona müxtəlif dillərdə dua edə bilərik, onun şəninə müxtəlif məbədlər ucalda bilərik. Mahiyyət dəyişməz olaraq qalır. Bizim hamımızın bir Tanrımız var və bu nə qədər də sadə səslənməsə, hər bir dinin əsasını təşkil edən dəyərlər ümumbəşəri dəyərlərlə eynidir. Bu, insanları birləşdirən və barışdıran dəyərlərdir. Belə olduğu halda din-

dən qarşıdurmaların və münaqişələrin yaradılması üçün istifadə olunması dözülməzdir.

Müasir cəmiyyətdə qadın mövqeyindən söhbət açarkən, qeyd etmək lazımdır ki, bu sahədə hər bir ölkənin öz inkişaf yolu, öz konkret xüsusiyyətləri var. Bu gün Azərbaycan cəmiyyətində qadının tutduğu mövqe ilə haqlı olaraq fəxr edirik.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan 1918-ci il İstiqlal Bəyannaməsi ilə qadınlara seçmək və seçilmək hüququ verdi. Xatırladaq ki, bu hüququ Azərbaycan qadınları Avropanın bir neçə ölkəsinin sakinlərindən daha tez almışlar. XX əsrin əvvəllərində təhsil almaq imkanı əldə edən azərbaycanlı qadınlar yalnız orta təhsildə deyil, həm də ali təhsildə gender bərabərliyinə nail oldular.

Bu gün qadınlarımız idarəetmə, hüquq və məhkəmə sistemində təmsil olunur, ölkənin ictimai və siyasi həyatında fəal iştirak edirlər. Onlar ölkə üzrə məktəb müəllimlərinin 71, həkimlərin 61, elmi işçilərin isə 50 faizini təşkil edirlər. Bu yolu Azərbaycan qadını 90 il ərzində keçmişdir. Bütün bunlarla yanaşı, Azərbaycan qadını ailə dəyərlərinin qorunub saxlanması kimi mühüm bir sahədə də öz layiqli töhfəsini vermişdir. Şərq ilə Qərb dəyərlərini özündə birləşdirən Azərbaycan, beləliklə, gender məsələsində də nümunə ola bilər.

Biz qadınları, adətən, iki model ilə üz-üzə qoyurlar. Belə hesab olunur ki, Şərq qadını daha çox ailəyə bağlıdır, Qərb qadını isə cəmiyyətdə yüksək mövqe axtarır. Reallıq isə iki mövqedən də çox-çox uzaqdır. Mən elə hesab edirəm ki, həm Şərq qadını, həm Qərb qadını tarix boyu elə nailiyyətlər əldə edib ki, onlardan biz hamımız faydalana bilərik. Bu yanlış stereotipdən bu məsələdə uzaq olsaq, bu, həm Şərqə, həm də Qərbə kömək edə bilər.

Dünyada bir çox qadın təşkilatları mövcuddur. Onlar bir çox problemləri həll edir, bir sıra aksiyalar həyata keçirir və qadının cəmiyyətdə mövqeyini yaxşılaşdırmağa çalışırlar. Demək olar ki, onlar bir çox nailiyyətlər əldə ediblər. Bu gün, fikrimcə, feminizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun təşkilində əsas yükü öz üzərinə götürməlidir. Mən dünyanın nüfuzlu, böyük təcrübəyə malik olan qadın təşkilatlarını bu sahədə daha fəal olmağa çağırıram.

Bu forumun mənə verdiyi fürsətdən istifadə edərək, bizim dəvətimizi qəbul edib konfransa gəlmiş bütün birinci xanımlara şəxsən müraciət etmək istərdim.

Adətən hər bir ölkənin birinci xanımı öz ölkəsində elmə, mədəniyyətə və təhsilə diqqət yetirir. Birinci xanımların sosial problemlərin həllində göstərdiyi fəallıq bəllidir. Əminəm ki, sizin hər biriniz öz ölkənizdə çoxsaylı layihə həyata keçirir, müxtəlif humanitar təşəbbüslər üçün xeyli güc və enerji sərf edirsiniz. Düşünürəm ki, əgər birinci xanımlar sivilizasiyaların dialoquna dəstək versələr, bu, bir çox müsbət dəyişikliklərə gətirib çıxarar və dialoq probleminin özünü yeni müstəviyə keçirəcəkdir. Ümidvaram ki, Bakı forumu gələcəkdə ənənəvi şəkil almaqla, sivilizasiyaların faydalı dialoqunun formalaşmasına dair hər birimizin öz ideya və məqsədlərimizi həyata keçirmək üçün imkan yarada bilər.

Sonda daha bir aktual problemi sizin diqqətinizə çatdırmaq istərdim. Bu gün insanlar bəzən manipulyasiya obyektinə çevrilir, real hadisələri xəbər reportajlarında təqdim olunduğu kimi qəbul edir. Stereotiplər televiziya ekranlarından, mətbuat səhifələrindən bi-

zim düşüncəmizə təsir edir.

Bu konfransın tribunasından jurnalistlərə, xüsusən qadın jurnalistlərə müraciət etmək istəyirəm. Bu gün dünyada baş verən real hadisələr və bu hadisələrin kütləvi informasiya vasitələrində əksi jurnalistin, televiziya kanalının mövqeyindən və ya hansısa konkret siyasi sifarişdən asılıdır. Hər bir jurnalist ictimai fikirdə hər hansı mənfi obrazların yaradılmasının nə ilə nəticələndiyini çox yaxşı dərk etməlidir. İnsanların dinindən, dilindən və milliyyətindən asılı olmayaraq, onların dini və ya milliyyəti ilə bağlı hisslərini təhqir edən karikatura, məqalə və ya videomaterialın işıq üzü görməsi dözülməz bir haldır. Bu, nə ümumbəşəri əxlaqi dəyərlər sisteminə, nə də jurnalist etikasına uyğun gəlir.

Əziz dostlar!

Əziz qonaqlar!

Qadının gücü, güc mənbəyi ilk baxışdan çox sadə görünən xeyirxahlıq, sevgi və mərhəmət kimi əbədi duyğulardadır. Bu gücün, bu qüvvənin qüdrətini və təsir dairəsini nəzərə almamaq mümkün deyil. Belə bir qüdrətli amilin mədəniyyətlər və sivilizasiyalararası dialoqa layiqli töhfə verməsi bizim özümüzdən asılıdır.

Diqqətinizə görə çox sağ olun.

***

Forumda Avropa mədəniyyətindən danışan Almaniyanın Zigen Universitetinin professoru Eberhard Şnayder bildirdi ki, bu mədəniyyət özündə bir sıra milli mədəniyyətləri ehtiva edir. Şovinist elementlərdən milli maraqlar çərçivəsində istifadə edilməsəydi, bu gün Avropa mədəniyyəti daha çox inkişaf etmiş olardı. Avropa mədəniyyətinin özəl xüsusiyyəti demokratik quruluşların bir-birindən fərqli cəhətləri ilə cəmiyyətə sıx inteqrasiyasıdır. Digər bir xüsusiyyət isə onun xristian mədəniyyətinin daşıyıcısı olmasıdır.

E.Şnayder vurğuladı ki, İslam dininin Qərbdə yayılması Avropa mədəniyyətinin, onun iqtisadiyyatının zəngin formaları ilə əlaqədardır. Bazar iqtisadiyyatı indiki siyasi demokratiyanı əks etdirir. Demokratiya iqtisadi liberallaşmanın əsas şərtidir.

Məlumdur ki, qadınlar dünya tarixinin hər bir dövründə sülhün, əmin-amanlığın təminatçısı olmuşdur. Onlar gələcək nəsillərin maraqlarının müdafiəsi ilə daim məşğuldurlar, ölkələrin və mədəniyyətlərin bir-birini daha yaxşı tanımaları üçün qüvvələrini səfərbər edirlər. Bu baxımdan Beynəlxalq Bakı forumu mühüm əhəmiyyət kəsb edir.

Harvard Universitetinin doktoru, Florida Beynəlxalq Universitetinin dinşünaslıq fakültəsinin islam tədqiqatları üzrə professoru AİŞƏ MUSA beynəlxalq Bakı forumunun yüksək əhəmiyyətini qeyd etmişdir. Qonaq islam dininin yayıldığı ölkələrdə mədəniyyətlərarası əlaqələrin müsbət rolunu vurğuladı, İslam dininin cəmiyyətlərin formalaşmasına təsirini Qurani-Kərimdən sitatlarla diqqətə çatdırdı. Aişə Musa islamda deyildiyi kimi, elmin, təhsilin müsəlman ölkələrinin həyatında öz əksini tapdığını söylədi, insanlara rəğbətin cəmiyyətin sosial inkişafının əsas göstəricisi olduğunu bildirdi.

Birləşmiş Ərəb Əmirliklərinin "Culf News" qəzetinin baş redaktoru Duraid əl-Baikin sədrliyi ilə davam edən ikinci sessiyada əsasən qadınlara cəmiyyətdə hörmət, dünyaya

ehtiram məsələləri müzakirə olunmuşdur.

Rusiya Federasiyası Federasiya Şurası sədrinin müavini Svetlana Orlova dedi ki, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə təşkil olunan bu tədbir mədəniyyətlərarası dialoqun başlanğıcı olmaqla yanaşı, bir sıra ciddi problemlərin həllinə imkan yaradacaqdır. Uzun illər qadınlar siyasi problemlərin, münaqişələrin həllində ciddi rol oynamışlar. Onlar hər hansı bir məsələyə özünəməxsus şəkildə, ciddi yanaşırlar. Qadınlar bu gün də problemlərin həllində fəaldırlar. Bunu qonağı olduğumuz Azərbaycanda Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın timsalında daha aydın görmək olur. Mehriban Əliyeva ölkəsinin daxili və xarici problemlərinin həllinə olduqca həssaslıqla yanaşır. Azərbaycan Prezidentinin, onun xanımının əməyi göz qabağındadır. Onların səyi nəticəsində Azərbaycan qadını bu gün ictimai-siyasi proseslərdə fəal iştirak edir. Çox istərdik ki, digər ölkələrdə də belə olsun. Ümid edirik ki, bu forumdan sonra bir çox dövlətlər öz siyasətlərində dəyişiklik edəcək, qadınların siyasi proseslərdəki rolunun artmasına imkan yaradacaqlar.

Sonra xanım Orlova Rusiyada qadınlara göstərilən diqqət və qayğıdan söz açmış, son vaxtlar ölkəsinin parlamentində uşaq və qadınlarla bağlı 30-dan çox qanun və hüquqi-normativ sənədin qəbul olunduğunu diqqətə çatdırmışdır.

YUNESKO-nun sabiq baş direktoru Amadu-Mahtar Mbou foruma dəvətə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirdi. O dedi ki, qloballaşan dünyada qadınların rolu durmadan artır. Amma insanlar arasındakı qeyri-müəyyənliyin hələ də qalması, gender problemi qloballaşmada ciddi əngəllər yaradır. Bu problemlərin həlli üçün, ilk növbədə, mənəvi dəyərlərə üstünlük verilməlidir. Çünki bu dəyərlər olmadan qadın hüquqlarından danışmaq yersizdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bu forum bizə problemə bir daha ciddi yanaşmağı tövsiyə edir. İndi biz mədəniyyətlərarası dialoqdan danışırıq və bu bizə daha sıx əməkdaşlıq etməyə imkan verir. Məhz mədəniyyətin sayəsində silahlar susur. Ona görə də biz, ilk növbədə, dünyada elmi, təhsili inkişaf etdirməli, tarixi mədəni irsi qoruyub saxlamalıyıq. Bunun üçün yeni layihələr hazırlanmalı, bu layihələrin reallaşmasında qadınlara daha çox imkanlar yaradılmalıdır.

Türkiyənin dövlət naziri Nimet Çubukçu dedi ki, eyni tarixi, mədəni köklərə malik olan Azərbaycan ilə Türkiyə mədəniyyətlərarası dialoqa, dünyada qadınların rolunun artırılmasına eyni həssaslıqla yanaşır. Biz bilirik ki, qloballaşan dünyada qadınlar çox böyük potensiala malikdirlər. Azərbaycan bunu görür, başa düşür və bugünkü tədbir də bunun nümunəsidir. Bu gün Türkiyə də mədəniyyətlərarası dialoqa xüsusi önəm verir. İnanırıq ki, bu cür tədbirlər bizi daha da yaxınlaşdıracaq, əməkdaşlığımızı genişləndirəcək, qadınlara hörmətin artmasında, onların siyasi həyatda, iqtisadiyyatda, problemlərin, münaqişələrin həllində, sülhün bərqərar olmasında rolunu artıracaqdır.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu dünya siyasi proseslər kafedrasının müdiri Marina Lebedeva yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirdi və dedi ki, müəyyən inteqrasiyaya nail olsaq da, Qərb və şərq qadını arasında oxşar və fərqli cəhətlər hələ də qalmaqdadır. Ən başlıcası, hər iki cəmiyyətdə qadınların problemlərlə üzləşməsinə tez-tez rast gəlinir.

Nəzərə alınmalıdır ki, qadının cəmiyyətin gələcəyi olan uşaqlara təsiri çox güclüdür.

Bu baxımdan qadın cəmiyyətin sosial həyatının inkişaf prioritetinin gələcək istiqamətlərini müəyyənləşdirir. Qadınların ailələrdə sosial problemlərlə qarşılaşması müxtəlif ölkələrdə cəmiyyətlərin inkişafından da asılıdır. Qadını dünyada baş verən bütün proseslərə cəlb etməyin vacibliyini vurğulayan qonaq Şərq və Qərb qadını arasında dialoqun yaradılmasının zəruriliyini söylədi və bu baxımdan beynəlxalq Bakı forumunun təşkilini yüksək qiymətləndirdi.

Misirin Ayn Şəms Universitetinin yəhudi dini fəlsəfə və müqayisəli dinşünaslıq üzrə professoru Məhəmməd Havari bir çox Qərb ölkələrində islama qarşı yaranmış mənfi stereotiplərdən danışdı. O, ABŞ-da baş vermiş 11 sentyabr hadisələrinin Qərbdə İslama qarşı ksenofobiyanın yayılması ilə nəticələndiyini söylədi və bu hadisələrin dünyanın Şərq və Qərb cəbhələrinə parçalanmasına təkan verdiyini vurğuladı. Qonaq Qərb cəmiyyətində İslam mədəniyyəti haqqında düzgün olmayan informasiyanın yayılmasından narahatçılığını ifadə etdi. Mətbuatın islam qadınının mənfi obrazda təbliğinin islam mənəviyyatına, islami dəyərlərə zidd olduğunu söylədi və buna qarşı ciddi mübarizə aparmağın vacibliyini bildirdi.

Böyük Britaniya Lordlar Palatasının üzvü Baronessa Udin forumun mədəniyyətlərarası dialoqda mühüm rol oynayacağını söylədi, onun təşkilatçılarına, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya xüsusi minnətdarlıq etdi. Qadınların cəmiyyətdə mövqeyinin möhkəmlənməsi istiqamətində forumda iştirak edən birinci xanımların digər qadınlar üçün nümunə olduğunu vurğulayan xanım Udin Böyük Britaniyada qadınların cəmiyyətin həyatında iştirakının artırılması ilə bağlı görülən tədbirlər haqqında məlumat verdi, bu gün Böyük Britaniya parlamentində qadınların deputatların 20 faizini təşkil etdiyini diqqətə çatdırdı.

Azərbaycan qadınlarının da cəmiyyətin həyatında fəal rol oynadıqlarının şahidi olmasından sevindiyini vurğulayan natiq, bunun sivilizasiyalararası dialoqda önəmli rola malik olduğunu qeyd etdi. Baronessa Udin mədəniyyətlərarası dialoqun müsbət nəticələr verməsi üçün, ilk növbədə, icma quruculuğunda fəallığın artırılmasının vacibliyini qeyd etdi, icmaların inkişafına investisiyaların yönəldilməsinin vacibliyini bildirdi.

Yaponiya Parlamentinin üzvü, professor Akiko Yamanaka forum iştirakçılarının diqqətini müharibələr və münaqişələrə, onların aradan qaldırılmasında qadınların rolunun artırılması məsələlərinə yönəltdi. Bildirdi ki, bu gün demokratik dəyərlər uğrunda mübarizənin getdiyi bir dövrdə heç bir ölkənin öldürmək hüququ ola bilməz.

Münaqişələrin həllində qadınların xüsusi rolunu konkret faktlarla göstərən natiq, müharibə şəraitində yaşayan insanların düşmən yox, qurban olduqlarını bildirdi. Dedi ki, qadınlar bütün hallarda sülhün tərəfində olmalıdırlar, yalnız bu zaman təhlükəsizliyi təmin etmək mümkün olacaqdır.

Sonra müzakirələr oldu, iştirakçılar rəy və təkliflərini bildirdilər.

AZƏRBAYCANIN VƏ POLŞANIN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ

İyunun 10-da "Gülüstan" sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Polşa Prezidentinin xanımı Mariya Kaçinski ilə görüşmüşdür.

Mehriban xanım dəvəti qəbul edib Bakıya gəldiyinə və beynəlxalq forumda iştirak etdiyinə görə qonağa təşəkkürünü bildirdi.

Dəvətə görə bir daha minnətdarlığını bildirən Mariya Kaçinski dedi ki, çox vacib məsələlərin müzakirə olunduğu beynəlxalq Bakı forumu maraqlı və səmərəli keçir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 10-da "Gülüstan" sarayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumda iştirak etmək üçün ölkəmizdə səfərdə olan İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri ilə görüşmüşdür.

Mehriban Əliyeva forumda iştirakına və bu tədbirin təşkilində göstərdiyi böyük dəstəyə görə İSESKO-nun baş direktoruna minnətdarlığını bildirdi.

Yüksək səviyyədə keçən Bakı forumunda maraqlı fikirlərin səsləndiyini, səmimi dialoqların aparıldığını vurğulayan Azərbaycanın birinci xanımı bu tədbirdə dünyanın bütün qitələrindən nümayəndələrin iştirak etdiyini söylədi.

Mehriban xanım Əliyeva əmin olduğunu bildirdi ki, Bakı forumu ənənə halını alacaqdır.

Beynəlxalq forumun yüksək səviyyədə təşkilinə görə Mehriban Əliyevaya minnətdarlıq edən İSESKO-nun baş direktoru xüsusi vurğuladı ki, dünyanın bütün bölgələrindən nümayəndələrin iştirakı forumun yüksək səviyyədə olduğunu bir daha təsdiq etdi.

"MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ BAKI FORUMU İŞİNİ BAŞA ÇATDIRMIŞDIR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum iyunun 11-də işini davam etdirmişdir.

Forumun üçüncü sessiyasına sədrlik edən Qazaxıstan Prezidentinin müşaviri, Ailə Məsələləri və Gender Siyasəti üzrə Milli Komissiyanın sədri xanım Gülşarə Abdıkalıkova belə bir möhtəşəm tədbirin təşkilinə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan hökumətinə, Azərbaycanın birinci xanımı, Heydər Əliyev

Fondunun prezidenti, İSESKO-nun və YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya minnətdarlıq etmişdir.

Xanım G.Abdıkalıkova qadınların dünyada gedən qloballaşma prosesində iştirakı, mövcud problemlərin həllində, münaqişələrin çözülməsində, sülhün, əmin-amanlığın bərqərar olunmasındakı rolunun artırılması baxımından Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bu tədbirin olduqca mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Mərakeş Krallığının mədəniyyət naziri xanım Turiyə Cəbran çıxışında demişdir ki, belə bir tədbirin Azərbaycanda keçirilməsi bu ölkədəki tolerantlığın, insan hüquq və azadlıqlarının müdafiəsinin bariz nümunəsidir.

Mərakeş Krallığının sosial inkişaf naziri xanım Nuşa Skali bildirmişdir ki, mədəniyyətlərarası dialoq dünyada qadınların rolunu artıracaq, demokratik və vətəndaş cəmiyyəti quruculuğunda bərabərliyi təmin edəcəkdir.

Macarıstanın Təhsil və Mədəniyyət Nazirliyinin beynəlxalq məsələlər üzrə dövlət katibi Katalin Bogyay Azərbaycan və macar xalqları arasında tarixən mövcud olan mədəni əlaqələrdən danışmış, forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya minnətdarlığını bildirmişdir.

K.Bogyay demişdir ki, Macarıstan hər zaman dilaoq vasitəsilə digər ölkələrlə mədəni mübadiləyə öz töhfəsini verməyə çalışmışdır. Mədəni diplomatiya cəmiyyətin özəyini təşkil edir. Bu mənada mədəniyyətlərarası dialoqun daha da yayılması üçün səyləri birləşdimək lazımdır.

Yaponiyanın Şizuoka Prefektura Universitetinin professoru Yoko Hirosi müasir dünyadakı problemlərdən danışmış, onların həllində qadınların rolunu qeyd etmişdir.

Rusiya Elmlər Akademiyası Sosiologiya İnstitutunun ailə və gender məsələləri şöbəsinin müdiri Tatyana Qurko demişdir ki, Qərbdə baş verən hadisələr nəticəsində yaranan ailə böhranı bəzi dəyərlərin itirilməsi ilə nəticələnir. Qloballaşma prosesi də ailə məsələlərindən yan keçməmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən beynəlxalq forum həm bu, həm də digər problemlərin həllində mühüm rol oynayacaq, qadınların rolunun artmasına təkan verəcəkdir.

Böyük Britaniyada nəşr olunan "Şərq Maqazin" jurnalının baş redaktoru Rim Məğribi isə bildirmişdir ki, qadınlar hər zaman mədəniyyətlərarası dialoqda mühüm rol oynamışlar. Lakin tarixən formalaşmış stereotiplər əsasında hərəkət qadınların ailədə davranışına mənfi təsir göstərir. Bu cür tədbirlər mənfi baxışları dəyidirəcəkdir.

Amsterdam Universitetinin Avropa tədqiqatları üzrə professoru Kornelia Verteg sosial həyatda qadınların və kişilərin arasındakı qeyri bərabərlikdən danışmış, bu sahədəki Avropa təcrübəsindən bəhs etmişdir.

Sonra mövzu ətrafında müzakirələr aparılmış, iştirakçılar rəy və təkliflərini bildirmişlər.

***

Belçika Senatının üzvü xanım Anna-Mari Lizinin sədrliyi ilə keçirilən dördüncü sessiyada "Şərq və Qərb: Biz bir-birimizi necə görürük" mövzusunda müzakirələr olmuşdur.

Sədr demişdir ki, Avropada ən böyük problemlərdən biri qadın miqrantların statusu və qızların nikah məsələləri ilə bağlıdır. Bu cür hallar cəmiyyətdə bərabərsizliyə, qadın hüquqlarının pozulmasına münbit şərait yaradır. Cəmiyyətdə mənfi stereotiplər formalaşdıran belə halların qarşısının alınması məqsədi ilə vahid strategiya hazırlanmalıdır.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru xanım İrina Kudryaşova təhsil sahəsində çalışan qadınların problemlərinə toxunaraq demişdir ki, siyasi dözümsüzlük, münaqişələr elmə və təhsilə mənfi təsir göstərir. Bunun qarşısını almaq üçün İslam dəyərlərinin sosial həyata göstərdiyi təsir Avropa gənclərinə daha geniş şəkildə öyrədilməlidir. İslam dəyərləri bütün cəmiyyətlərin inkişafının təməlini təşkil edə bilər.

Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin sədri Firəngiz Əlizadə Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərindən danışmış, Şərqdə ilk operanın Azərbaycanda yaradıldığını diqqətə çatdırmışdır. Mədəniyyətlərarası dialoqun Qərb və Şərq musiqisinin sintezinə də müsbət təsir göstərəcəyini bildirmişdir.

İrlandiyanın Dublin Triniti Kollecinin professoru Roland Hil çıxışında demişdir ki, mədəniyyətləri öyrənmək, tədqiq və təbliğ etmək sivilizasiyararası toqquşmanın qarşını almağa kömək edə bilər. Bunun üçün digər xalqların milli ənənələrinin, ədəbiyyatının, maddi mədəniyyət nümunələrinin öyrənilməsi çox vacibdir. Ümid edirik ki, bu forum sivilizasiyalararası dilaloqu daha da inkişaf etdirəcəkdir.

ABŞ-ın Corctaun Universitetinin Avrasiya, Rusiya və Şərqi Avropa Tədqiqatları Mərkəzinin direktoru xanım Ancela Stent Bakıda ikinci dəfə olduğunu bildirmiş, ötən müddət ərzində baş vermiş dəyişiklikləri, sürətli inkişafı yüksək qiymətləndirmişdir. O, qadınların sülhə necə nail olunması istiqamətindəki fəaliyyətinə dair tədqiqatlar aparıldığını qeyd etmiş və qadınların müxtəlif dövlət vəzifələrində çalışmalarının mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Almaniyalı qrafinya Anna Beatriça Şlik demişdir ki, bu forum beynəlxalq aləmdə Azərbaycanın imicinin daha da yüksəlməsinə təsir göstərəcəkdir. Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin inkişafına xüsusi diqqət və qayğı göstərir və biz hamımız onunla qürur duyuruq. Çox böyük səbir, dözümlülük tələb edən işlərdə Mehriban xanımın səyləri alqışlara layiqdir. Məhz onun səyləri nəticəsində mədəniyyətlərarası dialoqda bir sıra vacib işlər görülmüşdür.

Azərbaycanın çox düzgün yolda olduğunu vurğulayan qrafinya demişdir ki, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan dialoqun mərkəzinə çevrilə bilər. Bu da digər ölkələr üçün örnək olmalıdır.

Sonra mövzu ətrafında müzakirələr olmuş, iştirakçılar rəy və təkliflərini bildirmişlər.

***

Fasilədən sonra beynəlxalq forumun sessiyalarında məruzəçilərin hesabatları dinlənilmişdir.

Sonra Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış etmişdir. O demişdir ki, ikinci forum 2010-cu ildə yenə də Bakıda keçiriləcəkdir. Forumla əlaqədar jurnal nəşr olunacaqdır.

H.Hüseynova məlumat vermişdir ki, forumun Bakı Bəyannaməsi tədbir iştirakçılarının rəy və təklifləri əsasında yenidən işlənmiş və təkmilləşdirilmişdir.

Beynəlxalq forumun yekun sənədi - Bakı Bəyannaməsi qəbul olunmuşdur.

Bəyannamədə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın qadınların sivilizasiyalararası dialoqa töhfəsinə həsr olunan forumu keçirmək təşəbbüsü alqışlanır. Bildirilir ki, Bakı forumu İnsan Hüquqları üzrə Dünya Bəyannaməsinin 60-cı ildönümünə təsadüf edir. Bu da insan hüquqları, mədəniyyət müxtəlifliyi, mədəniyyətlərarası dialoq və gender bərabərliyi arasında əlaqə yaratmaq haqda düşünməyə imkan verir. Bəyannamədə dünya dövlətləri münaqişələrin həllində və sülhməramlı proseslərdə qərarların qəbulunda qadınların iştirakının artırılmasına çağırılır.

Sənəddə bir daha Heydər Əliyev Fondu, YUNESKO və İSESKO-ya forumun təşkilinə görə minnətdarlıq bildirilir.

Tədbirin yekun sessiyasında çıxış edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri MEHRİBAN ƏLİYEVA dedi:

- Xanımlar və cənablar, hörmətli dostlar.

Bu gün bizim bir çox çıxışlarımız və maraqlı müzakirələrimiz oldu. Forum iştirakçıları olduqca aktual və mühüm məsələlələrə toxundular. Burada qaldırılmış suallar, müxtəlif vaxtlarda qaldırılmış suallardır ki, bu da dialoqla bağlıdır. Bizim seçimimiz dialoqdur. Bizim seçimimiz dözümlülük və hörmətdir. Bizim seçimimiz müxtəliflikdir və qəlblərin, insanların, dinlərin müxtəlifliyidir. Biz ona çalışmalı deyilik ki, hamıya dünyada bir gözlə baxaq. Biz müxtəlifliyi yüksək qiymətləndiririk və çalışırıq onu zənginləşdirək.

Bu iki gün ərzində biz bir-birimizi dinlədik, bir-birimizi daha yaxşı tanıdıq, biz öz fikirlərimizi hörmət və anlaşma ilə bölüşdük. Bu, birgəyaşamanın kiçik bir nümunəsidir və biz istəyirik ki, bu nümunə bütün dünyanın digər yerlərində təşəkkül tapsın.

Ümid edirəm ki, bizim forumumuz müxtəlif mədəniyyətlər və xalqlar arasındakı dialoqa töhfə verəcəkdir və əminəm ki, biz birgə səylərimizlə bu işi gələcəkdə də davam etdirəcəyik.

Mən öz səmimi təşəkkürümü Anqola, Latviya, Polşa, Cənubi Afrika Respublikasının birinci xanımlarına, Türkiyənin Baş nazirinin xanımına və eyni zamanda Texas ştatının birinci xanımına, Rusiya Federasiyası Federasiya Şurasının vitse-spikerinə bildirirəm. Eyni zamanda biz YUNESKO və İSESKO-ya da minnətdarlığımızı bildiririk və hökumət rəsmilərinə bir daha təşəkkür edirəm.

Biz məşhur alimlərə və qeyri-hökumət təşkilatlarının və mətbuatın təmsilçilərinə, nümayəndələrə dərin minnətdarlığımızı bildiririk ki, onlar bu tədbiri mümkün etmişlər və təşkilatçılıq işini yerinə yetirmişlər.

Sonra İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycri təmsil etdiyi təşkilat adından forumun yüksək səviyyədə təşkilinə və iştirakçılara göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirdi. Baş direktor dedi ki, beynəlxalq səviyyədə təşkil olunmuş bu forum yeni layihələrin həyata keçirilməsinə təkan verəcəkdir.

Qarşılıqlı anlaşma forumun əvvəlindən axırınadək hiss olunmuşdur.

Natiq bu tədbirin sivilizasiyalar alyansının yaradılmasına təkan verəcəyini xüsusi qeyd etdi və bildirdi ki, İSESKO Bakı Bəyannaməsinin icrasına töhfəsini verəcəkdir. Bizim əsas məqsədimiz sivilizasiyalararası dialoqun yaradılmasıdır.

YUNESKO-nun Mədəniyyət Siyasəti və Mədəniyyətlərarası Dialoq İdarəsinin direktoru xanım Katerina Stenu yekun nəticələr barədə danışdı. O dedi ki, mədəniyyətlərarası dialoq mürəkkəb məsələyə çevrilmişdir. Bu forum dünyada gedən proseslərdə qadınların rolunun artırılması ilə yanaşı, həmin məsələnin də həllinə müsbət təsir göstərəcəkdir. Mədəniyyətlərarası dialoq sivilizasiyalararası dialoqun vacib tərkib hissəsidir. Təhlillər daha da genişləndirilməli, siyasi qanunlar kifayət qədər formalaşmalıdır. XXI əsrdə siyasi sabitlik və müxtəliflikdə, sülhün qorunmasında qadınların rolu artırılmalıdır.

İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu çıxışında bildirdi ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilən bu forum qloballaşan dünyada sivilizasiyalararası dialoqa təkan verəcəkdir.

Bu forum həm də Qərb ilə Şərq arasında əlaqələrin inkişafına, eləcə də əməkdaşlığın dərinləşməsinə geniş imkanlar yaradacaqdır. Azərbaycan öz tolerantlığı, mədəniyyəti ilə digərlərinə nümunədir.

Azərbaycan cəmiyyətində qadınların rolunun böyük olduğunu vurğulayan İKT-nin baş katibi dedi ki, bu amil digər ölkələrə nümunə olmalıdır. Çünki hələ də bəzi ölkələrdə qadınlara qarşı stereotiplər açıq şəkildə qalmaqdadır. Bu da müasir dünya üçün qeyri-adekvatdır.

E.İhsanoğlu bildirdi ki, mədəniyyətlərarası dialoqlarda, eləcə də siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə, münaqişələrin həllində və digər istiqamətlərdə qadınların rolu daha da gücləndirilməlidir.

Natiq qeyd etdi ki, 2005-ci ildə İKT-nin Məkkədə keçirilmiş konfransında qəbul edilmiş Onillik Proqramda İslam dəyərlərinin qorunması və inkişaf etdirilməsi qarşıya əsas məqsəd kimi qoyulmuşdur. Məlumdur ki, İslamda qadınların bərabərhüquqluluğu təsbit olunmuşdur. Biz bu prinsiplərin daha da genişləndirilməsinin tərəfdarıyıq. Beynəlxalq Bakı forumu bu işdə bizə lazımınca kömək göstərmişdir.

Təmsil etdiyi təşkilatın bütün dialoqlara hazır olduğunu bir daha bəyan edən İKT-nin baş katibi dedi ki, insanlar qarşılıqlı anlaşma şəraitində yaşamalıdırlar.

Sonra E.İhsanoğlu İKT-nin müraciətini oxudu.

Müraciətdə, son üç ildə Heydər Əliyev Fondunun Azərbaycanda və xaricdə humanitar sahədə gördüyü işlər xüsusi qeyd olunmuşdur.

E.İhsanoğlu dedi ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın yetim və kimsəsiz uşaqlara, müharibə və təbii fəlakətlərdən zərər çəkmiş insanlara yardım göstərilməsi sahəsində İKT ilə əməkdaşlığı yüksək səviyyədədir.

Sonda Ekmələddin İhsanoğlu Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplomu təqdim etdi.

Mehriban xanım Əliyeva beynəlxalq foruma yekun vuraraq dedi:

- Hörmətli dostlar, mən bir daha onu qeyd etmək istəyirəm ki, biz bu cür vacib məsələlər üzrə əməkdaşlığa, mədəniyyətlərarası dialoqa həmişə hazırıq. Ümid edirəm ki, Bakı Bəyannaməsində qeyd olunduğu kimi, biz 2010-cu ildə bir daha görüşəcəyik. Mən hamımızı bu forumun uğurla başa çatması münasibətilə bir daha təbrik edirəm.

Bununla da "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq Bakı forumu öz işini başa çatdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİVİLİZASİYALARIN DİALOQU" DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASININ KEÇMİŞ BAŞ KATİBİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də "Sivilizasiyaların dialoqu" Dünya İctimai Forumunun Beynəlxalq Əlaqələndirmə Komitəsinin sədri, Avropa Şurasının keçmiş Baş katibi Valter Şvimmeri qəbul etmişdir.

Valter Şvimmer Avropa Şurasının Baş katibi vəzifəsində çalışdığı zaman Prezident İlham Əliyevlə səmərəli görüşlər keçirdiyini vurğulayaraq Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi onun həmin dövrdəki fəaliyyətini yüksək qiymətləndirdi. O, "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumun Azərbaycanda keçirilməsinin mühüm əhəmiyyət daşıdığını vurğuladı. Valter Şvimmer həmçinin səfəri zamanı ölkəmizdə böyük inkişafın şahidi olduğunu da qeyd etdi.

Dövlətimizin başçısı ölkəmizdə bütün sahələr üzrə sürətli inkişafa nail olunduğunu, genişmiqyaslı iqtisadi layihələrin uğurla həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev Bakıda keçirilən beynəlxalq forumun əhəmiyyətindən danışaraq əminliklə qeyd etdi ki, bu cür tədbirlərin keçirilməsi sivilizasiyalararası dialoqa və ölkələrarası əməkdaşlığın inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.

"Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumun əhəmiyyətindən danışan Ekmələddin İhsanoğlu, tədbirin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına və YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığını ifadə etdi. O qeyd etdi ki, bu cür tədbirlərin keçirilməsi mədəniyyətlərarası dialoqda və ölkələrin ictimai həyatında qadınların rolunun daha da artırılması işinə xidmət edəcəkdir.

Dövlətimizin başçısı "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumun ölkəmizdə keçirilməsini YUNESKO və İSESKO kimi nüfuzlu təşkilatların Azərbaycana olan hörmətinin və bu istiqamətdə ölkəmizdə həyata keçirilən işlərə verilən qiymətin əlaməti kimi dəyərləndirdi. Prezident İlham Əliyev bildirdi ki, bu cür mötəbər tədbirlərin keçirilməsi beynəlxalq əməkdaşlığın daha da genişlənməsi işinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ, ÖZƏL SEKTORUN İNKİŞAFI ÜZRƏ İSLAM KORPORASİYASI DİREKTORLAR ŞURASININ SƏDRİ ƏHMƏD MƏHƏMMƏD ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də İslam İnkişaf Bankının prezidenti, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının sədri Əhməd Məhəmməd Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İslam İnkişaf Bankının prezidenti, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının sədri Əhməd Məhəmməd Əli nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. O, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının iclasının təşkilatın mənzil-qərargahının yerləşdiyi Ciddə şəhərində deyil, ilk dəfə olaraq xarici ölkədə, məhz Azərbaycanda keçirilməsini yüksək dəyərləndirdi.

Dövlətimizin başçısı Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Direktorlar Şurasının növbəti iclasının Bakıda keçirilməsini beynəlxalq iqtisadi qurumlar tərəfindən Azərbaycana göstərilən böyük marağın təzahürü kimi qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycanda qeyri-neft sektorunda, özəl sektorda həyata keçirilən genişmiqyaslı işlərdən danışdı və ölkəmizin Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası ilə əməkdaşlığının Azərbaycanda özəl sektorun daha da inkişaf etdirilməsi işinə xidmət etdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İNŞAAT VƏ ŞƏHƏRQURMA NAZİRİ FARUK NAFİZ ÖZAKI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin inşaat və şəhərqurma naziri Faruk Nafiz Özakı qəbul etmişdir.

Faruk Nafiz Özak Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Naxçıvanda keçirilən görüşünü xatırladaraq dedi ki, bu görüş Türkiyədə böyük maraqla qarşılanıb və ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələrinin çox yaxşı nümunəsi hesab oluna bilər.

Dövlətimizin başçısı Baş nazir Rəcəb Tayyib Ərdoğanla Naxçıvanda keçirdiyi görüşün əhəmiyyətindən danışaraq bildirdi ki, həmin görüş Azərbaycan-Türkiyə əlaqələrinin perspektivlərini və müxtəlif sahələr üzrə birgə layihələri müzakirə etmək baxımından olduqca dəyərli idi. Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əminliklə bildirdi ki, qonağın Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Böyük Britaniyanın York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.

QİƏT PM BAŞ ASSAMBLEYANIN 31-Cİ İCLASININ YEKUN SƏNƏDİNDƏ SEPARATİZMƏ QARŞI BMT TŞ-NİN QƏTNAMƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ MÜBARİZƏ APARILMASI MƏSƏLƏSİ ƏKSİNİ TAPMIŞDIR

İyunun 9-dan 11-dək Afinada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinə (QİƏT PM) üzv ölkələrin parlament sədrlərinin sammiti və Baş Assambleyanın 31-ci iclası keçirilmişdir.

Azərbaycanın QİƏT PM-dəki parlament nümayəndə heyətinin rəhbəri, təşkilatın vitse-prezidenti Asəf Hacıyev tədbirin yekunlarına dair iyunun 12-də keçirdiyi brifinqdə demişdir ki, parlament sədrlərinin sammitində Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov çıxış etmişdir. O.Əsədov çıxışında Azərbaycan ilə QİƏT arasındakı əlaqələrin inkişafı, Avropanın enerji təhlükəsizliyi məsələsində Azərbaycanın rolu, Cənubi Qafqaz regionundakı vəziyyət, xüsusən də Ermənistanın Azərbaycana təcavüzü barədə ətraflı məlumat vermişdir.

Sammitdə "QİƏT PM-in yaranmasının 15 illiyi" ilə bağlı bəyannamə qəbul edilmişdir.

Milli Məclisin sədri Oqtay Əsədovun bir sıra ölkələrin parlament sədləri ilə görüşləri də olmuşdur. Bu görüşlərdə ölkələrimiz və qanunverici orqanlar arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılmışdır.

İyunun 10-11-də Baş Assambleyanın 31-ci iclası və komitə iclasları keçirilmişdir. Hüquq və siyasi məsələlər komitəsinin iclasında Azərbaycan nümayəndə heyətinin ciddi səyi nəticəsində Qara dəniz regionunda və Cənubi Qafqazda separatizm və terrorizm məsələləri müzakirə olunmuş, Assambleyanın yekun sənədində separatizmə qarşı BMT

Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun mübarizə aparılması barədə bənd daxil edilmişdir.

A.Hacıyev bildirmişdir ki, Hüquq və Siyasi Məsələlər Komitəsinin ötən ilin sonlarında Yerevanda keçirilmiş iclasında bu məsələnin gündəliyə daxil edilməsi mümkün olmamışdır. Lakin bu iclasda Azərbaycan nümayəndə heyətinin apardığı məqsədyönlü fəaliyyət nəticəsində məsələ öz ədalətli həllini tapmışdır.

Mədəniyyət, elm və təhsil məsələləri komitəsinin iclasında isə regional münaqişələrin mədəni irsə, xalqların mədəni-tarixi abidələrinə vurduğu ziyanla bağlı məsələ müzakirə olunmuşdur.

A.Hacıyevin dediyinə görə, sammit və 31-ci iclas ümumilikdə Azərbaycan üçün çox uğurlu olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKANIN DÖVLƏT NAZİRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ, SABİQ BAŞ NAZİR JAN-LUK DEHAENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Belçikanın dövlət naziri, Avropa Parlamentinin üzvü, sabiq Baş nazir Jan-Luk Dehaeni qəbul etmişdir.

Jan-Luk Dehaen Azərbaycana 1998-ci ildə səfər etdiyini və xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük məmnunluqla xatırladı. Qonaq ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün bu səfərin yaxşı imkan yaratdığını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Belçika arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin Azərbaycan-Avropa Birliyi əməkdaşlığının genişlənməsi baxımından əhəmiyyətini vurğuladı, ölkəmizin Avropa ailəsinə inteqrasiyası ilə bağlı görülən işlərdən danışdı.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN POLŞAYA RƏSMİ SƏFƏRİ

Polşa Respublikası xarici işlər nazirinin dəvəti ilə Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov iyunun 12-13-də Polşaya rəsmi səfər etmişdir.

Səfərin ilk günü nazir E.Məmmədyarov Polşanın xarici işlər naziri Radoslav Sikorski ilə görüşmüşdür. Görüşdə ikitərəfli əməkdaşlıq, regional və beynəlxalq məsələlər müzakirə olunmuşdur. Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Polşanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqeyini yüksək qiymətləndirmişdir.

R.Sikorski ölkəsinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyini təkrarlayaraq qeyd etmişdir ki, Polşa münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin tərəfdarıdır və onun bu mövqeyi dəyişməz olaraq qalır.

Azərbaycan rəsmisi iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etmiş, iqtisadi münasibətlərin genişləndirilməsinin vacibliyini bildirmişdir. Beynəlxalq təşkilatlar, xüsusilə də Avropa İttifaqı çərçivəsində qarşılıqlı əməkdaşlığa toxunan nazir

Polşa və İsveç tərəfindən irəli sürülmüş "Şərq tərəfdaşlığı" təşəbbüsündən Azərbaycanın məmnunluğunu ifadə etmiş, hər iki ölkənin həm ikitərəfli, həm də regional və beynəlxalq məsələlərdə mövqelərinin oxşar olduğunu vurğulamışdır.

Azərbaycanın Polşa üçün 10 prioritet ölkədən biri olduğunu qeyd edən R.Sikorski onun Avropa enerji təhlükəsizliyində vacib rol oynadığını qeyd etmişdir. Polşanın Azərbaycanla həm ikitərəfli, həm də Vişeqrad+GUAM, eləcə də Vişeqrad+Azərbaycan formatında əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirən polşalı nazir, ölkəsinin Azərbaycanı digər Avropa İttifaqı (Aİ) ölkələrindən daha yaxşı anladığını söyləmiş, Azərbaycanın Aİ ilə əməkdaşlığının inkişafı üçün səy göstərməyə hazır olduğunu qeyd etmişdir.

Görüşün sonunda nazirlər birgə mətbuat konfransı keçirmişlər.

İyunun 12-də nazir E.Məmmədyarov Polşa Senatının Marşalı Boqdan Boruseviçlə görüşmüşdür. B.Boruseviç Azərbaycan-Polşa münasibətlərinin dinamik inkişafından məmnunluğunu bildirmiş, Azərbaycan Parlamentinin 90 illik yubiley təntənələrində iştirak etmək üçün iyunun 18-də Bakıya səfər edəcəyini diqqətə çatdırmışdır.

Görüşdə enerji sahəsində əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin həlli, iqtisadi və humanitar sahədə əməkdaşlıq, Azərbaycanın beynəlxalq parlament strukturlarına inteqrasiyasında Polşanın rolu və s. məsələlər müzakirə edilmişdir.

Tərəflər qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamaqla yanaşı, iqtisadi-ticari əməkdaşlığın dərinləşdirilməsinə ciddi ehtiyac olduğunu da qeyd etmişlər.

İiyunun 13-də Elmar Məmmədyarovu Polşanın Prezidenti Lex Kaçinski qəbul etmişdir.

Prezident Lex Kaçinski Azərbaycanın Polşanın strateji tərəfdaşı olduğunu qeyd edərək, son iki ildə Prezident İlham Əliyevlə aralarında son dərəcə səmərəli və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın formalaşdığını, enerji təhlükəsizliyi sahəsində Azərbaycanın yalnız Polşa üçün deyil, bütünlükdə Avropa İttifaqına üzv olan ölkələr üçün geniş imkanlar açdığını məmnunluqla qeyd etmişdir. Prezident Lex Kaçinski ötən ilin mayında Krakovda başlanan enerji əməkdaşlığının Vilnüs və Kiyevdən sonra Bakıda davam etdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Polşa dövlətinin başçısına çatdıran nazir E.Məmmədyarov, Azərbaycan-Polşa münasibətlərinin intensiv inkişafının Azərbaycanın Avropa ilə daha sıx inteqrasiyası baxımından qarşısına qoyduğu məqsədlərə tam cavab verdiyini diqqətə çatdırmışdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, regional əməkdaşlıq, beynəlxalq təhdid və risklərə qarşı birgə mübarizə, enerji dialoqu və s. qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarov Polşa Seyminin sədrinin müavini Y.Kalinovski ilə görüşmüşdür.

Y.Kalinovski Azərbaycan-Polşa əlaqələrinin bütün sahələrdə sürətlə inkişaf etdiyini, hazırda Polşa Seymində Polşa-Azərbaycan dostluq qrupunun fəaliyyət göstərdiyini, beynəlxalq parlament qurumlarında ölkələrimizin qanunvericilik orqanları üzvlərinin səmərəli əməkdaşlıq etdiklərini diqqətə çatdırmışdır.

Görüşdə Polşa ilə Azərbaycan arasında əməkdaşlıq baxımından daha böyük imkanların olduğu vurğulanmış, konkret sahələrdə işbirliyinin həyata keçirilməsi üçün hər iki tərəfin hazır olduğu qeyd edilmişdir.

Nazir E.Məmmədyarov son illərdə Azərbaycanda həyata keçirilən irimiqyaslı islahatlar barədə məlumat verərək, Azərbaycanın yalnız enerji sahəsində deyil, digər sahələrdə də Polşa və Avropa İttifaqı üzvü olan digər ölkələrlə hərtərəfli əməkdaşlığa hazır olduğunu bildirmişdir.

Polşaya rəsmi səfərini başa çatdıran xarici işlər naziri E.Məmmədyarov həmin gün Vətənə dönmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN RƏHBƏRİ FREDERİK STARRI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Amerika Birləşmiş Ştatlarının Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun rəhbəri Frederik Starrı qəbul etmişdir.

Görüşdə Azərbaycanda gedən inkişaf prosesləri, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Səudiyyə Ərəbistanının mədəniyyət və informasiya naziri İyad ibn Əmin Əl-Mədəni qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Mədəniyyət sahəsində əməkdaşlığın vacibliyinə toxunan Prezident İlham Əliyev Azərbaycanda Səudiyyə Ərəbistanı mədəniyyəti günlərinin keçirilməsinin bu sahədə əlaqələrimizin daha da genişlənməsi işində əhəmiyyətli rol oynayacağını vurğuladı və bu tədbirin xalqımızda Səudiyyə Ərəbistanının tarixi, mədəniyyəti barədə geniş məlumat yaradacağını qeyd etdi. Dövlətimizin başçısı qonağın ölkəmizə bu səfərinin ümumi əlaqələrimizin genişlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

İyad ibn Əmin Əl-Mədən Azərbaycana səfərinin ilk dəqiqələrindən ölkəmizdə, Bakı şəhərində çox böyük inkişafın şahidi olduğunu vurğuladı. O, bu səfərin əhəmiyyətindən danışaraq, ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın genişlənməsi üçün böyük perspektivlərin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ JAN-LUİ DÜMONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Fransa-Azərbaycan dostluq qrupunun sədri Jan-Lui Dümonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Fransa-Azərbaycan dostluq qrupu nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə daha yaxından tanış olmaq üçün qonaqlarda yaxşı imkan yaradacağını bildirdi. Nümayəndə heyətinin iştirak edəcəyi Azərbaycan Parlamentinin 90 illik yubiley tədbirinə toxunan Prezident İlham Əliyev ölkəmizin müstəqillik tarixindən danışdı və hazırda Azərbaycanın bütün sahələrdə böyük inkişafa nail olduğunu vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi və Fransa-Azərbaycan dostluq qrupunun əməkdaşlığımızın daha da genişlənməsi işində öz səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.

Nümayəndə heyətinin başçısı Jan-Lui Dümon dostluq qrupunun bu tərkibdə Azərbaycana ilk dəfə səfər etməsindən məmnunluğunu bildirdi. O, ölkəmizin siyasi, iqtisadi və enerji sahələrini əhatə edən bir sıra qurumları ilə səmərəli görüşlər keçirdiyini dedi, Azərbaycanın hərtərəfli inkişafı, o cümlədən demokratiyanın təmin olunması istiqamətində böyük işlərin görüldüyünü vurğuladı. Jan-Lui Dümon nümayəndə heyətinin ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ SEYİD PƏRVİZ FƏTTAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də İran İslam Respublikasının energetika naziri Seyid Pərviz Fəttahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İran İslam Respublikasına sonuncu səfərini məmnunluqla xatırladı və bu səfər zamanı keçirilən görüşlərdən ötən dövr ərzində ölkələrimiz arasında iqtisadi sahədə, o cümlədən energetika sahəsində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev İranın energetika nazirinin ölkəmizə bu səfərinin də energetika sahəsində əməkdaşlığımızın daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Seyid Pərviz Fəttah İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində aparılan müzakirələrə toxunaraq, bu baxımdan Azərbaycana səfərinin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ KÖKSAL TOPTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dost və qardaş ölkə olan Azərbaycanla Türkiyə arasında əlaqələrin bütün sahələrdə uğurla və sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında elə bir sahə yoxdur ki orada işbirliyi olmasın. İkitərəfli münasibətlərimizdə parlamentlərarası əlaqələrin böyük əhəmiyyət daşıdığını vurğulayan dövlət başçısı qeyd etdi ki, hər iki ölkə parlamentləri istər beynəlxalq təşkilatlar çərçivəsində, istərsə də ikitərəfli formatda çox sıx əməkdaşlıq edir. Parlament nümayəndələrinin qarşılıqlı səfərləri və keçirilən vaxtaşırı görüşlər isə bu əlaqələri daha da möhkəmləndirir. Türkiyə Böyük Millət Məclisi nümayəndələrinin Azərbaycan Parlamentinin 90 illik yubiley tədbirlərində iştirak etməsinin önəmini qeyd edən Prezident İlham Əliyev bu səfərin həm də qonaqlara ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacağını dedi. Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

Qardaş və dost Azərbaycana ilk dəfə səfər etməsindən böyük məmnunluq hissi keçirdiyini deyən Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan bildirdi ki, biz, həqiqətən, xalqımızın ümummilli lideri, böyük öndər Heydər Əliyevin dediyi kimi, "bir millət, iki dövlətik" və Azərbaycanda özümüzü vətəndəki kimi hiss edirik. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində də uğurla inkişaf etdiyini dedi. Ölkəmizə səfəri zamanı Azərbaycan Parlamentinin 90 illik yubiley tədbirlərində iştirak edəcəklərini qeyd edən Köksal Toptan səfər zamanı keçirilən görüşlərin ikitərəfli münasibətlərin daha da genişlənməsi baxımından önəmli olduğunu vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ARTUR RASİZADƏ TATARISTANDA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə iyunun 17-18-də Rusiya Federasiyasının Tatarıstan Respublikasında rəsmi səfərdə olmuşdur.

Kazan hava limanında Azərbaycan hökumətinin başçısını Tatarıstan Respublikasının Baş naziri Rüstəm Minnixanov və digər rəsmi şəxslər qarşılamışlar. Tərəflər arasında qısa protokol görüşü olmuşdur.

Hava limanında jurnalistlərə müsahibə verən Azərbaycan hökumətinin başçısı Artur Rasizadə demişdir ki, Tatarıstanın Baş nazirinin dəvəti ilə həyata keçirilən səfər çərçivəsində iqtisadi, ticarət, mədəni, sosial və digər sahələrdə əlaqələrin inkişafına dair məsləhətləşmələr aparılacaqdır. Artur Rasizadə Azərbaycan ilə Tatarıstan arasında əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulamışdır.

Səfərin ilk günü Tatarıstanın Nazirlər Kabinetində Azərbaycanın Baş naziri Artur Rasizadənin və Tatarıstanın Baş naziri Rüstəm Minnixanovun iştirakı ilə Tatarıstanın nazirlikləri, komitələri və aparıcı şirkətlərinin təqdimatı olmuşdur.

Rüstəm Minnixanov Azərbaycan ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğulamış, Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin bu səfərinin münasibətlərimizin daha da genişlənməsində mühüm rol oynayacağını bildirmişdir. O demişdir ki, ticarət dövriyyəmiz 2008-ci ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 45 faiz artmışdır. Tatarıstan Cənubi Qafqazda ən etibarlı tərəfdaşı olan Azərbaycan ilə münasibətlərin daha da genişlənməsində maraqlıdır və bunun üçün əlindən gələni etməyə hazırdır.

R.Minnixanov Azərbaycanın dinamik inkişafının Tatarıstanda böyük maraqla izləndiyini bildirmiş və müstəqil Azərbaycanın əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmişdir.

Baş nazir Artur Rasizadə Tatarıstanda 30 il əvvəl olduğunu və ötən müddət ərzində respublikanın yüksək inkişaf yolu keçdiyini bildirmişdir. A.Rasizadə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirmiş, Federasiyanın ayrı-ayrı bölgələri və subyektləri ilə əlaqələrin inkişaf etdirilməsinin hər iki tərəf üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

A.Rasizadə ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanı sürətli inkişaf yoluna çıxaran neft strategiyasının uğurlarından, həyata keçirilən iqtisadi islahatlardan və əldə olunmuş nailiyyətlərdən danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermişdir. Baş nazir A.Rasizadə demişdir ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan çox azərbaycanlı öz vətənində qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın qeyri-konstruktiv mövqeyi üzündən münaqişə hələ də öz ədalətli həllini tapmamışdır. Baş nazir Azərbaycan dövlətinin məcburi köçkünlərin problemlərini daim diqqətdə saxladığını, neft gəlirləri hesabına onlar üçün müasir tipli qəsəbələr salındığını, çadır düşərgələrinin tam ləğv edildiyini bildirmişdir.

A.Rasizadə demişdir ki, Azərbaycanda həyata keçirilən neft strategiyası böyük uğurlar gətirir. Son illər ölkədə ümumi daxili məhsul istehsalının həcmi, əhalinin pul gəlirləri dəfələrlə artmışdır. Ölkədə çox əlverişli investisiya mühiti vardır. Bu da iqtisadiyyatın digər sahələrinin inkişafı üçün geniş imkanlar yaradır. Ümid edirəm ki, Azərbaycanın və Tatarıstanın aparıcı şirkətlərinin qarşılıqlı əməkdaşlığı hər iki tərəf üçün faydalı olacaqdır.

Sonra Tatarıstanın iqtisadiyyat naziri Marat Safiullin, tikinti, arxitektura və mənzil-kommunal təsərrüfatı naziri Marat Xusnullin, Kiçik və Orta Biznes Komitəsinin sədri Timur Şakivalyev, maşınqayırma, neft-kimya, qaz-turbin avadanlığı istehsalı şirkətlərinin, "KamAZ" Səhmdar Cəmiyyətinin, Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin rəsmiləri çıxış edərək, Tatarıstanda neft, neft-kimya, maşınqayırma, gəmiqayırma, cihazqayırma, məişət texnikası istehsalı, mənzil tikintisi və digər sahələrdə əldə olunmuş uğurlardan danışmışlar. Bildirilmişdir ki, əhalisinin sayı 4 milyona yaxın olan Tatarıstan son illər sürətlə inkişaf etməyə başlamışdır. 2007-ci ildə respublikada ümumi daxili məhsul istehsalının həcmi 7 faizdən çox olmuşdur. Ötən il Tatarıstanda 5 milyon tondan çox taxıl istehsal olunmuşdur. Hazırda Tatarıstanda ildə 30 milyon ton neft çıxarılır, yerli neft emalı zavodunda hər il 7 milyon ton məhsul hazırlanır.

Keçən il respublikanın iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox xarici, 200 milyard rubla yaxın yerli investisiya qoyulmuşdur. Daxili investisiyanın 121 milyard rubldan çoxu özəl sektorun payına düşmüşdür. Gələn il infrastrukturun yenidən qurulmasına, təhsilin, kənd təsərrüfatının, əhalinin mənzil problemlərinin həllinə, neft, neft-kimya, maşınqayırma, gəmiqayırma, avtomobil sənayesi, məişət texnikası istehsalı sahələrinə qoyulacaq sərmayələrin həcmi əsaslı surətdə artırılacaqdır.

Sonra Azərbaycanın Baş naziri Artur Rasizadə Kazan vertolyot zavodunda olmuşdur. Azərbaycan hökumətinin başçısı zavodun ayrı-ayrı sexləri ilə tanış olmuş, müəssisənin istehsal gücü, hazır məhsulların təyinatı ilə maraqlanmışdır.

Azərbaycanın Baş nazirinə məlumat verilmişdir ki, zavodda müxtəlif təyinatlı, o cümlədən səhiyyədə, idman yarışlarında, mülki aviasiyada, yükdaşımada, eləcə də müdafiə sahəsində istifadə edilən vertolyotlar istehsal olunur. Zavodun məhsullarına dünyada böyük maraq vardır.

Sonra müxtəlif təyinatlı vertolyotlar havaya qalxmış, Azərbaycanın Baş naziri onların uçuşunu, yükgötürmə, manevretmə qabiliyyətini izləmişdir.

Həmin gün Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Tatarıstan Respublikasının Prezidenti Mintimer Şaymiyev ilə görüşmüşdür.

Tatarıstan Prezidenti 1996-cı ildə Azərbaycana ilk rəsmi səfərini, ümummilli liderimiz Heydər Əliyev ilə görüşlərini xatırlamış, ulu öndərin Azərbaycan xalqı, eləcə də türk xalqları qarşısındakı xidmətlərini yüksək qiymətləndirmişdir. Tatarıstanın dövlət başçısı demişdir ki, Azərbaycanın inkişafının 30 ildən çox bir dövrü, müstəqilliyinin dönməzliyi və sürətli tərəqqisi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirməsi nəticəsində indi Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünya birliyində söz və nüfuz sahibinə çevrilmişdir.

Mintimer Şaymiyev Azərbaycan ilə Tatarıstan arasında əlaqələrin mövcud səviyyəsindən razılığını ifadə etmiş, münasibətlərimizin daha da inkişafında maraqlı olduğunu bildirmiş, demişdir ki, qarşılıqlı səfərlər zamanı imzalanmış sənədlər əməkdaşlığımızın hərtərəfli irəliləməsi üçün hüquqi baza yaratmışdır.

Tatarıstan Respublikasının başçısı Azərbaycan Baş nazirinin bu səfərindən sonra əlaqələrin inkişafında yeni mərhələ açılacağına ümidvar olduğunu bildirmişdir.

M.Şaymiyev Azərbaycanda olduğu zaman məcburi köçkünlərlə görüşdüyünü, yurd-yuvalarından didərgin düşmüş insanların necə ağır, dözülməz şəraitdə yaşadıqlarının şahidi olduğunu bildirmiş, Azərbaycan dövlətinin və hökumətinin qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində atdığı addımları yüksək qiymətləndirmişdir.

Baş nazir Artur Rasizadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını M.Şaymiyevə çatdırmış və demişdir ki, Tatarıstanda gedən quruculuq işləri, qazanılan nailiyyətlər Azərbaycanda maraqla izlənilir.

Artur Rasizadə ölkəmizin iqtisadi inkişafı, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələr, neft strategiyasının uğurları, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin əhəmiyyəti, Bakı-Tbilisi-Qars dəmir yolu, "Nabukko" layihələrinin perspektivləri, ölkəmizdəki əlverişli biznes mühiti barədə ətraflı məlumat vermişdir.

Görüşdə qida sənayesi, kənd təsərrüfatı, nəqliyyat, gəmiqayırma, məişət texnikası istehsalı, neft-kimya sənayesi, energetika, ekologiya və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, iş adamlarının, şirkət və müəssisə rəhbərlərinin qarşılıqlı səfərlərinin intensivləşdirilməsi, qarşılıqlı sərmayə qoyuluşu və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Sonda mətbuat konfransı keçirilmiş, jurnalistləri maraqlandıran suallar cavablandırılmışdır.

Həmin gün Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında iqtisadi-ticarət, elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyanın ikinci iclası olmuşdur.

Tatarıstan Baş nazirinin müavini - mədəniyyət naziri Zilya Valeyeva iclası açaraq, respublikalarımız arasındakı iqtisadi-ticarət əlaqələrinin inkişaf dinamikasından danışmış, ticarət dövriyyəsinin nəzərəçarpacaq dərəcədə artdığını bildirmişdir. O demişdir ki, birgə komissiyanın birinci iclasından sonra Azərbaycanın və Tatarıstanın ayrı-ayrı təsərrüfat subyektləri, şirkətləri arasında birbaşa əlaqələr yaradılmış, 2007-ci ildə ticarət dövriyyəsinin həcmi 66 milyon ABŞ dollarına çatmışdır. Cari ilin birinci yarısında ticarət dövriyyəsi 2007-ci ilin müvafiq dövrü ilə müqayisədə 45 faiz artmışdır. Azərbaycandan idxal edilən məhsulların həcmi də artmış, 6 ayda Azərbaycandan Tatarıstana 2,5 milyon dollarlıq məhsul gətirilmişdir.

Azərbaycan Respublikası tərəfdən komissiyanın həmsədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirmiş və demişdir ki, dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2007-ci ilin noyabrında komissiyanın Azərbaycan tərəfdən tərkibi yeniləşmişdir.

Y.Eyyubov bildirmişdir ki, bu gün Azərbaycan ilə Tatarıstan arasında iqtisadi-ticarət dövriyyəsinin artırılması üçün geniş imkanlar vardır. Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin rəhbərlik etdiyi nümayəndə heyətinin Tatarıstana bu səfəri əlaqələrimizin inkişafında yeni mərhələ açacaq, əməkdaşlığımız bütün sahələri əhatə edəcəkdir.

Sonra komissiyanın iclasında iqtisadi-ticarət, elmi-texniki, mədəni və digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə dair müvafiq vəzifələr müzakirə olunmuş, hər iki tərəfin iş adamları üçün tövsiyələr hazırlamışdır.

İclasın sonunda protokollar imzalanmış, komissiyanın növbəti iclasının 2009-cu ildə Bakıda keçirilməsi qərara alınmışdır.

İyunun 18-də Azərbaycanın Baş naziri Artur Rasizadə Kazan şəhərinin meri İlsur Metşinlə görüşmüşdür. İ.Metşin Kazanda aparılan tikinti-quruculuq işləri, yeni şəhərsalma texnologiyası, köhnə evlərin yenilərı ilə əvəzlənməsi, 2013-cü ildə keçiriləcək beynəl-

xalq universiadaya hazırlıqla bağlı məlumat vermişdir. Bildirilmişdir ki, olduqca əlverişli coğrafi şəraitdə yerləşən Kazan şəhərində hazırda 1 milyon əhali yaşayır, onların 35 faizini gənclər təşkil edir. Avtomobil, su, hava yollarının kəsişməsində yerləşməsi şəhərin əhəmiyyətini daha da artırır. Regionda ən iri Qul-Şərif məscidi də Kazanda yerləşir. Bundan başqa, şəhərdə 23 məscid, 16 xristian, katolik kilsəsi, kirxa, yəhudi sinoqoqu vardır. Şəhərdə çoxlu diaspor təşkilatları, o cümlədən Azərbaycan diasporu fəaliyyət göstərir. Azərbaycanlılar şəhərsalma, sənaye istehsalı və digər sahələrdə çox fəaldırlar. Kazan 2013-cü ildə keçiriləcək beynəlxalq universiadaya ciddi hazırlaşır. Bu məqsədlə 50 milyard avro vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

Azərbaycanın Baş naziri Artur Rasizadə Kazan şəhərinin inkişafı ilə bağlı görülən işləri yüksək qiymətləndirmiş, Azərbaycanda da Tatarıstandan gələn iş adamları, ölkəmizdə yaşayan tatarlar və digər millətlərin nümayəndələri üçün bərabər imkanlar yaradıldığını, etnik rəngarəngliyin respublikamızın ən dəyərli sərvətlərindən biri olduğunu bildirmişdir.

Sonra Azərbaycan Respublikasının Baş naziri Kazan şəhərinin qədim tarixi abidələri ilə tanış olmuş, Kazan Kremlini gəzmiş, Qul-Şərif məscidinə, eləcə də məscid ilə üzbəüz yerləşən qədim kilsəyə baş çəkmişdir.

Daha sonra Baş nazir Artur Rasizadə Kazandakı yüksək texnologiyalı tibbi-tədris mərkəzində olmuşdur. Tatarıstanın səhiyyə naziri mərkəzin fəaliyyəti barədə Azərbaycan hökumətinin başçısına məlumat vermişdir. Bildirilmişdir ki, müasir texnoloji avadanlıqla təchiz olunmuş mərkəzdə həkimlər üzrə ixtisasartırma kursları keçirlər. Bu mərkəzi bitirmiş həkimlər ən nüfuzlu xəstəxanalarda işə qəbul olunurlar. Mərkəzdə müxtəlif xəstəliklərin dəqiq diaqnostikası aparılır.

Səfərinin sonunda Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə "Ak-Bars aqro" Aqrarsənaye Kompleksində olmuş, Tatarıstanın ət və süd məhsulları, eləcə də digər kənd təsərrüfatı məhsulları ilə təminatında mühüm rol oynayan kompleksin işi ilə maraqlanmışdır. Azərbaycan hökumətinin başçısına məlumat verilmişdir ki, müasir texnologiya və avadanlıqla təmin olunmuş bu kompleks Rusiya Federasiyasında ən qabaqcıl müəssisələrdəndir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin Tatarıstan Respublikasına rəsmi səfəri iyunun 18-də başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TOTAL" ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Fransanın "Total" şirkətinin kontinental Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Arno Breyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə son illər Azərbaycanda enerji sahəsində qlobal layihələrin uğurla həyata keçirilməsi məmnunluqla vurğulandı. "Total" şirkəti ilə Azərbaycan arasında səmərəli

əməkdaşlığın aparıldığı qeyd olundu və bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYA SENATININ SƏDRİ NİKOLAE VEKEROYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Rumıniya Senatının sədri Nikolae Vekeroyunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı əlaqələrin mövcud olduğunu bildirdi və bu əlaqələrin daim genişləndiyindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Rumıniya Senatının nümayəndə heyətinin Azərbaycana səfərini ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin göstəricisi kimi dəyərləndirdi və bu səfərin həm parlamentlərarası əməkdaşlıq, həm də ümumilikdə ikitərəfli əlaqələrin genişlənməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Rumıniyaya sonuncu səfərini məmnunluqla xatırlayaraq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

Nikolae Vekeroyu ilk dəfə Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə etdi və ölkələrimiz arasında müxtəlif sahələrdə münasibətlərin daim genişləndiyini dedi. Rumıniya Senatının sədri hər iki ölkə parlamentarilərinin Rumıniya-Azərbaycan dostluq əlaqələrinin daha da möhkəmlənməsi istiqamətində səylərinin artırılmasının vacibliyini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA SENATININ SƏDRİ BOQDAN BORUSEVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Polşa Senatının sədri Boqdan Boruseviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Polşaya sonuncu səfərini xatırladı və bu səfərin münasibətlərimizin daha da genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışan dövlətimizin başçısı belə geniş tərkibdə parlament nümayəndə heyətinin ölkəmizə səfərini Polşa tərəfinin Azərbaycan-Polşa əlaqələrinə verdiyi önəmin yaxşı nümunəsi olduğunu qeyd etdi.

Boqdan Boruseviç ölkələrimiz arasında münasibətlərin durmadan inkişaf etdiyini vurğuladı, Azərbaycan Prezidentinin Polşaya uğurlu səfərinin ikitərəfli əlaqələrimizin gələcəkdə daha da genişlənməsi üçün yaxşı əsas yaratdığını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVA PARLAMENTİNİN SƏDRİ MARİAN LUPUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Moldova Parlamentinin sədri Marian Lupunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Marian Lupu Moldova Prezidenti Vladimir Voroninin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Qonaq Azərbaycan Parlamentinin 90 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Moldova Parlamentinin sədri ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini və parlamentlərarası əməkdaşlığın genişləndiyini bildirdi, Moldova ilə Azərbaycan parlamentariləri arasında sıx əməkdaşlığın həyata keçirildiyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan-Moldova ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın mövcud olduğunu bildirdi və ölkələrimizin bir-birinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın bundan sonra da genişlənəcəyinə və münasibətlərimizin daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Moldova Prezidenti Vladimir Voroninin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Moldovanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN SENATININ SƏDRİ QASIM COMƏRD TOKAYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Qazaxıstan Senatının sədri Qasım Comərd Tokayevi qəbul etmişdir.

Qasım Comərd Tokayev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə dinamik surətdə inkişaf etdiyi vurğulandı, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin daha da genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Həmçinin Ali qanunverici orqanların nümayəndələrinin görüşlərinin vacibliyi qeyd olundu və bildirildi ki, Qazaxıstan Senatı sədrinin bu səfəri Azərbaycan-Qazaxıstan münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Qazaxıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD BAKRADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Gürcüstan Parlamentinin sədri David Bakradzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı və parlamentlərarası əməkdaşlığın bu işdəki rolu xüsusi qeyd olundu. Azərbaycanla Gürcüstan arasında dövlət başçıları səviyyəsində keçirilən görüşlərin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və eləcə də birgə iqtisadi layihələrin həyata keçirilməsinin iki ölkə arasında münasibətlərin daha da genişlənməsi işinə töhfə verdiyi qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ VADİM POPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Belarus Nümayəndələr Palatasının sədri Vadim Popovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Belarus Nümayəndələr Palatasının sədri Vadim Popov Belarus Prezidenti Aleksandr Lukaşenkonun və Belarusun Baş naziri Sergey Sidorskinin salamlarını dövlətimizin başçısına çatdırdı. Vadim Popov ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, dövlət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərlərinin əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını qeyd etdi. O, ikitərəfli münasibətlərin hüquqi-normativ bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən danışdı, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev dövlət başçılarının qarşılıqlı səfərlərinə toxunaraq, bu səfərlərin əlaqələrimizin möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı. Dövlətimizin başçısı Belarusa səfərini xatırlayaraq, ötən dövr ərzində əlaqələrin daha da inkişaf etdiyini, ikitərəfli münasibətlərin müxtəlif sahələr üzrə daha da genişləndiyini qeyd etdi. Prezident İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonun və Belarusun Baş naziri Sergey Sidorskinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarusun Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Ombudsmanların VI Bakı Beynəlxalq konfransının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Hörmətli qonaqlar, mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

Bildiyiniz kimi, bu gün Azərbaycanda insan hüquqları günü qeyd edilir. Mən bir il bundan əvvəl insan hüquqları gününün təsis edilməsi haqqında müvafiq Sərəncam imzalamışam. Çox şadam ki, bu gündə Bakıda ombudsmanların, insan hüquqları üzrə müvəkkillərin iştirakı ilə çox vacib beynəlxalq konfrans keçirilir. Mən əminəm ki, müzakirələr çox maraqlı keçir və qəbul edilmiş qərarlar sizin aranızda əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir. Konfransda iştirak edən nümayəndələr bu sahədə böyük təcrübəyə malik olan ölkələri təmsil edirlər. Eyni zamanda o qədər də böyük ənənələrə malik olmayan ölkələr də bu konfransda iştirak edirlər.

Azərbaycanda ombudsman təsisatı altı il bundan əvvəl yaradılmışdır. Biz bu baxımdan inkişafın hələ ki ilkin mərhələsindəyik. Amma deyə bilərəm ki, bu qısa müddət ərzində Azərbaycanda bu sahədə çox böyük işlər görülübdür. Azərbaycan insan hüquqlarını təmin edən müxtəlif beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Biz beynəlxalq təşkilatlarla bu sahədə çox uğurlu əməkdaşlıq edirik. Ancaq eyni zamanda, ombudsman təsisatının yaradılması və insanların bu quruma inamının artması, əlbəttə, Azərbaycanda insan hüquqlarının müdafiə olunmasında çox mühüm rol oynayır. Mən hesab edirəm ki, konfransda səslənən fikirlər və bütövlükdə gedən təcrübə mübadiləsi hər bir iştirakçı üçün çox faydalı olacaqdır.

Biz ölkəmizdə demokratiyanın, insan hüquqlarının inkişafına və qorunmasına çox böyük əhəmiyyət veririk. Azərbaycan gənc, müstəqil dövlət kimi son 17 il ərzində bu sahədə çox böyük işlər görübdür və gələcəkdə də hələ çox işlər görülməlidir. Əlbəttə, çox vacibdir ki, bu sahədə həm beynəlxalq təşkilatlar tərəfindən, eyni zamanda, bu sahə ilə bilavasitə məşğul olan qurumlar tərəfindən vahid meyarlar tətbiq olunsun.

Biz, əlbəttə, gələcək fəaliyyətimizdə də Azərbaycanda həm siyasi, həm iqtisadi, sosial islahatları davam etdirəcəyik, insan hüquqlarının qorunması üçün bütün lazımi tədbirləri görəcəyik. Amma onu da qeyd etmək istəyirəm ki, Azərbaycan əhalisinin kifayət qədər böyük hissəsi bütün insan hüquqlarından məhrum edilibdir. Onların insan hüquqları kobudcasına tapdalanıbdır. Mən Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində öz doğma yerlərindən didərgin düşmüş bizim soydaşlarımız haqqında söhbət açıram.

Bildiyiniz kimi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, eyni zamanda, etnik təmizləmə siyasəti ilə tamamlanmışdır və bir milyon soydaşımız qaçqın-köçkün vəziyyətində yaşayır. Onların əsas və elementar insan hüquqları pozulubdur. Onların yaşadıqları bölgələrdə hər şey dağıdılıb və bütün infrastruktur, binalar yerlə-yeksan edilibdir. İşğal olunmuş ərazilərdə bizim bütün tarixi abidələrimiz dağıdılmışdır. Əfsuslar olsun, baxmayaraq ki, uzun illər danışıqlar gedir, amma heç bir nəticə yoxdur. Biz məsələnin ədalətli şəkildə və beynəlxalq hüquq normaları əsasında həll olunmasının tərəfdarıyıq, bunu tələb edirik. Ümid edirik ki, beynəlxalq ictimaiyyət bu məsələyə daha da diqqətlə yanaşacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və etnik təmizləmə siyasətindən əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Əminəm ki, biz buna nail olsaq, bu bölgədə sülh, əmin-amanlıq tam şəkildə bərqərar olunacaqdır.

Əziz qonaqlar, mən sizi bir daha salamlayıram. Mən əminəm ki, konfrans və onun nəticələri çox müsbət və uğurlu olacaqdır. Sizin aranızdakı münasibətlər daha da güclənəcək və əməkdaşlıq daha da inkişaf edəcəkdir.

YUNESKO-nun İnsan hüquqları və ayrı-seçkiliyə qarşı mübarizə şöbəsinin rəhbəri Sergey Lazarev Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması sahəsində görülən işləri yüksək qiymətləndirərək dedi:

- İş gününüzün gərgin cədvəlinə baxmayaraq, bizimlə görüşməyə vaxt tapdığınıza və həyata keçirəcəyiniz planlar barədə söhbət etdiyinizə görə sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Mən belə hesab edirəm ki, indi iqtidarın hüquq müdafiəçilərini qəbul etməsi faktı çox müsbət haldır. Mən burada YUNESKO-nu təmsil edirəm və bu sahədə bizim də iş təcrübəmiz var. Adətən, iqtidar hüquq müdafiəçilərindən uzaq olmağa çalışır, çünki onlar iqtidarı bezdirir, ona mane olur, onu narahat edirlər. Eyni zamanda, onlarsız da ötüşmək mümkün deyil, çünki insanları daha xoşbəxt, daha səmimi edən, hər kəsin inkişaf etməsinə imkan verən vətəndaş cəmiyyətinin yaradılmasına yalnız hüquq müdafiəçiləri kömək edə bilər. Mənə belə gəlir ki, bu baxımdan Azərbaycan fərqli bir ölkədir.

Mənim fikrimcə, burada çox əlverişli şərait yaradılmışdır. Bilirsinizmi nə üçün? Mən bunu izah edərəm. Əgər Prezident hüquq müdafiəçilərini qəbul edirsə, ombudsman Elmira xanımdırsa, məncə, bu faktlar cəmiyyətin həqiqətən inkişaf etməsi, vətəndaşların daha xoşbəxt olması üçün əsasdır.

Bir daha çox sağ olun. Zənnimcə, əgər biz insan hüquqlarının müdafiəsi üzrə ofis, YUNESKO və Azərbaycan arasında mövcud əməkdaşlığı qoruyub saxlasaq, bu, həmin istiqamətdə işin uğur qazanmasının rəhni olacaq.

İLHAM ƏLİYEV: Sağ olun. Mən qeyd etmək istərdim ki, siz - hüquq müdafiəçiləri çox nəcib bir missiyanı yerinə yetirirsiniz. Siz insanların hüquqlarını müdafiə edirsiniz. Bu, müdafiə edilməli olan ən vacib dəyərdir. Dünyada, dünyanın müxtəlif yerlərində, demək olar ki, hər bir ölkədə insan hüquqları pozulur, sadəcə olaraq, bu, müxtəlif formalarda baş verir. Bəzi yerlərdə bu pozuntular insanların sıxışdırılmasına aiddir, bəzi yerlərdə separatizm siyasətinə əsaslanır, haradasa qan axıdılması, müharibələr, işğal ilə başa çatır, haradasa daha yüngül formada baş verir. Amma hər halda bu, bizim hamımız üçün ümumi problemdir.

Təbii ki, hər bir ölkədə bu problem diqqət mərkəzində olmalıdır. Əvvəllər bizdə, ümumiyyətlə, siyasi sistem olmadığı kimi, bu sahədə də təcrübə yox idi. Keçmiş SSRİ ölkələri yalnız 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra siyasi təsisatlar, siyasi sistem, çoxpartiyalı sistem, azad kütləvi informasiya vasitələri yaratmağa başladılar. Bu proses hər bir ölkədə müxtəlif formada gedir. Haradasa nəticələr çox, haradasa azdır, lakin bütövlükdə bu proses labüddür. Biz Azərbaycanda beynəlxalq birliyə fəal inteqrasiya siyasətini həyata keçiririk. Təbii ki, inkişaf etmiş demokratik dövlətləri səciyyələndirən bütün ən mühüm baza meyarları Azərbaycanda da tətbiq edilməlidir. Biz bu istiqamətdə də böyük iş aparırıq, beynəlxalq təşkilatlarla fəal işləyirik, bəzən tənqidə məruz qalırıq. Bu tənqid bəzən ədalətli, bəzən qərəzli olur. Tənqid ədalətli olanda biz buna yalnız sevinirik. Çünki bu, nöqsanları düzəltməyə, vəziyyəti yaxşılaşdırmağa imkan verir. Tənqid qərəzli olanda isə, əlbəttə, bizə mənfi təsir göstərir. Ona görə ki, əvvəldə dediyim kimi, meyarlar vahid olmalıdır, ikili standartlara yol verilməməli, hüquq müdafiə fəaliyyətinin, bu və ya digər ölkədə insan hüquqlarının qiymətləndirilməsi məsələsində ögey-doğmalıq olmamalıdır. Əgər bütün bunlara nail olunsa, onda mən əminəm

ki, hər bir iqtidar, yaxud demək olar ki, hər bir iqtidar Azərbaycanda bizim etdiyimiz kimi, hüquq müdafiəçiləri ilə görüşməyə şad olacaqdır.

Bizim ölkədə müxtəlif hüquq müdafiə təşkilatları vardır, onlar çox fəaldır, iqtidarı, rəhbərliyi fəal tənqid edirlər. Hesab edirəm ki, hətta onların bəziləri siyasi qüvvələrin təsiri altında olsalar belə, hərçənd bunu mən ümumiyyətlə yolverilməz hesab edirəm, bu - normal haldır. Lakin mən düşünürəm ki, bu, inkişafımızın müvəqqəti mərhələsidir, biz buna da dözərik. Hüquq müdafiə təşkilatları insanların siyasi mənsubiyyətindən asılı olmayaraq, onların hüquqlarının müdafiəsi işi ilə məşğul olmalıdırlar. Əgər biz Azərbaycanda bütün hüquq müdafiə təşkilatlarının yalnız öz vəzifələrini əsas tutmalarına nail ola bilsək, onda heç bir mübahisəli məsələ qalmayacaq. Təəssüf ki, biz hələlik buna tam nail olmamışıq. Lakin güman edirəm ki, biz buna nail olacağıq. Əminəm ki, hər bir normal cəmiyyət üçün, onun inkişafı üçün daimi dialoq - iqtidarla cəmiyyət arasında, iqtidarla hüquq müdafiə fəaliyyəti ilə məşğul olan strukturlar arasında dialoq zəruridir. Biz vətəndaş cəmiyyətinin yaradılmasına və ictimai nəzarətə doğru kifayət qədər sürətlə irəliləyirik. Buna görə də mən istənilən vaxt sizi yenidən burada görməyə şad olaram.

Polşanın ombudsmanı YANUŞ KOXONOVSKİ sürətlə inkişaf edən Azərbaycanın dünya dövlətlərinin hüquq müvəkkilləri arasında da yaxşı tanındığını bildirərək dedi:

- Cənab Prezident, çox məşğul olduğunuz bir gündə bizi qəbul etdiyinizə görə, öz həmkarlarım adından Sizə minnətdarlığımı bildirirəm. Biz nəinki belə bir vacib konfransda iştirak etməyimizdən, o cümlədən gözəl ölkənizi görməyimizdən çox məmnunuq. Bu gün biz mərhum atanız, məşhur siyasi xadimin xatirəsini yad etdik. Ombudsman Elmira xanım Süleymanova ilə aparılan əməkdaşlıq sayəsində ölkənizi insan hüquqları müvəkkilləri arasında yaxşı tanıyırlar. Polşanın ombudsmanı kimi mən ölkələrimiz arasında nəinki tarixdə, o cümlədən hazırkı dövrdə yaxşı və sıx münasibətlərin olduğunu məmnunluqla qeyd etmək istəyirəm. Bir daha sağ olun. Mən sizə və ölkənizə ən böyük uğurlar arzulayıram.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV son illər ölkəmizdə həyata keçirilən islahatlar barədə danışaraq dedi:

- Azərbaycan çox sürətlə inkişaf edir. Ölkədə siyasi-iqtisadi islahatlar aparılır. Biz sosial problemlərə xüsusi diqqət yetiririk. Bu isə insan hüquqlarının qorunması işi üçün də çox vacibdir. Biz yoxsulluğun aradan qaldırılması üçün beynəlxalq maliyyə qurumları ilə işləyirik. Mən tamamilə əminəm ki, əgər biz bu məsələnin öhdəsindən gəlsək, bu, insan hüquqlarının qorunması sahəsinə ən böyük töhfə ola bilər. Sizə deyə bilərəm ki, burada yaşayan yoxsul insanların sayı son dörd il ərzində 49 faizdən 16 faizə düşmüşdür. Bu rəqəm cari ilin əvvəlində müşahidə olunmuşdur. Sürətli yaxşılaşma onu göstərir ki, bizim islahatlarımız insanların gündəlik həyatında öz əksini tapır.

Bəzən iqtisadi islahatlar ağrılı olur. Bəzi hallarda zəruri hesab edilən islahatlar ölkə daxilində gərginlik və müəyyən çətinlik, eləcə də maliyyə problemləri yaradır. Lakin biz dəyişikliklərdə israrlıyıq və eyni zamanda, çox güclü, sosial siyasət həyata keçiririk. Bir sözlə, Azərbaycanda insanlar ildən-ilə daha yaxşı yaşayırlar. Bu, xüsusən də aşağı gəlirli insanlara aiddir. Hazırda biz yoxsul ailələrə yardım üzrə böyük sosial proqramı həyata keçiririk. Təxminən 100 min ailə bu proqramla əhatə olunur və dövlət onlara aylıq maliyyə yardımı göstərir. Bu yardım onlara yoxsulluqdan daha təkmil mövqeyə doğru ad-

dım atmaq imkanlarını açır. Əlbəttə, vaxt keçdikcə Azərbaycanın iqtisadi imkanları və potensialı artacaq, problemləri həll etmək bizim üçün daha asan olacaqdır.

Mən öncə qaçqınların problemlərinə toxundum. Bu bizim üçün böyük sosial və humanitar problemdir. Lakin proqramın uğurla həyata keçirilməsi nəticəsində hazırda biz 10 ildən çox çadır düşərgələrində yaşamış 80 mindən çox insanı normal evlərə köçürdük. Biz bir çox evlər, məktəb və xəstəxanalar tikirik. Bu məqsədlə xüsusi infrastruktur yaradılıbdır. Lakin bu müvəqqətidir. Çünki bunlar məskunşalma yerləri hesab edilir. Torpaqlarımız azad olunarsa, biz həmin şəxslər üçün onların doğma yerlərində normal yaşayış şəraitlərinin təmin edilməsi üçün çoxlu sərmayə qoyacağıq.

Bir daha xoş gəlmisiniz. Çox sağ olun.

OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli Konfrans iştirakçıları!

Azərbaycanda İnsan hüquqları gününə həsr edilmiş "Qloballaşan dünyada insan hüquqları" mövzusunda Ombudsmanların VI Bakı Beynəlxalq Konfransının keçirilməsi münasibəti ilə Sizi təbrik edirəm, konfransın işinə müvəffəqiyyətlər arzulayıram.

Bu gün dünyamız sürətli dəyişikliklər dövrü yaşayır. Dəyişikliklər həm mədəniyyətdə, həm həyat tərzində və həm də sosial davranışda özünü büruzə verir. Bu isə öz növbəsində cəmiyyətdə mövcud olan hüquq sisteminə və mədəniyyətinə təsir göstərir, hüquq institutlarının təkmilləşməsinə və yenilərinin formalaşdırılmasına təkan verir, bütövlükdə cəmiyyətin inkişafını sürətləndirir.

Minilliyin məqsədlərinə uyğun olaraq insan hüquqlarının müdafiəsi, sosial-iqtisadi problemlərin həlli, qanunun aliliyinin təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi demokratik, hüquqi dövlətin başlıca vəzifələridir.

Müasir dünyada özünəməxsus yer tutan, demokratik bəşəri dəyərləri bölüşən və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan dövləti insanların rifah səviyyəsinin, onların cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərir.

Hələ 10 il öncə ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tərəqqisini məhz "insan meyarı"nın inkişaf etdirilməsində görərək insan hüquqlarının müdafiəsi sahəsində ilk fundamental sənəd olan Milli Dövlət Proqramını təsdiq etmişdir.

Bəşəriyyətin üzləşdiyi yeni çağırışlara cavab olaraq insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsi, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulması, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasını ehtiva edən yeni Milli Fəaliyyət Planı 2006-cı ildə qəbul olunmuş və uğurla həyata keçirilir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün mənfi təsirlərinə baxmayaraq ölkəmiz regionda və dünyada dinamik inkişaf edən dövlət olaraq demokratik islahatları davam etdirir. Bununla yanaşı, Azərbaycan dövləti soyqırım və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkünün kütləvi şəkildə pozulmuş hüquqlarının bərpa edilməsi, işğal olunmuş torpaqların azad edilməsi üçün sarsılmaz iradəsini və gücünü nümayiş etdirəcəkdir. Ümidvaram ki, ombudsmanlar və beynəlxalq təşkilatların nümayəndələri bu məsələlərə xüsusi diqqət yetirəcəklər və biz birlikdə insanların pozulmuş hüquqlarının bərpasına nail olacağıq.

Azərbaycan insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sistemin fəal üzvüdür və demokratiya sahəsində etibarlı tərəfdaşlıq münasibətlərini inkişaf etdirir.

Əminəm ki, Ombudsmanların VI Bakı Beynəlxalq Konfransı insan hüquqlarının səmərəli təmin olunmasına öz töhfəsini verəcək, bu sahədə beynəlxalq əməkdaşlığı daha da gücləndirəcəkdir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 iyun 2008-ci il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN PARLAMENTİNİN SƏDRİ MUHAMMADMİAN SUMRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Pakistan Parlamentinin sədri Muhammadmian Sumronun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Pakistan arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu, iqtisadi sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanlar yarandığını vurğuladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi. Ölkələrimizin parlamentarilərinin əlaqələrinin əhəmiyyətindən danışan Prezident İlham Əliyev bu səfərin həm Ali Qanunverici orqanlar arasında əməkdaşlığın, həm də ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Azərbaycan Parlamentinin 90 illik yubiley tədbirlərində iştirak etmək üçün ölkəmizə dəvət aldığına görə, Prezident İlham Əliyevə təşəkkür edən Pakistan Parlamentinin sədri Muhammadmian Sumro ölkəsinin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini bildirdi. Qonaq iqtisadi sahədə əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu söylədi. Muhammadmian Sumro Pakistanla Azərbaycan parlamentləri arasında əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTAN PARLAMENTİNİN SƏDRİ XANIM AKCA NURBERDIYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkmənistan Parlamentinin sədri xanım Akca Nurberdıyevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Akca Nurberdıyeva Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan Parlamentinin 90 illik yubileyi münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdi. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin vacibliyini qeyd edən qonaq bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla Türkmənistan arasında ikitərəfli münasibətlərin dinamik olaraq inkişaf etdiyini vurğuladı. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun ölkəmizə səfərinə toxunan Prezident İlham Əliyev həmin səfərin əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi işinə xidmət göstərdiyini bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Rusiya Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, dövlət başçıları səviyyəsində keçirilən görüşlərin münasibətlərimizin daha da inkişaf etdirilməsində mühüm əhəmiyyət daşıdığı qeyd olundu. Görüşdə, həmçinin Azərbaycan və Rusiya Ali Qanunverici orqanları arasında mütəmadi görüşlərin və qarşılıqlı səfərlərin parlamentlərarası əlaqələlərin və əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyi vurğulandı və bu sahədə əlaqələrin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ TAHİR ƏL-MASRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da İordaniya Haşimilər Krallığı Parlamenti sədrinin müavini Tahir əl-Masrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

İordaniya Parlamenti sədrinin müavini Tahir əl-Masri İordaniya Kralı Əlahəzrət II Abdullahın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana səfərinin əhəmiyyətindən danışan qonaq İordaniya Haşimilər Krallığının ölkələrimiz arasında əlaqələrə böyük önəm verdiyini qeyd etdi və əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev İordaniya kralı Əlahəzrət II Abdullahın ölkəmizə və özünün İordaniya Haşimilər Krallığına səfərini məmnunluqla xatırladı və həmin səfərlərin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynadığını qeyd etdi. Dövlət başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev İordaniya Kralı Əlahəzrət II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını İordaniya kralına çatdırmağı xahiş etdi.

MİLLİ MƏCLİSİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞI

İyunun 19-da Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağı keçirilmişdir.

Yığıncağın iştirakçıları əvvəlcə Milli Məclisin Heydər Əliyev Xatirə Muzeyinə baxdılar.

Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağının iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi alqışlarla qarşıladılar.

Azərbaycan Respublikasının dövlət himni səslənmişdir.

Milli Məclisin sədri Oqtay ƏSƏDOV yığıncağı açaraq dedi:

- Hörmətli xanımlar və cənablar,

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevi Milli Məclisdə səmimi qəlbdən salamlayırıq.

Hörmətli deputatlar, Azərbaycan Parlamentinin 90 illiyi münasibətilə sizin hamınızı ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram!

Azərbaycan Parlamentinin 90 illik yubileyində iştirak etmək üçün Bakıya gəlmiş xarici ölkələrin parlament sədrlərinə, parlament nümayəndə heyətlərinə, beynəlxalq təşkilatların təmsilçilərinə, bütün qonaqlarımıza səmimi qəlbdən "xoş gəlmisiniz" deyirəm.

Xarici ölkələrin 9 parlament sədri, 18 sədr müavini, 102 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də xarici dövlətlərin Bakıdakı diplomatik korpusunun nümayəndələri bu gün bizimlə birlikdə sevincimizi bölüşürlər. Ümumiyyətlə, qonaqlarımızın təmsil etdikləri ölkələrin coğrafiyası İndoneziyadan Kanadayadək olan məkanı əhatə edir.

90 il əvvəl Azərbaycanda müasir dövrün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın tarixi taleyində müstəsna rol oynamışdır.

1918-1920-ci illərdə cəmi 17 ay fəaliyyət göstərən parlament Azərbaycanın gələcək həyatı üçün dəyərli işlər görə bilmişdir. Bu işlər sayəsində Şərq aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi təməli yaradılmışdır. Dövlət bayrağı və himni qəbul edilmiş, ana dili dövlət dili elan olunmuşdu. Dünyada birincilər sırasında, Şərq aləmində ilk dəfə olaraq məhz bu parlament qadınlara səsvermə hüququ vermişdi. Dövlət quruculuğu, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul edilən qanunvericilik aktları müstəqil dövlətin səmərəli fəaliyyətinə imkan yaratmışdı. O dövrdə Azərbaycanda mövcud olan bütün siyasi qüvvələrin və müxtəlif millətlərin nümayəndələri parlamentdə təmsil olunmuşdu.

Bütün bunlar Azərbaycan xalqının həyatında parlamentarizm ənənələrinin yeni inkişaf mərhələsinə daxil olduğunu göstərirdi. Dövlət Dumasına Azərbaycandan 13 nəfər azərbaycanlı deputat seçilmiş və onun fəaliyyətində iştirak etmişdi.

Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu dövrdə əsasən Ali Sovet adı ilə fəaliyyət göstərən qanunvericilik orqanı məhdud səlahiyyətlərə malik olmuşdur. Lakin belə bir şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrinin yoxa çıxmasına imkan verməmişdir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı sayəsində böhran və təlatümlər dövrünü geridə qoymuş, kövrək vəziyyətdən çıxıb sabitlik və inkişaf dövrünə daxil olmuş, əsl dövlət müstəqilliyini əldə etmişdir.

Müasir Azərbaycan parlamenti də Heydər Əliyevin rəhbərliyi altında yaranmışdır. Ulu öndər 1993-cü ilin oktyabrında Prezident seçilənədək dörd ay parlamentə rəhbərlik etmişdir. Heydər Əliyevin Azərbaycan parlamentinin sədri kimi fəaliyyəti ölkəmizdə parlamentarizm ənənələrinin inkişafında müstəsna rol oynamışdır. Sonrakı dövrdə də ulu öndər qanunvericilik orqanına daim böyük qayğı göstərmiş, parlament quruculuğu məsələlərini diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Konstitusiya əsasında müasir parlament formalaşdırılmışdır. Artıq 13 ilə yaxındır ki, Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Parlament dövlətimizin müasir tələblərə cavab verən qanunvericilik bazasını yaratmış və təkmilləşdirmişdir.

1995-ci ildən indiyədək Milli Məclis dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini nizama salan 2500-dən çox qanun və qərar qəbul etmişdir. Onu da qeyd edim ki, parlamentdə qəbul edilən qanunlar milli dəyərlər nəzərə alınmaqla, üzv olduğumuz beynəlxalq təşkilatların ən yüksək standartlarına uyğun şəkildə hazırlanmışdır. Bu bizim şüurlu seçdiyimiz yoldur və biz bu işi davam etdiririk.

Azərbaycan parlamenti müasir demokratik dövlətlərdə mövcud olan prosedur qaydaları əsasında fəaliyyət göstərir. Milli Məclis xalqın və dövlətin mənafeləri ilə bağlı vəzifələri, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələlərini daim diqqət mərkəzində saxlayır. Ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşdirmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etdirilir.

Milli Məclis beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verir. Ölkənin qanunvericilik orqanı 7 beynəlxalq parlament təşkilatının üzvüdür, bir neçə parlament təşkilatı, o cümlədən Avropa Parlamenti, NATO-nun Parlament Assambleyası, Baltik Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir.

İkitərəfli əlaqələrin inkişafına böyük diqqət yetirilir. Milli Məclisdə 70-dən çox ölkənin parlamenti ilə əlaqələr üzrə deputat dostluq qrupları yaradılmışdır. Bu qrupların üzvləri xarici ölkələrdəki həmkarları ilə sıx əlaqə saxlayır, qarşılıqlı səfərlər edir, təcrübə mübadiləsi aparırlar. Bütün bunlar ölkələrin bir-birinə yaxınlaşmasına kömək göstərir və xalq diplomatiyasının uğurlarını nümayiş etdirir.

Hörmətli xanımlar və cənablar,

Azərbaycanda dövlət hakimiyyət bölgüsü prinsipi əsasında qurulmuşdur. Biz qürur hissi ilə söyləyə bilərik ki, parlamentlə Prezident arasında çox gözəl münasibətlər mövcuddur. Parlamentin qəbul etdiyi layihələrin 80 faizindən çoxu cənab Prezidentin təşəbbüsü ilə müzakirəyə çıxarılır. Biz əminik ki, bu münasibətlər gələcəkdə də bu qaydada davam edəcəkdir.

Möhtərəm cənab Prezident səkkiz il ərzində Azərbaycan parlamentinin deputatı olmuşdur, Milli Məclisin gündəlik fəaliyyətini, problemlərini parlamentin içərisindən müşahidə edib bələd olmuşdur. Milli Məclisin qayğılarını bildiyinə görə qanunvericilik orqanına çox böyük diqqət və dəstək göstərir. Möhtərəm cənab Prezidentin burada olmasından istifadə edərək, bu diqqətə və dəstəyə görə ona minnətdarlığımızı bildiririk və dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Milli Məclis Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə həll edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin fəaliyyətini müdafiə edir və problemin nizama salınacağına ümid bəsləyir və inanır.

Əziz qonaqlar, bu bayram günündə bizimlə birlikdə olduğunuza görə sizin hamınıza təşəkkür edirəm.

PREZİDENT İLHAM ƏLİYEVİN MİLLİ MƏCLİSİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞINDA NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Hörmətli deputatlar, əziz qonaqlar!

Mən sizin hamınızı bu gün bu gözəl gündə ürəkdən salamlayıram. Bütün qonaqlara xoş gəlmisiniz deyirəm.

Bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Biz Azərbaycan Parlamentinin 90 illik yubileyini təntənəli şəkildə qeyd edirik. Bu, həqiqətən də çox əlamətdar və tarixi hadisə olmuşdur. Biz keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyini geniş şəkildə qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında tarixi bir hadisə idi. Çünki ilk dəfə müsəlman aləmində, bütövlükdə Şərqdə

demokratik respublika yaranmışdır. Müxtəlif səbəblər nəticəsində respublikanın ömrü uzun olmamışdır və iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etmiş və Azərbaycan xalqı yenidən müstəqillikdən məhrum edilmişdir.

Biz öz tariximizi yaxşı bilirik və onu da bilirik ki, bu acı tarix 1990-cı illərin əvvəllərində də təkrarlana bilərdi, daha doğrusu təkrarlanırdı. Azərbaycan xalqı yenidən müstəqilliyə qovuşanda, Sovet İttifaqının dağılması nəticəsində müstəqil respublika fəaliyyətə başlayanda ölkədə gedən ictimai-siyasi proseslər çox mürəkkəb idi, çox gərgin idi və demək olar ki, gənc dövlətin gələcəyi o qədər də müəyyən deyildi. Çünki həm ölkə daxilində, həm də hüdudlarımızdan kənarında gedən proseslər Azərbaycanı çox ağır vəziyyətə qoymuşdu. Bir tərəfdən, Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi, digər tərəfdən, daxildə yaşanan siyasi və iqtisadi böhran vəziyyəti son dərəcə gərginləşdirmişdi. Bu çətin, ağır şəraitdə Azərbaycan xalqı düzgün seçim etmişdir.

1993-cü ildə Azərbaycan xalqı milli lideri Heydər Əliyevə müraciət edərək, onu yenidən siyasi hakimiyyətə gətirməklə öz müstəqilliyini qoruya bilmişdir. Biz müstəqilliyi qoruduq, möhkəmləndirdik və bu gün Azərbaycan müstəqillik yolu ilə uğurla inkişaf edir. Bütün bu işlərdə Azərbaycan Parlamentinin böyük rolu olmuşdur. Çünki yeni Azərbaycanın qurulmasının, müstəqil güclü dövlətin qurulmasının əsası məhz bu binada qoyulmuşdur.

Biz bir neçə gün bundan əvvəl Milli Qurtuluş gününü geniş şəkildə qeyd etmişik. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Parlamentinin sədri vəzifəsinə seçiləndən sonra ölkəmizdə vəziyyət müsbətə doğru dəyişilməyə başlamışdır. Xoşagəlməz bütün hadisələrin qarşısı alınmışdır. Qeyri-qanuni silahlı birləşmələr tərksilah edilmişdir. Azərbaycanda asayiş bərpa olunmuşdur, sabitlik yaranmışdır və beləliklə, hərtərəfli inkişaf üçün çox gözəl şərait yaradılmışdır.

Ondan əvvəl, hələ Azərbaycan müstəqil olmayan dövrdə Naxçıvan Muxtar Respublikasının parlamenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı elan etmişdir. O vaxt Azərbaycan hələ müstəqil deyildi, Sovet İttifaqının tərkibində idi. Ancaq Naxçıvanda tarixi qərarın qəbul olunması bizim müstəqilliyimizi yaxınlaşdırırdı. Bütün başqa həlledici məqamlarda, xalqla Heydər Əliyev arasında olan birlik Azərbaycanı bu çətin, ağır şəraitdən şərəflə çıxara bilmişdir.

Bu gün ölkəmiz uğurla inkişaf edir. Azərbaycanda parlamentarizm ənənələri də yaranır. Azərbaycan parlamenti öz beynəlxalq əlaqələrini genişləndirir və bu gün biz bu tədbirdə müxtəlif ölkələrdən gələn qonaqların timsalında bunu görürük. Biz görürük ki, Azərbaycan dünya birliyinə çox sürətlə inteqrasiya edir, Azərbaycanda hakimiyyətin bütün qolları vahid komanda kimi fəaliyyət göstərir və vahid amal uğrunda birləşibdir. Bu amal ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, ölkə daha da inkişaf etsin və inkişaf etmiş ölkələrin sıralarına daxil olsun.

Biz bu vəzifəni qarşımıza qoymuşuq və bu çox böyük, məsuliyyətli vəzifədir. Ancaq 10 il, 15 il bundan əvvəl qarşımızda başqa vəzifələr dayanmışdı. O vaxt biz fikirləşirdik ki, Azərbaycanı ağır, çətin vəziyyətdən necə çıxaraq? İqtisadi tənəzzülün qarşısı necə alınmalıdır? Siyasi və iqtisadi islahatlar necə aparılmalıdır? Bütün bunlar bizim üçün yenilik idi. Azərbaycan qarşısında, müstəqil gənc dövlət qarşısında müxtəlif inkişaf istiqamətləri mövcud idi. Ulu öndər Heydər Əliyevin seçdiyi yol yeganə düzgün yoldur. Bu da

ondan ibarətdir ki, Azərbaycan dünya birliyinə sürətlə inteqrasiya etməlidir, Azərbaycanın inkişafı daxili resurslar əsasında təmin olunmalıdır, Azərbaycan öz təbii sərvətlərindən məharətlə istifadə etməlidir və öz milli maraqlarını maksimum dərəcədə möhkəmləndirməlidir. Azərbaycanda çox güclü iqtisadi potensial yaradılmalıdır. Bu gün biz keçmişə nəzər salarkən görürük ki, ölkə qarşısında ən çətin və həlledici məqamlarda duran bütün əsas vəzifələr uğurla icra edilmişdir.

Bu gün Azərbaycan inkişaf dövrünü yaşayır. Bizdə siyasi və iqtisadi islahatlar uğurla həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, Milli Məclisin bu işdəki fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Azərbaycan bir neçə çox vacib beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Mütərəqqi qanunlar qəbul edilir və bu qanunlar Azərbaycanda siyasi sistemin möhkəmlənməsinə və iqtisadi islahatların dərinləşməsinə xidmət göstərir. O da həqiqətdir ki, baxmayaraq, Azərbaycan xalqının çox qədim və zəngin tarixi, mədəniyyəti vardır, Azərbaycanda bundan əvvəl heç vaxt siyasi sistem olmayıbdır. Biz yalnız müstəqilliyi bərpa edəndən sonra siyasi islahatlara başlamışıq və tarix baxımından çox qısa müddət ərzində bütün lazımi tədbirləri görmüşük. Azərbaycanda siyasi sistem yaradılıb, siyasi təsisatlar yaradılıb və möhkəmlənib, Azərbaycan beynəlxalq təşkilatlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında əməkdaşlıq edir. Bir daha demək istəyirəm ki, həm iqtisadi sahədə, həm sosial məsələlərin həlli işində, həm də siyasi islahatların dərinləşməsində Milli Məclis tərəfindən qəbul edilmiş qərarlar xüsusi rol oynayır. Mən çox şadam ki, bizim ölkəmizin inkişafı üçün hakimiyyətin bütün qolları öz töhfələrini verirlər.

Bu gün bizim qarşımızda yeni vəzifələr dayanır, yeni çağırışlar dayanır və biz bunlara hazır olmalıyıq. İlk növbədə, yenidən qeyd etmək istəyirəm ki, Azərbaycan öz müstəqil siyasətini davam etdirəcəkdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına xidmət göstərir, milli maraqlarımızı qoruyur və Azərbaycan əhalisinin rifah halının yaxşılaşmasına xidmət göstərir. Siyasi proseslərin müsbət istiqamətdə inkişaf etməsi, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, xalqla iqtidar arasında birliyin möhkəmlənməsi - bütün bu amillər ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır.

Sabitlik olmayan yerdə inkişaf mümkün deyil. Eyni zamanda, inkişaf etmiş ölkələrin tarixinə, yaxud da indiki vəziyyətinə nəzər salsaq görərik ki, o ölkələrdə sabitlik mövcuddur. Yəni bu iki amil bir-birini tamamlayır. Mən çox şadam ki, Azərbaycanda biz həm inkişafa nail ola bilmişik, həm də Azərbaycanda sabitlik çox yüksək səviyyədədir. Əminəm ki, gələcək illərdə biz qarşımıza qoyduğumuz bütün vəzifələrə, hədəflərə çatacağıq.

Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru uğurla irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir. Biz son dörd il ərzində iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik. Dörd il ərzində Azərbaycanda ümumi daxili məhsul 96 faiz artmışdır ki, bu da analoqu olmayan bir göstəricidir.

Bununla bərabər, Azərbaycanda uğurla həyata keçirilən sosial islahatlar öz müsbət nəticələrini verir. İldən-ilə Azərbaycan xalqı daha da yaxşı yaşayır. Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Son dörd il ərzində 49 faizdən 16 faizə düşən yoxsulluğun səviyyəsi onu

göstərir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir.

Regionlarda gedən abadlıq-quruculuq işləri, yeni iş yerlərinin açılması və regionların sosial-iqtisadi inkişafına dair beşillik Dövlət proqramının uğurla icra edilməsi - bizim böyük nailiyyətimizdir. Bu gün artıq bölgələrdən mərkəzə miqrasiya meylləri demək olar ki, son dərəcə azalıbdır. Bu gün bölgələrdə insanların yaşaması üçün ən müasir infrastruktur yaradılır - istər səhiyyə, istər təhsil, istər nəqliyyat və sair sahələrdə. Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək, təbii resurslarımızı insan kapitalına çeviririk. Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir.

Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, biz öz ana dilimizi saxlaya bilmişik, öz mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edibdir, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər.

Azərbaycan cəmiyyətində bütövlükdə ölkədə aparılan bütün islahatlara böyük rəğbət var. Əgər belə olmasaydı, heç bir islahatın əhəmiyyəti olmazdı. Bəzi hallarda iqtisadi islahatlar, xüsusilə keçid dövründə yaşayan cəmiyyətlərdə iqtisadi islahatlar insanların həyat səviyyəsinin pisləşməsinə gətirib çıxarır. Ancaq Azərbaycanın timsalında biz bunu görmürük. Əgər belə olsaydı, o zaman yoxsulların sayı azalmazdı, artardı. Bizim güclü sosial siyasətimiz, eyni zamanda, uğurlu iqtisadi islahatlara əsaslanır. Çünki əgər biz iqtisadi potensialı yaratmasaq, sosial proqramların həlli üçün imkanımız olmayacaq. Bir də demək istəyirəm ki, biz ancaq öz imkanlarımıza güvənirik. Biz müstəqilliyi bərpa edəndən sonra bu günə qədər ancaq öz hesabımıza, Azərbaycan xalqının zəhməti hesabına bütün bu gözəl nəticələrə çata bilmişik.

Bu gün qürur hissi ilə deyə bilərik ki, son dörd il ərzində Azərbaycanda büdcə xərcləri 10 dəfədən çox artıbdır. Bizim valyuta ehtiyatlarımız artır və ilin sonuna qədər 20 milyard dollara yaxın olmalıdır. Bu, bizim üçün böyük bir üstünlükdür, böyük bir imkandır. Biz bu imkanlardan çox səmərəli şəkildə istifadə etməliyik. Azərbaycanın bütün sahələrini inkişaf etdirməliyik. İqtisadiyyatımızı şaxələndirməliyik ki, uzun illər bundan sonra, onilliklər bundan sonra Azərbaycan xalqı və gələcək nəsillər rahat yaşasın. Gələcək nəsil də vətənpərvərlik ruhunda tərbiyə almalıdır və mən çox şadam ki, bu gün biz bunu görürük.

Gələcək nəsillərin xoşbəxt yaşaması üçün biz indidən lazımi tədbirləri görürük. Mən bir daha parlamentin bu sahədəki rolunu qeyd etmək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan Dövlət Neft Fondu gələcək nəsillərin rahat yaşaması üçün böyük dərəcədə valyuta ehtiyatlarını yığmağa başlamışdır və bu, bir neçə ildən sonra yüz milyardlarla ölçüləcəkdir. Belə olan halda bu imkanlardan, bu resurslardan səmərəli istifadə etmək üçün ən şəffaf mexanizm yaradılmalıdır. Azərbaycan bu şəffaf mexanizmi yarada bilibdir. Neft Fondundan xərclənən hər bir manat, hər bir dollar ancaq parlamentin razılığı ilə mümkündür. Parlamentin üzvləri büdcəni təsdiq edərkən bu məsələni də həll edirlər. Yəni burada ictimai iştirak və ictimai nəzarət çox güclüdür. Mən bir neçə dəfə bu barədə öz fikirlərimi bildirmişəm, bir də demək istəyirəm ki, çox sürətlə inkişaf edən ölkələrdə, çox böyük dövlət investisiyaları qoyulan bir ölkədə ictimai nəzarət çox güclü olmalıdır.

Biz gələcək haqqında da fikirləşirik və mən əminəm ki, Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Bizim beynəlxalq əlaqələrimiz möhkəmlənir, biz yeni müttəfiqlər qazanırıq, bizim xarici siyasətimiz də çox açıqdır, birmənalıdır, çox çevikdir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında öz siyasətimizi qururuq və bu siyasət öz bəhrəsini verməkdədir. Azərbaycan dünyada daha da çox tanınır, Azərbaycana hörmət artır. Azərbaycanın müstəqil siyasəti bilirəm ki, çox böyük rəğbətlə qarşılanır və biz bu müstəqil xəttimizi qoruyub saxlayacağıq. Müstəqilliyimizi daha da möhkəmləndirəcəyik və bunu etmək üçün əlbəttə ki, bizim imkanlarımız daha da artmalıdır. Bu işlər, görülən bütün işlər bir daha demək istəyirəm ki, bir məqsədə yönəldilibdir - Azərbaycan bölgədə və dünayda öz mövqelərini möhkəmləndirsin, Azərbaycanda siyasi islahatlar daha da sürətlə getsin, Azərbaycanda bütün kriteriyalar- istər siyasi həyatda, istərsə də iqtisadi, sosial həyatda bütün kriteriyalar, dünyanın aparıcı ölkələrinin kriteriyalarına yaxınlaşsın. Bunu etmək üçün bizim həm niyyətimiz var, həm də proqramlarımız var. Beynəlxalq təşkilatlarla müxtəlif proqramlar var və biz bunları uğurla icra edirik.

Mən hesab edirəm ki, biz həm siyasi islahatlar sahəsində, həm ölkədə gedən demokratikləşmə prosesinin inkişafında, həm də iqtisadi və sosial məsələlərin həllində nə mümkünsə maksimum dərəcədə etmişik. Bunun nəticəsində bu gün ölkə qarşısında elə problem yoxdur ki, biz onu asanlıqla həll edə bilməyək. Ölkə daxilində sabitlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, siyasi sistemin möhkəmlənməsi, iqtisadi islahatlar, çevik xarici siyasət və bölgədə bizim təşəbbüsümüzlə həll olunan irimiqyaslı layihələrin icrası - bütün bu istiqamətlərdə bütün vəzifələr öz həllini tapıbdır.

Bu gün bölgədə gedən uğurlu regional əməkdaşlıq bir çox hallarda məhz Azərbaycanın təşəbbüskarlığı ilə bağlıdır. Biz enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi ilə həm öz iqtisadi imkanlarımızı gücləndiririk, həm də böyük mənada regional əməkdaşlığa da öz töhfəmizi veririk.

Bildiyiniz kimi, bu gün dünyanın siyasi gündəliyində enerji təhlükəsizliyi məsələləri xüsusi yer tutur. Azərbaycan bu sahəyə öz töhfəsini verir və gələcəkdə öz töhfəsini verməyə hazırdır. Biz irimiqyaslı enerji layihələrinin təşəbbüskarı və iştirakçısıyıq. Bu layihələrin nəticəsində Azərbaycan xalqı həm böyük mənfəət götürür, həm ölkənin beynəlxalq mövqeləri möhkəmlənir, həm də regional əməkdaşlıq üçün çox gözəl şərait yaranır. Bu gün bizim həm Xəzəryanı ölkələrlə, qonşu dövlətlərlə, həm də Qara dəniz, Baltik dənizi ölkələri ilə üzərində işlədiyimiz konkret layihələr var. Bizim siyasi əlaqələr güclənir və əlbəttə ki, nəqliyyat, enerji və humanitar sahəsində regional əməkdaşlıq

bu bölgəyə daha da çox imkanlar gətirir, bizim qarşımızda daha da çox imkanlar açır və biz bundan sonra da regional işlərdə öz fəallığımızı davam etdirəcəyik.

Bu gün burada müxtəlif ölkələrdən qonaqlar bizimlə bərabər bu günü qeyd edirlər. Dünən mən nümayəndə heyətlərinin demək olar ki, əksəriyyəti ilə görüşmüşəm. Görüşlər bu gün də davam edəcəkdir. Mən bir də demək istəyirəm, Azərbaycan parlamentinin dəvətini almış, bu gün bizimlə bərabər olan bütün qonaqlara xüsusi minnətdarlıq bildirmək istəyirəm ki, onlar vaxt tapıb bu tədbirdə bizimlə bərabər iştirak edirlər. Onların diqqətini bizi narahat edən məsələyə də cəlb etmək istəyirəm. O da bölgədə gərginlik yaradan, çox böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır.

Biz uzun illər ərzində çalışırıq ki, məsələ öz həllini sülh yolu ilə, danışıqlar yolu ilə, beynəlxalq hüquq əsasında tapsın. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın torpaqlarından çıxarılmasını tələb edir. Ancaq Ermənistan tərəfi buna məhəl qoymur.

Bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə böyük səs çoxluğu ilə qəbul edilmişdir. Mən bu fürsətdən istifadə edib bizim qətnaməmizi dəstəkləyən ölkələrin nümayəndələrinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bununla bərabər, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM və digər mötəbər beynəlxalq təşkilatlar bu məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmasının mümkünlüyü haqqında bəyanatlar, qərarlar vermişdir. Amma məsələ öz həllini tapmır. Ermənistanın işğalçı siyasəti, azərbaycanlılara qarşı soyqırımı siyasəti - Xocalı soyqırımı, etnik təmizləmə siyasəti 1 milyondan artıq azərbaycanlının öz doğma topraqlarından didərgin düşməsinə səbəb olmuşdur, minlərlə soydaşımız, günahsız insanlar həlak olmuşdur. Etnik təmizləmə siyasəti nəticəsində bu insanlar bu gün elementar insan hüquqlarından məhrumdurlar. İşğal olunmuş torpaqlarda - Dağlıq Qarabağda və onun ətrafındakı 7 rayonda bütün binalar dağıdılıbdır. Bizim mədəni abidələrimiz, əcdadlarımızın məzarları, məktəblər, xəstəxanalar, yollar - hər şey dağıdılıb, hər şey talan edilibdir. Bir neçə il bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş bölgələrə səfər etmişdir və onların məruzəsində dediyim bütün məsələlər öz əksini tapmışdır. Ancaq nədənsə beynəlxalq ictimaiyyət bu məsələyə biganə qalır.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma bu həll ədalətli həll olmalıdır. Kiminsə əsaslanmamış istəkləri əsasında olmamalıdır. Beynəlxalq hüquq əsasında olmalıdır. Beynəlxalq hüquq bütün ölkələrə şamil edilməlidir. Əks-təqdirdə dünyada, dünya birliyində xaos yaranar. Əgər ölkələr beynəlxalq hüquqa məhəl qoymasalar, onda beynəlxalq təşkilatların fəaliyyəti şübhə altına düşür. Beynəlxalq təşkilatlar, hansılar ki, bu məsələyə dair öz qərarlarını açıqlayıblar, onlar özlərinə hörmət etməlidirlər və işğalçı dövlətdən tələb etməlidirlər ki, o, işğala son qoysun. Azərbaycana məxsus olan və bütün dünya birliyi tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınan bölgələrdən çıxsınlar və o zaman bölgədə sülh yarana bilər. Əks-təqdirdə, təhlükələr ancaq artacaq, gərginlik artacaq. Bu münaqişə yalnız Azərbaycana, yaxud da Ermənistana aid deyil. Bütün bölgənin təhlükəsizliyi, bölgədə çox vacib, regional layihələrin və əməkdaşlıq imkanlarının qarşısında dayanan böyük bir maneədir.

Mən sadəcə olaraq, bütün xarici qonaqlar qarşısında öz mövqeyimi bir daha açıqlamaq istəyirəm. Bir daha demək istəyirəm ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında öz həllini tapa bilər. Ermənistanın bütün qoşunları işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ondan sonra Dağlıq Qarabağda yaşayan ermənilərin və ora qayıdacaq azərbaycanlıların birgə yaşaması üçün lazımi tədbirlər görülməlidir və o bölgəyə yüksək özünüidarəetmə muxtariyyət statusu verilməlidir. Bu, beynəlxalq hüquq əsasında özünü artıq müxtəlif yerlərdə tapmış bir yanaşmadır. Bu yanaşma yeganə düzgün yanaşmadır. Mən çox şadam, beynəlxalq təşkilatlar bizim mövqeyimizi müdafiə edirlər. Amma, eyni zamanda, qəbul edilmiş bu qərarlar kifayət deyil ki, məsələ öz həllini tapsın.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma bununla bərabər, bölgədə yaranmış reallıqları da qarşı tərəf anlamalıdır. İqtisadi, hərbi, siyasi cəhətdən Azərbaycan son illər ərzində böyük irəliləyişə nail olubdur. Bir daha demək istəyirəm ki, beynəlxalq hüquq normaları da bizim tərəfimizdədir.

Mən bu məsələyə xüsusilə toxundum. Çünki bizim qarşımızda duran böyük problemlərdən əsası və bəlkə də yeganə problem bu problemdir. Mən beynəlxalq birliyi, burada müxtəlif ölkələrin parlamentlərinin nümayəndələrini çağırıram ki, onlar öz ölkələrində bu məsələni diqqətdə saxlasınlar və sülhü yaxınlaşdıra biləcək addımları atsınlar.

Mən vaxtınızı çox almaq istəmirəm. Bu gün bizim qonaqlarımız öz ürək sözlərini deyəcəklər. Sadəcə olaraq, bir daha demək istəyirəm ki, parlamentin yaranmasının 90 illik yubileyi çox böyük hadisədir, Azərbaycanda bayramdır. Biz öz dövlətçilik ənənələrimizi 1991-ci ildə bərpa etdik, 1993-cü ildə isə müstəqil Azərbaycanın quruculuğu üçün bütün lazımi tədbirlər görülübdür. Bu gün dövlət quruculuğu, dövlətçilik imkanları Azərbaycanda genişlənir.

İlk demokratik respublika iki il yaşadı, müstəqilliyi qoruya bilmədi. Bugünkü Azərbaycan 17 ildən çoxdur müstəqil ölkə kimi yaşayır və əbədi yaşayacaqdır!

***

Azərbaycanlı həmkarlarını yubiley münasibətilə təbrik edən Belarus Nümayəndələr Palatasının sədri Vadim POPOV qeyd etmişdir ki, SSRİ dağılandan sonra Azərbaycan parlamenti hüquqi baza yaradılması və yeni şəraitdə ölkənin həyat fəaliyyətinin təmin edilməsi kimi mürəkkəb bir mərhələdən keçmişdir. Zamanın sınağından uğurla çıxmış Azərbaycan parlamenti ölkənin inkişafında mühüm rol oynayır.

V.Popov Belarusda Azərbaycana həmişə səmimi münasibət bəslədiyini və ölkələrimiz arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf mərhələsində olduğunu vurğulayaraq demişdir ki, bütün bunlar iqtisadiyyatın, mədəniyyətin, elmin və təhsilin bir sıra sahələrində əməkdaşlığı daha da inkişaf etdirməyə imkan verir.

Gürcüstan parlamentinin sədri David BAKRADZE Azərbaycan parlamentinin yaranması tarixinə müraciət edərək XX əsrin əvvəllərində Azərbaycanda və Gürcüstanda cərəyan edən siyasi proseslər arasında oxşarlıq olduğunu vurğulamışdır.

David Bakradze Azərbaycan-Gürcüstan əlaqələrindən söhbət açaraq hazırda çox yüksək sürətlə inkişaf etməkdə olan bu münasibətlərin təməlini qoymuş ümummilli lider

Heydər Əliyevin rolunu xüsusi qeyd etmişdir. Gürcüstan xalqı Heydər Əliyevin millətlərarası münasibətlərin inkişafına böyük töhfəsini yüksək qiymətləndirir.

Parlamentlərarası əlaqələrin çox uğurla inkişaf etməsini vurğulayan David Bakradze bildirmişdir ki, Gürcüstanın yeni seçilmiş parlamentində yaradılacaq ilk dostluq qruplarından biri Azərbaycanla dostluq qrupu olacaqdır.

Qazaxıstan Senatının sədri Qasım Comərd TOKAYEV bildirmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olmuşdur və bu fakt Azərbaycan xalqının azadlıq və xalq hakimiyyəti dəyərlərinə bağlılığının əyani sübutudur.

Qazaxıstan parlamentinin rəhbəri qeyd etmişdir ki, xalqlarımız əsrlər boyu müstəqil dövlət arzusu ilə yaşamışlar. Azərbaycan suverenlik əldə edəndən sonra davamlı inkişaf və quruculuq yoluna inamla qədəm qoymuşdur. "Bu gün sizin ölkəniz iqtisadi göstəricilər və sosial təminat sahəsində Qafqaz regionunun lideridir", - deyən Qasım Comərd Tokayev müasir Azərbaycan dövlətçiliyinin təşəkkülündə Heydər Əliyevin xidmətlərini xüsusi vurğulamışdır.

O demişdir ki, Qazaxıstan parlamentinin üzvləri Azərbaycanın uğurlarına ürəkdən sevinirlər və ölkələrimizin qanunvericilik orqanları arasında əlaqələrin daha da genişlənməsi üçün səy göstərmək əzmindədirlər.

Pakistan Parlamenti Senatının sədri Muhəmmədmian SUMRO Pakistan rəhbərliyinin başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqına salamlarını çatdırmışdır.

Azərbaycan Parlamentinin 90 illik yubileyinin təntənəli qeyd edilməsinin vacib məsələ olduğunu vurğulayan pakistanlı qonaq demişdir ki, bu parlament Şərqdə qurulmuş ilk qanunverici orqandır. Müstəqil Azərbaycanda parlamentin inkişaf etdirilməsində görkəmli dövlət xadimi Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bu proses hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Muhəmmədmian Sumro bildirmişdir ki, onun ölkəsinin Azərbaycan ilə çox yaxşı əlaqələri vardır. Biz bu əlaqələri daha da yaxınlaşdırmaq niyyətindəyik. Bu istiqamətdə parlamentarilərin qarşılıqlı səfərləri vacibdir.

Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini dəstəkləməkdə davam edəcəyini bildirən M.Sumro demişdir ki, Azərbaycanın Pakistana göstərdiyi dəstək onun ölkəsində yüksək qiymətləndirilir.

Polşa Senatının sədri Boqdan BORUSEVİÇ qeyd etmişdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi dünya tarixində mühüm dönüş nöqtəsi idi. Çünki Azərbaycan özünün İstiqlal Bəyannaməsində xalqların öz müqəddəratını təyin etməsi, demokratiya, milliyyətindən və dini etiqadından asılı olmayaraq, vətəndaşların hüquqlarına riayət edilməsi prinsiplərini təsbit etmiş ilk müsəlman ölkəsi oldu. Müstəqilliyin qısa tarixi Polşa və Azərbaycan xalqlarının qismətinə düşmüş bənzəyişdir.

Bu gün Polşa və Azərbaycan gələcəyə inamla baxır. Keçid dövrünün tarixi təcrübəsi, dostluq, strateji tərəfdaşlıq, siyasi və iqtisadi layihələr - bizi birləşdirən ümumi cəhətlərdir. Polşanın Azərbaycanın Avropaya inteqrasiya səylərini dəstəkləyir. Bu məqamla-

rı qeyd edən Polşa senatının başçısı Azərbaycan parlamentinin üzvlərini ölkə tarixində bu əlamətdar gün münasibətilə təbrik etmişdir.

Moldova parlamentinin sədri Marian LUPU yubiley münasibətilə Azərbaycan xalqını təbrik edərək demişdir ki, müstəqillik dövründə Azərbaycan parlamenti ölkənin inkişafında öz üzərinə düşən işi layiqincə həyata keçirmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq aləmdə də əlaqələrinin genişləndiyinin şahidi olduqlarını qeyd edən Marian Lupu, Azərbaycan parlamentinin parlamentlərarası əməkdaşlıq təcrübəsinin nümunə olduğunu vurğulamışdır.

Moldova hazırda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasına sədrlik edir. Bu qurumun yaradılmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük xidmətləri olmuşdur.

Ölkəsinin Azərbaycan ilə əlaqələrinin genişlənməsinə böyük önəm verdiyini qeyd edən Marian Lupu demişdir ki, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi xalqlarımızın mənafeyinə uyğundur.

Rumıniya Senatının sədri Nikolae VEKEROYU əlamətdar yubiley münasibətilə Azərbaycan xalqını təbrik edərək Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunu vurğulamışdır. Qeyd etmişdir ki, cümhuriyyət dövründə qazanılmış uğurlar arasında parlamentin yaradılması vacib məqamlardan biri olmuşdur. Bu parlament dünyada ilk dəfə qadınlara seçmək və seçilmək hüququ vermişdir.

1991-ci ildə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən birinin də Rumıniya olduğunu xatırladan Senatın sədri əlavə etmişdir ki, həmin vaxtdan ötən müddətdə ölkələrimizin müxtəlif sahələrdə əlaqələri inkişaf etməyə başlamışdır. Azərbaycanın Şərqi Avropa ölkələrində ilk səfirliyini Rumıniyada açması münasibətlərimizin yüksək səviyyədə olmasından xəbər verir. Azərbaycan və Rumıniya beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər.

Ölkələrimiz arasında əlaqələrin genişlənməsində dövlətlərimizin başçıları İlham Əliyevin və Troyan Beseskunun qarşılıqlı səfərlərinin əhəmiyyətinə toxunan Nikolae Vekeroyu bildirmişdir ki, Buxarestdə görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan park vardır. Rumınların gözündə Heydər Əliyev Azərbaycan xalqının rəmzidir.

Türkiyə parlamenti deputatlarının yubiley münasibətilə Azərbaycan xalqına təbriklərini çatdıran Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Köksal TOPTAN demişdir ki, 1918-ci ildə elan edilmiş Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət kimi əsasını qoyduğu yeniliklər sonrakı dövrlərdə bir çox ölkələr üçün nümunə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması türk dünyası üçün də önəmli hadisə olmuşdu.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin digər dövlətlər üçün nümunə olduğunu qeyd edən K.Toptan bildirmişdir ki, ölkələrimiz bütün istiqamətlərdə sarsılmaz münasibətlər qurmuşdur.

TBMM sədri demişdir ki, Azərbaycan hazırda sürətlə inkişaf edən ölkəyə çevrilmişdir. Türkiyə bundan böyük qürur duyur. Bu uğur ərazisinin 20 faizinin Ermənistanın işğalı

altında olmasına və 1 milyondan çox qaçqının mövcudluğuna baxmayaraq qazanılmışdır. Dağlıq Qarabağ məsələsi tezliklə həll olunmalıdır.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanın yolu demokratiya yoludur" fikrini xatırladan Köksal Toptan bildirmişdir ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında demokratiya yolu ilə inamla addımlayır. Azərbaycan rəhbərliyinin bu işdə iradəsi böyükdür.

Türkmənistan parlamentinin sədri xanım Akca NURBERDIYEVA Prezident Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan xalqına ən xoş arzularını çatdırmışdır. O demişdir ki, Türkmənistan və Azərbaycan xalqları əsrlər boyu bir-birinə qardaşlıq və dostluq münasibəti bəsləmişlər. Bu gün müstəqil ölkələrimizin sərhədi bizim qəlblərimizdən keçir, Xəzər dənizi bizi ayırmır, birləşdirir. Bu, Türkmənistanın dövlət başçısının ötən ay Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev ilə aparılmış danışıqlarda da öz əksini tapmışdır.

Parlamentlərarası əlaqələrdə də mühüm canlanma müşahidə edildiyini vurğulayan A.Nurberdıyeva bildirmişdir ki, ölkələrimizin qanunverici orqanları üzvlərinin qarşılıqlı əlaqələri Türkmənistan-Azərbaycan münasibətlərini daha da intensivləşdirməyə imkan verəcəkdir.

İran İslam Şurası Məslisinin sədri Əli Larincaninin və deputatların adından başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqını təbrik edən İran İslam Şurası Məslisi sədrinin müavini Seyid Məhəmməd ƏBUTURABİ demişdir ki, parlament hər bir ölkənin qanunverici orqanı olmaqla yanaşı, ölkənin taleyi ilə bağlı qərarların qəbulunda xalqın iştirakının təcəssümüdür.

Ölkələrimiz və onların rəhbərləri arasındaki dostluq münasibətlərinə toxunan Seyid Məhəmməd Əbuturabi bildirmişdir ki, parlamentlərimiz arasında əlaqələr genişlənir. O ölkəsinin Asiya Parlament Birliyi yaradılması təklifini irəli sürdüyünü və Azərbaycanın əməkdaşlığı ilə ilk iclasın ötən il İranda keçirildiyini diqqətə çatdırmışdır.

İranın beynəlxalq qanunlara hörmətlə yanaşdığını qeyd edən natiq əlavə etmişdir ki, onun ölkəsi dövlətlərin ərazi bütövlüyünü dəstəkləyir. İran həmişə Azərbaycanın ərazi bütövlüyünün bərpasına tərəfdar olmuş və beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləmişdir. Bu dəstək bundan sonra da davam edəcəkdir.

O, ölkələrimizin parlamentlərarası əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Rusiya Federasiya Şurası sədrinin müavini Svetlana ORLOVA ölkəmizin həyatında əlamətdar tarixi gün münasibətilə əlaqədar Rusiya parlamentarilərinin təbriklərini çatdırmışdır. O, Federal Məclisin Federasiya Şurasının sədri Sergey Mironovun və Dövlət Dumasının sədri Boris Qrızlovun təbrik məktubunu oxumuşdur. Məktublarda deyilir ki, özünün 90 illik yubileyini qeyd edən Azərbaycan Parlamenti bütün demokratik dövlətlərə xas olan müasir qanunverici orqana çevrilmişdir. Azərbaycanda parlamentarizmin yüksək səviyyəsi Milli Məclisin deputatlarına ölkə qarşısında duran qanunvericilik, siyasi, sosial-iqtisadi məsələləri bundan sonra da uğurla həll etmələrinə imkan verəcəkdir.

Rusiya parlamentinin rəhbərləri Rusiya-Azərbaycan parlamentlərarası əlaqələr məsələsinə toxunaraq son illərdə Azərbaycanın və Rusiyanın qanunverici orqanları arasında yaranmış əlaqələri bərabərhüquqlu və səmərəli münasibətlər kimi qiymətləndirmişlər.

İkitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsinin zəruriliyinə əmin olduğunu bildirən S.Orlova demişdir ki, prezidentlər Dmitri Medvedev və İlham Əliyev tərəfindən həyata keçirilən siyasi xətt qarşılıqlı əlaqələr sahəsində toplanmış təcrübəni ölkələrimizin xalqlarının tərəqqisinə yönəltməyə imkan verəcəkdir.

Rusiya Parlamentinin nümayəndəsi qeyd etmişdir ki, çar Rusiyasında I-ci və 2-ci çağırış dumalarda Azərbaycan fraksiyası ən fəal və ən intellektual fraksiya olmuşdur.

O, bütün həyatını, zəngin biliyini və təcrübəsini Azərbaycanın tərəqqisi naminə sərf etmiş görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsinə dərin ehtiramını bildirmiş, ölkəmizin bugünkü uğurlarında Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərini qeyd etmişdir.

Belçika Krallığı Senatı sədrinin müavini Mark VERVİLGEN demişdir ki, bütün ölkələrdə insan hüquq və azadlıqlarının müdafiəsində, insanların təhsil, sosial problemlərinin həllində parlamentlər böyük rol oynayır. Azərbaycan parlamenti yarandığı gündən bu istiqamətdə mühüm işlər görmüşdür. Zəngin dövlətçilik ənənələrinə, təbii sərvətlərə, qədim mədəniyyətə malik olan Azərbaycanın digər dövlətlər üçün nümunə olduğunu vurğulayan natiq, parlamentariləri dünyanı narahat edən problemlərin həllində birgə əməkdaşlığa çağırmış və bunun müsbət nəticələr verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Bosniya və Hersoqovina Xalq Palatası sədrinin müavini Beriz BELKİÇ Azərbaycan Parlamentini 90 illik yubiley münasibətilə təbrik etmiş, deputatları separatizmin, zorakılığın, təcavüzün bütün hallarına qarşı mübarizəyə səsləmişdir. O demişdir ki, yalnız birgə əməkdaşlıq sayəsində problemlərin həllinə və sülhə nail ola bilərik.

Estoniya parlamenti sədrinin müavini xanım Kristina OYULAND demişdir ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, 1990-cı illərdə müstəqillik uğrunda azərbaycanlıların mübarizəsi və əldə olunan nailiyyətlər olduqca ürəkaçandır. Estoniyada Azərbaycanın problemlərini yaxşı başa düşürlər. Çünki eston xalqı da demək olar ki, eyni tarixi yaşamışdır.

Xanım Oyuland müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində, dünya dövlətləri, eləcə də Estoniya ilə əlaqələrinin inkişafında ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusi vurğulamışdır.

Xorvatiya parlamenti sədrinin müavini xanım Zeljka ANTUNOVİÇ Xorvatiya ilə Azərbaycan arasında əlaqələrin inkişafında dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmişdir. O demişdir ki, Azərbaycanın dinamik inkişafı Xorvatiyada diqqətlə izlənilir. Xanım vitse-spiker Xorvatiya parlament nümayəndə heyətinin Azərbaycana ilk dəfə gəldiyini vurğulamış və bundan sonra parlamentlərarası əlaqələrimizin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

İordaniya Haşimilər Krallığı Senatı sədrinin birinci müavini Tahir əl - MASRİ demişdir ki, Prezident İlham Əliyevin parlamentin təntənəli yubiley yığıncağındakı dərin və məzmunlu nitqi Azərbaycanda dövlət ilə qanunverici orqan arasında münasibətlərin

yüksək səviyyəsinin göstəricisidir. Sonra o, İordaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafında dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmiş, parlamentlərin bu ənənəni davam etdirməsinin vacibliyini vurğulamışdır.

Küveyt parlamenti sədrinin müavini Fəhd Diheysan ƏL-MEEAN ölkəsinin parlament sədrinin salamlarını və təbriklərini çatdırmış, Azərbaycan Parlamentinin 90 illik yubileyinin təntənəli şəkildə qeyd olunmasını tarixi hadisə adlandırmışdır.

Qırğızıstan Ali Şurası sədrinin müavini xanım Çolpon BAYEKOVA qırğız xalqı adından Milli Məclisin rəhbərliyini təbrik etmişdir. Xanım Bayekova Azərbaycan ilə Qırğızıstan arasında əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin xüsusi rolu olduğunu qeyd etmiş, dostluq əlaqələrinin bundan sonra daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

Latviya Seymi sədrinin müavini xanım Vineta MUİZNİECE demişdir ki, bu yubiley Azərbaycan xalqının öz ənənələrini inkişaf etdirməsi istiqamətində atdığı ən vacib addımlardan biridir. Çünki bu tədbir IX-XX əsrlərdə Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsinin bəhrəsidir.

Mərakeş Krallığı Nümayəndələr Palatası sədrinin birinci müavini Nurdin MOUDİAN Azərbaycan Parlamentinin 90 illik yubileyinin qeyd olunmasını dünyada parlament diplomatiyasının inkişafına təkan verəcəyini vurğulamışdır. O demişdir ki, bu gün ölkələrin inkişafında, problemlərin həllində parlamentlər böyük rol oynayır.

Misir Ərəb Respublikası Şura Məclisi sədrinin birinci müavini xanım Zeynəb RİDVAN Misir ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafında dövlətlərimizin başçılarının böyük rolu olduğunu bildirmişdir. O demişdir ki, Prezident İlham Əliyevin Misirə səfəri münasibətlərimizin inkişafında yeni səhifə açmışdır. Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə ciddi irəliləyişlər vardır. Parlamentlərarası dostluq qrupları və hökumətlərarası müştərək komissiya da bu işə öz töhfəsini verir.

Tacikistan Respublikası Nümayəndələr palatası sədrinin birinci müavini Səfər SƏFƏROV yubiley münasibətilə təbriklərini çatdırmış, Azərbaycanın dinamik inkişafının Tacikistanda maraqla izləndiyini, ölkəmizin əldə etdiyi nailiyyətlərdə Milli Məclisin rolunu yüksək qiymətləndirmişdir.

Yunanıstan Parlamenti sədrinin müavini xanım Elsa PAPADEMETRİOU Şərqdə birinci yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlamentinin tarixi əhəmiyyətindən danışmış, dövlət və hökumət başçılarının, eləcə də parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən bəhs etmişdir. O, Azərbaycanda iqtisadi inkişaf ilə yanaşı, siyasi sabitliyin, gender bərabərliyinin, tolerantlığın mövcudluğunu dövlətin balanslaşdırılmış siyasətinin nəticəsi olduğunu xüsusi qeyd etmişdir.

Litva Seymi sədrinin müavini Gintaras STEPANOVİÇİUS bildirmişdir ki, Azərbaycan xalqı 1918-ci ildə qazandığı müstəqilliyi xarici təcavüz nəticəsində itirsə də, mübarizədən dönməmişdir. Bu mübarizə 1991-ci ildə müstəqilliyin yenidən bərpası ilə nəticələnmişdir. Bu, Azərbaycan xalqının şanlı tarixidir. Natiq Azərbaycanın müstəqilliyinin qorunmasında və dönməz xarakter almasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olduğunu xüsusi qeyd etmişdir.

Almaniya Bundestaqının Azərbaycan parlamenti ilə dostluq qrupunun sədri Ştefan RAYXE ölkəmizdə səkkiz ay əvvəl olduğunu, ötən qısa müddət ərzində Bakının daha da gözəlləşdiyini və respublikanın sürətlə inkişaf etdiyini bildirmişdir. Bundestaqın üzvü demişdir ki, Almaniya Azərbaycanın üzləşdiyi problemi yaxşı başa düşür və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdardır.

Avstriya Milli Şurasının Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Karl OLLİNGER demişdir ki, insan hüquqları dünyada ən ümdə məsələdir. O, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının tezliklə bərpa olunmasını və onların öz tarixi torpaqlarına qayıtmalarını arzulamışdır.

Bolqarıstan parlamentinin Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Rəmzi OSMAN Azərbaycan Parlamentinin 90 illik yubileyi münasibətilə təbriklərini çatdırmış, ölkəmizin dinamik inkişafından, Prezident İlham Əliyevin nitqindən məmnun qaldığını bildirmiş, xalqımıza firavanlıq arzulamışdır.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı İcmalar palatasının deputatı baronessa O'KAYN Şərqdə ilk dəfə 1918-ci ildə demokratik parlamentin Azərbaycanda yaranmasını, burada qadınlara seçmək və seçilmək hüququnun verilməsini, qızlar məktəbinin açılmasını çox yüksək qiymətləndirmiş, Azərbaycanda gedən demokratik proseslərin, iqtisadi inkişafın, uğurlu neft strategiyasının başqa dövlətlərə nümunə olduğunu qeyd etmişdir.

Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun sədri Jan-Lui DÜPON ölkələrimiz arasında siyasi əlaqələrin çox yüksək səviyyədə olduğunu bildirmişdir. O demişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan Prezidenti kimi ilk səfərini Fransaya etməsi, Prezident İlham Əliyevin bu xətti davam etdirməsi buna əyani sübutdur. Natiq ölkəsinin yaxın vaxtlarda Avropa İttifaqına sədrlik edəcəyini, bu zaman Fransanın Azərbaycana əsas probleminin həllində daha yaxından kömək göstərəcəyini bildirmişdir.

İndoneziya Respublikası Nümayəndələr Palatası nümayəndə heyətinin rəhbəri Priyo Budi SANTOSO da Azərbaycan Parlamentinin 90 illik yubileyi münasibətilə təbriklərini çatdırmış, ən xoş arzularını bildirmiş, ölkəmizə səfərdən zəngin təəssürat aldığını söyləmişdir.

İsveçrə Konfederasiyası Milli Şurası nümayəndə heyətinin rəhbəri xanım Kristina EGERSZEGİ-OBRİST Azərbaycan-İsveçrə münasibətlərinin inkişaf istiqamətlərindən danışmış, müstəqillik və inkişaf yolunda xalqımıza ən xoş arzularını çatdırmışdır.

Macarıstan Milli Assambleyasının Azərbaycan parlamenti ilə dostluq qrupunun sədri Yanos XORVAT Azərbaycan və macar xalqlarının tarixində oxşar cəhətlərin olduğunu vurğulamış, xalqımızın müstəqillik uğrundakı mübarizəsinin nəticələrini yüksək qiymətləndirmişdir. Natiq Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu xüsusi qeyd etmişdir.

Səudiyyə Ərəbistanı Krallığı parlamentinin Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri Mohsen bin MƏHƏMMƏD ƏAL yubiley münasibətilə təbriklərini və xoş arzularını çatdırmış, ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafında ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətlərindən danışmış,

Azərbaycanın islam ölkələri arasındakı nüfuzunu yüksək qiymətləndirmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov çıxışlara yekun vurmuş, Azərbaycan Prezidentinə, qonaqlara dərin və mənalı çıxışlarına, xoş arzularına görə minnətdarlığını bildirmişdir.

Sonra Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Bununla da Milli Məclisin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağı başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ MƏHƏMMƏD ƏBUTURABİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də İran İslam Respublikası Parlamenti sədrinin müavini Məhəmməd Əbuturabinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdiyi qeyd olundu, ölkələrimizin əlaqələrinin daha da genişlənməsində parlamentlərarası əməkdaşlığın mühüm əhəmiyyət daşıdığı vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Estoniya Parlamenti sədrinin müavini Kristina Oyulandı qəbul etmişdir.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın əhəmiyyəti vurğulandı, ölkələrimiz arasında əlaqələrin Avropaya inteqrasiya istiqamətində və Avropa Birliyi çərçivəsində də önəm daşıdığı qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də ABŞ dövlət katibinin təhsil və mədəniyyət məsələləri üzrə köməkçisi Qoli Amerinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qoli Ameri ölkəsinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini vurğuladı. O, ölkəmizdə olduğu müddətdə təhsil sahəsində məhsuldar görüşlər keçirdiyi və müzakirələr apardığı haqda Prezident İlham Əliyevə məlumat verdi. Qoli Ameri ABŞ-la Azərbaycan arasında təhsil və mədəniyyət sahələrində əlaqələrin bundan sonra daha da genişlənməsi istiqamətində bütün imkanlardan istifadə edilməsini vacib saydı.

Prezident İlham Əliyev təhsilin ölkəmizdə prioritet sahələrdən biri olduğunu vurğuladı

və bu sahədə Azərbaycanda böyük işlərin görüldüyünü qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və bu istiqamətdə əlaqələrimizin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN 9-CU İCLASI KEÇİRİLMİŞDİR

İyunun 20-də Brüsseldə Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin növbəti 9-cu iclası keçirilmişdir.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir. Avropa İttifaqı (Aİ) nümayəndə heyətinə isə qurumun Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya Respublikaları üzrə direktorluğunun rəhbəri Günar Viqand rəhbərlik etmişdir.

İclasda əsasən Avropa Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqı-Azərbaycan fəaliyyət planının həyata keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, insan hüquqları, söz azadlığı, seçkilər kütləvi informasiya vasitələri, habelə Aİ-nin müxtəlif sahələrdə dəstək proqramları müzakirə olunmuşdur.

Səfər çərçivəsində Azərbaycanın Dünya Ticarət Təşkilatına daxil olması məsələsi ilə əlaqədar Azərbaycan və Aİ nümayəndə heyətləri arasında görüş keçirilmişdir.

Görüşdə bir sıra məsələlər nəzərdən keçirilmiş və hər iki tərəfi maraqlandıran mövzular müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT ƏMİRİ APARATININ RƏHBƏRİ ŞEYX NASİR SABAH ƏL-ƏHMƏD ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Küveyt Dövləti Əmiri Aparatının rəhbəri Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Küveyt Əmiri Aparatının rəhbəri Küveyt Əmiri Şeyx Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın xalqımızın ümummilli lideri Heydər Əliyevlə keçirdiyi görüşləri daim böyük ehtiramla xatırladığını dedi. Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabah Küveyt Əmirinin və Baş nazir Nasir Məhəmməd əl-Əhməd əl-Sabahın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkəsinin zəngin tarixi keçmişə malik olan Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlıqda maraqlı olduğunu dedi və əlaqələrimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev siyasi əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığımızın da genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Şeyx Nasir Sabah əl-Əhməd əl-Sabahın Azərbay-

cana bu səfəri də ikitərəfli münasibətlərimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Prezident İlham Əliyev Küveyt Əmiri Sabah əl-Əhməd əl-Cabir əl-Sabahın və Baş nazir Nasir Məhəmməd əl-Əhməd əl-Sabahın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Küveyt Əmirinə və Baş nazirə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əvvəlcə prezidentlərin təkbətək görüşü oldu. Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsindən, bu baxımdan ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə əməkdaşlığının uğurla davam etdirilməsindən məmnunluq ifadə olundu. Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin respublikamıza səfərinin Azərbaycan ilə Dağıstan arasında əlaqələrin iqtisadi və digər sahələrdə genişləndirilməsinə xidmət etdiyi bildirildi.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi. Dağıstan Prezidenti Muxu Əliyevin Azərbaycana ötənilki səfərini xatırladan Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin, o cümlədən respublikamızla Dağıstan arasında əlaqələrin genişlənməsindən məmnunluğunu vurğuladı. Dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə və yeni sahələri əhatə edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Dağıstan Prezidenti Muxu Əliyevin ölkəmizə səfərinin nəticələrinin səmərəli olacağına inamını ifadə etdi.

Dağıstan Prezidenti Muxu Əliyev ötən səfərlərdə olduğu kimi, bu dəfə də Dağıstan nümayəndə heyətinə Bakıda göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. O, Dağıstan xalqının ən xoş arzularını Prezident İlham Əliyevə və Azərbaycan xalqına çatdırdı. Azərbaycan ilə Dağıstan arasında ənənəvi tarixi, mədəni yaxınlığın olduğunu diqqətə çatdıran Prezident Muxu Əliyev, Bakıya növbəti səfərinin də əlaqələrin daha da inkişafına xidmət etdiyini bildirdi.

ASTANADA İKİNCİ AVRASİYA QADINLAR FORUMU KEÇİRİLMİŞDİR

Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyi BMT-nin Qadın İnkişafı Fondu ilə birgə Astanada İkinci Avrasiya Qadınlar Forumu keçirmişdir. Forumda Azərbaycan, Almaniya, ABŞ, Rusiya, Böyük Britaniya, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və digər ölkələrdən ictimai-siyasi həyatda tanınmış, həmçinin biznes sahəsində uğur qazanmış 400-dək qadın iştirak etmişdir.

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva da forum iştirakçıları arasında olmuşdur.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın «Panorama Reports» agentliyinin layihə direktoru xanım Sepide Razmkhaha və müxbiri Andreas Samuelssona müsahibə verir. Bakı, Prezident sarayı, 22 yanvar 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ilə görüşü. Davos, İsveçrə, 24 yanvar 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstan Prezidenti Laslo Şoyomun geniş tərkibdə görüşü. Budapeşt, Şandor sarayı, 18 fevral 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü. Moskva, 21 fevral 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin görüşü. Varşava, Polşa Prezidentinin sarayı, 26 fevral 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pirvanovun təkbətək görüşü. Bakı, Prezident sarayı, 10 mart 2008-ci il



NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Valdis Zatlersin görüşü. Buxarest, Parlament binası, 3 aprel 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Vladimir Voroninin təkbətək görüşü. Bakı, Prezident sarayı, 23 aprel 2008-ci il



Azərbaycanın və İordaniyanın birinci xanımları Mehriban xanım və kraliça Raniyanın görüşü. Bakı, Prezident sarayı, 5 may 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü. Bakı, 12 may 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü. Bakı, 19 may 2008-ci il



Enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuş sammitdə iştirak edən dövlət başçılarının birgə mətbuat konfransı. Kiyev, 23 may 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin təkbətək görüşü. Helsinki, Finlandiya Prezidentinin sarayı, 29 may 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü. Naxçıvan Müxtar Respublikasının Ali Məclisi, 4 iyul 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitrii Medvedevin görüşü. Sankt-Peterburq, Konstantinov sarayı, 6 iyun 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizə işguzar səfərə gəlmiş Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü. Bakı, 30 iyun 2008-ci il



GUAM dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Gürcüstana səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü. Batumi, «Babokvati» Hökumət iqamətgahı. 1 iyul 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizə rəsmi səfərə gəlmiş Rusiya Prezidenti Dmitri Medvedevin nümayəndə heyəti ilə geniş tərkibdə görüşü. Bakı, 3 iyul 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Astananın 10 illiyi ilə əlaqədar təntənəli yubiley tədbirlərində iştirak edən dövlət başçılarının xatirə şəkli. Astana, Qazaxstanın Prezidentinin sarayı – «Ak Orda», 5 iyul 2008-ci il



Türkiyənin Qars şəhərində Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim. Qars, Türkiyə, 24 iyul 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycana işguzar səfərə gəlmiş Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü.
Bakı, 20 avqust 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bakıya işguzar səfərə gəlmiş Rumıniya Prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü.
Bakı, 21 avqust 2008-ci il




Azərbaycan Prezidenti İlham Əliyevin və ABŞ-ın vitse-prezidenti Dik Çeyninin görüşü.
Bakı, 3 sentyabır 2008-ci il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycana rəsmi səfərə gəlmiş Özbəkistan Prezidenti İslam Kərimovun təkbətək görüşü. Bakı, 11 sentyabr 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycana işguzar səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü. Bakı, 10 sentyabr 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyevin Moskvaya işguzar səfəri zamanı Rusiya Federasiyası hökumətinin sədri Vladimir Putinlə görüşü. Moskva, Rusiya hökumətinin Qəbullar Evi,
16 sentyabr 2008-ci il



Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Prezidenti Serj Sarkisyan və Rusiya Prezidenti Dmitri Medvedev Bəyannamə imzalayırlar. Rusiya dövləti başçısının Moskva yaxınlığındakı «Mayn Dorf» iqamətgahı, 2 noyabr 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü. Ankara, Türkiyə Respublikası Prezidentinin iqamətgahı – Çankaya köşkü, 5 noyabr 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisində (TBMM) nitq söyləyir. Ankara, 6 noyabr 2008-ci il



IV Enerji Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi. Bakı, 14 noyabr 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikası Nazirlər Şurasının sədri Silvio Berluskoninin görüşü. Roma, İtaliyanın Nazirlər Şurasının binası, 26 noyabr 2008-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Abdullah Gülün və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun üçtərəfli görüşü. Türkmənistanın Türkmənbaşı şəhəri, 29 noyabr 2008-ci il

BMT baş katibinin gender siyasəti və cəmiyyətdə qadınların vəziyyətinin yaxşılaşdırılması üzrə müşaviri Reyçel Mayanca son illərdə MDB ölkələrində gender bərabərliyinin çox uğurla tətbiq edildiyini bildirmiş, bu sahədə qazanılmış uğurlar haqqında məlumat vermişdir.

Forumda gender siyasətinin istiqamətləri, rəqabətədavamlılıq, əmək və biznes bazarında liderlik, sahibkarlıq və biznes, gender siyasətinin dövlət tərəfindən dəstəklənməsinin əhəmiyyəti, həmçinin dünya qadınlarını narahat edən digər mövzularda müzakirələr aparılmışdır.

Leyla Əliyeva Azərbaycanda bu sahədə görülən işlər haqqında məlumat vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müavini Devid Krameri qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət etdiyi qeyd olundu. Söhbət zamanı ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi ilə bağlı görülən işlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Robert Simmons Bakıda hərbi paradın yüksək səviyyədə keçirildiyini vurğulayaraq, bu münasibətlə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, hərbi paradın bu cür yüksək səviyyədə keçirilməsini ölkəmizdə ordu quruculuğuna göstərilən diqqətin nümunəsi kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni, rusiyalı həmsədri Yuri Merzlyakovu, amerikalı həmsədri Mətyu Brayzəni və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyətinə dair məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinettini qəbul etmişdir.

Rafael Martinetti Azərbaycanın böyük güləş ənənələrinə malik olduğunu bildirərək, Bakıda güləş üzrə Qran-pri beynəlxalq turnirinin yüksək səviyyədə təşkilini və ölkəmizdə güclü güləş komandasının olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Bakıda güləş üzrə Qran-pri beynəlxalq turnirinin keçirilməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanda bu cür idman tədbirlərinin keçirilməsini ölkəmizin beynəlxalq idman aləmində əməkdaşlığının daha da genişlənməsi işinə xidmət etdiyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA DEMOKRATİYA MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ DİALOQ KEÇİRİLMİŞDİR

İyunun 27-də nazir Elmar Məmmədyarov və ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə müavini Devid Kramer Azərbaycan ilə ABŞ arasında demokratiya məsələlərinə dair növbəti dialoq keçirmişlər.

Dialoqda siyasi islahatlar, KİV azadlığı, insan haqları, qanunun aliliyi və s. məsələlər müzakirə olunmuşdur.

Tərəflər demokratiyanın inkişafı sahəsində qazanılan uğurları vurğulayaraq, bir sıra məsələlər üzrə birgə işin vacibliyini qeyd etmiş, habelə demokratiya sahəsində dialoqu davam etdirmək qərarına gəlmişlər.

Dialoqda, həmçinin ikitərəfli, regional və beynəlxalq münasibətlərə dair müxtəlif məsələlər müzakirə edilmişdir.

Növbəti dialoqun bu ilin payızında keçirilməsi haqqında razılıq əldə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QLOBAL EKOLOGİYA FONDUNUN İCRAÇI DİREKTORU XANIM MONİK BARBÜNÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbünü qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə ekologiya sahəsində irimiqyaslı proqramların uğurla icra olunduğunu bildirdi, ekologiya ilə bağlı məsələlərin kompleks şəkildə həlli istiqamətində gələcəkdə geniş planların həyata keçiriləcəyini qeyd etdi. Prezident İlham Əliyev Qlobal Ekologiya Fondu ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, bu baxımdan Fondun icraçı direktoru xanım Monik Barbünün səfərinin əhəmiyyətini vurğuladı.

Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbü ölkəmizdə böyük iqtisadi inkişafın şahidi olduğunu vurğuladı. O, Azərbaycanda ekologiya sahəsində görülən işlərə toxunaraq, bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd etdi. Xanım Monik Barbü ümidvar olduğunu bildirdi ki, birgə layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

İyunun 30-da Ukrayna Prezidenti Viktor Yuşşenko Azərbaycana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 30-da Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizə işgüzar səfərə gəlmiş Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə siyasi, iqtisadi və humanitar sahələrdə hazırda uğurla inkişaf edən ikitərəfli əlaqələrin genişləndirilməsi üçün yüksək səviyyədə görüşlər keçirməyin səmərəli olması qeyd edildi. Dövlət başçıları Azərbaycan ilə Ukraynanın beynəlxalq təşkilatlarda bir-birinin mövqelərini dəstəklədiklərini vurğuladılar. Tərəflər əmin olduqlarını bildirdilər ki, budəfəki səfər Azərbaycan-Ukrayna əlaqələrinin dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyunun 30-da Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İLHAM ƏLİYEV Prezident Viktor Yuşşenkonu salamlayaraq dedi:

- Hörmətli Viktor Andreyeviç!

Hörmətli qonaqlar!

İcazə verin, Sizi Azərbaycanda bir daha salamlayım. Bizim əlaqələrimizin bu cür intensiv xarakter daşıması mənə çox xoşdur. Düz bir ay bundan əvvəl mənim rəsmi səfərim və energetika sammiti çərçivəsində Sizinlə Kiyevdə görüşdük, çox uğurlu və konstruktiv danışıqlar apardıq. Sizin Azərbaycana bugünkü səfəriniz bizim əməkdaşlığın möhkəmləndirilməsi işində daha bir mühüm addımdır.

Bu gün qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdik və mən böyük razılıq hissi ilə demək istəyirəm ki, son illərdə ölkələrimiz arasında əldə edilmiş bütün razılaşmalar bizim milli mənafelərimizə uyğundur.

Sizin bugünkü səfəriniz xüsusən onunla əlamətdardır ki, biz Bakıda Ukrayna xalqının görkəmli oğlu Taras Şevçenkonun abidəsinin açılışında iştirak edəcəyik. Bu hadisə həm Ukraynanın böyük oğlunun xatirəsinə hörmət əlaməti, həm də ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın mühüm elementidir.

Ümumiyyətlə, bizim müzakirə etdiyimiz və daim üzərində iş aparılan məsələlərin bütün spektri barədə mövqelərimiz üst-üstə düşür. Əminəm ki, bu gün fəal müzakirə edilən bütün məsələlər üzrə gələcəkdə müsbət irəliləyişlərin şahidi olacağıq.

Bir daha xoş gəlmisiniz.

Ukrayna Prezidenti VİKTOR YUŞŞENKO səmimi qəbul üçün Azərbaycan dövlətinin başçısına təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Sizin ölkənizin qonağı olmaq mənim üçün həmişə böyük şərəfdir. Biz buraya kifayət qədər böyük nümayəndə heyəti ilə gəlmişik. Həmişə sanballı, konkret mövzulara dair danışıqlarla səciyyəvi olan münasibətlərimizin genişlənməsini qeyd etmək istərdim. Biz gündəlikdəki bütün məsələləri müntəzəm müzakirə edirik. Deyə bilərəm ki, bu məsələlərdə çox uğurlu tərəqqi müşahidə olunur. Energetika sahəsində əməkdaşlıq məsələsinə gəldikdə demək istərdim ki, enerji layihələrinin həyata keçirilməsinin gedişindən, bu layihələrin əməli reallaşmasının sürətlənməsindən razıyam.

Əlamətdar haldır ki, biz bu gün həm Azərbaycanda Ukrayna mədəniyyəti günlərini, həm də Taras Qriqoryeviç Şevçenkonun abidəsini açacağıq. Mənə belə gəlir ki, Ukraynaya ən böyük iltifat göstərmək istəyən millət Taras Qriqoryeviç Şevçenkoya abidə ucaldır. Buna görə Sizə təşəkkür edirəm.

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 30-da Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşenkonun birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Viktor Andreyeviç!

Hörmətli xanımlar və cənablar!

Mən Ukrayna Prezidentini Azərbaycanda bir daha salamlamaq istərdim. Biz bu səfərə çox böyük əhəmiyyət veririk və ona ölkələrimizin rəhbərləri arasında intensiv əlaqələrin davamı kimi baxırıq. Son vaxtlar bu əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlir. Çox fəal siyasi dialoq, iqtisadi əlaqələrdə, humanitar əməkdaşlıqda, energetikada fəallaşma müşahidə olunur. Başqa sözlə desək, bizim münasibətlərimizin formatı kifayət qədər genişdir.

Bunu demək kifayətdir ki, düz bir ay bundan əvvəl mən Ukraynada rəsmi səfərdə olmuşam və həmin səfər çərçivəsində bizim münasibətlərin gələcək inkişafı barədə çox mühüm razılaşmalar əldə edilmişdir.

Bu gün biz Ukrayna Prezidentini ölkəmizdə qəbul edirik. Bu da bizim münasibətlərin nə dərəcədə dinamik inkişaf etməsinin göstəricisidir. Bu gün biz ikitərəfli münasibətlər, regional təhlükəsizlik, regional əməkdaşlıq məsələlərinin çox geniş spektrini müzakirə etdik və bu məsələlərin həllinə yanaşmalarımız oxşardır.

Bu gün biz energetika sahəsində qarşılıqlı əlaqə məsələlərini ətraflı müzakirə etdik. Kiyev energetika sammitindən sonra biz energetika sahəsində əməkdaşlığımızın bütün şərtlərinin razılaşdırılması proseslərinin intensivləşəcəyinə ümid edirik və bu ilin payızında keçiriləcək Bakı sammitinə qədər bizim regionda energetika sahəsində qarşılıqlı fəaliyyəti müəyyənləşdirəcək ciddi qərarlar qəbul etmək niyyətindəyik. Diversifikasiyanın istehlakçılar və malgöndərənlər üçün vacibliyini nəzərə alsaq, bu məsələ bu gün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və Ukrayna bu məsələdə fəal əməkdaşlıq edir və biz bu prosesin daha da fəallaşması üçün bundan sonra da səy göstərəcəyik. Bunun üçün çox yaxşı perspektivlər var və mən ümid edirəm ki, nəzərdə tutduqlarımızın hamısını yerinə yetirəcəyik.

Biz, həmçinin iqtisadi əlaqələrin intensivləşdirilməsi, mümkün qarşılıqlı investisiyalar, bizim şirkətlərin Ukraynada və Azərbaycanda layihələrdə iştirakı məsələlərini, başqa sözlə, ikitərəfli əməkdaşlıq üçün güclü iqtisadi potensial yaradan bütün imkanları müzakirə etdik.

Bu gün Ukrayna ilə Azərbaycan arasında münasibətlərin tarixində əlamətdar gündür. Bu gün Ukrayna xalqının görkəmli oğlu, Azərbaycanda xatirəsi əziz tutulan Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılışı olacaqdır. Bu, ölkələrimiz arasında humanitar sahədə münasibətləri səciyyələndirən mühüm tarixi məqamdır. Bu gün biz həmin əməkdaşlığı yeni formalarla necə zənginləşdirmək barədə konkret danışdıq. Humanitar sahədə əməkdaşlıq xalqlarımızı, dövlətlərimizi bir-birinə yaxınlaşdırır və gələcəkdə də Azərbaycan ilə Ukraynanın beynəlxalq aləmdə iki dost dövlət kimi fəal qarşılıqlı əlaqələri üçün möhkəm zəmin yaradır.

Biz, həmçinin beynəlxalq təşkilatlarda iştirak məsələlərini də müzakirə etdik. Böyük razılıq hissi ilə qeyd edildi ki, biz bir-birimizin bütün təşəbbüslərini dəstəkləyirik. Biz BMT-nin Baş Məclisində Azərbaycan tərəfindən irəli sürülmüş Azərbaycanın işğal

edilmiş ərazilərində vəziyyət haqqında qətnamənin Ukrayna tərəfindən dəstəklənməsini xüsusi minnətdarlıqla qeyd edirik. Bu dəstək - dostluq əlaməti, həmrəylik əlaməti, Ukraynanın Cənubi Qafqazda məsələlərin beynəlxalq hüquq çərçivəsində həll edilməsinə ədalətli yanaşmasının əlamətidir.

Başqa sözlə, bu gün böyük razılıq hissi ilə qeyd etmək olar ki, Ukrayna Prezidentinin Azərbaycana səfəri gələcək münasibətlər üçün təməl yaradır. Bu möhkəm təməl tarixi köklərə, artıq mövcud olan ciddi təcrübəyə əsaslanır. Ümid edirik ki, gələcəkdə də ölkələrimiz arasında əməkdaşlıq səmərəli olacaqdır.

Təşəkkür edirəm.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli jurnalistlər!

Mən ondan başlayardım ki, bizim münasibətlər - Ukrayna ilə Azərbaycan arasında münasibətlər xüsusi xarakter daşıyır. Bunu qeyd etmək mənə xoşdur ki, son illərdə bu münasibətlər yüksələn xətt üzrə, çox dinamik inkişaf edir. İlham Heydər oğlunun bu gün qeyd etdiyi kimi, biz ticarət, investisiyalar, energetika sahələrində əməkdaşlığın əsaslarını nəzərdən keçirdik. Qeyd etmək xoşdur ki, bizim münasibətlər, xüsusən ticarət sahəsində münasibətlər çox sürətli dinamikaya malikdir. Keçən il ticarət əlaqələrimizin həcmi əvvəlki ilin müvafiq göstəricisinin üçdəbir hissəsi qədər artmışdır, yaxın bir il yarımda ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi 1 milyard dollara çatdırılacaqdır. Bu cür münasibətlərin inkişafı üçün bizim yaxşı, normal qanunvericilik bazamız var.

Prezidentlər, hökumətlər səviyyəsində çox fəal dialoq aparılır. Bu, bizim münasibətlərin sabitliyinə, onların xüsusi statusuna dəlalət edir. Ən mühüm bloklar barədə danışmalı olsaq, məmnuniyyətlə qeyd etməliyəm ki, energetika kimi profil məsələlərdə bütün layihələr, o cümlədən Xəzər neftinin Ukrayna ərazisindən Avropa İttifaqına nəql edilməsi layihəsi normal inkişaf edir. Mən Odessa-Brodı-Avropa İttifaqı layihəsinin gələcək inkişafını nəzərdə tuturam. Bu gün həmin marşrut üzrə test nəqli üçün Azərbaycanın texnoloji neftinin çatdırılması barədə həm ekspertlər səviyyəsində, həm də hökumətlər səviyyəsində razılıq əldə edildi. İstehlak və satış portfelinin formalaşması üzrə iş aparılır. Bir sözlə, bu layihə texniki səviyyədə normal davam edir.

Bu gün biz regional səviyyədə təhsil və mədəniyyət sahəsində əməkdaşlıq layihələri barədə danışdıq. Bu məsələlərə dair qərarlarımızı jurnalistlərin diqqətinə çatdırmaq istərdim.

Təhsil sahəsində. Slavyan Universitetinin intensiv işi, burada Ukrayna filologiyası ixtisası üzrə 37 tələbə hazırlanması bizi çox məmnun etdi. Bu il həmin tələbələr Ukraynanın ali məktəblərində təcrübə keçəcəklər. Onların bir hissəsi, demək olar ki, yarısı təhsilini Ukraynanın ali məktəblərində davam etdirəcəkdir. Bu tələbələr təhsili başa vurduqdan sonra Azərbaycana qayıdacaq, təhsil sahəsində işləyəcəklər. Biz Ukraynada Azərbaycan məktəbi və Azərbaycanda Ukrayna məktəbi açılması barədə danışdıq. Biz nazirlərimizə və səfirlərimizə müvafiq tapşırıqlar verdik.

Mədəniyyət sahəsində. Bunu qeyd etmək mənə çox xoşdur ki, bizim bugünkü dialoqumuz nadir bir hadisə ilə - Bakıda Ukraynanın böyük oğlu Taras Qriqoryeviç Şevçenkonun abidəsinin açılışı ilə başlanır. Bu abidə ukraynalı müəlliflər kollektivinin işidir. Mən Azərbaycan tərəfinin ölkə paytaxtında bu abidənin ucaldılması üçün göstərdiyi səyə və köməyə görə İlham Heydər oğluna və Bakının hakimiyyət orqanlarına təşəkkürümü bildirmək istərdim.

Bu gün biz qərara aldıq ki, payızda Azərbaycan Prezidentinin himayəsi altında Taras Qriqoryeviç Şevçenkonun ikicildlik əsərləri nəşr ediləcəkdir. Bu gün biz daha bir layihəni - Ukraynaca-Azərbaycanca ilk lüğətin, bu qəbildən ilk məhsulun layihəsini birgə təqdim edirik.

Biz regionlar səviyyəsində mədəni münasibətlərin inkişafı barədə danışdıq. Ukraynanın regional strukturlarının rəhbərlərindən ibarət böyük bir nümayəndə heyəti yayda Azərbaycana gələcəkdir. Biz payıza qədər - oktyabrda keçiriləcək zirvə toplantısına qədər bir sıra məsləhətləşmələr aparmağı və bir sıra ikitərəfli regional layihələr təqdim etməyi planlaşdırırıq. İnanıram ki, bu gün bizim ikitərəfli münasibətlərin universal inkişafı üçün bu məsələ çox vacibdir.

Biz QNS - qazın nəqli sistemi sahəsində əməkdaşlıq barədə də danışdıq. Bu gün bu istiqamətdə bütün layihələr üzrə normal iş gedir. Bir neçə gün bundan əvvəl Azərbaycanın yüksək səviyyəli nümayəndə heyəti bu sahədə əməkdaşlıq barədə müvafiq protokol razılaşmalarına nail olmuşdur. Başqa sözlə desək, burada münasibətlər yaxşı inkişaf edir.

Biz cari ilin payızında Bakıda Ukrayna sənaye və kənd təsərrüfatı sərgisinin keçirilməsi barədə danışdıq. Hər iki Prezidentin fikrincə, işgüzar səviyyədə əlaqələrin əsas problemi informasiya qıtlığıdır. Buna görə də biz bu qəbildən olan müxtəlif konfranslar, görüşlər, sənaye və kənd təsərrüfatı sərgilərinin keçirilməsini prezidentlər səviyyəsində hər vasitə ilə stimullaşdıracağıq.

Cənab Prezident artıq qeyd etdi ki, beynəlxalq fəaliyyət sahəsində bizim yaxşı əməkdaşlığımız formalaşmışdır. Biz bütün incə məsələlər barəsində, o cümlədən İlham Heydər oğlunun xatırladığı məsələ barədə praktiki olaraq, sinxron mövqelərdə dururuq. Bu Birləşmiş Millətlər Təşkilatı çərçivəsində baxılan və Dağlıq Qarabağla əlaqədar məsələdir. Bu gün biz 1932-33-cü illərdə Ukraynada aclıqdan qırılanlar mövzusunu müzakirə etdik. Bu məsələdə istər beynəlxalq səviyyədə, istərsə də bizim ikitərəfli münasibətlər səviyyəsində Azərbaycan rəhbərliyinin tam dəstəyini görürük.

Bütövlükdə demək istərdim ki, bizim münasibətlər çox dinamik xarakter daşıyır. Bu münasibətlər əməkdaşlığın bütün istiqamətləri üzrə tərəqqi edir və Ukrayna nümayəndə heyəti ilə birlikdə bu gün dost Azərbaycanda olmağım mənə çox xoşdur.

Sağ olun.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Ukrayna mədəniyyətinə göstərilən sayğı və hörmətə - Taras Şevçenkonun abidəsinin açılışına görə cənab Əliyevə və bütün Azərbaycan xalqına təşəkkür etmək istəyirəm. Amma mənim sualım başqa məsələyə aiddir. Cənab Prezidentlər, sizin Kiyev-

dəki son görüşünüz zamanı mətbuat konfransında qeyd edilmişdir ki, iyulun əvvəlinə qədər ekspertlər Odessa-Brodı boru kəmərinə texnoloji neftin nəql edilməsi müddətlərini və həcmini müəyyən edəcəklər. Bununla əlaqədar sualım var. Cənab Yuşşenko, həmin parametrlər müəyyən edilmişdirmi və ekspert qruplarının sonrakı konkret addımları nədən ibarət olacaqdır? Cənab Əliyev, Siz Bakı sammitində hansı ciddi qərarların qəbul olunacağına ümid edirsiniz?

Viktor YUŞŞENKO: Odessa-Brodı-Avropa İttifaqı layihəsinin texniki tərkib hissəsinin reallaşdırılmasına gəldikdə, biz bunu əsas götürürük ki, beynəlxalq müştərək müəssisə bu gün yaradılıb və o, çox dinamik şəkildə işləyir. Bu layihə çərçivəsində bütün sazişlər yerinə yetirilir. Azərbaycan tərəfindən texnoloji neftin nəql olunmasının təmin edilməsi barədə Kiyev sammitində qoyulmuş məsələ bu gün həll edilmişdir. Bütün boru kəməri xətti üzrə operator funksiyalarının "Sarmatiya" birgə müəssisəsinə verilməsi məsələsinə gəldikdə isə, bu gün xidmətlərin həmin növü üzərində dövlət inhisarına malik olan bütün ölkələr səviyyəsində bu məsələyə baxılır. Mənim fikirimcə, bu texniki məsələ də yaxın vaxtlarda həll ediləcəkdir, çünki siyasi səviyyədə heç bir etiraz yoxdur. Yalnız formal üsulla həll edilməli olan bəzi formal məsələlər var.

İlk nəqlə gəldikdə, mənim fikirimcə, bu gün bu məsələ final mərhələsindədir. Birinci vəzifə texnoloji neftin çatdırılması, istehlakçılar portfelinin və təchizat portfelinin formalaşdırılmasıdır. Artıq qeyd etdiyim kimi, bu layihədə hər iki tərəf, o cümlədən müştərək müəssisə də əvvəlki görüşdə əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində fəaliyyət göstərir. Layihənin reallaşması normal davam edir. Detallara gəldikdə isə, mənim fikrimcə, bu məsələni "Sarmatiya" birgə müəssisəsi şərh etməlidir. Burada dövlətlər səviyyəsində heç bir problem yoxdur.

İlham ƏLİYEV: Biz bu layihənin reallaşdırılması çərçivəsində fəal əməkdaşlıq edirik və bildiyiniz kimi, son vaxtlarda bu sahədə böyük irəliləyiş olmuşdur. Nisbətən qısa müddətdə çox iş görülmüşdür və bu gün həmin layihənin tamdəyərli texniki-iqtisadi əsaslandırılması hazırlanır. Əminəm ki, bu sənəd çox əhatəli olacaq və layihənin həyata keçirilməsinə başlamağımıza imkan verəcəkdir.

İlk sınaq neftinin nəql edilməsinə gəldikdə, bu məsələ lap yaxın vaxtlarda gerçəkləşə bilər. Bunun üçün müəyyən işlər aparılmalıdır. Ümumiyyətlə, Azərbaycanın neft potensialı nefti müxtəlif istiqamətlərdə nəql etməyə imkan verir. Mənim fikrimcə, biz bu layihəni praktikada testləşdirmək üçün yaxın vaxtlarda neftin sınaq nəqlinə başlayacağıq. Əlbəttə, texniki-iqtisadi əsaslandırma bu layihənin kommersiya baxımından cəlbediciliyi barədə tam təsəvvür əldə etməyə imkan verəcəkdir. Lakin mən əminəm ki, texniki sınaqlar, yəni neftin praktiki nəql edilməsi daha tam mənzərə yaradacaqdır. Biz buna hazırıq və buna çalışırıq. Fikrimcə, yaxın vaxtlarda, bütün texniki məsələlər, xüsusən Xəzər neftinin Qara dəniz limanlarına çatdırılması yolları barədə razılıq əldə ediləndən sonra biz ilk addımlar atmağa başlayacağıq.

SUAL: Mənim sualım hər iki prezidentədir. Sizin fikrinizcə, Azərbaycan-Ukrayna münasibətləri regional əməkdaşlığın inkişaf etdirilməsi işinə nə kimi töhfə verir?

Viktor YUŞŞENKO: Biz belə hesab edirik ki, bu, bizim ikitərəfli münasibətlərimizin mühüm tərkib hissələrindən biridir. Biz qonşu ölkələr deyilik. Buna görə də, regionda iqtisadi, işgüzar, siyasi münasibətlərimizin necə formalaşması çox vacibdir. Bizim ikitə-

rəfli münasibətlərimizin xeyli hissəsi də bundan asılıdır, ona görə də biz bu baxımdan fəal birgə və regional siyasət yeridirik. Artıq qeyd etdiyim kimi, biz bütün əsas məsələlərdə iqtisadi, siyasi və təhlükəsizlik siyasəti məsələlərində, bir qayda olaraq, ümumi mövqelərdən çıxış edirik.

İlk növbədə onu qeyd etmək istərdim ki, GUAM çərçivəsində bir neçə iqtisadi, o cümlədən enerji və tranzit layihələri həyata keçirilir. "Vikinq" layihəsinin inkişafından danışırıq. Bu layihə xalis regional xarakter daşıyır. Hazırda həmin layihənin genişləndirilməsi, neftin nəql edilməsinə və onun Baltik dənizindən Qara dənizə və Xəzər dənizinə çatdırılmasına nəzarət edəcək rəsmi hüquqi şəxsin yaradılması məsələsinə baxılır. Bu mənada Azərbaycan əsas iştirakçılardan biridir. Tranzitin bu hissəsini inkişaf etdirmək üçün Moldovaya və Gürcüstana da müvafiq təkliflər göndərilmişdir.

Enerji layihələrindən danışırıqsa, Avrasiya neft nəqli dəhlizinin təşkili barədə suala cənab Prezidentin necə cavab verməsinin şahidi oldunuz, biz bu məsələnin yekun mərhələsindəyik. Bu layihənin texniki-iqtisadi əsaslandırılması haqqında məruzənin birinci hissəsi may ayında təqdim edilmişdir. Oktyabr ayında Bakıda keçiriləcək 4-cü enerji sammiti zamanı neft kəmərinin bütün marşrutu üzrə bu layihənin texniki-iqtisadi əsaslandırılmasına dair tam hesabat təqdim ediləcəkdir. Həmin sənədin müsbət olacağına şübhə yoxdur, çünki may ayında təqdim edilmiş məruzə də bütünlüklə bu layihənin iqtisadi baxımdan yüksək səviyyədə olmasını əsaslandıran müsbət məqamlardan ibarət idi. Həmin layihə çərçivəsində bir sıra mühüm məsələlər, o cümlədən Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və bir sıra digər tərəfdaş ölkələrin ərazisində müştərək tarif və tranzit siyasəti məsələləri həll edilir.

Mənim fikirimcə, təhlükəsizlik siyasəti regional siyasətin çox mühüm elementidir. Biz GUAM iştirakçısı olan ölkələrin milli təhlükəsizliyi ilə bağlı məsələləri müntəzəm olaraq GUAM-ın gündəliyinə daxil edirik. Bu məsələ ilə əlaqədar GUAM ölkələrində mövcud gərginlik nöqtələrinə biz çox həssaslıqla yanaşırıq. Dağlıq Qarabağ barədə məsələnin müsbət həllini Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Ukraynanın necə dəstəkləməsinin şahidi olduq. Bu, onu göstərir ki, həm Ukrayna, həm də Azərbaycan bu və ya digər aktual məsələlərin - təhlükəsizlik siyasəti, bizim ticarət və iqtisadi münasibətlərimiz, tranzit sahəsində əməkdaşlıq məsələlərinin həllinə sabit münasibət bəsləyir, bu sahədə onların baxışları formalaşmışdır.

Biz onu əsas götürürük ki, regional komponent bizim ikitərəfli münasibətlərimizin ən həssas komponentlərindən biridir və buna görə də biz həmin komponentin inkişafına çox diqqətlə yanaşırıq.

İlham ƏLİYEV: Regional əməkdaşlıq bizim ikitərəfli münasibətlərimizin mühüm amilidir və biz bu münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu gün biz əməli addımlar atmaqla regional əməkdaşlığı yeni formalarla zənginləşdiririk. Xəzər dənizi - Qara dəniz əməkdaşlığının çox səmərəli və möhkəm formatı artıq yaranmışdır. Bu baxımdan, Odessa-Brodı-Avropa İttifaqı boru kəmərinə dair təşəbbüslər regional əməkdaşlığın tərkib hissəsidir. Biz ümid edirik ki, regional əməkdaşlığın mühüm amili olan energetika iqtisadiyyatın yeni sektorlarının bu sahəyə cəlb edilməsinə şərait yaradacaqdır.

Bu gün biz nəqliyyat, kommunikasiya layihələrinə ciddi əhəmiyyət veririk və bu istiqamətdə çox yaxşı təməl yaradılmışdır. Əminəm ki, burada, Qafqazda və Ukraynada hə-

yata keçirilən təşəbbüslər nəqliyyat tərkib hissəsinin regional formatda daha mühüm rol oynamasına kömək edəcəkdir. Əlbəttə, gələcəkdə regional əməkdaşlıq ölkələrimizin mövqelərindən asılı olacaqdır. Çünki bizim irəli sürdüyümüz təşəbbüslər əməkdaşlığın möhkəmlənməsinə yönəlmişdir. Biz öz münasibətlərimizin regional amilinə ölkələri bir-birinə yaxınlaşdıracaq, Qafqazda sülhün bərqərar olmasına, təhlükəsizliyə, əlverişli investisiya mühiti yaradılmasına, qarşılıqlı ticarətin inkişafına, yəni ölkələri və xalqları yaxınlaşdıran nə varsa hamısına kömək edəcək amil kimi baxırıq. Biz regional əməkdaşlığın möhkəmləndirilməsini çox ciddi məqsəd kimi qarşıya qoymuşuq.

Kiyevdə keçirilən enerji sammiti iştirakçılarının tərkibi artıq onu göstərir ki, bizim regional əməkdaşlıq Xəzər və Qara dəniz hüdudlarından kənara çıxır, bu əməkdaşlığa Baltiya ölkələri də qoşulur. Bütün bunlar regionda əməkdaşlığın yeni elementləridir. Bütün bunlar ölkələrimizin uğurla inkişaf etməsi üçün çox yaxşı ilkin zəmin yaradır. Biz gələcəkdə də bu istiqamətdə fəal iş aparacağıq. Biz səmərəli, konstruktiv işləyəcəyik ki, təhlükəsizlik sistemi möhkəmlənsin və bizim iqtisadi potensialımızın tamdəyərli reallaşması üçün yeni imkanlar yaradılsın.

BAKIDA UKRAYNA SƏFİRLİYİ ÜÇÜN TİKİLƏCƏK BİNALARIN LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ

İyunun 30-da Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşenko Bakıda Ukraynanın yeni səfirliyi üçün ayrılan ərazıyə baxmış və burada tikiləcək binaların layihələri ilə tanış olmuşlar.

Ukrayna səfirliyi üçün ayrılan ərazi Xətai rayonunda, Katolik kilsəsinin yaxınlığında, İzzət Orucova və Nəcəfqulu Rəfiyev küçələrinin arasında yerləşir. Sahəsi 0,9 hektar olan ərazidə səfirliyin binası ilə yanaşı, konsulluq, texniki və yaşayış binalarının inşası da nəzərdə tutulmuşdur.

Dövlət başçılarına məlumat verildi ki, paytaxtın abadlaşdırılan və yeni, müasir tikintilərlə zəngin olan bu ərazisində inşa olunacaq səfirlik kompleksi üçün 2 layihə hazırlanmışdır. Azərbaycan memarlarının təklif etdiyi layihələr Ukrayna və Azərbaycan memarlıq üslublarını özündə birləşdirir.

Dövlət başçılarına səfirlik kompleksinin eskizləri təqdim olundu. Klassik memarlıq üslubunda hazırlanmış birinci layihədə ənənəvi yerli materiallardan və Ukraynanın qırmızı qranitindən istifadə olunması nəzərdə tutulur. Modern üslubda işlənmiş ikinci layihə isə forma etibarilə fərqlənməklə yanaşı, müasir üzlüklər - şüşə və metal materiallardan geniş istifadəni tələb edir.

Kompleksin mərkəzində 440 kvadratmetr ərazini əhatə edən səfirliyin üçmərtəbəli binası yerləşəcəkdir. Digər üçmərtəbəli konsulluq binası üçün 210 kvadratmetr sahə ayrılıb. 463 kvadratmetr ərazini əhatə edən yaşayış binasında diplomatik korpusun əməkdaşları, Ukraynanın Azərbaycanda fəaliyyət göstərən müəssisələrində çalışan nümayəndələri yaşayacaqlar. Doqquzmərtəbəli, ikibloklu binanın birinci mərtəbəsində Ukrayna Mədəniyyət və Sərgi Mərkəzi fəaliyyət göstərəcəkdir. Səfirliyin ərazisində ikimərtəbəli texniki bina da inşa ediləcəkdir. Bina idman-istirahət kompleksi üçün nəzərdə tutulub.

Dövlət başçılarına ərazidə aparılacaq abadlaşdırma işləri barədə də məlumat verildi və bildirildi ki, burada yaşıllıq salınacaq və istirahət üçün hər cür şərait yaradılacaqdır.

Prezidentlər layihələr və görüləcək işlərlə bağlı tövsiyələrini verdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşenko burada xatirə şəkli çəkdirdilər.

BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİ AÇILMIŞDIR

İyunun 30-da Bakının Azadlıq prospekti, 91/23 ünvanında görkəmli Ukrayna şairi Taras Şevçenkonun abidəsinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşenko mərasimdə iştirak etmişlər.

Azərbaycan Dövlət xor kapellasının ifasında Taras Şevçenkonun məşhur əsərlərindən biri olan "Dumı moi dumı" əsəri səsləndi.

Dövlət başçıları mərasimdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Ukrayna-Azərbaycan münasibətlərinin tarixində çox gözəl və əlamətdar bir gündür.

Bu gün Bakıda Ukrayna xalqının böyük oğlu Taras Qriqoryeviç Şevçenkonun abidəsi açılır və bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Ukrayna xalqının böyük oğlu Taras Şevçenko həm dahi şair, həm istedadlı rəssam, həm də çox fəal ictimai xadim idi. Milli azadlıq uğrunda mübarizə onun həyat və fəaliyyətinin çox önəmli tərkib hissəsi idi. Azərbaycanda Taras Şevçenkonun xatirəsinə çox böyük hörmət var. Onun demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. Mən çox şadam ki, bu abidənin açılışında bizimlə bərabər mənim dostum Ukrayna Prezidenti cənab Viktor Yuşenko da iştirak edir. Bu abidənin açılışının Ukrayna-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün çox önəmli rolu vardır.

Bu gün Ukrayna Prezidentinin Azərbaycana işgüzar səfəri çərçivəsində ikitərəfli münasibətlər bir daha təhlil edilmiş və gələcək əməkdaşlıq haqqında vacib qərarlar qəbul edilmişdir. İki ölkə arasında əlaqələr çox sürətlə inkişaf edir. Bildiyiniz kimi, keçən ay mən Ukraynada rəsmi səfərdə olmuşdum, bu gün Ukrayna Prezidenti bizim qonağımızdır. Bütün bunlar onu göstərir ki, bizim aramızda çox səmimi dostluq münasibətləri vardır və bu münasibətlər gündən-günə inkişaf edir.

Keçən ay Ukraynada rəsmi səfərim çərçivəsində mənə Taras Şevçenkonun adını daşıyan Ukrayna Dövlət Universitetinin fəxri doktoru adı verilmişdir. Bu, mənim üçün çox böyük şərəfdir. Çünki bu ali məktəb dünya səviyyəsində çox məşhurdur. Çox şadam ki,

Ukrayna Dövlət Universitetində azərbaycanlı tələbələr də oxuyur. Bakı Slavyan Universitetində isə azərbaycanlı tələbələr Ukrayna dilini öyrənirlər. Bizim aramızda münasibətlər bütün sahələrdə - siyasi, iqtisadi və energetika sahələrində çox sürətlə inkişaf edir. Ancaq bununla bərabər, humanitar sahədə əməkdaşlığın xüsusi önəmi var.

Biz humanitar sahədə əməkdaşlığa çox böyük əhəmiyyət veririk və hesab edirəm ki, Taras Şevçenkonun abidəsinin açılışı bu istiqamətdə çox önəmli bir addımdır. Bizim xalqlarımızın bir-birinə çox böyük rəğbəti vardır və bu abidə bu rəğbətin nümayişidir. Taras Şevçenko milli azadlıq uğrunda mübarizə aparmışdır və çox əlamətdar hadisə ondan ibarətdir ki, bu küçə də Azadlıq prospektidir. Amma bu küçənin əvvəlki adı Lenin prospekti idi. Bu da rəmzi xarakter daşıyır. Ukrayna və Azərbaycan xalqları əsrlər boyu müstəqillik uğrunda mübarizə aparmışlar, müstəqillik əldə etmişdilər, onu itirmişdilər. Ancaq bu gün müstəqil ölkələr kimi uğurla inkişaf edirlər. Taras Şevçenkonun abidəsinin məhz Azadlıq prospektində yerləşməsi xüsusi rəmzi xarakter daşıyır.

Mən, əziz dostlar, bir daha Ukrayna Prezidentini və onunla bərabər Bakıya gəlmiş bütün qonaqları, eləcə də Azərbaycan ictimaiyyətini, Azərbaycanda yaşayan Ukrayna icmasının nümayəndələrini bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI

- Əziz İlham Heydər oğlu!

Əziz Ukrayna icması!

Mən həqiqətən düşünürəm, Ukraynadan bir neçə min kilometr uzaqda olduğum halda Ukrayna icması ilə görüşmək və bu meydanda Taras Qriqoryeviç Şevçenkonun bəlkə də ən yaxşı əsərlərindən birini - "Mənim düşüncələrim"i oxumaq imkanına malik olmaq necə də gözəldir. Bu gün bizi qeyri-adi və təkcə Ukrayna milləti üçün deyil, inanıram ki, hər iki xalq üçün böyük əhəmiyyət kəsb edən çox gözəl bir hadisə birləşdirir. Bu gün biz millətimizin peyğəmbəri sayılan Taras Qriqoryeviç Şevçenkonun xatirəsinə hörmət və ehtiramımızı bildiririk. Bütün dünyada bu insanın şərəfinə hamıdan çox abidə ucaldılmışdır. Dünyada Taras Qriqoryeviç Şevçenkonun onlarca heykəli var və bu gün biz burada, Bakıda onun daha bir abidəsinin açılışının şahidi olmaq imkanına malikik.

Bizi bu meydana gətirən nədir? Nə üçün biz bu gün Taras Qriqoryeviç Şevçenkonun şəxsiyyətinə bu dərəcədə qayğı ilə yanaşırıq? Mən əminəm ki, 200 il bundan əvvəl - nə müstəqil Azərbaycanın, nə də müstəqil Ukraynanın mövcud olmadığı dövrdə, bizim əcdadlarımız müstəqillik arzusu ilə yaşadığı vaxtlarda onların gələcək müstəqilliyi qorumaq və onu dərk etmək üçün bəlkə də ən güclü seçimlərindən biri məhz söz olmuşdur. 200 il bundan əvvəl müstəqil Ukrayna və ya müstəqil Azərbaycan məsələsi yox idi. Lakin 10 ildən, 100 ildən, yaxud 200 ildən sonra bizi bir millət kimi tanıdan dəyərləri necə qoruyub saxlamaq məsələsi gündəmdə idi. Taras Qriqoryeviç yazırdı: "Bizim düşüncələrimiz, bizim mahnımız ölməyəcək, məhv olmayacaq. Ey insanlar, bizim şöhrətimiz, Ukraynanın şöhrəti bunlardır". Şair 200 il və ya 150 il bundan əvvəl göstərirdi ki, Ukrayna milləti məhz Ukrayna sözünün, Ukrayna ənənələrinin, Ukrayna incəsənətinin,

Ukrayna mənəviyyatının vasitəsilə dirçələcəkdir. Əminəm ki, bu, 150-200 il bundan əvvəl hər bir insanın suveren Ukrayna üçün verə biləcəyi ən böyük töhfədir.

Biz Taras Qriqoryeviç Şevçenko haqqında təkcə milli böyüklük və milli mənsubiyyət kontekstində danışmırıq. Əminəm, Şevçenkonun qüdrəti ondadır ki, o, hər bir millət üçün vacib olan dəyərləri bu dünyaya bəxş etmiş və tərənnüm etmişdir. Mən əminəm, burada iştirak edənlərin hər birindən Şevçenkonun ondan ötrü kim olmasını soruşsaq, biri onu yüksək səviyyəli sənətkar, bir başqası öz dövrünün ən yaxşı nəqqaşı adlandıracaqdır. Çünki o, Sankt-Peterburq Rəssamlıq Akademiyasının fərqlənmə diplomunu almışdır. Burada iştirak edənlərdən kimsə deyə bilər ki, Şevçenko öz millətinin iradəsini və azadlığını hamıdan yaxşı tərənnüm edirdi, bir başqası deyər ki, o, əla şair olmuşdur. Biri də deyər ki, o, öz dövrünün böyük filosofu idi. Bu adamların hamısı haqlı olar. Ona görə ki, Şevçenkonun şəxsiyyətində bu cavabların hər biri, dediklərimin hamısı təcəssümünü tapmışdı. Əminəm ki, Taras Qriqoryeviç Şevçenkonun obrazında biz bütün bəşəriyyətə xidmət etmiş bir dahi görürük. Ona görə də bugünkü hadisə, heç şübhəsiz, İlham Heydər oğlunun Ukrayna millətinə böyük ehtiramının ifadəsidir. Bu, Ukrayna və Azərbaycan xalqları arasında ikitərəfli münasibətlərə böyük hörmətin təzahürüdür. Bu, bizim hansı milləti təmsil etməyimizdən asılı olmayaraq, bizi bir-birimizə yaxınlaşdıran dəyərlərə töhfədir.

Bu gün biz elə böyük bir insan haqqında danışırıq ki, onun bəxş etdiyi və tərənnüm etdiyi dəyərlərlə təkcə Ukrayna milləti yaşamır. Buna görə də mən fürsətdən istifadə edib bir il bundan əvvəl bu layihənin həyata keçirilməsi barədə razılığa gəldiyimizə görə İlham Heydər oğluna təşəkkürümü bildirmək istərdim. On iki ay keçdi və biz bütün məsələləri həll etdik. Əminəm ki, bu gün bu möhtəşəm prospektdə ucalan bu abidə həm müstəqil Ukraynanı, həm də müstəqil Azərbaycanı tərənnüm edir. Mən Bakı şəhərinin rəhbərliyinə, heykəltəraşa və layihə müəlliflərinə, bugünkü hadisəyə aidiyyəti olan insanların hamısına təşəkkür etmək istərdim. İşiniz uğurlu olsun. Mən bu gün əllərində Ukraynanın dövlət bayraqları tutub, bu meydanda dayanan insanların hamısına Ukrayna milləti adından, Ukrayna xalqı adından dərin təşəkkürümü bildirirəm. Ukrayna icmasını burada görmək mənim üçün böyük şərəfdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşşenko abidənin üzərindəki örtüyü götürdülər. Dövlət başçıları Taras Şevçenkonun abidəsi önünə əklillər qoydular.

Prezident İlham Əliyev və Prezident Viktor Yuşşenko abidənin müəllifi, Ukraynanın tanınmış heykəltəraşı İqor Qreçanikə bu gözəl işinə görə təşəkkür etdilər.

Dövlət başçıları Taras Şevçenkonun abidəsinin açılış mərasimində iştirak edən Ukrayna diasporunun çoxsaylı nümayəndələri ilə səmimi söhbət etdilər. Ukrayna icmasının üzvləri Azərbaycanda yüksək tolerantlıq şəraitinin hökm sürdüyünü vurğuladılar, onların öz doğma mədəniyyətinə yiyələnməsi, milli özünəməxsusluğu qoruyub saxlaması üçün yaradılmış şəraitə görə ölkəmizin rəhbərliyinə təşəkkür etdilər.

Ukraynanın dövlət strukturlarında məsul vəzifələr tutan, Bakıya məxsusi olaraq iki qardaş xalqın tarixində bu əlamətdar hadisədə iştirak etmək üçün gəlmiş azərbaycanlılar da Prezident İlham Əliyevi və Prezident Viktor Yuşşenkonu salamladılar.

AZƏRBAYCANDA UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ KONSERT

İyunun 30-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanda Ukrayna mədəniyyəti günlərinin açılışı münasibətilə konsert olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenko konsertdə olmuşlar.

Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Ukrayna incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Ukrayna Prezidenti Viktor Yuşşenkonun adından gül çələngləri təqdim edildi.

Konsertdən sonra filarmoniyanın foyesində Azərbaycan Prezidenti İlham Əliyevə Taras Şevçenkonun Bakıda ucaldılmış abidəsinin maketi təqdim olundu. Abidənin müəllifi, ukraynalı heykəltəraş İqor Qreçanik dedi ki, azadlıq mübarizi Taras Şevçenkonun abidəsinin maketinin Azərbaycan Prezidentinə təqdim olunması rəmzi xarakter daşıyır.

Taras Şevçenkonun Bakıda abidəsinin açılmasını əlamətdar hadisə adlandıran dövlətimizin başçısı uğurlu işinə görə müəllifi təbrik etdi.

Bakı Slavyan Universitetinin rektoru, yazıçı Kamal Abdulla Azərbaycan və Ukrayna prezidentlərinə lüğət təqdim etdi.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İyulun 1-də Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycana səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev GUAM dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün iyulun 1-də Gürcüstanın Batumi şəhərinə gəlmişdir.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

İyulun 1-də "Babokvati" Hökumət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişlənməsindən məmnunluq ifadə olundu.

GUAM-ın Batumidə keçirilən sammitinin əhəmiyyətinin vurğulandığı görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının möhkəmləndiyi qeyd olundu.

Görüşdə dövlət başçıları Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə etdilər.

BATUMİDƏ GUAM DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

İyulun 1-də Batumidə Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM Dövlət Başçıları Şurasının iclası olmuşdur.

İclasda Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Ukrayna Prezidenti Viktor Yuşşenko, Moldovanın daxili işlər naziri Valentin Mejinski iştirak etmişlər.

İclası GUAM-ın baş katibi Valeri Çeçelaşvili açaraq gündəlikdəki məsələlər barədə məlumat verdi. Sonra hazırda GUAM-a sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi.

Dövlətimizin başçısı dəvətə və təşkilatçılığa görə Gürcüstan Prezidenti Mixail Saakaşviliyə minnətdarlıq etdi. GUAM çərçivəsində əməkdaşlığın inkişaf etdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyev dedi ki, GUAM-ın beynəlxalq təşkilatlarla da əlaqələri genişlənir. Dövlətimizin başçısı qeyd etdi ki, hazırda sürətli iqtisadi inkişaf yolunda olan Azərbaycan qlobal enerji və nəqliyyat dəhlizinə çevrilmişdir və iqtisadiyyatın müxtəlif sahələrində regional əməkdaşlığın inkişafına öz töhfəsini verir.

GUAM-POLŞA GÖRÜŞÜ

İyulun 1-də Batumidə "İntourist Palace" mehmanxanasında GUAM-Polşa görüşü keçirilmişdir.

Görüşü Gürcüstan Prezidenti Mixail Saakaşvili açdı.

Polşa Prezidenti Lex Kaçinski çıxış edərək ölkəsinin GUAM dövlətləri, o cümlədən Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Prezident Lex Kaçinski xüsusi vurğuladı ki, Polşa GUAM məkanındakı münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Polşa Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etdi. Dövlətimizin başçısı GUAM-Polşa münasibətlərinin inkişafından və regional əməkdaşlıqdan danışdı. Azərbaycan Prezidenti Polşa Prezidenti tərəfindən GUAM-Polşa münasibətlərinin inkişafına göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın GUAM-a sədrliyi dövründə görülmüş işlərdən də danışdı və sonda ümid etdiyini bildirdi ki, bu görüş GUAM-Polşa əməkdaşlığının genişlənməsinə töhfə verəcəkdir.

GUAM ZİRVƏ GÖRÜŞÜNÜN PLENAR İCLASI

İyulun 1-də Gürcüstanın Batumi şəhərindəki "İntourist Palace" mehmanxanasında GUAM zirvə görüşünün plenar iclası keçirilmişdir.

İclasda GUAM-ın üzvü olan ölkələrin dövlət başçıları - Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Ukrayna Prezidenti Viktor Yuşşenko və Moldovanın daxili işlər naziri Valentin Mejinski, habelə qonaqlar - Polşa Prezidenti Lex Kaçinski, Litva Prezidenti Valdas Adamkus, ABŞ dövlət katibinin Avropa və Avrasiya

məsələləri üzrə müşaviri Devid Merkel, Çexiyanın, Rumıniyanın, Yaponiyanın, Beynəlxalq Avtonəqliyyat İttifaqının, MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak etmişlər.

Ümumiyyətlə, zirvə görüşündə müxtəlif ölkələrdən 25-dək nümayəndə iştirak etmişdir.

Zirvə görüşünü Gürcüstan Prezidenti Mixail Saakaşvili açaraq tədbirin iştirakçılarını salamladı.

GUAM-a sədrlik edən Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əvvəlcə mən cənab Prezident Saakaşviliyə və bütün gürcü dostlarımıza zirvə görüşünü əla təşkil etdiklərinə və səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan GUAM-da sədrliyə başladığı Bakıdakı son zirvə görüşündən sonra biz önəmli işlər yerinə yetirmişik.

Biz regional əməkdaşlıq, regionda təhlükəsizlik məsələləri, enerji əməkdaşlığı, nəqliyyat, humanitar fəaliyyət sahələrində sıx işləyirik və bütün sahələrdə praktiki nəticələr görürük.

Biz Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı ölkəmizin BMT-nin Baş Məclisində irəli sürdüyü qətnaməyə verdikləri dəstəyə görə GUAM-ın üzv ölkələrinə və digər dostlarımıza minnətdarlığımızı bildiririk. Ümumiyyətlə, ölkələrimizin ərazi bütövlüyünə beynəlxalq ictimaiyyətin və region ölkələrinin verdiyi dəstək çox vacibdir. Ümid edirik ki, ölkələrimizdə mövcud olan münaqişələr beynəlxalq hüquq və ölkələrimizin ərazi bütövlüyü prinsipi əsasında həll olunacaqdır. Bu, münaqişələrin həll olunmasının yeganə yoludur.

Münaqişələrin bizim üçün çox böyük siyasi, iqtisadi, sosial və mənəvi ağırlıq olması faktına baxmayaraq, Azərbaycan uğurlu inkişaf yoluna nail olub. İqtisadi nailiyyətlər və sosial problemlərin həlli sahəsindəki nəticələr ölkəmizdə tamamilə yeni vəziyyət yaradır. Biz dostlarımız və tərəfdaşlarımızla regional əməkdaşlıq üzərində sıx işləyirik. Bu gün biz Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regionları arasında enerji, daşıma sahələrində və yaxud siyasi sahədə regional əməkdaşlıq üçün çox yaxşı perspektivlərə malikik. İqtisadi münasibətlərimiz genişlənir. Bütün bunlar gələcək əməkdaşlıq üçün çox yaxşı əsaslar yaradır.

Əlbəttə ki, enerji dəhlizlərinin yaradılması regionların bir araya gətirilməsi istiqamətində atılmış əsas addım oldu. Bu gün biz həmin əməkdaşlığın praktiki nəticələrini görürük. Odessa-Brodı-Qdansk boru kəməri layihəsi uğurla irəliyə doğru aparılır. Ümid edirik ki, bu ilin payızında Bakıda keçiriləcək enerji sammitində biz əməkdaşlığın ilk əməli nəticələrinin şahidi olacağıq.

Azərbaycan özünün neft və qaz hasilatını artırır, neft və qazı dünya bazarlarına çatdıran bütün boru kəmərlərindən istifadə edir. İstehsalçı ölkələr ilə istehlakçı ölkələr arasında maraqların tarazlığı səmimi regional əməkdaşlıq üçün ilkin şərtdir. GUAM nümunəsi və

zirvə görüşlərimizdə qonaqlarımızın tez-tez iştirakı maraqların tarazlığının mümkünlüyünü aydın şəkildə nümayiş etdirir. Dostluq, tərəfdaşlıq və strateji baxışlara əsaslanan həmin maraqlar tarazlığı davamlı və uzunmüddətli uğura zəmin yarada bilər.

Bu gün biz daşıma məsələləri üzərində çalışırıq. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi bütün region ölkələri üçün əlavə imkanlar yaradacaqdır. Bu, nəinki bizim ölkələrimizi, o cümlədən Asiya ilə Avropanı bir-biri ilə birləşdirəcək dəmir yolu xətti olacaqdır. Ona görə biz ölkələrimizdə qlobal transmilli enerjidaşıyıcılarının nəqli layihələri, siyasi dəyişikliklər, demokratikləşmə sisteminin, güclü siyasi sistemin yaradılması üzərində uğurla işləyirik. Biz forumlarımızda iştirak edən ölkələrə, ölkə başçılarına minnətdarıq. Onlar təşəbbüslərimizə verdikləri fəal dəstəklə bütün təşəbbüslərimiz üçün münasib şərait yaradırlar. Bu gün Polşa və Litva prezidentləri aramızdadır. Biz Polşa-Litva təşəbbüsü sayılan Krakov təşəbbüsünü belə bir xüsusi formatda birgə irəli sürdük. Bu gün, həmin format uğurla inkişaf etdirilir. Əminəm ki, gələcəkdə onun iştirakçıları daha çox olacaqdır.

Ümumiyyətlə, hesab edirəm ki, keçən ilin iyun ayında keçirilmiş sonuncu zirvə görüşü və Vilnüsdəki yubiley görüşümüzdən sonrakı dövr əməkdaşlığımız üçün çox faydalı və uğurlu olmuşdur. Çox şadam ki, Azərbaycanın sədrliyi dövründə birillik müddət üçün planlaşdırılan bütün nəticələr əldə olunmuşdur.

Bu gün biz məmnunluq hissi ilə sədrliyi Gürcüstana təhvil veririk. Əminəm ki, Gürcüstanın sədrliyi ölkələrimiz və tərəfdaşlarımız arasında münasibətlərin daha da genişlənməsinə və əməkdaşlığın dərinləşməsinə imkan yaradacaqdır.

Çox sağ olun.

***

Sonra Gürcüstan Prezidenti Mixail SAAKAŞVİLİ çıxış etdi, GUAM-a sədrliyi dövründə göstərdiyi səylərə görə Azərbaycana təşəkkürünü bildirdi, Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğuladı. GUAM çərçivəsində əməkdaşlıqdan danışan Gürcüstan Prezidenti bildirdi ki, GUAM ölkələri ərazilərindəki münaqişələrin həlli çox vacibdir. Regionun daha da inkişafı baxımından bu münaqişələr yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Ukrayna Prezidenti Viktor YUŞŞENKO çıxışında GUAM-a sədrlik dövründəki işlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. Qeyd etdi ki, son vaxtlar GUAM-ın fəaliyyəti daha da genişlənmişdir. GUAM ölkələrinin qarşılıqlı ticarət dövriyyəsinin həcminin artması buna əyani sübutdur. Ukrayna Prezidenti enerji dəhlizlərinin reallaşmasında Azərbaycanın əhəmiyyətini xüsusi vurğuladı.

GUAM məkanındakı münaqişələrin həllinə toxunan Ukrayna Prezidenti, bu münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini qeyd etdi. V.Yuşşenko bəyan etdi ki, Ukrayna Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyünü dəstəkləyir.

Moldovanın daxili işlər naziri Valentin MEJİNSKİ, Litva Prezidenti Valdas ADAMKUS, Polşa Prezidenti Lex KAÇİNSKİ, Çexiyanın xarici işlər naziri Karel Şvartzenberq, Rumıniyanın, Yaponiyanın, Beynəlxalq Avtonəqliyyat İttifaqının, MDB İcraiyyə Komitəsinin nümayəndələri də iclasda çıxış etdilər.

* * *

Sonra GUAM zirvə görüşünün sənədləri imzaladı.

BİRGƏ MƏTBUAT KONFRANSI

İyulun 1-də Batumidə GUAM-ın sammitinin plenar iclası başa çatdıqdan sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları əvvəlcə şəkil çəkdirmişlər.

Mətbuat konfransını Gürcüstan Prezidenti Mixail Saakaşvili açmışdır. Zirvə görüşündə vacib məsələlərin müzakirə olunduğunu bildirən Gürcüstan Prezidenti, Batumi sammitinin uğurla keçdiyini qeyd etdi. Bildirdi ki, GUAM üzv və tərəfdaş ölkələrin əməkdaşlığı üçün əhəmiyyətli təşkilatdır.

Ukrayna Prezidenti Viktor Yuşşenko təşkilat daxilində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi və bildirdi ki, bu sammitdə qəbul edilən qərarlar münasibətlərin dərinləşdirilməsi və inkişafı baxımından mühüm addım hesab olunmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuat konfransında bəyanatla çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Əvvəlcə, mən zirvə görüşünün əla təşkil olunmasına və bizə göstərilmiş qonaqpərvərliyə görə Prezident Saakaşviliyə öz minnətdarlığımı bildirirəm və onu təbrik edirəm.

Bu tədbir təşkilatımızın inkişafında vacib bir mərhələ oldu. Azərbaycan ötən il Bakıda GUAM-ın sədrliyini qəbul etdi və biz son bir il ərzində əldə olunmuş nailiyyətləri müzakirə etdik. Bu müddətdə təşkilat daha səmərəli fəaliyyət göstərmişdir. Üzv ölkələr arasında, o cümlədən zirvə görüşündə qonaq qismində iştirak edən ölkələr arasında münasibətlər uğurla inkişaf edir. Bu gün əminliklə deyə bilərik ki, GUAM səmərəli beynəlxalq təşkilata çevrilib. Biz bir-birimizə beynəlxalq səviyyədə və təşkilatlar çərçivəsində dəstək veririk. Biz hər zaman bir-birimizə yardım etməyə çalışırıq. Bir çox halları nümunə kimi gətirə bilərik ki, ölkələrimiz arasında praktiki əməkdaşlıq qarşılıqlı fayda vermişdir. Biz bir-birimizə bütün siyasi işlərimizdə güclü dəstək veririk. Bu gün mən geniş iclas zamanı bildirdim və yenə də bildirmək istəyirəm ki, Azərbaycan BMT-nin Baş Məclisində ölkəmizin işğal olunmuş əraziləri ilə bağlı irəli sürdüyü qətnaməyə dəstək vermiş bütün ölkələrə olduqca minnətdardır. GUAM-ın bütün üzvləri həmin qətnamənin lehinə səs vermişlər. Eyni birlik və həmrəyliyi biz, həmçinin Gürcüstanın öz ərazi bütövlüyü ilə bağlı qətnaməsi irəli sürüləndə gördük.

Regional təhlükəsizlik məsələlərinə göz yummaq olmaz. Çünki gələcək inkişafımız, iqtisadi və sosial tərəqqi məhz regional təhlükəsizlik məsələsindən asılıdır. Bu gün ölkələrimizin ərazi bütövlüyü pozulub. Gürcüstan və Azərbaycan etnik təmizləmə siyasətindən əziyyət çəkir. Bu siyasətin nəticəsində yüz minlərlə vətəndaşımız məcburi köçkün vəziyyətinə düşmüşdür. Onlar mülkiyyətindən, adi insan hüquqlarından məhrum olmuşlar. Bu gün bir milyon insan təcavüz, işğal, separatçılıq və ərazi bütövlüyünün pozulmasından əziyyət çəkir. Biz ərazi bütövlüyünün bərpa edilməsi səylərində həmrə-

yik. Azərbaycanda biz məsələni siyasi yolla həll etməyə çalışırıq. Lakin onun həlli yalnız ərazi bütövlüyü prinsipi və beynəlxalq hüquq normaları əsasında tapılmalıdır. Eyni zamanda, biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün əlimizdən gələni edirik. Bu səbəbə görə, regional təhlükəsizlik məsələsi böyük diqqət tələb edir. Bugünkü sammitdə qəbul olunmuş sənədlər ölkələrimiz arasında gələcək əməkdaşlıq üçün çox əhəmiyyətlidir.

Artıq dostum Prezident Saakaşvilinin qeyd etdiyi kimi, bu gün səhər biz Batumidə yaşayan bir gürcü ailəsinə baş çəkdik. Bizim çox səmimi görüşümüz oldu. Mən bunu mərasim yox, məhz görüş adlandırıram. Bu, adi ailənin prezidentlər ilə keçirdiyi səmimi görüşü idi. Azərbaycan qazı artıq Batumiyə çatmışdır. Bu, tarixi hadisədir. Bu, tarixdə ilk dəfə idi ki, baş verirdi, çünki bildiyimə görə, əvvəllər bu yerlərdə qaz olmamışdır. Beləliklə, bundan sonra Batumi və onun ətraf yerlərində yaşayan sakinlər təbii qaz almağa başlayacaqlar. Bu, yalnız Gürcüstan ilə Azərbaycan arasında aparılan əməkdaşlıq sayəsində mümkün olmuşdur.

Əməkdaşlığımız iqtisadiyyatımıza, siyasi inteqrasiyamıza və təhlükəsizliyimizə, o cümlədən regional əməkdaşlığa böyük təsir göstərir. Biz regionda böyük enerji layihələrini birgə həyata keçirmişik. Əməkdaşlıq regionda siyasi münasibətlər sisteminə güclü təsir göstərir. Artıq sirr deyil ki, enerji təhlükəsizliyi beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilir. Müttəfiqlər, tərəfdaşlar və dost ölkələr kimi Gürcüstan ilə Azərbaycan enerji təhlükəsizliyi işinə böyük töhfə verirlər. Başladığımız layihələr uğurla həyata keçirilib. İndi isə, gündəlikdə daha geniş əməkdaşlığı nəzərdə tutan yeni layihələr var. Hazırda biz Odessa-Brodı-Qdansk layihəsi üzərində Polşa, Ukrayna və Litvada olan dostlarımızla birgə işləyirik.

Əminəm ki, irəli sürdüyümüz təşəbbüslər sayəsində bir çox ölkələr əhatə olunacaqdır. Beləliklə, regional əməkdaşlıq regionlar arasında tərəfdaşlığı daha da gücləndirəcəkdir. Bu gün biz artıq bəyan edirik ki, Xəzər dənizi-Qara dəniz-Baltik dənizi regionu enerji təhlükəsizliyinin, nəqletmə marşrutlarının, yeni dəhlizlərin, xalqlar və ölkələr arasında əlaqələrin təşviq olunmasında səylərini birləşdirir. Bu, müxtəlif regionda yerləşən ölkələrin birləşməsini nümayiş etdirən əla nümunədir.

GUAM bu əməkdaşlıq üçün çox münasib formatdır. Mən GUAM-ın gələcəyinə inanıram. Əminəm ki, Gürcüstanın təşkilatdakı sədrliyi çox uğurlu olacaq. Gələn birillik dövr ərzində nailiyyətlərimiz daha çox olacaq və bunun nəticəsində tərəfdaşlıq və əməkdaşlığımız güclənəcəkdir.

Mən bütün gürcü xalqına dərin dostluq və qardaşlıq hisslərimi ifadə etmək istəyirəm. Xalqlarımız arasında olan münasibətlərin böyük tarixi var. Bu, dostluq və əməkdaşlıq tarixidir. Biz xoşbəxtik ki, bizim nəsil müstəqil ölkələrdə yaşayır. Əsrlər boyu ata-babalarımız xalqlarımızı müstəqil görmək arzusu ilə yaşayıblar, buna çalışıblar. İndi isə, biz bunu görürük. Hazırda biz həmin müstəqilliyimizi və tərəfdaşlığımızı möhkəmləndirmək üçün çalışmalıyıq.

Mən dostum Mixail Saakaşviliyə qonaqpərvərliyə və əla təşkilatçılıq işlərinə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çox şadam ki, bu zirvə görüşü böyük uğurla nəticələndi və gələcəkdə bir çox görüşləri səmimiyyətlə arzulayıram.

Təşəkkür edirəm.

***

Mətbuat konfransında Polşa Prezidenti Lex KAÇİNSKİ çıxış edərək GUAM-la əməkdaşlığın ölkəsi üçün böyük önəm daşıdığını qeyd etdi, enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. GUAM dövlətlərinin Avropa strukturlarına inteqrasiyasını dəstəklədiyini bildirdi, iqtisadi əlaqələrin inkişafına tərəfdar olduğunu söylədi. Polşa Prezidenti qeyd etdi ki, onun ölkəsi GUAM dövlətlərinin ərazi bütövlüyünü dəstəkləyir. Bu ölkələrin ərazi bütövlüyünün pozulması yolverilməzdir.

Litva Prezidenti Valdas ADAMKUS çıxış edərək GUAM-ın əməkdaşlıq baxımından əhəmiyyətini vurğuladı, müasir dövrdə münaqişələrin, dövlətin ərazisinin güc yolu ilə tutulmasının yolverilməz olduğunu bildirdi. V.Adamkus münaqişələrin həllinin regionun daha da çiçəklənməsinə və inkişafına şərait yaradacağını qeyd etdi.

Sonda GUAM-ın baş katibi Valeri ÇEÇELAŞVİLİ bəyanatla çıxış etdi. O, Azərbaycanın sədrliyi dövründə GUAM-ın xeyli inkişaf etdiyini, fəaliyyətinin genişləndiyini bildirdi.

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İyulun 1-də Batumidə Gürcüstan Prezidenti Mixail Saakaşvilinin adından GUAM zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.

***

Elə həmin gün Batumidə GUAM zirvə görüşünün iştirakçıları üçün konsert təşkil olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev konsertə tamaşa etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞÜ

İyulun 1-də Batumidə "İntourist Palace" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Devid Merkel ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi. Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ

İyulun 1-də Batumidə "İntourist Palace" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin genişlənməsindən məmnunluq ifadə olundu. Bu cür yüksək səviyyədə görüşlərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində əməkdaşlığının inkişaf etdiyi qeyd olundu.

Bildirildi ki, Azərbaycan-Polşa əlaqələri Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı baxımından da əhəmiyyətlidir. Dövlət başçıları əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ LONDONDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Böyük Britaniyada işgüzar səfərdə olan Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov iyunun 30-da bu ölkənin Xarici İşlər Nazirliyinin Rusiya, Cənubi Qafqaz və Mərkəzi Asiya, Yaxın Şərq departamentlərində, Xəzər regionu üzrə Enerji Qrupunda bir sıra görüşlər keçirmişdir. Bu görüşlərdə Azərbaycan-Böyük Britaniya münasibətlərinin mövcud səviyyəsindən məmnunluq ifadə edilmiş, müxtəlif sahələr üzrə əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunmuşdur. Tərəflər ikitərəfli əlaqələrin hazırkı vəziyyətindən razı qaldıqlarını, bununla belə münasibətlərin daha da inkişafı üçün geniş potensialın mövcud olduğunu vurğulamışlar.

Görüşdə Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan irimiqyaslı iqtisadi layihələrin regionda sülhün və sabitliyin möhkəmlənməsində xüsusi rol oynadığı da qeyd olunmuş və bunun yeni perspektiv layihələrin işə düşməsinə əlverişli şərait yaratdığı diqqətə çatdırılmışdır. X.Xələfov Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunun getdikcə artdığını və artıq etibarlı tərəfdaş ölkəyə çevrildiyini bildirmişdir.

Görüşlərdə Cənubi Qafqaz, Xəzər və Mərkəzi Asiya regionunda mövcud vəziyyət, Avratlantika strukturlarına inteqrasiya məsələləri, eləcə də regional münaqişələr ətrafında geniş fikir mübadiləsi aparılmış, Ermənistanın Azərbaycana təcavüzünün davam etməsinin inteqrasiya prosesinin dərinləşməsinə ciddi maneə törətməsi xüsusi qeyd olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LUİS MARİA DE PUÇUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Avropa Şurası Parlament Assambleyasının sədri Luis Maria de Puçun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Qonaqların zəngin səfər proqramları barədə məlumatlı olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu səfər Azərbaycanda gedən proseslər barədə daha geniş informasiya əldə etmək üçün yaxşı imkan yaradacaqdır.

Dövlətimizin başçısı bu yaxınlarda Avropa Şurası Parlament Assambleyasının sədri vəzifəsinə seçilən Luis Maria de Puçun ölkəmizə səfərinin əhəmiyyətinə toxunaraq əmin-

liklə qeyd etdi ki, səfər əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Luis Maria de Puç ölkəmizə səfərinin və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünün əhəmiyyətli olduğunu bildirdi. O, cənab İlham Əliyevin Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin rəhbəri olarkən fəaliyyətini xatırladı və onun çıxışlarının həmişə maraqla qarşılandığını qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İyulun 3-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycana rəsmi səfərə gəlmişdir.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyulun 3-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi. Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevi böyük səmimiyyətlə qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Rusiya Prezidentinə raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər İlham Əliyev və Dmitri Medvedev fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Rusiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Dmitri Medvedevə, Rusiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Rəsmi qarşılanma mərasimindən sonra prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV Rusiya dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli Dmitri Anatolyeviç!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram. Sizi görməyimə çox şadam. Bu, Sizin ölkəmizə ilk səfərinizdir və çox xoşdur ki, Siz Prezident vəzifəsində işə başlayandan az sonra Azərbaycana səfər edirsiniz. Bu, bizim əməkdaşlığımızın, ölkələrimiz arasında dostluq münasibətlərinin çox yaxşı əlamətidir. Mən əminəm ki, bu səfər çox uğurlu olacaq və münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcəkdir. Bizim çox geniş gündəliyimiz var, qarşılıqlı maraq doğuran məsələlərin əhatə dairəsi genişdir. Əminəm ki, səfərin nəticələri çox uğurlu olacaq və fəal surətdə irəliləməyimizə imkan verəcəkdir.

Rusiya Prezidenti DMİTRİ MEDVEDEV səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Sizin indicə dediklərinizlə tamamilə razıyam. Sankt-Peterburq zirvə toplantısında razılaşdığımız kimi, Sizə qonaq gəlməyimə çox şadam. Çox yaxşıdır ki, Bakıya rəsmi səfərim belə tezliklə baş tutdu. Əminəm ki, danışıqlarımız konstruktiv keçəcək, yaxşı nəticələr veriləcəkdir. Bu gün Sizinlə imzalayacağımız Bəyannamə və bir sıra sənədlər xalqlarımızın mənafelərinə cavab verəcəkdir.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

İyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü başa çatandan sonra iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə Azərbaycan-Rusiya danışıqları aparılmışdır.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istərdim. Xoş gəlmisiniz! Sizin bu vəzifədə işə başlamağınızdan az sonra Azərbaycana rəsmi səfər etməyinizi biz çox yüksək qiymətləndiririk. Bu, bizim münasibətlərimizin xarakterinin və ruhunun göstəricisidir. Bu səfər ölkələrimiz arasında münasibətləri daha da möhkəmlədəcəkdir. Bu gün biz ikitərəfli və regional xarakterli məsələlərin çox geniş spektrini, beynəlxalq münasibətləri müzakirə etdik. Böyük razılıq hissi ilə qeyd etmək istəyirəm ki, danışıqlarımızın yekunları çox müsbətdir.

Ölkələrimiz arasında münasibətlər ənənələrə, tarixə əsaslanır. Dostluq, mehriban qonşuluq və strateji münasibətlər kimi səciyyələnən bu münasibətlər Azərbaycanın mənafelərinə və əminəm ki, Rusiyanın da maraqlarına tam cavab verir. Mən həmçinin əminəm ki, səfər çox uğurlu olacaqdır. Bizim müzakirə etdiyimiz, planlaşdırdığımız məsələlər, səfərin yekunlarına əsasən imzalayacağımız sənədlər yerinə yetiriləcək və ölkələrimiz arasında münasibətlər yeni səviyyəyə yüksəlcəkdir. Bu münasibətlər bundan sonra da tərəfdaşlıq, strateji və dostluq münasibətləri kimi səciyyələnəcəkdir. Bu, Azərbaycanın milli maraqlarına tam cavab verir. Əminəm ki, bu səfər, - Siz Azərbaycanda əvvəllər də olmusunuz, lakin Prezident kimi buraya ilk dəfə gəlmisiniz, - və onun nəticələri müsbət olacaq, habelə ölkəmizlə, şəhərimizlə bir daha tanışlıq üçün yaxşı fürsət olacaqdır.

Xoş gəlmisiniz!

Rusiya Prezidenti DMİTRİ MEDVEDEV səmimi qəbul üçün təşəkkürünü bildirərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar!

Əlbəttə, Azərbaycan Qafqazda bizim strateji tərəfdaşımızdır. Mən tamamilə razıyam ki, bizi çoxəsrlik tarixi köklər və indiki tərəfdaşlığımızın xüsusi xarakteri, çox güclü əlaqələr birləşdirir və bu, həqiqətən, ən müxtəlif problemlərin həllində kömək edir. Bununla əlaqədar mən onu da demək istərdim ki, bir müddət əvvəl əmtəə dövriyyəsinin həcmini indiki meyarlarla yüksək səviyyəyə - təxminən 2 milyard dollara çatdırmaq barədə qarşıya qoyduğumuz məqsədə nail olmağa əslində yaxınlaşmışıq. Hətta son dörd ayda əmtəə dövriyyəsinin, demək olar ki, yarıbayarı artması müşahidə olunur. Yəni bu sahədə çox yaxşı potensial var. Onu da qeyd etmək lazımdır ki, söhbət təkcə enerji daşıyıcılarından deyil, həm də intellektual məhsullardan gedir, bu isə ölkələrimizin potensialını yaradır. Ona görə də mən bu səfəri mühüm hadisə hesab edirəm. Zənnimcə, bu gün biz Sizinlə həqiqətən çox mühüm, mürəkkəb, ciddi, lakin çox perspektivli məsələləri - qarşılıqlı əlaqələrimizi, həm ticarət-iqtisadi, həm də humanitar sahələrdə əməkdaşlığımızın perspektivli məsələlərini müzakirə etdik. Ümid edirəm ki, bizim həmkarlarımız vaxtı hədər yerə itirməyiblər, indi biz bəzi başqa məsələləri də müzakirə edəcəyik. Müzakirələrin yekunlarına əsasən hazırda əməkdaşlığımızın yüksək səviyyəsini səciyyələndirən müəyyən sayda yeni sənədlər, o cümlədən ölkələrimiz və xalqlarımız arasında dostluğa və qardaşlığa həsr edilmiş birgə Bəyannamə imzalanması nəzərdə tutulur. Bizi Azərbaycana dəvət etdiyinizə görə sağ olun.

RUSİYA-AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI

İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin geniş tərkibdə danışıqları başa çatandan sonra Rusiya-Azərbaycan sənədləri imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Dostluq və strateji əməkdaşlıq haqqında bəyannaməni imzaladılar.

Rusiya Federasiyasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Federal Agentliyi və Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi arasında dövlət əmlakının özəlləşdirilməsi və idarə edilməsi sahəsində əməkdaşlıq haqqında memorandumu Azərbaycan Respublikası Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov və Rusiya Federasiyasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Federal Agentliyinin rəhbəri Yuri Petrov imzaladılar.

Rusiya Federal Gömrük Xidməti və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında Gömrük hüquq pozuntularına qarşı mübarizədə əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikası Dövlər Gömrük Komitəsinin sədri Aydın Əliyev və Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninov imzaladılar.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi arasında Tranzit yüklərin salamatlığının təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyət haqqında memorandumu Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov və Rusiya Federasiyasının daxili işlər naziri Rəşid Nurqaliyev imzaladılar.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi arasında arxivlər sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov imzaladılar.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

İyulun 3-də, Azərbaycan-Rusiya sənədlərinin imzalanma mərasimi başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən Rusiya Prezidentini Azərbaycanda bir daha ürəkdən salamlamaq istərdim. Biz Rusiya Prezidentinin rəsmi səfərinə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfər Rusiya ilə Azərbaycan arasında dostluq, mehriban qonşuluq əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Biz çox səmərəli danışıqlar apardıq, ikitərəfli məsələlərin, regional əməkdaşlıq, beynəlxalq münasibətlər məsələlərinin çox geniş spektrini müzakirə etdik. Məmnuniyyətlə qeyd etmək istərdim ki, gündəliyin bütün bəndləri üzrə bizim mövqelərimiz üst-üstə düşür.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin formatı genişlənir və zənginləşir. Biz siyasi müstəvidə fəal əməkdaşlıq edirik, iqtisadi əlaqələrimiz, əmtəə dövriyyəsi artır, onun strukturu, nəqliyyat və humanitar sahələrdə, təhlükəsizliyin təmin edilməsi və regionumuzda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi sahəsində əməkdaşlıq yaxşılaşır. Bunlar daim müzakirə edilən məsələlərin heç də tam siyahısı deyildir.

Bu gün çox mühüm sənədlər imzalanmışdır, onlar gələcəkdə əməkdaşlığımızın inkişaf istiqamətlərini müəyyən edəcəklər. İmzalanmış sənədlər arasında mən Rusiya ilə Azərbaycan arasında dostluq və strateji tərəfdaşlıq haqqında birgə Bəyannaməni xüsusi qeyd etmək istərdim. Bu Bəyannamənin adı çox şeydən xəbər verir. Biz bir-birimizi dost ölkələr, bir-birini strateji tərəfdaş adlandıran ölkələr hesab edirik. Bu, sadəcə, rəsmiyyət deyil, bizim münasibətlərimizin mahiyyətini əks etdirir.

Bu münasibətlərin möhkəm təməli, dərin tarixi var və bu gün onlar dostluq, mehriban qonşuluq, hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanır. Bəyannamə ikitərəfli əməkdaşlığımızın bütün sahələrini əhatə edir və çox sevindirici haldır ki, Azər-

baycanda bir nömrəli məsələ sayılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də bu Bəyannamədə öz əksini tapmışdır. Həmin sənəddə deyilir ki, münaqişə beynəlxalq hüququn prinsip və normaları əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏT-in qərarları əsasında, dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun olaraq həll edilməlidir. Biz bu mövqeyinə görə Rusiyaya təşəkkür edirik. Əminik ki, bu mövqe, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın münaqişənin həllində fəal iştirakı öz səmərəsini verəcəkdir.

Bu gün biz ənənəvi və potensial enerji əməkdaşlığı məsələlərini fəal müzakirə etdik. Elektrik energetikası sahəsində əməkdaşlığın zəngin tarixi və yaxşı perspektivləri var, neft-qaz sahəsində əməkdaşlıq da tarixi nailiyyətlərə əsaslanır və bu gün biz qarşılıqlı maraq doğuran, karbohidrogen ehtiyatlarından maksimum səmərə ilə istifadə olunmasına xidmət edəcək yeni layihələri nəzərdən keçiririk.

Xəzər dənizinin statusunun tənzimlənməsi ilə bağlı məsələlər də ölkələrimizi birləşdirir. Biz həm Qafqazda, həm də Xəzərdə qonşuyuq. Regionda proseslərin inkişafı və iqtisadi inteqrasiya məsələləri xeyli dərəcədə bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsindən asılıdır.

Bizim münasibətlərimizin humanitar formatı genişlənir. Bu gün mən Dmitri Anatolyeviçə dedim ki, Azərbaycanda təhsilin rus dilində aparıldığı 300-dən çox məktəb var. Onlardan 19-u xalis rus məktəbidir, həmin məktəblərdə tədris yalnız rus dilində aparılır. Bu yaxınlarda Azərbaycanda Moskva Dövlət Universitetinin filialının yaradılması haqqında qərar qəbul edilmişdir. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır, burada rus dilində çoxlu qəzet nəşr edilir. Başqa sözlə desək, Azərbaycanın rusdilli vətəndaşlarının hərtərəfli inkişafı üçün zəruri olan bütün işlər görülür. Buna görə də əməkdaşlığın humanitar formatı, təbii ki, münasibətlərimizdə mühüm yer tutur. Biz gələcəkdə də bu əməkdaşlığı yeni formalarla və yeni layihələrlə zənginləşdirmək üçün səy göstərəcəyik.

Bir sözlə, ikitərəfli münasibətlərimiz haqqında və onların burada, Qafqazda oynadığı rol haqqında çox danışmaq olar. Mən sizin vaxtınızı almaq istəmirəm. Onu demək istəyirəm ki, müzakirə edilən bütün məsələlər barədə bizim qarşılıqlı anlaşmamız var, nailiyyətləri və ən başlıcası, gələcək perspektivləri ümumi mövqedən qiymətləndiririk. Əminəm ki, səfər uğurlu başladığı kimi, uğurlu da davam edəcək və münasibətlərimizin daha da inkişaf etdirilməsi və dövlətlərimizin daha da yaxınlaşması işində çox mühüm addım olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, qonaqpərvər Bakıda keçən bu səmərəli görüş üçün Azərbaycan Prezidentinə və bütün azərbaycanlı dostlara təşəkkür etmək və Rusiya-Azərbaycan münasibətləri-

nin vəziyyətinə indicə verilən qiymətlərlə tam razılaşdığımı bildirmək istərdim. Biz bütün məsələləri dostcasına, işlərimizin çox yaxşı vəziyyətdə olmasını və gələcək üçün çox əlverişli planlarımız olmasını nəzərə almaqla müzakirə etdik.

Güman edirəm ki, bu ilin payızında Bakıda keçirilməsi nəzərdə tutulan gənc ifaçılar festivalı yeni istedadları üzə çıxaracaq və mədəni həyatda gözəl, əlamətdar hadisə olacaqdır.

Biz başqa mövzuları da müzakirə etdik. Dağlıq Qarabağ münaqişəsinin həlli problemindən də yan keçmədik. Bu, mürəkkəb prosesdir və biz imkan daxilində onun irəliləməsinə kömək edəcəyik. Bəzi cüzi irəliləyişlər var. Hər halda, biz iyunun 6-da Sankt-Peterburqda Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların bərpa olunmasını tamamilə dəstəkləyirik. Bir daha vurğulayıram ki, Rusiya bu məsələnin qarşılıqlı məqbul həllinin tapılmasına bundan sonra da kömək edəcəkdir.

İlham Heydər oğlunun qeyd etdiyi daha bir məsələ Xəzər mövzusudur. Biz necə işləməli olmağımız barədə, qarşıdakı zirvə toplantısı haqqında danışdıq. Razılaşdıq ki, zirvə toplantısını onun qəti gündəliyi formalaşandan sonra, o cümlədən Xəzərdə təhlükəsizliyə dair saziş məsələlərinə baxılandan sonra keçirmək lazımdır. Bu, ötən il Tehranda qəbul edilmiş qərarlara uyğundur. Başqa sənədlər də hazırlana bilər. Bu halda müvafiq tədbirin, Xəzəryanı dövlətlərin rəhbərlərinin müvafiq görüşünün keçirilməsi də məqbul və zəruri olacaqdır.

Bir daha vurğulamaq istərdim ki, aparılmış danışıqlar Rusiya-Azərbaycan münasibətlərinin inkişafında, ölkələrimiz, xalqlarımız arasında strateji tərəfdaşlığın və dostluğun möhkəmlənməsində mühüm mərhələ oldu.

İcazə verin, əsl dostluq və işgüzarlıq ruhlu qarşılıqlı fəaliyyətə görə Prezident İlham Əliyevə bir daha təşəkkürümü bildirim.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANI AĞADADAŞ SƏMƏDOVA 2-Cİ VƏ 3-CÜ DƏRƏCƏLİ ŞÖHRƏT ORDENLƏRİ TƏQDİM ETMİŞDİR

Azərbaycanda rəsmi səfərdə olan Rusiya Prezidenti Dmitri Medvedev iyulun 3-də Böyük Vətən müharibəsi veteranı Ağadadaş Səmədova 2-ci və 3-cü dərəcəli Şöhrət ordenləri təqdim etmişdir.

Rusiya dövlətinin başçısı mərasimdə çıxış edərək dedi:

- Bu gün burada mənim üzərimə çox xoş bir missiya düşür.

Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar, mən bu şərəfli missiyanı yerinə yetirmək - Böyük Vətən müharibəsi veteranı Ağadadaş Əbülqasım oğlu Səmədova 2-ci və 3-cü dərəcəli Şöhrət ordenlərini təqdim etmək istərdim. Bu yüksək təltiflərə o, hələ 1945-ci ildə layiq görülmüşdü, lakin ağır yaralanması onun həmin təltifləri vaxtında almasına mane olmuşdu və sovet dövründə deyildiyi kimi, bu təltiflər uzun müddət öz qəhrəman sahibini axtarırdı. Lakin tarixin həqiqətləri zamana tabe olmur və veteranların igidlikləri, Böyük Vətən Müharibəsi iştirakçılarının hünərləri bütün qədirbilən nəsillərin ürəyində yaşayır. Biz müvafiq sənədləri qoruyub saxlayırıq və pulemyotçu Səmədovun təltif vərəqələrini oxuyarkən

laqeyd qalmaq mümkün deyildir. O illərin qısa rəsmi arayışları arxasında, saralmış səhifələr arxasında bu cəsur insanın igidlikləri və əsl fədakarlığı dayanır.

Bu yaxınlarda xalqlarımız faşist işğalçıları üzərində Qələbənin 63-cü ildönümünü qeyd etdilər. Biz bu qəhrəmanlıqla fəxr edirik. Yəqin ki, siz də həmin gün öz yoldaşlarınızı, cəbhələrdə keçən gəncliyinizi xatırlamısınız. Mən əminəm ki, Birliyin bütün dövlətlərinin xalqları qəhrəmanların xatirəsini həmişə hörmətlə yad edəcəklər. O şanlı dövrün xatirəsinə ən böyük ehtiram isə bizim xalqlarımız arasında, Rusiya və Azərbaycan xalqları arasında ən möhkəm dostluq münasibətlərini qoruyub saxlamaq olacaqdır.

Sizi bu layiqli və uzun müddət gözlədiyiniz təltif münasibətilə ürəkdən təbrik edirəm, Sizə uzun ömür arzulayıram. Hələ neçə-neçə qələbə baharlarını sağ-salamat qarşılamağınızı arzu edirəm. Təbrik edirəm.

Rusiya Prezidenti veterana onun 1945-ci ilin fevral və iyul aylarında layiq görüldüyü 2-ci və 3-cü dərəcəli Şöhrət ordenlərini təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev veteranı layiqli təltif münasibətilə təbrik etdi.

Veteran Ağadadaş Səmədov təltifə görə Rusiya Prezidentinə təşəkkür etdi.

Dövlət başçıları və Şöhrət ordeni kavaleri xatirə şəkli çəkdirdilər.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞÜ

İyulun 3-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandr ata, Dağ yəhudiləri dini icmasının başçısı Semyon İxilov ilə görüşmüşdür.

Prezident Dmitri Medvedev din xadimlərini salamlayaraq dedi ki, bu görüş Azərbaycanda konfessiyalararası münasibətlərin müsbət xarakterinin təsdiqidir. Rusiya Prezidenti milliyyətindən və dini etiqadından asılı olmayaraq, insanların birləşməsində dini liderlərin fəaliyyətini yüksək qiymətləndirmişdir. Prezident Dmitri Medvedev Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müxtəlif dinlər arasında dialoq və qarşılıqlı əlaqələr üçün əlverişli şərait yaradılmasına yönəlmiş səylərini vurğulayaraq bildirdi ki, islamın həqiqi təbiəti, hər bir mənəvi təlimin həqiqi təbiəti məhz bunda təzahür edir. O dedi: "Görünür ki, bu, Qafqazda sabitliyin əsas amillərindən biridir".

Rusiya dövlətinin başçısı bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevlə görüş zamanı beynəlxalq terrorizmə qarşı mübarizə işində dövlətlərarası əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Prezident Dmitri Medvedev vurğulamışdır ki, bu baxımdan konfessiyalararası dialoqun müstəsna əhəmiyyəti vardır. Sülh və xeyirxah münasibətlər tamam başqa nəticələrə gətirib çıxarır və bu baxımdan, Azərbaycanda daxili vəziyyət çox sakit, nümunəvidir, bu sakitliyin qədrini bilmək lazımdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə dedi ki, Azərbaycanda Rusiya ilə əməkdaşlığın inkişaf etdirilməsini, onunla sıx əlaqələr yaradılmasını alqışlayırlar. Din xadimləri iki ölkə prezidentlərinin Azərbaycan ilə Rusiya arasında

qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişləndirilməsinə yönəlmiş təşəbbüslərini bəyənir və dəstəkləyirlər.

Şeyxülislam Qafqazda sülhün bərqərar olması üçün bir dindar və vətəndaş kimi gördüyü işlər haqqında, Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi ilə özünün dostluğu barədə də danışdı. O, xüsusi vurğuladı ki, Azərbaycanda dindarlar arasında çox səmimi qardaşlıq münasibətləri var.

Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandr ata və Dağ yəhudiləri dini icmasının başçısı Semyon İxilov bildirdilər ki, Azərbaycanda dindarların dini ayinləri icra etmələri üçün hər cür şərait yaradılmışdır, bu ölkədə əsl dini etiqad azadlığı vardır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Rusiya Prezidenti Dmitri Medvedev iyulun 3-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Rusiyanın dövlət başçısını səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.

Rusiya Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr edilmiş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Dmitri Medvedev Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Rusiya Prezidentinə hədiyyə təqdim olundu.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 3-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İcazə verin, Prezident Dmitri Anatolyeviç Medvedev başda olmaqla Rusiya Federasiyasının nümayəndə heyətini bir daha ürəkdən salamlayım və səfərin nəticələrindən çox məmnun olduğumu bildirim.

Biz çox şadıq ki, Rusiya Prezidenti özünün ilk rəsmi səfərlərindən birini bizim ölkəmizə etmişdir. Biz bunu dostluq əlaməti kimi, ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri kimi səciyyələndirdiyimiz münasibətlərin yüksək səviyyəsinin ifadəsi kimi qiymətləndiririk.

Xalqlarımız arasında münasibətlərin çoxəsrlik tarixi var. Xalqlarımız yüzilliklər boyu sülh, dostluq, əməkdaşlıq şəraitində yaşamış, həmişə fəal qarşılıqlı əlaqə saxlamışlar. Çox xoşdur ki, Sovet İttifaqı dağılandan sonra Rusiya ilə Azərbaycan arasında münasibətlər, xüsusən indiki mərhələdə, 2000-ci illərdən başlayaraq çox dinamik, konstruktiv şəkildə inkişaf edir. Bu əlaqələr səmimi, mehriban qonşuluq və dostluq münasibətlərinə əsaslanır.

Bugünkü səfər buna parlaq sübutdur. Bu gün biz ikitərəfli maraq doğuran məsələləri müzakirə etdik, əvvəlki uğurlarımızı təhlil etdik. Əlbəttə, münasibətlərin gələcək perspektivlərini müzakirə etdik ki, bu da çox əhəmiyyətli məqamdır. Xüsusən ona görə ki, Azərbaycan və Rusiya Xəzər dənizi regionunda və Qafqaz regionunda baş verən proseslərə təsir göstərən ölkələrdir. Ona görə də regionda gələcəkdə yaranacaq vəziyyət ölkələrimiz arasında səmimi qarşılıqlı əlaqələrdən, səylərimizi əlaqələndirməkdən, təhlükəsizliyin möhkəmləndirilməsi naminə fəal işləməkdən, əməkdaşlıqdan, iqtisadi və humanitar inkişafdan çox asılı olacaqdır.

Bu gün biz böyük razılıq hissi ilə qeyd edirik ki, kifayət qədər geniş əhatəli münasibətlərimizin gündəliyinin bütün bəndləri üzrə tam anlaşma var, bizim yanaşmalarımız eynidir. Başa düşürük ki, bizim münasibətlərimiz indiyə qədər olduğu kimi, bundan sonra da səmərəli və dinamik inkişaf etməlidir.

Bu gün müzakirə edilən mövzular arasında regional təhlükəsizlik, regional əməkdaşlıq, enerji təhlükəsizliyi məsələləri, energetika sahəsində əməkdaşlıqla bağlı mövcud layihələr, gələcək üçün potensial layihələr vardır ki, bunlar da ölkələrimizi daha sıx birləşdirəcək və qarşılıqlı əmtəə dövriyyəsini daha da artırmağa, nəqliyyat, kommunikasiyalar, texnologiyalar, təhsil və humanitar sahədə əməkdaşlığı genişləndirməyə imkan verəcəkdir. Bu gün praktik olaraq bütün istiqamətlər üzrə qazanılmış uğurlar təhlil olunmuş və gələcəyə aparan yollar müəyyən edilmiş, dialoqun intensivləşdirilməsi və bütün planlarımızın sürətlə həyata keçirilməsi barədə müvafiq strukturlara konkret tapşırıqlar verilmişdir.

Əlbəttə, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər kifayət qədər çoxsahəlidir. Lakin mən humanitar sahədə əməkdaşlığı xüsusi vurğulamaq istərdim. Şübhə yoxdur ki, əmtəə dövriyyəsi artır, biz yeni sahələri əhatə edən qarşılıqlı əməkdaşlığın potensialını genişləndiririk. Lakin ölkələrimiz arasında gələcək münasibətlərin əsasını, müstəqil Azərbaycan və müstəqil Rusiya şəraitində böyüyən və püxtələşən gələcək nəsillərin formalaşdıracağı münasibətlərin əsasını əlbəttə, humanitar sahə təşkil edəcəkdir. Hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında bu istiqamətdə əməkdaşlıq başqa ölkələr üçün nümunə sayıla bilər.

Azərbaycanda rus mədəniyyətinə, rus dilinə çox qayğıkeş münasibət bəsləyirlər. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycanda yaşayır və biz bunu regionda şəraitin tarixi inkişaf amili kimi qiymətləndiririk. Eyni zamanda, elə bir amil hesab edirik ki, müstəqillik əldə olunduqdan sonrakı 17 ildə ölkəmizdə elə vəziyyət yaranmışdır ki, burada yaşayan bütün millətlərin nümayəndələri özlərini rahat, sərbəst hiss edir, bir böyük ailə kimi dolanırlar. Ölkəmizdə millətlərarası sülh və konfessiyalararası dialoq bizim uğurlu inkişafımızın əsasıdır. Heç şübhəsiz ki, Qafqazda ən böyük icma və Azərbaycanda yaşayan icmalardan ən böyüyü olan rus icması bu baxımdan çox mühüm rol oynayır. Azərbaycanda rus teatrı fəaliyyət göstərir, Moskva Dövlət Universitetinin filialı yaradılır, tədrisin rus dilində aparıldığı 300-dən çox məktəb var, rus dilində çoxsaylı, Sovet İttifaqı dövründə olduğundan daha çox qəzet çıxır.

Mən bunları təkcə əldə edilmiş uğurları bir daha vurğulamaq üçün deyil, həm də ölkələrimiz arasında münasibətlərin ruhunu bir daha ifadə etmək üçün deyirəm. Bizim çox yaxşı əlaqələrimiz, qarşılıqlı iqtisadi münasibətlər, siyasi dialoq, neft-qaz, nəqliyyat və s. sahələrdə konkret layihələrimiz ola bilər. Ümumiyyətlə, bu istiqamətdə səylərin artmasını müşahidə edirik və gələcəkdə bu səyləri artırmaq ümidindəyik. Lakin mən hesab edirəm ki, xalqlarımızın mənəvi yaxınlığı, səmimi münasibətlər, qonşuluq münasibətləri heç də az əhəmiyyəti olmayan amillərdir. Hər şeydən əlavə, Rusiya və Azərbaycan həm də qonşu ölkələrdir. Qonşular arasında münasibətlər heç də arzu edilən kimi olmur. Biz bunu öz regionumuzun və daha geniş coğrafi məkanın tarixindən bilirik.

İndiki halda mən hesab edirəm ki, ölkələrimizin münasibətləri qonşular arasında, böyük ölkə ilə coşğun inkişaf edən ölkə arasında, vaxtilə bir dövlətdə yaşamış və hazırda iki müstəqil dövlət kimi öz münasibətlərini dostluq, mehriban qonşuluq, qarşılıqlı kömək, qarşılıqlı dəstək və hüquq bərabərliyi əsasında quran ölkələr arasında münasibətlərə nümunə ola bilər.

Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. Bir daha demək istəyirəm, nəinki mən, Azərbaycanın bütün ictimaiyyəti bu faktı çox yüksək qiymətləndirmişdir ki, Azərbaycan Rusiya Prezidentinin səfər etdiyi ilk ünvanlardan biridir. Əminəm ki, bu əlaqələr gələcəkdə də intensiv davam edəcək və ölkələrimiz arasında, xalqlarımız arasında münasibətlərin inkişafına xidmət edəcəkdir.

Mən bu badəni Rusiya Prezidenti Dmitri Anatolyeviç Medvedevin sağlığına, dost Rusiya dövlətinin tərəqqisi şərəfinə, Azərbaycan ilə Rusiya arasında dostluq şərəfinə qaldırmaq istəyirəm.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli Mehriban Arif qızı!

Hörmətli dostlar!

Hörmətli həmkarlar!

Bu gün Azərbaycanda səfərdə olmağım mənə çox xoşdur. Bunun müxtəlif səbəbləri var. Lakin ilk növbədə ona görə ki, biz buraya dostlarımızın yanına qonaq gəlmişik və

bugünkü danışıqlar, bugünkü görüşlər də bizim əməkdaşlığımızın nə qədər dinamik, nə qədər əsaslı olduğunu göstərdi.

Bu axşam vaxtı sizi rəqəmlərlə, danışıqların yekunları barədə faktlarla yormaq istəmirəm. Hərçənd, mənim fikrimcə, bu danışıqlar özləri hər şeyi göstərdi. Bu danışıqlar bir-biri ilə çox sıx əlaqə saxlayan, bütün istiqamətlərdə - həm energetika, həm sənaye, həm də sosial-humanitar istiqamətlərdə birgə işləyən iki dövlət arasında danışıqlardır. Əlbəttə, bütün bunlar ölkələrimizin son illərdəki inkişafının nəticələridir.

Zənnimcə, biz hələ çox iş görməliyik. Xüsusən ona görə ki, bir sıra layihələr həqiqətən gələcəyə istiqamətlənmişdir. Biz hər iki ölkə üçün faydalı olan iri layihələrin maddiləşməsi üçün, onların xalqlarımıza, dövlətlərimizin mənafelərinə xidmət etməsi üçün səylərimizi əsirgəməyəcəyik.

Dünya inkişaf edir və onun problemləri azalmır. Buna görə də mən belə hesab edirəm ki, bizim müntəzəm əlaqələrimiz, ən mürəkkəb beynəlxalq məsələləri, postsovet məkanında mövcud olan məsələləri, mürəkkəb dövlətlərarası problemləri müzakirə etməyimiz yalnız işin xeyrinədir. Bugünkü dialoq bunu növbəti dəfə nümayiş etdirdi.

İlham Heydər oğlu ilə biz, demək olar ki, bütün beynəlxalq problemləri gözdən keçirdik, həm uzaq xaricdə, həm də postsovet məkanında münasibətlərin necə qurulması barədə danışdıq. Biz, demək olar ki bütün beynəlxalq məsələlərə dair fikir mübadiləsi etdik və bu göstərdi ki, bütün məsələlərə münasibətdə mövqelərimiz eynidir. Bu, çox yaxşı haldır. Bu, bizim gələcək münasibətlərimizi də həm əvvəllər, Azərbaycana Heydər Əlirza oğlu Əliyevin rəhbərlik etdiyi dövrdə, həm də indi Azərbaycan Respublikasına İlham Heydər oğlu Əliyevin başçılıq etdiyi şəraitdə olduğu kimi, konstruktiv dostluq əlaqələri üzərində qurmağa imkan verəcəkdir.

Hesab edirəm ki, bu, gələcək üçün çox yaxşı, möhkəm təməldir. Mən o fikirlə də tam razıyam ki, iqtisadiyyatdan əlavə insanlar arasında əlaqələr, humanitar qarşılıqlı münasibətlər də çox vacibdir. Əlbəttə, bu mənada Azərbaycan başqa dillərə, tarixən həqiqətən millətlərarası ünsiyyət dili olmuş rus dilinə qayğıkeş münasibət göstərilməsinin nümunəsidir. Mədəni dialoqun inkişafı, tədrisin rus dilində aparıldığı məktəblər şəbəkəsinin genişləndirilməsi, universitetlərin, o cümlədən Moskva Universitetinin filialının açılması - bütün bunlar məhz bu istiqamətdə atılan addımlardır və biz bunu çox yüksək qiymətləndiririk.

Hesab edirəm ki, əgər biz tərəfdaşlığımızı bundan sonra da bu şəkildə davam etdirsək, o, son dövrdə vaxtilə bizi birləşdirən vahid dövlətin əsasında yaranmış dövlətlərin inkişafının real nümunəsi olacaqdır.

Azərbaycana gəlməyə dəvət olunduğum üçün səmimi təşəkkürümü bildirmək istərdim. Mənim fikrimcə, bizim bu il də ünsiyyət saxlamağımız üçün səbəb çox olacaqdır. Biz həmişə Moskvada qonaq kimi Sizin yolunuzu gözləyirik. Biz Sizi təkcə Moskvada yox, Rusiyanın başqa şəhərlərində də görməyə həmişə şad olarıq. Rusiya kiçik ölkə deyil, bizim layihələrimiz də çoxdur, sadəcə görüşmək, ən müxtəlif məsələləri müzakirə etmək üçün səbəblər də çoxdur. Bu qədər ciddi və ölkələrimiz üçün vacib məsələlərin müzakirəsində iştirak etdiklərinə görə bugünkü danışıqların bütün iştirakçılarına - dövlət strukturlarının nümayəndələrinə, dövlət qulluqçularına, biznes təmsilçilərinə, bu

gün görüşdüyüm konfessiyaların nümayəndələrinə təşəkkür etmək istərdim. Doğrudan da, Azərbaycandakı vəziyyət konfessiyalararası dialoqun və vətəndaş sülhünün gözəl nümunəsidir.

İcazə verin, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin, onun xanımı Mehriban Arif qızının sağlığına, Azərbaycan xalqının firavanlığı, xalqlarımız arasında dostluğun şərəfinə badə qaldırmağı təklif edim.

SƏFƏR BAŞA ÇATDI

İyulun 4-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL ŞVARTSENBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Çexiyanın xarici işlər naziri Karel Şvartsenberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Çexiya arasında münasibətlərin yaxşı səviyyədə olduğunu bildirdi. Ölkələrimizin regional və beynəlxalq çərçivədə əməkdaşlığına toxunan Prezident İlham Əliyev GUAM-ın Batumi sammitində Çexiya tərəfinin iştirakının əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı ikitərəfli əməkdaşlığın inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı və qonağın ölkəmizə bu səfərinin əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

Karel Şvartsenberq Çexiya Respublikasının Azərbaycana səfər edən ilk xarici işlər naziri olduğunu vurğuladı. O, ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini, əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsi üçün geniş imkanların olduğunu bildirdi.

AZƏRBAYCAN İLƏ ÇEXİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Azərbaycan ilə Çexiya xarici siyasət idarələri arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Bu barədə iyulun 4-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çexiyalı həmkarı Karel Şvartsenberq ilə birlikdə keçirdiyi brifinqdə məlumat vermişdir.

E.Məmmədyarov demişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesi barədə Çexiyanın xarici işlər naziri Karel Şvartsenberqi məlumatlandırmışdır.

Danışıqlarda iqtisadi məsələlərə xüsusi yer ayrıldığını deyən E. Məmmədyarov Çexiya iş adamlarının Azərbaycana çox böyük marağı olduğunu, Azərbaycan biznesmenləri tərəfindən də Çexiyaya maraq göstərdiyini vurğulamışdır.

Nazir qeyd etmişdir ki, görüşdə, həmçinin 2009-cu il yanvarın 1-dən Avropa İttifaqında sədrliyin Çexiyaya keçməsi ilə əlaqədar Azərbaycanla Aİ arasında əlaqələrin genişləndirilməsi məsələlərinə də toxunulmuşdur.

E.Məmmədyarov bildirmişdir ki, Çexiyanın Avropa İttifaqında sədrlik müddəti başa çatdıqdan sonra bu ölkənin Azərbaycanda səfirliyinin açılması nəzərdə tutulur.

K.Şvartsenberq demişdir ki, E.Məmmədyarovla danışıqlar zamanı Azərbaycanın Avropa İttifaqı və NATO ilə yaxınlaşması mövzusu müzakirə olunmuşdur. Çexiyalı nazir bildirmişdir ki, biz bundan ötrü iki ölkənin müvafiq qurumları arasında konkret əlaqələrin qurulması barədə razılığa gəldik. Sevindirici haldır ki, ikitərəfli məsələlərin müzakirəsi zamanı münasibətlərimizdə heç bir problemin olmadığı məlum olmuş və bu, çox mühüm faktdır.

Çexiyanın xarici işlər naziri iqtisadi və siyasi sahələrdə ölkələrimiz arasında ümumi maraqların olduğunu xüsusi vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astananın 10 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirlərdə iştirak etmək üçün iyulun 5-də Qazaxıstan paytaxtına işgüzar səfərə gəlmişdir.

DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜ

İyulun 5-də Qazaxıstan Prezidentinin sarayında - "Ak Orda"da Astananın 10 illiyi ilə əlaqədar təntənəli yubiley tədbirlərində iştirak edən dövlət başçılarının görüşü olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev dövlət başçılarını səmimiyyətlə qarşıladı, onlara "Astananın 10 illik yubileyi medalı"nı təqdim etdi.

Dövlət başçıları fikir mübadiləsi apardılar.

Görüşün sonunda xatirə şəkli çəkdirildi.

ASTANA ŞƏHƏRİNİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLAS

İyulun 5-də "Sülh və əmin-amanlıq" sarayında Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərinin 10 illiyinə həsr olunmuş təntənəli iclas keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.

Əvvəlcə Qazaxıstanın dövlət himni səsləndi.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev iclasda çıxış etdi.

ASTANADA YUBİLEY KONSERTİ

İyulun 5-də Astananın 10 illik yubileyi münasibətilə şəhər stadionunda incəsənət ustalarının konserti olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konsertə tamaşa etmişdir.

* * *

Elə həmin gün Astananın 10 illik yubileyi münasibətilə təntənəli tədbirlərdə iştirak edən dövlət başçılarının şərəfinə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin adından ziyafət verilmişdir.

Dövlətimizin başçısı İlham Əliyev ziyafətdə iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

İyulun 5-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın görüşü olmuşdur.

Görüşdə Azərbaycan-İordaniya münasibətlərinin genişlənməsindən məmnunluq ifadə olundu, iki ölkə arasında əməkdaşlığın yaxşı perspektivlərinin olduğu vurğulandı. Azərbaycan Prezidenti ilə İordaniya Kralı arasında dostluq münasibətlərinin ölkələrimizin əlaqələrinin genişlənməsinə töhfə verdiyi qeyd olundu. Söhbət zamanı yüksək səviyyəli görüşlərin əhəmiyyəti vurğulandı, qarşılıqlı münasibətlərin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Astanada onun üçün ayrılmış iqamətgahda Türkiyə Prezidenti Abdullah Gül ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə daim inkişaf etdiyi vurğulandı. Qeyd olundu ki, ölkələrimiz beynəlxalq təşkilatlarda yüksək səviyyədə əməkdaşlıq edirlər. Münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Tərəflər qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi apardılar.

* * *

İyulun 6-da Qazaxıstan Prezidentinin sarayında - "Ak Orda"da Astananın 10 illik yubileyi münasibətilə keçirilən təntənəli tədbirlərdə iştirak edən dövlət başçılarının səhər yeməyi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səhər yeməyində iştirak etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN ÜÇÜNCÜ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR

İyulun 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsi keçirilmişdir.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Müşavirədə xarici işlər naziri Elmar MƏMMƏDYAROV 2006-2008-ci illərdə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının fəaliyyəti barədə çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Respublikası diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsi Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasətin və diplomatik xidmət orqanları qarşısında qoyduğu vəzifələrin və verdiyi tapşırıqların yerinə yetirilməsi baxımından olduqca əhəmiyyətlidir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həlli məsələsi 2006-2008-ci illərdə də diplomatik xidmət orqanları üçün ən başlıca fəaliyyət istiqaməti olaraq qalmışdır. Ötən dövrdə münaqişənin nizama salınması prosesində Azərbaycanın rolu güclənmişdir. Ölkəmizin birmənalı və dönməz mövqeyi dünya birliyi tərəfindən getdikcə daha çox qəbul edilir. Beynəlxalq ictimaiyyətin diqqəti Ermənistan tərəfindən azərbaycanlıların tarixi və mədəni abidələrinin məqsədli şəkildə məhv edilməsi, yaşayış məntəqələrinin simasının dəyişdirilməsi, həmçinin zəbt olunmuş torpaqlarda qeyri-qanuni iqtisadi fəaliyyətin aparılması faktlarına cəlb edilmişdir. Dünya ictimaiyyətinin bu məsələlər haqqında məlumatlandırılması işinə Xarici İşlər Nazirliyində hazırlanmış bir çox nəşr və sənədlərin geniş yayılması mühüm töhfə olmuşdur.

Bu iş nazirlik tərəfindən gələcəkdə də davam etdiriləcəkdir. Digər nailiyyətlərlə yanaşı qeyd edilməlidir ki, 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. Bu vacib sənədin qəbul edilməsi bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan münaqişəsinin məhz ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsinin tərəfdarıdır.

Xarici işlər naziri Elmar Məmmədyarov diplomatik xidmət orqanlarının rəhbərlərinin üzərlərinə düşən vəzifələrin həyata keçirilməsi istiqamətində ötən dövrdə görülən işlərlə bağlı ətraflı məlumat verdi. Beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələlərinə toxunan nazir ölkəmizin BMT, ATƏT, İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM, NATO, Avropa İttifaqı və digər təşkilatlarla çoxsahəli əlaqələr yaratdığını xüsusi vurğuladı.

Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci il mayın 23-də imzaladığı Sərəncamla milli təhlükəsizlik konsepsiyasının təsdiq olunmasını önəmli hadisə kimi qiymətləndirdi. Nazir ölkəmizin enerji təhlükəsizliyi sahəsində də yüksək səviyyəli xarici siyasətinin getdikcə daha da möhkəmləndiyini qeyd etdi. Azərbaycanın müvafiq beynəlxalq təşkilatlarla demokratiya sahəsində əməkdaşlığının intensiv xarakter daşıdığını deyən Elmar Məmmədyarov, ölkəmizin YUNESKO ilə münasibətlərinin də son illərdə yüksək səviyyədə inkişaf etdiyini bildirdi.

Nazir daha sonra dedi: Mühüm birgə tədbirlərdən biri Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin may ayında Bakıda təhsil problemlərinə dair uğurla keçirilmiş YUNESKO-nun regional konfransı olmuşdur. Azərbaycanın mədəni-tarixi abidələrinin Ümumdünya İrs Siyahısına daxil edilməsi istiqamətində də iş davam etdirilir.

Sivilizasiyalararası körpü rolunu oynayan Azərbaycan Qərb və Şərq mədəniyyətləri arasında dialoqun və dini tolerantlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir. Bu səbəbdən, son illər ölkəmiz həmin sahədə bir sıra təşəbbüslər irəli sürmüş, artıq dünyada özünəməxsus yer tutmuşdur. Bunların sırasında Bakıda 2008-ci ilin iyun ayında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" adlı Bakı forumunu qeyd etmək olar.

Nazir Prezident İlham Əliyevin digər bir tapşırığına əsasən Azərbaycan Diplomatik Akademiyasının fəaliyyətə başladığını və xarici siyasət proqramı çərçivəsində burada hər il 50-dək kursun keçirildiyini vurğuladı.

Elmar Məmmədyarov ölkəmizin 160 dövlətlə diplomatik əlaqə qurduğunu, Azərbaycanda 57 səfirlik, konsulluq və beynəlxalq təşkilatın nümayəndəliklərinin fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Azərbaycanın isə xaricdə 56 diplomatik nümayəndəliyinin, o cümlədən 47 səfirliyinin fəaliyyət göstərdiyini bildirən nazir, bunlardan 30-nun 2004-2008-ci illərdə yaradıldığını qeyd etdi. O, bütün bunları dövlətimizin başçısının həyata keçirdiyi uğurlu xarici siyasətin məntiqi nəticəsi kimi dəyərləndirdi.

Nazir çıxışını bu sözlərlə başa çatdırdı: Möhtərəm cənab Prezident, çıxışımın sonunda qeyd etmək istərdim ki, Azərbaycan diplomatik xidmət orqanlarının qarşısında həyata keçirilməsi zəruri olan hələ çox vəzifələr durur. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları Sizin tərəfinizdən onlara tapşırılan vəzifələrin yerinə yetirilməsində öz əməyini əsirgəməyəcəklər.

Diqqətinizə görə sağ olun.

Dövlətimizin başçısı müşavirədə geniş nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar,

Hörmətli səfirlər, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Bu müşavirələr artıq ənənəvi xarakter daşıyır və hamımız yaxşı bilirik ki, müşavirələrin çox gözəl nəticələri olur. Bu görüşlərin geniş formatda keçirilməsi, bir neçə gün ərzində bütün səfirlərin Bakıda olması və müvafiq strukturların nümayəndələri ilə görüşləri əminəm ki, səfirlərin fəaliyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, səfirlər xarici siyasətin Prezident tərəfindən müəyyən edilmiş istiqamətlərini bir daha eşidirlər. Təbii ki, bizim xarici siyasətimiz çox açıqdır, aydındır, çox səmimidir və bizim

bütün bəyanatlarımız, atdığımız addımlar bütün ictimaiyyət üçün aydındır. Amma eyni zamanda, müəyyən mərhələlərdə daha dəqiq siyasi kursun müəyyənləşməsi əhəmiyyət kəsb edir.

Səfirlər qarşısında böyük vəzifələr dayanır. Bildiyiniz kimi, son illər ərzində bir neçə ölkədə yeni səfirliklər açılmışdır. Nazir qeyd etdi ki, son dörd il ərzində 30 ölkədə Azərbaycan səfirlikləri açılmışdır ki, bu da ölkəmizin xarici siyasətinin daha da uğurlu olmasına çox böyük dəstək verir. Biz bunu edirik və bu siyasəti davam etdirəcəyik. Çünki hələ dünyada Azərbaycan haqqında tam müəfəssəl məlumat yoxdur. Düzdür, bizim siyasi və diplomatik səylərimiz nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağıdılıbdır. Müstəqillik əldə etdikdən sonra Azərbaycan haqqında məlumat ümumiyyətlə ya az idi, ya da ki, çox mənfi xarakter daşıyırdı. Bunun həm obyektiv, həm subyektiv səbəbləri vardı. Amma o da faktdır ki, Azərbaycanın inkişafı, xarici əlaqələrinin genişlənməsi üçün bu, çox böyük manea idi. Bu gün Azərbaycan haqqında dünyada daha dolğun, daha dəqiq məlumat vardır. Əminəm, gələcək illərdə biz nail olacağıq ki, Azərbaycan həqiqətləri dünya birliyinin nəzərinə tam şəkildə çatdırılsın. Əlbəttə ki, səfirlərin bu işdə çox böyük rolu vardır.

Bildiyiniz kimi, mən Prezident kimi xarici siyasətə çox böyük diqqət göstərirəm və son illər ərzində həm işgüzar, həm rəsmi səfərlərlə müxtəlif ölkələrdə olmuşam. Bütün bu səfərlər həm ikitərəfli münasibətlərin inkişafı üçün lazımdır, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində çox mühüm əhəmiyyət daşıyır. Çünki demək olar ki, əksər, tam mütləq əksəriyyət hallarda ikitərəfli səfərlər zamanı imzalanan siyasi bəyannamə Azərbaycanın ərazi bütövlüyü prinsipini bir daha təsdiqləyir. Eyni zamanda, Prezidentin fəaliyyəti ilə bərabər, səfirlərin mütəmadi fəaliyyəti çox böyük əhəmiyyət daşıyır. Baxmayaraq ki, bu, böyük maliyyə ehtiyatları tələb edir, məhz bu məqsədlə bu gün bizim 47 ölkədə səfirliyimiz fəaliyyət göstərir.

Səfirlər Azərbaycanla çalışdıqları ölkələrin arasında əməkdaşlığın daha da dərinləşməsi üçün ciddi fəaliyyət göstərməlidirlər. Biz bu fəaliyyəti görürük, bunu bəyənirik. Amma hesab edirəm ki, bu, bizi tam şəkildə qane edə bilməz. Çünki bəzi hallarda, hətta yüksək dövlət məmurları xaricdən Azərbaycana gələrkən və Azərbaycan reallıqları ilə tanış olarkən bildirirlər ki, onlar gözləmirmişlər ki, Azərbaycan belə inkişaf etmiş ölkədir, Azərbaycan belə müasir ölkədir, Azərbaycanda ictimai-siyasi vəziyyət çox yüksək səviyyədədir, Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Yəni, əgər, hətta yüksək vəzifəli dövlət məmurları bəzi hallarda Azərbaycana gələrkən bu ifadələri işlədirlərsə, deməyə əsas var ki, bu istiqamətdə fəaliyyət daha da mütəşəkkil olmalıdır və məqsədyönlü olmalıdır.

Səfirlər bütün dövlət, hökumət qurumları ilə sıx əlaqə saxlamalıdırlar, Azərbaycan həqiqətlərini onlara çatdırmalıdırlar, ictimai qurumlarla fəaliyyəti gücləndirməlidirlər, xaricdə yaşayan Azərbaycan icmaları ilə daha da sıx əlaqə saxlamalıdırlar. Mən hesab edirəm ki, bu istiqamətdə son illər ərzində çox böyük işlər görülübdür. Demək olar ki, azərbaycanlıların yaşadıqları bütün ölkələrdə bizim diaspor strukturlarımız formalaşıb və güclənir. Bu, həm orada yaşayan azərbaycanlılar üçün böyük fayda gətirir, həm də ki, Azərbaycanın siyasətinə böyük dəstəkdir.

Mətbuat orqanları ilə iş haqqında. Mən keçən müşavirədə də bunu demişdim və hesab

edirəm ki, bunu bir daha deməyə əsas var. Çünki son iki il ərzində dünya mətbuatında Azərbaycan haqqında daha tarazlı, yaxud da ki, qərəzsiz məlumatlar dərc edilməsinə baxmayaraq, hələ ki, biz qərəzli məqalələri də görürük. Erməni lobbisi tərəfindən Azərbaycana qarşı aparılan siyasət davam etdirilir və bu fəaliyyət heç vaxt dayanmayacaqdır. Biz buna hazır olmalıyıq, hazırıq və mən bir daha demək istəyirəm ki, biz bütün istiqamətlərdə hücum taktikasını rəhbər tutmalıyıq və bu taktika bütün istiqamətlərdə öz bəhrəsini verməkdədir.

Səfirlər, eyni zamanda, Azərbaycanın siyasi və iqtisadi maraqlarını çalışdıqları ölkələrdə dəstəkləməlidirlər. Bu gün Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir, ölkəmizin imkanları artır, Azərbaycan şirkətləri böyük maliyyə imkanlarına malik olurlar və müxtəlif ölkələrə investisiya qoyurlar. Bu investisiya imkanlarını artırmaq, Azərbaycan şirkətləri üçün daha da yaxşı şərait yaratmaq və müxtəlif istiqamətlərə yönəltmək vəzifələri də çox mühüm əhəmiyyət daşıyır.

Bəlkə iki il bundan əvvəl biz bu barədə heç danışmırdıq. Amma bu gün bu reallıqdır və gələcəkdə belə imkanlar daha da artacaq. Əlbəttə ki, biz investisiyaları, ilk növbədə, bizim üçün daha yaxın ölkələrə yönəltməliyik. Baxmayaraq, bu gün Azərbaycan investisiyaları xaricdə gözlənilir və mənim müxtəlif həmkarlarım ilə çoxsaylı görüşlərimdə bu mövzu qaldırılır. Onu da deyə bilərəm ki, təkcə son bir il ərzində Azərbaycan Dövlət Neft Şirkəti Türkiyə və Gürcüstan iqtisadiyyatına 2,5 milyard dollar sərmayə qoyubdur və bu proses davam edir. Biz sərmayələr üçün nəinki enerji sahəsində, digər sahələrdə yeni yerlər axtarırıq. Bunu etmək üçün bizim imkanlarımız var. Bu, Azərbaycanın iqtisadi maraqlarını daha da gücləndirəcək, iqtisadiyyatı şaxələndirəcəkdir. Beləliklə, nəticədə Azərbaycan daha da uğurlu xarici siyasət aparacaqdır.

Əlbəttə ki, səfirlərin əsas vəzifələrindən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri beynəlxalq aləmə çatdırmaqdır. Mən hesab edirəm ki, biz bu istiqamətdə artıq böyük uğurlar əldə edə bilmişik. Bu gün Azərbaycanın haqq işi dəstəklənir, Azərbaycanın ərazi bütövlüyü beynəlxalq təşkilatlarda və bayaq qeyd etdim ki, ikitərəfli müstəvidə dəstəklənir. Bütün dünya artıq bilir ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bu mövqe həm beynəlxalq hüquq normalarına əsaslanır, həm tarixə əsaslanır. Həm də, o da sirr deyil ki, Azərbaycanın artan imkanları, Azərbaycanın önəmli ölkəyə çevrilməsi əlbəttə, bizim mövqeyimizi daha da gücləndirir. Beynəlxalq hüquq bəzi hallarda əfsuslar olsun ki, işləmir. Beynəlxalq hüquq normaları pozulur və dünya ictimaiyyəti buna biganə qalır. Hətta Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi, əgər belə demək olarsa, havada qalıbdır. Belə olan halda, biz əlbəttə ki, öz diplomatik səylərimizi daha da gücləndirməliyik və eyni zamanda, biz ölkəmizi gücləndirməliyik.

Bu gün Azərbaycan regional çərçivələrdə çox önəmli rola malikdir. Getdikcə bu rol daha da böyüyəcəkdir. Biz artıq regional çərçivələrdən çıxıb daha böyük əməkdaşlıq məkanında öz rolumuzu gücləndiririk. Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər, konkret layihələr, əməkdaşlığa yönəldilmiş enerji siyasətimiz əlbəttə ki, ölkəmizin imkanlarını gücləndirir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha da əlverişli vəziyyət yaradır. Bu gün həm siyasi, həm iqtisadi baxımdan, həm beynəlxalq hüquq normaları baxımından və nəhayət, hərbi potensial baxımından Azərbaycan Ermənistandan bir neçə dəfə üstündür. Uğurlu xarici siyasətimiz, beynəlxalq

təşkilatlarda təşəbbüslərimizə dəstəyin verilməsi, xüsusilə BMT Baş Məclisində qətnaməmizin dəstəklənməsi bizim böyük siyasi və diplomatik qələbəmizdir. Biz bu səyləri artırmalıyıq. Həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli formatda bu mövzu birinci yer tutmalıdır.

Bu belədir. Mən istəyirəm ki, bu daim belə olsun. Mən istəyirəm ki, Ermənistanın işğalçı siyasəti nəinki dövlətlərin rəsmi orqanlarında, ictimai rəydə, mətbuatda tam şəkildə ifşa olunsun. Bu da çox önəmlidir. Çünki ictimai rəy dünyada və o cümlədən Azərbaycanda çox böyük rol oynayır. Münaqişə haqqında dəqiq məlumat, Azərbaycan torpaqlarının uzun müddət işğal altında qalması - bütün bu mövzular daim danışıqlar və fəaliyyət mövzusu olmalıdır. Bu məsələdə biz bir dəfə keçirilmiş hansısa tədbirlə, yaxud da ki, bir dəfə edilmiş hansısa bəyanatla kifayətlənməməliyik. Bu, gündəlik fəaliyyətdə olmalıdır. Necə ki, mən bu mövzunu gündəlik fəaliyyətimdə, bütün görüşlərdə, bütün beynəlxalq tədbirlərdə, bütün bəyanatlarımda diqqətdə saxlayıram. Bəlkə də bəzi hallarda iqtisadi forumlarda, ya digər mövzu ətrafında keçirilmiş forumlarda birbaşa bu mövzuya toxunulmur. Amma mən daim bu məsələni həm diqqət mərkəzində saxlayıram, həm də ki, Azərbaycanın haqq işini bütün beynəlxalq aləmə çatdırmağa çalışıram. Mən deyə bilərəm ki, beynəlxalq təşkilatlar öz yerində, biz beynəlxalq ictimai rəydə də müsbətə doğru dəyişiklikləri görürük. Baxmayaraq ki, çox güclü erməni lobbisi daim bizə qarşı çalışır, Azərbaycanı ləkələmək istəyir. Bəzi hallarda xarici mətbuatda Azərbaycan haqqında əsassız ittihamlarla dolu məqalələrin arxasında məhz erməni təşkilatlarının fəaliyyəti dayanır. Biz bunu bilirik və onu da bilirik ki, bizə qarşı bu mübarizə heç vaxt dayanmayacaqdır. Heç vaxt. Biz də öz mübarizəmizi dayanmadan aparmalıyıq. Hücum etməliyik. Nəzərə almalıyıq ki, bunu etməyə, həqiqəti deməyə bizim tam əsasımız var. O ki qaldı, münaqişənin həlli yollarına, bu barədə də əlbəttə, siz mənim mövqeyimi bilirsiniz, Azərbaycan dövlətinin mövqeyini bilirsiniz.

Bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, bunun əsasında həll olunmalıdır. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil. Danışıqlar masasında mövcud olan sənəddə də, onu da mən sizə deyə bilərəm və bunu ictimaiyyət bilir, Dağlıq Qarabağın Azərbaycandan ayrılması mexanizmi yoxdur. Ermənistan rəsmi nümayəndələri nə qədər deməyə çalışsalar ki, danışıqların mahiyyətində xalqların müqəddəratının təyin olunması prinsipi dayanır, bu, yalandır. Bu prinsipin icra olunma mexanizmləri yoxdur. Danışıqların mahiyyəti Azərbaycanın bütün işğal olunmuş torpaqlarının qaytarılmasıdır, qaçqın, köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtmasıdır, təhlükəsizlik tədbirlərinin təmin olunmasıdır və Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. O ki qaldı, xalqların müqəddəratının təyin olunmasına, erməni xalqı öz taleyini bir dəfə həll edibdir. Onların bir erməni dövləti var. Baxmayaraq ki, bu dövlət əzəli Azərbaycan torpağında yaradılıbdır. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt Azərbaycan dövləti və xalqı icazə verməz. Bildiyiniz kimi, biz maksimum konstruktivlik göstərərək danışıqlarda hələ ki, iştirak edirik. Baxmayaraq ki, artıq atəşkəs rejimindən 14 il vaxt keçir və heç bir nəticə yoxdur. İrəliləyişin olması müsbət əlamətdir. Amma nəticə olmayan halda bu irəliləyişin heç bir əhəmiyyəti yoxdur. Biz danşıqlarda hələ ki, iştirak etmək fikrindəyik. Ermənistanın yeni rəhbərliyinin mövqeyi bizim üçün hələ ki, tam aydın deyil. Bəzi məqamlarda ümidverici fikirlər səslənir, bəzi hallarda yenə də köhnə

mövzular ortaya atılır. Nəzərə alsaq ki, Ermənistanda indi ictimai-siyasi vəziyyət sabit deyil, bəlkə, bu da təbiidir. Yəqin ki, yeni rəhbərliyə müəyyən bir vaxt lazımdır ki, cəmiyyətdə sabitlik yaransın və ondan sonra daha da cəsarətli addımlar atılsın.

Ermənistan tərəfindən əgər cəsarətli addımlar atılmasa, münaqişə heç vaxt öz həllini tapa bilməz. Azərbaycandan isə güzəşt tələb etmək əsassızdır. Biz bütün mümkün güzəştləri etmişik, Dağlıq Qarabağa gələcəkdə ən yüksək muxtariyyət statusunu verməyə hazırıq. Bundan böyük güzəşt ola bilməz. Buna bənzər başqa münaqişələrdə bu barədə söhbət getmir. Erməni əhalisinin tam əksəriyyəti Dağlıq Qarabağa digər bölgələrdən köçürülübdür və qonaq kimi gəlmişdilər. Buna baxmayaraq, biz onlara muxtariyyət verməyə hazırıq. Ermənistanda yaşayan azərbaycanlılara muxtariyyətmi verilir? Orada bir nəfər də azərbaycanlı qalmamışdır. Hamısını sürgün etdilər və etnik təmizləmə siyasəti apardılar. Nəinki Ermənistanda, eyni zamanda, Dağlıq Qarabağda və ətraf bölgələrdə. Baxmayaraq ki, Qərbi Azərbaycan - indiki Ermənistan ərazisi Azərbaycan torpağıdır və tarixən də belə olubdur. Ona görə bizdən əlavə güzəşt tələb etmək, sadəcə olaraq danışıqlara zərbə vurmaqdır. Bizim mövqeyimiz açıqdır, bəllidir. Bu, dəfələrlə bəyan edilibdir və biz bu mövqedən geriyə bir addım atmayacağıq. Gözləyirik ki, qarşı tərəf - işğalçılıq siyasəti, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparan tərəf nəhayət ki, beynəlxalq hüquq normalarına riayət edəcək və torpaqlarımızdan öz xoşu ilə çıxacaqdır. Əks-təqdirdə istənilən vasitəyə əl atmaq olar. Azərbaycanın tam haqqı var, bütün hüquqi əsaslar var və qarşı tərəf də bunu bilir və bilməlidir.

Mən bu gün bölgədə bizimlə rəqabət aparmaq iqtidarında olan ikinci dövlət görmürəm, nəinki o da ola problemlər içində çabalayan Ermənistan. Bizim həm iqtisadi potensialımız onlardan qat-qat üstündür, həm də hərbi gücümüz. Bölgədə siyasi proseslər bizim xeyrimizə gedir və biz bu siyasəti davam etdirəcəyik. Ancaq bununla bərabər, bir də demək istəyirəm ki, bizim haqq işimizi, ədalətli mövqeyimizi daha da gücləndirmək üçün bütün ölkələrdə, səfirliyimiz olan ölkələrdə mütəmadi qaydada bu məsələ qaldırılmalıdır. Müxtəlif forumlar keçirilməlidir.

Bir müddət bundan əvvəl mən göstəriş vermişdim ki, müxtəlif ölkələrdə sərgilər keçirilsin, Xocalı soyqırımı haqqında məlumat daha da dolğun verilsin. Müxtəlif konfranslar keçirilməlidir. İndi Azərbaycanın iqtisadi imkanları var. Xarici İşlər Nazirliyinin büdcəsi də ildən-ilə artır və nə qədər lazımdırsa biz bunu artıracağıq ki, Azərbaycanın haqq işi dünya birliyinə çatdırılsın, dünya ictimai rəyində tam şəkildə ədalətli yanaşma üstünlük əldə etsin. Bu bizə lazımdır, həm danışıqların davam etdirilməsi üçün, həm də ki, əgər danışıqlar dayansa, başqa tədbirlərin görülməsi üçün. Bunlar səfirlər və səfirliklər qarşısında duran əsas vəzifələrdir.

Bildiyiniz kimi, bizim xarici siyasətimiz çox açıqdır, çevikdir. Biz ikitərəfli formatda çox uğurlu xarici siyasət aparırıq. Mənim son beş ilə yaxın müddətdə çoxsaylı xarici rəsmi və qeyri-rəsmi, işgüzar səfərlərim olubdur. Xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri olubdur və bu davam edir. Azərbaycan son illər ərzində nəinki bölgə üçün, dünya üçün çox əhəmiyyətli ölkəyə çevrilibdir və biz ikitərəfli münasibətlərimizi bundan sonra da gücləndirəcəyik. Bir daha demək istəyirəm ki, bizim siyasətimiz səmimidir. Bizim bəyanatlarımız və bizim əməllərimizlə bunlar arasında heç bir fərq yoxdur və auditoriyadan, yaxud da ki, səfər etdiyim ölkədən asılı olmayaraq bütün məsələlərlə - istər daxili məsələ, istər xarici, istər münaqişələr, istər dünyada narahatlıq

doğuran məsələlərlə bağlı Azərbaycanın mövqeyi birmənalıdır. Biz bütün ölkələrlə ikitərəfli formatda qarşılıqlı maraq, qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq prinsiplərini üstün tuturuq və görürük ki, hətta bəzi hallarda bir-biri ilə o qədər də yaxın münasibəti olmayan ölkələrlə də Azərbaycanın münasibətləri yaxşıdır.

Mən bunu əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan qarşıdurma məkanına çevrilməyəcəkdir, rəqabət məkanına çevrilməyəcəkdir. Azərbaycan əməkdaşlıq üçün gözəl bir ölkədir. Azərbaycan dünyada əməkdaşlıq üçün, işbirliyi üçün, iqtisadi layihələr üçün, sosial məsələlərin həlli üçün və dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır. Bizim təcrübəmiz, bizim siyasətimiz göstərir ki, əgər ölkə müstəqil siyasət aparırsa, öz milli maraqlarını müdafiə edirsə və bəzi hallarda bu, hansısa başqa ölkələrin maraqları ilə üst-üstə düşməyə də bilər, bu da təbiidir, bu mövqe hörmətə malik olacaqdır. Mən deyə bilmərəm ki, hamı bizim siyasətimizi bəyənir və qarşımıza belə məqsəd də qoymamışıq. Amma hamı bizə hörmət edir. Bilirlər ki, əgər Azərbaycan hansısa təşəbbüsü irəli sürübsə, hansısa bəyanatı veribsə, bunun arxasında dayanacaqdır. Bizim siyasətimizdə konyunktura meyilli heç bir məqam yoxdur. Yaxud da ki, qeyri-səmimi, ləyaqətsiz addımlar yoxdur. Biz öz milli maraqlarımızı müdafiə edirik. Belə də olmalıdır və biz bütün ölkələrlə münasibətləri, bir də demək istəyirəm ki, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurmuşuq. Mən sizə deyə bilərəm ki, bu siyasət dünyada böyük rəğbətlə qarşılanır. Hətta bəzi hallarda, qeyri-rəsmi söhbətlərdə sual verilir, necə olub ki, Azərbaycan öz maraqlarına güzəşt etmədən bütün ölkələrlə - böyük və o qədər də böyük olmayan ölkələrlə normal münasibətlər yarada bilibdir.

Bunun müxtəlif səbəbləri var. Ancaq ən əsas səbəb, bir də demək istəyirəm ki, budur ki, bizim siyasətimiz birmənalıdır və açıqdır. Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır.

Səfirlər də öz növbəsində bu münasibətləri daha da zənginləşdirməlidirlər. Onlar müxəlif ölkələrdə yaşayırlar, ölkələrin problemlərini də, imkanlarını da yaxşı bilirlər və elə etməlidirlər ki, bütün ölkələrlə bizim münasibətlərimiz daha konkret xarakter daşısın. Siyasi sahədə bizim heç bir problemimiz yoxdur. Biz elə etməliyik ki, iqtisadi, sosial, mədəni sahələrdə də münasibətlər güclənsin.

Beynəlxalq təşkilatlarla bağlı olan məsələlər haqqında nazir öz çıxışında söylədi. Mən bir də demək istəyirəm ki, bizim son illər ərzində beynəlxalq təşkilatlarda uğurlu siyasətimiz konkret, praktik nəticələrə gətirib çıxarıbdır. Onları sadalamaq üçün çox vaxt lazımdır, yəqin ki, bu müşavirədə, növbəti günlərdə bu, müzakirə olunacaq. Mən bunların içində mart ayında BMT-nin Baş Məclisində işğal olunmuş torpaqlarda vəziyyətlə bağlı qətnamənin qəbul olunmasını qeyd etmək istəyirəm. Bu, doğrudan da bizim böyük siyasi və diplomatik qələbəmizdir. Biz bir neçə il idi ki, bu qələbəyə doğru irəliləyirdik. Bu qətnamənin qəbul olunması üçün çox böyük işlər görülübdür. İctimaiyyət təbii ki, bunun son nəticəsini görür. Görür ki, artıq səsvermədə Azərbaycan böyük üstünlüklə qələbə qazanıb. Amma bunu təmin etmək üçün nə qədər böyük səylər göstərilibdir. Əlbəttə ki, bunu hamı bilə bilməz. Bu qətnamə artıq digər beynəlxalq təşkilatlara da öz təsirini göstərir. Bu yaxınlarda Avropa Şurası tərəfindən qəbul edilmiş sənəddə artıq BMT Baş Məclisindəki sənədə istinad edilir və bunun əhəmiyyəti haqqında sizə əvvəl-

cədən deməyə ehtiyac yoxdur. Siz bunu yaxşı anlayırsınız. Bu onu göstərir ki, məqsədyönlü siyasət və düşünülmüş addımlar nəticəyə, uğura gətirib çıxarır. Digər beynəlxalq təşkilatlarla da münasibətlərimiz bizi qane edir. Biz bəzi beynəlxalq təşkilatlar qarşısında ora üzv olarkən üzərimizə öhdəliklər götürmüşük. Məsələn, Avropa Şurasına üzv olarkən götürdüyümüz öhdəlikləri yerinə yetiririk. Biz o təşkilata könüllü daxil olmuşuq. Heç kim bizi ora dartmayıb, heç kimi bizi məcbur etməyib ki, biz ora üzv olaq. Üzv olduq və biz istəyirik ki, Avropanın ən inkişaf etmiş ölkələrində mövcud olan müsbət təcrübə Azərbaycanda da tətbiq edilsin.

Avropa Şurası bildiyiniz kimi, daha çox demokratiya, insan haqları məsələləri ilə məşğuldur və son 7 il ərzində bu istiqamətdə Azərbaycan çox böyük bir yol keçibdir. Azərbaycanda demokratikləşmə prosesləri, insan haqlarının qorunması işində atdığımız addımlar ölkəmizi daha da zənginləşdirir və gücləndirir. Bəzi hallarda, siz də bunu yaxşı bilirsiniz ki, bizə qarşı ikili standartlar siyasəti aparılır və bunun səbəbləri də aydındır. Nə üçün bu belədir, bunun tarixi səbəbləri nədən ibarətdir? Əlbəttə tarixi səbəbləri var. Eyni zamanda, Azərbaycanın müstəqil siyasəti deyə bilmərəm ki, hamının xoşuna gəlir və biz buna hazır olmalıyıq. Avropa Şurası Parlament Assambleyasında son sessiyalarda Azərbaycanla bağlı məsələ müzakirə olunarkən Avropa deputatları demişdilər ki, Azərbaycan cəmi 7 ildir ki, təşkilatın üzvüdür, nə üçün 8-ci dəfə Azərbaycan məsələsi müzakirə olunur? Nə üçün Azərbaycanla bərabər, yaxud da ki, hətta ondan daha əvvəl təşkilata üzv olmuş MDB ölkələri belə böyük diqqətə malik deyillər? Nə üçün? Yəni bu sualları, biz də bu sualları qarşı, yəni bizim tərəfdaşlara açıq şəkildə qoyuruq və predmetli danışıqlar nəticəsində görürük ki, bizim əsaslı iradlarımıza, əsaslı narahatlığımıza tutarlı cavab ala bilmirik. Bəzi hallarda bizim həmkarlarımız razılaşmağa məcbur olurlar ki, bəli, dünyada ikili standartlar var və biz bunu bilirik. Azərbaycan cəmiyyəti də bunu bilir. Bizə qarşı bəzi hallarda əsassız hücumlar, tənqidlər bütün Azərbaycan xalqını da, bizi də üzür. Çünki bu hücumlar əsassızdır.

Təbii ki, Azərbaycan cəmiyyətində hər şey kamil deyil. Hansı cəmiyyətdə hər şey mükəmməldir? Ən inkişaf etmiş ölkələrdə, özünü demokratiya simvolu adlandıran ölkələrdə məgər hər şey demokratik əsaslarla həll olunur? Əlbəttə ki, yox! Bu gün qloballaşma dövründə, internet dövründə heç bir şeyi gizlətmək mümkün deyil və insanlar hər şeyi görürlər. Biz sadəcə olaraq, bunu nəzərə almalıyıq. Amma biz öz siyasətimizdən, milli maraqlarımızın müdafiəsi prinsiplərindən bir addım geri çəkilməyəcəyik. Qoy, bizi nə qədər istəyirlər tənqid etsinlər, qoy, nə qədər istəyirlər Azərbaycanı ləkələməyə çalışsınlar. Onsuz da Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti ölkədə gedən bütün müsbət dəyişiklikləri görür və bunu dünya birliyi də görür. Sadəcə istərdik ki, bəzi təşkilatlarda bu riyakar siyasət artıq keçmişdə qalsın. Bunun əhəmiyyəti yoxdur. Bizə qarşı bir təzyiq mexanizmi kimi bu, işləmir. Bunu hamı da görür. Bizə təzyiq etmək mümkün deyil. O təzyiq cəhdləri sadəcə olaraq, münasibətlərin gərginləşməsinə gətirib çıxarır və əgər bir neçə il bundan əvvəl biz, sadəcə olaraq, buna reaksiya vermirdik, yaxud da ki, susurduq, bu gün biz susmuruq. Bu gün biz sözümüzü deyirik və əgər, kimsə Azərbaycanın gözəl imicini ləkələmək istəyirsə, biz o tərəfə qarşı mübarizə aparacağıq. Bizim gücümüz də var, imkanlarımız da!

Sözün qısası, onu demək istəyirəm ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanla əməkdaşlıq etmək lazımdır, Azərbaycanla yaxşı münasibətləri qurmaq lazımdır.

Necə ki, biz bütün ölkələrlə və beynəlxalq təşkilatlarla yaxşı münasibətlərin qurulmasının tərəfdarıyıq. Hesab edirik ki, bizə də adekvat münasibət olacaq. O halda ki, münasibət adekvat olmayacaq, onda bizdən də heç kim inciməsin. Bizim münasibətimiz də eyni olacaqdır.

Siz səfirlərsiniz və siz 47 ölkədə öz fəaliyyətinizi göstərirsiniz. Təbii ki, siz işlədiyiniz ölkələrdə Azərbaycanla o ölkələr arasında münasibətlərin inkişafı üçün çalışırsınız. Siz çalışdığınız ölkələrin daxili işinə qarışmırsınız. Təbii ki, qarışmırsınız, çünki Azərbaycanın siyasəti buna imkan verməz. Siz səfirliyə, onun statusuna xas olmayan təşəbbüslər irəli sürmürsünüz, təbii. Əlbəttə ki, biz bütün ölkələrdən eyni münasibəti gözləyirik, eyni yanaşmanı gözləyirik. Biz bir daha demək istəyirəm ki, bütün ölkələrlə çox yaxşı münasibətlərin davam etdirilməsində maraqlıyıq, bunu istəyirik. Ancaq bu, qarşılıqlı olmalıdır və Azərbaycana qarşı əsassız, bəzi hallarda təzyiq xarakterli addımları biz nə qəbul edə bilərik, nə də ki, buna göz yuma bilərik.

Digər beynəlxalq təşkilatlarla da münasibətlər davam edir. Biz Avropa İttifaqı ilə indi həm qonşuluq siyasətindəyik, qonşuluq proqramındayıq, həm də enerji dialoqundayıq. Bu qonşuluq proqramı artıq iki ilə yaxındır ki, icra olunur. Ümid edirik ki, növbəti illərdə biz bu proqramın daha da konkret nəticələrini görəcəyik. Bir başlanğıc kimi, proqram əlbəttə ki, müsbət hadisədir və o proqrama da biz könüllü qoşulduq, yəni bu, məcburi xarakter daşımırdı. Ona görə qoşulduq ki, biz istəyirik Azərbaycanda bütün meyarlar Avropanın inkişaf etmiş ölkələrinin müsbət meyarlarına uyğun olsun - istər iqtisadi azadlıqlarda, siyasi azadlıqlarda, istərsə də demokratik proseslərdə, sosial məsələlərin həllində. Sirr deyil ki, Avropa İttifaqının inkişaf etmiş ölkələrində bu məsələlər yüksək səviyyədə həll olunub. Biz də bunu istəyirik. Biz istəyirik ki, Azərbaycan müasir dövlətə çevrilsin, bütün lazımi təchizatlar yaransın və insanlar daha da yaxşı yaşasınlar. Və hesab edirik ki, növbəti illərdə qonşuluq siyasətində biz daha da konkret nəticələri görəcəyik.

O ki qaldı, enerji təhlükəsizliyi məsələlərinə, mən hələ buna toxunacağam. Bu istiqamətdə Azərbaycan əməkdaşlığa həmişə hazır olub və burada başlanmış və bizim təşəbbüsümüzlə icra olunan layihələr artıq nəinki bizim maraqlarımızı təmin edir və bizə dost olan ölkələrin maraqlarına xidmət edir.

İslam Konfransı Təşkilatı ilə bizim münasibətlərimiz güclənir. Bildiyiniz kimi, Azərbaycanda müxtəlif tədbirlər keçirilir. İslam aləmi ilə bizim münasibətlərimiz çox sürətlə inkişaf edir və bu, məni çox sevindirir. Biz elə etməliyik ki, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyək, islam həmrəyliyini gücləndirək və bizim üçün dost olan ölkələrlə münasibətlərimizi bütün istiqamətlərdə davam etdirək. Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində çox vacib rol oynayır və bu rolu oynamağa davam edəcəkdir. MDB, GUAM, NATO, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İƏT - bütün bu təşkilatlarla da bildiyiniz kimi, biz əməkdaşlıq edirik və onların tədbirlərində fəal iştirak edirik.

İndiki zəmanədə bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Bu, beynəlxalq təşkilatların gündəliyindədir və bütövlükdə dünyada müzakirə olunan mövzulardan biridir, bəlkə də ən önəmli mövzudur. Çünki bu gün enerji təhlükəsizliyi ölkələrin əslində milli təhlükəsizliyi deməkdir. Azərbaycan bu istiqamətdə uzun illərdir ki,

öz töhfəsini verir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla davam etdirilən Azərbaycanın neft strategiyası nəinki ölkəmizi tamamilə yeniləşdiribdir, eyni zamanda, bölgədə bizim imkanlarımızı gücləndiribdir və bizim müttəfiqlərimizin sayının artırılmasında önəmli rol oynayıbdır. Enerji təhlükəsizliyi, enerji diplomatiyası, bütün bunlar yəqin ki, növbəti illərdə də dünya gündəliyində duran vacib məsələlərdən biri olacaqdır. Bizim enerji potensialımız dünya birliyinə bəllidir. Biz artıq çox böyük neft və qaz hasil və ixrac edən ölkəyə çevrilirik. Bu il Azərbaycanda neft hasilatı 50 milyon tondan çox olacaqdır. Qaz hasilatı haradasa, 20 milyard kubmetrə yaxın olacaqdır. Bizim zəngin neft-qaz yataqlarımız 100 ildən sonra da Azərbaycanın maraqlarını təmin edəcək və bizim ixrac potensialımızın davam etdirilməsinə imkan yaradacaqdır. Bizim neft kəmərlərimiz 3 istiqamətə Azərbaycan neftini daşıyır. Biz indi yeni layihələr üzərində işləyirik.

Bakı-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk - bütün bu kəmərlər işlək vəziyyətdədir. Təmirdə olan Bakı-Supsa neft kəməri yəqin ki, bir-iki aydan sonra yenə fəaliyyətə başlayacaqdır. Biz Odessa-Brodı layihəsi üzərində işləyirik. "Şahdəniz" qaz layihəsi uğurla davam edir. Bizi qonşu ölkələrlə bağlayan dörd qaz kəməri var. Bəlkə dünya ictimaiyyəti bu barədə o qədər də böyük bilgilərə malik deyildir. Hesab edilirdi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən başqa kəmərlər yoxdur. Bu belə deyildir. Əlbəttə ki, Bakı-Tbilisi-Ərzurum bizim böyük tarixi nailiyyətimizdir. Azərbaycan qazı artıq bu gün Avropa Birliyi məkanına daxil edilibdir. Bu tarixi bir hadisədir. Amma bununla bərabər, bizi Gürcüstanla birləşdirən digər qaz kəmərimiz var. Biz indi onu bərpa etmişik, bütün təmir işləri aparılır və eyni zamanda o kəmər vasitəsilə Gürcüstana qaz ötürülür. Bizi Rusiya ilə bağlayan qaz kəmərimiz var. O da hər iki istiqamətə işləyə bilər və bu barədə də söhbətlər aparılır. Ölkəmizi İranla bağlayan qaz kəmərimiz var. O qaz kəməri vasitəsilə bu gün İranla mübadilə əməliyyatı aparılır. İran Naxçıvana, biz isə Astaradan İran ərazisinə qaz ötürürük. Yəni bu dörd kəmərin hamısı işlək vəziyyətdədir və bu dörd kəmər imkan verir ki, biz öz qazımızı istənilən istiqamətə, istənilən həcmdə nəql edək. Enerji ehtiyatlarının şaxələndirilməsi məsələləri budur. Bu gün istehlakçılar şaxələndirmə haqqında düşünürlər və hesab edirlər ki, hələ bu istiqamətdə işləmək lazımdır. Amma bu, istehsalçılar üçün də az əhəmiyyət daşımır. Əgər bizim 7 neft-qaz kəmərimiz olmasaydı, vəziyyətimiz indiki kimi ola bilməzdi. Danışıqlarda bizim mövqeyimiz möhkəm ola bilməzdi. Bütün kəmərləri işlək vəziyyətdə saxlamağımız bizim milli maraqlarımıza uyğun gəlir. Əlbəttə hər bir başqa ölkə kimi Azərbaycan özü üçün ən məqbul, ən əlverişli variantları seçib və seçəcəkdir. Bu, bir variant da və çox variant da ola bilər.

Yəni bu gün bizim qarşımızda duran bütün enerji məsələlərini uğurla icra etdik. Demək olar ki, Heydər Əliyev neft strategiyası zəfər çalıbdır. Azərbaycanın bugünkü imkanları bu strategiyanın təntənəsidir. Əlbəttə ki, bundan sonra daha da rahat formada, tələsmədən və maksimum mənfəət əldə etmək şərti ilə - mənfəət dedikdə, burada təkcə iqtisadi mənfəətdən söhbət getmir - biz bu işləri davam etdirəcəyik. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Dünyada və bölgədə bizim qazımıza tələbat artır və biz müxtəlif ölkələrlə bu münasibətləri sadəcə olaraq qarşılıqlı maraqlar əsasında həll etməliyik. Bizim qaz ehtiyatlarımız minimum 2 trilyon kubmetrdir ki, bu da bizə 100 ildən çox müddətdə kifayət edəcəkdir. Bir daha demək istəyirəm ki, enerji siyasətimiz bundan sonra

da Azərbaycanın milli maraqlarına, iqtisadi və siyasi maraqlarına xidmət edəcəkdir. Biz bu gün iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Heç bir kreditdən asılı deyilik, əksinə biz kreditlər veririk.

İqtisadi müstəqillik imkan verir ki, biz müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, müstəqil siyasət apara bilərdikmi? Əlbəttə ki, yox! Əlbəttə, bizi hansısa təşəbbüslərə, hansısa istiqamətə yönəltmək, sövq etmək istəyən tərəflər daha da fəal olacaqlar. Ancaq Azərbaycana heç bir iqtisadi yardım lazım deyil. Məsələn, biz Avropa İttifaqı ilə əməkdaşlıq edirik və inteqrasiya siyasətimizi davam etdiririk. Ona görə yox ki, biz Avropa İttifaqından nəsə umuruq, nəsə gözləyirik. Yox, bizə heç nə lazım deyil. Bilirsiniz ki, Avropa İttifaqının yeni üzvləri təşkilatdan böyük məbləğdə - milyardlarla dollar vəsaitlər alırlar. Bizim buna ehtiyacımız yoxdur. Ona görə bu, imkan verir ki, biz müstəqil siyasi xətt aparaq və aparırıq - istər daxili, istər xarici siyasətdə, istər enerji diplomatiyasında - bütün istiqamətlərdə. Azərbaycan bəlkə də nadir ölkələrdən biridir ki, bizim xarici siyasətimiz tam şəkildə müstəqildir. Mən bunu dəfələrlə demişən, bir daha demək istəyirəm, müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara bilsin.

Biz müstəqillik arzusu ilə yaşamışdıq. Nəsillər müstəqillik arzusu ilə yaşamışdılar. 1918-ci ildə qısa müddət ərzində müstəqillik əldə edildi və deyə bilmərəm ki, o vaxt Azərbaycan tam şəkildə müstəqil siyasət apara bilərdi. O vaxt mövcud vəziyyət hamımıza tarixdən yaxşı bəllidir. Demək olar ki, Azərbaycanın müstəqil siyasət aparmaq imkanları çox məhdud idi. 1918-ci ildə Azərbaycan öz dövlətini elan edəndə qərarlar başqa ölkələr tərəfindən qəbul edilirdi və verilirdi. Bizim o vaxtkı bədbəxtliyimiz də məhz onda idi ki, o vaxt bu qərarları verən tərəflər sonra o qərarlarından geri çəkilirdi və nəticədə Azərbaycan öz müstəqilliyini itirmişdi. Ondan sonra biz başqa ölkənin tərkibində yaşadıq. Biz bu gün müstəqilik. Bu, bizim ən böyük sərvətimizdir. Müstəqil olmaq öz xalqının maraqlarına qulluq etməkdir, öz müstəqil siyasətini aparmaqdır. Biz bunu edirik və bunu edəcəyik.

Mən görürəm, baxmayaraq ki, bizim belə açıq siyasətimiz, prinsipial mövqeyimiz bəzi hallarda kimisə qıcıqlandırır. Ancaq nəticə etibarilə güclü Azərbaycan və müstəqil Azərbaycan bizim dostlarımız üçün də çox böyük imkanlar açır. Çünki hamı bilir, artıq dəqiq bilir ki, bizim mövqeyimizdə konyunktura naminə heç bir dəyişiklik olmayacaqdır. Bizim mövqeyimizdə dəyişiklik ancaq o halda ola bilər ki, bu, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün zəruridir. Hansısa xarici amillər bizim siyasətimizə təsir edə bilməz. Bunu artıq hamı gözəl anlayır. Bir daha demək istəyirəm ki, söylədiyim bütün məsələlər nəinki xarici siyasət prioritetləridir, onlar eyni zamanda daxildə gedən proseslərə də böyük təsir göstərir. Xarici siyasət daxili siyasətin davamıdır. Biz daxildə bütün imkanlarımızı səfərbər edə bilmişik. Biz dördüncü ildir ki, iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik. İkinci belə ölkə yoxdur ki, üç il ərzində iqtisadiyyatı 96 faiz artsın. Əgər varsa, qoy desinlər. Əgər, ikinci belə ölkə varsa ki, üç il ərzində yoxsulluq 49 faizdən 16 faizə düşübdür, qoy desinlər.

650 min iş yeri açılıbdır. Bütün ölkədə quruculuq-abadlıq işləri gedir. Bütün cəmiyyət ruh yüksəkliyi ilə yaşayır. Budur Azərbaycanın reallıqları.

Ona görə də biz eşidəndə ki, "Azərbaycanda o düzgün deyil", "bu iş yaxşı aparılmır", "orada qüsur var" deyirlər, bunu deyən getsin bir güzgüyə baxsın, öz ölkəsinə nəzər salsın. Yəni bir daha demək istəyirəm ki, son müşavirədən keçən dövr ərzində bizim bu məsələlərlə bağlı mövqeyimiz daha da sərt və daha da birmənalı olubdur. Biz əlbəttə ki, diplomatik qaydalara riayət edirik və siz səfirlər də bunu etməlisiniz. Amma o halda ki, bizə qarşı diplomatik münasibət göstərilir. O halda ki bu, göstərilmir, mən sizə deyirəm, baxmayaraq ki, diplomatsınız, siz də eyni qaydada cavab verməlisiniz. Heç kimin ixtiyarı yoxdur ki, Azərbaycanın daxili işinə qarışsın, bizə məsləhət versin, bizə mühazirə oxusun. Biz bu haqqı heç kimə verməmişik və heç bir ölkənin qarşısında öhdəlik götürməmişik. Yenə deyirəm, beynəlxalq təşkilatlara üzv olarkən öhdəlik götürmüşük və onu yerinə yetiririk. Əgər bizim orada olmağımız kiməsə sərf eləmir, gəlsinlər desinlər. Biz beynəlxalq təşkilatda olmasaq nə olacaq? Azərbaycan batacaqmı? Azərbaycan ən ağır vəziyyətdə olanda - 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə kim gəlib bizə arxa olub, kim bizə kömək edib? Bizim pulumuz olmayanda, bizim iqtisadiyyatımız dağılanda - sənaye istehsalı tamamilə tənəzzülə uğramışdı, xaos, böhran, vətəndaş müharibəsi hökm sürürdü və iqtisadiyyat iflic olmuşdur - kimsə gəlib bizə məsləhət veribmi? Xəzinədə bir manat pul olmayanda, kimsə ora bir manat qoyub ki, indi gəlib bizim imkanlarımıza nəzarət etsin? Bizim öz işimizdir. Biz neft gəlirlərinin idarə olunmasında ən şəffaf mexanizm icad etmişik. BMT buna görə Azərbaycan Dövlət Neft Fondunu mükafatla təltif edibdir. Biz özümüz bilirik necə yaşamalıyıq, özümüz bilirik ölkəmizi necə idarə etməliyik. Biz deyəndə mən Azərbaycan xalqını nəzərdə tuturam. Çünki Azərbaycan xalqının qərarı ilə mən bu gün bu vəzifədəyəm və sizi də mən təyin etmişəm. Azərbaycan hakimiyyətinin mənbəyi Azərbaycan xalqıdır. Əgər kimsə Azərbaycan xalqına, Azərbaycan dövlətinə qarşı pis fikirdə olsa, biz amansız mübarizə aparacağıq, öz müstəqilliyimizi, öz müstəqil siyasətimizi qorumaq üçün, Azərbaycan xalqının maraqlarını təmin etmək üçün və Azərbaycanın inkişafı üçün. Budur əsas prinsiplər. Hər bir ölkənin uğurunun təməlində müəyyən prinsiplər dayanır. O da heç də hər zaman iqtisadi amillərlə, yaxud da ki, enerji ehtiyatları ilə ölçülmür. O prinsiplər ölkəni ölkə edir, müstəqilliyi gücləndirir və ölkə qarşısında yeni üfüqlər açır. Bunlar dövlətçilik, müstəqillik və rifah prinsipləridir.

Mən hesab edirəm ki, bir neçə gün ərzində keçiriləcək müşavirə sizin üçün çox əhəmiyyətli olacaqdır, burada müxtəlif qurumların nümayəndələri çıxış edəcək və sizin üçün yeni informasiya verəcəklər. Əminəm ki, sizin gələcək fəaliyyətiniz üçün bu, çox lazımlı olacaqdır. Bir daha demək istəyirəm ki, siz - Azərbaycan dövlətini təmsil edən insanlar - ölkəmizi ləyaqətlə təmsil etməlisiniz, Azərbaycanın milli maraqlarını müdafiə etməlisiniz və işlədiyiniz ölkələrlə münasibətlərin daha da yaxşı inkişaf etməsinə çalışmalısınız. Bütövlükdə mən bizim diplomatik nümayəndələrin fəaliyyətindən razıyam, bunu bəyənirəm, sadəcə olaraq, öz sözlərimi deməklə sizi bu işlərdə daha da fəal olmağa çağırıram.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Macarıstanın Baş naziri Ferents Dyurçanı qəbul etmişdir.

Dövlətimizin başçısı Macarıstanın Baş naziri ilə görüşünü məmnunluqla xatırladaraq dedi ki, onun ölkəmizə bu səfəri əlaqələrimizin hazırkı vəziyyətini, perspektivlərini nəzərdən keçirmək üçün yaxşı imkan yaradır. Azərbaycan-Macarıstan əməkdaşlığının uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev cənab Ferents Dyurçanın respublikamıza səfərinin səmərəli keçəcəyinə, ölkələrimizin ikitərəfli əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə yaxşı perspektivləri olduğunu və bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etdi.

Ölkələrimizn bütün sahələrdə əlaqələrinin uğurla inkişaf etdiyini söyləyən Baş nazir Ferents Dyurçan Azərbaycana səfəri zamanı keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi və bu görüşlərin məhsuldar olduğunu qeyd etdi. O, Azərbaycan-Macarıstan ikitərəfli əlaqələrinin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN İLƏ MACARISTAN ARASINDA HÖKUMƏTLƏRARASI ÜÇ SƏNƏD İMZALANMIŞDIR

İyulun 7-də Azərbaycanın Baş naziri Artur Rasizadə ölkəmizdə rəsmi səfərdə olan Macarıstan hökumətinin başçısı Ferents Dyurçan ilə görüşmüşdür.

Təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüş olmuşdur. Azərbaycan hökumətinin başçısı Azərbaycan ilə Macarıstan arasında son dövrlərdə uğurla inkişaf etməkdə olan əlaqələrdən bəhs edərək demişdir ki, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün zəruri qanunvericilik bazası mövcuddur və hökumətlərarası iqtisadi komissiyanın yaradılması qarşılıqlı faydalı əlaqələrin inkişafına sanballı töhfə olacaqdır.

Artur Rasizadə qonaqlara milli iqtisadiyyatın inkişafının dinamikası barədə məlumat vermiş, ölkəmizin əsas problcminin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək tənzimlənməmiş olması barədə danışmışdır.

Macarıstanın Baş naziri ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətləri yüksək qiymətləndirmiş, siyasi, iqtisadi və humanitar sahələrdə bu əlaqələrin daha da dərinləşəcəyinə əmin olduğunu bildirmişdir.

O, həmçinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Macarıstanın mövqeyini açıqlayaraq bəyan etmişdir ki, öz müqəddəratını təyin etmək hüququ dövlətin suverenliyinə və ərazi bütövlüyünə zidd olmamalıdır.

Danışıqların yekunlarına əsasən Azərbaycan Dövlət Statistika Komitəsi və Macarıstan Mərkəzi Statistika Komitəsi arasında Statistika sahəsində əməkdaşlıq haqqında Saziş, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə Macarıstan Kənd Təsərrüfatı və Kənd Təsərrüfatının İnkişafı Nazirliyi arasında Əməkdaşlıq haqqında Saziş, Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Macarıstan Nəqliyyat, Telekommunikasiyalar və Energetika Nazirliyi arasında informasiya texnologiyaları və rabitə sahəsində əməkdaşlıq haqqında Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır.

İmzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında Macarıstan hökumətinin başçısı öz ölkəsinin investorları üçün cəzbedici olan sahələr haqqında suallı cavablandırarkən onların energetika, rabitə və informasiya texnologiyaları, ətraf mühitin qorunması, o cümlədən sutəmizləyici qurğular və yeyinti sənayesi üçün avadanlıq satışında daha çox maraqlı olduqlarını demişdir.

F.Dyurçan energetika sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsinə toxunaraq, Azərbaycanın qlobal enerji layihələrinin həyata keçirilməsində, o cümlədən Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş layihələrin gerçəkləşdirilməsində rolunu yüksək qiymətləndirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SENATININ XARİCİ ƏLAQƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ MÜŞAHİD HÜSEYN SƏİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Pakistan Senatının xarici əlaqələr daimi komitəsinin sədri Müşahid Hüseyn Səidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Senator Pakistan Prezidenti Pərviz Müşərrəf və Baş nazir Yusuf Raza Gillaninin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, ölkələrimiz arasında dostluq münasibətlərinin hərtərəfli inkişaf etdiyini, Pakistan və Azərbaycan xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndiyini bildirdi. Müşahid Hüseyn Səid Azərbaycan Prezidentinin Pakistana səfəri zamanı etdiyi çıxışın çox böyük maraqla qarşılandığını vurğuladı. Qonaq qeyd etdi ki, ölkələrimizin parlamentlərarası əməkdaşlığının genişlənməsi ikitərəfli münasibətlərimizin daha da inkişafı işinə öz töhfəsini verir.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsindən məmnunluğunu ifadə etdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini bildirdi. Dövlətimizin başçısı Pakistan Senatının xarici əlaqələr daimi komitəsinin sədrinin ölkəmizə bu səfərinin həm parlamentlərarası əməkdaşlığın, həm də ikitərəfli münasibətlərimizin daha da dərinləşməsi baxımından əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev Pakistan Prezidenti Pərviz Müşərrəfin və Baş nazir Yusuf Raza Gillaninin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Pakistanın dövlət başçısına və Baş nazirə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN DİPLOMATLARI CƏBHƏ BÖLGƏSİNDƏ OLMUŞLAR

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin III müşavirəsinin sonuncu günü - iyulun 11-də 35 ölkədə və beynəlxalq təşkilatlarda Azərbaycanı təmsil edən diplomatlar Füzuli bölgəsində olmuşlar.

Diplomatları Horadiz şəhərində Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Füzuli Rayon İcra Hakimiyyəti-

nin başçısı Nəbi Muxtarov qarşılamışlar. Qonaqlar Heydər parkında xalqımızın ümummilli lideri Heydər Əliyevin əzəmətli heykəli önünə tər güllər qoymuş, xatirəsinə ehtiramlarını bildirmişlər.

Diplomatlar Füzuli rayonunun Zobucuq dərəsində salınmış 5 qəsəbənin birində - İkinci Zobucuq qəsəbəsində olmuşlar. 27 nömrəli məktəbin həyətində "Qarabağ şikəstəsi"nin sədaları altında başlanmış görüşdə Əli Həsənov Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin ənənəvi müşavirəsini xatırlatmış, məlumat vermişdir ki, müşavirə iştirakçıları məcburi köçkünlərin vəziyyəti və şəraiti ilə tanış olacaqlar.

Məktəbin direktoru Ülkər Quliyeva, qəsəbə sakini Süleyman Süleymanov və başqaları onları yad etdiklərinə görə qonaqlara minnətdarlıqlarını bildirmişlər. Xatırlatmışlar ki, diplomatlarla əvvəlki görüşləri çadır şəhərciklərində olmuşdur. İndi isə bu xoş hadisə dövlətimizin başçısı İlham Əliyevin diqqəti və qayğısı sayəsində salınmış abad qəsəbədə baş tutur. Qeyd edilmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həmişə Füzuliyə xüsusi münasibət bəsləmiş, böyük qayğı göstərmişdir. Füzulililər bu qayğını indi də hiss edirlər. Ulu öndər Heydər Əliyevin başladığı möhtəşəm quruculuq işlərini Prezident İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Biz bu gün də Füzuliyə çox isti münasibəti görür və bunu yüksək qiymətləndiririk. Sakinlər diplomatlardan Azərbaycan həqiqətlərini beynəlxalq aləmdə daha fəal yaymağı xahiş etdilər. Bildirildi ki, qəsəbələrin münbit və məhsuldar torpaqları var, camaat da işgüzardır. Diplomatlarımız xarici iş adamlarını bu torpaqlara investisiya yatırmağa təşviq edə bilərlər.

Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov, Ukraynadakı səfiri Tələt Əliyev məlumat verdilər ki, diplomatik korpus Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarını dönmədən yerinə yetirir. Hər birimizin iş günü vətənimizin ən vacib problemi olan Dağlıq Qarabağla bağlı həqiqətlərin çalışdığımız ölkələrin rəhbərlərinə və ictimaiyyətinə çatdırmaqla başlayır. Keçirdiyimiz müzakirələrin ana xəttində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması məsələsi durur. Ermənilərin siyasətinin ifşası üçün səyimizi daha da artıracağıq.

Qonaqlar məktəblə tanış olmuş, dəhlizdə vaxtilə qəsəbə salınarkən buradan tapılmış tunc dövrünə aid maddi-mədəniyyət abidələri nümunələrindən ibarət sərgiyə baxmış, idman zalında "Cəngi" sədaları altında məşq edən güləşçilərin bacarıqla yerinə yetirdikləri fəndləri alqışalmış, karateçilərin nümunəvi çıxışlarını izləmişlər.

Xarici işlər nazirinin müavini Vaqif Sadıqov qəsəbələrdə fəaliyyət göstərən məktəblərin hər birinə diplomatik korpus adından televizor, rəqəmli videokamera, proyektor və ekran təqdim etmişdir.

Qəsəbə sakinləri söhbət əsnasında Azərbaycan Prezidentinin Füzuliyə səfərini böyük iftixarla xatırlayır, dövlətimizin başçısının "Beyləqan və Füzuli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2008-ci il 21 aprel tarixli Sərəncamını minnətdarlıqla qeyd edirdilər. Həmin Sərəncamla 2008-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Beyləqan və Füzuli rayon icra hakimiyyətlərinin hər birinə 2 milyon manat məbləğində vəsait ayrılmış, Füzulidə müasir tələblərə cavab verən tibb mərkəzinin, su elektrik stansiyasının və Olimpiya idman mərkəzinin tikintisinə başlanılmışdır.

Füzuli camaatı dövlətimizin başçısının bu qayğısını hədsiz minnətdarlıqla, eyni zamanda böyük ruh yüksəkliyi ilə qarşılamışdır. Onlar görüşlərdə xüsusi vurğulayırdılar ki, Prezident İlham Əliyev Qarabağa, Füzuli rayonuna böyük qayğı göstərir, onun inkişafını sürətləndirmək üçün qərarlar qəbul edir, göstərişlər verir. Qarabağ camaatı, Füzuli sakinləri isə dövlətimizin başçısının ətrafında daha sıx birləşir, onun siyasətini birmənalı şəkildə dəstəkləyir və müdafiə edirlər. Diqqətə çatdırılmışdır ki, bu ilin payızında keçiriləcək prezident seçkilərində qarabağlılar artıq öz seçimlərini etmişlər, onların bir namizədi vardır - Prezident İlham Əliyev.

Rayon icra hakimiyyətinin başçısı Nəbi Muxtarov məlumat vermişdir ki, Prezidentin müvafiq Sərəncamına əsasən, Füzuli rayonunun yaşayış məntəqələrinə təbii qazın verilməsi sahəsində işlər sürətlənir. İçməli su xətləri çəkilir. Müharibədə dağılmış 1500 evin bərpa olunması, orta ixtisas məktəbinin açılması, 30 subartezian quyusunun qazılması, yeni istehsal sahələrinin yaradılması, sahibkarlığın inkişaf etdirilməsi istiqamətində işlər müvəffəqiyyətlə davam etdirilir.

Füzulidən olan məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün dövlət başçısının tapşırığı əsasında zəruri infrastruktura malik 4211 ailəlik 16 qəsəbə salınmış, 9 məktəb binası, 8 tibb müəssisəsi tikilmiş, 21 məktəb binası və 11 tibb müəssisəsi bərpa olunmuşdur. İşğal zamanı dağıdılmış və yandırılmış 4000-ə yaxın ev əsaslı bərpa olunaraq yenidən əhalinin istifadəsinə verilmişdir.

Diplomatlar Dövlət Sərhəd Xidmətinin "N" sərhəd dəstəsinə də baş çəkmişlər. Onlar giriş qapısına ulu öndərin "Sərhəd qoşunlarının qarşısında böyük vəzifələr durur. Məhz bu vəzifələrin həlli Azərbaycanın ərazi bütövlüyünü, onun müstəqilliyini təmin edəcəkdir" sözləri yazılmış hərbi hissənin qərargahında olmuş, ümummilli liderin və Azərbaycan Prezidenti İlham Əliyevin sərhədçilərlə görüşündən müxtəlif anları əks etdirən fotoşəkillərə baxmış, əsgər yataqxanasına baş çəkmiş, yeməkxanada sərhədçilərlə süfrə arxasında səmimi söhbət etmişlər.

Hərbi hissəyə televizor hədiyyə edilmişdir.

Səfirlər düşmən mövqeləri ilə üzbəüz Lələtəpədəki mövqelərimizdə gecə-gündüz ayıq-sayıq keşik çəkən əsgərlərimizlə görüşmüş, onların istifadə etdikləri müasir texnika və silah-sursatla tanış olmuşlar.

BAKIDA "İSLAM DİNİNİN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ROLU" MÖVZUSUNDA YAY MƏKTƏBİ AÇILMIŞDIR

İyulun 11-də Bakıda Azərbaycan Diplomatik Akademiyasının (ADA) təşkilatçılığı ilə "İslam dininin müasir beynəlxalq münasibətlərdə rolu" mövzusunda yay məktəbi açılmışdır.

İyulun 20-dək Bakı və Quba şəhərlərində fəaliyyət göstərən yay məktəbinə Amerika, Avropa, Afrika və Orta Asiyanın 15 ölkəsindən iştirakçılar qoşulmuşlar. Yay məktəbində dünyanın tanınmış təhsil ocaqlarının müəllimlərinin mühazirələri dinlənilməkdir.

Xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev açılış mərasimində çıxış edərək bildirmişdir ki, yay məktəbindən məqsəd İslam dininin bey-

nəlxalq münasibətlərdə rolunu öyrənmək və onu sülh, sosial ədalət dini kimi tədqiq etməkdir. Bu proqram Azərbaycanı dini tolerantlıq modeli kimi tanıtmaqda və ADA-nın dinlərarası dialoq üçün platformaya çevrilməsində mühüm rol oynayacaqdır.

Bildirilmişdir ki, proqram çərçivəsində Azərbaycandakı mövcud yüksək dini tolerantlıq, İslam dininin əsasları və digər mövzular müzakirə ediləcəkdir. Müxtəlif millətlərin nümayəndələri ilə ünsiyyət, tarixi abidələrlə tanışlıq və istirahət yay məktəbinin baza elementləri olacaqdır. Müxtəlif dinlərin sülh şəraitində birgə mövcudluğunun mümkünlüyünü araşdırmaq məqsədi ilə iştirakçılar məscidlərə, kilsələrə və Qubada yəhudi sinaqoquna baş çəkəcəklər.

Diqqətə çatdırılmışdır ki, xarici işlər naziri Elmar Məmmədyarov, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, ABŞ, İran və Qətərin Azərbaycandakı səfirləri mövzu ilə bağlı müzakirələrdə iştirak edəcəklər.

Yay məktəbində 33 nəfər iştirak edir. Onlardan 17-si xarici tələbədir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN YARADILMASININ 10-CU İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARIINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də ölkəmizdə Konstitusiya Məhkəməsinin yaradılmasının 10-cu ildönümü münasibətilə Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

Prezident İlham Əliyev ölkəmizdə bu cür yüksək səviyyəli tədbirlərin keçirilməsinin təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan qədim diyardır, lakin müstəqil ölkə kimi 17 yaşı var. Bu illər ərzində siyasi sistemin dəyişdirilməsinə, qanunun aliliyinin bərqərar olunmasına və ölkənin qısa müddətdə inkişafını təmin edən hüquqi sistemin yaradılmasına xüsusi diqqət yetirilmişdir. "Azərbaycanın 2001-ci ildən Avropa Şurasının üzvü olduğunu və bir çox beynəlxalq sazişlərə və konvensiyalara qoşulduğunu" - deyən Prezident İlham Əliyev iqtisadi, siyasi və hüquqi sistemin inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılması istiqamətində görülən işlərdən də danışdı. Dövlətimizin başçısı dedi ki, bizim gələcəkdə də görəcəyimiz işlər çoxdur. Məhz bu səbəbdən də başladığımız və davam etdirməyi planlaşdırdığımız islahatları həyata keçirmək üçün fikir və təcrübə mübadiləsinin aparılması vacibdir. Prezident İlham Əliyev Azərbaycanla yaxından tanışlıq üçün bu tədbirin əhəmiyyətini vurğuladı və Bakıda keçirilən konfransın praktik baxımdan səmərəli olacağına əminliyini söylədi, konfrans iştirakçılarına uğurlar arzuladı.

Qazaxıstan Respublikası Konstitusiya Şurasının sədri İqor Roqov Bakıda doğulduğunu bildirdi və Azərbaycanda ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu islahatların uğurla həyata keçirildiyini dedi. O, Azərbaycanla Qazaxıstan arasında əlaqələrin getdikcə genişlənməsini müsbət hal kimi dəyərləndirdi.

Macarıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri Piter Pakjolay Bakıya 1996-cı ildə səfər etdiyini xatırlatdı və ölkəsi ilə Azərbaycan arasında tarixi əlaqələrin mövcudluğuna toxundu. O, ölkəmizdə qanunun aliliyinin təmin edilməsi sahəsində na-

iliyyətlərin şahidi olduğunu söylədi, bu istiqamətdə Konstitusiya Məhkəməsinin rolunu vurğuladı.

Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkio ölkəmizdə dəfələrlə səfərdə olduğunu, xalqımızın ümummilli lideri Heydər Əliyevlə və Prezident İlham Əliyevlə görüşlərini xatırladı. O dedi ki, 2001-ci ildə Avropa Şurasına üzv olduğu vaxtdan biz "Azərbaycanın müxtəlif qurumları ilə sıx əməkdaşlıq edirik".

Prezident İlham Əliyev də Avropa Şurası və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı. Ölkəmizin Avropa Şurasına üzv olduğu 7 ildə mühüm nailiyyətlərin əldə edildiyini və bu əməkdaşlığın faydalı olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Avropa ailəsinə inteqrasiya istiqamətində əhəmiyyətli addımlar atır. Prezident İlham Əliyev Avropa İttifaqı ilə uğurla həyata keçirilən yeni qonşuluq siyasətinin, enerji təhlükəsizliyi sahəsində görülən işlərin buna misal olduğunu qeyd etdi. Dövlətimizin başçısı Dağlıq Qarabağ münaqişəsindən danışaraq bildirdi ki, Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal edib, nəticədə 1 milyon insan doğma torpaqlarından didərgin düşübdür. Prezident İlham Əliyev eyni zamanda vurğuladı ki, indi Azərbaycan dünyada iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir və hökumət məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı mühüm işlər görür.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev dövlətimizin başçısına minnətdarlığını bildirərək dedi ki, 39 il öncə iyulun 14-də Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gələn xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil ölkəmizin Konstitusiya Məhkəməsinin yaradılması və formalaşmasında da böyük xidmətlər göstərmişdir. Konstitusiya Məhkəməsinin sədri konfrans iştirakçıları adından Prezident İlham Əliyevə xatirə medalını təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir.

Görüşdə Azərbaycanla Venesiya Komissiyası arasında əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI "AZƏRBAYCAN DÜNYADA" SAYTINI TƏQDİM EDİR

Azərbaycan Diplomatik Akademiyası yeni layihə - "Azərbaycan dünyada" saytını təqdim etmişdir.

İki həftədən bir yeniləşəcək saytda mühüm xəbərlər, Azərbaycanda və regionda baş verən ən əhəmiyyətli siyasi, iqtisadi və ictimai hadisələr barədə aparıcı alim və ekspertlərin rəyləri dərc olunacaqdır.

AZƏRBAYCANIN BAŞ NAZİRİ İORDANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın Baş naziri Artur Rasizadə iyulun 17-də İordaniya Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin sədri Xalid Cəmil Əl-Sarayrah başda olmaqla bu ölkənin nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan hökumətinin başçısı siyasət sahəsində ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasını vurğulayaraq hərbi sahədə də münasibətlərin genişləndirilməsinin zəruri olmasını qeyd etmişdir. Azərbaycanın iqtisadi sahədə uğurları, ölkədə bərqərar olmuş ictimai-siyasi sabitlik barədə qonaqlara məlumat verən Baş nazir vurğulamışdır ki, Azərbaycan torpaqlarının işğalına, dinc əhalinin doğma yurdundan qovulmasına gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsi əsas problem kimi qalır.

İordaniya Silahlı Qüvvələrinin Birləşmiş Qərargah rəisləri Komitəsinin sədri azərbaycanlı həmkarı ilə aparılmış danışıqlar haqqında Azərbaycanın Baş nazirinə məlumat verərək qeyd etmişdir bu danışıqlarda qarşılıqlı təcrübə mübadiləsi, hərbi qulluqçuların hazırlıq kurslarının keçirilməsi və ümumiyyətlə, bu sahədə əməkdaşlığın genişləndirilməsi barədə razılaşmalar əldə edilmişdir.

"İSLAM DİNİNİN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ROLU" MÖVZUSUNDA YAY MƏKTƏBİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Diplomatik Akademiyasının (ADA) "İslamın beynəlxalq münasibətlərdə rolu" mövzusunda təşkil etdiyi yay məktəbi iyulun 20-də Qubada başa çatmışdır.

Akademiyadan bildirmişlər ki, yay məktəbi İslam dini mövzusunda Azərbaycanda təşkil edilən ilk beynəlxalq məktəb olmuş və proqrama ABŞ, İsveç, Hollandiya, Mozambik, İran, İsrail daxil olmaqla 15 ölkədən 35 iştirakçı qoşulmuşdur. Yay məktəbinin təlimçi heyəti isə dünyanın tanınmış təhsil müəssisələrinin professorlarından təşkil olunmuşdur. Bu təhsil müəssisələrinə nümunə olaraq Fletçer Hüquq və Diplomatiya Məktəbini, Boston Tafts Universitetini, Cenevrə Ali Beynəlxalq İnkişaf İnstitutunu, Ankara (Yaxın Şərq Texniki Universitetini), Moskva (Dövlət Beynəlxalq Münasibətlər Universitetini), Haifa Universitetini, Ərəb Əmirliyinin Strateji Araşdırmalar və Tədqiqat Mərkəzini göstərmək olar.

Yay məktəbinin açılışı Bakıda, yenicə təmirdən çıxmış Cümə məscidində keçirilmiş və

tədbirin iştirakçıları məscidin ilk ziyarətçiləri olmuşlar. Proqram zamanı iştirakçılar katolik kilsəsini də ziyarət etmiş, rahib ata Yan Çapla ilə Azərbaycanda dini müxtəliflik, xristianlığa münasibət, katolik kilsəsinin bərpası kimi mövzularda söhbət etmişlər.

Tədbirin birinci hissəsi iyulun 17-də xarici işlər naziri Elmar Məmmədyarovun iştirakçılarla görüşü ilə başa çatmışdır. Görüşdə E.Məmmədyarov İslamın Azərbaycanın xarici siyasətinin formalaşmasında rolundan danışmış, iştirakçıların suallarını cavablandırmışdır.

Kursun ikinci hissəsində Qubaya səfər təşkil edilmiş. Qırmızı qəsəbədə yerləşən yəhudi sinaqoqu ziyarət olunmuş və Azərbaycanda yəhudi icmasına münasibət və ölkəmizdə yaşayan müxtəlif dini etiqadlara malik insanlar arasındakı əlaqələr barədə söhbətlər aparılmışdır.

Proqram çərçivəsində bu mövzu üzrə tanınmış professorların mühazirələrini dinləyən iştirakçılar, eyni zamanda, İslam dininin tarixi, təkamülü, bu dinlə bağlı formalaşmış təsəvvürlər və yanaşmalar haqqında nəzəri biliyə yiyələnmişlər. Yay məktəbi iştirakçılara sertifikatların verilməsi ilə başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Türkiyənin Qars şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

İyulun 24-də Qarsda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim sürətlə inkişaf etməsindən məmnunluqlarını ifadə etdilər, Azərbaycan və Türkiyənin qlobal layihələrdə birgə iştirakının qarşılıqlı əlaqələrin möhkəmlənməsinə, habelə regional əməkdaşlığın daha da genişlənməsinə xidmət etdiyini vurğuladılar.

Prezidentlər Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulmasını mühüm hadisə kimi səciyyələndirdilər. Bildirildi ki, bu dəmir yolu ümumən regionda iqtisadi əməkdaşlığın genişlənməsi baxımından çox önəmli layihədir.

Görüşdə iki dost-qardaş ölkə arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN TÜRKİYƏ HİSSƏSİNİN TƏMƏLİNİN QOYULMASINA HƏSR EDİLMİŞ MƏRASİM

İyulun 24-də Türkiyənin Qars şəhərində Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim keçirilmişdir.

"Dəmir İpək yolu" adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi ilə həm də Ermənistanın

Azərbaycana hərbi təcavüzü nəticəsində 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmir yolu əlaqəsi yenidən bərpa olunacaqdır.

Layihəyə əsasən, Qarsdan Gürcüstanın Axalkalaki şəhərinədək olan 105 kilometrlik hissəsinin çəkilməsinə 450 milyon dollar sərmayə qoyulacaqdır. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissənin tikintisini Türkiyə maliyyələşdirəcəkdir. Gürcüstanın Azərbaycandan aldığı 200 milyon dollarlıq kreditlə isə Türkiyə sərhədindən Axalkalakiyə qədər olan təqribən 30 kilometrlik xətt çəkiləcək və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətt yenidən qurulacaqdır.

Layihənin 2010-cu ildə tamamlanması nəzərdə tutulur. İlk mərhələdə ildə 1,5 milyon sərnişin və ildə 6,5 milyon ton yük daşınacağı proqnozlaşdırılır. Qazaxıstanın da bu xətdə qoşulması üçün protokol imzalanmışdır.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə əlaqədar Anlaşmanı 2007-ci ilin fevralında Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Mixail Saakaşvili imzalamışlar. Ötən ilin noyabrında isə Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Abdullah Gülün və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin iştirakı ilə xəttin Gürcüstan hissəsinin təməli qoyulmuşdur.

Təməlqoyma mərasiminin keçirildiyi yer bayramsayağı bəzədilmiş, üç ölkənin dövlət bayraqları asılmışdı.

Türkiyə Respublikasının Prezidenti Abdullah Gül mərasimdə iştirak etmək üçün gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Gürcüstan Prezidenti Mixail Saakaşvilini səmimiyyətlə qarşıladı.

Dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Hər üç ölkənin dövlət himnləri səsləndirildi.

Mərasimi Türkiyənin nəqliyyat naziri BİNƏLİ YILDIRIM açaraq, dövlət başçılarını, bütün iştirakçıları əlamətdar hadisə münasibətilə salamladı.

Nazir dedi ki, 2007-ci il noyabrın 21-də Marabdada hər üç ölkənin dövlət başçısının iştirak etdiyi bir mərasimlə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin Gürcüstan hissəsinin təməlini qoyduq. Bu gün isə Türkiyədən Gürcüstan sərhədinədək 76 kilometrlik hissənin təməlqoyma mərasimini keçiririk. Yenə bu şad gündə Azərbaycanın dövlət başçısı hörmətli İlham Əliyev, Gürcüstanın dövlət başçısı hörmətli Mixail Saakaşvili və hörmətli cümhurbaşqanımız Abdullah Gül bu tarixi hadisəyə şahidlik edirlər.

Türkiyənin Azərbaycan və Gürcüstanla dostluq və qardaşlıq münasibətləri gündən-günə inkişaf etməkdədəir. Bu layihə üç ölkənin bir-biri ilə daha da sıx bağlanmasına, sevinclərini, uğurlarını birlikdə paylaşmalarına, yüklərin müştərək şəkildə daşınmasına şərait yaradacaq ən mühüm addımlardan biridir.

Bu layihə barədə 15 ilə yaxın söhbət, danışıqlar getdiyini xatırladan Binəli Yıldırım bildirdi ki, nəhayət 2007-ci ilin fevralında Gürcüstan və Azərbaycan prezidentlərinin, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə dövlət və hökumət başçıları səviyyəsində qərar qəbul edilmiş və beləliklə, layihənin qarşısındakı bütün problemlər

aradan qaldırılmışdır. Bu layihə Türkiyədə tikintisi davam edən Mərmərə layihəsi vasitəsilə Şərqlə Qərbi birləşdirərək, Avropaya, Londona qədər uzanan bir mədəniyyət dəhlizi, beynəlxalq dostluq və qardaşlıq dəhlizi yaradacaqdır.

Nazir dövlət başçılarını əmin etdi ki, layihənin tez bir zamanda tamamlanması üçün başlanğıcda hazırlıq işləri hansı həssaslıqla görülürdüsə, bundan sonra da eyni həssaslıqla davam etdiriləcək, gecikmədən istifadəyə veriləcəkdir.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Mən sizi çox qonaqpərvər bir torpaqda, türk torpağında salamlayıram!

Dost, qonşu və sizi sevən gürcü xalqı adından salamlayıram!

Bu, təkcə dəmir yolu deyil, gələcək nəsillərə ərməğan etdiyimiz layihədir. Bu layihə bir neçə il bundan əvvəl Prezident Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla həyata keçirməyə başladığımız layihələrin davamıdır. Biz bu layihələrə ona görə başladıq ki, vətəndaşlarımız üçün sərhədləri keçmək asanlaşsın. Mən xatırlayıram, Batumiyə getdik, Baş nazir Ərdoğanla birgə qərar qəbul etdik ki, bizim vətəndaşlarımız sərhədi keçəndə vizaya ehtiyac olmasın. Belə qərara gəldik ki, yeni sərhəd məntəqələri açılsın, Sarp sərhəd-keçid məntəqəsi genişlənsin. Bir neçə sərhəd məntəqəsi açılacaq, onlardan biri Qardaxidir. Yollar da çəkirik - İstanbuldan Batumiyə və Batumidən Tbilisiyə. Bu yollar dəmir yolu ilə paralel işləyəcəkdir. Mən buradaca demək istəyirəm ki, Azərbaycan Bakıdan Gürcüstan sərhədinə qədər yolu yenidən qurur və bu yol Gürcüstan vasitəsilə Türkiyəyə uzanacaqdır.

Biz birlikdə qərara gəldik ki, Batumidə aeroport tikək və bunu etdik. Bu, dünyada Cenevrədən sonra ikinci aeroportdur ki, iki ölkəyə xidmət edir. Hər gün İstanbula uçuşlar keçirilir. Buradan Ankaraya və Türkiyənin başqa şəhərlərinə də uçuşlar planlaşdırılır. Bu aeroport Türkiyə və Gürcüstan arasında olan dostluğun daha bir nümunəsidir. Biz qərara aldıq ki, dəmir yolu tikək. Bu işdə çox geosiyasi çətinliklər var idi. Lakin biz öz iradəmizlə bunun öhdəsindən gəldik və birlikdə bu layihəni reallaşdırdıq. Bu, Gürcüstan ərazisində 175 kilometrlik dəmir yolunun tikintisi və yenidən qurulması deməkdir.

Bizim Azərbaycanla çox yaxın dostluq münasibətlərimiz var. Azərbaycan bizim müstəqilliyimizin və uğurlu inkişafımızın əsas təminatçısıdır. Azərbaycan Gürcüstanın yaxını, əzizi və xoşməramlı qonşusudur və Azərbaycan xalqı gürcü xalqına dost xalqdır. Azərbaycanın inkişafı, uğurları və varlanması bilavasitə Gürcüstana da təsir edir. Azərbaycanın qələbəsi Gürcüstanın da qələbəsidir. Biz də əlimizdən gələni edəcəyik ki, Gürcüstanın nailiyyətləri Azərbaycana da xeyir gətirsin. Biz unutmamalıyıq ki, 2005-ci ilin yanvar ayında Gürcüstana təbii qaz verilməsi dayandırılmışdı. Bu, çox müəmmalı bir şəraitdə baş vermişdi. O zaman Azərbaycan böyük bir xeyirxah addım atdı, öz ehtiyacının tam ödəmədiyi halda, qaz ehtiyatının yarısını Gürcüstana ötürdü və Gürcüstan sakinlərini qışda donmaqdan xilas etdi. Bu xeyirxahlıq bizim insanların yaddaşından heç vaxt silinməyəcəkdir.

Biz Heydər Əliyevin başladığı işləri də unutmamalıyıq. Bunlardan biri Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Onun reallaşacağına heç kim inanmırdı. Heç kim inanmırdı ki, layihə uğurla başa çatdırılacaqdır. Heydər Əliyev elə liderlərdən idi ki, təkcə bu gü-

nü və sabahı yox, yüz il, iki yüz il bundan sonranı görürdü. Onun gördüyü işlərin hamısı gələcək nəsillərə əmanətdir.

Bizim ölkələr Avropa və Asiya arasında körpüdür. Dünyanın bir çox nöqtəsindən Çinə və Orta Asiyaya ən qısa yol bizim ölkələrdən keçir. Bu dəmir yolu da Avropaya ən qısa yol olacaq, regional infrastrukturlarımızın mükəmməlliyini tamamlayacaqdır. Biz bu istiqamətdə çox işlər görəcəyik. Biz Potidə sənaye zonası yaratmışıq və Batumidə də yaradırıq. Bu baxımdan biz Azərbaycan və Türkiyənin sərmayələrini dəstəkləyirik. Biz Azərbaycanla birlikdə yüz il ərzində ilk dəfə Kulevi terminalını tikdik. Bu, dənizdə qoşa qaladır, Türkiyə limanlarına rəqib deyildir. Biz bir-birimizin bu sahədə çatışmazlıqlarımızı tamamlayırıq.

Mən özümü xoşbəxt sayıram ki, belə bir tarixi prosesin iştirakçısıyam. Bizim ölkələr böyük nailiyyətlər əldə edib, inkişaf edəcəklər, biz bunun şahidi olacağıq. Neft və qaz kəmərləri, dəmir yolu insanların daha da yaxınlaşmasına kömək edəcəkdir. Yaxın zamanda bu dəmir yolu xətti bizim insanları bir-birinə daha da yaxınlaşdıracaqdır. Beynəlxalq səviyyədə Asiya ilə Avropanı yaxınlaşdıracaqdır. Bu layihəyə uğurlar arzulayırıq. Bu layihəyə tərəfdar olan Gürcüstan həmin işə axıra qədər sadiq qalacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Prezident, əziz qardaşım Abdullah Gül!

Hörmətli Prezident, əziz qardaşım Mixail Saakaşvili!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, məni qardaş Türkiyəyə dəvət etdiyinə görə Prezident Abdullah Gülə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə yenidən olmağımdan böyük qürur hissləri keçirirəm.

Bu gün doğrudan da tarixi bir gündür. Bu barədə artıq deyildi. Türkiyə, Gürcüstan və Azərbaycan yeni tarix yazır. Üç ölkənin səmərəli əməkdaşlığı nəticəsində bütün layihələr uğurla icra olunur. Biz həm ikitərəfli formatda çox səmərəli əməkdaşlıq edirik, eyni zamanda, üçtərəfli formatda da əlaqələrimiz real, konkret layihələrin həyata keçirilməsi ilə nəticələnir.

Bütün bu işlərin, əlbəttə ki, çox böyük tarixi vardır. Bizim xalqlarımız bütün dövrlərdə dostluq, mehribanlıq şəraitində yaşamışlar. Bizim xalqlarımız əsrlər boyu qonşu, dost xalqlar olaraq, bir-birinə daim kömək etmişlər, əməkdaşlıq etmişlər, bir yerdə yaşayıb-yaratmışlar.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra onu ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim aramızda əlaqələr dostluq, qardaşlıq əsasında qurulmuşdur. Bu əlaqələr sürətlə inkişaf edir. Bu gün deyə bilərəm ki, bu əlaqələr ən yüksək zirvədədir. Siyasi, iqtisadi, mədəni, bütün sahələrdə Türkiyə-Azərbaycan münasibətləri nümunə xarakteri daşıyır. Bu bizə imkan verir ki, öz potensialımızı daha da böyük həcmdə reallaşdıraq. Türkiyə-Azərbaycan münasibətlərinin gələcək perspektiv-

ləri də çox böyükdür, çox gözəldir. Bizim birgə həyata keçirdiyimiz layihələr, əlbəttə ki, ölkələrimizi gücləndirir, xalqlarımızı bir-birinə daha da yaxın edir, bölgəyə yeni ab-hava gətirir, yeni əməkdaşlıq imkanları açır.

Gürcüstan-Azərbaycan əlaqələri də çox uğurla inkişaf edir. Bizim xalqlarımız qardaş xalqlardır. Biz uzun illər ərzində müstəqillikdən məhrum olmuşduq, başqa ölkələrin tərkibində yaşamışdıq. Ancaq öz milli ənənələrimizi, adət-ənənələrimizi saxlamışıq, tariximizi qorumuşuq, mədəniyyətimizi, dilimizi qorumuşuq. Müstəqil dövlətlər fəaliyyətə başlayan kimi, dərhal Gürcüstan-Azərbaycan münasibətləri uğurla inkişaf etməyə başlamışdır. Biz strateji tərəfdaşıq, birlikdə çox böyük işlər görürük. Bu bölgədə Gürcüstan-Azərbaycan münasibətlərinin inkişafından çox şey asılıdır. Mənim dostum Mixail Saakaşvili qeyd etdi ki, Gürcüstan üçün çətin olan anlarda Azərbaycan heç bir tərəddüd etmədən öz imkanlarını qardaş xalqın sərəncamına verdi. Bu, belə də olmalıdır. Əlbəttə ki, hər bir ölkənin maraqları var, iqtisadi potensialı və iqtisadi prioritetləri var. Ancaq, o da həqiqətdir ki, əgər hansısa bir dost ölkə müvəqqəti olaraq çətinliklər yaşayırsa, biz mütləq, daim onların yanında olmalıyıq. Mən hesab edirəm ki, bugünkü hadisə, bu yaşanan tarix bizim münasibətlərimizin nə qədər dərin köklərə söykəndiyini göstərir.

Deyə bilərəm ki, üç ölkə arasında, üçtərəfli əməkdaşlıq bəlkə də, dünyada müşahidə olunmur, bunun analoqu yoxdur. Bu, həm siyasi, iqtisadi, mədəni sahələrdə olan əməkdaşlıqdır, eyni zamanda, real layihələrin həyata keçirilməsi baxımından çox önəmlidir. Təkcə bizim ölkələrimiz və xalqlarımız üçün deyil, Avropa üçün, dünya üçün önəmli olan irimiqyaslı layihələri Türkiyə, Gürcüstan, Azərbaycan birgə həyata keçiribdir. Vaxtilə əfsanə sayılan və bəzi dairələr tərəfindən qəbul edilməyən, yaxud şübhə ilə yanaşılan Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq reallıqdır. Biz buna nəyin hesabına nail olduq? Üç ölkənin iradəsi hesabına, xalqlarımızın bir yerdə olması və birgə əməkdaşlıq imkanlarımızın ortaya qoyulması hesabına. Vaxtilə əfsanə sayılan Bakı-Tbilisi-Ceyhan kəməri indi uğurla işləyir və bu il kəmər vasitəsilə 40 milyon tondan çox Azərbaycan nefti ixrac ediləcəkdir. Ancaq bəziləri deyirdilər ki, Azərbaycanda neft yoxdur və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin doldurulması üçün üçüncü tərəfin nefti lazımdır. Bizə bu lazım deyil, uzun illər bundan sonra da Azərbaycan nefti Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam şəkildə fəaliyyət göstərməsini təmin edəcəkdir. Gələn il kəmər tam gücü ilə işləyəcək və bu kəmər vasitəsilə 50 milyon tondan çox neft nəql ediləcəkdir.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri də bəzi dairələr tərəfindən qəbul edilmirdi və şübhələr var idi. Ancaq həyat, reallıq və bizim yorulmadan çalışmağımız bu önəmli layihəni həyata keçirdi. Dünyada enerji təhlükəsizliyi məsələlərinin ön plana çıxdığı indiki dövrdə biz bir daha görürük ki, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin nə qədər böyük əhəmiyyəti vardır. Biz zəngin "Şahdəniz" qaz yatağının işlənilməsinə 1996-cı ildə başlamışdıq. İndi artıq o yataqdan qaz hasil edilir və qardaş ölkələrə ixrac olunur. Bu gün Azərbaycan böyük həcmdə qaz ixrac edən ölkəyə çevrilmişdir. Aparılan kəşfiyyat işləri nəticəsində bizim qaz ehtiyatlarımız böyük dərəcədə artmışdır. Ən minimal hesablamalara görə, Azərbaycanın 2 trilyon kubmetr qaz ehtiyatları vardır. Bu da uzun illər, bundan sonra onilliklər ərzində həm ölkəmizin tələbatını ödəyəcək, həm də dost, qardaş ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayacaqdır.

Bakı-Tbilisi-Qars layihəsi də, demək olar ki, vaxtilə bəziləri tərəfindən ciddi qəbul olunmurdu və hesab edilirdi ki, bu layihə, sadəcə, kağız üzərində qalacaqdır. Bu layihə

barədə söhbətlər gedirdi, danışıqlar aparılırdı. Amma hətta bizim ölkələrdə də bəziləri inanmırdı ki, biz bunu gerçəkliyə çevirəcəyik. Ancaq biz bunu etdik. Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsinin həyata keçirilməsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin də rolu böyükdür. Biz artıq bu dəhlizi açdıq. Azərbaycan, Gürcüstan və Türkiyəni enerji layihələri ilə birləşdirdik. Təbii ki, neft layihəsi, qaz layihəsi ona gətirib çıxarıb ki, bu gün biz öz nəqliyyat infrastrukturumuzu da birləşdiririk. Biz bunu da bacardıq. Əminəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu müəyyən edilmiş tarixdə istismara veriləcəkdir. Beləliklə, bölgədə gedən əməkdaşlıq daha da güclənəcək, Türkiyə, Gürcüstan, Azərbaycanın milli maraqları daha da böyük dərəcədə müdafiə olunacaqdır. Biz Avropa və Asiya üçün əvəzolunmaz nəqliyyat nöqtəsinə çevriləcəyik və əlbəttə, bunun çox böyük iqtisadi və sirr deyil ki, böyük siyasi dividendləri vardır. Biz artıq bunu hiss edirik.

Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədə gedən prosesləri müəyyən edir. Bölgədə əməkdaşlıq əhval-ruhiyyəsi böyük dərəcədə bizim səylərimiz nəticəsində mümkün olmuşdur. İndi görürük ki, bizim layihələrə qoşulmaq istəyən ölkələrin sayı artır. Bizim enerji və nəqliyyat infrastrukturumuzdan istifadə etmək, əlbəttə ki, hər bir tərəf üçün fayda gətirəcəkdir. Çünki bu, ən səmərəli yoldur. Enerji daşıyıcılarının dünya bazarlarına çıxarılması üçün ən səmərəli, ən faydalı yoldur və nəqliyyat baxımından məsafəni xeyli dərəcədə qısaldan bir yoldur. Mən şübhə etmirəm ki, Bakı-Tbilisi-Qarsı da Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurumun taleyi gözləyir. Çünki, bunu etmək üçün bütün imkanlar var. Bizim bu gün, burada birgə olmağımız bunun əyani sübutudur.

Əgər yaxın tarixə nəzər salsaq görərik ki, son bir neçə il ərzində Türkiyə, Gürcüstan və Azərbaycanın iştirakı ilə çox önəmli tədbirlər keçirilmişdir. 2005-ci ildə Bakıda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsini biz bir yerdə qeyd etdik. 2006-cı ildə Ceyhanda artıq Azərbaycan neftinin Ceyhana gəlməsini qeyd etdik. 2007-ci ildə Türkiyə-Yunanıstan sərhədində Azərbaycan qazının Avropa Birliyi bazarına daxil olmasını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisinə başlanmasını qeyd etdik, bu gün isə Türkiyə hissəsinin təməlinin qoyulmasını qeyd edirik. Mən arzu edirəm ki, gələcəkdə belə gözəl tədbirlər çox olsun və əminəm, belə də olacaqdır. Çünki bunu etmək üçün bizim imkanlarımız var, siyasi iradə var, artan iqtisadi potensial var və əməkdaşlıq var. Mən hesab edirəm ki, bizim uğurlu əməkdaşlıq təcrübəmiz başqa tərəflər üçün də örnək olmalıdır. Hamı görməlidir ki, dostluq, mehribanlıq, qarşılıqlı anlaşma, bir-birinə dəstək olan yerdə bütün işlər daha da asanlıqla gedir. Bu gün biz atılan addımların və qəbul edilən cəsarətli qərarların nəticəsini görürük. Bu, yalnız başlanğıcdır. Mən görürəm ki, bizim gələcəyimiz çox uğurlu, çox parlaq olacaq və ölkələrimiz öz iqtisadi və siyasi mövqelərini daha da gücləndirəcəkdir.

Mən bu yüksək kürsüdən Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarını bu tarixi hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün soydaşlarımıza cansağlığı, uğurlar, rifah və əmin-amanlıq arzulayıram.

Sag olun!

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ

- Hörmətli prezidentlər, əziz qardaşlarım hörmətli Əliyev və hörmətli Saakaşvili!

Hörmətli nazirlər!

Dəyərli qonaqlar!

Qars şəhərinin dəyərli insanları, vətəndaşlarım!

Bu gün biz, həqiqətən, çox xoşbəxt bir gün yaşayırıq. Bu xoşbəxt günün Azərbaycan Prezidentinin və Gürcüstan Prezidentinin də şahidi olmaları, habelə, bu əlamətdar gündə burada olmağımız, şübhəsiz ki, bizim sevincimizi daha da artırmaqdadır.

Bu gün böyük bir layihənin Türkiyə hissəsinin təməlqoyma mərasimini keçiririk. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, əslində, hamının bildiyi tarixi İpək yolunun təkrar canlanmasıdır. Vaxtilə bu İpək yolu ilə karvanlar gedib-gəlirdi. İndi isə bunu "Dəmir İpək yolu"nun həyata keçirilməsi ilə təkrar reallığa çeviririk. Bu, həqiqətən, böyük bir layihədir. Çünki sadəcə üç ölkəni - Azərbaycanı, Gürcüstanı və Türkiyəni dəmir yolu ilə bir-birinə bağlamır. Bu, Asiyanın mərkəzini, Çini Avropanın o biri ucu - Londonla bağlayan bir dəmir yoludur. Bu layihə tamamlandıqda, sadəcə, sərnişinlər deyil, çox böyük miqdarda yüklər də Orta Asiyadan Avropanın digər ucuna, yaxud Avropadan da Orta Asiyaya qədər daşına biləcəkdir. Bu baxımdan, layihə təkcə iki müxtəlif coğrafiyanı bir-birinə bağlamayacaq, eyni zamanda, mədəniyyətləri, fərqli anlayışları da bir-birinə qovuşduracaqdır. Bu səbəbdən, layihənin böyüklüyü çox anlaşılandır.

Bir az öncə, əziz dostlarımın, prezidentlərin söylədiyi kimi, əvvəllər bəziləri bu layihəyə bir xəyal kimi baxırdı. Əslində, bu layihə bir zamanlar unudulmuşdu, "həyata keçirilməsi mümkün deyil" bəhanəsi ilə rəflərə atılmışdı. Amma 2004-cü ildə təkrar rəflərdən qaldırıldı və üç ölkə arasında təkrar görüşlər keçirildi, danışıqlar aparıldı. Bu layihənin həyata keçirilməsi ilə bağlı siyasi iradələr güclü bir şəkildə ortaya qoyuldu. Bundan başqa, bu üç ölkəni Qazaxıstan və Çin də dəstəklədi. Qazaxıstan bu dəmir yolunun fəaliyyətə başlaması ilə xüsusilə çox maraqlanır. Hörmətli Prezident Nazarbayevlə bütün görüşlərimiz və danışıqlarımız zamanı o, bu layihəyə xüsusi diqqət yetirir.

Bütün bu səylər nəticəsində indi layihə həyata keçirilməkdədir. Keçən il Gürcüstanda təməlqoyma mərasimi keçirilərək, dəmir yolunun Gürcüstan hissəsinin tikintisi ilə bağlı tədbirlər görüldü. Bu tikintinin maliyə dəstəyi də təmin olundu. Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin layihəyə verdiyi önəmli dəstək onun həyata keçirilməsinə daha əlverişli şərait yaratdı.

Türkiyə hissəsinin tikintisini bu gündən həyata keçiririk. Türkiyə ərazisində tamamilə yeni bir xətt çəkiləcəkdir. Bunun böyük əhəmiyyəti vardır.

Bütün bunlar göstərir ki, əgər siyasi iradə varsa, ölkələrin rəhbərləri böyük siyasi əhəmiyyətli layihələrin həyata keçirilməsində qətiyyətlidirlərsə, bu layihələr həyata keçirilə bilər. Bunun örnəyi Bakı-Tbilisi-Ceyhan neft boru xətti və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri layihələrində də olmuşdur. Bu gün də dəmir yolu layihəsini həyata keçirmək üçün qətiyyətli addımlar atırıq. Layihənin qısa müddət ərzində həyata keçiriləcəyinə əminik. Çünki, hər ölkə öz hissəsində tədbirlərini görmüşdür. Amma bu, üç ölkənin müştərək layihəsi olduğu üçün, işlərin ən asan şəkildə əlaqələndirilməsi və icra-

ya nəzarət olunması lazımdır. Bu gün dəyərli qardaşlarım İlham Əliyev və Mixail Saakaşvili ilə keçirdiyimiz görüşlərdə bu layihəyə nəzarətlə bağlı hörmətli nazirlərimizə tapşırıqlar verdik. Onlar tez-tez görüşürlər və görülən işlər barədə mütəmadi olaraq bizə hesabat verəcəklər və beləliklə, biz layihənin necə yerinə yetirildiyini və tamamlandığını izləyəcəyik. İnanıram ki, işlər vaxtından əvvəl tamamlanacaqdır.

Bu layihə, əslində, Qafqazda sabitliyə və rifaha töhfə verəcək bir layihədir. Layihə Qafqazdakı və bölgədəki bütün ölkələrə açıqdır. Bölgənin sabitliyinə və sülhə yardımçı olan, yaxşı qonşuluq əlaqələrinə önəm verən və hörmətlə yanaşan hər bir ölkəyə açıqdır. Bu layihənin həyata keçməsi ilə, sadəcə, iqtisadi fəaliyyət deyil, öncə söylədiyim kimi, mədəni əlaqələr də daha çox canlanacaqdır. Biz böyük ümidlə və məmnuniyyətlə görürük ki, hələlik adı elan edilməyən yaxşı bir iqtisadi bölgə ortaya çıxmaqdadır. Türkiyə ilə Gürcüstan arasında sərbəst ticarət anlaşması imzalandı. Türkiyə ilə Azərbaycan arasında da ticarətin daha da asanlaşdırılması ilə bağlı ikitərəfli danışıqlar aparılır. Batumi hava limanı müştərək işlədilir. İndi İstanbuldan uçan təyyarələrin sərnişinləri Artvində pasport nəzarətindən keçmədən Batumi hava limanına enə bilirlər.

Bunlar göstərir ki, bu iqtisadi bölgə gələcəkdə daha da canlanacaqdır. Bütün bu işlərin zəminində olan önəmli amil buradakı üç ölkənin liderlərinin siyasi iradəsidir. Bu siyasi iradə davam edəcəyi təqdirdə, heç şübhəm yoxdur ki, bütün bu layihələrdən üç ölkənin xalqları, vətəndaşları faydalanacaqlar. Bu siyasi iradə daha da güclü şəkildə davam edəcək, gündəliyə yeni-yeni layihələr gələcək və həyata keçiriləcəkdir.

Mən bir daha bu layihənin uğurlu olmasını diləyirəm. Bütün bölgəmizə faydalı olmasını arzulayıram. Burada əməyi olan hər kəsə təşəkkür edirəm.

Əziz qardaşlarımın - dövlət başçılarının Türkiyədə olmalarından, bu mərasimdə iştirak etmələrindən duyduğum xoşbəxtliyi və məmnunluğu bir daha ifadə edərək, hamınıza hörmət və ehtiramımı çatdırıram.

Bir daha uğurlar diləyirəm.

* * *

Sonra dövlət başçıları üç ölkənin ərazisinin təsvir olunduğu sxematik xəritənin asıldığı səhnəyə dəvət edildilər. Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili və Türkiyə Prezidenti Abdullah Gül öz ölkələrinin "ərazisində" rəmzi dəmir yolu xətlərini qoyaraq birləşdirdilər. Stansiyadakı qatarın fiti səsləndi.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜ ZİYARƏT

İyulun 24-də Azərbaycan Prezidenti İlham Əliyev Qars şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmişdir.

Dövlətimizin başçısı ulu öndərin parkdakı büstü önünə gül dəstəsi qoydu.

AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ

İyulun 24-də Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin Türkiyənin Qars şəhərindəki Baş konsulluğunun yeni binası ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, burada əsaslı təmir işlərinə 2007-ci ilin əvvəlində başlanmışdı, hazırda son tamamlama mərhələsidir.

İkimərtəbəli binada iş otaqlarından əlavə, akt və konfrans salonları da olacaq, konsulluğun işçilərinin fəaliyyəti üçün hər cür şərait yaradılacaqdır.

Konsulluq 1921-ci ildə tarixi Qars müqaviləsinin imzalandığı binanın qonşuluğunda yerləşəcəkdir.

Prezident İlham Əliyev bina ilə tanış oldu, işlərin yüksək səviyyədə və tez başa çatdırılması üçün tapşırıq və tövsiyələrini verdi.

AZƏRBAYCAN PREZİDENTİ QARS QAFQAZ UNİVERSİTETİNDƏKİ HEYDƏR ƏLİYEV TƏDRİS MƏRKƏZİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 24-də Qars Qafqaz Universitetindəki Heydər Əliyev Tədris Mərkəzi ilə tanış olmuşdur.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2007-ci ilin noyabrında açılmış Mərkəz vaxtilə ulu öndərin fəxri doktoru adına layiq görüldüyü Qars Qafqaz Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsinin tələbələri üçün tədris bazası rolunu oynayır. Heydər Əliyev Fondu Mərkəzi əyani vəsaitlərlə təmin etmişdir. Burada ümummilli lider Heydər Əliyevin fəaliyyətini, ulu öndərin Türkiyəyə, eləcə də Qarsa səfərlərini əks etdirən fotoguşə yaradılmışdır.

Tədris Mərkəzində Azərbaycanın tarixinə, ədəbiyyatına dair nəşrlərdən ibarət zəngin kitabxana, oxu və kompyuter salonları fəaliyyət göstərir.

Prezident İlham Əliyev Tədris Mərkəzi ilə tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

Dövlətimizin başçısına xatirə hədiyyələri, o cümlədən ulu öndər Heydər Əliyevin fotoşəkli təqdim edildi.

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Çox sağ olun, təşəkkür edirəm. Mən çox şadam ki, qardaş torpaqdayam. Qars şəhərində çox gözəl tədbir keçiriləcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin tikintisinin başlanması çox tarixi bir gündür. Bu yol Türkiyəni Azərbaycanla daha da sıx birləşdirəcək, qardaş xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir. Biz bütün dövrlərdə bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib və bu gün ən yüksək zirvədədir. Heydər Əliyev Tədris Mərkəzində nümayiş etdirilən fotoşəkillər də bunu göstərir. Burada "Ümid körpüsü"nün - Naxçıvanla Türkiyə arasında tikilmiş körpünün fotoşəkilləri var. Digər şəkillər də var. Bu, böyük tarixdir və bu tarix bizi irəliyə

aparır. İrəlidə isə bizi daha da böyük işlər gözləyir. Bütün türk xalqına cansağlığı, xoşbəxtlik və rifah arzulayıram.

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İyulun 24-də, Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsinin təməlinin qoyulması münasibətilə keçirilən mərasim başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin şərəfinə nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ HEYKİ TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da ATƏT-in hazırkı sədrinin xüsusi elçisi Heyki Talvitiyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ ELÇİSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi elçisi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

MOSKVADA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞLƏRİ KEÇİRİLMİŞDİR

Avqustun 1-də RF Xarici İşlər Nazirliyinin iqamətgahında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın əvvəlcə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birlikdə və Rusiya xarici işlər nazirinin müavini Andrey Denisovun iştirakı ilə geniş formatda, sonra isə təkbətək görüşü olmuşdur. Görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesinin indiki vəziyyəti və perspektivləri müzakirə edilmişdir.

Danışıqlar başa çatandan sonra hər iki ölkənin xarici işlər nazirləri ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə mətbuat konfransı keçirmişlər.

Elmar Məmmədyarov bəyan etmişdir ki, Moskvada aparılan danışıqlar kifayət qədər intensiv olmuş, tənzimləmə məsələsində irəliləyiş üçün bu günə qədər problemlər yaradan bütün əngəllələrin aradan qaldırılması ilə bağlı məsələlər müzakirə edilmişdir. Da-

nışıqlar faydalı oldu. Azərbaycan tərəfi öz mövqeyini şərh etdi.

Edvard Nalbandyan bildirmişdir ki, danışıqlar hər iki ölkənin prezidentlərinin Sankt-Peterburq görüşü ruhunda, ATƏT-in Minsk qrupu həmsədrlərinin Madriddə irəli sürdükləri təkliflər əsasında prezidentlərin verdikləri təlimatlara uyğun olaraq davam etdirilmişdir.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü 2008-ci il sentyabrın axırlarında Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası zamanı, bəlkə də daha tez baş tuta bilər.

Nazirlər suallara cavab verərkən təfsilata varmadan yalnız onu demişlər ki, məsələlərin bütün kompleksi müzakirə olunmuşdur.

"AZƏRBAYCANLILAR VƏ AMERİKALILAR: BİR-BİRİMİZİ NECƏ GÖRÜRÜK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Azərbaycan Diplomatik Akademiyası (ADA) avqustun 13-də Bakıda "Azərbaycanlılar və amerikalılar: bir-birimizi necə görürük" mövzusunda beynəlxalq konfrans keçirmişdir.

Konfransın məqsədi Azərbaycan ictimaiyyətini Amerikanın siyasi reallıqları və ABŞ ictimaiyyətini Azərbaycanda baş verənlər barədə daha ətraflı məlumatlandırmaq idi. Müzakirələrdə Azərbaycana səfər edən ABŞ-ın bir sıra nüfuzlu media orqanlarının, o cümlədən "Los-Anceles Tayms", "Nyusuik", "Nyu Republik"in siyasi icmalçıları, Azərbaycan hökumətinin rəsmiləri, yerli media və QHT təmsilçiləri iştirak etmişdilər.

Konfransda çıxış edən xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev demişdir ki, ABŞ-Azərbaycan münasibətlərində ilkin illər ərzində yaranan çətinliklər məhz iki ölkə ictimaiyyətinin bir-biri haqqında kifayət qədər məlumata malik olmaması ilə bağlı idi. Hazırda vəziyyət dəyişsə də, bu mövzu daim diqqətdədir. 2008-ci il həm ABŞ-da, həm də Azərbaycanda prezident seçkiləri ilidir. Bu baxımdan, ictimaiyyətlərimizdə olan qarşılıqlı maraq və qarşılıqlı məlumata ehtiyac bir qədər də çoxdur.

Konfransdakı müzakirələr əsasən üç mövzu - media vasitələrinin xarici siyasətə təsiri, azərbaycanlıların və amerikalıların biri-birinə münasibəti və ABŞ-dakı seçkilərin beynəlxalq aləmdə doğuracağı əks-səda ətrafında aparılmışdır.

AzərTAc-ın ABŞ-dakı xüsusi müxbiri Şəfəq Akifqızı konfransdakı çıxışında vurğulamışdır ki, ictimai diplomatiya demokratik cəmiyyətlərdə mühüm rol oynayır. ABŞ-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq səviyyəsində qiymətləndirilsə də, Azərbaycan icmasının Birləşmiş Ştatlara münasibəti birmənalı deyildir. Bunun əsas səbəbləri xalqımızın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ-ın vasitəçi səylərini qənaətbəxş hesab etməməsi, eləcə də Azadlığa Dəstək Aktına ədalətsiz 907-ci düzəlişin Konqres tərəfindən aradan qaldırılmaması ilə bağlıdır. Baxmayaraq ki, həmin düzəlişin qüvvəsi 2001-ci ildən etibarən hər il Ağ ev tərəfindən dayandırılır və ikitərəfli münasibətlərə real təsir etmir, lakin Azərbaycan xalqı onun hələ də mövcudluğundan narazıdır. İctimaiyyətin bu istəyi isə mütəmadi olaraq ikitərəfli

müzakirələr zamanı Azərbaycan diplomatları tərəfindən ABŞ rəsmilərinə çatdırılır.

Konfransın xarici iştirakçıları Azərbaycana səfər zamanı müxtəlif görüşlər keçirmiş, Bibiheybət məscidində, xristian kilsəsində olmuşlar. Xarici jurnalistlər Diplomatik Akademiyada AzərTAc və APA agentliklərinin nümayəndələrinin iştirakı ilə təşkil olunmuş "dəyirmi masa" görüşündə də iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harrisi qəbul etmişdir.

Görüşdə Azərbaycan-Amerika Birləşmiş Ştatları münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı və bu əlaqələrin daha da genişləndirilməsi işində ABŞ-da yaşayan yəhudi icmasının rolu qeyd olundu, həmçinin bildirildi ki, Azərbaycanda yaşayan yəhudi icmasının azad fəaliyyəti üçün ölkəmizdə bütün imkanlar var.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİ PREZİDENT SEÇKİLƏRİNİ İZLƏMƏK ÜÇÜN ATƏT, AVROPA ŞURASI VƏ MDB-DƏN MÜŞAHİDƏÇİLƏR DƏVƏT ETMİŞDİR

Azərbaycanın Xarici İşlər Nazirliyi oktyabrın 15-də ölkəmizdə keçiriləcək prezident seçkilərini izləmək üçün ATƏT, Avropa Şurası və Müstəqil Dövlətlər Birliyindən (MDB) müşahidəçilər dəvət etmişdir. Artıq ATƏT və Avropa Şurası dəvəti qəbul etmiş və seçkiləri izləmək üçün müşahidəçi göndərəcəklərini bildirmişdir.

Bu barədə Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri Xəzər İbrahim avqustun 18-də keçirdiyi ənənəvi mətbuat konfransında məlumat vermişdir.

X.İbrahim bildirmişdir ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun 30 nəfərdən ibarət uzunmüddətli müşahidəçi qrupu sentyabrın əvvələrində Bakıya gələcəkdir. ATƏT-in 450 nəfərlik qısamüddətli müşahidəçi qrupu isə oktyabrın əvvəllərində Azərbaycanda olacaqdır.

Milli Məclis də ATƏT-in, Avropa Şurasının və MDB-nin parlament assambleyalarından müşahidəçilər dəvət etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "THYSSEN KRUPP" ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ EKKERHARD ŞULTSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Almaniyanın dünya şöhrətli "Thyssen Krupp" şirkətinin idarə heyətinin sədri Ekkerhard Şultsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Cənab Ekkerhard Şults rəhbərlik etdiyi şirkətin Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinə böyük maraq göstərdiyini bildirdi.

Görüşdə şirkətin Azərbaycanda gələcəkdə fəaliyyətinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ RƏHBƏRİ LARS TUNELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri Lars Tunellin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Lars Tunell 1995-ci ildən rəhbərlik etdiyi qurumun Azərbaycanla uğurlu əməkdaşlığından məmnunluğunu bildirdi. Qonaq son illər Azərbaycanın iqtisadi artım, biznes mühitinin və özəl sektorun inkişafı istiqamətində əldə etdiyi nailiyyətləri yüksək dəyərləndirdi.

Görüşdə Azərbaycanla Beynəlxalq Maliyyə Korporasiyası arasında əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da bp şirkətinin icraçı vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.

Cənab İnqlis son günlər bölgədə böhranlı vəziyyətə baxmayaraq, bp ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında zərərlərin minimuma endirilməsi istiqamətində dənizdə hasilatla bağlı əməkdaşlığın uğurla davam etdirildiyini vurğuladı. Eyni zamanda, o, Azərbaycanda qış mövsümü üçün qaz ehtiyatının təmin olunmasının da önəmli hal olduğunu bildirdi.

Dövlətimizin başçısı dedi ki, bütün bunlar hətta böhranlı vəziyyətlərdə belə Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirilməsinin mümkünlüyünü göstərir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bp ilə əməkdaşlığın bundan sonra da genişləndirilməsi planlaşdırılan layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradacaqdır.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Avqustun 20-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Azərbaycan Prezidenti Türkiyə hökumətinin başçısını böyük səmimiyyətlə qarşıladı.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın, ikitərəfli münasibətlərin bütün sahələrdə daim inkişaf etdiyi bildirildi və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Avqustun 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz! Bizim görüşlərimiz mütəmadi xarakter daşıyır və hər dəfə görüşəndə həm ikitərəfli münasibətlər, həm də bölgədə gedən proseslər geniş müzakirə olunur. Bu, onu göstərir ki, bizim əlaqələrimiz ən yüksək zirvədədir, bütün sahələrdə çox fəal əməkdaşlıq, işbirliyi aparılır.

Türkiyə və Azərbaycan tərəfindən irəli sürülən və icra edilən bütün təşəbbüslər uğurla nəticələnir. Biz bundan çox məmnunuq və əminəm ki, gələcək illərdə də Türkiyə-Azərbaycan birliyi, qardaşlığı daha da inkişaf edəcək, möhkəmlənəcək, həm ölkələrimiz, xalqlarımız üçün müsbət nəticələr gətirəcək, həm də ki, bölgədə gedən proseslərə müsbət təsir göstərəcəkdir. Bölgədə sabitliyin, təhlükəsizliyin təmin olunması və bərpa olunması gündəlikdə duran vacib məsələlərdəndir. Bu barədə biz bu gün danışdıq.

Əminəm ki, nümayəndə heyətlərinin üzvləri də bir-biri ilə təmasda olublar və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunubdur. Belə məsələlər kifayət qədər çoxdur - həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, təhlükəsizlik məsələləri. Yəni gündəlik çox genişdir və biz bütün bu məsələləri səmimi şəkildə müzakirə edirik.

Bir daha xoş gəlmisiniz!

Türkiyənin Baş naziri RƏCƏB TAYYİB ƏRDOĞAN təşəkkür edərək dedi:

- *Hörmətli Prezident!*

Hörmətli nümayəndə heyətinin üzvləri!

Təbii ki, biz iki qardaş ölkə olaraq, ötən altı illik müddətdə çox faydalı addımları atdıq və atmağa da davam edəcəyik. Bu qərarlığımız davam edir. Bütün sahələrdə, - siyasi, hərbi, iqtisadi, ticari, mədəni, turizm, - gözəl inkişaf vardır. Mühüm addımlar atılır. İstəyimiz bundan sonrakı müddətdə bunu daha anlamlı şəkildə, xüsusilə bölgəyə sanbal gətirəcək şəkildə qurmaq və inkişaf etdirməkdir. Bu sahədə Türkiyə ilə Azərbaycanın üzərinə mühüm vəzifələr düşür.

Sizinlə bərabər müzakirə etdiyimiz kimi, həqiqətən, Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasına ciddi önəm veririk. Bu sahədəki yekdilliyimiz bizdə xüsusi məmnunluq doğurur. İnanıram ki, inşallah, bununla bərabər, həll edilməmiş bir çox problemləri də birlikdə çözmək imkanımız olacaqdır. Bu həmrəyliyimiz nəticəsini verəcəkdir. Biz bölgəmizin xaricindən ümid gözləyirik, amma, hələlik bunun faydası yoxdur. Demək ki, bu bölgənin problemlərini özümüz həll edəcəyik. Ona görə də atacağımız addımların çox-çox faydalı olacağına inanıram.

MƏTBUAT ÜÇÜN BƏYANATLAR

Avqustun 20-də, geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mətbuat üçün birgə bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Baş nazir,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

İlk növbədə, hörmətli Baş nazir, əziz qardaşım, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Xoş gəlmisiniz!

Bu gün biz Türkiyə-Azərbaycan münasibətlərinin bütün aspektlərini geniş müzakirə etdik. Bildiyiniz kimi, bizim aramızda əlaqələr çox sürətlə inkişaf edir və deyə bilərəm ki, bu gün bu əlaqələr ən yüksək zirvədədir. Bütün sahələrdə - həm siyasi, həm iqtisadi, həm mədəni sahələrdə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi güclənir və həm ölkələrimiz, xalqlarımız üçün, həm də ki, yaşadığımız bölgə üçün də çox müsbət nəticələr gətirir.

Biz çalışacağıq ki, gələcəkdə də bütün başlanan layihələr icra olunsun və bizim tərəfimizdən irəli sürülən birgə təşəbbüslər tezliklə həyata keçirilsin. Bildiyiniz kimi, bizim aramızda çoxlu sayda iqtisadi, nəqliyyat, enerji layihələri var və bütün bu layihələr həm ölkələrimizi gücləndirir, həm də bölgəyə əməkdaşlıq, bölgəyə sabitlik gətirir. Türkiyə-Azərbaycan əməkdaşlığı amili bölgədə sabitliyin, əmin-amanlığın, sülhün bərqərar olunması üçün çox mühüm rol oynayır.

Bütövlükdə, bütün müstəqillik dövrü ərzində Azərbaycan Türkiyə ilə münasibətlərdə ən səmimi addımlarla öz niyyətini ifadə etmişdir və Türkiyə tərəfindən biz daim dəstək, qardaşlıq, dostluq görmüşük. Bu gün bu münasibətlər bizə imkan verir ki, əməkdaşlığımızın bütün formatlarını daha da genişləndirək. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr onu göstərir, bizim iradəmiz ona gətirib çıxarır ki, hətta bəzilərinin inanmadıqları layihələr bizim təşəbbüsümüzlə, bizim təkidimizlə uğurla icra edilir.

Əlbəttə ki, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi məsələləri bu gün diqqət mərkəzindədir və bizim danışıqlarımızın mövzusu idi. Başqa məsələlərlə də bağlı fikir mübadiləsi aparılmışdır.

Əlbəttə, bölgədə gedən məsələlər, proseslər bizi çox narahat edir. Gürcüstanda yaşanan olaylar müzakirə edildi. Biz çox istəyirik ki, tezliklə Gürcüstanda həyat normal məcraya düşsün, sabitlik bərqərar olunsun və qarşıdurmaya son qoyulsun.

Bildiyiniz kimi, Rusiya və Gürcüstan Azərbaycanın qonşularıdır. Hər iki ölkə ilə bizim sərhədimiz var. Hər iki ölkə ilə bizim dostluq münasibətlərimiz var və biz çox istəyirik ki, dostlarımız öz aralarında da dost olsunlar. Bu baxımdan, əminəm ki, Türkiyə-Azərbaycan münasibətlərinin və təşəbbüslərinin mövcudluğu gələcəkdə bölgədə əməkdaşlığın, sülhün möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Biz istəyirik ki, bütün başlanan layihələr bölgəyə əlavə əməkdaşlıq əhval-ruhiyyəsi gətirsin və bizim tərəfimizdən atılmış bütün addımlar, irəli sürülmüş bütün planlar məhz o məqsədi daşıyır: həm bizim ölkələrimizin, xalqlarımızın mənafeyi və rifah halının yaxşılaşması, eyni zamanda, sabitliyin, təhlükəsizliyin təmin olunması. Son günlərdə yaşanan hadisələr onu göstərir ki, bölgə nə dərəcədə sabitliyə həssasdır. Biz birgə səylərlə, geniş formatda öz addımlarımızla bölgədə vəziyyətin sabitləşməsinə çalışmalıyıq və bunu edirik. Mövcud olan bütün layihələrin uğurla icra olunması bölgənin sabitliyi üçün başlıca şərtdir.

Gürcüstanda yaşanan hadisələr nəticəsində, əlbəttə, hər bir ölkənin iqtisadi maraqları da zərbə altına düşür. Son məlumata görə, Azərbaycanın ixrac potensialına müəyyən dərəcədə zərbə dəymişdir. Bizim nəqliyyat imkanlarımız məhdudlaşdırılıbdır. Bildiyiniz kimi, Gürcüstanda körpünün partlaması nəticəsində Azərbaycanın ixracının həcmi böyük dərəcədə azalıbdır. Əlbəttə, istəyirik ki, bizim qonşuluğumuzda vəziyyət sabitləşsin və məsələ sülh yolu ilə öz həllini tapsın.

Eyni zamanda, şübhəsiz ki, bütün beynəlxalq hüquq normaları da öz yerini tapmalıdır. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü tanıyır və biz hesab edirik ki, danışıqlar yolu ilə, sülh yolu ilə və beynəlxalq hüquq əsasında bütün münaqişələr öz həllini tapa bilər.

Əlbəttə ki, bu gün biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün atılmış addımları da müzakirə etmişik. Bir daha demək istəyirəm ki, həmişə olduğu kimi, Türkiyənin mövqeyi bu gün də səsləndi. Türkiyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Azərbaycanın haqlı olduğunu bildirir. Bütün başqa münaqişələrlə birlikdə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir.

Eyni zamanda, biz bu gün bütün başqa məsələləri də geniş şəkildə müzakirə etdik. Bizim gündəliyimiz çox böyükdür, gündəliyimizdə çoxlu məsələlər dayanır. Bizim artan siyasi və iqtisadi potensialımız, gücümüz, əlbəttə ki, bölgədə mövqelərimizi möhkəmləndirir. Türkiyə və Azərbaycanın mövqeləri nə qədər möhkəm olsa, bölgədə sabitlik də bir o qədər möhkəm olacaqdır.

Mən bir daha əziz dostum, qardaşımı, hörmətli Baş naziri Azərbaycanda salamlayıram, bütün qonaqları salamlayıram, bütün türk xalqına xoşbəxtlik, cansağlığı arzulayıram.

Sağ olun.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI

- Hörmətli Prezident,

Dəyərli mətbuat nümayəndələri!

Hörmətli qardaşım İlham Əliyevlə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşlərdə Gürcüstanda yaşanan və Cənubi Qafqazın sülh və sabitliyinə ciddi bir təhdid kimi dəyərləndirilən hadisələri hərtərəfli müzakirə etdik. Bundan başqa, ikitərəfli əlaqələrimizin gündəliyində yer alan siyasi və iqtisadi məsələləri təfsilatı ilə danışmaq fürsətimiz oldu.

Bildiyiniz kimi, son dövrdə Türkiyə, Azərbaycan və Gürcüstan birlikdə tarixi əhəmiyyət daşıyan layihələri həyata keçirdilər. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələri iyirmi birinci yüz ilin ən böyük layihələrindəndir. Bu layihələr bölgənin sabitliyi, bölgə xalqlarının rifahı üçün çox böyük önəm daşıyır. Yaşadığımız bölgə üçün sülh və sabitliyin rahatlığımız, rifahımız üçün həyati əhəmiyyəti vardır. Son hadisələr sülhə, sabitliyə və rifaha təsir edəcək, hətta bunu təhdid edəcək vəziyyət yaratmışdır və bu, narahatlıq doğurur. Cənubi Qafqazda sülh, sabitlik, rifah və əməkdaşlığın yaranması barədə hörmətli İlham Əliyevlə eyni fikirdə olduğumuzu gördüm.

Görüşlərimizdə Dağlıq Qarabağ münaqişəsini də müzakirə etmək imkanı oldu. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq həll edilməsinin vacibliyini bir daha vurğuladıq. Biz Türkiyə olaraq, bu münaqişənin sülh yolu ilə həllini arzu edirik. Bu istiqamətdə bütün səyləri, fəaliyyəti dəstəkləyirik. Ancaq 16 ildir Minsk qrupunun hələ də bir nəticə əldə edə bilməməsi, həqiqətən, bizi düşündürür.

Təsdiqləyirsiniz ki, bölgədəki son hadisələr Cənubi Qafqazın təhlükəsizliyə nə qədər həssas olduğunu bir daha ortaya qoymuşdur. Bu qarşıdurmadan nəticə çıxararaq, əsas diqqətimizi və enerjimizi bölgə xalqları arasındakı düşmənçiliyin aradan qaldırılmasına yönəltməliyik. Sizlərin də izlədiyiniz kimi, keçən həftə Moskvaya və Tbilisiyə səfərim zamanı Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının yaradılması təklifini irəli sürdüm. Qafqazda sülh, təhlükəsizlik və sabitliyin tam bərqərar olması baxımından bu platformanın gerçəkləşdirilməsinin vacibliyini düşünürük. Azərbaycanın da qoşulmasını xüsusilə istədiyimiz bu təklifin əsas prinsipləri bunlardır:

İlk növbədə, bu platforma coğrafi əsasda olmalıdır. Platforma bölgənin sülh və təhlükəsizliyini hədəfləməli, iqtisadi işbirliyini və enerji təhlükəsizliyini təmin etməlidir. Bu platforma ATƏT-in prinsiplərinə əsaslanmalı və istənilən problemin birgə həllini və idarəetmə mexanizmini əhatə etməlidir. Platforma bölgədə sabitlik və əməkdaşlığı daha da gücləndirəcəkdir. Hər hansı bir problem, sıxıntı yaşandıqda isə, bunları bu platformanı qəbul edən ölkələr əsas prinsiplər və mexanizmlərlə həll etməlidir.

Türkiyə, Azərbaycan və Gürcüstan arasında önəmli əməkdaşlıq mövcuddur. İnanıram ki, bunun həmin platforma çərçivəsində daha da inkişaf etdirilməsi gerçəkləşəcəkdir. Rusiya və Gürcüstan tərəflərinin bu təklifə müsbət yanaşdığını məmnuniyyətlə müşahidə etdik. Bu gün həmin mövzunu əziz qardaşım, hörmətli İlham Əliyev ilə ətraflı şəkildə müzakirə etdik. Azərbaycanın da bu təklifə müsbət yanaşması bizi sevindirmişdir.

Xarici İşlər Nazirliyimiz bu məsələ ilə bağlı fəaliyyətə başlamışdır və maraqlı ölkələrin xarici işlər nazirləri ilə birgə müzakirə aparıb, bunu reallaşdırmaq mümkündür. Qafqaz bölgəsini sülh, sabitlik və rifah mərkəzinə çevirmək istiqamətində Azərbaycan və Gürcüstan ilə birlikdə atdığımız addımların davam edəcəyinə inanıram.

İnanıram ki, siyasi əlaqələrimizlə bərabər, əhəmiyyətli dərəcədə inkişaf müşahidə olunan iqtisadi və ticari əlaqələrimiz daha da genişlənəcəkdir. Son ildə ticarət dövriyyəmizin həcmi 1,5 milyard dollara çatmışdır və bunun daha da artacağı aydındır. Bu sahədə hər iki tərəfin mövqeyi müsbətdir.

Bugünkü görüşlərimizdə ikitərəfli əlaqələrimizin hər sahədə daha da inkişaf etdirilməsi barədə əziz qardaşım, hörmətli İlham Əliyevlə yekdil fikrə gəldik. Bu səfərimizin bölgədə uzunmüddətli sülh və sabitlik şəraitinin yaranmasına kömək edəcəyinə inanır, sizə təşəkkür edirəm.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 20-də Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana işgüzar səfəri başa çatmışdır.

RUMINİYANIN PREZİDENTİ TRAYAN BESESKUNUN BAKIYA SƏFƏRİ

Avqustun 20-də Rumıniya Prezidenti Trayan Besesku Bakıya işgüzar səfərə gəlmişdir.

Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rumıniya Prezidenti Trayan Beseskunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər hörmətlə qarşıladılar.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Trayan Besesku və Elmar Məmmədyarov arasında qısa protokol söhbəti oldu.

AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN İŞÇİ SƏHƏR YEMƏYİ

Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək işçi səhər yeməyi olmuşdur.

Söhbət zamanı bildirildi ki, Azərbaycanla Rumıniya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir və əlaqələrin möhkəmlənməsi, eyni zamanda, regional əməkdaşlığın genişlənməsinə xidmət edir. Qarşılıqlı münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Avqustun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

Sizin səfəriniz bizə imkan verdi ki, ikitərəfli münasibətləri və bölgədə gedən prosesləri geniş şəkildə müzakirə edək. Rumıniya ilə Azərbaycan arasında mövcud olan yaxın və dostluq əlaqələrini nəzərə alaraq, təbii ki, biz çox səmimi fikir mübadiləsi aparmışıq. İkitərəfli münasibətlərimiz çox sürətlə inkişaf edir və yüksək səviyyəli qarşılıqlı səfərlər bunun əyani sübutudur. Gündəliyimiz çox genişdir, buna həm siyasi, həm iqtisadi, həm mədəni, həm də enerji sahəsindəki əməkdaşlıq daxildir və biz yaxın tərəfdaşlar kimi bütün istiqamətlərdə fəaliyyət göstəririk.

Əlbəttə ki, bütün birgə layihələrimizi, xüsusilə enerji sahəsində, uğurla davam etdirmək və başa çatdırmaq üçün bölgədə sabitlik olmalıdır. Bölgədə yaşanan gərginlik bizi çox narahat edir. Bu baxımdan Sizin səfəriniz həm ikitərəfli münasibətlərin gələcək inkişafı üçün, həm də bu bölgədə gələcəkdə əməkdaşlığın, təhlükəsizliyin möhkəmlənməsi üçün çox önəmlidir.

Bir daha xoş gəlmisiniz!

Rumıniya Prezidenti TRAYAN BESESKU təşəkkür edərək dedi:

- Cənab Prezident, çox sağ olun. Bu, olduqca çox mühüm bir vaxt çərçivəsində məni qəbul etdiyinizə görə, ölkənizə işgüzar səfərə gəldiyimə görə Sizə minnətdaram.

Cənab Prezident, mənim Bakıya gəlməyim, Sizinlə görüşmək istəyim məhz onunla bağlıdır ki, Azərbaycan bu regionda mühüm əhəmiyyətə malikdir. Azərbaycanın bu əhəmiyyəti regional proseslərdə tutduğu çox düzgün mövqeyindən irəli gəlir. Bu, həmçinin onunla bağlıdır ki, Azərbaycan bu gün bütün Avropa İttifaqının, o cümlədən Rumıniyanın enerji siyasətində vacib rol oynayır. Əminəm ki, bu meyarları, eyni zamanda, ikitərəfli münasibətlərimizin olduqca yüksək səviyyədə olmasını nəzərə alaraq, biz belə vacib məsələlər üzrə bu görüşümüzü mütləq keçirməli idik.

Cənab Prezident, bu gün səhər Sizinlə apardığımız danışıqlar bir daha onu göstərdi ki, biz bir çox mühüm məsələlər üzrə - təhlükəsizlik və enerji sahəsində eyni, oxşar mövqeyə malikik. Bu da, bizim fikirlərimizin üst-üstə düşməsi hər iki ölkənin bu sahədəki rolunu gücləndirir.

MƏTBUAT ÜÇÜN BƏYANATLAR

Avqustun 21-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Besesku mətbuat üçün birgə bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, mən ilk növbədə, Sizi və nümayəndə heyətinin bütün üzvlərini Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən bilirəm ki, Siz bu günlərdə çox gərgin fəaliyyətdəsiniz, bu bölgəyə səfər edirsiniz. Əlbəttə ki, Rumıniya kimi ölkənin dövlət başçısının bölgədə yaşanan böhranlı vəziyyətlə bağlı atdığı addımlar çox müsbət qiymətləndirilir.

Biz bu gün ikitərəfli münasibətləri geniş şəkildə müzakirə etdik və bir daha məmnunluq ifadə etdik ki, Rumıniya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir, bu əlaqələr dostluq zəminində qurulubdur. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur və o vaxtdan bu günə qədər bütün sahələrdə əməkdaşlıq inkişaf etmişdir.

Bizim qarşılıqlı səfərlərimiz, müxtəlif dövlət və hökumət üzvlərinin səfərləri, artan iqtisadi imkanlar, enerji sahəsində apardığımız danışıqlar və nəzərdə tutulmuş praktik addımlar, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirir. Siyasi münasibətlər çox yüksək səviyyədədir. Biz bunu həmişə qeyd etmişik. Mən bu gün də qeyd etmək istəyirəm ki, Rumıniyanın bütün prinsipial mövqeyi, xüsusilə bölgədə mövcud olan münaqişələrlə bağlı prinsipial mövqeyi bizdə, Azərbaycanda çox yüksək qiymətləndirilir.

Beləliklə, çox möhkəm zəmində, siyasi əlaqələrin möhkəm olduğu halda, əlbəttə ki, birgə layihələrin icra olunması da asanlaşır. Biz indi enerji sahəsində əməkdaşlığın yeni mərhələsindəyik. Bildiyiniz kimi, Rumıniya ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq davam edir və biz yeni layihələr haqqında fikirləşirik. Eyni zamanda, Xəzər dənizi-Qara dəniz əməkdaşlığının möhkəmləndirilməsi işində birgə səylərimizi davam etdiririk. Rumıniya-Azərbaycan əməkdaşlığı Xəzər dənizi-Qara dəniz əməkdaşlıq məsələlərinə çox böyük töhfədir. Deyə bilərəm ki, bir çox hallarda həlledici məsələdir.

Enerji təhlükəsizliyi məsələləri son illər ərzində gündəlikdə idi. İndi bu məsələlər daha da ciddiləşir. Həm enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələsi daha da ciddiləşir, həm də enerji infrastrukturunun təhlükəsizliyinin təmin olunması məsələləri ön plana çıxır. Azərbaycan öz tərəfindən üzərinə düşən öhdəliklərini yerinə yetirir. Bizim enerji siyasətimiz bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın və dostluğun möhkəmlənməsinə yönəldilibdir. Bu uğurlu enerji siyasəti həm ölkə iqtisadiyyatı üçün çox böyük dəstəkdir, həm də bizim xarici əlaqələrimizin inkişafında mühüm rol oynayır. Biz bütün enerji təşəbbüslərimizin uğurla davam etdirilməsi üçün gələcəkdə də əlimizdən gələni edəcəyik və Azərbaycanın iqtisadi maraqlarını təmin etməklə, Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün səylərimizi davam etdirəcəyik.

Bütün bu başlanmış layihələri uğurla davam etdirmək və yeni layihələri başlamaq üçün bölgədə sabitlik olmalıdır. Bölgədə sabitliyin mövcudluğu başlıca şərtdir. Əlbəttə ki, son günlər ərzində Gürcüstanda yaşanan olaylar bizi çox narahat edir. Biz istəyirik ki,

tezliklə vəziyyət sabitləşsin, normal vəziyyət, sabitlik bərpa olunsun və münaqişəyə qədərki vəziyyət bərpa edilsin.

Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Eyni zamanda, Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir. Biz hesab edirik ki, münaqişələr - Cənubi Qafqazda və Moldovada mövcud olan münaqişələr yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Mən bu barədə bir dəfə demişəm və bir daha demək istəyirəm ki, bu münaqişə bizi narahat edir. Çünki biz bu bölgədə yerləşirik. Həm Rusiya, həm də Gürcüstan bizim qonşularımızdır. Hər iki qonşu ilə Azərbaycanın tarixi münasibətləri vardır. İndiki zamanda bizim münasibətlərimiz çox müsbətdir, çox yaxındır. Hər iki ölkə ilə Azərbaycan dostluq və strateji tərəfdaşlıq haqqında sazişlər imzalayıbdır. Hər iki ölkə ilə bizim enerji sahəsində əməkdaşlığımız var. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Novorossiysk kəmərləri bizim enerji daşıyıcılarının Gürcüstan, Rusiya və Türkiyə ərazisi ilə dünya bazarlarına çıxarılması üçün tikilib, nəzərdə tutulub və bu gün uğurla fəaliyyət göstərir. Hər iki ölkə ilə ticarət əlaqələrimiz möhkəmlənir, ticarət dövriyyəsi ildən-ilə artır. Həm Gürcüstanda, həm də Rusiyada çoxlu azərbaycanlı yaşayır və əlbəttə ki, onların normal, təhlükəsiz yaşaması, həyatı bizi biganə qoya bilməz.

Bütün bunlar bir daha onu göstərir ki, bu münaqişənin tezliklə başa çatmasında biz çox maraqlıyıq. İstəyirik ki, bizim üçün dost olan ölkələr bir-biri ilə də normal münasibətlərini saxlasınlar, pozulmuş münasibətlər bərpa olunsun. Əminəm ki, bölgədə yaşayan bütün xalqlar öz tarixi məsuliyyətini dərk edərək, Cənubi Qafqazda və bütövlükdə Qafqaz bölgəsində təhlükəsizliyin möhkəmlənməsi üçün öz səylərini göstərməlidir.

Bu istiqamətdə Rumıniyanın atdığı addımları biz çox yüksək qiymətləndiririk. Bu vaxta qədər verdiyi bəyanatlar və atdığı addımlar çox müsbətdir. Sizin bölgəyə səfəriniz də onu göstərir ki, Siz də bu məsələyə çox ciddi yanaşırsınız və biz bunu çox yüksək qiymətləndiririk.

Mən yalnız ona təəssüf edirəm ki, Sizin səfəriniz çox qısamüddətli olmuşdur. Amma bu da təbiidir, çünki Siz bir-iki gün ərzində bir neçə ölkəyə səfər edirsiniz. Əminəm ki, növbəti səfərlər də uğurlu olacaqdır.

Sizə və bütün Rumıniya xalqına yeni-yeni uğurlar arzulayıram.

Sağ olun.

RUMİNİYANIN PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI

- Cənab Prezident, çox sağ olun.

İlk növbədə, mənim xahişimə cavab verdiyinizə, çox qısa müddət ərzində bu görüşü təşkil etdiyinizə görə minnətdaram. Mənim bu görüşüm regiondakı vəziyyətlə bağlı idi. Bizim danışıqlarımız zamanı iki element əsas götürüldü. Cənab Prezident Əliyev, həm Siz, həm də mən həmin o məsələləri olduqca vacib hesab edirik.

Birincisi, enerji məsələsi ilə bağlı olan danışıqlar idi. Regiondakı enerji təhlükəsizliyi nəzərdən keçirildi. Bizim gəldiyimiz nəticə ondan ibarət oldu ki, indi vaxt yetişib ki, Gürcüstanda baş verənlərdə kimin məsuliyyətli olduğunu nəzərə alaq və bundan sonra

düzgün, müdrik addımlar ataq. Biz çox ehtiyatlı olmalıyıq. Regiondakı dövlət başçılarının müdrikliyindən istifadə edərək, regionda sabitliyi təmin etməliyik. Biz sabitliyi və təhlükəsizliyi gücləndirməliyik, saxlamalıyıq. Hesab edirik ki, bu sahədə məsuliyyət regiondakı bütün ölkə başçılarının üzərinə düşür. Böyük və ya kiçik, yaxud təsir göstərən ölkə olmasına baxmayaraq, hesab edirik ki, regiondakı bütün ölkələr, o cümlədən Qara dəniz regionundakı və digər regionlarda olan ölkələr müdrik qərarlar vasitəsilə bu regionun təhlükəsizliyinə yardım göstərməlidirlər.

Biz bu gün Gürcüstanda nələrin baş verdiyini görürük. Biz istəyirik ki, çox qısa müddət ərzində bu hadisələr sona çatsın, Gürcüstanın və Rusiyanın silahlı qüvvələri münaqişədən əvvəl tutduğu mövqelərə qayıtsın. Eyni zamanda, hesab edirik ki, onlar atəşkəs sazişinin müddəalarına tam riayət etməlidirlər. Bildiyiniz kimi, bu saziş Prezident Medvedev, Prezident Saakaşvili və Prezident Sarkozi tərəfindən hazırlanmış və imzalanmış sazişdir. Biz bu istiqamətdə addımları atmalıyıq. Ümid edirik ki, bu regionda istənilən nəticə əldə olunacaq, Rusiya Prezidenti cənab Medvedev, Gürcüstan Prezidenti cənab Saakaşvili və Fransa Prezidenti cənab Sarkozi tərəfindən imzalanmış saziş tam yerinə yetiriləcəkdir.

Əlbəttə, orada baş verən hadisələr böyük suallar doğurmuşdur. Suallar onunla bağlıdır ki, regionda bundan sonra elə bir siyasət aparılmalıdır ki, bura Avropa İttifaqı üçün alternativ enerji mənbəyi olsun. Bu baxımdan Azərbaycanla bizim mövqelərimiz üst-üstə düşür. Bu gün səhər apardığımız danışıqlar belə nəticəyə gəlməyə əsas verdi ki, enerji layihələri ilə bağlı ilkin zəruri şərtlər mövcuddur. Region ölkələrinin, Avropa İttifaqının mövqeyi nəzərə alınmaqla, bütün enerji layihələri davam etdirilməlidir. Neft və qaz nəqli infrastrukturunun inkişaf etdirilməsi vacib elementlərdən biridir. Bu elementlər gələn illər ərzində həm region dövlətlərinin, həm də Avropa ölkələrinin inkişafı deməkdir.

Rumıniya Nabukko kimi yeni layihələrin həyata keçirilməsinə tərəfdardır. Biz hesab edirik ki, Gürcüstan bundan sonra da bizim ən yaxşı tərəfdaşlarımızdan biri kimi qalacaqdır. Biz bu hisslərlə Avropa İttifaqındakı dostlarımızla birgə öz dəstəyimizi davam etdirəcəyik ki, bu elementlər enerji siyasətimizdə prioritet olsun.

Mən bizim qarşılıqlı münasibətlərimizə, maraqlarımıza, regiondakı vəziyyətə toxunmaq istərdim. Bizim yanaşmamızda fərqlər yoxdur. Cənab Prezident Əliyevin və mənim fikrimcə, mövqelərimiz tamamilə oxşardır. Biz mübahisənin, anlaşılmazlığın tərəfdarı deyilik. Ona görə həm Azərbaycan, həm də Rumıniya hesab edir və inanır ki, bu regionda təhlükəsizlik elə bir bünövrə, elə vacib bir əsasdır ki, onun üzərində növbəti addımlar atılmalıdır. Həm Rumıniya, həm də Azərbaycan hesab edir ki, "dondurulmuş" münaqişələr olan ölkələrdə, ərazilərdə sabitliyə olan təhdidlər böyükdür. Bu məsələlərin düzgün həll olunmasının və "dondurulmuş" münaqişələrdən irəli gələn təhlükənin aradan qaldırılmasının yeganə yolu həmin dövlətlərin tam mənada ərazi bütövlüyünə riayət edilməsi, buna hörmətlə yanaşılmasıdır.

Rumıniya azlıqların kollektiv hüquqlarını tanıyır. Eyni zamanda, hesab edirik ki, ölkələrin suverenliyi və ərazi bütövlüyü pozulmamalıdır. Bu baxımdan Dağlıq Qarabağdakı vəziyyətə gəldikdə, Rumıniya hesab edir ki, düzgün həll yolu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, ona hörmətlə yanaşılmasıdır. Ərazi bütövlüyü tam təmin

olunmalıdır və Azərbaycanın hakimiyyət orqanları ölkənin bütün ərazilərinə nəzarət etməlidir.

Kosovo məsələsinə gəldikdə, demək istəyirəm ki, Rumıniya Kosovonun müstəqilliyini heç vaxt tanımamışdır. Biz eyni sözləri Dnestryanı bölgə barədə də deyə bilərik. Moldova tərəfi bundan xəbərdardır.

Gürcüstana gəldikdə isə, biz hesab edirik ki, mərkəzi hakimiyyət orqanları bütün Abxaziyada, eyni zamanda, Cənubi Osetiyada öz nəzarətini tam təmin etmək hüququna malikdir. Dediyim bütün sözlər bizim nəzərdən keçirdiyimiz əsas meyarlardır və biz bunu açıqlaya bilərik.

Çox sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Avqustun 21-də Rumıniya Prezidenti Trayan Besesku nun Azərbaycana işgüzar səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN ÜZVÜ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də ABŞ Senatının xarici əlaqələr komitəsinin üzvü, senator Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, regional, beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏRBİ AVROPA İTTİFAQI PARLAMENT ASSAMBLEYASININ FƏXRİ SƏDRİ STEFAN QORİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Qərbi Avropa İttifaqı Parlament Assambleyasının fəxri sədri Stefan Qorisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Bu gözəl ölkəyə yenidən səfərindən məmnunluğunu bildirən Stefan Qoris dedi ki, nümayəndə heyətinə bir sıra Avropa ölkələrinin təmsilçiləri daxildir. Səfərdən məqsəd Azərbaycanda və ümumən Xəzər regionunda gedən proseslər, enerji təhlükəsizliyi məsələləri istiqamətində görülən işlər barədə məruzə hazırlamaqdır. Ümidvaram ki, bu hesabatda Azərbaycanda hökm sürən sabitlik məsələsi də öz əksini tapacaqdır.

Prezident İlham Əliyev regional məsələlərin hazırda böyük önəm kəsb etdiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Xəzər regionunda, Qafqazda sabitliyin, enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə daha böyük rol oynayır. Azərbay-

can Prezidenti ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin səfəri ölkəmizdə gedən inkişaf prosesləri ilə daha yaxından tanışlıq üçün yaxşı imkan olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYA XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU MİXAY REZVAN UNQUREANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Rumıniya Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixay Rezvan Unqureanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Rumıniya Prezidenti Trayan Beseskunun bu yaxınlarda ölkəmizə səfərini xatırlayaraq, səfər zamanı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi istiqamətində səmərəli danışıqlar aparıldığını vurğuladı. Azərbaycanla Rumıniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev regionda təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində də əməkdaşlığın böyük əhəmiyyət daşıdığını qeyd etdi və əmin olduğunu bildirdi ki, qonağın ölkəmizə səfəri əlaqələrin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Rumıniya Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixay Rezvan Unqureanu ölkəmizə səfərindən və Prezident İlham Əliyevlə görüşündən böyük şərəf duyduğunu dedi. O, iki ölkə arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı və bu səfərin də əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəyini bildirdi.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ƏFQANISTANDA SƏFƏRDƏ OLMUŞDUR

Xarici işlər nazirinin müavini Araz Əzimovun başçılıq etdiyi nümayəndə heyəti avqustun 25-dən Əfqanıstan İslam Respublikasında səfərdədir.

Prezident İlham Əliyevin tapşırığına əsasən avqustun 28-dək davam edəcək səfərdən məqsəd dost ölkə ilə əlaqələrin möhkəmləndirilməsi, Əfqanıstan hökuməti və xalqının ehtiyaclarının yerində öyrənilməsi, respublikamızın imkanları daxilində kömək göstərə biləcəyimiz sahələrin müəyyənləşdirilməsi, sülhməramlı qüvvələrin tərkibində xidmət edən əsgərlərimiz ilə görüşün keçirilməsidir.

Azərbaycan nümayəndə heyətinin başçısı Əfqanıstana səfərinin ilk günü hərbi hissədə əsgərlərimizin xidmət və yaşayış şəraiti ilə tanış olmuş, onların arzu və istəklərini öyrənmişdir. Hərbi hissənin komandanlığı ilə keçirilən görüşdə Azərbaycan əsgərlərinin hərbi hazırlıq səviyyəsinin yüksək olduğu, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirdikləri bildirilmişdir.

Azərbaycan nümayəndə heyətinin üzvləri əsgərlərimizin hər birinə hədiyyə təqdim etmişdir. Bundan əlavə, nazir müavini A.Əzimov əsgərlərimizin xidmət etdiyi Kabul bölgə komandanı general M.Stollsteiner ilə də görüşmüşdür.

Həmin gün A.Əzimovun Əfqanıstanın xarici işlər naziri Rəngin Dadfər Spanta və daxili işlər naziri Zərar Əhməd Moqbel ilə görüşlərində tərəfləri maraqlandıran bir çox mü-

hüm məsələlər müzakirə edilmiş, Xarici İşlər nazirlikləri arasında təmasların artırılması, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi məqsədi ilə hökumətlərarası iqtisadi komissiyanın yaradılması, hər iki ölkənin hüquq mühafizə orqanları arasında mövcud olan əməkdaşlığın daha da gücləndirilməsi qərara alınmışdır.

Avqustun 26-da Azərbaycan nümayəndə heyətinin Əfqanıstanın Müdafiə və Səhiyyə nazirliklərində keçirdikləri görüşlər də çox səmərəli olmuşdur. Səhiyyə nazirinin müavini Fəyzulla Kakər ölkəsində səhiyyə sahəsində həyata keçirilən işlər və daha çox ehtiyac duyulan sahələr barədə məlumat vermişdir.

Əfqanıstanın mədən və sənaye naziri İbrahim Adel və iqtisadiyyat naziri Məhəmməd Cəlil Şəms ilə görüşlərdə ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdir. Qarşı tərəf Azərbaycanın mədən sənayesi sahəsində əldə etdiyi nailiyyətlərdən və zəngin təcrübədən faydalanmaq niyyətində olduqlarını diqqətə çatdırmışlar.

Avqustun 28-də Azərbaycan nümayəndə heyətinin başçısı, xarici işlər nazirinin müavini Araz Əzimov Əfqanıstan parlamentinin sədri Yunus Qanuni ilə görüşmüşdür.

Əfqanıstana Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə səfər etdiyini bildirən A.Əzimov, Milli Məclis sədrinin salamlarını Y.Qanuniyə çatdırmışdır. Səfər çərçivəsində bu ölkənin xarici işlər, daxili işlər, müdafiə, səhiyyə, mədən və sənaye, iqtisadiyyat nazirləri ilə çox səmərəli görüşlər keçirdiyini vurğulayan A.Əzimov, dost Əfqanıstanın iqtisadiyyatının inkişaf etdirilməsi, hökumətin üzləşdiyi bəzi problemlərin həlli və qardaş əfqan xalqının rifahının yaxşılaşdırılması üçün Azərbaycanın da digər donor ölkələr kimi töhfə vermək niyyətini diqqətə çatdırmışdır. Sülhməramlı qüvvələrin tərkibində Azərbaycan əsgərlərinin də olduğunu qeyd edən A.Əzimov, ölkələrimizin mövcud potensialının bir çox sahələrdə əməkdaşlığı genişləndirməyə imkan verdiyini, siyasi səhnədə biri-birimizə göstərdiyimiz dəstəyin iqtisadi sahələri də əhatə etməsinin vacibliyini bildirmişdir.

Azərbaycan nümayəndə heyətinin Əfqanıstana səfərini yüksək qiymətləndirən Y.Qanuni, ölkələrimiz arasında əlaqələrin qədim tarixi olduğunu vurğulamış, siyasi, iqtisadi, mədəni və elm sahələrində əməkdaşlığın genişləndirməsinin vacibliyini bildirmişdir. Azərbaycan sülhməramlılarının məhdud sayda olması fikrini qəbul etməyən parlament sədri 45 azərbaycanlı əsgərin Əfqanıstan hökuməti və xalqının gözündə əsgərlərinin sayı dörd min beş yüzdən çox olan ölkələrdən daha yuxarıda durduğunu, əfqan xalqının onlara minnətdar olduğunu bildirmişdir.

Y.Qanuni ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin parlamentlər səviyyəsində də davam etdirilməsini arzulamış, yaxın zamanda Azərbaycana səfər edəcəyini bildirmişdir.

Əfqanıstanın hökumət rəsmiləri ilə görüşlər keçirən Azərbaycan nümayəndə heyətinin başçısı A.Əzimov, həmçinin səfər çərçivəsində NATO-nun Əfqanıstandakı mülki nümayəndəsi səfir Fernando Centelini, ABŞ səfiri Uilliyam B. Vud, İSAF-ın komandanı general David Mak Kiernan və Kabul bölgə komandanı general Mişel Stollsteiner ilə də görüşlər keçirmiş, Əfqanıstanda və regionda baş verən proseslər barədə fikir mübadiləsi aparmış, Əfqanıstan iqtisadiyyatının yenidən bərpa olunması, xalqın yaşayış səviyyəsi-

nin yaxşılaşdırılması, dinc həyata qayıtması, regionda sülh və əmin-amanlığın bərqərar olması sahəsində ABŞ-ın və Qərb ölkələrinin həyata keçirdiyi layihələrlə maraqlanmışdır.

Xarici işlər nazirinin müavini A.Əzimovun keçirdiyi görüşlərdə səfir Eynulla Mədətli və nümayəndə heyətinin üzvləri iştirak etmişlər.

Azərbaycan nümayəndə heyətinin Əfqanıstana səfəri avqustun 28-də başa çatmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ANKARADA SƏFƏRDƏ OLMUŞDUR

Avqustun 29-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ankarada səfərdə olmuşdur.

Esenboğa hava limanında jurnalistlərin sualına cavab verən nazir bildirmişdir ki, Azərbaycan təbii qazının Rusiya ərazisindən Avropaya nəqli məsələsi "Qazprom" şirkəti ilə müzakirə olunur. Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin Bakıya səfəri zamanı da təbii qazın nəqli məsələsi gündəlikdə olacaqdır.

Elmar Məmmədyarovun Türkiyə paytaxtında ilk görüşü həmkarı Əli Babacanla olmuşdur. Nazirlər regional və ikitərəfli əməkdaşlıq, Türkiyənin irəli sürdüyü Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması, digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Həmin gün Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycanın xarici işlər nazirini qəbul etmişdir. Qardaş ölkənin hökumət başçısı Azərbaycanla əlaqələrin yüksək səviyyəsindən, iki dost xalqın son illər daha da yaxınlaşmasından məmnunluğunu ifadə etmişdir. O bildirmişdir ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng enerji layihələri, bu yaxınlarda Türkiyə hissəsinin təməli qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi məhz iki qardaş ölkənin uğurlu əməkdaşlığının nəticəsidir.

Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmışdır. Türkiyənin hökumət başçısı da onun ən səmimi salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş etmişdir.

Səfərin sonunda nazir Elmar Məmmədyarovu Çankaya köşkündə Türkiyə Prezidenti Abdullah Gül qəbul etmişdir. Dövlət başçısı bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan arasında müxtəlif sahələrdə yüksələn xətlə inkişaf edən əməkdaşlığın səviyyəsindən məmnunluğunu söyləmişdir. Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını və ən xoş arzularını Abdullah Gülə çatdırmışdır. Türkiyənin dövlət başçısı da onun ən səmimi salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCANIN VƏ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ANKARADA MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

Avqustun 29-da Ankarada bir günlük işgüzar səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və türkiyəli həmkarı Əli Babacan mətbuat konfransı keçirmişlər.

Əli Babacan bildirmişdir ki, Türkiyə və Azərbaycan Ankaranın təklif etdiyi Qafqazlarda Stabillik və Əməkdaşlıq Platformasına yanaşmada ortaq mövqe tuturlar. Bizim bugünkü görüşümüz regionda cərəyan edən proseslərlə bağlı fikir mübadiləsi baxımından çox mühüm və faydalı olmuşdur. Diplomat demişdir ki, dahi şəxsiyyət Heydər Əliyevin söylədiyi "bir millət, iki dövlət" olan Türkiyə və Azərbaycan təbii ki, bu böhranlı zamanda birgə məsləhətləşmələr aparacaqdır.

Əli Babacan bu məsləhətləşmələrin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın tapşırıqları əsasında aparıldığını da demişdir. Bildirmişdir ki, müzakirələr davam edəcəkdir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Gürcüstandakı vəziyyət, regional problemlər, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı türkiyəli həmkarı ilə faydalı müzakirələr apardığını söyləmişdir. Azərbaycan və Türkiyənin qardaş ölkələr olduğunu vurğulayan nazir, dövlətlərimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsində olduğunu qeyd etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENNMARKERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də ATƏT Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lennmarkeri qəbul etmişdir.

Qoran Lennmarker ölkəmizdə, xüsusilə Bakı şəhərində böyük iqtisadi inkişafın şahidi olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda bütün sahələrdə sürətli inkişaf proseslərinin getdiyini bildirdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA VƏ SAKİT OKEAN ÖLKƏLƏRİ XƏBƏR AGENTLİKLƏRİ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 30-CU İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin "Qloballaşan dünyada informasiya hamı üçün" mövzusunda Bakıda keçirilən 30-cu iclasının iştirakçılarını qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Salam, əziz qonaqlar!

Sizi ölkəmizdə görməyimə çox şadam. Əminəm ki, Azərbaycana səfəriniz çox uğurlu olacaq və Azərbaycanı yaxından tanımaq imkanı verəcəkdir. Çünki bildiyimə görə, əksəriyyətiniz ölkəmizə ilk dəfədir ki, səfər edirsiniz. Bu, ölkəmizlə və vəziyyətlə yaxın-

dan tanış olmaq və təbii ki, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün çox yaxşı bir imkandır. Şadam ki, sizin təşkilat iclasını Bakıda keçirir.

Bizim informasiya agentliyimiz təşkilata yaxın zamanlarda, bir neçə il bundan öncə qoşulub və əminəm ki, o, bütün fəaliyyətinizdə çox fəal iştirak edəcəkdir. Siz yaxşı bilirsiniz ki, qloballaşan dünyada informasiya necə böyük əhəmiyyət kəsb edir, xüsusilə də Azərbaycan kimi müstəqilliyini yenicə əldə edən ölkələr üçün. Ölkəmiz 20 ilə yaxındır ki, müstəqil dövlətdir və özümüzü qlobal cəmiyyətə təqdim etmək üçün böyük işlər görməliyik. Bəzən Azərbaycan haqqında məlumat o qədər də dolğun olmur, bəzən isə həqiqəti əks etdirmir. Ona görə də real vəziyyəti öyrənməyin ən yaxşı yolu, təbii ki, Azərbaycandakı vəziyyəti görmək və təşkilatda təmsil edilən ölkələr, agentliklər arasında informasiya mübadiləsi aparmaq imkanına malik olmaqdır.

Hesab edirəm ki, burada apardığınız danışıqlar və fikir mübadiləsi, informasiya mübadiləsi üzləşdiyiniz problemlərin həlli üçün daha etibarlı yolları müəyyən etməyə imkan yaradacaq və xalqlar arasında daha yaxşı ünsiyyətin necə qurulmasına kömək edəcəkdir. Çünki adi insanlar informasiyanı ölkələrindəki kütləvi informasiya vasitələrindən və qlobal mediadan əldə edirlər. Ona görə də hadisələrin real vəziyyətini, həqiqəti əks etdirmək çox vacibdir, xüsusilə də bəzi ölkələr tərəfindən müxtəlif hadisələrə siyasi maraq, yaxud siyasi əlaqələr baxımından fərqli yanaşılarkən. Hadisələrə qərəzsiz yanaşma asan iş deyildir. Çünki o da həqiqətdir ki, media qurumları və informasiya agentlikləri ayrı-ayrı ölkələrdə fəaliyyət göstərir və onlar həmin ölkələrin müxtəlif hadisələrə siyasi yanaşmalarını nəzərə alırlar. Baş verən hadisələrə müxtəlif ölkələr tərəfindən, hətta eyni bölgədə yerləşən ölkələr tərəfindən belə fərqli yanaşılır.

Mən başa düşürəm ki, vəziyyəti olduğu kimi təqdim etmək asan deyildir. Çünki bu cür cəhdlər müəyyən şəxslərdən asılıdır, vəziyyəti əks etdirən jurnalistlərdən və təbii ki, bəzi hallarda subyektiv yanaşmalardan asılıdır. Lakin burada - Azərbaycanda biz elə bir mühit yaratmağa çalışırıq ki, bütün media qurumları özlərini azad hiss etsin, öz baxışlarını sərbəst ifadə edə bilsin. İnformasiya agentliklərinə gəldikdə isə, mən dövlət informasiya agentlikləri haqqında danışa bilərəm, onlar vəziyyəti real əks etdirir. Şərhlər fərqli ola bilər, siyasi analizlər tamamilə müxtəlif ola bilər, lakin informasiyanın özü dəqiq və səlis olmalıdır.

Biz Azərbaycanda siyasi, iqtisadi və media sahələrində islahatların aparılması üçün böyük işlər görmüşük. Siz yəqin bilirsiniz ki, 20 ildən bir qədər az əvvəl burada azad media yox idi. Biz Sovet İttifaqında yaşayırdıq və orada yalnız bir mövqe, bir informasiya mənbəyi var idi. Şübhəsiz ki, müstəqil medianın yaradılması asan olmayıbdır. Lakin hesab edirəm ki, biz Azərbaycanda bütün media qurumları üçün bərabər şəraitin yaradılmasına nail olmuşuq, söz azadlığı, informasiya azadlığı tam təmin edilmişdir. Bizim təcrübəmiz bu sahədə keçid dövrünün necə baş verməsini görmək üçün maraqlı ola bilər. Bu proses təkcə media sektorunda deyil, bütün sahələrdə, o cümlədən iqtisadi sahədə baş verir.

Biz müstəqilliyi əldə etdiyimiz zaman ölkəmizin iqtisadiyyatı 100 faiz dövlətdən asılı idi, indi isə ÜDM-in, demək olar ki, 90 faizi özəl sektorun payına düşür. Müstəqilliyimizə qədər yalnız bir siyasi partiya var idi, indi isə siyasi partiyaların sayı onlarladır.

Əgər 1991-ci ildə Azərbaycanda cəmi bir neçə qəzet var idisə, indi isə onların sayı 500-ü ötübdür. Hökumət lazım olan hər cür şəraiti yaradır, lakin təbii ki, jurnalistlərin məsuliyyəti, onların peşəkarlığı da çox vacib məsələdir. Ona görə də biz lazım olan ən yaxşı şəraiti yaratmaq üçün treninqlərə, təcrübə mübadiləsinə xüsusi diqqət yetiririk ki, jurnalistlər öz intellektual məhsullarını yarada bilsin və vətəndaşlarımız obyektiv informasiya əldə edə bilsinlər.

Bir daha demək istəyirəm ki, bu sahədəki beynəlxalq əlaqələr bizim üçün böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanda media məsələləri ilə bağlı çoxlu sayda beynəlxalq tədbir keçirmişik. Bu, təşkilatınızın burada keçirdiyi ilk tədbirdir və əminəm ki, müzakirə olunan məsələlər, aparılan fikir mübadiləsi təşkilat üzvləri arasında daha yaxşı anlaşmaya xidmət edəcəkdir. Eyni zamanda, qeyd etdiyim kimi, ölkəmizə ilk dəfə səfər edənlər üçün Azərbaycandakı vəziyyəti görmək və ölkələrinə qayıtdıqdan sonra real vəziyyət haqqında obyektiv şərhlər vermək üçün yaxşı bir fürsət yaradır.

Təşəkkür edirəm!

* * *

OANA-nın prezidenti, İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru ƏHMƏD MUXLİS YUSUF görüşdə çıxış edərək dedi:

- Mən İndoneziyanın Antara agentliyinin baş icraçı direktoru və hazırda Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının prezidentiyəm.

Mənimlə birgə burada təşkilatın xeyli sayda üzvləri - İranın, Malayziyanın, Çinin, Rusiyanın, Koreya Respublikasının, Qətərin, Birləşmiş Ərəb Əmirliklərinin, Suriyanın, müşahidəçi qismində olan Bolqarıstanın və digər ölkələrin xəbər agentliklərinin nümayəndələri iştirak edirlər. Onların hamısı AzərTAc-ın dostlarıdır.

Biz bazar günündən etibarən buradayıq və ölkənizdə böyük inkişafın şahidi olmuşuq, geniş miqyaslı tikinti işləri gedir. Təhsil və səhiyyə sahələrindəki inkişaf barədə də məlumatımız var. Biz bunu yüksək dəyərləndiririk. Eyni zamanda, demək istəyirəm ki, AzərTAc-ın təşkilata üzvlüyü davamlı və faydalı olacaqdır.

Bildiyiniz kimi, biz buraya təkcə tariximizi müzakirə etmək üçün deyil, həm də gələcəyimizi qurmaq üçün toplaşmışıq.

Biz tam inanırıq ki, informasiya bütün dünyanı əhatə edir və bütün dünyaya lazımdır.

Cənab Prezident, biz bu gün səhər Fəxri xiyabana və Şəhidlər xiyabanına baş çəkdik və tarixin gələcəyi necə dəyişməsindən təsirləndik.

Biz bu gün başladığımız və cümə axşamınadək davam edəcək tədbirdə konkret fəaliyyətləri necə reallaşdıra biləcəyimizi, dünyada öz yerimizi tutmaq üçün üzv ölkələr arasında informasiyanı tarazlaşdırmaqla əməkdaşlığın gücləndirilməsi məsələlərini müzakirə edəcəyik.

Cənab Prezident, icazə verin, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edim. Ümid edirəm ki, bizim buradakı iclasımız gələcək inkişafa doğru aparacaqdır.

Təşəkkür edirəm!

***

Prezident İLHAM ƏLİYEV: Təşəkkür edirəm! Düzgün qeyd etdiniz, deyə bilərəm ki, Azərbaycanda inkişafla bağlı bütün istiqamətlərdə böyük işlər görülür. Son üç il ərzində Azərbaycan iqtisadiyyatın artımına görə dünyada lider ölkə olubdur. Ölkədəki ÜDM hər il 25-35 faiz həddində artmışdır. Son dörd il ərzində isə biz faktik olaraq, ÜDM-i və sənaye istehsalını iki dəfə artırmışıq.

Təhsil və səhiyyə sahələri də prioritet istiqamətlərdəndir. Bu sahələrə böyük sərmayələr qoyulmuşdur. Kompyuterləşdirmə prosesi sürətlə gedir. Biz indi Azərbaycanın bütün məktəblərində kompyuter sinifləri yaradırıq. Kompyuterləşdirmə, eyni zamanda, məlumatın əldə edilməsi üçün bir vasitədir, çünki biz Azərbaycanın hər bir məktəbini internet şəbəkəsinə qoşuruq. Gənclər, uşaqlar, yeniyetmələr informasiyaya birbaşa çıxış əldə edəcəklər. Biz həm də onların xarici dilləri öyrənməsi məsələsinə böyük diqqət yetiririk. Çünki xarici dilləri bilmədən kompyuter vasitəsilə beynəlxalq informasiyaya çıxış mümkün deyildir. Dörd il bundan öncə hər 1000 şagirdə 1 kompyuter düşürdüsə, indi 29 şagirdə 1 kompyuter düşür. Biz artıq kompyuterləşdirmənin yüksək standartlarına yaxınlaşırıq.

Qeyd etdiyim kimi, bütün sahələrdə, o cümlədən infrastruktur, tikinti, iqtisadiyyatımızın lider sahəsi olan enerji sektoru, sosial və digər sahələr üzrə konkret inkişaf proqramlarımız var. Onu deyə bilərəm ki, bu illər ərzində biz ölkəni inkişaf etdirmək üçün, güclü iqtisadiyyat qurmaq və sosial siyasət həyata keçirmək və dünyanın inkişaf etmiş ölkələri arasında olmaq üçün daxilli məsələlərimizə böyük diqqət yetirmişik. Qeyd etdiyim kimi, iqtisadi inkişaf sahəsində xeyli iş görmüşük. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan rəqabət qabiliyyətinə görə 66-cı, informasiya texnologiyalarının inkişafına görə isə 67-ci, MDB ölkələri arasında ilk yerdədir.

Bizim üçün prioritet ölkə və xalq üçün yaxşı işlərin görülməsi olmuşdur. Bu baxımdan biz beynəlxalq təqdimata bir o qədər də böyük diqqət yetirməmişik. Yəqin elə ona görə də bəzən dünya mediasında Azərbaycan haqqında yayılan məlumatlar tam reallıqları əks etdirmir, yanlış məlumatlar gedir, Azərbaycan haqqında danışarkən insanlar, ilk olaraq, neft haqqında düşünürlər. Əlbəttə, bu, vacibdir, lakin iqtisadiyyatın digər sahələrindən daha çox əhəmiyyət kəsb etmir.

Ona görə də biz özümüzü olduğumuz kimi təqdim etmək üçün təbii ki, çox işlər görməliyik. Biri var biz beynəlxalq forumlarda, konfranslarda özümüz haqqında danışırıq, biri də var ki, insanlar özləri buraya gəlsin və buradakı inkişafı, insanların necə yaşamasını, onların təhlükəsizliyinin necə təmin olunmasını, yaşayış səviyyəsini, ölkədəki tolerantlığı, müxtəlif dinlərin nümayəndələrinin birgə yaşamasını, çoxmillətli ölkə olan Azərbaycanda müxtəlif etnik qrupların necə ünsiyyət qurduqlarını və bir yerdə yaşadıqlarını görsünlər. Bu, beynəlxalq media tərəfindən hələ öyrənilməmiş bir sahədir və əminəm ki, bu sahə yaxından öyrənildiyi zaman böyük maraq doğuracaqdır.

Beləliklə, əldə etdiyimiz sürətli iqtisadi artım, eyni zamanda, iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunduğu və sürətli iqtisadi islahatlar apardığımız bir vaxtda, sözsüz ki, insanların həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün güclü sosial siyasətin həyata keçirilməsi vacibdir. Neft hasil edən ölkələrdə onun da dərk edilməsi vacibdir ki, prioritet neft deyil, insan kapitalı olmalıdır, yoxsulluğa, işsizliyə qarşı mübarizə olmalıdır.

Biz son beş il ərzində işsizlik problemini əsasən həll etmişik. Ölkəmizdə 700 mindən çox iş yeri yaradılıbdır. Yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2007-ci ildə 16 faizə düşmüşdür. Mən əminəm ki, bu ilin nəticələrinə görə bu rəqəm daha da aşağı düşəcəkdir. Beləliklə, bu, enerji resurslarının insan kapitalına necə çevrildiyini nümayiş etdirir.

Qeyd etdiyim ki, bizim təhsil sahəsində bir çox proqramlarımız var. Gənclərin xaricdə təhsil almağa göndərilməsi, təhsil mübadilələri - bütün bunlar bizim beynəlxalq ictimai rəydə daha çox tanınmağımıza imkan verir. Bizim beynəlxalq aləmdə daha yaxşı tanınmağımız üçün dünya mətbuatının əhəmiyyətli rolu var. Çünki bu olmazsa, nə etdiyimizə baxmayaraq, bunu heç kim bilməyəcək, yalnız Azərbaycan xalqı biləcək, digərləri isə fərz edəcəkdir.Ona görə də sizin bu iclası burada keçirməyiniz hər baxımdan çox vacibdir.

***

Sonra Avropa Xəbər Agentlikləri Alyansının (EANA) prezidenti, Avstriyanın APA agentliyinin baş direktoru VOLFQANQ VİSLOZİL görüşdə çıxış etdi:

- Cənab Prezident, mən Avropa Xəbər Agentlikləri Alyansının rəhbəriyəm. Təşkilatımız müxtəlif qurumları özündə birləşdirən nüfuzlu Avropa təşkilatıdır. Biz çox məmnunuq ki, bir təşkilat kimi Azərbaycan ilə sıx münasibətlər qurmuşuq.

Azərbaycana gələndən sonra mən burada gedən inkişafı öz gözlərimlə görmək imkanını əldə etdim. Bu amil indicə söylədiyiniz kimi, ölkənizin Avropa üçün əhəmiyyətindən xəbər verir. Qeyd edim ki, Azərbaycanın agentliyi AzərTAc Avropa Xəbər Agentlikləri Alyansına üzv kimi qəbul olunmuşdur. Təşkilatımıza üzvlük o qədər də asan proses deyildir. Azərbaycanın üzvlük məsələsi bir neçə il bundan öncə başlamışdı və alyansa daxil olan üzvlər səs verməli idilər. Dostumuz Mixail Qusman proses zamanı mühüm dəlillər irəli sürmüşdür. Üç və ya dörd il çəkən həmin proses zamanı ölkənizlə bağlı əsas götürülən dəlil mətbuat azadlığı ilə əlaqədar olmuşdur. Avropadakı "Sərhədsiz reportyorlar", "Ay-ti-ay" kimi təşkilatlar bu sahədəki vəziyyətlə bağlı bir çox tənqidi fikirlər söyləmişlər. Mixail Qusman Avropa alyansının rəhbərini Azərbaycana səfər etməyin vacib olmasına inandırdı. Lakin proses normal getdi və yekun olaraq, təşkilatımızın üzvləri, demək olar ki, yekdilliklə Azərbaycanın namizədliyinə səs verdilər. Nəhayət, mən indi ölkənizdə səfərdəyəm.

Siz Azərbaycan haqqında məlumatın dünyanın bir çox yerlərində, eləcə də Avropada yayılmasının vacibliyini qeyd etdiniz.

Ölkənizdə olduğumuz müddət ərzində biz öncə bilmədiyimiz reallığı daha yaxşı şəkildə qavramağa başladıq. Məhz bu məsələ gələcəkdə AzərTAc ilə müzakirə etmək istədiyimiz əsas məsələlərdən biridir.

Bir sözlə, Avropa təşkilatı kimi biz AzərTAc-ın qeyd etdiyiniz istiqamətdə inkişafı üçün yardım göstərməyə hazırıq. Hazırda təşkilatımızın 31 üzvü var və onlardan biri də AzərTAc-dır.

* * *

İLHAM ƏLİYEV: Çox sağ olun. Məmnunam ki, hazırda AzərTAc müxtəlif təşkilatlar çərçivəsində işləyir. Ola bilsin, coğrafi nöqteyi-nəzərdən bu, təbiidir. Yəni, bu, Azərbaycana hansı istiqamətdən baxmağınızdan asılıdır. Əgər siz Şərqdən baxırsınızsa, o, Avropadır, əgər Qərb tərəfdən baxırsınızsa, Asiyadır.

Lakin zənnimcə, Avropa təşkilatlarına qoşulmanın coğrafi səbəblərindən başqa, digər səbəblər də mövcuddur. O da həqiqətdir ki, Azərbaycan haqqında bəzən səhv informasiya gedir. Bunun səbəbi, bir tərəfdən, informasiyanın çatışmazlığı, digər tərəfdən isə formalaşmış stereotiplər, hadisələr haqqında məlumatların bilərəkdən saxtalaşdırılması ilə izah oluna bilər. Eyni zamanda, deyə bilərik ki, Qərb mətbuatında Azərbaycan haqqında məlumat ya çox məhduddur, yaxud da, birtərəflidir.

Digər ölkələrdə olduğu kimi, bizdə də bir çox problemlər və həll olunmamış məsələlər var. 1991-ci ildə müstəqilliyi qazandığımız zaman biz keçmiş sovet respublikaları arasında ən ağır vəziyyətdə idik. Çünki həmin vaxt ölkədə vəziyyət çox gərgin idi, Azərbaycan ərazisinin müəyyən hissəsi artıq Ermənistanın işğalı altında idi. Həmin işğal sonrakı illər ərzində də davam etdi. Siyasi idarəçilik təcrübəsi yox idi. Azad mətbuatımız da olmamışdır. Lakin qısa bir tarixi dövrdə - 1918-1920-ci illər ərzində, Rusiya imperiyasının süqutu nəticəsində Azərbaycan müstəqilliyini qazanmışdı. Ancaq bu müstəqillik iki ildən az sürdü. İki il isə, azad mətbuatın formalaşması üçün kifayət qədər müddət ola bilməzdi.

Bu, bizim üçün tam yeni bir məsələ idi. Eyni zamanda, biz bir sıra problemləri də həll etməli idik - Ermənistanın təcavüzünə son qoyulması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli və sair.

Geniş beynəlxalq ictimaiyyətə yaxşı məlum olmayan bir məsələ də var: Azərbaycanın 8,5 milyon əhalisinin 1 milyonu qaçqın və məcburi köçkündür. Onlar Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaranmışdır. Hazırda, nəinki Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ, həm də onun inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonumuz da Ermənistan tərəfindən işğal olunmuşdur.

Bəzi hallarda bu reallıq dünyada diqqətdən kənarda qalır.

Bütün bu çətinliklərə baxmayaraq, biz ölkədə sürətli iqtisadi inkişafa nail olmuşuq.

İqtisadi və siyasi islahatlar, açıq qapı və xarici sərmayələrin cəlb olunması siyasəti nəticəsində biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş sovet respublikaları arasında birinci yerdəyik. Bu, bizə olan etimadı, yaxşı sərmayə mühitini və imkanları nümayiş etdirir. Dünyanın bir çox iri şirkətləri on ildən çoxdur ki, burada çalışır.

Bununla belə, mətbuat azadlığı məsələsi vaxtaşırı beynəlxalq mətbuat səhifələrində qaldırılır. Lakin mən sizi əmin edə bilərəm ki, burada mətbuat azadlığı və demokratiyanın səviyyəsi heç də digər qonşu ölkələrdəki səviyyədən aşağı deyildir. Bəzi qonşularımızdan fərqli olaraq, biz heç vaxt, müxalifət mətbu orqanlarını bağlamırıq, bu yaxınlarda Ermənistanda baş verdiyi kimi, internеti kəsmirik. Biz heç bir məhdudiyyət tətbiq etmirik. Bəzi qonşu ölkələrdə olduğu kimi, biz seçkilərdən sonra ölkədə fövqəladə vəziyyət elan etmirik. Biz Ermənistanda olduğu kimi, müxalifət üzvlərini həbs etmirik, fövqəladə vəziyyət rejimi tətbiq etmirik.

Lakin burada və Ermənistanda baş verən hadisələrin mətbuatda işıqlandırılmasını müqayisə etsəniz görərsiniz ki, beynəlxalq ictimai rəy qonşu ölkəyə çox dözümlə yanaşmış və necə deyərlər, passiv olmuşdur. Beynəlxalq mətbuat həmin ölkədəki hadisələri lazımınca işıqlandırmamışdır. Əslində, bunlar fövqəladə hadisələr oldu. Ermənistan hökuməti yüz minlərlə dinc nümayişçiyə qarşı zor tətbiq etdi. Bu hadisələr zamanı on nəfər öldürüldü, bu rəqəm rəsmən təsdiqlənibdir. Lakin bizim məlumatımıza görə, ölənlərin sayı daha çox olmuşdur. Onlar media və interneti bağladılar. Fövqəladə vəziyyət elan edildi. Müxalifət arasında həbslər başlandı. Orada gərginlik bu günə qədər davam edir. Lakin "Sərhədsiz reportyorlar" buna fikir vermədi, buna göz yumdular. Burada isə hər hansı kiçik bir hadisə baş verəndə, özlərini "Sərhədsiz reportyorlar" adlandıran təşkilat bizə hücum çəkən ilk təşkilat olur. Biz bunun nə səbəbdən baş verdiyini bilirik. Bu cür münasibətin köklərini də bilirik. Sadəcə, mən təfərrüatlara varmaq istəmirəm. Bu, tam ədalətsiz yanaşmadır.

Mən bir daha demək istəyirəm ki, ölkəmizdə tam azad mətbuat mövcuddur. Əgər siz müxalifət qəzetlərinə nəzər yetirsəniz görərsiniz ki, onlar hər gün Prezidenti tənqid edirlər. Mən bu cür yazılara heç bir reaksiya vermirəm. Lakin beynəlxalq yanaşma, məlumatların təqdim edilməsi bəzi ölkələrin siyasi maraqlarından və stereotiplərindən asılı olaraq, fərqli olur.

Eyni zamanda, onu da açıq deməliyəm ki, bu, dünyadakı erməni diasporunun səyləri ilə izah oluna bilər. Ermənilər nəinki bizim ərazilərimizi işğal edib və işğalı davam etdirir, yüz minlərlə azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti aparıblar. Hətta bütün dünyaya car çəkirlər ki, guya təcavüzkar bizik. Tarixi həqiqətləri bilməyən beynəlxalq ictimai rəy, dünya mətbuatını izləyən oxucular bəzi hallarda buna inanırlar.

Mən bir daha medianın dünyada oynadığı rolun vacibliyini qeyd etmək istəyirəm. Bu rol on il əvvəlki vəziyyətdən fərqli olaraq, daha vacibdir. Bu gün internet və mediaya mövcud çıxış əsasında siz dərhal məlumat alırsınız. Lakin həmin məlumat heç də həmişə düzgün olmur. Əvvəldə qeyd etdiyim kimi, dünyada cərəyan edən hadisələr hətta çox nüfuzlu xəbər agentlikləri tərəfindən müxtəlif formada işıqlandırılır, siyasi üstünlüklərə uyğun şəkildə təqdim olunur. Burada mövcud olan tərəflərin xüsusi yanaşması yox, ümumi yanaşma tətbiq edilməlidir. Bu işdə isə medianın oynadığı rol mühümdür.

Bu regionda yerləşən bir ölkə kimi biz regionumuzda nəyin baş verdiyini yaxşı bilirik. Biz regiondan uzaqda yerləşən dairələrdən fərqli olaraq, bu hadisələrə daha yaxşı bələdik. Görürük ki, bir çox hallarda hadisələr haqqında məlumatlar, faktlar və şərhlər heç də həmişə reallıqla uyğun gəlmir. Bu, özlüyündə böyük bir məsuliyyətdir, çünki həmin amilin medianın inkişafı üçün mühüm əhəmiyyəti var. Uzun dövlətçilik ənənələrinə malik olan və dünyanın əksər insanlarının tanıdığı ölkələr üçün bu, ola bilsin, o qədər də əhəmiyyətli deyildir.

Ancaq biz özümüzü olduğumuz kimi təqdim etmək üçün səylərimizi daha da artırmalıyıq. Biz yalnız ədalətli, siyasi üstünlüklərdən azad yanaşmaya əsaslanmalıyıq. Məsələn, dünya mətbuatında neft məsələsinə toxunulan bu məsələyə mənfi rəy verilir. Amma bəzən neft də müəyyən insanlar üçün deyil, hamı üçün rifah mənbəyi ola bilər. He-

sab edirəm ki, bu baxımdan Azərbaycanın misalı nümunə kimi götürülə bilər. Ötən il bizim Neft Fondumuz BMT-nin mükafatına layiq görülmüşdür. Bu, beynəlxalq ictimaiyyətin həmin qurumun səmərəli işinə verdiyi ən yüksək qiymətdir. Ölkəmizdə neftdən əldə olunan gəlirlərin toplanmasının və xərclənməsinin tam şəffaf sistemi mövcuddur. Azərbaycanın hər bir vətəndaşı neftdən nə qədər vəsaitin daxil olduğunu bilə bilər. Bununla bağlı mətbuatda vaxtaşırı məlumat dərc edilir, qurumda beynəlxalq təşkilatlar tərəfindən audit aparılır.

Vəsaitlərin xərclənməsinə gəldikdə, Azərbaycanın hər bir vətəndaşı parlamentə seçdiyi nümayəndələri vasitəsilə qərarların qəbul olunması prosesində iştirak edir. Bu onu göstərir ki, neft hər bir insanın rifahına xidmət edə bilər. Yoxsulluğun azaldılması ilə bağlı bir az əvvəl gətirdiyim rəqəmlər xeyli dərəcədə neft gəlirlərinin bərabər şəkildə bölüşdürülməsi hesabına mümkün olmuşdur.

Əlbəttə ki, gələcəkdə enerji siyasətimizdən və həyata keçirəcəyimiz digər layihələrdən asılı olaraq, maliyyə imkanlarımız daha da artacaqdır. Məhz maliyyə resursları ölkənin güclü olması üçün əsas şərtlərdən biridir. Məqsədimiz dünyanın inkişaf etmiş ölkələri sırasında olmaqdır. Biz buna nəinki iqtisadi islahatlar vasitəsilə, o cümlədən insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı olan ən yüksək göstəricilər əldə etməklə nail ola bilərik.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, lakin yaxşı olardı ki, siz buradakı inkişaf proseslərini öz gözlərinizlə görəsiniz. Bu cür vacib tədbirin keçirilməsi üçün məhz Azərbaycanı seçməyinizi yüksək qiymətləndirirəm. Mən sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Sağ olun.

ABŞ-IN VİTSE-PREZİDENTİ DİK ÇEYNİ BAKIYA GƏLMİŞDİR

Sentyabrın 3-də ABŞ-ın vitse-prezidenti Dik Çeyni Bakıya səfərə gəlmişdir.

Heydər Əliyev adına beynəlxalq hava limanında hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dik Çeynini və xanımını Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər naziri Elmar Məmmədyarov qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ABŞ-IN VİTSE-PREZİDENTİ DİK ÇEYNİNİN GÖRÜŞÜ

Sentyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və ABŞ-ın vitse-prezidenti Dik Çeyninin görüşü olmuşdur.

Prezident İLHAM ƏLİYEV hörmətli qonağı salamlayaraq dedi:

- Hörmətli cənab vitse-prezident!

Mən Sizi bir daha görməyimə şadam və Sizi Azərbaycanda salamlayıram. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Bu gün ikitərəfləri münasibətlərimiz və regional və-

ziyyət barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkanımız oldu. Bir daha bildirdik ki, ikitərəfli əlaqələrimiz uğurla inkişaf edir və bir çox yeni sahələri əhatə edir. Münasibətlərimizin artıq uzun tarixi var. Əlaqələrimiz, əsasən, enerji məsələlərindən başlanmışdır. Regionda həyata keçirdiyimiz enerji layihələri Amerika Birləşmiş Ştatlarının güclü dəstəyi və Azərbaycanın təşəbbüsü ilə başlamışdır. Bütün bu layihələr artıq reallaşmışdır. Bunlar, sözün əsl mənasında, uğurlu hadisələrdir.

Hazırda biz energetika sahəsində tərəfdaşlığın və enerji təchizatının şaxələndirilməsinin daha da inkişaf etdirilməsi üzərində çalışırıq. Bu, təkcə istehlakçılar üçün deyil, həmçinin Azərbaycan istehsalçıları üçün də vacibdir. Bundan sonra ölkələrimiz arasında münasibətlər digər müxtəlif sahələrdə də inkişaf etməyə başladı və hazırda əlaqələrimiz çox geniş formatı əhatə edir. Siyasi əlaqələrimiz uğurla inkişaf edir. Güclü iqtisadi münasibətlərimiz var. Təhlükəsizlik, müdafiə sahəsində əlaqələrimiz, beynəlxalq sülhməramlı əməliyyatlar sahəsində əməkdaşlığımız və sözsüz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi bizim üçün çox əhəmiyyətlidir.

Minsk qrupunun həmsədrlərindən biri kimi Amerika Birləşmiş Ştatları hər iki tərəfin münaqişənin həlli yollarını tapması işinə kömək göstərilməsində vacib rol oynayır. Lakin əlbəttə ki, digər münaqişələr kimi, bu münaqişənin həlli də beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Azərbaycanın, regionun və dünyanın bütün ölkələrinin ərazi bütövlüyünə hörmət edilməsi şərti ilə.

Əlbəttə ki, burada regional vəziyyət də müzakirə olundu. Bildiyiniz kimi, Azərbaycan böyük regional əhəmiyyət daşıyan, hətta ola bilsin, daha geniş məkanı əhatə edən bir sıra layihələrin təşəbbüskarıdır. Bütün bu layihələrin həyata keçirilməsində Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında münasibətlər çox mühüm, hətta mən deyərdim, həlledici rol oynayır. Bu günə qədər əməkdaşlığımız uğurla gedir və planlaşdırdığımız işləri həyata keçirə bilmişik. Əminəm ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında, eləcə də digər regional ölkələrlə güclü tərəfdaşlıq gələcəkdə daha çox müvəffəqiyyətlərin əldə olunması, təhlükəsizlik tədbirlərinin, sülhün, sabitliyin və rifahın daim möhkəmləndirilməsi ilə nəticələnəcəkdir.

ABŞ-ın vitse-prezidenti DİK ÇEYNİ təşəkkür edərək dedi:

- Çox sağ olun, Sizi bir daha görməyimə çox şadam.

Cənab Prezident, iki il öncə Birləşmiş Ştatlara etdiyiniz səfəri xoş təəssüratla xatırlayırıq. Əlbəttə, öz növbəmdə deməliyəm ki, mən də Sizin ölkənizdə enerji sahəsində fəaliyyətimlə bağlı olmuşam. Burada olmağımdan və uzun müddətdir ki, ölkənizə səfər etməklə bağlı dəvətinizi qəbul edib buraya gəlməyimdən məmnunam. Mənim səfərim bir neçə vaxtdır ki, planlaşdırılırdı. Mənə, həyat yoldaşıma və nümayəndə heyətimizə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdaram. Mən Prezident Buşun və Amerika xalqının Azərbaycan xalqına xoş arzularını çatdırıram.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında bir çox məsələlər üzrə mövqelər eynidir. Hər iki tərəf dünyanın bu önəmli regionunda təhlükəsizlik, sabitlik və əməkdaşlığın gücləndirilməsini vacib hesab edir. Biz özümüz və beynəlxalq birlik üçün enerji təhlükəsizliyi məsələlərinin həllinə xüsusi əhəmiyyət veririk. Hər iki tərəf sülhün bərqa-

rar olunması işinə tam sadiqdir. Azərbaycan və Amerika Birləşmiş Ştatları bu gün qorxu altında olan sülh, təhlükəsizlik və sabitlik kimi prinsiplərin qorunmasına xüsusi əhəmiyyət verir.

Cənab Prezident, biz bir neçə ay öncə bu səfəri planlaşdırırdıq, lakin bu gün axşam apardığımız danışıqlar Rusiyanın Gürcüstan ərazisinə girdiyi bir zamanda baş tutur. Bu akt beynəlxalq birlik tərəfindən aydın şəkildə pislənibdir. Bu baxımdan Prezident Buş və mən Azərbaycan xalqına və bütün regiona aydın və sadə mesajı çatdırırıq: Birləşmiş Ştatlar bu regionda rifahın və təhlükəsizliyin tam bərqərar olunmasında dərindən və hərtərəfli maraqlıdır. Artıq iki onillik ərzində biz xalqımıza müstəqilliyin, suverenliyin qurulması və möhkəmləndirilməsi, eləcə də nüfuzlu beynəlxalq təşkilatlara inteqrasiyası yolunda dəstək vermişik.

Bu gün biz həmin öhdəliyimizi və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinə sadiq olduğumuzu bir daha təsdiqləyirik. Amerika Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir. Biz Dağlıq Qarabağ münaqişəsinin ölkənizin ərazi bütövlüyü prinsipinə və bütün digər beynəlxalq hüquq normalarına əsaslanan danışıqlar yolu ilə həllinə tərəfdarıq. Bu gün münaqişənin həlli indiyə qədər olduğundan daha çox vacibdir. Çünki bu məsələnin həllindən regiondakı sülh və sabitlik, o cümlədən Azərbaycanın təhlükəsizliyi asılıdır.

Amerika, eyni zamanda, Azərbaycanın enerji sahəsində Qərb ölkələri ilə əməkdaşlığa sadiqliyini yüksək dəyərləndirir. Bütün xalqlar bazar iqtisadiyyatı prinsiplərinin işlədiyi, məlumatın şəffaf olduğu, enerjinin, ixrac marşrutlarının müxtəlif və etibarlı olduğu təqdirdə ən münasib xidmətlərdən yararlanır.

Birləşmiş Ştatlar digər Avropa dövlətləri, o cümlədən Türkiyə ilə birgə qəti şəkildə inanır ki, təbii sərvətlərin sərbəst nəqlini təmin etmək və əlavə ixrac marşrutlarının işlənməsi üçün Azərbaycan, Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birgə iş aparılmalıdır. Enerji təhlükəsizliyi məsələləri son illərdə daha çox əhəmiyyət kəsb edir.

Yekun olaraq, cənab Prezident, mən Amerika Birləşmiş Ştatlarının beynəlxalq terrorizmə qarşı apardığı qlobal mübarizəyə Azərbaycanın verdiyi töhfəyə görə ölkəm adından minnətdarlığımı bildirmək istəyirəm. Bizim qüvvələrimiz Əfqanıstan və İraqda birgə çalışır, zorakılıq və ekstremizm hallarının qarşısının alınmasında əməkdaşlıq edirlər. Ölkələrimiz təhlükəli rejimlərdən irəli gələn kütləvi qırğın silahlarının yayılmasının həm Azərbaycan, həm də beynəlxalq birlik üçün risk doğurduğunu yekdilliklə etiraf edirlər. Amerika Azərbaycanın həm regional, həm də beynəlxalq miqyasda sülh və təhlükəsizlik işinə verdiyi böyük töhfəsini yüksək dəyərləndirir.

Biz demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsi, insan hüquqlarına hörmət edilməsi kimi məsələlərdə və Azərbaycan xalqının üzləşdiyi mürəkkəb problemlərin həllində, habelə müasir, tərəqqi edən və müstəqil dövlətin qurulmasında xalqımızın səylərini dəstəkləyirik. Biz ölkənizin dünyanın bu guşəsində sülh və sabitliyin bərqərar olmasına nümunə kimi xidmət edəcəyinə inanırıq.

Çox sağ olun.

RƏSMİ BAKI REGİONDA TEZLİKLƏ SABİTLİYİN TƏMİN OLUNMASINA ÇALIŞIR

Regionda tezliklə sülh və sabitlik təmin olunmalıdır.

Bunu jurnalistlərə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirmişdir.

Xarici siyasət idarəsinin rəhbəri Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın "Qafqaz İttifaqı" təklifi ilə bağlı region ölkələri arasında aparılan müzakirələri də müsbət qiymətləndirmişdir.

E.Məmmədyarov vurğulamışdır ki, Azərbaycan "Qafqaz İttifaqı"nın yaradılması ilə bağlı danışıqları davam etdirəcəkdir. Türkiyənin bu təklifi regionda sülhün və sabitliyin təmin olunması istiqamətində müsbət addımdır.

Nazir Ankaraya səfərində də bu məsələni müzakirə etdiklərini və təklifin tezliklə reallaşmasının vacibliyini vurğulayaraq bildirmişdir ki, region dövlətləri Cənubi Qafqazda sülhün yaradılmasına nail olmalıdırlar.

Rəsmi Bakı bütün münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır.

Rusiya və Ermənistan prezidentlərinin sonuncu görüşündə Dağlıq Qarabağla bağlı müzakirələrə toxunan E.Məmmədyarov münaqişənin həlli istiqamətində hansısa nəticədən danışmağın tez olduğunu qeyd etmişdir. Nazir demişdir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri sonuncu görüşlərində sentyabrda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri səviyyəsində danışıqları davam etdirəcəklərini bildirmişlər. Növbəti görüşün harada və nə vaxt keçiriləcəyini həmsədrlər elan edəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də İranın xarici işlər nazirinin müavini Mehdi Səfərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Mehdi Səfəri İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla İran arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

BAKIDA "XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA" KONVENSİYANIN RAZILAŞDIRILMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN İCLASI KEÇİRİLİRMİŞDİR

Sentyabrın 4-də Bakıda, "Gülüstan" sarayında "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın razılaşdırılması üzrə xüsusi işçi qrupunun 23-cü iclası keçirilmişdir.

İclası Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov açaraq, işçi qrupun ötən müddət ərzində çox məhsuldar işlədiyini bildirmişdir. Məhz bu məhsuldar fəaliyyət nəticəsində əhəmiyyətli irəliləyiş əldə olunduğunu deyən nazir vurğulamışdır ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi ilə bağlı sahilyanı dövlətlərin ümumi razılığa gəlməsi üçün münbit şərait yaranmışdır. Bu görüş Xəzəryanı dövlətlərin mövqelərinin daha da yaxınlaşmasına səbəb olacaqdır.

Sahilyanı ölkələrin dövlət başçılarının Tehran sammitinin nəticələrinə toxunan E.Məmmədyarov, bu tədbiri əməkdaşlığın inkişafı istiqamətində irəliyə doğru mühüm addım kimi qiymətləndirmişdir. Bu sammit mövcud problemlərin həlli istiqamətində işin konkret istiqamətlərini müəyyənləşdirmişdir. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyaya dair mövcud layihənin razılaşdırılmamış məsələləri sahilyanı ölkələrin dövlət başçılarının üçüncü sammitinin keçirilməsi üçün əsas yarada bilər.

Nazir E.Məmmədyarov vurğulamışdır ki, regionda sülh və stabilliyin təmin olunması, enerji resurslarının mənimsənilməsi Xəzəryanı ölkələrin ümumi maraqlarına daxildir. Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya ilə bağlı bütün problemlər ümumi qəbul olunmuş normalar çərçivəsində konstruktiv dialoq yolu ilə həll olunmalıdır. Bununla belə, hövzənin hüquqi statusu ilə bağlı indiki mərhələdə mövcud olan bəzi fikir ayrılıqları sahilyanı ölkələrin Xəzərdə öz suveren hüquqlarının təmin olunmasına xələl gətirməməlidir.

E.Məmmədyarov qeyd etmişdir ki, Xəzərin dibinin bölünməsi, su hövzəsindən təhlükəsizlik, demilitarizasiya məsələləri, kabel və kəmərlərin çəkilməsi məqsədilə istifadəyə dair müzakirələr davam etdirilməlidir. Nazir Xəzərin ətraf mühitinin qorunmasına dair çərçivə sazişini imzalamış ölkələrin ikinci konfransının keçirilməsininin əhəmiyyətini vurğulamışdır.

XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYANIN LAYİHƏSİ ÜZRƏ İŞÇİ QRUPUN 23-CÜ İCLASININ YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI

sentyabrın 5-də "Gülüstan" sarayında Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın layihəsi üzrə beştərəfli işçi qrupun 23-cü iclasının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov bildirmişdir ki, beş Xəzəryanı ölkənin - Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistanın nümayəndələrinin növbəti, 23-cü görüşü səmimi və konstruktiv şəraitdə keçmiş, tərəflər Konvensiya layihəsinin maddələrinə dair fikir mübadiləsi etmiş və bir sıra müddəalar barədə razılığa gəlmişlər.

X.Xələfov bu məsələdə irəliləyiş olduğunu demişdir. Belə ki, bir sıra istiqamətlər üzrə daha ətraflı fikir mübadiləsi baş tutmuş, yanaşmaların yaxınlaşması müşahidə olunmuşdur. Bir sözlə, bu görüşdə Konvensiya layihəsinin müzakirəsinin davam etdirilməsi üçün yaxşı baza yaranmışdır. Bildirmişdir ki, növbəti görüş Qazaxıstanın paytaxtı Astanada keçiriləcəkdir.

Türkmənistan, Qazaxıstan, İran və Rusiya xarici işlər nazirlərinin müavinləri görüşün yaxşı təşkil edilməsinə görə Azərbaycan tərəfə minnətdar olduqlarını bildirmiş, qarşılıqlı anlaşmanın yüksək səviyyəsini vurğulamışlar. Bildirilmişdir ki, bu, Xəzər dənizinin hüquqi statusuna və Konvensiyanın qalan müddəalarının razılaşdırılmasına dair danışıqlar prosesini davam etdirməyə imkan verəcəkdir.

Qeyd edilmişdir ki, Konvensiya layihəsi üzrə işçi qrupun 23-cü iclası bütövlükdə səmərəli olmuş, bir sıra mühüm müddəalar razılaşdırılmışdır, başqa məsələlərin həlli yaxınlaşır. Layihənin əsas sənədləri üzərində iş tezliklə başa çatdırılacaqdır.

Axırda iclas iştirakçıları jurnalistlərin suallarına cavab vermişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Vatikanın ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir.

K.Quceroti Roma papası XVI Benediktin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Vatikanın dövlət katibi, kardinal Tarçizio Bertoninin Azərbaycana səfərini və Bakıda katolik kilsəsinin açılış mərasimini məmnunluqla xatırlayaraq, Azərbaycan Prezidentinin və xanımının həmin mərasimdə iştirakının tədbirə xüsusi şərəf verdiyini vurğuladı.

Azərbaycanla Vatikan arasında əlaqələrin səviyyəsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev ölkəmizdə bütün dinlərin, o cümlədən katolik icması nümayəndələrinin sərbəst fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını vurğuladı, bu siyasətin bundan sonra da davam etdiriləcəyini bildirdi.

Dövlətimizin başçısı Roma papası XVI Benediktin salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN MİLLİ ASSAMBLEYASININ SƏDRİ XANIM KATALİN SİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Macarıstan parlamentinin - Milli Assambleyanın sədri xanım Katalin Silinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Macarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, əlaqələrimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Ölkələrimiz arasında tərəfdaşlığın səviyyəsindən

məmnunluğunu vurğulayan Prezident İlham Əliyev parlamentlərarası əməkdaşlıq üçün də böyük potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı xanım Katalin Silinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyevlə Budapeştdəki görüşünü xatırlayan xanım Katalin Sili dövlətimizin başçısı ilə yenidən görüşündən məmnunluğunu bildirdi. O, ölkələrimiz arasında əməkdaşlığın genişləndiyini vurğuladı, parlamentlərarası əlaqələrin daha da möhkəmləndirilməsi baxımından bu səfərin əhəmiyyətli olacağını qeyd etdi.

MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

Sentyabrın 7-də Moskvada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Rusiyanın xarici işlər naziri Sergey Lavrovun görüşü olmuşdur. Nazirlər Rusiya Prezidenti Dmitri Medvedevin iyulun 3-4-də Bakıya rəsmi səfəri zamanı siyasi, iqtisadi və humanitar sahələrdə əldə olunmuş razılaşmalar baxımından Azərbaycan-Rusiya münasibətlərinin vəziyyətini və perspektivlərini müzakirə etmişlər. RF XİN-dən bildirmişlər ki, regional və beynəlxalq vəziyyət barədə fikir mübadiləsi də aparılmışdır. Söhbət Azərbaycan-Rusiya münasibətlərinə xas olan səmimi dostluq şəraitində keçmişdir.

Xatırladaq ki, iki ölkənin xarici işlər nazirlərinin Rusiya tərəfinin dəvəti ilə keçirilən görüşü qapalı olmuşdur.

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ

Sentyabrın 8-də Azərbaycanın Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Özbəkistan Baş nazirinin müavini Nodirxon Xanovun başçılıq etdiyi nümayəndə heyəti üzvlərinin bir qrupu ilə görüşmüşdür.

Baş nazir Artur Rasizadə son illər qazanılmış nailiyyətlər, dövlətimizin xarici siyasətinin əsas istiqamətləri barədə danışaraq demişdir ki, Azərbaycan indi dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Həyata keçirilən islahatlar ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasına, ümumi daxili məhsulun (ÜDM) dinamik artımına səbəb olmuşdur. Azərbaycanda ÜDM-in artımı 2007-ci ildə 25 faiz, cari ilin ötən dövründə isə 17 faizə yaxın olmuşdur. Respublikamızda enerji daşıyıcılarının nəqli ilə bağlı regional layihələr həyata keçirilmiş, qeyri-neft sektoru, o cümlədən kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, təhsil, nəqliyyat və sair də prioritet sahələrdən birinə çevrilmiş və bunlarla bağlı müxtəlif dövlət proqramlarının icrasına başlanmışdır. Son 3 ildə Azərbaycanda 1500 məktəb binasının tikildiyi, ölkədə orta əmək haqqının 300 dollara çatdığı vurğulanmışdır.

Baş nazir Azərbaycanın Özbəkistan ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu, Özbəkistan Prezidenti İslam Kərimovun yaxın günlərdə ölkəmizə səfərinin dost dövlətlərimiz arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafında yeni mərhələ açacağına əminliyini bildirmişdir.

A.Rasizadə qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağ-

lıq Qarabağ münaqişəsi barədə də məlumatlandırmışdır. Baş nazir BMT Baş Məclisinin 62-ci sessiyası çərçivəsində qəbul olunmuş "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnaməni dəstəklədiyinə görə dost Özbəkistan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Özbəkistan Baş nazirinin müavini Nodirxon Xanov Artur Rasizadəyə Azərbaycan və Özbəkistan arasında əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyanın sentyabrın 8-də Bakıda keçirilmiş növbəti iclasında müzakirə olunan məsələlər barədə məlumat vermiş, ölkəsinin neqliyyat, kənD təsərrüfatı, avtomobil sənayesi, gübrə istehsalı və digər sahələrdə Azərbaycanla sıx əməkdaşlıq etməyə hazır olduğunu diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 8-də Bakıda Azərbaycan ilə Özbəkistan arasında hökumətlərarası birgə komissiyanın 8-ci iclası keçirilmişdir.

Azərbaycan tərəfdən komissiyaya rəhbərlik edən Baş nazirin birinci müavini Yaqub Eyyubov ölkəmizin iqtisadi inkişafı, aparılan islahatlar və qazanılmış uğurlar barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar və onların uğurlu nəticələri sayəsində respublikada dinamik iqtisadi inkişafa nail olunmuşdur. İqtisadiyyatın aparıcı sahəsi olan neft-qaz sektorundakı uğurlar qeyri-neft sektorunun da yüksək templə inkişafını təmin etmişdir. Ötən il Azərbaycanda ümumi daxili məhsulun artımı 25 faiz, cari ilin ötən dövründə isə 17 faizə yaxın olmuşdur.

İclasın Özbəkistan Prezidenti İslam Kərimovun Azərbaycana səfəri ərəfəsində keçirildiyini diqqətə çatdıran Y.Eyyubov ölkələrimiz arasında hərtərəfli əlaqələrin inkişafı üçün böyük perspektivlərin olduğunu söyləmişdir. Bildirilmişdir ki, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayan Azərbaycan bütün qonşu ölkələrlə iqtisadi əməkdaşlığa hazırdır.

Ölkəsində iqtisadi inkişafın əsas istiqamətləri barədə geniş məlumat verən Özbəkistan Baş nazirinin müavini Nodirxon Xanov Azərbaycanın əhəmiyyətli tərəfdaş olduğunu vurğulamışdır. 2007-ci ildə ölkələrimiz arasında əmtəə dövriyyəsinin 60 milyon ABŞ dolları təşkil etdiyini söyləyən və bu rəqəmi qənaətbəxş saymayan N.Xanov, ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdırmışdır. Əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində Bakıda "Özbəkistan Ticarət Evi"nin açılacağı qeyd olunmuşdur.

Tədbir iştirakçıları birgə komissiyanın sonuncu iclasının 2004-cü ildə keçirildiyini, komissiyanın tərkibində dəyişikliklərin edildiyini nəzərə alaraq, ölkələr arasında 2001-2010-cu illərdə iqtisadi əməkdaşlığı nəzərdə tutan proqrama yenidən baxmağı qərara almışlar. Sənədlər paketinin tezliklə imzalanmağa hazır olacağı qeyd edilmişdir.

Əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində birgə müəssisələrin yaradıl-

masının, müxtəlif sahələr üzrə sərgilərin keçirilməsinin, iş adamlarının qarşılıqlı səfərlərinin əhəmiyyəti də diqqətə çatdırılmışdır.

Komissiyanın 9-cu iclasının Daşkənddə keçirilməsi qərara alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Hilmi Gülər Türkiyə Prezidenti Abdulla Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında, eləcə də regionda energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdulla Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını onlara çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Yunanıstanın inkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xristos Folias "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası" mövzusunda keçirilən beynəlxalq konfransın işində iştirak etmək məqsədi ilə ölkəmizə səfər etdiyini dedi və tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qonaq ölkələrimiz arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla Yunanıstan arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən iqtisadi, enerji və digər sahələrdə genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Yunanıstanın inkişaf nazirinin ölkəmizə səfərinin bu əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI BORİS FRLESİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da ATƏT-in Seçkiləri müşahidə missiyasının başçısı Boris Frlesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanda gedən demokratikləşmə prosesləri, qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycana işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Abdullah Gülü təyyarənin pilləkəni yanında Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov, xarici işlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Abdullah Gül və Baş nazirin müavini Abid Şərifov arasında qısa protokol söhbəti oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev qardaş ölkənin dövlət başçısını böyük səmimiyyətlə qarşıladı.

Görüşdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə sürətlə inkişaf etdiyi vurğulandı, ikitərəfli əlaqələrin genişlənməsinin regional əməkdaşlığın möhkəmlənməsi baxımından əhəmiyyətli olduğu bildirildi.

Dövlət başçıları ikitərəfli münasibətlər, regional və beynəlxalq problemlər, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi apardılar.

MƏTBUAT ÜÇÜN BƏYANATLAR

Sentyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdullah Gül təkbətək görüşdən sonra mətbuat üçün bəyanatlarla çıxış etmişlər

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün biz Türkiyə Prezidenti Abdullah Gülü Azərbaycanda qəbul edirik. Azərbaycana "Xoş gəlmisiniz!".

Bu səfər imkan verdi ki, biz ikitərəfli münasibətlərin bütün istiqamətlərini bir daha müzakirə edək və gələcək birgə fəaliyyət haqqında öz qərarlarımızı verək. Bizim münasibətlərimiz çox yüksək səviyyədədir. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, çox fəal əlaqələrimiz, əlbəttə ki, bölgədə gedən proseslərə operativ reaksiya vermək imkanlarını da genişləndirir. İkitərəfli müstəvidə birgə çoxlu layihələr icra olunur. Türkiyə və Azərbaycanı birləşdirən enerji və nəqliyyat dəhlizləri çox uğurla fəaliyyət göstərir. Bütün bunlar bizim birgə səylərimiz nəticəsində baş vermiş uğurlu hadisələrdir.

Bu gün Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istismarı nəticəsində hər iki ölkə öz iqtisadi və siyasi maraqlarını daha da böyük dərəcədə təmin edir. Bizim nəqliyyat sektorunda atdığımız addımlar və Türkiyə ilə Azərbaycanı dəmir yolu ilə birləşdirən layihə uğurla icra edilir. Enerji, nəqliyyat və başqa sahələrdəki əməkdaşlığımız təkcə xalqlarımız, ölkələrimiz üçün fayda gətirmir, həm də bölgədə gedən proseslərə də çox müsbət təsirini göstərir. Bizim bütün iqtisadi və siyasi təşəbbüslərimiz bölgədə əməkdaşlığın, sabitliyin, sülhün bərqərar olunmasına xidmət göstərir. Bu baxımdan tam əminliklə deyə bilərik ki, ümumiyyətlə Türkiyə və Azərbaycanın siyasəti, bölgədə irəli sürülən təşəbbüslər bu gün və gələcəkdə sabitliyin daha da möhkəmlənməsinə yeni şərait yaradacaqdır.

Bir sözlə, bu gün hörmətli Prezidentlə ikitərəfli məsələləri müzakirə edərkən, bölgədə yaranmış vəziyyəti və baş vermiş hadisələri müzakirə edərkən, bir daha görürük ki, bizim mövqeyimiz birdir, maraqlarımız birdir və bu hadisələrə baxışlarımızda da fərq yoxdur. Bu, çox önəmlidir. Çünki, bu, həm iki ölkə arasında olan ənənəvi dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirir, digər tərəfdən, sirr deyil ki, Türkiyə və Azərbaycanın bölgədəki rolu və təsir imkanları böyüyür. Bunun müxtəlif səbəbləri var və bu səbəblərin yaranmasında, əlbəttə ki, bizim fəaliyyətimiz də az əhəmiyyət kəsb etmir. Beləliklə, biz gələcək birgə fəaliyyət haqqında çox açıq və aydın mənzərə görürük və əminəm ki, gələcək birgə səylər nəticəsində biz bölgədə sülhün təmin olunmasını görəcəyik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli də ön plana çıxır. Çünki məsələnin uzun illər həll olunmaması həm Azərbaycan üçün, həm də bölgə üçün böyük təhlükə mənbəyidir. Biz istəyirik ki, məsələ tezliklə və beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Azərbaycan bütün beynəlxalq təşkilatlarda öz mövqeyini açıq-aydın ortaya qoyur. Bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan hərbi qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılmasına dair tələblər göstərilibdir. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində

bu ilin mart ayında qəbul edilmiş qətnamə də bu istiqamətdə çox müsbət bir addımdır. Digər beynəlxalq təşkilatların qərarları da.

Biz istəyirik ki, bu işğala son qoyulsun. Biz istəyirik ki, məsələni sülh yolu ilə həll edək. Məhz buna görə, - baxmayaraq ki, 15 ildən çoxdur danışıqlar nəticəsiz gedir, - biz yenə də sülh prosesinə sadiqik. Ancaq, eyni zamanda, o da aydındır ki, bu məsələnin həlli yalnız beynəlxalq hüquq norma və prinsiplərə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın silahlı qüvvələri işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın 1 milyon qaçqını və məcburi köçkünü öz doğma torpağına qayıtmalıdır.

Beləliklə, əgər biz buna nail olsaq, bölgədə tam yeni vəziyyət yaranacaqdır: işbirliyi, sabitlik, yeni iqtisadi və siyasi təşəbbüslər, kommunikasiyaların açılması. Bir sözlə, bölgədə həm sülh təmin olunacaq, həm də inkişaf daha da sürətlə gedəcəkdir.

Düzdür, bu gün Türkiyə və Azərbaycanın iqtisadiyyatları o qədər möhkəmdir ki, bizim uğurlu inkişafımıza heç nə təsir edə bilməz. Ancaq əgər biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edə bilsək, - mən buna ümid edirəm, - əlbəttə ki, bütün ölkələrin inkişafı daha da sürətli olacaqdır. Hər bir ölkə bundan faydalanacaqdır. Biz bunu istəyirik. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun və bölgədəki bütün ölkələr bir-biri ilə normal münasibətlər yarada bilsinlər. Yenə də deyirəm, bunu etmək üçün, sadəcə olaraq, Ermənistanın siyasi rəhbərliyinin iradəsi və müdrik addımları lazımdır.

Mən də, hörmətli Abdullah Gül də belə fikirdəyik ki, Ermənistanın yeni rəhbərliyi məsələnin həlli üçün öz səylərini göstərməyə davam edəcəkdir. Müəyyən ümidverici amillər də var, ümidverici məlumatlar da var. Əlbəttə ki, hadisələri qabaqlamaq istəməzdim, ancaq biz gələcəyə artan ümidlərlə baxırıq. İnanmaq istəyirəm ki, həm Türkiyənin, həm Azərbaycanın, həm Ermənistanın və digər ölkələrin səyləri nəticəsində biz bölgədə sülhün təmin edilməsinə nail olacağıq.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI

- Dəyərli mətbuat nümayəndələri!

Bu gün hörmətli Prezident İlham Əliyevlə, hər zaman olduğu kimi, çox gözəl bir görüş keçirdik. Türkiyə ilə Azərbaycanın qardaşlığı, dostluğu daimidir, əbədidir və bu çərçivədə əvvəlcə ikitərəfli əlaqələrimizi müzakirə etdik, daha sonra bölgə ilə əlaqədar məsələləri nəzərdən keçirdik. İkitərəfli münasibətlərimiz əsas mövzu olduğuna görə Türkiyə və Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə mükəmməl bir şəkildə əməkdaşlıq etməkdədir. Siyasi məsələlərdə Türkiyə daim Azərbaycanın yanında olmuşdur və hər zaman da yanında olacaqdır.

İqtisadi sahədə də, hörmətli Prezident Əliyevin dediyi kimi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft, qaz və ən sonuncu, Qarsda bir hissəsinin təməlini qoyduğumuz, daha əvvəl isə Gürcüstanda başladığımız Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün dünyanın böyük bir hörmətlə təqdir etdiyi layihələrdir. İnanıram ki, dəmir yolunun da gələcəkdə tamamlanması, iqtisadi əlaqələrimizi daha da gücləndirmək və inkişaf etdirmək üçün böyük iradəyə və gücə sahibik.

Qafqazda meydana çıxan yeni vəziyyəti də bu gün çox əhatəli şəkildə nəzərdən keçirdik. Bu baxımdan bir neçə gün əvvəl milli komandaların oyununa baxmaq üçün Ermənistana etdiyim səfər və orada Ermənistan Prezidenti ilə keçirdiyim görüş haqqında hörmətli İlham Əliyevə əhatəli şəkildə məlumat verdim. Sizinlə səmimi olaraq bunu paylaşmaq istəyirəm ki, hörmətli Prezident Əliyevin Qafqaz regionu ilə bağlı çox realist, gerçək düşüncəli təhlili, doğrudan da, məndə çox böyük təəssürat yaratmışdır. Ona burada təqdir və təşəkkürümü ifadə etmək istəyirəm.

Ortada yeni bir vəziyyət əsas mövzudur. Gürcüstanda meydana çıxan hadisələrdən sonra dövlət adamları kimi, liderlər kimi vəziyyəti ən yaxşı şəkildə təhlil edib düzgün və səbatlı siyasi iradə göstərməyimiz lazımdır. Ümid edirəm ki, Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ məsələsi dialoq yolu ilə, anlayış və qarşılıqlı görüşlərlə həllini tapacaqdır. 17 ildir həllini tapmayan bu məsələnin çözümü üçün yeni fürsətlərin yarandığı fikrindəyik. Bu baxımdan Ermənistan səfərindən də ümidli dönmüşəm. Görüşlərlə bunun həll ediləcəyinə inanıram.

Şübhəsiz ki, işğal altındakı torpaqların tezliklə boşaldılması çox böyük addım olacaq və sülh, təhlükəsizlik bərqərar olduqda bu bölgədə çox böyük iqtisadi işbirliyi yaranacaqdır. Haqqında bəhs etdiyimiz boru xətləri, dəmir yolu bütün Qafqaz bölgəsini əhatə edəcəkdir. Ona görə də yeni bir fürsəti ən yaxşı şəkildə dəyərləndirmək və dondurulmuş münaqişələri bu şəkildə davam etdirmək yox, həll etmək lazımdır. Həll etmək üçün də yeni bir fürsətin ortaya çıxdığının qənaətindəyəm. Ümid edirəm ki, bölgə ölkələri bunu ən yaxşı şəkildə dəyərləndirəcək, sülh yollarını üstün tutacaqlar. Onsuz da Birləşmiş Millətlər Təşkilatının qətnamələri ortadadır - bütün bunlar nəzərə alınar və sonda düşmənçilik deyil, dostluq hökm sürər. Belə olarsa, bu, bölgədə hamımızın xeyrinə, bölgə xalqlarının hamısının xeyrinə olacaqdır. Ona görə də hər şeydən əvvəl xoş niyyətlə çalışmaq vacibdir və ümid edirəm ki, bütün dünya da bunu təqdirlə qarşılayar və dəstəkləyər.

Mən bu gün gördüyümüz çox səmimi, isti münasibətdən duyduğum məmnunluğu bir daha ifadə etmək istəyirəm. Bu baxımdan da bütün azərbaycanlı qardaşlarıma türk xalqının sevgisini, hörmət və ehtiramını çatdırmaq istəyirəm. Bu bir həqiqətdir ki, biz hamımız bir millətin parçalarıyıq və ayrı-ayrı dövlətlərin daxilindəyik. Həmrəyliyimiz sona qədər davam edəcəkdir.

TÜRKİYƏ PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün şərəfinə işçi nahar verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün Azərbaycana işgüzar səfəri başa çatmışdır.

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Sentyabrın 11-də Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov Azərbaycana rəsmi səfərə gəlmişdir.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Sentyabrın 11-də Özbəkistan Prezidenti İslam Kərimovun rəsmi qarşılanma mərasimi olmuşdur. İki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti İslam Kərimovu səmimiyyətlə qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Özbəkistan Prezidentinə raport verdi.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Özbəkistanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər İlham Əliyev və İslam Kərimov fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Özbəkistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət rəsmiləri Özbəkistan Prezidenti İslam Kərimova, Özbəkistan nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi fotoşəkil çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev ali qonağı salamlayaraq, Azərbaycanın və Azərbaycan xalqının böyük dostunu qəbul etməyə şad olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi: "Bizim Sizə böyük hörmətimiz, rəğbətimiz var. Bizi bir-birimizə bağlayan cəhətlər olduqca çoxdur".

Özbəkistan Prezidenti İslam Kərimov Azərbaycana rəsmi səfər etmək imkanına görə təşəkkürünü bildirdi. O dedi ki, Azərbaycana yaxın və doğma saydığı bir ölkə kimi səfər edir.

Dövlət başçıları görüşdə ikitərəfli əlaqələrin müxtəlif aspektlərini, regional əməkdaşlıq və beynəlxalq vəziyyət barədə məsələləri müzakirə etdilər. Qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparıldı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Sentyabrın 11-də Azərbaycan və Özbəkistan nümayəndə heyətlərinin iştirakı ilə Prezident İlham Əliyevin və Prezident İslam Kərimovun geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV görüş iştirakçılarını salamlayaraq dedi:

- Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycan torpağında səmimi salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Biz Sizin səfərinizi gözləyirdik və dəvətimizi qəbul edərək, ölkəmizə səfərə gəlidiyinizə görə Sizə çox minnətdarıq.

Bizim ölkələr arasında qardaşlıq, dostluq münasibətlərinin tarixi qədimdir və hazırda uğurla inkişaf edir. Əlbəttə, dövlət rəhbərlərinin səfərləri bu münasibətlərin inkişafı üçün yeni zəmin yaradır. Bu gün biz ikitərəfli münasibətlərin bütün aspektlərini, regional məsələləri ətrafı müzakirə etdik. Biz ümumi fikirdəyik ki, inteqrasiya prosesləri, kooperasiya, birgə layihələr ikitərəfli əlaqələri daha da möhkəmləndirəcək və əməkdaşlıq üçün yeni imkanlar yaradacaqdır.

Özbəkistan bizə qardaş, dost ölkədir, biz beynəlxalq təşkilatlarda sizin dəstəyinizi çox yüksək qiymətləndiririk. Biz də öz tərəfimizdən, əvvəllər olduğu kimi, gələcəkdə də həmişə sizin yanınızda olacağıq.

Sizin səfəriniz, ilk növbədə, iqtisadiyyatda və başqa sahələrdə əməkdaşlığın perspektivlərini daha dərindən öyrənmək üçün yaxşı imkanlar yaradır. Əminəm ki, nümayəndə heyətləri üzvlərinin də fikir mübadiləsi etmək imkanı olmuşdur, xüsusən ona görə ki, bu yaxınlarda komissiyanın iclası keçirilmişdir. Bütün bunlar münasibətlərimizin səviyyəsini əks etdirir. Biz həm də ümid edirik ki, bu səfərdən sonra ölkələrimizin daha da yaxınlaşması baxımından yeni əməli addımlar atılacaqdır.

Bir daha xoş gəlmisiniz!

Özbəkistan Prezidenti İSLAM KƏRİMOV səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Bərəkətli Azərbaycan torpağında bizi bu qədər səmimiyyətlə, hərarətlə qəbul etdiyinizə görə şəxsən Sizə və azərbaycanlı dostlarımıza ürəkdən təşəkkür etmək istərdim. Mən əminəm ki, Özbəkistan nümayəndə heyətinin hər bir səfəri bizim üçün, ilk növbədə, Özbəkistan üçün böyük əhəmiyyət kəsb edir, çünki ikitərəfli və çoxtərəfli münasibətlərimizdə gerçəkləşdirilməli olan məsələləri, böyük imkanları müzakirə etmək üçün yaxşı fürsət yaranır.

Azərbaycan bizə qardaş ölkədir. Bizə həm tarixi, həm də mədəni baxımdan yaxın olan ölkədir. Bu mənada bir daha demək istərdim ki, biz özümüzə yaxın saydığımız ölkəyə gəlmişik, burada özümüzü qonaq kimi yox, yaxın adamlar arasında olduğu kimi hiss edirik. Başa düşürəm ki, bu cür səmimi qəbul məhz bununla izah edilir.

Dünyada bir-birinə məhz öz kökləri ilə bağlı olan iki dövlət, iki xalq tapmaq çətindir. Biz öz ana dilimizdə danışa bilərik və həmişə bir-birimizi başa düşəcəyik.

Bu gün demək istərdim ki, Azərbaycanla bağlı nə varsa, mən onları həmişə Heydər Əliyevlə yaxın dostluğumun prizmasından görürəm. O, məni özünün yaxın dostu hesab edirdi. Mən də onu özüm üçün ən yaxın insan hesab edirdim. O, Özbəkistanın bütün problemlərini, bizim həll etdiyimiz bütün mürəkkəb məsələləri özünün problemləri kimi qəbul edirdi. O, yaşca məndən böyük idi, lakin müstəqillik əldə ediləndən sonrakı ilk illərdə həm Azərbaycanın, həm də Özbəkistanın yeni, müstəqil inkişaf şəraitində öz ölkəsinin, öz xalqının tab gətirməsi, qorunub saxlanması ilə bağlı ən çətin, deyərdim ki, ən ağır problemləri həll etdiyi vaxtda postsovet məkanında baş verən hadisələrə münasibət məsələsində mən onun şəxsində, sadəcə, həmməsləkdeyil, bu məsələləri çox dərindən başa düşən bir insan tapırdım. Mən ona, sadəcə, ünsiyyətliliyinə, müdrikliyinə görə deyil, başqaları üçün gözlənilməz olan bütün prosesləri dərindən başa düşdüyünə görə hörmət edirdim.

Heydər Əliyev Moskvada ən yüksək vəzifələrdə işlədiyi dövrdə mən hələ o qədər də nəzərə çarpmayan bir adam idim, lakin onun fəaliyyətini çox diqqətlə izləyirdim və bilirəm ki, Azərbaycan üçün nə qədər çox iş görmüşdür. O, həqiqətən tarixi simadır. O, Azərbaycanın tarixində həmişəlik qalacaq şəxsiyyətdir. Bir vaxt biz də dünyamızı dəyişəcəyik, amma onu xatırlayacaqlar. Onu ən müdrik bir insan kimi, Azərbaycanın ən böyük vətənpərvəri kimi, mən deyərdim ki, ölkəni qoruyub saxlamış bir insan kimi xatırlayacaqlar. O, çətin dövrdə nə mümkündürsə etmiş, onun ardınca gələn gənc nəsli, mən deyərdim ki, gələcək barədə aydın təsəvvürlə, proqramla, modellə silahlandırmışdır. Hörmətli İlham Heydər oğlu, bu gün mən görürəm ki, bütün bunlar artıq Sizin rəhbərliyiniz altında gerçəkləşir.

Səmimi sözümdür, bu gün mən yalnız bir şey deyə bilərəm: mən Sizə təşəkkür edirəm ki, atanızın xatirəsini bu cür qayğı ilə qoruyursunuz. Sizin vasitənizlə Sizin komandaya, Sizin əhatənizdəkilərə təlqin edilən münasibətinizə görə Sizə təşəkkür edirəm. Mən Sizə təşəkkür edirəm ki, Heydər Əliyevin nəzərdə tutduğu bütün işlər şübhəsiz ki, bu gün reallaşır və bundan sonra da reallaşacaqdır.

İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI

Sentyabrın 11-də, geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun iştirakı ilə ikitərəfli sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Özbəkistan Respublikasının Dövlət Təbiəti Mühafizə Komitəsi arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən ekologiya və təbii ehtiyatlar naziri Hüseynqulu Bağırov, Özbəkistan tərəfdən Baş nazirin müavini Nodirxon Xanov imzaladılar.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Özbəkistanın Rabitə və İnformasiyalaşdırma Agentliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Özbəkistan tərəfdən Baş nazirin müavini Nodirxon Xanov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında dəmiryol nəqliyyatı sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə və kombinə olunmuş daşımaların inkişafına dair tədbirlər haqqında sazişi Azərbaycan tərəfdən nəqliyyat naziri Ziya Məmmədov, Özbəkistan tərəfdən xarici iqtisadi əlaqələr, investisiyalar və ticarət naziri Elyor Qəniyev imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında vergi sahəsində əməkdaşlıq və informasiya mübadiləsi haqqında sazişi Azərbaycan tərəfdən vergilər naziri Fazil Məmmədov, Özbəkistan tərəfdən Baş nazirin birinci müavini, maliyyə naziri Rüstəm Əzimov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı surətdə qorunması haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Özbəkistan tərəfdən xarici işlər naziri Vladimir Norov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında humanitar sahədə əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Özbəkistan tərəfdən xarici işlər naziri Vladimir Norov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsi tədbirləri haqqında sazişi Azərbaycan tərəfdən Baş nazirin birinci müavini Yaqub Eyyubov, Özbəkistan tərəfdən Baş nazirin birinci müavini, maliyyə naziri Rüstəm Əzimov imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Sentyabrın 11-də sənədlərin imzalanma mərasimindən sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli İslam Abduqəniyeviç,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

İslam Abduqəniyeviç, icazə verin, Sizi bir daha Azərbaycan torpağında ürəkdən salamlayım. Sizin səfəriniz bu vaxta qədər də dinamik və səmərəli inkişaf edən münasibətlərimizin inkişafında çox mühüm mərhələdir. Əlbəttə, bu səfər və onun nəticələri ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsində də çox mühüm rol oynayacaqdır. Bizi birləşdirən ənənələrimiz, mədəniyyətimiz, dillərimizin ümumiliyidir, bizi birləşdirən tərəqqiyə çalışmağımız, vətəndaşlarımızın maddi rifahının yaxşılaşdırılmasına, iqtisadi islahatların aparılmasına və güclü dövlətlər yaradılmasına yönəlmiş mühüm tədbirlərin həyata keçirilməsi sahəsində çox səmərəli işimizdir.

Xalqlarımız və ölkələrimiz arasında ənənəvi əlaqələr dövlətlərimiz müstəqillik əldə edəndən sonrakı dövrdə bizim regionda, Mərkəzi Asiya, Xəzər, Qafqaz regionunda mühüm rol oynayır. Regional əməkdaşlıq da bizim birgə fəaliyyətimizin mühüm istiqamətidir. Lakin şübhəsiz ki, bizim ikitərəfli münasibətlərimiz birinci yerdə dayanır.

Bugünkü səfər, bizim aramızda, nümayəndə heyətlərinin üzvləri arasında aparılmış müzakirələr, eləcə də imzalanmış sənədlər - bütün bunlar ölkələrimiz arasında çox möhkəm münasibətlərin olmasını göstərir. Bu münasibətlər dinamizm meyillidir, onların çox yaxşı perspektivləri var. Biz beynəlxalq təşkilatlarda həmişə bir-birimizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı məsələlər barədə Özbəkistanın mövqeyini çox yüksək qiymətləndiririk. Biz də öz tərəfimizdən, lazım gələrsə, qardaş ölkəni həmişə dəstəkləyəcəyik.

Bir sözlə, əməkdaşlığımızın bütün istiqamətlərində, - istər ikitərəfli əlaqələr olsun, istərsə də qarşılıqlı siyasi əlaqələr, iqtisadi perspektivlər və mövcud layihələr, humanitar sahədə regional səviyyədə və beynəlxalq formatda əməkdaşlıq, - biz öz sözümüzü deyirik və yaxın müttəfiqlər kimi hərəkət edirik.

Regionumuzda, Qafqazda, Xəzər regionunda, Mərkəzi Asiyada vəziyyətin qiymətləndirilməsində bizim yanaşmalarımızda ortaq cəhətlər çoxdur. Təbii ki, bizim bu çağırışlara vaxtında və dəqiq cavab verə bilməyimiz yaranmış və dəyişməkdə olan vəziyyətin düzgün qiymətləndirilməsindən və düzgün nəticələr çıxarılmasından asılı olacaqdır.

Biz istəyirik ki, regionumuzda sülh olsun, bütün Qafqazda sabitlik bərqərar olsun, bizim regiondakı münaqişələr beynəlxalq hüququn normaları və prinsipləri əsasında ədalətlə həll edilsin. Bu halda bizim regionda əməkdaşlıq üçün lap çox imkan olacaqdır.

Hazırda Azərbaycan istər energetika, nəqliyyat sahəsində, istərsə də başqa sahələrdə bir sıra regional layihələrin təşəbbüsçüsüdür. Bu layihələr çox uğurla həyata keçirilir və sözün geniş mənasında bütün regionu əhatə edir. Buna görə də biz çox istəyirik ki, gələcəkdə Özbəkistanla birgə layihələrimiz, daha sıx kooperasiyaya, müştərək istehsalatlar yaradılmasına, investorların marağı olarsa, müştərək investisiyalara şərait yaradan layihələr olsun. Başqa sözlə, biz ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün bazar münasibətlərinin bütün mexanizmlərini cəlb etmək istəyirik.

Bir daha demək istəyirəm, bunun üçün hər cür şərait var: həm ənənəvi tarixi və mədəni əlaqələr, həm də regional siyasətin və beynəlxalq fəaliyyətin bir çox məsələlərinə ümumi yanaşmalar. Bu gün artıq deyildiyi kimi, regional və beynəlxalq xarakterli bütün məsələlər barədə Özbəkistanın prinsipial mövqeyini, Sizin dövlətin müstəqil xəttini və son illərdə Sizin rəhbərliyiniz altında ölkənizin qazandığı uğurları xüsusi qeyd etmək istəyirəm. Bütün bunlar burada, Azərbaycanda böyük rəğbət və hörmət doğurur. Siz Azərbaycan xalqının qardaş özbək xalqına münasibətini, Azərbaycan xalqının şəxsən Sizə böyük hörmət bəslədiyini bilirsiniz. Biz Sizin səfərinizi həm də dostluğumuzun mühüm əlaməti kimi qəbul edirik.

Əminəm ki, səfərin davamı çox uğurlu olacaqdır. Bu gün bizim müzakirə etdiyimiz və nəzərdə tutduğumuz məsələlər belə deməyə əsas verir. Gələcəkdə isə, əldə olunmuş razılaşmalar əsasında biz daha fəal inkişaf edəcək və əməkdaşlıq edəcəyik.

Sağ olun.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu,

Hörmətli kütləvi informasiya vasitələri nümayəndələri,

Xanımlar və cənablar!

Fürsətdən istifadə edərək, məni Azərbaycana rəsmi səfərə dəvət etdiyinə görə, eləcə də Azərbaycan torpağında hiss etdiyimiz, duyduğumuz bu səmimi və hərarətli qəbula görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bir daha ürəkdən minnətdarlığımı bildirmək istərdim.

Özbəkistan-Azərbaycan münasibətlərinə xas olan ənənəvi səmimilik və qarşılıqlı etimad şəraitində keçmiş danışıqların yekunlarından tamamilə razı qaldığımı bildirmək istərdim. Biz ikitərəfli əməkdaşlıq məsələlərinin geniş dairəsini ətraflı müzakirə etdik, regional qarşılıqlı fəaliyyətin aktual məsələləri və beynəlxalq problemlər barəsində də fikir mübadiləsi apardıq. Biz müzakirə edilən məsələlərin əksəriyyəti barədə mövqelərimizin üst-üstə düşməsini və ya oxşar olmasını qeyd etdik.

Hesab edirik ki, bu gün dövlətlərarası və hökumətlərarası səviyyədə imzalanmış yeddi sənəd, habelə Azərbaycan tərəfi ilə bağlanmış müqavilələr münasibətlərimizin inkişafına böyük təkan verəcək, qarşılıqlı surətdə faydalı birgə layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradacaqdır.

Danışıqların gedişində biz Cənubi Qafqazın və Mərkəzi Asiyanın genişlənməkdə olan qarşılıqlı asılılığı, dövlətlərimiz qarşısında, regionlarımız qarşısında duran problemlərin oxşarlığı barədə ümumi fikrə gəldik. Özbəkistan tərəfi bir daha təsdiq etdi ki, o, Dağlıq Qarabağ probleminin sülh yolu ilə, siyasi yolla həllinin tərəfdarı olmuşdur və olacaqdır. Həm də biz hesab edirik ki, bu münaqişənin həllinin əsas şərtlərindən biri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi olmalıdır. Mənim fikrimcə, Dağlıq Qarabağ probleminin həllinin Azərbaycan tərəfindən təklif edilən modeli optimal və hər cəhətdən məqbuldur. Əlbəttə, mən öz fikrimi deyirəm, lakin əminəm ki, ötən on yeddi ildə baş vermiş hadisələri obyektiv qiymətləndirən insanların hamısı bu fikirlə razılaşar. Qarabağ problemi 1988-ci ildə başlanmışdır və bu münaqişə ilə əlaqədar prosesləri müşahidə edənlərin, sadəcə müşahidə etməklə kifayətlənməyib, onları diqqətlə izləyənlərin hamısı, zənnimcə, Azərbaycan tərəfinin mövqeyini birmənalı şəkildə dəstəkləyir.

Azərbaycanın qazandığı sanballı uğurlar, bu ölkənin gücünün, potensialının artması, iqtisadiyyatının davamlı inkişaf sürəti Özbəkistanda səmimi hörmətlə qarşılanır. Mən Azərbaycan Prezidentinin rəhbərliyi altında həyata keçirilən, Azərbaycanı Şərqlə Qərbi və Şimal ilə Cənubu birləşdirən aparıcı logistika mərkəzlərindən birinə çevirməyə yönəlmiş, hərtərəfli düşünülmüş, praqmatik xarici siyasət xəttini xüsusi vurğulamaq istərdim.

Zənnimcə, heç kəs şübhə etmir ki, bütün bu uğurlar Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ölçülüb-biçilmiş, bir daha vurğulayıram, düşünülmüş siyasətin nəticəsidir.

Danışıqların yekunlarına əsasən qəbul edilmiş qərarlarda ölkələrimiz arasında iqtisadi kooperasiyanın və əmtəə dövriyyəsinin artırılmasının, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinin, mədəni-humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsinin zəruriliyinə xüsusi diqqət yetirilmişdir.

Sabah Bakıda özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsinin təntənəli açılışı, Azərbaycan paytaxtındakı küçələrdən birinə böyük özbək alimi, astronom Mirzə Uluqbəyin adının verilməsi iki qardaş xalq arasında humanitar əlaqələri möhkəmləndirən mühüm amillər olacaqdır.

Tam əmin olmağımıza hər cür əsas var ki, Özbəkistan nümayəndə heyətinin Azərbaycana indiki səfəri iki ölkənin dostluq və əməkdaşlığının daha da möhkəmlənməsində mühüm mərhələ olacaqdır.

Fürsətdən istifadə edərək, birmənalı şəkildə bəyan etmək istərdim ki, Özbəkistan Azərbaycanla uzunmüddətli və qarşılıqlı surətdə faydalı münasibətlərin möhkəmləndirilməsində maraqlıdır.

Diqqətinizə görə təşəkkür edirəm.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Sentyabrın 11-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar,

Əziz dostlar!

Bu gün Özbəkistan-Azərbaycan münasibətlərinin tarixində olduqca əlamətdar gündür. Bu gün Özbəkistan Prezidenti, Azərbaycan xalqının böyük dostu İslam Abduqəniyeviç Kərimov Azərbaycana rəsmi səfərə gəlmişdir.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk və şadıq ki, səfər böyük uğurla keçir. Əminəm ki, bu səfərin nəticələri və imzalanmış sənədlərdə əksini tapmış qərarların yerinə yetirilməsi münasibətlərimizin hərtərəfli inkişafı üçün yeni şərait yaradacaqdır. Biz bunda çox maraqlıyıq və çox istəyirik ki, münasibətlərimizin hərtərəfli inkişafı, həyatımızın bütün sahələrini əhatə etməsi üçün gələcəkdə də bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, humanitar, nəqliyyat, energetika sahələrində fəal əməkdaşlıq edək. Bunun üçün bütün imkanlar var.

Əvvələn, bu, əsrlər boyu həmişə sülh və həmrəylik şəraitində yaşamış xalqlarımız arasında olan ənənəvi qardaşlıq münasibətləridir. Bu, həm də mədəniyyətlərimizin, ənənələrimizin, habelə dilimizin ümumi olmasıdır, çünki bir-birimizi tərcüməçisiz başa düşürük. Bütün bunlar indi - müstəqil dövlətlərimizin fəal və dinamik inkişaf etdiyi, öz siyasi və iqtisadi potensiallarını möhkəmləndirdiyi, Mərkəzi Asiya və Qafqaz regionunda mühüm rol oynadığı bir vaxtda münasibətlərin inkişafı üçün möhkəm bazadır.

Beləliklə, əminəm ki, regionumuzdakı inteqrasiya prosesləri, Mərkəzi Asiyada və Qafqazda, Xəzər hövzəsində regional əməkdaşlıqla bağlı proseslər xeyli dərəcədə bizim münasibətlərimizin uğurla inkişafından asılı olacaqdır. Bizi böyük tarix birləşdirir, lakin gələcəkdə bizi qarşılıqlı əlaqələrin, kooperasiyanın səviyyəsinin yüksəldilməsinə yönəldilmiş yeni layihələr, nəqliyyat layihələrinin həyata keçirilməsində birgə layihələr, müştərək iştirak gözləyir. Başqa sözlə, yaşadığımız regionda əməkdaşlığın uğurlu inkişafını, xeyli dərəcədə həm də bizim münasibətlərimizin uğurlu olması müəyyənləşdirəcəkdir.

Bugünkü səfər və aparılmış danışıqlar bir daha təsdiq edir ki, ölkələrimiz arasında münasibətlər çox yüksək səviyyədədir. Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin çox geniş dairəsini - ikitərəfli münasibətləri, regional siyasəti, Qafqazda baş verən prosesləri, yeni çağırışları, yeni təhdidləri, bizi narahat edən və həlli tələb olunan məsələləri müzakirə etdik. Belə bir ümumi fikrə gəldik ki, dialoq, işbirliyi və qarşılıqlı surətdə faydalı əməkdaşlığın potensialını artırmaq yolu ilə bir çox problemləri həll edə bilərik. Biz buna köklənmişik. İndi bunun üçün bütün şərait var: Özbəkistanın artmaqda olan iqtisadi potensialı, maliyyə imkanları, habelə bizim ölkəmizdə gedən və müstəqilliyimizi möhkəmləndirən, müstəqil siyasət yeritməyə imkan verən müsbət proseslər.

Yəqin ki, ölkələrimizə əminliklə aid edə biləcəyimiz bir çox digər cəhətlər sırasında müstəqil siyasət xəttini, ölkələrimizin və xalqlarımızın milli mənafelərinin qorunmasında, habelə regionda baş verən proseslərlə münasibətdə ardıcıl və prinsipial siyasəti də vurğulamaq olar.

Mən çox şadam ki, biz bu gün Azərbaycanı çox yaxşı tanıyan, onu sevən və Azərbaycanda sevilən əziz qonağımız İslam Abduqəniyeviç Kərimovu qəbul edirik. Tam məsuliyyətlə deməliyəm ki, ölkələrimiz arasındakı müasir münasibətlərin əsasını xalqlarımızın iki böyük lideri - İslam Kərimov və Heydər Əliyev birgə problemlərin həllində səylərimizin birləşdirilməsi işində fəal əməkdaşlığa başlayanda qoymuşlar. Onlar ölkələrimizin dövlətçiliyinin əsasını qoymuşlar, sabitliyi, davamlı inkişafı təmin etmişlər. Onların rəhbərliyi altında ölkələrimiz sübut etmişlər ki, nəinki müstəqil yaşaya, həm də milli mənafelərini uğurla təmin edə, regional proseslərdə əhəmiyyətli rol oynaya bilərlər.

Müasir dövrdə münasibətlərimiz məhz bu müsbət məqam üzərində qurulur və daha da genişləndirilir. Bugünkü gün, imzalanmış sənədlər və ən başlıcası, münasibətlərimizin ruhu bunu təsdiq edir. Bütün bunlar - həm forma, həm ruh, həm də qarşılıqlı anlaşma xalqlarımızın yaxınlaşmasına kömək edir. Əlbəttə ki, həm də özbək xalqının böyük oğlu, mütəfəkkir şair Əlişir Nəvainin sabah açılacaq abidəsi. Bu, həm özbək xalqının böyük oğlunun xatirəsinə ehtiram əlamətidir, həm də bizim münasibətlərimizin xarakterini göstərir.

Mən bu badəni Özbəkistan Prezidentinin sağlığına, qardaş özbək xalqının tərəqqisi, ölkələrimiz və xalqlarımız arasında dostluğun şərəfinə qaldırmaq istəyirəm.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Nümayəndə heyətimizə göstərilən səmimiyyətə, mehribanlığa və qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, bütün azərbaycanlı dostlarımıza ən dərin minnətdarlıq hisslərimi bildirməkdən böyük zövq və məmnunluq duyuram.

Bizim xalqımız haqqında dediyi səmimi və xoş sözlərə görə, bu gün formalaşmaqda olan ikitərəfli və çoxtərəfli münasibətlərin səviyyəsini yüksək qiymətləndirdiyinə görə mən Azərbaycan Prezidentinə təşəkkür edirəm. Əminəm ki, qardaş xalqlarımız və ölkələrimiz arasında bu münasibətlər bundan sonra da davam edəcəkdir. Azərbaycan ilə Özbəkistan arasında dərin hörmət və etimadın təcəssümü olan münasibətlər milli dəyərlərimizin, ənənələrimizin, adətlərimizin, dilimizin, mədəniyyətlərimizin yaxınlığına, çox cəhətdən ümumiliyinə, eyni dinimizə əsaslanır və bu münasibətlərin çoxəsrlik tarixi həmişə qarşılıqlı dəstək və kömək mənbəyi olmuşdur. Əcdadlarımızın obrazları, ruhən bir-birinə yaxın olmuş böyük sələflərimiz Nizami Gəncəvi və Əlişir Nəvainin və başqalarının, haqlı olaraq dünya sivilizasiyasının incilərinə aid edilən əsərləri, yaradıcılıq irsi bütün dövrlərdə həm azərbaycanlılar, həm də özbəklər üçün ilham mənbəyi olmuşdur.

Bir daha demək istəyirəm, sabah Bakıda görkəmli özbək şairi, mütəfəkkiri və dövlət xadimi Əlişir Nəvainin möhtəşəm abidəsinin açılışı və Azərbaycan paytaxtının mərkəzi küçələrindən birinə böyük özbək astronomu və maarifçisi Mirzə Uluqbəyin adının verilməsi bizim mənəvi yaxınlığımızın və möhkəm dostluğumuzun rəmzidir.

Nizamini tanımayan və sevməyən bir özbək tapmaq çətindir. Zənnimcə, Əlişir Nəvainin əsərlərini oxumamış və ona ehtiram bəsləməyən azərbaycanlı tapmaq da çətindir. Özbəkistanın xalq şairi, Azərbaycan oğlu, taleyin hökmü ilə Özbəkistan torpağında yazıb-yaratmış Maqsud Şeyxzadə bizim mənəvi yaxınlığımızı çox gözəl və dəqiq ifadə etmişdir. O, özünün məşhur rübailərindən birində demişdir:

Bakılı qocaya dedim: əmican, Dostluq bu mənanı kəsb edib haçan? Belə cavab verdi o müdrik qoca: Nizami, Nəvai qardaş olandan.

Bunu vurğulamaq mənə xüsusilə xoşdur ki, Maqsud Şeyxzadə milli mədəniyyətimizin inkişafında xidmətlərinə görə ölkəmizin ən yüksək mükafatlarına layiq görülmüşdür və bu gün də xalqımız ona çox böyük ehtiram bəsləyir. Bu il Daşkənddə bu gözəl şairin 100 illik yubileyi qeyd ediləcəkdir və artıq buna hazırlıq görülür.

Özbək və Azərbaycan xalqları öz vətənlərində sülhün və əmin-amanlığın qorunub saxlanması naminə əsrlər boyu bir yerdə olmuşlar, biz sevincimizi də, kədərimizi də bir-birimizlə bölüşmüşük. Xalqlarımız həyatın çətin sınaqlarına sinə gərməli olanda biz həmişə bir-birimizə dost kimi əl uzadaraq, bu çətinlikləri çiyin-çiyinə dəf etmişik.

1930-cu illərdə kütləvi repressiyalar dövründə on minlərlə azərbaycanlının Özbəkistan torpağında sığınacaq tapması, xalqımızın onları öz doğma qardaşları kimi açıq ürəklə qəbul etməsi, bir tikə çörəyi onlarla bölüşməsi, öz evində onlara sığınacaq verməsi hamımızın yadındadır.

Hazırda Özbəkistanda 40 mindən çox azərbaycanlı yaşayır. Müstəqil Özbəkistanın tam-

hüquqlu vətəndaşları olan bu insanlar başqa xalqlarla sülh və həmrəylik şəraitində ölkəmizin sosial-ictimai, iqtisadi həyatında və digər sahələrdə fəal iştirak edirlər. Bunu belə bir fakt da təsdiq edir ki, təkcə son illərdə Azərbaycan diasporunun altı nümayəndəsi yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Özbəkistan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanı birmənalı şəkildə dəstəkləyir. Bu problem, əlbəttə, dinc yolla və vurğulamaq istərdim ki, yalnız beynəlxalq normalara əməl edilməklə və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hökmən riayət olunmaqla həll edilməlidir.

Hörmətli İlham Heydər oğlu, bu fürsətdən istifadə edib vurğulamaq istərdim ki, mən bu tarixi yaddaşın daşıyıcısıyam, vahid Sovet İttifaqının tabeliyində olduğumuz əvvəlki tariximizin ayrı-ayrı dövrlərini xatırlayıram, - hərçənd, bu, heç də həmişə xoş olmur. 1985-ci ildə Sovet İttifaqına başçılıq edən adam "Azərbaycan" sözünü hətta düzgün tələffüz edə bilmirdi. O, bu sözü təhrif edərdi. Mən indiyədək xatırlayıram, bizə doğma olan "Azərbaycan" sözünü hətta tələffüz edə bilməyən həmin adam bu problemin, bu münaqişənin yaranması üçün çox şey etmişdir. Bu münaqişə bilavasitə onun iştirakı ilə, Moskvada sakitcə əyləşib Qafqazda baş verənləri müşahidə edənlərin iştirakı ilə yaranmışdı. Məni təəccübləndirən odur ki, indinin özündə də həmin problemi necə həll etməyi müəyyən dərəcədə başa düşməyənlər vardır. Mənə belə gəlir ki, belə vəziyyət, yaxud belə münasibət, mövqe var və bununla həmin münaqişəni mümkün qədər uzatmaq istəyirlər.

Bu gün mən İlham Heydər oğlu ilə bu barədə danışmışam, burada bizim aramızda əyləşən cavanlar həmin dövrü - 1988-ci ili, bəlkə də, xatırlamırlar. Mahiyyət etibarilə yeni nəsil yaranır. Məncə, kimlərsə ümid edir ki, yeni nəsl yaranacaq və Qarabağ problemi ilə əlaqədar baş vermiş bütün hadisələr yaddaşlardan silinəcəkdir.

Lakin bu gün doğulan nəslin neçəliyindən asılı olmayaraq,- Qarabağ probleminin yarandığı ildə doğulmuş insanların artıq 20 yaşı tamam olmuşdur və bu, çox ciddi məsələdir, bu gənclər elə bil bütün bunları xatırlamır,- mən çox istərdim ki, bizim bir fikrimiz üst-üstə düşsün: övladlarımız bizim başladığımız işi axıra çatdırmalıdır, uşaqlarımız bizim işimizin davamçıları olmalıdır.

Bugünkü görüşdə mən bir məsələyə toxunmuşdum, onu burada bir daha təkrarlamaq istəyirəm. Mən demək istəyirəm ki, bugünkü Azərbaycan 1991-ci ildə müstəqillik əldə ediləndəki Azərbaycan deyil. Obrazlı şəkildə desək, yerlə göy qədər fərq var. İndi İlham Heydər oğlu Özbəkistan haqqında belə xoş sözlər söyləyərkən, çox təvazökarlıq edərək dedi ki, Azərbaycanın da uğurları var. Mən isə belə hesab edirəm ki, postsovet məkanındakı ölkələrin çoxu Azərbaycandan öyrənməlidir ki, Azərbaycan yaşadığı bugünkü mürəkkəb şəraitdə belə yüksəlişə, uğurlara necə nail olmuşdur. Buna nəinki postsovet dövlətləri, hətta Azərbaycanın ətrafındakı bir çox dövlət də həsəd apara bilər.

Mən Heydər Əliyevlə tanışlığımdan fəxr edirəm və bundan həmişə fəxr duymuşam. Tanışlıq demək azdır, yaşımızda müəyyən fərq olmasına baxmayaraq, mən özümü Heydər Əliyevin dostu hesab edirdim. O, Özbəkistana gələndə, Daşkənd Universitetinin tələbələri qarşısında çıxış edəndə, biz özbək gəncləri qarşısında dayananda mən ona "Haydar əkə" (özbək dilində Haydar Azərbaycan dilində Heydər adının qarşılığıdır) deyə müraciət edirdim.

O dəqiqələr, o anlar hələ də yadımdadır, biz bir-birimizi bircə kəlmədən başa düşürdük. Mən bir daha demək, təkrarlamaq və təsdiq etmək istəyirəm: bəli, mən həqiqətən Azərbaycan xalqının dostuyam, bəli, mən həqiqətən təkcə Özbəkistanın nailiyyətlərinə görə deyil, həm də Azərbaycanın uğurlarına görə fəxr edirəm. Bunlar, sadəcə, gəlişi gözəl sözlər deyil, bu, mənim qəlbimdədir və ömrümün axırına qədər belə olacaqdır.

Demək istərdim ki, özbəklər və azərbaycanlılar hamımızın ehtiram bəslədiyimiz, mərdliyi, mənəvi gücü, dönməz iradəsi qarşısında həmişə baş əydiyimiz Heydər Əliyevin xalqlarımız arasında etimadın bərpa olunması, bir daha təkrar edirəm, etimadın bərpa olunması və qarşılıqlı hörmətin möhkəmlənməsi işinə verdiyi böyük, qiymətli töhfəni heç vaxt unutmayacaqlar.

Elçibəyin dövrü yadımdadır, Özbəkistanla Azərbaycan arasında, özbək xalqı ilə Azərbaycan xalqı arasında əsrlər boyu yaranmış münasibətləri heç nədən pozmağa cəhd göstərilən dövr mənim yadımdadır. Bu, olub. Əgər kimsə bunu xatırlamırsa, çox pis. Tarixi yadda saxlamaq lazımdır. Öz tarixini unudanlar öz yolunu azır, gələcəyini görmür. Biz bunu həmişə demişik və deyəcəyik. Tarixi bilmək lazımdır, onu yadda saxlamaq, ona hörmətlə yanaşmaq lazımdır. Bu nə deməkdir? O deməkdir ki, bizim övladlarımızın düzgün yol seçmələri üçün müvafiq nəticələr çıxarmaq lazımdır.

Buna görə də yadımdadır: Heydər Əliyev özbəklərlə azərbaycanlılar arasında həmişə mövcud olmuş etimadın bərpa olunması üçün nə lazımdırsa etmişdir. Bununla əlaqədar bir fakt xüsusi ehtirama layiqdir ki, Azərbaycan xalqı, onun bugünkü tanınmış lideri vaxtilə Heydər Əliyevin seçdiyi perspektivli xətti ardıcıl olaraq davam etdirir və onun xatirəsini dərin hörmətlə yad edirlər. Bu siyasətin tam varisliyi göz qabağındadır. Bu gün İlham Heydər oğlu dedi: bizim heç nə icad etməyimizə ehtiyac yoxdur, biz Heydər Əliyevin yaratdıqlarını götürməli, onun işləyib hazırladığı proqrama ciddi riayət etməli və bu gün, sadəcə olaraq, həmin proqramı həyata keçirməli, yerinə yetirməliyik.

Özbəklərdə belə bir məsəl var: atasından xeyir-dua alanlar həmişə uğur, firavanlıq qazanır. Mən istəyirəm ki, burada əyləşən azərbaycanlılar bunu yadda saxlasınlar, deyərdim ki, hər bir azərbaycanlının şüuruna aşılasınlar. Məncə, bu müdrik sözləri İlham Heydər oğlu Əliyevin bugünkü fəaliyyətinə tamamilə aid etmək olar.

Hörmətli dostlar, bu gün həqiqətən çox səmimi, açıq söhbətlər, danışıqlar aparıldı. Elə bir məsələ, elə bir problem, deyərdim ki, bu gün Qafqazda, Mərkəzi Asiyada, Orta Asiyada yaranan çox mürəkkəb problemlərdən eləsi yadıma gəlmir ki, onların barəsində müəyyən məqamlarda bizim aramızda fikir ayrılığı olsun və mövqelərimiz fərqli olsun.

Buna görə də mən belə hesab edirəm ki, bizim missiyanın, Azərbaycana rəsmi səfərin uğuru, ilk növbədə, məhz bundadır. Mən istərdim ki, indicə deyəcəyim sözləri siz hərfi mənada başa düşəsiniz: biz - Azərbaycan Prezidenti və Özbəkistan Prezidenti həmfikirlərik, bizim problemlərə münasibətimiz, yanaşmalarımız üst-üstə düşür və zənnimcə, bu, bizim ən böyük uğurumuzdur. Bu gün biz dönə-dönə yəqin etdik ki, əslində, İlhamla mənim aramda müəyyən problemlər yarada biləcək heç bir fikir ayrılığı yoxdur. Əksinə, biz birmənalı şəkildə dərk edirik ki, Azərbaycan və Özbəkistan bir-birinə nə qədər yaxın olsa, həm Azərbaycanın məsələlərini, həm də Özbəkistanın məsələlərini həll etmək bir o qədər asan olacaqdır.

Sözün qısası, müasir reallıqlar beynəlxalq strukturlar çərçivəsində iki ölkənin topladığı müsbət təcrübənin bazasında səylərin daha artıq dərəcədə əlaqələndirilməsini, bizim milli mənafelərimizin, həm Azərbaycanın, həm də Özbəkistanın mənafelərini çətinliklə də olsa qorumağın zəruriliyini diktə edir.

Bu gün İlham Heydər oğlu ilə danışıqlarda bizim çıxardığımız ən mühüm nəticə budur: ölkələrimiz arasında əməkdaşlığın miqyasını genişləndirmək üçün hələ istifadə edilməmiş çox böyük imkanlarımız, resurslarımız vardır. Bu, ilk növbədə qarşılıqlı ticarətin inkişaf perspektivlərinə, birbaşa kooperasiya və investisiya əlaqələrinin tənzimlənməsinə, birgə müəssisələr yaradılmasına, energetikada, habelə nəqliyyat kommunikasiyalarından qarşılıqlı surətdə faydalı istifadə edilməsi sahəsində əməkdaşlığa aiddir.

Bir daha təkrarlamaq istərdim, Özbəkistan Azərbaycanın ilbəil böyüməkdə olan logistika mərkəzi kimi, Şərq ilə Qərbi əlaqələndirən dəhliz kimi malik olduğu çox böyük imkanlardan istifadə edilməsində birmənalı şəkildə maraqlıdır.

Bu imkandan istifadə edib Azərbaycan xalqına, onun keçmişinə, bu gününə və böyük gələcəyinə özümün tükənməz, səmimi hörmət hisslərimi bildirmək istərdim.

Mən Azərbaycan Prezidenti İlham Əliyevin sağlığına, Azərbaycan və Özbəkistanın dostluğu və əməkdaşlığı şərəfinə, bu salondakıların hamısının şərəfinə badə qaldırmağı təklif edirəm.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Özbəkistan Prezidenti İslam Kərimov sentyabrın 12-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın dövlət başçısını səmimiyyətlə qarşıladı.

Prezident İlham Əliyev ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri, ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar barədə ətraflı məlumat verdi.

Özbəkistan Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr edilmiş kitablarla, dünyanın nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Özbəkistanın dövlət başçısı Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.

Prezident İslam Kərimova xatirə hədiyyəsi təqdim olundu.

Ali qonaq Fonddan xoş təəssüratla ayrıldı.

BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİ AÇILMIŞDIR

Sentyabrın 12-də Bakının Nərimanov rayonunda, Azadlıq prospekti ilə Nəcəf Nərimanov küçəsinin kəsişdiyi yerdəki parkda böyük özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin abidəsi açılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti İslam Kərimov mərasimdə iştirak etmişlər.

Parka toplaşmış şəhər sakinləri dövlət başçılarını ehtiramla qarşıladılar. Prezidentlər yeni parkda görülmüş abadlıq işləri ilə tanış oldular. Bildirildi ki, abidənin müəllifi özbəkistanlı memar Ravşan Mirtajiyevdir.

Mərasimi Azərbaycan Prezidenti İlham Əliyev açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli dostlar!

Bu gün Özbəkistan və Azərbaycan xalqları arasında münasibətlərin tarixində çox əlamətdar gündür. Bu gün Bakıda, şəhərimizin mərkəzi küçələrindən birində özbək xalqının böyük oğlu, böyük şair, mütəfəkkir, dövlət xadimi Əlişir Nəvainin abidəsi açılır. Bizə çox xoşdur ki, bu gün abidənin açılışında Özbəkistan Prezidenti İslam Abduqəniyeviç Kərimov iştirak edir.

Azərbaycanda Nəvainin yaradıcılığına çox bələddirlər. Bu böyük şairin, demək olar ki, bütün əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir. O, Özbəkistan ədəbiyyatının, Şərq xalqları ədəbiyyatının inkişafına çox böyük təsir göstərmişdir.

Bu abidə bu böyük insanın xatirəsinə ehtiram əlaməti olmaqla bərabər, həm də əsrlər boyu bir-biri ilə sülh, həmrəylik şəraitində yaşamış, həmişə dostluq etmiş özbək və Azərbaycan xalqları arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir. Bu münasibətlər bu gün də davam edir. İndi, mən deyərdim ki, ölkələrimizin tərəqqisi dövründə, Özbəkistanın və Azərbaycanın müstəqilliyinin, dövlət suverenliyinin möhkəmləndiyi və inamla inkişaf etdiyi dövrdə ölkələrimiz arasında münasibətlər yeni xarakter kəsb edir. Biz keçid dövrünə, transformasiya dövrünə xas olan çətinliklərin, demək olar, hamısını keçmişdə qoymuşuq.

Bu gün artıq heç kəs şübhə etmir ki, həm Özbəkistan, həm də Azərbaycan gələcəkdə də fəal inkişaf edəcək, inteqrasiya, kooperasiya edəcək və ölkələrimizin xalqları daha yaxşı yaşayacaqlar. Ona görə də bizim firavanlığımız da, Mərkəzi Asiya və Qafqaz regionunda sülh və sabitlik də ölkələrimiz arasında sıx münasibətlərdən asılıdır. Biz bu münasibətləri çox əziz tuturuq, onlar qardaşlıq münasibətləri xarakteri daşıyır, ənənələrə, möhkəm tarixi bazaya əsaslanır və bu gün çox uğurla inkişaf edir.

Mən çox şadam ki, biz hörmətli qonağımız, Özbəkistan Prezidenti İslam Abduqəniyeviç Kərimovu Bakıda qəbul edirik. Biz dünən və bu gün bir daha yəqin etdik ki, münasibətlərimiz nə qədər yaxındır. Mən dünən İslam Abduqəniyeviçə dedim ki, özbək xalqının

bəxti gətirib: onun tarixinin ən məsul dövründə, Özbəkistanın müstəqil dövlət kimi formalaşdığı vaxtda bu ölkəyə İslam Abduqəniyeviç Kərimov rəhbərlik etmişdir.

Bu mənada bizim bəxtimiz az gətirdi. Azərbaycan dövlətçiliyinin formalaşması müstəqilliyin əldə edilməsi ilə eyni vaxtda deyil, iki il sonra başlandı. Bu iki il ölkəmizi geri saldı və müstəqilliyin ilk illərinin ağır nəticələrini aradan qaldırmaq və inkişaf yoluna çıxmaq üçün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çox gərgin səylər göstərməsi lazım gəldi. Bu gün ölkələrimiz arasında yaranmış münasibətlər də çox cəhətdən xalqlarımızın iki liderinin fəaliyyəti, onların dostluğu və şəxsi münasibətləri sayəsində formalaşmışdır.

Biz Azərbaycanda ötən illər ərzində, o cümlədən ölkələrimiz arasında münasibətlərdə seçilmiş xətti davam etdiririk və gələcəkdə də bu münasibətləri inkişaf etdirmək, onları yeni səviyyəyə qaldırmaq üçün lazım olan hər şeyi edəcəyik.

Bakıda Əlişir Nəvainin abidəsinin açılması, şəhərin mərkəzi küçələrindən birinə böyük alim, böyük özbək xalqının nümayəndəsi Mirzə Uluqbəyin adının verilməsi kimi xalqlarımızın həyatındakı mühüm hadisələr isə, sadəcə, münasibətlərimizi sosiyyələndirən, qarşılıqlı rəğbət hisslərimizin dərinliyini, qarşılıqlı sevgi və qardaşlıq münasibətlərini əks etdirən sosiyyəvi cəhətlərdir.

Mən sizin hamınızı - həm qardaş Özbəkistan xalqını, həm də Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Əminəm ki, bu hadisə gələcəkdə ölkələrimiz arasında daha sıx münasibətlər yaranmasına kömək edəcəkdir.

Sağ olun.

ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN ÇIXIŞI

- Əziz dostlar!

Mən, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevə, sizə - Azərbaycan ictimaiyyətinin nümayəndələrinə ən səmimi hörmət hisslərimi və sizin şəxsinizdə Azərbaycan xalqına öz məhəbbətimi bildirmək istərdim. Mən xoşbəxtəm ki, bu gün Azərbaycanın necə yüksəlməsinin şahidiyəm. Xoşbəxtəm ki, Heydər Əliyevlə birlikdə işləməli olmuşam. Xüsusən ona görə xoşbəxtəm ki, mən burada, Bakıda rəsmi səfərdə olarkən görürəm ki, Heydər Əliyevin oğlu İlham Əliyev öz atasının işini davam etdirmək üçün, adı böyük hərflə yazılmağa layiq İnsan hesab etdiyim şəxsiyyətin işini davam etdirmək üçün hər şeyi edir.

Mən tarixdə çox şəxsiyyətlər tanıyıram və artıq çox illərdir ki, təkcə postsovet məkanında deyil, onun hüdudlarından kənarda da baş verən hadisələri izləyirəm. Mən Heydər Əliyev miqyaslı və ən başlıcası isə, öz ölkəsinə, öz torpağına, öz xalqına Heydər Əliyev qədər sədaqətli olan insanlara çox az-az rast gəlmişəm. Bu fürsətdən istifadə edərək, mən bir daha, dönə-dönə demək istəyirəm: onun öz xalqı üçün, öz xalqının gələcəyi üçün gördüyü işlərin qədir-qiyməti əvəzsizdir və gənc nəsil təməli Heydər Əliyev tərəfindən qoyulmuş işlərin nəticələrini artıq bu gün görür. Demək istəyirəm ki, biz Özbəkistanda onu təkcə öz ölkəsi üçün gördüyü işlərə görə, təkcə öz ölkəsinin vətənpərvəri adlandırıla biləcək insan olduğuna görə deyil, həm də ona görə yüksək qiymətləndiririk ki, o, Özbəkistan və Azərbaycan arasındakı münasibətləri, çoxəsrlik dostluq,

qarşılıqlı hörmət, qarşılıqlı məhəbbət münasibətlərini müstəqilliyin ilk illərində burada təsadüfi adamların ölkəyə rəhbərlik etdiyi vaxtda məruz qaldığı bütün hücumlardan qorumaq üçün hər şeyi etmişdir. Mən o adamların adlarını çəkməyəcəyəm, çünki onlar buna layiq deyil, xeyirxah işlər görmüş insanlar haqqında, bu gün xalqın taleyində, ayrılıqda götürülmüş hər bir insanın taleyində hiss etdiyimiz yaxşı işləri görmüş insanlar haqqında daha çox danışmaq lazımdır.

Sizə demək istəyirəm ki, dörd il bundan əvvəl İlham Əliyevlə birlikdə Daşkəndin ən mənzərəli, ən gözəl meydanlarından birində, yeri gəlmişkən, Nizaminin adını daşıyan meydanda - Daşkənd Dövlət Pedaqoji Universitetinin binası qarşısında Nizaminin abidəsini açmışdıq. O vaxt mən özbək dilində danışdım, o isə Azərbaycan dilində. Bu gün Özbəkistana, onun böyük oğlu Əlişir Nəvaiyə hörmət əlaməti olaraq Bakının bu çox gözəl meydanına toplaşdığımız kimi, o vaxt Nizaminin abidəsinin açılışına gəlmiş insanlar da həm özbək dilində, həm də Azərbaycan dilində deyilənləri başa düşürdülər. Yaxşı yadımdadır, o vaxt İlham Heydər oğlu ilk dəfə belə dedi: "Bu, çox böyük sərvətdir - siz özbək dilində danışırsınız, mən Azərbaycan dilində danışıram, amma adamların gözlərindən də görünür ki, heç kəsdə heç bir sual doğmadı, heç kəs yanındakından soruşmadı: "O, nə dedi?". Hamı bir-birini başa düşürdü və bu, böyük sərvətdir, bizim ən ciddi şəkildə qorumalı olduğumuz böyük irsdir.

Demək istəyirəm ki, Özbəkistanın dünyanın çox ölkələri ilə münasibətləri var. Həmin ölkələrlə təkcə diplomatik, siyasi münasibətlər saxlamırıq, həm də hazırda bütün dünyada olduğu kimi, əməkdaşlıq münasibətləri qurmuşuq. Lakin mənim əzizlərim, mən sizə nəyi demək istərdim: indi dünyada vəziyyətin çox mürəkkəbləşdiyi, heç də sadə olmadığı bir vaxtda təkcə diplomatik, çox böyük əhəmiyyəti olan siyasi, iqtisadi münasibətlər, mədəni əlaqələrin, mədəniyyətlərin qarşılıqlı təsirini əhatə edən mədəni münasibətlər deyil, həm də mənəvi birlik çox vacibdir.

Bu mənada bizim Azərbaycanla münasibətlərimiz başqa dövlətlərlə münasibətlərdən yaxşı mənada, hətta, sadəcə yaxşı mənada yox, keyfiyyətcə əsaslı şəkildə fərqlənir, çünki bizim mənəvi birliyimiz var. Demək istəyirəm ki, insanı quşa bənzətmək olar. Quş bir qanadla uça bilmədiyi kimi, xalqlar, insanlar da təkcə maddi maraqlarla yaşaya bilməzlər. Hər cür sərvətə, firavanlığa nail olmaq mümkündür, lakin quş bir qanadla uça bilmədiyi kimi, mənəviyyat olmayan yerdə insan da öz gələcəyini, özünün ahəngdar inkişafını görə bilməz. Bunu görə bilmək isə hər bir insan üçün, hər bir xalq üçün vacibdir. Maddi və mənəvi sərvətlər yanaşı olmalıdır. Maddi sərvət bir qanaddırsa, ikinci qanad mənəvi sərvətdir. Onda insan tam olur, onda xalq öz gələcəyinə inamla baxa bilər.

Bu gün biz İlham Heydər oğlu ilə birlikdə özbək xalqının böyük oğluna, özbək ədəbiyyatının banisinə, özbək poeziyasını yaratmış insana ucaldılmış abidəni açırıq. Bu insan bizim də müasirimizdir. Ona görə ki, Nizaminin və Əlişir Nəvainin gördükləri işlər bu gün bizim həyatımızda yaşayır. Nizaminin və Əlişir Nəvainin irsi olmadan bizim bugünkü nəsil tərbiyə oluna bilməz. Onların irsi bizim güc aldığımız mənəviyyat və əxlaq xəzinəsidir.

Ona görə də mən mənəviyyat haqqında danışanda obrazlar vasitəsilə, bizim küçələrimizdə ucaldılan bu cür gözəl abidələr vasitəsilə təcəssüm edən mənəviyyatı nəzərdə tuturam. Biz Mərkəzi Asiyada yaşayırıq, bizim dil birliyi, din birliyi və bir sıra başqa amillərlə bağlı olduğumuz qonşularımız çoxdur. Lakin həmin qonşularımız bu gün Azərbay-

canda görülən işi görməyiblər, onlar mənim fikrimcə, Əlişir Nəvainin adını daşıyacaq belə bir meydan yaratmayıblar.

Buna görə mən Prezidentə, bütün Azərbaycan ictimaiyyətinə, mənim əzizlərim, sizə ürəkdən təşəkkür etmək istəyirəm, əməkdaşlığı möhkəmlətmək üçün, bu gün birlikdə, bir-birimizə güvənərək öz həyatımızı qurmaq üçün gördüyünüz işlərə görə çox sağ olun demək istəyirəm. Əminəm ki, biz sabahkı günümüzü də birlikdə quracağıq. Biz qarşıya qoyduğumuz məqsədlərə yalnız birlikdə çata bilərik.

Mən sizə təşəkkür edirəm, dərin hörmət və ehtiramımı bildirir, sizə xoşbəxtlik arzulayıram.

Sağ olun.

***

Sonra Prezident İlham Əliyev və Prezident İslam Kərimov abidənin önünə əklil qoydular, xatirə şəkli çəkdirdilər.

Dövlət başçıları tanınmış ədəbiyyat və incəsənət xadimləri ilə görüşüb söhbət etdilər.

İSLAM KƏRİMOV: Sizin Prezidentiniz İlham Əliyevin qeyd etdiyi kimi, Özbəkistan Prezidenti Azərbaycanı yaxşı tanıyır və sevir. Prezident İlham Əliyev mənim üçün başlıca olan məqamı söylədi: həqiqətən, mən Azərbaycanı elə tanıyıram ki, dünyanın ən böyük dövlətlərinin bizim ölkəmizə də tez-tez gələn nümayəndələri Azərbaycanı o dərəcədə tanımır. Mən azərbaycanlıları öz qardaşlarım kimi tanıyıram. Siz necə varsınızsa, mən sizi elə tanıyıram. Mən sizin tarixinizi bilirəm, sizin nə ilə yaşadığınızı, nəyin sayəsində öz millətinizə görə, öz Prezidentinizə görə qürur hissi keçirdiyinizi bilirəm.

Həmişə belə olun. Bu, mənim sizə çox böyük arzumdur.

FƏRHAD XƏLİLOV (xalq rəssamı): Sağ olun. Sizə xoşbəxtlik və firavanlıq arzulayıram. Özbək xalqı bizimlə qardaş xalqdır, biz həmişə ünsiyyətdə olmuşuq və ünsiyyətimiz davam edir. Bizim əlaqələrimiz kəsilmir. Sizin və bizim rəssamlar bir-birini tanıyırlar. Sizin rəssamlar Bakıya gəlirlər. Sizin mahir heykəltəraşınız belə gözəl abidə yaratmışdır.

İSLAM KƏRİMOV: Yeri gəlmişkən, bu abidə bizim milli parkın ən görkəmli yerində qoyulmuş abidənin surətidir. Müəllif mənə Nəvainin əyləşmiş vəziyyətdə təsvir edildiyi başqa bir abidə göstərəndə dedim: "Yox, abidəni elə düzəlt ki, şair sanki Azərbaycana doğru addımlayır". Fikir verin, o, sizə doğru gəlir, qollarını açaraq sanki deyir: "Mən sizin yanınıza gəlirəm, mənim balalarım". Necə bilirsiniz, bu, yaxşıdırmı?

İLHAM ƏLİYEV: Çox yaxşıdır. Elə abidələr var ki, sanki hərəkət edirlər. Yəqin ki, Özbəkistanda bu cür abidələr çoxdur.

FİKRƏT SADIQ (xalq şairi): Nəvai türk dünyasının ən böyük şairidir.

İSLAM KƏRİMOV: Mən İlhamla birlikdə burada, sizin aranızda olmağıma ürəkdən şadam. Mən sizin bu gün hansı hisslər keçirdiyinizi başa düşürəm. İndi Qafqaz mürəkkəb bir dövr yaşayır və Azərbaycan bu cür olduqca mürəkkəb şəraitdə davamlı inkişafa, öz ölkəsində sülhə və sabitliyə nail olur. Bu, Heydər Əliyevin qoyub getdiyi və bu gün onun oğlunun layiqincə davam etdirdiyi irsdir. Mən onu ürəkdən təbrik edirəm.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ GÖRÜŞ

Sentyabrın 12-də Özbəkistan Prezidenti İslam Kərimov Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşmüşdür.

Özbəkistan Prezidenti dini liderlərin insanların milliyyətindən və dini etiqadından asılı olmayaraq, onların sıx birləşməsinə yönəlmiş fəaliyyətini yüksək qiymətləndirdi. O, şeyxülislam Allahşükür Paşazadənin müxtəlif dinlər arasında dialoq və qarşılıqlı əlaqə üçün əlverişli şərait yaradılmasında böyük səy göstərdiyini bildirdi. Prezident İslam Kərimov vurğuladı ki, Qafqaz Müsəlmanları İdarəsinin Özbəkistanda dini təhsil almış rəhbərinə bu ölkədə böyük hörmət bəsləyirlər.

Özbəkistan dövlətinin başçısı Azərbaycana səfərinin gedişində Prezident İlham Əliyevlə apardığı danışıqları yüksək qiymətləndirdi və xüsusi vurğuladı ki, Heydər Əliyevin siyasətinin varisliyinin davam etdirilməsi dərin hörmətə layiqdir. Prezident İslam Kərimov dedi: "Heydər Əliyev öz vətəni üçün olduqca çox iş görmüşdür. O, Azərbaycan tarixində həmişəlik qalacaq şəxsiyyətdir".

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə bildirdi ki, Azərbaycanda Özbəkistanla əməkdaşlığın inkişaf etdirilməsini və onunla sıx əlaqələr yaradılmasını alqışlayırlar.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 12-də Özbəkistan Prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İranın xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.

Mənuçehr Mottəki İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi vurğulandı. Bu səfərin ikitərəfli münasibətlərin ümumi inkişafı və gələcək perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi baxımından əhəmiyyəti qeyd olundu.

Dövlətimizin başçısı İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İranın xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.

Mənuçehr Mottəki İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi vurğulandı. Bu səfərin ikitərəfli münasibətlərin ümumi inkişafı və gələcək perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi baxımından əhəmiyyəti qeyd olundu.

Dövlətimizin başçısı İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

ÇİN XALQ RESPUBLİKASI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Sentyabrın 15-də Milli Məclisin sədri Oqtay Əsədov Çin Xalq Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Xarici Əlaqələr naziri Van Czyajuyunun başçılığı ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşmüşdür.

Milli Məclisin sədri müstəqil Azərbaycanın dünya dövlətləri, o cümlədən Çin Xalq Respublikası ilə müxtəlif sahələrdə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmişdir. O.Əsədov demişdir ki, ölkələrimiz arasında imzalanmış 33 sənəd münasibətlərimizin hüquqi bazasını təşkil edir.

Parlamentin sədri qeyd etmişdir ki, Azərbaycan Çin ilə siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığın daha da dərinləşməsinə böyük maraq göstərir. Təqdirəlayiq haldır ki, ötən dövrlə müqayisədə bu gün dövlətlərimiz arasında ticarət dövriyyəsi 26 faiz artmışdır. Bu göstəricini daha da yaxşılaşdırmaq üçün geniş imkanlar mövcuddur.

Sədr bildirmişdir ki, parlamentlərarası əlaqələrin genişlənməsi dövlətlərarası münasibətlərə də müsbət təsir göstərir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu baxımdan çox əhəmiyyətlidir. O.Əsədov Çin parlamentinin sədrini Azərbaycana səfərə dəvət etmişdir.

Milli Məclisin sədri belə bir fikri vurğulamışdır ki, bu gün sürətlə inkişaf edən Azərbaycanın Dağlıq Qarabağ kimi ağrılı problemi vardır. Biz bu məsələdə Çinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndiririk. Müxtəlif beynəlxalq qurumlarda, o cümlədən BMT-də Çinin regional münaqişələrin həllində tutduğu prinsipial mövqe beynəlxalq ictimaiyyətə yaxşı məlumdur. İnanırıq ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq birliyin dəstəyi ilə tezliklə öz ədalətli həllini tapacaqdır.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən qonaq ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdiyini xüsusi vurğulamışdır. O, ümidvar olduğunu bildirmişdir ki, qədim tarixi köklərə malik münasibətlərimiz bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir. Qonaq Azərbaycana səfərindən, burada keçirdiyi görüşlərdən söz açaraq parlamentlər səviyyəsində münasibətlərin inkişafından məmnunluğunu bildirmişdir. O, Çin parlamentinin sədrini Azərbaycana səfərə dəvət etdiyinə görə Oqtay Əsədova minnətdarlığını bildirmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Moskvaya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 16-da Moskva vilayətindəki "Mayendorf" qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Rusiya Prezidenti DMİTRİ MEDVEDEV Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Hörmətli İlham Heydər oğlu!

Sizi Moskvada salamlamağa şadam. Bu, bir daha görüşmək, münasibətlərimizin inkişafında işlərin indiki vəziyyətini müzakirə etmək üçün yaxşı imkandır. Rusiya-Azərbaycan münasibətləri çox dinamik inkişaf edir, biz bu tərəfdaşlıqdan razıyıq. Mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə nəzərdə tutduğumuz məsələlərin, demək olar ki, hamısı yerinə yetirilir. Ümid edirəm ki, Sizinlə razılaşdığımız kimi, bu ilin sonuna qədər əmtəə dövriyyəsinin həcmini 2 milyard dollara çatdıra biləcəyik. Hərçənd, indi dünyada iqtisadiyyat sahəsində vəziyyət o qədər də sadə deyildir. Sevindirici cəhət odur ki, bizim münasibətlərimiz konyunktur xarakter daşımır.

Humanitar sahədə Sizinlə razılaşdığımız yaxşı nümunələr çoxdur. Yadımdadır ki, lap yaxın vaxtlarda Bakıda Moskva Dövlət Universitetinin filialı açılacaqdır. Bu da çox yaxşı hadisədir.

Təbii ki, Gürcüstanın təcavüzündən sonra Qafqaz regionunda yaranmış problemlərlə əlaqədar, bəzi məqamları dəqiqləşdirməliyik. Bu hadisələrdən sonra Sizinlə görüşməmişik, beynəlxalq vəziyyətin inkişafını müzakirə etməmişik. Zənnimcə, münasibətlərimizin və bütövlükdə Qafqazda vəziyyətin sabit və müsbət istiqamətdə inkişafında ölkələrimizin maraqlı olması nəzərə alınmaqla, bu məsələləri müzakirə etmək çox faydalı olacaqdır. Sizi görməyimə şadam.

Prezident İLHAM ƏLİYEV Rusiya dövlətinin başçısına təşəkkür edərək demişdir:

- S ağ olun, Dmitri Anatolyeviç.

Məni Moskvaya səfərə dəvət etdiyiniz üçün sağ olun. Sizin qeyd etdiyiniz kimi, bizim görüşlərimiz intensiv xarakter daşıyır. Biz Sizinlə bu yaxınlarda, Azərbaycana rəsmi səfəriniz çərçivəsində görüşmüşdük. Azərbaycanda hamı xüsusi qeyd edir ki, bu, Sizin Rusiya Prezidenti vəzifəsində ilk rəsmi səfərlərinizdən biri idi. Bu faktın özü də dövlətlərimiz arasında münasibətlərin xarakterini və ruhunu göstərir.

Biz münasibətlərimizin inkişafından çox razıyıq. Bu münasibətlər çox geniş spektrli olub, həm fəal siyasi qarşılıqlı əlaqələri, həm də iqtisadi əlaqələri əhatə edir. Sizin qeyd etdiyiniz kimi, əmtəə dövriyyəsi çox sürətlə artır və çox sevindirici haldır ki, onun strukturu da yaxşılaşır. Biz humanitar sahədə nəzərdə tutduğumuz tədbirləri həyata ke-

çiririk. Deməliyəm ki, Moskva Dövlət Universitetinin Bakı filialı artıq açılmışdır. Bu ilin əvvəlində mən bu barədə sərəncam vermişdim və artıq filiala tələbə qəbulu aparılmışdır. Yəni MDU-nun Bakıdakı filialı 2008-ci ildən mövcuddur. Bu onu göstərir ki, biz nəzərdə tutduğumuz məsələləri operativ şəkildə həll edirik və Sizin Bakıya səfəriniz çərçivəsində nəzərdə tutulan, Dostluq və strateji tərəfdaşlıq haqqında Birgə bəyannamədə öz əksini tapmış bütün məsələlər həyata keçirilir.

İnanıram ki, münasibətlərimizin səmərəli inkişafı davam edəcək, bu münasibətlər yeni məzmun və yeni formalar kəsb edəcəkdir. Bizim regionda sülhün, sabitliyin bərqərar olması üçün, gələcəyin proqnozlaşdırıla bilməsi üçün qüvvələrin birləşdirilməsi çox vacibdir. Bizim münasibətləri fərqləndirən cəhət onların məhz proqnozlaşdırıla bilən xarakterli olmasıdır. Bu münasibətlər dostluq, mehriban qonşuluq xarakteri daşıyır və biz onların inkişafından çox razıyıq. Bizim belə tez-tez görüşməyimiz də, ümumiyyətlə, əlaqələrimizin mahiyyətini əks etdirir.

Dəvət üçün bir daha sağ olun, ümid edirəm ki, bizim səmərəli əməkdaşlığımız davam edəcəkdir.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Sentyabrın 16-da Azərbaycan və Rusiya prezidentləri təkbətək görüş başa çatandan sonra mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI

- Hörmətli həmkarlar!

Hörmətli xanımlar və cənablar!

Mən hörmətli qonağımız, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin səfəri ilə əlaqədar bir neçə söz demək istərdim. Əvvələn, İlham Heydər oğlunu bir daha salamlamaq və ona təşəkkürümü bildirmək istərdim ki, biz bu məsləhətləşmələri Azərbaycanın həyatında kifayət qədər mühüm bir dövrdə aparırıq. Artıq prezident seçkiləri başlanır və çox yaxşı haldır ki, İlham Heydər oğlu cari vəziyyəti, bizim ikitərəfli münasibətlərimizi, beynəlxalq problemləri müzakirə etmək üçün Moskvaya gəlməyə vaxt tapmışdır.

Təbii ki, biz Rusiya-Azərbaycan münasibətlərinin - iqtisadi, sosial, humanitar münasibətlərin inkişafı barədə danışdıq. Beynəlxalq məsələlər haqqında da söhbət etdik. Əlbəttə, mən bir müddət əvvəl Qafqazda baş vermiş böhranla əlaqədar informasiya mübadiləsini nəzərdə tuturam. Mən Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Rusiyanın atdığı addımlar barədə İlham Heydər oğluna ətraflı məlumat verdim və hesab edirəm ki, bütün məsələlərdə bizim fəal qarşılıqlı əlaqələrimiz, Rusiya ilə Azərbaycanın fəal qarşılıqlı əlaqələri regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsi üçün əsas amillərdən biridir.

Danışıqların gedişində biz işgüzar əməkdaşlıq, hazırda xüsusi əhəmiyyət kəsb edən məsələlər üzərində də dayandıq. Ölkələrimiz arasında əmtəə dövriyyəsi çox yaxşı artmaqdadır. Biz söhbətə bu məsələdən başladıq. Ümumiyyətlə, əmtəə dövriyyəsinin artması onu göstərir ki, bizim iqtisadi münasibətlərimiz prinsipcə yeni səviyyəyə, qarşı-

lıqlı strateji əlaqələr səviyyəsinə çatmışdır. Bu, həm Rusiya üçün, həm də Azərbaycan üçün xeyirlidir, bizim xalqlarımız üçün faydalıdır. Bu ilin yeddi ayında əmtəə dövriyyəsinin yarıbayarı, 56 faiz artması onu göstərir ki, artım potensialı vardır və biz bu məqama daim diqqət yetirmək niyyətindəyik. Əmtəə dövriyyəsinin strukturunun yaxşılaşması da çox mühümdür. Azərbaycan Prezidenti bunu söhbətimizin əvvəlində qeyd etdi. Mən bu fikirlə tamamilə razıyam. Bu, bizim iqtisadiyyatlarımızın inkişafı üçün prinsipial əhəmiyyət kəsb edir.

Təbii ki, humanitar sahədə münasibətlər ayrıca bir məsələdir və burada da, həqiqətən, çox yaxşı nəticələr əldə edilmişdir. Biz Azərbaycanda rusdilli mədəni məkanın və təhsil məkanının qorunub saxlanması üçün göstərilən səylərə görə Azərbaycan rəhbərliyinə, Azərbaycan Prezidentinə minnətdarıq. Biz Bakıda Moskva Dövlət Universitetinin filialının açılması barədə, digər proseslər və layihələr haqqında, məktəb təhsili, bütövlükdə humanitar sahədə əməkdaşlıq haqqında danışdıq. Əlbəttə, mən belə hesab edirəm ki, bu, bizim irsimizdir və iki ölkənin prezidentləri kimi biz bu irsi daim qoruyub saxlamalı və bu məsələyə çox ciddi diqqət yetirməliyik.

Şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin həlli də bizim müzakirə mövzumuz oldu. Mən Azərbaycan Prezidentinə dediyim sözləri bu auditoriyada bir daha təsdiq etmək istərdim. Biz Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların davam etdirilməsinin tərəfdarıyıq. Bu məsələdə Rusiyanın mövqeyi dəyişməz qalır. Biz bu mürəkkəb məsələnin tənzimlənməsi üçün qarşılıqlı məqbul həllin tapılmasına gələcəkdə də maksimum kömək edəcəyik. Zənnimcə, bizim bu məsələyə dair təmasların ən yaxın gələcəkdə davam etdirilməsinə də ümid etməyə haqqımız var.

Mən bugünkü səfərin baş tutmasına görə, dostcasına konstruktiv söhbətə görə həmkarım İlham Heydər oğlu Əliyevə bir daha təşəkkür etmək istərdim. Hesab edirəm ki, bizim bu cür intensiv ünsiyyətimiz, tez-tez görüşməyimiz həm xalqlarımızın, həm dövlətlərimizin, həm də nəticə etibarilə bizim regionda təhlükəsizliyin və sabitliyin xeyrinədir. Görüş həm faydalı, həm də maraqlı oldu və biz lap yaxın gələcəkdə bu məsələlərin müzakirəsini davam etdirəcəyik.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

İlk növbədə məni Moskvaya səfərə və bu görüşü keçirməyə dəvət etdiyinə görə Dmitri Anatolyeviç Medvedevə təşəkkürümü bildirmək istərdim. Dmitri Anatolyeviçin qeyd etdiyi kimi, bizim təmaslarımız çox intensiv xarakter daşıyır və bu, ölkələrimiz arasında münasibətlərin xarakterini əks etdirir. Biz bir neçə dəfə görüşmüşük və hər dəfə çoxlu mövzuları müzakirə etmişik.

Təbii ki, ikitərəfli münasibətlərlə bağlı məsələlər diqqət mərkəzindədir. Rusiya ilə Azərbaycan arasında münasibətlər çox dinamik, müsbət şəkildə inkişaf edir və regional proseslərə də müsbət təsir göstərir. Bizim qarşılıqlı iqtisadi əlaqələrimiz, siyasi dialoqumuz çox fəaldır, biz humanitar sahədə əməkdaşlıq edirik və bütün bu istiqamətlərdə, eləcə də başqa sahələrdə davamlı irəliləyiş olduğunu görürük.

Rusiyanın və Azərbaycanın iqtisadi potensialının artması təsərrüfat subyektlərinin, şirkətlərin dinamik inkişafına şərait yaradır, qarşılıqlı investisiyalar, birgə layihələr müzakirə edilir. Bu da təbii ki, bizim münasibətlərimizi daha da möhkəmlədəcəkdir.

Biz qonşu dövlətlərik, bizim həm quruda, həm də dənizdə ümumi sərhədimiz var və qonşular arasında münasibətlər çox vacibdir. Qonşular arasında münasibətlər heç də həmişə istənilən kimi olmur. Lakin mən belə hesab edirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər nümunəvi xarakter daşıyır və qonşular arasında münasibətlərə nümunə ola bilər. Biz bundan çox razıyıq və ümidvarıq ki, gələcəkdə də bu münasibətləri inkişaf etdirmək, onları yeni məzmunla, yeni layihələrlə zənginləşdirmək, bununla da ölkələrimizin davamlı inkişafına və regionda inteqrasiyanın daha da güclənməsinə şərait yaratmaq üçün maksimum səy göstərəcəyik.

Əlbəttə, bu gün regionda yaranmış vəziyyət müəyyən narahatlıq doğurur və Azərbaycan bu gərginliyin azaldılmasına öz töhfəsini verməyə hazırdır. Biz hesab edirik ki, regionda fikir ayrılıqlarına səbəb olan məsələlər dinc yolla, dialoq yolu ilə, təmas nöqtələri tapmaq yolu ilə və əlbəttə, qarşılıqlı hörmət əsasında həll edilməlidir.

Bu gün biz ikitərəfli xarakter daşıyan məsələlərlə yanaşı, regional prosesləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə etdik. Biz ümid edirik ki, ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya tənzimləmə prosesində fəal rolunu davam etdirəcəkdir. Qafqaz regionunda baş verən proseslər nə qədər mürəkkəb olsa da, bizə belə gəlir ki, bu gün münaqişənin bütün dövlətlərin mənafeyinə cavab verən və beynəlxalq hüquq prinsiplərinə əsaslanan şəkildə həlli üçün yaxşı imkanlar var. Mən əminəm ki, əgər münaqişə yaxın vaxtlarda həll olunarsa, kifayət qədər geniş formatda regional əməkdaşlıq üçün yeni perspektivlər yaranacaq, bu isə bütün ölkələrin xeyrinə olacaqdır. Biz bu regionda öz qonşularımızla bərabər yaşayırıq və yaşayacağıq, heç kəs bu regiondan heç yerə köçüb getməyəcəkdir. Ona görə də səmərəli qarşılıqlı əlaqələr, mehriban qonşuluq, əməkdaşlıq mexanizmlərini axtarıb tapmaq lazımdır. Bir daha demək istəyirəm, əgər bizim regionda bütün qonşu ölkələr arasında münasibətlər Rusiya ilə Azərbaycan arasındakı münasibətlər kimi olsaydı, sizi inandırıram, heç vaxt nəinki münaqişə, hətta heç bir anlaşılmazlıqlar da olmazdı.

Buna görə bir daha demək istəyirəm ki, biz münasibətlərimizin səviyyəsini çox yüksək qiymətləndiririk, bu münasibətləri daha da möhkəmlətməyə çalışırıq və öz tərəfimizdən həmin məqsədə nail olmaq üçün bundan sonra da lazım olan hər şeyi edəcəyik. Heç şübhəsiz, bu baxımdan humanitar sahə ilə bağlı məsələlər də çox böyük əhəmiyyət kəsb edir. Dmitri Anatolyeviçin qeyd etdiyi kimi, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə çox qayğıkeş münasibət bəslənir və bu münasibətlər təkcə sözdə deyil, əməli işdə də özünü göstərir. Bəlkə də bu məsələlər geniş ictimaiyyətə həmişə məlum olmur, ola bilsin ki, biz indi piar deyilən məsələ ilə o qədər də fəal məşğul olmuruq, lakin hesab edirik ki, ən yaxşısı öz işini vicdanla və namusla görməkdir, informasiya isə hər bir halda öz oxucusunu tapacaqdır.

Mən bu dəvətə görə, adətən olduğu kimi, yenə də bütün məsələləri çox açıq, səmimi, yoldaşcasına müzakirə etməyə imkan verən şərait yaradılmasına görə Rusiya Prezidentinə bir daha təşəkkür etmək istəyirəm. Bu cür müzakirələr bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİNİN RUSİYA HÖKUMƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ

Sentyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev Moskvada, Rusiya hökumətinin Qəbullar Evində RF hökumətinin sədri Vladimir Putinlə görüşmüşdür.

Rusiya hökumətinin sədri VLADİMİR PUTİN Azərbaycan dövlətinin başçısını salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu, hörmətli həmkarlar.

Sizi salamlamağıma çox şadam. Mənə çox xoşdur ki, Siz köhnə dostlarınızı unutmursunuz. Sağ olun. Əminəm ki, biz iqtisadi əlaqələrimizin inkişafı haqqında söhbət edə biləcəyik. Lakin, ilk növbədə, demək istəyirəm ki, bizim dövlətlərarası münasibətlərimiz həqiqətən yüksələn xətlə inkişaf edir. Mən iqtisadi sahədə nail olduğumuz inkişaf sürətinə ən yüksək qiymət verərdim, elə siyasi sahədə də biz daim əlaqə saxlayırıq.

Bildiyiniz kimi, bu yaxınlarda biz Sizin atanızın - Azərbaycan Prezidentinin, keçmiş Sovet İttifaqının və Azərbaycan Respublikasının görkəmli dövlət xadiminin 85 illik yubileyini birlikdə qeyd etdik. Xatırlatmaq istəyirəm ki, Sizin atanız dövlətlərarası münasibətlərimizin inkişafına çox böyük töhfə vermişdir. Biz çox ümid edirik ki, vaxtilə əvvəlki Prezident tərəfindən təməli qoyulmuş müsbət işlər bu gün də, gələcəkdə də çoxalacaqdır.

Mən bunu yaxşı bilirəm və biz görürük ki, son illərdə Azərbaycanın xarici siyasətinin Rusiya istiqamətində varislik təmin edilmişdir və biz belə hesab edirik ki, siyasi səviyyədə toplanmış müsbət nə varsa, qarşılıqlı iqtisadi əlaqələrə çevrilməlidir. İndi dünya maliyyə bazarlarında, dünya iqtisadiyyatında rəqabətin kifayət qədər geniş miqyas aldığını gördüyümüz bir vaxtda bu, xüsusilə aktualdır.

Hazırda dünya bazarlarından alınan məlumatlar sadəcə olaraq təşviş doğurur. Biz həmin bazarlarda nələr baş verdiyini görürük. Qərbin demək olar ki, bütün bazarlarında tənəzzül müşahidə olunur. Bu, heç şübhəsiz, bizim iqtisadiyyata da bu və ya digər dərəcədə təsir göstərir, çünki iqtisadiyyatımız qlobal dünya iqtisadiyyatının tərkib hissəsidir. Lakin Rusiyanın Azərbaycan üçün olduğu kimi, Azərbaycan də bizim üçün həmişə etibarlı tərəfdaş olmuşdur və belə olaraq qalır. Sizə demək istəyirəm ki, dünya iqtisadiyyatında baş verən bu mürəkkəb hadisələrdən biz sakit ötüşəcəyik. Rusiyanın maliyyə bazarlarında likvidliyi dəstəkləmək üçün təkcə bu gün Maliyyə Nazirliyi 150 milyard rubl, Mərkəzi Bank isə 325 milyard rubl yerləşdirmişdir. Maliyyə Nazirliyi sabah yerləşdiriləcək məbləği iki dəfədən çox artıraraq, 350 milyard rubla çatdırmaq niyyətindədir. Hazırda maliyyə naziri və Mərkəzi Bankın sədri Rusiyanın ən iri banklarının rəhbərləri ilə gələcək birgə fəaliyyəti müzakirə edirlər. Biz şübhə etmirik ki, son illərdə Rusiya iqtisadiyyatında yaradılmış təhlükəsizlik "yastıqları" öz səmərəsini verəcəkdir. Hazırda biz Mərkəzi Bank tərəfindən uzunmüddətli təsir vasitələrinin tətbiq edilməsinin mümkünlüyünü də öyrənirik. Bizim bu cür praktikamız var. Biz səliqə ilə, düşünülmüş şəkildə hərəkət edəcəyik.

Mən Azərbaycan iqtisadiyyatındakı müsbət artım meyillərini nəzərə alaraq bilirəm ki, bu, nəinki MDB məkanı üçün, hətta dünya miqyasında rekorddur - keçən il Azərbaycan iqtisadiyyatında 25 faiz, bu il 18 faiz artım olmuşdur. Bizdə bu ilin birinci yarısında iqti-

sadi artım 8 faiz, bütövlükdə keçən il 8,1 faiz olmuşdur. Bu, sabitlik elementidir və biz, əlbəttə, ondan istifadə etməliyik. Təbii ki, bu şəraitdə Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr arasında iqtisadi münasibətlərə tələbat daha çoxdur, kooperasiyanın dərinliyi və bizim qarşılıqlı əlaqələrimizin dərəcəsi bunu tələb edir. Sizi görməyimizə çox şadıq. Zənnimcə, lazımi vaxtda biz Moskvada görüşəcəyik.

Prezident İLHAM ƏLİYEV Rusiya hökumətinin başçısına müraciətlə dedi:

- Sağ olun, Vladimir Vladimiroviç. Mən də Sizi görməyimə və ikitərəfli münasibətlərimiz, regional əməkdaşlıq haqqında, eləcə də ölkələrimizin iqtisadi uğurları və yeni birgə layihələrin imkanları barədə bir daha fikir mübadiləsi aparmaq imkanına görə çox şadam.

Sizin qeyd etdiyiniz kimi, ölkələrimiz arasında münasibətlər çox müsbət şəkildə inkişaf edir. Biz bunu çox yüksək qiymətləndiririk. Onu da qeyd etmək istərdim ki, ölkələrimiz arasında müasir münasibətlərin əsasını Siz və Azərbaycan Prezidenti Heydər Əliyev qoymuşsunuz. Mən bunu çox yaxşı xatırlayıram. Sizin ilk görüşünüz, sonra isə Sizin Azərbaycana səfəriniz - bu, Rusiya Prezidentinin bizim ölkəyə ilk rəsmi səfəri idi, - ölkələrimiz arasında münasibətlərin inkişafının əsas mərhələləri oldu, bundan sonra biz çox böyük tərəqqinin şahidi olduq. İndi, o vaxtdan 8 il keçəndən sonra biz Rusiya ilə Azərbaycan arasında bütün sahələri əhatə edən, çox dinamik inkişaf edən münasibətlərin bütün bəhrələrindən istifadə edirik. Əlbəttə, Moskvada Heydər Əliyevin xatirəsinə göstərilən münasibət - onun yubileyinin keçirilməsi, eləcə də Baykal-Amur dəmir yolunun stansiyalarından birinə onun adının verilməsi, bununla əlaqədar çox səmimi mərasim keçirilməsi Azərbaycanda bizim hamımız üçün çox dəyərlidir. Bütün bunlar Azərbaycanda çox yüksək qiymətləndirilir.

Bizim ölkələr arasında münasibətlər təkcə siyasi maraqlar xarakteri daşımır, bu münasibətlər həm də çox səmimi, ürəkdən gələn münasibətlərdir və münasibətlərimizin tarixini və xalqlarımızın yanaşı yaşamaq ənənələrini əks etdirir. Əminəm ki, gələcəkdə biz birgə səylərimizlə bu münasibətləri daha da genişləndirəcəyik. Bizim aramızda çox fəal siyasi dialoq var. Sizinlə çoxsaylı görüşlərimizi xatırlayıram. Bu gün Rusiya siyasətində də Azərbaycana münasibətdə varislik qorunub saxlanır. Ona görə də biz paralel yollarla gedirik və bu, bizim uğurlarımızın rəhnidir.

İndi Rusiya da, Azərbaycan da postsovet məkanında siyasi proseslər, iqtisadi nailiyyətlər baxımından ən dinamik inkişaf edən ölkələrdir. Son beş ildə Azərbaycanda iqtisadiyyatın həcmi 2,7 dəfə artmışdır. Əlbəttə, artmaqda olan bu potensial əməkdaşlığı daha da dərinləşdirməyə imkan verir. Biz buna çox ümid bəsləyirik və mən əminəm ki, qarşılıqlı siyasi əlaqələrin hazırda mövcud olan və möhkəmlənən səviyyəsi yeni iqtisadi təşəbbüslər üçün yaxşı zəmin yaradır. Əlbəttə, Sizin qeyd etdiyiniz kimi, dünya maliyyə bazarlarında yaranmış mürəkkəb şəraitdə biz bu məqamları nəzərə almalı, əməkdaşlığın potensialını təshih etməli və artırmalıyıq. Bu il əmtəə dövriyyəmiz çox böyük sürətlə, 50 faizdən çox artmışdır, özü də onun strukturu yaxşılığa doğru dəyişir. Bütün bunlar onu göstərir ki, iki ölkə arasında münasibətlər qarşılıqlı maraqlar, dostluq, mehriban qonşuluq əsasında qurulursa, bu münasibətlər proqnozlaşdırıla bilirsə, iqtisadi inkişafla bağlı bütün məsələlər daha uğurla həll edilir. Buna görə də münasibətlərimizin mövcud səviyyəsi məni çox sevindirir və ümid edirəm ki, bu münasibətlər bütün istiqa-

mətlər üzrə genişlənəcək, şəxsi planda isə Sizinlə yenidən görüşəcəyik.

VLADİMİR PUTİN: Gərək ki, sizdə ikiqat profisit yaranmışdır - həm büdcədə, həm də ticarətdə, eledirmi?

İLHAM ƏLİYEV: Elədir, çox böyük profisit yaranmışdır. Son beş il yarımda büdcəyə daxilolmalar 15 dəfə artmışdır, büdcənin xərcləri də sürətlə artır. Təbii ki, bu vəziyyət inflyasiyaya mənfi təsir göstərir, lakin bu, bizim iqtisadi artım üçün ödədiyimiz qiymətdir və hesab edirəm, bu meyillər gələcəkdə də davam edəcəkdir. Əlbəttə, ÜDM-in 35 faiz və 25 artması yəqin ki, artıq tarixə çevrilmişdir, lakin artımın keyfiyyəti bizim maraqlarımıza daha çox uyğun gələcəkdir. Biz gələcəyə nikbin baxırıq - həm iqtisadi təşəbbüslər çərçivəsində, həm də ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından.

Sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti ilə Moskvaya işgüzar səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ BAŞÇISI ANDRES HERKELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda keçiriləcək prezident seçkilərinin müşahidə olunması üzrə Xüsusi Komitəsinin seçkiqabağı missiyasının başçısı Andres Herkelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikasında qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

BRÜSSELDƏ AZƏRBAYCANIN NATO İLƏ ƏMƏKDAŞLIĞI ÜZRƏ FƏRDİ TƏRƏFDAŞLIĞIN ƏMƏLİYYAT PLANININ YERİNƏ YETİRİLMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR GÖRÜŞ KEÇİRİLMİŞDİR

Sentyabrın 17-də NATO-nun Brüsseldəki qərargahında Azərbaycanın NATO ilə əməkdaşlığı üzrə Fərdi tərəfdaşlığın əməliyyat planının yerinə yetirilməsinin qiymətləndirilməsinə dair "26+1" formatında görüş keçirilmişdir.

NATO-nun Şimali Atlantik Şurası çərçivəsində keçirilmiş görüşdə Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinə müdafiə, milli təhlükəsizlik, fövqəladə hallar nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüksək vəzifəli əməkdaşları daxil idilər.

Görüşdə Elmar Məmmədyarov Azərbaycan Respublikası tərəfindən planın yerinə yetirilməsi səviyyəsi və bu sahədə əldə olunan nailiyyətlər barədə məlumat vermişdir. Nazir çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə də toxunaraq, bu münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunа biləcəyini vurğulamışdır. Sonra o, NATO-ya üzv ölkələrin səfirlərinin suallarına cavab vermişdir.

NATO-ya üzv ölkələrin səfirləri Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəklədiklərini bildirmişlər. Bir sıra rəsmilər Azərbaycanın strateji dövlət olduğunu vurğulayaraq, münasibətlərin inkişafında maraqlı olduqlarını qeyd etmişlər.

Azərbaycan nümayəndə heyəti başçısının alyansın baş katibi Yaap de Hoop Sxeffer ilə görüşündə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi, planın yerinə yetirilməsi, Dağlıq Qarabağ münaqişəsi, regionda ümumi təhlükəsizlik vəziyyəti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Brüsselə səfəri çərçivəsində nazir E.Məmmədyarov Avropa Komissiyasının Xarici əlaqələr və Avropa qonşuluq siyasəti üzrə komissarı xanım Benita Ferrero-Valdner ilə də görüş keçirmişdir. Görüşdə Avropa qonşuluq siyasəti çərçivəsində Avropa İttifaqı-Azərbaycan fəaliyyət planının həyata keçirilməsi məsələsini, ikitərəfli münasibətləri, regional prosesləri, Dağlıq Qarabağ münaqişəsi, enerji təhlükəsizliyi və digər məsələləri müzakirə etmişlər.

Nazir E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin mümkün olduğunu söyləmişdir. Xanım Benita Ferrero-Valdner Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəklədiyini bildirmişdir.

E.Məmmədyarov Azərbaycan vətəndaşları üçün Avropa İttifaqı ölkələrinə viza rejiminin sadələşdirilməsi məsələsini qaldırmışdır. Benita Ferrero-Valdner təklifi müsbət qarşılamış və onun üzərində işləyəcəklərini vəd etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, regionda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və regionda vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCANIN REGİONDA ROLUNU YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 18-də Londonda Britaniyanın xarici işlər naziri Devid Miliбendlə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında münasibətlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsi məsələlərinə dair fikir mübadiləsi aparılmışdır. Tərəflər siyasi, iqtisadi, mədəni və digər sahələrdə münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluqlarını bildirmişlər. Regional məsələlər ətrafında müzakirələr aparılmış və E.Məmmədyarov Türkiyənin təklif etdiyi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Platformasının əhəmiyyətini vurğulamışdır.

Enerji məsələlərindən, Avropa İttifaqının bu sahədə fəaliyyətindən danışan britaniyalı nazir, Azərbaycanın regionda rolunu yüksək qiymətləndirmiş və ölkəsinin şirkətləri üçün Azərbaycanda yaradılmış şəraitə görə təşəkkür etmişdir.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat vermiş, problemin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkünlüyünü diqqətə çatdırmışdır.

Elə həmin gün nazir E.Məmmədyarov Böyük Britaniyanın aparıcı tədqiqat mərkəzlərindən sayılan Beynəlxalq Strateji Araşdırmalar İnstitutunda "Azərbaycanın xarici siyasətinin perspektivləri" mövzusunda çıxış etmişdir. Tədbirdə Londonda akkreditə olunmuş bir sıra xarici ölkə səfirliklərinin, tədqiqat mərkəzləri və elmi dairələrin nümayəndələri, özəl sektorun təmsilçiləri və jurnalistlər iştirak etmişlər. Nazir ölkəmizin xarici siyasətinin ümumi istiqamətləri, qarşıda duran əsas problemlər, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında mövcud vəziyyət barədə geniş məlumat vermiş və münaqişənin həllinin regional təhlükəsizliyin təmin olunması üçün zəruri amil olduğunu qeyd etmişdir. Azərbaycanda həyata keçirilən islahatlar haqqında da danışan E. Məmmədyarov ölkəmizin regionda lider dövlətə çevrildiyini və islahatların davam etdirildiyini vurğulamışdır. O, Dünya Bankının son hesabatında Azərbaycanın biznes mühitinin əlverişliliyi üzrə ən aparıcı islahatçı ölkə olduğunu auditoriyanın diqqətinə çatdırmış, sualları cavablandırmışdır.

Nazir LİNKS qeyri-hökumət təşkilatının icraçı direktoru Dennis Sammut və "Reconciliation Resources" təşkilatının layihə rəhbəri Tomas de Val ilə də görüşmüşdür. Bu görüşdə regional məsələlər və xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Daha sonra nazir E.Məmmədyarov Böyük Britaniyada fəaliyyət göstərən aparıcı diaspor təşkilatlarının nümayəndələri ilə görüş keçirmişdir. Görüşdə Azərbaycanın xarici siyasəti, onun inkişaf istiqamətləri, regionda baş verən hadisələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların son vəziyyəti ilə bağlı fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV LONDONDA BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov Böyük Britaniyaya işgüzar səfəri çərçivəsində Xarici İşlər Nazirliyində bu ölkənin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ser Brayn Fol ilə görüşmüşdür.

Görüşdə enerji, regional və beynəlxalq vəziyyət, qarşılıqlı əlaqələr ətrafında müzakirələr aparılmışdır.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat vermiş və münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü vurğulamışdır.

Brayn Fol Cənubi Qafqaz regionunda mövcud münaqişələrin ölkələrin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamış və bunun regionda sabitliyin və rifahın bərqərar olmasına təkan verəcəyini qeyd etmişdir.

TÜRKİYƏ VƏ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Nyu-Yorkdakı "Türk evi"ndə Türkiyə və Azərbaycanın xarici işlər nazirləri Əli Babacan və Elmar Məmmədyarovun görüşü olmuşdur.

Türkiyə XİN-in mətbuat katibi Burak Özügərgi bildirmişdir ki, bu görüş Cənubi Qafqazda mühüm hadisələrin cərəyan etdiyi bir vaxtda keçirilmişdir. Rəsmi Ankara Gürcüstanda həyatın normal məcraya qayıtması, regionda gərginliyin azaldılması, habelə "dondurulmuş" münaqişələrin həlli istiqamətində səylərini davam etdirir.

Görüşdən sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov jurnalistlərə müsahibəsində Türkiyənin bu səylərini yüksək qiymətləndirdiyini bildirmişdir. Azərbaycan xarici siyasət idarəsinin rəhbərinin Əli Babacan və ermənistanlı həmkarı Edvard Nalbandyanla üçtərəfli görüşə də müsbət cavab verdiyi diqqətə çatdırılır.

ELMAR MƏMMƏDYAROV XORVATİYANIN XARİCİ İŞLƏR NAZİRİ QORDON YANDROKOVİÇ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici İşlər naziri E.Məmmədyarov sentyabrın 22-də Nyu-Yorkda xorvatiyalı həmkarı Qordon Yandrokoviç ilə görüşmüşdür. Görüşdə ikitərəfli, beynəlxalq və regional məsələlər müzakirə olunmuşdur.

Regional münaqişələr haqqında danışan E.Məmmədyarov, onların "dondurulmuş" olmadığını, regional təhlükəsizlik üçün təhdid yaratdığını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkün olduğunu vurğulamışdır. Xorvatiya rəsmisi ölkəsinin Azərbaycanın bu mövqeyini dəstəklədiyini yenidən təkrarlamışdır.

Xorvatiyalı nazir ikitərəfli iqtisadi əlaqələrin genişləndirilməsinin vacibliyini bildirmiş.

Azərbaycanda ÜDM-in artımı və digər göstəricilər barəsində məlumatların sevindirici olduğunu söyləmişdir.

E.Məmmədyarov həmin gün Lüksemburqun xarici işlər və immiqrasiya naziri Jan Asselborn ilə də görüşmüşdür. Söhbət zamanı beynəlxalq, enerji və bir sıra digər məsələlər müzakirə olunmuş, regional sabitliyin bərqərar olması üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyi vurğulanmışdır. Türkiyənin təklif etdiyi "Qafqazda Təhlükəsizlik və İnkişaf Platformasının" maraqlı və müsbət təşəbbüs olduğu bildirilmişdir.

Nazir, həmçinin Gürcüstanın xarici işlər naziri Yekaterine Tkeşelaşvili ilə də görüşmüşdür. E.Məmmədyarov regionda təhlükəsizliyin və sabitliyin bərqərar edilməsinin bütün region ölkələrinin maraq dairəsində olduğunu demişdir. Regional münaqişələrin həllinin vacibliyi vurğulanmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin Cənubi Qafqazda müsbət şəraitin yaradılmasına əhəmiyyətli töhfə verəcəyi qeyd edilmişdir. Görüşdə, həmçinin iki ölkə arasında enerji və nəqliyyat layihələri, bu sahədə mövcud vəziyyət də müzakirə olunmuşdur.

E.Məmmədyarov Amerika Yəhudi Komitəsinin (AYK) üzvləri ilə də görüşmüş, ikitərəfli, beynəlxalq və regional məsələləri müzakirə etmişdir. AYK nümayəndələri bu yaxınlarda Azərbaycana səfərlərini xatırladaraq, ölkədən xoş təəssüratlarla qayıtdıqlarını qeyd etmişlər.

Günün axırında Elmar Məmmədyarov Ukrayna xarici işlər naziri Vladimir Oqrızko ilə görüşmüşdür. Söhbət zamanı ikitərəfli, regional, beynəlxalq, GUAM çərçivəsində əməkdaşlıq, həmçinin, birgə fəaliyyət və enerji məsələlərdən danışılmışdır.

BMT Baş Məclisinin 63-cü sessiyasında müzakirə olunacaq məsələlər və qəbul ediləcək sənədlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

E.Məmmədyarov ABŞ Prezidenti Corc Buş və xanımı Lora Buş tərəfindən verilən ziyafətdə iştirak etmişdir.

NYU-YORKDA GUAM XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 63-cü sessiyasının ümumi müzakirələrində iştirak etmək məqsədi ilə Nyu-York şəhərində işgüzar səfərdədir.

E.Məmmədyarov səfər çərçivəsində GUAM xarici işlər nazirlərinin iclasında iştirak etmişdir.

Nazirlər GUAM çərçivəsində siyasi və iqtisadi əməkdaşlıq, eyni zamanda, praktiki layihələrin yerinə yetirilməsini müzakirə etmişlər. Görüşdə GUAM-ın fərdi dövlətlər və digər beynəlxalq təşkilatlarla əməkdaşlığının hazırkı vəziyyəti və gələcək əməkdaşlıq potensialı ətrafında fikir mübadiləsi aparılmış, GUAM Katibliyinin fəaliyyəti və onun daha da təkmilləşdirilməsi müzakirə edilmişdir.

ABŞ dövlət katibinin müavini Deniel Fridin təmsilçiliyi ilə GUAM+ABŞ formatında da

görüş keçirilmişdir. Tərəflər GUAM+ABŞ praktiki əməkdaşlığını və layihələri müzakirə etmişlər.

E.Məmmədyarov, həmçinin Rumıniyanın xarici işlər naziri Lazar Komenesku ilə də görüşmüşdür. Görüşdə regional vəziyyət, Türkiyənin təklif etdiyi Qafqazda Təhlükəsizlik və İnkişaf Platforması, enerji və ikitərəfli məsələlər müzakirə edilmişdir. Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışmışdır. Rumıniya rəsmisi regional münaqişələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının zəruriliyini vurğulamışdır. Görüşdə Rumıniyanın GUAM-la əməkdaşlığı da müzakirə movzusu olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Rusiya Federal Məclisi Federasiya Şurasının sədr müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Svetlana Orlova ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndiyini, Azərbaycan qadınlarının üçüncü qurultayında iştirak etmək üçün ölkəmizə səfərindən məmnunluğunu vurğuladı. Qonaq Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva ilə görüşü zamanı qadın problemləri, elm, təhsil və digər sahələrdə görülən işlərlə bağlı səmərəli fikir mübadiləsi apardığını bildirdi. S.Orlova Fondun təşəbbüsü ilə ölkəmizdə yüzlərlə yeni məktəb binasının inşa olunmasının çox önəmli olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan qadınlarının üçüncü qurultayının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev son illər ölkəmizdə qadın problemləri, elm və təhsil sahələri ilə bağlı çox böyük işlərin görüldüyünü bildirdi.

Dövlətimizin başçısı qonağın ölkəmizə bu səfərinin Azərbaycan-Rusiya münasibətlərinin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ MEHMET ƏLİ ŞAHİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyənin ədliyyə naziri Mehmet Əli Şahini qəbul etmişdir.

Mehmet Əli Şahin 2006-cı ildə Azərbaycana ilk səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladı. O, iki ölkənin ədliyyə nazirlikləri arasında sıx əlaqələr qurulduğunu bildirdi, bu əlaqələrin daha da möhkəmlənməsi üçün qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə sürətlə inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ədliyyə

nazirlikləri arasında əlaqələrin genişlənməsinin əhəmiyyətindən danışaraq əminliklə bildirdi ki, bu səfər həm nazirliklərin əməkdaşlığının, həm də ölkələrimizin ümumi əlaqələrinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

NYU-YORKDA GUAM+ABŞ BİRGƏ BƏYANATI QƏBUL EDİLMİŞDİR

Nyu-Yorkda BMT Baş Məclisinin 63-cü sessiyası çərçivəsində GUAM Xarici İşlər Nazirləri Şurası+ABŞ formatında təşkilatın 14-cü iclası keçirilmişdir. İclasda GUAM-+ABŞ birgə bəyanatı qəbul edilmişdir.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətimdən bildirmişlər ki, tərəflər GUAM+ABŞ siyasi dialoqunun ardıcıl və davamlı xarakter daşıdığını bir daha bəyan etmişlər.

Bəyanatda deyilir ki, iclasda regiondakı vəziyyət, BMT Baş Məclisinin 63-cü sessiyasının gündəliyinin 13-cü bəndi - "GUAM məkanında həlli uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsiri" ilə bağlı birgə səylərə dair fikir mübadiləsi aparılmışdır.

Tərəflər, GUAM ərazisində həlli uzanan münaqişələrin təşkilata üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq miqyasda tanınmış sərhədlərin toxunulmazlığı prinsipi, eləcə də beynəlxalq hüququn digər prinsipləri əsasında həll edilməsi istiqamətində beynəlxalq ictimaiyyətin öz səylərini daha da artıracağına əminliklərini ifadə etmişlər.

İclasda bu ilin iyulun 1-də Batumidə 3-cü GUAM sammiti çərçivəsində GUAM+ABŞ formatında keçirilmiş görüşdən sonrakı əməkdaşlıq qiymətləndirilmiş və 2008-2009-cu illərdə insan alveri, qanunsuz miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə, GUAM Dövlətlərarası İnformasiya-Təhlil Sisteminin milli bəndlərinin müasirləşdirilməsi sahələrində birgə layihələrin həyata keçirilməsinin davam etdirilməsi barədə razılığa gəlinmişdir.

Tərəflər, həmçinin GUAM+ABŞ çərçivə proqramının ticarət və nəqliyyat sahələrində layihələrinin gerçəkləşdirilməsində əməkdaşlıq, sərhədlərin mühafizəsi, gömrük nəzarəti, terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotikla alveri ilə mübarizə, GUAM nəqliyyat dəhlizinin təhlükəsizliyinin təmin edilməsi üçün üzv ölkələrin sərhəd xidmətlərinə kömək məqsədi ilə sərhəd əməkdaşlığı sahəsində yeni layihələrə dair fikir mübadiləsi aparmışlar.

İclas iştirakçıları ABŞ-ın təşkilata, eləcə də onun Katibliyinə göstərdiyi texniki yardımı yüksək qiymətləndirmişlər.

Bəyanatda deyilir ki, iclasda GUAM+ABŞ formatında növbəti görüşün dekabrın əvvəlində Helsinkidə ATƏT Nazirlər Şurası çərçivəsində keçirilməsi barədə razılıq əldə edilmişdir.

AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Sentyabrın 24-də Nyu-Yorkda Xarici İşlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət Departamentinin insan alveri ilə mübarizə üzrə ofisinin müdiri səfir Mark Laqon ilə görüşmüşdür.

Görüşdə insan alveri ilə mübarizə sahəsində Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Nazir Azərbaycanda miqrasiya sahəsində aparılan işlərdən danışmış və bildirmişdir ki, bu məsələ ilə bağlı qanunlar qəbul olunmuş, Dövlət Miqrasiya Xidməti yaradılmışdır.

ABŞ tərəfi ölkəsinin bu sahədə təcrübəsini Azərbaycanla bölüşməyi vəd etmişdir.

E.Məmmədyarov həmin gün Avropa Şurası və İqtisadi Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin görüşlərində də iştirak etmişdir.

NYU-YORKDA AZƏRBAYCAN, TÜRKİYƏ VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 26-da Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri və ermənistanlı həmkarı E.Nalbandyanla görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur. Tərəflər qeyd etmişlər ki, regionda baş verən son hadisələrdən sonra danışıqlar prosesinin fəallaşdırılmasına ehtiyac vardır.

Nazir E.Məmmədyarovun, ermənistanlı həmkarı ilə təkbətək görüşü də olmuşdur. Sonra Azərbaycan, Türkiyə və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçirilmişdir. Tərəflər Türkiyənin təklif etdiyi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Platformasını müzakirə etmişlər. Regionda uzunmüddətli sabitliyin bərqərar olması üçün platformanın əhəmiyyəti yüksək qiymətləndirilmiş və bölgədə təhlükə və təhdidlərin mövcudluğu qeyd edilmişdir. Görüşdən sonra nazirlər mətbuat üçün qısa açıqlamalar vermişlər.

Həmin gün nazir Elmar Məmmədyarov və Meksikanın xarici işlər naziri Patrisiya Espinoza Azərbaycan Respublikası Hökuməti və Meksika Birləşmiş Ştatları Hökuməti arasında diplomatik pasporta malik vətəndaşların vizadan azad olunması haqqında Saziş imzalamışlar. Nazirlər regional, beynəlxalq və enerji məsələlərini müzakirə etmişlər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA ABŞ-IN DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Sentyabrın 27-də Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda ABŞ-ın dövlət katibi Kondoliza Raysla görüşmüşdür.

Görüşdə ikitərəfli siyasi, iqtisadi və digər məsələlər müzakirə olunmuşdur. Regional və beynəlxalq vəziyyət haqqında danışan diplomatlar sülh və sabitliyin bərqərar olmasının vacibliyini qeyd etmişlər. Xanım Rays Azərbaycanın regionda vacib rol oynadığını bildirmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələ də müzakirə edilmişdir. Azərbaycanın xarici siyasət idarəsinin başçısı münaqişənin yalnız beynəlxalq hüquq norma və prinsipləri, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü vurğulamışdır.

Tərəflər enerji və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN 63-CÜ İCLASINDA ÇIXIŞ ETMİŞDİR

"Hazırda regionda narahatçılığa səbəb vəziyyət hökm sürür və Azərbaycan gərginliyin azaldılması üçün səylərini davam etdirir. Biz inanırıq ki, regionda mübahisə yaradan məsələlər beynəlxalq hüquq norma və prinsiplər, habelə qarşılıqlı hörmət əsasında dialoq vasitəsilə tez bir zamanda dinc yolla nizamlanacaqdır."

Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 27-də Nyu Yorkda BMT Baş Məclisinin 63-cü iclasında çıxışında bildirmişdir.

Cənubi Qafqaz regionundakı münaqişələrə toxunan Elmar Məmmədyarov demişdir ki, Gürcüstan hadisələri GUAM ərazisində mövcud olan münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qeyri-sabitliyin əsas mənbəyi olaraq qaldığını göstərdi. Bu münaqişələrin mövcudluğu beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yaratmaqla yanaşı, Avropa və Asiyanın qovuşuğunda yerləşən bu strateji əhəmiyyətli regionun potensialından lazımi qədər istifadə etməyə mane olur. GUAM ərazisindəki münaqişələrin həlli üzv ölkələrlə yanaşı, bütün regionun sabitliyinə və təhlükəsizliyinə töhfə verəcəkdir.

Beynəlxalq təhlükəsizlik sistemində BMT-nin fəaliyyətindən danışan Elmar Məmmədyarov demişdir ki, dünyada sülhə təhlükə yaradan problemlərə yanaşmada BMT Təhlükəsizlik Şurasının üzvləri arasında anlaşılmazlıq olursa bu, ümumi təhlükəsizliyə və BMT-nin etibarına ciddi təsir göstərir. Hər bir ölkə BMT Nizamnaməsini beynəlxalq münasibətlər sistemində vahid sənəd kimi qəbul etməlidir.

Azərbaycanın xarici işlər naziri BMT Baş Məclisinin siyasi orqan kimi rolunun artırılmasının vacibliyini vurğulamışdır. Yalnız Baş Məclisin səlahiyyətlərinin genişləndirilməsindən sonra dünya dövlətləri bəşəriyyətin üzləşdiyi ciddi məsələləri həll edə bilər.

E.Məmmədyarov Türkiyənin təşəbbüskarı olduğu Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının regional təhlükəsizlik sisteminin qurulması baxımından əhəmiyyətli olduğunu demişdir.

Nazir qeyd etmişdir ki, Ermənistan işğalı etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çıxarması və Azərbaycanın bu ərazilərdə suverenliyinin tam bərpası regionda əməkdaşlığın və yaxşı qonşuluq münasibətlərinin yaranması üçün ilkin vacib şərtdir. Dağlıq Qarabağda və onun ətrafında hərbi münaqişənin tez bir zamanda nizamlanması Azərbaycan dövlətinin qarşısında duran ən başlıca vəzifədir. Azərbaycan hökuməti münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, BMT Baş Məclisinin qətnamələri və ATƏT-in sənədləri əsasında dinc yolla nizamlanmasına sadiq qalır. Azərbaycan danışıqlar prosesinin sürətləndirilməsi məqsədilə Baş Məslisin 62-ci iclası zamanı "Azərbaycanən işğal altında olan ərazilərində vəziyyət" adı altında məsələni gündəliyə salmaqla bağlı təşəbbüs göstərdi. Baş Məclis məsələni geniş müzakirə etdi və müvafiq qətnamə qəbul olundu. Bu sənəd Azərbaycan Respublikasının suverenliyinə, onun beynəlxalq səviyyədə tanınmış sər-

hədləri çərçivəsində ərazi bütövlüyünə Baş Məclisin hörmətini, eyni zamanda Ermənistan qüvvələrinin Azərbaycanın işğal altında olan bütün torpaqlarından çıxarılması tələbini bir daha təsdiq etdi. Qətnamə bir daha təsdiq etdi ki, heç bir dövlət nə Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranan vəziyyəti hüquqi tanıya, nə də vəziyyətin belə qalmasına kömək edə bilər. Bu, işğal edilmiş Azərbaycan ərazilərindən didərgin düşmüş insanların yurd-yuvalarına qayıtma hüququnu tanımaqla yanaşı, onların qayıtması üçün lazım olan şəraitin yaradılmasının, o cümlədən zərər çəkmiş ərazilərin bərpasının vacibliyini beynəlxalq aləmin diqqətinə çatdırdı. Məclis Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni və azərbaycanlı icmalarının normal, təhlükəsiz və bərabərhüquqlu həyat şəraitinin təmin edilməsinin vacibliyini tanıdı. Bu, Azərbaycan Respublikası daxilində effektli demokratik özünü idarəetmə sisteminin yaradılmasına imkan verir. Qətnamədə göstərilən prinsiplər danışıqlar prosesində əsas kimi götürüləcəkdir.

Nazir Məmmədyarov bildirmişdir ki, son illər Azərbaycan təhlükəsizlik, enerji, kommunikasiya və iqtisadi əməkdaşlıqla bağlı layihələri dəstəkləməklə regionda sabitliyin gücləndirilməsinə böyük töhfələr vermişdir. Xəzər dənizinin karbohidrogen ehtiyatlarının hasilatı və beynəlxalq bazarlara təhlükəsiz daşınması Azərbaycanın xarici və iqtisadi siyasətinin başlıca amillərindən birinə çevrilmişdir. Biz regionda və dünyada enerji təhlükəsizliyini və iqtisadi inkişafı təmin edəcək strategiyanın reallaşmasını bundan sonra da davam etdirəcəyik. Digər bir strateji əhəmiyyət daşıyan layihə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşasıdır. Bu xətt Avropa və Asiya arasında yeni və səmərəli nəqliyyat dəhlizi yaradacaqdır.

Azərbaycanın sürətli iqtisadi inkişafından danışan E.Məmmədyarov qeyd etmişdir ki, ÜDM artımına görə ölkəmiz dünyada yüksək yerlərdən birini tutur. Bu ilin 9 ayının yekunlarına görə ÜDM-in artım tempi 18 faiz olmuşdur. Beynəlxalq maliyyə institutlarının proqnozlarına görə, bu artım tempi öz dinamikasını növbəti illərdə də saxlayacaqdır. Dünya Bankının və Beynəlxalq Maliyyə Korporasiyasının 181 ölkə haqqında hazırladığı "Doing Business-2009" illik hesabatına görə Azərbaycan keçən ildən bəri biznes şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi islahatların nəticələri üzrə liderdir. Biz inanırıq ki, bu faktorlar ölkənin sosial və iqtisadi inkişafını dəstəkləyəcək maliyyə resurslarının cəlb olunması üçün olduqca vacibdir. Bundan başqa, Azərbaycan Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün tədbiqində də iderdir. Azərbaycanın bununla bağlı hazırladığı qətnamə layihəsinin BMT Baş Məclisi tərəfindən səsə qoyulmadan qəbul edilməsi ölkəmizin səylərinin dünyada bəyənilməsini göstərir.

İnsan hüquqlarının qorunmasında Azərbaycanın BMT-nin aidiyyatı qurumları ilə fəal əməkdaşlığına toxunan nazir bidirmidir ki, Azərbaycan müxtəlif beynəlxalq təşkilatların üzvü kimi demokratiya, qanunun aliliyi və insan hüquqlarının inkişafına dair götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Biz inanırıq ki, ölkədə aparılan ardıcıl islahatlar və təhsilə qoyulan sərmayələr hesabına Azərbaycan uzun müddətli sabitliyə və tərəqqiyə nail olacaqdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV NYU-YORKDA TÜRKMƏNİSTANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 29-da Nyu-Yorkda Türkmənistanlı həmkarı Rəşid Meredovla görüşmüşdür.

XİN-nin mətbuat xidmətindən bildirmişlər ki, görüşdə ikitərəfli siyasi, iqtisadi əlaqələrin perspektivləri, beynəlxalq, regional və enerji məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün E.Məmmədyarov Azərbaycanın ABŞ-dakı diplomatik nümayəndəliklərinin rəhbərləri də görüşmüşdür. ABŞ-dakı səfir Yaşar Əliyev, BMT yanında daimi nümayəndəliyin rəhbəri Aqşin Mehdiyev və Los-Ancelesdəki baş konsul Elin Süleymanovun iştirak etdiyi bu görüşdə gələcək planlar müzakirə edilmiş, E. Məmmədyarov onları təlimatlandırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CON NEQROPONTENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də ABŞ dövlət katibinin müavini Con Neqropontenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında əməkdaşlıq münasibətlərinin bugünkü vəziyyəti, inkişaf istiqamətləri və gələcək perspektivləri, habelə bir sıra beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır. İkitərəfli əlaqələrin səviyyəsindən razılıq ifadə olunmuş və bu əlaqələrin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanmışdır.

Con Neqroponte Azərbaycana ilk dəfə səfər etdiyini və səfər müddətində artıq Səngəçal terminalında olduğunu bildirmişdir. Dövlət katibinin müavini bu terminalın, eləcə də paytaxtda müşahidə etdiyi quruculuq işlərinin və inkişafın onda yüksək təəssürat yaratdığını söyləmişdir.

ERMƏNİSTANIN TƏCAVÜZKAR SİYASƏTİ BÜTÜN REGİONUN İNKİŞAFINA ZƏRBƏ VURUR

Oktyabrın 2-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Norveç Krallığının xarici işlər nazirinin müavini Raymond Yohansen ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən bildirmişlər ki, görüşdə tərəflər ölkələrimiz arasında əlaqələrin hazırkı səviyyəsindən, xüsusən də enerji sahəsində əməkdaşlıqdan razılıqlarını ifadə etmişlər.

Nazir E.Məmmədyarov Norveçə səfərini məmnunluqla xatırlayaraq, səfər çərçivəsində səmərəli görüşlər keçirdiyini diqqətə çatdırmışdır.

R.Yohansen hazırkı səfəri çərçivəsində Azərbaycanla Norveç arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, xüsusən informasiya texnologiyaları və təhsil sahəsində

əməkdaşlığın genişləndirilməsi üçün danışıqların aparılacağını, həmçinin XİN-in Diplomatik Akademiyasında görüş keçirəcəyini qeyd etmişdir.

Cənubi Qafqaz regionunda baş verən proseslərdən söz açan R.Yohansen, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin və məcburi köçkünlərin öz torpaqlarına qayıtmasının vacibliyini vurğulamışdır.

Nazir E.Məmmədyarov Ermənistanın təcavüzkar siyasətinin bütün regionun inkişafına zərbə vurduğunu vurğulamış və problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin mümkünlüyünü qeyd etmişdir. Regionda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün Azərbaycanın işğal edilmiş ərazilərinin təcavüzkar qoşunlardan azad edilməsi, məcburi köçkünlərin öz torpaqlarına qaytarılması və həmin ərazilərdə infrastrukturun bərpasının vacibliyini diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının genişlənməsindən məmnunluq ifadə olundu, ölkəmizdə qarşıdan gələn prezident seçkilərinə hazırlıq məsələləri və Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN IV KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da islam ölkələrinin ali təhsil və elm nazirlərinin Bakıda keçirilən IV konfransının iştirakçılarını qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Mən Sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Çox şadam ki, burada əyləşənlərin ölkəmizə səfər etmək imkanı olubdur. Sizlərdən bəziləri burada artıq olublar, lakin konfrans iştirakçılarının bir çoxu Azərbaycana ilk dəfə səfər edirlər.

Eyni zamanda, mən bu cür mühüm tədbiri Azərbaycanda təşkil etdiyinə görə İSESKO-ya və onun baş direktoruna minnətdarlığımı bildirmək istəyirəm. İlk növbədə, belə konfrans iştirakçıların bir-biri ilə görüşməsi və ölkələrimiz arasında münasibətləri möhkəmləndirmək, eləcə də təhsil məsələlərini müzakirə etmək baxımından yaxşı fürsət-

dir. Əminəm ki, konfrans bütün ölkələr üçün çox mühüm olacaqdır, çünki bu, elə bir sahədir ki, biz gələcəkdə əsas diqqəti ona yetirməliyik. Bu, xalqlarımızın, yeni nəsillərin gələcəyidir. İnanıram ki, gələn illər ərzində ölkələrimizin inkişaf səviyyəsi, əsasən, təhsilin səviyyəsindən və insanlarımızın biliklərindən, eləcə də ölkələrimizin inkişafına töhfə vermək qabiliyyətindən asılı olacaqdır.

Bir sözlə, fikrimcə, bu konfransın bir çox mühüm məqamları var. Əlbəttə ki, onlardan birincisi, islam dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsidir. Bu baxımdan, biz Azərbaycanda həmin sahədə öz rolumuzu oynamağa çalışırıq və yəqin siz bilirsiniz ki, Bakıda İKT-nin və müsəlman ölkələrinin müxtəlif sahələrə aid bir sıra beynəlxalq konfransları keçirilmişdir. Biz ölkəmizdə bu cür bir çox digər tədbirləri təşkil etməyə çalışacağıq.

İlk növbədə, bu, sizi görmək üçün münasib fürsətdir. İkincisi isə, ondan ibarətdir ki, Azərbaycan gənc müstəqil dövlətdir və hələ də dünyada tam yaxşı tanınmır. Bunları nəzərə alaraq, daha çox səfərlər və təmaslar bir-birimizi daha yaxından tanımağa imkanlar yaradır.

Biz ölkəmizdə təhsil məsələlərinə xüsusi önəm veririk. Ali və orta təhsil bizim diqqətimiz mərkəzindədir. Dövlət siyasətimizin yaxşı misallarından biri təhsil məqsədləri üçün dövlət xərclərinin artırılmasıdır. Ola bilsin, Siz bu haqda eşitmisiniz. Əgər eşitməmisinizsə, nazir sonra sizə təfərrüatı ilə məlumat verər ki, ötən illər ərzində bu sahədə hansı işlər görülübdür. Təhsil dövlət büdcəmizdəki xərclər siyahısında ikinci yeri tutur. Birinci yeri, əfsuslar ki, hərbi xərclər tutur. Lakin biz bunu etməyə məcburuq, çünki biz müharibə şəraitindəyik. 15 ildən çoxdur ki, ərazilərimiz Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buna görə də, hərbi güc imkanları bizim üçün çox vacibdir.

Dövlət təhsil proqramlarının həyata keçirilməsində üzləşdiyimiz məsələlərdən biri qaçqın və məcburi köçkün uşaqları arasında təhsilin səviyyəsi idi. Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş yeddi rayonumuz tamamilə dağıdılıb, orada bütün orta məktəblər və tarixi abidələr məhv edilibdir. Əlbəttə ki, müharibə, işğal inkişafımıza, xüsusən də qaçqın-köçkün ailələrinin uşaqlarının təhsil səviyyəsinə çox mənfi təsir göstərmişdir. Biz bu məsələni tam ciddiliyi ilə aradan qaldırmalı idik. Qaçqın və məcburi köçkünlərin yeni yaşayış yerlərinə köçürülməsi proqramının birinci mərhələsi tam başa çatdırılmışdır. Biz bütün çadır düşərgələrini ləğv etməyə və qaçqın-köçkünlər üçün yeni evlərin, habelə orta məktəb binalarının tikilməsini nəzərdə tutan layihələri həyata keçirməyə nail olduq. Hər bir yeni salınmış qəsəbədə məktəb tikilmişdir. Beləliklə, Azərbaycanda bütün uşaqların təhsil almaq imkanları var.

Biz çox şadıq və fərəhlənirik ki, uşaqlarımızın hamısı, yəni onların yüz faizi məktəblərdə təhsil alır. Ölkədə savadlılıq, demək olar ki, yüz faizdir. Lakin biz gələcəyə nəzər salmalıyıq. Bu gün dünya dəyişir. Qloballaşma, inteqrasiya prosesləri gedir. Təbii ki, biz də buna hazır olmalıyıq. Hazırda biz kompyuterləşdirmə proqramını həyata keçiririk. Biz informasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetiririk. Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bunun üzərində birgə çalışır. Yəni, nəinki məktəb tikintisi gedir, həm də təhsilin səviyyəsi artır. Bütün bunlar bizim üçün yeni imkanlar açır. Həyata keçirdiyimiz kompyuterləşdirmə proqramı sayəsində biz elə bir

səviyyəyə çatmışıq ki, əvvəllər 1000 məktəbliyə 1 kompyuter düşürdüsə, indi 29 şagirdə 1 kompyuter düşür.

Eyni zamanda, biz öz adət-ənənələrimizi, həyat tərzimizi qoruyub saxlamalıyıq. Qloballaşma prosesi bizim dəyərlərimizə, köklərimizə, tariximizə və gələcəyimizə müdaxilə etməli deyil. Biz ölkəni müasirləşdiririk, şəhərlərimizi yeniləşdiririk. Bütün xalqımız, o cümlədən gənclər üçün mümkün qədər əla şərait yaratmağa çalışırıq. Gənclər ölkəmizdə çoxluq təşkil edir. Biz çalışırıq ki, onların yaxşı təhsil almaq, xaricdə biliklərə yiyələnmək və müasir dünyanı öyrənmək imkanı olsun. Lakin eyni zamanda, biz öz milli köklərimiz, tariximiz, adət-ənənələrimiz və həyat tərzimiz barədə hər zaman düşünməliyik.

Azərbaycan qədim tarixi və zəngin mədəniyyəti olan ölkədir. Lakin müstəqil ölkə kimi tariximiz nisbətən qısadır. Əsrlər boyu biz digər imperiyaların və ölkələrin tərkibində yaşamışıq. Lakin biz milli mənsubiyyətimizi qoruyub saxlaya bilmişik. Bu, bizim milli köklərimizə bağlılığımız sayəsində mümkün olmuşdur. Biz bu haqda daim düşünməliyik. Qloballaşan dünyanın ən qabaqcıl təcrübəsini Azərbaycana gətirmək üçün biz ümumbəşəri dəyərləri bölüşürük, lakin bizim öz dəyərlərimiz, Azərbaycan və islam dəyərlərimiz, ənənəvi dəyərlərimiz də var. Bütün bunlar inkişafımızın əsaslarını təşkil edir.

Mən bir daha demək istəyirəm ki, bütün dövlət proqramlarımızda təhsil əsas prioritet kimi götürülür. Ölkəmizdə həyatın bütün sahələrinə - iqtisadi inkişafa, siyasi islahatlara, sosial sahəyə, infrastruktur layihələrinə aid proqramlarımız var. ÜDM-in və sənaye istehsalının artımı baxımından Azərbaycan son dörd il ərzində dünyada birinci yeri tutur. Bu il Dünya Bankı ölkəmizi dünyada bir nömrəli islahatçı dövlət kimi tanımışdır. Bizim müxtəlif sahələrdə gözəçarpan proqramlarımız var. Əlbəttə ki, müstəqilliyini yenicə qazanmış ölkələr özlərinin iqtisadi potensialı haqqında düşünməlidirlər, çünki güclü iqtisadiyyat olmadan ideyalarımızdan heç biri həyata keçirilə bilməz. Lakin biz eyni diqqətlə təhsil məsələlərinə də yanaşmalıyıq, çünki bu, bizim gələcəyimizdir. Gələcəyini qurmayan ölkə heç bir uğuru qazana bilməz. Bizim böyük enerji resurslarımız, inkişaf etmiş infrastrukturumuz ola bilər və buna malikik. Lakin bilikli və bacarıqlı insanlar və ən yüksək standartları qavrayan gələcək nəsil olmasa, biz uzunmüddətli uğur qazana bilmərik.

Mən, sadəcə, bu məsələ ilə bağlı fikirlərimi və təhsilə, eləcə də islam həmrəyliyinə nə dərəcədə böyük önəm verdiyimizi söyləmək istəyirdim. Bu konfrans həmin iki amili, o cümlədən Azərbaycanın hazırkı inkişafının bir çox digər amillərini əhatə edir. Eyni zamanda, bu, ölkələrimiz arasında dostluğu möhkəmləndirmək üçün yaxşı fürsətdir. Burada bir çox ölkənin nümayəndəsi əyləşibdir. Artıq qeyd etdim ki, sizlərdən çoxunuz ölkəmizə ilk dəfədir ki, səfər edirsiniz. Əminəm ki, bu səfər sonuncu olmayacaq və əməkdaşlığımız davam edəcəkdir.

Çıxışımın sonunda mən müsəlman dünyasında və Azərbaycanda bu məsələlərə sadiqliyinə görə İSESKO-ya və onun rəhbərinə bir daha minnətdarlığımı bildirirəm. Bizim cənab əl-Tüveycriyə böyük hörmətimiz var. O, əlaqələrimizin inkişaf etdirilməsində, mədəniyyət, təhsil və humanitar sahədə göstərdiyi səylərə görə Azərbaycanın yüksək ordeninə layiq görülmüşdür.

Bir daha xoş gəlmisiniz. Əminəm ki, Azərbaycana səfərinizdən razı qalacaqsınız.

* * *

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri beynəlxalq konfransın Bakıda keçirilməsini mühüm hadisə adlandıraraq dedi ki, İSESKO və İslam Konfransı Təşkilatına (İKT) üzv ölkələr sizin müdrik siyasətiniz sayəsində gedən güclü və sürətli inkişafı görməkdən məmnundur. Mən ölkənizə dəfələrlə səfər etmişəm və bütün sahələrdə gözəl inkişafın şahidi olmuşam. Baş direktor Azərbaycan təhsilində də böyük inkişaf olduğunu, dövlətin bu sahədə uğurlu siyasətini xüsusi vurğulayaraq dedi ki, son illər ölkədə 1500 məktəbin tikilməsi gözəl göstəricidir. Bir çox ölkələrdə bunu görmək mümkün deyildir. Biz bu nailiyyətlərə görə Sizə təşəkkür edirik. Konfransın işini yüksək qiymətləndirən İSESKO-nun baş direktoru onu gələcək məqsədlərə nail olmaq baxımından mühüm addım adlandırdı.

Görüşün sonunda Prezident İlham Əliyev konfrans nümayəndələri ilə xatirə şəkli çəkdirdi.

QAMBİYA AZƏRBAYCAN İLƏ MÜXTƏLİF SAHƏLƏRDƏ ƏLAQƏLƏRİN QURULMASINDA MARAQLIDIR

Oktyabrın 7-də xarici işlər naziri Elmar Məmmədyarov Qambiyanın ali təhsil, araşdırmalar, elm və texnologiyalar üzrə dövlət katibi Krispin Qrey-Conson ilə görüşmüşdür.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, Azərbaycana ilk səfərindən məmnunluğunu bildirən K.Conson, müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə əldə olunan nailiyyətləri yüksək qiymətləndirmiş, Azərbaycana digər dövlətlərin, o cümlədən Qambiyanın marağını artırdığını vurğulamışdır.

Dövlət katibi ölkəsinin respublikamızın neft sahəsindəki uğurlu təcrübəsini öyrənməkdə, o cümlədən Azərbaycan Dövlət Neft Akademiyası ilə əlaqələrin qurulmasında, neft mühəndisliyi, geofizika və geoloji kəşfiyyat sahəsində birgə tədqiqatların aparılmasında maraqlı olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov ölkəmizdə iqtisadi sahədə qazanılmış uğurlar, xüsusilə enerji sektorunda həyata keçirilən layihələr haqqında danışmış, əlaqələrin qurulması üçün Qambiyanın neft şirkətinin nümayəndə heyətini ölkəmizə dəvət etmişdir.

Qonaq Qambiya xarici işlər nazirinin Azərbaycana səfər etmək niyyətində olduğunu diqqətə çatdırmış, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin qurulmasının əhəmiyyətindən danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ PAAVO VYAYRYUNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Finlandiyanın xarici ticarət və inkişaf naziri Paavo Vyayryunenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Paavo Vyayryunen Finlandiyanın Prezidenti Tarya Halonenin salamlarını dövlətimizin başçısına çatdırdı, Azərbaycanda keçirdiyi səmərəli görüşlər barədə məlumat verdi. O,

Bakıda təşkil olunan Azərbaycan-Finlandiya biznes forumundan danışaraq, bunun ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Finlandiyaya səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfərin çox uğurla keçdiyini vurğuladı. Finlandiya Prezidenti Tarya Halonenlə keçirdiyi səmərəli görüşlərə toxunan Prezident İlham Əliyev ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair bir çox məsələləri müzakirə etdiklərini bildirdi. Dövlətimizin başçısı yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin inkişafı baxımından əhəmiyyətli olduğunu dedi.

Azərbaycan-Finlandiya biznes forumunun iqtisadi əməkdaşlıq üçün faydalı olacağını deyən Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Finlandiyanın xarici ticarət və inkişaf nazirinin ölkəmizə bu səfəri də ikitərəfli iqtisadi əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəkdir.

Dövlətimizin başçısı Finlandiyanın Prezidenti Tarya Halonenin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

BİŞKEKDƏ MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Oktyabrın 9-da Bişkekdə MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov iclasda iştirak etmişdir.

İclasın gündəliyinə 2009-2011-ci illərdə qanunsuz miqrasiya ilə mübarizə sahəsində MDB ölkələrinin əməkdaşlıq Proqramı, təhlükəsizlik, terrorizmlə mübarizə ilə bağlı saziş layihələri daxil edilmişdi. Şuranın iclasında MDB dövlətləri arasında nəqliyyat sahəsində əməkdaşlıq, təhlükəsizlik, mədəniyyət və humanitar sahələrə dair mühüm sənədlərə baxılmış, Gürcüstanın MDB-dən çıxmasının təşkilati və hüquqi tərəfləri də müzakirə edilmiş, Qafqazda vəziyyət diqqət mərkəzində olmuşdur. Ümumiyyətlə, iclasda 26 məsələ nəzərdən keçirilmişdir.

Şuraya rəhbərlik Qırğızıstandan Moldovaya keçmişdir.

Həmin gün Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev Şuranın üzvlərini qəbul etmiş. MDB çərçivəsində əlaqələrin genişləndirilməsinin, birgə energetika layihələrinin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

İclasda həmçinin MDB dövlət başçılarının oktyabrın 10-da Bişkekdə keçiriləcək zirvə görüşündə baxılacaq sənədlərin layihələri də müzakirə edilmişdir.

BİŞKEKDƏ MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Oktyabrın 10-da Bişkek şəhərindəki "Ala-Arça" dövlət iqamətgahında Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilmişdir.

İclasda Azərbaycanın Baş naziri Artur Rasizadənin başçılığı ilə nümayəndə heyəti də iştirak etmişdir.

Şuranın iclasını Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev açaraq iştirakçıları salamla-

mış və demişdir ki, ötən müddət ərzində Qırğızıstanda MDB-nin müxtəlif orqanlarının 10-dan artıq iclası keçirilmişdir.

Prezident demişdir ki, dar çərçivədə keçirilən iclasda MDB-nin maliyyə nazirləri səviyyəsində işçi qrupun yaradılması qərara alınmışdır. Bu qrupun fəaliyyəti dünyada gedən maliyyə böhranının MDB-nin iqtisadiyyatına təsirinin azaldılması ilə əlaqədar təkliflərin hazırlanmasına yönəldiləcək.

Sonra MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev çıxış etmişdir.

İclasda 2020-ci ilədək MDB-nin iqtisadi inkişaf strategiyası, həmçinin 2020-ci ilədək MDB-nin nəqliyyat sahəsinin əsas istiqamətləri, 2009-2011-ci illərdə qanunsuz miqrasiya ilə mübarizə sahəsində MDB ölkələrinin əməkdaşlıq Proqramı qəbul olunmuşdur.

Ümumiyyətlə, iclasda MDB ölkələri arasında siyasi, sosial-iqtisadi, humanitar və digər sahələrin inkişafı ilə əlaqədar 19 sənəd müzakirə edilərək qəbul olunmuşdur. İclasda Gürcüstanın MDB-dən çıxması məsələsi və Qafqazda vəziyyət də diqqət mərkəzində olmuşdur.

İclasda 2009-cu ilin "Gənclər ili", 2010-cu ilin isə "Elm ili" elan edilməsi ilə bağlı razılıq əldə olunmuş, 2009-cu il yanvarın 1-dən MDB-yə sədrliyin Moldovaya keçməsi ilə əlaqədar qərar qəbul edilmişdir. Şuranın növbəti Zirvə görüşü isə gələn il oktyabr ayının 9-da Kişinyov şəhərində keçiriləcəkdir.

Həmin gün Azərbaycanın Baş naziri Artur Rasizadənin rəhbərliyi ilə nümayəndə heyəti Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ VLADİSLAV STASİAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Polşa Prezidenti Administrasiyasının Milli təhlükəsizlik bürosunun rəhbəri Vladislav Stasiakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Polşa münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin, müvafiq dövlət strukturları və təşkilatları arasında əməkdaşlığın əlaqələrin daha da genişlənməsinə xidmət etdiyi bildirildi.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ ƏMƏKDAŞLARI İNDONEZİYA XİN TƏHSİL VƏ TƏLİM MƏRKƏZİNDƏ MÜHAZİRƏLƏRLƏ ÇIXIŞ ETMİŞLƏR

Azərbaycan Diplomatik Akademiyasının (ADA) əməkdaşları Fariz İsmayılzadə və Talch Ziyadov İndoneziya Xarici İşlər Nazirliyinin Təhsil və Təlim Mərkəzində "Azərbaycan, Qafqaz və Mərkəzi Asiya", "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu", "Xəzər dənizi regionunda təhlükəsizliklə bağlı təhdidlər" və "Azərbaycan və Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri" mövzularında mühazirələrlə çıxış etmişlər.

Azərbaycanın İndoneziyadakı səfirliyindən bildirmişlər ki, mühazirəçilər Azərbaycanın mühüm geostrateji mövqeyi, tarixi, müstəqilliyini bərpa etdikdən sonra daxili və xarici siyasətinin nailiyyətləri, regionda və dünyada artan nüfuzu, iqtisadi inkişafı, ölkədə din azadlığı, regionda geosiyasi və təhlükəsizlik durumu barədə məlumat vermişlər.

Enerji təhlükəsizliyinin təmin olunmasında, regional, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrində Azərbaycanın vacib rolu xüsusi vurğulanmışdır.

Orta və yüksək rütbəli İndoneziya diplomatlarından ibarət dinləyici auditoriyasına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun həlli istiqamətində Azərbaycan rəhbərliyinin səyləri barədə məlumat verilmişdir.

Mühazirələr maraqla dinlənmiş, auditoriyanın sualları cavablandırılmışdır.

Azərbaycan Diplomatik Akademiyasının nümayəndələri Təhsil və Təlim Mərkəzinin rəhbəri Darmanscah Cumala ilə görüşmüş, Akademiyanın rektoru, xarici işlər nazirinin müavini Hafiz Paşayevin salamlarını Mərkəzin rəhbərinə çatdırmış və əməkdaşlıq məsələlərini müzakirə etmişlər.

D.Cumala ADA rəhbərliyinin İndoneziyaya mühazirəçilər göndərmək qərarını alqışlamış, səfəri əməkdaşlığın başlanğıcı kimi dəyərləndirmiş, iki qurum arasında əlaqələrin qurulması istiqamətində səfirliyin səylərinin əhəmiyyətini vurğulamışdır.

Yaxın zamanlarda İndoneziya tərəfinin Azərbaycana müvafiq səfəri gözlənilir.

ADA ilə İndoneziya XİN Təhsil və Təlim Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumunun layihəsi razılaşdırılır.

AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARINDA VAKANT DİPLOMATİK VƏZİFƏLƏRİNİN TUTULMASI ÜÇÜN MÜSABİQƏ ELAN EDİLMİŞDİR

Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında vakant diplomatik vəzifələri tutmaq üçün müsabiqə elan etmişdir.

Müsabiqədə iştirak etmək istəyən namizədlər "Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında diplomatik xidmətə müsabiqə vasitəsilə qəbul qaydaları"nda qeyd olunan sənədləri nazirliyin müsabiqə komissiyasına təqdim etməlidirlər. Bu qaydalarla müsabiqə komissiyasında və ya XİN-in internet səhifəsində tanış olmaq olar.

Sənədlər oktyabrın 20-dən noyabrın 12-dək Xarici İşlər Nazirliyində qəbul olunur.

Müsabiqədə ali təhsilli, sənədlər müsabiqə komissiyasına təqdim edildiyi gün yaşı 28-dən yuxarı olmayan, xarici dili sərbəst bilən, diplomatik vəzifələrdə işləmək üçün beynəlxalq münasibətlər, beynəlxalq hüquq, beynəlxalq iqtisadi münasibətlər sahələrində xüsusi biliklərə malik olan Azərbaycan vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçən şəxslər altı ay müddətinə stajçı kimi diplomatik xidmətə götürüləcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN RƏHBƏRİ YANEZ LENARÇİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbəri Yanez Lenarçiçi qəbul etmişdir.

Yanez Lenarçiç dövlətimizin başçısına müraciətlə dedi: "Sizi seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə təbrik etməkdən məmnunluğumu bildirirəm". O, prezident seçkilərinin mühüm bir hadisə olduğunu və bu seçkiləri ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbərliyi ilə ATƏT-in üzvü olan 40-dan artıq ölkənin 400-dək nümayəndəsinin müşahidə etməsinin önəmini vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən dövlətimizin başçısı prezident seçkilərinə mümkün qədər daha çox müşahidəçinin cəlb edildiyini və onlara ən yaxşı şəraitin yaradıldığını qeyd etdi. Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbəri Yanez Lenarçiçin başçılıq etdiyi nümayəndə heyətinin bu səfərinin qarşılıqlı əlaqələrin genişləndirilməsi və seçkilərin qiymətləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

Sergey Lebedev seçkilərdə qələbə qazanması münasibətilə dövlətimizin başçısına rəhbərlik etdiyi qurumun və şəxsən özünün səmimi təbriklərini çatdırdı. Bir çox seçki məntəqələrində olduqlarını və seçicilərlə fərdi söhbətlər etdiklərini bildirən qonaq vətəndaşların ölkədəki iqtisadi yüksəlişdən və əhalinin sosial rifahın yaxşılaşdırılmasından böyük razılıq etdiklərini dedi. Sergey Lebedev oktyabrın 15-də seçicilərin məntəqələrə bayram əhval-ruhiyyəsi ilə gəldiklərinin şahidi olduqlarını vurğuladı.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi. Azərbaycanda seçkilərin normal şəraitdə keçməsini siyasi münasibətlərin nümunəsi kimi qiymətləndirən Prezident İlham Əliyev ölkədə fəaliyyət göstərən siyasi qüvvələr arasında münasibətlərin yeni, beynəlxalq standartlara cavab verən bir mərhələyə qədəm qoyduğunu dedi. Dövlətimizin başçısı prezident seçkilərinin gedişini ölkədəki inkişaf reallıqlarının və siyasi sabitliyin göstəricisi kimi dəyərləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da İran seçki müşahidə missiyasının rəhbəri Əhəd Qəzainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əhəd Qəzai prezident seçkilərində qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, bir sıra seçki məntəqəsində müşahidələr apardıqlarını və seçkilərin yüksək səviyyədə təşkil edildiyinin şahidi olduqlarını vurğuladı.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN BİZNES İCRAÇILARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ABŞ-ın Avropa Komandanlığının komandan müavini, vitse-admiral Riçard Qallaherin müşayiəti ilə ABŞ milli təhlükəsizliyinin biznes icraçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bir sıra regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı və bu səfərin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də dövlətimizin başçısının andiçmə mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Prezident Mixail Saakaşvili dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.

Görüşdə iki ölkə arasında münasibətlərin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Dövlətimizin başçısını Prezident seçilməsi münasibətilə təbrik edən Sergey Narışkin Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təbriklərini, salamlarını və dərin hörmətini bir daha Prezident İlham Əliyevə çatdırdı.

Sergey Narışkin dedi: "Cənab Prezident, dövlət başçısı seçilməyiniz Rusiya üçün də əlamətdar hadisədir. Rusiyanın strateji tərəfdaşı və mehriban qonşusu olan Azərbaycana məhz Sizin yenidən rəhbərlik etməyiniz bizim üçün də fəxrdir".

Prezident İlham Əliyev Rusiya Prezidenti Dmitri Medvedevin salamlarına və səmimi

təbriklərinə görə minnətdarlığını bildirdi, özünün də salamlarını və ən xoş arzularını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ CƏMİL ÇİÇƏYİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikası Baş nazirinin müavini Cəmil Çiçəyi qəbul etmişdir.

Cəmil Çiçək Prezident seçilməsi münasibətilə dövlətimizin başçısına Türkiyə Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın və ümumən türk xalqının təbriklərini çatdırdı. O, belə bir fərəhli gündə - andiçmə mərasimində ölkəsinin təmsilçisi kimi iştirak etməkdən məmnunluğunu söylədi. Baş nazirin müavini Türkiyənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinə Azərbaycanın dəstək verdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. Cəmil Çiçək Türkiyə Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, TBMM-in sədri Köksal Toptanın təbrik məktublarını dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gülün, Baş nazir Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın təbriklərinə görə minnətdarlığını bildirdi, özünün də ən xoş arzularını onlara və dost, qardaş türk xalqına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Türkiyənin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini əlamətdar hadisə kimi qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ PYOTR KOVANSKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Polşa Prezidenti Administrasiyasının rəhbəri Pyotr Kovanskini qəbul etmişdir.

Pyotr Kovanski Prezident İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə Polşa Prezidenti Lex Kaçinskinin təbrikini və salamlarını çatdırdı.

Prezident İlham Əliyev salama və təbrikə görə minnətdarlığını bildirdi, özünün də salamlarının Polşa Prezidentinə çatdırılmasını xahiş etdi.

Qəbulda Azərbaycan-Polşa münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrin bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.

Andiçmə mərasiminin iştirakçısı olmaqdan məmnunluğunu bildirən Robert Simmons NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin təbrik məktubunu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, onun xoş arzularının NATO-nun Baş katibinə çatdırılmasını xahiş etdi.

Görüşdə Azərbaycanla NATO arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də bp şirkətinin icraçı direktoru Endryu İnqlisi qəbul etmişdir.

Dövlətimizin başçısını təbrik edən Endryu İnqlis andiçmə mərasimində iştirak etməsindən məmnun olduğunu söylədi. O, Prezident İlham Əliyevin mərasimdə əhatəli çıxış etdiyini xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.

Andiçmə mərasimindəki çıxışına toxunan Prezident İlham Əliyev ölkəmizdə son beş ildə təkcə neft-qaz sektorunda deyil, hər bir sahədə, o cümlədən təhsil sahəsində, infrastrukturun inkişafı, siyasi və digər sahələrdə böyük irəliləyişlərin olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda əldə olunan bütün bu nailiyyətlərin əsasında uğurlu enerji siyasətinin və zəngin enerji resurslarının dayandığını dedi. bp şirkəti ilə ölkəmizin artıq on beş il əməkdaşlıq etdiyini bildirən Prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN TİCARƏT NAZİRİNİN MÜAVİNİ CON SALLİVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da ABŞ-ın ticarət nazirinin müavini Con Sallivanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ABŞ nümayəndə heyətinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında geniş əlaqələrin tərkib hissəsi olan iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığını qeyd

etdi. Prezident İlham Əliyev vaxtın qısa olmasına baxmayaraq, nümayəndə heyətinin səfər proqramının zəngin olmasının əhəmiyyətini xüsusi vurğuladı və səfərin ikitərəfli əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.

ABŞ ticarət nazirinin müavini Con Sallivan yenidən dövlət başçısı seçilməsi münasibətilə ABŞ Prezidenti Corc Buşun Azərbaycan Prezidentini təbrik etdiyini bir daha vurğuladı, eyni zamanda, ticarət naziri Karlos Qutyerresin və özünün təbriklərini dövlətimizin başçısına çatdırdı. O, Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarla bağlı hazırladığı hesabata toxunaraq dedi: "cənab Prezident, Sizin həyata keçirdiyiniz proqramlar və siyasət nəticəsində Azərbaycanda sağlam biznes üçün çox yaxşı mühit yaradılmışdır".

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda mövcud olan biznes mühitinin Dünya Bankı kimi aparıcı beynəlxalq maliyyə qurumu tərəfindən yüksək qiymətləndirilməsinin önəmini vurğuladı. Bunu ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi kimi dəyərləndirən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda indi əsas diqqət iqtisadi islahatların daha da genişlənməsinə və enerji amilindən asılılığın maksimum dərəcədə azaldılmasına yönəldilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Moskvaya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

Noyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidentinin Moskva yaxınlığındakı "Mayn Dorf" iqamətgahına gəlmişdir. Dövlətimizin başçısını burada Rusiya Prezidenti Dmitri Medvedev səmimiyyətlə qarşılamışdır.

Sonra iqamətgahda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü keçirilmişdir.

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

Noyabrın 2-də, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü başa çatdıqdan sonra Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin iştirakı ilə danışıqlar üçtərəfli formatda davam etdirilmişdir.

Sonra görüşə Azərbaycan, Ermənistan və Rusiyanın xarici işlər nazirləri qoşulmuşlar.

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ BƏYANNAMƏ İMZALAMIŞLAR

Noyabrın 2-də Rusiya dövləti başçısının "Mayn Dorf" iqamətgahında, üçtərəfli formatda görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Prezi-

denti Serj Sarkisyan və Rusiya Prezidenti Dmitri Medvedev Bəyannamə imzalamışlar.

Bəyannamənin imzalanmasında ATƏT-in Minsk qrupunun həmsədrləri iştirak etmişlər.

Rusiya Federasiyasının Prezidenti kütləvi informasiya vasitələrinin nümayəndələrini Bəyannamənin mətni ilə tanış etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ, ERMƏNİSTAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ BƏYANNAMƏSİ

Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentləri 2008-ci il noyabrın 2-də Moskvada görüşərək,

Dağlıq Qarabağ münaqişəsinin vəziyyətini və onun siyasi vasitələrlə, ATƏT-in Minsk qrupunun həmsədrləri kimi Rusiyanın, ABŞ-ın və Fransanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun davam etdirilməsi yolu ilə həlli perspektivlərini konstruktivlik şəraitində konkret şəkildə və dolğun müzakirə edərək,

1. Bəyan edirlər ki, münaqişənin beynəlxalq hüququn prinsipləri və normaları, bu çərçivələrdə qəbul olunmuş qərarlar və sənədlər əsasında siyasi yolla həlli ilə Cənubi Qafqazda vəziyyətin sağlamlaşmasına və regionda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsinin təmin olunmasına kömək edəcəklər ki, bu da regionda iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradacaqdır.
2. ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin siyasi yolla həllinin əsas prinsiplərinin işlənib hazırlanması məqsədi ilə 2007-ci ilin noyabrın 29-da Madriddə tərəflərlə keçirilmiş görüşü və sonrakı diskussiyalar nəzərə alınmaqla, həmsədrlərin vasitəçilik səylərinin davam etdirilməsinin böyük əhəmiyyətə malik olmasını təsdiq edirlər.
3. Razılaşırlar ki, münaqişənin sülh yolu ilə həllinə nail olunmasının bütün aspektləri və mərhələləri hüquqi öhdəliklər yaradan beynəlxalq təminatlarla müşayiət edilməlidir.
4. Qeyd edirlər ki, Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllinin razılaşdırılması üzərində işi davam etdirmək, o cümlədən gələcəkdə yüksək səviyyədə təmasların gedişində davam etdirmək barədə razılığa gəlmişlər və özlərinin xarici işlər nazirlərinə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə qarşılıqlı əlaqədə danışıqlar prosesində gələcək addımları fəallaşdırmağı tapşırmışlar.
5. Münaqişənin həllinə dair səylər kontekstində etimadın möhkəmləndirilməsi üçün tədbirlərin reallaşdırılmasına şərait yaradılmasının təşviq olunmasını vacib hesab edirlər.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moskvaya işgüzar səfəri başa çatmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVANDAKI İDARƏSİNİN RƏSMİ İNTERNET SƏHİFƏSİ YARADILMIŞDIR

Azərbaycan Xarici İşlər Nazirliyinin Naxçıvandakı İdarəsinin rəsmi İnternet səhifəsi fəaliyyətə başlamışdır.

Yeni sayt www.dmfa.nakhchivan.az domen adı altında fəaliyyət göstərəcəkdir. Azərbaycan və ingilis dillərində təqdim olunan sayt müxtəlif rubrikalara bölünən 8 əsas bölmədən ibarətdir. İstifadəçilər bu rubrikalar vasitəsilə Naxçıvan Muxtar Respublikasının tarixi, coğrafiyası, idarəetmə sistemi, mədəniyyəti, iqtisadiyyatı, xarici əlaqələri və s. haqqında ətraflı məlumat ala bilərlər.

Saytın mətbuat və informasiya xidməti bölməsində xəbərlər, brifinqlər, müsahibələr, çıxışlar, elanlar və digər rubrikalar altında geniş və yenilənmiş informasiya bazası yerləşdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün dəvəti ilə noyabrın 5-də bu ölkəyə rəsmi səfərə gəlmişdir.

ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA

Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Türkiyənin və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş iqamətgahın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı.

Hərbi orkestrin ifasında Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Prezident İlham Əliyev türk əsgərlərini salamladı.

Türkiyə Respublikasının rəsmi şəxsləri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Abdullah Gülə təqdim edildi.

Sonra Azərbaycan və Türkiyə prezidentləri xanımları Mehriban Əliyeva və Hayrünnisə Gül ilə birgə xatirə şəkli çəkdirdilər.

Dövlət başçıları və xanımları Çankaya köşkündən ətrafı seyr etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.

Görüşdə dost və qardaş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə daim genişlənməsindən məmnunluq ifadə olundu, Azərbaycan Prezidentinin növbəti seçkilərdəki qələbəsindən sonra da ilk rəsmi səfərini Türkiyəyə etməsi ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasının yaxşı nümunəsi kimi qiymətləndirildi.

Söhbət zamanı ikitərəfli münasibətlərin siyasi, iqtisadi və bütün sahələrdə daha da inkişaf edəcəyinə əminlik ifadə olundu. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin həm iki ölkə, həm xalqlarımız üçün, həm də regionda sülhün və sabitliyin təmin olunması baxımından böyük önəm daşıdığı vurğulandı.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Noyabrın 5-də Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşündən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

DÖVLƏT BAŞÇILARI BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 5-də Çankaya köşkündə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Abdullah Gül mətbuat nümayəndələri qarşısında bəyanatlarla çıxış etmişlər.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI

- Dəyərli mətbuat nümayəndələri!

Bugünkü qonağımız dəyərli dostumuz, qardaşımız, Azərbaycanın cümhurbaşqanı hörmətli İlham Əliyevdir. Ona və nümayəndə heyətindəki çox dəyərli nazirlərə, digər üzvlərə - hamısına bir daha "Xoş gəlmisiniz!" deyirəm. Bildiyiniz kimi, Azərbaycanda prezident seçkiləri keçirildi. Bu seçkilərdən sonra hörmətli Əliyev ilk rəsmi səfərini Türkiyəyə etdi. Buna görə bütün türk xalqı böyük qürur duyur və ona çox təşəkkür edirəm. Eyni zamanda, keçirilmiş seçkilərə görə də onu təbrik edirəm. Doğrudan da, bu seçkilər bütün bölgəyə örnək olacaq şəkildə keçirilmişdir. Seçkiləri müşahidə edənlərin hamısının bu məsələlərlə bağlı rəyləri və açıqlamaları Azərbaycanın dostları və qardaşları kimi bizi də məmnun etmişdir.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr hər hansı digər iki ölkənin əlaqələrindən çox üstün səviyyədədir. Biz daim bir millət düşüncəsi ilə hərəkət etmişik. Bu baxımdan hər zaman yüksək səviyyəli səfərlərimiz və əlaqələrimiz olmuşdur. Bu səfər də xüsusi bir məna daşımaqdadır. Həm hörmətli Prezident İlham Əliyevin ikinci dəfə seçilməsindən sonra ilk rəsmi səfər etməsi, həm də yeni mərhələdə Qafqazda çox önəmli bir dövr

yaşamağımız bizə onunla bu bölgənin məsələlərini, problemlərini geniş şəkildə müzakirə etmək imkanı vermişdir. Bunun da hər iki ölkə üçün çox böyük faydası və xeyiri vardır.

Bildiyiniz kimi, biz son dövrlərdə Qafqazda önəmli hadisələrin şahidi olduq. Bununla əlaqədar bir çox görüşlər, səfərlər oldu. Hörmətli Baş nazirimizin və mənim səfərlərim oldu. Mənim Ermənistana etdiyim səfərdən sonra, sentyabrın 10-da Bakıya səfərim zamanı bölgənin məsələlərini geniş şəkildə müzakirə etmişdik. İndi də, hər şeyi təkrarən yenidən nəzərdən keçirmək fürsətimiz oldu. Bununla yanaşı, onu da ifadə etmək istəyirəm ki, biz birlikdə Qafqazın problemləri ilə cəsarətlə məşğul olmağa başladıq və Qafqazın bütün liderləri bu problemləri həll etmək əzmlərini nümayiş etdirirlər. Bunun çox yaxşı irəliləyiş olduğu qənaətindəyik.

Bir-birinə çox bənzəyən mədəniyyətləri olan bu bölgənin xalqlarının sülh, əmin-amanlıq və sabitlik içərisində yaşaması və əməkdaşlığı genişləndirməsi hamımızın xeyrinədir. Bununla bağlı Türkiyə Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasını ortaya qoymuşdur. Bunu başda Azərbaycan olmaqla, Qafqazdakı bütün ölkələr dəstəkləmişdir. İnanırıq ki, görüşlər, dialoq və qarşılıqlı anlaşma şəraitində yaradılacaq mühit Qafqazdakı problemlərin həllinə yol açacaqdır. Şübhəsiz ki, bu çərçivədə başda Dağlıq Qarabağ münaqişəsi durur. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da yeni bir mərhələnin başlandığını deyə bilərəm. Hörmətli Əliyevin və Sarkisyanın bir neçə gün əvvəl Moskvada görüşü də səmərəli keçmişdir. Türkiyə bu görüşləri dəstəklədi və bunun davamının olacağına inanırıq. Bu istiqamətdə hər kəsin əlindən gələn köməyi göstərməsini arzu edirik.

Təbii ki, siyasi, enerji sahələri ilə bağlı məsələləri də geniş şəkildə müzakirə etdik. Türkiyə və Azərbaycanın çox qürur duyduğu böyük layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri ilə bağlı məsələləri bir daha nəzərdən keçirdik. Bildiyiniz kimi, neft və təbii qaz boru xətləri uğurla fəaliyyət göstərir. Diqqətimizi dəmir yolunun çəkilişinin başa çatdırılmasına yönəltmişik. Şübhəsiz ki, bu böyük layihələrdə Gürcüstanın çox böyük payı vardır. Ümumiyyətlə, bu, hamımızın xeyrinədir. Bu böyük layihələr sülhün, sabitliyin təminatı üçün bölgədəki bütün ölkələrə açıqdır. Bunu hamımız dəfələrlə demişik.

İki ölkə arasındakı ikitərəfli əlaqələr yüksək səviyyədə, ən yaxşı şəkildə davam etməkdədir. İqtisadi-ticarət əlaqələrimiz yaxşıdır. Ticarət dövriyyəsinin həcmi getdikcə artmaqdadır. Sərmayələr qarşılıqlı şəkildə artır. Azərbaycanın Türkiyəyə qoyduğu sərmayələr diqqəti çox çəkməkdədir və Türkiyənin neft sənayesinə qoyulan sərmayələr hər kəs tərəfindən dəstəklənməkdədir. Türkiyə iş adamlarının Azərbaycandakı sərmayələrinin həcmi daim artır. Onlara göstərilən etimada görə hörmətli Prezidentə və dostlarımıza bir daha təşəkkür edirəm. Bu əməkdaşlığımız, şübhəsiz ki, davam edəcəkdir. Biz bu məsələlərə ən yüksək səviyyədə böyük etimad göstəririk.

Hörmətli Prezidentin bu səfərinin önəmli olduğunu, bütün əlaqələrimizi bir daha nəzərdən keçirərkən hər şeyin ən yaxşı şəkildə davam etdiyini görməkdən duyduğum məmnunluğu ifadə edirəm. Bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Biz təkbətək görüşümüzdə apardığımız söhbətlərdə ABŞ-da keçirilmiş prezident seşkiləri barədə də danışdıq. Amerikada seçkilərin rəsmi nəticələri hələ elan edilməmiş olsa

da, biz Barak Obamanın ABŞ-a Prezident seçilməsini, təbii ki, müsbət şəkildə, diqqətlə izlədik. Bunun həm Amerika xalqı üçün, həm də dünyada sülh və sabitlik, təhlükəsizlik üçün xeyir gətirməsini arzu edirik. Ümid edirəm ki, bütün dünyada yeni bir mərhələ başlayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident, əziz qardaşım,

Hörmətli mətbuat nümayəndələri,

Cənab Prezident, ilk növbədə, məni rəsmi səfərə dəvət etdiyinizə görə Sizə və bütün türk xalqına öz minnətdarlığımı bildirmək istəyirəm. Mən Türkiyədə yenidən olmağımdan çox məmnunam və Siz qeyd etdiyiniz kimi, prezident seçkilərindən sonra bu, mənim ilk rəsmi səfərimdir və təbiidir ki, bu səfər Türkiyəyədir. Bu, bizim aramızda olan münasibətləri, münasibətlərimizin nə qədər yüksək səviyyədə olmasını göstərir.

Türkiyə-Azərbaycan ikitərəfli münasibətləri Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yaranmışdır. Ancaq ondan əvvəl bizim xalqlarımız əsrlər boyu bir yerdə yaşamışlar, yaratmışlar, bir-birinə dəstək olmuşlar. Bu gün isə Türkiyə-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir və mənim səfərim, onun uğurlu nəticələri deməyə əsas verir ki, biz gələcək illərdə də bu gözəl dinamikanı saxlayacaq, bütün sahələrdə əlaqələrimizi daha da gücləndirəcəyik.

Bizim əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Həm siyasi, həm iqtisadi, mədəni, həm də enerji, ticarət, nəqliyyat sahələrində - bütün sahələrdə biz bu əməkdaşlıqdan çox məmnunuq və bütün istiqamətlərdə yaxşı nəticələr var. Bu gün müzakirə etdiyimiz məsələlər həm ikitərəfli münasibətlərin gələcək perspektivlərinə təkan verəcək, həm bölgədə gedən vəziyyətə öz müsbət təsirini göstərəcəkdir. Sirr deyil ki, bu gün Türkiyə-Azərbaycan əlaqələri regionda gedən proseslərə çox ciddi və müsbət təsir göstərir.

Bizim bütün birgə təşəbbüslərimiz - istər siyasi, istər iqtisadi, istərsə də enerji sahəsində göstərilən təşəbbüslər bölgədə sülhün möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə və sabitliyin tam bərqərar olunmasına xidmət göstərir. Türkiyə tərəfindən bu yaxınlarda irəli sürülmüş Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının da əsas mahiyyəti ondan ibarətdir ki, bu bölgədə yaşayan bütün ölkələr bir-biri ilə normal münasibətlər qura bilsinlər, narahatlıq yaradan bütün məsələlər həll olunsun, qarşıdurmaya son qoyulsun və bölgədə sülh təmin edilsin. Əlbəttə ki, bunu etmək üçün bölgədə, ilk növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmalıdır. Bu məsələnin ədalətli həll edilməsi üçün göstərdiyi səylərə görə biz Türkiyəyə daim minnətdarıq, Türkiyənin bu işlərdə fəal olmasını alqışlayırıq. Qafqazda gedən proseslərdə Türkiyənin fəal olmaq təşəbbüslərinə biz çox böyük ümidlərlə baxırıq. Hesab edirik ki, bunun çox gözəl nəticələri ola bilər və ilkin xoş məqamların əlamətlərini görürük. Mən hesab edirəm ki, bu məsələnin həlli üçün səylər davam etdirilməlidir. Hesab edirəm ki, bu yaxınlarda Moskvada imzalanmış birgə Bəyannamə mümkün olan sülh razılaşması üçün yaxşı əsasdır. Bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, orada beynəlxalq hüquq normaları öz yerini tapır və beynəlxalq hüquq normaları çərçivəsində qəbul edil-

miş qərarlar, qətnamələr dəstəklənir. Məsələnin mərhələli yollarla həll olunmasına diqqət göstərilir və hesab edirəm ki, bu, məsələnin həlli üçün çox yaxşı əsas ola bilər.

Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü bərpa olunmalıdır və işğal altına düşmüş torpaqlar işğalçılardan boşaldılmalıdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarına qayıtmalıdır. Ümid edirəm ki, bölgədə yaranan yeni vəziyyət və Türkiyənin bu işlərə ciddi müdaxiləsi, eyni zamanda, Rusiyanın vasitəçilik missiyasına yeni təkan verməsi, Minsk qrupunun digər həmsədrləri Amerika və Fransanın fəallığı - bütün birgə səylər məsələnin həllinə gətirib çıxaracaqdır.

Ancaq bununla bərabər, bölgə inkişaf edir, Azərbaycan inkişaf edir və Türkiyə-Azərbaycan münasibətləri çox konkret layihələrlə zənginləşdirilir. Enerji layihələri, nəqliyyat layihələri - bütün bunlar bizim təşəbbüsümüzlə baş tutubdur. Bütün bunları etmək üçün çox böyük səylər göstərilibdir. Çox mürəkkəb geosiyasi vəziyyətdə biz bunu bacardıq. Bu onu göstərir ki, biz qarşıya qoyduğumuz bütün məsələləri birgə səylərlə, birgə iradə ilə, Türkiyə-Azərbaycan qardaşlığı əsasında həll edirik. Bu layihələr gələcəkdə həm yeni imkanlar açacaq, həm iqtisadi mənfəət gətirəcək və artıq gətirir və eyni zamanda, bölgədə əməkdaşlığın dərinləşməsinə təkan verəcəkdir. Bu məsələlərlə bağlı bizim aramızda fikir ayrılığı yoxdur.

Bu gün beynəlxalq məsələlər də geniş müzakirə olundu və mən də hörmətli Prezident Abdullah Gülün Barak Obamaya göndərilən təbriklərinə qoşuluram. Ümid edirəm ki, Amerika-Azərbaycan münasibətləri bundan sonra da sürətlə inkişaf edəcək və mən yeni seçilmiş Prezidentə uğurlar diləyirəm.

Göstərilən qonaqpərvərliyə və xoş, səmimi münasibətə görə həm əziz qardaşım, cənab Prezident Sizə, həm də bütün türk yoldaşlarımıza bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da iki qardaş ölkə əl-ələ verib uğurla irəliyə gedəcəkdir.

Təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ ALİM-HƏKİM İHSAN DOĞRAMACIYA BAŞ ÇƏKMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də, Türkiyəyə rəsmi səfəri çərçivəsində Hacəttəpə Universitetinin xəstəxanasında dünya şöhrətli alim-həkim, Azərbaycanın böyük dostu, professor İhsan Doğramacıya baş çəkmişdir.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ

- Hörmətli Prezident,

Dəyərli dostum,

Hörmətli xanıməfəndi,

Xanımlar və bəylər!

İlk növbədə, hamımıza "Xoş gəlmisiniz!" deyirəm.

Dəyərli dostumuz hörmətli İlham Əliyev yenidən Prezident seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə edir. Bununla bağlı böyük xoşbəxtlik, böyük qürur hissi keçiririk. Göstərdiyi bu yaxın münasibətdən ötrü bir daha ona təşəkkürümü bildirirəm. Həm zati-alilərinə, həm xanımına, həm də bütün azərbaycanlı dostlarımıza bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Hörmətli Prezidentimiz ikinci dəfə bu vəzifəyə seçilmişdir. Bunu biz də böyük bir sevinclə izlədik. Bu münasibətlə zati-alilərini bir daha təbrik edirəm, həm Azərbaycan, həm bütün türk dünyası, həm də bölgəmiz və dünya üçün xeyirli olmasını diləyirəm, ona uğurlar arzu edirəm.

Azərbaycan müstəqil olduqdan sonra sabit və diqqətli siyasəti ilə bütün dünyada böyük hörmət qazanmışdır. Burada hörmətli Heydər Əliyevi rəhmətlə anırıq. O, Azərbaycanın gələcəyini ən mükəmməl şəkildə müəyyən etdiyi kimi, Türkiyə və Azərbaycan arasındakı əlaqələri də ən dəqiq ifadə etmiş, biz "bir millət, iki dövlətik" demişdir. Bu anlayış və təfəkkür çərçivəsində Azərbaycan və Türkiyə yollarına davam etməkdədir. Hörmətli İlham Əliyev də Azərbaycanı eyni şəkildə bu istiqamətdə irəli aparmışdır. Bu gün Azərbaycan daha da çiçəklənmiş, daha qüdrətli, Silahlı Qüvvələri, iqtisadiyyatı, demokratiyası daha güclü bir dövlətdir. Biz bütün bunlarla fəxr edirik.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr bir millət olmaq anlayışı çərçivəsində həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə ən mükəmməl şəkildə davam etməkdədir. Siyasi məsləhətləşmələrimiz ən yüksək səviyyədə həyata keçirilir. Ən yüksək səviyyədə səfərlər edilir. Hörmətli prezidentlərimiz, baş nazirlərimiz, nazirlərimiz, yeri gəldikdə, protokoldan da xaric görüşlər keçirərək, qəlbdən-qəlbə necə bağlı olduğumuzu da nümayiş etdirirlər.

Xüsusilə bu günlərdə, Qafqazdakı son hadisələrdən sonra Türkiyə və Azərbaycan bölgədə yeni bir mövqe nümayiş etdirməkdə, sabitliyin və sülhün bərqərar olması üçün böyük səy göstərməkdədir. Türkiyənin Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması təşəbbüsünə ən güclü və ilk dəstəyi Azərbaycan vermişdir. Hörmətli Prezident və dəyərli dostumuz bugünkü mətbuat konfransında bunu bir daha təsdiq etmişdir. Şübhəsiz ki, Qafqazda sülh, sabitlik və əmin-amanlığın olması üçün Dağlıq Qarabağ probleminin sülh yolu ilə, ədalətli və hüquqi zəmin əsasında, Birləşmiş Millətlər Təşkilatının prinsipləri çərçivəsində həll olunması lazımdır. Son vaxtlar Qafqazda meydana gələn müsbət atmosfer, qarşılıqlı görüşlər yeni bir ab-havanın yaranmasının da əlamətidir. Ümidvarıq və inanırıq ki, bu gözəl ab-havada bütün problemlər sülh yolu ilə həll olunacaq və bütün ölkələr bir-biri ilə daha sıx əməkdaşlıq edəcəkdir.

Biz Azərbaycanla iqtisadi sahədə də çox böyük layihələri həyata keçirmişik. Bəzilərinin vaxtilə "bu, əfsanədir, həyata keçməz" dedikləri Bakı-Tbilisi-Ceyhan neft boru kəməri bir ildən çoxdur, böyük uğurla fəaliyyət göstərməkdə, Qafqazın və Orta Asiyanın nefti bu kəmər vasitəsilə bütün dünyaya nəql olunmaqdadır. Bakı-Tbilisi-Ərzurum boru xətti də uğurla fəaliyyət göstərir. Hamımızın birlikdə təməlini qoyduğumuz Bakı-Tbilisi-Qars dəmir yolunun da ən qısa müddətdə tamamlanacağına və beləliklə, nəqliyyatın daha asanlaşacağına ümid edirik. Bu istiqamətdə Azərbaycan, Türkiyə və Gürcüstan çox böyük iş görür. Azərbaycanın Türkiyəyə sərmayə qoymasını böyük bir təqdirlə qarşılayırıq. Xüsusilə, özəlləşdirmə proqramlarına göstərdiyi maraq Türkiyə tərəfindən də dəstəklənməkdədir. Eyni zamanada, türk iş adamlarının, inşaatçıların Azərbaycandakı fəaliyyətlərinə göstərdikləri dəstəyə görə, yaratdığınız şərait və etimad üçün də təşəkkürümü bildirirəm.

Ticarətimizin getdikcə artdığını görməkdən də böyük bir məmnunluq duyuruq.

Mədəniyyət sahəsindəki əlaqələrimiz də çox təbiidir. Azərbaycan türkdilli dövlətlərin zirvə toplantılarına ən çox önəm verən və maraq göstərən ölkədir. Türkdilli dövlətlərin qarşıdakı zirvə toplantısını Azərbaycanda keçirəcəyik. Parlamentlərin sədrləri isə yaxın vaxtlarda Türkiyədə toplaşacaqlar. Azərbaycan bu istiqamətdəki fəaliyyətlərə çox böyük dəstək verir. Bundan böyük məmnunluq duyuruq və Sizə minnətdarıq.

Mən bu səfərin mühüm bir zamanda həyata keçirildiyini vurğulamaq istəyirəm. Qafqazda baş vermiş bütün hadisələrdən sonra bu gün təkrar çox mühüm bir məsləhətləşmə apardıq, bütün məsələləri müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərdə Azərbaycan və Türkiyə ortaq bir mövqeyə malikdir və böyük bir həmrəyilik nümayiş etdirir.

Bu səfəriniz dostluğumuzu və qardaşlığımızı daha da möhkəmləndirmiş, gücləndirmişdir. Sizə bir daha "Xoş gəlmisiniz!" deyirəm. Bütün azərbaycanlı qardaşlarımıza türk qardaşlarının məhəbbətlərini, sevgi və salamlarını çatdırıram.

Bədəmi Sizin uğurunuz şərəfinə qaldırıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli Hayrünnisə xanım!

Hörmətli cənab Baş nazir!

Əziz dostlar!

İlk növbədə, əziz dostum, Prezident Abdullah Gülə məni Türkiyəyə dəvət etdiyinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Təsadüfi deyil ki, prezident seçkilərindən sonra mənim ilk rəsmi səfərim məhz Türkiyəyədir. Bu, təbiidir, iki ölkə arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərinin təzahürüdür. Bu, çox önəmlidir. Türkiyə-Azərbaycan əlaqələri həm ölkələrimiz, xalqlarımız üçün, həm də bütün bölgə üçün çox böyük əhəmiyyət daşıyır.

Əziz dostum cənab Prezident öz nitqində ikitərəfli münasibətlərin, demək olar ki, bütün sahələrini əhatə etdi. Bu, doğrudan da hərtərəfli münasibətlərdir, bütün sahələri əhatə

edir, elə bir sahə yoxdur ki, orada Türkiyə-Azərbaycan münasibətləri inkişaf etməsin. Çox böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, biz bütün sahələrdə uğurları görürük. Praktik əməkdaşlığın gözəl nəticələrini görürük. Bizim birgə təşəbbüslərimiz - *istər siyasi sahədə, istər* iqtisadi, istərsə də enerji, nəqliyyat sahələrində irəli sürülmüş təşəbbüslər həm ölkələrimizi gücləndirir, həm iki ölkə arasında olan münasibətləri yeni pilləyə qaldırır, həm də yaşadığımız bölgədə əməkdaşlığın, sabitliyin möhkəmlənməsinə gətirib çıxarır. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, Türkiyə və Azərbaycanın birgə fəaliyyəti bölgədə sabitləşdirici amilə çevrilibdir. Bizim iştirakımız olmadan, razılığımız olmadan bölgədə heç bir layihə - istər siyasi, istər iqtisadi və başqa layihələr icra oluna bilməz. Məhz bizim təşəbbüsümüzlə bölgə üçün və dünya üçün böyük əhəmiyyət daşıyan enerji, nəqliyyat layihələri çox uğurla gerçəkləşir. Bu uğurun təməlində iki ölkə arasında olan münasibətlər dayanır, iki xalqın iradəsi, bir-birimizə olan dostluq-qardaşlıq duyğuları dayanır. Ən əsası bundan ibarətdir. Türk və Azərbaycan xalqları əsrlər boyu bir yerdə yaşamışlar. Biz bir millət - iki dövlətik. Ancaq bu gün biz iki müstəqil dövlətik. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, ilk növbədə bizi Türkiyə dəstəkləmişdir. Ən çətin anlarımızda Türkiyə daim bizim yanımızda olubdur. Bu gün də belədir. Ancaq bu gün Azərbaycan da güclənibdir. Azərbaycan da ikitərəfli münasibətlərə öz töhfəsini verir və bir-birimizi dəstəkləməyimiz, əlbəttə ki, bizi gücləndirir. Bunu biz bölgədə gedən proseslərdə görürük, geniş mənada beynəlxalq müstəvidə görürük.

Bu fürsətdən istifadə edib, bütün türk xalqını bu yaxınlarda Türkiyənin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu, böyük qələbədir. Böyük uğurdur. Böyük səsçoxluğu ilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmək böyük nailiyyətdir. Bu, Türkiyənin artan imkanlarını, təsir imkanlarını göstərir. Bu, Türkiyəni gücləndirir və Azərbaycanı gücləndirir.

Qarşımızda duran məsələlər uğurla həll olunur və biz bölgədə, Cənubi Qafqazda sülhün bərqərar olunmasında Türkiyənin rolunu alqışlayırıq, bunu bəyənirik, dəstəkləyirik. Türkiyənin Cənubi Qafqaz bölgəsində gedən proseslərdə fəal iştirakını biz böyük sevinclə qarşılayırıq və görəndə ki, bu təşəbbüslər artıq bölgədə vəziyyətin müsbət istiqamətdə dəyişməsinə gətirib çıxarır, sevincimiz daha da artır. Türkiyə tərəfindən irəli sürülmüş Qafqazda Sabitlik və Əməkdaşlıq Platformasının ilkin əlamətlərini biz görürük. Ümid edirik ki, bu təşəbbüs və bölgədə yaşanan digər hadisələr, digər təşəbbüslər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə gətirib çıxara bilər. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında həll oluna bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu məsələnin həlli yolları ilə bağlı fikir artıq dünyada daha da aydın görünür. Daha da aydın görünür ki, beynəlxalq hüquq normaları əsas şərtdir. Çox sevindirici haldır ki, nəhayət, Ermənistan tərəfi də bunu qəbul etməyə başlamışdır. Bunun əyani sübutu bu yaxınlarda Moskvada Rusiya, Ermənistan və Azərbaycan prezidentlərinin imzaladığı birgə Bəyannamədir.

Bir sözlə, bölgədə sülhün, sabitliyin tam bərqərar olunması bizim qarşımızda yeni imkanlar, yeni üfüqlər açacaqdır. Əgər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini taparsa, yeni imkanlar açılacaqdır. Bölgədə əməkdaşlıq, bölgədə yaşayan

xalqların bir-biri ilə əlaqələrinin qurulması, ölkələrarası münasibətlər - bütün bunlar öz həllini tapa bilər. Bizim niyyətimiz xoş niyyətdir. Bir daha demək istəyirəm ki, Türkiyə-Azərbaycan təşəbbüsləri, son illər ərzində bölgədə irəli sürülmüş təşəbbüslər yalnız əməkdaşlığa yönəldilibdir. Ümid edirəm ki, növbəti illərdə biz bu təşəbbüslərin daha da böyük nəticələrini görəcəyik.

Mən bu gün çox şadam ki, yenidən qardaş Türkiyədəyəm, yenidən öz dostlarımın arasındayam. Bizim şəxsi münasibətlərimiz də çox səmimidir, çox gözəldir. Həm əziz dostum Prezidentlə, həm əziz dostum Baş nazirlə çoxsaylı görüşlərimiz, - həm Bakıda, həm Ankarada, İstanbulda, digər şəhərlərdə, - həm bizim aramızda olan münasibətləri daha da gücləndirir, eyni zamanda, iki ölkə arasındakı, sözün əsl mənasında, qardaşlıq əlaqələrini gücləndirir. Bu, çox sevindirici haldır. Mən tam əminliklə deyə bilərəm ki, bəlkə də dünyada Türkiyə-Azərbaycan münasibətləri qədər ikinci belə səmimi və yaxın münasibətlər yoxdur. Bu, böyük bir dəyərdir, böyük bir nemətdir. Təbii ki, bu münasibətlər dərin tarixi əsaslar üzərində qurulubdur. Ancaq bununla bərabər, bizim birgə siyasətimiz, bir-birimizə olan münasibət, bir-birimizə göstərilən dəstək, əlbəttə ki, bu münasibətləri daha da gücləndirir.

Mən bütün türk xalqına yeni uğurlar, yeni qələbələr, xoşbəxtlik və rifah arzulayıram!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə rəsmi səfərinin ikinci günü - noyabrın 6-da Türkiyə Böyük Millət Məclisinə (TBMM) gəlmişdir.

Dövlətimizin başçısını TBMM sədrinin müavini Nevzat Pakdil və Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülər parlamentin binası önündə böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev parlamentin iclas salonuna gəldi.

TBMM sədrinin müavini xanım Güldal Mumcu Azərbaycan Prezidentini millət vəkilləri adından salamladı.

Dövlətimizin başçısı parlamentdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli millət vəkilləri,

Hörmətli Baş nazir, əziz dostlar!

Mən çox şadam ki, yenidən qardaş ölkədəyəm.

Bildiyiniz kimi, Azərbaycanda ötən ay keçirilmiş prezident seçkilərindən sonra mən ilk rəsmi səfərimi Türkiyəyə edirəm. Bu, əlbəttə ki, təbii haldır. Ancaq bununla bərabər, bu, bizim münasibətlərimizin nə qədər yüksək səviyyədə olmasını göstərir. Həqiqətən, Türkiyə-Azərbaycan münasibətləri dünyada bir örnəkdir. İnanmıram ki, dünyada tapılsın başqa ölkələr ki, onların arasında münasibətlər belə səmimi, belə gözəl olsun. Bizim münasibətlərimiz dərin tarixi köklər üzərində qurulubdur. Əsrlər boyu bizim xalqları-

mız birlikdə yaşamış, yaratmışlar. Ancaq sonralar dünyada gedən proseslər nəticəsində biz bir-birimizdən ayrı düşmüşdük. Yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə-Azərbaycan münasibətləri qurulmağa başlamışdır. Bu gün iki müstəqil ölkə bir-birinə dəstək verməklə, ikitərəfli münasibətlərin inkişafına xidmət göstərir, eyni zamanda bölgədə gedən proseslərə bizim təsir imkanlarımız güclənir.

Bizim münasibətlərimiz çoxşaxəlidir. Siyasi əlaqələr çox yüksək səviyyədədir, birgə imzalanmış sənədlər çox gözəl hüquqi baza yaradır. İqtisadi sahədə ticarət dövriyyəsi artır və çoxlu türk şirkətləri Azərbaycanda, Azərbaycan şirkətləri Türkiyədə fəaliyyət göstərir. Bu gün biz artıq qarşılıqlı sərmayələrdən danışa bilərik. Bu da çox önəmlidir. Azərbaycana qoyulan sərmayələr bizim iqtisadiyyatımızı gücləndirir və biz çox şadıq ki, bu sərmayələrin böyük hissəsi Türkiyədən gəlir. Son müddət ərzində Azərbaycan şirkətləri də Türkiyəyə sərmayə qoymağa başlamışdır. Bu, bir tərəfdən Azərbaycanın artan imkanlarını göstərir, digər tərəfdən, yenə də demək istəyirəm ki, bütün bunların təməlində bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri dayanır.

Bizim birgə səylərimiz, təşəbbüslərimiz nəticəsində bölgədə çox önəmli və transmilli layihələr icra olunur. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla fəaliyyəti həm bölgədə sabitliyin möhkəmlənməsinə, əməkdaşlığın dərinləşməsinə xidmət göstərir, həm də bizim iqtisadi imkanlarımızı gücləndirir. Bu gün biz artıq Şərq-Qərb enerji dəhlizinin uğurlu fəaliyyətini müşahidə edirik. Onun əsasında da bizim təşəbbüslərimiz dayanır. Hər kəs bilir ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi çox mürəkkəb geosiyasi vəziyyətdə həyata keçirilmişdir. Uzun danışıqlardan, bəzi hallarda uzun mübahisələrdən və edilən təzyiqlərdən sonra biz, nəhayət, bu layihənin həyata keçirilməsinə nail ola bilmişik. Biz əfsanəni gerçəyə çevirmişik. Bizim iradəmiz, xalqlarımızın birgə fəaliyyəti, siyasi rəhbərliyin uğurlu və müdrik siyasəti nəticəsində bu, artıq reallıqdır və hər kəs bu reallıqla hesablaşmalıdır. Bu, sadəcə, bir enerji layihəsi, yaxud da ki, iqtisadi layihə deyildir. Bunun çox böyük mənası var. Bu, xalqlarımızı uzun illər bundan sonra üçün iqtisadi maraqlarla birləşdirir, bizim önəmimizi artırır. Artıq bölgədə Şərq-Qərb enerji dəhlizi və enerji təhlükəsizliyi məsələləri Türkiyə və Azərbaycanın iştirakı olmadan həll oluna bilməz.

Xəzər dənizinin təbii ehtiyatları dünya enerji bazarı üçün yeni mənbədir və bunun önəmi getdikcə artacaqdır. Bu mənbənin başında biz dayanmışıq və əlbəttə ki, bunun gözəl nəticələrini biz ondan sonrakı layihələrdə də görürük. Biz "Şahdəniz" layihəsinin uğurla icra olunmasını birlikdə qeyd etmişik. Bu gün Azərbaycan qazı Türkiyə bazarına daxil olur. Bir neçə il bundan əvvəl Azərbaycan təbii qazın idxalı ilə məşğul idi. Bu gün biz bunu ixrac edirik və ilk növbədə, qardaş Türkiyəyə ixrac olunur. Əminəm ki, növbəti illərdə Azərbaycanda qaz ehtiyatlarının işlənilməsi nəticəsində biz buna daha da böyük həcmdə nail olacağıq. Biz öz siyasətimizlə, öz layihələrimizlə bir-birimizi gücləndiririk və belə də olmalıdır. Belə olan halda, bölgədə və dünyada bizim imkan dairəmiz daha da genişlənəcək, təsir imkanlarımız artacaqdır. O cümlədən, iqtisadi və enerji siyasətimizin uğurla aparılması ilə biz öz siyasi maraqlarımızı daha da dolğun şəkildə müdafiə edəcəyik.

Bu gün biz Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə məşğuluq. Bu da tarixi bir layihədir ki, Türkiyə və Azərbaycan üzərindən Avropanı Asiya ilə birləşdirəcəkdir. Türkiyəni Azərbaycanla dəmir yolu ilə birləşdirəcəkdir. Bunun çox böyük tarixi və əlbəttə

ki, iqtisadi və siyasi önəmi vardır.

Bütün bu layihələr, deyə bilərəm ki, son illər ərzində tamamlandı. Mən xatırlayıram, dörd il bundan əvvəl, 2004-cü ildə bu kürsüdən Məclis qarşısında çıxış edərkən, bu layihələr barədə danışarkən onların uğurlu icrası haqqında fikirlər söyləmişdim. Ancaq o zaman nə Bakı-Tbilisi-Ceyhan, nə Bakı-Tbilisi-Ərzurum, nə də ki, Bakı-Tbilisi-Qars layihələri nə icra olunmuşdu, nə də ki, icrası başlanmışdı. Bu gün isə bunlar reallıqdır. Biz tarix baxımından qısa müddət ərzində, müştərək səylərlə, birgə iradə ilə dostluğumuzun, qardaşlığımızın möhkəmlənməsi ilə bunu bacardıq. Mən heç şübhə etmirəm ki, bundan sonra qarşıda duran bütün məsələlər eyni uğurla həll olunacaqdır.

Bu gün Türkiyə-Azərbaycan birliyi bölgədə sabitləşdirici amildir. Cənubi Qafqazda yaşanan hadisələr bizim hamımızı düşündürür və narahat edir. Biz Azərbaycanda çox şadıq ki, Türkiyə bu məsələlərlə bağlı çox fəal siyasət aparır. Cənubi Qafqazda sabitlik və əməkdaşlıq təşəbbüsü ilə çıxış edən Türkiyə bölgədə gedən proseslərə daha ciddi şəkildə müdaxilə edəcəkdir. Bu müdaxilənin ancaq və ancaq müsbət nəticələri olacaqdır. Biz buna çox böyük önəm veririk, bu təşəbbüsləri alqışlayırıq. Əminəm ki, bu təşəbbüslər və bölgədə yerləşən digər ölkələrin xoş niyyəti nəticəsində Cənubi Qafqazda sabitlik və sülh təmin olunacaqdır. Buna böyük ehtiyac var. Biz çox həssas bölgədə yaşayırıq, çox mürəkkəb tarixi dövrdə yaşayırıq və bizim siyasətimizdən bölgənin, geniş mənada bölgənin gələcək taleyi, sabitliyi asılıdır.

Cənubi Qafqazda yaşanan son gərgin hadisələr bir daha onu göstərir ki, bu bölgədə sülh çox həssas məsələdir. Bölgədə, əslində, sülh bərqərar olunmayıbdır. Atəşkəs rejimi mövcuddur. O da imkan vermir tam əminliklə deyək ki, artıq vəziyyət sabitləşibdir. Cənubi Qafqazda və ümumən bölgədə ən böyük təhlükə mənbəyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Uzun illərdir ki, münaqişə öz həllini tapa bilmir. İyirmi ilə yaxındır ki, Azərbaycan torpaqları işğal altındadır. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, etnik təmizləmə siyasəti Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması, 1 milyondan artıq azərbaycanlının öz doğma torpaqlarında qaçqın, köçkün vəziyyətinə düşməsi ilə nəticələnibdir. Bizim ərazi bütövlüyümüz pozulubdur. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan, əfsuslar olsun, hələ ki, beynəlxalq davranış qaydalarına riayət etmir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etmir. Bu qətnamələrdə Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması nəzərdə tutulubdur. Bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Türkiyənin dəstəyi ilə qəbul olunmuş qərar erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasını tələb edir. O qərar da icra olunmur. Yəni biz burada beynəlxalq hüquq normalarına olan laqeyd münasibəti görürük. Biz ümid edirik ki, bölgədə yaranan yeni vəziyyət münaqişə ilə bağlı olan və məşğul olan bütün tərəfləri daha da fəallaşdıracaqdır. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi bölgədə gedən prosesləri düzgün təhlil edəcək və yeni yaranmış reallıqlarla barışmalı olacaqdır. Bunun nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapa bilər.

Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və işğaldan, etnik təmizləmə siyasətindən əziyyət şəkən Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıda biləcəkdir. Bunu etmək üçün əlbəttə ki, Ermənistan tərəfi siyasi iradə göstərməli və beynəlxalq hüquq normalarına tam şəkildə riayət etməlidir.

Son aylar ərzində bölgədə gedən proseslər, göstərilən təşəbbüslər, Türkiyə tərəfindən irəli sürülmüş təşəbbüs, ondan sonra Rusiyada üç ölkənin prezidentlərinin görüşü və bu görüş nəticəsində qəbul edilmiş siyasi Bəyannamə bizim nikbinliyimizi bir az artırır. Çünki o Bəyannamədə, ilk növbədə, məsələnin beynəlxalq hüquq normaları əsasında həll olunması qeyd edilir. Digər tərəfdən, Bəyannamədə məsələnin mərhələli yollarla həll edilməsi təsdiq olunur.

Bu, həmişə Azərbaycanın mövqeyini əks etdirmişdir.

Biz həmişə demişik ki, məsələ mərhələli yollarla həll olunmalıdır. İlk növbədə, işğal edilmiş ərazilər işğalçı qüvvələrdən boşaldılmalı, Azərbaycan vətəndaşları o bölgələrə qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın gələcək statusu haqqında söhbət aparıla bilər. Ancaq o da aydındır ki, bu status, gələcək status Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Bir sözlə, bu məsələnin həll olunmaması, əlbəttə ki, bölgədə əlavə gərginliyin böyüməsinə gətirib çıxarır. Ancaq bununla, bərabər, biz hesab edirik ki, atılan addımlar və gələcəkdə atılacaq addımlar məsələnin həllinə gətirib çıxara bilər. Bir daha demək istəyirəm ki, Türkiyənin bu işlərə çox ciddi yanaşması bizi çox sevindirir, ruhlandırır. Biz Türkiyənin mövqeyini bəyənirik, dəstəkləyirik və əminəm ki, növbəti aylarda biz yeni siyasi addımların şahidi olacağıq.

Bütövlükdə, bir daha demək istəyirəm ki, bölgədə sülh vəziyyətinin yaranması bizim birgə fəaliyyətimizdən asılıdır. Bizim birgə fəaliyyətimiz təkcə bölgədə gedən proseslərlə məhdudlaşmır. Biz bu gün beynəlxalq müstəvidə öz səylərimizi birləşdiririk. Bütün beynəlxalq təşkilatlarda Türkiyə və Azərbaycan vahid mövqedən çıxış edir. Bu fürsətdən istifadə edərək, mən bu yaxınlarda Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə Türkiyəni, bütün türk xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, böyük qələbədir, böyük uğurdur. Bu, sizin uğurunuzdur, bu, bizim uğurumuzdur.

Biz, eyni zamanda, xaricdə yaşayan soydaşlarımızın birgə fəaliyyəti üçün də əməli-praktik işlər görürük. Azərbaycanda keçirilmiş Türkiyə-Azərbaycan diaspor təşkilatları rəhbərləri forumunun nəticələrini biz çox yüksək qiymətləndiririk. Xaricdə yaşayan soydaşlarımız indi vahid mövqedən çıxış edirlər, birgə tədbirlər keçirirlər. Ölkələrimiz, xalqlarımız haqqında dəqiq, dolğun, ədalətli məlumatı çatdırırlar. Bəzi hallarda bizim haqqımızda süni şəkildə yaradılan mənfi rəy bizim maraqlarımıza təsir göstərir. Əminəm ki, biz xaricdəki diaspor təşkilatlarının birgə fəaliyyəti nəticəsində ölkələrimiz, xalqlarımız, xalqlarımızın tarixi, mədəni irsi, zəngin mədəniyyəti haqqında dünya birliyinə daha dolğun məlumatın çatdırılmasına nail olacağıq. Biz buna çox böyük önəm veririk və mən çox şadam ki, birgə səylərimiz, təkcə ikitərəfli müstəvidə deyil, eyni zamanda, bütün dünyada özünü göstərir.

Biz yaranmış vəziyyətə, əlbəttə ki, reallıq nöqteyi-nəzərindən yanaşmalıyıq. Bu gün reallıq belədir ki, Türkiyə və Azərbaycanın güclənməsi, bizim iqtisadi və siyasi potensialımızın artması nəticəsində bölgədə yeni vəziyyət yaranıbdır. Biz bu gün Xəzər dənizi-Qara dəniz əməkdaşlıq çərçivələrini genişləndiririk. Deyə bilərəm ki, bu gün enerji təhlükəsizliyi məsələləri dünyanın gündəliyində ön sıralardadır. Bu gün nəqliyyat təhlükəsizliyi məsələləri uğurla həll edilir. Bütün bu işlərdə Türkiyə və Azərbaycanın

mövqeyi həlledici rol oynayır. Bizim birliyimizdən həm gələcəyimiz asılıdır, həm bölgədə gedən proseslər asılıdır, həm də ki, ölkələrimizin artan siyasi çəkisi və bunun nəticəsində bizim maraqlarımızın daha dolğun şəkildə müdafiə olunması asılıdır.

Mən çox şadam ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Türkiyə-Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir, davam edir. Mənim bu səfərim bunun əyani sübutudur. Bizim aramızda çox səmimi dostluq münasibətləri vardır. Biz bu münasibətlərə çox böyük önəm veririk, onları çox vacib amil hesab edirik. Mən şübhə etmirəm ki, növbəti illərdə bizim birgə səylərimiz ölkələrimizi daha da gücləndirəcəkdir.

Hörmətli millət vəkilləri, bu gün mən, eyni zamanda, Azərbaycanda son illər ərzində gedən proseslər haqqında da sizə qısaca olaraq öz fikirlərimi bildirmək istəyirəm. Son beş il ərzində Azərbaycan uğurlu yol keçmişdir. Azərbaycanda siyasi islahatlar çox uğurla aparılmışdır. Azərbaycan dünya birliyinə uğurla inteqrasiya etmişdir. Bizim dünya birliyinə inteqrasiya siyasətimiz çox aydındır, çox dəqiqdir. Bizim üçün, tariximiz üçün, millətimizin mentaliteti üçün məqbul olan bütün müsbət təcrübələri Azərbaycanda tətbiq etməyə çalışırıq. İstər iqtisadi, istər siyasi, yaxud da ki, sosial sahədə. Biz öz gələcəyimizi dərin və zəngin tarixi köklər üzərində qururuq. Bizim üçün milli-mənəvi dəyərlərimiz, ənənələrimiz başlıca rol oynayır. Bu möhkəm mənəvi zəmin üzərində Azərbaycan müasirləşir, yeniləşir və Azərbaycanda aparılan siyasi və iqtisadi islahatlar ölkəmizi gücləndirir.

Bizim müstəqillik tariximiz birmənalı olmamışdır. Müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox ağır keçmişdir. Hətta deyə bilərəm ki, ilkin mərhələdə bizim gələcək müstəqilliyimiz şübhə altına düşmüşdü. Ölkədə gedən xoşagəlməz proseslər, daxili çəkişmələr, hətta vətəndaş müharibəsi, torpaqlarımızın bir hissəsinin işğal altına düşməsi və bütövlükdə qeyri-sabit vəziyyət Azərbaycanın gələcəyini qeyri-müəyyən edirdi. Ancaq bu gün biz gələcəyə çox böyük ümidlərlə, çox böyük nikbinliklə baxırıq. Azərbaycan bu gün tam şəkildə müstəqil siyasət aparır. Bizim müstəqil siyasət aparmaq imkanlarımız möhkəm iqtisadi əsas üzərində qurulubdur. Çünki iqtisadi müstəqillik olmasa, siyasi müstəqillikdən söhbət etmək mümkün deyildir. Bu gün müstəqil siyasət aparmaqla Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. Bizim xoşməramlı təşəbbüslərimiz rəğbətlə qarşılanır. Son illər ərzində Azərbaycanda siyasi islahatların dərinləşməsi, demokratiyanın inkişafı istiqamətində çox böyük işlər görülüb və bütün dünya bunun şahididir.

Bununla bərabər, iqtisadi islahatlar uğurla aparılır. Bəli, Azərbaycanın çox zəngin təbii ehtiyatları vardır. Neft, qaz və başqa təbii ehtiyatlarımız Azərbaycanın uğurlu inkişafını, ən azı, növbəti 100 il ərzində təmin edəcəkdir. Bütün hesablamalar göstərir ki, təbii qaz ehtiyatları, ən azı, 100 il müddətində bizə kifayət edəcəkdir. Amma bununla bərabər, uğurlu enerji siyasətinin aparılması ilə bərabər, biz iqtisadiyyatın digər sahələrinin inkişafına çox böyük diqqət göstəririk. Bu gün iqtisadiyyatımız çoxşaxəlidir. Qeyri-neft sektorunun inkişafına böyük önəm verilir.

İqtisadi islahatların aparılmasında Azərbaycan çox böyük uğurlar əldə edibdir. Bunun ən gözəl təzahürü ondan ibarətdir ki, bu il 2008-ci ildə Dünya Bankı tərəfindən aparılan tədqiqata əsasən, Azərbaycan dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanınıbdır. Bu, böyük bir nəticədir. Bu onu göstərir ki, bizim iqtisadi islahatlarımız çox müsbət-

dir, iqtisadiyyatımız tam liberallaşıbdır. Ümumi daxili məhsulda özəl sektorun payı 85 faiz təşkil edir. Çox geniş özəlləşdirmə siyasəti aparılmışdır. Azərbaycan son 4 il ərzində iqtisadi artım sürəti baxımından dünya miqyasında birinci ölkədir. Dörd il ardıcıllıqla bizim iqtisadiyyatımız dünyada ən yüksək sürətlə artıbdır. Son beş il ərzində bütövlükdə iqtisadiyyat 2,7 dəfə artıbdır.

Azərbaycanda son beş il ərzində sənaye istehsalı təxminən 3 dəfə artıbdır. Azərbaycanda böyük maliyyə resursları yaradılır. Bu gün bizim maliyyə resurslarımız təxminən 20 milyard dollara bərabərdir. Son beş il ərzində büdcə xərcləri 10 dəfə artıbdır. Sosial ödəmələr 10 dəfə, minimum əmək haqqı 8 dəfə, orta əmək haqqı 4 dəfə artıbdır. Demək olar ki, Azərbaycanda işsizlik problemi əsasən həll olunmuşdur. Son beş il ərzində 740 min yeni iş yerləri açılmışdır və onların tam əksəriyyəti bölgələrdə, qeyri-neft sektorundadır. Biz Dünya Bankı ilə birlikdə yoxsulluğun azaldılması üçün çox vacib addımları atırıq və son beş il ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə düşmüşdür. Bu, bir tərəfdən, Azərbaycanda gedən sosial siyasətin əlaməti kimi göstərilə bilər, digər tərəfdən,- o da çox önəmlidir, - onu göstərir ki, Azərbaycanda neftdən gələn gəlirlər cəmiyyətdə ədalətli şəkildə bölünür, tam şəffaflıq təmin olunubdur. Əminəm ki, növbəti illərdə bütün bu uğurlu nəticələr davam edəcəkdir.

Əlbəttə ki, problemlər də var, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da bu problemlər var. Biz bu problemlərin həlli üçün çalışırıq. Hər bir sahə üçün xüsusi proqramlar icra olunur və son beş il ərzindəki uğurlu fəaliyyətimiz deməyə əsas verir ki, gələcəkdə də bu müsbət meyillər davam edəcək, Azərbaycan daha da güclənəcək, müasirləşəcək və dünya birliyində daha da möhkəm yer tutacaqdır.

Bütün bunları etmək üçün həm siyasi iradəmiz, konkret proqramlarımız var, həm də bizim dostlarımız var. Dünyada bizim dostlarımızın sayı artır. Ancaq bu dostların arasında, həmişə olduğu kimi, Türkiyənin xüsusi yeri, xüsusi rolu var. Mən əminəm ki, bundan sonra da Türkiyə-Azərbaycan münasibətləri, dostluq, qardaşlıq üzərində qurulan münasibətlər daim inkişaf edəcək, xalqlarımıza sülh, rifah, əmin-amanlıq gətirəcəkdir.

Əziz dostlar, mənə bu fürsəti verdiyinizə görə sizə bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri uğurla inkişaf edəcəkdir.

Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

ANKARADA HEYDƏR ƏLİYEV KÜÇƏSİNİN AÇILIŞI OLMUŞDUR

Noyabrın 6-da Ankaranın Batıkənd məhəlləsində Heydər Əliyev küçəsinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, habelə Türkiyənin energetika və təbii sərvətlər naziri Hilmi Gülər və xanımı, Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek mərasimdə iştirak edirdilər.

Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə salamladılar.

Prezident İlham Əliyev və Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek Heydər Əliyev küçəsinin açılışını bildirən lövhə üzərindən örtüyü götürdülər. Lövhə-

nin üzərində "Heydər Əliyev küçəsinin açılışı Azərbaycan Prezidenti İlham Əliyevin və Ankara Böyük Şəhər Bələdiyyəsinin sədri Melih Gökçek tərəfindən 2008-ci il noyabrın 6-da olmuşdur" sözləri yazılmışdır.

Dövlətimizin başçısına məlumat verildi ki, uzunluğu 900 metrə yaxın olan bu küçəyə 2008-ci ilin iyununda ulu öndər Heydər Əliyevin adı verilmişdir. Ətrafda Heydər Əliyev adına ibtidai məktəb, ümummilli liderin adını daşıyan park, yaşayış evləri, ofislər və inzibati binalar yerləşir. Ətraf ərazi abadlaşdırılmışdır.

Ankaralılar türk dünyasının böyük oğlu Heydər Əliyevin xatirəsini əziz tuturlar və küçəyə onun adının verilməsi də böyük şəxsiyyətə olan hörmət və məhəbbətin nümunəsidir.

PREZİDENT İLHAM ƏLİYEV ANKARADA HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞ OLMUŞDUR

Noyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Ankarada Heydər Əliyev parkı ilə tanış oldular.

Parka toplaşan sakinlər, ictimaiyyətin nümayəndələri, məktəblilər Prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı böyük hörmətlə qarşıladılar. Onların əllərində türk dünyasının böyük oğulları Heydər Əliyevin və Atatürkün portretləri var idi.

Səkkiz hektara yaxın ərazisi olan parka 2008-ci ilin iyun ayında ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Parkın girişində xüsusi hazırlanmış lövhədə ulu öndərin tərcümeyi-halı yazılmışdır. Buraya istirahətə gələnlər xalqımızın dahi oğlunun həyat və fəaliyyəti barədə məlumat ala bilirlər.

Parkda iki müasir fəvvarə quraşdırılmış, 11 minədək gül, 15 min ağac əkilmiş, 35 min kvadratmetr sahədə çəmənlik salınmışdır. Uşaqların əylənməsi üçün xüsusi qurğular quraşdırılmışdır. Sakinlərin istirahətinin səmərəli təşkili, idmanla məşğul olmaları üçün də lazımi şərait yaradılmışdır.

Dövlətimizin başçısı və xanımı ulu öndərin tərcümeyi-halı yazılmış lövhənin qarşısında xatirə şəkli çəkdirdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin parkdakı əzəmətli abidəsi önünə gül dəstələri qoydular, burada xatirə şəkli çəkdirdilər. Abidənin müəllifi Azərbaycan heykəltəraşı Natiq Əliyevdir.

Parka toplaşmış məktəblilər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə olan məhəbbətlərini bildirdilər. Dövlətimizin başçısı və xanımı məktəblilərlə xatirə şəkli çəkdirdilər.

ANKARADA HEYDƏR ƏLİYEV ADINA İBTİDAİ MƏKTƏBLƏ TANIŞLIQ

Noyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Ankaranın Batıkənd məhəlləsində Heydər Əliyev adına ibtidai məktəbdə olmuşdur.

Məktəbin binasının həyətində şagirdlər, valideynlər, məhəllə sakinləri Prezident İlham Əliyevi, xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar.

Məktəblilərin ifasında Azərbaycanın və Türkiyənin milli rəqsləri, xalq mahnıları böyük maraq doğurdu.

Azərbaycan Prezidenti məktəblə tanış oldu. Şagirdlər məktəbin himnini oxudular, ulu öndər Heydər Əliyevə olan məhəbbətlərini bir daha bildirdilər.

Dövlətimizin başçısı və xanımı məktəblilərin əl işlərinə baxdılar, sinif otaqlarında dərs prosesini izlədilər, uşaqların təhsili ilə maraqlandılar.

Məlumat verildi ki, Ankaranın bu hissəsində sakinlərin sayının sürətlə artması nəticəsində ibtidai təhsil yaşındakı uşaqların da sayı çoxalmışdır və 2 ibtidai məktəb azlıq edirdi. Bunu nəzərə alaraq, 10 sinifdən ibarət yeni məktəb tikilmiş, sonradan siniflərin sayı 27-yə çatdırılmışdı.

Ankara valiliyi ilə Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi arasında imzalanmış protokola uyğun olaraq "Qardaş qurum" layihəsi çərçivəsində 2006-cı il yanvarın 17-dən məktəbə ulu öndər Heydər Əliyevin adı verilmişdir. Hazırda məktəbdə 1440 şagird təhsil alır.

Prezident İlham Əliyev şagirdlərə ölkənin layiqli vətəndaşları olmaları üçün yaxşı təhsil almalarını tövsiyə etdi.

Dövlətimizin başçısı məktəblə tanışlıqdan sonra xatirə kitabına ürək sözlərini yazdı:

"Heydər Əliyev məktəbinin öyrəncilərinə yaxşı oxumaq arzulayıram. Məktəbin müəllimlərinə uğurlar diləyirəm. Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

6 noyabr 2008-ci il"

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Noyabrın 6-da Ankarada - Baş nazirin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə seçkilərdən sonra Prezident İlham Əliyevin ilk rəsmi səfərini Türkiyəyə etməsinin əhəmiyyəti vurğulandı, bu səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət etdiyi bildirildi.

Söhbət zamanı ikitərəfli əlaqələrin bölgədə işbirliyinin güclənməsi baxımından önəmi də vurğulandı və qarşılıqlı əməkdaşlığın bundan sonra da bütün sahələrdə genişlənəcəyinə əminlik ifadə olundu.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İlkər Başbuğun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələri əhatə etdiyini, o cümlədən hərbi sahədə uğurlu işbirliyinin yaradıldığını vurğuladı. Yenidən Prezident seçildikdən sonra Türkiyəyə ilk rəsmi səfər etdiyini bildirən dövlətimizin başçısı səfərin yüksək səviyyədə keçdiyini, görüşlər zamanı ikitərəfli münasibətlərimizin bir daha təhlil olunduğunu və gələcək üçün yeni planların müzakirə edildiyini qeyd etdi. Prezident İlham Əliyev general İlkər Başbuğun Türkiyə Baş Qərargahının rəisi vəzifəsinə təyin olunandan sonra ilk dəfə Azərbaycana səfər etməsinin əhəmiyyətindən danışaraq əmin olduğunu bildirdi ki, bu səfər hərbi əməkdaşlıq sahəsindəki uğurların daha da artmasına kömək edəcəkdir.

Ordu generalı İlkər Başbuğ yeni vəzifəyə təyin olunduqdan sonra ilk dəfə Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi. O, yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, Azərbaycan xalqının rifahı naminə Prezident İlham Əliyevə uğurlar arzuladı. İlkər Başbuğ bir millət, iki dövlət olan Azərbaycanla Türkiyənin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığının daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 7-də Avropa İttifaqının (Aİ) enerji məsələləri üzrə komissarı Andris Piebalqs ilə görüşmüşdür.

Görüşdə Aİ ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın cari vəziyyəti barədə fikir mübadiləsi aparılmış, əlaqələrin inkişaf perspektivləri müzakirə olunmuşdur.

A.Piebalqs Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətli rolunu vurğulamış, Aİ-nin ölkəmizlə bu sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın enerji layihələrinin icrasının hazırkı vəziyyəti barədə məlumat vermiş, bu layihələrin enerji daşıyıcılarının təchizatının şaxələndirilməsinə xidmət etdiyini söyləmişdir.

Görüşdə noyabrın 14-də Bakıda keçiriləcək Enerji sammiti ilə bağlı fikir mübadiləsi aparılmış, bu tədbirin enerji daşıyıcılarının hasilatçısı, istehlakçısı və nəqledicisi olan ölkələr və müvafiq şirkətlər arasında regional və qlobal enerji məsələlərinin müzakirəsi üçün faydalı olacağı vurğulanmışdır.

Söhbət zamanı son vaxtlar bölgədə baş verən proseslər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar barədə də fikir mübadiləsi edilmişdir. Nazir E.Məmmədyarov Aİ-ni bu münaqişə ilə bağlı öz bəyanatlarında daha

dəqiq olmağa, xüsusilə də regional münaqişələrə münasibətdə mövqeyində ikili standartlara yol verməməyə çağırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKUTEL-2008 XIV AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN DÜNYA ŞÖHRƏTLİ ALİM, HƏMYERLİMİZ LÜTFİ ZADƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Bakutel-2008 XIV Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan dünya şöhrətli alim, həmyerlimiz Lütfi Zadəni qəbul etmişdir.

Cənab Lütfi Zadə Bakıya səfərindən və Prezident İlham Əliyevlə görüşündən məmnunluğunu bildirdi. İlk dəfə 1965-ci ildə Bakıda birgünlük səfərdə olduğunu xatırladan alim budəfəki səfərin onda böyük təəssürat yaratdığını söylədi. O, ötən dövr ərzində ölkəmizin xeyli dəyişdiyini, Bakıda böyük abadlıq və quruculuq işləri ilə yanaşı, elmin və mədəniyyətin inkişafının da yüksək səviyyədə olduğunu vurğuladı. Lütfi Zadə əldə olunan bütün bu nailiyyətləri Azərbaycan Prezidenti İlham Əliyevin elmə və mədəniyyətə göstərdiyi qayğı və diqqətin nəticəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan hazırkı imkanlarından istifadə etməklə elmin, təhsilin və mədəniyyətin müxtəlif sahələrini inkişaf etdirməyi, ən müasir texnologiyaların tətbiqini qarşıya məqsəd qoymuşdur. Prezident İlham Əliyev dedi ki, indi ölkə üçün başlıca prioritet məsələ qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Bakutel-2008 XIV Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisinin əhəmiyyətindən danışan dövlətimizin başçısı informasiya texnologiyaları sahəsində ölkəmizin dünyanın qabaqcıl şirkətləri ilə sıx əməkdaşlıq etdiyini və Azərbaycanın yaxın gələcəkdə bu sahədə regionun mərkəzinə çevrilməsi üçün yaxşı imkanlarının olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Estoniya Parlamenti sədrinin müavini Kristina Oyulandı qəbul etmişdir.

Xanım Kristina Oyuland Prezident İlham Əliyevi yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi. Azərbaycana yenidən səfər etməsindən məmnunluğunu bildirən Kristina Oyuland ölkəmizdə keçiriləcək "Bakutel-2008" 14-cü Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisinin əhəmiyyətini vurğuladı. Estoniyanın bu tədbirə böyük maraq göstərdiyini və sərgidə təmsil olunduğunu söylədi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı son illər Azərbaycanda bir çox beynəlxalq konfrans və sərgilərin keçirildiyini və bu sahədə ölkəmizin artıq zəngin təcrübəyə malik olduğunu vurğuladı. "Bakutel-2008" 14-cü

Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisinin əhəmiyyətindən söhbət açan Prezident İlham Əliyev tədbirin bu sahədə görülmüş işlərin nəzərdən keçirilməsi üçün yaxşı fürsət yaratdığını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN SENATORU BOB KORKERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də ABŞ Konqresinin senatoru Bob Korkeri qəbul etmişdir.

Senator Bob Korker prezident seçkilərində qələbə münasibətilə dövlətimizin başçısına təbriklərini yetirdi. Ölkəmizə səfərin böyük maraq doğurduğunu deyən Bob Korker Azərbaycanın Əfqanıstanda və İraqda aparılan antiterror əməliyyatlarında fəal iştirakını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı təbrikə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycanla ABŞ arasında əməkdaşlığın çox geniş sahələri əhatə etdiyini və bu əməkdaşlığın əhəmiyyətli olduğunu söylədi. Ölkə haqqında ətraflı məlumata malik olmaq üçün səfərlərin böyük önəm daşıdığını vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ilk dəfə Azərbaycana gəlmiş qonağın bu səfəri ölkəmizlə yaxından tanışlıq baxımından faydalı olacaqdır.

ÇİN VƏ ONUN AYRI-AYRI ƏYALƏTLƏRİ SÜRƏTLƏ İNKİŞAF EDƏN AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIRLAR

Çinin Sintszyan-Uyğur Muxtar Respublikası Xalq Siyasi Məşvərət Şurasının sədri Aysxaydi Krımubayın rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti noyabrın 11-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov ilə görüşmüşdür.

Z.Əsgərov Azərbaycan ilə Çin Xalq Respublikası arasında əlaqələrin qədim tarixindən danışmış, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Çinə səfərinin münasibətlərimizin inkişafına təkan verdiyini bildirmişdir. O demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfərindən sonra isə əlaqələrimiz yeni müstəvidə inkişaf etməyə başlamışdır.

Z.Əsgərov bildirmişdir ki, ölkələrimiz arasında əlaqələr beynəlxalq hüquq normalarına əsaslanır. Bunun nəticəsidir ki, Çin beynəlxalq müstəvidə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu, ölkəmizdə çox yüksək qiymətləndirilir.

Sonra Z.Əsgərov parlamentlərarası əlaqələrin inkişafından danışmış, Milli Məclisdə Azərbaycan-Çin dostluq qrupunun fəaliyyət göstərdiyini diqqətə çatdırmışdır.

Çin nümayəndə heyətinin rəhbəri Aysxaydi Krımubay demişdir ki, Azərbaycana səfərinin məqsədi ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə, iqtisadi-ticarət dövriyyəsinin artırılmasına dair fikir mübadiləsi aparmaqdır. Qonaq Azərbaycanda gedən proseslərin Çində, eləcə də Sintszyan-Uyğur Muxtar Respublikasında diqqətlə izlənildiyini bildirmiş, çox qısa bir zamanda ölkəmizin iqtisadi, siyasi və mədəni sahələrdə qazandığı uğurların ürəkaçan olduğunu qeyd etmişdir. O demişdir ki, Çin və onun ayrı-ayrı əyalətləri sürətlə inkişaf edən Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdırlar.

Görüşdə parlamentlərarası, iqtisadi, ticarət əlaqələrinin inkişafı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ CƏRRAH, GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də dünya şöhrətli cərrah, görkəmli alim və ictimai xadim Cavad Heyəti qəbul etmişdir.

Cavad Heyət Azərbaycan Prezidenti İlham Əliyevlə yenidən görüşündən məmnunluğunu bildirdi. O, ölkəmizdə bütün sahələrdə böyük inkişaf proseslərinin uğurla davam etdirilməsindən fərəh duyduğunu söylədi.

Prezident İlham Əliyev doktor Cavad Heyətin müxtəlif sahələrdəki xidmətlərini yüksək qiymətləndirdi və ona gələcək ictimai fəaliyyətində müvəffəqiyyətlər arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Amerika Birləşmiş Ştatlarının energetika naziri Samuel Bodmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurla inkişaf etdiyi bildirildi. Qlobal enerji layihələrinin həyata keçirilməsində Azərbaycanla ABŞ arasında əməkdaşlığın önəmi vurğulandı və bu sahədə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı Bakıda keçiriləcək enerji sammitinin əhəmiyyətinə toxunularaq, bu tədbirin enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsinə xidmət etdiyi bildirildi.

XARİCİ İŞLƏR NAZİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 12-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzə ilə görüşmüşdür.

XİN-in mətbuat xidmətindən bildirmişlər ki, görüşdə Azərbaycan-ABŞ əməkdaşlığı, regional, enerji və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Noyabrın 14-də Bakıda keçiriləcək Enerji sammitinin əhəmiyyəti vurğulanmış, regional enerji layihələri müzakirə edilmişdir.

M.Brayzə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Moskva Bəyannaməsinin imzalanmasını yüksək qiymətləndirmiş və irəli getmək üçün imkanların olduğunu vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Mətyu Brayzəni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASI QƏBUL ETMİŞDİR

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstan Respublikasının inkişaf naziri Xristos Foliası qəbul etmişdir.

Xristos Folias Prezident İlham Əliyevə ölkəsinin Baş naziri Konstantinos Karamanlisin salamlarını çatdırdı. O, Bakı enerji sammitinin əhəmiyyətini, bu sahədə əməkdaşlığın vacibliyini vurğuladı.

Prezident İlham Əliyev nazir Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişlənməsinə töhfə verəcəyini, qonağın səmərəli görüşlər keçirəcəyinə ümidvar olduğunu bildirdi.

Bakıda enerji sammitinin əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu tədbirin ölkələr arasında enerji sahəsində əməkdaşlıq baxımından yaxşı nəticələr verəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyev Yunanıstanın Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN BAŞ NAZİRİ ANDRUS ANSİPİ QƏBUL ETMİŞDİR

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Estoniya Respublikasının Baş naziri Andrus Ansipi qəbul etmişdir.

Prezident İlham Əliyevi yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik edən Andrus Ansip ölkəmizə çoxdan səfər etmək arzusunda olduğunu və bu imkanın yaranmasından məmnunluğunu söylədi.

Prezident İlham Əliyev təbrikə görə təşəkkür etdi. Dövlətimizin başçısı Azərbaycanın bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, son seçkilərdə də xalqın ona etimad göstərməsinin gələcək uğurların əldə edilməsi üçün yaxşı əsas yaratdığını bildirdi.

Enerji sahəsində Azərbaycanın təşəbbüslərinin yeni formatda daha da genişləndiyini qeyd edən dövlətimizin başçısı bu sahədə əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu dedi.

Estoniya hökumətinin başçısı dünyada iqtisadi böhranın müşahidə olunduğu bir vaxtda Azərbaycanda sürətli iqtisadi inkişafın getdiyini vurğuladı. O, ölkələrimiz arasında ikitərəfli əlaqələrin yaxşı səviyyədə olduğunu və bundan sonra da inkişafı üçün kifayət qədər potensialın mövcudluğunu bildirdi. Andrus Ansip ölkəsinin Azərbaycanla əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin genişlənməsindən məmnunluq ifadə olundu. Növbəti enerji sammitinin Bakıda keçirilməsinin önəmini vurğulayan dövlət başçıları bu tədbirin enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətli olduğunu vurğuladılar. Ukrayna Prezidentinin Bakıya səfərinin bu sahədə ölkələrimiz arasında əlaqələrin və ümumən ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.

Litva Prezidenti ona və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq etdi və ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. O, beynəlxalq iqtisadi əməkdaşlıq baxımından Bakıda təşkil olunan enerji sammitinin əhəmiyyətinə toxunaraq, bunu çoxtərəfli əlaqələrin yaxşı nümunəsi kimi qiymətləndirdi.

Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan söhbət açan Litva Prezidenti ölkəmizin təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı enerji layihələrinin önəmini vurğuladı. Litva rəhbəri Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın faydalı olacağına da əminliyini söylədi.

Prezident İlham Əliyev Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə dinamik şəkildə genişləndiyini məmnunluqla qeyd etdi, əlaqələrimizin Azərbaycan-Avropa İttifaqı çərçivəsində də önəmli olduğunu bildirdi.

Prezidentlər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə dost və qardaş ölkələr olan Azərbaycanla Türkiyə arasında əlaqələrin sürətlə inkişaf etdiyi bildirildi, dövlətimizin başçısı İlham Əliyevin bu yaxınlarda Türkiyəyə

rəsmi səfərinin yüksək səviyyədə həyata keçirildiyi və bunun qarşılıqlı münasibətlərin daha da genişlənməsinə töhfə verdiyi vurğulandı.

Prezidentlər Bakıda təşkil olunan enerji sammitinin əhəmiyyətinə toxunaraq, qlobal enerji layihələrində Azərbaycan və Türkiyənin sıx əməkdaşlığının önəmini və ölkələrimiz arasında əlaqələrin bundan sonra da bütün sahələrdə inkişaf edəcəyini vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə Azərbaycanın hökumət nümayəndə heyəti MDB ölkələri Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün noyabrın 13-də Moldova paytaxtına gəlmişdir.

Noyabrın 14-də səhər Kişinyovda, Moldova Prezidentinin rəsmi iqamətgahında dövlət başçısı Vladimir Voronin Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Moldova paytaxtına gəlmiş hökumət nümayəndə heyətlərinin başçıları ilə görüşmüşdür.

Moldova dövlətinin başçısı MDB ölkələrinin hökumət rəhbərlərini səmimiyyətlə salamlamış və Kişinyov sammitinin işinin uğurlu olacağına ümid etdiyini bildirmişdir. Vladimir Voronin görüşün gündəliyinə daxil edilmiş məsələlərin vacibliyini vurğulayaraq qeyd etmişdir ki, bu məsələlərin ən vacibləri iqtisadi xarakter daşıyır.

Sonra iqamətgahın "Ağ salon"unda MDB Hökumət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilmişdir. MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev və Moldovanın Baş naziri Zinaida Qreçanaya hökumət nümayəndə heyətlərinin başçılarını səmimiyyətlə salamlamışlar.

Daha sonra Kişinyovdakı Respublika Sarayının Böyük salonunda Şuranın geniş tərkibdə iclası başlanmışdır. İclası Birliyin Hökumət Başçıları Şurasının sədri, Belarus Respublikasının Baş naziri Sergey Sidorski açmışdır.

Hökumət başçıları 30-a yaxın sənəd və qərarı müzakirə etmişlər. Görüşün əsas yekunlarından biri 2020-ci ilə qədər olan dövr üçün MDB-nin İqtisadi İnkişaf Strategiyasının imzalanması olmuşdur. Bu sənəddə Birlik ölkələrinin iqtisadi inkişafının məqsədləri, vəzifələri və mərhələləri, eləcə də iqtisadi əməkdaşlığın əsas sahələri müəyyən edilir.

Birliyin hökumət başçıları 2020-ci ilə qədər olan dövr üçün nəqliyyat sahəsində əməkdaşlığın üstün istiqamətləri ilə bağlı bir sıra sənədləri, əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqi statusu haqqında konvensiyanı imzalamış, İqtisadi Şuraya dünya böhranına qarşı mübarizə üzrə əlavə tədbirlər kompleksini işləyib hazırlamaq barədə tapşırıqlar vermiş, 2009-cu ildə Aşqabadda kənd təsərrüfatı forumu keçirilməsi təklifini bəyənmişlər. Azərbaycan öz milli maraqlarını və ölkə qanunvericiliyinə müvafiqlik prinsipini əsas tutaraq, bəzi sənədləri imzalamamışdır.

MDB Hökumət Başçıları Şurasının növbəti iclasının 2009-cu il may ayında Astanada keçirilməsi qərara alınmışdır.

İclas başa çatandan sonra keçirilmiş mətbuat konfransında elan edilmişdir ki, 2009-cu il yanvarın 1-dən etibarən MDB-nin nizamnamə orqanlarında, o cümlədən Hökumət Başçıları Şurasında sədrliyi Moldova Respublikası həyata keçirəcəkdir.

İclas çərçivəsində Azərbaycanın Baş naziri Artur Rasizadə və Ukrayna hökumətinin başçısı Yuliya Timoşenko arasında təkbətək görüş olmuşdur. Söhbətdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdiyi vurğulandı. Bakıda keçirilən beynəlxalq Enerji Sammitinin əhəmiyyəti qeyd olundu, ikitərəfli və beynəlxalq əməkdaşlıq baxımından önəm daşıdığı bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ

Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin geniş spektrdə inkişafından razılıq ifadə olundu. Dövlət başçılarının görüşlərinin qarşılıqlı əlaqələrin möhkəmlənməsində əhəmiyyəti vurğulandı.

Beynəlxalq Enerji Sammitinə toxunan Prezidentlər ölkələrarası əlaqələrin inkişafı, eləcə də enerji sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından tədbirin əhəmiyyətini yüksək qiymətləndirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Macarıstan Respublikasının Baş naziri Ferents Dyurçanı qəbul etmişdir.

Görüşdə Azərbaycanla Macarıstan arasında münasibətlərin genişlənməsindən məmnunluq ifadə olundu, əlaqələrimizin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm rol oynadığı bildirildi. Bakıda keçirilən Enerji Sammitinin önəmi, enerji sahəsində beynəlxalq əməkdaşlığın inkişafında bu tədbirin əhəmiyyəti xüsusi vurğulandı və qarşılıqlı əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə edildi.

BAKIDA IV ENERJİ SAMMİTİ KEÇİRİLMİŞDİR

Noyabrın 14-də Bakıda, "Gülüstan" sarayında IV Enerji Sammiti keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə iştirak etmək üçün saraya gələn Türkiyə Prezidenti Abdullah Gülü, Litva Prezidenti Valdas Adamkusu, Ukrayna Prezidenti Viktor Yuşşenkonu, Gürcüstan Prezidenti Mixail Saakaşvilini, Polşa Prezidenti Lex Kaçinskini, Bolqarıstanın vitse-prezidenti Angel Marini, Macarıstanın Baş naziri Ferents Dyurçanı və Estoniyanın Baş naziri Andrus Ansipi səmimiyyətlə qarşıladı.

Sammitdə ABŞ-ın energetika naziri Samuel Bodman, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Andris Piebalqs, ümumən 21 ölkənin nümayəndələri və diplomatlar iştirak edirdilər.

Dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri əvvəlcə rəsmi foto çəkdirdilər.

Beynəlxalq enerji təhlükəsizliyi problemlərinə həsr olunmuş, əsasən, Xəzər hövzəsində hasil edilən enerji daşıyıcılarının Qara dəniz, Baltik dənizi regionlarına və Mərkəzi Avropaya çatdırılması üçün Odessa-Brodı neft kəmərinin yaradılması və digər məsələlərin müzakirəsinin nəzərdə tutulduğu sammiti Azərbaycan Prezidenti İlham Əliyev giriş nitqi ilə açdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

- Hörmətli cənab prezidentlər!

Hörmətli hökumət başçıları!

Əziz qonaqlar, xanımlar və cənablar!

Mən, ilk növbədə, sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm və Bakı Enerji Sammitində iştirak etmək üçün buraya gəldiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Biz hazırkı beynəlxalq tədbirə çox böyük önəm veririk. Burada dost ölkələr olduqca geniş şəkildə təmsil edilibdir. Enerji təşəbbüslərimizi açıq və mehribanlıq şəraitində müzakirə etmək imkanımız oldu.

Bu gün regionumuzda enerji təhlükəsizliyi məsələləri sahəsində artıq gözəçarpan nailiyyətlər vardır. Azərbaycan dünyada quruda və dənizdə ilk dəfə neft hasil edən ölkədir. Lakin biz yalnız müstəqillik əldə etdikdən sonra öz sərvətlərimizin sahibinə çevrildik. Azərbaycan müstəqil olduqdan əvvəl burada böyük həcmdə neft hasil edilirdi. Ancaq müstəqillik əldə olunan zaman hasilatın həcmi, əfsuslar olsun ki, daxili tələbatımızı ödəmirdi. Biz enerji imkanlarımızı bərpa etmək üçün bir çox sərmayələr cəlb etməyə və dünyanın aparıcı neft şirkətləri ilə sıx əməkdaşlıq etməyə çalışdıq.

Sizə deyə bilərəm ki, Azərbaycan müstəqilliyini elan etdiyi vaxt burada hasilatın həcmi təqribən 10 milyon ton səviyyəsində idi. Bu gün isə Azərbaycanda hasilatın ümumi həcmi 50 milyon tondan çoxdur. Biz gələn illər ərzində hasilatı artırmağı planlaşdırırıq.

Biz dünyanın aparıcı enerji şirkətləri ilə əməkdaşlığın bəhrəsini görürük. Hazırda Azərbaycanda yerli və xarici şirkətlər arasında, o cümlədən, hökumətlə çox yaxşı tərəfdaşlıq

ruhu mövcuddur. Fəal praktik əməkdaşlığın 14 illik dövrü ərzində burada heç zaman mübahisələrimiz və ya razılaşmalara yenidən baxılması cəhdləri müşahidə olunmayıbdır. Bu, etimadı və proqnozlaşdırmanı artırır. İftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda başladığımız layihələr daha geniş enerji əməkdaşlığına yol açır. Bu, Azərbaycan neftini Avropa və dünya bazarlarına çıxaran boru kəməri ilə başladı. Həmin iş özlüyündə bizim üçün tarixi bir hadisə idi, çünki coğrafi mövqeyimiz Avropa və dünyanın neft bazarlarına birbaşa çıxışı təmin etmirdi. Lakin bundan əvvəl biz hələ sərmayələri cəlb etməli və hasilatı artırmalı idik. Bütün bunlar burada yaxşı əməkdaşlıq ruhunda yerinə yetirilmişdir. Azərbaycanda geniş beynəlxalq əməkdaşlığın olması hazırkı sürətli iqtisadi inkişafımızda çox mühüm rol oynayır. Biz enerji təhlükəsizliyinə, iqtisadi sabitliyə nail olduq. Bunun nəticəsində, müstəqilliyimizi möhkəmləndirdik və müstəqil siyasəti həyata keçirmək imkanı əldə etdik.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi və eyni zamanda, Qara dəniz sahilinə çıxan Bakı-Supsa boru kəmərinin istismarı, habelə Bakı-Novorossiysk xəttinin işə salınması Xəzər regionunda olduqca geniş beynəlxalq tərəfdaşlığın çox mühüm mərhələlərini təşkil etmişdir. Bu gün hər üç boru kəməri işləyir və nefti Azərbaycandan Avropa və dünya bazarlarına nəql edir.

Biz Odessa-Brodı layihəsini, onun Plotsk və Qdanska qədər genişləndirilməsini ciddi şəkildə müzakirə edirik. Həmin layihə həyata keçirilməsi üçün çox yaxşı potensiala malikdir. "Sarmatiya" adlı müştərək şirkət təsis edilibdir. Texniki-iqtisadi əsaslandırma işləri aparılır. Bu ilin sonuna qədər biz həmin layihənin əhatəli texniki-iqtisadi əsaslandırma sənədini alacağıq. Bu, Xəzər dənizinin nəhəng enerji resursları üçün Avropa bazarlarına əlavə nəqledilmə yolunu açacaqdır. Eyni zamanda, bu layihə Xəzər-Qara-dəniz-Baltik dənizi regionlarında yerləşən dövlətlər arasında çox səmərəli regional əməkdaşlığı daha da möhkəmləndirəcəkdir.

Bu gün toplantımızın iştirakçıları arasında həmin regionları, yəni Xəzər-Qara dəniz-Baltik dənizi regionlarını təmsil edən dövlət, hökumət başçıları və nümayəndə heyətlərinin rəhbərləri var. Bu, tərəfdaşlığın çox mühüm rəmzidir. Bu, o deməkdir ki, həmin böyük region daha da birləşir. O deməkdir ki, enerji layihələri, enerji siyasəti və mövcud olan, eləcə də tikiləcək boru kəmərləri regional tərəfdaşlığın möhkəmləndirilməsinə xidmət edir. Nəticədə, həmin tərəfdaşlıq regionda daha çox proqnozlaşdırmanı və əməkdaşlığı təmin edəcəkdir. Əminəm ki, həmin əməkdaşlıq hamımızın xeyrinə olacaqdır.

On il əvvəlki dövrlə müqayisə etsək, əlbəttə ki, enerji siyasəti bu gün dünyada daha vacib rol oynayır. Bu, təbiidir. Enerji təhlükəsizliyi məsələləri nəinki enerji resurslarını istehlak edən, o cümlədən onları hasil edən ölkələrdə ciddi şəkildə müzakirə olunur. Buna görə də istehlakçıların, tranzit ölkələrin və hasilatçıların maraqları arasında tarazlıq və bu maraqların üst-üstə düşməsi gələcəkdə birgə işlərin əsasını təşkil etməlidir. Bugünkü forumda bütün ölkələrin, yəni hasilatçı, tranzit və istehlakçı ölkələrin təmsilçiləri var.

Ümid edirik ki, enerji siyasəti və enerji sahəsində birgə səylər ölkələrimiz arasında daha çox dostluq və əməkdaşlığa xidmət edəcəkdir. Bu yaxınlarda Azərbaycan mühüm qaz hasilatçısına çevrilmişdir. Bu, əvvəllər müşahidə olunmamışdır. Yalnız iki il bundan

əvvəl biz qazın idxalını dayandırdıq və onun ixracına başladıq. Bu gün Azərbaycan qazı artıq regional bazara çıxarılır. Biz Gürcüstan və Türkiyəni qazla təchiz edirik. Qazımızın müəyyən həcmi Türkiyədən ötürücü qurğu vasitəsilə Yunanıstana verilir. Bu o deməkdir ki, Azərbaycan qazı hazırda artıq Avropa İttifaqının bazarına çıxarılır. Əminəm ki, qazın nəqlinə dair gələcək enerji layihələri - nəzərdə tutulan və mövcud layihələrin hamısı burada müzakirə ediləcək, bütün mühüm nailiyyətlər və planlar qəbul edəcəyimiz Bəyannamədə əks olunacaqdır.

Azərbaycanda nəhəng qaz yataqları aşkar edilmişdir və minimum hesablamalara görə, həmin yataqlarda qazın həcmi bizim daxili tələbatımız və ixrac əməliyyatları üçün, ən azı, bir əsrlik dövr üçün kifayətdir. Bu gün böyük qaz yataqlarının işlənilməsi uğurla gedir və hasilat sürətlə artır. Hazırda qaz ehtiyatlarının işlənilməsinə və eyni zamanda, Azərbaycan qazını Avropa bazarlarına çatdıran tamamilə yeni və müasir infrastruktur yaradılmasına və boru kəmərlərinə xeyli sərmayə qoyulmuşdur. Qazı dənizdəki platformalardan suyun altı ilə quruya çəkilmiş, sonra isə, bazarlara çatdıran geniş boru kəməri şəbəkəmiz mövcuddur. Bu baxımdan, biz fərəh hissi ilə deyə bilərik ki, enerji siyasəti sahəsində ölkəmizin qarşısında duran bütün əsas vəzifələr uğurla yerinə yetirilmişdir. Bu gün, biz daha geniş enerji tərəfdaşlığı qurmaq, hasilatçı, tranzit və istehlakçı ölkələrin tələbatlarına maksimum dərəcədə cavab vermək üçün hansı əlavə işlərin görülə biləcəyi barədə gələcəyə, irəliyə doğru baxırıq. Yalnız bu cür birgə səylər uğurları təmin edə bilər.

Çox şadam ki, Azərbaycanda dostlarımız, sammit iştirakçıları arasında həmin tərəfdaşlıq ruhu mövcuddur. Bu, davam etməlidir. Əminəm ki, sammit gələcəkdə birgə fəaliyyətimizdə mühüm mərhələyə çevriləcəkdir. Hazırda istismar olunan boru kəmərləri uğurlu və davamlı şəkildə işləyəcəkdir. İnanıram ki, hazırda müzakirə olunan boru kəməri layihəsi öz həllini tapacaqdır. Bizi ayıran yox, birləşdirən layihələrin həyata keçirilməsinə töhfə verməyə hazırıq. Enerji siyasəti ölkələrimiz arasında daha çox proqnozlaşdırmanı, əməkdaşlığı və dostluğu təmin edə bilər və etməlidir. Əminəm ki, elə bu nəticə sammitin əsas nailiyyəti olacaqdır.

Mən sammitdə iştirak etdiyinizə görə sizin hamınıza bir daha minnətdarlığımı bildirirəm.

BAKI ENERJİ SAMMİTİNDƏ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ, NÜMAYƏNDƏ HEYƏTLƏRİ RƏHBƏRLƏRİNİN ÇIXIŞLARI

Sonra çıxış edən Gürcüstan Prezidenti MİXAİL SAAKAŞVİLİ Bakıda keçirilən Beynəlxalq Enerji sammitinin əhəmiyyətindən danışdı:

- Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Dostumuz İlham Əliyevlə əla səviyyədə təşkil olunmuş sammitdə iştirak etmək üçün Bakıda olmaqdan böyük şərəf hissi duyuram. Eyni zamanda, bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə Sizə minnətdaram. Hesab edirəm ki, Azərbaycan bizi bir araya gətirən mühüm mərkəzdir. Ölkə nəinki öz maraqlarının, o cümlədən ümumi Avropa maraqlarının təşviq olunmasında strateji baxışlara və mövqeyə malikdir.

Avropanın demokratik dövlətlərinin enerji təhlükəsizliyi və bunun gələcəyi hamımız üçün vacibdir. Zənnimcə, Azərbaycanın inkişafı aydın şəkildə göstərir ki, mütəşəkkil rəhbərlik, əhatəli yanaşma sayəsində ölkə çətinliklərdən çıxaraq tərəqqiyə doğru irəliləyə bilər. Əslində, İlham Əliyev burada qeyd etdi ki, sovet dövründə bu yerlərdə böyük həcmdə neft hasil olunurdu və infrastruktura böyük zərbə vurulurdu. Sovet İttifaqı yalnız hasilatla məşğul idi, infrastruktura az sərmayə qoyurdu və yerli əhali üçün ekoloji və səhiyyə problemləri yaradırdı. Bunun qarşısını almaq çox çətin idi.

Azərbaycanın əldə etdiyi nailiyyətlər digər hasilatçılar, o cümlədən bir çox digər ölkələr üçün yaxşı nümunədir. Hesab edirəm ki, ilk tənqidi və skeptik fikirlərə baxmayaraq, artıq proses başlanıbdır. Sadəcə, onu qeyd etmək istəyirəm ki, Polşa və Litvanın təşəbbüsü ilə ilk sammit 2007-ci ildə Krakovda keçirildi. Biz həmin toplantıda Xəzərin zəngin enerji ehtiyatlarının bazarlara əlavə, alternativ yollarla çıxarılması barədə fikir mübadiləsi apardıq. Biz Vilnüsdə "Sarmatiya" şirkətinin yaradılması ilə bağlı saziş imzaladıq və sonra ekspertlər səviyyəsində keçirilmiş görüşlərdə nəql yollarının şaxələndirilməsi üzərində iş aparılmışdır.

Karbohidrogen ehtiyatlarının nəqlində alternativ marşrutların əhəmiyyətindən və bu sahədə əməkdaşlıqdan, ölkələrarası əlaqələrdən danışan Mixeil Saakaşvili regional layihələrin əhəmiyyətini vurğuladı və dedi ki, hesab edirəm, Türkiyə çox müsbət rol oynamışdır. Bildirirəm ki, Avropaya təchizat qovşaqlarının yaradılması istiqamətində biz Türkiyə ilə birgə işimizi davam etdirməliyik. Fikrimcə, Mərkəzi Asiya ölkələri, Qazaxıstan, Türkmənistanla birgə işin aparılması yeni perspektivlər açır. Bildiyiniz kimi, Qazaxıstan yaxın vaxtlarda bu dəhlizlə neftin nəqlini bərpa etmişdir. Odessa-Brodı boru kəməri layihəsinin həyata keçirilməsi sahəsində Ukrayna ilə anlaşmamız var. Bu layihənin iqtisadi baxımdan gəlirli hesab edilməsi üçün bir çox səbəblər mövcuddur. Biz bu sahədə daha çox nailiyyətlər əldə edə bilərik.

Heydər Əliyev bizim bir sıra dostlarımız və müttəfiqlərimizlə ilkin olaraq Bakı-Tbilisi-Ceyhan boru kəməri haqqında danışanda, heç kim onun kommersiya baxımından gəlirli olmasına inanmırdı. İndi isə hamı anlayır ki, bu, mühüm layihə idi. Həmin vaxtlar bir çox skeptik fikirlər, şübhələr söylənildi. Ona görə, bunu reallığa çevirmək cəsarət və böyük əlaqələndirmə işləri tələb edirdi.

M.Saakaşvili ölkəsinin Avropa strukturlarına inteqrasiyasına toxunaraq bu yolda Gürcüstanın atdığı addımlardan da danışdı.

Litva Prezidenti VALDAS ADAMKUS Bakı enerji sammitinin bu sahədəki əməkdaşlığa töhfə verəcəyini diqqətə çatdırdı:

- Cənab Prezident!

Zati-aliləri, xanımlar və cənablar!

Mən ilk öncə, xüsusi əhəmiyyətə malik olan bu cür tədbiri təşkil etdiyinə və hamımıza göstərilmiş səmimi qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm.

Enerji təhlükəsizliyi və mənbələrin şaxələndirilməsi nəinki təhlükəsizlik, o cümlədən ekologiya baxımından zəmanəmizin ən ağır yüklərindən birinə çevrilibdir. Biz praktiki

və faydalı milli təşəbbüslərin şahidiyik. Bir çox ikitərəfli razılaşmalar həmin çətin məsələlərin həllinə töhfə vermişdir. Yalnız müştərək səylər və işbirliyi nəticəsində bütün müvafiq ölkələr davamlı iqtisadi artımı təmin edə bilər. Mən enerji təhlükəsizliyi və mənbələrin şaxələndirilməsinə yönəlmiş bir çox təşəbbüsləri, o cümlədən Xəzər dənizi və Qara dəniz regionlarını əhatə edən məsələlərin Avropa Komissiyası tərəfindən qaldırılmasını alqışlayıram. Bununla belə, enerji təhlükəsizliyi sahəsində həll variantları həmin regionlarda yerləşən ölkələrin özləri tərəfindən irəli sürülür. Bu baxımdan Avropa İttifaqına üzv olan dövlətlər nəinki dialoqun daha fəal şəkildə aparılmasını təmin etməli, o cümlədən Avropa İttifaqı ilə Xəzər dənizinə aid olan real və faydalı layihələrin həyata keçirilməsini dəstəkləməlidirlər.

Nabukko qaz boru kəməri və Odessa-Brodı-Plotsk neft kəməri kimi alternativ, kommersiya baxımından əsaslandırılmış layihələrin həyata keçirilməsinə yönəlmiş Xəzər dənizi və Qara dəniz regionları ilə Avropa ölkələri arasında tranzit məkanların istifadəsi enerji təhlükəsizliyi problemlərinin həllinə yeni imkanlar açır. Burada söhbət sırf Avropa İttifaqının diqqətindən deyil, çox arzuolunan əməkdaşlıqda real iştirakdan gedir. Enerji təhlükəsizliyindən irəli gələn çətinliklər təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir.

Bu gün Avropanın daha fəal və dəstəkləyici yanaşmasına ehtiyac duyulur. Mən təklif edərdim ki, Avropa İttifaqının bu təşəbbüslərdə və Odessa-Brodı-Plotsk layihəsində iştirakını gücləndirmək məqsədi ilə bir neçə kiçik, lakin vacib addımlar atılsın. İlkin olaraq, yaxşı olardı ki, bu təşəbbüslərin formalaşdırılması prosesində iştirak etmək məqsədi ilə Avropa Komissiyası öz nümayəndəsini təyin etsin. İkincisi, hesab edirəm ki, Çex Respublikasının Avropa İttifaqında sədrlik edəcəyi dövrdə həmin təşəbbüsləri Avropa İttifaqının digər üzv dövlətlərinə təqdim etmək üçün xüsusi iclasın keçirilməsi faydalı olardı. Belə bir görüş nəinki həmrəylik prinsipini, o cümlədən avropalılara həmin layihəyə ciddi yanaşmanın vacibliyini nümayiş etdirəcəkdir.

Avropanın qaz və enerji təminatı ilə bağlı perspektivlərə toxunan Valdas Adamkus, Xəzər hövzəsinin bu işdə böyük potensiala malik olduğunu bildirdi. O, bu baxımdan Nabukkonun, Türkiyə-Yunanıstan-İtaliya boru xəttinin böyük önəm daşıya biləcəyini qeyd etdi.

Avropa İttifaqı-Xəzər hövzəsi nəqliyyat dəhlizinin hər iki tərəf üçün fayda verə biləcəyini qeyd edən Litva Prezidenti, bunun Avropa qonşuluq siyasəti prosesində mühüm rol oynamaq imkanına malik olduğunu bildirdi.

Valdas Adamkus Azərbaycanın bölgədə artan mövqeyinə toxunaraq dedi ki, Azərbaycan bu baxımdan xüsusi rol oynayır. Mən bu gün bir çox səbəbləri qeyd edə bilərəm ki, Avropa İttifaqı Azərbaycanı strateji tərəfdaş kimi xüsusi olaraq nəzərdən keçirməlidir. Biz hesab edirik ki, Transatlantik əməkdaşlıq da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Ceyhan boru kəməri enerji sahəsində əməkdaşlığımızı artıq möhkəmləndirmişdir.

Polşa Prezidenti LEX KAÇİNSKİ Bakı sammitinin məhsuldar keçəcəyinə əmin olduğunu bildirdi. O, bölgədəki son hadisələrdən sonra yaranmış vəziyyətdən danışdı və karbohidrogen ehtiyatlarının nəqlində şaxələndirmə məsələlərinə toxundu və bu istiqamətdə proseslərin perspektivləri barədə danışdı:

- Mən cənab İlham Əliyevə bu sammiti çox yüksək səviyyədə təşkil etdiyinə görə minnətdarlığımı bildirirəm. Biz də, başqa iştirakçı ölkələr kimi, həmçinin Nabukko layihəsini dəstəkləyirik. Biz Türkiyə-Yunanıstan qaz nəqli dəhlizini də dəstəkləyirik. Biz, eyni zamanda, Odessa-Brodı-Qdansk layihəsinə də dəstək veririk. Xatırlatmaq istərdim ki, bu marşrut daşıma limanı funksiyasını da yerinə yetirəcəkdir. Belə olan halda, neftin ixracı təqribən 38 milyon tondan 50 milyon tona çatdırıla bilər.

Mən neftlə yanaşı, qaz təchizatının təhlükəsizliyini də qeyd etmək istəyirəm. Azərbaycanın malik olduğu ehtiyatların müxtəlif istiqamətlərə, o cümlədən də Qərbə nəqli təmin olunmalıdır. Bu barədə indidən düşünməliyik. Avropa İttifaqının bu işə cəlb olunmasına gəlincə, deməliyəm ki, əlbəttə, Avropa İttifaqının dəstəyi və bu işə cəlb edilməsi bugünkü işin planına daxil olmalıdır. Nəqletmə kəmərləri, Odessa-Brodı-Qdansk, həmçinin Nabukko layihələri ilə bağlı mövcud olan planlar heç də konkret Avropa dövlətlərinə hədəflənməyib. Yəni onlar faktiki olaraq bütün Avropa İttifaqının rifahına yönəldilibdir. Avropa İttifaqında isə 27 ölkə təmsil olunur.

Əvvəlki görüşlərimizlə müqayisədə bugünkü tədbirdə iştirak edən üzv ölkələrin sayı çoxdur. Eyni zamanda, həyata keçiriləcək hazırkı layihələr texniki-iqtisadi əsasdırma ilə məşğul olan şirkətlər tərəfindən müsbət qiymətləndirilibdir. Zənnimcə, bu, yaxşı haldır. Bir daha təkrar etmək istərdim ki, bu, həm mənim ölkəm, həm də bütün Avropa İttifaqı ölkələri üçün olduqca önəmli hadisədir. Bu, xüsusilə də Şimali Avropada yerləşən ölkələr üçün yaxşı xəbərdir. Mən ümid edirəm ki, bəzi mövcud problemlər tezliklə aradan qaldırılacaqdır. Problemlər hər zaman olur, amma həmin problemlər əsas məqsədi kölgədə qoymamalıdır. Əsaslandırılmış və düşünülmüş qərarlar artıq verilibdir. Bu qərarlar özlüyündə bütün ölkələr, eyni zamanda, Avropa İttifaqında təmsil olunmayan ölkələr üçün də əlverişlidir. İstədim ki, bu ölkələr də enerji ilə bağlı məsələlərdə özlərini təhlükəsiz hiss etsinlər. Biz bu baxımdan qarşımızda duran problemləri həll etməliyik.

Türkiyə Prezidenti ABDULLAH GÜL irimiqyaslı enerji layihələrinin bölgədə sülhün və sabitliyin təmin olunmasında mühüm vasitə adlandıraraq dedi:

- Əvvəlcə, enerji sammiti səbəbi ilə bir daha Bakıya gəlməkdən məmnunluq duyduğumu ifadə etmək istəyirəm. Ev sahibi olan Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ötən 15 ildə enerji təhlükəsizliyinin təminatı, neft və təbii qaz hasilatı sahələrində dünya səviyyəsində aparıcı rol oynayır. Bu səbəbdən Azərbaycanın ev sahibliyi ilə təşkil edilən sammitlə əlaqədar burada olmaqdan xüsusi məmnunluq duyuram. Bu fürsətdən istifadə edərək, mənə və nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Getdikcə önəmli olan enerji təhlükəsizliyi hazırda xarici siyasət, milli təhlükəsizlik, iqtisadi rifah və qlobal sabitlik məfhumuna çevrilmişdir. Enerji təhlükəsizliyi, eyni zamanda, enerji istehsal edən, istehlak edən və tranzit ölkələr arasında əməkdaşlıqla bağlı anlayışı inkişaf etdirir. Bununla əlaqədar qarşılıqlı əlaqə mühüm amildir. Bu səbəbdən əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyə əsaslanan yaxın münasibətimiz sayəsində bölgəmizdə mühüm əhəmiyyət kəsb edən layihələrin çox faydalı olacağını düşünürəm. Bu cür layihələrdə Bakı-Tbilisi-Ceyhanda olduğu kimi, qarşılıqlı əlaqələrimizi regional güclər, böyük şirkətləri və iştirakçıları bir araya gətirən faydalı əməkdaşlığa çevirməliyik.

Enerji sahəsindəki regional əməkdaşlığın enerji təhlükəsizliyindən başqa, regional sabitliyə, sülhə və rifaha töhfə verəcəyinə inanıram. Şübhəsiz ki, Xəzər enerji mənbələrinin təhlükəsiz surətdə Avropa bazarlarına nəqli, yaşadığımız bölgənin sabitliyinin davamlılığına və bölgədə yaxşı qonşuluq əlaqələrinin qurulmasına bağlıdır. Biz Cənubi Qafqazda yüz illər boyunca birlikdə və yan-yana yaşayan xalqlar arasında qarşılıqlı təhlükəsizliyin təminatı yolunda mövcud problemlərin həllinə inanırıq. Belə bir düşüncə ilə başqa bir mövzu - enerji sahəsində də mövcud əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi üçün lazım olan işlər yerinə yetiriləcəkdir.

Bu ilin avqustunda bir daha gündəmə gətirdiyimiz Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması təşəbbüsümüz əsasən bu anlayışdan meydana çıxmışdır. Məqsədimiz Cənubi Qafqazın çaxnaşma və münaqişə bölgəsi olmaqdan çıxarılaraq, qonşu ölkələr arasında qurulan anlayış birliyi və həmrəylik baxımından dünyaya nümunə olacaq bölgə halına gətirilməsidir. Həmçinin bu bölgənin enerji sahəsində başlanan faydalı əməkdaşlığının inkişafı və genişlənməsi sürətilə Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verən, rifah, sabitlik və sülhə dayanan bir bölgəyə çevrilməsidir.

Türkiyə, Orta Şərq və Xəzər hövzəsi dünyanın qaz və neft ehtiyatlarının təxminən üçdə iki hissəsinin olduğu bir bölgədə yerləşir. Buna görə də Qafqaz ilə Orta Asiya ölkələrinin iqtisadi inkişafını, enerji mənbələrinin düzgün işlədilməsini və Qərb bazarlarına daşınmasını düşünərək Azərbaycan, Gürcüstan və ABŞ ilə birlikdə Şərq-Qərb enerji dəhlizi ideyası inkişaf etdirilmişdir. Bu dəhlizin əsas tərkiblərini bir az əvvəl bəhs etdiyim Bakı-Tbilisi-Ceyhan neft boru xətti ilə Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti təşkil edir.

2008-ci il noyabrın 10-dək Bakı-Tbilisi-Ceyhan vasitəsilə istehsakçı ölkələrə 480 milyon barrel xam neft daşınmışdır. Qazaxıstan 2006-cı ildə BTC boru xətti layihəsinə rəsmi olaraq qatılmış və Qazaxıstana məxsus ilk neft tankerlərlə Bakıya, buradan da BTC boru xətti ilə dünya bazarlarına nəql edilmişdir. Bu, çox əhəmiyyət verdiyimiz bir hadisədir.

Şərq-Qərb enerji dəhlizinin ikinci tərkibi olan Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti isə 2007-ci ilin iyulunda fəaliyyətə başlamışdır. Bu boru xətləri ilə yanaşı, digər layihələrdə də iştirak edən ölkəmiz, beynəlxalq neft şirkəti olan TPAO vasitəsilə Xəzər bölgəsinə 3 milyard dollardan çox sərmayə qoymuşdur.

Türkiyə enerji sahəsindəki qarşılıqlı müstəqilliyimizi bölgə ölkələrinin xeyrinə olan əməkdaşlığa çevirmək arzusundadır. Öz enerji ehtiyaclarımızdan başqa, gələcək illərdə Avropa ölkələrinin enerji təhlükəsizliyinə daha çox faydalı olacağımıza tam inanıram. Bunun üçün bütün qonşularımızla, dostlarımızla və tərəfdaşlarımızla əlbir işləməyə davam edəcəyik.

Bakı enerji sammitinin bu çalışmalarımıza imkan qazandırmasını təmənna edirəm. Bugünkü toplantımız əsasən enerji sahəsindəki regional əməkdaşlığımıza daha geniş perspektivdən baxmağımıza imkan yaratmışdır.

Bu səbəbdən, əziz dostum İlham Əliyevi bu uğurlu sammit və ikinci dəfə Azərbaycanın Prezidenti seçilməsi münasibətilə bir daha təbrik edirəm. Bizi bu toplantıya dəvət etdikləri üçün bir daha təşəkkür edirəm.

Xəzər, Qara və Baltik dənizləri enerji dəhlizi layihəsinin əhəmiyyətinə toxunan Ukrayna Prezidenti VİKTOR YUŞŞENKO dedi:

- Hörmətli dostlarımız!

Hörmətli həmkarlar!

Mən burada müzakirə olunan təşəbbüslərə çox böyük ümidlə yanaşıram. Yadıma gəlir ki, bir il bundan öncə bu ideyanın gerçəkləşməsinə və səmərəliliyinə hamımız ümid bəsləyirdik. Xəzər, Qara və Baltik dənizləri regionunda enerji əməkdaşlığı ilə bağlı başladığımız təşəbbüsü biz müəyyən skeptik fikirlərə baxmayaraq, davam etdirdik. Çünki bu məsələ nəinki bir ölkə və ya bir region üçün üstünlük təşkil edir, o cümlədən bütün Avropa məkanının inkişafı üçün əhəmiyyətlidir.

Bir sözlə, mən nikbinəm və görürəm ki, müştərək layihələrimiz barədə həmrəyliyimiz, anlaşmamız getdikcə artır. Əvvəlcə bunları ümumi ideyalar və fikirlərlə başladıq. İndi isə artıq dördüncü sammitdə iştirak edirik. O vaxt iştirakçıların, dialoqda olan tərəflərin sayı çox deyildi. İndi isə mən bu dialoqda yeni iştirakçıları salamlamaq istəyirəm. Burada bəzi yeni iştirakçıları görməkdən məmnunam və onlara təşəkkür edirəm.

Artıq biz dialoqun çərçivəsini formalaşdırmışıq. 2007-ci ildə Polşada keçirilən Krakov sammitindən sonra bu günə qədər dövlətlərarası işçi qruplarının 10-a yaxın görüşü keçirilibdir. Bu görüşlərin 5-i milli neft şirkətləri səviyyəsində baş tutub. Onlar əsasən bu layihələrin icrasına aid texniki əsaslandırma məsələləri ilə bağlı müzakirələr aparmışlar. Artıq bu gün səmərəli dialoq səviyyəsinə çatmışıq.

Mən qeyd etmək istəyirəm ki, prezidentlərin və hökumətlərin razılığı, iştirakı olmadan nəticəyə tam nail olmaq mümkün deyildir. Əlbəttə ki, böyük siyasi iradə nümayiş etdirilməlidir. Prezidentlər və nazirlər bu məsələləri müzakirə etməli və göstərməlidirlər ki, ideyalar hansı şəkildə icra olunur.

Gələcək layihələrin həyata keçirilməsi mexanizminə toxunan Viktor Yuşşenko, bu sahədə hökumətlərarası təmasların, görüşlərin, o cümlədən işçi qruplarının fəal iş aparmasının əhəmiyyətini vurğuladı, praktiki addımların atılmasının zəruriliyini qeyd etdi, Avropa İttifaqının enerji təminatında Avrasiya dəhlizinin önəmini vurğuladı.

Enerji sammitinin əhəmiyyətindən danışan Viktor Yuşşenko burada qəbul ediləcək bəyannamənin mühüm əhəmiyyət daşıyacağını bildirdi və qeyd etdi ki, qəbul olunacaq qərarlar sənəd üzərində qalmamalı, reallaşdırılmalıdır.

Ukrayna Prezidenti sammitin keçirilməsi üçün yüksək şəraitin yaradıldığına görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq etdi.

Enerji siyasəti sahəsində həyata keçirilən səyləri ölkəsinin alqışladığını vurğulayan Bolqarıstan Respublikasının vitse-prezidenti ANGEL MARİN dedi:

- Hörmətli cənab Prezident!

İcazə verin, Sizi yenidən dost Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə təbrik edim. Mən Sizə və qonaqpərvər ölkənizin vətəndaşlarını məqsədlərinizə nail olmaqda uğurlar arzulayıram. Çünki Sizin ölkənizin iqtisadiyyatı bu gün dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biridir. Dörd il bundan əvvəl Azərbaycan Qara dəniz və Xə-

zər regionundakı digər ölkələrlə birgə Bakı Enerji Sammiti təşəbbüsünü irəli sürərək, Avropa İttifaqının enerji sahəsində əməkdaşlığı və yeni enerji dəhlizlərinin yaradılmasında və formalaşdırılmasında məsul tərəfdaşlar olmaq barədə razılıqlarını bildirmişdilər. Biz çox şadıq ki, Siz Bakıda bu dialoqun davam etməsi ruhunu saxladınız və strateji, vacib enerji məsələləri ilə məşğul oldunuz. Bolqarıstan bu konstruktiv yanaşmanı alqışlayır və bunun uğurla həyata keçirilməsini, Avropanın enerji icmasına qoşulmasını bəyənir.

Bu gün Bakı Enerji Sammiti və qarşıdan gələn oxşar sammitlər, məsələn, Avropanın paytaxt şəhərlərində, o cümlədən 2009-cu ilin birinci yarısında Sofiyada keçiriləcək sammitlər Avropa İttifaqının təbii qazdan asılılığının siyasi və iqtisadi kontekstinin müzakirəsinə yönəldiləcəkdir.

Eyni zamanda, burada dörd amil var ki, onlar mənim ölkəmin Avropa enerji siyasətinin həyata keçirilməsində vacibliyini və Avropa İttifaqının xarici enerji siyasətindəki əhəmiyyətini müəyyən edir. Birincisi, sabitlik nəzərdə tutulur. Bolqarıstan Avropa İttifaqına və NATO-ya üzv qəbul olunduqdan sonra ölkəmizdə əlverişli biznes mühiti və etibarlı makro-iqtisadi çərçivə təmin edilmişdir. Eyni zamanda, ölkənin Avropanın strateji Şərq hissəsində yerləşməsi Rusiya ilə böyük enerji əməkdaşlıq imkanları yaradır.

İkincisi, bu, ölkəmizi transxəzər, transqaradəniz enerji dəhlizinin vacib hissəsinə çevirir.

Üçüncü amil ondan ibarətdir ki, bizim ərazimizdə əsas beynəlxalq infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı sazişlər imzalanmışdır. Eyni zamanda, Avropa İttifaqının Bolqarıstan üzrə komissiyası cənub-şərqi Avropa üçün enerji təhlükəsizliyində ölkəmin oynadığı rolun davam etdirilməsini gözləyir və bu məsələdə maraqlıdır. Bolqarıstanın enerji siyasəti tarazlaşdırma, realizm və praqmatizmə əsaslanır. Bu, xüsusilə milli, regional və Avropa bazarlarının təbii qazla təmin edilməsində özünü büruzə verir.

Bolqarıstanın digər ölkələrlə əlaqələrindən, o cümlədən Avropa İttifaqına üzv ölkələrlə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərindən danışan Angel Marin ölkəsinin Avropanın qaz təminatında tranzit və logistika iştirakçısı kimi rolu barədə məlumat verdi. Xəzər hövzəsinin enerji potensialına toxunan vitse-prezident dedi ki, biz Azərbaycanın və Türkmənistanın resurs potensialını vacib hesab edirik. Çünki bilirik ki, Nabukko üçün təbii qazın təminatı 11 milyard kubmetr həcmində ola bilər. Bununla belə, bu, böyük işdir, lakin hər hansı bir qərarın qəbul edilməsi həmin dost və tərəfdaş iki ölkənin müstəqil qərarından asılı olacaqdır.

Estoniyanın Baş naziri ANDRUS ANSİP sammit iştirakçısı olan ölkələr arasında əməkdaşlığın əhəmiyyətindən danışdı, enerji daşıyıcıları nəqlinin şaxələndirilməsi məsələsinə toxunaraq dedi:

- Hamımız bilirik ki, biz daha çox şaxələndirməyə ehtiyac duyuruq. Bu halda, etibarlı enerji təchizatçılarının, istehlakçıların və enerji mənbələrinin şaxələndirilməsi nəzərdə tutulur. Bu gün Avropada üzləşdiyimiz çətinliklərdən biri təchizat prosesində təhlükəsizliyimizin artırılması, enerji mənbələrinin şaxələndirilməsi ilə bağlıdır. Biz regiondan, tədbiri təşkil etmiş Azərbaycandan, habelə Qazaxıstan, Özbəkistan və Türkmənistandan alternativ enerji xətlərinin çəkilməsində maraqlıyıq. Xəzər dənizindən Avropaya getməsi nəzərdə tutulan Nabukko və "Ağ axın" kimi yeni boru kəməri layihələri iki

region arasında yeni tərəfdaşlığı möhkəmləndirəcək və Avropanın enerji təhlükəsizliyini artıracaqdır.

Enerji sahəsində əməkdaşlıq və inteqrasiya proseslərinin gələcəyinə toxunan Andrus Ansip dedi ki, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin istismarı bu sahədəki dialoqumuzu artırmışdır. Enerji sahəsində əməkdaşlığın gücləndirilməsində Birləşmiş Ştatlar xüsusi rol oynamışdır. İnanıram ki, bizim işbirliyimiz enerji təhlükəsizliyi məsələlərinin həllində mühüm rol oynayacaqdır. Biz bu baxımdan Avropa İttifaqının Enerji xartiyasının müddəalarını mühüm hesab edirik. Nəticədə biz səylərimizi birləşdirməli və birgə addımlar atmalıyıq. Mən məhz bu məqsədlə bu gün buraya gəlmişəm.

Macarıstanın Baş naziri FERENTS DYURÇAN sammitdə çıxışında dedi:

- Hörmətli cənab prezidentlər!

Hörmətli cənab baş nazirlər!

Bizə göndərdiyiniz dəvətə görə minnətdarıq. Biz bu enerji sammitinin keçirilməsini alqışlayırıq. Bu gün qlobal problemləri həll etdiyimiz zaman qarşımızda duran əsas strateji məsələlərdən biri enerji təhlükəsizliyidir. Ona görə də təəccüblü deyil ki, biz bu sammitdə əsas diqqəti məhz bu problemin həllinə yönəldirik və növbəti sammitlərdə də yönəldəcəyik. Biz böyük məmnuniyyət hissi ilə cənab Prezident İlham Əliyevin təşəbbüsünü qəbul etdik və bu gün sammitdə iştirak etməkdən çox şadıq.

Bu çağırış həssas bir məkandan, ehtiyatlarla zəngin Xəzər bölgəsindən edilir. Bildiyiniz kimi, dünyada hasil edilən neft və qazın müəyyən hissəsi Avropa İttifaqına üzv olan ölkələr tərəfindən istehlak olunur. Bizim ehtiyatlarımız çox azdır, ancaq enerjidən çox istifadə edirik. Yəni enerjidən 15-17 dəfə çox istifadə olunması bəzi problemlər yaradır.

Ekspertlər qeyd edirlər ki, 2020-2030-cu illərdə enerji daşıyıcılarının 80-90 faizi məhz Avropa İttifaqına kənardan daxil olacaqdır. Bu, Avropa İttifaqı üçün böyük təhlükə törədir. Enerji gündəlik həyatımızın əsasını təşkil edir. Əgər biz enerji ehtiyatlarından asılı olarıqsa, bu halda təhlükə qarşısında qala bilərik. Macarıstanda ölkənin enerjidən asılılığın azaldılması mühüm strateji məsələlərdən biri sayılır.

Daha sonra Macarıstanın Baş naziri enerji layihələrinin həyata keçirilməsində şaxələndirmənin təmin olunmasının həm texniki, həm də birbaşa təchizat aspektlərindən danışdı. Xəzər regionu ölkələri ilə əməkdaşlıq məsələlərinə toxunan Ferents Dyurçan Azərbaycanın rolunu xüsusi qeyd etdi:

- Xanımlar və cənablar, deməliyəm ki, əgər Azərbaycan bir müddət bizə nefti və qazı satmasa, Azərbaycan strateji planda təhlükədə olmayacaqdır. Bu gün Azərbaycan bizə daha çox lazımdır. Bunu eynilə Türkmənistana da aid etmək olar. Əgər Türkmənistan hasilatını artırmasa və Avropa bazarına çıxarmasa, bu, Türkmənistandan daha çox bizə problem yaradacaqdır. İndi Qafqaz, Xəzər regionu bir asimmetriya rəmzidir və bizə - Avropa İttifaqına siz çox lazımsınız. Bizim bu regiona çox böyük ehtiyacımız var. Bu regionda hasilatın artması qısa perspektivdə çox böyük əhəmiyyət kəsb edir. Amma vacibdir ki, biz asimmetrik münasibətlərdən tarazlaşdırılmış münasibətlərə çıxaq.

Baş nazir bu cür tədbirlərin keçirilməsinin Avropa İttifaqı ilə region arasında əməkdaşlığa yeni təkan verdiyini qeyd etdi və əməkdaşlığın təkcə enerji sahəsində deyil, digər sahələrdə də genişlənməsinin zəruriliyini bildirdi.

ABŞ-ın energetika naziri SAMUEL BODMAN Birləşmiş Ştatların Azərbaycan, Gürcüstan və Türkiyə ilə əməkdaşlıqda maraqlı olduğunu, ölkəmizin enerji sahəsində əməkdaşlıq baxımından güclü tərəfdaşa çevrildiyini diqqətə çatdırdı:

- İcazə verin, öz çıxışıma Prezident İlham Əliyevin enerji təhlükəsizliyi ilə bağlı baxışlarını, tərəfdaşlığı və regional liderliyini xüsusi olaraq qeyd etməklə başlayım, bu toplantını təşkil etdiyinə və ona sədrliyinə görə minnətdarlığımı bildirim. Burada olmaqdan və Birləşmiş Ştatları təmsil etməkdən məmnunam və hamınıza Prezident Corc Buşun salamlarını çatdırıram.

Bu gün dünya böyük enerji çağırışları ilə üzləşibdir. Enerjiyə çıxış, bununla bağlı bizi narahat edən məsələlər, onun dünya iqliminə təsiri bütün dünyanın diqqətini dərhal özünə cəlb etmişdir. Bizi narahat edən məsələlər bütövlükdə enerji təhlükəsizliyi adlanır və iqtisadi, milli təhlükəsizliyimizə birbaşa təsir göstərir. Bu cür məsələlər bizim hamımızı düşündürür. Mən xüsusilə burada həmin məsələlərin aradan qaldırılmasında əldə etdiyiniz nailiyyətlərə görə sizi alqışlamaq istəyirəm.

Fikrimcə, hazırkı Enerji Sammiti Azərbaycanın neft ehtiyatlarının dünya bazarlarına nəqlini mümkün etmiş "Əsrin müqaviləsi"nin imzalanmasından etibarən başlayan faydalı nəticələrin ən yenisidir. Bu müqavilə regionun nəhəng enerji resurslarının uğurlu formada istehlakçıların və hasilatçıların faydası üçün işlənilməsi, hasilatı və çatdırılması istiqamətində ilk addım oldu. Ümidvaram ki, iqtisadi böhrana baxmayaraq, bu cür uğurlar davam edəcəkdir.

Son illər ərzində inkişaf edən iqtisadiyyatlar böyük iqtisadi artıma nail olmuşlar və sənayedə böyük inkişafa malik olan ölkələri keçmişlər. Bizim dövlətlər kimi bir çox ölkələr hazırda iqtisadi tənəzzüldədirlər. Lakin onların hamısı enerjiyə ehtiyac duyur. Bütün bu ümumi tələbatlar, fikrimcə, qarşılıqlı enerji təhlükəsizliyinin təkmilləşdirilməsi sahəsində davamlı əməkdaşlığı tələb edir və ABŞ buna sadiqdir.

Mən qətiyyətlə inanıram ki, bizim səylərimiz və dünyanın bu regionu gələcək hökumətlər üçün prioritet təşkil edəcəkdir. Xəzər dövlətlərinin neft hasilatı artıq dünya bazarlarında, OPEK istisna olunmaqla, böyük təchizat mənbəyi kimi hesab edilir. Biz gözləyirik ki, bu ölkələr neft hasilatında öz vacib rolunu gələcək onilliklər ərzində də davam etdirəcəklər.

Azərbaycan beynəlxalq sərmayədarlarla "Əsrin müqaviləsi"ni imzaladıqdan sonra Birləşmiş Ştatlar Azərbaycan, Gürcüstan və Türkiyə ilə birgə tərəfdaşlıq qurmuş, Xəzərin nefti və qazı kommersiya baxımından etibarlı və təhlükəsiz ixrac marşrutları ilə dünya və Avropa bazarlarına çıxarılmışdır. Hazırda Cənub dəhlizi adlanan ixrac marşrutlarının yeni formasını inkişaf etdirmək üçün biz Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərlərinin işə salınması sayəsində əldə olunmuş uğurları artırmaqdayıq.

Təbii qaz sahəsində burada, Azərbaycanda olan mühüm yataqlar qlobal şəkildə irəliləyişi əldə etməyə imkan verəcəkdir. Amerika Birləşmiş Ştatları Cənub dəhlizinin əsasını təşkil edəcək Türkiyə-Yunanıstan-İtaliya və Nabukko boru kəmərlərini reallaşdırmaq məqsədi ilə Azərbaycan, Türkmənistan, Gürcüstan, Türkiyə və Avropadakı tərəfdaşlarımızla apardığı işə sadiqdir.

Azərbaycanın enerji layihələrində önəminə toxunan Samuel Bodman dedi:

- Beynəlxalq təcrübəyə yiyələnmiş peşəkar işçiləri olan və layihələrin uğurla həyata keçirilməsinə nail olmuş Azərbaycan özəl sərmayədarlarla birgə tərəfdaşlığın qurulmasının çox mükəmməl nümunəsidir. Şübhəsiz ki, bu regionun enerji potensialının reallaşdırılması onun xalqları, sərmayədarları üçün gözəçarpan iqtisadi artımla nəticələnəcək və Azərbaycanı Avropaya strateji tərəfdaş kimi yaxın edəcəkdir.

Regionda həyata keçirilən enerji layihələrinin xalqların rifahına xidmət etdiyini bildirən Samuel Bodman Enerji Sammitinin işinə uğurlar arzuladı.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı ANDRİS PİEBALQS sammitdə çıxış etdi.

- Hörmətli Prezident İlham Əliyev, mən Sizə minnətdaram!

Hörmətli cənab baş nazirlər, nümayəndə heyətlərinin başçıları!

Mən əvvəlcə çıxışıma Bakıya məni dəvət etdiyinə görə və belə bir mötəbər toplantıda çıxış etmək imkanı yaratdığına görə cənab Prezident Əliyevə minnətdarlığımı bildirirəm.

Biz, eyni zamanda, son həftə ərzində məsələ ilə bağlı Avropa Parlamentində müzakirələr aparmışıq. Biz çox məmnunluqla qeyd etmək istəyirik ki, Avropa İttifaqı bu gün həmin təşkilata qonşu olan ölkələrlə enerji təhlükəsizliyi sahəsində işləyir. Biz çox şadıq ki, Krakov təşəbbüsü artıq uğurla həyata keçirilir. Hesab edirik ki, bu gün Avropa İttifaqının siyasi gündəmində duran məsələlər siyasi tədbirlərin görülməsini tələb edir. Biz 2006-cı ildə Avropada qaz tələbatının ödənilməsi üçün mövcud olan bazarda vəziyyətin nəzərdən keçirilməsi məqsədi ilə sənədləri hazırlamışıq.

Bu həftə Avropa Komissiyası strateji enerji hesabatını qəbul etmişdir. Onun 2007-ci ildə dərc edilmiş ilkin hesabatı, əsasən, iqlim dəyişikliklərindən irəli gələn nəticələrin aradan qaldırılması və enerji bazarının tənzimlənməsi ilə bağlı idi.

İkinci hesabat enerji təhlükəsizliyi ilə bağlıdır. Avropa İttifaqının Şurası və Parlamenti aydın şəkildə bəyan ediblər ki, Avropa İttifaqının ümumi maraqlarına aid olan bu məsələnin həlli prioritet xarakter daşıyır. Hazırkı qlobal enerji durumu baxımından enerji idxalından asılılıq əvvəlki dövrlərdən fərqli olaraq, daha böyük enerji təhlükəsizliyi riskləri ilə müşayiət olunur.

Biz tam etiraf edir və dəyərləndiririk ki, bu sammitin ev sahibi olan Azərbaycan enerji nəqlinin şaxələndirilməsi və təhlükəsizliyi sahəsində çətin və cəsarətli qərarlar qəbul etmişdir.

Enerji təhlükəsizliyi sahəsində ikitərəfli və çoxsahəli əməkdaşlığın detallarına toxunan Andris Piebalqs bildirdi: Biz enerji sahəsində münasibətlərin gücləndirilməsi üçün bir sıra alətlərdən istifadə etməliyik və mexanizmləri bu günə qədər formalaşdırmışıq. Biz hesab edirik ki, infrastruktur sahəsində təkmilləşdirmə işləri də aparılmalıdır. Biz Avropa İttifaqı ilə ikitərəfli əsaslarda Azərbaycan və Qazaxıstanla, bu yaxınlarda isə Türkmənistanla enerji sahəsində strateji əməkdaşlıq haqqında memorandum imzalamışıq. Biz bu baxımdan Azərbaycan ilə Türkmənistan arasında enerji sahəsində münasi-

bətlərin gücləndirilməsinə və bu sahədəki səylərə dəstək veririk. Biz bu baxımdan Azərbaycan və Türkmənistan arasında enerji əməkdaşlığı sahəsində Bakıda keçirilmiş konfransı alqışlayırıq.

Biz xüsusi olaraq qaz təchizatına və qazın nəql olunması yollarının şaxələndirilməsinə diqqət yetiririk. Biz hesab edirik ki, Odessa-Brodı boru kəməri layihəsi Şərqi və Cənubi Avropada olan istehlakçılar üçün xüsusi əhəmiyyət daşıyır. Bu sahədə müəyyən irəliləyişi artıq əldə etmişik.

Rumıniyanı Bakı sammitində təmsil edən xarici işlər naziri LAZAR KOMENESKU da tədbirdə çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident!

Cənab Prezident, zati-aliləri, xanımlar və cənablar!

İlk öncə Bakıda yüksək səviyyədə enerji sammitini təşkil etdiyinə görə Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

Bu tədbir Xəzər regionunu Avropa ilə birləşdirən dəhlizin və enerji əməkdaşlığının inkişafına zəmin yaradacaqdır.

Rumıniyanın xarici işlər naziri ölkəsinin Avropanın enerji təhlükəsizliyi sistemindəki rolundan danışdı, inteqrasiya prosesləri sistemindəki önəmini vurğuladı:

- Xanımlar və cənablar.

Rumıniya üçün əsas prioritet Xəzərin ehtiyatlarını Avropa bazarlarına çıxaran enerji tranzit dəhlizlərini inkişaf etdirərək, enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsidir. Buna görə, biz Krakov təşəbbüsünün mərkəzi elementi hesab edilən Odessa-Brodı-Plotsk neft boru kəməri layihəsi sahəsində son müsbət nəticələri yüksək qiymətləndiririk. Digər tərəfdən, biz hesab edirik ki, həm Xəzər regionu, həm də Avropa İttifaqı üçün faydanın maksimal həddə çatdırılmasından ötrü ümumi bazara ən qısa yol sayılan Xəzərin resurslarının Qara dəniz vasitəsilə Avropaya birbaşa çatdırılmasını təmin etmək məqsədi ilə Cənub enerji tranzit dəhlizinin inkişaf etdirilməsi oludqca vacibdir.

Nabukko qaz boru kəməri və Konstansa enerji terminalı bu cür dəhliz üçün olduqca vacibdir. Enerji siyasəti bu gün bütün ölkələr tərəfindən dəstəklənir. Nabukko qaz boru kəməri layihəsinə gəldikdə, biz artıq olduqca vacib mərhələ ərəfəsindəyik. Hesab edirik ki, bunun həyata keçirilməsi alternativ yolları təmin edəcəkdir. Bu baxımdan Rumıniya həmin boru kəmərinə xüsusi olaraq dəstək verir.

Biz hesab edirik ki, bu layihə çox mühüm layihədir və azad rəqabət prinsiplərinə əsaslanır, daha səmərəli, daha qənaətcil bir variantdır.

Biz hesab edirik ki, Azərbaycan Nabukko layihəsində iştirak etməlidir. Bu, həm Azərbaycanın, həm Avropa İttifaqının ümumi maraqlarına xidmət edir. Biz layihəni qətiyyətlə irəliyə doğru aparmalıyıq və bu, Avropa sərmayədarları üçün yaxşı bir siqnal olar.

Digər tərəfdən, biz eyni zamanda, Azərbaycan sərmayələri üçün Avropada imkan yaratmalıyıq, Azərbaycanın Dövlət Neft Şirkəti işləməlidir. Rumıniya buna hazırdır.

Sammitdə Yunanıstanın inkişaf naziri XRİSTOS FOLİAS da çıxış edərək dedi:

- Cənab Prezident!

Hörmətli prezidentlər!

Hörmətli baş nazirlər!

Hörmətli nazirlər, xanımlar və cənablar!

İlk növbədə, deyim ki, mən burada, Bakıda olmağımdan böyük şərəf hissi duyuram. Böyük məmnuniyyətlə Baş nazir Kostas Karamanlis tərəfindən bu enerji sammitində iştirak etmək üçün göstəriş almışam. Mən hesab edirəm ki, bugünkü toplantımız xüsusi əhəmiyyət daşıyır, çünki biz - ixrac və idxal edən ölkələr enerji təhlükəsizliyindən, enerji sahəsində əməkdaşlıqdan danışırıq.

XXI əsrdə səmərəli dövlət idarəçiliyi strategiyalarının həyata keçirilməsi və siyasi seçimləri nəinki hazırkı, o cümlədən gələcək nəsillərin tələbatlarının öyrənilməsinə yönəlibdir. Bu baxımdan enerji sektoru xüsusi qeyd edilməlidir. Enerji təhlükəsizliyindən, enerji resurslarının idarə edilməsindən dünyada gələcək nəsillərin həyat standartlarının yaxşılaşdırılması asılıdır. Əslində, bu gün enerji çağırışları üzləşdiyimiz ən vacib çağırışlardan biridir. İqlim dəyişikliyi, coğrafi-siyasi qeyri-müəyyənlik, artan tələbat və dəyişən qlobal iqtisadi balans ölkələr tərəfindən təklikdə həll oluna bilməz. Əksinə, biz hesab edirik ki, enerji məsələləri daha geniş dialoq və beynəlxalq əməkdaşlıq tələb edir. Dünyada maliyyə böhranına və iqtisadi tənəzzülə baxmayaraq, enerjiyə olan tələbat azalmır. Bu baxımdan uzunmüddətli enerji təchizatının müxtəlif mənbələrdən təmin edilməsi vacibdir. Bizim cavabımız ondan ibarət olmalıdır ki, təxirəsalınmaz tədbirləri görməli və bu sahədə münasibətləri daha da inkişaf etdirməliyik.

Bununla belə, hətta bu sahədə bütün siyasətlərin həyata keçirilməsinə baxmayaraq, biz hələ də üçüncü ölkələrdən gələn enerji daşıyıcılarından asılıyıq. Avropa İttifaqının ümumi enerji təhlükəsizlik siyasətində əks olunan prinsiplərdən irəli gəlir ki, biz enerji mənbələrinin şaxələndirilməsini təmin etməliyik. Hesab edirik ki, ilk növbədə, sərmayələri infrastruktur sahəsinə qoymalıyıq və bu, bizim üçün olduqca zəruridir. Hesab edirik ki, səylər göstərilir, lakin onlar kifayət deyildir. Beynəlxalq əməkdaşlığın və dialoqun təşviq edilməsi enerji təchizatının şaxələndirilməsinə yeni imkanlar açacaqdır.

Xristos Folias Avropanın enerji təhlükəsizliyi məsələlərinin perspektivlərinə toxundu, bu baxımdan regional əməkdaşlığın geniş imkanlar açdığını qeyd etdi:

- Türkiyə-Yunanıstan-İtaliya arasında birləşdirici kəmər Avropa İttifaqının prioritet layihəsidir və şaxələndirilmənin davam etdirilməsində mühüm vasitədir. Marşrutun Türkiyə-Yunanıstan hissəsi 2007-ci ilin sonundan etibarən istismara verilibdir. Ümumi sərhədimizdə təşkil olunan açılış mərasimində Yunanıstan və Türkiyənin baş nazirləri, Azərbaycanın Prezidenti cənab İlham Əliyev iştirak ediblər. Hazırda işlər həm dənizdə, həm quruda paralel olaraq davam edir. Bu işlərə baxan şirkət bu sahədə tikinti işlərini davam etdirir və 2010-cu ilə qədər onların tam başa çatdırılmasını planlaşdırır. Eyni zamanda, biz çox böyük vəcdlə çalışırıq ki, bu işə üçüncü tərəfi də qoşaq, üçüncü tərəflər, ölkələr bu layihədə Azərbaycanla daha sıx əməkdaşlıq etsinlər.

Ölkəsinin enerji təhlükəsizliyi ilə bağlı tranzit sahəsində bir sıra layihələrdə iştirakına toxunan Yunanıstanın inkişaf naziri dedi: Mən aydın şəkildə qeyd etmək istəyirəm,

"Cənub axını", Nabukko və TGİ kimi layihələr bir-birini tamamlayır. Onların xüsusi əhəmiyyətini nəzərə alaraq və qaza olan tələbatın böyük olduğunu görərək, bunlar bizim üçün çox lazımlıdır.

Qazaxıstanın energetika və mineral ehtiyatlar naziri SAUAT MINBAYEV sammitdə çıxış etdi:

- Zati-aliləri!

Cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, Bakı enerji sammitinin təşkilatçılarına gördükləri işə və enerji sahəsində əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaradılmış imkana görə minnətdarlığımı bildirim.

Hazırda Qazaxıstanın enerji sektorunda dünyanın bir çox aparıcı şirkətləri təmsil olunublar və onlar karbohidrogen yataqlarının işlənilməsini və hasilatı ildən-ilə artırırlar. 2008-ci ildə hasilatın 70 milyon ton, ixracın isə 63 milyon ton həcmində olacağı gözlənilir. Daxili bazarda istehlak 13 milyon tondur və onun müəyyən hissəsi Rusiyaya gedir. 2010-cu il üçün proqnozlaşdırılan xam neftin hasilat həcmi 80 milyon ton, 2015-ci ildə isə 100 milyon ton səviyyəsində olacaqdır. Biz aşkar edilən yeni nəhəng Kaşaqan və Tengiz neft yataqlarının işlənilməsi sayəsində hasilatın həcmini daha da artıracağıq. Kaşaqanda işlənilmə məsələləri artıq həll olunubdur. Bununla bağlı müvafiq sazişlər imzalanıbdır. Qazaxıstanın həmin layihədəki payı 16,81 faizə qədər artırılmışdır. 2015-ci ilə qədər daxili tələbatın proqnozuna gəldikdə, bu rəqəm ildə 16 milyon tondan çox olmayacaqdır. 2015-ci ildə hasil olunan neftin 90 milyon tonu ixrac əməliyyatları üçün nəzərdə tutulacaqdır.

Nazir Qazaxıstanın karbohidrogen ehtiyatlarının mümkün nəql marşrutlarından söhbət açdı. Ölkəsinin karbohidrogen ixracının təmin olunması istiqamətində görülən işlərə toxunan Sauat Mınbayev Qazaxıstanın bu istiqamətdə Azərbaycanla əməkdaşlığından da danışdı:

- Əvvəlcə qeyd etdiyim marşrutların buraxıcılıq qabiliyyətini və daxili bazar üçün çatdırılacaq təchizat həcmlərini nəzərə alaraq, biz Qazaxıstan-Xəzər nəqletmə sistemi üzərində düşünürük və onun planlaşdırılan buraxıcılıq qabiliyyəti ildə 20 milyon ton olmalıdır. Bu gün ölkələrimizin dövlət neft şirkətləri olan "KazMunayQaz"la Azərbaycan Dövlət Neft Şirkəti arasında Transxəzər layihəsinin həyata keçirilməsi ilə bağlı saziş imzalanıbdır. Buna görə Prezident cənab İlham Əliyevə minnətdarlığımızı bildirdik.

Hazırda aparılan işlər layihə şirkətinin yaradılması, problemlərin həlli, maliyyələşdirmə, tarif məlumatları və mövcud qurğulara çıxışın olması kimi məsələləri əhatə edir. Bu baxımdan, Qazaxıstan neftinin Bakı vasitəsilə mümkün nəqledilmə marşrutları prinsipial əhəmiyyət daşıyır. Qazaxıstanla Azərbaycan arasında 2006-cı ildə imzalanan sazişə əsasən, bu halda, Bakı-Tbilisi-Ceyhan boru kəməri vacib hesab edilir. Bununla belə, Qazaxıstan şirkətləri əlavə mümkün nəql qabiliyyətinin olmasında da çox maraqlıdır. Bu, o deməkdir ki, Qazaxıstan Azərbaycan ərazisindən keçən digər alternativ yolları nəzərdən keçirir. İlk öncə, Bakı-Supsa boru kəmərindən söhbət gedir. Biz bu marşrutla bağlı maraqlı olan bütün tərəflərlə danışıqlar aparmağa hazırıq.

İtaliya xarici işlər nazirinin müavini ALFREDO MANTİKA çıxışında dedi:

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli dövlət başçıları!

Hörmətli hökumət başçıları!

Hörmətli xanımlar və cənablar!

Mən öz çıxışıma yenidən seçilməsi münasibətilə Prezident İlham Əliyevə İtaliya hökuməti adından və şəxsən öz adımdan bir daha səmimi təbriklərimi çatdırmaqla və bu cür vacib beynəlxalq sammitə İtaliyanı dəvət etdiyinə görə minnətdarlığımı bildirməklə başlamaq istərdim.

"İyirmilərin" hazırda keçirdiyi yüksək səviyyəli görüşdə iştirak etmək üçün Vaşinqtonda səfərdə olan Nazirlər Şurasının sədri cənab Berluskoni İtaliya hökuməti adından səmimi salamlarını Sizə çatdırmaq və Avropa, eləcə də milli səviyyədə enerji təhlükəsizliyinə aid olan məsələləri böyük maraqla izlədiyini Sizə bildirmək barədə mənə tapşırıq veribdir.

Enerji təhlükəsizliyi, enerji mənbələrinin şaxələndirilməsi və müxtəlif təchizat marşrutları bizim kimi ölkələr və bütövlükdə Avropanın enerji bazarı üçün vacib amilə çevrilir. Bu baxımdan İtaliya bazarı öz infrastruktur imkanları ilə çox önəmli rol oynayır. Bu sözləri nəinki neft, o cümlədən qaz sahəsinə də aid etmək olar. Qazın nəqli sahəsində daha çox mövcud boru kəmərlərinə diqqət verilir. Beləliklə, boru kəmərləri məsələsinin hasilatçı və istehlakçı ölkələr üçün əhəmiyyəti artır. Bu sahədə son illər ərzində İtaliyanın əldə etdiyi təcrübə əsasında biz hər hansı süni maneələr görmür, mövcud iqtisadi inkişafımıza arxalanaraq, qarşıya qoyduğumuz məqsədlərə nail olmağa qadirik.

Hazırda milli və Avropa səviyyəsində böyük komplementar - tamamlayıcı siyasət həyata keçirilir. Digər Avropa ölkələri kimi, İtaliya da ikitərəfli əsaslarla bu yanaşmanı dəstəkləyir və təklif olunan bütün enerji dəhlizlərinin reallaşmasına tərəfdaş çıxaraq, bu regionun ölkələri ilə strateji əlaqələrin qurulmasında maraqlıdır.

Türkmənistan xarici işlər nazirinin müavini XOŞGƏLDİ BABAYEV forumun təşkilinə və əməkdaşlıq üçün yaradılmış əlverişli şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə Türkmənistan hökuməti adından səmimi təşəkkürünü bildirdi və hamıya uğurlu iş arzuladı. O dedi:

- Sizə məlum olduğu kimi, neft-qaz kompleksi Türkmənistan iqtisadiyyatının öncül istiqamətidir. Son 17 illik inkişaf dövründə Türkmənistan öz enerji müstəqilliyini təmin etmişdir. Neft və qaz hasilatının, elektrik enerjisi, neft məhsulları istehsalının həcmi əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda, neft-qaz emalı və neft-qaz kimyası müəssisələrinin inşası və yenidən qurulması sayəsində buraxılan məhsulların keyfiyyəti artır və çeşidi genişlənir. Türkmənistanın neft-qaz sahəsinin infrastrukturu inkişaf edir. Bütün bunlar ən yeni texnologiyaların tətbiqi ilə həyata keçirilir.

Son illər Türkmənistan hökumətinin apardığı danışıqların dinamikasının da artdığını qeyd etmək lazımdır. Qısa müddət ərzində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov bir sıra ölkələrin dövlət və hökumət başçıları, iri neft şirkətlərinin rəhbərləri, yüksək vəzifəli nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişdir. Türkmənistan

həm də Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər beynəlxalq təşkilatlarla fəal dialoq aparır. Bildiyiniz kimi, Türkmənistanın beynəlxalq enerji əməkdaşlığının əsasını ölkənin karbohidrogen ehtiyatları təşkil edir.

Xoşgəldi Babayev ölkəsinin zəngin karbohidrogen ehtiyatları barədə məlumat verdi, Türkmənistanın neft-qaz müqavilələrindən söhbət açaraq, gələcək əməkdaşlığın perspektivlərindən danışdı.

Sonra çıxış edən Latviyanın iqtisadiyyat nazirinin müavini ARTURS BERQHOLS Bakı sammitinin əhəmiyyətini vurğulayaraq dedi:

- Zati-alilər dövlət başçıları!

Xanımlar və cənablar!

Bakıda Enerji Sammitində Latviyanı təmsil etməkdən məmnunam və şərəf hissi duyuram. Əfsuslar olsun ki, Latviyanın Prezidenti cənab Valdis Zatlers bu gün burada bizimlə ola bilmədi. Çünki hazırda ölkəmizdə Latviya Respublikasının elan edilməsinin 90-cı ildönümü ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bununla belə, o, regionda güclü tranzit əməkdaşlığı qurulmasını dəstəkləyir və sammitin iştirakçılarına məhsuldar iş və mühüm qərarlar qəbul etməyi arzulayır.

Bu gün beynəlxalq biznes hesab edilən enerji bir çox üstünlüklər gətirməklə yanaşı, çətinliklərə də səbəb olur. Enerji əməkdaşlığının beynəlxalq miqyası bir faktla izah olunur - bu sahədə ölkələrin milli səviyyədə qəbul etdiyi qərarların təsiri ölkə hüdudlarından kənara çıxır.

Bununla belə, biz enerji sahəsində işbirliyinin qanunvericilik və tənzimləyici çərçivəsinin ahəngdar formaya gətirilməsi məqsədi ilə Bakı prosesinin gücləndirilməsini dəstəkləyirik. Xəzər-Qara dəniz-Baltik dənizi regionu əsasında formalaşan enerji tranzit məkanı mühüm məkandır. Biz dialoq və bazarın inkişafına yönəlmiş siyasət vasitəsilə Mərkəzi Asiyadan Avropaya enerji daşıyıcılarının nəqli yollarını təmin etməliyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Hörmətli dostlar, sağ olun!

Mən bir daha sammit iştirakçılarının hamısına, əvvəla, burada olduqlarına, həm də töhfələrinə, maraqlı şərhlərinə və çıxışlarına görə öz minnətdarlığımı bildirmək istəyirəm.

Sammitin Bakıda keçirilməsi faktının da bir çox səbəbləri var idi. Biz bu haqda artıq danışdıq. Mən bir daha demək istəyirəm ki, bu sammit, ola bilsin, xüsusi əhəmiyyətə malikdir. Çünki o, elə bir regionda keçirilir ki, orada uzunmüddətli təhlükəsizlik və sabitlik üçün hələ də bir çox işlər görülməlidir. Hesab edirəm ki, bu cür geniş əməkdaşlıq və bugünkü zirvə görüşü, həmçinin bir çox dövlət və hökumət başçılarının, nümayəndə heyətləri rəhbərlərinin iştirakı regionun gələcək inkişafına, regional əməkdaşlığa və tərəfdaşlığa böyük töhfədir.

Enerji layihələri ölkələri ayırmalı deyil, onları birləşdirməlidir. Fikrimcə, qəbul edəcəyimiz Bəyannamədən başqa, sammitin mühüm nəticələrindən biri ondan ibarətdir ki, bu

gün biz Xəzər-Qara dəniz-Baltik-Aralıq dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında danışa bilərik. Bu, bizim hamımızda əlavə etimad yaradır və uğurla həyata keçirdiyimiz və planlaşdırdığımız layihələrə əlavə dəstək verir.

Uğurlu enerji siyasətimizin ilkin şərtlərindən biri regiondakı sabitlik, ona, eyni zamanda, seçilmiş məqsədlərə sadiqlikdir. Enerji inkişafımızın məqsədlərinə gəldikdə isə, bizim çox qətiyyətli mövqeyimiz var.

Xəzərdə enerji yataqlarının işlənilməsinə Azərbaycan tərəfindən 1990-cı illərin ortalarında başlanmışdır. O vaxt biz dünyanın aparıcı şirkətləri ilə geniş əməkdaşlıq qurduq. İndi isə bu, hasilatın artımı, çox sayda boru kəmərlərinin istismarı və yeni ideyaların, layihələrin gündəliyə gətirilməsi ilə səciyyələnir. Həmin layihələrin həyata keçirilməsi bu gün çətin görünə bilər. Lakin əgər biz yada salsaq görərik ki, on beş il bundan əvvəl Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəməri layihələrini, o cümlədən digər layihələri həyata keçirmək nə qədər çətin olsa da, hazırda bunlar artıq reallıqdır. Bu reallıq isə bizim tərəfimizdən geniş əməkdaşlıq və enerji siyasətində bütün iştirakçıların hiss etdiyi səmimiyyət mühiti sayəsində təmin olunmuşdur.

Çox məhsuldar müzakirələrinizə görə sizin hamınıza olduqca minnətdaram. Həmin müzakirələr əldə etdiyimiz nəticələrin hamısını, birgə masamızda olan hazır ümumi işlərimizi və çatışmayan məqamların tapılması yollarını bir daha nəzərdən keçirmək imkanını yaratdı. Uzunmüddətli enerji əməkdaşlığını təmin etmək üçün geniş regionumuzda əlavə hansı işlərin görülməsi məsələsinə də baxıldı. Praktik, texniki və kommersiya etibarlılığı baxımından hansı addımların atılmasının lazım olduğu müzakirə edildi.

Mən müzakirələrdən çox razıyam və əminəm ki, sammitin nəticələri nəzərdə tutduğumuz bütün layihələrin irəliyə doğru aparılmasında mühüm rol oynayacaqdır.

Bu gün masa arxasında müxtəlif layihələrdə iştirak edən təmsilçiləri görürük. Bütün həmin layihələr burada, Xəzər regionunda, Azərbaycanda başlayıbdır. Ümidvaram ki, aramızdakı fəal əməkdaşlıq Xəzər dənizində mövcud olan digər mənbələrin tapılmasında yardımçı olacaqdır. Həmin mənbələrin bir hissəsi cənub dəhlizinin işləməsinə artıq xidmət edir. Bu gün masa arxasında Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa, Odessa-Brodı-Plotsk-Qdansk, TGİ, Nabukko və digər bu kimi layihələrdə iştirak edən ölkələrin nümayəndələrini görürük. Bütün bu layihələr əhəmiyyətlidir. Onların hamısının bu gün yeganə mənbəyi var: Xəzər dənizi və daha dəqiq desək, Azərbaycan!

Neft və qaza gəldikdə, bizim ehtiyatlarımız nəhəngdir. Artıq qeyd etdim ki, dünən nazirlər səviyyəsində geniş müzakirələr aparıldı, bizim potensial təsvir olundu. Əvvəldə söylədiyim kimi, hesablamalara görə bizim ehtiyatlarımız bir çox onilliklər üçün kifayətdir. Lakin daha geniş əməkdaşlıq üçün əlavə ehtiyatlara ehtiyac duyulacaqdır. Bu gün biz artıq qeyd edə bilərik ki, nefti Azərbaycandan Aralıq dənizinə nəql etmək məqsədi ilə layihələşdirilmiş Bakı-Tbilisi-Ceyhan boru kəməri Qazaxıstan neftinin nəqli üçün də istifadə edilir. Bu, mühüm hadisədir. Bu, birgə səylərimizin, hökumətlərarası sazişin və geniş əməkdaşlığın nəticəsidir. Həmin nailiyyət onu göstərir ki, Xəzərin bu sahilində başlanmış layihələr bütün tərəfdaşlarımızın və dostlarımızın üzünə açıqdır.

Bu, qarşılıqlı fayda verir və tərəfdaşlığımızı, regionda sabitliyi və dəhlizləri möhkəmləndirəcəkdir. Hamımız bunda maraqlıyıq.

Şaxələndirmə haqqında çox danışdıq. Bu haqda söhbət açanda biz istehlakçılar və alternativ mənbələri arzulayan tərəflər üçün şaxələndirməni nəzərdə tuturduq. Bunu da anlamaq olar. Lakin hasilatçılar, xüsusən də dünyanın neft bazarlarına birbaşa çıxışı olmayan Xəzər regionunun hasilatçıları üçün də şaxələndirmə vacibdir. Bu səbəbdən, biz boru kəmərlərinə malik olmalıyıq. Biz şirkətlər və ölkələrlə razılaşmalara malik olmalıyıq. Həmin sazişlər potensialımızdan istifadə etmək imkanı yaradır. Əgər bizim üçün bazar, daha dəqiq desək, bazarlar olmasa, onda enerji potensialımız reallaşmayacaqdır. Bu, bizim sürətli inkişafımızı əngəlləyəcəkdir. Ona görə şaxələndirmə hamı üçün, yəni hasilatçılar, tranzit ölkələri və təchizatçılar üçün vacibdir.

Qarşılıqlı asılılığa gəldikdə, hər zaman nəzərdə tutmalıyıq ki, biz bir-birimizdən asılıyıq. İstehlakçılar bizdən, biz isə istehlakçılardan asılıyıq. Əgər belə anlam olsa, onda qarşılıqlı fayda, yaxşı tərəfdaşlıq ruhu, dostluq və əməkdaşlıq əsasında irəliyə doğru addımlamaq və məqsədlərimizə çatmaq daha asan olacaqdır.

Hesab edirəm ki, enerji təhlükəsizliyini və sabitliyi təmin edə biləcək bütün bu mühüm amillər bizim üçün və avropalılar üçün çox vacibdir. Enerji təhlükəsizliyi, şaxələndirmə, qarşılıqlı asılılıq, gələcəkdə birgə fəaliyyət növbəti aylar ərzində vacib məsələlər olacaqdır.

Bu gün isə biz məlumat aldıq ki, enerji layihələri ilə bağlı bir çox sammitlər, - məsələn Rumıniyada, Bolqarıstanda, - olacaqdır. Əminəm ki, onlar da uğurla keçiriləcəkdir. Ola bilsin, həmin vaxt biz praktik baxımdan daha çox işlər görə biləcəyik.

Biz çox şadıq ki, qəbul ediləcək Bəyannamə konsensus əsasında müzakirə olunmuşdur. Bu, onu göstərir ki, enerji layihələri asanlıqla bir Bəyannamədə əks oluna bilər. Enerji layihələrimiz bir-birilə rəqabət aparmır və aparmalı deyil. Bir-birinə zidd deyil. Baxmayaraq ki, əvvəldə qeyd etdiyim kimi, həmin layihələr bir çox sahələri əhatə edir, onların coğrafiyası genişdir, bu, vacib amildir.

Bəyannamə üzərində apardıqları konstruktiv işə görə bütün iştirakçılara minnətdaram. Mühüm cəhət odur ki, Bəyannaməyə qoşulanlar arasında Avropa İttifaqının üzvü olan 9 dövlət var. Avropa Komissiyası da var. Bu, Qafqaz və Xəzər regionu üçün mühüm amildir. Avropa İttifaqı ilə bizim münasibətlərimiz həm Qonşuluq siyasəti, həm enerji əməkdaşlığı çərçivəsində çox müsbət inkişaf edir. Əlbəttə ki, gələcək uğurlar üçün biz həmin müsbət meyilləri davam etdirməliyik. Avropa İttifaqının 9 üzvünün - üçdə bir hissəsinin bu Bəyannaməyə qoşulan ölkələr arasında olması faktı özlüyündə önəmlidir.

Mən dəvətimizi qəbul edib, bu sammitdə iştirak edənlərin hamısına bir daha minnətdarlığımı bildirmək istəyirəm. Biz sammitin nəticələrini realist baxımdan təhlil etməliyik. Nəticələrin bəzilərini bu gün fəxrlə bəyan edə bilərik. Digərləri sonra olacaqdır. İş məhz belə aparılır. Bir addım atırıq və onun nəticəsində digər addımlar gəlir. Əminəm ki, davam edəcək əməkdaşlıq ruhu bütün məqsədlərimizə nail olmağa imkan verəcəkdir. Bugünkü toplantıda böyük sayda iştirakımız onu göstərir ki, bu məqsədlər üst-üstə düşür.

Çox sağ olun. İndi isə, sonuncu, formal məsələ qalır. O da bu Bəyannaməni qəbul et-

məkdən ibarətdir. Hesab edirəm ki, hamı onu dəstəkləyir. Dəstəkləyən ölkələrin adları Bəyannamədə göstərilibdir. Bununla da mən bu sammiti bağlı elan edirəm.

Çox sağ olun.

BAKI ENERJİ SAMMİTİNİN BƏYANNAMƏSİ

Bakı, 14 noyabr 2008-ci il

Biz, 2008-ci il noyabrın 14-də Bakı şəhərində keçirilmiş Enerji Sammitinin iştirakçıları, qlobal enerji təhlükəsizliyinin təmin edilməsinin vacibliyini təsdiqləyərək və Enerji Xartiyasına dair Müqavilədə şərh olunmuş əsas prinsipləri qəbul edərək, enerji daşıyıcılarının və onların beynəlxalq bazarlara çatdırılmasının qlobal siyasi və iqtisadi proseslərdə artmaqda olan rolunu nəzərə alaraq, enerji daşıyıcılarının dünya bazarlarına sabit şəkildə göndərilməsinin və onların nəqlinin təhlükəsizliyinin davamlı inkişafın ən mühüm və zəruri amili kimi bütün beynəlxalq birliyin mənafelərinə uyğun olmasını qeyd edərək, karbohidrogen mənbələrinin və onların istehlakçılara nəql edilməsi yollarının bazar iqtisadiyyatı, şəffaflıq, azad rəqabət və qarşılıqlı faydalılıq prinsipləri əsasında şaxələndirilməsinə tərəfdar olduğumuzu bildirərək, Xəzər regionunun karbohidrogen ehtiyatlarının mənimsənilməsi və enerji daşıyıcılarının beynəlxalq bazarlara nəql edilməsinin iri mərkəzlərdən biri və Avrasiya Neft Nəqli Dəhlizi sistemində ən mühüm element olmasını etiraf edərək, Xəzər regionunun karbohidrogen ehtiyatlarının beynəlxalq bazarlara nəql edilməsi üçün Avrasiya dəhlizi layihəsinin həyata keçirilməsini müsbət qiymətləndirərək və onun vacibliyini təsdiqləyərək,

aşağıdakıları bəyan edirik:

1. Enerji resurslarının hasilatçı ölkələri, tranzit ölkələri, istehlakçı ölkələri arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə, regional investisiya enerji layihələrinin həyata keçirilməsi üçün zəruri əlverişli şərait yaradılmasına tərəfdar olduğumuzu təsdiq edirik.
2. Xəzər hövzəsindən neftin və qazın dünya və Avropa bazarlarına çatdırılması yollarının şaxələndirilməsinə yönəlmiş siyasətin davam etdirilməsini vacib hesab edirik.
3. İştirakçı dövlətlərin tələbatını daha tam təmin etməkdən ötrü Azərbaycanın təbii qazının regional və Avropa bazarlarına nəqli və tranziti üçün çoxvektorlu infrastrukturun yaradılmasına aid layihələrin həyata keçirilməsini dəstəklədiyimizi bildirirk.
4. Razılıq hissi ilə bildirirk ki, Xəzər hövzəsinin çox böyük yataqlarını dünya və Avropa bazarları ilə birləşdirən neftin və təbii qazın mənbələrinin və nəqli yollarının şaxələndirilməsi üzrə həyata keçirilən enerji layihələri regional əməkdaşlığın daha da möhkəmlənməsinə əhəmiyyətli dərəcədə kömək edir, rəqabət mühiti və enerji ehtiyatlarının hasilatçı ölkələri, istehlakçı ölkələri və tranzit ölkələrinin qarşılıqlı surətdə faydalı maraqlarının təmin edilməsi üçün daha əlverişli şərait yaradır.
5. Neftin və qazın dünya və Avropa bazarlarına çatdırılmasını səmərəli şəkildə təmin edən Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərlərinin, Bakı-Tbilisi-Ərzurum və Türkiyə-Yunanıstan qaz kəmərlərinin müsbət təcrübəsini və uğurla fəaliyyət göstərməsini qeyd edirik.

6. Avropa bazarlarına neft göndərilməsi üçün Avrasiya neft Nəqletmə Dəhlizi sistemində Odessa-Brodı neft kəmərinin işə salınmasının əhəmiyyətini etiraf edirik.
7. Karbohidrogenlərin etibarlı və təhlükəsiz nəqlinə zəruri şəraitin təmin edilməsi üçün iştirakçı ölkələrin səylərini birləşdirmək məqsədi ilə Xəzər-Qara dəniz-Baltik Enerji Tranziti Məkanının yaradılması təşəbbüslərini alqışlayırıq və bu işin davam etdirilməsinin vacibliyini qeyd edirik.
8. Krakov, Vilnüs və Kiyev enerji sammitlərinin qərarlarının həyata keçirilməsi çərçivəsində, o cümlədən yeni "Sarmatia" beynəlxalq boru kəməri müəssisəsi (BBKM) təşkilati strukturunun yaradılması və Odessa-Brodı-Plotsk-Qdansk neft kəmərinin istismarı üçün zəruri şərait yaradılmasına dair görülmüş təşkilati və əməli tədbirlərdən məmnunluğumuzu bildiririk.
9. Qazaxıstan neftinin Xəzər dənizindən və Azərbaycan Respublikasının ərazisindən keçməklə Avropa və dünya bazarlarına nəql edilməsi sisteminin yaradılmasına dair Xəzər regionunda görülən işləri alqışlayır və bəyənirik.
10. Neftin və qazın nəqli və tranziti üçün ən əlverişli rejim yaradılması və bu işin iqtisadi səmərəsinin artırılmasının əlavə imkanlarının nəzərdən keçirilməsini davam etdirməyi zəruri hesab edirik.
11. Müvafiq nazirliklərin, baş idarələrin, yanacaq-energetika kompleksləri və neft-qaz şirkətləri rəhbərlərinin Bakı Enerji Sammiti ərəfəsində keçirilmiş görüşünün nəticələrini, eləcə də sahəvi əməkdaşlığın möhkəmləndirilməsi və dərinləşdirilməsi, istehsal güclərinin və infrastrukturun inkişafı, enerji effektivliyi və enerjiyə qənaət sahəsində elmi-texniki informasiya və qazanılmış təcrübə mübadiləsi üzrə əldə edilmiş razılaşmaları nəzərə alırıq.
12. Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəlmiş birgə layihələrin, xüsusən qazın nəqlinə, o cümlədən, Türkiyə-Yunanıstan-İtaliya İnterkonnektoru, Nabukko daxil olmaqla, Gürcüstan və Türkiyə ərazisi ilə tranzitinə dair layihələrin və başqa layihələrin həyata keçirilməsi üçün tərəflərin fəaliyyətinin əlaqələndirilməsinə yönəlmiş səyləri davam etdirmək barədə razılığa gəldik.
13. Bu Bəyannaməyə: Azərbaycan Respublikası, Bolqarıstan Respublikası, Macarıstan Respublikası, Yunanıstan Respublikası, Gürcüstan, İtaliya Respublikası, Latviya Respublikası, Litva Respublikası, Polşa Respublikası, Rumıniya, Amerika Birləşmiş Ştatları, Türkiyə Respublikası, Ukrayna, İsveçrə Konfederasiyası, Estoniya Respublikası və Avropa Komissiyası qoşulmuşdur.

RUMİNİYA AZƏRBAYCANI VACİB TƏRƏFDAŞ VƏ SABİT ENERJİ TƏCHİZATÇISI KİMİ DƏYƏRLƏNDİRİR

Bu fikir noyabrın 14-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə ölkəmizdə səfərdə olan Rumıniyanın xarici işlər naziri Lazer Komaneskunun görüşündə səslənmişdir.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsini və beynəlxalq əhəmiyyət kəsb edən əksər məsələlərdə Azərbaycan və Rumıniyanın eyni mövqe nümayiş

etdirməsini, 40-dan artıq ikitərəfli sənədin imzalanmasını vurğulayan tərəflər, siyasi, iqtisadi səviyyədə, regional miqyasda da mövcud əməkdaşlıqdan razılıqlarını ifadə etmişlər.

Xüsusilə Qara dəniz-Xəzər dənizi regionları arasında və QİƏT daxilində tərəfdaşlıq, Avropaya inteqrasiya sahəsində təcrübə mübadiləsi vacib hesab olunmuşdur.

Bakıda keçirilən beynəlxalq enerji sammitində iştirakından məmnunluğunu və tədbirin təşkilini yüksək qiymətləndirən rumıniyalı nazir ölkəsinin Azərbaycanı vacib tərəfdaş və sabit enerji təchizatçısı kimi dəyərləndirdiyini diqqətə çatdırmışdır.

L.Komanesku qarşılıqlı əməkdaşlığın daha da dərinləşdirilməsi, biznes dairələri arasında təmasların genişləndirilməsinin vacibliyini vurğulayaraq, vətəndaşların rahat gediş-gəlişi üçün viza rejiminin asanlaşdırılması üzərində işlərin aparılmasının əhəmiyyətini bildirmişdir.

Qonaq, həmçinin Rumıniyanın istənilən münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daxil olmaqla regionda mövcud dondurulmuş münaqişələrin yalnız ərazi bütövlüyü prinsipi əsasında həllini dəstəklədiyini diqqətə çatdırmışdır.

E.Məmmədyarov Rumıniyanın bu mövqeyini yüksək qiymətləndirmiş və Avropa İttifaqının regiondakı münaqişələrə yanaşmasında ikili standartlardan çəkilməsinin vacibliyini vurğulayaraq Rumıniyanın bu istiqamətdə səylərinə ümid etdiyini söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17- də ABŞ Silahlı Qüvvələrinin Nəqliyyat Komandanı general Dunkan Maknabın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

General Dunkan Maknab ölkəmizə ikinci dəfə səfər etdiyini, ötən müddət ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ikitərəfli münasibətlərimizin müvafiq sahələrində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇİN MƏŞĞULLUQ NAZİRİ SVEN OTTO LİTTORİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də İsveçin məşğulluq naziri Sven Otto Littorinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı iki ölkə arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın İsveçdə səfirliyinin açılmasını əlaqələrin genişlənməsinə xidmət edəcəyini bildirdi. İsveçin məşğulluq naziri Sven Otto Littorinin Azərbaycana səfərinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı müvafiq sahələrdə birgə fəaliyyət və səmərəli əməkdaşlıq baxımından bu səfərin faydalı olduğunu qeyd etdi.

Sven Otto Littori Azərbaycana ilk dəfə səfər etdiyindən məmnunluğunu bildirdi. Qonaq ölkəmizdə gedən sürətli inkişaf proseslərindən danışdı, Bakının çox gözəl şəhər olduğunu xüsusi vurğuladı. Azərbaycanın İsveçdə səfirliyinin açılmasını yüksək dəyərləndirən Sven Otto Littori bunun ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətli olacağını dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müavini Devid Krameri qəbul etmişdir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ VİTSE-PREZİDENTİ ŞİGEO KATSUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Şigeo Katsunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Şigeo Katsu ölkəmizdə keçirəcəyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi, səfər müddətində Bakıda Asiya İnkişaf Bankı tərəfindən təşkil olunan Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq proqramı çərçivəsində keçiriləcək tədbirdə də iştirak edəcəyini bildirdi.

Dövlətimizin başçısı qonağın ölkəmizə səfər proqramının geniş olduğunu vurğuladı. Prezident İlham Əliyev bu səfərin Azərbaycanın müvafiq hökumət nümayəndələri ilə görüşlər keçirmək və qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkan yaratdığını bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XİN-DƏ YARADILMIŞ XÜSUSİ İŞÇİ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜSDÜR

2009-cu ildə ATƏT-də sədrliyi ilə əlaqədar ölkəmizdə səfərdə olan Yunanıstanın Xarici İşlər Nazirliyində yaradılmış xüsusi işçi qrupunun rəhbəri səfir Nikolaos Kolantsianos noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşdür.

Görüşdə N.Kolantsianos demişdir ki, Yunanıstan 2009-cu ildə ATƏT-ə sədrlik edəcəkdir və onun Azərbaycana bu gəlişi ölkəsinin xarici işlər naziri xanım Teodora Bakoyannisin Cənubi Qafqaz ölkələrinə gələn ilin əvvəlində planlaşdırılan səfərinə hazırlıq məqsədi daşıyır.

Yunanıstanın ATƏT-ə sədrlik edəcəyi müddətdə Cənubi Qafqaz bölgəsinə xüsusi diqqət yetiriləcəyini vurğulayan qonaq, ölkəsinin siyasətinin ATƏT tərəfindən bölgəyə dair müəyyən edilmiş qaydalar çərçivəsində həyata keçiriləcəyini və region ölkələri arasında konsensusun əldə edilməsi üçün ədalətli vasitəçilikdən ibarət olacağını söyləmişdir. ATƏT-ə üzv ölkələrin ərazi bütövlüyü prinsipinin əsas tutulacağını və bu məsələnin müzakirə mövzusu olmayacağını xüsusi vurğuluyan səfir, son zamanlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların gedişi ilə maraqlanmışdır.

Nazir E.Məmmədyarov səfir N.Kolantsianosu ölkəsinin ATƏT-də sədrliyi ilə əlaqədar təbrik etmiş, Azərbaycanın bu təşkilatla fəal və faydalı əməkdaşlıq etdiyini bildirmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında gedən danışıqlara toxunan nazir, ölkəmizin münaqişənin sülh yolu ilə və beynəlxalq normalar çərçivəsində həllinə dair atılan hər bir addımı alqışladığını, eyni zamanda, dünya ictimaiyyətinin bölgədə mövcud münaqişələrə eyni prinsipdən yanaşmasının vacibliyini vurğulamışdır.

E.Məmmədyarov bildirmişdir ki, ATƏT və digər nüfuzlu beynəlxalq təşkilatların regional münaqişələrə eyni mövqedən yanaşması beynəlxalq normaları pozan hər bir tərəfə aydın xəbərdarlıq ola bilər.

Yunanıstanlı qonaq bölgədə davamlı sülhün Avropanın enerji təhlükəsizliyində böyük rol oynadığını qeyd etmişdir.

Bu xüsusda diqqəti Bakı enerji sammitinə yönəldən nazir E.Məmmədyarov, forum çərçivəsində aparılmış əhəmiyyətli müzakirələr və qəbul olunmuş bəyannamə barədə qonağa ətraflı məlumat vermişdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Noyabrın 19-da nazir müavini Vaqif Sadıqov ABŞ Dövlət Katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə müavini David Kramerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın bir sıra dövlət qurumları və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirak etdiyi görüşdə ikitərəfli münasibətlərə aid məsələlər müzakirə olunmuş, insan

haqlarının müdafiəsi və demokratikləşmə proseslərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Tərəflər arasında açıq və konstruktiv dialoq baş tutmuş, aparılan müzakirələrin faydalılığı vurğulanmışdır.

MİLLİ MƏCLİSİN SƏDRİ YUNANISTANIN ATƏT-DƏKİ DAİMİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 19-da Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycanda səfərdə olan Yunanıstanın ATƏT-dəki daimi nümayəndəsi səfir Mara Marinakinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə sədr O.Əsədov qeyd etmişdir ki, bu cür görüşlər münasibətlərimizin daha da inkişafına xidmət edir. Əməkdaşlığımızın daha da dərinləşməsində dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri mühüm rol oynamışdır. Bu səfərlər zamanı ölkələrimiz arasında mühüm əhəmiyyətli sənədlər imzalanmışdır. Dövlətlərarası Komissiya həyatımızın müxtəlif sahələrində əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxmasına öz müsbət təsirini göstərməkdədir. Müstəqil Azərbaycan Avratlantik strukturlara inteqrasiya sahəsində Yunanıstanın dəstəyinə böyük önəm verir.

Dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolu böyükdür. Bu gün hər iki ölkənin qanunvericilik orqanında dostluq qrupları fəaliyyət göstərir. Deputatlarımız müxtəlif beynəlxalq qurumlarda birgə iştirak edir, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparırlar.

Parlamentin sədri O.Əsədov bildirmişdir ki, ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar sahələrdə də əməkdaşlıq üçün geniş imkanlar vardır. Sürətlə inkişaf edən Azərbaycan Cənubi Qafqazda sərmayə üçün ən cəlbedici ölkədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə layiqli töhfəsini verməkdədir.

Dağlıq Qarabağ münaqişəsinin bölgənin iqtisadi dirçəlişinə və qlobal layihələrin reallaşmasına əngəl törətdiyini vurğulayan O.Əsədov demişdir ki, Azərbaycan problemin BMT Nizamnaməsində, Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplər əsasında həllinin tərəfdarıdır. Ermənistan münaqişə ilə bağlı beynəlxalq qurumların qəbul etdiyi sənədlərə və prinsiplərə məhəl qoymamaqda davam edir.

Sonra sədr problemlə bağlı ATƏT-in Minsk qrupunun bəzi həmsədrlərinin məsuliyyətsiz bəyanatlarından narahatlığını ifadə etmişdir. Qeyd olunmuşdur ki, bu cür bəyanatlar problemin həllinə xidmət etmir. Milli Məclisin sədri ümidvar olduğunu bildirmişdir ki, yaxın vaxtlarda Minsk qrupuna həmsədrlik edəcək Yunanıstan məsələyə obyektiv yanaşacaq, problemin ölkələrin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun, ədalətli həlli üçün səylərini əsirgəməyəcəkdir.

Səmimi görüşə görə minnətdarlığını bildirən qonaq, ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişafına böyük maraq göstərdiyini bildirmişdir. O, Azərbaycanda gördüklərindən məmnun olduğunu vurğulayaraq, bölgədəki vəziyyətlə əlaqədar ətraflı məlumata görə parlamentin sədrinə minnətdarlığını bildirmişdir. Səfir demişdir ki, onun ölkəsi regional münaqişələrin həllində dövlətlərin ərazi bütövlüyü prinsipinə böyük önəm verir.

Söhbətdə regional münaqişələrin həlli yolları, parlamentlərarası əlaqələrin inkişafı, Cənubi Qafqazda qlobal layihələrin həyata keçirilməsi, Avropanın enerji təhlükəsizliyi sahəsində Azərbaycanın oynadığı rol və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURODANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Asiya İnkişaf Bankının prezidenti Haruhiko Kurodanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana ilk dəfə səfər etdiyini, ölkəmizdə sürətli iqtisadi inkişafın şahidi olduğunu, xüsusilə də Bakı şəhərinin xoş təəssürat doğurduğunu bildirən Haruhiko Kuroda dedi: "Cənab Prezident, mən tam əminəm ki, Sizin güclü rəhbərliyiniz altında iqtisadiyyatınız bundan sonra da sürətlə artmaqda davam edəcəkdir". Qonaq ümidvar olduğunu bildirdi ki, Azərbaycanda olan düzgün iqtisadi idarəetmə və neft gəlirlərindən səmərəli istifadə gələcək də inkişaf üçün yeni imkanlar açacaqdır.

Dövlətimizin başçısı Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən iqtisadiyyatda yüksək inkişafa nail olunduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində dünyadakı maliyyə böhranının ölkəmizin əhalisinə təsiri bilavasitə hiss edilmədi. Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı bir sıra proqramların uğurla həyata keçirildiyini deyən dövlətimizin başçısı bu layihələrin ardıcıl olaraq davam etdiriləcəyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AZƏRBAYCAN XXI ƏSRDƏ - UĞURUN STRATEGİYASI" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ "DƏYİRMİ MASA"NIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də "Azərbaycan XXI əsrdə - uğurun strategiyası" mövzusunda keçirilən beynəlxalq "dəyirmi masa"nın iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı "Azərbaycan XXI əsrdə - uğurun strategiyası" mövzusunda beynəlxalq "dəyirmi masa"nın əhəmiyyətindən danışaraq, əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi üçün vaxtaşırı bu cür fikir mübadilələrinin keçirilməsinin vacibliyini qeyd etdi. "Dəyirmi masa"nın gündəliyinin bir hissəsinin Azərbaycan-Rusiya münasibətlərinə həsr olunduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlər mehriban qonşuluq, strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır və dinamik şəkildə inkişaf etməkdədir. Azərbaycan-Rusiya münasibətləri ölkələrimiz üçün vacib olduğu qədər Qafqaz və Xəzər regionunun inkişafında da əhəmiyyətli rol oynayır. Dövlətimizin başçısı iki ölkə arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyini söyləyərək dedi ki, bunun üçün hər iki ölkə rəhbərliyinin güclü siyasi iradəsi və dövlətlərarası möhkəm hüquqi baza mövcuddur.

Regional əməkdaşlıq məsələlərinin bölgənin təhlükəsizliyi ilə sıx bağlı olduğunu bildirən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinin hamıya bəlli olduğunu xatırlatdı. Bildirdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində ölkəmizin ərazisinin 20 faizi işğal olunub, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu təcavüz nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması ilə bağlı BMT-nin qəbul etdiyi məlum dörd qətnaməyə məhəl qoymur.

Dövlətimizin başçısı dedi ki, bütün bunlara baxmayaraq, münaqişənin sülh yolu ilə həlli üçün ümidverici faktlar da yox deyildir. Prezident İlham Əliyev bu yaxınlarda Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Moskvada prezidentlərin görüşündə danışıqların davam etdirilməsi ilə bağlı qəbul olunmuş Bəyannamənin əhəmiyyəti barədə danışdı. Dövlətimizin başçısı bildirdi ki, yalnız Azərbaycanın işğal edilmiş əraziləri boşaldıldıqdan sonra Qafqazda sülhə nail olmaq mümkündür. Problemin daha dərin təhlillər tələb etdiyini deyən Prezident İlham Əliyev bu məsələdə Azərbaycanın mövqeyi və münaqişənin tarixi kökləri ilə yaxından tanış olmaq baxımından Bakıda keçirilən beynəlxalq tədbirin əhəmiyyətini vurğuladı.

Azərbaycanda demokratik inkişaf proseslərinin uğurla getdiyini xatırladan Prezident İlham Əliyev ölkəmizdə siyasi və iqtisadi islahatların paralel olaraq həyata keçirildiyini dedi və bunu əldə olunan uğurların başlıca şərtlərindən biri kimi qiymətləndirdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadi sahədəki nailiyyətlərindən də danışaraq bildirdi ki, güclü sosial siyasətin həyata keçirilməsi və demokratik prinsiplərin tətbiqi nəticəsində ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində də uğurlu addımlar atılmışdır.

Görüşdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının Xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Sergey Vinokurov və Rusiya Dövlət Dumasının MDB işləri və həmvətənlərlə əlaqələr komitəsinin sədri Aleksey Ostrovski çıxış etdilər. Aleksey Ostrovski Azərbaycan-Rusiya münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi, qarşılıqlı əlaqələrin möhkəmlənməsində ümummilli lider Heydər Əliyevin xidmətlərini xüsusi vurğuladı. Qonaqlar Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərini də qeyd etdilər, Azərbaycan-Rusiya əlaqələrinin əhəmiyyətindən danışdılar.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 19-20-də İsveçrə Konfederasiyasında rəsmi səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bu ölkənin prezidenti Paskal Kuşpen, parlament sədri Andre Buqnon və həmkarı Mişelin Kalmi Rey ilə görüşlər keçirmişdir.

Görüşlərdə ikitərəfli və çoxtərəfli münasibətlər müzakirə olunmuş, əlaqələrin inkişaf dinamikasından razılıq ifadə edilmişdir.

Həmçinin Azərbaycan və İsveçrə rəsmiləri arasında ən yüksək səviyyədə yaranmış siyasi dialoqun davam etdirilməsi, iqtisadi münasibətlər, energetika sahəsində əməkdaş-

lıq məsələləri, Bakı enerji sammitinin nəticələri ətrafında fikir mübadiləsi aparılmış, Ermənistanın Azərbaycana təcavüzü, danışıqlar prosesi və bölgədəki mövcud siyasi vəziyyət geniş müzakirə olunmuşdur.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ABŞ-IN İSLAM KONFRANSI TƏŞKİLATINDAKI XÜSUSİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 21-də Xarici İşlər nazirinin müavini Vaqif Sadıqov ABŞ-ın İslam Konfransı Təşkilatındakı xüsusi səfiri Sada Kumberlə görüşmüşdür.

İKT daxilində ABŞ və Azərbaycanın ikitərəfli əməkdaşlığını, təşkilatın inkişafı və dünyada nüfuzunun artırılması istiqamətində birgə səylərini vurğulayan tərəflər, ABŞ-ın İKT ilə əməkdaşlıqda marağını və müsəlman dünyası ilə yaxınlaşmaq baxımından təşkilatın vacib rolunu qeyd etmişlər.

Səfir S.Kumber Bakıda təşkil olunmuş beynəlxalq tədbirləri - "Qarşılıqlı anlaşma və dözümlülükdə KİV-in rolu" konfransını, "Qadınların mədəniyyətlərarası dialoqda rolunun artırılması" forumunu, Azərbaycanın təşkilatın işinə verdiyi töhfəni yüksək qiymətləndirmişdir.

Görüşdə, həmçinin İKT tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunmuş və ölkəmizin haqlı mövqeyini dəstəkləyən qətnamələr, həmçinin BMT Baş Məclisinin qəbul etdiyi "İşğal olunmuş torpaqlarda vəziyyət" qətnaməsinə bir sıra İKT üzv dövlətlərinin dəstəyi təqdirəlayiq hesab olunmuşdur.

Səfir S.Kumber Azərbaycana səfəri çərçivəsində Diplomatik Akademiyada tələbələrə "Amerika müsəlman dünyası ilə dialoqu necə qurmalıdır" mövzusunda mühazirə də oxumuşdur.

İSTANBULDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ I KONFRANSI KEÇİRİLMİŞDİR

Noyabrın 21-də İstanbuldakı Dolmabağça sarayında Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə Türkdilli Ölkələrin Parlament Assambleyasının I konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti iştirak etmişdir.

Konfransın açılışında çıxış edən Türkiyə Prezidenti Abdullah Gül bildirmişdir ki, bu tarixi gündə dili, dini, adət-ənənələri, müştərək keçmişi olan xalqların daha da yaxınlaşması istiqamətində yeni bir addım atılır. Ən yüksək səviyyədə keçirilmiş görüşlər, habelə alimlər, iş adamları, sənətçilər arasında dostluq münasibətləri xalqlarımızın böyük dəstəyi ilə daha da genişlənir.

Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması təklifini 1996-cı ildə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev irəli sürmüşdü və bu gün imzalanacaq sazişlə bu mühüm təşkilat qurulacaqdır. Assambleyanın Türkiyədə fəaliyyət göstərəcək Daimi Katibliyinin yaradılması fikri də bütün dövlət başçıları tərəfindən dəstəklənmişdir. Bu məsələ gələn il Bakıda keçiriləcək zirvə görüşündə müzakirə olunacaq, sonra isə Bişkekdəki sammitdə müvafiq sənəd imzalanacaqdır. Bundan başqa, Türkdilli Ölkələrin

Ağsaqqallar Şurasının da yaradılması nəzərdə tutulur.

Abdullah Gül daha sonra demişdir ki, Türkdilli ölkələrin dövlət başçılarının 1992-ci ildən başlayaraq keçirilmiş 8 zirvə görüşündə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm qərarlar qəbul olunmuşdur. Bakıda keçiriləcək sammit də bu baxımdan çox əhəmiyyətli olacaqdır. Türk xalqlarının qardaşlıq ittifaqı heç kimə qarşı deyil, əksinə, sağlam zəkaya söykənən birliyin qurulması məqsədini daşıyır. Qardaş xalqlar son illər böyük enerji və nəqliyyat layihələri həyata keçirmişlər. Bir zamanlar çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə artıq 500 milyon barrel xam neft Bakıdan dünya bazarlarına göndərilmişdir, Qazaxıstan neftinin də bu boru xətti ilə nəqlinə başlanmışdır. Bakı-Tbilisi-Ərzurum qaz kəməri də uğurla fəaliyyət göstərir. Bakı, Tbilisi və Qarsda dövlət başçılarının təməlini qoyduğu Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi də davam edir. Bütün bu layihələr dost və qardaş ölkələrin uğurlu əməkdaşlığının gözəl örnəyidir. Türkiyənin dövlət başçısı konfransın işinə uğurlar dilədi, Türkdilli Ölkələrin Parlament Assambleyasının millət vəkillərinin dostluğuna və əməkdaşlığına təkan verəcəyinə ümidvar olduğunu söylədi.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov və Türkiyə parlamentinin spikeri Köksal Toptan da çıxışlarında yaradılan qurumun türkdilli ölkələrin qanunverici orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi, mühüm məsələlərdə ortaq mövqedən çıxış edilməsi baxımından əhəmiyyətli olduğunu söylədilər. Oqtay Əsədov Azərbaycan dövlətinin türk dünyasında birliyin və həmrəyliyin gücləndirilməsinə xüsusi önəm verdiyini vurğuladı. Əlavə etdi ki, türkdilli ölkələrin yerləşdiyi coğrafiya dünyanın siyasi və iqtisadi həyatında olduqca əhəmiyyətlidir.

Sonra türkdilli ölkələrdən gəlmiş millət vəkilləri çıxış etdilər.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Mustafa Kabakçı çıxışında bildirdi ki, azərbaycanlı şair Əhməd Cavadın şeirində deyidiyi kimi, çırpınan Qara dənizi salamlayan türk bayrağını bir gün də Qarabağ salamlayacaq, bütün dünyada türk mərkəzləri qurulacaq, türk xalqları dünyada söz sahibi olacaqlar.

Azərbaycan parlamentinin deputatı Nizami Cəfərov ulu öndər Heydər Əliyevin Bakıdakı zirvə görüşündə söylədiyi "Türk dünyasının mədəni birliyini onun siyasi birliyi tamamlamalıdır" kəlamını xatırlatdı. Bildirdi ki, türk dünyasında mövcud olan Dağlıq Qarabağ, uydurma "erməni soyqırımı", ortaq dil, ortaq əlifba kimi problemləri yalnız birlikdə həll etmək olar. Türkdilli ölkələrin birliyinə Özbəkistan və Türkmənistanın da qoşulacağına əmin olduğunu vurğulayan deputat, bu birliyin dünyaya bir harmoniya gətirəcəyini demişdir.

Konfransın sonunda yekun Bəyannaməsini və Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması barədə Sazişi Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan, Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov, Qazaxıstan parlamenti Senatının sədr müavini Muhammed Kopeyev, Qırğızıstan parlamentinin sədri Aytibay Taqayev imzaladılar.

Konfrans çərçivəsində Türkiyə Prezidenti Abdullah Gül Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovu qəbul etmişdir. Oqtay Əsədov Türkiyə parlamentinin sədri Köksal Toptan və digər həmkarları ilə də görüşləri olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniyanın York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndiyi vurğulandı. İqtisadi sahədə əlaqələrin dinamik inkişaf etdiyi bildirildi və bu əməkdaşlığın gələcəkdə möhkəmlənəcəyinə inam ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN BEYNƏLXALQ İNKİŞAF AGENTLİYİNİN (USAİD) ADMİNİSTRATORU VƏ ABŞ-IN XARİCİ YARDIMLAR ÜZRƏ DİREKTORU HENRİETTA FORUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Administratoru və ABŞ-ın xarici yardımlar üzrə direktoru Henrietta Forun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycanda həyata keçirilən işlərin onda böyük təəssürat hissi doğurduğunu söyləyən Henrietta For Prezident İlham Əliyevin Azərbaycanın inkişaf perspektivləri barədə fikir və baxışlarını Amerika Birləşmiş Ştatlarına qayıdarkən həmkarlarına çatdıracağını bildirdi.

Dövlətimizin başçısı Henrietta Forun ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizi, regiondakı vəziyyəti müzakirə etmək baxımından yaxşı imkan yaratdığını vurğulayaraq, ABŞ-Azərbaycan münasibətlərinin uğurla inkişaf etməsindən məmnunluğunu ifadə etdi.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA GÖRKƏMLİ AZƏRBAYCAN RƏSSAMI TAHİR SALAHOV İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva görkəmli Azərbaycan rəssamı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ xalq rəssamı Tahir Salahov ilə görüşmüşdür.

Görkəmli rəssamı Heydər Əliyev Fondunda səmimiyyətlə qarşılayan Mehriban xanım Əliyeva onu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik etdi.

Tahir Salahovun parlaq ənənələrə malik müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən olduğunu vurğulayan Mehriban xanım dedi ki, rəssamın mövzu və janr rəngarəngliyi, bədii forma əlvanlığı və estetik kamilliyi ilə seçilən əsərləri milli sənət xəzinəmizin qızıl fonduna daxil olmuşdur. Yaratdığı tablolardan ibarət sərgilər rəssama ölkəmizin hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Sənətkarın dünyanın mötəbər muzeylərində və qalereyalarında, şəxsi kolleksiyalarda saxlanılan əsərləri Azərbaycan mədəniyyətinin geniş təbliğində mühüm əhəmiyyət kəsb edir. Tahir Salahov öz pedaqoji fəaliyyəti və təşkilatçılıq bacarığı ilə gənc rəssamlar nəslinin yetişdirilməsinə və milli rəssamlığın inkişafına sanballı töhfələr vermişdir.

Tahir Salahovun Azərbaycan incəsənətinin inkişafı və təbliğində təqdirəlayiq xidmətlərini xüsusi vurğulayan Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, dünya şöhrətli rəssam Azərbaycan xalqının fəxridir.

Xoş sözlərə və səmimi münasibətə görə dərin minnətdarlığını bildirən Tahir Salahov dedi ki, doğma Vətənində yubileyinin qeyd olunması sənətinə verilən böyük qiymətin göstəricisidir.

80 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamdan təsirləndiyini bildirən Tahir Salahov diqqət və qayğıya görə dövlətimizin başçısına, habelə Azərbaycan mədəniyyətinin təbliği və inkişafına xüsusi diqqət yetirən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bir daha təşəkkür etdi.

Mehriban xanım Əliyeva Tahir Salahova Heydər Əliyev Fondunun fəaliyyəti haqqında kitab və "Qarabağ xanəndələri" musiqi albomunu hədiyyə etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ AYRILAN BÜDCƏ VƏSAİTİ ARTIRILMIŞDIR

2009-cu ilin dövlət büdcəsindən Xarici İşlər Nazirliyinə ayrılan maliyyə vəsaiti artırılmışdır.

Büdcə layihəsinin Milli Məclisdə müzakirəsi zamanı bildirilmişdir ki, diplomatik xidmət orqanlarının saxlanılması üçün 2009-cu ilin dövlət büdcəsində 52 milyon manat nəzərdə tutulmuşdur. Bu da cari illə müqayisədə 3,7 milyon manat çoxdur.

BAKIDA AZƏRBAYCAN-LİVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İLK İCLASI BAŞLANMIŞDIR

Noyabrın 25-də Bakıda Azərbaycan-Liviya Hökumətlərarası Komissiyasının ilk iclası başlanmışdır.

Noyabrın 27-dək davam edəcək tədbirin birinci günü işçi qruplarının iclası keçirilir.

Azərbaycanın Xarici İşlər Nazirliyindən bildirmişlər ki, komissiyanın həmsədrləri Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi tərəfdən isə bu ölkənin xarici siyasət idarəsinin rəhbərinin müavini Məhəmməd Əl Barranidir.

İclasda Azərbaycan-Liviya iqtisadi əlaqələrinin inkişafı məsələləri müzakirə edilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də İtaliya Respublikasına rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və İtaliyanın dövlət bayraqları ilə bəzədilmiş Romanın "Çampino" hərbi hava limanında dövlətimizin başçısına və xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.

Prezident İlham Əliyevi İtaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.

Azərbaycan Prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYANIN "EDİSON" ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də Romada onun üçün ayrılmış iqamətgahda - "Vestin Excelsior" mehmanxanasında İtaliyanın "Edison" şirkətinin icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə "Edison" şirkəti arasında enerji sahəsində əməkdaşlığın perspektivi ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RAİ İNTERNATİONAL" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də Romada, onun üçün ayrılmış iqamətgahda İtaliyanın "Rai İnternational" telekanalına müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan-İtaliya münasibətləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın sürətli iqtisadi inkişafı, enerji sahəsində əldə etdiyi uğurlar, regional əməkdaşlıq, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın iştirakı və ölkəmizin bu sahədə potensialı, İtaliya şirkətlərinin Azərbaycan iqtisadiyyatında iştirakı və digər məsələlərlə bağlı suallara cavab verdi.

NAZİRLƏR ŞURASININ BİNASI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 26-da İtaliya Nazirlər Şurasının binası önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

İtaliyanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni Azərbaycan Prezidenti İlham Əliyevi binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və İtaliya hökumətinin sədri Silvio Berluskoni fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Nazirlər Şurasının sədri Silvio Berluskoniyə,

İtaliyanın rəsmi şəxsləri Prezident İlham Əliyevə təqdim edildi.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoni rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİNİN GÖRÜŞÜ

Noyabrın 26-da İtaliyanın Nazirlər Şurasının binasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikası Nazirlər Şurasının sədri Silvio Berluskoninin görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyi bildirildi. Silvio Berluskoni Prezident İlham Əliyevi yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi, onun İtaliyaya rəsmi səfərinin əhəmiyyətini xüsusi vurğuladı.

Söhbət zamanı qeyd olundu ki, iki ölkə arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələr genişlənəcək, qarşılıqlı münasibətlər daha da möhkəmlənəcəkdir.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ CANFRANKO FİNİ İLƏ GÖRÜŞÜ

Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya parlamentinin Deputatlar palatasının sədri Canfranko Fini ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin dinamik şəkildə inkişaf etdiyi bildirildi, bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya rəsmi səfərinin böyük əhəmiyyət kəsb etdiyi vurğulandı.

Deputatlar palatasının sədri Canfranko Fini Azərbaycan dövlətinin başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik etdi. O, iki ölkə arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə etdi, bu sahədə parlamentlərarası əlaqələrin rolunu vurğuladı, əməkdaşlığın gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, İtaliya-Azərbaycan əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyini vurğuladı.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına rəsmi səfəri başa çatmışdır.

BAKIDA AZƏRBAYCAN-LİVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İLK İCLASI BAŞLANMIŞDIR

Noyabrın 25-də Bakıda Azərbaycan-Liviya Hökumətlərarası Komissiyasının ilk iclası başlanmışdır.

Noyabrın 27-dək davam edəcək tədbirin birinci günü işçi qruplarının iclası keçirilir.

Azərbaycanın Xarici İşlər Nazirliyindən bildirmişlər ki, komissiyanın həmsədrləri Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi tərəfdən isə bu ölkənin xarici siyasət idarəsinin rəhbərinin müavini Məhəmməd Əl Barranidir.

İclasda Azərbaycan-Liviya iqtisadi əlaqələrinin inkişafı məsələləri müzakirə edilir.

AZƏRBAYCAN İLƏ LİVİYA ARASINDA QARŞILIQLI ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR

Noyabrın 26-da Bakıda Azərbaycan-Liviya Hökumətlərarası Komissiyasının iclası keçirilmişdir.

Komissiyanın həmsədrləri Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi tərəfdən isə bu ölkənin xarici siyasət idarəsinin rəhbərinin müavini Məhəmməd Əl Barranidir.

İclasda qarşılıqlı əməkdaşlıq haqqında protokol imzalanmışdır. X.Xələfov bildirmişdir ki, sənədin prioritet maddələri enerji və ticarət sahələrində əməkdaşlıqla bağlıdır. Protokolda kənd təsərrüfatı, təhsil, səhiyyə, turizm, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlıq da nəzərdə tutulur.

Təhsil sahəsində əməkdaşlıq çərçivəsində ali təhsil və elmi dərəcələrə aid diplomların qarşılıqlı olaraq tanınması, səhiyyə sahəsində əməkdaşlıq çərçivəsində kadr hazırlığı, mədəniyyət üzrə müxtəlif festivalların və mədəniyyət günlərinin keçirilməsi planlaşdırılır.

Azərbaycan-Liviya Hökumətlərarası Komissiyasının iclası gələn il Liviyada keçiriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ RƏSSAM TAHİR SALAHOVA "HEYDƏR ƏLİYEV" ORDENİNİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 27-də görkəmli rəssam, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ xalq rəssamı Tahir Salahova "Heydər Əliyev" ordenini təqdim etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev görkəmli fırça ustasına müraciətlə dedi:

- Hörmətli Tahir müəllim, sizi yubileyiniz münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Sizin fəaliyyətiniz, yaradıcılığınız bütün dünyanı sevindirir. Siz dünyamiqyaslı rəssamsınız, əsərləriniz dünyanın ən məşhur muzeylərində nümayiş etdirilir. Ən sevindirici hal odur ki, sizin əsərlərinizin böyük əksəriyyəti Azərbaycana həsr olunubdur. Sizin əsərlərinizdə Azərbaycanın görkəmli şəxsiyyətləri və adi insanlar təsvir edilmişdir.

Siz həm də çox geniş ictimai fəaliyyət göstərirsiniz. Azərbaycan qarşısında çox böyük xidmətləriniz var. Mən bütün bu xidmətləri nəzərə alaraq, Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinizə görə sizi Azərbaycanın ən yüksək, ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif etmək istəyirəm. Mən bu gün bu barədə Sərəncam imzaladım və istəyirəm, bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "Heydər Əliyev" ordenini Tahir Salahova təqdim etdi.

Xalq rəssamı Tahir Salahov onu Azərbaycanın ən ali mükafatına - "Heydər Əliyev" ordeninə layiq görməsi münasibətilə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, dövlətimizin başçısının Sərəncamı ilə 80 illik yubileyinin Azərbaycanda geniş qeyd olunmasına görə də təşəkkür etdi. Tahir Salahov ulu öndər Heydər Əliyevin XX əsrin ən böyük şəxsiyyətlərindən biri olduğunu vurğulayaraq dedi ki, məhz ümummilli liderin müdrik siyasəti nəticəsində respublikamızın dünya birliyində layiqli yerini tutmuşdur.

Heydər Əliyevlə şəxsi dostluğunu böyük məmnunluqla xatırlayan yubilyar ulu öndərin gərgin fəaliyyəti sayəsində əsaslı inkişaf yoluna qədəm qoyan Azərbaycanın son illərdə daha da inkişaf etdiyini və dünya birliyində mövqeyini daha da möhkəmləndirdiyini bildirdi. Tahir Salahov Prezident İlham Əliyevin mədəniyyət və incəsənətə, bu sahədə xüsusi xidmətləri olan sənət adamlarına hərtərəfli qayğı göstərdiyini vurğuladı, özünün "Heydər Əliyev" ordeninə layiq görülməsini bu qayğı və diqqətin daha bir nümunəsi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev yubilyarı Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olduğunu bir daha vurğulayaraq qeyd etdi ki, Tahir Salahov sənəti daim mövzu və janr zənginliyi, bədii formanın əlvanlığı və estetik kamilliyi ilə seçilib, onun əsərləri milli incəsənət xəzinəmizin qızıl fonduna daxil olmuşdur.

Dövlətimizin başçısı görkəmli fırça ustasının ulu öndər Heydər Əliyevlə çox səmimi münasibətlərinin canlı şahidi olduğunu bildirdi, bunu əsl dostluq nümunəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Tahir Salahovun yüksək mənəvi keyfiyyətlərini, Vətən və xalq qarşısında xidmətlərini bir daha xüsusi vurğuladı, dövlətimizin ali mükafatına layiq görülməsi münasibətilə təkrar təbrik etdi və ona ən xoş arzularını çatdırdı.

Sonra yadigar olaraq xatirə şəkli çəkdirildi.

XARİCİ İŞLƏR NAZİRİ LİVİYANIN XARİCİ SİYASƏT İDARƏSİNİN RƏHBƏRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 27-də nazir Elmar Məmmədyarov Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin xarici siyasət idarəsinin rəhbərinin müavini Məhəmməd Əl Barrani ilə görüşmüşdür.

Görüşdə tərəflər Bakıda keçirilmiş birinci Azərbaycan-Liviya Hökumətlərarası Komissiyasının iclasının nəticələrini müzakirə etmiş, imzalanmış protokolun ikitərəfli münasibətlərin inkişafında oynayacağı rolu yüksək qiymətləndirmişlər.

Tərəflərin fikrincə, Azərbaycan ilə Liviya arasında mövcud müqavilələr, hüquqi sənədlər ölkələr arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə zəmin yaradır, bunun üçün ikitərəfli səfərlərin intensivləşməsi zəruridir.

Bildirilmişdir ki, hər iki ölkə neft hasilatı və emalı sahəsində böyük təcrübəyə malik olduğundan, bu və digər sahələrdə qarşılıqlı mübadilələrin ön plana çəkilməsi məqsədəmüvafiq olardı.

Liviyalı qonaq ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın mövqeyinin BMT-nin Baş Məclisində səsvermələr zamanı daim dəstəklədiyini və bu siyasətin bundan sonra da davam etdiriləcəyini demişdir.

E.Məmmədyarov Liviyanın ölkəmizin mövqeyinə verdiyi dəstəyinə görə minnətdarlığını bildirmişdir.

Görüşdə Cənubi Qafqazda və Orta Şərqdə gedən proseslər ətrafında da müzakirələr aparılmışdır.

AZƏRBAYCAN XƏZƏR DƏNİZİNDƏ TƏHLÜKƏSİZLİYƏ DAİR SƏNƏD LAYİHƏSİNİ SAHİLYANI ÖLKƏLƏRƏ TƏQDİM ETMİŞDİR

Azərbaycan Xəzər dənizində təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə dair sənəd layihəsini hazırlayaraq sahilyanı ölkələrə təqdim etmişdir.

Bunu jurnalistlərə Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov bildirmişdir.

X.Xələfov demişdir ki, bu sənəddə daxili işlər, sərhəd və gömrük xidmətlərinin birgə fəaliyyəti və əməkdaşlığının əlaqələndirilməsi yolları əksini tapmışdır.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı növbəti danışıqların gələn il Bakıda aparılacağını deyən X.Xələfov bildirmişdir ki, dənizin şimal hissəsinin dibinin bölünməsi razılaşdırılmışdır. Lakin məsələnin tam həlli üçün Xəzərin cənubunda - İran, Azərbaycan və Türkmənistan arasında razılıq əldə edilməlidir. Burada bəzi fikir ayrılıqları qalmaqdadır. Həmin problemlərin ikitərəfli, yaxud üçtərəfli formatda həll olunacağı gözlənilir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabada gəlmişdir.

Azərbaycanın və Türkmənistanın dövlət bayraqları ilə bəzədilmiş Saparmurad Türkmənbaşı adına beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkmənistanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmətlə qarşıladılar.

Milli geyimli oğlan və qız Azərbaycan Prezidentinə gül dəstəsi təqdim etdilər.

Azərbaycan Prezidenti fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə hava limanından yola düşdü.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və Türkmənistanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Türkmənistanın dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan əsgərlərini salamladı.

Türkmənistanın rəsmi şəxsləri, xarici ölkələrin Aşqabadda akkreditə olunmuş səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edildi.

Rəsmi qarşılanma mərasimindən sonra prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 28-də Aşqabadda rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, əlaqələrin daha da genişlənəcəyinə əminlik vurğulandı. Bildirildi ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Dövlət başçıları ikitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi apardılar.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Noyabrın 28-də Aşqabadda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Türkmənistan Prezidenti QURBANQULU BERDİMƏHƏMMƏDOV Azərbaycan dövlətinin başçısını salamlayaraq dedi:

- Hörmətli İlham Heydər oğlu, əziz dostlar!

Biz Sizi qədim türkmən torpağında görməyə çox şadıq və Sizi ən əziz və fəxri qonaqlar kimi qarşılayırıq.

Azərbaycan bizim yaxın qonşumuzdur, xalqlarımızı mədəniyyətlərinin, dilinin və əsrlərin dərinliyindən gələn milli ənənələrin tarixi ümumiliyi bir-birinə bağlayır. Ölkələrimiz dövlət müstəqilliyi əldə edəndən və 1992-ci ilin iyununda Türkmənistanla Azərbaycan Respublikası arasında diplomatik münasibətlər yaranan vaxtdan biz beynəlxalq aləmdə, o cümlədən iri beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın fəal iştirakçılarıyıq. Bu baxımdan Türkmənistan və Azərbaycan dünya birliyinin kollektiv səylərinə layiqli töhfə verir, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində tərəfdaşlığı möhkəmləndirir. Bununla əlaqədar, icazə verin, Türkmənistanın iri xarici siyasət təşəbbüslərini daim dəstəklədiyinə görə Azərbaycana təşəkkürümü bildirim.

Buna bir əyani misal: Azərbaycan bizim ölkənin daimi bitərəfliyinin beynəlxalq hüquqi statusunu birincilər sırasında dəstəkləmiş və 1995-ci ilin dekabr ayında BMT Baş Məclisinin qəbul etdiyi müvafiq Qətnamənin müəlliflərindən biri kimi çıxış etmişdir. Sizin ölkəniz Türkmənistanın təşəbbüsü ilə irəli sürülmüş və BMT Baş Məclisi 63-cü sessiyasının gündəliyinə daxil edilmiş "Enerji daşıyıcılarının etibarlı və sabit tranziti və onun iqtisadi inkişafın və beynəlxalq əməkdaşlığın təmin edilməsində rolu" adlı Qətnamə layihəsini dəstəkləmiş və onun müəlliflərindən biri kimi çıxış etmişdir. Zənnimcə, bu son sənədin vacibliyi haqqında nə isə deməyə ehtiyac yoxdur.

Böyük məmnuniyyətlə vurğulamaq istəyirəm ki, son vaxtlar Türkmənistanla Azərbaycan Respublikası arasında qardaşlıq münasibətləri real cizgilər alır. Real məzmun kəsb edən dövlətlərarası dialoqun fəallaşması bizim yeni siyasətimizə, ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq siyasətinə müvafiqdir. Bunu yüksək səviyyədə müntəzəm keçirilən görüşlərin nəticələri, rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, sammitlər və beynəlxalq forumlar çərçivəsində əlaqələr də təsdiq edir.

Bundan əlavə qeyd etmək lazımdır ki, bizim ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasının möhkəmlənməsi prosesi gedir. Bugünkü danışıqların yekunlarına əsasən imzalanacaq yeni sənədlər paketi əməkdaşlığımızın beynəlxalq hüquqi əsasının daha da möhkəmlənməsinə kömək edən sanballı əlavə olacaqdır. Ona görə də Türkmənistanda Sizin bu səfərinizi ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi və qarşılıqlı surətdə faydalı tərəfdaşlıq üçün geniş imkanlar yaradılması baxımından qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu ilə indicə etdiyimiz dostcasına söhbətdə biz konstruktiv qarşılıqlı fəaliyyətin, siyasi dialoqun bundan sonra da davam etdirilməsində maraqlı olduğumuzu vurğuladıq. Biz dövlətlərimizin və xalqlarımızın mənafeyi naminə, habelə bütövlükdə beynəlxalq birliyin mənafeyi naminə ikitərəfli münasibətlərin ən səmərəli yollarını tapmağı qarşımıza məqsəd qoymuşuq. Müasir dövrün əsas problemləri haqqında, ilk növbədə sülh, təhlükəsizlik və davamlı inkişaf, məsələləri bəşəriyyətə qarşı təhdid və hədələrə qarşı mübarizə məsələləri barədə baxışlarımızın oxşar olması və ya üst-üstə düşməsi mühüm amildir.

Hörmətli dostlar, bizim seçdiyimiz yolun - Türkmənistanla Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin inkişaf etdirilməsi yolunun düzgün olmasını məmnuniyyətlə vurğulamaq istəyirəm. İkitərəfli əmtəə dövriyyəsinin artım dinamikasının göstəricisi bu prosesin ən mühüm indikatorudur. Bu ilin 10 ayı ərzində qarşılıqlı əmtəə dövriyyəsinin

həcmi 490,8 milyon ABŞ dollarına bərabər olmuşdur. Bu, keçən ilin müvafiq göstəricisi ilə müqayisədə təqribən 8 dəfə çoxdur və bu gün Azərbaycan bizim dövlətin ticarət-iqtisadi münasibətlər saxladığı dünya ölkələri arasında 6-cı yeri tutur.

Türkmənistan Prezidenti iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin potensialından da söhbət açdı. O, həm də Xəzərin sülh və əmin-amanlıq dənizinə çevrilməsinin, regionda yeni enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinin hər iki xalqın rifahının yüksəldilməsinə yönəldiyini bildirdi, Azərbaycan Prezidentinin bu sahədə təşəbbüslərini yüksək qiymətləndirdi.

Prezident Qurbanqulu Berdiməhəmmədov Azərbaycanla Türkmənistan arasında mədəniyyət, elm və humanitar sahədə əməkdaşlığın da genişlənəcəyinə əminliyini bildirdi. O dedi:

- Bu da faydalı cəhətdir ki, biz mənəvi-humanitar, elm, təhsil sahələrində münasibətlərin reallaşdırılmasının konkret yolları barədə müntəzəm fikir mübadiləsi edir, müzakirələr aparırıq. Bu münasibətlər o cümlədən müvafiq konfranslar, simpoziumlar, festivallar, digər mədəni və elmi tədbirlər çərçivəsində reallaşır.

Mən fürsətdən istifadə edərək, Türkmənistanda keçirilən beynəlxalq forumların işində fəal iştiraklarına görə Azərbaycanın yaradıcı ziyalılarının, elm və mədəniyyət xadimlərinin nümayəndələrinə təşəkkür etmək istərdim. Müasir mərhələdə Türkmənistan və Azərbaycanın qarşılıqlı mədəni-humanitar əlaqələrin gözəl ənənələrini inkişaf etdirmək və möhkəmlətmək üçün çox yaxşı imkanı vardır. Bu baxımdan biz elm, təhsil, mədəniyyət və incəsənət, turizm və idman sahəsində də səmərəli əlaqələrin dərinləşdirilməsi və genişləndirilməsi üçün fəal iş aparmalıyıq. Bu fikrin davamı kimi, gələn il Aşqabadda Türkmənistan və Azərbaycanın elm və incəsənət xadimlərinin forumunu keçirmək ideyasını təklif etmək istərdim. Bu, bizim alim və tədqiqatçıların, yaradıcı ziyalıların nümayəndələrinin təcrübə və nailiyyətlərini mübadilə etmələri üçün yaxşı imkan olacaq, elmi və yaradıcı əlaqələrin daha da zənginləşməsinə gətirib çıxaracaqdır.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV Türkmənistan dövlətinin başçısına müraciətlə dedi:

- Çox sağ olun, hörmətli Qurbanqulu Məlikquliyeviç,

Hörmətli dostlar,

Bu gün qardaş Türkmənistan torpağında mənə və bizim nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Mən, həmçinin bizim ölkəmizə ünvanlanmış xoş sözlərinizə görə Sizə təşəkkür etmək və demək istəyirəm ki, ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi barədə Sizin fikirlərinizə tamamilə şərikəm.

Siz öz çıxışınızda bu münasibətlərin dinamikasını, onların geniş spektrini və möhkəm təmələ əsaslanmasını qeyd etdiniz. Bu təməl xalqlarımızın möhkəm tarixi və mədəni kökləridir. İndi, Türkmənistanın və Azərbaycanın müstəqil inkişafı şəraitində ölkələrimiz və xalqlarımız yüksək dərəcədə mütəşəkkillik, intellektual potensial nümayiş etdirmişlər. Tarixən qısa zaman kəsiyində ölkələrimizdə müstəqillik bərqərar olmuş, dönməz xarakter almışdır. Biz iqtisadi və sosial inkişaf baxımından çox böyük uğurlar qazanmışıq. Ölkələrimizdə həyat səviyyəsi ilbəil yaxşılaşır. Bizi bu da birləşdirir. Region-

da vəziyyətə geniş baxış, əsas qüvvələri daxili problemlər, vətəndaşlarımızın yaşayışı və iqtisadiyyatın inkişafı üçün yaxşı şərait yaradılması üzərində cəmləşdirilməsi, ölkələrimizin zəngin təbii sərvətlərindən istifadə edilməsi və bütün bu məqsədlərə uğurla nail olmaq - bu, həm Türkmənistan, həm də Azərbaycan üçün səciyyəvidir.

Ölkələrimizdə çox sabit ictimai-siyasi şərait mövcuddur, iqtidarla xalq arasında birlik vardır ki, bu da hər bir ölkənin inkişafı üçün vacibdir. Bizim dövlətlərin inkişaf yolları barədə ictimai konsensus mövcuddur. Beləliklə, bizi birləşdirən təkcə müştərək tariximiz və ümumi köklərimiz deyil, həm də problemlərə yanaşmalarımızın bir çox cəhətdən ümumiliyi və müstəqillik illəri ərzində qazandığımız uğurlardır. Bu gün birmənalı şəkildə deyə bilərik ki, Türkmənistan və Azərbaycan özlərinin bütün planlarının həyata keçirilməsində, müstəqil dövlətlər kimi təşəkkül tapmaqda çox böyük uğurlar qazanmışdır. Beynəlxalq qurumlarda qarşılıqlı dəstək, müxtəlif beynəlxalq təşəbbüslərdə fəal iştirak etməyimiz də bizi bir-birimizə yaxınlaşdırır. Siz öz çıxışınızda iqtisadi əlaqələrin artım dinamikasını qeyd etdiniz. Siyasi münasibətlərin möhkəm təməli olmasa, bu dinamika mümkün olmazdı.

İndi biz iki qardaş dövlət arasında münasibətlərin inkişafının yeni mərhələsini yaşayırıq. Bu mərhələ hərtərəfli əməkdaşlıq üçün geniş perspektivlər açır. Əmtəə dövriyyəsinin qısa müddətdə bir neçə dəfə artması həm ölkələrimizin potensialının, həm də əməkdaşlığı fəal inkişaf etdirmək arzusunun göstəricisidir. Mən əminəm ki, qarşıdakı illərdə əmtəə dövriyyəsinin həcmi daim artacaqdır. Əmtəə dövriyyəsinin strukturu da zənginləşəcəkdir. Hazırda ölkələrimizin iqtisadi potensialı və bizim istehsal etdiyimiz mallar ən yüksək dünya standartlarına müvafiqdir, bunlar rəqabətədavamlı mallardır. Əminəm ki, ölkələrimizin iqtisadiyyatları inkişaf etdikcə, əmtəə dövriyyəsinin nomenklaturu genişlənəcəkdir.

Biz həm də qonşuyuq - Xəzər dənizi regionunda qonşuyuq. Əlbəttə, bizim regionda təhlükəsizlik və əməkdaşlıq elə məsələlərdir ki, daim onlara diqqət yetirir, səylərimizi bu məsələlər üzərində cəmləşdiririk. Bizim ölkələr Xəzər dənizi regionunda beynəlxalq təhlükəsizlik sisteminin möhkəmlənməsində, Xəzərin hüquqi statusunun qəti şəkildə müəyyən edilməsi məsələsində çox mühüm rol oynayır.

Bu baxımdan mən əminəm ki, həm indiyə qədər keçirilmiş sammitlər, həm də gələcək zirvə görüşü çox böyük əhəmiyyət kəsb edəcəkdir və biz ümid edirik ki, bu məsələ ən yaxın vaxtlarda qarşılıqlı fayda və qarşılıqlı maraqlar əsasında tənzimlənəcəkdir.

Təcrübə göstərmişdir ki, biz vaxtı çatmış məsələləri çox səmərəli həll edirik. Bu, son vaxtlar müşahidə etdiyimiz kimi, iqtisadi məsələlərin həllinə operativ və sözün həqiqi mənasında, qardaşcasına yanaşmağımızda özünü göstərdi. Bu, əlaqələrimizin inkişaf etdirilməsi üçün qarşılıqlı iradənin, münasibətləri möhkəmlətmək və onların potensialını artırmaq üçün böyük istəyin olmasını göstərir. Əminəm ki, gələcəkdə bizim ölkələrimizi birləşdirəcək çoxsaylı yeni ideyalar və layihələr yaranacaqdır.

Bizim ölkələrimizin uğurlu inkişafı üçün hər cür şərait var: möhkəm siyasi sistem, sabitlik, təbii ehtiyatlar, bu təbii ehtiyatlardan ölkələrimizin rifahı naminə bacarıqla istifadə olunması, əlverişli coğrafi mövqe, ölkələrimizin və xalqlarımızın potensialı. Bütün bunlar Türkmənistanla Azərbaycan arasında münasibətlərin əsasını təşkil edən müsbət amillərdir. Hazırda bu münasibətlər çox yüksək səviyyədədir. Əminəm ki, onlar gələ-

cəkdə müsbət istiqamətdə inkişaf edəcəkdir. Hörmətli cənab Prezident, bu baxımdan Sizin bu ilin may ayında Azərbaycana səfəriniz, orada aparılmış danışıqlar və imzalanmış sənədlər böyük rol oynamışdır. Sizin səfəriniz müddətində Azərbaycanda yaranmış ab-hava özü iqtisadi və siyasi əməkdaşlığın genişləndirilməsi üçün böyük istək və real imkanlar olduğunu göstərir. Siz öz çıxışınızda mədəni, humanitar sahədə əməkdaşlığın vacibliyini qeyd etdiniz və xalqlarımızın daha sıx birləşməsi, bir-birini daha yaxşı tanıması üçün ölkələrimizdə bir sıra mədəni tədbirlər keçirilməsi barədə təklifinizi mən də tamamilə dəstəkləyirəm.

Başqa sözlə desək, bu gün ölkələrimiz arasındakı münasibətlər milli maraqlarımıza uyğundur, tarixi ədalətə uyğundur, əcdadlarımızın vəsiyyətlərinə uyğundur. Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizə, eləcə də bütün qardaş Türkmənistan xalqına qonaqpərvərliyə və səmimi qəbula görə bir daha təşəkkür etmək istəyirəm. Qardaş Türkmənistan torpağında olmaq mənə çox xoşdur və əminəm ki, bu səfər də münasibətlərimizin gələcək inkişafında çox mühüm mərhələ olacaqdır.

Sağ olun.

SƏNƏDLƏRİN İMZALANMASI

Noyabrın 28-də Aşqabadda, dövlət başçılarının geniş tərkibdə görüşündən sonra Azərbaycan və Türkmənistan arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq dəmir yolu - bərə xəttində yüklərin daşınmasının, yük vaqonlarının və konteynerlərin istismarının, nömrələr üzrə qeydiyyatının və onlardan istifadəyə görə hesablaşmanın təşkili haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov, Türkmənistanın dəmir yolu nəqliyyatı naziri Dəryaqulu Məhəmmədquliyev imzaladılar.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkmənistanın Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, Türkmənistanın təhsil naziri Məhəmmədgəldi Annaamanov imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə birbaşa beynəlxalq dəmir yolu - bərə əlaqəsinin təşkili haqqında sazişi Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Nəzərqulu Şaquliyev imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Türkmənistan hökumətlərarası komissiyası haqqında sazişi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev imzaladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 28-də Aşqabadda ikitərəfli sənədlərin imzalanması mərasimi başa çatandan sonra Azərbaycan və Türkmənistan prezidentləri mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI

- Çox hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Xanımlar və cənablar!

Mətbuat nümayəndələri!

Mən, ilk növbədə, çox hörmətli İlham Heydər oğluna ürəkdən təşəkkür etmək istərdim ki, o, bizim dəvətimizi qəbul etmişdir və bu gün qədim qonaqpərvər Türkmənistan torpağında rəsmi səfərdədir.

Bu gün biz çox yaxşı, qarşılıqlı hörmət, əməkdaşlığa qarşılıqlı maraq ab-havası ilə səciyyələnən danışıqlar aparmışıq. Biz müasir dünyanın problemləri, sabitlik, təhlükəsizlik haqqında, terrorizm, ekstremizm və separatizm kimi təhlükələrə qarşı mübarizə problemləri barədə ətraflı söhbət etdik. Həmçinin mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqqında və əlbəttə, hazırda bütün dünya üçün bəlaya çevrilmiş narkotrafik problemi barədə danışdıq.

Biz əsasən ondan danışdıq ki, ölkələrimiz beynəlxalq aləmdə də, o cümlədən iri beynəlxalq təşkilatlar çərçivəsində də fəal iştirakçılarıq. Bu, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatına aiddir. Beynəlxalq təşkilatlardan söz düşmüşkən, enerji daşıyıcılarının etibarlı və təhlükəsiz nəqli və bunun iqtisadi inkişafın və beynəlxalq əməkaşlığın təmin olunmasında rolu barədə mən Türkmənistanın təşəbbüsü ilə BMT Baş Məclisi 63-cü sessiyasının gündəliyinə çıxarılmış BMT qətnaməsinin layihəsini Azərbaycan dəstəklədiyinə görə və layihənin həmmüəllifi kimi çıxış etdiyinə görə İlham Heydər oğluna bir daha təşəkkürümü bildirmək istərdim.

Zənnimcə, bu, mühüm məsələdir, çünki indi dünyada yaranmış vəziyyəti, yəni böhranı nəzərə alsaq, mənə belə gəlir ki, bu proses təkcə iki dövlətin sabitliyində və onların iqtisadi potensialının möhkəmlənməsində mühüm rol oynamaqdan əlavə, hesab edirəm, dünyanın bir sıra ölkələrinə də çox yaxşı təsir göstərəcəkdir. Buna görə biz Sizə minnətdarıq. Enerji daşıyıcıları məsələsinə gəldikdə isə, həqiqətən zəngin karbohidrogen ehtiyatlarına malik olan bu iki ölkə, iki dövlət bu məsələ barədə ümumi fikirdədir. Yəni biz "açıq qapı" siyasətinə və karbohidrogen ehtiyatlarımızın nəqlinin şaxələndirilməsinə tərəfdarıq. Hər iki ölkə enerji ehtiyatlarının işlənilməsi, emal edilməsi və satışı məsələləri barədə eyni fikirdədir. Bunu belə bir fakt da təsdiq edir ki, biz artıq Bakıda beynəlxalq şirkətlərin və sərmayədarların iştirakı ilə sanballı beynəlxalq konfrans keçirmişik. Həmin konfransı Türkmənistanda, Aşqabad şəhərində də davam etdirəcəyik.

Müzakirələrin əsas mövzusu Xəzər dənizinin statusu məsələsi idi. Biz vurğulayırıq ki, Xəzər sülh və sabitlik dənizidir. İranda bütün Xəzəryanı dövlətlərin iştirakı ilə keçirilmiş zirvə toplantısından sonra bu məsələni dəfələrlə qaldırmışıq və bu istiqamətdə də bizim fikirlərimiz uyğundur.

Mən bizim ticarət-iqtisadi əlaqələrimizi də qeyd etmək istərdim. Sevindirici haldır ki, təkcə bu ilin on ayı ərzində əmtəə dövriyyəmiz təxminən 8 dəfə artmışdır. Bu baxımdan bizim hökumətlərarası komissiyanın və əlbəttə, ticarət-sənaye palatalarının işini qiymətləndirmək lazımdır. Buna görə onlara "çox sağ ol" demək lazımdır.

Hər iki dövlət üçün - həm Türkmənistan, həm də Azərbaycan üçün əsas məsələlərdən biri nəqliyyat məsələləridir. Bu, beynəlxalq, transkontinental məsələlərdir və zənnimcə, hər iki ölkə təkcə regionda deyil, həm də daha geniş məkanda mühüm rol oynaya bilərdi.

Biz bu gün sosial-humanitar məsələlərə də toxunduq. Çünki biz vurğuladıq ki, ümumi mentalitetimiz, dillərimiz, tarixi irsimiz - bunlar hamısı bizi birləşdirir. Ona görə də bu gün biz 2009-cu ildə Aşqabad şəhərində sosial-humanitar məsələlərin, incəsənət, ədəbiyyat, irs məsələlərinin və s. müzakirəsini keçirmək təşəbbüsünü irəli sürdük.

Ümumən, mən bugünkü səfərinə görə İlham Heydər oğluna bir daha təşəkkür etmək istərdim.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Sağ olun, çox hörmətli Qurbanqulu Məlikquliyeviç!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinə görə, burada bizim nümayəndə heyətinin bütün üzvlərinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə qardaş Türkmənistanın Prezidentinə bir daha ürəkdən təşəkkür etmək istərdim. Biz bu səfərə və bütövlükdə bizim iki ölkə arasında münasibətlərə çox böyük əhəmiyyət veririk. Bu münasibətlərin necə inkişaf etməsi bizi çox sevindirir, şadıq ki, bu münasibətlərdə çox böyük dinamizm vardır. Qəbul edilən qərarlar kifayət qədər qısa müddətdə həyata keçirilir. Hökumətlərarası komissiyanın fəal işi onu göstərir ki, siyasi rəhbərliyin qəbul etdiyi qərarlar, müvafiq qurumlara verilən tapşırıqlar qarşılıqlı anlaşma və qardaşlıq ruhunda operativ şəkildə yerinə yetirilir. Bu, çox vacibdir, çünki bizim ortaq tariximiz, ortaq mədəniyyətimiz, ortaq köklərimiz, dillərimizin oxşarlığı xalqlarımızı bir-birinə bağlayır. Münasibətlərimizi bu baza üzərində qururuq. Bu gün bu münasibətlər təkcə bizim ölkələr üçün deyil, bütün Mərkəzi Asiya, Xəzər, Qafqaz regionu üçün və bəlkə də, daha artıq coğrafi məkan üçün çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə, ölkələrimiz arasındakı qarşılıqlı siyasi əlaqələr, bizim çox yüksək qiymətləndirdiyimiz siyasi münasibətlərin səviyyəsi elə bir təməldir ki, bütün başqa münasibətlər onun üzərində qurulur. Sıx tarixi əlaqələr, ortaq tariximiz, möhkəm siyasi münasibətlər və bu zəmində iqtisadi, sosial, nəqliyyat, energetika, humanitar məsələlər - bütün bunlar, bir daha demək istəyirəm, qardaşlıq ruhunda, qarşılıqlı anlaşma, qarşılıqlı maraqlar ruhunda həll edilir.

Çox hörmətli Qurbanqulu Məlikquliyeviçlə bizim bu gün təkbətək və geniş tərkibdə apardığımız danışıqlar bu münasibətlərin potensialının nə qədər böyük olmasını bir daha nümayiş etdirdi. Bu gün biz qarşılıqlı siyasi fəaliyyət, beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqələr, əmtəə dövriyyəsinin artması, - siyasi rəhbərliyin siyasi əzmi olmasaydı bu, mümkün olmazdı, - məsələlərini müzakirə etdik.

Bu gün enerji təhlükəsizliyi məsələləri bütün dünyanı narahat edir və bununla əlaqədar, məmnuniyyətlə qeyd etmək olar ki, həm Türkmənistan, həm də Azərbaycan özünün enerji təhlükəsizliyini tamamilə təmin etmişdir. Təkcə bu deyil, onlar başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində də mühüm rol oynayırlar. Şübhəsiz ki, bu rol gələcəkdə daha da artacaqdır, çünki müasir dünyada enerji təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edir. İki müstəqil dövlət kimi biz öz enerji potensialımızı tamamilə gerçəkləşdirmişik. Bizim həyata keçirdiyimiz investisiyalar və layihələr xalqlarımızın xoşbəxt gələcəyini təmin edir və bir neçə onilliklər ərzində də təmin edəcəkdir.

Çox hörmətli Türkmənistan Prezidentinin qeyd etdiyi kimi, bu gün biz nəqliyyat sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdik və imzalanmış sənədlər real konkret işlər, real layihələr deməkdir. İndi Xəzər dənizi regionunda nəqliyyat sahəsində əməkdaşlığı genişləndirmək üçün çox böyük potensial vardır. Hazırda Azərbaycanı dəmir yolu vasitəsilə Türkiyə və Avropa ilə, eləcə də Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu tikilir. Ümid edirəm ki, bu yeni İpək yolu iki ildən sonra bizim hamımızın sərəncamında olacaq və hamımız ondan istifadə edəcəyik. Burada iqtisadi səmərə də var və təbii ki, regional əməkdaşlıq da. Bu əməkdaşlıqdan hər kəs yalnız qazanacaqdır.

Başqa sözlə desək, biz bütün bu məsələləri, eləcə də Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və Xəzərin sülh və əməkdaşlıq dənizinə çevrilməsi, - bunun üçün yaxşı zəmin var, - məsələlərini müzakirə etdik. Gələcəkdə biz bu istiqamətdə qardaşlıq və qarşılıqlı anlaşma ruhunda, qarşılıqlı maraqlar nəzərə alınmaqla fəal işləyəcəyik. Bütün bunlar bu günün reallıqlarıdır. Mən əminəm ki, bu gün nəzərdə tutduqlarımızı gələcəkdə uğurla həyata keçirəcəyik.

Son olaraq, artıq qeyd etdiyim kimi, bir daha demək istərdim ki, bu ilin may ayında Türkmənistan Prezidentinin Azərbaycana səfəri və o vaxt əldə edilmiş razılaşmalar ölkələrmiz arasında münasibətlərdə mühüm mərhələ olmuşdur. Bu, sadəcə, bəlağətli sözlər deyil, reallıqdır. Mən çox hörmətli Qurbanqulu Məlikquliyeviçin həmin səfərinə görə ona çox minnətdaram. Azərbaycanda biz hamımız həmin səfəri xatırlayırıq. Mən həm də Türkmənistana rəsmi səfərə dəvət edildiyimə görə təşəkkür edirəm. Bütün bunlar çox qısa tarixi zaman kəsiyində baş verir və bu, bizim planlarımızın, bir-birimizə olan münasibətin ən yaxşı təsdiqidir. Qardaş Türkmənistanın bütün xalqına firavanlıq, sülh və yeni-yeni uğurlar diləmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTAN MƏCLİSİNİN SƏDRİ AKCA NURBERDİYEVA İLƏ GÖRÜŞÜ

Noyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Məclisinə gəlmişdir.

Burada Azərbaycan Prezidentini Türkmənistan Məclisinin sədri xanım Akca Nurberdiyeva səmimiyyətlə qarşıladı.

Dövlətimizin başçısı əvvəlcə parlamentin iclas salonu ilə tanış oldu.

Sonra Türkmənistan Məclisinin sədri ilə görüş keçirildi. Görüşdə Azərbaycan-Türkmənistan əlaqələrinin bütün sahələrdə inkişaf etdiyi vurğulandı və bildirildi ki, Azərbaycan Prezidentinin Türkmənistana rəsmi səfəri ikitərəfli əlaqələrin genişlənməsi baxımından çox böyük əhəmiyyət daşıyır.

Görüşdə parlamentlərarası əlaqələrin vacibliyindən də söhbət getdi və bu sahədə əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu. Xalqlarımızın ümumi tarixi və mədəni köklərinin qarşılıqlı əlaqələrin daha da inkişafına töhfə verdiyi vurğulandı.

Azərbaycan Prezidentinə Türkmənistan Məclisinin fəaliyyəti barədə məlumat verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MƏXDUMQULU ADINA TÜRKMƏNİSTAN DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR

Noyabrın 28-də Məxdumqulu adına Türkmənistan Dövlət Universitetində Azərbaycan Prezidenti İlham Əliyevə bu ali məktəbin Fəxri professoru adı verilməsinə həsr edilmiş mərasim keçirilmişdir.

Türkmənistanın təhsil naziri Məhəmmədgəldi Annaamanov, universitetin rektoru Çaryad Tugiyev Azərbaycan Prezidentini səmimiyyətli qarşıladılar. Dövlətimizin başçısına gül dəstəsi təqdim edildi.

Prezident İlham Əliyev əvvəlcə universitetin foyesində açılmış, Türkmənistanın tarixini və bugünkü həyatını əks etdirən fotosərgi ilə tanış oldu. Azərbaycan Prezidentinə məlumat verildi ki, 1931-ci ildə pedaqoji institut kimi yaradılmış bu universitet hazırda Türkmənistanın ən nüfuzlu ali məktəbidir. Onun bazasında bir sıra ali məktəblər yaradılmışdır. İndiyə qədər burada 55 mindən artıq mütəxəssis hazırlanmışdır. Universitetin kitabxanasında 600 min nüsxədən çox kitab vardır.

Universitetin akt salonunda keçirilən mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi sürəkli alqışlarla qarşıldılar.

Universitetin rektoru ÇARYAD TUGİYEV mərasimi açaraq dedi:

- Cənab Prezident! Hörmətli İlham Heydər oğlu!

Azərbaycan hökumət nümayəndə heyətinin hörmətli üzvləri!

Əziz həmkarlar!

Ali qonağımızı - Azərbaycan Respublikasının Prezidentini Məxdumqulu adına Türkmənistan Dövlət Universitetində salamlamaq bizim üçün böyük şərəfdir.

Bugünkü gün ali məktəbin tarixinə çox mühüm bir hadisə kimi daxil olacaqdır. Bu hadisə ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafının rəmzidir, cari ilin may ayında bizim çox hörmətli Prezidentimiz Qurbanqulu Berdiməhəmmədovun Azərbaycan Respublikasına rəsmi səfərinin gedişində bu münasibətlərə yeni təkan verilmişdir.

Bakıda yüksək səviyyəli Türkmənistan-Azərbaycan danışıqları xalqlarımızın tarixi dostluq və qardaşlıq ənənələrinə sadiqliyini, hər iki ölkənin səmərəli dialoq qurmağa hazır olmasını təsdiq etdi. Çox hörmətli Prezidentimiz Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovun fəxri doktoru olduğu Bakı Dövlət Universitetində həmkarlarımızla səmimi görüş də yadımızdadır.

Bu gün isə Aşqabad azərbaycanlı yüksək qonaqları qəbul edir. Yüksək səviyyədə danışıqlar indicə uğurla başa çatmışdır və dövlət başçıları arasında əldə edilmiş razılaşmalar Türkmənistan-Azərbaycan əməkdaşlığının hər iki ölkənin potensialına və xalqlarımızın mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək istəklərinə cavab verən yeni səviyyəsindən xəbər verir. Humanitar sahədə, ilk növbədə, Türkmənistanın dövlət siyasətinin strateji prioritetlərindən biri olan təhsil və elm sahəsində əlaqələr Türkmənistanla Azərbaycanın əməkdaşlığının mühüm tərkib hissəsidir. Çox hörmətli Prezidentimiz Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədov bu siyasəti belə ifadə etmişdir: Dövlət insan üçündür.

Bizim ali məktəbdə keçirilən indiki görüş də bunu sübut edir. Məxdumqulu adına Türkmənistan Dövlət Universiteti ölkəmizin ən qocaman və ən nüfuzlu ali məktəblərindən biridir. Burada seçdikləri sahənin əsl ustaları olan onlarca elmlər doktoru və elmlər namizədi çalışır. Hazırda bizim ali məktəb özünün ikinci həyatını yaşayır. Çox hörmətli Prezident Qurbanqulu Berdiməhəmmədov məhz burada, bu divarlar arasında ölkəmizin elm və təhsil sahəsində əsaslı dəyişikliklərin təməlini qoymuş ən mühüm sənədləri elan etmiş və imzalamışdır.

Dövlətimizin başçısının rəhbərliyi altında böyük dirçəliş dövründə millətin intellektual potensialını maksimum reallaşdırmaq üçün bütün zəruri şərait yaradılır. Bu gün Türkmənistan Dövlət Universiteti millətimizin liderinin təşəbbüsü ilə başlanmış elm və təhsil sahəsində islahatın uğurla həyata keçirilməsinə ən parlaq nümunələrdən biridir.

Təkcə son iki ildə bizdə təhsil alan tələbələrin sayı xeyli artmışdır. Yeni vəzifələrə müvafiq olaraq, tədris proqramları və planlarına təzədən baxılmış, yeni ixtisaslar açılmışdır, elmi kadrların, aspirantların və doktorantların hazırlanması sahəsində fəal iş gedir. Ali məktəbdə qabaqcıl texnologiyaların tətbiqi məsələlərinə xüsusi diqqət yetirilir. Məsələn, universitetin fizika-riyaziyyat mərkəzində fundamental və tətbiqi xarakterli elmi tədqiqat işləri aparılır. Mərkəzin alimləri ultrabənövşəyi və görünən diapazonda şüalanma spektrinin yüksək effektivliyə malik fotoqəbuledicilər yaradırlar. Onların əsasında kənd təsərrüfatı, ekologiya və təbabət sahəsində qarşıya çıxan məsələlərin həlli üçün uğurla tətbiq edilən ölçmə cihazları hazırlanmışdır.

Burada Elmi Tədqiqat Neft və Qaz İnstitutu ilə birlikdə layların neft və qaz verməsinin artırılması probleminə dair aktual araşdırmalar aparılır. Cari tədris ilinin əvvəlində Türkmənistan Dövlər Universitetinin fizika-riyaziyyat fakültəsinin yeni korpusu açılmışdır. Elmin və texnikanın son nailiyyətləri səviyyəsində təchiz olunmuş bu korpus müəllimlərin və tələbələrin çox mürəkkəb tədqiqatlar, elmi təcrübələr və eksperi-

mentlər aparmasına imkan verir. Fakültənin güclü teleskopla təchiz olunmuş rəsədxanası isə səma cisimlərini dərindən cidi şəkildə və öyrənməyə şərait yaradır.

Bizim ali məktəbin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri beynəlxalq əməkdaşlığı genişləndirmək, dünyanın aparıcı elm və təhsil mərkəzləri ilə, başqa ölkələrdən olan həmkarlarımızla təcrübə mübadiləsi aparmaqdır. Avropa İttifaqı ölkələri ilə müştərək proqramların həyata keçirilməsi təhsil sahəsində uğurla həyata keçirilən beynəlxalq əməkdaşlığa misaldır. Bu proqramlardan biri - "Avropa təcrübəsi, ali təhsilin vəziyyəti və onun keyfiyyətinin artırılması istiqamətləri" layihəsi Kataloniya Politexnik Universitetinin, Qrenobldakı Milli Politexnik İnstitutunun və Türkmənistan Dövlət Universitetinin müəllimlərinin birgə işinin yekunudur.

Hazırda Rusiya və Türkiyə alimləri ilə əlaqələrimiz səmərəli inkişaf edir, Amerika Birləşmiş Ştatlarının ali məktəbləri - Kolumbiya və Texas universitetləri ilə sıx elmi əlaqələr yaradılmışdır. Bu işin əsas məqsədi beynəlxalq təcrübəni dərindən mənimsəmək, ölkəmizin və dünya elminin son nailiyyətlərini, qabaqcıl informasiya texnologiyalarını öyrənmək və tədris prosesinə tətbiq etmək, öz milli metodikamızı dünyada tanıtmaqdır.

Hörmətli İlham Heydər oğlu!

Türkmənistan Prezidenti yanında Elm və Texnika üzrə Ali Şura Sizin Türkmənistan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə, müasir elmin və təhsilin inkişafına böyük töhfənizi nəzərə alaraq, Məxdumqulu adına Türkmənistan Dövlət Universiteti Elmi Şurasının təqdimatına əsasən, sülhün və siyasi sabitliyin möhkəmlənməsinə, Türkmənistanla Azərbaycan arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafına, Türkmənistanla Azərbaycan Respublikası arasında humanitar sahədə, təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə böyük şəxsi töhfənizə görə Sizə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru adı verilməsini qərara almışdır.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Sizə yüksək elmi ad - Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru adı verilməsi haqqında diplomu təqdim edim.

* * *

Rektor Azərbaycan Prezidenti İlham Əliyevə universitetin Fəxri professoru diplomunu və milli türkmən geyimini təqdim etdi.

Prezident İlham Əliyev universitetin professor-müəllim kollektivi qarşısında nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Mən, ilk növbədə, əməyimi yüksək qiymətləndirdiyinə, mənə bu universitetin Fəxri professoru kimi yüksək ad verilməsinə görə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinə dərin minnətdarlığımı bildirmək istərdim.

Sizi əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə iki qardaş xalq - türkmən və Azərbaycan xalqları arasında əlaqələrin möhkəmlənməsinə, ölkələrimizin münasibətlərinin bugünkü kimi dinamik inkişaf etməsinə çalışacağam.

Qonaqpərvər Türkmənistan torpağında olmağıma çox şadam. Bu gün mənim rəsmi səfərim başlanmışdır. Bu səfərin ilk dəqiqəsindən etibarən mən səmimi, mehriban qonaqpərvərliyi hiss edirəm. Bu gün biz çox hörmətli Türkmənistan Prezidenti Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədovla ölkələrimiz arasında ikitərəfli münasibətlərin geniş spektrini müzakirə etdik. Biz həmçinin regional məsələləri, öz həllini tələb edən məsələləri müzakirə etdik və əlaqələrimizin inkişafından ümumi razılığımızı bildirdik.

Bizim münasibətlərimizin inkişafı üçün çox möhkəm təməl mövcuddur. Bu təməl bizim ortaq tariximiz, bizim mədəniyyətimizdir. Türkmən və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar. Biz iki müstəqil dövlət arasında münasibətləri bu möhkəm tarixi təməl üzərində qururuq.

Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövrü çox uğurlu olmuşdur. Bu gün sözün tam mənasında deyə bilərik ki, həm Türkmənistan, həm də Azərbaycan özlərinin müstəqil dövlətlər kimi təşəkkülü yolunda əsas məsələləri həll etmişdir. Bu gün ölkələrimizdə ictimai-siyasi sabitlik, xalqla iqtidar arasında birlik, çox möhkəm iqtisadi zəmin mövcuddur. Biz özümüzü təmin edən ölkələrik və bizi birləşdirən daha bir amil müstəqil siyasət, müstəqil xətt yeritməyə qadir olmağımız, bunun üçün iradəmizin olmasıdır. Bizim münasibətlərimizin möhkəmlənməsində çox böyük rol oynayan əsas prinsiplər bunlardır.

Bu gün biz həm siyasi, həm iqtisadi əlaqələri, humanitar sahədə, nəqliyyat və energetika sahələrində əlaqələri, bizi birləşdirən çoxsaylı başqa mövzuları müzakirə etdik. Əməkdaşlığımızla bağlı çox məsələlərin həllinə yanaşmalarımız tamamilə eynidir. Əmtəə dövriyyəsi artır, son dövrdə o, bir neçə dəfə artmışdır. Çox qısa müddətdə iqtisadi xarakterli bir sıra məsələlər həll olunmuşdur. Biz beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik. Energetika sahəsində əməkdaşlıq üçün də yaxşı potensial mövcuddur. Ölkələrimiz özlərinin enerji təhlükəsizliyini tam təmin etmişdir və başqa dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir.

Bu amillər ölkələrimiz arasında münasibətlərdə mühüm rol oynamaqla bərabər, həm də bizim regionda - Mərkəzi Asiya, Qafqaz, Xəzər hövzəsi regionunda proseslərə müsbət təsir göstərir. Buna görə də mən dərin məmnunluq hissi ilə qeyd edirəm ki, son bir neçə ayda Türkmənistan və Azərbaycan rəhbərliyi arasında siyasi təmaslar tamamilə yeni səviyyəyə çıxmışdır. Bu gün mən artıq bu barədə demişəm və bir daha demək istəyirəm ki, bu ilin mayında Türkmənistan Prezidentinin ölkəmizə rəsmi səfəri, aparılmış danışıqlar, imzalanmış sənədlər bu əlaqələrə güclü təkan vermişdir. Ən başlıcası isə odur ki, imzalanmış sənədlər artıq reallaşdırılır və bu gün biz nəzərdə tutduğumuz, qərara aldığımız məsələlərin praktik şəkildə gerçəkləşməsini görürük.

Bunlar bir daha göstərir ki, münasibətlərimizin möhkəmlənməsi üçün çox güclü siyasi iradə vardır. Bir daha vurğulamaq istəyirəm ki, bunun üçün çox möhkəm, güclü tarixi təməl mövcuddur. İndi ölkələrimizin sosial-iqtisadi inkişafı ilə bağlı bir sıra məsələlərin uğurla həll edildiyi bir vaxtda biz gələcəyə baxırıq ki, ölkələrimizi daha da yaxınlaşdırmaq, iqtisadi inteqrasiyanı, siyasi dialoqu daha da möhkəmlətmək üçün, ölkələrimizin vətəndaşlarının bir-birini daha yaxşı tanımaları üçün daha nə etmək lazımdır.

Bu məqsədlə gələcəkdə insanlarımızın bir-birini daha yaxşı tanıması, dostlaşması üçün bu gün müxtəlif mədəni tədbirlər, mədəni mübadilələr, ölkələrimizin mədəniyyət xadimlə-

rindən ibarət nümayəndə heyətlərinin mübadiləsini təşkil etmək qərara alınmışdır.

Mən xalqlarımızın dillərində oxşar cəhətlərin lap çox olmasını qeyd etmək istəyirəm. Əlbəttə, mən bunu bilirdim, təbii ki, bu barədə eşitmişdim və bu gün buna şəxsən əmin oldum. Aşqabadda obyektlərin, binaların üzərindəki yazıları oxuyanda tərcüməçi lazım deyil. Bu gün, biz bu salona daxil olandan əvvəl universitetin gənc tələbələri mənə kompyuter proqramlarını göstərdilər. Orada türkmən dilində yazılmış mətni başa düşmək üçün də mənə tərcüməçi lazım deyildi, hər şeyi başa düşürdüm. Bu, çox böyük sərvət, çox böyük dəyərdir. Bu, bizim xalqlarımızın bir-birinə nə qədər yaxın olmasını, ünsiyyət saxlamağımızın nə qədər asan olmasını göstərir. Ona görə də biz bu münasibətləri öz əməllərimizlə, konkret addımlarımızla, təşəbbüslərimizlə möhkəmlətmək üçün hər şeyi etməliyik. Bir daha demək istəyirəm, bu münasibətlər bizim xalqlarımız üçün, tariximiz üçün vacibdir, bu, həm də əsrlər boyu dost və qardaş kimi birgə yaşamış əcdadlarımızın ruhuna ehtiram əlaməti olacaqdır. Bu, həm də regional əməkdaşlıq üçün yaxşı amil olacaqdır.

Regionda müsbət proseslər də gedir, müəyyən narahatlıq ocaqları da var. Qafqaz regionunda hələ tam sabitlik bərqərar olmamışdır. Regionumuzda etimad tədbirlərini möhkəmlətmək üçün hələ çox iş görülməlidir. Bizim yerləşdiyimiz region son vaxtlar get-gedə dünya üçün daha böyük maraq doğurur. Mərkəzi Asiya, Qafqaz, Xəzər hövzəsi zonası bu gün həm geosiyasi, həm iqtisadi, həm də enerji baxımından, enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsinin, enerji müstəqilliyinin və enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük maraq doğurur.

İndiki halda Türkmənistanın və Azərbaycanın zəngin təbii ehtiyatları, ölkələrimizin öz enerji potensialını müstəqil şəkildə reallaşdıra bilməsi, əlbəttə, ölkələrimiz qarşısında yeni perspektivlər açır, habelə əməkdaşlıq, iqtisadi əlaqələrin möhkəmlənməsi üçün, həm regionda, həm də dünyada mövqelərimizin möhkəmlənməsi üçün yeni imkanlar yaradır. Əminəm ki, gələcəkdə bizim regionda, həm də təkcə burada yox, onun hüdudlarından kənarda da inteqrasiya, energetika, nəqliyyat layihələri, başqa layihələr və proseslər xeyli dərəcədə Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin səviyyəsindən asılı olacaqdır. Bizim münasibətlərimizdə olan müsbət ovqat, birgə işləmək, birgə təşəbbüsləri həyata keçirmək, əməkdaşlıq etmək arzumuz və ən başlıcası, bu əməkdaşlığın konkret nəticələri nikbinlik doğurur. Mən əminəm ki, Türkmənistanla Azərbaycan arasındakı qardaşlıq, dostluq münasibətləri gələcəkdə daha da möhkəmlənəcək, xalqlarımız bir-birinə daha yaxın olacaq, bu isə həm ölkələrimizin inkişafına, həm də regional əməkdaşlığa kömək edəcəkdir.

Mən bu gün bu ali məktəbdə ölkələrimizin gələcəyi üçün təhsilin əhəmiyyəti barədə də bir neçə söz demək istərdim. Bu gün Türkmənistanda sizin ölkənin rəhbərliyinin və şəxsən Prezidentin təhsillə bağlı məsələlərə qayğı göstərməsini görmək mənim üçün çox xoş oldu. Təhsil gələcək deməkdir, təhsil intellektdir, təhsil inkişafdır. Dünyanın heç bir ölkəsi öz intellektual potensialını reallaşdırmadan uğurla inkişaf edə bilməz.

Əgər biz dünyanın inkişaf etmiş ölkələrinin tarixinə və təşəkkül yoluna nəzər salsaq görərik ki, inkişaf üçün əsas təkan məhz intellektual potensial, təhsilin inkişaf səviyyəsi, müasir texnologiyaların inkişaf səviyyəsi olmuşdur. Bu gün Türkmənistanda təhsil məsələlərinə çox böyük əhəmiyyət verildiyini görmək mənə çox xoşdur. Bizim ölkədə də eyni hadisələr baş verir. Bizdə də bu məsələ prioritet məsələdir, çalışırıq ki, Azərbayca-

nın bütün vətəndaşlarının, gənclərin keyfiyyətli təhsil almaq, yaxşı mütəxəssis kimi yetişmək imkanı olsun, onlar öz əməli işləri ilə ölkəmizin inkişafına töhfə versinlər.

Biz məktəb tikintisi ilə əlaqədar çox böyük bir proqram həyata keçiririk. Son beş ildə Azərbaycanın müxtəlif bölgələrində ən müasir avadanlıqla təchiz edilmiş 1600 müasir məktəb tikilmişdir. İslahatlara və təhsil prosesinin keyfiyyətinə xüsusi diqqət yetiririk ki, bu proses müasir tələblərə tam uyğun olsun, eyni zamanda, xalqımızın ənənələrinə əsaslansın.

Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli, mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu, bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır. Ölkələrimiz son 17 ildə müstəqildir. O vaxta qədər, əsrlər boyu bizim öz taleyimizi müstəqil şəkildə müəyyən etmək imkanımız olmamışdır. Lakin biz öz milli ləyaqətimizi, milli identikliyimizi və milli ruhumuzu qoruyub saxlamışıq. Bu, çox cəhətdən bizim tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız, bizim dilimiz, bizim böyük alim və mütəfəkkirlərimiz sayəsində mümkün olmuşdur. Bu, çox böyük, heç bir şeylə müqayisə edilə bilməyəcək sərvətdir.

Mən qəti əminəm ki, hər bir ölkənin gələcəyi daha çox təhsilin keyfiyyətindən asılıdır. Ona görə də bu gün bu yüksək mükafatı - Türkmənistan Dövlət Universitetinin Fəxri professoru diplomunu almaq mənə çox xoşdur və əməyimi bu cür qiymətləndirdiyinizə görə sizin hamınıza bir daha dərin təşəkkürümü bildirmək istəyirəm.

Mən bizi dəvətə görə, səmimi qəbula görə, Türkmənistan Prezidentinə, bizə göstərilən qonaqpərvərliyə görə qardaş Türkmənistanın bütün vətəndaşlarına təşəkkür etmək istəyirəm. Əminəm ki, ölkələrimizin gələcəyi də bugünkü günümüz kimi gözəl və xoşbəxt olacaqdır. Öz tərəfimdən sizin hamınızı bir daha əmin etmək istəyirəm ki, mən öz fəaliyyətimdə Türkmənistanın və Azərbaycanın qardaş xalqlarının bundan sonra da dostluq, həmrəylik şəraitində yaşaması, əlbir işləməsi, ölkələrimizin və xalqlarımızın inkişafı üçün yeni şərait yaratması naminə əlimdən gələni edəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***

ÇARYAD TUGİYEV: Hörmətli İlham Heydər oğlu!

İcazə verin, bu yüksək ada layiq görülməyiniz münasibətilə Sizi Məxdimqulu adına Türkmənistan Dövlət Universitetinin professor-müəllim heyəti, aspirantları və tələbələri adından, Türkmənistanın bütün elmi ictimaiyyəti adından səmimi qəlbdən təbrik edim, Sizə möhkəm cansağlığı və iki dost dövlətin daha da yaxınlaşması işində böyük uğurlar arzulayım. Qoy Türkmənistan-Azərbaycan dostluğu möhkəmlənsin!

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Noyabrın 28-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən qonaqlarımızı və ilk növbədə, Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlunu ən əziz dostlar kimi bizim torpağımızda, qapılarımız sizin üçün, mehriban qonşularımız üçün həmişə açıq olan diyarımızda salamlayıram.

Qardaş Azərbaycanın rəhbərinin bu səfəri, heç şübhəsiz, bizim münasibətlərimizin tarixinə düşəcəkdir. Bu gün biz çox səmərəli və konstruktiv danışıqlar apardıq. Bu danışıqların gedişində ikitərəfli münasibətlərimizin gələcək inkişafı, beynəlxalq siyasətin aktual problemlərinin həllində qarşılıqlı əlaqə ilə bağlı məsələlərin geniş spektri müzakirə edildi, bir sıra mühüm sənədlər imzaladıq.

Mən dərin məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, biz beynəlxalq tərəfdaşlığın bir çox strateji istiqamətləri üzrə baxışlarımızın üst-üstə düşməsini bir daha qeyd etdik. Əldə edilmiş razılaşmalar və imzalanmış ikitərəfli sənədlər münasibətlərimizin mövcud müqavilə-hüquqi bazasını yaxşı tamamlayır. Ölkələrimizin mühüm geoiqtisadi mövqe tutmasını və enerji ehtiyatlarının iri hasilatçısı olmasını nəzərə alaraq, biz Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu ilə yanacaq-energetika sahəsində, eləcə də transkontinental ticarət-kommunikasiya dəhlizlərinin inkişafına dair böyük layihələrin həyata keçirilməsində əməkdaşlığın perspektivlərini müzakirə etdik.

Demək istəyirəm ki, bizim görüşümüzdən əvvəl böyük hazırlıq işi getmiş, bunda hər iki tərəfin nümayəndələri iştirak etmişdir. Mən onların hamısına səmimi təşəkkür edirəm.

Hörmətli Prezident!

Qardaş Azərbaycanın ictimai və sosial-iqtisadi həyatın bütün sahələrində yüksələn xətlə inkişafını, xüsusən xalqın rifahı naminə görülən işləri Türkmənistanda yüksək qiymətləndirirlər. İnsanlara qayğı Türkmənistanda da ali prioritetdir. Türkmənistanın dövlət siyasətinin qayəsini təşkil edən "Dölət insan üçündür" devizi bu qayğının mahiyyətini ifadə edir.

Bir çox cəhətdən ortaq çoxəsrlik tarixi köklərə malik olan zəngin milli ənənələrimizi və mədəni irsimizin əhəmiyyətini hər iki tərəfin dərk etməsi və onların öyrənmək və qoruyub saxlamaq istəyi ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşması üçün çox mühüm amildir. Bu ümumilik, məsələn, özünü onda göstərir ki, bizim xalqların adətləri, dili, musiqisi və ümumi mədəniyyətimizin digər elementləri hər iki xalqa yaxın və aydındır. Türkmənlərlə azərbaycanlılar arasında mövcud olan qarşılıqlı anlaşma və qarşılıqlı hörmət hissləri onların mədəni baxımdan qarşılıqlı surətdə zənginləşməsinin əsasını təşkil edir. Məhz bu əsas həqiqi dostluğun mənbəyidir. Böyük şair və mütəfəkkir Məhəmməd Füzuli əbəs deməmişdir ki, yolçu, əgər sən düz yolla gedirsənsə, o yoldakı sədaqətli dost sənə kömək olacaqdır.

Fürsətdən istifadə edərək, böyük məmnuniyyətlə Sizə ürəkdən uğurlar diləmək, qardaş Azərbaycanın daha da tərəqqi etməsini, inkişaf yolunda yeni yüksək nailiyyətlər qazan-

masını arzulamaq istəyirəm. Bunun üçün hər cür şərait, ilk növbədə, Türkmənistanın və türkmən xalqının simasında mehriban qonşular və dostlar var.

Əziz dostlar!

Mən hörmətli dostum, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin sağlığına və onun uğurları şərəfinə badə qaldırmaq istərdim. Mən ölkənin rəhbərliyinə və bütün Azərbaycan xalqına sülh və səadət, əmin-amanlıq və firavanlıq arzu edirəm. Qoy Türkmənistan və Azərbaycan arasında dostluq və qardaşlıq möhkəmlənsin!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Hörmətli dostlar!

İcazə verin, qardaş Türkmənistan torpağında mənə və nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə bir daha ürəkdən təşəkkürümü bildirim. Bugünkü səfər və onun nəticələri iki qardaş ölkə və xalq arasında münasibətlərin yüksək səviyyəsini göstərir. Biz möhkəm tarixi köklərə əsaslanan bu münasibətlərə çox böyük əhəmiyyət veririk. İki müstəqil dövlət arasında, iki qonşu arasında dostluq, qardaşlıq münasibətləri bu təməl, bu möhkəm zəmin üzərində qurulur.

Hazırda bizim münasibətlər inkişaf mərhələsində, dinamizm mərhələsindədir. Bizim münasibətlərimizi yaxın tərəfdaşlar, öz ölkələrində uğurlu islahatlar aparan, sosial-iqtisadi inkişaf məsələlərini, öz xalqlarının rifahının, həyat səviyyəsinin yüksəldilməsi məsələlərini uğurla həll edən, regional inteqrasiya, regional əməkdaşlıq proseslərində fəal iştirak edən dost dövlətlər arasında münasibətlər kimi səciyyələndirmək olar.

Bizim ölkələrimizi olduqca çox şey birləşdirir. Artıq deyildiyi kimi, bunlar türkmən və Azərbaycan xalqlarının ümumi tarixi, ümumi kökləridir. Dillərimizin - türkmən və Azərbaycan dillərinin oxşarlığıdır. Bu gün sizin gözəl Aşqabad şəhərində olarkən mən bizim dillərimizin nə qədər yaxın olmasını bir daha yəqin etdim. Biz bir-birimizi tərcüməçisiz başa düşürük. Bizim münasibətlərimizi bu baza üzərində qururuq. Bu gün bu münasibətlər real məzmun alır, biz konkret məsələlər həll edirik. Bu ilin may ayında Türkmənistan Prezidentinin Azərbaycana uğurlu səfəri nəticəsində çox məsələlər həll olunub və mən əminəm ki, əldə edilmiş bütün razılaşmalar, imzalanmış sənədlər gələcəkdə uğurla reallaşdırılacaqdır.

Bu gün səfər çərçivəsində çox böyük əməli xarakter daşıyan yeni sənədlər imzalanmışdır. Bütün razılaşmaların reallaşdırılması ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmağa, Mərkəzi Asiya, Qafqaz və Xəzər hövzəsi regionunda əməkdaşlığı daha da möhkəmlətməyə imkan verəcəkdir.

Ölkələrimizin çox böyük iqtisadi potensialı vardır. Bu potensial ölkələrimizdə sosial-iqtisadi dəyişiklikləri həyata keçirməyə imkan verir. Müasir, gözəl şəhər, iri meqapolis olan, insanların yaşaması və işləməsi üçün hər cür şərait yaradılmış Aşqabadın bugünkü siması Türkmənistanın uğurlu, yüksələn xətlə inkişafına parlaq nümunədir. Sizin ölkəniz müstəqillik illərində çox böyük quruculuq və inkişaf yolu keçmişdir və bu gün həyatın bütün sahələrində konkret proqramlar həyata keçirməklə uğurla inkişaf edir. Təbii

ki, bu, regionda və dünyada ölkənizin mövqelərini möhkəmləndirir. Sizin dostlarımız və qardaşlarınız kimi biz buna çox şadıq. Sənin dostun, qardaşın nə qədər güclü olsa, sən də bir o qədər güclü olarsan.

Mən qardaş Türkmənistan xalqına yeni uğurlar diləyirəm. Bugünkü nailiyyətlər inamla söyləməyə əsas verir ki, bu irəliləyiş, bu inkişaf gələcəkdə də davam edəcəkdir. Biz bundan sonra da konkret iqtisadi, energetika, nəqliyyat layihələri üzərində birgə işləyəcəyik. Çalışacağıq ki, vətəndaşlarımız bir-birini daha yaxşı tanısınlar, mədəni mübadilə daha fəal həyata keçirilsin, ümumi məqsədlər naminə biz daha sıx birləşək.

Mən bu dəvətə görə, qonaqpərvərliyə, səmimi qəbula görə Türkmənistan Prezidenti, dostum Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova bir daha dərin təşəkkürümü bildirmək və Türkmənistan Prezidentinin sağlığına, qardaş Türkmənistan xalqının tərəqqisi şərəfinə badə qaldırmağı təklif etmək istəyirəm!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNBAŞI ŞƏHƏRİNƏ GƏLMİŞDİR

Noyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə birlikdə Aşqabaddan Türkmənbaşı şəhərinə gəlmişdir.

AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

Noyabrın 29-da Türkmənistanın Türkmənbaşı şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Abdullah Gülün və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun üçtərəfli görüşü olmuşdur.

Dövlət başçıları əvvəlcə birgə foto çəkdirdilər.

Prezident Qurbanqulu Berdiməhəmmədov görüşü açaraq ali qonaqları salamladı, Türkmənistana səfərə gəldiklərinə görə təşəkkür etdi.

Türkiyə Prezidenti Abdullah Gül üç ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. O, Azərbaycan, Türkmənistan və Türkiyə prezidentlərinin birgə görüşünün əhəmiyyətini vurğuladı.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV çıxışında dedi:

- Əziz Qurbanqulu Məlikquliyeviç!

Əziz Abdullah Gül!

Bu gün çox gözəl bir gündür. İlk dəfədir ki, üç qardaş ölkənin prezidentləri üçtərəfli görüş keçiririk. Bu görüşə çox böyük əhəmiyyət verirəm. Əminəm ki, görüşün nəticələri çox uğurlu olacaqdır. Bizim aramızda dostluq, qardaşlıq əlaqələrinin möhkəmlənməsi işində bu görüşün çox gözəl nəticələri olacaqdır.

Bizi ortaq tarix birləşdirir, müştərək mədəni köklər birləşdirir. Bu gözəl zəmin əsasında üç müstəqil ölkə öz siyasətini aparır, biz aramızda olan bu gözəl, ənənəvi dostluq, qardaşlıq münasibətlərinin inkişafı üçün çalışırıq.

Mən çox şadam ki, bu gün qardaş Türkmənistan torpağındayam. Dünən mənim rəsmi səfərim də çox uğurlu keçmişdir. Çox mühüm razılaşmalar əldə edilmişdir.

Əminəm ki, bu görüş də çox yaxşı keçəcək və onun çox gözəl nəticələrini görəcəyik.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCANIN DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARININ KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ İKİNCİ MÜŞAVİRƏSİ ÖZ İŞİNƏ BAŞLAMIŞDIR

Noyabrın 29-da Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşlarının ikinci müşavirəsi öz işinə başlamışdır. Müşavirədə diplomatik nümayəndəlik və konsulluqların konsulluq sahəsində fəaliyyəti müzakirə olunacaq, qarşıya çıxan nöqsan və problemlər araşdırılacaq, təhlil ediləcək və onların aradan qaldırılması, konsulluq məsələləri üzrə məsul əməkdaşların peşə hazırlığının artırılması, digər dövlət orqanlarının konsulluq işinə dair təklifləri nəzərdən keçiriləcəkdir.

Müşavirə iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini anmış, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də güllər düzülmüşdür.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsi yad edilmişdir.

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini V.Sadıqov müşavirədə giriş nitqi söyləmişdir. Sonra müşavirəyə sədrlik edən XİN-in Konsulluq İdarəsinin rəisi, fövqəladə və səlahiyyətli səfir Nadir Hüseynov Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşlarının 2006-cı il dekabrın 11-dən 14-dək keçirilmiş birinci müşavirəsindən ötən dövr ərzində fəaliyyəti barədə çıxış etmiş, tövsiyələrini vermişdir.

Hazırlanmış proqrama uyğun olaraq hesabat, təhlil və konsulluq məsələləri üzrə məsul əməkdaşların bilik, təcrübə və peşə hazırlığının artırılması məqsədi ilə təlim xarakterli müşavirə işini dekabrın 1-4-də davam etdirəcəkdir.

Azərbaycanın 55 xarici ölkədəki səfirlik və baş konsulluqlarında çalışan konsul məsələləri üzrə məsul əməkdaşlarının, həmçinin XİN-in Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin əməkdaşlarının iştirak etdiyi müşavirədə təlim xarakterli məruzələr dinləniləcəkdir. İşdə qarşıya çıxan çətinliklər və konsul məsələləri üzrə məsul əməkdaşları maraqlandıran müxtəlif məsələlərlə bağlı sualları 14 dövlət qurumunun - Prezidentin İcra Aparatı yanında Vətəndaşlıq Məsələləri Komissiyasının, Milli Təhlükəsizlik, Vergilər, Daxili İşlər, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirlik-

lərinin, Dövlət Sərhəd və Dövlət Miqrasiya xidmətlərinin, Dövlət Sosial Müdafiə Fondunun, Diaspor ilə İş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitələrinin, Vəkillər Kollegiyasının və Azərbaycan Respublikası Hərbi Komissarlığının yüksək vəzifəli nümayəndələri cavablandıracaqlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Türkiyənin xarici işlər naziri Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Əlaqələrimizin çoxşaxəli olduğunu qeyd edən Prezident İlham Əliyev bu əlaqələrin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirdi. Bu yaxınlarda Türkiyə Prezidenti Abdullah Güllə bərabər Türkmənistanda səfərdə olduğunu və çox yaxşı görüşlər keçirildiyini xatırlayan dövlətimizin başçısı münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm əhəmiyyət daşıdığını bildirdi. Əməkdaşlığımızın perspektivləri ilə bağlı müzakirələr aparmaq üçün müxtəlif səviyyəli səfərlərin önəmini qeyd edən Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, qonağın ölkəmizə bu səfəri də əlaqələrimizin daha da inkişaf etdirilməsi işində öz müsbət rolunu oynayacaqdır.

Nazir Əli Babacan Azərbaycanla əlaqələrin müstəsna əhəmiyyət kəsb etdiyini dedi. O, ümummilli lider Heydər Əliyevin söylədiyi kimi, bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasında münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı. Əli Babacan əlaqələrimizin siyasi, iqtisadi və bütün digər sahələrdə bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏFQANISTAN MİLLİ ASSAMBLEYASININ SƏDRİ MƏHƏMMƏD YUNİS QANUNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Əfqanıstan Milli Assambleyasının sədri Məhəmməd Yunis Qanuninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı, əməkdaşlığın siyasi, iqtisadi və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Qarşılıqlı əməkdaşlığın möhkəmlənməsində parlamentlərarası əlaqələrin önəminə toxunan Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, nümayəndə heyətinin ölkəmizə bu səfəri Azərbaycan-Əfqanıstan münasibətlərinin inkişafı üçün mühüm addım olacaqdır.

Məhəmməd Yunis Qanuni iki ölkə arasındakı dostluq əlaqələrindən məmnunluğunu söylədi. O, Azərbaycan xalqının tərəqqisində ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini vurğuladı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətlə inkişaf etdiyini bildirdi. Qonaq dedi ki, Azərbaycanla münasibətlər Əfqanıstanın xarici siyasəti-

nin əsas prioritetlərindən birini təşkil edir. Məhəmməd Yunis Qanuni iki ölkə arasında əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı səfərlərin böyük əhəmiyyəti olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Avropa Şurasının Baş katibi Terri Devisi qəbul etmişdir.

Görüşdə Bakıda Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransın əhəmiyyəti vurğulandı. Bu cür tədbirlərin ölkələr və xalqlar arasında əlaqələrin möhkəmlənməsində və beynəlxalq əməkdaşlığın genişləndirilməsində rolu qeyd olundu.

Söhbət zamanı həmçinin Azərbaycanla Avropa Şurası arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi bildirildi. Avropa Şurasının Baş katibi Terri Devisin ölkəmizə bu səfərinin əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TATARISTAN DÖVLƏT ŞURASININ SƏDRİ FARİD MUXAMETŞİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Tatarıstan Respublikası Dövlət Şurasının sədri Farid Muxametşini qəbul etmişdir.

Farid Muxametşin Tatarıstan Prezidenti Mintimer Şaymiyevin salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. Qonaq ölkəmizin müvafiq qurumları ilə Tatarıstan arasında əlaqələrin inkişafını vurğuladı.

Dövlətimizin başçısı Tatarıstan Prezidenti ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı, əlaqələrin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Tatarıstan Prezidenti Mintimer Şaymiyevin salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

BAKIDA AVROPA ŞURASININ ÜZVÜ OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN "MƏDƏNİYYƏTLƏRARASI DİALOQ AVROPA VƏ ONUN QONŞU REGİONLARINDA DAVAMLI İNKİŞAFIN VƏ SÜLHÜN ƏSASIDIR" MÖVZUSUNDA KONFRANSI KEÇİRİLİR

Dekabrın 2-də Bakıda, "Gülüstan" sarayında Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda ikigünlük konfransı başlanmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev konfransın açılışında iştirak etmişdir.

Konfransda Avropa Şurasının üzvü olan, habelə müşahidəçi ölkələrin, Avropa Mədəniyyət Konvensiyasını imzalamış dövlətlərin, Avropanın qonşu regionlarını təmsil edən

10 ölkənin, habelə Avropa Komissiyasının və YUNESKO-nun, İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO), Ərəb Dövlətləri Liqası ölkələrinin Elm, Mədəniyyət və Təhsil Təşkilatının (ALEKSO) yüksək rütbəli rəsmiləri, müxtəlif fondların və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, ümumilikdə, 250-dən çox nümayəndə, o cümlədən 16 nazir, 18 nazir müavini, 10 beynəlxalq təşkilatın başçısı iştirak edir.

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə mədəniyyət və turizm sahələrinin inkişafı, dünya miqyasında təbliği üçün 100-dən çox Fərman və Sərəncam imzalamışdır. 2004-2008-ci illərdə bu istiqamətdə 71 beynəlxalq saziş və konvensiya imzalanmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva mədəni irsimizin qorunması və dünya təbliği sahəsində məqsədyönlü fəaliyyət göstərir. Azərbaycan mədəniyyəti dünya mədəniyyətinin, habelə onun tərkib hissəsi olan islam mədəniyyətinin böyük daşıyıcılarından biri olduğuna görə, Bakı şəhəri 2009-cu il üçün "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdir. Bu baxımdan Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin Bakı konfransı, nəinki Azərbaycanın və Qərbin, eyni zamanda, Şərqin mədəni həyatında mühüm hadisədir. Bunu yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyevin bu il noyabrın 4-də imzaladığı Sərəncama əsasən, konfransın hazırlanması və keçirilməsini təmin etmək məqsədi ilə Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə Təşkilat Komitəsi yaradılmışdı.

Konfrans münasibətilə "Gülüstan" sarayının foyesində təşkil olunmuş sərgidə ölkəmizin qədim, zəngin mədəniyyəti barədə kifayət qədər dolğun təsəvvür yaradan eksponatlar - xalçalar, silah nümunələri, musiqi alətləri, xalq sənəti nümunələri nümayiş etdirilir. Respublikamızın turizm imkanlarını, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin mədəniyyət və incəsənətə göstərdiyi diqqət və qayğını göstərən fotoşəkillər qonaqlarda böyük maraq doğurmuşdur.

Sonra konfransın rəsmi açılışı oldu. Salona toplaşanlar Prezident İlham Əliyevi və Avropa Şurasının baş katibi Terri Devisi alqışlarla qarşıladılar.

Mədəniyyət naziri Əbülfəs Qarayev Avropa Şurası ilə Azərbaycanın birgə təşkil etdiyi konfransı açaraq dedi ki, müasir dövrdə sivilizasiyaların arasında dialoq qlobal səviyyədə bəşəriyyətin ən vacib ehtiyaclarından birinə çevrilmişdir. Bu konfrans müxtəlif xalqlar və dövlətlər arasında dialoqu möhkəmləndirməyə və daha da inkişaf etdirməyə yönələn fəaliyyətin bariz nümunəsidir.

Ölkəmizdə son illər çoxlu beynəlxalq forumların və mədəniyyətlərarası dialoqa həsr edilmiş tədbirlərin keçirilməsinin artıq ənənəyə çevrildiyini bildirən nazir dedi ki, bu beynəlxalq konfrans Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə dəstəyi və müvafiq göstərişi ilə təşkil olunmuşdur. Buna görə, Prezidentə təşəkkürünü bildirən Ə.Qarayev vurğuladı ki, Azərbaycan öz siyasətində mədəniyyətlərarası dialoqa böyük önəm verir və şəxsən dövlətimizin başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlər həm ölkəmizin daxilində, həm də beynəlxalq aləmdə dialoqun səmərəli inkişafına böyük töhfələr vermişdir.

Dövlətimizin başçısı konfransda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab baş katib!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən, ilk növbədə, sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bu gün Azərbaycan paytaxtında, Bakı şəhərində çox önəmli bir tədbir keçirilir. Əminəm ki, mədəniyyətlərarası dialoqun möhkəmlənməsi işində bu konfransın çox böyük və müsbət rolu olacaqdır.

Biz bu gün müxtəlif ölkələrdən olan mədəniyyət nazirlərinin konfransını keçirməklə bir daha onu göstəririk ki, son illər ərzində Azərbaycan dini tolerantlıq, milli və etnik tolerantlıq məsələlərində çox böyük uğurlara nail olmuşdur. Əslində, bizim ölkəmizdə bütün insanlar müxtəlif dövrlərdə, ictimai-siyasi quruluşundan asılı olmayaraq, həmişə bir ailə kimi yaşamışlar. Burada bütün dinlərin nümayəndələri həmişə dostluq, qardaşlıq şəraitində yaşamışlar. Bir daha qeyd etmək istəyirəm ki, bu, bizim ölkəmizə xas olan çox mühüm bir amildir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, əlbəttə, millətlərarası münasibətlərə, milli və dini tolerantlığın möhkəmlənməsi işinə çox böyük diqqət verilmişdir. Bu gün Azərbaycan sözün əsl mənasında dostluq, qardaşlıq məkanıdır. Burada bütün xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Mən əminəm ki, Azərbaycanın bu istiqamətdə əldə etdiyi təcrübə çox önəmlidir. Şübhə etmirəm ki, konfrans zamanı bu barədə geniş söhbət açılacaqdır.

Mən çox şadam ki, bu konfransda dünyanın müxtəlif ölkələrindən gələn nümayəndələr iştirak edirlər. Bildiyiniz kimi, konfrans Avropa Şurası ilə Azərbaycan tərəfindən təşkil olunmuşdur. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan səkkiz ilə yaxındır Avropa Şurasının üzvüdür. Bu dövr ərzində ölkəmizdə gedən siyasi və iqtisadi islahatlar, Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi nəticəsində Azərbaycan demokratik inkişaf baxımından çox sürətlə irəli getmişdir. Ölkədə aparılan siyasi və iqtisadi islahatlar, qanunun aliliyinin bərqərar olunması, Azərbaycanda mütərəqqi təcrübənin tətbiq edilməsi - bütün bunlar son illər ərzində baş vermiş mühüm hadisələrdir. Biz Avropa Şurası ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıqdan çox razıyıq. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə uğurla davam etdiriləcək və bizə əlavə imkanlar yaradacaqdır.

Eyni zamanda, bizim qonaqlarımızın arasında İslam Konfransı Təşkilatının üzvləri vardır. Biz buna da çox sevinirik və çox şadıq ki, bu gün Şərqlə Qərbin kəsişdiyi yerdə, Bakıda müxtəlif ölkələrdən müxtəlif dinlərin nümayəndələri iştirak edirlər. Biz buna çox böyük önəm veririk. Bunun çox böyük əhəmiyyəti var. Çünki indiki zamanda bir çox hallarda sivilizasiyalararası, mədəniyyətlərarası dialoqdan danışılır, ancaq bununla bərabər, dünyada gedən proseslər, əfsuslar olsun ki, bəzi hallarda gərginliyin artmasına gətirib çıxarır. Mən çox istəyirəm ki, bu gün Azərbaycanda başlanan Bakı prosesi mədəniyyətlər arasında olan dialoqun, dostluğun, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə öz dəyərli töhfəsini versin.

Bir sözlə, Azərbaycanın həm tarixi, həm coğrafi vəziyyəti, həm də müxtəlif beynəlxalq təşkilatlarda iştirakı, əlbəttə, bizim imkanlarımızı daha da genişləndirir. Mən əminəm ki, ölkəmizin uğurlu inkişafı bundan sonra da davam etdiriləcək və bu inkişafı şərtləndirən təkcə siyasi, yaxud da iqtisadi islahatlar deyildir. Eyni zamanda, bayaq qeyd etdiyim kimi, Azərbaycanda hökm sürən çox gözəl ictimai-siyasi ab-hava, burada yaşayan bütün millətlərin hüquqlarının qorunması və hər bir insanın, hər bir millətin nümayəndəsinin Azərbaycanda rahat yaşamasıdır.

Bizim ölkəmizin çox zəngin və böyük tarixi vardır. Minilliklər bundan əvvəl Azərbaycanda insanlar yaşayıb yaratmışlar. Bunu əks etdirən tarixi abidələr Azərbaycan dövləti tərəfindən lazımınca qorunur. Biz öz mədəni və tarixi irsimizə çox bağlıyıq. Mədəni irsimizin qorunması üçün çox böyük işlər görürük. Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum idi. Biz yalnız qısa bir müddət ərzində öz taleyimizi özümüz müəyyən edirdik. Ancaq buna baxmayaraq, bizim tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız, ana dilimiz - bu amillər azərbaycanlıları bir millət kimi assimilyasiyadan qorudu və bu gün müstəqil ölkəmizdə Azərbaycan xalqı öz taleyinin sahibidir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə ölkədə vəziyyət həddindən artıq ağır idi. Həm siyasi böhran, həm iqtisadi böhran, həm də Ermənistanın Azərbaycana qarşı təcavüzü və bunun nəticəsində torpaqlarımızın bir hissəsinin işğal altına düşməsi - bütün bu amillər Azərbaycanda vəziyyətin nə qədər ağır və çətin olduğunu göstərir. Ancaq buna baxmayaraq, biz öz səylərimizlə, işimizlə, Azərbaycan xalqının iradəsi ilə bu çətin və ağır sınaqlardan şərəflə çıxdıq. Bu gün Azərbaycan, demək olar ki, tam şəkildə öz müstəqilliyini təmin edibdir. Azərbaycan müstəqil siyasət aparır. Biz həm iqtisadi, həm də siyasi sahədə çox böyük və əhəmiyyətli nailiyyətlərə nail olmuşuq.

Azərbaycan xalqı rahat yaşayır, təhlükəsizlik, sülh şəraitində yaşayır. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və möhkəmlənməsi istiqamətində çox önəmli addımlar atılmışdır. Ölkəmizdə əsas inkişaf istiqamətləri ilə əlaqədar cəmiyyətdə fikir ayrılığı yoxdur, əksinə, bizim cəmiyyətimiz ümumxalq amalları ətrafında birləşibdir: azərbaycançılıq fəlsəfəsi, müasirlik, öz tarixi köklərimizə, ənənələrimizə bağlılıq. Eyni zamanda, Azərbaycan dünyəvi dövlətdir. Azərbaycanda bütün dinlərin nümayəndələrinə çox böyük hörmət vardır. Yəni bizim ölkəmizi bu gün ictimai-siyasi baxımdan şərtləndirən amillər bunlardır.

Müstəqillik əldə olunandan və ölkəmiz dünya birliyinə inteqrasiya edəndən sonra Azərbaycanda müasir siyasi sistem formalaşıbdır. Ancaq bu sistem hələ daha da təkmilləşməlidir. Ölkədə aparılan iqtisadi islahatlar bizim iqtisadi gücümüzü əhəmiyyətli dərəcədə artırmışdır. Son dörd il ərzində Azərbaycan iqtisadi artım baxımından dünya miqyasında birinci ölkədir. Bizim iqtisadiyyatımız son beş il ərzində təxminən üç dəfə artıbdır. Büdcə xərcləri 12 dəfə artıb, sənaye istehsalı böyük dərəcədə artıbdır. Bizim imkanlarımız genişlənibdir. Yoxsulluqla mübarizədə böyük uğurlar əldə edilibdir. Dörd il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 16 faizə düşüb və əminəm ki, bu ilin yekunlarına görə daha da aşağı düşəcəkdir.

Azərbaycanda uzun illər ərzində ən böyük və çətin problem olan işsizliklə mübarizə uğurla gedir. Son beş il ərzində 740 mindən artıq yeni iş yeri açılmışdır. Bütün bölgələr-

də quruculuq, inkişaf gedir. Bir sözlə, Azərbaycan özünü iqtisadi cəhətdən tam şəkildə təmin edir. Eyni zamanda, bizim enerji sahəsindəki uğurlarımız nəinki ölkə üçün, həm də bölgə üçün çox böyük dəyərdir. Azərbaycanın enerjidaşıyıcıları bu gün Avropa və dünya bazarlarına çıxarılaraq, enerji təhlükəsizliyi məsələlərində müsbət rol oynayır. Bu istiqamətdə Avropa İttifaqı ilə Azərbaycan arasında müvafiq sənədlər imzalanıbdır. Digər beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Enerji təhlükəsizliyini təmin etməklə bağlı Azərbaycanda vaxtaşırı beynəlxalq forumlar keçirilir və bu forumların nəticələri nəinki region üçün, dünya üçün də çox böyük əhəmiyyət kəsb edir.

Bir sözlə, biz gələcəyə çox böyük nikbinliklə baxırıq. Siyasi və ictimai-siyasi vəziyyət baxımından Azərbaycan çox sabit ölkədir və Azərbaycana birbaşa xarici investisiyaların qoyulması bunu əks etdirir. İqtisadi potensialın möhkəmlənməsində uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, Azərbaycanda islahatlar davam etdirilir və etdirilməlidir. Həm siyasi sahədə, həm də iqtisadi sahədə. Çox sevindirici haldır ki, ən böyük maliyyə qurumu olan Dünya Bankı bu il Azərbaycanı dünya miqyasında bir nömrəli islahatçı ölkə kimi tanıyıbdır. Bu onu göstərir ki, bizim islahatlarımız həqiqətən çox cəsarətlidir, uğurludur və əhəmiyyətlidir.

Bununla bərabər, Azərbaycanda maliyyə sektorunda şəffaflığın tam şəkildə təmin olunması istiqamətində böyük addımlar atılıbdır. Keçən il Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu şəffaflığa görə, şəffaflıq işində əldə etdiyi uğurlara görə mükafatla təltif edibdir. Yəni bütün bunlar çox ciddi hadisələrdir. Dünyanın ən böyük beynəlxalq təşkilatlarının Azərbaycana, Azərbaycanda gedən proseslərə verdiyi qiymətdir.

Eyni zamanda, Azərbaycanda dini və milli tolerantlığın, dözümlülüyün yüksək səviyyədə olması və bütün xalqların rahat, mehriban şəkildə yaşaması, əlbəttə ki, bizi daha da gücləndirir. Bax, bu amillər hər bir ölkənin inkişafı üçün çox vacibdir. Mən çox istəyirəm ki, bizim ölkədə bu vaxta qədər əldə olunan nailiyyətlər bundan sonra da uğurla davam etdirilsin. Bunu etmək üçün, əlbəttə ki, bölgədə sülh tam şəkildə bərqərar olunmalıdır.

Biz çox istəyirik ki, Qafqaz regionunda bütün münaqişələr, nəhayət öz həllini tapsın, sülh bərqərar olunsun və beləliklə, bölgədə əməkdaşlıq üçün imkanlar açılsın. Bu, hər bir ölkə üçün çox önəmlidir. Xüsusilə Cənubi Qafqazda baş verən hadisələr bir daha onu göstərir ki, beynəlxalq hüquq normaları tam şəkildə təmin olunmalıdır. Beynəlxalq hüquq normaları pozulduqda, əfsuslar olsun ki, çox ciddi və təhlükəli proseslər baş verir.

Bizim bölgədə ən böyük təhlükə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Uzun illər ərzində bizim torpaqlarımız işğal altındadır. Ermənistanın Azərbaycana qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində, təcavüzkar separatizm nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşübdür. Bu işğaldan əziyyət çəkən 1 milyon azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır. Azərbaycanın ərazi bütövlüyü pozulubdur.

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon tamamilə işğal altındadır və oradan deportasiya edilmiş soydaşlarımız bundan çox əziyyət çəkirlər. Bu, böyük ədalətsizlikdir.

Birləşmiş Millətlər Təşkilatının qərarları, Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistanın silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ermənistan buna əməl etmir. Bu ilin mart ayında BMT-nin Baş Məclisində qəbul edilmiş qərarda qeyd olunur ki, Azərbaycan torpaqları işğal altındadır və bu işğala son qoyulmalıdır. Buna da əməl olunmur. Avropa Şurası hələ bir neçə il bundan əvvəl münaqişə ilə bağlı, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə bağlı qətnamə qəbul edibdir. O da icra olunmur. İslam Konfransı Təşkilatı da buna oxşar qərarlar qəbul edibdir. Yəni, bölgədə biz onun şahidi oluruq ki, beynəlxalq hüquq normaları tamamilə pozulur və əfsuslar olsun ki, beynəlxalq təşkilatların, xüsusilə çox mötəbər təşkilatların qərarları icrasız qalır. Bu, bölgədə gedən proseslərə ən böyük təhlükədir.

Biz şübhə etmirik ki, beynəlxalq hüquq normaları tam şəkildə bərqərar olunmalı və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, işğal olunmuş torpaqlar tezliklə işğalçı qüvvələrdən boşaldılmalıdır.

Bu işğal və hərbi təcavüz, eyni zamanda, bizim mədəni irsimizə də çox böyük ziyan vurubdur. İşğal olunmuş torpaqlarda hər şey dağıdılıbdır. Bunu həm biz deyirik, həm də beynəlxalq təşkilatlar təsdiq edir. 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bölgələrində monitorinq keçirmişdir. Bu monitorinq əsasında məruzə hazırlanmış və təqdim edilmişdir. Məruzədə göstərilir ki, orada hər şey dağıdılıb, bir dənə salamat bina qalmamışdır. Bütün binalar, bütün tarixi abidələr Ermənistan tərəfindən dağıdılıbdır. Mədəniyyət ocaqları dağıdılıbdır, bizim muzeylərimizdə nümayiş etdirilmiş bütün eksponatlar oğurlanıb, muzeylər talan edilibdir. Əcdadlarımızın qəbirləri, bizim məscidlərimiz dağıdılıbdır. Bütün bunları Ermənistan dövləti edibdir. ATƏT-in faktaraşdırıcı missiyası bütün bunları təsdiqləyib və öz məruzəsində göstəribdir.

Biz isə Azərbaycanda yaşayan bütün xalqların mədəni irsinə, tarixi irsinə çox böyük hörmətlə yanaşırıq. Bakıda və ölkəmizin digər yerlərində qorunub saxlanılan bütün dinlərin məbədləri, abidələri və onların bərpası bunun əyani sübutudur.

Əziz dostlar!

Mən sizi bir daha bu konfransın keçirilməsi münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm ki, biz bu konfransın keçirilməsinə Azərbaycanda çox böyük əhəmiyyət veririk. Əminəm ki, konfransın çox gözəl nəticələri olacaq və bu nəticələr hesabına mədəniyyətlərarası dialoqun möhkəmlənməsi prosesi daha da güclənəcəkdir.

Mən çox istərdim ki, bu gün başlanan "Bakı prosesi" uzunmüddətli olsun. Çox istərdim ki, bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, konkret fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin. Ümid edirəm ki, sizin müzakirələriniz çox uğurlu olacaq və biz qarşımıza qoyduğumuz məqsədə çatacağıq.

Sizin hamınızı bir daha ürəkdən salamlayır, konfransın işinə uğurlar arzulayıram!

Sonra Avropa Şurasının baş katibi Terri Devisə söz verildi.

AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN ÇIXIŞI

- Zati aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Mənim bu gün hamıya ünvanlayacağım sual çox sadədir. Biz dialoqa hazırıqmı? Nazirlər səviyyəsində keçirilən konfransın mövzusu Avropa Şurasının əsas məqsədini əks etdirir. Məhz insan hüquqlarının, demokratiyanın və qanunun aliliyinin qorunması və təbliğ olunması, 2005-ci ildə dövlət və hökumət başçılarının 3-cü sammitində təsdiqlədiyimiz kimi, mədəniyyətlərarası dialoq siyasi bir prioritetdir. Lakin Bakıda keçirilən bu konfrans dialoqla bağlı bizi narahat edən bir sıra məsələləri özündə ehtiva edir. Nə üçün? Çünki bu, Avropa Şurasının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin ilk konfransıdır və bu tədbir Avropa Şurasının coğrafi sərhədləri ilə məhdudlaşmayaraq, qonşu region ölkələrinin nazirlərinin iştirakı ilə təşkil olunmuşdur. Bu, özünü sülhün və dayanıqlı inkişafın əsası hesab olunan mədəniyyətlərarası dialoqda və gələcək fəaliyyətlər üçün birgə mövqedə göstərir.

Bakı, Azərbaycan qeyri-adi bir məkandır. Bura tarix boyu müxtəlif mədəniyyətlərin qovuşma nöqtəsi, Şərq və Qərb, Şimal və Cənub arasında təbii bir körpü olubdur. Bu, çox xüsusi tədbirdir, çünki bu ilin may ayında Avropa Şurası özünün mədəniyyətlərarası dialoqa dair "Ağ kitabı"nı yaradıbdır. Bu, əsas qanunlar sənədinin hazırlanmasından sonra nazirlər səviyyəsində ilk konfransdır və biz bunun necə həyata keçirilməsini düşünməliyik. Dialoqdan dialoq haqqında və dialoqa. Bu səbəbdən mən Azərbaycan Prezidenti cənab İlham Əliyev, Avropa Şurası Nazirlər Komitəsinin İspaniyadan olan rəhbəri, habelə YUNESKO, ALEKSO və İSESKO-dan olan hörmətli həmkarlarımla birgə burada olmağımdan çox məmnunam. Deməliyəm ki, mədəniyyətlərarası dialoq İspaniyanın sədrlik etdiyi Nazirlər Komitəsinin prioritet məsələlərindən biridir. Təsadüfi deyil ki, Bakıdakı konfrans bir həftədən də az bir müddət öncə İspaniyanın Avropa Şurasına sədrliyə başlamasından sonra keçirilən ilk tədbirdir. Biz burada təcrübə mübadiləsi aparmaq və birgə irəliləyişə nail olmaq üçün bir araya gəlmişik. Biz hamımız çoxmillətli cəmiyyətlərdə bu və ya digər yolla, mədəniyyətin müxtəlifliyinə daha da meyilliyik. Bir çox hallarda təbii müxtəliflik ətraf mühit üçün nə qədər vacibdirsə, mədəniyyət müxtəlifliyi də bəşəriyyət üçün bir o qədər vacibdir. Lakin biz hələ də bəzi hallarda milli, etnik, linqvistik stereotiplər haqqında düşünürük.

Davamlı mədəniyyətlərarası dialoq cəmiyyətlərimizin içərisində ehtiyac duyduğumuz bir sosial möhürdür. Bu dözümsüzlüyə, parçalanmaya və zorakılığa qarşı bir müalicə vasitəsidir. Dialoq təkcə ideologiya deyil, həmçinin müəyyən siyasi kontekstlərdən irəli gələn süni yanaşmalar üçün bir reseptdir. Lakin biz müxtəlifliyin dəyərləndirildiyinə və müxtəlif fərdlərin bir-biri ilə ümumi ünsiyyət qurduğuna və insanların dialoq aparmaq üçün imkanlarının olduğuna əmin olsaq, onda hamımız, gələcək nəsillər üçün qarşılıqlı hörmət, ədalət və təhlükəsizlik şəraitində daha yaxşı dünyada yaşamaq imkanı olar. Mədəniyyət bu istiqamətdə bir yardımçıdır.

Mədəniyyət hissiyyatımızı, bir-birimizi görmək, görüşmək və anlamaq qabiliyyətimizi qidalandırır və bu işdə ürəyimiz, idrakımız və bədənimiz əlaqəlidir. Bu səbəbdən, yaxşı qanunlar bir çox bu cür mədəniyyətlərarası məkanlara və imkanlara şərait yaradır. Bi-

zim yerində və spesifik olmağımız xüsusilə vacibdir. İnsanların bir-biri ilə ünsiyyət qurması həmişə yaxşıdır, lakin mədəniyyətlərarası dialoq beynəlxalq seminarlarda xeyriyyəçilik səviyyəsinə endirilməməlidir. Məqsəd real həyatda real insanlar arasında real problemlər haqqında dialoqun qurulmasına sövq etməkdir. Fəaliyyətimizin meyarları keçirilən beynəlxalq konfransların sayı və ya hazırlanan kitabçalarla deyil, insanların həyat tərzinə, evdə, məktəbdə, işdə, küçədə, məsciddə, kilsədə və ya sinaqoqda üzləşdikləri problemləri necə həll etdiklərinə təsir göstərməklə ölçülür.

Zati aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Mən bütün insanlar arasında bərabər hörmət, insan hüquqları, qanunun aliliyi və demokratik prinsiplər olmadan həyata keçməsi mümkün olmayan bu dialoqa cəlb edilməyinizi istəyirəm. Bu dəyərlər qarşılıqlı hörmət və anlaşmanı təmin edir və bu, dialoqun gücün arqumenti ilə deyil, arqumentin gücü ilə idarə olunmasını təmin etmək üçün çox əhəmiyyətlidir. Təşəkkür edirəm.

Hörmətli sədr, icazə verin, konfrans iştirakçılarının diqqətinə çatdırım ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu konfrans əlamətdar hadisədir. Lakin son bir neçə saat ərzində bu, daha da əlamətdar oldu. Çünki bildyiniz kimi, Prezident Əliyev ilk dəfə baba olmuşdur. Prezident Əliyev ikiqat baba olmuşdur. Təsəvvür edirəm, əkiz nəvələr. Siz ikiqat mükafatlandırılmısınız. Sizi bir daha konfrans iştirakçıları adından təbrik edirəm.

* * *

Avropa Şurasının baş katibi Prezident İlham Əliyevə gül dəstəsi təqdim etdi.

* * *

Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:

- Təbriklərə görə təşəkkür edirəm. Dünən mənim və ailəm üçün çox xoşbəxt bir gün oldu. Bizim qızımız iki gözəl oğlan uşağını dünyaya bəxş etdi. Bu təbriklərə görə sizə təşəkkür etmək istəyirəm. Bütün Azərbaycan və dünya uşaqlarına cansağlığı və xoşbəxtlik arzulayıram.

* * *

Sonra çıxış edən Avropa Şurası Nazirlər Komitəsinin İspaniyadan olan rəhbəri Gilyermo Koral Van Damm bildirdi ki, Bakıda keçirilən konfrans mədəniyyətlərarası dialoqla bağlı ideyaların irəli sürülməsi və müzakirəsi baxımından mühüm mərhələ olacaqdır.

Avropa Şurası Yerli və regional hakimiyyətlər konqresinin nümayəndəsi Farid Muxametşin Azərbaycanın Avropa strukturlarında fəal rolunu vurğuladı. O, mədəniyyətlərarası dialoqda fəallığın artırılmasının əhəmiyyətindən danışdı.

Avropa Şurası Parlament Assambleyasının nümayəndəsi, Milli Məclisin deputatı Rafael Hüseynov çıxışında dedi ki, gələn il Avropa Şurasının 60 illiyidir. Azərbaycan isə bu təşkilatda 8 ildir təmsil olunur. "Mədəniyyətlərin ali məqsədi insanları və xalqları bir-birinə daha da yaxınlaşdırmaq üçün körpüdür" - deyən Rafael Hüseynov vurğuladı ki, dünyanın gələcək inkişafı məhz bu cür dialoq üzərində qurulmalıdır.

ALEKSO-nun baş direktoru Mongi Busnina rəhbərlik etdiyi təşkilatda 22 dövlətin təmsil olunduğunu dedi. O bildirdi ki, ALEKSO da mədəniyyətlərarası dialoqda mühüm nəticələr əldə etmişdir.

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri isə diqqəti Şərqlə Qərb arasında mədəni dialoqun əldə olunmasına cəlb etdi. Bildirdi ki, indi dünyanın vacib mövzularından olan bu məsələyə İSESKO da öz töhfələrini verir.

Əbdüləziz bin Osman əl-Tüveycri mədəniyyətlərarası dialoqda xidmətlərinə görə Avropa Şurasının baş katibi Terri Devisin İSESKO-nun qızıl medalına layiq görüldüyünü bildirdi və medalı ona təqdim etdi.

YUNESKO-nun Mədəniyyət siyasəti və beynəlxalq dialoq bölməsinin direktoru xanım Katerina Stenou da Azərbaycanın zəngin mədəniyyətə malik olduğunu bildirdi. O vurğuladı ki, Avropa Şurasının üzvü olan ölkələrin mədəni dəyərləri dialoqun əldə olunmasında mühüm vasitədir.

Çıxış edənlər belə bir ümumi fikir söylədilər ki, Avropa və qonşu regionların mədəni inteqrasiyasına əsaslanan "Bakı prosesi" ölkələrarası dialoqun praktik inkişafı, yeni, real və səmərəli fəaliyyət mexanizminin müəyyənləşdirilməsi, müxtəlif sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun təşviqinə yönələn tədbirlərin həyata keçirilməsi sahəsində müstəsna imkanlara malikdir.

Xüsusi vurğulandı ki, konfransın mövzusu, iştirakçıların tərkibi, əhatə etdiyi regionların miqyasına görə Avropa və İslam ölkələrinin tarixində mədəniyyətlərarası dialoq mövzusunda ilk beynəlxalq tədbirdir. Bu tədbirin uğurlu nəticələrindən asılı olaraq yaranacaq yeni format gələcəkdə beynəlxalq əhəmiyyətli tədbirlər üçün də nümunə ola bilər.

Daha sonra Azərbaycan Uşaq Xoru konfrans iştirakçıları qarşısında çıxış etdi.

***

Sonra konfransda nazirlərin "Mədəniyyətlərarası uyğunluqlar haqqında" mövzusunda "dəyirmi masa"sı keçirildi.

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Avropa Şurasının beynəlxalq mədəniyyətlərarası əlaqələndiricisi xanım Qabriella Batteni-Draqoni, BMT-nin sivilizasiyaların ittifaqı ofisinin direktoru Mark Şuer və başqaları mövzu ilə bağlı fikirlərini açıqladılar.

Onlar beynəlxalq mədəni əməkdaşlığın ən müxtəlif aspektlərinə nəzər salaraq vurğuladılar ki, Avropada və onun qonşu regionlarında davamlı inkişafın və sülhün təmin edilməsində mədəniyyətlərarası münasibətlərin imkanlarının araşdırılması zərurdir.

***

Fasilədən sonra konfransın davamı olaraq, nazirlərin işçi qrupunun "Mədəniyyət siyasəti (proqramlar və təşəbbüslər) və mədəniyyətlərarası dialoq: müxtəlif mədəniyyətlərin idarəedilməsinə dair yeni konsepsiya" mövzusunda birinci, "İrs və mədəniyyətlərarası dialoq - hamımız birgə milli irsdən dünyəvi irsə doğru" mövzusunda ikinci iclasları oldu.

Çıxış edənlər Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu bildirərək söylədilər ki, bu tədbir Avropa mədəni proseslərində yeni bir istiqamətin - "Bakı prosesi"nin əsasını qoyacaqdır. Son on il ərzində mədəniyyətlərarası dialoq mədəniyyət məsələlərinə məsul olan nazirlərin, eləcə də hökumətlərin qarşısında prioritet məsələ kimi meydana çıxmışdır. İndi mədəni müxtəlifliyə qarşılıqlı hörmət və hüquqların qorunması elə bir prinsipə çevrilmişdir ki, mədəniyyətlərarası dialoqun qurulması üçün siyasətlər, proqramlar və yeni konsepsiyalar buna əsaslana bilər.

Millətlərin bütün dəyərlərini göstərən milli irs xalqlar və insanlar arasında mədəniyyətlərarası dialoqa, habelə regionların davamlı inkişafına rəvac verən bir vasitədir.

AZƏRBAYCANIN DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARININ KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ İKİNCİ MÜŞAVİRƏSİ BAŞA ÇATMIŞDIR

Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşlarının ikinci müşavirəsi dekabrın 3-də başa çatmışdır.

Noyabrın 29-dan öz işinə başlamış müşavirədə diplomatik nümayəndəlik və konsulluqların konsulluq sahəsində fəaliyyəti müzakirə olunmuş, qarşıya çıxan nöqsan və problemlər araşdırılmış və onların aradan qaldırılması, konsulluq məsələləri üzrə məsul əməkdaşların peşə hazırlığının artırılması, digər dövlət orqanlarının konsulluq işinə dair təklifləri nəzərdən keçirilmişdir.

Azərbaycanın 55 xarici ölkədəki səfirlik və baş konsulluqlarında çalışan konsul məsələləri üzrə məsul əməkdaşlarının, həmçinin XİN-in Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin əməkdaşlarının iştirak etdiyi müşavirədə təlim xarakterli məruzələr dinlənilmişdir. İşdə qarşıya çıxan çətinliklər və konsul məsələləri üzrə məsul əməkdaşları maraqlandıran müxtəlif məsələlərlə bağlı sualları 14 dövlət qurumunun yüksək vəzifəli nümayəndələri cavablandırmışdır.

Hazırlanmış proqrama uyğun olaraq hesabat, təhlil və konsulluq məsələləri üzrə məsul əməkdaşların bilik, təcrübə və peşə hazırlığının artırılması məqsədi ilə təlim xarakterli müşavirələr keçirilmişdir.

Müşavirənin sonunda diplomatik nümayəndəlik və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşlarına qanunvericilik topluları təqdim olunmuşdur.

AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR

Dekabrın 3-də Türkiyənin Qars şəhərində Azərbaycanın baş konsulluğunun yeni binasının açılış mərasimi olmuşdur.

Mərasimdən əvvəl Azərbaycandan gəlmiş nümayəndə heyəti və Qarsdakı baş konsulluğun əməkdaşları ulu öndər Heydər Əliyevin abidəsini və Qars Universitetindəki Heydər Əliyev Tədris Mərkəzini ziyarət etmişlər.

Açılış mərasimində Azərbaycan xarici işlər nazirinin müavini Vaqif Sadıqov, Milli Məclisin deputatları Nizami Xudiyev və Rüstəm Xəlilov, Qars valisi Mehmet Ufuk Erden, respublikamızın Qarsdakı baş konsulu Həsən Zeynalov, ölkəmizin kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, vilayətin ziyalıları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Çıxışlarda strateji önəm daşıyan Qarsın Azərbaycan-Türkiyə, habelə region ölkələri arasındakı əməkdaşlığa verəcəyi töhfədən bəhs olunmuşdur. Bildirilmişdir ki, cari ilin iyul ayında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin təməlini qoyduqları Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə hissəsi və Bakı ilə Qars arasında təyyarə uçuşlarının həyata keçirilməsi qardaş ölkənin bu vilayətinin əhəmiyyətini daha da artıracaqdır. Prezident İlham Əliyevin iyul ayının 24-də baş konsulluğun yeni binasında təmir işlərinin gedişi ilə tanış olması dövlətimizin başçısının bu bölgəyə xüsusi diqqət və qayğısının təzahürü kimi qiymətləndirilmişdir.

Sonra mərasim iştirakçıları Baş konsulluğun yeni binası ilə tanış olmuşlar. Azərbaycan nümayəndə heyəti İğdır vilayətində də olacaqdır.

TBİLİSİDƏ AZƏRBAYCAN-GÜRCÜSTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 4-də Tbilisidə iqtisadi məsələlər üzrə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyanın 5-ci iclası keçirilmişdir. İclasın işində Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin rəhbərliyi ilə geniş tərkibdə nümayəndə heyəti iştirak etmişdir.

Azərbaycanın Baş naziri Artur Rasizadə ilə Gürcüstanın Baş naziri Qriqol Mqalobilişvilinin təkbətək görüşündən sonra iclas geniş tərkibdə öz işini davam etdirmişdir. Baş nazir Qriqol Mqalobilişvili iclas iştirakçılarını salamlamış, Azərbaycan-Gürcüstan münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulamışdır. Baş nazir Artur Rasizadə Azərbaycan ilə Gürcüstanın əlaqələrinin çox yüksək qiymətləndirildiyini qeyd etmiş və əmin olduğunu bildirmişdir ki, indən sonra da hər iki tərəf münasibətlərin inkişafı istiqamətində əməli tədbirlər görəcəkdir.

Azərbaycan hökumətinin başçısı demişdir ki, əlaqələrimizin qədim tarixi vardır və çoxlarına nümunə ola bilər. Azərbaycan bir çox ölkələrlə iqtisadi əməkdaşlıq komissiyaları yaratmışdır və onlar səmərəli fəaliyyət göstərir. Həmin komissiyalara baş nazirin müavinləri, nazirlər rəhbərlik edirlər. Gürcüstan-Azərbaycan hökumətlərarası komissiyaya isə hər iki tərəfdən baş nazirlər rəhbərlik edirlər. Bu, təsadüfi deyildir. Biz fəaliyyətimizi elə qurmalıyıq ki, başqa komissiyalara nümunə olsun. Bildiyimə görə, Baş nazir kimi siz hələ Azərbaycanda olmamısınız. Mən sizi Bakıya səfərə dəvət edirəm. Münasib bildiyiniz vaxtda sizi Azərbaycanda görməkdən çox şad olardım.

Sonra komissiyanın iclası qapalı davam etdirildi.

İclas başa çatandan sonra baş nazirlər birgə mətbuat konfransı keçirdilər.

Gürcüstanın baş naziri Qriqol Mqalobilişvili dedi: "Mən bizim dost və qardaş ölkənin baş nazirini və rəhbərlik etdiyi nümayəndə heyətini salamlamaqdan məmnunam. Komissiya üzvlərinə səmərəli fəaliyyətə görə təşəkkür edirəm. Hökumətlərarası iqtisadi

komissiyanın 5-ci iclasının protokolu ölkələrimiz arasında münasibətlərin geniş sahələrini əhatə edir və onun gələcək inkişafına əsas yaradır".

Sonra Gürcüstanın Baş naziri Azərbaycan hökumətinin Baş naziri Artur Rasizadəyə türk dilində müraciət edərək sözü ona verdi.

Baş nazir Artur Rasizadə gürcüstanlı həmkarına yüksək qonaqpərvərliyə görə təşəkkür edib dedi: "Biz ikitərəfli münasibətlər barədə ətraflı müzakirələr apardıq. Bir daha qeyd etmək istərdim ki, Azərbaycan-Gürcüstan əlaqələri çox yüksək səviyyədədir və hazırlanmış sənəddə bu əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində çoxlu təkliflər və rəylər əksini tapıb. Əminəm ki, onların həyata keçirilməsi ölkələrimiz arasında əlaqələrin daha da yüksəlməsinə şərait yaradacaqdır".

Baş nazirlər Azərbaycanın və Gürcüstanın iştirakı ilə həyata keçirilən regional enerji və nəqliyyat layihələri barədə jurnalistlərin suallarını cavablandırdılar.

Sonra Azərbaycanın Baş naziri Artur Rasizadənin rəhbərlik etdiyi nümayəndə heyəti ulu öndər Heydər Əliyevin Tbilisi şəhərindəki büstü önünə əklillər qoydu.

ELMAR MƏMMƏDYAROV ATƏT-İN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASINDA ÇIXIŞ ETMİŞDİR

Biz çox rəmzi bir yerdə, təşkilatın fundamental sənədi olan Helsinki Yekun Aktının yarandığı yerdə görüşürük. Bu sənəd Avropa qitəsini parçalayan sərhədlərin aradan qaldırılması prosesinin başlanğıcı və bizim ölkələrdə demokratik quruculuq nailiyyətlərinin möhkəmləndirilməsində dönüş nöqtəsi olmuşdur.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən iclasındakı çıxışında demişdir.

Nazir vurğulamışdır ki, biz hamımız Helsinki Yekun Aktında ehtiva olunmuş prinsiplərin qorunmasına dair öhdəliklərimizə ciddi riayət etməyimizi təsdiqləməli və ATƏT-in Avropa Təhlükəsizlik sisteminə verdiyi dəyəri müəyyən etməliyik. Biz hamımız dərk etməyə başlayırıq ki, Avropa məkanındakı son hadisələrin kontekstində dövlətlərin ərazi bütövlüyü və suverenliyi, ilk növbədə təhlükəsizlik baxımından, ən vacib rol oynayır.

Azərbaycan inanır ki, ATƏT-in Avropa təhlükəsizlik sistemində nadir yeri vardır. Qabaqlama, münaqişələrin qarşısının alınması və tənzimlənməsi, böhranların nizamlanması və böhrandan sonrakı reabilitasiya ATƏT-in vacib vəzifələri olaraq qalmalıdır.

Azərbaycan xarici siyasət idarəsinin başçısı diqqətə çatdırmışdır ki, ATƏT-in indiyədək topladığı, danışıqlara konsensus yanaşmalar üzrə geniş təcrübəsinə əsaslanaraq, biz silahlara nəzarət rejimlərində mövcud problemləri aradan qaldırmalıyıq. ATƏT, özünün müxtəlif strukturları və yerlərdəki missiyaları vasitəsilə iştirakçı dövlətlərdə demokratik cəmiyyətin və ümumi inkişafın dəstəklənməsi sahəsində zəngin təcrübə əldə etmişdir. Ancaq hələ də bir sıra sahələrdə ATƏT-in potensialını gerçəkləşdirməyə ehtiyac vardır. Bununla belə, yaranan yeni tendensiya - ATƏT-in fəaliyyət dairəsini yalnız insan hüquqları məsələləri ilə və yalnız Avratlantik məkanının Şərq hissəsindəki məsələlərlə

məhdudlaşdırmaq bizi narahat edir. Azərbaycan daim ATƏT-in fəaliyyətinin hər üç ölçüsünə tarazlı yanaşmışdır.

Biz ATƏT-in icra strukturlarının diqqəti müvafiq iştirakçı dövlətlər tərəfindən müəyyənləşdirilmiş prioritetlərə yönəltməsinin, təşkilatın mandatından kənar vəziyyətlərdən, yaxud digər beynəlxalq təşkilatların atdığı addımları təkrarlayan fəaliyyətdən çəkinməyin vacibliyini vurğulayırıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regionda qeyri-sabitliyin əsas mənbəyi olaraq qaldığını söyləyən E.Məmmədyarov bildirmişdir ki, kövrək atəşkəs uzunmüddətli və davamlı sülh üçün əvəz ola bilməz.

Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin noyabrın 2-də keçirdikləri görüşdə imzalanmış Moskva Bəyannaməsini Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün yaxşı əsas yaradan vacib sənəd olduğunu vurğulayan nazir demişdir: "Prezidentlər beynəlxalq hüququn prinsip və normaları, onların bazasında qəbul edilmiş qərarlar və sənədlərin əsasında münaqişənin siyasi həlli yollarını axtarmağa davam edəcəklərini bəyan etmişlər. Bunlar Birləşmiş Millətlər Təşkilatı və ATƏT-in sənədləri və hər şeydən öncə BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və BMT və ATƏT tərəfindən qəbul edilən qətnamə və qərarları nəzərdə tutur. Bütün bu sənədlər təsdiq edir ki, Azərbaycanın ərazi bütövlüyü münaqişənin tənzimləməsi üçün əsasdır. Moskva Bəyannaməsi münaqişənin tənzimlənməsi prosesinə beynəlxalq təminatlarla mərhələli yanaşmanı təsdiq etmişdir. Bunu bütün tərəflər və vasitəçilər real, mümkün variant kimi qiymətləndirmişlər. Münaqişənin həlli bütün regionda iqtisadi inkişaf və əməkdaşlıq üçün əlverişli şərait yarada bilər. Bundan başqa, Bəyannamə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün lazımi şəraitin yaradılmasının vacibliyini xüsusi qeyd edir".

Azərbaycan etnik təmizləmələrin nəticələrinin aradan qaldırılmasının, Azərbaycanın Dağlıq Qarabağ regionunda erməni və azərbaycanlı icmaların sabit və təhlükəsiz yaşayışının təmin edilməsinin, icmalar arasında əməkdaşlığın bərpa edilməsinin və bunun əsasında regionun Azərbaycanın daxilində statusunun müəyyənləşdirilməsi prosesində insanların demokratik qaydada bərabər və birbaşa iştirakının faydalı olacağına inandığını deyən E.Məmmədyarov çıxışını bu sözlərlə bitirmişdir: "Mən ümid edirəm ki, Ermənistan bu yanaşmanın üstünlüklərini başa düşəcəkdir. Çünki bu, həm də onun öz maraqlarına uyğundur".

NATO-YA ÜZV DÖVLƏTLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏVİYYƏSİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞÜN NƏTİCƏSİ OLARAQ YEKUN RƏSMİ SƏNƏD QƏBUL OLUNMUŞDUR

Dekabrın 2-3-də NATO-ya üzv dövlətlərin xarici işlər nazirləri səviyyəsində görüş keçirilmişdir. Görüşdə yekun rəsmi sənəd qəbul olunmuşdur.

Sənədin 35-ci bəndində, NATO-ya üzv dövlətləri Cənubi Qafqaz və Moldovada münaqişələrin davam etməsi ilə bağlı narahatlıqlarını vurğulayaraq, Azərbaycanın, Ermənistanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstəklərinin davam edəcəyini bildirmiş, münaqişələrin bu prinsiplər üzərində həll

edilməsinin regionda hərtərəfli sabitliyin bərqərar olunması üçün yüksək əhəmiyyətini qeyd etmişlər.

NATO-ya üzv dövlətlər gələcəkdə də bu məqsədə yönəlmiş səyləri dəstəkləyərək, regional narahatlıq doğuran məsələlər üzrə bu ölkələrlə məşvərətlər keçirməyə hazır olduqlarını bildirmişlər. Həmçinin, NATO-nun üzv dövlətləri bu ölkələrin münaqişələrin qarşısının alınması və münaqişələrin sülh yolu ilə həlli mexanizmlərindən tam yararlanmaq səylərini dəstəkləyəcəklərini bildirmişlər.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MAHMUD MƏMMƏDQULİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİN CENEVRƏYƏ SƏFƏRİ UĞURLU OLMUŞDUR

Azərbaycanın Dünya Ticarət Təşkilatına (DTT) üzv olmasına hazırlıq üzrə komissiya sədrinin müavini, xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin başçılıq etdiyi nümayəndə heyəti Cenevrədə səfərdə olmuşdur. Nümayəndə heyətinin tərkibinə İqtisadi İnkişaf Nazirliyinin və digər aidiyyəti dövlət qurumlarının rəsmiləri daxil idi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, səfər çərçivəsində nümayəndə heyəti DTT və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) mütəxəssisləri və Azərbaycanın DTT-yə üzv olması ilə bağlı bu qurumun katibliyində yaradılmış işçi qrupunun indiyədək keçirdiyi iclasların nəticələrinə dair hazırlanmış Faktlar İcmalının layihəsini müzakirə etmişdir. Aparılmış məsləhətləşmələrdən sonra Faktlar İcmalının layihəsi əhəmiyyətli dərəcədə təkmilləşdirilmişdir.

Azərbaycanın əlverişli şərtlərlə DTT-yə üzvlüyünün təmin edilməsi məqsədi ilə mövqeyi bir daha DTT katibliyinin üzvolmalar departamentinin direktoru A.Hüseynin diqqətinə çatdırılmışdır.

Azərbaycanın bu beynəlxalq təşkilata üzvlüyü ilə əlaqədar zəruri müzakirələrin aparılması məqsədi ilə DTT-nin baş direktorunun müavinləri V.Ruqvabiza və H.Sinq, UNCTAD-ın Xidmətlərlə Ticarət Departamentinin direktoru M.Maşayexi, habelə Dünya Bankının DTT yanında daimi nümayəndəliyinin rəsmiləri ilə görüşlər keçirilmişdir.

Azərbaycan nümayəndə heyəti Braziliya, Yaponiya, Şri-Lanka və Ekvador nümayəndə heyətləri, eləcə də Belarus və İraqın DTT-yə üzvlüyü üzrə danışıqlar qrupunun üzvləri ilə görüşlər keçirmiş, fikir mübadiləsi aparmışdır.

GƏLƏN İL AZƏRBAYCANIN BİR SIRA ÖLKƏLƏRDƏ DİPLOMATİK KORPUS VƏ NÜMAYƏNDƏLİKLƏRİ AÇILACAQDIR

2009-cu ildə Azərbaycanın bir sıra xarici ölkələrdə diplomatik korpus və nümayəndəliklərinin açılması planlaşdırılır.

Xarici işlər nazirinin müavini Vaqif Sadıqov demişdir ki, bu ölkələrin arasında Argentina, Tailand, Xorvatiya kimi dövlətlər də vardır.

V. Sadıqov qeyd etmişdir ki, xarici ölkələrdə səfirlik və konsulluqların açılması dövlət başçısının diplomatik nümayəndəliklərin təsis edilməsi ilə bağlı qərarından sonra Nazirlər Kabineti və Xarici İşlər Nazirliyi tərəfindən həyata keçiriləcəkdir.

BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ 9-CU İCLASI KEÇİRİLMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqı (Aİ) -Azərbaycan Əməkdaşlıq Şurasının 9-cu iclasında iştirak etmək üçün dekabrın 8-9-da Brüsseldə səfərdə olmuşdur.

İclasın gündəliyinə Aİ-Azərbaycan Fəaliyyət Planının həyata keçirilməsi, Şərqi Tərəfdaşlıq təşəbbüsü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, enerji və nəqliyyat sahələri üzrə əməkdaşlıq məsələləri daxil edilmişdir.

Görüşdə Aİ-Azərbaycan münasibətlərinin Fəaliyyət Planında göstərildiyi kimi ölkələrin ərazi bütövlüyü və dövlət suverenliyinə hörmət əsasında aparılmasının vacibliyi xüsusilə vurğulanmış, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu yüksək qiymətləndirilmişdir.

Şərqi Tərəfdaşlıq təşəbbüsü alqışlanaraq, bu proqramın Aİ ilə onun şərq tərəfdaşları arasında gələcək münasibətlərin və yaxınlaşmanın daha da inkişaf etməsinə təkan verəcəyi bildirilmişdir.

Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi (TRASEKA) layihəsində iştirak edən dövlətlərin nəqliyyat nazirlərinin yubiley konfransının Bakıda uğurlu keçirilməsi il bağlı Azərbaycan tərəfinin səyləri yüksək qiymətləndirilmiş, bu istiqamətdə Şərq-Qərb nəqliyyat dəhlizinin inkişafında Azərbaycanın Avropanın aparıcı tərəfdaşı olduğu vurğulanmışdır.

Cənubi Qafqazdakı regional proseslər, bölgənin təhlükəsizliyi məsələləri, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi iclas çərçivəsində keçirilmiş ayrıca görüşdə müzakirə edilmişdir.

İclas çərçivəsində Bolqarıstan və Rumıniyanın Aİ-yə daxil olunması ilə əlaqədar Aİ-Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə Protokol imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının ölkəmizdəki səfirliyində olmuşdur.

Dövlətimizin başçısı Moskvanın və bütün Rusiyanın Patriarxı, Zati-müqəddəsləri II Aleksinin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov dekabrın 9-da NATO-nun mənzil-qərargahında alyansın baş katibi Yaap de Hoop Sxefferlə görüşmüşdür.

Görüşdə Fərdi Tərəfdaşlığın Fəaliyyət Planının yerinə yetirilməsi, Cənubi Qafqaz regionunda təhlükəsizlik, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

NATO-nun baş katibi Avratlantik məkanında təhlükəsizliyin təmin olunmasına Azərbaycanın verdiyi töhfəyə görə təşəkkür etmişdir. Görüşdə Azərbaycanın Fərdi Tərəfdaşlığın Fəaliyyət Planının yerinə yetirilməsi müsbət qiymətləndirilmişdir.

Tərəflər aparılan siyasi dialoqun səviyyəsindən razılığını bildirmişlər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV ÇEXİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Çexiya Xarici İşlər Nazirinin dəvəti ilə dekabrın 10-11-də Praqada rəsmi səfərdə olmuşdur.

Səfərin ilk günü E.Məmmədyarov Çexiya Senatının sədri Prşemısl Sobotka ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Çexiya münasibətlərinin strateji əhəmiyyəti vurğulanmış, əlaqələrin daha da dərinləşməsinin zəruriliyi qeyd edilmişdir. P.Sobotka ölkələrimiz arasında siyasi, iqtisadi, enerji sahələrində, eləcə də parlamentlərarası münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndirmiş, Çexiyanın 2009-cu ilin birinci yarısında Avropa İttifaqına (Aİ) sədrliyi dövründə Azərbaycan ilə Aİ arasında əlaqələrinin inkişafına töhfə verəcəyini bildirmişdir.

Nazir E.Məmmədyarov əməkdaşlığın səviyyəsindən razılığını ifadə etmiş, parlamentlərarası münasibətlər çərçivəsində deputatların qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulamış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, problemin yalnız Azərbaycanın ərazi bütövlüyü daxilində həllinin mümkünlüyünü diqqətə çatdırmışdır.

Xarici işlər naziri Karel Şvartsenberqlə görüşdə E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində həlli ilə bağlı rəsmi Praqanın mövqeyini yüksək qiymətləndirmişdir.

Nazir K.Şvartsenberq Azərbaycanı Çexiyanın strateji tərəfdaşı adlandırmış, siyasi əlaqələrlə yanaşı, iqtisadi əməkdaşlığın inkişafının, müqavilə-hüquq bazasının təkmilləşdirilməsinin, hökumətlərarası iqtisadi komissiyanın yaradılmasının vacibliyini vurğulamışdır. Gələn ilin ikinci yarısında Çexiyanın ölkəmizdə səfirliyini açmaq niyyətində olduğunu və bu addımın ikitərəfli münasibətlərinin daha da irəli aparılmasına töhfə verəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə beynəlxalq və regional əhəmiyyətli məsələlər, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq və s. məsələlər müzakirə olunmuşdur.

Sonra nazirlər birgə mətbuat konfransı keçirilmişlər.

E.Məmmədyarovun Çexiya parlamentinin deputatlar palatasının sədri Miloslav Vlçeklə görüşündə iqtisadi, ticarət, enerji əməkdaşlığının əhəmiyyəti vurğulanmış, hər iki ölkənin parlamentində yaradılmış dostluq qruplarının fəaliyyəti təqdirəlayiq hesab edilmiş, qruplararası təmasların və səfərlərin artırılmasının zəruriliyi qeyd olunmuşdur.

ELMAR MƏMMƏDYAROV NATO BAŞ KATİBİNİN MÜAVİNİ KLAUDİO BİZONYERO İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 16-da nazir Elmar Məmmədyarov NATO baş katibinin müavini Klaudio Bizonyero ilə görüşmüşdür.

Görüşdə Azərbaycan və NATO arasında münasibətlərin vəziyyətindən söhbət getmiş, ölkəmizin təşkilatla əməkdaşlığı çərçivəsində "Fərdi tərəfdaşlığa dair əməliyyat planı"nın (FTƏP) yerinə yetirilməsi prosesi nəzərdən keçirilmişdir. NATO baş katibinin müavini planın icrasının uğurla davam etdiyini bildirmişdir.

K.Bizonyero xüsusilə NATO-nun Əfqanıstandakı sülhməramlı əməliyyatında Azərbaycanın yaxından iştirakını, sülhməramlı kontingentinin sayını artırmasını yüksək qiymətləndirmişdir.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində aparılan sülh danışıqları haqqında məlumat vermiş, münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu bildirmişdir.

Görüşdə beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

ELMAR MƏMMƏDYAROV ƏFQANISTANIN XARİCİ İŞLƏR NAZİRİ RANQİN DADFAR SPANTA İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 16-da Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarov Əfqanıstanın xarici işlər naziri Ranqin Dadfar Spanta ilə görüşmüşdür.

İki dövlət arasında əlaqələrin sürətlə inkişafını alqışlayan nazirlər, yüksək səviyyəli səfərlərin və görüşlərin baş tutmasını müsbət qiymətləndirmişlər.

Əfqanıstan rəsmisi ölkəsi ilə Azərbaycan arasında tarixi və mədəni oxşar cəhətləri vurğulamış, Azərbaycanın Əfqanıstana onun bugünkü çətin vəziyyətində göstərdiyi yardıma görə təşəkkür etmiş, ölkəmizdə əldə olunan nailiyyətlərdən fərəh duyduğunu bildirmişdir.

R.D.Spanta, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin Azərbaycanın mövqeyini dəstəklədiyini bir daha diqqətə çatdırmışdır.

Nazirlər iqtisadi sahədə də əməkdaşlığı dərinləşdirməyi, müqavilə-hüquq bazasını təkmilləşdirməyi, müxtəlif sahələrdə əməkdaşlıq qurmağı zəruri saymışlar.

Qonaq Azərbaycanın diplomatik xidmət, elm və təhsil, tibb, kənd təsərrüfatı və digər sahələrdə təcrübəsinin öyrənilməsində maraqlı olduğunu da diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ƏLAQƏLƏR UĞURLA İNKİŞAF EDİR

Dekabrın 17-də Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarov Misir Xarici İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərən MDB ölkələri ilə Texniki Əməkdaşlıq üzrə Fondun baş katibi xanım Safiya İbrahim Aminlə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluq ifadə edilmiş, əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi qeyd olunmuşdur.

S.İ.Amin rəhbərlik etdiyi Fondun ölkəmizlə əməkdaşlığı çərçivəsində Azərbaycanın xarici siyasət idarəsinin vasitəsi ilə bir çox sahələrdə müxtəlif təlimlərin keçirildiyini, habelə Azərbaycan XİN-in Diplomatik Akademiyası ilə səmərəli iş birliyinin mövcudluğunu xüsusi vurğulayaraq, bu tədbirlərin Misirlə Azərbaycan arasında geniş səpkidə uğurla inkişaf edən əlaqələrə töhfə verdiyini demişdir.

E.Məmmədyarov Misir Texniki Əməkdaşlıq Fondu tərəfindən həyata keçirilən layihələrin əhəmiyyətini vurğulamışdır. Nazir Azərbaycanda dərin ənənəyə malik Şərq dillərinin tədrisi sisteminin olmasını qeyd edərək, bu Fond tərəfindən də XİN-in əməkdaşları üçün ərəb dilinin təkmilləşdirilməsi üzrə təlimlərin keçirilməsinin məqsədəmüvafiqliyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Görüşdə Azərbaycanla Gürcüstan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi bildirildi, ikitərəfli münasibətlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI HASAN İĞSIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı Hasan İğsızın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Türkiyənin Baş Qərargah rəisinin bir müddət əvvəl Azərbaycana səfərini xatırladan Prezident İlham Əliyev ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın əhəmiyyətini və bunun bölgədə sülhün təmin olunmasındakı rolunu vurğuladı. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı Hasan İğsızın başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfərinin də əməkdaşlıq imkanlarını müzakirə etmək və faydalı danışıqlar aparmaq baxımından əhəmiyyətli olacağına ümidvar olduğunu bildirdi.

Dost və qardaş ölkə olan Azərbaycana səfərindən məmnunluğunu söyləyən ordu generalı Hasan İğsız ölkələrimiz arasında bütün digər sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrin böyük əhəmiyyət kəsb etdiyini və səfərin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Sankt-Peterburqda və xüsusən də noyabrın 2-də Moskvada keçirdikləri iki görüşdən sonra yaranmış konstruktiv və müsbət təkanı alqışlayırıq.

Ermənistan, Azərbaycan və Rusiya prezidentlərinin imzaladıqları Moskva Bəyannaməsi münaqişənin nizamlanmasında ümidverici mərhələ açmışdır. Biz tərəflərin, Moskva Bəyannaməsinin müddəalarına uyğun olaraq və ATƏT-in Minsk qrupu həmsədrləri ilə əlaqədə, danışıqlar prosesindəki səyləri intensivləşdirmək, habelə 2007-ci il noyabrın 29-da Madriddə təklif olunmuş Əsas prinsipləri daha dəqiqliklə işləmək və sonradan ümumi Sülh sazişini hazırlamağa başlamaq niyyətlərini təşviq edirik. Biz onların etimadyaratma tədbirlərini genişləndirmək və atəşkəsi möhkəmləndirmək niyyətlərini də yüksək qiymətləndiririk".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Rusiyanın müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev iki ölkənin hərbi və hərbi-texniki sahədə, müdafiə nazirlikləri arasında əməkdaşlığının genişləndiyini qeyd edərək, bu səfərin Azərbaycan-Rusiya hərbi və hərbi-texniki əməkdaşlığının yeni imkanları və perspektivlərinin nəzərdən keçirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.

Anatoli Serdyukov Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və hökumətin sədri Vladimir Putinin salamlarını və qarşıdan gələn Yeni il münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirən Serdyukov iki ölkə prezidentlərinin görüşlərinin münasibətlərin möhkəmlənməsinə təkan verdiyini xüsusi vurğuladı. O, səfəri zamanı iki ölkə arasında hərbi və hərbi-texniki əməkdaşlığın builki yekunlarının və perspektivlərinin nəzərdən keçiriləcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycan və Rusiyanın dövlət başçıları arasında keçirilən görüşlərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi baxımından mühüm rol oynadığını vurğuladı. Dövlətimizin başçısı Rusiya Prezidenti Dmitri Medvedevin və hökumətin sədri Vladimir Putinin salamlarına və qarşıdan gələn Yeni il münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, özünün də salamlarını və təbriklərini Rusiya Federasiyasının Prezidentinə və hökumətinin sədrinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Sergey Narışkin Rusiya Prezidenti Dmitri Medvedevin salamlarını və qarşıdan gələn Yeni il bayramı münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Əlaqələrin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyi bildirildi.

Dövlətimizin başçısı Rusiya Prezidentinin Yeni il təbriklərinə görə təşəkkürünü bildirdi, özünün də salamlarını və bayram təbriklərini ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA YÖNƏLMİŞ XARİCİ SİYASƏT XƏTTİ ÖTƏN İL DƏ UĞURLA DAVAM ETDİRİLMİŞDİR

2009-cu ilin yanvarın 13-də Xarici İşlər Nazirliyinin mətbuat xidməti 2008-ci ildə nazirliyin fəaliyyətinin yekunlarına dair məlumat yaymışdır. Məlumatda deyilir:

2008-ci ildə Azərbaycanda ölkənin sabit inkişafı və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş xarici siyasət xətti davam etdirilmişdir. İqtisadi potensialın artımı və sosial-siyasi sabitlik ölkənin istər dünyada, istərsə də regionda mövqelərinin möhkəmlənməsinə, digər dövlətlərlə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafına və dərinləşməsinə, cləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələrinə müsbət təsir göstərmişdir.

2008-ci il iyulun 7-də Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlik və konsulluqları rəhbərlərinin üçüncü müşavirəsində çıxışı zamanı Prezident İlham Əliyev diplomatik xidmət sahəsində aparılan işlərə yüksək qiymət vermiş, xarici siyasət idarəsinin ölkənin gələcək inkişafı üçün münbit xarici siyasət mühitinin formalaşdırılması maraqlarından irəli gələn məqsəd və vəzifələrini müəyyən etmişdir.

Keçən il Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan və Azərbaycan arasında silahlı münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl fəaliyyətini davam etdirmişdir. Cənubi Osetiyada (Gürcüstan) baş vermiş silahlı münaqişə Cənubi Qafqazda vəziyyətin həssaslığını və "nə müharibə, nə də sülh" vəziyyətinin təhlükə mənbəyi olmasını açıq şəkildə nümayiş etdirdi. Avqust hadisələri beynəlxalq hüququn əsas norma və prinsiplərinə etinasızlığın acı nəticələrini göstərdi və regionda münaqişələrin həlli istiqamətində göstərilən beynəlxalq səylərə yeni təkan verdi. Məhz bu hadisələrin fonunda ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesi daha da intensivləşdi.

Rusiya Federasiyasının təşəbbüsü ilə 2008-ci il noyabr 2-də Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının üçtərəfli görüşü təşkil edildi. Görüşdə prezidentlər Moskva Bəyannaməsi imzaladılar. Sənəddə Cənubi Qafqazda vəziyyətin sağlamlaşdırılması, regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin bu çərçivədə qəbul edilmiş qərar və sənədlər əsasında siyasi yolla həllinə şərait yaratmaq səyləri öz əksini tapmışdır. Münaqişə tərəfləri və rusiyalı vasitəçi münaqişənin nizamlanmasının ölkələr arasında iqtisadi əməkdaşlıq üçün zəmin yaradacağı ilə razı olduqlarını ifadə etdilər.

Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması və onların nəticələrinin aradan qaldırılması üzrə beynəlxalq birliyin mövqeyinin möhkəmləndirilməsi istiqamətində iş-

lər davam etdirilmişdir. Martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüş, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul edilmişdir. Həmin sənədin Azərbaycan Respublikası tərkibində olmaqla Dağlıq Qarabağda səmərəli fəaliyyət göstərə biləcək demokratik özünüidarəetmə sisteminin yaradılması məqsədilə bölgənin azərbaycanlı və erməni icmalarının təhlükəsiz və bərabər həyat şəraitinin təmin edilməsinin zəruriliyini qeyd edən bəndini xüsusilə vurğulamaq lazımdır. Bu, regionun gələcək statusu və onun bütün əhalisinin təhlükəsizliyi ilə bağlı zəmanətə dair ATƏT-in Lissabon prinsiplərinin şərtlərinə uyğundur.

NATO-nun aprelin 2-4-də Buxarest Zirvə toplantısı və Şimali Atlantika Şurası xarici işlər nazirlərinin dekabrın 2-3-də Brüssel toplantısı da açıq olaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə etmiş, münaqişənin sözügedən prinsiplər əsasında həllinin zəruriliyini qeyd etmişdir.

Dekabrın 4-5-də Helsinkidə ATƏT-in üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclası çərçivəsində üç prezidentin Moskvada keçirilmiş noyabr görüşünün konstruktiv nəticələrini qeyd edən və Moskva Bəyannaməsinin şərtlərinə uyğun olaraq, münaqişə tərəflərini danışıqları intensivləşdirməyə çağıran bəyannamə qəbul edilmişdir. ATƏT-in üzvü olan dövlətlərin böyük əksəriyyətinin nümayəndələri iclasda çıxışları zamanı ərazi bütövlüyü prinsipinə riayət edilməsinin zəruriliyini vurğulamışdır.

Aprelin 15-16-da Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə dəvət olunmuş ölkələrin yüksək səviyyəli rəsmi nümayəndələri və beynəlxalq hüquq sahəsində nüfuzlu ekspertlərin iştirakı ilə "GUAM dövlətləri ərazisində münaqişələrin həllinin prinsipial əsasları" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda aparılmış müzakirələr dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsiplərinin qarşılıqlı əlaqələri, qanunsuz güc tətbiq etmə və ərazi işğalının nəticələri, eləcə də beynəlxalq hüquqazidd əməllərə görə məsuliyyət və beynəlxalq məhkəmə institutlarının imkanlarından istifadənin perspektivləri daxil olmaqla, beynəlxalq hüquqla bağlı bir sıra məsələlərə dair iştirakçıların fikir eyniliyinin mövcudluğunu göstərmişdir.

Avropa və Avratlantik strukturlara inteqrasiya yolu ilə gedərək, Azərbaycan Avropa İttifaqı və Şimali Atlantika Alyansı ilə əməkdaşlığı inkişaf və davam etdirmişdir.

Avropa İttifaqı ilə inteqrasiya əlaqələri Avropa Qonşuluq Siyasəti kontekstində Fəaliyyət Planının həyata keçirilməsi, "Twinning" və "TAIEX" kimi proqramlarda iştirak çərçivəsində inkişaf etdirilmişdir. Avropa İttifaqı ilə tərəfdaşlıq və yaxınlaşmanın möhkəmlənməsi prosesi Şərqi Tərəfdaşlıq təşəbbüsünün irəli sürülməsi ilə əlavə təkan almış oldu. Həmin təşəbbüs azad ticarət, eləcə də qarşılıqlı şəkildə viza rejiminin sadələşdirilməsi haqqında müqavilə daxil olmaqla, yeni assosiativ müqavilələr imzalamaq yolu ilə ticarət-iqtisadi, siyasi və humanitar əlaqələrin dərinləşdirilməsi üçün zəmin yaradır.

NATO ilə regional və enerji təhlükəsizliyi, terrorçuluqla mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlıq inkişaf etmişdir. Martda Fərdi Tərəfdaşlığın Əməliyyat Planının (FTƏP) həyata keçirilməsinin növbəti fazasını açan və NATO ilə siyasi dialoqun dərinləşdirilməsini, müdafiə və təhlükəsizlik sahələrində islahatların həyata keçirilməsini, elm və ictimai diplomatiya sahəsində əməkdaşlığı nəzərdə tutan FTƏP üzrə ikinci sənəd qəbul edilmişdir.

Əsas diqqət Azərbaycanın xarici siyasətinin iqtisadi komponentləri, rəqabət qabiliyyətinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi, qlobal və regional iqtisadi inteqrasiya proseslərində Azərbaycanın təsiri və rolu, dövlətin və onun vətəndaşlarının iqtisadi maraqlarının ölkə xaricində qorunması, Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsi, onun iştirak etdiyi transmilli enerji və nəqliyyat layihələrinin inkişaf etdirilməsi və regional infrastruktur münasibətlərində Azərbaycanın aparıcı mövqeyinin möhkəmləndirilməsinə ayrılmışdır.

GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat çərçivəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi istiqamətində xüsusi səylər göstərilmişdir. Həmin təşkilata sədrlik dövründə Azərbaycan bir sıra mühüm tədbirlər, o cümlədən "GUAM-Tranzit" və "GUAM-ın inkişaf strategiyası" mövzusularında beynəlxalq konfranslar keçirmiş, transregional və Avrasiya miqyasında GUAM-ın nəqliyyat dəhlizinin tərəqqisi strategiyasını fəal və məqsədyönlü şəkildə inkişaf etdirmişdir.

Noyabrın 14-də enerji sahəsində genişlənmiş dialoq çərçivəsində Bakıda enerji məsələlərinə həsr olunmuş zirvə toplantısı keçirilmişdir. Zirvə toplantısının nəticəsi olaraq, yüksək səviyyədə, Xəzər hövzəsindən dünya və Avropa bazarlarına gedən neft və qaz kəmərlərinin çoxşaxəliliyinə yönəlmiş siyasətin davam etdirilməsinin əhəmiyyətinin vurğulandığı Bəyannamə qəbul edilmişdir. Bəyannamədə Zirvə toplantısı iştirakçıları Azərbaycan təbii qazının iştirakçı dövlətlərin tələblərinin tam ödənilməsi üçün region və Avropa bazarlarına daşınması və tranzitinin çoxşaxəli infrastrukturunun yaradılması üzrə layihələrin həyata keçirilməsinə dəstəklərini ifadə etmişlər.

Sentyabrın 8-9-da Bakıda təşkil olunmuş "Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: enerji, iqtisadi və ekoloji əməkdaşlıq strategiyası" mövzusunda konfransda və noyabrın 29-da Türkmənistanda Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin üçtərəfli görüşündə enerji sahəsində əməkdaşlığın inkişafı məsələləri müzakirə edilmişdir.

Gürcüstan və Türkiyədə enerji sahəsinə sərmayə layihələri, xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən mayın 16-da Gürcüstanın Kulevi yaşayış məntəqəsində Qara dəniz neft terminalının açılışı və Ceyhanda neft emalı zavodunun tikintisi layihəsinin dərindən işlənilməsi regional enerji bazarında Azərbaycanın mövqeyini möhkəmləndirdi.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafında maraqlı olan ölkələrlə də işlər davam etdirilmişdir. İyulun 24-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisi layihəsinin həyata keçirilməsi çərçivəsində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə dəmir yolu xəttinin Türkiyə hissəsinin təməlqoyma mərasimi ke-

çirilmişdir. Azərbaycan, həmçinin Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi üzrə İşçi Qrupunun işində iştirak etmişdir.

Dekabrın 3-də Bakıda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizi (TRASEKA) layihəsinin iştirakçısı olan dövlətlərin nəqliyyat nazirlərinin tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın onuncu ildönümünə həsr edilmiş yubiley konfransı keçirilmişdir. Tədbirdə nəqliyyat dəhlizinin uzadılması, həmin layihəyə digər qonşu dövlətlərin qoşulması və layihənin iştirakçısı olan dövlətlər arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilmişdir.

İl ərzində Azərbaycan BMT və onun ixtisaslaşdırılmış qurumlarının işində fəal iştirak etmiş, Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi prosesinə öz töhfələrini vermiş, BMT-yə üzv dövlətlərin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində bu universal təşkilatın mərkəzi rolunun artırılmasına yönəlmiş səylərini dəstəkləmişdir.

Azərbaycan beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması ilə bağlı məsələlərə xüsusi diqqət ayıraraq, BMT-nin yardımçı orqanlarının fəaliyyətinə mühüm töhfələr vermişdir. Azərbaycanın təşəbbüsü ilə İnsan Hüquqları üzrə Şuranın və Qadınların Vəziyyəti ilə bağlı Komissiyanın sessiyalarında, müvafiq olaraq, "İtkin düşmüş şəxslər" və "Silahlı münaqişələr zamanı girov götürülmüş, o cümlədən sonralar həbsə alınmış qadın və uşaqların azad edilməsi" ilə bağlı qətnamələr qəbul edilmişdir.

Beynəlxalq təşkilatların seçkili strukturlarında Azərbaycanın yüksək səviyyədə təmsil olunmasının təmin edilməsi üzrə işlər diqqət mərkəzində olmuşdur. Belə ki, keçən il Azərbaycan İnsan Hüquqları Şurasının Məsləhətçi Komitəsinə, Dünya Poçt İttifaqının idarə heyətinə və Poçtdan İstifadə Şurasına üzv seçilmişdir.

Azərbaycan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QİƏT) da öz fəaliyyətini gücləndirmişdir. 2009-cu ildə Azərbaycanın QİƏT-ə sədrlik etməsinə hazırlıq işlərinə başlanmışdır.

Azərbaycanın mühüm rolu, uzun illər ərzində ölkənin qazandığı təcrübə və sənayenin istehsal sahələrində şəffaflıq məsələlərinə prinsipial münasibət Azərbaycanın BMT Baş Məclisinin 62-ci sessiyasında yekdilliklə qəbul edilmiş "Sənaydə şəffaflığın artırılması" adlı qətnamə layihəsini irəli sürməsinə əsas olmuşdur. Qətnamə istehsal sənayesində şəffaflığın təmin edilməsi təşəbbüsünə beynəlxalq hüquqi əsas verilməsi və həmin sahədə düzgünlüyün, şəffaflığın və hesabatın təmin edilməsi üçün hüquqi mexanizmin yaradılması istiqamətində mühüm addım olmuşdur.

Azərbaycan Xarici İşlər Nazirlərinin Asiyada qarşılıqlı əlaqələr və etimad tədbirləri üzrə Müşavirəsinin üçüncü görüşündə fəal iştirak etmiş, nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəliliyi üzrə inamın təmin edilməsində əlaqələndirici mövqeyini möhkəmləndirmişdir.

Azərbaycan İslam aləminin tərkib hissəsi olaraq, İslam Konfransı Təşkilatı (İKT) ilə sıx əməkdaşlığı inkişaf etdirməkdə davam etmiş, bu təşkilatın regional və qlobal məsələlərin həllində siyasi çəkisinin və nüfuzunun artırılmasına yardım etmişdir. Müxtəlif mədəniyyət və sivilizasiyaların qovuşuğunda nadir coğrafi mövqeyi, dözümlülük və icmalararası sülh ənənələri, mədəni və etnik rəngarənglik Azərbaycanın sivilizasiyalar arasında körpü rolu oynamasının etiraf edilməsinə imkan yaratmışdır. İKT-yə üzv dövlətlərin Mədəniyyət nazirlərinin Tripolidə keçirilmiş beşinci konfransının nəticələrinə görə, Bakı 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

Keçən il sivilizasiyalararası dialoq sahəsində Azərbaycanın müəllifi olduğu təşəbbüslər sırasında iyunun 10-11-də Bakıda "Mədəniyyətlərarası dialoqda qadınlarının rolunun genişləndirilməsi" mövzusunda keçirilmiş forumu göstərmək lazımdır. Bu sahədə digər mühüm tədbir Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin dekabrın 2-3-də "Mədəniyyətlərarası dialoq Avropa və ona qonşu regionlarda sabit inkişaf və sülhün əsasıdır" mövzusunda Bakıda keçirilmiş konfransı olmuşdur. Konfransın gedişində Bakı Bəyannaməsi qəbul edilmiş, iştirakçı dövlətlər, eləcə də tərəfdaş dövlətlərin mədəniyyətlərarası dialoq sahəsində mədəni əməkdaşlığını və fəaliyyətlərinin əlaqələndirilməsinin inkişaf etdirilməsini nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuşdur.

Ölkədə demokratikləşmə prosesləri, xüsusilə vətəndaş cəmiyyəti institutlarının gələcək inkişafı, vətəndaşların hüquq və əsas azadlıqlarının müdafiəsinin təmin edilməsi, dövlət idarəçiliyi sahəsində səmərəliliyin artırılması və digər məsələlər Azərbaycanın Avropa Şurası, onun Parlament Assambleyası, ATƏT/DTİHB, eləcə də aparıcı qeyri-hökumət hüquq müdafiə təşkilatları ilə əməkdaşlığı da diqqət mərkəzində olmuşdur. Oktyabrın 15-də keçirilmiş prezident seçkiləri bir çox yerli və beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilmiş və hökumətin demokratiya, qanunun aliliyi və insan hüquqlarına hörmət, hüquqi demokratik dövlətin əsaslarının möhkəmləndirilməsi kursunun davamlılığını əyani şəkildə nümayiş etdirmişdir.

İkitərəfli diplomatiyanın da inkişaf etdirilməsi davam etmişdir. Prezident İlham Əliyevin Finlandiya, Rusiya, Macarıstan, Polşa, İtaliya, İsveçrə, Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna və Türkmənistana səfərləri Azərbaycanın ikitərəfli tərəfdaşlıq əlaqələrinin genişlənməsinə və beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə imkan yaratmışdır.

Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliyi genişlənmiş, Suriyada səfirlik, eləcə də Əfqanıstanda ofis açılmışdır. Həmçinin ötən il Tacikistan, Türkmənistan, Macarıstan və Avropa Komissiyası Azərbaycanda öz nümayəndəliklərini təsis etmişlər.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin digər nazirlik və təsisatlarla, icra hakimiyyəti orqanları, elmi mərkəzlər, kütləvi informasiya vasitələri, milli qeyri-hökumət təşkilatları və xaricdə yaşayan həmvətənlərimizin birlikləri ilə qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi xarici siyasət idarəsinin qarşısında duran vəzifələrin daha uğurlu, səmərəli və sistemli həllinə şərait yaratmışdır. Azərbaycanın bir sıra dövlət hakimiyyəti strukturlarının və vətəndaş cəmiyyətinin ölkənin xarici siyasət maraqlarının inkişafına verdiyi töhfələri və 2008-ci ildə dövlətimizin beynəlxalq nüfuzunun artmasını xüsusilə vurğulamaq lazımdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI

23-30.01.2008. İsveçrəyə işgüzar səfər
Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün.

18-19.02.2008. Macarıstana dövlət səfəri

20-24.02.2008. Rusiya Federasiyasına işgüzar səfər
MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün

26-27.02.2008. Polşa Respublikasına rəsmi səfər

02-04.04.2008. Rumıniyaya işgüzar səfər
NATO-nun sammitində iştirak etmək üçün

21-23.05.2008. Ukraynaya rəsmi səfər

29-30.05.2008. Finlandiyaya rəsmi səfər

05-07.06.2008. Rusiya Federasiyasına işgüzar səfər
MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün

01.07.2008. Gürcüstana işgüzar səfər
GUAM dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün

05-06.07.2008. Qazaxıstana işgüzar səfər
Astananın 10 illiyi ilə bağlı təntənəli tədbirlərdə iştirak etmək üçün

24.07.2008. Türkiyəyə işgüzar səfər
Bakı-Tbilisi-Qars dəmir yolunun Türkiyə ərazisindəki hissəsinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün

07-14.08.2008. Çinə işgüzar səfər
Pekində keçirilən XXIX Yay Olimpiya oyunlarının açılış mərasimində iştirak etmək üçün

15-16.09.2008. Rusiyaya işgüzar səfər

01-02.11.2008. Rusiyaya işgüzar səfər

05-06.11.2008. Türkiyəyə rəsmi səfər
Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün dəvəti ilə

25-26.11.2008. İtaliyaya rəsmi səfər

28-29.11.2008. Türkmənistana rəsmi səfər

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

Yanvar 2008

23 yanvar 2008

Prezident İlham Əliyev Davosda Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harris ilə görüşmüşdür

23 yanvar 2008

Prezident İlham Əliyev Davosda Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür

24 yanvar 2008

Prezident İlham Əliyev Davosda İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpen ilə görüşmüşdür

24 yanvar 2008

Prezident İlham Əliyev Davosda Ukrayna Prezidenti Viktor Yuşşenko ilə görüşmüşdür

24 yanvar 2008

Prezident İlham Əliyev Davosda Albaniya Nazirlər Şurasının sədri Sali Berişa ilə görüşmüşdür

25 yanvar 2008

Prezident İlham Əliyev Davosda Böyük Britaniyanın York Hersoqu Şahzadə Endryu ilə görüşmüşdür

Fevral 2008

18 fevral 2008

Budapeştdə Prezident İlham Əliyevin və Macarıstan Prezidenti Laslo Şoyomun geniş tərkibdə görüşü olmuşdur

19 fevral 2008

Prezident İlham Əliyev Macarıstanın Baş naziri Ferents Dyurçan ilə görüşmüşdür

19 fevral 2008

Prezident İlham Əliyev Macarıstan Respublikası Parlamentinin sədri xanım Katalin Sili ilə görüşmüşdür

21 fevral 2008

Moskvada Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin görüşü olmuşdur

26 fevral 2008

Varşavada Prezident İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin təkbətək görüşü olmuşdur

26 fevral 2008

Varşavada Prezident İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin geniş tərkibdə görüşü keçirilmişdir

26 fevral 2008

Prezident İlham Əliyev Varşavada Polşa Senatının marşalı Boqdan Boruseviç ilə görüşmüşdür

26 fevral 2008

Prezident İlham Əliyev Varşavada Polşanın Baş naziri Donald Tusk ilə görüşmüşdür

Mart 2008

10 mart 2008

Prezident İlham Əliyev ilə Bolqarıstan Prezidenti Georgi Pırvanov arasında təkbətək görüş keçirilmişdir

10 mart 2008

Prezident İlham Əliyev ilə Bolqarıstan Prezidenti Georgi Pırvanov arasında geniş tərkibdə görüş keçirilmişdir

Aprel 2008

02 aprel 2008

Prezident İlham Əliyev Buxarestdə Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür

03 aprel 2008

Prezident İlham Əliyev Buxarestdə Latviya Prezidenti Valdis Zatlerslə görüşmüşdür

04 aprel 2008

Prezident İlham Əliyev NATO-nun sammiti çərçivəsində bir sira ölkələrin dövlət başçıları ilə görüşmüşdür

23 aprel 2008

Prezident İlham Əliyev ilə Moldova Prezidenti Vladimir Voronin arasında təkbətək görüş keçirilmişdir

23 aprel 2008

Prezident İlham Əliyev ilə Moldova Prezidenti Vladimir Voronin arasında geniş tərkibdə görüş keçirilmişdir

May 2008

05 may 2008

Prezident İlham Əliyev və İordaniya Kralı II Abdullahın görüşü olmuşdur

05 may 2008

Prezident İlham Əliyev ilə İordaniya Kralı II Abdullah arasında geniş tərkibdə görüş keçirilmişdir

12 may 2008

Prezident İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin təkbətək görüşü olmuşdur

12 may 2008

Prezident İlham Əliyev ilə İsveçrə Prezidenti Paskal Kuşpenin arasında geniş tərkibdə görüş keçirilmişdir

19 may 2008

Prezident İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olmuşdur

19 may 2008

Prezident İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun arasında geniş tərkibdə görüş keçirilmişdir

22 may 2008

Kiyevdə Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur

22 may 2008

Kiyevdə Prezident İlham Əliyev ilə Ukrayna Prezidenti Viktor Yuşşenko arasında geniş tərkibdə görüş keçirilmişdir

22 may 2008

Prezident İlham Əliyev Kiyevdə Ukraynanın Baş naziri xanım Yuliya Timoşenko ilə görüşmüşdür

22 may 2008

Prezident İlham Əliyev Kiyevdə Ukrayna Ali Radasının sədri Arseni Yatsenyuk ilə görüşmüşdür

29 may 2008

Helsinkidə Prezident İlham Əliyevin və Finlandiya Prezidenti xanım Tarya Halonenin təkbətək görüşü olmuşdur

29 may 2008

Helsinkidə Prezident İlham Əliyev ilə Finlandiya Prezidenti xanım Tarya Halonen arasında geniş tərkibdə görüş keçirilmişdir

29 may 2008

Prezident İlham Əliyev Helsinkidə Finlandiya Parlamentinin sədri Sauli Niinistö ilə görüşmüşdür

29 may 2008

Prezident İlham Əliyev Helsinkidə Paaskivi Cəmiyyətinin üzvləri ilə görüşmüşdür

30 may 2008

Prezident İlham Əliyev Helsinkidə Finlandiyanın Baş naziri Matti Vanhanen ilə görüşmüşdür

İyun 2008

04 iyun 2008

Naxçıvanda Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur

04 iyun 2008

Naxçıvanda Prezident İlham Əliyev ilə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan arasında geniş tərkibdə görüş keçirilmişdir

06 iyun 2008

Sankt-Peterburqda Prezident İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur

06 iyun 2008

Sankt-Peterburqda Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin görüşü olmuşdur

30 iyun 2008

Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur

30 iyun 2008

Prezident İlham Əliyev ilə Ukrayna Prezidenti Viktor Yuşşenko arasında geniş tərkibdə görüş keçirilmişdir

İyul 2008

01 iyul 2008

Batumidə Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur

01 iyul 2008

Batumidə Prezident İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur

01 iyul 2008

Batumidə Prezident İlham Əliyev ABŞ dövlət katibinin müşaviri Devid Merkel ilə görüşmüşdür

03 iyul 2008

Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur

03 iyul 2008

Prezident İlham Əliyev ilə Rusiya Prezidenti Dmitri Medvedevin arasında geniş tərkibdə görüş keçirilmişdir

05 iyul 2008

Astanada Prezident İlham Əliyevin və İordaniya Kralı II Abdullahın görüşü olmuşdur

06 iyul 2008

Astanada Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gül ilə görüşmüşdür

24 iyul 2008

Qarsda Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur

Avqust 2008

20 avqust 2008

Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur

20 avqust 2008

Prezident İlham Əliyev ilə Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın arasında geniş tərkibdə görüş keçirilmişdir

21 avqust 2008

Prezident İlham Əliyev ilə Rumıniya Prezidenti Trayan Beseskunun arasında geniş tərkibdə görüş keçirilmişdir

29 avqust 2008

Prezident İlham Əliyev XXIX Pekin Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşmüşdür

Sentyabr 2008

10 sentyabr 2008

Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur

11 sentyabr 2008

Prezident İlham Əliyevin və Özbəkistan Prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur

11 sentyabr 2008

Prezident İlham Əliyev ilə Özbəkistan Prezidenti İslam Kərimov arasında geniş tərkibdə görüş keçirilmişdir

16 sentyabr 2008

Moskvada Prezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur

16 sentyabr 2008

Prezident İlham Əliyev Moskvada Rusiyanın Baş naziri sədri Vladimir Putinlə görüşmüşdür

Oktyabr 2008

24 oktyabr 2008

Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur

Noyabr 2008

02 noyabr 2008

Moskvada Prezident İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur

05 noyabr 2008

Ankarada Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur

05 noyabr 2008

Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur

05 noyabr 2008

Ankarada Prezident İlham Əliyev ilə Türkiyə Prezidenti Abdullah Gül arasında geniş tərkibdə görüş keçirilmişdir

06 noyabr 2008

Ankarada Prezident İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur

13 noyabr 2008

Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur

13 noyabr 2008

Prezident İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun görüşü olmuşdur

14 noyabr 2008

Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur

14 noyabr 2008

Prezident İlham Əliyevin və Polşa Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur

25 noyabr 2008

Prezident İlham Əliyev Romada İtaliyanın "Edison" şirkətinin icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür

26 noyabr 2008

Romada Prezident İlham Əliyevin və İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin görüşü olmuşdur

26 noyabr 2008

Prezident İlham Əliyev İtaliya parlamentinin Deputatlar palatasının sədri Canfranko Fini ilə görüşmüşdür

28 noyabr 2008

Aşqabadda Prezident İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olmuşdur

28 noyabr 2008

Aşqabadda Prezident İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun arasında geniş tərkibdə görüş keçirilmişdir

28 noyabr 2008

Aşqabadda Prezident İlham Əliyev Türkmənistan Məclisinin sədri xanım Akca Nurberdiyeva ilə görüşmüşdür

29 noyabr 2008

Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin üçtərəfli görüşü olmuşdur

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

Yanvar 2008

09 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr komitəsinin Avropa məsələləri üzrə alt komitəsinin sədri Robert Vekslerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Konqresinin Nümayəndələr Palatasındakı Azərbaycan üzrə işçi qrupunun həmsədri Bill Şusterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "TeliaSonera" şirkətinin prezidenti Lars Niberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ senatoru Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir

18 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir

21 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bəhreyn Beynəlxalq İnvestisiya Bankının və"əl-Fahim" Qrupunun sədrini qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Cisco" şirkətinin sədri və baş icraçı direktoru Con Çambersi qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda İsrailin xarici işlər naziri xanım Sipi Livnini qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "BP Group" şirkətinin baş icraçı direktoru Entoni Heyvordu qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Böyük Britaniyanın "Euromoney İnstitutional İnvestor plc" şirkətinin sədri Padraik Fallonu qəbul etmişdir

24 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Cənubi Afrika Milli Konqresinin sədri Cakob Zumanı qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Microsoft" korporasiyasının tədqiqat və strategiya üzrə direktoru Kreyq Mandini qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Citi Group"un sədri Uin Bişoffu qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda ABŞ-ın "Global Hyatt" şirkətinin sədri və sahibi Tomas Pritzkeri qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Böyük Britaniyanın biznes, müəssisələrin inkişafı, tənzimlənmə islahatları üzrə dövlət katibi Con Hattonu qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda İsveçrə Konfederasiyasının Ətraf mühit, nəqliyyat, energetika və kommunikasiya federal departamentinin rəhbəri Moris Leyenberqeri qəbul etmişdir

25 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyeri qəbul etmişdir

31 yanvar 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Səhiyyə Təşkilatının baş direktoru Marqaret Çanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Fevral 2008

04 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Üçlüyünün nümayəndə heyətini qəbul etmişdir

05 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının III qurultayının iştirakçılarını qəbul etmişdir

06 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Jak Roqqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Katibinin akademik proqramlar üzrə müşaviri Tomas Farrelli qəbul etmişdir

06 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir

07 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Müharibə Veteranlarının İctimai Komitəsi" Beynəlxalq İctimai Birliklər İttifaqının III qurultayının iştirakçılarını qəbul etmişdir

07 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın "Commerzbank"ının sədr vəzifəsini icra edən Martin Blessinqi qəbul etmişdir

08 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Əli Həsən Əhməd Cəffərini qəbul etmişdir

08 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın Dağlıq Qarabağ üzrə xüsusi komitəsinin sədri lord Rassel Constonu qəbul etmişdir

12 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüseyn Avni Qarslıoğlunu qəbul etmişdir

13 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Bobozoda Qulomconun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Azərbaycan Respublikasındakı rezident-əlaqələndiricisi Bruno Puezanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ senatoru Sem Braunbekin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavinini qəbul etmişdir

25 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Avrasiya Enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məşhur yazıçı Çingiz Aytmatovu qəbul etmişdir

28 fevral 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri İlkka Kanervanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Mart 2008

01 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənni qəbul etmişdir

05 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Rəşid Meredovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Metyu Brayzanı qəbul etmişdir

05 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Parlament Assambleyasının prezidenti Joze Lellonu qəbul etmişdir

06 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

06 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Caved Qureyşini qəbul etmişdir

06 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

06 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Böhran Qrupunun vitse-prezidenti Nikolas Qrononu qəbul etmişdir

07 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs taxt-tacın dövlət katibi, kardinal Tarçiziyo Bertoneni qəbul etmişdir

07 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Baş katibinin xüsusi nümayəndəsi Robert Simmonsun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Orta Asiya üzrə xüsusi nümayəndəsi Pier Morelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev"ABN Amro"nun vitse-prezidenti Mark Holtzmanı qəbul etmişdir

11 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Tennis Federasiyasının və Rusiya Tennis Federasiyasının prezidentlərini qəbul etmişdir

11 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev"Mir" televiziya kanalının rəhbəri Radik Batırşini qəbul etmişdir

12 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin"Mərmərə Qrupu"nun rəhbəri Akkan Süverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri Vladimir Qurgenidzeni qəbul etmişdir

17 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Universal Döyüş Federasiyasının Prezidenti Sergey Novikovu qəbul etmişdir

17 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın İnkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin İcraçı katibi Sergey Lebedevi qəbul etmişdir

18 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının Şahzadəsi əl-Valid bin Tələl bin Əbdüləziz əl-Saudun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İnterfaks Beynəlxalq İnformasiya Qrupunun direktorlar şurasının sədri Mixail Komissarı qəbul etmişdir

20 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul etmişdir

29 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Kanoe Federasiyasının prezidenti Ulrix Feldxofu qəbul etmişdir

31 mart 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Antikorrupsiya Assosiasiyası İcraiyyə Komitəsinin Bakıda keçirilən iclasının iştirakçılarını qəbul etmişdir

Aprel 2008

01 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Bakı ofisinin rəhbəri Xose Luis Herrero Ansolanı qəbul etmişdir

02 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Buxarestdə ATƏT-in Minsk qrupunun həmsədrlərini və ATƏT-in hazırki sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir

07 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın müdafiə naziri Ağagəldi Mamedgəldiyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycanda siyasi hüquqların qorunması - yeni meyarlar" mövzusunda Beynəlxalq Konfransın xarici ölkələrdən olan nümayəndələrini qəbul etmişdir

08 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

08 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

08 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

11 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Baş nazirinin müavini, Dövlət naziri Cəmil Çiçəyi qəbul etmişdir

11 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir

15 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın ölkəmizdəki səfiri Stepan Volkovetskini qəbul etmişdir

15 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlıq radiosunun prezidenti Cefri Gedmini qəbul etmişdir

16 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ müdafiə nazirinin Avropa və NATO siyasəti üzrə müşaviri Daniel Feytanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev"Sabançı Holdinq" şirkətinin rəhbərlərindən biri və Müşahidə Şurasının üzvü Ömər Sabançını qəbul etmişdir

21 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev FİDE-nin prezidenti Kirsan İlyumjinovu qəbul etmişdir

21 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Litvanın Baş naziri Gediminas Kirkilasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

22 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin müavini Ruben Cefrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

22 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Quggenhaym Fondunun direktoru Tomas Krensi qəbul etmişdir

24 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin əmək və sosial müdafiə naziri Faruk Çelikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nobel Xeyriyyə Fondunun prezidenti Maykl Nobelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli alim, akademik Roald Saqdeyevi qəbul etmişdir

28 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiyanın xarici işlər naziri Yan Kubişın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

29 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Norveçin xarici işlər naziri Yonas Qar Störenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Portuqaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstraliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

30 aprel 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İndoneziyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

May 2008

01 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Hərbi Hava Qüvvələrinin Komandanı Aydoğan Babaoğlunu qəbul etmişdir

02 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İnsan Haqları Məhkəməsinin sədri Jan-Pol Kostanı qəbul etmişdir

05 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Nizam-İntizam Qüvvələri Sərhəd Polisinin rəisi general-mayor Qasım Rezayini qəbul etmişdir

07 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın Xarici və Dövlət Məsələləri üzrə Nazirliyinin Avropa məsələləri üzrə dövlət naziri Cim Mörfini qəbul etmişdir

07 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir

12 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İndoneziyanın xarici işlər naziri Noer Hassan Virajudanı qəbul etmişdir

13 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kubanın ölkəmizdəki səfiri Xorxe Marti Martinesi qəbul etmişdir

13 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlovu qəbul etmişdir

14 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO-nun baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir

14 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

14 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin stats-katibi, nazir müavini Qriqori Karasini qəbul etmişdir

15 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin kənd təsərrüfatı və kənd inkişafı naziri Şalom Simhonu qəbul etmişdir

16 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Harvard Universitetinin professoru Cozef Nayı qəbul etmişdir

16 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənubi Koreyanın "Kolon" şirkətinin sədri Vunq Yul Lini qəbul etmişdir

19 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Andres Herkeli və Yevgeniya Jivkovanı qəbul etmişdir

19 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasının Baş naziri Han Seund-sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Jandarma Qüvvələrinin Baş Qərargah rəisi İbrahim Açıqmeşəni qəbul etmişdir

23 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kiyevdə ABŞ Dövlət Departamentinin nümayəndələrini qəbul etmişdir

24 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ konqresmenlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir

26 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

26 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliyinin Xarici Ticarət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

30 may 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin nümayəndələrini qəbul etmişdir

İyun 2008

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın müdafiə naziri Yuri Yexanurovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin Milli infrastruktur naziri Benyamin Ben Eliyezerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Norveçin Dövlət katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət Departamentinin Avrasiya Enerji məsələləri üzrə əlaqələndiricisi Stiven Mənnin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qazprom" ASC-nin idarə heyəti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

04 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın ticarət və investisiyalar naziri Diqbi Consu qəbul etmişdir

05 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikası Xarici İşlər Nazirinin müavini Əlirza Şeyx Əttarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Statoil Hydro şirkətinin baş icraçı direktoru Helge Linqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İntel şirkətinin prezidenti Kreyq Baretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın Mülki müdafiə, fövqəladə hallar və fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə nazirini qəbul etmişdir

11 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Baş katibi İkmaləddin İhsanoğlunu qəbul etmişdir

11 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Sivilizasiyaların dialoqu" Dünya İctimai Forumunun Beynəlxalq Koordinasiya Komitəsinin sədri Valter Şvimmeri qəbul etmişdir

12 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın York Hersoqu Şahzadə Endryunu qəbul etmişdir

12 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin İnşaat və Şəhərqurma naziri Faruk Nafiz Özakı qəbul etmişdir

12 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam İnkişaf Bankının prezidenti Əhməd Məhəmməd Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçikanın dövlət naziri Jan-Luk Dehaeni qəbul etmişdir

16 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun rəhbəri Frederik Starrı qəbul etmişdir

17 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransa-Azərbaycan dostluq qrupunun sədri Jan-Lui Dümonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının mədəniyyət və informasiya naziri İyad bin Əmin Əl-Mədəni qəbul etmişdir

17 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının energetika naziri Seyid Pərviz Fəttahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "Total" şirkətinin vitse-prezidenti Arno Breyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Nümayəndələr Palatasının sədri Vadim Popovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ombudsmanların VI Beynəlxalq Konfransının iştirakçılarını qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayevi qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Senatının sədri Boqdan Boruseviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Senatının sədri Nikolae Vakaroiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Parlamentinin sədri David Bakradzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldova Parlamentinin sədri Marian Lupunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan Parlamentinin sədri Muhammadmian Sumronun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Parlamentinin sədri xanım Akja Nurberdiyevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Dövlət Duması sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığı Parlamenti sədrinin müavini Tahir əl-Masrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Dövlət katibinin Təhsil və Mədəniyyət məsələləri üzrə köməkçisi Qoli Amerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikası Parlamenti sədrinin müavini Məhəmməd Abu Turabinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Estoniya Parlamenti sədrinin müavini Kristina Ojulandı qəbul etmişdir

24 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İvan Palçevi qəbul etmişdir

24 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Küveyt Əmirinin Aparatının rəhbəri Şeyx Nasir Sabah Əl-Əhməd Əl-Sabahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

26 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir

27 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müavini Devid Kramcri qəbul etmişdir

27 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Güləş Federasiyasının Prezidenti Rafael Martinettini qəbul etmişdir

27 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırki sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir

30 iyun 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbünü qəbul etmişdir

İyul 2008

02 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞ PA sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

04 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

04 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

04 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çexiyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

04 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çexiyanın xarici işlər naziri Karel Şvartsenberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Ferents Dyurçanı qəbul etmişdir

08 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan Senatının xarici əlaqələr daimi komitəsinin sədri Müşahid Hüseyn Səidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidentinin xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Venesiya Komissiyasının katibi Canni Bukikkionu qəbul etmişdir

14 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konstitusiya Məhkəməsinin yaradılmasının 10-cu ildönümü münasibətilə Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir

29 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi elçisi Heiki Talvityenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

31 iyul 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi elçisi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Avqust 2008

15 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Yəhudi Komitəsinin icraçı direktoru Deyvid Harrisi qəbul etmişdir

18 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNİSEF-in Azərbaycandakı nümayəndəsi xanım Hana Singeri qəbul etmişdir

19 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misirin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yusif Əhməd İbrahim əl-Şarkavini qəbul etmişdir

19 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın "Thyssen Krupp" SC-nin idarə heyətinin sədri Ekkerhard Şultsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri Lars Tunellin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir

25 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Senatının xarici əlaqələr komitəsinin üzvü, senator Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

26 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qərb Avropa İttifaqı Parlament Assambleyasının Fəxri Prezidenti Stefan Qorisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 avqust 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniya Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixay Rezvan Unqureanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Sentyabr 2008

01 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyası sədrinin xüsusi nümayəndəsi Qoran Lennmarkeri qəbul etmişdir

02 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin Bakıda keçirilən 30-cu iclasının iştirakçılarını qəbul etmişdir

04 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Xarici İşlər nazirinin müavini Mehdi Səfərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstan Milli Assambleyasının sədri xanım Katalin Szilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vatikanın ölkəmizdəki nunsisi Klaudio Qucerottini qəbul etmişdir

09 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin energetika və təbii ehtiyatlar naziri Hilmi Gülərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın İnkişaf naziri Xristos Foliasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Boyden Qreyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Seçkiləri Müşahidə Missiyasının başçısı Boris Frlesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul emişdir

10 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Temisstokles Dimidisi qəbul etmişdir

10 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

10 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

13 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İranın Xarici İşlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir

17 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞPA-nın seçkiqabağı missiyasının başçısı Andres Herkelin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsəlman dövlətlərinin ölkəmizdə akkreditə olunmuş səfirlərini qəbul etmişdir

18 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Metyu Brayzanı qəbul etmişdir

19 sentyabr 2008

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir

25 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Federal Şurasının sədr müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 sentyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Ədliyyə naziri Mehmet Ali Şahini qəbul etmişdir

Oktyabr 2008

02 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin müavini Con Neqropontenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

03 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

06 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransının iştirakçılarını qəbul etmişdir

09 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Finlandiyanın xarici ticarət və inkişaf naziri Paavo Vayrinenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Prezidenti Administrasiyasının Milli təhlükəsizlik bürosunun rəhbəri Vladislav Stasiakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

16 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun rəhbəri Yanez Lenarçiçi qəbul etmişdir

16 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedevi qəbul etmişdir

16 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

16 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran seçki müşahidə missiyasının rəhbəri Əhəd Qəzainin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Frank Qirkensi qəbul etmişdir

23 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ milli təhlükəsizliyinin biznes icraçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir

24 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir

24 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikası Baş nazirinin müavini Cəmil Çiçəyi qəbul etmişdir

24 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Prezidenti Administrasiyasının rəhbəri Pyotr Kovanskini qəbul etmişdir

24 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir

24 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BP şirkətinin icraçı direktoru Endryu İnqlisi qəbul etmişdir

29 oktyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın ticarət nazirinin müavini Con Sallivanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Noyabr 2008

07 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İlkər Başbuğun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Andris Piebalqsın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Estoniya Parlamentinin vitse-spikeri Kristina Oyulandı qəbul etmişdir

10 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli alim Lütfi Zadəni qəbul etmişdir

11 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Konqresinin senatoru Bob Korkeri qəbul etmişdir

12 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya şöhrətli cərrah, görkəmli alim və ictimai xadim Cavad Heyəti qəbul etmişdir

12 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının energetika naziri Samuel Bodmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırki sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir

13 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstanın inkişaf naziri Xristos Foliası qəbul etmişdir

13 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Estoniyanın Baş naziri Andrus Ansipi qəbul etmişdir

14 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Ferents Dyurçanı qəbul etmişdir

17 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Silahlı Qüvvələrinin Nəqliyyat Komandanı general Dunkan Maknabın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçin məşğulluq naziri Sven Otto Littorinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə vitse-prezidenti Şigeo Katsunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

18 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin müavini Devid Krameri qəbul etmişdir

20 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiya İnkişaf Bankının prezidenti Haruhiko Kurodanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan XXI əsrdə - uğurun strategiyası" mövzusunda keçirilən beynəlxalq "dəyirmi masa"nın iştirakçılarını qəbul etmişdir

22 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniyanın York hersoqu, şahzadə Endryunu qəbul etmişdir

24 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) administratoru və ABŞ-ın xarici yardımlar üzrə direktoru Henrietta Forun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 noyabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli rəssam Tahir Salahovu qəbul etmişdir

Dekabr 2008

01 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstan Milli Assambleyasının sədri Məhəmməd Yunis Qanuninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

01 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər naziri Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının Baş katibi Terri Devisi qəbul etmişdir

02 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tatarıstan Respublikası Dövlət Şurasının sədri Farid Muxametşini qəbul etmişdir

19 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Bakı Ofisinin rəhbəri Xose Luis Herrero Ansolanı qəbul etmişdir

19 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

19 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul etmişdir

22 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir

22 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, ordu generalı Hasan İğsızın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

23 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir

27 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir

28 dekabr 2008

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ PREZİDENT İLHAM ƏLİYEVİN AZƏRBAYCAN XALQINA TƏBRİKİ 7

XİN DİPLOMATİK AKADEMİYASININ FƏALİYYƏTİ 2007-Cİ İLDƏ UĞURLU OLMUŞDUR 11

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ ROBERT VEKSLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 12

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TELİASONERA" ŞİRKƏTİNİN PREZİDENTİ LARS NİBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 12

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASINDAKI AZƏRBAYCAN ÜZRƏ İŞÇİ QRUPUNUN HƏMSƏDRİ BİLL ŞUSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 12

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 13

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATORU RİÇARD LUQARİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 13

TÜRKMƏNİSTAN PREZİDENTİ AZƏRBAYCAN BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 14

AŞQABADDA AZƏRBAYCAN-TÜRKMƏNİSTAN HÖKUMƏTLƏRARASI İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ İCLASI KEÇİRİLMİŞDİR 14

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 16

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏHREYN BEYNƏLXALQ İNVESTİSİYA BANKININ VƏ AL FAHİM QRUPUNUN SƏDRİNİ QƏBUL ETMİŞDİR 16

DİPLOMATİK AKADEMİYA XARİCİ DİLLƏRDƏ DİPLOMATİYAYA AİD NƏŞRLƏRİ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ EDƏCƏKDİR 16

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ TBİLİSİDƏ GÜRCÜSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 17

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN "PANORAMA REPORTS" AGENTLİYİNƏ MÜSAHİBƏ VERMİŞDİR 17

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ 18

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİS İLƏ GÖRÜŞMÜŞDÜR 18

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞMÜŞDÜR 18

DAVOS İQTİSADİ FORUMU DAVAM EDİR 18

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPEN İLƏ GÖRÜŞÜ 20

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 20

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİSKO" ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU CON ÇAMBERSİ QƏBUL ETMİŞDİR 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ SİPİ LİVNİNİ QƏBUL ETMİŞDİR 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP GROUP" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ENTONİ HEYVORDU QƏBUL ETMİŞDİR 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SALİ BERİŞA İLƏ GÖRÜŞMÜŞDÜR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN "EUROMONEY İNSTİTUTİONAL İNVESTOR PLC" ŞİRKƏTİNİN SƏDRİ PADRAİK FALLONU QƏBUL ETMİŞDİR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ AFRİKA MİLLİ KONQRESİNİN SƏDRİ CAKOB ZUMANI QƏBUL ETMİŞDİR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİCROSOFT" KORPORASİYASININ TƏDQİQAT VƏ STRATEGİYA ÜZRƏ DİREKTORU KREYQ MANDİNİ QƏBUL ETMİŞDİR 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİTİ GROUP"UN SƏDRİ UİN BİŞOFFU QƏBUL ETMİŞDİR 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞMÜŞDÜR 24

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "GLOBAL HYATT" ŞİRKƏTİNİN SƏDRİ VƏ SAHİBİ TOMAS PRİTZKERİ QƏBUL ETMİŞDİR 24

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN BİZNES, MÜƏSSİSƏLƏRİN İNKİŞAFI, TƏNZİMLƏNMƏ İSLAHATLARI ÜZRƏ DÖVLƏT KATİBİ CON HATTONU QƏBUL ETMİŞDİR 24

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, NƏQLİYYAT, ENERGETİKA VƏ RABİTƏ DEPARTAMENTİNİN RƏHBƏRİ MORİTS LOYENBERGERİ QƏBUL ETMİŞDİR 25

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYERİ QƏBUL ETMİŞDİR 25

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 25

AZƏRBAYCAN-KOREYA MÜNASİBƏTLƏRİ İNKİŞAF EDİR 25

FİNLANDİYA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 26

MOSKVADA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLİR 26

MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYA VƏ DEMARKASİYA MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 27

XƏLƏF XƏLƏFOV: SƏRHƏDLƏRİN RAZILAŞDIRILMAMIŞ SAHƏLƏRİ ÜZRƏ AZƏRBAYCAN VƏ RUSİYANIN MÖVQELƏRİ YAXINLAŞMIŞDIR 27

AZƏRBAYCAN İKT VƏ BÜTÖVLÜKDƏ MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRƏ XÜSUSİ ƏHƏMİYYƏT VERİR 28

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU MARQARET ÇANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 29

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI "ÜÇLÜYÜ"NÜN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 29

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AKADEMİK PROQRAMLAR ÜZRƏ MÜŞAVİRİ TOMAS FARRELLİ QƏBUL ETMİŞDİR 30

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ ANDRES HERKELİ VƏ YEVGENİYA JİVKOVANI QƏBUL ETMİŞDİR 30

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ JAK ROQQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 31

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "COMMERZBANK"ININ SƏDR VƏZİFƏSİNİ İCRA EDƏN MARTİN BLESSİNQİ QƏBUL ETMİŞDİR 31

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MÜHARİBƏ VETERANLARININ İCTİMAİ KOMİTƏSİ" BEYNƏLXALQ İCTİMAİ BİRLİKLƏR İTTİFAQININ III QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 32

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ DAĞLIQ QARABAĞ ÜZRƏ ALTKOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTONU QƏBUL ETMİŞDİR 36

BAKIDA XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU VƏ DƏNİZ DİBİNİN BÖLÜNMƏSİ ÜZRƏ EKSPERT QRUPLARININ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 36

AZƏRBAYCAN VƏ QƏTƏR DİPLOMATİK KADRLARIN HAZIRLANMASI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR 36

KİYEVDƏ GUAM-IN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏRİNİN 9-CU İCLASI KEÇİRİLİR 37

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ 44-CÜ TƏHLÜKƏSİZLİK KONFRANSINDA AVROPA TARİXİ İLƏ BAĞLI ŞƏRHLƏ ÇIXIŞ ETMİŞDİR 37

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN İQTİSADİ İNKİŞAF VƏ TİCARƏT NAZİRİ BOBOZODA QULOMCONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 38
KİYEVDƏ Aİ VƏ QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ DAVAM EDİR 38
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLL OLUNMAMASI REGİONAL SABİTLİYƏ VƏ TƏHLÜKƏSİZLİYƏ ƏN BÖYÜK TƏHDİDDİR 39
ABŞ AZƏRBAYCANIN TERRORA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA VERDİYİ TÖHFƏNİ YÜKSƏK QİYMƏTLƏNDİRİR 39
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANA DÖVLƏT SƏFƏRİ 40
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 40
SƏNƏDLƏRİN İMZALANMASI 41
PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI 41
MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN BƏYANATI 41
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 42
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ LASLO ŞOYOMUN BİRGƏ BƏYANATI 43
PREZİDENT İLHAM ƏLİYEVƏ MACARISTANIN NÜFUZLU KORVİNUS UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 45
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 47
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 52
MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN NİTQİ 52
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 54
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇAN İLƏ GÖRÜŞÜ 55
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 56
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTAN PARLAMENTİNİN SƏDRİ XANIM KATALİN SİLİ İLƏ GÖRÜŞÜ 56
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏMİZİN BUDAPEŞTDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞ OLMUŞDUR 56
AZƏRBAYCAN-MACARISTAN BİZNES FORUMU 57
MACARISTAN PREZİDENTİ LASLO ŞOYOMUN ÇIXIŞI 57
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 58
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL TƏHLÜKƏSİZLİK XİDMƏTİ DİREKTORUNUN BİRİNCİ MÜAVİNİ - SƏRHƏD XİDMƏTİNİN RƏİSİ, GENERAL VLADİMİR PRONİÇEVİ QƏBUL ETMİŞDİR 60

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATORU SEM BRAUNBƏKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 60
SENATOR SEM BRAUNBEK İPƏK YOLU BOYUNCA ƏMƏKDAŞLIQ BARƏDƏ MÜHAZİRƏ İLƏ ÇIXIŞ ETMİŞDİR 61
AZƏRBAYCAN VƏ LİVİYA QARŞILIQLI SƏRMAYƏ QOYULUŞU İMKANLARINI ARAŞDIRACAQLAR 61
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ 62
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 62
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR 63
MDU-NUN REKTORU AKADEMİK VİKTOR SADOVNİÇİNİN ÇIXIŞI 64
MDU-NUN KİMYA FAKÜLTƏSİNİN DEKANI, AKADEMİK VALERİ LUNİNİN ÇIXIŞI 67
MDU BİRLƏŞMİŞ HƏMKARLAR İTTİFAQI KOMİTƏSİNİN SƏDRİ, PROFESSOR İQOR KOTLOBOVSKİNİN ÇIXIŞI 68
MDU-NUN HESABLAMA RİYAZİYYATI VƏ KİBERNETİKA FAKÜLTƏSİNİN III KURS TƏLƏBƏSİ ÜLFƏT ƏLİYEVİN ÇIXIŞI 69
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 70
MOSKVADA MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 78
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR YAZIÇI ÇİNGİZ AYTMATOVU QƏBUL ETMİŞDİR 80
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 80
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞAYA RƏSMİ SƏFƏRİ 80
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 81
BİRGƏ BƏYANNAMƏ 81
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 84
AZƏRBAYCAN VƏ POLŞA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSI 84
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN BƏYANATI 84
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 85
AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARI ARASINDA SƏNƏDLƏR İMZALANMIŞDIR 87
DÖVLƏTİMİZİN BAŞÇISINA "XİDMƏTLƏRƏ GÖRƏ" BÖYÜK XAÇ ORDENİ TƏQDİM OLUNMUŞDUR 87

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA SENATININ MARŞALI BOQDAN BORUSEVİÇ İLƏ GÖRÜŞÜ 89
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK İLƏ GÖRÜŞÜ 89
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 89
POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN NİTQİ 90
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 91
QDANSK NEFT LİMANI İLƏ TANIŞLIQ 92
"AZADLIQ YOLU" MUZEYİ İLƏ TANIŞLIQ 93
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 93
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOZE LELLONU QƏBUL ETMİŞDİR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTAN NAZİRLƏR KABİNETİNİN SƏDRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ RƏŞİD MEREDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "İNTERNATİONAL CRİSİS GROUP"UN DİREKTOR MÜAVİNİ NİKOLAS QRONONU QƏBUL ETMİŞDİR 95
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PYER MORELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 95
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 95
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS TAXT-TACIN DÖVLƏT KATİBİ, KARDİNAL TARÇİZİO BERTONENİ QƏBUL ETMİŞDİR 96
BAKIDA MÜQƏDDƏS MƏRYƏM ANA KİLSƏSİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 97
DAKARDA İKT-NİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLİR 101
BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 102
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 102
AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 102

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI 103
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 103
BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN BƏYANATI 104
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 106
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 106
BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN ÇIXIŞI 107
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "MİR" TELEVİZİYA KANALININ RƏHBƏRİ RADİK BATIRŞİNİ QƏBUL ETMİŞDİR 107
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ TENNİS FEDERASİYASININ PREZİDENTİ FRANÇESKO RİÇİ BİTTİNİ VƏ RUSİYA TENNİS FEDERASİYASININ PREZİDENTİ ŞAMİL TARPİŞEVİ QƏBUL ETMİŞDİR 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ABN AMRO"NUN VİTSE-PREZİDENTİ MARK HOLTZMANI QƏBUL ETMİŞDİR 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN SƏDRİ AKKAN SUVERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ VLADİMİR QURGENİDZENİ QƏBUL ETMİŞDİR 109
DAKARDA İSLAM KONFRANSI TƏŞKİLATININ 11-Cİ ZİRVƏ GÖRÜŞÜ İŞƏ BAŞLAMIŞDIR 109
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR 110
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 110
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ UNİVERSAL DÖYÜŞ FEDERASİYASININ PREZİDENTİ SERGEY NOVİKOVU QƏBUL ETMİŞDİR 111
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ SƏFƏRİ 111
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ŞAHZADƏSİ ƏL-VALİD BİN TƏLAL BİN ƏBDÜLƏZİZ AL SƏUDUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 113
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTERFAKS BEYNƏLXALQ İNFORMASİYA QRUPUNUN DİREKTORLAR ŞURASININ SƏDRİ MİXAİL KOMİSSARI QƏBUL ETMİŞDİR 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "İNTERFAKS" AGENTLİYİNƏ MÜSAHİBƏSİ 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA KARATE FEDERASİYASININ PREZİDENTİ ANTONİO ESPİNOSU QƏBUL ETMİŞDİR 119

AZƏRBAYCAN İLƏ MEKSİKA ARASINDA İKİ MÜHÜM SƏNƏD İMZALANMIŞDIR 119

AZƏRBAYCAN İLƏ MEKSİKA ARASINDA ƏMƏKDAŞLIĞIN BÖYÜK POTENSİALI VARDIR 120

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ ULRİX FELDHOFU QƏBUL ETMİŞDİR 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ ANTİKORRUPSİYA ORQANLARI ASSOSİASİYASI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYAYA SƏFƏRİ 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 124

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 124

AVRATLANTİK TƏRƏFDAŞLIQ ŞURASI DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ NATO BAŞ KATİBİNİN RƏHBƏRLİYİ İLƏ İŞÇİ NAHARI OLMUŞDUR 124

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ 125

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ (ISAF) TÖHFƏ VERƏN QEYRİ-NATO ÖLKƏLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ƏFQANISTANA DAİR BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR 125

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NATO-NUN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI İLƏ GÖRÜŞLƏRİ OLMUŞDUR 126

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL 126

AZƏRBAYCAN PREZİDENTİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR 126

AZƏRBAYCAN VƏ ESTONİYA QARŞILIQLI ƏMƏKDAŞLIĞIN DAHA DA GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR 126

AZƏRBAYCAN VƏ LİTVA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA XARİCİ SİYASƏTİN PLANLAŞDIRILMASI ÜZRƏ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 127

AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏRDƏ ƏLAMƏTDAR MƏRHƏLƏ 127

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN MÜDAFİƏ NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 129

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR 129

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ CƏMİL ÇİÇƏYİ QƏBUL ETMİŞDİR 130

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZADLIQ RADİOSUNUN PREZİDENTİ CEFRİ GEDMİNİ QƏBUL ETMİŞDİR 130

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVROPA VƏ NATO SİYASƏTİ ÜZRƏ MÜŞAVİRİ DANİEL FEYTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 130

AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ İLƏ BAĞLI POLŞANIN TUTDUĞU MÖVQE YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR 131

BAKIDA "GUAM DÖVLƏTLƏRİ ƏRAZİSİNDƏ MÜNAQİŞƏLƏRİN HƏLLİNİN PRİNSİPİAL ƏSASLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİİŞDİR 131

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "SABANÇI HOLDİNQ" ŞİRKƏTİNİN RƏHBƏRLƏRİNDƏN BİRİ VƏ MÜŞAHİDƏ ŞURASININ ÜZVÜ ÖMƏR SABANÇINI QƏBUL ETMİŞDİR 133

KİYEVDƏ QİƏT ÜZVÜ OLAN ÖLKƏLƏRİN XİN BAŞÇILARININ İCLASI BAŞA ÇATMIŞDIR 134

TEHRANDA XƏZƏRİN HÜQUQİ STATUSUNA DAİR NÖVBƏTİ MÜZAKİRƏLƏR BAŞA ÇATMIŞDIR 134

AZƏRBAYCAN XİN-İN BAŞÇISI SOFİYADA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ ETMİŞDİR 135

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVANIN BAŞ NAZİRİ GEDİMİNAS KİRKİLASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 136

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KALMIKİYA RESPUBLİKASININ PREZİDENTİ, FİDE-NİN PREZİDENTİ KİRSAN İLYUMJİNOVU QƏBUL ETMİŞDİR 136

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QUGENHAYM FONDUNUN DİREKTORU TOMAS KRENSİ QƏBUL ETMİŞDİR 137

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ RUBEN CEFRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 137

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 137

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 138

AZƏRBAYCAN VƏ MOLDOVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 138

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 139

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 139

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI 140

AZƏRBAYCANDA MOLDOVA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI 142
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 142
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 142
MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN NİTQİ 144
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 145
MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 145
MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİN ARDNŞ-İN PREZİDENTİ RÖVNƏQ ABDULLAYEVİ QƏBUL ETMİŞDİR 146
MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ İŞÇİ LANÇI 146
AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA SAZİŞLƏRİN HAZIRLANMASINA DAİR RAZILIĞA GƏLİNMİŞDİR 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ ALİM, AKADEMİK ROALD SAQDEYEVİ QƏBUL ETMİŞDİR 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOBEL XEYRİYYƏ FONDUNUN PREZİDENTİ MAYKL NOBELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 148
NORVEÇ HÖKUMƏTİ AZƏRBAYCAN DİPLOMATLARI ÜÇÜN TƏLİM TƏŞKİL EDİR 148
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ, AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SƏDRİ YAN KUBİŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 149
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ YONAS QAR STÖRENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 149
AVROPA İTTİFAQI YENİ QONŞULUQ SİYASƏTİNDƏ AZƏRBAYCANA XÜSUSİ YER AYIRMALIDIR 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ HƏRBİ HAVA QÜVVƏLƏRİNİN KOMANDANI AYDOĞAN BABAOĞLUNU QƏBUL ETMİŞDİR 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ JAN-POL KOSTANI QƏBUL ETMİŞDİR 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ NİZAM-İNTİZAM QÜVVƏLƏRİ SƏRHƏD POLİSİNİN RƏİSİ GENERAL-MAYOR QASIM REZAYİNİ QƏBUL ETMİŞDİR 151
İORDANİYANIN KRALI II ABDULLAHIN AZƏRBAYCANA SƏFƏRİ 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLAHIN GÖRÜŞÜ 152
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 152

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 153
BAKIDA 2-Cİ İORDANİYA SƏRGİSİNİN AÇILIŞI 153
KRAL II ABDULLAH XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN TƏLİM-TƏDRİS MƏRKƏZİNDƏ OLMUŞDUR 154
İORDANİYA KRALİÇASI RANİYA HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 155
AZƏRBAYCANIN VƏ İORDANİYANIN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ 155
SƏFƏR BAŞA ÇATDI 156
XİN-İN DİPLOMATİK AKADEMİYASI NÖVBƏTİ TƏLİM KURSUNA BAŞLAMIŞDIR 156
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "DEMOKRATİYA VƏ SABİTLİK NAMİNƏ: ƏMƏKDAŞLIĞIN YENİ İMKANLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 156
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN XARİCİ VƏ DÖVLƏT MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRLİYİNİN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ CİM MÖRFİNİ QƏBUL ETMİŞDİR 161
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR 161
AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİ STRASBURQDA GÖRÜŞMÜŞLƏR 162
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNDONEZİYANIN XARİCİ İŞLƏR NAZİRİ HƏSƏN VİRAYUDANI QƏBUL ETMİŞDİR 163
İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 163
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN TƏKBƏTƏK GÖRÜŞÜ 164
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 164
AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 165
İSVEÇRƏ PREZİDENTİ PASKAL KUŞPENİN BƏYANATI 166
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 166
AZƏRBAYCANIN VƏ İSVEÇRƏNİN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ 167
BAKIDA İSVEÇRƏ SƏFİRLİYİ BİNASININ AÇILIŞI OLMUŞDUR 167
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 168
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 168
İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ PASKAL KUŞPENİN NİTQİ 169
SƏFƏR BAŞA ÇATDI 170

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ BORİS QRIZLOVU QƏBUL ETMİŞDİR 170

GUAM ÖLKƏLƏRİ KİŞİNYOVDA ABŞ VƏ AVROPA İTTİFAQI İLƏ TƏRƏFDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİRLƏR 171

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN STATS-KATİBİ, NAZİR MÜAVİNİ QRİQORİ KARASİNİ QƏBUL ETMİŞDİR 171

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR 171

BAKIDA "AVROPADA SUBREGİONAL ÇƏRÇİVƏDƏ SAVADLILIQ PROBLEMLƏRİNƏ BAXIŞ: TƏRƏFDAŞLIQ ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNNOVATİV YANAŞMALARIN TƏTBİQİNƏ DƏSTƏK" MÖVZUSUNDA YUNESKO-NUN REGİONAL KONFRANSI BAŞLANMIŞDIR 172

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI .. 172

YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI 175

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA HOLLANDİYA ŞAHZADƏSİ LAURENTİEN İLƏ GÖRÜŞMÜŞDÜR 180

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA İSLANDİYANIN SABİQ PREZİDENTİ VİQDOS FİNNBOQADOTTİR İLƏ GÖRÜŞMÜŞDÜR 180

YUNESKO-NUN DÜNYADA SAVADLILIĞIN DƏSTƏKLƏNMƏSİNƏ DAİR BAKIDA KEÇİRİLƏN 5-Cİ REGİONAL KONFRANSI İŞİNİ DAVAM ETDİRMİŞDİR 181

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN KƏND TƏSƏRRÜFATI VƏ KƏND RAYONLARININ İNKİŞAFI NAZİRİ ŞALOM SİMHONU QƏBUL ETMİŞDİR 183

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI 2009-CU İLİN SONUNADƏK BİRİLLİK MAGİSTR PROQRAMI YARADACAQDIR 183

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CƏNUBİ KOREYANIN "KOLON" ŞİRKƏTİNİN SƏDRİ VUNQ YUL LİNİ QƏBUL ETMİŞDİR 184

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN HARVARD UNİVERSİTETİNİN PROFESSORU COZEF NAYI QƏBUL ETMİŞDİR 184

YUNESKO-NUN 5-Cİ REGİONAL KONFRANSI BAŞA ÇATMIŞDIR 184

İSLAM KONFRANSI TƏŞKİLATI EKSPERTLƏRİNİN İCLASININ YEKUN SƏNƏDİNDƏ LEYLA ƏLİYEVANIN TƏŞƏBBÜSÜ DƏSTƏKLƏNMİŞDİR 185

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ AVSTRİYADA BİR SIRA SƏMƏRƏLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 186

KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SIN SUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 187

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ BAŞ NAZİRİ HAN SIN SUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 187

KOREYA RESPUBLİKASI BAŞ NAZİRİNİN AZƏRBAYCANA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ SƏNƏDLƏR İMZALANMIŞDIR 188

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR 189

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 189

RƏSMİ QARŞILANMA MƏRASİMİ 189

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 190

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 190

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 191

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 192

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 192

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI 193

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 195

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 196

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN NİTQİ 197

TÜRKMƏNİSTAN PREZİDENTİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 199

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVA BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 199

SƏFƏR BAŞA ÇATDI 200

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA TƏŞKİLATIN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK YIĞINCAĞINDA İŞTİRAK ETMİŞDİR 201

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI .. 201

HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ PARİSDƏ, YUNESKO-NUN QƏRARGAHINDA "AZƏRBAYCANIN XOŞMƏRAMLI MƏLƏKLƏRİ" KONSERT PROQRAMI TƏQDİM OLUNMUŞDUR 203

YUNESKO-NUN BAŞ DİREKTORU KOİŞİRO MATSUURANIN ÇIXIŞI 203

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI 204

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ BOLQARISTANA RƏSMİ SƏFƏRİ 206

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ ANKARADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 207

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ .. 209

V.A.YUŞŞENKONUN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 209

KİYEVDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ 209
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 210
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 210
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 210
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN MƏTBUAT KONFRANSI 211
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI 211
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 213
UKRAYNANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ 217
ALİ RADADA GÖRÜŞ 217
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TARAS ŞEVÇENKO ADINA KİYEV MİLLİ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR 217
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 218
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 224
KİYEVDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ SAMMİT KEÇİRİLMİŞDİR 224
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 224
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 226
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 227
KİYEVDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT 228
SƏFƏR BAŞA ÇATDI 228
BELARUS PAYTAXTINDA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASI BAŞA ÇATMIŞDIR 228
MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 230
MİLLİ MƏCLİSİN SƏDRİ PARLAMENT RƏHBƏRLƏRİNİN AVROPA KONFRANSINDA ÇIXIŞ ETMİŞDİR 230
MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV AQO QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 232
XARİCİ İŞLƏR NAZİRLİYİNİN İNFORMASİYA İDARƏSİNİN TƏŞKİLATI DƏSTƏYİ İLƏ MÜHAZİRƏ-EKSKURSİYASI TƏŞKİL OLUNMUŞDUR 232
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 232

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ TİCARƏT NAZİRİ XANIM ŞEYXA LÜBNƏ BİNT XALİD ƏL-QASİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 233
AZƏRBAYCAN VƏ ÇEXİYA XİN-LƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR 233
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ 233
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN TƏKBƏTƏK GÖRÜŞÜ 234
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 234
PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI 235
FİNLANDİYA PREZİDENTİ XANIM TARYA HALONENİN BƏYANATI 235
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 236
FİNLANDİYA PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞ 239
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 240
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAASKİVİ CƏMİYYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 242
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 242
HELSİNKİ ŞƏHƏR ŞURASINDA LANÇ 250
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA HELSİNKİDƏ İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR 250
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN FİNLANDİYA PREZİDENTİNİN HƏYAT YOLDAŞI PENTTİ ARAYARVİ İLƏ GÖRÜŞÜ 250
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 251
FİNLANDİYA PREZİDENTİ TARYA HALONENİN NİTQİ 251
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 252
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FİNLANDİYAYA RƏSMİ SƏFƏRİ FİNLANDİYANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ 254
SƏFƏR BAŞA ÇATDI 255
AZƏRBAYCANIN BAŞ NAZİRİ ESTONİYA MÜDAFİƏ QÜVVƏLƏRİ KOMANDANI İLƏ GÖRÜŞMÜŞDÜR 255
ABŞ SƏFİRİ AZƏRBAYCAN DİPLOMATINA ONUN ŞƏRƏFİNƏ TƏSİS OLUNMUŞ MÜKAFATI TƏQDİM ETMİŞDİR 255
AZƏRBAYCAN İŞĞAL ALTINDA OLAN ƏRAZİLƏRİNDƏ TÖRƏDİLƏN YANĞINLARLA BAĞLI TƏDBİRLƏR GÖRƏCƏKDİR 256
BAKIDA "GUAM-IN İNKİŞAF STRATEGİYASI" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR 257
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ARAZ ƏZİMOV ÇEXİYADA SƏFƏRDƏ OLMUŞDUR 258

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ RİÇARD BAUÇERİ VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKELİ QƏBUL ETMİŞDİR 259

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MÜDAFİƏ NAZİRİ YURİ YEXANUROVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 259

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BİNYAMİN BEN-ELİEZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 260

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ, NEFT SƏNAYESİ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ XANIM LİV MONİKA STABHOLDTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 260

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ STİVEN MƏNNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 261

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 261

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QAZPROM" ASC-NİN İDARƏ HEYƏTİNİN SƏDRİ ALEKSEY MİLLERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 261

BAKIDA XV BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR 262

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 262

XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVAN MR-DƏKİ İDARƏSİNİN YENİ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR 268

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ 269

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ 269

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 269

BİRGƏ MƏTBUAT KONFRANSI 271

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 271

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 272

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR 276

TÜRKİYƏ BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ 277

SƏFƏR BAŞA ÇATDI 277

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İNVESTİSİYALAR NAZİRİ DİQBİ CONSU QƏBUL ETMİŞDİR 277

YENİ AZƏRBAYCAN PARTİYASINDA ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 277

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ƏLİRZA ŞEYX ƏTTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 278

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STATOİL HYDRO ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU HELGE LİNQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 278

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNTEL ŞİRKƏTİNİN PREZİDENTİ KREYQ BARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 278

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ 279

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 279

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ 279

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ 280

SƏFƏR BAŞA ÇATDI 281

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ MÜLKİ MÜDAFİƏ, FÖVQƏLADƏ HALLAR VƏ FƏLAKƏTLƏRİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI ÜZRƏ NAZİRİ SERGEY ŞOYQUNU QƏBUL ETMİŞDİR 281

BAKIDA "MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ FORUM İŞƏ BAŞLAMIŞDIR 281

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI 286

AZƏRBAYCANIN VƏ POLŞANIN BİRİNCİ XANIMLARININ GÖRÜŞÜ 292

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞMÜŞDÜR 293

"MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ BAKI FORUMU İŞİNİ BAŞA ÇATDIRMIŞDIR 293

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "SİVİLİZASİYALARIN DİALOQU" DÜNYA İCTİMAİ FORUMUNUN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN SƏDRİ, AVROPA ŞURASININ KEÇMİŞ BAŞ KATİBİ VALTER ŞVİMMERİ QƏBUL ETMİŞDİR 298

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR 298

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM İNKİŞAF BANKININ PREZİDENTİ, ÖZƏL SEKTORUN İNKİŞAFI ÜZRƏ İSLAM KORPORASİYASI DİREKTORLAR ŞURASININ SƏDRİ ƏHMƏD MƏHƏMMƏD ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 299

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İNŞAAT VƏ ŞƏHƏRQURMA NAZİRİ FARUK NAFİZ ÖZAKI QƏBUL ETMİŞDİR 299

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 300

QİƏT PM BAŞ ASSAMBLEYANIN 31-Cİ İCLASININ YEKUN SƏNƏDİNDƏ SEPARATİZMƏ QARŞI BMT TŞ-NİN QƏTNAMƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ MÜBARİZƏ APARILMASI MƏSƏLƏSİ ƏKSİNİ TAPMIŞDIR 300

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKANIN DÖVLƏT NAZİRİ, AVROPA PARLAMENTİNİN ÜZVÜ, SABİQ BAŞ NAZİR JAN-LUK DEHAENİ QƏBUL ETMİŞDİR 301

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN POLŞAYA RƏSMİ SƏFƏRİ 301

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN CON HOPKİNS UNİVERSİTETİNİN MƏRKƏZİ ASİYA VƏ QAFQAZ İNSTİTUTUNUN RƏHBƏRİ FREDERİK STARRI QƏBUL ETMİŞDİR 303

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİ QƏBUL ETMİŞDİR 303

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ JAN-LUİ DÜMONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 304

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ ENERGETİKA NAZİRİ SEYİD PƏRVİZ FƏTTAHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 304

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ KÖKSAL TOPTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 305

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ARTUR RASİZADƏ TATARISTANDA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 305

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN "TOTAL" ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 309

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYA SENATININ SƏDRİ NİKOLAE VEKEROYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 310

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA SENATININ SƏDRİ BOQDAN BORUSEVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 310

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVA PARLAMENTİNİN SƏDRİ MARİAN LUPUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 311

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN SENATININ SƏDRİ QASIM COMƏRD TOKAYEVİ QƏBUL ETMİŞDİR 311

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ DAVİD BAKRADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 312

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ VADİM POPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 312

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 312

OMBUDSMANLARIN VI BAKI BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA 316

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN PARLAMENTİNİN SƏDRİ MUHAMMADMİAN SUMRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 317

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTAN PARLAMENTİNİN SƏDRİ XANIM AKCA NURBERDİYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 318

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 318

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ TAHİR ƏL-MASRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 318

MİLLİ MƏCLİSİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞI 319

PREZİDENT İLHAM ƏLİYEVİN MİLLİ MƏCLİSİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAĞINDA NİTQİ 321

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASI PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ MƏHƏMMƏD ƏBUTURABİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 334

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR 334

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN TƏHSİL VƏ MƏDƏNİYYƏT MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİ QOLİ AMERİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 334

BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN 9-CU İCLASI KEÇİRİLMİŞDİR 335

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYT ƏMİRİ APARATININ RƏHBƏRİ ŞEYX NASİR SABAH ƏL-ƏHMƏD ƏL-SABAHIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 335

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 336

ASTANADA İKİNCİ AVRASİYA QADINLAR FORUMU KEÇİRİLMİŞDİR 336

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMERİ QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR 337

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 338

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİNİ QƏBUL ETMİŞDİR 338

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA DEMOKRATİYA MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ DİALOQ KEÇİRİLMİŞDİR 338

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QLOBAL EKOLOGİYA FONDUNUN İCRAÇI DİREKTORU XANIM MONİK BARBÜNÜ QƏBUL ETMİŞDİR 339

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 339

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 339

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 339

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 340

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 341

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI 342

BAKIDA UKRAYNA SƏFİRLİYİ ÜÇÜN TİKİLƏCƏK BİNALARIN LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ 346

BAKIDA GÖRKƏMLİ UKRAYNA ŞAİRİ TARAS ŞEVÇENKONUN ABİDƏSİ AÇILMIŞDIR 347

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 347

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN ÇIXIŞI 348

AZƏRBAYCANDA UKRAYNA MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ KONSERT 350

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 350

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ 350

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ 350

BATUMİDƏ GUAM DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 351

GUAM-POLŞA GÖRÜŞÜ 351

GUAM ZİRVƏ GÖRÜŞÜNÜN PLENAR İCLASI 351

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 352

BİRGƏ MƏTBUAT KONFRANSI 354

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 354

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 356

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD MERKEL İLƏ GÖRÜŞÜ 356

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ 356

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ LONDONDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 357

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ LUİS MARİA DE PUÇUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 357

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 358

RƏSMİ QARŞILANMA MƏRASİMİ 358

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 358

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 359

RUSİYA-AZƏRBAYCAN SƏNƏDLƏRİNİN İMZALANMASI 360

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 361

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 361

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI 362

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VETERANI AĞADADAŞ SƏMƏDOVA 2-Cİ VƏ 3-CÜ DƏRƏCƏLİ ŞÖHRƏT ORDENLƏRİ TƏQDİM ETMİŞDİR 363

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞÜ 364

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 365

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 365

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 365

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN NİTQİ 367
SƏFƏR BAŞA ÇATDI 369
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL ŞVARTSENBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 369
AZƏRBAYCAN İLƏ ÇEXİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 369
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA İŞGÜZAR SƏFƏRİ 370
DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜ 370
ASTANA ŞƏHƏRİNİN 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLAS 370
ASTANADA YUBİLEY KONSERTİ 371
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ 371
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 371
AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN ÜÇÜNCÜ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR 372
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 373
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇANI QƏBUL ETMİŞDİR 384
AZƏRBAYCAN İLƏ MACARISTAN ARASINDA HÖKUMƏTLƏRARASI ÜÇ SƏNƏD İMZALANMIŞDIR 384
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SENATININ XARİCİ ƏLAQƏLƏR DAİMİ KOMİTƏSİNİN SƏDRİ MÜŞAHİD HÜSEYN SƏİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 385
AZƏRBAYCAN DİPLOMATLARI CƏBHƏ BÖLGƏSİNDƏ OLMUŞLAR 385
BAKIDA "İSLAM DİNİNİN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ROLU" MÖVZUSUNDA YAY MƏKTƏBİ AÇILMIŞDIR 387
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN YARADILMASININ 10-CU İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 388
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ KATİBİ CANNİ BUKİKKİONU QƏBUL ETMİŞDİR 389
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 389
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI "AZƏRBAYCAN DÜNYADA" SAYTINI TƏQDİM EDİR 390

AZƏRBAYCANIN BAŞ NAZİRİ İORDANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 390
"İSLAM DİNİNİN MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ ROLU" MÖVZUSUNDA YAY MƏKTƏBİ BAŞA ÇATMIŞDIR 390
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 391
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 391
BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN TÜRKİYƏ HİSSƏSİNİN TƏMƏLİNİN QOYULMASINA HƏSR EDİLMİŞ MƏRASİM 391
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 394
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ 397
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜ ZİYARƏT 398
AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İLƏ TANIŞLIQ 399
AZƏRBAYCAN PREZİDENTİ QARS QAFQAZ UNİVERSİTETİNDƏKİ HEYDƏR ƏLİYEV TƏDRİS MƏRKƏZİNDƏ OLMUŞDUR 399
DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ HEYKİ TALVİTİYENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 400
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ ELÇİSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 400
MOSKVADA AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞLƏRİ KEÇİRİLMİŞDİR 400
"AZƏRBAYCANLILAR VƏ AMERİKALILAR: BİR-BİRİMİZİ NECƏ GÖRÜRÜK" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEYVİD HARRİSİ QƏBUL ETMİŞDİR 402
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİ PREZİDENT SEÇKİLƏRİNİ İZLƏMƏK ÜÇÜN ATƏT, AVROPA ŞURASI VƏ MDB-DƏN MÜŞAHİDƏÇİLƏR DƏVƏT ETMİŞDİR 402
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN "THYSSEN KRUPP" ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ EKKERHARD ŞULTSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 402
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MALİYYƏ KORPORASİYASININ RƏHBƏRİ LARS TUNELLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 403

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR 403
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 403
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ 403
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 404
MƏTBUAT ÜÇÜN BƏYANATLAR 405
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 405
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 407
SƏFƏR BAŞA ÇATDI 408
RUMINİYANIN PREZİDENTİ TRAYAN BESESKUNUN BAKIYA SƏFƏRİ 408
AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN İŞÇİ SƏHƏR YEMƏYİ 408
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 409
MƏTBUAT ÜÇÜN BƏYANATLAR 409
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 410
RUMINİYANIN PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI 411
SƏFƏR BAŞA ÇATDI 413
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN ÜZVÜ RİÇARD LUQARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 413
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏRBİ AVROPA İTTİFAQI PARLAMENT ASSAMBLEYASININ FƏXRİ SƏDRİ STEFAN QORİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 413
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYA XARİCİ KƏŞFİYYAT XİDMƏTİNİN DİREKTORU MİXAY REZVAN UNQUREANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 414
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ ƏFQANISTANDA SƏFƏRDƏ OLMUŞDUR 414
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ANKARADA SƏFƏRDƏ OLMUŞDUR ... 416
AZƏRBAYCANIN VƏ TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ANKARADA MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 416
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ QORAN LENNMARKERİ QƏBUL ETMİŞDİR 417
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA VƏ SAKİT OKEAN ÖLKƏLƏRİ XƏBƏR AGENTLİKLƏRİ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN BAKIDA KEÇİRİLƏN 30-CU İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR ... 417
ABŞ-IN VİTSE-PREZİDENTİ DİK ÇEYNİ BAKIYA GƏLMİŞDİR 424

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ABŞ-IN VİTSE-PREZİDENTİ DİK ÇEYNİNİN GÖRÜŞÜ 424
RƏSMİ BAKI REGİONDA TEZLİKLƏ SABİTLİYİN TƏMİN OLUNMASINA ÇALIŞIR 427
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 427
BAKIDA "XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA" KONVENSİYANIN RAZILAŞDIRILMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN İCLASI KEÇİRİLİRMİŞDİR 428
XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU HAQQINDA KONVENSİYANIN LAYİHƏSİ ÜZRƏ İŞÇİ QRUPUN 23-CÜ İCLASININ YEKUNLARINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI 428
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİ QƏBUL ETMİŞDİR 429
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN MİLLİ ASSAMBLEYASININ SƏDRİ XANIM KATALİN SİLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 429
MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR 430
NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ 430
AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN İCLASI KEÇİRİLMİŞDİR 431
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ENERGETİKA VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏRİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ BOYDEN QREYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ BAŞÇISI BORİS FRLESİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 433
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 433
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ 433
MƏTBUAT ÜÇÜN BƏYANATLAR 433
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 434
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI 435

TÜRKİYƏ PREZİDENTİNİN ŞƏRƏFİNƏ ... 436
SƏFƏR BAŞA ÇATDI ... 436
ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ... 437
RƏSMİ QARŞILANMA MƏRASİMİ ... 437
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ ... 437
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ ... 438
İKİTƏRƏFLİ SƏNƏDLƏRİN İMZALANMASI ... 439
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOV MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR ... 440
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 440
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN BƏYANATI ... 442
ALİ QONAĞIN ŞƏRƏFİNƏ ... 443
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ ... 443
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN NİTQİ ... 445
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ ... 448
BAKIDA BÖYÜK ÖZBƏK ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ ƏLİŞİR NƏVAİNİN ABİDƏSİ AÇILMIŞDIR ... 449
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI ... 449
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN ÇIXIŞI ... 450
QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNDƏ GÖRÜŞ ... 453
SƏFƏR BAŞA ÇATDI ... 453
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR ... 453
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİNİ QƏBUL ETMİŞDİR ... 453
ÇİN XALQ RESPUBLİKASI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR ... 454
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ ... 455
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ ... 455
DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI ... 456
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN BƏYANATI ... 456
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI ... 457
AZƏRBAYCAN PREZİDENTİNİN RUSİYA HÖKUMƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞÜ ... 459
SƏFƏR BAŞA ÇATDI ... 461

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN AZƏRBAYCANDA PREZİDENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ BAŞÇISI ANDRES HERKELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 461
BRÜSSELDƏ AZƏRBAYCANIN NATO İLƏ ƏMƏKDAŞLIĞI ÜZRƏ FƏRDİ TƏRƏFDAŞLIĞIN ƏMƏLİYYAT PLANININ YERİNƏ YETİRİLMƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR GÖRÜŞ KEÇİRİLMİŞDİR ... 461
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ, ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR ... 462
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR ... 462
BÖYÜK BRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCANIN REGİONDA ROLUNU YÜKSƏK QİYMƏTLƏNDİRMİŞDİR ... 463
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV LONDONDA BÖYÜK BRİTANİYANIN CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR ... 464
TÜRKİYƏ VƏ AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR ... 464
ELMAR MƏMMƏDYAROV XORVATİYANIN XARİCİ İŞLƏR NAZİRİ QORDON YANDROKOVİÇ İLƏ GÖRÜŞMÜŞDÜR ... 464
NYU-YORKDA GUAM XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR ... 465
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİ MEHMET ƏLİ ŞAHİNİ QƏBUL ETMİŞDİR ... 466
NYU-YORKDA GUAM+ABŞ BİRGƏ BƏYANATI QƏBUL EDİLMİŞDİR ... 467
AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR ... 467
NYU-YORKDA AZƏRBAYCAN, TÜRKİYƏ VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR ... 468
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA ABŞ-IN DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR ... 468
XARİCİ İŞLƏR NAZİRİ BMT BAŞ MƏCLİSİNİN 63-CÜ İCLASINDA ÇIXIŞ ETMİŞDİR ... 469
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV NYU-YORKDA TÜRKMƏNİSTANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR ... 471
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ CON NEQROPONTENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR ... 471

ERMƏNİSTANIN TƏCAVÜZKAR SİYASƏTİ BÜTÜN REGİONUN İNKİŞAFINA ZƏRBƏ VURUR 471

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 472

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİNİN ALİ TƏHSİL VƏ ELM NAZİRLƏRİNİN BAKIDA KEÇİRİLƏN IV KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 472

QAMBİYA AZƏRBAYCAN İLƏ MÜXTƏLİF SAHƏLƏRDƏ ƏLAQƏLƏRİN QURULMASINDA MARAQLIDIR 475

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİNLANDİYANIN XARİCİ TİCARƏT VƏ İNKİŞAF NAZİRİ PAAVO VYAYRYUNENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 475

BİŞKEKDƏ MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 476

BİŞKEKDƏ MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 476

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ VLADİSLAV STASİAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 477

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ ƏMƏKDAŞLARI İNDONEZİYA XİN TƏHSİL VƏ TƏLİM MƏRKƏZİNDƏ MÜHAZİRƏLƏRLƏ ÇIXIŞ ETMİŞLƏR 477

AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARINDA VAKANT DİPLOMATİK VƏZİFƏLƏRİNİN TUTULMASI ÜÇÜN MÜSABİQƏ ELAN EDİLMİŞDİR 478

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN RƏHBƏRİ YANEZ LENARÇİÇİ QƏBUL ETMİŞDİR 479

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ-İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR 479

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ ƏHƏD QƏZAİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 479

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN BİZNES İCRAÇILARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 480

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 480

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 480

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ CƏMİL ÇİÇƏYİ QƏBUL ETMİŞDİR 481

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ PYOTR KOVANSKİNİ QƏBUL ETMİŞDİR 481

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSU QƏBUL ETMİŞDİR 482

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR 482

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN TİCARƏT NAZİRİNİN MÜAVİNİ CON SALLİVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 482

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ 483

AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ 483

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ 483

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİ BƏYANNAMƏ İMZALAMIŞLAR 483

AZƏRBAYCAN RESPUBLİKASININ, ERMƏNİSTAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ BƏYANNAMƏSİ 484

SƏFƏR BAŞA ÇATDI 484

XARİCİ İŞLƏR NAZİRLİYİNİN NAXÇIVANDAKI İDARƏSİNİN RƏSMİ İNTERNET SƏHİFƏSİ YARADILMIŞDIR 485

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ RƏSMİ SƏFƏRİ 485

ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA 485

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ 486

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 486

DÖVLƏT BAŞÇILARI BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 486

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN BƏYANATI 486

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 488

AZƏRBAYACAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ ALİM-HƏKİM İHSAN DOĞRAMACIYA BAŞ ÇƏKMİŞDİR 489

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 489

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ 490

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 491

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ OLMUŞDUR 493

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 493

ANKARADA HEYDƏR ƏLİYEV KÜÇƏSİNİN AÇILIŞI OLMUŞDUR 498

PREZİDENT İLHAM ƏLİYEV ANKARADA HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞ OLMUŞDUR 499

ANKARADA HEYDƏR ƏLİYEV ADINA İBTİDAİ MƏKTƏBLƏ TANIŞLIQ 499

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 500

SƏFƏR BAŞA ÇATDI 500

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ İLKƏR BAŞBUĞUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 501

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR 501

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKUTEL-2008 XIV AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ÖLKƏMİZDƏ SƏFƏRDƏ OLAN DÜNYA ŞÖHRƏTLİ ALİM, HƏMYERLİMİZ LÜTFİ ZADƏNİ QƏBUL ETMİŞDİR 502

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYA PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ KRİSTİNA OYULANDI QƏBUL ETMİŞDİR 502

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ KONQRESİNİN SENATORU BOB KORKERİ QƏBUL ETMİŞDİR 503

ÇİN VƏ ONUN AYRI-AYRI ƏYALƏTLƏRİ SÜRƏTLƏ İNKİŞAF EDƏN AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIRLAR 503

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ CƏRRAH, GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM CAVAD HEYƏTİ QƏBUL ETMİŞDİR 504

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 504

XARİCİ İŞLƏR NAZİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞMÜŞDÜR 504

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 505

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNANISTANIN İNKİŞAF NAZİRİ XRİSTOS FOLİASI QƏBUL ETMİŞDİR 505

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN BAŞ NAZİRİ ANDRUS ANSİPİ QƏBUL ETMİŞDİR 505

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 506

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN GÖRÜŞÜ 506

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 506

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR 507

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 508

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ 508

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN BAŞ NAZİRİ FERENTS DYURÇANI QƏBUL ETMİŞDİR 508

BAKIDA IV ENERJİ SAMMİTİ KEÇİRİLMİŞDİR 509

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ 509

BAKI ENERJİ SAMMİTİNDƏ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ, NÜMAYƏNDƏ HEYƏTLƏRİ RƏHBƏRLƏRİNİN ÇIXIŞLARI 511

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ 525

BAKI ENERJİ SAMMİTİNİN BƏYANNAMƏSİ 528

RUMİNİYA AZƏRBAYCANI VACİB TƏRƏFDAŞ VƏ SABİT ENERJİ TƏCHİZATÇISI KİMİ DƏYƏRLƏNDİRİR 529

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 530

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇİN MƏŞĞULLUQ NAZİRİ SVEN OTTO LİTTORİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 530

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DEVİD KRAMERİ QƏBUL ETMİŞDİR 531

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ VİTSE-PREZİDENTİ ŞİGEO KATSUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 531

XARİCİ İŞLƏR NAZİRİ YUNANISTANIN XİN-DƏ YARADILMIŞ XÜSUSİ İŞÇİ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜSDÜR 532

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 532

MİLLİ MƏCLİSİN SƏDRİ YUNANISTANIN ATƏT-DƏKİ DAİMİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 533

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASİYA İNKİŞAF BANKININ PREZİDENTİ HARUHİKO KURODANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 534

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AZƏRBAYCAN XXI ƏSRDƏ - UĞURUN STRATEGİYASI" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ "DƏYİRMİ MASA"NIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 534

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 535

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ ABŞ-IN İSLAM KONFRANSI TƏŞKİLATINDAKI XÜSUSİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 536

İSTANBULDA TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ I KONFRANSI KEÇİRİLMİŞDİR 536

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 538

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN BEYNƏLXALQ İNKİŞAF AGENTLİYİNİN (USAİD) ADMİNİSTRATORU VƏ ABŞ-IN XARİCİ YARDIMLAR ÜZRƏ DİREKTORU HENRİETTA FORUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 538

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA GÖRKƏMLİ AZƏRBAYCAN RƏSSAMI TAHİR SALAHOV İLƏ GÖRÜŞMÜŞDÜR 538

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ AYRILAN BÜDCƏ VƏSAİTİ ARTIRILMIŞDIR 539

BAKIDA AZƏRBAYCAN-LİVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İLK İCLASI BAŞLANMIŞDIR 539

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYAYA RƏSMİ SƏFƏRİ 539

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYANIN "EDİSON" ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ 540

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RAİ İNTERNATİONAL" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR 540

NAZİRLƏR ŞURASININ BİNASI ÖNÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ 540

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ SİLVİO BERLUSKONİNİN GÖRÜŞÜ 541

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İTALİYA PARLAMENTİNİN DEPUTATLAR PALATASININ SƏDRİ CANFRANKO FİNİ İLƏ GÖRÜŞÜ 541

SƏFƏR BAŞA ÇATDI 541

BAKIDA AZƏRBAYCAN-LİVİYA HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İLK İCLASI BAŞLANMIŞDIR 542

AZƏRBAYCAN İLƏ LİVİYA ARASINDA QARŞILIQLI ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR 542

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ RƏSSAM TAHİR SALAHOVA "HEYDƏR ƏLİYEV" ORDENİNİ TƏQDİM ETMİŞDİR 542

XARİCİ İŞLƏR NAZİRİ LİVİYANIN XARİCİ SİYASƏT İDARƏSİNİN RƏHBƏRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 543

AZƏRBAYCAN XƏZƏR DƏNİZİNDƏ TƏHLÜKƏSİZLİYƏ DAİR SƏNƏD LAYİHƏSİNİ SAHİLYANI ÖLKƏLƏRƏ TƏQDİM ETMİŞDİR 544

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTANA RƏSMİ SƏFƏRİ 544

RƏSMİ QARŞILANMA MƏRASİMİ 545

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 545

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 545

SƏNƏDLƏRİN İMZALANMASI 549

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 550

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI 550

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 551

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTAN MƏCLİSİNİN SƏDRİ AKCA NURBERDİYEVA İLƏ GÖRÜŞÜ 553

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ MƏXDUMQULU ADINA TÜRKMƏNİSTAN DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADI VERİLMİŞDİR 553

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 555

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 558

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN NİTQİ 559

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 560

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNBAŞI ŞƏHƏRİNƏ GƏLMİŞDİR 561

AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ 561

SƏFƏR BAŞA ÇATDI 562

AZƏRBAYCANIN DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARININ KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ İKİNCİ MÜŞAVİRƏSİ ÖZ İŞİNƏ BAŞLAMIŞDIR 562

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏLİ BABACANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 563

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏFQANISTAN MİLLİ ASSAMBLEYASININ SƏDRİ MƏHƏMMƏD YUNİS QANUNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 563

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİ QƏBUL ETMİŞDİR 564

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TATARISTAN DÖVLƏT ŞURASININ SƏDRİ FARİD MUXAMETŞİNİ QƏBUL ETMİŞDİR 564

BAKIDA AVROPA ŞURASININ ÜZVÜ OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN "MƏDƏNİYYƏTLƏRARASI DİALOQ AVROPA VƏ ONUN QONŞU REGİONLARINDA DAVAMLI İNKİŞAFIN VƏ SÜLHÜN ƏSASIDIR" MÖVZUSUNDA KONFRANSI KEÇİRİLİR 564

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 566

AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİSİN ÇIXIŞI 570

AZƏRBAYCANIN DİPLOMATİK NÜMAYƏNDƏLİK VƏ KONSULLUQLARININ KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ İKİNCİ MÜŞAVİRƏSİ BAŞA ÇATMIŞDIR 573

AZƏRBAYCANIN QARSDAKI BAŞ KONSULLUĞUNUN YENİ BİNASI İSTİFADƏYƏ VERİLMİŞDİR 573

TBİLİSİDƏ AZƏRBAYCAN-GÜRCÜSTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN İCLASI KEÇİRİLMİŞDİR 574

ELMAR MƏMMƏDYAROV ATƏT-İN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASINDA ÇIXIŞ ETMİŞDİR 575

NATO-YA ÜZV DÖVLƏTLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏVİYYƏSİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞÜN NƏTİCƏSİ OLARAQ YEKUN RƏSMİ SƏNƏD QƏBUL OLUNMUŞDUR 576

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MAHMUD MƏMMƏDQULİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİN CENEVRƏYƏ SƏFƏRİ UĞURLU OLMUŞDUR 577

GƏLƏN İL AZƏRBAYCANIN BİR SIRA ÖLKƏLƏRDƏ DİPLOMATİK KORPUS VƏ NÜMAYƏNDƏLİKLƏRİ AÇILACAQDIR 577

BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ 9-CU İCLASI KEÇİRİLMİŞDİR 578

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR 578

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 578

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV ÇEXİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 579

ELMAR MƏMMƏDYAROV NATO BAŞ KATİBİNİN MÜAVİNİ KLAUDİO BİZONYERO İLƏ GÖRÜŞMÜŞDÜR 580

ELMAR MƏMMƏDYAROV ƏFQANISTANIN XARİCİ İŞLƏR NAZİRİ RANQİN DADFAR SPANTA İLƏ GÖRÜŞMÜŞDÜR 580

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ƏLAQƏLƏR UĞURLA İNKİŞAF EDİR 580

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR 581

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAH RƏİSİNİN MÜAVİNİ, ORDU GENERALI HASAN İĞSIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 581

MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA ARASINDA MÜNASİBƏTLƏRİN HAZIRKI VƏZİYYƏTİNƏ VƏ ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİNƏ DAİR MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 582

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİ QƏBUL ETMİŞDİR 582

ASTANADA XƏZƏRİN STATUSUNA DAİR KONVENSİYANIN HAZIRLANMASI ÜZRƏ XÜSUSİ İŞÇİ QRUPUNUN 24-CÜ İCLASI KEÇİRİLİR 582

ATƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ HELSİNKİDƏ KEÇİRİLMİŞ İCLASINDA ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI QƏBUL EDİLMİŞ BİRGƏ BƏYANAT 583

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA YÖNƏLMİŞ XARİCİ SİYASƏT XƏTTİ ÖTƏN İL DƏ UĞURLA DAVAM ETDİRİLMİŞDİR 585

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI 590

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 591

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2008-Cİ İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 598

MÜNDƏRİCAT 621

T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir	: 03.02.2009
Çapa imzalanmışdır	: 17.02.2009
Format	: 70x100 1/16
Fiziki ç.v.	: 42
(Rəngli şəkillər)	: 1
Tirajı	: 500